Dövlətimizin siyasəti odur ki, İran İslam Cümhuriyyəti Azərbaycanın dostu, qardaşıdır. Bu ölkə ilə bizim dostluğumuz, qardaşlığımız daimidir və bunu inkişaf etdirəcəyik.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ

Altı cilddə

İRAN İSLAM RESPUBLİKASI

Dördüncü kitab

1156

Azərbaycan Respublikası Prezidentinin
İ[illegible]əsinin
KİT[illegible]NASI

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08.12.2004-cü il tarixli 898 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

ÇAŞIOĞLU
2005

66.3(5Azə)
Ə 64

AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ƏZİZ VƏ NURLU XATİRƏSİNƏ İTHAF OLUNUR

Müəllif - tərtibçilər: ***Qaley Allahverdiyev***
XİN-in müşaviri,
filologiya elmləri doktoru

Vəhdət Sultanzadə
XİN-in müşaviri

Məsləhətçi-rəyçi: ***Novruz Məmmədov***
Azərbaycan Respublikası Prezidenti
Aparatının şöbə müdiri,
Fövqəladə və Səlahiyyətli Səfir

Redaktoru: ***Mübariz Qurbanlı***
Milli Məclisin deputatı,
tarix elmləri namizədi, dosent

"TEKFEN HOLDİNQ"*in qurucu rəhbərləri* ***Nihat Gökyiqitə, Necati Akçağlılara, Feyyaz Berkerə,*** *prezidenti* ***Erhan Önerə*** *və Azərbaycandakı təmsilçisi* ***Bataçar Baysala*** *"Heydər Əliyev və Şərq" kitabının I-V cildlərinin çapa hazırlanmasında göstərdikləri əvəzsiz köməklik üçün dərin minnətdarlığımızı bildiririk.*

Müəlliflər

H 0803010100-984
082-05

© "Çaşıoğlu" nəşriyyatı, 2003
© "Çaşıoğlu" nəşriyyatı, 2005

Allahın adı ilə!

Azərbaycan Respublikasının iki təcrübəli siyasətçisinin əməyi, İran İslam Respublikasmın Səfirliyinin və Azərbaycan Respubiikası XİN-nin yardımı ilə capa hazırlanan bu kitabda iki ölkə rəsmilərinin son onillikdəki səylərinin nəticəsi olan İran İslam Respublikası - Azərbaycan Respublikası əlaqələrinin dinamik inkişafına baxış öz əksini tapmışdır.

İranın Xarici İşlər Nazirliyi ölkənin dövlət siyasətinə uyğun olaraq ikitərəfli əməkdaşlığı, dinc yanaşı yaşayışı, dost və qonşu ölkələrin - xüsusilə də musəlman ölkələrinin ərazi butövluyunun qorunmasını öz xarici siyasət kursunun önəmli məqsədinə çevirdiyinə görə, bütün sahələrdə bu ölkələrlə qarşılıqlı munasibətlərin inkişafını alqışlayır.

Mən bu kitabın hazırlanmasında zəhməti olanların hamısına uğurlar arzulamaqla yanaşı, ortaq mədəni, etnik və tarixi köklərə malik xalqlarımıza, dost, qonşu və musəlman olan ölkələrimizə - İran İslam Respublikası və Azərbaycan Respublikasına aralarındakı munasibətlərin daha da inkişaf etməsini və genişlənməsini Ulu Tanrıdan diləyirəm.

D-r Seyid Kamal Xərrazi
İran İslam Respublikasmın
Xarici İşlər Naziri

بسمه تعالی

اشاره :

کتاب حاضر که به همت دوتن از پیش کسوتان سیاسی کشور جمهوری آذربایجان و با همیاری سفارت جمهوری اسلامی ایران و وزارت امور خارجه جمهوری آذربایجان تدوین یافته است نگاهی دارد به سیر تطور مناسبات جمهوری اسلامی ایران با جمهوری آذربایجان در دهه اخیر که حاصل تلاش مقامات دو کشور را ترسیم می کند

وزارت امور خارجه در راستای سیاست دولت جمهوری اسلامی ایران همکاریهای دوجانبه و هم زیستی مسالمت آمیز و حمایت از کیان تمامیت ارضی کشورهای دوست و همسایه بویژه مسلمان را در صدر برنامه های سیاست خارجی خود قرار داده و بر همین اساس از توسعه مناسبات فی ما بین با این کشورها در همه زمینه ها استقبال می کند .

اینجانب ضمن آرزوی توفیق به دست اندرکاران مجموعه حاضر، گسترش هرچه بیشتر مناسبات دو کشور دوست ، همسایه ، مسلمان جمهوری اسلامی ایران و جمهوری آذربایجان را که ملت آن دو ریشه در تاریخ قومیت مشترک فرهنگی دارند از خداوند منان خواهانم .

دکتر سید کمال خرازی
وزیر امور خارجه
جمهوری اسلامی ایران

PLANETAR MİQYASLI SİYASƏTÇİ

Qədim və zəngin mədəniyyətə, dövlətçilik ənənələrinə malik olan Azərbaycan XX əsrin əvvəllərində bütün Şərqdə ilk demokratik respublika Quran və yüzilliyin sonlarında isə ölüm hökmünü ləğv edən dövlətdir. Babalarımızın bizə miras qoyub getdiyi maddi və mənəvi sərvətlər, keçdiyi şərəfli tarixi yol hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Sözün əsl mənasında biz fəxr edirik ki, Azərbaycan bu gün müstəqil siyasəti ilə dünya dövlətləri arasında özünə layiq yer tutmuş, etimad, nüfuz qazanmışdır və böyük lideri Prezident Heydər Əliyevin başçılığı ilə dönmədən demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu davam etdirməkdə və suverenliyi möhkəmləndirməkdədir.

Azərbaycanın yaxın və böyük qonşusu İran İslam Respublikası ilə əlaqələrinin tarixi çox qədimdir. Xalqlarımızı bir-birinə kökü tarixin dərinliklərinə gedən siyasi, iqtisadi, mədəni, dini və mənəvi əlaqələr bağlayır. Mühüm coğrafi bölgədə yerləşməyimiz, tarixi bağlılığımız və qonşuluğumuz İran - Azərbaycan münasibətlərini həddindən artıq perspektivli edir. Elə buna görə də ölkələrimiz arasındakı ikitərəfli münasibətlər, onların inkişafı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici siyasət doktrinasında əhəmiyyətli yer tutur, əsas istiqamətlərdən birini təşkil edir. Bu baxımdan Prezidentin müxtəlif vaxtlarda İİR-ə rəsmi səfərləri və apardığı danışıqlar, bu səfərlər zamanı imzalanmış sənədlər dövlətlərimiz arasında mövcud məsələlərin həllinə təkan verərək ikitərəfli münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. İranla münasibətlərin yenidən qurulması və istiləşməsi, əməkdaşlığın genişlənməsi Prezident Heydər Əliyevin xarici siyasət xəttinin düzgün, etibarlı və gələcəyə yönəlmiş olduğunu bir daha nümayiş etdirdi.

Bu baxımdan Azərbaycanın Prezidenti Heydər Əliyevin 2002-ci ilin may ayında İİR-ə səfərinin xüsusi əhəmiyyəti vardır. Səfər zamanı imzalanmış çoxsaylı sənədlər içərisində "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqaviləni xüsusi qeyd etmək lazımdır. Dövlət başçıları tərəfindən ilk dəfə ikitərəfli münasibətlərimiz tarixində imzalanan bu müqavilə beynəlxalq hüquq norma və prinsiplərini özündə ehtiva edən mühüm sənəddir.

Təsadüfi deyildir ki, Sovet İttifaqının süqutundan sonra öz dövlət suverenliyini bərpa edən Azərbaycanın xarici siyasət doktrinasında İran ən önəmli yerlərdən birini tutdu və cənab Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu proses daha da gücləndi, sistemli bir hala düşdü. Uzun tarixi dövr ərzində formalaşmış iqtisadi ənənələr, milli mentalitet və mövcud gerçəkliklər nəzərə alınaraq Şərq və müsəlman ölkələri, ilk növbədə isə Türkiyə və İran kimi qonşu ölkələrlə sıx dostluq münasibətləri quruldu. Bu proses Prezident Heydər Əliyevin xarici siyasət doktrinasının özülünə, əsas prinsipinə çevrildi. Heydər Əliyev ölkəmizin rəhbəri seçilərək insanların qəlbində müstəqilliyimizin əbədiliyinə möhkəm inam yaratdı, vətəndaş müharibəsinin qarşısını qətiyyətlə aldı, inkişaf və tərəqqi üçün başlıca faktor olan sabitliyi bərqərar etdi. Prezidentimizin çox incə, maksimum tarazlaşdırılmış xarici siyasəti nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə olundu. Bütün bunlar dünyanın siyasət səhnəsində Azərbaycana olan inamın dərinləşməsinə köklü surətdə təsir göstərdi. Nəticələr tezliklə özünü biruzə verdi. Həmin ildə Azərbaycanın neft yataqlarının işlənməsi üzrə dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Beləliklə, Heydər Əliyev döyüşən, qeyri-sabit ölkənin prezidentindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğu yolunda irəliləyən bir dövlətin qarantına çevrildi. Onun xarici siyasətinin uğurları, xüsusilə də bu siyasətin Şərq regionunda qazandığı müvəffəqiyyət 1994-cü ildə Kasablanka şəhərində çağrılan İslam Konfransı Təşkilatının sammitində öz əksini tapdı. Bu sammitdə ilk dəfə olaraq Dağlıq Qarabağ münaqişəsində Ermənistan təcavüzkar ölkə kimi tanındı. 1996-cı ildə ATƏT-in Lissabon sammitində isə ErmənistanAzərbaycan, Dağlıq Qarabaq münaqişəsinin həlli istiqamətində Azərbaycan Prezidenti tərəfindən təqdim edilmiş prinsiplərə beynəlxalq dəstək nümayiş etdirildi.

Prezident Heydər Əliyevin titanik səyləri nəticəsində ölkə daxilində siyasi sabitlik bərqərar oldu, çox mühüm və önəmli olan beynəlxalq münasibətlər sahəsində sürətli irəliləyişlər əldə olundu. Bunlar Azərbaycana keçmiş ittifaq respublikaları arasında iqtisadiyyata xarici sərmayə qoyuluşunun həcminə görə birinci yerə çıxmağa, "İrək yolu" - TRASEKA - kimi çox mühüm və önəmli olan nəqliyyat layihəsinin mərkəzinə çevrilməyə imkan verdi. İranla münasibətdə gərginliyin aradan qaldırılması, mehriban qonşuluq, dostluq və səmərəli əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli əməkdaşlıq sahəsində Türkiyə ilə qardaşlıq və qarşılıqlı faydalı münasibətlərin saxlanması və inkişaf etdirilməsi, ərəb dövlətləri ilə Azərbaycanın milli maraqlarını təmin edən səmərəli, çoxşaxəli münasibətlər sisteminin yaradılması, ən nəhayət ümumbəşəri bəlaya çevrilmiş beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ, Rusiya və qeyri dövlətlərlə ölkəmizin bir sırada dayan-

ması Prezidentimizin bu dövrdə yorulmadan apardığı dərin, hərtərəfli və düşünülmüş xarici siyasətinin bəhrəsidir.

Azərbaycan - İran münasibətlərinin ilk dövrlərdəki donmuş vəziyyətdən çıxaraq inkişaf etməsi, bir çox ağır sınaqlardan keçərək indiki intensiv hala gəlməsi, əsl qonşuluq, əməkdaşlıq və dostluq əlaqələrinə çevrilməsi də bu siyasətin bəhrələrindəndir.

"Heydər Əliyev və Şərq" silsiləsindən olan və oxucuların mühakiməsinə verilən bu II kitabda dövlətimizin başçısı, möhtərəm Prezidentimiz Heydər Əliyevin rəhbərliyilə Azərbaycan Respublikasının İran İslam Respublikası ilə bağlı apardığı xarici siyasətin əsas aspektləri, onun keçdiyi yol, əldə edilmiş nailiyyətlər nəzərdən keçirilmiş, bu siyasətin uğurları araşdırılmış, Heydər Əliyev siyasətində İranın yeri və rolu açıqlanmış, prezidentimizin bu ölkə haqqında dediyi hər bir söz, verdiyi hər bir müsahibə, söylədiyi bütün nitqlər və çıxışlar bir yerə toplanmış, müvafiq professional ədəbiyyat, diplomatik sənədlər və dövrü mətbuat materialları geniş və sistemli şəkildə təhlil edilmiş, əlaqələrimizin keçdiyi enişli-yoxuşlu yolları izlənilmiş, əldə edilən nailiyyət və irəliləyişlər bariz şəkildə nümayiş etdirilmişdir.

Bu kitab Respublika Prezidenti Heydər Əliyevin İran İslam Respubilkasına münasibətdə düzgün seçilmiş, milli maraqlara cavab verən siyasətinin uzaqgörənliyini bir daha təsdiqləyir. Kitabda Prezident Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlətçilik prinsiplərinin qorunub saxlanılması üçün gələcəkdə hansı addımların atılmasının vacibliyi vurğulanmışdır.

"Heydər Əliyev və Şərq" kitabının II cildi Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında təşəkkül tapmış mehriban qonşuluq, dostluq və qarşılıqlı surətdə səmərəli əməkdaşlıq münasibətləri sisteminin siyasi, iqtisadi, ictimai-mədəni sahələrini özündə əks etdirən ensiklopedik bilgilər toplusudur.

Bu kitab Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yorulmaz fəaliyyətində Azərbaycanın beynəlxalq statusunun möhkəmləndirilməsi konsepsiyasının fundamental əhəmiyyət kəsb etdiyini, bu konsepsiyanın mühüm tərkib hissələrindən birinin də Şərq siyasəti olduğunu və konkret olaraq İran İslam Respublikası kimi qonşu və dost olan bir ölkə ilə əlaqələrimizin günü-gündən daha da inkişaf etdirilməsinin vacibliyini bir daha parlaq şəkildə nümayiş etdirir.

Novruz Məmmədov

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici Əlaqələr Şöbəsinin müdiri, Fövqəladə və Səlahiyyətli Səfir

BÜTÜN VARLIĞIN YARADICISININ ADI İLƏ

Siyasi düşüncə praktikasında ölkələrin ictimai, mədəni, iqtisadi, siyasi və hərbi mövqeyinin öyrənilməsi, onların arasındakı qarşılıqlı münasibət forması, xüsusilə də tarixi-mədəni əlaqələri ortaq xalqlar barədə obyektiv məlumat həmin ölkə ilə bağlı əsaslı siyasətin bazisini formalaşdıracaq dərəcədə əhəmiyyət kəsb edir.

756 km-lik müştərək sərhədi və bir əsrə yaxın konsulluq əlaqələri olan İran İslam Respublikası və Azərbaycan Respublikası birgə tarixi olan, mədəni və etnik köklərlə bir-birinə bağlanmış qonşu ölkələrdəndir. 94 faizlik müsəlman əhalisinin 81 faizini şiələrin təşkil etdiyi Azərbaycan Respublikası keçmiş 70 illik hakimiyyətə rəğmən özünün islami-mədəni mentalitetini, şiə məzhəbini qoruyub saxlaya bilmiş və İran İslam Respublikasından sonra dünyanın ikinci şiə ölkəsidir.

Azərbaycan Respublikası tamamilə müstəqilliyə qovuşduqdan sonra İran İslam Respublikası müxtəlif sahələrdə hərtərəfli yardımlarını genişləndirmişdir. Qarabağ münaqişəsində Azərbaycan Respublikasının müsəlman xalqına İranın istər silah yardımları, Azərbaycan torpaqlarını erməni təcavüzkarlarından qorumaq məqsədilə azərbaycanlı əsgərlərə hərbi təlim keçilməsi, İranın müxtəlif orqanlarının, xüsusilə də Qızıl Aypara Cəmiyyətinin Azərbaycan Respublikasının cənub bölgələrində 8 qaçqın düşərgəsinin salınması çərçivəsində Qarabağ müharibəsi qaçqınlarına yardımları, Naxçıvan MR ilə əlaqə yaradılması üçün yük və minik maşınlarına şosse yolu və dəhlizin ayrılması, Qarabağın müharibə bölgələrinə yardımların çatdırılması məqsədi ilə Azərbaycanın hərbi və sərnişin təyyarələrinə hava koridorunun verilməsi, Naxçıvan MR-ə elektrik enerjisinin nəqli, istərsə də İmam Xomeyni (r.ə.) İmdad Komitəsi kimi qurumların xətti ilə bu günə kimi Azərbaycan Respublikası və Naxçıvan MR-da müharibədən zərər çəkmiş azəri soydaşlarımıza davam etdirilən humanitar və digər yardımlar belə tədbirlərdəndir. Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən dərhal sonra İran İslam Respublikası Bakıda diplomatik nümayəndəliyini açmaqla, bu ölkəni bütün dünya və beynəlxalq qurumlarda (BMT və s.) müstəqil dövlət kimi tanımış, Azərbaycan Respublikasının ərazi bütövlüyünə davamlı və qəti səs verməklə, uzun illər ərzində həmişə Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini, erməni təcavüzkarları tərəfindən işğal

olunmuş Azərbaycan torpaqlarının azad olunmasının zəruriliyini müdafiə etmişdir. 1993-cü ildə Zati-alileri Heydər Əliyevin Azərbaycan Prezidenti kimi hakimiyyətə gəlişindən sonra onun qonşu ölkələrlə, xüsusilə də İran İslam Respublikası ilə əlaqələrin səviyyəsinin yüksəldilməsinə olan qətiyyəti sayəsində ölkələrimizin işbirliyi istər qarşılıqlı əlaqələr və istərsə də İKT, İƏT çərçivəsində regional əməkdaşlıq kontekstində daha sürətlə artırmağa başlamışdır və bu proses indi də davam etməkdədir. İran İslam Respublikası rəhbərliyi həmişə Azərbaycan Respublikasının İranla münasibətlərinin genişləndirilməsi siyasətini alqışlamışdır. İran İslam Respublikası Qarabağ böhranının meydana gəldiyi ilk günlərdən indiyə kimi həmişə ermənilərı təcavüzkar kimi pisləmiş, bu günə qədər də lazımi hallarda sülh danışıqları prosesində iştirak edərək öz azərbaycanlı qardaşları üçün heç nə əsirgəməyib və əsirgəməyəcəkdir. Keçən 11 il ərzində MDB ölkələrində gedən proseslərdə ölkə rəsmilərinin hərtərəfli əlaqələri, bütün səviyyələrdə nümayəndə heyətlərinin mübadiləsi, regional toplantılarda iştirak və Azərbaycan Respublikasının iqtisadi fəaliyyətinin genişləndirilməsi məqsədilə iranlıların bu ölkəyə investisiya qoyması, iki ölkə siyasətçilərinin münasibətlərimizin genişləndirilməsinə olan xoş məram və ciddi iradəsindən irəli gəlir. İran İslam Respublikasının Prezidenti cənab Xatəminin dəvəti ilə cənab Heydər Əliyevin və onun rəhbərlik etdiyi yüksək rütbəli siyasi, iqtsadi nümayəndə heyətinin Tehrana son rəsmi səfərinin nəticəsi kimi gömrük, kənd təsərrüfatı, heyvandarlıq, idman, hava və avtomobil yükdaşımaları, standartlaşdırma, qarşılıqlı investisiya qoyulmasının qorunması və təşviqi, səhiyyə və mədəniyyət sahələrində əməkdaşlığa aid 11 saziş və memorandumun imzalanması regional və beynəlxalq əməkdaşlığın ali məqsədlərinə çatmaq yolunda iki ölkə rəsmilərinin səylərinin bəhrəsidir.

Sonda fürsətdən istifadə edərək Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərindən, şərqşünas alimlərindən olan, bu kitabın hazırlanmasında böyük zəhmət çəkən, 1982-ci ildən onunla tanışlığı şərəf saydığım cənab Vəhdət Sultanzadə və cənab Qaley Allahverdiyevə təşəkkür və minnətdarlığımı bildirirəm.

Müsəlman xalqların uğuru və qələbəsi, dünyada sülhün, əmin-amanlığın hakimiyyəti və işğal olunmuş Azərbaycan torpaqlarının azadlığı arzusu ilə

Əhəd Qəzayi
İran İslam Respublikasının
Bakıdakı səfiri
May 2002

سفارت جمهوری اسلامی ایران

باکو

بسمه تعالی

اشاره

بنام آنکه همه هستی از اوست

در عرف اندیشه سیاسی، شناخت از موقعیتهای اجتماعی، فرهنگی، اقتصادی، سیاسی و نظامی کشورها و اطلاع از نحوه روابط متقابل آنها بویژه در مورد روابط تاریخی فرهنگی ملتهایی که با یکدیگر وجه اشتراک دارند به قدری حائز اهمیت است که زیربنای ساختار سیاست کلی کشور در قبال آن کشور را شکل میدهد.

جمهوری اسلامی ایران و جمهوری آذربایجان با مرز مشترک ۷۵۶ کیلومتر و ارتباط نمایندگی کنسولی نزدیک به یک قرن، از جمله کشورهای همسایه ای هستند که ریشه در تاریخ فرهنگ و قومیت مشترک دو ملت دارند. جمهوری آذربایجان با ۹۴ درصد مسلمان که ۸۱ درصد آن را شیعه تشکیل می دهد علیرغم ۷۰ سال حاکمیت گذشته همچنان هویت فرهنگ اسلامی خود را در مذهب تشیع حفظ کرده است و بعد از جمهوری اسلامی ایران دومین کشور مسلمان و شیعه در دنیا محسوب می گردد.

جمهوری اسلامی ایران پس از استقلال کامل جمهوری آذربایجان حمایت همه جانبه خود را در ابعاد مختلف گسترش داد که در این راستا کمکهای مستمر ایران به مردم مسلمان جمهوری آذربایجان در مناقشه قره باغ اعم از کمکهای تسلیحاتی و نظامی و ارائه آموزشهای نظامی به سربازان آذری به منظور دفاع از سرزمین آذربایجان در برابر ارامنه متجاوز، کمکهای ارگانهای مختلف ایرانی و بویژه هلال احمر جمهوری اسلامی ایران به آوارگان جنگ قره باغ در قالب احداث هشت اردوگاه چادری در مناطق مختلف جنوبی جمهوری آذربایجان ، ارائه معبر و راه زمینی به کامیونها و ماشین های آذری جهت ارتباط با جمهوری خودمختار نخجوان، اعطای کریدور هوایی به هواپیماهای مسافربری و نظامی آذری در راستای امداد رسانی به مناقشه قره باغ ، انتقال انرژی برق به نخجوان، ارائه سایر کمکهای مورد نیاز و بشردوستانه به هموطنان آذری آسیب دیده از جنگ، که تا به امروز هم در قالب ارگانهایی همچون کمیته امداد امام (ره) در سرتاسر جمهوری آذربایجان و نخجوان کماکان ادامه دارد از جمله این اقدامات می باشد.

جمهوری اسلامی ایران پس از استقلال جمهوری آذربایجان. بلافاصله با افتتاح نمایندگی سیاسی در باکو این جمهوری را بعنوان یک کشور مستقل در تمامی مجامع بین المللی و جهانی (اعم از سازمان ملل متحد و ...) به رسمیت شناخته و با رأی مستمر و قاطع خود مبنی بر به رسمیت شناختن تمامیت ارضی جمهوری آذربایجان همواره در طی سالیان از مواضع آذربایجان در قبال بحران قره باغ و ضرورت بازپس دادن سرزمینهای اشغال شده آذری توسط ارامنه متجاوز دفاع نموده است.

از سال ۱۹۹۳ پس از روی کار آمدن عالیجناب حیدر علی یف بعنوان رئیس جمهور آذربایجان و اراده قاطع ایشان به ایجاد تحول در سطح روابط با کشورهای همسایه خصوصاً جمهوری اسلامی ایران،همکاریهای دوجانبه دو کشور هم در راستای روابط دوجانبه و هم در چارچوب همکاریهای منطقه ای در قالب سازمانهایی نظیر سازمان کنفرانس اسلامی، سازمان همکاری اقتصادی اکو با شدت بیشتری دنبال شد و اکنون نیز ادامه دارد و مقامات جمهوری اسلامی ایران همیشه از سیاست جمهوری آذربایجان در گسترش مناسبات با جمهوری اسلامی ایران استقبال نموده است.

جمهوری اسلامی ایران از روزهای اولیه بروز بحران قره باغ تا به امروز همواره ارامنه را بعنوان متجاوز محکوم نموده و تا به امروز نیز در مواقع مورد لزوم و در راستای حضور در پروسه گفتگوهای صلح از هیچ کوششی جهت برادران آذری خود مضایقه ننموده و نخواهد کرد

ارتباطات همه جانبه مقامات کشوری، تبادل هیئت ها در همه سطوح، شرکت در اجلاسهای منطقه ای، در طول ۱۱ سال گذشته پس از تحولات کشورهای مشترک المنافع و سرمایه گذاری ایرانیان در این کشور به منظور گسترش فعالیت اقتصادی جمهوری آذربایجان نشانگر حسن علاقه و اراده محکم سیاستمداران دو کشور نسبت به گسترش مناسبات میباشد که حاصل آن ثمرهٔ تلاشهای دوجانبه مقامات دو کشور برای رسیدن به اهداف والای همکاریهای منطقه ای و جهانی بوده که با دعوت جناب آقای خاتمی ریاست محترم جمهوری اسلامی ایران و حضور جناب آقای حیدر علی یف و هیأت بلندپایه سیاسی و اقتصادی در تهران و امضاء ۱۱ موافقت نامه و یادداشت تفاهم در زمینه های گمرکی ، کشاورزی، دامی، ورزشی، حمل و نقل هوایی، حمل و نقل جاده ای، همکاری های استاندارد ، تشویق و حمایت از سرمایه گذاری های متقابل، همکاری های بهداشت و درمانی ، همکاری های فرهنگی تحقق یافت.

در خاتمه جا دارد ، از تلاشها و کوششهای جناب آقای وحدت سلطان زاده که از سال ۱۹۸۲ توفیق آشنایی با ایشان را دارم و جناب آقای گالی الله وردی یف که هر دو از شخصیتهای علمی ، فرهنگی و شرق شناس کشور آذربایجان می باشند و در تدوین این کتاب همت والائی گمارده اند تشکر و قدردانی نمایم.

با آرزوی توفیق و پیروز ملتهای مسلمان و حاکمیت صلح و ثبات در جهان و آزادی سرزمینهای اشغالی آذربایجان.

احد قضایی

سفیر جمهوری اسلامی ایران - باکو

خرداد ۱۳۸۱

AZƏRBAYCAN - İRAN ƏLAQƏLƏRİ

Azərbaycanla İranı uzun müddət bir-birindən təcrid edən keçilməz sərhədlər 1989-cu ilin dekabrında hər iki tərəfin istəyi ilə dağıdıldı. Tarixən qonşu olmuş və eyni kökdən olan insanlar, nəhayət, uzun ayrılıqdan sonra görüşmək imkanı qazandılar. Dili, dini, tarixi, mədəniyyəti eyni olan xalqlarımız yaxından əlaqələr qurmaq üçün birbirinə tərəf sürətli addımlar atdılar. Həsrət və nisgilə son qoyuldu.

Azərbaycan - İran əlaqələrinin inkişafına böyük qayğı göstərən və xüsisi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir ki, Azərbaycan tarixin bizə verdiyi bu imkandan maksimum istifadə etməyə, dostluq, qardaşlıq münasibətlərini möhkəmləndirmək üçün qarşılıqlı addımlar atmağa hazırdır.

Dövlətimizin başçısı dəfələrlə bildirmişdir ki, biz ölkəmizdə Azərbaycan-İran əlaqələrinin günbəgün genişlənməsini və inkişaf etməsini istəyirik. Bu, təbiidir. Çünki biz qonşuyuq, bir dinə, məsləkə mənsubuq. Hər hansı digər bir dövlətlə ölkəmizin bu qədər tarixi bağlılığı yoxdur.

Dövlətimizin siyasəti odur ki, İran İslam Cümhuriyyəti Azərbaycanın dostu, qardaşıdır və bu ölkə ilə bizim dostluğumuz, qardaşlığımız daimidir və bunu inkişaf etdirəcəyik

İran-Azərbaycan əlaqələri və zamanın müəyyən dövründə sərt sınaqlara çəkilən münasibətləri özü də tarixin ibrət dərsidir. Ondan nəticə çıxararaq yalnız irəliyə addımlamaq, eyni taleyi, eyni tarixi yaşayan xalqların, gələcək inkişafı üçün mümkün olan hər şeydən bəhrələnmək vaxtı çoxdan gəlib çatmışdır və ən başlıcası da odur ki, bütün bu imkanlar artıq hər iki ölkənin rəhbərlərinin və xalqlarının öz əllərindədir.

Azərbaycan öz müsətəqilliyini əldə etdikdən sonra xarici siyasət kursunu formalaşdırmaq üçün çətin və mürəkkəb, qabarma və çəkilmələrlə müşayiət edilən yollardan keçmiş, yalnız Prezident Heydər Əliyev hakimiyyətə gəldikdən sonra onun rəhbərliyi ilə ölkəmizin mənafelərinə uyğun starteji xarici siyasət kursu müəyyənləşdirilmişdir. Bu kursun əsasını çoxtərəfli və ikitərəfli tərəfdaşlıq və əməkdaşlıq, sülh və əminamanlıq, qarşılıqlı anlaşma, birbirinin daxili işlərinə qarışmamaq, bərabərlik, qarşı tərəfin suverenliyinə hörmət etmək kimi beynəlxalq normalar və demokratik dəyərlərə söykənən siyasət təşkil edir. 1993-cü ilin iyunundan başlayaraq Azərbaycan Prezidenti Heydər Əliyev Azərbaycan-İran münasibətlərində süni surətdə yaradılmış əyinti və maneələri aradan qaldırmaq və onu yüksələn xətlə inkişaf edə biləcək bir müstəviyə keçirmək üçün qısa zaman kəsiyində bütün maneələri dəf etdi. İran İslam Respublikasının rəhbərlərinin də qarşılıqlı addımları iki ölkə arasında münasibətlərin normallaşmasına və inkişafına təkan verir.

Dövlət başçımızın dörd dəfə İrana, qonşu ölkənin rəhbərlərinin isə Azərbaycana səfəri problemlərin həllində, qarşılıqlı tərəfdaşlığın daha da genişləndirilməsində mühüm rol oynadı. Başqa cür də ola bilməz. Azərbaycanın xarici siyasətində İran ən önəmli yerlərdən birini tutur. Azərbaycan İranla əlaqələrinin günbəgün genişlənməsini, inkişaf etməsini istəyir. Çünki biz qonşuyuq, bir dinə, məsləkə mənsubuq. Görüşlərin birində İranın yüksək səviyyəli dövlət nümayəndəsi "Azərbaycan ilə İran dost ölkələrdir" söylədikdə ölkəmizin başçısı onun sözünə düzəliş edərək demişdir ki, qardaş ölkələrik, iki müsəlman dövlətiyik və İranla apardığımız siyasət də elə qardaş siyasətidir.

İranda on milyonlarla azərbaycanlı yaşayır. Bütün bunları nəzərə alan Azərbaycan Prezidenti Heydər Əliyev qətiyyətlə bildirmişdir: "Hər iki ölkənin heç bir digər dövlətlə bu qədər yaxın tarixi əlaqələri yoxdur".

Hər iki ölkə xalqları bir-birinin problemlərinə qayğı və diqqətlə yanaşır. Azərbaycan-Ermənistan münaqişəsində İran ölkəmizin haqq işini müdafiə etmiş, Ermənistanı bu məsələdə təcavüzkar dövlət kimi tanımışdır. Beynəlxalq təşkilatlarda da Ermənistanın Azərbaycana təcavüzü İran İslam Respublikası tərəfindən qətiyyətlə pislənmişdir. İranın beynəlxalq dəstəyi, qaçqınlarımıza etdiyi yardımlar heç vaxt unudulmayacaqdır.. Dövlətin siyasəti budur ki, İİR Azərbaycanın dostu, qardaşıdır və bu ölkə ilə bizim dostluğumuz, qardaşlığımız daimidir.

İran-Azərbaycan münasibətlərində şübhə toxumlarının cücərməsinə yol verməmək, Azərbaycan-İran münasibətlərini pozmaq istəyən qüvvələrin pis niyyətlərini heçə endirmək üçün hər iki qardaş ölkənin birgə səylər göstərməsi və gərəkli addımlar atması vacibdir.

Azərbaycan Prezidentinin fikrincə görə ölkələrimizin arasında həlli mümkün olmayan məsələ yoxdur. O, möhkəm qənaətdə olduğunu bildirmişdir ki, bizim əlaqələrimiz gərək hər hansı bəhanədən uzaq olsun, səmimi və dostcasına münasibətlərə əsaslansın. Dövlətlərarası münasibətlərdə diplomatiyanın öz yeri var, səmimiliyin və dostluğun öz yeri. Ona görə də əlaqələrin səmərəli inkişafı üçün Azərbaycan tərəfi bütün imkanlardan istifadə etməyə çalışacaqdır.

Prezidentin fikrincə, cənab Xatəminin yeritdiyi siyasət Azərbaycan-İran əlaqələrinin inkişafına da müsbət təsirini göstərəcəkdir. Bu amil, eləcə də İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının fəaliyyəti hamıda nikbin əhval-ruhiyyə yaradır.

Azərbaycan Prezidentinin fikrincə, onun İrana son rəsmi səfərindən sonra əlaqələrimizdə başlanan yeni mərhələ gələcək inkişafa, xalqlarımızın və dövlətlərimizin bir-birinə daha da yaxınlaşmasına kömək edəcəkdir. Azərbaycan Prezidentinin dediyi kimi İslam inqilabı bu ölkənin həyatını kökündən dəyişmiş, onun inkişaf etməsi, xalqın daha da yaxşı yaşaması üçün böyük imkanlar yaratmış və İranı şahlıq istibdadından xilas etmişdir.

İran İslam Cumhuriyyətidir. Biz bunu bir dövlət, ölkə, qonşu, dost kimi, necə varsa o cür də qəbul edirik. Ümumiyyətlə, Azərbaycanın siyasəti ondan ibarətdir ki, heç bir dövlət başqa bir

dövlətin işinə qarışmamalıdır. Hər bir müstəqil dövlət öz həyatını öz xalqının istədiyi kimi qurmalıdır, xaricdən müdaxilə olmamalıdır.

Son rəsmi ziyarət vaxtı Tehranda olarkən ölkəmizin başçısı İranın prezidenti cənab Xatəmi ilə ətraflı, müfəssəl danışıqlar aparmış, İranın Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamneyi həzrətləri ilə çox geniş, ətraflı görüş, söhbət keçirtmişdir. Bu görüşlər, söhbətlər zamanı İran - Azərbaycan əlaqələrinin bugünkü vəziyyəti təhlil edilmiş, onları daha da inkişaf etdirmək, dostluğu, əməkdaşlığı möhkəmləndirmək işində tərəflər həmfikir olduqlarını bəyan etmişlər. Müzakirələrin sonunda dövlətimizin başçısı bildirmişdir ki, mən bu görüşlərdən çox məmnunam və apardığımız müştərək işlərin nəticəsində İran-Azərbaycan əlaqələri sürətlə inkişaf edəcəkdir. Dövlət rəhbərimiz həmişə İran İslam Cümhuriyyətinin inkişafını arzu etmişdir. Çünki bizim qonşumuz olan dost ölkədə əgər xalqın yaşayışı yaxşılaşsa, ölkənin iqtisadiyyatı inkişaf etsə, şübhəsiz ki, bu Azərbaycan üçün də çox faydalıdır. Ona görə də həm dost və qonşu olan İrana xeyirxah münasibətimiz əsasında, həm də İran-Azərbaycan əlaqələrindən hər iki tərəfin səmərəli faydalanmasına görə biz həmişə İranın inkişafını arzu etmişik. Ölkəmizin başçısı qətiyyətlə bəyan etmişdir: "Əziz dostlar, siz də bilin və İran Prezidenti Zati-aliləri Xatəmi də bilsin ki, Azərbaycanın Prezidenti kimi mən İran-Azərbaycan əlaqələrinin sağlam olması yolunda, onun daim inkişaf etməsi üçün çalışıram və bundan sonra da çalışacağam. Bu, bizim xalqlarımız, dövlətlərimiz üçün lazımdır. Mənim bu siyasətimi heç kəs dəyişdirə bilməz".

Azərbaycan-İran iqtisadi əlaqələrinin bugünkü səviyyəsi heç də qane edici deyildir. İqtisadi əməkdaşlığın, ticarət mübadiləsinin aşağı səviyyəsinin səbəblərindən biri bank sisteminin lazımi qaydada olmamasıdır. Hazırda bu sahədə müvafiq tədbirlər görülür. İranın iş adamlarını və sərmayəsini Azərbaycana cəlb etmək üçün lazımi imkanlar mövcuddur.

Hər iki ölkəni qarşılıqlı surətdə bir-birinə tanıtmaq və bu sahədə olan nöqsanları aradan qaldırmaq üçün rəsmi ziyarətlərlə yanaşı KİV əməkdaşlarının qarşılıqlı səfirləri də öz müsbət təsirini göstərməkdədir.

Dövlətimiz İranla münasibətində səmimi dostluq və əməkdaşlıq siyasəti yeridir, Azərbaycan-İran münasibətlərinin inkişafının böyük perspektivləri mövcuddur.

Bu kitab münasibətlərimizi nəzərdən keçirərək saf-çürük etməyə, istifadə edilməmiş imkanları öyrənməyə, əlaqələrimizə Azərbaycan Prezidenti Zirvəsindən baxmağa kömək göstərir. Ümidvarıq ki, onun nəşri hər iki qardaş xalq və dost ölkə arasındakı əlaqələrin möhkəmlənməsinə yaxından kömək edəcək, onların inkişafına öz töhfəsini verəcəkdir.

Abbasəli Həsənov
Azərbaycan Respublikasının İrandakı
Fövqəladə və Səlahiyyətli Səfiri

AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ ƏLAQƏLƏR SİSTEMİNDƏ

XX əsrin son onilliyində Azərbaycan xalqı yenidən müstəqilliyinə qovuşdu və ilk gündən ağır sınaqlar girdabına yuvarlandı. Belə ki, son illərdə baş verən qlobal təbəddülatlar dünyanın siyasi xəritəsinin köklü şəkildə dəyişməsinə səbəb oldu və nəticədə yeni geosiyasi vəziyyət yarandı.

Bu hadisələr və proseslər müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının xarici siyasət xəttinə də öz təsirini göstərdi.

İlk dövrlərdə Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Rusiyaya meyllilik strategiyası təşkil edirdi ki, bu da Azərbaycanın milli mənafeyi və maraqlarının beynəlxalq və regional münasibətlərin əsas inkişaf meylləri ilə tam şəkildə uzlaşdırılmasına imkan vermirdi. Vahid xətt üzrə aparılan ardıcıl və prinsipial xarici siyasət xəttinin olmaması öz mənfi təsirini göstərirdi.

Məsələ burasında idi ki, Xalq Cəbhəsi hökumətinin xarici siyasət kursu vahid bir konsepsiya və sistem əsasında deyil, ayrı-ayrı məsul vəzifə sahiblərinin təsadüfi, bir-biri ilə uzlaşmayan addımları və bəyanatları, ziddiyyətli və emosional çıxışları üzərində qurulmuşdu və bu da Azərbaycan Respublikasının xarici siyasətinin ali məqsədi və vəzifələri, əsas prioritet istiqamətləri haqqında beynəlxalq aləmdə yanlış rəy yaradır, respublikamızın beynəlxalq imicinə zərbə vurur, ölkəmizin regionda və bütövlükdə beynəlxalq aləmdə tam təklənməsinə və antiazərbaycan əhval-ruhiyyəsinin yaranmasına səbəb olurdu. Region dövlətləri ilə münasibətlər kəskinləşir, beynəlxalq himayəyə olan inam itir və bu himayəni təmin edə biləcək dövlətlərlə münsibətlər sərinləşirdi.

1993-cü ilin yayından hakimiyyətə rəhbərlik etməyə başlayan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk növbədə sələflərinin xarici siyasət sahəsində buraxdığı səhvləri aradan qaldırmaq, ölkənin milli maraqlarını əks etdirən yetkin xarici siyasət konsepsiyasını hazırlamaq zərurəti ilə üzləşdi. Prezidentimizin zəngin təcrübəsi, güclü iradəsi, gərgin əməyi, Qərblə Şərq, həmçinin region ölkələri arasındakı münasibətlərdə balanslaşdırılmış və tarazlaşdırılmış diplomatik gedişləri nəticəsində Azərbaycan Respublikası öz müstəqilliyini və dövlətçiliyini möhkəmləndirə bildi və beynəlxalq normalara əsaslanan xarici siyasət platforması yaradıldı. Azərbaycanın kəsilmiş və ya pozulmuş beynəlxalq əlaqələri səhmana salındı, informasiya blokadasına alınmış ölkəmizin haqq işi və ona qarşı olan ədalətsizlik ən mötəbər məclislərdə, ən uca kürsülərdə dilə gətirildi. Azərbaycanı qüdrətli, hüquqi, dünyəvi və demokratik bir dövlətə çevirmək yolunda mühüm işlər görüldü.

Azərbaycan Respublikası
İşlər İdarəsinin
KİTABXANASI

Prezident Heydər Əliyev Azərbaycanın tarazlaşdırılmış müstəqil xarici siyasət konsepsiyasını hazırladı. Onun "Azərbaycanımızın müstəqilliyi bizim tarixi nailiyyətimizdir" kimi yüksək ruhla söyləmiş sözləri xarici siyasətimizi irəli aparan bir devizə çevrildi.

Dövlətimizin başçısının "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir" fikri xarici siyasət sistemimizi qabaqcıl dünya təcrübəsi əsasında qurmağa yönəldən əsas amillərdən biri oldu, yeni xarici siyasət konsepsiyasının hazırlanması üçün möhkəm əsasa çevrildi.

Prezidentimizin, Şərq müdrikliyini və Qərb praqmatizmini özündə birləşdirən siyasəti sayəsində müstəqilliyimiz möhkəmləndi və təmin edildi. Dünyanın ən nəhəng dövlətləri Azərbaycanla hesablaşmağa başladılar. Prezidentimizin bayraqdarı olduğu ardıcıl və məqsədyönlü siyasətimiz bizi "Əsrin müqaviləsi"nə, "İpək yolu"na, Bakı-Ceyhana, Bakı-Trabzona, Bakı-Supsaya, NATO ilə əməkdaşlığa, ən nəhayət, Avropa Şurasına aparıb çıxartdı. Məhz onun əməyi sayəsində dövlətimizin xarici siyasət konsepsiyası hazırlandı, məqsəd və prinsipləri müəyyənləşdirildi. 1995-ci ilin noyabr ayının 12-də qəbul edilmiş Konstitusiyanın 10-cu Maddəsində göstərilir ki, "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur" *(Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996-cı il, səh. 6)* Bu prinsiplərin ATƏT-in "Helsinki aktı"nda və "Paris xartiyası"nda da öz əksini tapdığını desək, ölkəmizin əsas qanununun bütün beynəlxalq hüquq normalarını özündə əks etdirdiyini görərik.

1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında dövlətimizin xarici siyasət konsepsiyasını açıqlayan Prezident Heydər Əliyev aşağıdakıları bildirdi: " Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir... Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun, respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır... Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla demokratik prinsiplər əsasında gedəcəkdir" *(Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, səh. 205 - 207).* Prezidentimizin andiçmə mərasimində söylədiyi bu nitq xarici siyasətimiz üçün proqram xarakteri daşıyır və onun müddəaları ardıcıl surətdə həyata keçirilməkdədir.

Prezidentimiz tərəfindən xarici siyasətimizin əsas istiqamətləri müəyyənləşdirildi. Ölkəmizi beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, Azərbaycan əleyhinə yaradılmış fikiri dağıtmaq, haqq işimizi dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaq, bəzi dövlətlərlə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan qaldırmaq, xarici ölkələrlə münasibətdə tarazlaşdırılmış xarici siyasət xəttini təmin etmək, qonşu ölkələrlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı səmərəli əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin qorunmasına nail olmaq kimi vəzifələr xarici siyasətimizin əsasını təşkil etməyə başladı. Böyük dövlətlərlə sıx əlaqədar yaratmaq və getdikcə onları daha da genişləndirmək, bütün dövlətlərlə əlaqələri beynəlxalq hüquq normalarına, beynəlxalq prinsiplərə tam uyğun tərzdə - mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq əsasları üzərində qurmaq, dünyada mövcud olan müxtəlif beynəlxalq və regional təşkilatlara qoşulmaq və orada fəal iştirak etmək, müstəqil Azərbaycanın böyük dünya siyasətində lazımınca iştirakını, müxtəlif dünya ölkələri ilə səmərəli əməkdaşlığını təmin etmək, Qarabağ münaqişəsnin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu təşkilatları fəal qoşaraq onların dəstəyinə nail olmaq vəzifələri irəli sürüldü. Şərq və müsəlman dövlətləri ilə ölkəmizin sıx əlaqələrini qurmaq, Türkiyə və İran kimi region dövlətləri ilə mehriban qonşuluq əlaqələrini yaratmaq, MDB dövlətləri ilə əlaqələri yenidən yüksək səviyyəyə qaldırmaq, ABŞ və Qərb dövlətləri ilə ən sıx münasibətlər qurmaq məqsədləri qarşıya qoyuldu.

Belə bir xarici siyasət xətti milli mənafeyə, əldə olunmuş kövrək müstəqilliyimizin möhkəmlənməsinə xidmət edir, problemlərimizin həllinə və dövlətimizin beynəlxalq mövqelərinin tədricən möhkəmlənməsinə imkan yaradırdı. Müdrik Azərbaycan xalqına arxalanan Heydər Əliyev dühası, onun parlaq və aydın zəkası, zəngin siyasi və dövlətçilik təcrübəsi bu taleyüklü problemlərin öhdəsindən müvəffəqiyyətlə gəlmək imkanı verdi.

Beləliklə, hər şeydən əvvəl, əlverişli lazimi şərait yaradıldı, sabitlik bərqərar edildi və dinc şərait təmin edildi.1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olundu, müharibə dayandırıldı, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaradılması üçün qətiyyətli addımlar atıldı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici siyasət fəaliyyətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli başlıca yer tutdu. Heydər Əliyev tarixi qayıdışından sonra münaqişənin aradan qaldırılmasına nail olmaq üçün gərgin fəaliyyət göstərərək ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və eləcə də çoxtərəfli görüşlər keçirdi.

Axı, bu təcavüz ölkəmizə ağır zərbələr vurmuş, sağalmaq bilməyən yaralara səbəb olmuşdur. Əlavə edək ki, Azərbaycan Respublikasına qarşı edilən bu təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizi, yəni 17. 000 kv. km torpağ sahəsi işğal altında qalmış, 18.000 nəfər həlak, 50.000 nəfər əlil olmuşdur. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin bağlı Dövlət Komissiyasının 2000-ci ildə hazırladığı statistik məlumatlara əsasən, işğal olunmuş ərazilərdə 6.000-ə yaxın kənd təsərrüfatı və sənaye obyekti, 102.000 yaşayış evi, 4366 sosial-mədəni obyekti, 7.000 ictimai bina, 693 orta məktəb, 855 məktəbəqədər müəssisə, 695 xəstəxana və digər tibb müəssisələri, 10 məscid, 160 körpü, 368 klub, 927

kitabxana, 85 musiqi məktəbi, 464 muzey və tarixi abidə, 6 dövlət teatrı dağılmışdır. 800 km-lik dəmir yolu və avtomobil yolları, 15 min km elektrik və qaz xəttləri, 2300 km-lik regional əhəmiyyətli su kommunikasiya sistemləri sıradan çıxarılmışdır. İşğal olunmuş torpaqlarda 31 məscid, 9 tarixi saray, 1 milyon hektar kənd təsərrüfatı sahəsi, 250 min hektar meşə sahəsi, 200 paleontoloji, geoloji abidə erməni təcavüzkarlarının əlinə keçmişdir. Qaçqın və məcburi köçkünlərə gəldikdə isə, onların ümumi sayı 1 milyondan artıqdır. Onlardan 245 min nəfəri Ermənistandan, 50 min nəfəri Orta Asiyadan, 800 min nəfəri isə işğal olunmuş torpaqlardan didərgin düşmüş məcburi köçkünlərdir. Nəticə etibarilə münaqişə dövrü ərzində Azərbaycana dəyən maddi ziyanın həcmi 60 milyard ABŞ dolları təşkil etmişdir.

Prezident Heydər Əliyev Dağlıq Qarabağ probleminin həlli üçün hərtərəfli düşünülmüş yetkin bir proqramla çıxış edərək əvvəlcə problemi beynəlxalq səviyyəyə qaldırmış, onun səbəblərini, tarixi köklərini, mahiyyətini dünya ictimaiyyətinə aydınlaşdırmış, dövlətlərin və beynəlxalq təşkilatların timsalında ölkəmizə tərəfdaşlar tapmış, çoxtərəfli hazırlıq işləri görmüşdür.

Azərbaycan Prezidenti məsələnin sülh yolu ilə həll olunması üçün təkcə 1993-2000-ci illər ərzində ATƏT-ə üzv olan ölkələrin liderləri, ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. Göstərilənlər bu beynəlxalq qurumla Azərbaycanın nə qədər sıx və intensiv işlədiyini, qarşılıqlı əməkdaşlıq etdiyini bariz şəkildə nümayiş etdirir.

Azərbaycan Prezidenti Heydər Əliyev 1993-cü ildən indiyədək 68 ölkənin prezidenti və dövlət başçısı ilə 500-ə qədər görüş keçirmişdir. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. Konkret rəqəmlərlə ifadə etsək, Prezident Heydər Əliyev ABŞ-ın Prezidenti, Xarici İşlər Naziri ilə bu məsələni 18, Fransa rəhbərləri ilə 16, Rusiya rəhbərləri ilə 25, Türkiyə rəhbərləri ilə 90 dəfəyə yaxın müzakirə etmişdir. BMT-nin Baş Katibləri ilə onlarla görüş olmuşdur. NATO-nun, Müstəqil Dövlətlər Birliyinin Zirvə görüşlərində hər dəfə Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini gündəliyə çıxarmışdır *(N. Məmmədov. Azərbaycan Respublikası 1991 - 2001. Dağlıq Qarabağ problemi və Ermənistan - Azərbaycan münaqişəsinin həlli istiqamətində fəaliyyət. Bakı, 2001-ci il, səh. 254-258).*

ATƏT-in 1996-cı ilin dekabrında keçirilən Lissabon Zirvə görüşündə münaqişənin nizama salınmasının baza formulu müəyyən edilmişdir. Hazırda danışıqlar davam edir və Azərbaycan xalqı Prezident Heydər Əliyevin bütün çətinliklərə sinə gələrək, bu son dərəcə mürəkkəb və taleyüklü missiyanın öhdəsindən uğurla gələcəyinə inanır.

Beləliklə də, yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yaradıldı. Daxili siyasətlə xarici siyasətin bir-biri ilə üzvi surətdə bağlılığı və dialektik vəhdəti nəzərə alındı. Azərbaycanın çiçəklənməsi, iqtisadi yüksəlişi və beynəlxalq nüfuzunun möhkəmlənməsi üçün yeni xarici konsepsiyası hazırlandı və həyata keçirilməyə başlandı.

Azərbaycanın indiki qarışıq, təlatümlü dünyada və eləcə də həddindən artıq mürəkkəb Qafqaz regionunda tutduğu yerin və oynadığı rolun dəqiqləşdirilməsi, ölkənin strategiyasının düzgün müəyyən edilməsi də mühüm və vacib məsələlərdən idi.

Bütün bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün müasir dünyadakı hadisələrin siyasi gedişini dərindən bilmək və mövcud şəraiti düzgün qiymətləndirmək, dövlətlərarası münasibətlərdən, regiondakı konkret siyasi vəzifələrdən, onların iqtisadi əhəmiyyətindən və bunun dünya siyasətinə təsir dairəsindən, orada toqquşan maraqlardan düzgün nəticələr çıxarmaq bacarığı tələb olunurdu. Odur ki, olduqca çevik, müxtəlif gedişli xarici siyasət yeridilməli idi.

Prezident Heydər Əliyev bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığını nümayiş etdirdi. Bu, Azərbaycana da, onun sükanı arxasında bu gün inamla dayanan böyük şəxsiyyətə də beynəlxalq aləmdə nüfuz və şöhrət qazandırdı, onun müəyyən etdiyi yeni xarici siyasət xəttinə və mövqeyinə inam yaratdı. Bunun nəticəsi olaraq Azərbaycan dünyanın bütün aparıcı ölkələrinin maraq mərkəzinə çevrildi, beynəlxalq və regional əməkdaşlıq sahəsində mühüm rol oynamağa başladı, investisiyaların axdığı on cəlbedici ölkələrdən biri oldu.

Prezident Heydər Əliyev həmçinin bu siyasətin həyata keçirilməsinin yollarını, vasitələrini, üsullarını da dəqiq və böyük məharətlə düşünüb hazırladı. Beləliklə, ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın, konkret vəzifə və istiqamətləri, prinsipləri ilə seçilən, ardıcıl və prinsipal xarici siyasət xətti yaradıldı.

Prezident Heydər Əliyevin çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünə layiqli yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır.

Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Respublikamızın uğurlu xarici siyasəti bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

Bu siyasətin həyata keçirilməsi üçün ayrı-ayrı dövlətlərlə sazişlər və müqavilələr bağlandı, memorandumlar imzalandı. Bu qəbildən olan rəsmi sənədlər vasitəsi ilə həm beynəlxalq normalara riayət edən sivil diplomatiya yoluna qədəm qoyuldu, həm də demokratik ənənələrə sədaqət və yüksək sivilizasiya nümayiş etdirildi. Azərbaycan MDB-yə, Qara dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatına, İƏT-ə, GUÖAM-a, Avropa Şurasına, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu, hər il çağırılan məşhur Davos forumunun, BMT-nin sesiyalarının, ATƏT-in, İKT-nin, İƏT-in, Türkdilli Dövlətlərin Başçılarının sammitlərinin daimi iştirakçısı oldu. Bununla həm öz strateji müttəfiqlərinin sayını xeyli artıra bildi, həm də bu möhtəşəm beynəlxalq forumlarda öz mövqeyini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini beynəlxalq ictimaiyyətə çatdıra bildi.

Keçmiş rəhbərliyin qeyri-sabit, biryönlü siyasəti birdəfəlik kənara atıldı. Ölkənin xarici siyasətinin başlıca prinsipləri və istiqamətləri müəyyənləşdirildi, regionun və ölkəmizin geosiyasi perspektivləri öyrənilməyə başlandı, xarici siyasət sahəsində əsas məqsəd və hədəflər müəyyən-

ləşdirildi və dəqiqləşdirildi, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əməkdaşlığın səmərəli yolları və üsulları seçildi, təkcə Qərb dövlətlərindən deyil, Şərqdən də maddi və siyasi dəstək almaq üçün dünyadakı və regiondakı qüvvələrin nisbəti nəzərə alınmağa başlandı. Reallıqlara əsaslanan xarici siyasət yürüdülməyə başlandı. Tez-tez dəyişən şərait və vəziyyətdən asılı olaraq üstün siyasət xətti müəyyənləşdirildi. Əlbəttə, bu siyasətin əsas problemi - Ermənistanla münaqişə, Dağlıq Qarabağ problemi oldu. İlk növbədə bütün qüvvələr və imkanlar bu problemin həllinə yönəldildi. Reallıqlara əsaslanaraq mövcud münasibətlər bir daha nəzərdən keçirildi, saf-çürük edildi.

Azərbaycan Prezidenti beynəlxalq əlaqələr sisteminin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsinə və inkişaf etdirilirməsinə böyük əhəmiyyət verir.

Azərbaycan Respublikasının xarici siyasətində onun dünya birliyinə inteqrasiyası, ikitərəfli və çoxtərəfli münasibətlərin, beynəlxalq və məhəlli təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdiliməsi Prezident Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edir.

Heydər Əliyevin gərgin əməyi sayəsində ölkəmiz mövcud inkişaf modellərindən heç birinə birmənalı şəkildə üstünlük vermədən Qərb və Şərqin yaratdığı dəyərlərdən yaradıcılıqla və səmərəli şəkildə bəhrələnməyə, tarazlaşdırılmış çoxşaxəli xarici siyasət yeritməyə nail oldu.

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsiretmə imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər ilə, müsəlman dünyası, Asiya, Afrika və Gənubi Amerika ilə əlaqələrin yaxın dövr üçün prioritet istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi, hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, bütün amilləri nəzərə alan durumu yaradıldı.

Heydər Əliyev məhz bu reallıqları nəzərə alaraq ilk səfərini Rusiyada etdi. Bu səfər Azərbaycanın MDV-yə daxil olması ilə paralel hazırlandı.

Azərbaycan Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Belçika Krallığı, Hollandiya, Norveç, Şərqi Avropa dövlətləri ilə sıx əlaqələr qurdu.

Prezident Heydər Əliyein ölçülüb biçilmiş yeni xarici siyasət kursunda Azərbaycanla həmsərhəd olan ölkələrlə, bütövlükdə müsəlman dövlətləri ilə münasibətlərə də xüsusi diqqət yetirilir. Belə ki, bu ölkələrlə münasibətlərdə süni yaradılmış xeyli problemlər mövcud idi. Yaxın qonşumuz olan İranla siyasi-idioloji qarşıdurma yaradılması, Türkiyə ilə real şəraiti nəzərə almadan, tam etnik birlik, türk birliyi zəminində emosional siyasət aparılması hər iki dost ölkə ilə münasibətlərə xələl gətirir, Azərbaycanın beynəlxalq mövqeyinə ziyan vururdu. Məhz buna görə də, Heydər Əliyev çox təcrübəli siyasətçi kimi bu ölkələrlə münasibətlərdə tezliklə dönüş yaratmaq, onlarla qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə, beynəlxalq hüquq normalarına əsaslanan münasibətlər qurmaq üçün böyük əmək sərf etməli oldu.

Həmin xarici siyasət xəttinin mühim

istiqamətlərindən birini də bu iki və digər qonşu ölkələrlə, islam dünyası ilə münasibətlər təşkil edirdi.

Bu baxımdan dövlət başçısı Heydər Əliyevin İrana, Türkiyəyə, Səudiyyə Ərəbistanına, Misirə və Pakistana səfərləri zamanı apardığı danışıqlar çox əhəmiyyətli oldu. Belə ki, İran və Türkiyə ilə münasibətlərdə xeyli və əhəmiyyətli dəyişikliklər baş verdi. İranla münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa bir zaman ərzində bu yeni xarici siyasət xəttinin düzgün və faydalı olduğunu göstərdisə, Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş dəyişikliklər isə ölkəmiz üçün, həm də ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu. Xarici siyasət fəaliyyətinin daha bir mühüm istiqaməti kimi ÇXR, Yaponiya, Hindistan və Asiyanın digər ölkələri ilə əlaqələrə böyük əhəmiyyət verildi. Orta Asiya dövlətləri və Qazaxıstanla münasibətlərdə də xarici siyasət xəttində bu istiqamətdə mühüm dəyişikliklər edildi. Azərbaycanın bu çox vacib regionda beynəlxalq münasibətlərdə zəifləmiş mövqeyini möhkəmləndirmək və milli mənafeyimizə cavab verməyən vəziyyəti aradan qaldırmaq məqsədilə çevik diplomatik gedişlərlə yeni münasibətlər qurulmasını təmin edəcək forma və vasitələr düşünülüb tapıldı.

Gürcüstan, Ukrayna və Moldova ilə yaradılan yeni əlaqələr də çox əhəmiyyətli olmuşdur. Heydər Əliyevin xarici siyasət xəttində bu ölkələrlə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi, sözün əsl mənasında yüksək səviyyəyə qaldırılması Azərbaycan Respublikasının xarici siyasətinin yeni mühüm uğuru idi. Ukrayna bizim üçün inkişaf etmiş böyük və zəngin ölkə olmaqla yanaşı, iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üçün əlverişli bir tərəfdaş kimi mühüm idisə, Gürcüstan da ən yaxın qonşu olması, Avropaya çıxışımızı təmin etməsi, orada yarım milyona yaxın soydaşlarımızın yaşaması, regionda sülhün və sabitliyin təmin edilməsi baxımından əhəmiyyətli idi. Odur ki, Azərbaycanın dövlət başçısı Qafqaz bölgəsinin bütün dövlətləri ilə, ilk növbədə Gürcüstanla əlaqələrin genişləndirilməsinə, bu regionda sülhün və əməkdaşlığın təmin olunması məsələlərinə böyük diqqət yetirir. Onun "Qafqazda sülh və əməkdaşlıq" məsələlərinə dair irəli sürdüyü kompleks təkliflər proqramı Ermənistan istisna olmaqla bütün region dövlətləri, birinci növbədə Gürcüstan tərəfindən rəğbətlə qarşılanmışdır.Hər iki ölkə başçısının Qafqazda sülh, sabitlik və əməkdaşlığa dair xüsusi sənəd imzalamaları bunu aydın göstərir.

Azərbaycan Respublikası Prezidentinin xarici siyasət xətti dərin elmi-nəzəri əsaslara malik olan və zəngin təcrübə üzərində qurulan bir xarici siyasət konsepsiyası dır. Burada hər bir amil, şərait və xüsusiyyət nəzərə alınır. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın əksər ölkələri ilə diplomatik münasibətlər qurub və bir çox dövlətlərlə əməkdaşlıq edir. Ölkəmiz bu gün planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də ən mühümünə çevrilibdir. Bunun nəticəsidir ki, Amerikanın, Asiyanın və Afrikanın bir sıra ölkələrinin Azərbaycana marağı günbəgün artmaqdadır.

Azərbaycan Prezidentinin yeni xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə də böyük diqqət yetirilir. Hazırda dünyada təxminən 4 mindən çox beynəlxalq və məhəlli təşkilat mövcuddur ki, bunlardan 300-dən çoxu hökümətlərarası qurumlardır.

Beynəlxalq təşkilatlara üzv olmaq, onların işlərində iştirak etmək, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Odur ki, bu imkanlardan geniş istifadə edilməsi zəruridir. Məhz buna görə də hazırda Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Şurası (AŞ), Müstəqil Dövlətlər Birliyi (MDB), GUÖAM (Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan, Moldova), İslam Konfransı Təşkilatı (İKT), Qara Dəniz İqtisadi Təşkilatı (QDİT), Parlamentlərarası İttifaq (Pİ), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla də fəal əməkdaşlıq edir. Azərbaycan yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur.

Bu gün Azərbaycan özünün coğrafi mövqeyindən, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik olan təbii ehtiyatlarından və potensialından istifadə etmək üçün bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək, Böyük İpək Yolunun bərpası, Avropa - Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Şimal - Cənub nəqliyyat dəhlizinin yaradılması, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması lahiyələrini səmərəli surətdə həyata keçirir.

Azərbaycan Avropa Birliyi ilə, Avropanın iqtisadi strukturları ilə fəal əməkdaşlıq edir. Hazırda bu təşkilatların köməyi sahəsində yüz iyirmidən artıq milli və transregional lahiyə həyata keçirilir.

Azərbaycanın xarici siyasəti obyektiv reallıqlar üzərində qurulmuş, beynəlxalq aləmdəki qüvvələr nisbəti hesaba alınmağa, saf-çürük edilməyə başlanmışdır. Mənafelərin qarşılıqlı surətdə nəzərə alınması tezisinə diqqətlə yanaşılaraq mənafelər arasında tarazlıq yaratmaq xətti diplomatiyamızın təməl daşlarından və əsas qanunlarından biri olmuşdur. Artıq ən yaxın qardaş ölkə, dost ölkə məfhumları aradan çıxmışdır. Daha ayrı-ayrı dövlət adamlarının və siyasi xadimlərin subyektiv baxışları və emosional mövqeləri meyar kimi götürülməyir və əsas diqqət yavaş-yavaş qarşılıqlı mənafelərin təmin edilməsinə yönəldilir. Məsələyə birinci növbədə xalqımızın mənafeyi istiqamətindən baxılır və bu da öz real səmərələrini verməkdədir. Ətrafımızda bizə qarşı düşmənçilik ruhu ilə dolmuş kəskin ab-hava artıq dəyişərək yumşalmışdır.

Prezident Heydər Əliyevin apardığı məqsədyönlü və ardıcıl xarici siyasət sayəsində bu sahədə əsaslı dönüş baş vermişdir. Siyasətdə axtarışlar və araşdırmalar dövrü sona çatmış, qəti addımlar atmaq mərhələsi gəlmişdir. Xarici siyasətimizin əsas istiqamətləri, prioritetləri müəyyənləşdirilmiş, qarşı tərəflər müəyyən edilmiş, dövlətlərarası münasibətlərin bəzi anlarda şəxsi dostluq münasibətlərinə dönməsi mərhələsi başlanmışdır. Məsələn vaxtı ilə Heydər Əliyev cənabları və İran Prezidenti Haşimi Rəfsəncani arasındakı dostluq Azərbaycan-İran dostluğunun daha da möhkəmlənməsinə böyük yardım göstərmişdi. Dövlətimizin başçısı Moskvada çap olunan "Sobesednik" qəzetinin müxbiri ilə müsahibədə bu dostluğa işarə vuraraq qeyd etmişdi ki, Naxçıvanın çətin anlarında Türkiyə və İran rəhbərləri ilə olan köhnə şəxsi əlaqələr kara gəlmiş, bölgəyə bu ölkələr tərəfindən yardım göstərilmişdi *("Azərbaycan" qəzeti, 10 avqust 1993-cü il).*

Ölkəmizin başçısı yazıçı Aleksandr

Proxanovla müsahibədə isə bu mövzuya yenidən toxunaraq İranın çətin anlarda Naxçıvana yardımını belə təsvir etmişdir: "...İran və Türkiyə rəhbərləri ilə aramızda şəxsi dostluq münasibətləri yarandı. İran Prezidenti öz təyyarəsini Naxçıvana göndərdi. Mən onunla Tehrana gedib, yardım barəsində razılığa gəldim. Biz elektrik xətti çəkdik və İrandan enerji almağa başladıq. Eləcə də yanacaq və ərzaq..." *("Azərbaycan" qəzeti, 12 avqust 1993-cü il).*

Hazırda İran İslam Respublikasının Prezidenti cənab Xatəmi ilə yaradılan dostluq münasibətləri də ölkələrimizin əlaqələrinin daha da möhkəmlənməsinə xidmət etməkdədir.

Azərbaycan Prezidenti hələ özünün ilk çıxışlarının birində, 15 iyun 1993-cü il tarixdə Milli Məclisin iclasında xarici siyasət sahəsində görüləcək işlərin istiqamətlərini müəyyənləşdirərək bildirmişdi: "Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir. **Qonşu İran İslam Respublikası ilə bizim münasibətlər yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir.** Rusiya çox böyük dövlətdir, bizim şimalda olan qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha da yaxşı, daha da geniş, səmərəli olmalıdır. Keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil olan bütün dövlətlərlə - Ukrayna, Belarus, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltika dövlətləri, Moldova ilə biz daha geniş qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu çox lazımdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüz illiklərlə çox yaxın olub. Bunları qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır. Şübhə etmirəm ki, məhz bu siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir.

Azərbaycan artıq ümumi dünya miqyasına çıxıbdır. Azərbaycan Respublikasına Amerika Birləşmiş Ştatları tərəfindən son zamanlar müsbət münasibətlər göstərilməsi hamımızı sevindirir və güman edirəm ki, bu münasibətlər daha da genişlənib inkişaf etdirilməlidir. Bütün Avropa ölkələri ilə bizim əlaqələrimiz genişlənməlidir. Xüsusən İngiltərə, Fransa, Almaniya və başqa Avropa ölkələri ilə. Bütün müsəlman ölkələri ilə, ərəb ölkələri ilə, türkdilli ölkələrlə bizim əlaqələrimiz daha da sürətlə inkişaf etməlidir. Bir sözlə, sadəcə olaraq, xarici siyasət sahəsində öz mövqeyimi bildirmək istəyirəm. Ali Sovetin sədri kimi bu istiqamətdə fəaliyyət göstərəcəm... " *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, səh.11-12).*

Çıxışın məzmunundan da göründüyü kimi, ölkəmizin başçısı rəhbərliyə gəldiyi ilk gündən bütün qonşularla, o cümlədən ilk növbədə yaxın qonşumuz olan İranla mehriban qonşuluq əlaqələrinin yaradılmasını, onların yaxşılaşdırılmasını və inkişaf etdirilməsini ön plana çəkmiş, yüz illiklərlə yaxın olduğumuz bu dövlətlə əlaqələri inkişaf etdirməyə çağırmışdır.

Dövlətimizin başçısı hələ o vaxtlar xarici siyasətimiz üçün bütün qonşularla dostluq və əməkdaşlıq - komplimentarizm yolunun Azərbaycan üçün ən önəmli bir yol

olduğunu bəyan edərək bildirmişdir: " ... İndi başqa zəmanədir. Mən Azərbaycanı gələcəkdə azad, müstəqil dövlət kimi görürəm.

Lakin demokratikləşdirmə, siyasi plüralizm yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, bütün ölkələrə - həm Qərb, həm də Şərq ölkələrinə açıq olmaq yolu ilə getməli olan azad, müstəqil dövlət kimi Azərbaycan, şübhəsiz, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər saxlamalıdır. O cümlədən də, əlbəttə, qonşularla" *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, səh.30).*

Əlavə edək ki, İranla bizim qonşuluq və dostluq əlaqələri hələ Sovet dövründə də möhkəm və sıx olmuşdur. Bu günləri Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyılarla görüşdəki yekun sözündə Azərbaycan Prezidenti aşağıdakı kimi xatırlayır:

" ...Orada hansı işlərin görüldüyünü burada dedilər. Bəli, qaz da çəkilib. Yaxşı yadıma saldılar. 1970 - 72-ci illərdə İrandan Sovet İttifaqına qaz kəməri çəkildi, Astaradan, Lənkərandan keçən qaz kəməri. Mən o qaz kəmərinin çəkilməsində və açılışında da iştirak etmişəm. Sovetlər İttifaqının Ali Sovetinin sədri Podqorni, İran şahı Məhəmməd Rza Pəhləvi və mən bu mərasimin iştirakçısı olmuşuq. Sonralar fikirləşdim ki, qaz kəməri İrandan gəlir Azərbaycana, buradan da Rusiyaya. O vaxt həmin qaz kəməri ilə üç milyard kubmetr qaz gəlirdi, indi az gəlir. O vaxt Lənkəran bölgəsində qaz yox idi. Bəli, o dövrdə, məhz o dövrdə, məhz Azərbaycan rəhbərliyinin qayğısı nəticəsində bu bölgəyə qaz çəkildi."

Yenə həmin görüşdə İranın hazırkı dövrdə ölkəmizə etdiyi yardıma toxunan Azərbaycan Prezidenti göstərmişdir: "Ancaq indi deyirlər ki, ora qaz heç kifayət etmir. Mən bunu bu yaxın günlərdə bilmişəm. İranın səfiri Əli Əsğər Nəhavəndian ilə danışarkən o dedi ki, İrandan biz qazı az alırıq, aldığımızın pulu da verilməyib. İndiyə qədər biz borcluyuq İrana. Mən xahiş etdim ki, siz qazı verin, görək sonra haqqını ödəmək üçün pulu haradan tapırıq" *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 79).*

İran ölkəmizdə sabitliyin bərqərar olmasında da Azərbaycana zaman-zaman siyasi dəstək göstərmişdir. Məsələn, qondarma Talış-Muğan Respublikasını yaratmaq istəyən Əlikram Hümbətov öz dəstəsi ilə İrana səfər etmək istəyərkən onun sərhədi keçərək İrana getməyə ixtiyarı olmadığı barədə İran hökumətinə xəbərdarlıq edildikdə İran tərəfinin buna heç vaxt yol verməyəcəyi bildirilmişdi ki, bu da ağır sınaqlardan çıxan ölkəmiz üçün vaxtında göstərilən böyük siyasi dəstək idi.

İKT-yə daxil olan bütün dövlətlərin, o cümlədən İranın dostəyini qazanmaq və sıx siyasi-iqtisadi əlaqələr qurmaq, bütün qonşu dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmaq kimi müəyyənləşdirilən xarici siyasət xəttimizin başlıca istiqamətlərindən birinə çevrildi.

Sivilizasiyalı birgəyaşayış qaydalarına və prinsiplərinə riayət devizi altında böyüklüyündən və kiçikliyindən, yaxınlığından və uzaqlığından asılı olmayaraq bütün qonşu ölkələr və xalqlarla, xüsusi ilə də Yaxın və Orta Şərq ölkələri ilə qonşuluq və əməkdaşlıq ab-havası yaradıldı. Hamı ilə mehriban qonşuluq şəraitində yaşamaq istəyimiz nümayiş etdirildi. Prezident Heydər Əliyev tərəfindən dəfələrlə bəyan edildi ki, biz heç kəsə ərazi və torpaq iddiasında deyilik, ölkəmiz sülhsevər bir ölkədir və heç vaxt zorakılıq mənbəyi olmayacaqdır.

Torpaqlarımızın 20%-ni işğal edən mənfur erməni qonşularımıza da belə biz sülh təklif edir, münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində danışıqlar yolu ilə çözülməsini istəyirik. Dövlət başçısının bəyan etdiyi kimi "... bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq". *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s.205)*

Azərbaycan Şərq ilə Qərbin arasında yerləşdiyinə görə, Azərbaycan Prezidenti ilk gündən təkcə Qərblə deyil, həm də qonşu Şərq dövlətləri, ərəb və islam aləmi ilə də sıx əlaqələr qurmaq üçün əlindən gələni əsirgəmədi. İlk növbədə hələ 70-ci illərdə bir sıra Şərq dövlətlərinin rəhbərləri ilə yaratdığı şəxsi əlaqələrdən və təmaslardan yeni yaradılacaq əməkdaşlığın təməlini qoymaq üçün istifadə etmək istiqamətində əməli addımlar atdı.

Elə Kasablanka Zirvə toplantısında Asiyanın müsəlman ölkələri adından nitq söyləməyin Azərbaycan Respublikasının Prezidentinə həvalə edilməsi faktı dünya siyasətində ona edilən böyük ehtiramın təcəssümüdür. Asiya ölkələri adından Azərbaycan Prezidentinin çıxış etməsi həm də onun başçılıq etdiyi Azərbaycana göstərilən diqqət və münasibətin nəticəsidir.

İslam dünyasının və dövlət başçılarının Prezidentimizin şəxsiyyətinə göstərdikləri böyük maraq haqqında, islam ölkələri liderləri ilə öz şəxsi əlaqələri haqqında Kasablanka Zirvə toplantısından sonra jurnalistlərlə görüşdə cənab Heydər Əliyev belə demişdir: "...Mən hesab edirəm ki, İslam Konfransı Təşkilatına daxil olan dövlətlərin tam əksəriyyəti Azərbaycanın bu ağır vəziyyətini başa düşür və ona kömək göstərmək əzmindədir. Şübhəsiz ki, indi bu Zirvə toplantısında iştirak etməyimiz, mənim bir çox ikitərəfli görüşlərim olduqca əhəmiyyətlidir. Görüşdüyüm adamların bir çoxu ilə keçmişdən tanışam, çoxları ilə bir vaxtlar görüşlərim olub... Əlbəttə, bütün bunlar əhəmiyyətlidir. Çünki islam dünyası mənim şəxsiyyətimlə vaxtilə, şübhəsiz, çox maraqlanıb. Xüsusən mən Sovetlər İttifaqının rəhbərlərindən biri olduğum dövrdə hər bir müsəlman maraqlanırdı ki, indi Sovetlər dövlətinin rəhbərliyində bir müsəlman da var. Ona görə də onların mənim haqqımda qiyabi məlumatları tanış olmadığım adamların məlumatlarından çox idi. Şübhəsiz ki, bunlar Azərbaycan üçün çox əhəmiyyətlidir... " *(Müstəqilliyimiz əbədidir, yenə orada)*

Göründüyü kimi, Şərq dünyası və onun başçıları ilə Prezidentimizin əlaqələri hələ 70-ci illərdən qurulmağa və formalaşmağa başlanmış, ölkəmiz öz müstəqilliyini qazandıqdan sonra isə indiki real konturlarını almışdır.

Regionda yerləşən bütün bü dövlətlərlə yaxın əlaqələri inkişaf etdirib möhkəmləndirmək ölkəmiz üçün çox vacib idi. Bunu ilk növbədə ən yaxın qonşularımız olan, tarixi, etnik, din, dil, siyasi və iqtisadi cəhətdən bizim üçün önəmli, adət-ənənə baxımında bizə daha yaxın olan Türkiyə və İrana aid etmək olar.

Bu amili nəzərə alan Azərbaycan Prezidenti dövlətimizmin xarici siyasətini quraraq bu sahədə əməli addımla atmış, ölkəmizin mövqeyini təkcə regionda deyil, həm də beynəlxalq aləmdə möhkəmləndirmişdir.

Qeyd etmək lazımdır ki, dövlətimizin bu xarici siyasət kursunda İranın özünə məxsus çəkisi və yeri var.

Unutmamalıyıq ki, bizim üçün çətin anlarda İran Azərbaycanın haqq işini dəstəkləmiş, bizə yardım əlini uzatmaq üçün əməli addımlar atmış, bizim üçün ağır anlarda ölkəmizə bütün beynəlxalq qurumlarda siyasi dəstək vermiş, Qarabağdan erməni qoşunlarının çıxarılmasını tələb etmişdir. İranın bu problemin həllində vasitəçilik təkliflərini irəli sürməsi, bizə kreditlər verməsi, Naxçıvan blokada şəraitində olarkən bu bölgənin elektrik enerjisi və ərzaqla təmin edilməsində yardım göstərməsi, Naxçıvanın yanacaq və ərzaqla təminatını təşkil etmək üçün sərhədlərini və yollarını açması, erməni hücumuna məruz qalan sərhəd rayonlarında yaşayan dinc əhalinin xilas edilməsində köməklik etməsi, 100 min qaçqın və didərgin düşmüş insanı öz himayəsi altına alaraq onların təminatını uzun illər boyu öz üzərinə götürməsi də İran İslam Respublikasının ölkəmizə qarşı mehriban qonşuluq və dostluq münasibətləri saxlamaq, inkişaf etdirmək niyyətini göstərən, sübut edən faktlardandır.

İran dəfələrlə bəyan etmişdir ki, Qarabağ probleminin həllində də vasitəçilik missiyasını öz üzərinə götürməyə, bu məsələnin həllində imkanı daxilində yardım göstərməyə hazırdır.

Əlbəttə, bütün bunlar heç də bizim dövlət maraqlarımızın İranın dövlət maraqları ilə tam şəkildə üst-üstə düşdüyünə dəlalət etmir. Dünya siyasətinin bir çox problemləri üzrə mövqelərimizin üst-üstə düşməsinə baxmayaraq, onlarda ziddiyyətli anlar da mövcuddur.

Hazırda iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazasını yaratmaq məqsədilə, bir çox sahələrdə əməkdaşlığı nəzərdə tutan saziş, protokol və müqavilələr imzalanmışdır.

Vaxtaşırı olaraq hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Tehranda görüşürlər, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirlər.

Yuxarıda qeyd olunan məsələlər nəzərə alınaraq, bu dövlətlə dostluğumuzu və əməkdaşlığımızı qoruyub saxlamaq, daha da gücləndirmək Prezident Heydər Əliyev tərəfindən diplomatiyamızın qarşısında qoyduğu əsas məqsədlərdən və vəzifələrdən biridir.

İRAN HAQQINDA SÖZ

İranda hamı bilməlidir ki, Azərbaycan həmişə İranın dostu olub, bu gün də dostudur, gələcəkdə də dostu olacaqdır.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

İran Asiyadakı ən qədim dövlətlərdən biridir və bizim eradan əvvəl 558-ci ildə Kir tərəfindən Əhəməni imperiyasının yaradılması ilə öz tarixinə başlamışdır. Uzun əsrlər bu dövlət Sasanilər imperiyasının əsasını təşkil etmiş (224-651-ci illər), sonralar Ərəb Xilafətinin (VII-IX əsrlər), Monqol dövlətinin tərkibində olmuş (XIII əsr), Əmir Teymur (XIV əsr) tərəfindən istila edilmiş, Səfəvilər (1502-1722-ci illər) və Qacarlar sülaləsi (1796-1925-ci illər) tərəfindən idarə edilmişdir.

XIX əsrin sonunda ölkə İngiltərə və Rusiyanın müstəmləkə siyasəti nəticəsində onların təsiri altına düşmüşdür.

1921-ci ildə İngiltərənin təhriki ilə ölkədə hərbi nazir Rza Pəhləvinin rejimi hakimiyyət başına gəlmiş, 1925-ci ildə o, şah elan edilmişdir. II Dünya Müharibəsindən sonra İran Qərb və Şərq arasında şiddətlə davam edən soyuq müharibə orbitinə cəlb edilərək SENTO blokuna qoşulmuşdur (1955). 1953-cü ildə ölkə istiqlaliyyətini möhkəmlətmə siyasətini həyata keçirən M.Müsəddiqin qanuni hakimiyyəti xarici qüvvələrin təşkil etdiyi çevriliş nəticəsində devrilmişdir. 1959-cu ildə Məhəmməd Rza Pəhləvi (1941-ci ildə şah elan olunmuşdur) ABŞ ilə bölgədə bu ölkənin hərbi iştirakını qüvvətləndirən hərbi müqavilə imzalamışdır.

60-cı illərdə xalqın hökumət əleyhinə çıxışları nəticəsində hakim dairələr Qərb nümunələri əsasında ölkənin inkişafını sürətləndirən "Ağ inqilab" adlanan bəzi sosial-iqtisadi islahatların həyata keçirilməsinə məcbur oldular.

Aqrar islahat adı altında keçirilən bu siyasət əslində Qərb siyasətçilərinin məsləhəti ilə həyata keçirilirdi.

1978-79-cu illərdə Ayətülla Xomeynin rəhbərliyi altında İranda şah rejiminə qarşı mübarizə özünün zirvə nöqtəsinə çatdı. Mübarizədə İran cəmiyyətinin demək olar ki, bütün təbəqələrinin nümayəndələri fəal iştirak edirdilər İslam dəyərlərini və ədaləti ölkədə bərpa etməyə səy göstərən şiə ruhanilər İnqilaba rəhbərlik edirdilər.

1979-cu il fevralın 11-də şah rejimini süquta uğradan İslam inqilabı qələbə çaldı. İran dərhal SENTO-dan çıxdı, bloklara qoşulmayan ölkələrin platformasında dayandı. 1979-cu il aprelin 1-də İran İslam Respublikası elan edildi.

Coğrafi mövqeyi

İran İslam Respublikası (1979-cu ildən belə adlanır) Orta Şərqdə, Asiya qitəsinin cənub-qərbində yerləşir.

Şimalda - Azərbaycan, Türkmənistan,

həmçinin Ermənistanla həmsərhəddir. Həmin ölkələrlə quru sərhədlərinin ümumi uzunluğu 1963,5 km-dir. Xəzər dənizinin İran üzrə sahil xəttinin uzunluğu 973 km-dir. İran həmçinin Türkiyə (470 km), İraq (1280 km), Pakistan (830 km) və Əfqanıstanla (850 km) həmsərhəddir. İranın cənubunda (Fars və Oman körfəzləri) sahil xətti 1880 km-dir.

Sahəsi

Ərazisi 1648 min kv.km-dir. Ərazisinin yarıdan çoxunu dağlar təşkil edir, ən yüksək zirvəsi Dəmavənddir (5604 m). Daxili rayonlar yaylalardan və səhralardan (Dəşti-Kəbir və Dəşti-Lüt) ibarət olan düzənliklərdir. Ölkənin ən soyuq yerləri - Xorasan və Kürdüstanın yüksək dağlıq bölgələridir (-15-20 U), ən isti bölgəsi Xuzistan çökəkliyidir (+55 U).

Ən böyük çayı Şəttülərəb (Ərvəndrud) və onun qolu olan Karundur. Sefidrud, Zayəndərud və Qorqan kimi başqa çayları da var. Ən böyük gölü olan Urmiyə 7800 kv. km. sahəni əhatə edir.

Əhalisi

Əhalinin sayı 68,9 milyon nəfərə yaxındır (1998-ci il üzrə). Əhalinin illik artımı 2,3%-dir (1998). İranda 30-dan artıq xalq yaşayır.

Farslarla yanaşı, ölkənin iki böyük etnik vahidlərindən birini azərbaycanlılar təşkil edirlər (25-28 faiz), sonra isə kürdlər (5 faizdən çox), lurlar, ərəblər, türkmənlər, beluclar, tatlar, talışlar, ermənilər və başqa etnik qrupların nümayəndələri gəlirlər.

Din və dil

İran Konstitusiyasının 12-ci maddəsində deyilir: "İranın rəsmi dini - islam, məzhəbi - Cəfəri isnəşəridir (12 imam)".

Əhalinin əksəriyyəti müsəlmandır (98 faiz). Başqa məzhəblərinin ardıcılları öz dini mərasimlərini icra etməkdə azaddırlar. İranda zərdüştilər, yəhudilər və xristianlar dini azlıqlar hesab edilirlər.

Konstitusiyaya görə, "İran xalqının rəsmi və müştərək dili fars dilidir (15-ci maddə)", yerli dillər kütləvi informasiya vasitələri tərəfindən istifadə oluna bilər. Həmin dillərdə qeyri-fars milliyyətlərinin yaşadığı bölgələrdə ədəbiyyat fənninin tədrisinin aparılması azaddır.

İnzibati-ərazi bölgüsü

İnzibati cəhətdən İran 25 əyalətdən (ostan) ibarətdir, hər əyalət şəhristana (quberniya), sonra isə bəxşə (qəza) və dəhestana (nahiyə) bölünür. Tehran ayrıca ostan halındadır.

Paytaxtı Tehrandır (əhalisi 12 mln-dan artıq). Başqa böyük şəhərləri: Məşhəd (1,5 mln), İsfahan (1 mln), Təbriz (bir mln-a yaxın) və Şirazdır (800 min).

1992-ci il martın 12-də Azərbaycan Respublikası və İran İslam Respublikası arasında diplomatik münasibətlər qurulmuşdur.

Azərbaycan Respublikasının səfirliyi 1992-ci ilin dekabr ayının 8-də Tehranda fəaliyyətə başlamışdır.

Dövlət quruluşu

1979-cu il fevralın 11-də İranda monarxiya ləğv olunmuş, martın 30-31-də

keçirilən referendum nəticəsində 1 aprel 1979-cu ildə İran İslam Respublikası elan edilmişdir. Ümumxalq səsverməsi yolu ilə 1979-cu il dekabrın 3-də təsdiq olunmuş Konstitusiya qüvvədədir. 1989-cu il iyulun 28-də ona dəyişikliklər edilmişdir. Konstitusiya respublika quruluşunun yaranmasını, bütün hakimiyyətin dini-siyasi dairələrin nümayəndələrinə keçməsini hüquqi cəhətdən təsdiq etmişdir.

İran İslam Respublikasında dövlət hakimiyyəti bir-birindən asılı olmayan qanunvericilik, icraedicilik və məhkəmə sahələri vasitəsilə ölkənin Ali Dini Rəhbərinin nəzarəti altında həyata keçirilir.

İslam inqilabının rəhbəri Ayətulla Xomeyninin vəfatından sonra 4 iyul 1989-cu ildə İran İslam Respublikasının yeni Ali Dini Rəhbəri vəzifəsinə Ayətülla Seyid Əli Xamneyi (1939-cu ildə anadan olmuşdur) seçilmişdir.

Ali Dini Rəhbərdən sonra ölkədə ən yüksək vəzifəli şəxs Prezidentdir. Prezident üzərinə Konstitusiyanın icra olunması üzrə məsuliyyət, bilavasitə Ali Dini Rəhbərin səlahiyyətinə aid olan məsələlər istisna olunmaqla icraedici hakimiyyətə rəhbərlik etmək vəzifəsi düşür. O, həmçinin planlaşdırma, büdcə, inzibati işlər və icra məsələləri üzrə məsuliyyət daşıyır. Başqa dövlətlərlə müqavilə və saziş imzalayır, xarici dövlətlərin səfirlərindən etimadnamələri qəbul edir, Xarici İşlər Nazirliyinin təqdimatı ilə səfirləri təyin edir. Prezident Nazirlər Kabinetinə başçılıq edir, nazirləri təyin edir və təsdiq üçün İslam Şurası Məclisinə (Parlament) təqdim edir. Prezident dördillik müddətə ümumi səsvermə yolu ilə seçilir və bir müddətdən artıq olmayaraq yenidən həmin vəzifəyə seçilə bilər. O, öz fəaliyyətinə görə "Xalq, Ali Dini Rəhbər və Məclis" qarşısında məsuliyyət daşıyır.

1997-ci ilin mayında İİR-in Prezidenti vəzifəsinə Seyid Məhəmməd Xatəmi seçilmişdir. Seyid Məhəmməd Xatəminin vəzifəsini (o olmadığı halda), həmçinin Nazirlər Kabinetinin cari rəhbərliyini sabiq ədliyyə naziri, birinci vitse-prezident Həsən Həbibi həyata keçirir.

Silahlı qüvvələr

İİR-in Silahlı Qüvvələri quru qoşunları hərbi hava və hərbi dəniz qüvvələrindən ibarətdir. Xidmət edənlərin ümumi sayı təqribən 900 min nəfərə yaxındır. Hər il 2 mln nəfər xalq səfərbərliyi çərçivəsində məcburi hərbi hazırlıq keçir.

Siyasi partiya və təşkilatlar:

1981-ci ildə qəbul olunmuş qanuna və İİR-in Konstitusiyasına əsasən İranda qeyri-islami siyasi partiya və təşkilatların fəaliyyəti qadağan olunmuşdur. Ölkədə hakimiyyət təmayüllü bir sıra islam təşkilatları mövcuddur: "Mübariz ruhanilər cəmiyyəti" (rəhbəri N.Nuri), "Mübariz ruhanilər liqası" (M.Kərrubi), "İslam inqilabı doyərlərinin müdafiəsi cəmiyyəti" (rəhbəri M.Reyşəhri). 1998-ci il may ayında İranda ilk partiya kimi "Quruculuq xadimləri partiyası" qeydə alınmışdır (rəhbəri Q.Kərbasçi). Bu partiya Rəfsəncani - Xatəmi kursunu dəstəkləyir.

Müxalifətdə olan təşkilatlara gəlincə, onlar son zamanlar əslində İrandakı vəziyyətə təsir etmək imkanlarını mahiyyətcə itirmişlər. Onların rəhbərliyi isə (Avropa ölkələri, ABŞ, həmçinin İraqda) mühacirətdədir. Sol demokratik şüarlarla çıxış edən müxalifətçi təşkilatlar arasında az-çox gözə çarpan 1971-ci ildə yaradılmış İran Xalqının Fədailəri Təşkilatı - əksəriyyət (İXFT -

rəhbəri F.Negəhdar), 1965-ci ildə yaradılmış İran Xalqının Mücahidləri Təşkilatı (İXMT - rəhbəri M.Rəcəvi), 1945-ci ildə yaradılmış İran Kürdistanının Demokratik Partiyası (İKDP) və həmçinin 1941-ci ildən fəaliyyət göstərən İran Xalq Partiyasıdır (TUDƏ - Baş katibi Ə.Xavəri). Müxalifətin başqa hissəsini şahpərəst, liberal-burjua təmayüllü qruplar təşkil edir.

İqtisadiyyat

İran aqrar-sənaye ölkəsidir. Sənaye ümumi milli məhsulun yarıya qədərini təşkil edir. 1998-ci ildə milli gəlir 76,8 mlrd. dollar olmuşdur. Adam başına düşən gəlir 1, 428 dollar təşkil edir.

Ümumi daxili məhsulda (186,7 mlrd. doll.) özəl sektorun payı artmış (38 faizə qədər), dövlət sektorunun payı isə azalmışdır.

İqtisadi yüksəlişə baxmayaraq 3,5 mln. nəfərə çatan işsizlik (əmək qabiliyyətli əhalinin 20 faizi) ciddi problem olaraq qalır.

Ölkənin valyuta-maliyyə vəziyyəti dövlət büdcəsinin xroniki kəsiri ilə xarakterizə olunur (3 mlrd. dollara yaxın). Gəlirin əsas hissəsi neft ixracından əldə olunur. Qeyri neft ixracından əldə olunmuş gəlir 2,3 mlrd. dollar (1998) təşkil edir.

İnflyasiya tempi 30-35% (1998) faizə yaxındır. 1998-ci ilin əvvəli üçün ölkənin ödənilməmiş xarici borcunun həcmi 14,3 mlrd. dollar təşkil etmişdir.

İranın qızıl valyuta ehtiyatlarını 13 mlrd. dollar təşkil edir.

Sənaye tədricən durğunluq vəziyyətindən çıxır. Lakin sənaye əvvəlki kimi xarici iqtisadi əlaqələrin pozulmasından və valyuta vəsaitinin çatışmamazlığından zərər çəkir. Çünki xammalın 60 faizi və təchizatın 90 faizi idxaldan asılıdır. Valyuta ilə alınmaya illik ehtiyac 10-12 mlrd. dollar olduğu halda indi bura 4,5 mlrd. dollar vəsait ayrılır.

İİR-in iqtisadiyyatının çox mühüm sahəsi neftçıxarma və neft-qaz emal edən sənayedir. Ölkənini əsas sərvəti olan neftin ehtiyatına görə İran regionda Səudiyyə Ərəbistanı və Küveytdən sonra 3-cü yerdədir. Təqribi hesablamalara görə bu ölkənin aşkar edilmiş neft ehtiyatları 8,4 mild. tondur. Bu sahə ümumi daxili məhsulun 14 faizə qədərini, dövlət büdcəsinə daxil olan vəsaitin üçdə birini, həmçinin valyuta gəlirinin 87 faizini təşkil edir. İran ildə 180 mln. tona yaxın neft çıxardır. OPEK-in İran üçün təyin etdiyi neftçıxarma həddi (kvota) gündə 3,1 mln. barreldir.

İran daxili imkanları hesabına neft məhsullarına olan tələbatını ödəməyə qadir deyildir. Neft məhsulları idxalının miqdarı ildə 7-8 mln. ton təşkil edir (İranın tələbatının 25-30 faizi).

İran həmçinin, 14 trln. kub/m kəşf olunmuş qaz ehtiyatlarına malikdir. İllik çıxarılan qazın miqdarı 58 mlrd. kub/ metrdir.

İran iqtisadiyyatının nisbətən geridə qalmış sahəsi kənd təsərrüfatıdır. İranın buğda, düyü, şəkər, bitki yağına olan illik ehtiyacını 2 mlrd. dollardan artıq məbləğ təşkil edir. Son zamanlar ərzaq məhsullarının idxalının artmasına doğru təmayül meydana gəlmişdir. Bundan başqa, kənd təsərrüfatı texnikasının idxalına olan ehtiyac 3 mlrd. dollar təşkil edir. Hər il bu ehtiyacın 40-60 faizi təmin olunur. Becərilən torpaqların sahəsi 17 mln. hektardır (ölkə orazisinin 10 faizi), onlardan suvarılanı 4,2 mln. hektardır.

İranın ticarət dövriyyəsinin dörddə üçü inkişaf etmiş, 15 faizə yaxını isə inkişaf etməkdə olan ölkələrin payına düşür. İranın əsas ticarət tərəf müqavilləri Yaponiya (ticarət dövriyyəsi - 5,7 mln dollar), İtaliya (5 mln. dollara yaxın), Fransa (3,9 mln. dollar), İngiltərə, Almaniya, Türkiyə, həmçinin Cənubi Koreyadır.

İran ixracatının əsasını neft təşkil edir. Həmçinin, yüngül sənayenin bəzi xammal növləri və kənd təsərrüfatı məhsulları, xalçalar ixrac edilir. İdxalın 30 faizə yaxını ərzaq məhsullarının, 50 faizə qədəri isə maşın və təchizatın, sənaye üçün xammalın payına düşür.

Nəqliyyat

İranda daşınmanın əsas hissəsi avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilir (82%). Ölkədə müasir standartlara cavab verən avtomobil yollarının uzunluğu 60 min km-ə, dəmir yolu şəbəkəsi isə 6 min km-ə (o cümlədən 260 km-i elektrikləşdirilmiş) yaxındır.

Kütləvi informasiya vasitələri (KİV)

KİV, əsasən, dövlətin nəzarətindədir. Ən böyük qəzetlər "Keyhan", "Ettelaat", "Əbrar" (fars dilində), "Tehran Tayms" (ingilis dilində) qəzetləridir. İran İslam Respublikasının Radio və Televiziya müəssisəsi dövlət orqanıdır. Milli İnformasiya Agentliyi - "İRNA"dır.

Milli bayram: fevralın 11-də qeyd edilir - İslam inqilabı günü

İranda yeni il (Novruz bayramı) hicri-şəmsi tarixi ilə martın 21-də qeyd edilir.

İstirahət günü - cümədir.

Bakı və Tehran arasında vaxt fərqi 30 dəqiqədir.

* * *

İran İslam Respublikasının bayrağı 3 - yaşıl, ağ və qırmızı rənglərdən ibarətdi. Bayraqdakı ağ zolağın ortasında kəsişən qılınc şəklində olan Allah sözü həkk edilmişdir.

İnqilab nəticəsində İran öz ictimai-siyasi quruluşunu dəyişdirmiş, 1979-cu il aprelin 1-də İran İslam Respublikası elan olunmuşdur. İmam Xomeyniyə görə, İran bir islam respublikası kimi bilavasitə şəriət qanunları əsasında təşəkkül tapmalı idi. Bu qanunlar xalqın hüquq bərabərliyini təmin etməli, onları islam dini yolunda birləşdirməli idi. İmamın fikrincə, islam respublikası demokratik bir quruluşdur. Bu quruluşun başında avtoritar prinsiplərə söykənən monarx yox, bütün xalq durur. Xalq öz dövlət orqanlarını seçir və hakimiyyəti onların ixtiyarına verir. Məhz bu prinsiplə İran xalqı artıq özünün beşinci prezidentini seçmişdir.

İran İslam Respublikasında 32 milyon seçici var. Onlardan 20 milyon nəfəri hazırkı Prezident Seyid Məhəmməd Xatəmiyə səs vermişdir ki, bu da toplanan səslərin 69 faizini təşkil edir.

Vaxtilə sadə bir nəşriyyat işçisi olan, iş gününün çoxusunu İmam Xomeyninin "Keyhan" nəşriyyatında keçirən, İmamın nəfis cildlərini buraxan hazırkı İran Prezidenti Seyid Seyid Məhəmməd Xatəmi islam inqilabının yetişdirmələrindəndir. . O, İrandakı islam inqilabının hər üç əsas mərhələsinin iştirakçısıdır. İnqilabın ilk günlərində siyasi məqalələr müəllifi olan Seyid Məhəmməd Xatəmi sonradan yazırdı ki, insanı üç şey ucaldır - elmi, imnaı və bir də əməllərindəki gözəl işləri.

Yeni Prezident Seyid Məhəmməd Xatəmi İslam inqilabının başlıca prinsiplərini əsas tutaraq İmam Xomeyninin vəsiyyətlərinə sadiq qalacağına and içib. Hələ neçə il bundan qabaq Seyid Məhəmməd Xatəmi

"Mübarizə Aparan Ruhanilər Assosiasiyası"nın rəhbər heyətinə seçilmişdir.

Seyid Məhəmməd Xatəmini "Quruculuq Xadimləri Qrupu"da müdafiə edir. İranda güclü nüfuzu olan bu siyasi qrup, eks-prezident Haşimi Rəfsəncani tərəfindən yaradılıb. Bu qrupun siyasi platforması hadisələrə, xüsusən iqtisadiyyata liberal münasibətlər bəsləməkdən ibarətdir..

Prezident seçkilərində Seyid Məhəmməd Xatəminin arxasında məlız bu iki güclü və nüfuzlu siyasi təşkilatlar dayanmışdı.

Seyid Məhəmməd Xatəminin mənsub olduğu Xatəmilər nəsli İranda böyük bir nəsildir. Deyilənə görə İranda əllidən artıq "Xatəmi" familiyasını daşıyan nəsil var. "Xatəmi"lər nəslinin bir qolu Məhəmməd Peyğəmbərin ocağına bağlıdır.

Seyid Məhəmməd hələ 1970-ci ildən, siyasi aləmə atılan gündən İmam Xomeyninin əsərlərini mütaliə etmiş, məqalələr yazmış, Seyid Əhmədlə (Xomeyninin oğlu) dostluq etmişdir. Bu dostluq sonradan ailəvi dostluğa və qardaşlığa çevrilmişdir. O, Tehran universitetini bitirdikdən sonra tədqiqat işlərilə məşğul olur. İnanılmış və etibarlı şəxs kimi dövlətin Silahlı Qüvvələrinin Baş Qərargahı rəisinin müavini təyin olunur. Sonra Prezidentin mədəniyyət üzrə müşaviri və eyni zamanda İran milli kitabxanasının müdiri təyin edilir. Və nəhayət, 80-ci illərin ortalarında İslam İnqilabının rəhbəri Həzrət Ayətulla Xomeyninin fərmanı ilə Ali Mədəni İnqilab Şurasının üzvü vəzifəsinə irəli çəkilir.

Seyid Məhəmməd Xatəmi həm də müctəhiddir. Bu, onun dini tituludur. İranda bu müqəddəs adı ən layiqli və sədaqətli, tanınmış ruhanilər daşıyır və onlara müsəlman hüququ ilə bağlı ciddi mühakimə və fikirlərini "Cümə namaz"larında geniş ictimaiyyətə çatdırmaq hüququ verilir.

Hələ 1983-cü il yanvarın 1-də İmam Xomeyninin verdiyi fərmana əsasən Tehranda "İnanılmış adamlardan" ibarət xüsusi bir qrup yaradılmışdı. Bu qrupa daxil olanlar hər yerdə imamın göstərişlərini yerinə yetirilməsinə nəzarət edir, məhkəmə orqanlarında, nazirliklərdə İran İslam Respublikasına xəyanət edənləri ciddi cəzalandırırdılar. Seyid Məhəmməd Xatəmi də həmin inanılmışlar cərgəsində idi.

1988-ci ilin iyun ayında Ayətulla Xomeyni sağ ikən vəsiyyətnaməsi elan olunmuşdu. İmamın vəsiyyətnaməsinin geniş şəkildə nəşr edilib yayılmasında, təbliği işində böyük əmək sərf etmiş şəxsiyyətlərdən biri də məhz Seyid Məhəmməd Xatəmi olmuşdu.

Seyid Məhəmməd Xatəmi mədəniyyət naziri olanda ölkənin nəşriyyat işlərində, ümumən İran jurnalistikası tarixində ölkənin və xalqın, inqilabının xeyrinə islahatlar aparmağa müvəffəq olmuşdu. Hazırda bir Prezident kimi apardığı islahatlara görə onu "İranın Den Syaopin"i adlandırırlar.

Prezidentliyin 100-cü günü münasibətilə Tehran televiziyasının birinci proqramı ilə xalqa hesabat verən Seyid Məhəmməd Xatəmi qonşu dövlətlərə dost və mehriban münasibətdə olacağını vurğulayaraq demişdi: "Dostluğa və qardaşlığa böyük ehtiram göstərən mənim xalqım böyük və qüdrətli xalqdır. Bu sahədə onun qədim tarixi var. O tarix bu gün də yaşayır, sabah da yaşayacaq".

İran İslam Respublikası bizim dostumuz, dünyada nüfuz sahibi olan qonşumuzdur. İran parlamentinin üzvləri arasında, Prezident dəftərxanasında çalışanlar və eləcə də ayrı-ayrı siyasətçilər arasında bu qardaşlıqdan, dostluq əlaqələrindən geniş bəhs edən və bu əlaqələri həmişə qoruma-

ğa çalışanlar çoxdur.

İranın Azərbaycanla olan gözəl və çox şaxəli münasibətlərini heç kəs poza bilməz. O, inkişaf edir. Özü də ölkələrimiz arasındakı əlaqələrin belə sürətli inkişafı şübhəsiz bəzi dövlətləri dilemma qarşısında qoyub. Belə bir fikir bu yaxınlarda Londonda Beynəlxalq Münasibətlər Kral İnstitutunda "İran, Şərq, yoxsa Qərb?" mövzusunda keçirilən beynəlxalq konfransda da açıqlanıb. Konfrans iştirakçıları bunu da etiraf ediblər ki, İranda bu gün demokratik prinsiplər inkişaf edir. Bunu görmək, bu yeni demokratik prinsipləri təhlil etmək, onu öyrənmək lazımdır. Vaxtı ilə İmam Xomeyni deyirdi: "Nə Şərq, nə də Qərb... Öz yolumuz". Yəni islam prinsiplərinə əsaslanmış bir yol.

Seyid Məhəmməd Xatəmi Azərbaycan və azərbaycanlı məsələsinə münasibətdə də diqqətli və həssasdır. İran İslam İnqilabının banisi İmam Xomeyni bu mövzuya toxunarkən demişdi ki, "Azərbaycan (burada Cənubi Azərbaycan nəzərdə tutulur) İranın başıdır..." Şübhəsiz ki, İran ilə Azərbaycan Respublikası arasında əlaqələrin genişləndirilməsində İranın azərbaycanlılar yaşayan əraziləri mühüm rol oynaya bilər və oynamaqdadır.

Ümumiyyətlə, milli və etnik mənsubiyyətindən asılı olmayaraq İran İslam Respublikasının vətəndaşlarının Konstitusiya hüquqları qorunur. Prezident seçiləndən sonra ölkənin vilayət və şəhərinə ilk səfərini Ərdəbildən başlayan Seyid Məhəmməd Xatəminin "Ərdəbil də, Tehran da mənim üçün əzizdir. Hər ikisi ürəyimin bir parçasıdır" - deməsinin böyük əhəmiyyəti olub. Təqribən 400 kilometr uzunluğunda Ərdəbildən Azərbaycanın müxtəlif istiqamətlərinə əlavə qaz kəmərləri çəkilib. Əlçatmaz Azərbaycan kəndlərindən bu gün elektrik, qaz və telefon xətləri keçir. Ərdəbil-Zəncan və Təbriz-Tehran istiqamətlərində min kilometrlərlə yeni, rahat, beynəlxalq standartlara cavab verən əlavə asfalt yolların çəkilişi (bəzi istiqamətlərdə artıq bu iş bitib) davam edir. Təbriz və Ərdəbildə keçirilmiş kino və kitab həftələrində azərbaycanlı şair və yazıçıların, tədqiqatçıların kitablarının da nümayiş etdirilməsi maraqla qarşılanıb. Bu iş Təbriz Universitetində daha gözəl təşkil edilmişdi. Təbriz televiziyasında və radiosunda Azərbaycan dilində hazırlanan verilişlərin həcmi artırılıb, redaksiyalar yenidən qurulub. İndi Təbrizin məşhur Gülüstan bağında müasir Azərbaycan müğənnilərinin səsləri yazılmış lentlər satılmaqdadır. Dükan və bazarlarda Azərbaycan filmləri köçürülmüş video kassetlərin yayılması da, Bakıda çıxan qəzetlərin oxunması da bu gün adiləşib. Artıq bunlara heç bir qadağa yoxdur. Bütün bunlar məhz Prezident Seyid Məhəmməd Xatəminin adı ilə bağlıdır. Seyid Məhəmməd Xatəminin sərəncamı ilə İran Azərbaycanında bir sıra kənd və şəhərlər indi yenilən tikilir. Köhnə və uçuq binalar sürətlə sökülür, yenisilə əvəz olunur. Təbrizdən azca aralı olan Tikmədaş kəndi bu gün böyüyür. Tehran magistral yolunun üstündəki bu kənd həm də XVIII əsrin gözəl şairi, ustad Aşıq Xəstə Qasımın vətənidir. O burada doğulub, bu kənddə dəfn edilib. Qəbri əvvəllər bərbad olub. İndisə şairin qəbrinin yenidən qurulması, onun heykəlinin qoyulması, şerlərinin toplanılıb kitab şəklində çap olunması qərara alınıb. Artıq şairin yaxın günlərdə dillərdə əzbər olan, yazıya köçürülməyən şerlərinin birinci cildi Azərbaycan dilində çap olunub.

İran Azərbaycanında İslam inqilabından sonra onlarla fars və Azərbaycan türkcəsində qəzet və jurnal işıq üzü görür.

İranda çıxan mətbuat səhifələrində Azərbaycan Prezidenti Heydər Əliyevə hörmət və ehtiram əhval-ruhiyyəsini əks etdirən məqalələr, oçerklər çap edilir. Gündəlik fars və Azərbaycan dillərində dərc olunan səhər qəzeti "Məhdi Azadi" Təbrizdə çıxır. Qəzet son nömrələrinin birində "İran və Azərbaycan münasibətlərində yeni və aydın üfüqlər açılmışdır" başlığı ilə verilmiş məqalədə yazır: "Azərbaycan Prezidenti Heydər Əliyevlə yaxın görüşdə biz də vardıq. Bir saatlıq görüşdə Azərbaycan Prezidenti iki ölkənin iqtisadi, ticarət, siyasət və mədəniyyət sahəsindəki münasibətlərinin genişlənməsini arzu etdi. O dedi: "İki ölkənin çox qədim və tarixi münasibətləri elə dərin və köklüdür ki, onun isbata ehtiyacı yoxdur. Azərbaycan milləti illər boyu İran milləti ilə dostluq həsrətində olmuş və biz 70 il iki millətin belə bir dostluq və əməkdaşlığının daha da möhkəmlənməsini gözləmişik.

Ölkələrmiz arasında olan problemlər qardaşcasına və səmimi bir şəraitdə həll ola bilər və səmimiyyət olan yerdə problemlər də öz-özlüyündə həllini tapar... İki ölkə arasında münasibətlərin yeni və aydın üfüqləri görünməkdədir ".

Bundan sonra "Məhdi Azadi" qəzeti İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin sözlərilə öz şərhinə belə yekun vurmuşdur:

"... İran iki ölkə arasında olan bütün maneələri götürmək niyyətindədir".

İranda kəskin qarşıdurmalar yoxdur. Dini liderlər arasında yaranmış hər hansı bir ixtilafa xalq həmişə və dərhal öz münasibətini bildirir.

İndi İranda ruhanilərin ali təbəqəsini müəyyən edən, ölkənin quruculuq işlərində bilavasitə rol oynayan doqquz yüz yetmiş nəfər Ayətulla vardır. Din xadimlərinin, ustad bilicilərin sayı isə artıq iki yüz min nəfərdən çoxdur. Ölkədə hazırda fəaliyyət göstərən 325 ruhani məktəbində və dini mərkəzlərində 72 min nəfər tələbə təhsil alır. Və bütün təhsil xərclərini də dövlət ödəyir.

Hazırda Tehran öz xarici siyasətini bir növ yenidən qurur, tarazlaşdırır. Ölkə yol ayrıcından çıxıb, inamla öz yolu, öz meramı ilə irəliləyir.

İranın, Çin, Rusiya, Hindistan kimi böyük dövlətlərlə münasibətlərində də yüksək irəliləyişlər diqqəti cəlb edir. Ölkənin Fransa, Yaponiya, İtaliya kimi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrlə əlaqələri də İranın ictimai-siyasi həyatında özünəməxsus rol oynayır. Fransanın "Total" neft-qaz şirkətinin Tehranla sövdələşməsi tərəflər üçün maraqlı nəticələr verib. Fransa bu müştərək işlərin görülməsi üçün iki milyard dollarlıq investisiya qoyub. Bu da imkan verəcək ki, "Total" İranın qaz hasilatında, neft sənayesinin inkişafında yaxından iştirak etsin. Həmçinin bu məsələlərin həyata keçirilməsində Rusiyanın "Qazprom" və Malaziyanın "Petronas" şirkətlərini də diqqəti cəlb edən proqramları var.

İranın, xüsusən Səudiyyə Ərəbistanına olan münasibətlərinin yaxşılaşması və inkişafı ölkənin xarici siyasətinin bir növ qələbəsidir. Artıq əvvəllər uzun müddət bağlanmış Tehran-Ciddə hava yolları indi açıqdır. Bu gün hər iki paytaxtdan yük və səmişin təyyarələrinin gündəlik uçuşları təmin edilib.

Bir tərəfdən Xəzər dənizi, o biri tərəfdən isə Fars və Oman körfəzlərilə əhatə olunmuş İran İslam Respublikası demək olar ki, bütün ölkələrilə münasibətlərinə yenidən baxıb.

Xatırladaq ki, bu ölkənin neft ehtiyatları cənubda yerləşir. İranın dəniz boyu,

yəni şimal zolağını əhatə edən güclü neft kəmərləri var... Ümumən götürəndə ölkənin illik ixracatı 24 milyard dollardır. Bunun 21 milyard dolları neft və neft məhsullarının xaricə satışından əldə olunur. Qalan 3 milyard dollar isə kənd təsərrüfatı və başqa məhsulların satışından qazanılır.

1996-cı ilin dekabr ayında Cakartada keçirilən islam ölkələrinin xarici işlər nazirlərinin konfransında qəbul olunmuş "qardaşlıq və əməkdaşlıq proqramı" Tehranda keçirilən İslam Konfransı Təşkilatının Zirvə toplantısının özəyi olmuş və bu proqramdan irəli gələn müddəaların həyata keçirilməsinə İran İslam Respublikası 2000-ci ilədək rəhbərlik etmişdir.

Ümumən Tehran özünün xarici siyasətində əsaslı dəyişikliklər etməkdədir. Ötən illər İran xalqı üçün çox əhəmiyyətli və tarixi illər, cürbəcür çətinliklərlə yanaşı nailiyyətlər illəri olmuşdur. İran xalqı iqtisadiyyat, mədəniyyət və siyasət sahələrində böyük uğurlar qazanmışdır. Xarici siyasətə gəldikdə isə, İran Prezidenti Seyid Məhəmməd Xatəmi 2001-ci ili sivilizasiyalararası dialoq ili elan etmək təklifini irəli sürmüş və bu təklif BMT Baş Məclisi tərəfindən bəyənilmişdir. İran öz xarici siyasətində bütün dövlətlərlə və xüsusilə qonşularla dostluq əlaqələri saxlamağı əsas tutur.

Azərbaycan Respublikasına münasibətə gəldikdə isə, şübhəsiz, bu yolda da yeni irəliləyişlərin olacağı labüddür. İki qonşu və qardaş xalqın normal münasibəti, dirçəlişə təkan verən və qarşılıqlı faydalanma prinsipinə söykənən əlaqələri yəqin ki, inkişaf edəcək. Buna isə hər cür şərait var.

İran İslam Respublikasının beynəlxalq münasibətlər sisteminin ümumi qəbul edilmiş prinsip və normalarına əsaslanan və bu əsaslar üzərində bütün dünya dövlətləri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq əldə edilməsi məqsədi ilə müəyyənləşdirilən xarici siyasət xəttində Avropaya yaxınlaşmaq cəhdləri, Qafqazda və Orta Asiya bölgələrində yeni mövqelər əldə etmək istəyi açıq şəkildə özünü büruzə verir, BMT, İƏT, İKT və digər beynəlxalq təşkilatlarda fəal iştirak etmək üçün atdığı qətiyyətli addımlarla səciyyələnir.

Öz beynəlxalq siyasi nüfuzunu daha da möhkəmləndirməyə, qlobal problemlərin həllində yaxından iştirak etməyə çalışan İranın ölkə iqtisadiyyatını yüksəltmək məqsədi ilə dünya miqyaslı iqtisadi strateji əhəmiyyət kəsb edən layihələrdə də yaxından iştirak etmək üçün fəallıq göstərdiyi müşahidə edilir. Buna misal olaraq onun Bakı-Ceyhan neft-boru kəməri, Transxəzər və Transqafqaz neft-qaz kəmərləri, tarixi "İpək yolu"nun bərpası, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması kimi layihələrdə iştirak etmək arzuları, Azərbaycan, Qazaxıstan, Rusiya və Türkmənistanla qlobal səviyyədə əməkdaşlıq etmək üçün birgə layihələrdə fəal iştirakı və onların bəzilərinin artıq həyata belə keçirilməsi bu siyasətin təzahürlərindəndir.

Bütün bunlarla yanaşı, İranın qlobal və regional qarşıdurmalarda iştirakı da müşahidə olunmaqdadır.

İran Suriya, Yunanıstan, Rusiya və Ermənistan ilə hərtərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verməkdədir.

İranın Türkiyə ilə münasibətlərində son zamanlar gərginlik getdikcə zəifləməkdədir. Bununla yanaşı, Tehranda keçirilən İran, Yunanıstan və Ermənistan xarici işlər nazirlərinin toplantısı və bu toplantıda səslənən bəzi iddialar Ankaranın ciddi narahatçılığına səbəb olmaqdadır.

İraqla olan münasibətlərə gəlincə onlar hələ də öz əvvəlki axarına düşə bilməmişdir. İran BMT-nin qərar və qətnamələri-

nə uyğun şəkildə hərəkət etməklə yanaşı, İraqın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəkləyir. Ölkənin bəzi iqtisadi dairələri öz qazancları naminə bu sanksiyaları pozmaqda İraqa gizli şəkildə yardım etməkdən belə çəkinmir. İrana aid gəmilərin müttəfiqlərin hərbi donanması tərəfindən dəfələrlə saxlanılması və nəql edilən İraq neftinin müsadirə edilməsi belə faktlardandır. Bununla yanaşı, İran İraqın şimalında "müstəqil kürd dövlətinin" yaradılması ehtimalından narahatçılıq keçirməkdədir və buna yol verməmək məsələsində İraqla həmrəydir.

İran həmişə şərq dövlətləri, İslam dünyası ilə ortaq din amilindən faydalanaraq onlarla sıx münasibətlər qurmuş, müdafiə məqsədi ilə bu amildən həm şimal qonşusuna, həm də Qərbə qarşı lazımi anlarda istifadə etməyə çalışmış, uğurlar belə qazanmışdır.

Son zamanlar İran şərqin bir sıra inkişaf etmiş dövlətlərilə yüksək səviyyəli münasibətlər yaratmağa və onların inkişaf etdirilməsinə nail olmuşdur.

İran Rusiya və MDB-yə daxil olan yeni yaranmış müstəqil dövlətlərlə münasibətlərin durmadan inkişafına da mühüm əhəmiyyət verir. Azərbaycan və digər türkdilli Orta Asiya respublikaları ilə, Qafqaz xalqları ilə münasibətlərini möhkəmlətməyə çalışır. İranın bu ölkələrlə ortaq din birliyinə malik olması, hələ Sovet İttifaqı dövründə belə bu regionlarla sıx iqtisadi və mədəni əlaqələr qurması onun bu dövlətlərlə münasibətlərinin inkişafına əsaslı zəmin yaradır. Qafqaz və Orta Asiyanın geosiyasi əhəmiyyətini düzgün qiymətləndirən İran öz xarici siyasətini bu bölgədə qarşılıqlı maraqların əhəmiyyətindən faydalanmağa, siyasi-iqtisadi və strateji üstünlüyün əldə edilməsinə istiqamətləndirmişdir. Bu sahədə artıq müəyyən konkret uğurlar əldə edilmişdir.

İranın Rusiya ilə əməkdaşlığı da birmənalı deyildir. Hər iki tərəf ənənəvi tarixi düşmənçilikdən əl çəkərək hazırkı şəraitdə bir-birindən faydalanmağa üstünlük verirlər. Bu ölkələrin bir-biri ilə yaxınlaşmasının son nəticədə Azərbaycan üçün faydalı olacağı nəzərə alınmalıdır. Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin tam gücü ilə işə düşəcəyi halda bu fayda qat-qat artacaqdır.

Müsəlman əməkdaşlığının nüfuzlu forumlarından biri olan İKT çərçivəsində də İran daim bu məclisin iştirakçısı olan ölkələri birliyə, müsəlman ölkələrinin ümumi problemlərini birlikdə həll etməyə çağırır.

Son vaxtlar İranan siyasi və işgüzar həyatında Ermənistan ilə iqtisadi əlaqələrin daha da gücləndirilməsi istiqamətində yeni addımların atılması müşahidə edilməkdədir. Ölkəmiz qətiyyətlə buna qarşı çıxır. Ermənistanla aparılan sülh danışıqları nəticə verdikdən sonra Azərbaycan bütün bölgə ölkələrinin əməkdaşlıq etməsinin tərəfdarıdır.

Azərbaycan Prezidenti İran rəsmiləri ilə görüşlərində dəfələrlə bildirmişdir ki, Azərbaycanla olan əlaqə və münasibətlər heç vaxt Ermənistanla olan münasibətlərlə eyniləşdirilməməli, tarazlaşdırılmamalıdır.

İran kapitalının Azərbaycana cəlb olunması da əhəmiyyətli amillərdəndir. Bu məsələnin artıq müəyyən dərəcədə öz həllini tapmasına baxmayaraq bu sahədə hələ də geniş imkanlar mövcuddur və onlar mütləq öz həllini tapmalıdırlar.

Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasını dəstəkləyən İranın Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolunda atdığı bir sıra diplomatik addımlar BMT, İƏT və İKT kimi beynəlxalq təşkilatlarda bu məsələ ilə bağlı daha obyektiv mövqenin formalaşmasına təsir göstərmişdir.

İran İslam Respublikasının hərbi doktrinası

İranın "milli təhlükəsizlik doktrinasının" ideoloji əsaslarını şiəlik məzhəbi təşkil edir.

İraq-İran müharibəsinin uzanmasından və 1989-cu ildə Xomeyninin vəfatından sonra bu doktrinada strateji məqsədlərə çatmaq metodları dəyişdirilərək sülh ön plana çəkildi. İİR-nın potensial düşmənlərinin təyin edilməsində də dəyişikliklər baş verdi. İndi əsas düşmənlər "düzgün olmayan müsəlman rejimləri"dir. ABŞ-a, NATO-ya daxil olan digər ölkələrə və İsrailə qorxulu rəqib kimi baxılır.

80-ci illərin sonlarında hazırlanmış proqrama uyğun olaraq, İİR ordusu ilə İslam inqilabını qoruyan korpus (İİQK) ardıcıl olaraq birləşdirilir. Bu çətin prosesin həyata keçirilməsi üçün ordunun və İİQK rəhbərliyi Ali Baş Komandanlıq qərargahında birləşdirilmişdir. Eyni zamanda ordunun birləşmiş qərargahı və İİQK-nın Baş qərargahı da saxlanılmışdır.

Hərbi-siyasi doktrinanın özəyinin yeni formasını milli suverenliyin qorunması vəzifəsi təşkil edir. Həmin məqsədlə hücumların qarşısını almaq üçün İran sərhədləri çərçivəsində silahlı qüvvələrin bütün hissələrinin şəxsi heyətinin döyüş və psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədi daşıyan təlim və məşqlər keçirilir. Eyni zamanda, İranın xaricində islam hərəkatlarına kömək və yardımçı olmaq məqsədilə, məhdud saylı kontingentin iştirak etməsi də nəzərdə tutulmuşdur.

İİR-nın silahlı qüvvələrinin operativ genişlənməsinin əsas strateji istiqaməti 90-cı illərin ortalarından "qərb istiqaməti"dir.

İraqın 1990-91 və 1998-ci illərdə ABŞ və onun müttəfiqləri ilə Fars körfəzində qarşıdurmasından sonra zəiflənməsinə baxmayaraq, İran İraqı hələ də özü üçün hərbi-strateji rəqib və birbaşa təhlükə hesab edir.

Bundan əlavə, 1991-ci ildə "Səhrada fırtına" əməliyyatında İraqın məğlubiyyətindən sonra BMT-nin qərarına əsasən yaradılan muxtar kürd sektorundan gələn hədələr də artmışdır.

Türkiyənin İraqın şimalındakı hərəkətləri də vəziyyəti çətinləşdirir. İran Türkiyənin regional iddialarından ehtiyatlanır. Türkiyənin NATO-nun üzvü və regionda ABŞ-ın müttəfiqi olmasını İran öz sərhədləri üçün qorxulu hesab edir və ölkənin daxili sabitliyinə də təsir edə biləcəyindən çəkinir. Son illər Ankara ilə Təl-Əviv arasında artan əməkdaşlığın genişlənməsi də İranın böyük narahatlığına səbəb olmuşdur. Elə buna görə də İran Türkiyə ilə sərhədlərində yerləşən qoşunlarının sayını get-gedə artırmaqdadır.

İranın hərbi strategiyasında sonrakı mühüm istiqamət "cənub-qərb" istiqamətidir. İran ərəb ölkələrinin Fars Körfəzi Əməkdaşlıq Təşkilatının ABŞ, İngiltərə və Fransa ilə əməkdaşlığını özü üçün uzunmüddətli təhlükə mənbəyi hesab etməkdədir. Bəzi siyasətçilərin fikrincə, bu əməkdaşlıq nəinki Fars körfəzi, hətta İranın təhlükəsizliyinə də birbaşa zərbədir. Adı çəkilən ölkələrin körfəzdə qoşun yerləşdirməsi və körfəz ölkələrinin şiddətlə silahlanması İranın regionda təsirinin zəifləməsinə aparıb çıxara bilər.

Xatəmi hökumətinin Körfəz ölkələri, o cümlədən üç ada üstündə mübahisəli vəziyyətin yarandığı BƏƏ ilə münasibətlərinin yaxşılaşması üçün atdığı addımlar hələlik müsbət nəticə verməmişdir. İran daha çox Səudiyyə Ərəbistanı və Kuveytin silahlanmasından ehtiyat edir.

Sovet İttifaqının dağılmasından sonra İranın şimal sərhədlərində yeni müstəqil ölkələrin yaranması Azərbaycan, Ermənistan və Türkmənistan barədə yeni siyasətin işlənilib hazırlanmasına səbəb olmuşdur.

ABŞ-ın Orta Asiyaya "Sülh naminə əməkdaşlıq" proqramı çərçivəsində nüfuz etməsini İran özü üçün xarici təhlükə hesab edir. Orta Asiya ölkələrinin 1997-ci ilin payızında ABŞ və NATO-nun digər ölkələri ilə hərbi manevr keçirməsi və 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ və onun müttəfiqlərinin regiona daxil olması narahatlığa səbəb olmaqdadır. Bu narahatlıq regionda güc balansının pozulma ehtimalının artması ilə əlaqədardır.

Azərbaycan Respublikasında NATO bazalarının yerləşdirilməsi məsələsinin ortaya atılması da İranın istər siyasi rəhbərliyində, istərsə də hərbi dairələrində yaxşı qarşılanmır. İran Orta Asiya ölkələrində etnik ixtilafların artmasından da ehtiyat edir.

Ölkənin şərqində yerləşən silahlı qüvvələrin döyüş hazırlığını artırmaq üçün 1997-1998-ci illərdə Əfqanıstan sərhəddində hərbi manevrlər keçirilmişdir. Bu da İranın şərq zonasındakı silahlı qüvvələrinin əhəmiyyətinin artmasına dəlalət edir.

İranın hərbi doktrinasında insan amilinə baxış da dəyişmişdir. Belə ki, İranın yüksək hərbi dairələrində müasir müharibədə texnologiyanın və müasir hərbi texnikanın əhəmiyyətinə daha çox üstünlük verilir.

Daxili imkanlara arxalanmaq siyasətinə praqmatik təmayül vardır. Qısa müddət ərzində hərbi-iqtisadi potensialın bərpa edilməsi və silahlı qüvvələrin texniki bazasının səviyyəsinin yüksəldilməsinin mümkünsüzlüyü İran hökumətini "nə şərq, nə qərb" siyasətindən uzaqlaşmağa vadar edir. İran hərbi-sənaye kompleksinin bərpası və müasirləşdirilməsi üçün ciddi tərəfdaşlar tapmaq, həmçinin silah və hərbi texnikanın alınması üçün xaricdən birbaşa kanallar axtarmaqla məşğuldur.

İRAN CƏMİYYƏTİ

Müasir İran cəmiyyəti çoxpilləli bir piramidadan ibarətdir.

Piramidanın ən yüksək pilləsində dövlətin Ali Dini Rəhbəri, Prezidenti və onların ətrafında olan din xadimləri, xalqın nümayəndələri durur. Bu hakimiyyəti idarə edən yüksək dini rütbəyə malik olan insanlar böyük nüfuz sahibi olmaqla yanaşı, ən yüksək səlahiyyətlərə malikdirlər. Bölgələrdə fəaliyyət göstərən məmurlar, dövlət xadimləri, valilər məhz onların təsir dairəsindədir.

Din, İranın bütün tarixi dövrlərində cəmiyyətin formalaşmasında aparıcı rola malik olub, insanları islama qeydsiz-şərtsiz itaət etməyə çağırmışdır. Qum, Tehran, Məşhəd, Şiraz və başqa böyük şəhərlərdə yerləşən teoloji tədris müəssisələri dinin və dini elmlərin tədrisi ilə məşğuldurlar. Şərqdə olduğu kimi İranda da din xadimləri tarixən böyük nüfuza malik olmaqla yanaşı, ölkənin idarəsində fəal iştirak edirlər. Bu təbəqə həmişə ölkənin xarici və daxili siyasətini müəyyənləşdirən həlledici amillərdən biri olmuşdur.

Növbəti pillədə sənaye-maliyyə inhisarçıları yerləşmişlər. Bu insanların maliyyə vəsaitləri inkişaf etmiş Qərb ölkələrinin ən iri sənaye-maliyyə kapitalları ilə əlaqədardır.

Bir qədər aşağı pilləni, qərb miqyası ilə götürüldükdə, orta səviyyəli, ancaq İran şəraitində nəzərə çarpacaq dərəcədə yer alan, daima inkişaf edən İran burjuaziyası tutur ki, onu da təmsil edənlər iri sənaye, tikinti və ticarət müəssisələrinə malikdirlər. İqtisadiyyatın intesiv inkişafı ilə əlaqədar yeni texnologiyanın və müasir texnikanın

imkanları ilə ayaqlaşan bu insanlar açıq bazar iqtisadiyyatında qaçılmaz iqtisadi riskə məruz qalmalarına baxmayaraq durmadan varlanırlar. Belə ki, sərvəti daim artırmaq onlar üçün ən ülvi arzuya, piramidanın daha yüksək pilləsinə qalxmağa, əsas məqsədə nail olmağa geniş imkan açır.

Növbəti qrupa kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən, təsərrüfatlarında taxıl, meyvə, pambıq, şəkər çuğunduru, püstə, xurma becərilən iri torpaq sahibləri daxildirlər.

Sosial piramidada bir pillə aşağıda, nisbətən kiçik və primitiv emalatxanalara malik xırda istehsalçılar, ortabab və xırda tacirlər durur. Məlumdur ki, Şərqdə ticarət ən geniş yayılmış və cəlbedici fəaliyyət növüdür. Əhalinin bu qrupu İran cəmiyyətinin inkişafında, əvvəllər olduğu kimi, gələcəkdə də böyük rol oynayacaqdır. Məhz bu qrupu təmsil edənlər Orta və Yaxın Şərqin bir çox ölkələrində "bazar" adlandırılan ən unikal sosial-iqtisadi qurumu təşkil elir.

"Bazar" - bu, təkcə malların və məhsulların satışı üçün ayrılmış yer olmayıb, ölkənin siyasi həyatının ən vacib komponentidir, bir sözlə, barometridir. O, İranda sosial piramidanın yüksək və aşağı pilləri ilə sıx bağlı olub, kimliyindən asılı olmayaraq, hakimiyyətdəkinin fəaliyyətini iflic edə və ya ona qüvvətli dayaq ola bilər. "Bazar", həmçinin, ən vacib gəlir mənbələrindən biridir. Belə ki, kütləvi və iri layihələrin maliyyələşdirilməsi məhz onun imkanı daxilindədir. Bəzi məlumatlara görə, dini qurumların gəlirinin 80%-i "bazar"ın payına düşür. Məhz buna görə də hakimiyyətin əsas səyi "bazar"ın dəstəyini almağa yönəldilmişdir.

Ziyalılar və orta məmurlar Qərbin dəbli həyat tərzinə meyllənərək, ehtiyac içində yaşamamağa can atırlar. İntellektual səviyyəyə malik olan insanlar isə bazar iqtisadiyyatı təlimi uğrunda xidmətlərini əsir gəməyirlər.

Bununla yanaşı, ölkədə, cəmiyyətin aşağı təbəqələrindən çıxmış digər ziyalı qrupu da vardır ki, onlara da tələbə və yuxarı sinif şagirdlərinin əksər hissəsi daxildir. Müasir İran dövlətinin qurulmasında İran cəmiyyətinin məhz bu qrupu ən yüksək siyasi fəallıq göstərərək, köklü sosial-iqtisadi dəyişikliklər tələb etmişdir. Tələbələr hələ İran inqilabı zamanı inqilabi çıxışlarda iştirak edib, "İran xalqının mücahidləri" və "İran xalqının fədailəri" kimi gizli təşkilatlarda fəaliyyət göstərmişlər.

Sosial piramidanın ən aşağı pilləsində İran cəmiyyətinin ən əsas hissəsi olan, şəhər və kəndlərdə yaşayan zəhmətkeşlərdir. Onların əsas hissəsi dinə, islam qanunlarına itaət edən insanlardır. Zaman keçdikcə, onların sinfi düşüncələri inkişaf edərək ən yüksək zirvəyə çatmışdır.

İran rəsmi dairələri ölkədə yaşayan bütün xalqları vahid "müsəlman icması" adı altında birləşdirirlər.

İRANDA ERMƏNİ İCMASI

İranda erməni icması 17-ci əsrin əvvəlində Şah Abbasın Qafqaza yürüşü dövründə yaranmışdır. Burada ermənilər əsasən Tehran, İsfahan, Təbriz, Urmiyyə, Əhvaz və Ərak şəhərlərində yaşayırlar. Hazırda rəsmi mənbələrə görə İranın erməni əhalisinin sayı 200 minə yaxındır. Onların əksəriyyəti ticarət və sənətkarlıqla məşğul olur. Şəhər əhalisi arasında həkimlər, mühəndislər, dövlət qulluqçuları, ali məktəb müəllimləri, biznesmenlər də vardır. 1979-cu ildə İslam inqilabının qələbəsindən sonra milliyyətcə erməni olan iri zavod və fabrik sahibləri İran İslam Respublikasından ABŞ-a və Qərbi

Avropa ölkələrinə getmişlər.

İslamın başqa dinlərə humanist münasibət bəslədiyini dünya ictimaiyyətinə göstərməkdən ötrü erməni icması ilə qarşılıqlı münasibətlərdən hakimiyyət dairələri təbliğat məqsədləri üçün geniş istifadə edirlər. Bu da müəyyən dərəcədə erməni millətindən olan şəxslər üçün əlverişli şərait yaradır.

İcmanın həyatında doğum, ölüm, kəbin, boşanma və s. haqqında şəhadətnamə vermək hüququ olan erməni kilsəsi mühüm rol oynayır. Burada 30-a qədər erməni Qriorian kilsəsi fəaliyyət göstərir. Onlardan 7-si Tehranda, 6-sı İsfahanda, qalanları isə digər 17 şəhərdədir. Bundan başqa, erməni katolik və yevangelist kilsələri də mövcuddur.

İran İslam Respublikasının konstitusiyasına görə, erməni məktəblərində dinin və erməni dilinin tədrisinə icazə verilir. Hazırda İranda 58 erməni məktəbi və 13 uşaq bağçası fəaliyyət göstərir ki, onlardan da müvafiq olaraq 33-ü və 5-i Tehran şəhərindədir. İsfahan universitetində erməni dili və ədəbiyyatı fakültəsi fəaliyyət göstərir. Hər il bu fakültəyə qəbul edilən 25 tələbədən 8-i milliyyətcə ermənidir.

Burada 30-a qədər erməni ittifaqı cəmiyyəti fəaliyyət göstərir. Bu cəmiyyətlərdə ədəbi gecələr, konsertlər, teatr görüşləri və s. keçirilir. Eyni zamanda "İran erməni yazıçıları ittifaqı" mövcuddur. Hər il "Ararat" idman kompleksinin bayrağı altında ümumerməni idman oyunları keçirilir.

Erməni icması milli dini azlıq kimi ölkə parlamentində İİR-in şimal və cənub əyalətlərindən iki deputatla təmsil olunmuşdur ki, onların da əsas vəzifəsi icmanın mənafeyini müdafiə etməkdən ibarətdir.

İranda ermənilərin iki rəsmi siyasi təşkilatı vardır. Bu radikal millətçi-burjua partiyası olan Daşnaksütyun və Proqressiv partiyalardır. 1920-ci ilin noyabrında Ermənistanda daşnak üsul-idarəsi devrildikdən və sovet hakimiyyəti qurulduqdan sonra Daşnaksütyun İran ərazisində geniş siyasi fəaliyyətə başladı. O dövrdə daşnak hökuməti üzvlərinin bir çoxunun İranda olması Daşnaksütyun partiyasının kəskin antisovet fəaliyyət istqamətini müəyyənləşdirdi. Zaman keçdikcə taktiki xəttində dəyişikliklərlə əlaqədar olaraq Daşnaksütyun və onun İrandakı təşkilatı rəsmi olaraq Türkiyəni özünün başlıca rəqibi elan edərək, "erməni məsələsi"nin həlli uğrunda mübarizəni ön plana çəkdi.

Daşnaksütyun İrandakı erməni icmasının sosial-mədəni həyatına demək olar ki, tamamilə nəzarət edir. Onun mətbuat orqanı - erməni dilində gündəlik nəşr olunan "Alik" qəzetidir. Bu qəzetdən başqa, erməni dilində "İran ermənilərinin milli-mədəni ittifaqı"na məxsus olan "Siasai" adlı aylıq jurnal və "Erməni Xalq İttifaqı"nın "Araz" adlı aylıq qəzeti nəşr olunur. İran İslam Respublikasında erməni icması üç yeparxiyaya - Tehran, Təbriz və İsfahan yeparxiyalarına bölünür. Bu yeparxiyalarda yaradılmış şuralar rəsmi olaraq icmanın praktik fəaliyyətinə rəhbərlik edir və icmanı İranın hakimiyyət dairələri qarşısında təmsil edirlər. Şuralar tamamilə daşnakların nəzarəti altındadır. Məktəblərin əksəriyyətinə milli-mədəni və idman ittifaqlarına da Daşnaksütyun partiyası himayədarlıq edir. Partiyanın maliyyə imkanları həddən artıq böyükdür.

Ermənistanda 1988-ci ilin dekabrında baş vermiş zəlzələ zamanı İranın erməni icması respublikaya maddi və maliyyə yardımı göstərmişdir ki, bunun da ümumi məbləği ABŞ dolları ilə üç milyona yaxındır.

Ümumiyyətlə, icma Ermənistanla yaxınlaşmağa və möhkəm elmi, mədəni, iqtisadi əlaqələrin yaradılmasına maraq göstərir.

Hər il Ermənistan Respublikanın ali məktəblərində təhsil almaqdan ötrü 10-12 erməni gənci göndərilir. Şəxsi işlərlə əlaqədar qarşılıqlı gediş-gəlişin sayı xeyli artmışdır. İranın işgüzar dairələrindən olan ermənilər Ermənistan ərazisində müştərək müəssisələrin yaradılması üçün vəsait qoyurlar.

Qafqazda baş verən hadisələrlə bağlı olaraq Cənubi Azərbaycanda antierməni əhval-ruhiyyəsi güclənir. Yerli hakimiyyət dairələrinin təhlükəsizliyi təmin etmək barədə verdikləri vədlərə baxmayaraq, ermənilər ölkənin şimal bölgələrindən mərkəzi rayonlara köçürlər. Eyni zamanda ABŞ-a və Avropaya gedənlərin sayı da artmaqdadır.

İRAN İSLAM RESPUBLİKASININ İSLAM ŞURASI MƏCLİSİ (PARLAMENTİ)

İran İslam Respublikasının Ali qanunverici orqanı bir palatalı parlamentdir - İslam Şurası Məclisidir. Məclis birbaşa və gizli səsvermə yolu ilə dörd il müddətinə seçilən 275 (150 min seçiciyə bir deputat) deputatdan ibarətdir. İran İslam Respublikasının Əsas Qanununa əsasən on ildən bir, ölkə əhalisinin sayında dəyişikliklər, müxtəlif siyasi, iqtisadi, demoqrafik və başqa amillər nəzərə alınaraq deputatların sayı maksimum iyirmi nəfər arta bilər.

Məclisin birinci çağırışı 1980-ci ildən 1984-cü ilə qədər fəaliyyət göstərmişdir. Son seçkilər 2000-ci ildə keçirilmişdir.

1980-ci ildən 1989-cu ilin avqustuna qədər İran İslam Respublikası parlamentinin sədri İranın ən nüfuzlu dini-siyasi xadimlərindən biri olan Əkbər Haşimi Rəfsəncani olmuşdur. 1989-cu il avqustun 16-da Ə.Haşimi Rəfsəncani ölkənin Prezidenti seçildikdən sonra parlamentin sədri o vaxta qədər uzun müddətə sədrə müavinlik etmiş Höccətulislam Mehdi Kərrubi olmuşdur.

Parlamentdə iyirmi dörd daimi komissiya fəaliyyət göstərir. Bu komissiyalar parlament iclaslarında müzakirə və təsdiq edilmək üçün qanun layihələri hazırlayır. Komissiyalar iqtisadiyyat, büdcə, sənaye, kənd təsərrüfatı, müdafiə, xarici siyasət və başqa məsələlər üzrə qanunvericilik aktlarının hazırlanması ilə məşğul olurlar. Komissiyaların sədrləri və onların müavinləri bir il müddətinə seçilirlər.

Daimi əsasda işləyən bu komissiyaların fəaliyyət dairəsindən kənarda qalan qanun layihələrinin öyrənilməsi üçün müvəqqəti xüsusi komissiyalar təşkil edilir. Hal-hazırda parlamentdə iki belə komissiya fəaliyyət göstərir - bank sistemi məsələləri və torpaq islahatı üzrə. İran İslam Respublikasının əsas qanununa uyğun olaraq parlament qanun layihələrini, beynəlxalq müqavilə, saziş və konvensiyaları təsdiq edir. Nazirlərin namizədliyinin təsdiq edilməsi də parlamentin səlahiyyətinə aiddir.

Parlament kabinet üzvlərini onların vəzifələrinə daxil olan məsələlər üzrə dinləyir və hökumətin fəaliyyətinin bu və ya digər sahələri üzrə müzakirələri zamanı etimadsızlıq göstərmək hüququna malikdir.

1992-ci ildə keçirilən parlament seçkilərinə qədər məclisdə deputatların əksəriyyəti radikal mövqedə dayanırdı. Onlar üçün İran İslam Respublikasının Prezidenti Ə. Haşimi Rəfsəncani və onun başçılıq etdiyi hökumətin liberallaşdırma, dövlətləşdirmə, özəlləşdirmə və xarici köməyin cəlb edilməsinə doğru apardığı kursa qarşı mənfi münasibət səciyyəvi idi. Hökumət və parlament əksəriyyəti arasında xarici siyasətin bəzi məsələlərinə yanaşma üzrə də fikir ayrılığı müşahidə olunurdu. Radikallar Prezidentin İranın xarici ölkələrlə əlaqələrinin bərpa və inkişafına doğru

yönəlmiş kursuna olduqca ehtiyatla yanaşırdılar. İran parlamenti Yaxın Şərq üzrə Madrid konfransının pislənməsində və onun müqabilində Tehranda "İslam dünyası və intifada" adlı beynəlxalq konqresin çağırılmasında böyük fəallıq göstərmişdi. Məclisdə konqresin daimi fəaliyyət göstərən katibliyi yaradılmışdır. Öz növbəsində Prezident parlamentlə qarşı-qarşıya gəlməmək üçün başqa mexanizmlərdən, ilk növbədə Ali Milli Təhlükəsizlik Şurasından (AMTŞ) istifadə etmişdi. Məhz AMTŞ vasitəsilə İngiltərə, Səudiyyə Ərəbistanı və Misir ilə diplomatik münasibətlərin bərpa olunması haqqında qərar Prezident tərəfindən həyata keçirilmişdi.

1992-ci il aprelin 10-da keçirilən parlament seçkiləri nəticəsində Prezident Ə. Haşimi Rəfsəncani kursunun tərəfdarları radikallar üzərində böyük qələbə qazanmışdılar (təxmini hesablamalara görə məclisdə yerlərin 20%-ni radikallar tutmuşdular).

1996 və 2000-ci illərdə keçirilən parlament seçkilərində də eyni vəziyyət müşahidə olunmuş, liberallaşdırma tərəfdarlarının sayı xeyli artmışdı.

İranda və daha artıq dərəcədə Qərbdə bu fikrə tərəfdardırlar ki, bu ölkə daxilində gedən liberallaşdırma siyasətinin və Qərblə, ilk növbədə ABŞ-la münasibətlərin normalaşmasına yönəldilmiş kursun aparılmasını kəskin şəkildə sürətləndirəcəkdir.

Eyni zamanda İranın rəsmi şəxsləri hələlik İran İslam Respublikasının daxili və xarici siyasətinin əsaslı surətdə təshih edilməsi haqqında şayələri təkzib edirlər.

Qanunverici orqan kimi İran İslam Respublikası parlamentinin fəaliyyəti məclis qərarlarının islam müddəaları və İran İslam Respublikasının əsas qanunu ilə uyğunluğu üzərində nəzarəti həyata keçirən xüsusi orqan - Nəzarət Şurası tərəfindən məhdudlaşdırılmışdır. Nəzarət Şurası parlament tərəfindən altı il müddətinə seçilən Ayətulla Xomeyninin təyin etdiyi ruhanilərin altı üzvündən və altı islam hüquqşünasından (ruhanilər sırasından olmayan) ibarətdir. Nəzarət Şurası parlamentin qəbul etdiyi qərarları, o cümlədən qanunları, islam müddəaları ilə uyğun gəlməməsi üzündən dəfələrlə qadağan etmişdir.

Hazırda parlamentin sədri cənab Mehdi Kərrubidir .

MÜASİR İRANIN RƏHBƏRLƏRİ

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLA SEYİD ƏLİ XAMNEYİ

Ayətulla Seyid Əli Xamneyi 1939-cu il iyulun 15-də Məşhəd şəhərində ruhani ailəsində anadan olmuşdur. Nəcəf və Qumda dini təhsil almışdır. Ayətulla Xomeyninin tələbəsidir.

1962-ci ildə Ayətulla Xomeyninin rəhbərlik etdiyi islam hərəkatına qoşulmuşdur.

1963-cü ildən başlayaraq dəfələrlə həbs və sürgünlərə məruz qalmışdır.

1979-cu il İran inqilabı dövründə Məşhəddə islam hərəkatına rəhbərlik etmişdir. Şah rejimi devrildikdən sonra bir sıra dövlət vəzifələrini tutmuşdur:

1979-1980-ci illərdə İslam İnqilab Şurasının (ali dövlət hakimiyyəti orqanı) üzvü, müdafiə nazirinin müavini, İslam inqilabı keşikçiləri korpusunun komandanı, Ali Müdafiə Şurasında Ayətulla Xomeyninin nümayəndəsi təyin edilmişdir.

1980-1981-ci illərdə İslam Şurası Məclisinin (parlament) deputatı seçilmişdir.

1981-ci il iyunun 27-də terror aktı nəticəsində ağır yaralanmışdır (sağ əli şikəst olmuşdur).

1981-ci ilin oktyabrından 1989-cu ilin avqustuna qədər - İİR-in Prezidenti, Ali Müdafiə Şurasının sədri, bir sıra dövlət orqanlarının üzvü və başçısı olmuşdur. İran Respublikası partiyasını (İRP) yaradan beş təsisçidən biri, partiyanın Mərkəzi Şurasının üzvü, Baş katibi olmuşdur (İRP 1987-ci ildə buraxılmışdır).

Ayətulla Xomeyninin vəfatından sonra 1989-cu il iyunun 4-də Ağsaqqallar Şurası tərəfindən İİR-in Ali Dini Rəhbəri seçilmişdir, eyni zamanda Ayətulla rütbəsinə layiq görülmüşdür. Ailəlidir, altı uşağı vardır. İslam ideologiyası və tarixi üzrə bir sıra kitabların müəllifi və tərcüməçisidir.

Ədəbiyyatla maraqlanır, ərəb dilini bilir.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ

Höccətül-islam Seyid Məhəmməd Xatəmi 1943-cü ildə Yəzd əyalətinin Ərdəkan qəsəbəsində ruhani ailəsində anadan olmuşdur.

1961-ci ildə dini təhsil almaq üçün Quma getmişdir. Daha sonra İsfahan Universitetinin fəlsəfə fakültəsində təhsil almış, öz biliyini bu şəhərin din alimləri arasında, 1970-ci ildən isə Tehran Universitetində, daha sonra Qum şəhərində təkmilləşdirmişdir.

1962-ci ildən siyasi fəaliyyətə başlamışdır. İmam Xomeyninin bəyannamələrini, müxtəlif sənədləri, xəbərləri, inqilabi ədəbiyyatı hazırlamış və yaymış, İsfahan Universiteti tələbələrinin islam təşkilatında fəaliyyət göstərmiş, Höccətul-islam Seyid Əhməd Xomeyni və Məhəmməd Montəzeri ilə əməkdaşlıq etmiş, siyasi və dini müzakirələr və iclaslar təşkil etmişdir. İnqilabdan əvvəl şəhid doktor Beheştinin təklifi ilə Seyid Məhəmməd Xatəmi Hamburq şəhərində İslam Mərkəzini təşkil edərək ona başçılıq etmişdir.

İnqilab qələbə çaldıqdan sonra Seyid Məhəmməd Xatəmi İran İslam Repsublikası İslam Şurası Məclisinin (parlament) deputatı, "Keyhan" müəssisəsinin rəhbəri və orada imam Xomeyninin nümayəndəsi, Mir Hüseyn Musəvi və Haşimi Rəfsəncani hökumətlərində mədəniyyət naziri, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin mədəniyyət işləri üzrə müavini, müharibə dövründə təbliğat qərargahının rəisi, Milli kitabxananın direktoru, ölkə Prezidentinin müşaviri vəzifələrində çalışmışdır. Məhəmməd Xatəmi həm də, İslam İnqilabi Ali Mədəniyyət Şurasının üzvüdür.

1997-ci ilin mayında İran İslam Respublikasının Prezidenti seçilmişdir.

"Qorxu dalğası" və " Şəhər dünyasından dünya şəhərinə qədər" adlı iki kitabın və bir çox məqalələrin müəllifidir.

Ərəb, ingilis və alman dillərini bilir.

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ D-r KAMAL XƏRRAZİ

Seyid Kamal Xərrazi 1944-cü ildə Tehranda anadan olmuşdur.

1969-cu ildə Tehran Universitetinin fars dili və ədəbiyyatı fakültəsinin dilçilik ixtisası şöbəsini bitirmişdir. 2 il sonra pedaqogika elmləri üzrə aspiranturadan sənədlərini alıb, ABŞ-ın Hyüston Universitetinə təqdim etmiş və idarəçiliyin psixologiyası üzrə elmlər namizədi alimlik dərəcəsini almağa müvəffiq olmuşdur.

1972-78-ci illərdə Kamal Xərrazi Amerika və Kanadadakı tələbələrin İslam

Təşkilatının və Londondakı İslam Tədqiqat Müəssisəsinin üzvü olmuşdur.

1978-80-cı illərdə Radio və Televiziya Təşkilatında proqramlaşdırma üzrə sədr müavini, xarici işlər nazirinin siyasi işlər üzrə müavini, Gənclərin və Yeniyetmələrin İdeya Tərbiyəsi Ocağının icraçı direktoru vəzifələrində çalışmışdır.

1980-cı ildən K. Xərrazi İran-İraq müharibəsinin sonunadək Ali Müdafiə Şurasının müşahidəçi üzvü və Ali Müdafiə Şurası Təbliğat Qərargahının rəisi olmuşdur. Döyüşlərə dair informasiyanın ötürülməsi və təbliğat işləri üzrə İctimai Qərargahın yaradılması, müharibə hadisələrinin qeydə alınması üçün "40 şahid qrupu"nun təsis edilməsi, müharibənin canlı təsvirini verən qiymətli sənədlərin çap olunub yayılması - bütün bunlar K. Xərrazinin müharibə dövrü fəaliyyətinin əsas sahələri olub.

1980-cı ildən başlayaraq, 9 il ərzində "İRNA" Xəbərlər Agentliyinin icraçı direktoru olmuşdur.

1989-cu ildən isə İİR-in BMT-də daimi nümayəndəsi olmuş, bu illər ərzində BMT Baş Məclisi sədrinin müavini, BMT Ekologiya və İnkişaf Konfransı Təşkilatında sədr müavini, BMT Asiya Təşkilatı Qrupunun sədri, Təcavüz və Müdafiə Konfransının sədri və Bosniya ilə İslam Konfransı Təşkilatının Əlaqələndirmə Qrupunun üzvü kimi məsul vəzifələri yerinə yetirmişdir.

1997-ci ildə İİR Xarici İşlər Naziri vəzifəsinə təyin edilmişdir.

K. Xərrazi vaxtaşırı Tehran Universitetinin pedaqoji elmlər fakültəsində və tələbələrin ixtisas yönümlü kurslarında mühazirələr oxumuşdur. Onun pedaqogika, psixologiya üzrə bir sıra elmi əsərləri vardır.

Evlidir, iki oğlu var.

PREZİDENT HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KONSEPSİYASINDA İRAN

İran ilə Azrbaycan arasında olan əlaqələrin tarixi böyükdür. Bu, çoxəsrlik tarixdir. Xalqlarımız əsrlər boyu yanyana, bir yerdə yaşamış, bir kökdən olaraq, eyni ənənələrə malik olaraq bir-birinə həmişə dayaq durmuşlar. Azərbayan xalqı milli azadlığını əldə edəndən sonra, ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra İran ilə Azərbaycan arasındakı əlaqələr dövlət səviyyəsinə qalxıb və qarşılıqlı surətdə faydalı dövlətlərarası əlaqələrə çevrilibdir.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Azərbaycanın ən uzun sərhədi İranladır. Etnik, dini və mədəni baxımdan da İran bizə ən yaxın ölkə hesab edilir. Statistik məlumatlara görə belə İran əhalisinin demək olar ki, yarısını etnik azərbaycanlılar təşkil edirlər və dünya azərbaycanlılarının təqribən dörddə üçü İranda yaşayır. Təkcə bu fakt regionda və dünyada bizim dövlətlərin qarşılıqlı maraqlarını təmin etməyə yönəldilən birgə siyasi xəttin aparılmasını zəruri edir. Dövlətimizin İranla səmərəli əməkdaşlığının xeyirli və zəruri olması şübhəsizdir, hər iki xalqın xeyrinədir. Ancaq dövlətlərimiz arasındakı az-çox hələ də qalan siyasi və iqtisadi məsələlərdəki fikir ayrılığı buna mane olur və öz növbəsində ölkəmizlə müharibə vəziyyətində olan Ermənistana İranla əməkdaşlıq etməyə əlavə imkanlar yaradır. İranla hərtərəfli əməkdaşlığa münbit şərait yaratmaq, onu özümüzün daimi müttəfiqimiz etmək üçün Azərbaycan öz siyasətinin hazırkı mərhələsində müəyyən addımlar atmaqdadır. İranın da bu cür addımlar atması tarixi zərurətdən doğur. Xalqlarımız din, mədəniyyət, mənəvi dəyərlər, ənənələr və dil baxımından bir-birilərinə olduqca yaxın olub uzun zamanlar eyni tarixi paylaşmışlar. Bundan əlavə zaman-zaman ölkələrimizin eyni dövlətlərin və imperiy.'ların tərkibində olmaları da qarşılıqlı əlaqələrimizin dostluq və qardaşlıq təməli üzərində qurulmasını şərtləndirən əsas amillərdəndir.

İran ilə ölkəmiz arasında ilk siyasi əlaqələr Azərbaycan Demokratik Respubilkası dövründə yaradılmış və 1920-ci ilə qədər davam etmişdir. İki müstəqil dövlət arasında olan bu əlaqələr siyasi və iqtisadi məsələləri müzakirə etmək üçün göndərilən nümayəndə heyətlərinin mübadiləsini, iki ölkə arasında bağlanan müxtəlif müqavilə və sazişləri özündə əks etdirirdi. Bu sənədlər içərisində özünün siyasi əhəmiyyəti ilə seçilən sənəd "Dostluq haqqında müqavilə" idi. Teleqraf, ticarət-gömrük və poçt sazişləri və konsulluq konvensiyası da ölkələrimiz arasındakı əlaqələrin yaradılması üçün mühüm əhəmiyyət kəsb edirdi.

1920-ci ilin mart ayının 20-də Azərbaycan Demokratik Respublikası ilə İran arasında bağlanan, yuxarıda adı çəkilən "Dostluq haqqında müqavilə" sözün əsl mənasında bu sənədlərin tacı idi və ölkələrimiz arasındakı münasibətlərin tənzimlənməsinə xidmət edirdi. Bu tarixi sənədin birinci maddəsində "Azərbaycan Respublikasının (Qafqaz) istiqlaliyyətinin İran tərəfindən təntənəli surətdə tanınması", ikinci maddəsində "iki dövlət arasında dostluq münasibətlərinin və iqtisadi əlaqələrin əsasını qoyan sazişlərin bağlanması", üçüncüsündə isə "iki dövlət arasında səfirlik (diplomatik nümayəndəlik) səviyyəsində diplomatik əlaqələrin yaradılması" təsbit edilmişdir.

1920-ci ilin əvvəllərindən etibarən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İranın bir sıra şəhərlərində rəsmi nümayəndəliklər yaratmağa başlamışdı. Fevralın 2-də Azərbaycanın Xarici İşlər Nazirinin müavini İranın Azərbaycandakı nümayəndəsinə yazdığı rəsmi məktubda ölkəmizin Ənzəli, Təbriz, Məşhəd və Rəşt şəhərlərində konsul agentlikləri yaratmaq niyyətində olduğunu bildirmişdi. Həmin ilin fevral ayının 4-də isə Məhəmməd bəy Xəlilov ölkəmizin Ənzəlidə vitse-konsulu təyin edilmişdi.

Azərbaycanın Xarici İşlər Naziri Fətəli xan Xoyski 1920-ci ilin aprel ayının 1-dən etibarən Azərbaycan Respublikasının Təbrizdə Baş konsulluğunun, Rəştdə konsulluğunun, Məşhəd şəhərində vitse-konsulluğunun, Əhər və Xoy şəhərlərində isə konsul agentliklərinin təsis edilməsi haqqında Parlamentə müraciət etmişdi. Göründüyü kimi ADR cənub qonşumuzla hərtərəfli münasibətlərin yaradılmasını və inkişaf etdirilməsini xarici siyasətin başlıca istiqamətlərindən biri hesab edirdi. *(Musa Qasımov, Mahir Abdullayev. Beynəlxalq münasibətlər tarixi. Bakı, 1998-ci il. səh.83-86).*

Ölkəmiz Sovet imperiyasının tərkibinə daxil ediləndən sonra müstəqil xarici siyasət yeritmək hüququndan məhrum edildi və bu dövrdən etibarən Azərbaycan - İran əlaqələri Sovet İttifaqının apardığı xarici siyasət ilə üzvi surətdə bağlandı və əsasən özündə iqtisadi və mədəni əlaqələri əks etdirirdi. 1968-ci ildən Bakıda İranın Baş konsulluğu fəaliyyət göstərirdi. Müstəqilliyimizi əldə etdikdən sonra bu konsulluq İran İslam Respublikasının səfirliyinə çevrildi.

İran Sovet İttifaqı dövründə də

müsəlman respublikaları ilə, xüsusilə də Azərbaycanla öz əlaqələrini qoruyub saxlamağa, imkan daxilində gücləndirməyə çalışmışdır.

İmam Xomeyni hələ 80-ci illərin əvvəllərində Qorbaçova özünün məşhur məktubunu göndərmiş, orada Sovet sistemində dinə yeni baxış müsbət qiymətləndirilmiş, SSRİ-nin dağılacağı, kommunizmin məğlub olacağı vurğulanmış və müsəlmanlar yaşayan respublikaların azadlığa çıxacaqları qeyd olunmuşdur.

Bizim müstəqilliyimizi İranın başqa ölkələrdən bir az sonra tanımasına gəlincə, bu İranın məsələyə çox ehtiyatla yanaşmasından, Rusiyanı qıcıqlandırmamaq niyyətindən irəli gəlirdi. Bununla yanaşı İran elə sovet dövründə də xalqlarımızın birbirinə yaxınlaşması zəminində bəzi addımlar atır, bu barədə müvafiq sənədlər belə imzalanırdı. Onlardan iki ölkə vətəndaşlarının, xüsusilə də sərhəd zonasında yaşayan insanların gedib-gəlişini asanlaşdırmağı, ticarət sərgilərinin təşkilini və nümayəndə heyətlərinin mübadiləsinin intensivləşdirilməsini yüngülləşdirməyi nəzərdə tutan "SSRİ və İranın konsulluq şöbələri haqqında saziş"i göstərmək olar.

Qarabağ münaqişəsinin alovlanmağa başladığı ilk dövrlərdə də İran bu problemin həlli istiqamətində müəyyən addımlar atmış və bu məqsədlə də Xarici İşlər Nazirini Moskvaya və başqa ittifaq respublikalarına, o cümlədən Azərbaycana göndərmişdi. İranın o zamankı Prezidenti hələ 1991-ci ilin noyabrında, cümə namazında söylədiyi nitqində ölkəsinin Sovet İttifaqının keçmiş respublikalarının, o cümlədən Azərbaycanın müstəqilliyini tezliklə tanıyacağını bildirmişdi və yardım etmək sərəncamını vermişdi. Bu da İranın müstəqilliyimizi tanımaq məsələsinə ehtiyatla yanaşdığını və özünün məqsədinə doğru yavaş-yavaş irəlilədiyini göstərir.

1992-ci ildə Xarici İşlər Nazirliyi xüsusi qərar qəbul edərək İranın xarici ölkələrdəki səfirliklərinə Azərbaycan diplomatlarına və vətəndaşlarına lazimi köməklik və dəstək göstərmək barədə sərəncam vermişdi. Bütün bunlar müstəqillik qazanarkən bizə xoş münasibət bəsləyən ölkələrdən birinin İran İslam Respublikası olduğunu göstərir.

1991-ci ilin 18 oktyabrında Azərbaycan Parlamenti Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktını qəbul etdikdən sonra, 1992-ci ilin mart ayının 12-də Azərbaycan suveren dövlət kimi İran İslam Respublikası tərəfindən rəsmi olaraq tanındı. Əvvəllər mövcud olan müxtəlif xarakterli əlaqələr və təmaslar daha da konkretləşdi. Təkcə onu qeyd etmək kifayətdir ki, sərhədlər açıldı, gediş-gəliş sadələşdirildi, iqtisadi və humanitar əlaqələr intensivləşdi, sərhədlərə və keçid məntəqələrinə nəzarət birdəfəlik hər iki qonşu dövlətin nümayəndələrinin əlinə keçdi, ən nəhayət, İranın Bakıdakı keçmiş konsulluğu İran İslam Respublikasının Bakıdakı səfirliyinə çevrildi və Tehranda da Azərbaycan Respublikasının səfirliyinin açılması üçün hazırlıq işləri görülməyə başlandı. Azərbaycan Respublikası bu qonşu

və qardaş ölkəyə qarşı öz xarici siyasət konsepsiyasını formalaşdırmağa başladı.

İlk dövrlərdə hakimiyyətə gəlmiş bəzi AXC liderlərinin ölçülübbiçilməmiş deletans çıxışları bir tərəfdən, İranda hakimiyyətdə olan və dünyaya "Böyük İslam İnqilabı"nı yaymaq istəyən bəzi qüvvələrin radikallığı digər tərəfdən iki ölkə münasibətlərinin normal məcraya yönəlməsinə mane oldu. Bu zaman tərəflərin bir-birinə "gəl-gəl" deməsinə baxmayaraq, onlar arasında əlaqələr yaratmaqla bərabər bir-birindən ehtiyatlanmaq xətti də mövcud idi. Buna da əsasən keçmiş yüzilliklərdən irəli gələn və mövcud vəziyyəti meydana çıxarmış şərait, regionu öz təsiri altına salmaq istəyən qüvvələrin bir-biri ilə dinamik mübarizəsi öz təsirini göstərirdi və göstərməkdə də davam etməkdədir.

Bütün bunlar son nəticədə hər iki qonşu və qardaş dövlətin əlaqələrinin inkişafının əleyhinə işləyən siyasi bir fon yaratmağa xidmət edir, tərəfləri əməkdaşlıqdan daha çox qarşılıqlı ideya mübarizəsi aparmağa, qarşıdurmada iştirak etməyə və irəli sürülən hər bir təşəbbüsə ehtiyatla yanaşmağa sürükləyirdi.

Heç də təsadüfi deyildir ki, AXC dövründə Azərbaycan-İran əlaqələri demək olar ki, donuq bir vəziyyətə düşmüşdü. Bu dövr haqqında danışdıqda, əlaqələrin olmasından daha çox, onların olmamasından söz açmaq olar. Siyasətçilərimizin yerliyersiz bəyanatları da, apardıqları birtərəfli siyasətin özü də qonşuluq əlaqələrinin inkişafına xeyirdən daha çox ziyan gətirirdi. Biz o dövrdəki əlaqələrin intensivliyinə nəzər saldıqda, tərəflər arasındakı soyuqluq açıq-aşkar nəzərə çarpır.

Əgər Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra İranla nümayəndə heyətlərinin mübadiləsinin, sazişlərin bağlanmasının və razılıqların əldə edilməsinin şahidi oluruqsa, bu, Prezident Elçibəyin dövründə demək olar ki, donmuş bir vəziyyətə gəlmişdi. Faktlar da bunu təsdiq edir. 1991-ci ilin iyulunda Azərbaycan Respublikası hökumətinin nümayəndə heyəti İrana səfər etmiş və səfər zamanı tərəflər arasında iqtisaditicarət, elmi-texniki və mədəni əməkdaşlıq haqqında memorandum imzalanmışdısa, bundan sonra 1991-ci ilin dekabrında İİR-in o zamankı Xarici İşlər Naziri Əli Əkbər Vilayətinin başçılıq etdiyi İran İslam Respublikasının rəsmi nümayəndə heyəti Bakıya işgüzar səfər etmişdisə və əlaqələrdə müəyyən hərəkət vardısa və əlaqələrdə müəyyən irəliləyiş müşahidə olunsa da sonrakı ildə münasibətlərimizdə soyuqluq hakim kəsilmişdi. Yalnız Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri kimi İranla əlaqələri yaxşılaşdırmaq uğrunda göstərdiyi fəaliyyət bu məsələyə canlandırma gətirmişdi.

Azərbaycan-İran münasibətləri sözün əsl mənasında Prezident Heydər Əliyev hakimiyyətə gəldikdən sonra inkişaf etməyə başladı. Tərəflər arasında nümayəndələrin qarşılıqlı səfəri mübadiləsi artdı, iqtisadi əlaqələr canlandı.

Qeyd edildiyi kimi İİR ilə ikitərəfli münasibətlərin strategiyasının formalaşdırılmasında tarixi, dini, etnik və mədəni yaxınlıq kimi amillər münasibətlərin dostluq və mehriban qonşuluq özülü üstündə qurulmasına şərait yaratdı.

Mərkəzi Asiyada və Qafqazda müstəqil dövlətlərin yaranması, Rusiya və İİR arasında münasibətlərin dəyişməsinə gətirib çıxartdı və bu da öz növbəsində Azərbaycan Respublikası ilə İİR arasında əlaqələrin inkişafına öz təsirini göstərdi.

İİR siyasi rəhbərliyinin münasibətlərimizin yaxşılaşmasına son illər praqmatik mövqedən çıxış etməsi, qonşu ölkələrə qarşı konstruktiv siyasət yürütməyə çalışması amili də bu məsələyə öz təsirini göstərməyə bilməzdi.

Eyni zamanda İranın şimal və Xəzəryanı bölgələrinin Azərbaycan Respublikası ilə iqtisadi-coğrafi bənzərliyi, Şimal-Cənub nəqliyyat dəhlizinin son illərdə az-çox fəaliyyət göstərməsi və bu fəaliyyətin gücləndirilməsinin vacibliyi, İranın Fars körfəzinə çıxışı, Xəzər dənizində böyük karbohidrogen ehtiyatlarının mövcudluğu əlaqələrimizin inkişaf etdirilməsinin zəruriliyini gündəmə çıxartdı.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı ikitərəfli münasibətlər siyasi, iqtisadi və mədəni sahələri əhatə edərək, kompleks xarakter daşıyır. İki ölkə arasında indiyə kimi 100-ə qədər müqavilə və saziş imzalanmış, lakin onların əksəriyyəti yalnız kağız üzərində qalaraq icra olunmamışdır. Bu onu göstərir ki, əlaqələrimizin hüquqi bazası artıq yaradılmışdır və əməli işə keçmək üçün sənədlərin icrasına nəzarət gücləndirilməlidir. Bir sözlə, əməli işə keçmək vaxtı gəlib çatmışdır.

Dünyada baş verən geosiyasi proseslərin mahiyyətini və hazırkı mərhələdə iqtisadi məsələlərin Azərbaycan Respublikası üçün əhəmiyyətini nəzərə alaraq, ikitərəfli münasibətlərdə iqtisadi sahə əsas istiqamətə çevrilir.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hərtərəfli, qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi Prezidentimiz tərəfindən ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

İlk növbədə İranla bərabərhüquqlu və yaxın qonşuluq əlaqələri qurmaq, imkan daxilində bütün məsələlərdə qarşılıqlı fayda verən əməkdaşlığı təbliğ və təşkil etmək günün tələbidir.

Bizim İranla həm əbədi qonşu, həm də əbədi maraqlara malik olmağımız münasibətlərin yüksək səviyyədə inkişafı üçün təməl daşıdır.

Başqa ölkələrlə saxlanılan iqtisadi və dostluq əlaqələri inkişaf etdirilməklə yanaşı, İranın maraqları da nəzərə alınmalıdır. İranın maraqlarına bu və ya başqa dərəcədə zərər vuran siyasi xətt diplomatiyamızın fəaliyyət normasına çevrilə bilməz.

Azərbaycan neftinin daşınmasında və Xəzərin statusunun həllində də tərəflərin əks mövqelərdə dayanmasına baxmayaraq regional əməkdaşlıq naminə milli maraqlarımıza zərər vurmayan və başqa dövlətlərlə əmək-

daşlığımızda mövcud olan balansı pozmayan bir konsensus tapmaq mümkündür və bu istiqamətdə cəhdlər davam etdirilməlidir. Neftin ixracı və nəqli sahəsində də əməkdaşlığımızın genişləndirilməsi üçün müəyyən addımlar atmaq mümkündür. Neftin ixracında İranın təcrübəsindən istifadə edilməsi, neft kəmərləri sisteminə yeni istiqamətlərin qoşulması və s. bu qəbildən olan məsələlərdəndir. Elə ARDNŞ-in vitse-prezidenti İlham Əliyevin "Nezavisimaya qazeta"dakı müsahibəsindəki "Əgər 4-cü boru xəttini, məsələn, İrandan çəkmək barədə bizə təklif verilsə, biz buna səs verəcəyik. Azərbaycanın nə qədər çox alternativ boru kəməri olsa, o qədər yaxşıdır" fikri bu sahədə gərginliyin yumşaldılmasını nəzərdə tutur.

ABŞ ilə konstruktiv əlaqələrin, Azərbaycanın enerji resurslarının istifadəsinə və işlənməsinə olan maraqların mövcudluğu şəraittində ölkəmiz ABŞ - İran əlaqələrinin sağlamlaşdırılmasında vasitəçi rolunu müəyyən mərhələlərdə öz üzərinə götürə bilər. Bu missiyanın həyata keçirilməsində İrandakı çoxmilyonlu Azərbaycan diasporundan düzgün, maksimal şəkildə istifadə edilə bilər.

Yuxarıda göstərilənlərdən əlavə, qarşılıqlı iqtisadi layihələrə də böyük diqqət verilməli, İran sərmayəsi Azərbaycana cəlb edilməlidir.

Bütün bunları və sadalanmayan başqa məsələləri hərtərəfli nəzərə alan Azərbaycan Prezidenti İranla dostluq, qardaşlıq və əməkdaşlıq prinsiplərinə əsaslanan xarici siyasət konsepsiyamızı müəyyənləşdirmişdir.

Onun yorulmadan göstərdiyi səylər nəticəsində ölkələrimiz arasındakı əlaqələr günü-gündən genişlənməkdə, inkişaf etməkdədir. Regionda, ölkəmizdə və İranda baş verən dəyişikliklər də bu prosesə yaxından yardım edir.

Hazırda bütövlükdə və həmçinin İranın özündə baş verən ictimai-siyasi və sosial-iqtisadi proseslər Yaxın və Orta Şərqdə, Cənubi Qafqazda beynəlxalq münasibətlərdə müəyyən təbəddülatlara səbəb olub. İranın regional superdövlətə çevrilməsi perspektivləri realdır. "Mötədil İslam" konsepsiyasının tərəfdarı olan Prezident Xatəminin tərəfdarları artıq üç dəfə bu sahədə qələbə qazanmışlar - 1999-cu ildəki bələdiyyə seçkiləri, 2000-ci ildəki ölkənin ali qanunvericilik orqanı olan Milli Məclisə seçkilər və ən nəhayət, son Prezident seçkiləri və İranda gedən son reformalar nəticəsində ölkə iqtisadiyyatı güclü təkan almışdır.

Hər iki ölkənin maraqlarının bəzi məsələlərdə bir-biri ilə uzlaşmamasına baxmayaraq əlaqələrimizin genişləndirilməsi və inkişaf etdirilməsi günün tələbidir və hər iki xalqın maraqlarına cavab verir.

Bu həqiqətdən çıxış edən Prezidentimizin siyasi fəaliyyəti daim dinamikada olan hərəkətdir. Ona görə də o, hakimiyyətə gələndən sonra həmsərhəd qonşularla, o cümlədən İranla dostluq, mehriban qonşuluq əlaqələri yaratmaq üçün öz gücünü və səylərini əsirgəmədi. Bütün bunlar tezliklə öz bəhrəsini verdi.

Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı xarici siyasət xətti qeyd edilənləri incəlikləri ilə nəzərə

alır və nəticədə düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xətt yürüdülür.

Ölkəmizin başçısı Böyük Britaniya sənayeçiləri konfederasiyasındakı çıxışında (22 fevral 1994-cü il) dövlətimizin xarici siyasət konsepsiyasından danışarkən bildirmişdi: "Azərbaycanın xarici siyasəti bütün dövlətlərlə hüquq bərabərliyinə əsaslanan və qarşılıqlı surətdə faydalı olan əlaqələr yaratmaqdan ibarətdir. Bəli, məhz bütün dövlətlərlə, o cümlədən qonşu ölkələrlə. Şübhəsiz ki, qonşu dövlətlərlə əlaqələr coğrafi - siyasi vəziyyətə görə daha yaxındır...Odur ki, bütün ölkələrlə əlaqələrimiz hüquq bərabərliyinə əsaslanmalı və qarşılıqlı surətdə faydalı olmalıdır. O cümlədən Rusiya ilə də, İranla da. Biz bunların heç birisinə fərq qoymuruq ... Başqa bir ölkənin, o cümlədən də İranın, yaxud hər hansı bir qonşu dövlətin bizim bazar iqtisadiyyatına heç bir təsiri ola bilməz..." (Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 419).

Əlavə edək ki, Prezident Heydər Əliyev İran və Türkiyə ilə əlaqə yaratmaq üçün mümkün olan imkanlarından həmişə istifadə etməyə çalışmış, Sovetlər dövründə belə buna səy göstərmişdir. O günləri dövlətimizin başçısı belə xatırlayır: "Xatirimdədir, o vaxtlar Azərbaycan Sovet İttifaqının tərkibində bir cumhuriyyət olarkən insanlarımız xarici ölkələrə səfərlər edirdilər. Mən də 70-ci illərdə, 80-ci illərin əvvəllində Azərbaycanın başçısı kimi bir çox ölkələrə səfər edirdim. Hətta Sovet İttifaqının nümayəndə heyətinin başında da olurdum. Ancaq bizə İrana səfər etməyə imkan vermirdilər. Mən Moskvada işləyəndə - Sovetlər İttifaqının rəhbərlərindən biri, Baş nazirin birinci müavini və Siyasi Büronun üzvü idim,- çox ölkələrə səfər etdim, Sovetlər İttifaqının çox ölkələrə gedən dövlət nümayəndə heyətinin başçısı oldum. Bir neçə dəfə dedim ki, bəlkə İrana bir səfər olsun, - buna imkan vermədilər. Yəni, demək istəyirəm ki, bizdən asılı olmayaraq 70 il bizi bir-birimizdən ayırdılar.

Ancan Allaha şükürlər olsun ki, sərhədlər açıldı, Azərbaycan öz milli azadlığına, müstəqilliyinə çatdı, nail oldu. İndi Azərbaycan sərbəst, müstəqil dövlətdir və müstəqil dövlət kimi ölkələrlə öz əlaqələrini qurur. Ancaq yenə də deyirəm, qonşu insan üçün həmişə qonşudur. Bəzən bizim xalq arasında belə deyirlər: yaxşı qonşu pis qohumdan yaxşıdır. Bəzən də deyirlər ki: bəlkə də qohum qohumdur, ancaq uzaqdadır, qonşu isə divarın o tərəfindədir. Böyük şəhərlərdə qonşular bəlkə də bir-birini tanımırlar. Xatirimdədir, gənc vaxtlarımda Naxçıvanda yaşayanda orada qonşular arasında divar vardı, bəzən onu götürürdülər ki, heç divar da olmasın. Ona görə qonşu ölkə bizim üçün, şübhəsiz ki, başqa ölkələrdən vacibdir".

Prezident Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, İranla bizim əlaqələrimiz mehriban, səmimi dostluq və qardaşlıq əlaqələri xarakteri daşıyır. Bəzi qüvvələrin bu əlaqələri ləkələmək, mane olmaq istəyi heç vaxt baş tutmayacaqdır... Çünki xalqlarımızın dostluğunun, qardaşlığının dərin kökləri var. Köklərimiz

bizi uzaq keçmişə aparır. Biz bir mədəniyyətə - Şərq mədəniyyətinə mənsub xalqlarıq, bir dinə - İslam dininə mənsub olan xalqlarıq. Ən əsası da odur ki, biz qonşuyuq.

Bütün qonşu ölkələrlə, o cümlədən İranla bütün sahələrdə, xüsusilə də iqtisadi sahədə əməkdaşlıq etmək dövlətimizin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirildi. Azərbaycan Prezidenti bu ali məqsədi həyata keçirmək üçün ilk müraciətlərindən birini on müsəlman dövlətini birləşdirən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) İstanbulda çağrılan 2-ci görüşünün iştirakçılarına göndərdi. Müraciətdə deyilirdi:

"Zati-aliləri, hörmətli dostlar!

İcazə verin mötəbər məclisinizi salamlayım, sizin hamınıza uğurlu və səmərəli iş arzulayım. Əminəm ki, keçirilən bu məclisin həsr olunduğu iqtisadi əməkdaşlığın inkişafı regionlarımızın və xalqlarımızın yaxınlığına xidmət edəcək, onlara dinclik, səadət və firavanlıq bəxş edəcəkdir.

İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin - Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir.

Hörmətlə,

Heydər Əliyev

Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri

5 iyul 1993-cü il"

Müraciətdən də göründüyü kimi, Prezident Heydər Əliyev özünün ilk çağırırşlarının birincisində İƏT-ə daxil olan bütün ölkələri, o cümlədən İranı müsəlman ölkələrinin zəngin təbii sərvətlərindən və material ehtiyatlarından müsəlman xalqlarının və iki qardaş ölkənin intibahı üçün birgə istifadə etməyə dəvət edirdi.

1993-cü ilin avqustunda İİR Xarici İşlər Naziri Ə.Ə.Vilayətinin başçılıq etdiyi rəsmi nümayəndə heyəti Bakıya işgüzar səfər etdi. Respublika rəhbəri ilə aparılan danışıqlardan sonra, səfərin nəticəsi olaraq, iqtisadi əməkdaşlıq haqqında saziş imzalandı.

Beləliklə də, təkcə Naxçıvan Muxtar Respublikası deyil Azərbaycan özü də bütövlükdə bu qonşu və qardaş ölkə ilə yaxın əməkdaşlığa başladı. Ölkəmiz müstəqilliyinin ilk illərində bəzi məsələlərə görə İran və Türkiyənin köməyinə kəskin ehtyac duymasına baxmayaraq onun apardığı siyasət azad və müstəqil idi.

Bu barədə Azərbaycan Prezidenti hələ özünün İrana ilk səfəri zamanı belə bəyan etmişdi: "Azərbaycanın xarici siyasəti azad və müstəqildir. Ölkəmiz bütün dünya dövlətləri üçün açıqdır. Biz Azərbaycanın müstəqilliyini tanıyan, onun mənafeyinə toxunmayan, ölkəmizə müsbət münasibət göstərən hər bir dövlətlə əlaqələr qurmağa hazırıq və belə əlaqələr qururuq.

Azərbaycan bütün ölkələrlə iki-

tərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq yolu ilə gedir və bu yolu davam etdirəcəkdir. Azərbaycan öz xarici siyasətində qonşu dövlətlərlə əlaqələrin genişlənməsinə çox böyük fikir verir. Qonşu dövlətlərlə Azərbaycanın tarixi əlaqələri sıx olduğuna görə ölkəmiz həmin münasibətlərin bundan sonra da inkişaf etməsinə çalışır".

Çıxışlarının birində Azərbaycanla İran arasındakı münasibətlərə toxunan ölkə başçısı bildirmişdir ki, onlar dərin köklərə malikdir. Bizim xalqlarımız əsrlər boyu bərabər yaşamış, bir yerdə olmuşlar. Bizim tarixi, mənəvi dəyərlərimiz eynidir. Biz hamımız, yəni İran və Azərbaycan xalqları islam aləminə mənsub olan xalqlardır. İslam aləminin dəyərləri bizim üçün əzizdir, möhtərəmdir. Biz bu dəyərləri öz həyatımızda bundan sonra da bərqərar edəcəyik. Elmi, mənəvi, mədəni əlaqələrimiz bizi tarix boyu birləşdirib. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının çox böyük sərhədi var. Bunları nəzərə alaraq, Azərbaycan İran İslam Respublikası ilə dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir.

Dövlətimizin başçısı hələ Naxçıvanda Ali Sovetə rəhbərlik etdiyi dövrlərdə belə bu qonşu ölkə ilə yaxın əlaqələr qurmağa, əməkdaşlıq etməyə cəhd etmiş, bu məqsədlə İran rəhbərliyi ilə mövcud olan şəxsi əlaqələrindən də istifadə edərək bir neçə dəfə İranda olmuş, Naxçıvanın blokadadan çıxarılaraq enerji və ərzaqla təmin edilməsi üçün konkret addımlar atmış, minlərlə insanı soyuqdan və ölümdən xilas etmişdir. Onu da demək yerinə düşərdi ki, Azərbaycanın o dövrki rəhbərləri ilə heç bir əlaqə saxlamayan İran tərəfi bütün bunlara baxmayaraq Heydər Əliyevin səylərinə cavab verərək Naxçıvana lazımi yardım göstərmişlər.

O günləri Azərbaycan Prezidenti belə xatırlayır: "...Naxçıvan Azərbaycanın əsas torpağından Ermənistan ərazisi vasitəsilə ayrı düşdüyünə görə Azərbaycanın paytaxtı Bakı və başqa şəhərlər ilə Naxçıvanın əlaqələri tamamilə kəsilmişdi.

Burada bizim elektrik enerjimiz, qazımız yox idi. Su çox az olurdu. İnsanların yaşayışı çətin, ağır idi. O zaman İran İslam Cümhuriyyətinin hörmətli Prezidenti Haşimi Rəfsəncani və İranın Xarici İşlər Naziri hörmətli Əli Əkbər Vilayəti məni Tehrana dəvət etdilər. Biz Naxçıvana yardım məsələlərini orada müzakirə etdik. Bizim imzaladığımız protokollara əsasən ondan sonra Naxçıvana İrandan müəyyən qədər elektrik enerjisi verilməyə başlandı. Naxçıvana müəyyən ərzaq yardımı göstərildi. Naxçıvan ilə İran arasındakı körpüdə gediş-gəliş məsələləri müəyyən qədər yüngülləşdirildi. Naxçıvanlıların İrana getməsi və iranlıların Naxçıvana gəlməsi və beləliklə də insanların ticarət etməsi məsələləri yüngülləşdirildi. Bir çox başqa işlər də görüldü...

Mən burada yenə də İranın Azərbaycana, Naxçıvana yardımını qeyd edirəm və təşəkkürümü bildirirəm. Yollar bağlananda İran hökuməti Naxçıvandan Bakıya avto-

mobillərin gedib-gəlməsi üçün yol verdi və biz həmin yoldan indiyə qədər istifadə edirik. Görürsünüz, nə qədər faktlar, misallar vardır. Mən bundan da çoxunu deyə bilərəm." *("Azərbaycan qəzeti", N 234, 12 oktyabr, 1999)*

1999-cu il avqustun 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında İran İslam Respublikasının Şərqi Azərbaycan əyalətinin ostandarı Yəhya Məhəmmədzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən də İran tərəfindən göstərilən bu köməyə ətraflı toxunmuş və xatırlatmışdır ki, o ağır günlərdə, xüsusilə də sərhədlər 1991-ci ildə açıldıqdan sonra İran ölkəmizə və onun bir parçası olan, ermənilər tərəfindən blokadaya salınmış Naxçıvana lazımlı yardımlar etmişdir. Azərbaycan Prezidenti qeyd etmişdir ki, İran ərazisindən Azərbaycanın Naxçıvanla əlaqə saxlamasında İranın gördüyü işlər bizim üçün çox əhəmiyyətlidir. Bu işlər mən Naxçıvanda işlədiyim zaman da var idi. Çünki yenə də deyirəm, 1992-ci ilə qədər yollar açıq idi. Düzdür, vəziyyət çox gərgin idi, amma yollar açıq idi. 1992-ci ilin yay aylarında bu yollar bağlandı. Bundan sonra biz İrana müraciət etdik. Şübhəsiz ki, Azərbaycan dövləti də müraciət etdi, amma Naxçıvan burada xüsusi fəlallıq göstərdi ki, bizə yol açsınlar və yol da açıldı. İndi bu yoldan da istifadə olunur. Bəzən mənə deyirlər ki, maneçilik var, filan var və sair var. Görünür ki, bu, ayrı-ayrı məmurların, bürokratların işidir. **Mən bilirəm ki, İran hökumətinin bu barədə siyasəti dönməzdir, dəyişməzdir və biz bundan istifadə edirik, bundan sonra da istifadə edəcəyik.**

Bu, Naxçıvan üçün böyük şeydir. Mən o illər, 1990-cı ildən 1993-cü ilə qədər Naxçıvanda yaşadım. Naxçıvanın nə qədər ağır vəziyyətdə olduğunu ancaq naxçıvanlılar bilir. Ola bilər, burada az adam bilir. Çünki o vaxt Naxçıvana Bakıdan, yaxud başqa yerlərdən gedib-gələn yox idi. Biz orada bir təcrid olunmuş ada kimi yaşayırdıq. Çox ağır vəziyyətdə yaşayırdıq. Bir tərəfdən Ermənistanla müharibə gedirdi, Ermənistan-Azərbaycan sərhədlərində atışma gedirdi, orada müharibənin qarşısını almaq lazım idi. Bir tərəfdən də insanları yaşatmaq lazım idi. **Mən heç vaxt unutmaram ki, İran o zaman bizə çox köməklik etdi.**

İranla qarşılıqlı əlaqələrin qorulma tarixçəsinə yenidən nəzər salan Azərbaycan Prezidenti aşağıdakıları bəyan etmişdir: "Mən cənab Haşimi Rəfsəncaninin dəvəti ilə İranı iki dəfə ziyarət etdim. O, bizi Tehrana dəvət etdi, orada müqavilələr imzaladıq, sənədlər imzaladıq və Azərbaycana köməklik gəldi. Biz elektrik enerjisindən tamamilə məhrum olmuşduq. Biz elektrik xəttini çəkdik gətirdik. O elektrik xəttinin açılışı mənim xatirimdədir. Naxçıvan indiyə qədər ondan istifadə edir. Biz eyni zamanda Türkiyədən xətt çəkdik, Türkiyədən körpünü açdıq, çəkdik. Amma İrandan da çəkdik. Düzdür, nə İrandan gələn elektrik enerjisi, nə də Türkiyədən gələn elektrik enerjisi Naxçıvanın tələbatının hamısını təmin etmir. Amma o vaxta qədər biz ancaq Arazdan götürürdük. Özü də biz oradan cəmi 20 meqovatt götürürdük, bir o qədər də İran götürürdü. Bununla Naxçıvanı təmin etmək mümkün deyildi. Şübhəsiz, amma bir müddət onunla yaşadıq. Sonra, yadımdadır, bu körpü məsələsi- o tay Culfada, bu tay Culfada bazar açıldı. Sonra Şahtaxtı, Poldəşt - bu, artıq Qərbi Azərbaycanla bizim əlaqələrimiz oldu. Onlar edilibdir. Şübhəsiz ki, **bu, birinci növbədə İran İslam Cumhuriyyətinin Azərbaycana, Naxçıvana olan doğru, düzgün, ədalətli və qardaş münasibəti idi.** Eyni zamanda Şərqi Azərbaycan burada çox böyük işlər görürdü. Mən o vaxt Təbrizə ziyarətlərimi çox məmnuniyyətlə xatırlayıram. Təbrizdən Naxçıvana nə qədər insanlar gəlirdi, görüşürdük, bir-birimizə kömək edirdik. Ancaq mən bilirəm və indi Naxçıvanın başçısı Vasif Talıbov vaxtaşırı məni məlumatlandırır ki, son vaxtlar İran hökuməti Naxçıvanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün əvvələ nisbətən bir çox yeni tədbirlər görübdür. İndi onların hamısını Siz dediniz. Mən bunların hamısını bilirəm və bunlar Naxçıvan üçün çox əhəmiyyətlidir. Bunlara görə də mən çox təşəkkür edirəm. Güman edirəm ki, Azərbaycanın da Şərqi Azərbaycanla, Təbrizlə ən yaxın yeri Naxçıvandır. Naxçıvandan Təbrizə avtomobillə 2 saata getmək olur. Elədir, yoxsa yox? Yəqin ki, sən də elə getmisən. Ona görə də bu təbiidir.

Bilirsiniz, mən Naxçıvanda doğulmuşam. Mənim gəncliyim orada keçibdir. Doğrudur, o vaxtlar yolları bağlamışdılar. Amma yenə də bizim üçün Təbriz, Təbriz, Təbriz! Elə bil ki, əlini uzat, Təbrizə çatacaqsan. Amma o məftillər bizi qoymurdu. Ona görə Naxçıvanın problemlərinin həlli üçün Sizin indiyə qədər etdiyinizə görə təşəkkür edirəm. Xahiş edirəm, mənim təşəkkürümü cənab Xatəmiyə çatdırasınız."

Əlbəttə, ilk dövrlərdə ölkəmizin qonşu İran və Türkiyə ilə yaxın münasibətlər qurmasını istəməyənlər hər vəchlə belə əlaqələrin yaranmamasına çalışır, Azərbaycanın bu ölkələrə meyl göstərməsinə dini don geyindirərək ölkəmizi din birliyini az qala milli birlik amili kimi qəbul etməkdə günahlandırırdılar.

Bu fikri qətiyyətlə rədd edən Azərbaycan Prezidenti göstərirdi ki: "Hər dövlətin öz xarici siyasəti var. Milli xüsusiyyətlər, din - bunlar da əhəmiyyətli amillərdir. Şəxsən mən milli hisslərlə dini hissləri qarışdırmazdım. Bu kateqoriyalar heç də hər cəhətdən oxşar deyildir, hərçənd əksər hallarda onları az qala eyniləşdirməyə çalışırlar...

O ki, qaldı milli xüsusiyyətlərə, burada hətta səthi etnoqrafik bilik, zənnimcə, hər şeyi ətraflı şəkildə izah edir. Türk və Azərbaycan dilləri qohum dillərdir, elə bunun özü də yaxınlığın labüdlüyünü qabaqcadan müəyyənləşdirir. İranda on milyonlarla azərbaycanlı yaşayır. Məgər bu amillər iki böyük ölkə ilə yaxınlığın olmasını zərurətə çevirmirmi?

Daha bir məsələ barəsində... Yetmiş ildən artıq bir müddətdə biz öz cənub qonşularımızdan, demək

olar, tamamilə ayrı düşmüşdük, indi, birləşmə, inteqrasiya əhval-ruhiyyəsi bütün dünyaya hakim kəsildiyi bir vaxtda nəyə görə də bizim qonşularla normal münasibətlərimiz olmasın? (Axı, bu münasibətlər başqa dövlətlərə heç bir ziyan gətirə bilməz.) Mən bizim münasibətlərimizi nəzərdə tuturam... Azərbaycanı Türkiyə və İranla qədim tarix birləşdirir..." *("Azərbaycan" qəzeti, 30 avqust 1993-cü il).*

Prezident Heydər Əliyev erməni təcavüzünün ağır günlərində İran rəhbərliyi ilə danışıqlar aparmış, Azərbaycanın bu ölkə ilə yaxın və həmsərhəd olan rayonlarında hərbi əməliyyatların güclənməsi ilə əlaqədar humanitar kömək barədə də müraciət etmişdir. Və bu ağır zamanda İran hökuməti təşəbbüs irəli sürərək bildirmişdi ki, onlar işğal edilmiş rayonlardan olan təxminən 100 min qaçqını öz öhdələrinə götürə bilərlər.

Bu çətin dövrdə Azərbaycanın heç də tək olmadığını bildirən ölkəmizin başçısı göstərmişdi ki: "Ermənistan silahlı birləşmələrinin bu cür son dərəcə təhlükəli, avantürist, təcavüzkar hərəkətləri münaqişəni beynəlmiləlləşdirməyə doğru aparır. Buna nə İran, nə də Türkiyə biganə qala bilməz..." *(Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 135 - 136).*

Bu sözlər ölkəmizə İran tərəfindən mənəvi və siyasi dəstək verildiyinə işarə idi.

Ərazilərinizi qorumaq, ölkənin birliyini saxlamaq üçün hərbi yardım üçün Rusiya və İran kimi xarici ölkələrə müraciət etmək lazım gələcəkdirmi sualına dövlətimizin başçısı açıq şəkildə cavab vermişdir: "Hələlik ki, biz bu gün beynəlxalq təşkilatlara - BMT-yə, Təhlükəsizlik Şurasına, ATƏT-ə, Minsk qrupuna böyük ümidlər bəsləyirik və əlbəttə, öz respublikamızın qüvvələrinə və imkanlarına bel bağlayırıq. Əgər bütün bunlar heç bir nəticə verməsə, bu halda Azərbaycan Respublikası öz ərazi bütövlüyünü qorumaq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün lazımi qərarlar qəbul etmək hüququnu özündə saxlayır..." *(Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 219).*

İranın ölkəmizə yardım imkanlarını layiqincə qiymətləndirən dövlətimizin rəhbəri həmin günlərdə respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə demişdir:

"... Şərq aləmini bilmək üçün İranda da çox böyük imkanlar var, bunlardan istifadə etməliyik... İran İslam Respublikası ilə respublikamız arasında əvvəlki anlaşılmazlıq aradan götürülüb, indi əlaqələr sürətlə inkişaf edir..." *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 164-182).*

Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin həllində İranın vasitəçiliyinə də müsbət yanaşmış, bu dost ölkənin imkanlarından istifadə edilməsinin tərəfdarı olmuşdur. Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutundakı çıxışında (23 fevral 1994-cü il) bu mözuya toxunaraq bildirmişdir: "Azərbaycanla İran arasında münasibətlər normaldır. Bu yaxın vaxtlaradək münasibətlərimiz keçmiş Azərbaycan rəhbərliyinin təqsiri üzündən qeyri-normal xarakter

daşıyırdı. İndi münasibətlərimiz qaydasına düşmüş və bizim heç bir problemimiz yoxdur. Bununla bərabər, İranın Ermənistanla çox yaxşı münasibətləri var. Buna görə də İran tərəfi bildirmişdir ki, Azərbaycan ilə Ermənistan arasında vasitəçi rolunu oynaya bilər. Bununla əlaqədar İran Ermənistana müraciət etmişdir. Ermənistan da razılaşmışdır. Lakin biz bu fikirdəyik ki, bir dövlət belə mürəkkəb vəziyyətdə vasitəçiliyi təmin edə bilməz, beynəlxalq təşkilatların və bir neçə dövlətin səylərini birləşdirmək lazımdır. Bununla yanaşı, biz hər hansı bir ölkənin vasitəçilik səylərindən imtina etmirik. Bu vasitəçiliyin şərtlərini və real imkanlarını aydın və dəqiq təsəvvür etmək lazımdır" *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 428-429).*

Azərbaycan Prezidenti İranla əlaqələrimizə həmişə böyük önəm vermiş və dəfələrlə boyan etmişdir: "İran bizim yaxın qonşumuzdur. Orada milyonlarla azərbaycanlı yaşayır. Tarixən, əsrlər boyu bizim çox yaxın əlaqələrimiz olmuşdur... İndi İranla həm iqtisadi, həm mədəni, həm də insani əlaqələrimiz çox yaxşı səviyyədə inkişaf edir" *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 583).*

O dəfələrlə vurğulamışdır: "...İran Azərbaycanın böyük qonşusudur. İran ilə Azərbaycan arasında da əsrlər boyu çox sıx əlaqələr, dini, milli, mənəvi əlaqələr olub. Ənənələrimiz bir-birinə çox bənzərdir, yaxındır. Bunları və insani əlaqələrin çox geniş olduğunu nəzərə alaraq İran ilə Azərbaycan arasındakı əlaqələri inkişaf etdiririk və bu, bizim üçün çox önəmlidir." *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. II kitab, səh. 290-291).*

İranla ölkəmiz arasındakı tarixi yaxınlığın həmişə mövcudluğunu nəzərə çarpdıran Prezident məşhur "Ayrılıq" mahnısının bəstəkarı Əli Səlimidən danışarkən demişdir: "Bax, budur, biz birik, yəni burada heç nə ayrı deyildir. Əli Səlimi də, yaxud bizim Azərbaycan bəstəkarları da hamısı birdir. Hamısı bir musiqi bir mahnı yazır. Ona görə də bunları heç vaxt ayırmaq olmaz. 70 il də ayıra bilmədi, 100-200 il də olsa, ayıra bilməz. İndi biz bu əlaqələri inkişaf etdirməliyik. **Mən bildirmək istəyirəm ki, dövlətimizin siyasəti, şəxsən Prezident kimi mənim siyasətim İran İslam Cumhuriyyəti ilə əlaqələrimizi bütün sahələrdə genişləndirmək, inkişaf etdirmək məqsədi daşıyır.** Həm iqtisadi əlaqələri, həm humanitar, elm, mədəniyyət və bütün başqa sahələrdə əlaqələri inkişaf etdirmək istəyirik və etdirəcəyik".

1993-cü il oktyabrın 26-28-də İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaninin başçılıq etdiyi nümayəndə heyəti Bakıya rəsmi səfər etdi. Bu səfərin nəticəsi olaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında memorandum imzaladılar. Bu memorandumu siyasətçilər **dostluq memorandumu** kimi də adlandırırlar. Belə ki, bu sənəd vasitəsi ilə ikitərəfli əməkdaşlı-

ğın əsas çərçivəsi və hüdüdları müəyyənləşdirildi. Bundan əlavə, səfər əsnasında daha 9 müqavilə və saziş imzalandı ki, onlar da gələcək əməkdaşlığımızın hüquqi bazasını yaratdılar, onların inkişafına təkan verdilər.

Azərbaycan və İran Prezidentləri arasında danışıqların yekunlarına həsr olunmuş birgə mətbuat konfransında bəyanatla çıxış edən Azərbaycan Prezidenti bildirdi ki, İran İslam Respublikasının Prezidenti, hörmətli ağayi Haşimi Rəfsəncani və onu müşayiət edən yüksək vəzifəli dövlət nümayəndələri üç gündür ki, Azərbaycanda səfərdədirlər. Azərbaycan Respublikası özünü müstəqil dövlət elan etdikdən sonra bu, İran İslam Respublikasından bizə gələn yüksək səviyyəli ilk nümayəndə heyətidir. Bu danışıqların nəticəsində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış sənədlər də müstəqil Azərbaycan dövlətinin İran İslam Respublikası ilə yüksək səviyyədə imzaladığı ilk sənədlərdir. Biz bu səfərdən, görüşlərdən, aparılan danışıqlardan çox məmnunuq və guman edirəm ki, bu gün imzalanan sənədlər İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin yeni mərhələsinin başlanğıcıdır.

Danışıqlar zamanı tərəflər arasında çox geniş fikir mübadiləsi aparılmışdır. Həmin günlərdə erməni silahlı dəstələri Azərbaycan Respublikasının bir neçə yaşayış məntəqəsinə yeni hücumlar etdiyinə görə, cənab Haşimi Rəfsəncani atəşin dayandırılması üçün müəyyən səylər göstərmiş və Ermənistan tərəfi ilə bir neçə dəfə danışıqlar aparmışdır. Prezident Heydər Əliyev bildirmişdi ki, İran İslam Respublikası rəhbərliyinin və şəxsən cənab Haşimi Rəfsəncaninin bu sahədə fəaliyyəti davam edəcək və o öz imkanlarından istifadə edib Azərbaycan Respublikasının təcavüzdən xilas olması üçün lazımi fəaliyyət göstərəcəkdir.

Aparılan danışıqlardan, görüşlərdən və imzalanmış sənədlərdən razı qaldığını söyləyən dövlətimizin başçısı göstərmişdir ki, bu səfər çox səmərəli oldu və güman edirəm ki, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra sürətlə inkişaf edəcəkdir.

İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaninin də səfər və onun gedişatı haqqındakı sözləri olduqca səciyyəvi idi. O, göstərmişdi ki, Azərbaycana qədəm basdığım andan hörmətli Prezident, cənab Heydər Əliyev və Azərbaycan Respublikasının digər hökumət və dövlət xadimləri tərəfindən çox mehriban və xoş qarşılandım. Elə hiss edirəm ki, öz evimizə gəlmişəm. Olduğumuz bütün yerlər - istər mədəniyyət mərkəzləri, istərsə də müəssisələr bizim üçün çox maraqlı idi. Hərbi qospitalda müalicə olunan yaralı əsgərlərin yanında, istərsə də Şəhidlər xiyabanında olmaq mənim yaddaşımda silinməz izlər buraxmışdır. Mənim üçün ən əhəmiyyətli cəhət budur ki, bizim aramızda tam qarşılıqlı anlaşma və mehriban ünsiyyət hökm sürür ki, bu da gələcək əlaqələrimiz üçün ən böyük təminatdır. Ən əhəmiyyətli cəhət budur ki, bura-

da adamlar, azərbaycanlılar bizi çox yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Bu isə gələcəkdə hər şeyin inkişaf edəcəyinə ümid verir.

Gələcəkdə Aralıq dənizinə qədər uzanan neft kəmərinin İran ərazisindən keçməsi məsələsinə də toxunan İran İslam Respublikasının Prezidenti göstərmişdi ki, bu hələ protokollaşdırma və yaxud qarşılıqlı anlaşma sənədi səviyyəsinə gəlib çatmamışdır. Azərbaycandan çəkiləcək neft kəmərinin İran ərazisindən keçib-keçməyəcəyinə gəlincə, İran öz ərazimizdir, öz vətənimizdir və istənilən vaxt bu barədə danışa bilərik.

Bu məsələyə toxunan Azərbaycan Prezidenti Heydər Əliyev qeyd etmişdi ki, mən də bu fikirdəyəm ki, bu neft kəmərlərinin hansının haradan keçməsi hələ heç də məlum deyil, bu məsələləri qabaqlamağa ehtiyac yoxdur. Bu məsələlər bir neçə dövlətin danışıqları və razılığı nəticəsində ola bilər. Bu danışıqlar, bu sazişlər nə nəticə verəcəksə, elə də olacaqdır. Mən cənab Prezidentə təşəkkür edirəm ki, İran ərazisindən Azərbaycan üçün hər bir kəmərin, hər bir borunun keçməsinə elə indi razılıq verir.

Bəzi siyasi müşahidəçilər o dövrdə Azərbaycan və İranın yaxınlaşmasının siyasi nəticəsi kimi tərəflər arasında hərbi müqavilənin imzalanmasını da gözlədikləri halda Azərbaycan Prezidenti bunun nəzərdə tutulmadığını göstərmiş, İran İslam Respublikasının və şəxsən cənab Haşimi Rəfsəncaninin bizim qaçqınlara köməyi bundan sonra da davam etdirəcəklərini bildirmişdi.

Türkiyə və İranın Azərbaycanla münasibətlərini genişləndirmək baxımından son dərəcə böyük bir rəqabət apardıqlarını iddia edən Qərb mətbuatına cavab olaraq Haşimi Rəfsəncani bildirmişdi ki, hər iki dövlət Azərbaycanla əməkdaşlıq sahəsində öz aralarında əməkdaşlıq etməlidir. Əlbəttə, bəzi əlaqələr, məsələn, iqtisadi əlaqələr yaratmaq sahəsində rəqabət ola bilər. Hətta ölkənin özündə də bəzi sahələrdə müxtəlif təşkilatlar, birliklər bir-biri ilə rəqabətdə olurlar. Bu, təbii haldır. Əlbəttə, bizim Azərbaycanla iqtisadi əlaqələr yaratmağımız o demək deyildir ki, biz buraya nüfuz dalınca gəlirik. Yalnız əməkdaşlıq etmək istəyirik. Ümidvaram ki, Türkiyənin mövqeyi də belə olacaq.

Sonralar bu səfərin nəticələrinə yenidən toxunan Azərbaycan Prezidenti göstərmişdir: "Azərbaycan üçün İran böyük qonşu ölkədir. Bizim çox mehriban, dostcasına münasibətlərimiz var. Keçən ilin oktyabrında İran Prezidenti cənab Haşimi Rəfsəncani Azərbaycanda rəsmi səfərdə olmuşdur. O zaman biz dövlətlərarası münasibətlərin inkişafı üçün perespektivlər açan bir sıra sənəd imzalamışıq. Azərbaycanın İranla iqtisadiyyat sahəsində, bütün başqa sahələrdə əməkdaşlığının böyük perspektivi var. Əgər hansısa yeni sənədlər imzalamaq tələb olunarsa, o zaman, görünür, hər bir məsələ ayrıca halda nəzərdən keçiriləcək. İran həqiqətən Azərbaycan qaçqınlarına böyük humanitar yardım göstərir. Bu yardıma görə biz İran hökumətinə minnətdarıq və əminik ki, Azərbaycan ilə İran arasındakı dostluq və əməkdaşlığın inkişaf perspektivləri

əlverişli olacaqdır" *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 556-557).*

Bundan sonra 1993-cü il dekabr ayının əvvəllərində Azərbaycan Parlamentinin sədri, ayın sonunda isə Xarici İşlər Nazirinin başçılıq etdiyi nümayəndə heyətlərinin Tehrana səfərləri iki qonşu ölkə arasında münasibətlərin inkişafına təkan verdi..

Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının IV sessiyasında AR Xarici İşlər Naziri başda olmaqla, Azərbaycan Respublikası nümayəndə heyətinin iştirakı da iki qonşu dövlət arasında hərtərəfli münasibətlərin inkişafına yardım etdi.

1994-cü il iyunun 29-dan - iyulun 2-dək Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin başçılıq etdiyi yüksək səviyyəli nümayəndə heyəti Tehrana səfər etdi. Bu ilk rəsmi səfər zamanı Heydər Əliyev İİR-in Ali Dini Rəhbəri cənab Xamneyi, Prezident Haşimi Rəfsəncani, İslam Şurası Məclisinin sədri Natiq Nuri və digər rəsmi şəxslər ilə görüşlər keçirdi, bir sıra sənədlər imzalandı və beləliklə də Azərbaycan-İran əməkdaşlığının genişlənməsi üçün zəruri addımlar atıldı.

Azərbaycan Prezidenti İranda rəsmi səfərdə olarkən bir neçə qeyri-rəsmi görüşlər də keçirdi, İran ictimaiyyəti qarşısında ölkəmizin mövqeyini ifadə edən çıxışlar etdi. Bunlardan ən yadda qalanlarından biri onun İran Xarici İşlər Nazirliyinin siyasi araşdırmalar mərkəzinin diplomatik kurslarında təhsilini başa çatdırmış müdavimlər qarşısında çıxışı oldu. Bu çıxışında Azərbaycan Prezidenti İranla qurulacaq gələcək əlaqələrin yollarını və perspektivlərini, Azərbaycanın bu məsələdə mövqeyini bəyan etdi. Öz çıxışında Prezident Heydər Əliyev məmnunluqla bildirdi ki, bu gün burada mühüm bir hadisə baş verir. Azərbaycanın xarici işlərlə məşğul olan bir qrup mütəxəssisi burada təhsili bitirdikləri haqqında müəyyən sənədlər alır. Mən bu hadisənin iştirakçısı olduğumdan çox məmnunam. Siyasi araşdırmalar mərkəzinin diplomatik kurslarını bitirən Azərbaycandan gəlmiş məzunları təbrik edir, İranın Xarici İşlər Nazirliyinə respublikamıza göstərdiyi bu yardıma görə təşəkkürümü bildirirəm.

Səfərin nəticələrinə toxunan Azərbaycan Prezidenti göstərmişdir ki, burada bizim çox faydalı görüşlərimiz olub və belə hesab edirəm ki, bu səfər İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gələcək inkişafı üçün mühüm mərhələdir.

Azərbaycanın xarici siyasətinə toxunan ölkəmizin başçısı bildirmişdir: "Azərbaycan müstəqil dövlətdir və öz müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Azərbaycan 70 ildən çox müddətdə kommunist rejimi, sosializm şəraitində yaşamışdır. Azərbaycan xalqı, respublikamız indi bu rejimdən, bu ideologiyadan imtina edərək öz həyatını, taleyini tarixi, mənəvi ənənələr əsasında, Allahın buyruğu ilə qurmaq, həll etmək istəyir. Azərbaycan müstəqillik yolu ilə gedir, demokratik hüquqi dövlət qurur. Respublikada daxili siyasət - Azərbaycanda demokratik prosesləri inkişaf etdirmək, siyasi plüralizmə yol açmaq, iqtisadiyyatı bazar münasibətləri yolu ilə aparmaq məqsədlərinə, yəni köhnə rejimdən tamamilə imtina olunmasına xidmət edir. İndi biz keçid dövründəyik. Bu dövrün çətinlikləri çoxdur. Əminəm ki, biz bu keçid dövrünü ötüb keçəcəyik və Azərbaycan öz həyatını dünyanın sivilizasiyalı ölkələrində əldə olunmuş nailiyyətlərdən istifadə edərək quracaqdır.

Azərbaycan Prezidenti öz çıxışında göstərmişdir ki, ölkəmiz İran İslam Respublikası ilə dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir.

Ölkəmizin başçısı mövcud əlaqələrə geniş təhlil verərək demişdir: "Doğrudur, bu əlaqələrdə son vaxtlar müəyyən soyuqluq əmələ gəlib, ancaq biz bunları aradan qaldırmışıq və qaldırırıq. İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani keçən ilin oktyabr ayında Azərbaycanda rəsmi səfərdə olandan sonra bu əlaqələr müsbət istiqamətdə inkişaf edir və biz bunu davam etdirəcəyik. Məhz buna görə də mən İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaninin dəvətini qəbul edib buraya gəlmişəm və burada gördüyümüz işlər, aparılan danışıqlar onu göstərir ki, biz düz yoldayıq və bu yolla da gedəcəyik. **Tam əmin ola bilərsiniz ki, İranla Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin inkişaf etməsi üçün biz bütün səyləri göstərəcəyik. Mən bir Prezident kimi, bu siyasətin təminatçısı kimi çıxış edirəm.** Azərbaycan digər qonşu ölkələrlə də dostluq əlaqələrini davam etdirir. Bu baxımdan Gürcüstanla əlaqələrimiz dostluq xarakteri daşıyır. Rusiya ilə əlaqələrimizdə əvvəllər müəyyən çətinliklər olmuşdu, indi bunlar aradan qaldırılır və əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri inkişaf edir və inkişaf edəcəkdir. Azərbaycan Avropa və dünya ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələri inkişaf etdirəcəkdir. Bu, bizim xarici siyasətimizin əsas prinsipləridir və biz bunun əsasında irəliyə gedəcəyik.

Bunların hamısını sizə çatdıraraq bir daha demək istəyirəm ki, Azərbaycanla İran arasındakı münasibətlər xüsusi xarakter daşıyır. Məni bu səfərdə Azərbaycanın görkəmli simaları - alimləri, yazıçıları, siyasətlə məşğul olan şəxsləri müşayiət edirlər. Onların əksəriyyəti bu salondadır. Onlar Azərbaycanın tarixi, qədim ədəbiyyatı ilə məşğul olan, böyük əsərlər yazmış adamlardır. Elmi işlə, yaradıcılıq işləri ilə məşğul olan şəxslər həmişə Azərbaycanla İran arasında, xalqlarımız arasında dostluq, qardaşlıq əlaqələrini və tarixi köklərimizin birliyini təhlil edərək öz əsərlərində əks etdirmişlər. Belə hesab edirəm ki, onlar həmin sahədəki fəaliyyətlərini bundan sonra da davam etdirəcəklər. Əgər keçmişdə onlar çox böyük maneələr keçərək elmi tədqiqat işləri aparmışlarsa, indi İranın qapıları Azərbaycan üçün, Azərbaycanın qapıları isə İranın alimləri, şairləri, yazıçıları, tədqiqatçıları, diplomatları üçün açıqdır. Hər iki tərəf bu imkanlardan istifadə edib xalqlarımı-

zın bir-birinə yaxınlaşmasına səy göstərməlidir. Mən əminəm ki, Azərbaycan tərəfindən belə səylər göstəriləcəkdir.

Bizim ən böyük problemimiz Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzüdür. Bu təcavüz davam edir, Azərbaycan torpaqları işğal edilir. İşğal olunmuş ərazilərimizdə erməni silahlı qüvvələri Azərbaycanın milli, mənəvi sərvətlərini, islam aləminə aid olan tarixi abidələri vəhşicəsinə dağıdırlar. Bilirsiniz ki, yaradılan şeyi dağıtmaq həmişə etiraz, həyəcan doğurur. Ancaq mənəvi, dini sərvətlərin, İslamın müqəddəs sərvətlərinin, əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə çatdırılan abidələrin dağıdılması qəlbimizi sıxır, bizi dəhşətə gətirir, həyəcanlandırır və bir daha bizi torpaqlarımızın müdafiəsinə dəvət edir.

Şübhəsiz ki, biz Ermənistan kimi kiçik bir dövlətin öhdəsindən gəlməyə qadirik. Azərbaycanın iqtisadi potensialı, qüvvəsi Ermənistandan qat-qat çoxdur. Ancaq siz bilməlisiniz ki, Ermənistanın müharibədəki üstünlüyünün əsas səbəbi dünyanın böyük dövlətlərinin ona kömək göstərməsidir. Ermənistanın heç bir təbii sərvəti yoxdur, iqtisadi vəziyyəti ağırdır. Ancaq xarici ölkələrdəki - Amerikada, Avropada, Rusiyadakı erməni diasporunun böyük sərvətləri Ermənistana axır, ona kömək edir. Ermənistana dəstək verən, kömək göstərən ölkələr başqa sahələrdə də ona yardım edirlər, o cümlədən hərbi sahədə Ermənistan bu köməkdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə nail olur. Ancaq bu o demək deyil ki, həmişə belə olacaq. Yox, heç vaxt olmayacaq.

Azərbaycan xalqı əsrlər boyu öz milli azadlığı, müstəqilliyi uğrunda vuruşub, döyüşüb, mübarizə aparıb, qurbanlar, şəhidlər verib. Doğrudur, belə də olub ki, Azərbaycan müvəqqəti olaraq məğlubiyyətlərə uğrayıb. Ancaq bütün bunlar müvəqqəti olub. Bundan sonra Azərbaycan xalqı yenə də ayağa qalxıb, yüksəlib, öz qamətini düzəldib, yenə də öz müstəqilliyini, azadlığını əldə edibdir. Guman edirəm ki, bundan sonra da edəcəkdir.

Mən belə hesab edirəm ki, siz bizim dərdlərimizi daha yaxşı başa düşürsünüz. Çünki İran xalqı həmişə öz ərazisini qorumaq üçün müharibələr aparıb. Buna görə də bizim dərdimizi daha yaxşı, daha yaxından, qəlbdən hiss edə bilərsiniz. Siz çoxlu şəhidlər vermisiniz, ölkənizi müdafiə etmisiniz, İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumusunuz.

Azərbaycan da öz ərazisinin bütövlüyü, sərhədlərinin toxunulmazlığı uğrunda mübarizə aparır. Azərbaycanın başqa heç bir fikri yoxdur. Ölkəmiz heç bir dövlətin torpağına göz dikməyib, Azərbaycan ancaq öz ərazisini, özünə məxsus olan sərvətləri qorumağa çalışır, müharibə aparır. Ona görə də biz öz xarici siyasətimizdə beynəlxalq normaların əsası olan prinsipi - hər bir müstəqil dövlətin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının qorunmasını müqəddəs prinsip kimi qəbul etmişik və edirik. Biz buna riayət edirik. İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını öz

torpaqlarımızın, öz ərazimizin, öz sərhədlərimizin toxunulmazlığı kimi qəbul edirik, ona hörmət etmişik və hörmət edirik. Eyni zamanda biz bütün dövlətlərin, o cümlədən İran İslam Respublikasının ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı üçün öz səsini qaldırmasını arzu edirik və guman edirik ki, həmin səslər bundan sonra da gur olacaq.

Bu salonda çıxış edərkən mən həm İran İslam Respublikasının, həm də Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması naminə verilmiş şəhidlərin qəhrəmanlığını qeyd edirəm, onların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi sizdən rica edirəm. Allah onlara rəhmət eləsin.

Azərbaycan xalqı bütün bu bəlalardan çıxmağa qadirdir. Biz heç vaxt sınmayacağıq, bizim iradəmiz heç vaxt dönməyəcək. Yenə də deyirəm ki, biz başqa ölkənin, başqa dövlətin torpağına göz dikməmişik, ancaq öz ərazimizi, öz torpağımızı qorumağa çalışacağıq və buna nail olacağıq. Azərbaycan öz müstəqilliyini heç vaxt əldən verməyəcək. Xalqımız öz milli azadlığını qoruyacaqdır.

Bu fürsətdən istifadə edib İran İslam Respublikasına, onun rəhbərlərinə, İran xalqına öz hörmət və ehtiramımı bildirirəm. İran xalqına bundan sonra da xoşbəxtlik və səadət arzu edirəm."

Proqram xarakterli bu çıxış gələcək əlaqələrimizin təməlini qoydu. Əlavə olunmalıdır ki, qarşıya çıxan maneələrə baxmayaraq bu proqram ölkə rəhbərliyi tərəfindən ardıcıl olaraq həyata keçirilməkdədir.

Azərbaycan Prezidenti Tehranda səfərin sonunda bəyanatla çıxış edərək, ona yekun vurdu və göstərdi ki, dörd günlük bu səfər İran ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələrinin gələcək inkişafında yeni bir mərhələdir. İran İslam Cümhuriyyəti, İran xalqı Azərbaycan Respublikası üçün, Azərbaycan xalqı üçün dost, qardaş, qonşu ölkə və xalqdır. Ona görə də biz belə hesab edirik ki, bu ölkə ilə Azərbaycan arasındakı münasibətlər daim səmimi və mehriban olmalıdır. Elə olmalıdır ki, bütün sahələrdə əməkdaşlıq yüksək sürətlə inkişaf etsin. Mən bu məqsədlə buraya gəlmişəm. İran İslam Cümhuriyyətinin rəhbərləri - cənab Ayətülla Seyid Əli Xamneyi, hörmətli Prezident, ağayi Haşimi Rəfsəncani, İran Məclisinin başçısı, ağayi Natiq Nuri ilə, Xarici İşlər Naziri Əli Əkbər Vilayəti, Kooperasiya Naziri Qulam Rza Şafeyi ilə və başqa dövlət adamları ilə görüşlərdə iki ölkə arasında, xalqlarımız arasında iqtisadiyyat, ticarət, mədəniyyət, elm, texnika sahəsində və başqa sahələrdə əməkdaşlığın inkişafı haqqında danışıqlar aparılmış və yaxşı nəticələr əldə edilmiş, bir sıra sənədlər razılaşdırılmışdır. Ancaq məsələ təkcə bu sənədlərdə deyildir, münasibətlərimizin hüdudları həmin sənədlərdən xeyli genişdir.

Danışıqlarda son illərdə Azərbaycanın ağır müharibə şəraitində yaşaması haqqında, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun nəticəsində ərazimizin 20 faizinin işğal edilməsi haqqında, zəbt olunmuş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlının didərgin düşməsi barədə və bununla bağlı

bütün problemlər haqqında fikir mübadiləsi aparılmışdır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticəsi olan müharibə dövründə, Azərbaycanın düşdüyü ağır sosial-iqtisadi böhran şəraitində biz İran İslam Cümhuriyyətinin yardımını daim hiss etmişik. İndiki danışıqlarımızda da bu barədə söhbət getmişdir. Bu yardıma görə, bizimlə həmrəy olduqlarına, bizi beynəlxalq aləmdə müdafiə etdiklərinə görə İranın rəhbərlərinə təşəkkürümü bildirmişəm.

Bir daha qeyd edirəm ki, bu görüşlərimiz Azərbaycan ilə İran arasında dostluq, qardaşlıq əlaqələrinin həm yeni bir mərhələsidir, həm də bu əlaqələrin sürətlə inkişaf etməsi üçün yaxşı şərait yaradır və Azərbaycan tərəfi gələcəkdə bu şəraitdən səmərəli istifadə etməyə çalışacaqdır.

Azərbaycan Prezidenti danışıqlarda Xəzər dənizinin statusu məsələsinin müzakirə edilmədiyini bildirmiş, ölkəmizin qonşu dövlətlərlə dostluq əlaqələri yaratmaq istədiyini, İranın bizim üçün dost və qardaş ölkə olduğunu bəyan etmişdir.

27 oktyabr 1994-cü ildə Türkmənistan-İran-Türkiyə-Avropa qaz kəmərinin rəmzi açılışı mərasimində Prezident Heydər Əliyev başqa dövlət başçıları ilə yanaşı İran Prezidenti ilə yenidən görüş keçirmiş, mərasimdə nitqlə çıxış edərək bildirmişdir ki, Türkmənistan, İran və Türkiyə arasında əldə olunmuş müqavilə çox böyük bir hadisədir. Bəyan etmişdir ki, o burada bir şahid kimi iştirak edir və şahid kimi də söz verir ki, bu müqavilənin həyata keçirilməsi üçün çalışacaqdır.

O, həmçinin göstərmişdir ki, müsəlman dövlətlərinin - Pakistan, Türkiyə, Türkmənistan, İran və Azərbaycanın rəhbərlərinin burada, Türkmənistan torpağında, qədim türk torpağında toplaşması çox böyük hadisədir...Bu, bizim dostluğumuzun rəmzidir, dostluğumuzu və qardaşlığımızı dünyaya bir daha nümayiş etdirir və Azərbaycan Respublikası bu dostluğa həmişə sadiq olacaqdır.

Azərbaycan Respublikasının Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasından, bir milyon iki yüz mindən artıq qaçqının olmasından danışan ölkəmizin rəhbəri Türkiyə, İran, Pakistan və Türkmənistana bu dövrdə göstərdikləri dəstək, kömək üçün təşəkkür etmiş, Azərbaycanı beynəlxalq təşkilatlarda müdafiə etdiklərinə görə minnətdarlığını bildirmişdir.

H.Əliyev Aşqabaddan Bakıya yola düşərkən təyyarədə İran İslam Respublikası Prezidenti ilə görüşü barədə jurnalistlərlə müsahibə verərək bəyan etmişdir ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələri var. Tehrana rəsmi səfərim vaxtı orada bir çox sənədlər imzalanmışdır. Biz onların həyata keçirilməsi ilə məşğul oluruq. Ancaq eyni zamanda bəzi məsələlər də vardır ki, biz onlar barədə danışmalı və məsləhətləşməli idik. Görüşlərimizdə belə danışıqlar, məsləhətləşmələr oldu. İranın neft və qaz sənayesi naziri cənab Ağazadə bir neçə gündən sonra Azərbaycana gələcək, ölkələrimizin

neft sahəsində əməkdaşlığı ilə əlaqədar bəzi məsələləri müzakirə edəcəkdir. Biz digər məsələlərə də toxunduq.

Azərbaycan Prezidenti həmişə Azərbaycan-İran əlaqələrinə ləkə salmaq istəyənlərə qarşı çıxmış, onları hər iki ölkənin həyati mənafelərinə zərər verən bu hərəkətlərdən çəkinməyə dəvət etmişdir. Elə bu müsahibəsində də Azərbaycan ilə İran arasında münasibətlərə ləkə salmaq, onları pozmaq istəyən bəzi qüvvələrin hərəkətlərinə toxunan ölkəmizin başçısı göstərmişdir ki, bütün bunlar təxribatçı qüvvələrdir. İran bizim yaxın qonşumuzdur, dost ölkədir, münasibətlərimiz çox yaxşıdır və bundan sonra da yaxşı olmalıdır. Şəxsən mən bir Prezident kimi bu vəzifəyə gələndən İran ilə Azərbaycan arasında əvvəllər olan soyuqluğu aradan götürməyə, münasibətlərin inkişaf etdirilməsinə çalışmışam.

Ölkəmizin başçısı təəssüf hissi ilə bildirmişdir ki, Azərbaycanda bəzi qüvvələr, dairələr var, onlar əks istiqamətdə hərəkət edirlər. Bu, Azərbaycan xalqının xeyrinə deyil, zərərinədir. Ədalətli olaraq da bunlar İran ictimaiyyətində, o cümlədən İranın rəhbərliyində narazılıqlar yaradır. Bu barədə bizim bir-iki dəfə söhbətimiz olub. Mən müəyyən göstərişlər vermişəm, ancaq təəssüf ki, buna riayət etmirlər. Mən bu günlərdə Bakıda İran İslam Respublikasının səfirini qəbul edəndə o, bu barədə bəzi narazılıqlarını mənə bildirdi. Dedi ki, guya, bu yaxınlarda Azərbaycan televiziyası ilə bir veriliş olub və orada İranla Azərbaycanın əlaqələrinə toxunan, zərər gətirən fikirlər, sözlər söylənilib. Mən bildirmək istəyirəm və güman edirəm ki, bunu televiziya bütün əhaliyə çatdırar, mətbuatda da verərlər. Mən bunları təxribat xarakteri daşıyan hərəkətlər kimi qiymətləndirirəm, bunların tamamilə əleyhinəyəm. Dövlət Teleradio Şirkətinə də bu barədə əlavə göstərişlər verəcəyəm ki, belə hərəkətləri dayandırsınlar.

İndiki görüşdə Haşimi Rəfsəncani mənə dedi ki, oktyabrın 4-də Azərbaycanda dövlət çevrilişi cəhdinin əleyhinə keçirilən mitinqlərdə bu hadisələrin, guya, İran tərəfindən təşkil edilməsi barədə bəzi sözlər deyilmişdir. Bilmirəm, bu olub, ya olmayıb, ancaq əgər belə danışıqlar olubsa, onların heç bir əsası yoxdur. Hesab edirəm ki, son vaxtlar respublikamızın daxilində baş verən qarışıqlığın və ayrı-ayrı cinayətkar qüvvələrin dövlət çevrilişi etmək cəhdinin İran İslam Respublikası ilə heç bir əlaqəsi yoxdur və ola bilməz. Ona görə də kim belə bir söz deyibsə, mən bunu təkzib edirəm. Ola bilər ki, deyiblər, deməsələr, bu İran ictimaiyyətinə çata bilməz.

Haşimi Rəfsəncani ilə görüşdə bu barədə söhbətimiz oldu. Mən ona bir daha bildirdim ki, bizim dostluq və qardaşlıq əlaqələrimiz bundan sonra da davam edəcəkdir. Həm İranda, həm də Azərbaycanda bizim bu əlaqələrə mane olmaq istəyənlərin qarşısı alınmalıdır və biz öz tərəfimizdən bunun qarşısını almalıyıq. Mən bu sözləri sizin hamınıza çatdırıram. Güman edirəm ki, sizin də hər biriniz təmsil etdiyiniz kütləvi informasiya vasitələri xətti ilə dinləyicilərə, oxu-

culara, tamaşaçılara çatdıracaqsınız.

İran İslam Respublikasının Prezidenti ilə görüşdə iqtisadi əlaqələrimizlə bağlı başqa danışıqlarımız da oldu. Danışıqlarımız dostluq, mehribanlıq və səmimilik şəraitində keçdi. Mən bu görüşdən və danışıqlardan razıyam.

Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəllə biz son vaxtlar İstanbulda görüşmüşdük. Orada bizim danışıqlarımız olmuşdur. Amma burada yenə də söhbət apardıq, bəzi məsələləri müzakirə etdik. Süleyman Dəmirəl Azərbaycanın hazırkı daxili vəziyyəti ilə maraqlandı. Haşimi Rəfsəncani da çox narahatlığını bildirdi. Mənə dedi ki, oktyabrın 4-də gecə onlar da çox narahatlıq çəkiblər. O, indiki vəziyyətlə də maraqlandı. Mən bildirdim ki, indi sakitlikdir. Bu məsələyə Süleyman Dəmirəl də çox maraq göstərdi...

Oktyabrın 4-də xalqın həmrəyliyi göstərdi ki, heç bir qüvvə Azərbaycanda indiki dövlət quruluşunu dağıda bilməz, poza bilməz. Mən buna əminəm. Ancaq cürbəcür məlumatlar xaricə, o cümlədən İrana da gedir, Türkiyəyə də gedir. Ona görə də həm Haşimi Rəfsəncani, həm də Süleyman Dəmirəl bu məsələlərlə maraqlandılar, mən də onlara bu barədə məlumatlar verdim...

Rusiya və İranın Azərbaycan Dövlət Neft Şirkətinin xarici neft şirkətləri konsorsiumu ilə bağladığı müqavilənin əleyhinə olması barədə Rusiya mətbuatında dərc edilən yazılarla əlaqədar jurnalistlərin suallarına cavab verən Azərbaycan Prezidenti bildirdi ki, Haşimi Rəfsəncani bu fikirləri təkzib edib və deyir ki, biz Rusiya ilə belə söhbətlər aparmamışıq. Biz sadəcə olaraq (bu bir il bundan əvvəl başlanmış prosesdir), Xəzər dənizində əməkdaşlıq etmək üçün görüşlərin lüzumluluğunun tərəfdarı olmuşuq və ona görə də belə bir görüşün keçirilməsini istəmişik. Ancaq bu sizin müqavilənin bağlanmasından sonrakı vaxta düşüb. Rusiya mətbuatı da belə məlumatlar verib. Onlar doğru məlumat verməyiblər. Haşimi Rəfsəncani bu məlumatları təkzib edir və İran bağladığımız müqavilənin qətiyyən əleyhinə deyildir.

Ölkəmizin başçısı həmişə çalışmışdır ki, qonşu və dost ölkə olan İranla əlaqələrimizdə saflıq, paklıq davam etsin, bizim münasibətlərimizin yaxşı tərəfləri inkişaf etdirilsin, İran-Azərbaycan əlaqələrində heç bir ləkə olmasın. Əgər mənfi hallar mövcuddursa, onların qarşısı vaxtında alınsın. Belə məsələlərdən biri də İranın Ermənistanla olan münasibətləridir. Şərqi Azərbaycan ostandarı Yəhya Məhəmmədzadə ilə görüşdə bu neqativ halları açıqlayan dövlət başçımız bildirmişdir ki, uzun illərdir deyirik ki, İranla Ermənistan arasında çox sıx iqtisadi əməkdaşlıq vardır. Biz bunu deyirik, ancaq İran tərəfindən bizim bu arzularımız yerinə yetirilmir. Çünki deyirlər ki, biz iqtisadi əlaqələr yaradırıq, filan edirik. Ancaq iş burasındadır ki, məsələn, Ermənistanın Prezidenti var idi- Levon Ter-Petrosyan. O, il yarım bundan qabaq istefa verdi. O, bir neçə dəfə demişdi ki, əgər İrandan iqtisadi əlaqələrlə gələn şeylər iki gün kəsilsə, Yerevan boğular. Bax, bunu o özü demişdi. Yəni bu iqtisadi əlaqələr, şübhəsiz ki, İran üçün faydalıdır. Çünki ticarət etməlidir, öz mallarını satmalıdır. Ancaq bizimlə qardaşlıq nöqteyi-nəzərindən, bizim ölkəmizə təcavüz edən bir ölkə ilə iqtisadi sahədə bu qədər əməkdaşlıq etmək- mən açıq danışıram, indi ola bilər, kimsə incisin, ya inciməsin,- bu bizi incidir.

Mən bunu dəfələrlə demişəm. Cənab Haşimi Rəfsəncaniyə demişəm, Ali Dini Rəhbər cənab Xamneyiyə demişəm. Son dəfə İslam konfransı olanda Ali Dini Rəhbər Ayətlullah Xamneyi ilə görüşdüm, orada ona da dedim. Cənab Xatəmiyə də demişəm. Ancaq vəziyyət dəyişmir. Mən bilirəm ki, Siz burada vəziyyəti dəyişdirən deyilsiniz. Ancaq sadəcə, deyirəm ki, bizim aramızda gərək hər şey düz olsun.

Məsələn, Şərqi Azərbaycandan oraya körpü açmısınız. Bilmirəm, o körpüdən gündə o tərəf -bu tərəfə nə qədər maşın keçirir. Bu, sizin öz işinizdir. Ancan mən bunu deməliyəm.

İkinci bir məsələ də ondan ibarətdir ki, İran böyük, qüdrətli bir dövlətdir. Qüdrətli dövlət olaraq da yaşayacaqdır. Dünya Birliyində özünün böyük yeri vardır. İran İslam İnqilabının bu il 20 ili tamam olubdur. Uzun illər şahənşah üsul-idarəsi olubdur. Amma İran xalqı öz seçimini edibdir, inqilab edibdir. İran İslam İnqilabı xalqı hakimiyyətə gətiribdir və İran İslam Cumhuriyyəti elan olunubdur. Bu xalqın rəyi nədir, xalqın seçimi nədir- o da çox gözəldir. Biz İrana bir İran İslam Cumhuriyyəti kimi böyük hörmət edirik. Çünki dünyada çox islam dövlətləri vardır. Amma bizim üçün ən yaxın qonşu və bütün sahələrdə yaxın olan İran İslam Cumhuriyyətidir, islam dövlətidir. Biz qonşuyuq, bir-birimizə çox yaxınıq.

Amma Azərbaycanda bu gün deyil, on illərlə, yüz illərdə dövlət dünyəvi xarakter daşıyır. Bu da Azərbaycanın ənənəsidir. Ona görə də biz müstəqil olandan elan etdik ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir. Azərbaycanda din 70 il qadağan olunmuşdur. Amma dəfələrlə demişəm ki, xalq dindən ayrılmadı, dini qəlbində yaşatdı. Başa düşürsünüz, o vaxt ki, dinin üzərindən qadağa götürüldü, qısa müddətdə bir də gördün ki, din hər yerdə öz yerini aldı. Biz müsəlmanıq, bizim kökümüz müsəlmandır. Nə təhər deyərlər, biz islam dininin törəmələriyik. Ona görə də öz köklərini tanımayan, öz köklərini qiymətləndirməyən insan, yaxud millət heç vaxt millət ola bilməz. O vaxt mən Naxçıvanda da olanda İrandan din xadimlərini dəvət edirdim ki, gəlsinlər. O vaxt hələ bizim lazımi qədər din xadimlərimiz yox idi. Azərbaycan dünyəvi dövlətdir, burada din dövlətdən ayrıdır. Ancaq dinin öz yerini tutması üçün biz son illər çox işlər görmüşük...

Amma Azərbaycanda din dövlətdən ayrıdır. Azərbaycanda islam dövləti yoxdur, dünyəvi dövlət vardır. Buna görə də indi bəzi hallarda İrandan bəzi din xadimlərinin gəlib burada müəyyən təbliğat aparması bizə zərər gətirir. Bunlar lazım deyil.

... Dini əqalələr, şübhəsiz ki, olmalıdır, inkişaf etməlidir. Bu, təbiidir və biz bunu etməliyik. Ancaq bir-

birinin daxili işinə qarışmaq, - mən hesab edirəm ki, bu, olmamalıdır. Biz bir dövlət olaraq, dost, qardaş olaraq heç vaxt İran İslam Cümhuriyyətinin daxili işlərinin heç birinə qarışmırıq və qarışmarıq. Müxalifətdən kimsə burada qəzetdə nə yazırsa, onlara fikir verməyin. Mən səfirə bir-iki dəfə demişəm: bir var dövlətin siyasəti, bir var ki, - indi bizdə mətbuat azadlığıdır, - müxalifətin, yaxud da ayrı-ayrı qəzetlərin fikri. Onlar dövlətin siyasətini ifadə etmir. **Dövlətin siyasəti isə odur ki, İran İslam Cümhuriyyəti Azərbaycanın dostu, qardaşıdır və bu ölkə ilə bizim dostluğumuz, qardaşlığımız daimidir və bunu inkişaf etdirəcəyik.** Biz İranın daxili işlərinə qarşımırıq ki, İranda, nə bilim, niyə çadra örtürlər? Biz buna qarışmırıq. Yaxud da ki, bu yaxınlarda orada, nə bilim, nəsə olmuşdu. Bu, daxili işdir, hər yerdə ola bilər. Bu, harada yoxdur ki! Burada da, bizim bu müxalifət bir dəfə yürüş etdi, şəhərdə 4 kilometr ora-bura getdilər. Mənim əleyhimə sözlər deyirdilər, yazırdılar. Nə bilim, gah orada, gah burada bir mitinq etmək istəyirdilər.

Məsələn, o gün televiziyada gördüm ki, bir qrup gənc İran səfirliyinin qarşısında nəsə danışıbdır. Sonra mən bizim daxili işlər nazirinə telefon etdim. Dedim, buna niyə yol vermisiniz? İranın daxili işi ilə bizim nə işimiz var? Bizim işimiz yoxdur. Mən daxili işlər nazirinə çox ciddi irad tutdum ki, sən belə şeylərə yol verməməlisən. O da kimlərinsə təşəbbüsü olmuşdu.

Bax, mən bu sözləri bir dost kimi, qardaş kimi niyə deyirəm? Bilirsən, dostluqda gərək hər şey açıq olsun. Hər şey açıq olanda hər şey də düz olur. Bunları deyirəm ona görə ki, xüsusən, bəzi hallarda bizi narahat edən ayrı-ayrı din adamlarının gəlib burada dini öz istədiyi kimi təbliğat etməsidir. Buna ehtiyac yoxdur. Artıq bizdə Quran da Azərbaycan dilinə tərcümə olunubdur. İnsanların burada Qurana da etiqadı var, məscidlərə də etiqadı var, istədikləri qədər məscid də tikirlər.

O vaxt mən istəmişdim siz Naxçıvanda məscid tikəsiniz. Çünki bizim gücümüz yox idi. Amma indi istəmirəm. Çünki Azərbaycanda indi o qədər məscid tikiblər ki, buna ehtiyac yoxdur. Hər dövrün bir hökmü var. O vaxt bu lazım idi, amma indi buna ehtiyac yoxdur, hər şey var. Mən bunları sizə bir qardaş kimi deyirəm. Xahiş edirəm, bu sözləri qardaş sözü kimi qəbul edəsiniz. Ona görə deyirəm ki, bizim münasibətlərimizdə həmişə təmizlik olsun, həmişə paklıq olsun.

Bununla belə, Azərbaycan Prezidenti ölkəmizdə islam dininin mənəvi dəyərlərinə yüksək qiymət verildiyini və həmişə də belə olacağını dəfələrlə bəyan etmişdir. O dəfələrlə göstərmişdir ki, bu gün biz islam dininin mənəvi dəyərlərinin təzahürünü bir daha görürük. İslam dininin mənəvi dəyərləri ən yüksək qiymətə malikdir. Hər bir xalq həmişə özünün mənsub olduğu dini təbliğ edir, tərifləyir. Amma eyni zamanda, müqayisə etməyə imkan vardır. Şübhəsiz ki, müqayisə edəndə görürsən ki, Həzrəti Məhəmməd Peyğəmbərin yaratdığı islam dini və onun yaratdığı Qurani-Şərif əsrlər boyu bizim xalqlarımıza mənəvi qida olmuşdur və bundan sonra da olacaqdır. Azərbaycan müsəlmanları həmişə belə olacaqlar ("Respublika" 12 oktyabr 1999-cu il.)

Ölkəmizin başçısının İranla əlaqələrimizdə müəyyənləşdirdiyi ana xətt ərazi bütövlüyünün tanınması, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaqdır. Azərbaycan Prezidenti bununla bağlı dəfələrlə bəyanatlarla çıxış edərək bildirmişdir ki, bizim əlaqələrimizdə əsas prinsip ondan ibarətdir ki, İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır, sərhədlərinin toxunulmazlığını tanıyır və Azərbaycanın daxili işlərinə qarışmır. Azərbaycan da İranın böyük bir dövlət kimi həm ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, həm də suverenliyini tanıyır. İranın daxili işlərinə qarışmır və qarışmayacaqdır. Bu prinsip bizim ölkələrimiz üçün çox vacib bir prinsipdir. Bu, həm İran üçün vacibdir, həm də Azərbaycan üçün vacibdir. Hesab edirəm ki, biz bu prinsip əsasında bundan sonra da əlaqələrimizi inkişaf etdirəcəyik.

İranla əlaqələr və bu ölkənin başçıları ilə görüşlər təkcə Azərbaycan və İranda deyil, bu ölkələrin xaricində də keçirilir, hər bir kiçik fürsətdən istifadə edilərək məsləhətləşmələr aparılır, fikir mübadiləsi edilir. Belə görüşlərdən biri də Kasablankada oldu.

14 dekabr 1994-cü ildə dövlətimizin başçısı Kasablankada İKT-nin Zirvə toplantısında iştirak edərkən bir çox dövlətlərin rəhbərləri və nümayəndələri ilə yanaşı, İranın Xarici İşlər Naziri Əli Əkbər Vilayəti ilə də görüşdü. Söhbət zamanı o, İran tərəfinə Azərbaycanın mövqeyini fəal şəkildə dəstəklədiyinə görə təşəkkür etdi və bildirdi ki, "..Azərbaycan İslam Konfransı Təşkilatının Zirvə toplantısında ilk dəfədir ki, iştirak edir. Bu isə, müstəqil Azərbaycan Respublikasının islam aləmi tərkibində olmasına bəslənilən şübhələrin bir daha aradan qaldırılması deməkdir... Mən Kasablanka Zirvə toplantısının işinə çox böyük əhəmiyyət verirəm və ümidvar olduğumu bildirirəm ki, burada qəbul ediləcək qətnamələr Azərbaycanın haqq işinin müdafiə olunmasında mühüm rol oynayacaqdır. Bu qətnamələr hazırlanarkən Azərbaycanın mövqeyini müdafiə etmək sahəsində İran İslam Respublikası Xarici İşlər Nazirliyinin göstərdiyi səyləri yüksək qiymətləndirirəm."

Prezidentimiz İranla əlaqədar bütün tədbirlərdə həmişə şəxsən iştirak etməyi üstün tutmuş, bu tədbirlərdə çıxış edərək öz münasibətini bildirmişdir. Sonralar bu gözəl bir ənənə şəkli almışdır.

10 fevral 1995-ci il də İran İslam Respublikasının İslam inqilabının 16-cı ildönümü münasibətilə keçirdiyi ziyafətdə iştirak edən Prezidentimiz iştirakçılara öz ürək sözlərini çatdıraraq göstərmişdir ki, İran İslam Respublikası Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. İran ilə Azərbaycan arasında yaranan əlaqələr indi artıq təkcə dövlətlərimiz arasındakı

əlaqələr deyil, həm də o tayda, bu tayda yaşayan minlərlə insanın şəxsi əlaqələridir.

İranın Azərbaycan iqtisadiyyatına investisiyalar qoyması məsələsinə də dövlətimizin rəhbəri həmişə müsbət yanaşmışdır. "Azərbaycanda investisiya imkanları" beynəlxalq konfransında (London, 29 noyabr 1995-ci il) Azərbaycan Prezidenti İranla mehriban qonşuluq, dostluq, normal münasibətlərin olduğundan, ölkəmizin keçmişinin bir çox cəhətdən İranla bağlılığından, İki müstəqil dövlət - İran ilə Azərbaycan Respublikası arasında olan münasibətlərin inkişaf etdiyindən söhbət açan Prezidentimiz bildirmişdir ki, biz iqtisadi əməkdaşlığı, ancaq qarşılıqlı surətdə faydalı, həm İranın, həm də Azərbaycanın mənafelərinə cavab verən əməkdaşlığı inkişaf etdirmək üçün tədbirlər görürük (H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998. V kitab, səh. 34-35).

İran nümayəndələri ilə görüşlərdə ölkəmizin başçısı dəfələrlə bildirmişdir ki, bizim xarici sərmayəyə çox ehtiyacımız vardır. Biz qapılarımızı açmışıq. Kim bizə xarici sərmayə gətirirsə, o, bizim üçün nəinki qəbuldur, biz bunu məmnuniyyətlə qəbul edirik. Bu sahədə mövcud olan nöqsanlar müvəqqəti xarakter daşıyır- bu gün var, sabah olmayacaqdır. Ancaq bizim bu əlaqələrimiz və xüsusən, Azərbaycana sərmayə gətirmək arzumuz daimi xarakter daşıyır. Ona görə də buraya sərmayə gətirib qoymaq, iş düzəltmək, müəssisə yaratmaq lazımdır.

Azərbaycan Prezidenti Şərqi Azərbaycan ostandarı Yəhya Məhəmmədzadə ilə görüşdə qeyd etmişdir ki, biz indi özəlləşdirmə aparırıq. Bizim çoxlu fabriklərimiz, zavodlarımız vardır. Bunları özəlləşdirmək lazımdır. Biz onları qanunlarla xarici sərmayəçilərə verməyə hazırıq və verməliyik. Bütün bunlardan istifadə etmək lazımdır. Hər halda, Şərqi Azərbaycanda, Təbrizdə, bilirəm ki, bu barədə zəngin adamlar çoxdur. Onlar öz kapitalını harasa qoyub, xeyir götürməlidir. Yoxsa o nədir, kapitalı bankda yatırdır, harasa qoyub, işlədib, xeyir götürməlidir. Azərbaycan bu sahədə çox münasib yerdir. Güman edirəm, Siz bu sahəyə də fikir verəcəksiniz.

Dövlətimizin başçısı həmişə vurğulamışdır ki, mədəniyyət, elm sahəsindəki əlaqələri genişləndirmək lazımdır. Bu görüşdə də o göstərmişdir ki, Azərbaycanda mədəniyyət çox yüksək səviyyədədir, inkişaf edibdir. Bəlkə XX əsrdə Azərbaycanın ən böyük nailiyyətlərindən biri Azərbaycan xalqının yüksək təhsil alması, yüksək elm yaratması və yüksək mədəniyyətə malik olmasıdır. Bizim teatrlarımız, musiqimiz, bəstəkarlarımız, yazıçılarımız, şairlərimiz çox məşhurdur. Ancaq İran da qədimdən böyük şairlər ölkəsidir - Firdovsidən başlamış bütün başqa şairlər. Məsələn, Nizami Azərbaycan şairidir. Amma farsca yazıbdır. Ona İran şairi də deyirlər. Biz etiraz etmirik, Nizami elə bir şairdir ki, o, bütün dünyanın şairidir. Hansı ölkədə desələr o, bizim şairimizdir, əgər onu, doğrudan da, qiymətləndirib öz şairləri hesab etmək istəyirlərsə, etiraz yoxdur. Ortaq mədəni irsimizə toxunan Azərbaycan prezidenti bəyan etmişdir ki, **Şəhriyar bizim müasir şairimizdir, bizim üçün çox əzizdir.** Bilmirəm, bəlkə bizim Azərbaycanda Şəhriyarı sizdən çox sevirlər. Bunu da bilməlisiniz. Şəhriyarın məzarını, orada Sizin yaratdığınız o abidəni çox böyük sevinc hissi ilə, böyük minnətdarlıq hissi ilə ziyarət etdim. Bilirsiniz ki, Azərbaycandan Təbrizə gedən adamlar hamısı birinci növbədə Şəhriyarın məzarını ziyarətə gedirlər.

Şəhriyarın yubileyi haqqında mən böyük bir fərman verdim. Mən hər şeyi açıq danışıram, - hətta mənə dedilər ki, İranda kimsə inciyir, - bu İran şairidir. Bu həm İran şairidir, həm Azərbaycan şairidir. Bunu birbirindən ayırmaq olmaz. Biz demirik ki, Şəhriyar İran şairi deyil, İran şairidir. Amma biz deyirik o, eyni zamanda, Azərbaycan şairidir. Bu, bizim doğma şairimizdir və Azərbaycan haqqında onun yazdığı əsərlər insanlara nə qədər mənəvi qida veribdir, nə qədər böyük ruh veribdir.

Ancaq bizdə yubiley təkcə zirvə görüşündən ibarət deyildir. Yubiley belədir ki, bizdə konfrans keçirilir, kitablar nəşr olunur, başqa tədbirlər keçirilir, axırda zirvə tədbiri olur. O müddətdən ki, mən fərman vermişəm, Azərbaycanda Şəhriyar haqqında, yəni onun xatirəsi, onun yubileyi ilə bağlı çox işlər görülübdür. Əmin ola bilərsiniz ki, biz o zirvə tədbirini də keçirəcəyik. O vaxt Sizin keçirdiyiniz yubileyə bizdən ancaq mədəniyyət naziri getdi. Bəlkə siz başqasını dəvət etməmisiniz. Amma məni dəvət etsəydiniz, mən də gələrdim. Amma mən sizi, hamınızı dəvət edirəm. O cümlədən, cənab Xatəmini də dəvət edirəm.

Zaman-zaman ölkələrimiz arasındakı münasibətlərdə soyuqluq, sərinlik müşahidə edilərkən, Prezidentimiz buna qətiyyətlə etiraz edərək dəfələrlə bəyan etmişdir ki, bu, Azərbaycan ilə İran arasında olan münasibətləri səciyyələndirmir. Azərbaycana münasibətdə İranın öz mülahizələri var, bu baxımdan bizim də öz mülahizələrimiz var. Məsələn, Qərbin neft şirkətləri, xüsusən İranın özünün münasibətlərinin çox mürəkkəb olduğu ABŞ-ın neft şirkətləri ilə bizim müqavilə imzalamağımızdan İran narazıdır. Lakin biz də ondan narazıyıq ki, İran Ermənistana fəal kömək göstərir, onu strateji mallarla, məhsullarla təchiz edir və Ermənistan İranın bu köməyindən, dəstəyindən istifadə edərək, bizimlə sülh danışıqlarında öz mövqeyini daha da sərtləşdirir. Yəni bizim İrana qarşı narazılığımız, İranın da bizə qarşı narazılığı var. Ancaq mən belə hesab edirəm ki, bu, İran və Azərbaycan arasında qarşılıqlı münasibətlərin strateji istiqamətinin müəyyənləşdirilməsinə təsir göstərməməlidir. Biz İranla dostluq münasibətləri saxlamağa, bütün sahələrdə, xüsusən iqtisadiyyat, ticarət, elm, mədəniyyət, insani münasibətlər sahəsində əlaqələri möhkəmləndirməyə çalışırıq *(H. Ə. Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998. V kitab, səh. 67-68).*

Bəzi Qərb mətbuatının nümayəndələrinin yazdığı kimi, Azərbaycan heç vaxt İran ərazisindən neftin

ixracına etiraz etməmişdir. Azərbaycan Prezidenti dəfələrlə bəyan etmişdir ki, Xəzər dənizində, elə Azərbaycan sektorunda neft ehtiyatları çoxdur. Ona görə, əgər gələcəkdə mümkün olsa, biz İran ərazisindən də neft ixrac edə bilərik. Bunun üçün şərait yaranmalıdır.

Ölkələrimiz arasına təfriqə salmaq istəyənlərin qoyduğu məsələlərdən biri də İranda yaşayan azərbaycanlılarla bağlıdır. Azərbaycan Respublikasının bu məsələyə baxışına aydınlıq gətirən dövlətimizin başçısı Fransada keçirilən "Azərbaycan və Qafqaz XXI əsrin astanasında" mövzusunda mühazirədə (Paris, 13 yanvar 1997-ci il) göstərmişdir ki, İranla bizim dostluq münasibətlərimiz var, bunları möhkəmləndirmək, inkişaf etdirmək üçün tədbirlər görürük. O ki qaldı İranda yaşayan azərbaycanlılara, bəli, onlar orada çoxdur. Mən dəqiq rəqəm bilmirəm, amma deyirlər ki, təxminən 20-30 milyondur. Onlar İran vətəndaşlarıdır. Bu gün Prezident Jak Şirak dedi ki, Fransada beş milyon müsəlman yaşayır. Onlar Fransa xalqının bir hissəsidir. İranda yaşayan azərbaycanlılar da müsəlmandırlar, onlar da İran xalqının bir hissəsidir. Bu baxımdan hansısa bir problem görmürəm. Mən artıq dedim ki, biz bütün dövlətlərin - Azərbaycanın da, Ermənistanın da, Rusiyanın da, Fransanın da, İranın da ərazi bütövlüyünə tərəfdarıq *(H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998-ci il, VIII cild, səh. 254 - 255)*

27 mart 1997- ci ildə Parisdə verdiyi başqa bir müsahibədə yenidən bu mövzuya toxunaraq bildirmişdir ki, sərhədimizin İran tərəfində olan əhalinin hamısı azərbaycanlıdır....Ancaq şübhəsiz ki, onlar İran vətəndaşlarıdır. Biz hər bir ölkənin ərazi bütövlüyünü tanıdığımız kimi, İranın da ərazi bütövlüyünü tanıyırıq. Ona görə də İran ilə bizim aramızda yaxşı, mehriban dostluq əlaqələri var. Bir dinə mənsub olmağımız və ənənələrimizin də eyni olması bu əlaqələrimizi daha da yaxınlaşdırır.

Həmin müsahibədə İslam inqilabının Azərbaycana təsiri sualına cavab verərkən H.Əliyev göstərmişdir ki, bunun Azərbaycana heç bir təsiri yoxdur: "Mənim təmsil etdiyim müstəqil Azərbaycan Respublikasının öz dövlət quruluşu, dövlət prinsipləri var. İran Respublikasının da öz dövlət quruluşu, öz yaşayış prinsipləri var. Biz onların daxili işlərinə qarışmırıq, onlar da bizim daxili işlərimizə qarışmamalıdırlar".

Beləliklə də, mehriban dostluq əlaqələrini qorumaq, bir-birimizin daxili işlərinə qarışmamaq və hər iki ölkənin ərazi bütövlüyünü tanımaq prinsipləri İranla siyasətimizdə aparıcı rol oynayır və onlara daim riayət olunur.

Onu da qeyd etməliyik ki, Azərbaycan Prezidentinin fikrinə görə bizim əlaqələrimizin inkişaf etdirilməsi üçün hər iki tərəfdən - həm İran tərəfindən, həm də Azərbaycan tərəfindən səylər göstərilibdir. Ancaq onların ölkələrimiz arasındakı əlaqələri istənilən səviyyəyə qaldırıb-qaldırmaması artıq başqa bir mövzudur. Buna mane olanlar da olub, yaxud başqa səbəblər də olubdur.

Ölkəmizin başçısı əlaqələrimizdə mövcud olan mənfi və müsbət cəhətlərin - necə varsa deyilməsinin və açıqlanmasının tərəfdarıdır. Onun fikrincə bu münasibətlərimizə saflıq gətirər, umu-küsülərə birdəfəlik son qoyar.

İki ölkənin əlaqələrinin inkişafına münasibətini ifadə edən Prezidentimiz göstərmişdir ki, İranın hökuməti, dövlət başçısı da bilir ki, **Azərbaycan Prezidenti kimi mən Azərbaycan-İran əlaqələrinə xüsusi əhəmiyyət verirəm. Hesab edirəm ki, ölkələrimiz bir-biri ilə dost olmalıdır, qardaş olmalıdır və ölkələrmiz arasında heç bir nifrət, heç bir başqa şey olmamalıdır.** Bəzi səbəblər var, məsələn, ona görə bizdə narazılıq törəyir, yaxud da Tehranda nazarılıq törəyir. Ancaq bu səbbələri də aradan götürmək olar. Əgər götürmək mümkün deyilsə, hər halda, bunu da qarşılıqlı anlaşma yolu ilə müəyyən bir məcraya salmaq olar. Amma starteji nöqteyi-nəzərdən Azərbaycanın dövlət siyasəti, Azərbaycan Prezidenti kimi mənim siyasətim bundan ibarətdir.

Ölkəmizin başçısı qətiyyətlə bildirmişdir ki, müxtəlif qüvvələrin, ayrı-ayrı şəxslərin, yaxud da siyasi qurumların və s. fikri Azərbaycan dövlətinin fikri deyildir. Eyni ilə bunu İranda fəaliyyət göstərən bəzi qüvvələr haqqında da demək olar. Məlum olduğu kimi, Azərbaycanda da, İranda da, əlaqələrimizin inkişafına mane olmaq istəyən, pozmağa çalışan və bu barədə çox səylər göstərən düşmən qüvvələr mövcuddur.

Azərbaycan Prezidentinin İranın Azərbaycandakı sabiq səfiri Əlirza Beqdeli ilə görüşündə dediyi kimi, əgər Sizin burada işlədiyiniz beş il müddətində bəzi məsələlər barəsində hər iki tərəfin istəyini, arzusunu yerinə yetirə bilməmişiksə, bu, ondan irəli gəlmirmi ki, nə Siz, nə də biz bunu yerinə yetirmək istəməmişik. Bu, ondan irəli gəlir ki, buna müəyyən obyektiv səbəblər mane olubdur. İnanıram ki, biz bu səbəbləri getdikcə aradan qaldıracağıq. bizim münasibətlərimiz inkişaf edəcək.

Göründüyü kimi, ölkəmizin başçısı həmişə mövcud narazılıqların səbəblərinin öyrənilməsi və aradan qaldırılmasının tərəfdarıdır. Onların həlli mümkün olmadığı təqdirdə isə qarşılıqlı anlaşma yolu ilə müəyyən bir məcraya salınmasının tərəfdarıdır.

Qeyd etmək lazımdır ki, İran tərəfi də Azərbaycan Prezidentinin əlaqələrimizə olan münasibətinin səmimiliyinə yüksək qiymət vermiş və bunu dəfələrlə bəyan etmişlər. Elə yuxarıda adı çəkilən görüşdə İran səfirinin dediyi sözlər buna ən yaxşı nümunədir. O bu mövzuya toxunaraq bildirmişdir: **"Bu xalqın nümayəndəsi kimi, bildirirəm ki, Sizin İrana məhəbbətiniz səmimi olubdur. Heç vaxt heç kəs deyə bilməz ki, cənab Prezident Heydər Əliyev İran-Azərbaycan əlaqələrinə aid mənfi bir söz deyibdir.** Buna əsas yoxdur. İnşallah, bundan sonra da həm Prezident Xatəminin, həm də Sizin rəhbərliyiniz nəticəsində əlaqələrin daha da möhkəmləndirilməsinə nail olacağıq. Artıq bu sahədə zaman da öz rolunu oynayır və camaatımız başa düşür ki, biz bir-birimizə söykənməliyik, bir-birimiz-

dən enerji və güc almalıyıq. Əgər İran Azərbaycanla, Azərbaycan İranla bir yerdə olsa, deyə bilərəm ki, heç kəs nə Sizə, nə də bizə təcavüz edə bilməz".

1995-ci ilin sonlarında da ölkələrimiz arasındakı əlaqələr davam etmiş müxtəlif səviyyədə görüş və söhbətlər təşkil edilmişdir. Oktyabrın 5-7-də İİR kooperasiya naziri, Azərbaycan-İran iqtisadi-ticarət əlaqələri üzrə dövlətlərarası Müştərək Komissiyanın həmsədri Q.Şafeyi, dekabrın 11-14-də isə İİR xarici işlər nazirinin müavini M.Vaezi ölkəmizdə rəsmi səfərdə olmuş və Azərbaycan Prezidenti onlarla danışıqlarda iki ölkə münasibətlərinin müxtəlif məsələləri üzrə müzakirələr aparmışdır.

3 fevral 1996-cı il tarixdə İran İslam İnqilabının 17-ci ildönümü münasibətilə keçirilən tədbirdə çıxış edən Azərbaycan Prezidentinin İran dövləti və xalqı barəsində söylədiyi fikirlər ölkələrimiz arasındakı münasibətləri səciyyələndirən kəlamlardır. Bu çıxışda deyilirdi ki, İran dünyanın, xüsusən Şərqin ən böyük, əzəmətli və qədim dövlətlərindən biridir. İranın çox zəngin, qədim tarixi var və İran xalqı öz tarixi ənənələri ilə, dünya mədəniyyətinə, elmino verdiyi dəyərli töhfələrlə daim fəxr edir və bu gün də fəxr edə bilər.

İran ilə Azərbaycan arasında olan əlaqələrin tarixi böyükdür. Bu, çoxəsrlik tarixdir. Xalqlarımız əsrlər boyu yan-yana, bir yerdə yaşamış, bir kökdən olaraq, eyni ənənələrə malik olaraq bir-birinə həmişə dayaq durmuşlar. Azərbaycan xalqı milli azadlığını əldə edəndən sonra, ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra İran ilə Azərbaycan arasındakı əlaqələr dövlət səviyyəsinə qalxıb və qarşılıqlı surətdə faydalı dövlətlərarası əlaqələrə çevrilibdir. Biz bu əlaqələri çox əhəmiyyətli hesab edirik və Azərbaycanın müstəqil dövlət olduğu dörd il ərzində İran ilə Azərbaycan arasında yaranmış və daim inkişafda olan əlaqələri yüksək qiymətləndiririk.

Xalqlarımızın dostluğunun və qardaşlığını tarixi qədim dövrlərdən gəldiyini söyləyən Prezidentimiz bildirmişdir ki, milli ənənələrin eyni, oxşar olması, bir dinə mənsub olmağımız və başqa tarixi köklərimiz bizi həmişə birləşdiribdir. İndi müstəqil Azərbaycanın İran İslam Respublikası ilə çox böyük sərhədi var. **Biz qonşuyuq, həm də bir-birinə çox böyük hüsn-rəğbət bəsləyən qonşuyuq. Biz İran İslam Respublikasına, İran xalqına həmişə böyük hörmət və ehtiramla yanaşmışıq və yanaşırıq. Eləcə də İran xalqı, İran dövləti tərəfindən Azərbaycana olan böyük hörmət və ehtiramı hiss edirik.**

Bu dostluğu, qardaşlığı inkişaf etdirmək, möhkəmləndirmək üçün çox böyük ehtiyat mənbələrimiz var və bunlardan istifadə edərək, əməkdaşlığımızı genişləndirəcəyik, dostluğumuzu daha da möhkəmləndirəcəyik və bunların hamısını sarsılmaz edəcəyik. Biz Azərbaycanda İranla münasibətlərimizi məhz belə görürük.

Dövlətimizin başçısı göstərmişdir ki, bu münasibətlər İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında imzalanmış yüksək səviyyəli bir çox sənədlərdə öz əksini tapıbdır. O əlavə edərək qeyd etmişdir ki, İran İslam Respublikasının Prezidenti hörmətli cənab Haşimi Rəfsəncaninin Azərbaycana rəsmi səfəri zamanı və mənim İran İslam Respublikasına səfərim vaxtı biz çox sənədlər imzalamışıq, dostluq və əməkdaşlıq müqaviləsi bağlamışıq. Biz bu sənədlərə, müqavilələrə sadiqiq, bundan sonra da sadiq olacağıq, dostluğu, qardaşlığı, əməkdaşlığı gələcəkdə də inkişaf etdirəcəyik.

Bizi İranla bağlı hər şey maraqlandırır - onun həm qədim mədəniyyəti, tarixi abidələri, böyük ədəbi, mədəni irsi və bizim bir-birinə bənzəyən, yaxud eyni olan adət və ənənələrimiz maraqlandırır. Bundan əlavə, İranda azərbaycanlılar da yaşayır. Onlar İranın vətəndaşlarıdır, onun xalqının bir hissəsidir, eyni zamanda azərbaycanlı kimi bizim soydaşlarımızdır, biz də onların soydaşlarıyıq. Bunlar hamısı ölkələrimizin bir-birinə daim dost, qardaş olmasının əsasını yaradıbdır və bizim də borcumuz bunları inkişaf etdirməkdən ibarətdir.

Həzrəti Ayətulla Xomeyninin rəhbərliyi altında baş vermiş İran İslam inqilabının, qeyd etdiyim kimi, İran xalqı üçün yeni böyük səmərələr gətirdiyini, nəticələr verdiyini bildirən Azərbaycan Prezidenti bu işin davamçısı Həzrəti Ayətulla Xamneyi cənablarının, İran İslam Respublikasının Prezidenti hörmətli Haşimi Rəfsəncani cənablarının və başqa dostlarımızın İran İslam Respublikasına çox məharətlə rəhbərlik edikrlərini və İran ilə Azərbaycan arasında olan dostluq əlaqələrinə çox diqqət göstərdiklərini, bu əlaqələrin möhkəmləndirməsinə çalışdıqlarını vurğulamışdır. Bildirmişdir ki, biz bunların hamısını çox yüksək qiymətləndiririk. Öz tərəfimizdən, Azərbaycan tərəfindən bildirmək istəyirirk ki, biz həmişə hesab edirik ki, bizim hörmət və ehtiramımız İranın Azərbaycana olan hörmət və ehtiramından üstündür. Biz belə hesab edirik. Amma siz nə cür hesab edirsiniz, - bu, öz işinizdir. Biz belə hesab edirik. Əminəm ki, bu dostluq, qardaşlıq əlaqələri gündən-günə möhkəmlənəcək, inkişaf edəcəkdir və biz bunun üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Bu gün əlamətdar bir gündür və xüsusən biz Ramazan ayı içərisindəyik. Guman edirəm ki, buraya toplaşanlar arasında oruc tutanların hamısı iftarını açıbdır. İran İslam Respublikasının bayramı münasibətilə burada ikinci dəfə iftar açа bilərlər ki, sabah sübhdən orucunu daha da yaxşı tuta bilsinlər. Mən sizin hamınızı eyni zamanda Ramazan ayı münasibətilə təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Ramazan ayını ləyaqətlə başa çatdıracaqsınız. Hər birinizin orucunun qəbul olmasını Allahdan diləyirəm (H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998. V kitab, səh. 324-326).

1996-cı ildə də əlaqələrimiz yüksələn xətlə inkişaf etmişdir. Həmin ilin mart ayının 2-3-də Xarici İşlər Naziri Ə.Ə.Vilayəti, bir qədər sonra isə onun müavini M.Morsəli və mayın 3-5-də onun başqa bir müavini Abbas Məleki Azərbaycana rəsmi səfərə gəlmiş və respublika rəhbərliyi ilə bir sıra danışıqlar aparmışlar.

Azərbaycan Respublikasının Pre-

zidenti Heydər Əliyev İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaninin dəvətilə 1996-cı il mayın 12-13-də Sərəxs-Tecən dəmiryolu xəttinin açılış mərasimində iştirak etmək üçün İrana səfər etmişdir. Səfər zamanı Azərbaycan Respublikası və İran İslam Respublikası dövlət başçıları iki ölkə arasındakı münasibətlərin inkişafına dair faydalı məsləhətləşmələr aparmışlar. Məşhəd və Aşqabadda davam edən danışıqlar zamanı Azərbaycan və İran münasibətlərində öz həllini tapmamış məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Qeyd etmək lazımdır ki, toxunulmuş məsələlərin demək olar ki, əksəriyyəti müsbət həll olunmuşdur. Belə ki, danışıqlarda yaxın zamanlarda Astara-Astara körpüsünün inşası və gələcəkdə Astara-Qəzvin dəmiryolu xəttinin birləşməsi, Naxçıvanda Sement zavodunun tikilməsi, İrandan Naxçıvana boru kəmərinin çəkilməsi və bir sıra digər texniki layihələrin həyata keçirilməsiməsələlərin müzairkə olunaraq müsbət həll olunmuşdur.

Səfər qabağı Prezident Heydər Əliyev KİV nümayəndələrinə bildirmişdir ki, bu səfərin çox böyük əhəmiyyəti var. İranın Məşhəd şəhərində Türkmənistan və İranın dəmir yollarının birləşməsi ilə əlaqədar təntənəli mərasim keçiriləcək və bu mərasimdə biz də iştirak edəcəyik. Şübhəsiz ki, orada müəyyən danışıqlar da aparılacaqdır. Aşqabadda isə, İƏT-in Zirvə görüşü keçiriləcəkdir. Görüşə dövlət başçıları toplaşacaqlar. Burada bizim həm İƏT çərçivəsində əməkdaşlığımız, həm də ayrı-ayrı ölkələrlə ikitərəfli əməkdaşlığımız haqqında, zənnimcə, çox söhbətlər gedəcəkdir.

Məşhəd hava limanında İran milli televiziyasının müxbirinin suallarına cavab verən Azərbaycan Prezidenti yenidən dirçəldilən "İpək yolu"nu yüksək qiymətləndirərək onun hökmən Azərbaycandan da keçməli olduğunu, bizim "İpək yolu"na yeni əməkdaşlıq yolu kimi baxdığımızı, bu yolun ölkələrimiz arasında iqtisadi inteqrasiyanın daha da dərinləşməsinə xidmət edəcəyini söyləmiş, layihənin xalqlarımız, ölkələrimiz arasında ticarət, nəqliyyat əlaqələrini daha da gücləndirəcəyinə, Azərbaycanın, Qafqazın İranla, Orta Asiya və başqa ölkələrlə əlaqələrini daha da genişləndirəcəyinə kömək edəcəyini demişdir.

İran-Azərbaycan münasibətlərinin vəziyyətinə toxunan dövlət başçımız, İran ilə Azərbaycan arasındakı münasibətlərin indiki vəziyyətini çox müsbət qiymətləndirmiş və göstərmişdir ki, İran və Azərbaycan qonşu, dost dövlətlərdir, xalqlarımız da dost və qonşudurlar, qardaş xalqlardır. Eyni ənənələrə, eyni dinə mənsub olan xalqlardır. Bunlar hamısı bizim münasibətlərimizin daim müsbət olmasını tələb edir və Allaha şükürlər olsun ki, bu, belədir. Ancaq mənim arzum, istəyim ondan ibarətdir ki, bu əlaqələr daha da geniş, dərin və daha da yüksək səviyyədə olsun. Hesab edirəm ki, coğrafi mövqeyimizə, tarixi ənənələrimizə görə və başqa səbəblərə görə İran ilə Azərbaycan arasında əlaqələr bundan da yaxşı olmalıdır.

İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının Aşqabadda keçirilən IV Zirvə toplantısında ölkəmizin Prezidenti də iştirak etmiş və burada İran İslam Respublikasının Prezidenti ilə növbəti görüş keçirmişdir.

Ölkəmizin başçısı toplantıda söylədiyi nitqində Azərbaycan - İran əlaqələrinə də toxunmuşdur. O göstərmişdir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Məhz buna görə də **tarixi köklərin, ənənələrin, mədəniyyətin eyniliyi ilə bağlı olduğumuz qardaş ölkələrlə sıx əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətidir.**

Ölkəmizin başçısı vurğulamışdır ki, Aşqabad görüşü İƏT genişləndikdən sonra birgə fəaliyyətimizin üç ilinə yekun vurur. Bu, səmərəli və hadisələrlə zəngin dövr ərzində təşkilatımız əməkdaşlığın konkret sahələrində öz uzunmüddətli perspektivlərini və üstün istiqamətləri müəyyənləşdirmişdir.

Mühüm sənədlər qəbul edilmişdir: Kvetta fəaliyyət planı, İstanbul bəyannaməsi, Alma-Ata əsas planı və s. Biz aviasiya və gəmiçilik şirkətlərinə, Ticarət və İnkişaf Bankına, Yenidən sığortalama şirkətinə dair razılaşdırılmış layihələrin, tranzit ticarət haqqında sazişin və viza qaydalarının sadələşdirilməsi haqqında sazişin həyata keçirilməsinə böyük əhəmiyyət veririk. İslamabadda III Zirvə toplantısında qəbul olunmuş bu sənədlər əməkdaşlığımızın dərinləşməsinə, şübhəsiz, kömək edəcəkdir.

Dövlətimizin rəhbəri Türkmənistan və İranın dəmiryol sistemlərinin birləşdirilməsini ölkələrimizin nəqliyyat sistemlərinin qovuşmasına doğru mühüm addım adlandırmış və bunun səmərəli əməkdaşlığa konkret misal olduğunu göstərmişdir.

Təşkilatın beynəlxalq nüfuzunun yüksəlməsinin, digər iri regional və beynəlxalq təşkilatlarla konstruktiv əməkdaşlığın təşkilinin məmnunluq hissi doğurduğunu bildirən Azərbaycan Prezidenti BMT Baş Məclisinin 50-ci sessiyasında BMT ilə İƏT arasında əməkdaşlıq haqqında xüsusi qətnamə qəbul edilməsinin buna sübut olduğunu göstərmişdir. İƏT-in BMT müəssisələri ilə, İslam İnkişaf Bankı, İslam Konfransı Təşkilatı, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası ilə əməkdaşlığının genişlənməsinə yönəldilmiş səylərinin ölkəmiz tərəfindən alqışlandığını bildirmiş və demişdir ki, bu təşkilatın inkişafının yeni mərhələsi, əldə olunmuş müsbət nəticələr nəzərə alınmaqla, İƏT-in təşkilat strukturunda dəyişikliklər aparmağı, nizamnamə sənədlərinin bəzi müddəalarını bu günün reallıqları ilə uyğunlaşdırmağı tələb edir...

O, əmin olduğunu bildirmişdir ki, Xəzər dənizinin şelflərindəki enerji ehtiyatlarının hasilatı sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi bütün regionun, İƏT iştirakçısı olan dövlətlərin - onlardan dördü Xəzər ətrafında yerləşir - iqtisadi inkişafına ən əlverişli təsir göstərəcəkdir.

Prezidentimiz sonra Ermənistan Respublikası tərəfindən səkkiz ildən artıq davam edən silahlı təcavüzün nəticələrindən danışmış, danışıqların gedişindən bu problemlə bağlı söhbət

açmış, sonda ölkəmizin ərazi bütövlüyünün təmin olunması və bir milyondan artıq qaçqının öz ocaqlarına qayıtması üçün təşkilatı bütün imkanlardan istifadə etməyə çağırmışdır.

Azərbaycan-İran əlaqələri bu mühüm görüşdən sonra da inkişafı yüksəlməkdə davam etmişdir.

Bu dövrdə iki ölkə arasında münasibətlərin xeyli dərəcədə yaxşılaşmasına zəmin yaradan hadisələrdən biri 1996-cı il iyunun 4-də Bakıda Beynəlxalq Neft Konsorsiumu ilə İranın OIEC şirkəti tərəfindən "Şahdəniz" neft yatağının birgə işlədilməsi üzrə müqavilənin imzalanması olmuşdur. İmza mərasimində İran İslam Respublikasının milli neft şirkətinin birinci vitse-prezidenti Seyid Mehdi Hüseyni və OİEC şirkətinin prezidenti Seyid Əli Ərbər Haşimi də iştirak etmişlər.

Bu müqavilədə Azərbaycan, Norveç, İngiltərə, Türkiyə, Fransa, Rusiya ilə birlikdə İran şirkətinin iştirakı qonşu ölkə üçün böyük əhəmiyyət kəsb edir.

Həmin ilin iyunun 18-də İranın Baş Gömrük İdarəsinin rəisi Əbdülhüseyn Vəhacini, iyunun 19-da İran İslam Respublikasının Səhiyyə Naziri Əlirza Mərəndini Azərbaycan Prezidenti qəbul etmişdir.

İran İslam Respublikasının Daxili İşlər Naziri Əliəhmənd Bəşarətinin dəvətilə 29 iyul -2 avqust 1996-cı il tarixdə İranda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Daxili İşlər Naziri Ramil Usubov keçirilmiş görüşlər zamanı mühüm sənədlər - "Narkotik maddələr qaçaqmalçılığı ilə birgə mübarizə" və "İki ölkənin sərhəd xidmətləri arasında əməkdaşlıq haqqında" müqavilələr imzalanmışdır.

1996-cı il avqustun 26-28-də İran İslam Respublikasına rəsmi səfər etmiş Azərbaycan Respublikasının Xarici İşlər Naziri, İİR Prezidenti Haşimi Rəfsəncani, Parlamentin sədri Natiq Nuri, Xarici İşlər Naziri Ə.Ə.Vilayəti və digər rəsmi şəxslərlə görüşmüş və iki ölkə arasında bir sıra məsələlərin həlli yolları araşdırılmışdır.

1996-cı il oktyabrın 3-7-də Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və hümanitar əlaqələr üzrə Müştərək Komissiyanın həmsədri Yaşar Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Tehranda olmuşdur. Səfər zamanı Müştərək Komissiyanın 2-ci iclası keçirilmiş və iki ölkə arasında əməkdaşlığı genişləndirmək məqsədilə memorandum imzalanmışdır.

1996-cı il oktyabrın 28-31-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş İranın birinci vitse-prezidenti Həsən Həbibi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev arasında keçirilən görüş zamanı ikitərəfli münasibətlərin, xüsusilə iqtisadi məsələlərin həlli yolları araşdırılmış, həmçinin bir sıra sənədlər imzalanmışdır. İranlı qonaq Gəncə şəhərinə, Naxçıvan Muxtar Respublikasına getmiş, həmin bölgələrin tarixi abidələri və iqtisadi potensialı ilə tanış olmuşdur. Prezident Heydər Əliyev Naxçıvana səfər edərkən (31 oktyabr) Həbibi ilə Bakı da-



Əməkdaşlığın zirvəsinə doğru
18-20 may 2002-ci il

İran Prezidenti **Haşimi Rəfsəncaninin** Azərbaycana ilk rəsmi səfəri
26-28 oktyabr 1993-cü il

Prezidentlər Bakıda İranın köməyi ilə tikilmiş məktəbin açılışında
26-28 oktyabr 1993-cü il

Qonaqlar Azərbaycanın sənaye obyektləri ilə tanış olurlar
27 oktyabr 1993-cü il

Mətbuat konfransında
26-28 oktyabr 1993-cü il

Azərbaycan Prezidenti ***Heydər Əliyevin*** *İrana ilk rəsmi səfəri.*
Qarşılanma mərasimi ***29 iyun - 02 iyul 1994-cü il***

Prezidentlər arasında səmimi söhbət
29 iyun - 02 iyul 1994-cü il

İmam Xomeyninin *şəkli toxunmuş xalçanın təqdimi*
29 iyun - 02 iyul 1994-cü il

İranın Ali Dini Rəhbəri ***Xamneyi*** *ilə görüşdə*
29 iyun-10 iyul 1994-cü il

İslam Şurası Məclisinin Sədri **Natiq Nuri** ilə görüş
29 iyun - 02 iyul 1994-cü il

İmam Xomeyninin məqbərəsinə əklil qoyarkən
29 iyun - 02 iyul 1994-cü il

İmam Xomeyninin məqbərəsində xatirə kitabında qeyd
29 iyun - 02 iyul 1994-cü il

İmzalanma mərasimindən sonra
29 iyun - 02 iyul 1994-cü il



İmam Xomeyninin məqbərəsi

Tarixi abidələrlə tanışlıq
29 iyun - 02 iyul 1994-cü il

Tarixi abidələrlə tanışlıq
29 iyun - 02 iyul 1994-cü il

Muzeydə
29 iyun - 02 iyul 1994-cü il

Kiş adasına uçarkən
29 iyun -02 iyul 1994-cü il



Kiş adasında
29 iyun - 02 iyul 1994-cü il

***İmam Xomeyninin** məqbərəsi*
29 iyun - 02 iyul 1994-cü il

"İran - Xodro" avtomobil zavodunda
29 iyun - 02 iyul 1994-cü il

"İran - Xodro" avtomobil zavodunda
29 iyun - 02 iyul 1994-cü il

Aşqabad görüşləri
13 -15 may 1996-cı il



Şəhərlə tanışlıq
29 iyun - 02 iyul 1994-cü il

Aşqabad görüşləri
13- 15 may 1996-cı il

Aşqabad görüşləri
13-15 may 1996-cı il

nışıqlarını davam etdirmiş, bilavasitə Naxçıvan MR ilə İran arasında əməkdaşlıq perspektivləri yollarını bir daha nəzərdən keçirmişdir.

İki ölkə Parlamentləri arasında da əlaqələr davam etmişdir. 1996-cı il noyabrın 26-28-də Bakıya işgüzar səfərə gəlmiş İslam Şurası Məclisi Rəyasət Heyətinin üzvü Seyid Rza Əkrəminin başçılıq etdiyi nümayəndə heyəti Prezident Heydər Əliyevlə görüşmüşdür. Bundan əlavə, Azərbaycan Respublikası Milli Məclisində keçirilmiş görüşlərdə parlamentlərarası qrupların fəaliyyətinin genişləndirilməsi zəruriliyi qeyd edilmişdir.

1997-ci ilin fevral ayının 10-da Azərbaycan Prezidenti İran İslam İnqilabının növbəti ildönümü münasibətilə keçirilən tədbirdə yenidən iştirak etmiş, iran xalqını bayram münasibətilə təbrik etmişdir.

İran xalqının inqilabdan sonrakı dövrdə əldə etdiyi nailiyyətlərinə sevindiyimizi bildirən dövlət başçısı 1996-cı ilin İran-Azərbaycan əlaqələri sahəsində çox məhsuldar olduğunu göstərmişdir. Onun Haşimi Rəfsəncani və İran İslam Respublikası Prezidentinin birinci müavini Həbibi ilə görüş və danışıqlarının, bu ölkənin digər dövlət nümayəndələrinin respublikamıza etdiyi ziyarətlərin və Azərbaycanın dövlət nümayəndələrinin İrana etdiyi səfərlərin nəticəsində əlaqələrimizin sürətlə inkişaf etməsi üçün ciddi addımlar olduğu qeyd edilmişdir.

H.Əliyev İran-Azərbaycan dostluğunun parlaq nümunələrindən birini İran dövlətinin, hökumətinin Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüzü daim pisləməsində, İran İslam Respublikasının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsində və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barədə ölkəmizin təkliflərini dəstəkləməsində gördüyünü xüsusi olaraq qeyd etmişdir və göstərmişdir ki, çoxəsrlik tariximizdə ilk dəfədir ki, İran ilə Azərbaycanın çox gözəl sağlam dövlətlərarası əlaqələri yaranıbdır. Prezident daha sonra əlavə edərək qeyd etmişdir: "Mən bunu tarixi nailiyyət hesab edirəm. Hesab edirəm ki, biz bu nailiyyəti qoruyub saxlamalıyıq və ondan səmərəli istifadə etməliyik. Bir sözlə, İran-Azərbaycan əlaqələrinin çox gözəl gələcəyi var. Bizim vəzifəmiz xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaqdan, dostluq əlaqələrimizi möhkəmləndirməkdən, əməkdaşlığımızı inkişaf etdirməkdən və üzərimizə düşən tarixi vəzifələri layiqincə yerinə yetirməkdən ibarətdir".

Dövlətlərimiz və xalqlarımız çətin anlarda bir-birinin dərdinə şərik olmuş, bir-birinə kömək etməyə, yardım əlini uzatmağa həmişə hazır olmuş və bunu həyat keçirmişlər. İran İslam Respublikasında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı olması ilə bağlı İran Prezidentinə və bütün İran xalqına 15 mart 1997-ci il tarixdə Azərbaycan Respublikasının Prezidentinin göndərdiyi başsağlığı yüzlərlə belə misallardan biridir.

1997-ci ilin aprel ayının 23-də İranın Xarici İşlər Naziri Ə. Vilayəti Bakıda olmuş və həmin ilin dekabr ayının 8-11-də İKT dövlətlərinin Tehranda keçiriləcək Zirvə toplantı-

sına dəvət məktubunu Prezident Heydər Əliyevə təqdim etmişdir.

Həmin il aprelin 28-30-da Tehranda İƏT təşkilatına üzv dövlətlərin Xarici İşlər Nazirlərinin toplantısı keçirilmiş, bu toplantıda Azərbaycanın Xarici İşlər Naziri iştirak etmişdir.

11 may 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının Prezidenti Əli Əkbər Haşimi Rəfsəncani cənablarına İranda zəlzələ nəticəsində böyük dağıntılar və çoxsaylı insan tələfatı olması ilə əlaqədar olaraq həlak olanların qohum - əqrəbalarına və bütün İran xalqına dərin hüznlə başsağlığı vermişdir.

1997-ci il mayın 13-14-də Aşqabadda İƏT təşkilatı Zirvə toplantısının keçirildiyi günlərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və İİR Prezidenti Haşimi Rəfsəncani arasında görüş keçirilmişdir.

Növbədənkənar olan bu toplantı, əsasən, nəqliyyat, kommunikasiya məsələlərinə həsr olunmuşdu. Xüsusi bəyannamə - Aşqabad bəyannaməsi hazırlanmışdı. Bu bəyannamədə İƏT regionundan, ona daxil olan ölkələrdən həm Şərqə, Qərbə, həm də Şimala və Cənuba gedən bütün nəqliyyat, kommunikasiya vasitələrinin yaranması, tikilməsi və bununla da iqtisadi əlaqələrin inkişaf etdirilməsi məsələsi müzakirə olunmalı idi.

Toplantıda çıxış edən Prezidentimiz göstərmişdir ki, İƏT bölgəsinin nəqliyyat-kommunikasiya infrastrukturlarını onun iqtisadi inkişafının potensial imkanlarına və dünya standartlarına uyğunlaşdırmaq vaxtı gəlib çatmışdır.

Şərq-Qərb və Şimal-Cənub dəhlizləri yaradılması yolu ilə müasir Avroasiya tranzit nəqliyyat şəbəkəsinin təşkili əməkdaşlığın bu istiqamətində perspektivlidir.

Sərəxs sazişi və TRASEKA proqramları İƏT bölgəsində gəmiçilikdən və liman təsərrüfatından səmərəli istifadə üçün yaxşı zəmin yaradır, çünki yüklər dəniz bərəsi ilə Türkmənbaşı - Bakı istiqamətində daşınır.

Azərbaycan Prezidenti bildirmişdir ki, artıq bu gün Bakı limanı nəqliyyatın Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində bölüşdürülməsi qovşağının funksiyasını yerinə yetirmək iqtidarındadır və Xəzər hövzəsindəki bütün limanlar arasında ən güclü və yüksək texniki təchizata malik limandır. Onun imkanları İranın Ənzəli və Nouşəhr limanlarına, habelə Türkmənbaşı, Mahaçqala, Həştərxan və Aktauya gedən yüklərin vurulması və boşaldılması işlərini tamamilə təmin etməyə şərait yaradır.

Bakı limanının və Xəzərdəki digər limanların inkişaf etdirilməsi işləri onlara ticarət-kommersiya mərkəzləri funksiyaları verilməsi yolu ilə həyata keçirilməlidir. Bununla əlaqədar iri proqramlara ehtiyac yaranır. Elə proqramlara ki, mövcud infrastrukturu beynəlxalq standartlara yaxınlaşdırmaq məqsədilə burada həm dəmiryolunun, avtomobil magistrallarının ayrı-ayrı qovşaqlarının, həm də liman təsərrüfatının yenidən qurulması, modernləşdirilməsi və inşası nəzərdə tutulsun.

Dövlətimizin başçısı vurğulamışdır ki, göstərilənlər nəzərə alınaraq, bütün əlaqədar tərəflərin iştirakı ilə Avroasiya dəhlizi ölkələri nəqliyyat nazirlərinin daimi konfransını təsis etmək məqsədəuyğun olardı. Bu isə, Avroasiya nəqliyyat dəhlizinin lazımınca fəaliyyət göstərməsi məsələlərini operativ həll etməyə və həmin istiqamətdə əməkdaşlıq proqramlarının işlənib hazırlanmasına vahid mövqedən yanaşmağa imkan verərdi.

Biz Qazaxıstanın "Tengiz" yatağından enerji ehtiyatlarını Xəzər dənizi vasitəsilə və Azərbaycan ərazisi ilə Türkiyəyə nəql etmək təkliflərinə böyük əhəmiyyət veririk. Bu məsələ Qazaxıstan Prezidenti, hörmətli Nursultan Nazarbayevlə müzakirələrimizin mövzusu olmuşdur və mən onun işlənib təkmilləşdirilməsini və əməli qərarlar qəbul edilməsini lazım bilirəm.

Bizim Zirvə toplantısının işi sübut edir ki, İƏT bölgəsində vahid kommunikasiya məkanı yaradılmasının yeni, mühüm mərhələsi başlanmışdır.

Bəyannamədə əksini tapan layihələrin həyata keçirilməsi İƏT ölkələrinin qarşılıqlı surətdə faydalı əməkdaşlığına və nəticə etibarı ilə sabit sülhün və ölkələrimizin, xalqlarımızın tərəqqisinin təmin olunmasına kömək edəcəkdir.

Görüşdə hər iki dövlət başçısı həm İƏT təşkilatı çərçivəsində, həm də ikitərəfli iqtisadi əlaqələrdə əməkdaşlığın genişlənməsinin zəruriliyini vurğulamış, bir sıra layihələrin, o cümlədən Xudafərin, Qız qalası su bəndlərinin, Astara, Biləsuvar sərhədyanı bazarların işə salınmasının vacibliyini qeyd etmişlər.

1997-ci ilin may ayında İranın yeni seçilmiş Prezidenti Məhəmməd Xatəmini təbrik etmək məqsədilə, Azərbaycan Prezidenti Heydər Əliyev Milli Məclis sədrinin müavini, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Yaşar Əliyevi özünün şəxsi nümayəndəsi kimi İrana göndərmişdir.

1997-ci il noyabrın 18-də Prezident

Heydər Əliyev İİR-in kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının (DMK) həmsədri Morteza Hacını qəbul etmişdir. Qəbul zamanı İran Prezidenti M.Xatəminin cavab məktubu Azərbaycanın dövlət başçısına təqdim olunmuşdur.

1997-ci il noyabrın 17-20-də Bakıda keçirilmiş DMK-nın III iclasının yekun sənədi kimi, ikitərəfli münasibətləri inkişaf etdirmək məqsədilə tərəflər arasında memorandum imzalanmışdır. Bu sənəddə bir sıra yeni əməkdaşlıq yolları araşdırılıb müəyyənləşdirilmişdir. Məsələn, Bakı-Tehran telefon kanallarının sayının 60-dan 180-ə çatdırılması, Bakı-Biləsuvar-Culfa-Naxçıvan istiqamətində Naxçıvana yeni 60 telefon kanalı çəkilməsi nəzərdə tutulmuşdur.

Noyabrın 20-22-də İİR-in nümayəndə heyəti Naxçıvan MR-da olmuşdur. İran Kooperasiya Naziri M.Hacı

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovla görüşüb, danışıqlar aparmışdır. Burada Naxçıvan bölgəsilə İran arasında əməkdaşlığın inkişaf yolları araşdırılmışdır. Bu məqsədlə hər iki tərəfin məsul şəxsləri Şahtaxtı-Poldəşt sərhədyanı bazarında, Sədərək sərhəd-keçid məntəqəsində, Culfa sərhədyanı bazarında olmuş, Şahbuz rayonunda İİR-in vəsaiti, yerli dindarların köməyi və yardımı ilə tikilmiş məscidin açılışında iştirak etmişlər. Qeyd etmək lazımdır ki, 1997-ci il noyabrın 21-də Naxçıvanla İran arasında ayrıca əməkdaşlığın genişləndirilməsi haqqında memorandum imzalanmışdır.

1997-ci il dekabrın 8-11-də Prezident Heydər Əliyev Tehranda keçirilən İKT-nin VIII Zirvə görüşündə iştirak etmiş, bu zaman İranın Prezidenti S.M.Xatəmi, Ali Dini Rəhbər Ayətulla Xamneyi, Məsləhət Şurasının sədri Haşimi Rəfsəncani və digər yüksək səviyyəli dövlət xadimlərilə keçirdiyi görüşlər nəticəsində ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə qaldırılmış, ölkələrimiz arasındakı münasibətlərin gələcək inkişafı üçün geniş imkanlar açılmışdır.

Tehrana yola düşməzdən əvvəl səfərin hədəf və məqsədlərindən danışan dövlət başçımız ölkəmizin İKT-nin üzvü olduğunu və təşkilatın Zirvə görüşündə iştirak etməsinin zəruriliyini, 1994-cü ildə Mərakeşdə - Kasablankada İKT-nin Zirvə görüşündə bir çox məsələlərin müzakirə edildiyini, təşkilatın Ermənistanın Azərbaycana təcavüzünü pisləyən qətnamə qəbul etdiyini, keçən il Cakartada İslam Konfransı Təşkilatı ölkələri xarici işlər nazirlərinin görüşündə də Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplərin öz əksini tapdığını bildirmiş, ölkəmizin islam aləminin bir hissəsi kimi bu Zirvə görüşünün işində iştirak etmək və fikirlərini, təkliflərini bildirmək, islam ölkələrinin həmrəyliyi üçün səylərini birləşdirmək məqsəd güddüyünü bəyan etmişdir.

İranla ikitərəfli danışıqlarda müzakirə ediləcək məsələlərə toxunan Prezident göstərmişdir ki, bu danışıqlarda konkret məsələlər nəzərdə tutulmayıbdır. İranın yeni Prezidenti ilə mənim xüsusi görüşüm olacaqdır.

Bizim məqsədimiz həmişə belə olubdur ki, İran böyük qonşumuzdur və İranla əlaqələri daim yaxşılaşdırmalıyıq. Biz bu barədə üzərimizə düşən vəzifələri öz tərəfimizdən yerinə yetiririk. Mən bu dəfə də çalışacağam subut edəm ki, İran ilə Azərbaycan arasında hər bir dövlətin xüsusiyyətini nəzərə alaraq normal dostluq əlaqələri olmalıdır və İran hökuməti də bu barədə öz üzərinə düşən addımları atmalıdır.

Dekabrın 9-da Zirvə görüşünün açılışı olmuşdur. Toplantını təbrik sözü ilə İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətulla Xamneyi açmış, 55 müsəlman ölkəsindən və beynəlxalq təşkilatlardan gəlmiş nümayəndələri bu mühüm görüş münasibətilə təbrik edərək onlara uğurlar arzulamışdır.

Sonra ötən üç ildə İslam Konfransı Təşkilatına rəhbərlik etmiş Mərakeşin Baş Naziri, doktor Abdullətif Filali çıxış edərək, bu müddətdə İKT-nin gördüyü işlər barədə danışmışdır. Qeyd etmişdir ki, İKT-nin nüfuzu getdikcə artır və o, beynəlxalq təşkilatlar sırasında mühüm yerlərdən birini tutur.

Bundan sonra isə İslam Konfransı Təşkilatının yeni sədri kimi çıxış edən İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi İKT-nin rolundan və onun qarşısında duran vəzifələrdən danışmışdır.

Azərbaycan Prezidenti Tehranda olduğu zaman 25-dən çox ölkənin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlər keçirmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Zirvə görüşündə çıxış etmişdir. O, islam ölkələrinin dövlət və hökumət başçılarını fəal əməkdaşlıq etməyə çağırmış, bir sıra ölkələrin qarşılaşdığı problemlərin həlli sahəsində İKT-nin başlıca vəzifələrindən söhbət açmış, Ermənistan-Azərbaycan münaqişəsinin ölkəmizə vurduğu yaralardan ətraflı bəhs edərək İKT-nin rəhbərliyini və üzv ölkələrin dövlət və hökumət başçılarını Azərbaycanın haqq işinə dəstək verməyə çağırmış və ümidvar olduğunu bildirmişdir ki, Tehran Zirvə görüşü Ermənistanın Azərbaycana qarşı təcavüzü barəsində tutarlı qərarlar qəbul edəcək və bir milyon azərbaycanlı qaçqın müsəlmanlara fəal yardım proqramları təklif edəcəkdir. Dövlətimizin rəhbəri İKT üzvü olan ölkələr arasında əməkdaşlığı genişləndirmək lüzumunu qeyd etmiş, müstəqil Azərbaycanın demokratik dövlət quruculuğu yolu ilə irəlilədiyini bildirmiş, toplantı iştirakçılarının diqqətini Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünə bir daha cəlb etmişdir.

Ermənistanın təcavüzü nəticəsində yerlərindən didərgin düşmüş və çadırlarda ağır vəziyyətdə yaşayan bir milyondan artıq azərbaycanlı qaçqınlara göstərilən humanitar yardıma görə Türkiyəyə, İrana, Səudiyyə Ərəbistanına, Pakistana, Misirə, Küveytə, Birləşmiş Ərəb Əmirliklərinə dövlət başçımız öz nitqində dərin minnətdarlığını bildirmişdir. Dövlətimiz və xalqımız adından onlara və İslam Konfransı Təşkilatının üzvü olan digər dövlətlərə üz tutaraq xahiş etmişdir ki, bu sahədə köməklərini artırsınlar, müsəlman qardaşlarını bu bəladan qurtarmaqda öz imkanlarını əsirgəməsinlər. Göstərmişdir ki, gün olacaqdır ki, Azərbaycan dövləti bu təcavüzdən xilas olacaq, qısa müddətdə inkişaf edib, çiçəklənən dövlətə çevriləcək və özü qardaşlarına kömək etmək iqtidarında olacaqdır.

Ölkəmizin rəhbəri əmin olduğunu bildirmişdir ki, İslam Konfransı Təşkilatı islam ümmətinin tərəqqisi, xoşbəxt gələcəyi, məzlum xalqların rifahı yolunda bütün imkanlarından istifadə edəcəkdir. Bu müqəddəs məqsədlərə nail olmaq üçün Allah-Təalanın köməyi ilə Azərbaycan Respublikası da öz töhfələrini verəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 9-da Tehranda İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

İslam Konfransı Təşkilatının Zirvə görüşündə iştirak etməsindən

məmnun olduğunu bildirən Prezident Heydər Əliyev, bu görüşün yaxşı təşkil edildiyini nəzərə çarpdırmış, Zirvə görüşünün müsəlman ölkələrinin əməkdaşlığının daha da canlandırılmasında əhəmiyyətli rol oynayacağına və toplantıda Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən mühüm sənədlər qəbul edəcəyinə ümid etdiyini bildirmişdir.

İran ilə Azərbaycan arasında dərin köklərə malik tarixi dostluq əlaqələrinin gündən-günə möhkəmləndirilməsinin vacib olduğunu nəzərə çarpdıran Prezident Heydər Əliyev demişdir ki, biz qonşu və dost ölkə olan İranla əməkdaşlığın genişləndirilməsinə daim diqqət yetiririk.

Qarşıdakı üç ildə İslam Konfransı Təşkilatına İranın sədrlik edəcəyini vurğulayan cənab Xatəmi isə bildirmişdir ki, biz bu nüfuzlu təşkilatın Azərbaycan dövlətinin problemlərinin həllinə yaxından kömək göstərməsinə xüsusi fikir verəcəyik.

Bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İKT çərçivəsində Azərbaycan-İran əlaqələrinin daha da yaxşılaşdırılmasının zəruri olduğunu qeyd edən dövlətimizin başçısı Heydər Əliyev göstərmişdir ki, Azərbaycan Respublikası öz müstəqilliyinin qorunub saxlanılması və əbədi olması üçün əlindən gələni edəcəkdir. Respublikamızın rəhbəri bildirmişdir ki, Azərbaycan xalqı bundan sonra heç bir ölkənin təsir dairəsində ola bilməz və olmayacaqdır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazisinin 20 faizini işğal etməsindən, 1 milyondan çox vətəndaşımızın qaçqın vəziyyətində, ağır şəraitdə yaşamasından bəhs edən Prezident Heydər Əliyev bu münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan və həmsədrlərin sülh təkliflərindən də görüşdə söhbət açmışdır.

Prezident Xatəmi söyləmişdir ki, İran xalqı Azərbaycandakı bacı-qardaşlarının dərdinə şərikdir və bu münaqişənin sülh yolu ilə həllinə tərəfdardır.

Prezident Heydər Əliyev cənab Xatəmini Azərbaycana rəsmi səfərə dəvət etmiş, dəvət məmnunluqla qəbul olunmuşdur.

Görüşdə Azərbaycan-İran əməkdaşlığının perspektivləri, Müştərək Komissiyanın fəaliyyətinin daha da canlandırılması barədə geniş fikir mübadiləsi də aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Tehran Zirvə görüşünün ikinci günü - dekabrın 10-da İranın "Əhrar", "Əsr-e-azadi" və "İqtisadiyyat dünyası" qəzetlərinin müxbirlərinə müsahibələr vermişdir.

Müsahibələrdə dövlətimizin başçısı İran ilə Azərbaycan arasındakı əlaqələrin dostluq, qardaşlıq xarakteri daşıdığını, bu əlaqələrin bundan sonra daha da yüksəklərə qalxacağını, genişlənəcəyini, daha da inkişaf edəcəyini göstərmiş və bildirmişdir ki, bizim tarixi əlaqələrimiz, tarixi keçmişimiz, bir dinə mənsub olmağımız, adət-ənənələrimiz ölkələrimizin - Azərbaycan və İranın fəal əməkdaşlıq etməsi və dostluq münasibətləri saxlaması üçün çox sanballı bünövrə

yaratmışdır. İndi belə əməkdaşlıq var, amma mən hesab edirəm ki, bu kifayət deyildir. Biz bütün sahələrdə - iqtisadiyyatda, elm, texnika, mədəniyyət sahəsində əməkdaşlığımızı genişləndirməliyik. Ümidvaram ki, Prezident cənab Xatəmi və İranın digər rəhbərləri ilə görüşlərimiz zamanı bu məsələləri müzakirə edəcək və əməkdaşlığımızı daha da inkişaf etdirmək üçün tədbirləri müəyyənləşdirəcəyik.

Biz istəyirik ki, islam ölkələri daha da həmrəy, bir-biri ilə mehriban, dost olsunlar. İslam aləmi dünyada gedən proseslərdə islam mədəniyyətini, mənəviyyatını, dinini daha da qorusun, müsəlman xalqlarının, ölkələrinin hüquqlarının pozulmasının qarşısını alsın.

Mənim istəyim də, arzum da budur ki, İran ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri olsun, bizim ölkələrimizin böyük imkanlarından əməkdaşlığımızı, o cümlədən iqtisadi əməkdaşlığımızı inkişaf etdirmək üçün istifadə edilsin.

Prezident Heydər Əliyev həmişə olduğu kimi, bu dəfə də müxtəlif informasiya agentlikləri müxbirlərinin suallarına ətraflı cavablar vermiş, Xəzərin sektorlara bölünməsi məsələsinə toxunaraq göstəmişdir ki, hər bir ölkənin özünün siyasəti, maraqları var.**Ancaq mən ona inanıram ki, gələcəkdə Xəzər dənizinin mineral ehtiyatlarından istifadə etmək üçün onun sektorlara bölünməsinin alternativi yoxdur.** Bütün Xəzəryanı ölkələr bu prinsipin üzərində dayanmalıdırlar. Ona görə ki, bu prinsip hər bir ölkə üçün Xəzər dənizinin mineral ehtiyatlarından səmərəli istifadə etməyə ən gözəl şərait yaradan prinsipdir.

Azərbaycan neftinin nəqli üçün kəmərin İrandan keçməsi imkanlarına toxunan dövlət başçımız bildirmişdir ki, bizim neft kəmərinin İrandan keçməsi haqqında hələ ki, danışıqlar aparmamışıq. Ancaq Xəzər dənizinin Azərbaycan sektoru üzrə artıq bir neçə müqavilə imzalanıb və gələcəkdə bunlar nəzərdə tutulduğundan da çox neft və qaz əldə etmək perspektivi açıbdır. Ona görə də bir yox, bir neçə kəmər ola bilər. Çünki Azərbaycan sektoru ilə yanaşı, Xəzər dənizinin digər sektorlarında - Qazaxıstan sektorunda da, Türkmənistan sektorunda da, başqa sektorlarda da neft hasil etmək imkanları var. Bir halda ki, Xəzər dənizində bu qədər neft hasil olunacaq, bunu dünya bazarlarına aparmaq lazımdır. Dünya bazarlarına aparmaq üçün də cürbəcür yollardan, ələlxüsus iqtisadi və təhlükəsizlik cəhətdən əlverişli yollardan istifadə olunacaqdır.

Azərbaycan Prezidenti Suriyanın TV-2, Ermənistanın milli radiosunun müxbirinə də müsahibələr vermişdir.

Tehranda olarkən Azərbaycan Prezidenti Heydər Əliyev Təbriz şəhərinin valisi Yəhya Məhəmmədzadə ilə də görüş keçirmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşündən şərəf duyduğunu bildirən vali Azərbaycan ilə İran arasında əlaqələrin durmadan inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğıya görə respublikamızın rəhbərinə minnətdarlığını bildirmişdir.

Səmimi sözlərə görə cənab Məhəmmədzadəyə təşəkkür edən Prezident Heydər Əliyev təbrizlilərin Azərbaycana, Naxçıvana göstərdiyi humanitar yardıma görə razılığını bildirərək demişdir: "Güman edirəm ki, Azərbaycan ilə İran arasındakı əlaqələrin inkişaf etdirilməsinə yaxından kömək göstərəcəksiniz".

Cənab Məhəmmədzadə humanitar yardımı bundan sonra da davam etdirəcəklərini söyləmiş, Təbrizin nümayəndə heyətinin Azərbaycana səfər edəcəyini bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 11-də ölkəmizin Tehrandakı səfirliyində olmuş, onun işi ilə tanış olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 11-də Tehranda İran İslam Respublikası Məsləhət Şurasının sədri Əli Əkbər Haşimi Rəfsəncani ilə də görüşmüşdür.

Dövlətimizin başçısı İslam Konfransı Təşkilatının Zirvə görüşünün yüksək səviyyədə keçməsindən razılıq etmişdir. İranla əməkdaşlığın durmadan inkişaf etdirilməsinə Azərbaycanın da böyük diqqət yetirdiyini nəzərə çatdıran Prezident Heydər Əliyev ölkələrimiz arasında münasibətlərin gündən-günə yaxşılaşdırılmasının vacib olduğunu vurğulamışdır.

Azərbaycan ilə İran arasında münasibətlərin həmişə səmimi olmasının zəruriliyini nəzərə çatdıran dövlətimizin başçısı Heydər Əliyev ölkələrimizin iqtisadi əməkdaşlığının möhkəmləndirilməsi məqsədi ilə yaradılmış Müştərək Komissiyaların fəaliyyətini daha da canlandırmağın vacib olduğunu bildirmişdir.

Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin perspektivləri barəsində də fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Prezidenti Heydər Əliyev İranın Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamneyi ilə də Zirvə toplantısı zamanı görüşmüşdür. Dövlətimizin başçısı Heydər Əliyev Tehrana gəlməsindən, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etməsindən məmnun qaldığını bildirərək bu təşkilatın 1994-cü ildə Kasablankada keçirilmiş Zirvə görüşündə də iştirak etdiyini xatırlatmışdır.

İKT-nin VIII Zirvə görüşünün Tehranda keçirilməsini və İran İslam Respublikasının qarşıdakı üç ildə bu təşkilata sədrlik edəcəyini əlamətdar hadisə kimi yüksək qiymətləndirən Prezident Heydər Əliyev demişdir: "Biz Zirvə görüşündə sizin nitqinizi böyük diqqətlə dinlədik. Bu nitqinizə və Zirvə görüşünün mütəşəkkil qaydada keçməsinə görə mən Sizi təbrik edirəm. Dünyəvi dövlət quran müstəqil Azərbaycan Respublikası öz dininə böyük hörmətlə yanaşır. Biz ötən uzun illərdə itirdiklərimizi - adət-ənənələrimizi bərpa edirik, canlandırırıq, onların durmadan inkişaf etdirilməsi üçün ölkəmizdə bütün imkanları yaradırıq. Xalqımızı 70 il ərzində islam dinindən ayırmağa çalışıblar. Bilirsiniz ki, biz Sovetlər İttifaqının tərkibində ateist tərbiyəsi, təbliğatı altında yaşamışıq. Ancaq buna baxmayaraq, xalqımız öz dinindən heç vaxt ayrılmayıbdır, onu qəlbində, ürəyində saxlayıb və imkan olan kimi hər şey açılıbdır. Bu da dinimizin - islam dininin nə qədər qüdrətə, gücə malik olduğunu bir daha göstərir. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcək və dinindən də ayrılmayacaqdır".

İran ilə əlaqələrə Azərbaycanın çox böyük əhəmiyyət verdiyini, Azərbaycan - İran münasibətlərinin daimi dostluq və qardaşlıq münasibətləri olduğunu nəzərə çatdıran respublikamızın rəhbəri demişdir: "Bizim arzumuz, istəyimiz ondan ibarətdir ki, bu münasibətlər daha geniş, sıx, mehriban, səmimi olsun. Əməkdaşlığımızı genişləndirmək üçün insani, elmi, mədəni, ticarət əlaqələrinin durmadan möhkəmləndirilməsi çox vacibdir".

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, həmsədrlərin irəli sürdüyü təkliflərdən söhbət açan Prezident Heydər Əliyev bildirmişdir ki, biz bu təklifləri əsas kimi qəbul etmişik. İstəyirik ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilsin, ölkəmizin ərazi bütövlüyü təmin olunsun, doğma yurdundan zorla qovulmuş, hazırda çadırlarda ağır şəraitdə yaşayan bir milyondan çox vətəndaşlarımız öz yerlərinə qayıtsınlar.

Azərbaycanlı qaçqınlara etdiyi humanitar yardıma görə İran İslam Respublikasının rəhbərliyinə minnətdarlığını bildirən dövlətimizin başçısı, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında qeyri-konstruktiv mövqeyindən əl çəkməyən Ermənistana bir çox dövlətlərin siyasi və iqtisadi dəstək verməsindən təəssüfləndiyini bildirmişdir.

Prezident Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Tehran Zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzünü pisləyən sənədlərin qəbulu üçün İranın öz nüfuzundan səmərəli istifadə edəcəyinə əmin olduğunu vurğulamışdır.

Söhbət zamanı Azərbaycan-İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Dövlətimizin rəhbərinin dərin zəkası, diplomatik məharəti Tehran Zirvə görüşünün birinci iş günündən öz səmərəli nəticələrini vermişdir. İranın Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamneyi, Suriya Prezidenti Hafiz Əsəd, İKT-nin Baş katibi İzzəddin Laraki, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Pakistanın Baş Naziri Nəvaz Şərif, Mərakeşin Kralı II Həsən, Banqladeşin Baş Naziri Şeyx Hasina və başqa dövlət və hökumət başçıları Ermənistanın təcavüzünü qətiyyətlə pisləmiş, öz çıxışlarında Azərbaycanın haqq işini müdafiə etdiklərini bildirmişlər. İKT-nin Baş katibi İzzəddin Laraki işğal olunmuş Azərbaycan torpaqlarından Ermənistan silahlı qüvvələrinin mütləq çıxarılmasının zəruri olduğunu vurğulamış, dünya birliyini bu münaqişəyə ərazi bütövlüyü və sərhədlə-

rin pozulmazlığı prinsiplərinə əməl olunmaqla, ədalətlə son qoymaq üçün səyləri gücləndirməyə çağırmışdı.

Azərbaycan Prezidenti Tehranda olduğu ilk gündən ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlərə geniş vaxt ayırmış, xalqımız üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, Ermənistanın təcavüzkarlığının qətiyyətlə pislənilməsi, qaçqınlara humanitar yardımın artırılması məsələlərini hərtərəfli müzakirə etmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev İKT-nin Zirvə görüşündə bir çox ölkələrin KİV nümayəndələrinə müsahibələr vermiş, Ümumdünya Ərzaq Təşkilatının Baş direktoru Corc Byuk, İKT-nin Baş katibi İzzəddin Laraki, Fələstin muxtariyyətinin rəhbəri Yasir Ərəfat, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Naziri Rəşid Abdullah ən-Nueymi, Suriya Prezidenti Hafiz Əsəd, İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətulla Xamneyi, İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi, Ərəb Ölkələri Cəmiyyətinin Baş katibi İsmət Əbdül Məcid, Tacikistan Prezidenti İmaməli Rəhmanov, Livan Prezidenti İlyas əl-Həraví, Livanın Baş Naziri Rafiq əl-Həriri, Səudiyyə Ərəbistanının şahzadəsi Abdullah ibn Əbdül Əziz əl Səud, BMT-nin Baş katibi Kofi Annan, Misir Ərəb Respublikasının Xarici İşlər Naziri Əmir Musa, İndoneziyanın Xarici İşlər Naziri Əli Alatas, Beynəlxalq Ərzaq Təşkilatının (FAO) Prezidenti Cak Düfu, Türkmənistanın Prezidenti Saparmurad Niyazov, Qazaxıstan Respublikasının İrandakı və Səudiyyə Ərəbistanındakı səfirləri Vyaçeslav İzzətov və Baqdat Amreyev, Təbriz şəhərinin valisi Yəhya Məhəmmədzadə və başqaları ilə görüşlər keçirmişdir. Söhbətlər zamanı tərəflər qarşılıqlı əməkdaşlığın genişləndirilməsi ilə bağlı bir çox məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Azərbaycan Prezidenti Heydər Əliyev həmişə olduğu kimi Zirvə toplantısında iştirak edən dövlət və hökumət başçıları ilə keçirdiyi bu silsilə görüşlərdə, Ermənistanın Azərbaycana etdiyi təcavüzün nəticələrini onların diqqətinə çatdırmış, ölkəmizdə gedən proseslər haqqında məlumat vermiş, əməkdaşlıq yollarını araşdırmışdır.

Dövlətimizin başçısı Heydər Əliyev hava limanının fəxri qonaqlar kitabına öz ürək sözlərini yazmışdır:

"İslam Konfransı Təşkilatının Zirvə görüşü İran İslam Cümhuriyyətində gözəl keçirildi və tarixi əhəmiyyəti olan qərarlar qəbul edildi. Mən Tehran Zirvə görüşünü yüksək qiymətləndirirəm. İnanıram ki, Zirvə görüşü islam ölkələrinin birliyinə, həmrəyliyinə kömək edəcəkdir.

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti
11 dekabr 1997-ci il".

Sonra dövlətimizin başçısı Heydər Əliyev hava limanında Tehrana

səfərinin yekunu ilə əlaqədar qısa bəyanat vermişdir. Bəyanatda deyilir:

"Mən İslam Konfransı Təşkilatının VIII Zirvə görüşünün nəticələrini çox yüksək qiymətləndirirəm. Birincisi, bu Zirvə görüşü çox gözəl təşkil olunmuşdur. İkincisi, Zirvə görüşünün iştirakçılarının əksəriyyəti öz ölkələrinin ən yüksək vəzifəli şəxsləri tərəfindən təmsil edilmişdir. Bu Zirvə görüşü üç gün müddətində çox işgüzar şəraitdə keçmişdir və çox dəyərli qərarlar, qətnamələr qəbul etmişdir. Mən xüsusən son qərarları yüksək qiymətləndirirəm. Hesab edirəm ki, Tehran bəyannaməsi, Zirvə görüşünün yekun sənədi, islam aləminə aid Tehrandakı görüşlər haqqında sənəd və şübhəsiz ki, qəbul olunmuş bütün başqa sənədlər də böyük əhəmiyyət kəsb edir.

Mən Azərbaycanın dostu və yaxın qonşusu, qardaşı olan İran İslam Cümhuriyyətində belə bir Zirvə görüşünün keçirilməsini İran İslam Cümhuriyyəti üçün böyük bir tarixi hadisə hesab edirəm. Bu Zirvə görüşü müvəffəqiyyətlə başa çatdığına görə mən İran İslam Cümhuriyyətini və onun bütün rəhbərlərini ürəkdən təbrik edirəm. Mən İslam Konfransı Təşkilatının üç il ərzində sədri olacağı münasibətilə də İran İslam Cümhuriyyətini təbrik edirəm.

Mən İranın Ali Dini Rəhbəri həzrəti Ayatulla Xamneyinin Zirvə görüşündəki nitqini çox yüksək qiymətləndirirəm. İran İslam Cümhuriyyətinin Prezidenti cənab Məhəmməd Xatəminin İslam Konfransı Təşkilatının Zirvə görüşünün keçirilməsi üçün göstərdiyi səyləri və onun bu Zirvə görüşünə çox gözəl sədrlik etməsini də yüksək qiymətləndirirəm.

İslam ölkələrinə daha çox birlik, həmrəylik arzulayıram. Qardaş İran xalqına səadət, xoşbəxtlik və bütün işlərdə uğurlar arzulayıram. Təşəkkür edirəm."

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin Tehranda keçirilmiş Zirvə görüşündən vətənə qayıdarkən - dekabrın 11-də gecə, Binə hava limanında səfərin yekunları barədə jurnalistlərin suallarına cavab verərək bildirmişdir ki, Zirvə görüşü özlüyündə beynəlxalq həyatda mühüm hadisədir. Üç il bundan əvvəl Zirvə görüşü Mərakeşdə olmuşdu. Bu dəfəki Zirvə görüşündə 55 ölkə iştirak edirdi, əksəriyyəti ən yüksək səviyyədə təmsil olunmuşdu. Bir çox məsələlər müzakirə edildi. Hesab edirəm ki, Zirvə görüşü uğurla keçmiş və islam ölkələri arasında daha çox birlik yaradılmasına yönəldilən sənədlər qəbul olunmuşdur. Bir sıra digər mühüm sənədlər, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı, Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən və Ermənistan silahlı birləşmələrinin çıxarılmasını tələb edən, münaqişənin aradan qaldırılması sahəsində Minsk konfransının, Minsk qrupunun səylərini dəstəkləyən, bu münaqişənin həlli barədə Lissabon Zirvə görüşünün qərarını təsdiqləyən sənəd qəbul olunmuşdur. Bir sözlə, mən razıyam.

İran-Azərbaycan münasibətlərinə toxunan dövlət başçımız qeyd etmişdir ki, biz İran-Azərbaycan mü-

nasibətlərinə çox vaxt sərf etdik. Həm İranın Prezidenti Məhəmməd Xatəmi ilə çox əhəmiyyətli görüşüm oldu, həm də İranın Ali Dini Rəhbəri Ayətulla Xamneyi ilə görüşüm oldu. Hesab edirəm ki, biz ikitərəfli əlaqələrə aid məsələləri çox ətraflı müzakirə etdik.

Beləliklə, Azərbaycan diplomatiyası İslam Konfransı Təşkilatının Tehranda çağrılan Zirvə görüşündə yeni böyük uğur qazanmaqla yanaşı, İranla əlaqələrimizin möhkəmlənməsində də irəliyə doğru addımlar atmışdır.

İran İslam Respublikasının Azərbaycandakı səfirliyi İslam inqilabının 19-cu ildönümü münasibətilə 1998-ci ilin fevral ayının 11-də Bakının "Gülüstan" sarayında rəsmi qəbul təşkil etmiş, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbulda geniş nitq söyləyərək İran xalqını və rəhbərliyini bu münasibətlə təbrik etmişdir. O, bildirmişdir ki, keçən ilin dekabrında Tehranda İslam Konfransı Təşkilatının Zirvə görüşündə qəbul olunmuş qətnamələrdə, qərarlarda Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz pislənmiş və Azərbaycanın ərazi bütövlüyü dəstəklənmiş, müdafiə olunmuşdur. Bu qətnamələr, qərarlar bütün islam ölkələrinin və Zirvə görüşündə iştirak edən ölkə başçılarının, dövlət və hökumət başçılarının iradəsini əks etdirir. Eyni zamanda bu qərarların məhz İranda, Tehranda qəbul edilməsi İran hökumətinin bu məsələlərə nə qədər diqqətli olduğunu və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi sahəsində səylərini bir daha nümayiş etdirmişdir.

Ölkəmizin başçısı son prezident seçkilərinin İranın tarixində həqiqətən demokratiyanın, azadlığın parlaq nümayişi oduğunu, qonşu, dost ölkədə baş verən bu hadisəyə sevindiyini qeyd etmişdir.

Bundan sonra Azərbaycan Prezidenti Heydər Əliyev 1998-ci il martın 16-18-də İİR-in xarici işlər nazirinin Amerika və Avropa ölkələri üzrə müavini M.Sərmədini, avqustun 7-8-də Bakıda keçirilən "Tarixi İpək yolunun Bərpası" konfransında (TRASEKA) iştirak etmək məqsədilə ölkəmizə gələn İİR Dəmir Yol İdarəsinin icraçı direktoru, doktor Rəhman Dadmanın başçılıq etdiyi, Dəmir Yol İdarəsi Tədqiqat Mərkəzinin Baş direktoru Abbasəli Qurbanəlibəy və Xarici Sərmayə Qoyuluşları İdarəsinin Baş direktoru Məhəmməd İsmayıl Əlixanidən ibarət nümayəndə heyətini, avqustun 12-13-də İran İslam Respublikasının Xarici İşlər Naziri Kamal Xərrazinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşlər zamanı ikitərəfli münasibətlərin aktual məsələləri, o cümlədən Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi, neft marşrutlarının optimal variantları, iqtisadi-ticarət əlaqələrinin perspektivləri və digər məsələlər haqqında fikir mübadiləsi aparılmışdır. Müzakirələr zamanı Qarabağ böhranının tezliklə dinc yolla aradan qaldırılmasının zəruriliyi qeyd edilmiş, İran tərəfi Ermənistanın Azərbaycana hərbi təcavüzünü pislədiyini bildirmiş, Azərbaycanla Ermənistan arasında ikitərəfli danışıqlar aparılmasının faydalı

nəticələr verə biləcəyi qeyd edilmiş, böhranın aradan qaldırılması yolunda İranın hər cür səy göstərməyə hazır olduğu bəyan edilmişdir.

1998-ci il oktyabrın 9-12-də Əhəd Qəzayinin başçılıq etdiyi İran Parlamentinin dörd nəfərdən ibarət nümayəndə heyəti 1998-ci il oktyabrın 11-də keçirilmiş Prezident seçkilərində müşahidəçi kimi iştirak etmək üçün Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər zamanı nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Milli Məclisin sədri və bir sıra yuksək vəzifəli məsul şəxslərlə görüşlər keçirmiş, Bakının və o cümlədən Azərbaycanın bir sıra başqa bölgələrinin seçki məntəqələrində olmuşlar.

1998-ci il oktyabrın 19-da Prezident Heydər Əliyev Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində iştirak etmək üçün Bakıya gələn İİR-in kooperasiya naziri, İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Morteza Hacının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüş zamanı M.Haçı dövlət müstəqilliyi günü və Heydər Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə İran Prezidenti M.Xatəminin təbrik məktubunu Azərbaycanın dövlət başçısına təqdim etmişdir.

1998-ci il dekabrın 21-28-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərovun başçılıq etdiyi Azərbaycan Parlamentinin nümayəndə heyəti, İİR İslam Şurası Məclisinin sədri Natiq Nurinin dəvətilə İrana səfər etmişdir. Səfər zamanı Milli Məclisin sədri M.Ələsgərov İİR Prezidenti M.Xatəmi, İslam Şurası Məclisinin sədri N.Nuri, Məsləhət Şurasının sədri Haşimi Rəfsəncani, tikinti və şəhərsalma naziri Ə.Əbdüləlizadə, Xorasan valisi Mehrəlizadə, Şərqi Azərbaycan valisi Y.Məhəmmədzadə, Ali Dini Rəhbərin Şərqi Azərbaycanda nümayəndəsi, Təbriz Cümə məscidinin imamı Ayətulla Ə.Şəbüstəri ilə görüşmüşdür. Görüşlər zamanı ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni sahələrdəki əlaqələrin sürətlə inkişaf etdirilməsinin zəruriliyi qeyd olunmuş, tərəflər bölgədə və beynəlxalq aləmdə baş verən münaqişələrin sülh yolu ilə həll edilməsi və dövlətlərin ərazi bütövlüyünün qorunması prinsiplərinə tərəfdar olduqlarını bildirmişlər. Azərbaycanla İran arasında iqtisadi və mədəni əlaqələri genişləndirmək, əməkdaşlığı yüksək səviyyəyə qaldırmaq və parlamentlər arası əlaqələrin genişləndirilməsi haqqında fikir mübadiləsi aparmışdır.

1999-cu ilin fevral ayının 9-da İran İslam Respublikasının Bakıdakı səfirliyi "Gülüstan" sarayında ölkənin milli bayramı - İran İslam inqilabının 20-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil etmiş, qəbulda iştirak edən Azərbaycan Prezidenti nitqlə çıxış edərək İran xalqına təbriklərini bildirmişdir.

1999-cu il mart ayının 5-dən 8-dək Azərbaycan Respublikasının "Azəravtonəqliyyat" Dövlət Konserninin prezidentinin başçılıq etdiyi nümayəndə heyəti iranlı həmkarları ilə məsləhətləşmələr aparmaq məqsədilə

İİR-ə səfər etmişdir.

1999-cu il mart ayının 12-dən 15-dək Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin başçılıq etdiyi nümayəndə heyəti İİR-in Xarici İşlər Naziri K.Xərrazinin dəvəti ilə İrana rəsmi səfər etmişdir.

1999-cu il may ayının 10-14-də Azərbaycan Respublikası Prezident Aparatının siyasi-ictimai şöbəsinin müdiri Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti İİR-də keçirilən "Azərbaycan Respublikası və İran. Mövcud vəziyyət: perspektiv və imkanlar" adlı konfransda iştirak etmişdir.

Konfrans zamanı iki ölkə arasında mövcud olan bir sıra problemlərin həlli yolları araşdırılmış, həmin problemlərin ətrafında yaradıcı fikir mübadiləsi aparılmışdır.

Belə bir konfrans - dairəvi məsa ölkələrimiz arasında ilk dəfə idi ki, keçirilirdi və tərəflərin bir-biri ilə öz nöqteyi-nəzərlərini bölüşdürmələri üçün geniş imkanlar açırdı. Onu da xatırlatmalıyıq ki, belə görüşlər Rusiya və İran rəsmiləri arasında mütamadi olaraq keçirilir. İndiyə qədər bu iki ölkə arasında beş belə dairəvi məsa keçirilmişdir.

Konfrans zamanı hər bir tərəf onları maraqlandıran və iki ölkə arasında narahatlığa səbəb olan məsələlər üzrə öz mövqeyini açıqlamağa çalışdı ki, bu da nəhayət, bəzi məsələlərin aydınlaşmasına öz təsirini göstərməyə bilməzdi.

Görüş zamanı söhbət, əsasən, aşağıdakı məsələlər ətrafında cəmləşmişdi:

1. Regional və beynəlxalq məsələlər,

2. Tarix və mədəniyyət məsələləri,

3. İkitərəfli siyasi münasibətlər,

4. İkitərəfli iqtisadi əlaqələr.

Prezident Aparatının beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov görüşdə çıxış edərək göstərmişdir ki, Azərbaycan Respublikası həmişə İranı özünə dost ölkə hesab etmişdir. Biz İranla köhnə əlaqələri bərpa etmək və ən yaxın münasibətlər qurmaq istəyirik. Bu əlaqələr hər iki ölkənin rəhbərlərinin rəğbəti və səyləri nəticəsində qurulmuşdur. Bir çox Azərbaycan vətəndaşları İranda təhsil alırlar. Azərbaycanda İmam Hüseyn Universteti və bir neçə dini mədrəsə fəaliyyət göstərir. Bir neçə keçmiş mədrəsə isə yenidən öz fəaliyyətlərini bərpa etmişdir. Çıxışının sonunda Novruz Məmmədov bir daha bəyan etmişdir ki, Azərbaycan və İran arasında həll edilə bilməyəcək problemlər yoxdur.

Görüşdə çıxış edən Mübariz Qurbanlı göstərmişdir ki, iki ölkə arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir və İran 1997-ci ildə Azərbaycanın başqa ölkələrlə müqayisədə ticarətində birinci yeri tutmuşdur. İranın vasitəçilik etmək cəhdləri də xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Cənab Əli Həsənov isə öz çıxışında iki xalqın bir-birinə yaxınlaşmaq, qardaşlıq əlaqələri qurmaq istəyinin xalqlarımızın özlərindən gəldiyini, rəhbərləri tərəfindən isə dəstəkləndiyini xüsusi olaraq vurğulamışdır.

İrandakı səfirimiz Abbəsəli Həsənov isə, keçmişdə baş verənləri yaddan çıxarmağı, qardaşlığımıza xidmət edən yeni əlaqələr qurmağı hər iki ölkə üçün vacib saymışdır. 1998-ci ildə ölkələrimiz arasındakı mal mübadiləsinin 87 milyon dollara endiyini, lakin qarşıda bu rəqəmin bir milyard dollara çatdırmaq imkanlarının mövcud olduğunu bildirmişdir.

1999-cu ilin may ayının 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Antalyada onun üçün ayrılmış iqamətgahda İran İslam Respublikasının Türkiyədəki səfiri Məhəmməd Həsən Yəvasanini qəbul etmişdir.

1999-cu il iyunun 15-17-də Milli Məclisin sədri Murtuz Ələsgərov Tehranda keçirilən Müsəlman ölkələri Parlamentlərarası Assambleyasının təsis konfransında iştirak etmişdir.

1999-cu il iyunun 22-də Şərqi Azərbaycan valisi Yəhya Məhəmmədzadənin başçılıq etdiyi İİR-in nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər etmişdir.

1999-cu il iyulun 29-dan avqustun 2-nə qədər Şərqi Azərbaycan valisi Yəhya Məhəmmədzadənin başçılıq etdiyi İİR-in nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər zamanı vali respublika Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

1999-cu il avqustun 5-dən 9-na qədər İranın tikinti və şəhərsalma naziri Ə.Əbdüləlizadənin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur.

1999-cu il avqustun 15-dən 22-nə qədər Azərbaycan Respublikasının 29 jurnalisti İİR-in Şərqi Azərbaycan əyalətində səfərdə olmuşdur. Səfər zamanı jurnalistlər qonşu ölkədə onları maraqlandıran problemlərlə tanış olmuş və səfərin nəticəsi haqqında öz təəssüratlarını vətənə qayıtdıqdan sonra yerli mətbuatda dərc etmişlər.

1999-cu il sentyabrın 9-da Milli Məclisin sədr müavini Yaşar Əliyev Təbriz şəhərində "Zərrinerud çayından içməli su çəkilişi üzrə layihənin açılışı və istifadəyə verilməsi" münasibətilə keçirilən tədbirdə iştirak etmişdir.

1999-cu il sentyabrın 30-da Nyu-Yorkda BMT Baş Assambleyasının 54-cü sessiyası keçirilən zaman Azərbaycan Respublikası Xarici İşlər Naziri İİR Xarici İşlər Naziri Kamal Xərrazi ilə görüşmüşdür. Görüş zamanı ikitərəfli məsələlərə toxunulmuş və Xəzər dənizinin statusuna dair fikir mübadiləsi aparılmışdır.

1999-cu il sentyabrın 30-dan oktyabrın 7-dək Tehranda iqtisadi ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının 4-cü iclası keçirilmişdir. Müştərək Komissiya öz işlərini ticarət-iqtisadi, energetika, kənd təsərrüfatı məsələləri komitələri üzrə aparmışdır. Komitələrdə ikitərəfli hökumətlərarası sazişlərlə bağlı məsələlər, ticarət, sərhədyanı bazarlar, bank işi və sığorta, gömrük, dəmir yolu, hava və avtomobil daşımaları, ticarət gəmiçiliyi sahələrində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

1999-cu il oktyabrın 10-da Nax-

çıvan MR-in 75 illiyi münasibətilə təşkil olunmuş təntənəli tədbirlər zamanı, Prezident Heydər Əliyevin iştirakı ilə Naxçıvan şəhərində İran İslam Respublikasının inşa etdiyi dini kompleksin açılışı olmuşdur. Açılışda İİR tərəfindən Təbriz imam cüməsi Ayətulla Şəbüstəri, tikinti və şəhərsalma naziri Əbdüləlizadə, Şərqi Azərbaycan ostanının valisi Məhəmmədzadə, "Bonyad-e mostəzəfin və canbazan" Fondunun sədri Rəfiqdust iştirak etmişdir.

Həzrəti Zəhra məscidinin təntənəli açılışında Azərbaycan Prezidenti çıxış edərək göstərmişdir ki, bu məscid böyük məna daşıyır. O, İran-Azərbaycan dostluğunun, qardaşlığının gözəl bir nümunəsidir. Biz Azərbaycanda müstəqil bir dövlət kimi, qonşumuz, dostumuz, qardaşımız İran İslam Cümhuriyyəti ilə əlaqələrimizi daim inkişaf etdirmək, genişləndirmək istəyirik. Bunun üçün böyük imkanlar vardır və biz onlardan istifadə etməliyik. Hər halda, mən Naxçıvanda olarkən biz bu əməkdaşlıq sayəsində çox işlər görə bildik. Mən artıq söylədim ki, İrandan elektrik enerjisi gəldi. İrandan 40 meqovat elektrik enerjisi gəlir, buna görə çox sağ olun. Doğrudur, biz onun pulunu veririk, bu enerji müftə gəlmir. Ancaq elə onun özü də böyük şeydir. Sevindirici haldır ki, İran ilə Naxçıvan arasında yollar çox sərbəstləşdirilibdir və insanlar 24 saat ərzində gedib-gələ bilirlər, adamlar sərbəst ticarət edirlər. Bu bizim arzumuz olubdur.

İranla əlaqələrimizə toxunan dövlət başçımız bildirmişdir ki, biz istəyirik ki, müstəqil Azərbaycandan hər bir ölkəyə - əlbəttə, dost ölkəyə - gediş-gəlişimiz çox olsun. İran burada xüsusi yer tutur.

Azərbaycan üçün başqa bir dövlət yoxdur ki, ölkəmizdə yaşayan azərbaycanlıların, müsəlmanların orada - İrandakı qədər qohumları olsun. Elə İranın özündə, xüsusən onun şimal hissəsində elə ailə tapmazsan ki, onun Azərbaycanda qohumu, qardaşı olmasın. Biz 70 ildə bundan məhrum idik. İnsanlar göstərməyi qorxurdular ki, bir yerdə bilsinlər ki, onun İranda qohumu var. Bu insanlara azadlıq verilməli idi. Bu azadlıq verilibdir. İndi Naxçıvan ilə İran arasında olan əlaqələr ən gözəl, nümunəvi əlaqələrdir. Arzumuz budur ki, bu əlaqələr bundan sonra daha da inkişaf etsin.

Bizim bugünkü günümüz İran-Azərbaycan dostluğunun bayramıdır, iftixarıdır.

Siyasi əlaqələrimizin əsas prinsiplərinə toxunan Prezidentimiz bildirmişdir: "İran - İslam Cümhuriyyətidir. Biz bunu bir dövlət, ölkə, qonşu, dost kimi, necə varsa, o cür qəbul edirik. Ümumiyyətlə, Azərbaycanın siyasəti ondan ibarətdir ki heç bir dövlət başqa bir dövlətin daxili işlərinə qarışmamalıdır. Hər bir müstəqil dövlət öz həyatını öz xalqının istədiyi kimi qurmalıdır, xaricdən müdaxilə olmamalıdır...

Hesab edirəm ki, hər bir ölkə başqa ölkənin dövlət quruluşuna, siyasətinə, daxili vəziyyətinə hörmətlə yanaşmalıdır. Biz İranın daxili quruluşuna və daxili siyasətinə böyük hörmətlə yanaşırıq. İran da Azərbaycanın daxili vəziyyətinə, dövlət quruluşu prosesinə, dünyəvi dövlət olmasına hörmətlə yanaşır. Bu bizim dostluğumuzun, qardaşlığımızın əsas prinsiplərindən biridir" *("Azərbaycan" qəzeti, N 234, 12 oktyabr 1999-cu il).*

1999-cu il oktyabrın 14-18-də İİR kənd təsərrüfatı naziri İsa Kəlantərinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul edilmişdir.

1999-cu il oktyabrın 25-28-də İran İslam Respublikasının iqtisadiyyat və maliyyə nazirinin müavini, Baş Kömrük İdarəsinin rəisi Mehdi Kərbasianın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir.

1999-cu il noyabrın 25-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilənin" və "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında təslimetmə haqqında müqavilə"nin ratifikasiya fərmanlarının mübadiləsi haqqında protokolun imzalanma mərasimi keçirilmişdir. Azərbaycan Respublikası tərəfindən protokolu Xarici İşlər Naziri Vilayət Quliyev, İran tərəfindən isə İran İslam Respublikasının Bakıdakı səfiri Əlirza Beqdeli imzalamışdır.

1999-cu il dekabrın 1-2-də Azərbaycan Respublikası mətbuat və informasiya naziri S.Təbrizli Tehranda İslam Ölkələri İnformasiya Nazirlərinin V toplantısında iştirak etmişdir.

2000-ci il yanvarın 19-da Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyev İİR Müdafiə Nazirliyinin hərbi attaşelər şöbəsinin müdiri, general-mayor Hüseyn Əlili, general-mayor Cəlal Mehriban Xoşgünü və İranın Bakıdakı hərbi attaşesi Musa Şəhabini qəbul etmişdir.

2000-ci il yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Davos Ümumdünya İqtisadi Forumunda iştirak etdiyi zaman İİR-in Xarici İşlər Naziri Kamal Xərrazini qəbul etmişdir. Görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər müzakirə olunmuşdur.

2000-ci il 11 fevralda İran İslam Respublikasının milli bayramı - İslam inqilabının 21-ci ildönümü münasibətilə İİR-in Azərbaycandakı səfirliyi "Gülüstan" sarayında rəsmi qəbul təşkil etmiş, qəbulda Azərbaycan Prezidenti iştirak və çıxış etmişdir. Dövlətimizin başçısı öz çıxışında qarşılıqlı əlaqələrimizin mövcud vəziyyətinə toxunaraq göstərmişdir: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra sərhədlər açılmış, insanlar bir-birinə qovuşmuşdur. Bu il ərzində bir milyon insan İrandan Azərbaycana, Azərbaycandan İrana gedib-gəlmişdir. Güman edirəm ki, Azərbaycanın başqa ölkələrlə bu qədər insani əlaqələri yoxdur. Bu təbiidir... Bizim iqtisadi əlaqələrimiz inkişaf edir. Ticarət əlaqələri yüksək səviyyədədir. Hesab edirəm ki, Azərbaycanla ticarət əlaqələrində İran in-

di birinci yerdədir... Ancaq bu iqtisadi əlaqələr bizi hələ təmin etmir. Bizim iqtisadi əlaqələrimizi inkişaf etdirmək üçün çox böyük imkanlarımız vardır. Həm İran tərəfindən, həm də Azərbaycan tərəfindən... Son zamanlar bizim ölkələrimiz arasında hökumət və dövlət səviyyəsində gediş-gəliş artıb. Ancaq bu, nə İran tərəfini, nə də Azərbaycan tərəfini qane edə bilməz. Biz bunları daha da yüksək səviyyəyə qaldırmalıyıq və qaldırmaq istəyirik.

İranda hamı bilməlidir ki, Azərbaycan həmişə İranın dostu olub, bu gün də dostudur, gələcəkdə də dostu olacaqdır. Bəzi qüvvələr İran-Azərbaycan əlaqələrini gərginləşdirmək, onlara ləkə vurmaq, yaxud hansısa problemlər yaratmaq istəyirlər. Belələri hər yerdə var - başqa ölkələrdə də var. Azərbaycanda da, İranda da var. Bunu həm İranda bilirlər, həm də Azərbaycanda biz bilirik. **Ancaq mən Azərbaycanın Prezidenti olaraq bildirmək istəyirəm ki, heç bir qüvvə İran-Azərbaycan, Azərbaycan-İran dostluq və qardaşlıq əlaqələrini poza bilməz.** Biz heç kəsin başqa ölkənin daxili işlərinə qarışmasına tərəfdar çıxmamışıq və çıxmayacağıq. Hər dövlət öz ölkəsinin siyasətini müstəqil olaraq aparır və müstəqil də aparmalıdır. Ölkələrin, dövlətlərin bir-birinin daxili işlərinə qarışmaması beynəlxalq hüquq normalarının əsas prinsiplərindən biridir. Buna görə də kimsə belə cəhdlər edirsə, onlar həm Azərbaycan üçün, həm də İran üçün zərərli olurlar. Biz bunları pisləyirik, belə halları heç vaxt dəstəkləməmişik"

("Respublika" qəzeti, 13 fevral 2000-ci il, № 034 (772)).

14-17 fevral 2000-ci ildə İranın yol və nəqliyyat nazirinin müavini Xansari Bakıya səfər etmiş və nəqliyyat sahəsində məsələlərlə bağlı müzakirələr aparmışdır. Səfər çərçivəsində ekspertlər səviyyəsində avtomobil daşımaları haqqında yeni saziş layihəsi razılaşdırılmışdır.

2000-ci il mart ayının 13-dən 16-dək Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin başçılıq etdiyi nümayəndə heyəti İİR Xarici İşlər Naziri K. Xərrazinin dəvəti ilə İrana rəsmi səfər etmişdir. Mart ayının 13-14-də Xarici İşlər Naziri V.Quliyev Tehranda İİR Prezidenti S.M. Xatəmi, İslam Şurası Məclisinin sədri Natiq Nuri və Xarici İşlər Naziri K. Xərraz, kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Komissiyanın həmsədri M.Hacı, sənaye naziri Q.Şafeyi, tikinti və şəhərsalma naziri Ə.Əbdüləlizadə, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Öndər Özər ilə danışıqlar aparmışdır. Martın 15-də Təbrizə gəlmiş Xarici İşlər Naziri Vilayət Quliyev Şərqi Azərbaycan valisi Y.Məhəmmədzadə ilə görüşmüşdür. Səfər zamanı bir sıra məsələlər, Xəzər dənizinin statusu məsələsi, Təbrizdə Azərbaycan Respublikasının Baş Konsulluğunun açılması və digər siyasi və iqtisadi məsələlər müzakirə olunmuş, ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi yolları araşdırılmışdır.

2000-ci il aprelin 25-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyev Nyu Yorkda "Nüvə silahlarının yayılmaması haqqında" müqaviləyə üzv ölkələrin konfransında iştirak etdiyi zaman İİR-in Xarici İşlər Naziri Kamal Xərrazi ilə görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər müzakirə olunmuşdur.

2000-ci il 27 aprel-1 may tarixlərində İran İslam Respublikasının sənaye naziri Qulamrza Şafeyinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

29 aprel 2000-ci ildə Bakıda İİR-in 8-ci sərgisi açılmışdır. Sərgini gəzən və açılışında çıxış edən Prezidentimiz İranla olan iqtisadi əlaqələrimiz barədə iştirakçılarla öz mülahizələrini bölüşdürmüşdür. O göstərmişdir ki, iqtisadi əlaqələrin genişləndirilməsi, inkişaf etdirilməsi bizim münasibətlərimizi həm İranın, həm də Azərbaycanın bütün başqa ölkələrlə əlaqələrindən daha da yüksək səviyyələrə qaldırır... Mən hesab edirəm ki, gərək Azərbaycanın ticarət əlaqələri birinci növbədə onun qonşu ölkələri ilə, o cümlədən xüsusən İranla aparılsın... oradan mal alıb gətirmək bizim üçün əlverişlidir. Azərbaycan mallarının İrana ixrac edilməsi də çox mühüm məsələdir.

İran Azərbaycana investisiyalar qoyur. Məsələn, mənim şəxsən cəlb etdiyim İranın OİEK şirkətinin Şahdəniz yatağında 10% payı vardır...

Dövlətimizin başçısı xüsusi olaraq vurğulamışdır ki, adətən belə sərgiləri açmaqda nazirlər, başqa dövlət məmurları gəlirlər. Ancaq İran-Azərbaycan iqtisadi əlaqələrinə xüsusi diqqət yetirərək, ona xüsusi əhəmiyyət verərək, mən buraya gəldim ki, sərginin açılışında iştirak edim... qonaqlarla görüşüm... bəzi fikirlərimi deyim.

Bu fikirlərdən biri də ondan ibarətdir ki, İran ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirərək, biz bütün sahələrdə əməkdaşlığımızı genişləndirməliyik. Azərbaycan bu mövqedə durubdur. Mən İKT-nin son dəfə Tehranda keçirilən Zirvə toplantısında Prezident cənab Xatəmi ilə görüşərkən biz bu barədə ətraflı danışdıq. Mən bundan sonra Azərbaycana gəlmiş İran nümayəndələrinə də öz fikrimi demişəm və bu gün də deyirəm ki, gərək biz bütün sahələrdə əlaqələri, əməkdaşlığımızı genişləndirək. Çünki İran Azərbaycan üçün, birincisi yaxın qonşudur, ikincisi də dost, qardaş ölkədir. **Bizim xalqlarımızı birləşdirən, doğma edən böyük tariximiz vardır. Bunları heç vaxt unutmaq lazım deyildir.**

Dövlətimizin başçısı göstərmişdir ki, Azərbaycan 70 il məcburən Sovet sistemi şəraitində yaşamasına baxmayaraq, öz milli ənənələrini qoruyub saxlaya bilmişdir... Dost və qardaş ölkə olan İrandan 70 il ayrı düşməyimizə baxmayaraq, xırda bir imkan yaranan kimi, sərhədlər açılan kimi insanlar bir-birinə qovuşdu. Arazın o tayından, bu tayından insanlar bir-birini görmək üçün özlərini qışın soyuğunda belə suya atdılar... Biz indi müstəqil dövlətik.

Müstəqil xalqıq, sərbəstik, lakin çətinliklərimiz də çoxdur... Görülən tədbirlər nəticəsində bu çətinliklərin çoxu artıq arxada qalmışdır...

Nitqinin sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, Azərbaycan bu ağır dövrü yaşayır və bu ağır dövrü uğurla keçəcəkdir. Bunu etmək üçün **biz gərək bütün ölkələrlə iqtisadi əlaqələrimizi inkişaf etdirək və bu istiqamətdə birinci növbədə İran İslam Respublikası ilə iqtisadi əməkdaşlığımızı genişləndirək. Biz İranla iqtisadi əlaqələrimizi genişləndirməklə bərabər, mədəni, elmi, siyasi əlaqələrimizi və bütün əlaqələrimizi genişləndirməliyik.**

Mən hiss edirəm ki, İran hökumətinin mövqeyi də mənim bu mövqeyimlə üst-üstədüşür. Yenə də deyirəm, mən bunu hörmətli Prezident Xatəmi ilə Tehranda görüşüm zamanı onun sözlərindən bildim. Güman edirəm ki, bu yaxın vaxtlarda bizim görüşlərimiz də olacaqdır və bu məsələlərdə yeni uğurlar əldə etmək üçün müəyyən tədbirlər də görə biləcəyik. Beləliklə də, bizim ölkələrimiz arasındakı dostluğu, əməkdaşlığı və qardaşlığı möhkəmləndirəcəyik.

Onu da qeyd etmək yerinə düşərdi ki, iqtisadi əlaqələrimizin gedişi və mövcud durum artıq hər iki tərəfi qane etməkdədir. Buna misal olaraq göstərmək olar ki, 2001-ci ilin iyun ayının 16-da Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini, Xəzər dənizinin statusu məsələsi üzrə İranın xüsusi nümayəndəsi Əli Əhanini qəbul edərkən o bu məsələyə toxunaraq demişdir: "Bu gün Azərbaycanda fəaliyyət göstərən İran Tacirlər Birliyi təşkilatının üzvləri ilə görüşüm oldu. Onlar razılıqlarını bildirdilər ki, Azərbaycan dövləti burada onların işlərinə kömək edir. Buradakı işlərindən və eyni zamanda onlar üçün yaradılmış şəraitdən razı qaldıqlarını söylədilər. Onlar burada işləməkdən məmnundurlar."

("Respublika" qəzeti. 17 iyun, 2001-ci il, N 135 (1172)).

2000-ci il mayın 15-18-də İran İslam Respublikasının xarici işlər nazirinin müavini Mortəza Sərmədinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

2000-ci il may ayının 15-22-də Azərbaycan Respublikasının müxtəlif qəzetlərini təmsil edən yeddi jurnalist İİR-in Bakıdakı səfirliyinin təşəbbüsü ilə İrana səfər etmişlər. Səfər zamanı onlar İranın müxtəlif təşkilat və qəzet nümayəndələri, eləcə də vəzifəli şəxslərlə görüşlər keçirmişlər.

2000-ci il iyun ayının 8-də İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının Tehranda keçirilən X iclasında iştirak edən Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyev iyunun 10-da İİR-in Xarici İşlər Naziri K.Xərrazi ilə görüşmüşdür.

2000-ci il iyun ayının 9-da İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) üzvü olan ölkələrin dövlət başçılarının VI Zirvə görüşündə iştirak etmək üçün Azərbaycan Prezidenti Heydər Əliyev İİR-də işgüzar səfərdə olmuşdur. Səfər zamanı Prezident Heydər Əliyev İİR-in Ali Dini Rəhbəri S.Ə.Xamneyi, Prezident S.M.Xatəmi, Dövlət Məsləhət Şurasının sədri Ə.H.Rəfsəncani, kooperasiya naziri M.Hacı, tikinti və şəhərsalma naziri Ə.Əbdüləlizadə, kənd təsərrüfatı naziri İ.Kəlantəri ilə görüşlər keçirmişdir.

Məlumdur ki, 1985-ci ildə Türkiyə, İran və Pakistan tərəfindən yaradılmış İƏT 1964-1979-cu illərdə fəaliyyət göstərmiş İnkişaf Üçün Regional Əməkdaşlıq Təşkilatının varisi sayılır. 1992-ci ilin noyabrında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Əfqanıstan, Özbəkistan, Tacikistan və Türkmənistan İƏT-ə qəbul edilmişlər. Elə buna görə də hər il noyabrın 28-i İƏT günü kimi qeyd olunur.

Hazırda 10 ölkəni birləşdirən İƏT-in başlıca məqsədləri üzv ölkələr arasında iqtisadi-ticarət və mədəni əlaqələrini inkişaf etdirmək, onların sənaye və kənd təsərrüfatı sahəsindəki mövcud potensialından isifadə etmək, dünya ticarətində İƏT-in iştirakını genişləndirmək, üzv ölkələrlə dünyanın digər dövlətləri arasında nəqliyyat şəbəkəsini inkişaf etdirmək, narkotiklərin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə sahəsində birgə fəaliyyət göstərmək və sair məsələlərdir.

İƏT-in nizamnaməsinə görə üzv dövlətlərdən hərəsi bir il müddətinə təşkilatın Daimi Nümayəndələr Şurasına sədrlik edir. 1999-cu ilin may ayından şuraya Azərbaycan sədrlik etmişdir.

Üzv ölkələrin dövlət və hökumət başçılarının iclası - Zirvə görüşü İƏT-in ən mötəbər toplantısıdır. İki ildə bir dəfədən gec olmayaraq keçirilən Zirvə görüşlərində İƏT-in proqram və layihələri, regional iqtisadi əməkdaşlıq sahəsində Nazirlər Şurasının fəaliyyətinin əsas istiqamətləri müzakirə olunur və strateji direktivlər hazırlanır, regional və qlobal problemlər barədə fikir mübadiləsi aparılır.

İndiyədək İƏT-in beş Zirvə görüşü və dövlət başçılarının bir fövqəladə iclası keçirilmişdir: Tehran (1992-ci il, fevral), İstanbul (1993-cü il, fevral), İslamabad (1995-ci il, mart), Aşqabad (1996-cı il, may), Aşqabad (1997-ci il, may, fövqəladə iclas), Almatı (1998-ci il, may).

Xarici İşlər Nazirlərinin daxil olduqları Nazirlər Şurası İƏT-in ali orqanıdır (Nazirlər Şurasının IX iclası 1999-cu ilin mayında Bakıda keçirilmişdir). İƏT-in katibliyi Tehranda yerləşir. Ona görə üzv ölkələrin İrandakı səfirlərindən ibarət Nümayəndələr Şurası da burada fəaliyyət göstərir.

İƏT İslam İnkişaf Bankı, BMT-nin İnkişaf Proqramı, BMT-nin Narkotik Maddələrə Nəzarət üzrə proqramı və s. qurumlarla əməkdaşlıq edir.

Dövlətimizin başçısı Heydər Əliyev İƏT-in sammitinə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab vermişdir.

Hava limanının şərəf salonunda Azərbaycan Prezidenti Heydər Əli-

yev ilə cənab Morteza Hacı arasında qısa görüş keçirilmişdir. Cənab Morteza Hacı dövlətimizin başçısının İrana səfərinin böyük əhəmiyyət daşıdığını bildirmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev hava limanında İran televiziyasına da qısa müsahibə vermişidir.

Dövlətimizin başçısı Heydər Əliyev həmin gün axşam İranın kooperasiya naziri, İqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Morteza Hacını, sonra isə kənd təsərrüfatı naziri İsa Kəlantərini və tikinti və şəhərsalma naziri Əli Əbdüləlizadəni qəbul etmişdir.

Səmimilik və dostluq şəraitində keçən qəbullarda ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, Dövlətlərarası Müştərək Komissiyanın fəaliyyətinin gücləndirilməsi və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Əfqanıstanın Prezidenti Bürhanəddin Rəbbani, Qazaxıstanın Baş naziri Qasımcomərd Tokayev, Qırğızıstan Prezidenti Əsgər Akayev, Pakistanın icra hakimiyyətinin başçısı Pərviz Müşərrəf, Tacikistan Prezidenti İmaməli Rəhmonov, Türkiyənin dövlət naziri Mehmet Keçəcilər, Türkmənistan Prezidenti Saparmurad Niyazov, Özbəkistan Prezidenti İslam Kərimov, BMT-nin nümayəndəsi Pino Arlaki Zirvə görüşündə çıxış etmişlər.

Sonra işini qapalı davam etdirən iclasda İƏT-in Nazirlər Şurasının və Baş katibinin hesabatları dinlənilmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev geniş söyləmişdir. Dövlətimizin başçısı nitqində Zirvə görüşünün bütün iştirakçılarını, eləcə də görüşdə iştirak edən bir sıra nüfuzlu təşkilatların nümayəndələrini salamlayaraq səmimi qəbula və qonaqpərvərliyə, sammitin işinin konstruktiv və səmərəli olması üçün yaradılmış şəraitə görə İran İslam Respublikasının Prezidenti, Zati-aliləri, cənab Seyid Məhəmməd Xatəmiyə və İran İslam Respublikasının hökumətinə təşəkkür etmişdir. Göstərmişdir ki, bu gün bütün fəaliyyət sahələrinə qloballaşma prosesinin müdaxilə etdiyi bir vaxtda ayrı-ayrı ölkələrin qarşılıqlı əlaqələr qurmadan inkişafını təsəvvür etmək çətindir. Ona görə də, qloballaşma və qarşılıqlı əlaqə şəraitində İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafında iki mühüm amil böyük əhəmiyyət kəsb edə bilər: birincisi, hər bir ölkənin inkişafı üçün İƏT-in rolunun gücləndirilməsi; ikincisi, İƏT ilə digər beynəlxalq və regional təşkilatlar arasında daha sıx və qarşılıqlı faydalı əlaqələrin qurulması.

Bunları nəzərə alaraq, ölkələrimiz həm İƏT çərçivəsində qurulan münasibətlərin səmərəliliyinin artırılmasına, həm də müxtəlif beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın dərinləşməsinə çalışmalıdırlar.

Prezidentimiz daha sonra göstərmişdir ki, İƏT-in bir sıra beynəlxalıq qurumlarla, o cümlədən maliyyə təşkilatları ilə getdikcə inkişaf edən əlaqələrini yalnız alqışlamaq

olar. Xüsusilə də onun Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyası, Ümumdünya Ticarət Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Narkotik Maddələrə nəzarət üzrə proqramı və s. bu kimi qurumlarla əməkdaşlığı bizim regionun iqtisadi və geosiyasi əhəmiyyətinin artmasını təsdiq edir. Bu həm də İƏT tərəfindən geniş miqyaslı işlərin həyata keçirildiyini göstərir.

Dövlət başçımız iştirakçıların nəzərinə çatdırmışdır ki, İƏT-in digər beynəlxalq təşkilatlarla əlaqələrinin inkişafı məsələsi ilə bağlı Azərbaycan öz töhfəsini verməyə hazırdır. Xüsusilə də üzv dövlət kimi İqtisadi Əməkdaşlıq Təşkilatı ilə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında qarşılıqlı əlaqələrin qurulması sahəsində öz köməyimizi göstərə bilərik. Bu məqsədlə hər iki təşkilatın Baş katiblərinin Bakıda görüşünün keçirilməsini təklif edirik. Belə bir görüş hər iki təşkilatın gələcək əməkdaşlığı üçün ilkin zəmin yarada bilər. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlər arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsində və bu təşkilat çərçivəsində həyata keçirilən mühüm iqtisadi layihələrdə, o cümlədən nəqliyyat, ticarət, energetika və telekommunikasiya sahələri üzrə layihələrdə iştirak etməyə hazırdır.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrlə ticarət və investisiya sahəsində sıx əməkdaşlıq edir. Belə ki, təşkilatın üzvləri olan İran və Türkiyə Azərbaycanın ticarət sahəsində əsas partnyorlarıdır. Bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsini nəzərə alaraq, biz İƏT-in üzvü olan ölkələr arasında ticarət maneələrinin tədricən aradan qaldırılmasını, iqtisadiyyatın daha geniş miqyasda liberallaşdırılmasını istəyirik. Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələr arasında qarşılıqlı investisiya qoyuluşlarının həvəsləndirilməsini zəruri hesab edirik. Azərbaycan Respublikası adından deyə bilərəm ki, ölkəmizdə xarici investorların fəaliyyəti üçün zəruri olan bütün addımlar atılıbdır. İqtisadi islahatların qanunvericilik bazasının formalaşdırılması, iqtisadiyyatın liberallaşdırılması və özəlləşdirmənin həyata keçirilməsi xarici kapitalın ölkəmizə cəlb edilməsi üçün əlverişli şərait yaradır. Biz İƏT regionundan olan bütün investorları Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə layihələrin maliyyələşdirilməsində fəal iştirak etməyə dəvət edirik. Eyni zamanda İƏT çərçivəsində dövlətlərarası regional iqtisadi proqramların işlənib hazırlanmasını məqsədəuyğun hesab edirik. Bu, regionda iqtisadi əlaqələri daha da genişləndirməyə və qarşılıqlı faydalı əməkdaşlığı möhkəmləndirməyə xidmət edə bilər.

Azərbaycan Prezidenti qeyd etmişdir ki, Azərbaycan üçün Xəzər dənizinin neft yataqlarının işlənilməsi böyük əhəmiyyət kəsb edir. Bu gün inamla söyləmək olar ki, regionda enerji ehtiyatlarının işlənilməsi

prosesi dönməz xarakter almışdır. Eyni zamanda, Azərbaycanın enerji sektorunun timsalında kapitalın və istehsalın beynəlmiləlləşməsi prosesi baş verir. Enerji ehtiyatlarının işlənilməsi və dünya bazarlarına nəql edilməsi üzrə geniş miqyaslı layihələrdə bir çox ölkələrin tanınmış şirkətlərinin iştirakı deyilənlərə əyani sübutdur. Bizim ölkəmiz və regionun bütün ölkələri üçün 1997-ci ildə şimal marşrutu üzrə Bakı-Novorossiysk və 1999-cu ildə qərb marşrutu üzrə Bakı-Supsa neft kəmərinin işə düşməsi mühüm əhəmiyyətə malikdir. Bakı-Ceyhan əsas ixrac neft kəməri layihəsinin tezliklə gerçəkləşməsi bizim ölkələrin iqtisadi inkişafında və onların dünya iqtisadi sisteminə inteqrasiyasında əvəzolunmaz rol oynayacaqdır. Eyni zamanda hesab edirəm ki, Xəzər dənizi regionundakı zəngin neft və qaz ehtiyatlarının işlənilməsi və bu məhsulların dünya bazarlarına çıxarılması üçün alternativ yolların yaradılmasına ehtiyac vardır. Bu gün Xəzər dənizi hövzəsində neft və qaz ehtiyatlarının işlənilməsi sahəsində Xəzəryanı dövlətlər (Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran) böyük işlər aparırlar. Lakin biz hesab edirik ki, bu regionun enerji ehtiyatlarından daha səmərəli istifadə etmək üçün Xəzəryanı dövlətlər Xəzər dənizinin hüquqi statusunu müəyyən etməlidirlər. Azərbaycan bunun üçün lazım olan müzakirələrin aparılmasına və nəhayət, bu məsələnin həlli üçün zəruri addımların atılmasına hazırdır. Bu, region ölkələri arasında iqtisadi inteqrasiyanı daha da gücləndirə bilər.

Real və potensial imkanları nəzərə alaraq, İƏT-in üzvü olan ölkələr bir tərəfdən öz məhsullarını ixrac etmək, digər tərəfdən isə tranzit ölkə rolunda çıxış etməklə regionda geniş nəqliyyat şəbəkələrinin inkişafına böyük diqqət yetirməlidirlər. Bu sahədə İƏT regionu üçün böyük "İpək yolu"nun bərpası və Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı tarixi əhəmiyyət kəsb edir.

Böyük "İpək yolu"nun bərpası üzrə 1998-ci ilin sentyabrında Bakıda 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə beynəlxalq konfrans keçirilmişdir. Bu konfransda 12 dövlət tərəfindən "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş" imzalanmışdır. O dövlətlərdən altısı iqtisadi əməkdaşlıq təşkilatının üzvüdür. Beynəlxalq konfransda qəbul edilmiş hüquqi sənədlər qüvvəyə minmiş, Bakıda TRASEKA layihəsi üzrə katiblik yaradılır və yaxın günlərdə fəaliyyətə başlayacaqdır.

Avropa ilə Asiyanı birləşdirən tarixi "İpək yolu"nun bərpası üzrə proqramda regionun iri dövlətlərindən biri olan İranın fəal iştirak etməsi çox vacibdir. Biz bu məsələdə qonşu dövlətə hər cür dəstək verməyə hazırıq.

Bu geniş miqyaslı layihənin həyata keçirilməsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzərində yerləşən ölkələrin təbii ehtiyatlarından və iqtisadi potensialından daha səmərəli istifadə olunması, ticarət və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün

zəruri baza yaradır, eyni zamanda həmin ölkələrin dünya təsərrüfat sisteminə inteqrasiya olunması prosesini gücləndirir.

Azərbaycan Prezidenti əlavə etmişdir ki, əsrlər boyu iqtisadiyyatın, mədəniyyətin, elmin və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə kömək etmiş böyük "İpək yolu" bu gün də onun üzərinə qoyulan ümidləri doğruldacaqdır. Bu layihənin gerçəkləşməsi ticarət-iqtisadi, mədəni əlaqələrin inkişafına səbəb olacaq və inteqrasiya proseslərində katalizator rolunu oynayacaqdır. Nəzərdə tutulan proqramın həyata keçirilməsində bütün maraqlı ölkələr fəal iştirak etməlidirlər. Belə ki, nəqliyyat sahəsinin ahəngdar işindən bizim ölkələrin sosial-iqtisadi inkişafı əhəmiyyətli dərəcədə asılıdır.

Yeni minilliyin başlanğıcında bəzi dövlətlər arasında münasibətlər və bir sıra dövlətlərdə daxili vəziyyət çox mürəkkəbdir. Bu yeni şəraitdə biz həm qlobal, həm də regional miqyasda sülhün, inamın, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə real addımlar atmalıyıq.

Bu baxımdan, Cənubi Qafqazda sülhün və əmin-amanlığın təmin edilməsi məqsədi ilə **xüsusi pakt** imzalanması təşəbbüsünü irəli sürmüşük. Belə bir paktın imzalanması regionda münaqişələrin həllinə, sülhün və sabitliyin möhkəmlənməsinə güclü təkan verə bilər. Bu məsələdə regionda mühüm rol oynayan İranın iştirakını zəruri hesab edirik. Azərbaycan üçün bu məsələ böyük əhəmiyyət kəsb edir. Sizə məlum olduğu kimi, öz müstəqilliyinin ilkin dövrlərində Azərbaycan ciddi siyasi və iqtisadi sarsıntılar keçirmişdir. Bu, hər şeydən əvvəl, qonşu Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı olmuşdur. Nəticədə, ölkə ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bir milyon azərbaycanlı doğma yaşayış yerlərindən zorla çıxarılmış və öz ölkəsində qaçqın vəziyyətinə düşmüşdür. Bütün bunlar ölkədə həyata keçirilən hüquqi, iqtisadi islahatların sürətinə mənfi təsir göstərmişdir.

Azərbaycan Ermənistanla sülhə nail olmaq və əməkdaşlıq etmək niyyətindədir. Lakin bu əməkdaşlıq Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən, qaçqınlar öz daimi yaşayış yerlərinə qayıtdıqdan sonra ola bilər. Azərbaycan Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində ən yüksək özünüidarəetmə statusu verməyə hazırdır. Bizim bu mövqeyimiz Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin başçılarının 1996-cı ildə Lissabonda keçirilmiş sammitində münaqişənin sülh yolu ilə həlli üçün əsas olan üç məlum prinsipdə öz əksini tapmışdır. Dünya ölkələrinin birgə səyləri Ermənistana sübut etməlidir ki, münaqişənin Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünü qarşılıqlı surətdə tanımaq əsasında sülh yolu ilə həll edilməsinə alternativ yoxdur. Onu da nəzərə almaq lazımdır ki, möhkəm sülh əldə edildikdən sonra geniş əməkdaşlıq üçün imkanlar yaranacaqdır. Bununla bağlı, İƏT-in üzvü olan dövlətlərin başçılarının köməyinə biz ümid bəsləyirik.

Son olaraq H.Əliyev qeyd etdi ki, bu görüş yaxın gələcəkdə regionun inkişafı üçün dəqiq hədəflər müəyyən edəcək və İƏT-in bütün istiqamətlər üzrə ardıcıl inkişafı üçün şərait yaradacaqdır.

Həmin gün Hafiziyyə kompleksində İƏT-in təsis etdiyi mükafatların təqdimetmə mərasimi olmuşdur. Azərbaycan Prezidenti Heydər Əliyev və digər iştirakçı ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri mərasimdə iştirak etmişlər.

Bu ali mükafatlara İƏT-in üzvü olan ölkələrdən Azərbaycanın, Pakistanın, Qazaxıstanın, Türkmənistanın, Qırğızıstanın və Tacikistanın görkəmli elm, təhsil və mədəniyyət xadimləri layiq görülmüşlər.

İran İslam Respublikasının Prezidenti Seyid Əli Xatəmi bu ilin fevral ayında keçirilmiş müsabiqənin qalibi, Bakı Dövlət Universitetinin rektoru, professor Abel Məhərrəmova elm, təhsil və mədəniyyət sahəsində səmərəli fəaliyyətinə görə İƏT-in fəxri diplomunu təqdim etmişdir.

Dövlət və hökumət başçıları mükafata layiq görülmüş şəxsləri təbrik etmiş, onlara yaradıcılıq uğurları arzulamışlar.

İran İslam Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 10-da İranın Ali Dini Rəhbəri Seyid Məhəmməd Xamneyi ilə görüşmüşdür.

Ali qonağı ehtiramla salamlayan Xamneyi ölkələrimizin və xalqlarımızın tarixən bir-biri ilə qırılmaz tellərlə bağlı olduğundan məmnunluqla söhbət açmışdır.

İranın Ali Dini Rəhbəri ilə əvvəlki görüşlərini razılıqla xatırlayan Prezident Heydər Əliyev, belə yüksək səviyyəli görüşlərin ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmləndirilməsində mühüm rol oynadığını nəzərə çatdırmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması sahəsində görülmüş işlərdən bəhs edən dövlətimizin başçısı Heydər Əliyev bu münaqişənin indiyə qədər aradan qaldırılmamasının bölgədəki digər ölkələr üçün də daim təhlükə mənbəyi olduğunu vurğulamışdır.

Ermənistanın haqsız ərazi iddiaları və təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini, bu torpaqlardan bir milyondan çox vətəndaşımızın öz doğma yerindən-yurdundan silah gücünə zorla çıxarıldığını və yeddi ildən bəri çadırlarda ağır vəziyyətdə yaşadığını nəzərə çarpdıran dövlətimizin başçısı, dünya ictimaiyyətinin gözü qarşısında baş verən bu haqsızlıqlara dost və qonşu İranın həssaslıqla yanaşmasının, regional təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməsinin vacib olduğunu bildirmişdir.

Azərbaycanın qarşılaşdığı problemlərin həllinə İranın bundan sonra da xüsusi diqqət yetirəcəyini söyləyən ölkənin Ali Dini Rəhbəri müstəqil Azərbaycan Respublikası ilə bütün sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin İİR üçün böyük əhəmiyyət daşıdığını vurğulamışdır. O, Xəzərin hüquqi statusunun Xəzəryanı dövlətlərin iştirakı ilə

tezliklə tənzimlənəcəyinə əmin olduğunu söyləmişdir.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə bir daha vurğulanmışdır ki, **Azərbaycan-İran münasibətlərində danışıqlar vasitəsilə həll edilməsi mümkün olmayan heç bir problem yoxdur.**

Tərəflər Azərbaycan Prezidenti Heydər Əliyevin İrana rəsmi səfəri zamanı bir sıra məsələlər haqqında müzakirələri davam etdirmək barədə razılığa gəlmişlər.

Azərbaycan Prezidenti Heydər Əliyev iyunun 10-da Tehranda, İran İslam Respublikası Prezidentinin sarayında dost ölkənin dövlət başçısı Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

Prezident Xatəmi respublikamızın rəhbərini sarayın qarşısında dostcasına, səmimiyyətlə qarşılamışdır.

Səmimi qəbula və ona göstərilən qonaqpərvərliyə görə İranın dövlət başçısına dərin minnətdarlığını bildirən Azərbaycan Prezidenti Heydər Əliyev bildirmişdir ki, indi İƏT təşkilatının toplantısına gəlmək, İranı görmək, bu təşkilatın Zirvə toplantısında iştirak etmək və sizinlə görüşmək mənim üçün çox əhəmiyyətlidir.

Mən istəyirəm, İƏT təşkilatının Zirvə görüşünün çox müvəffəqiyyətlə, uğurla, yüksək səviyyədə keçməsinə görə sizi bir daha təbrik edim. Mən bu görüşü indiyə qədər olan sammitlərlə müqayisə etmək istəmirəm. Ancaq bu görüş, bu sammit çox gözəl keçdi. Sizin rəhbərliyiniz, liderliyiniz və sizin ətrafınızda olan dövlət adamlarının çalışması bu sammitin uğurla keçməsini təmin edibdir.

Görüşdə ölkələrimiz arasındakı tarixi qonşuluq münasibətləri yüksək qiymətləndirilmiş, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının işinin daha da canlandırılması məsələləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan, bir milyondan çox azərbaycanlı qaçqının və məcburi köçkünün yeddi ildən bəri çadırlarda ağır vəziyyətdə yaşamasından söhbət açdı.

Prezident Xatəmi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllinə İranın da tərəfdar olduğunu, Azərbaycanın ərazi bütövlüyünü və haqq işini dəstəklədiyini vurğulamışdır, Qafqazda sülhün və əmin-amanlığın bərqərar olmasının mühüm əhəmiyyət daşıdığını bildirmişdir. **O, Xəzər dənizinin statusu barədə öz ölkəsinin mövqeyini açıqlayaraq demişdir ki, bu status, tarixi keçmiş nəzərə alınmaqla, mehriban qonşuluq prinsipləri əsasında, sahilyanı dövlətlərin iqtisadi mənafeləri və təhlükəsizliyi gözlənilməklə müəyyənləşdirilməlidir.**

Cənab Xatəmi Prezident Heydər Əliyevin İrana qarşıdakı rəsmi səfərinin ölkələrimiz arasındakı münasibətlərin inkişafında xüsusi rol oyna-

yacağını vurğulamışdır.

Görüşdə Azərbaycan-İran əlaqələrinin perspektivləri, regional əməkdaşlıq, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasında işgüzar səfərdə olarkən, iyunun 10-da İran Məsləhət Şurasının sədri Haşimi Rəfsəncani ilə görüşmüşdür. Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamlayan Rəfsəncani Prezident Heydər Əliyevin İrana gəlişindən son dərəcə məmnun qaldığını bildirmişdir. İƏT-in VIII Zirvə görüşündə respublikamızın rəhbərinin nitqini böyük diqqətlə dinlədiyini vurğulayan İran Məsləhət Şurasının sədri əmin olduğunu bildirmişdir ki, VIII Zirvə görüşü iştirakçı ölkələr arasında bütün sahələrdə əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynayacaqdır.

Azərbaycan-İran əməkdaşlığının inkişaf etdirilməsində dövlətimizin başçısının göstərdiyi səylərdən məmnunluqla danışan Rəfsəncani, Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu sahəsində görülən işləri İƏT-də böyük maraqla izlədiklərini vurğulamışdır. Göstərilən qonaqpərvərlikdən və İƏT-in VIII Zirvə görüşünün təşkilindən razılıqla söhbət açan respublikamızın Prezidenti İƏT-in fəaliyyətini və onun beynəlxalq təşkilatlarla, maliyyə qurumları ilə yaratdığı əlaqələri yüksək dəyərləndirmişdir. Müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasında islahatların uğurla həyata keçirilməsindən, hüquqi dövlət quruculuğu, cəmiyyətin demokratikləşdirilməsi sahəsində görülən işlərdən bəhs edən Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsindən də ətraflı söhbət açmışdır. Bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasında ATƏT-in səylərinə Azərbaycanın böyük ümidlər bəslədiyini nəzərə çarpdıran dövlətimizin başçısı əmin olduğunu bildirmişdir ki, dost və qonşu İran bölgədə təhlükəsizliyin təmin edilməsinə daha da həssaslıqla yanaşacaqdır.

Yeddi ildən bəri çadırlarda ağır şəraitdə yaşayan qaçqınlara İranın bundan sonra da kömək göstərəcəyini söyləyən cənab Rəfsəncani, Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həll ediləcəyinə əmin olduğunu bildirmişdir.

Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin daha da genişləndirilməsi, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasında işgüzar səfərdə olarkən Türkmənistan Prezidenti Saparmurad Niyazovla, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov, Pakistan İslam Respublikası İcra hakimiyyətinin başçısı Pərviz Müşərrəf, BMT Baş katibinin müavini, bu təşkilatın Vyana şöbəsinin Baş

direktoru Pino Arlaki, İranın kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Morteza Hacı ilə görüşmüşdür.

Respublikamızın Prezidentini mehribanlıqla salamlayan, onunla hər bir görüşdən şərəf duyduğunu vurğulayan cənab Morteza Hacı, İƏT-in Zirvə görüşündə iştirak etmək üçün Tehrana gəldiyinə görə dövlətimizin başçısı Heydər Əliyevə minnətdarlığını bildirmişdir.

Azərbaycan-İran əlaqələrinin durmadan inkişaf etməsində və möhkəmlənməsində Prezident Heydor Əliyevin böyük xidmətləri olduğunu söyləyən nazir, Dövlətlərarası Müştərək Komissiyanın fəaliyyətinə və bu ilin aprelində Bakıda İran İslam Respublikasının VIII sənaye sərgisinin keçirilməsinə göstərdiyi qayğı və diqqətə görə ölkəmizin başçısına bir daha təşəkkür etmişdir.

İƏT çərçivəsində əlaqələrin daha da genişləndirilməsinə müstəqil Azərbaycan Respublikasının xüsusi əhəmiyyət verdiyini nəzərə çatdıran Prezident Heydər Əliyev, əmin olduğunu bildirmişdir ki, İƏT-in Zirvə görüşü bu təşkilatın yaxın gələcəkdə bütün istiqamətlər üzrə ardıcıl inkişafına lazımi şərait yaradacaqdır.

Ümumi mənəvi dəyərlərə, eyni dinə, müştərək tarixi keçmişə malik olan ölkələrimiz arasında bütün sahələrdə, xüsusən iqtisadiyyat, ticarət və mədəniyyət sahəsində əlaqələrin sıxlaşdırılmasının böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident Heydər Əliyev, Dövlətlərarası Müştərək Komissiyanın işinin daha da canlandırılmasına ehtiyac duyulduğunu bildirmiş, özəl sektorun, iş adamlarının bir-biri ilə daha sıx əlaqələr qurmasının hər iki tərəf üçün çox faydalı olduğunu xatırlatmışdır.

Söhbət zamanı hər iki ölkəni maraqlandıran bir sıra başqa məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

Qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasına işgüzar səfəri zamanı iyunun 9-da İranın kənd təsərrüfatı naziri İsa Kəlantəri və tikinti və şəhərsalma naziri Əli Əbdüləlizadə ilə də görüşmüşdür.

Prezident Heydər Əliyevi səmimiyyətlə, mehribanlıqla salamlayan, onunla görüşdən böyük şərəf duyduqlarını bildirən nazirlər İran Prezidenti Xatəminin dəvətini qəbul edərək İƏT-in Zirvə görüşündə iştirak etmək üçün Tehrana gəldiyinə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirmişlər.

Cənab Kəlantəri və cənab Əbdüləlizadə ötən il Bakıya səfərləri zamanı onlara göstərilən qonaqpərvərlikdən məmnunluqla söhbət açmış, görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu sahəsində görülən işləri heyranlıqla izlədiklərini söyləmişlər.

Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycanda torpaqların əsl sahiblərinə verildiyini, iqtisadi islahatların ardıcıl surətdə həyata keçirilməsində uğurlar qazanıldığını, Bakıda və res-

publikanın digər şəhərlərində tikinti və abadlıq işlərinin böyük vüsət aldığını vurğulayan nazirlər, son illər ölkəmizdə toplanmış təcrübəni öyrənməyə ehtiyac duyduqlarını bildirmişlər.

Dost və qonşu ölkələr olan Azərbaycan ilə İran arasında əlaqələrin daim inkişaf etdirilməsinə həmişə xüsusi əhəmiyyət verdiyini nəzərə çatdıran dövlətimizin başçısı Heydər Əliyev sənaye, kənd təsərrüfatı, ticarət, mədəniyyət və digər sahələrdə əməkdaşlığın daha da inkişafının vacibliyindən ətraflı söhbət açmışdır.

Həm kənd təsərrüfatı, həm də tikinti, şəhərsalma sahələrində qarşılıqlı surətdə faydalı əməkdaşlıq qurmağa böyük imkanlar olduğunu vurğulayan Prezident Heydər Əliyev iqtisadi, ticarət və mədəni əlaqələr üzrə Dövlətlərarası Müştərək Komissiyanın bu sahədə öz fəaliyyətini durmadan genişləndirməsinə ehtiyac duyulduğunu bildirmişdir. Görüşdə bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

Beləliklə də, Azərbaycan Prezidentinin İrana daha bir işgüzar səfəri uğurla başa çatmış və əlaqələrimizin gələcək inkişafına təkan vermişdir.

2000-ci il iyulun 31-də İİR və Azərbaycan Respublikası arasında geologiya-mədən sahəsində əməkdaşlığı genişləndirmək məqsədilə Tehranda əməkdaşlıq memorandumu imzalanmışdır.

Keçirilən görüşlər zamanı ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi yolları araşdırılmışdır.

2000-ci il avqustun 31-dən sentyabrın 6-na kimi İİR-in iş adamlarından ibarət nümayəndə heyəti Bakı, Gəncə, Mingəçevir və Əli-Bayramlı şəhərlərində sənaye müəssisələri və təşkilatları ilə yaxından tanış olmuşlar. Bakıda olarkən nümayəndə heyəti Milli Məclisin sədr müavini, iqtisadi-ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının həmsədri, Ticarət-Sənaye Palatasının sədri və dövlət əmlak naziri ilə görüş keçirmişlər.

2000-ci il sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin milenium Zirvə toplantısında iştirak etdiyi zaman İran İslam Respublikasının Prezidenti S.M.Xatəmi ilə görüş keçirmişdir. Azərbaycan rəhbərinin İrana səfərini səbirsizliklə gözlədiklərini vurğulayan S.M.Xatəmiyə səmimi sözlərə görə təşəkkürünü bildirən Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, qarşıdakı səfər qonşu və dost ölkələrimizin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrinin sıxlaşdırılmasına yeni təkan verəcəkdir.

Səmimilik şəraitində keçən görüşdə Azərbaycan-İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra məsələlər haqqında fikir mübadiləsi aparılmışdır.

2000-ci il oktyabrın 30-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında hüquqi yardım haqqında müqavilə"nin ratifikasiya fərmanlarının mübadiləsi haqqında protokolun imzalanma mərasimi keçirilmişdir. Azərbaycan Respublikası tərəfindən protokolu Xarici İşlər Naziri Vilayət Quliyev, İran tərəfindən isə İran İslam Respublikasının Bakıdakı səfiri Əlirza Beqdeli imzalamışdır.

2000-ci il oktyabrın 30-da İran İslam Respublikasının Bakıdakı səfiri Əlirza Beqdeli ezamiyyət müddətinin bitməsi ilə əlaqədar Tehrana qayıtmış, elə həmin gün İİR-in Bakıdakı yeni səfiri Əhəd Qəzayi Bakıya gəlmişdir.

2000-ci il oktyabrın 31-də İran İslam Respublikasının Bakıdakı səfiri Əhəd Qəzayi etimadnaməsinin surətini Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevə təqdim etmişdir.

2000-ci il noyabrın 12-13-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyev Qatarın paytaxtı Dohada keçirilən İKT-nin IX Zirvə görüşündə iştirakı zamanı noyabrın 12-də İranın Xarici İşlər Naziri K. Xərrazi ilə görüş keçirmişdir. Görüş zamanı ikitərəfli və regional problemlər müzakirə edilmişdir.

2000-ci il noyabrın 14-19-da İİR-in Qərbi Azərbaycan vilayətinin istehsalat-ticarət şirkətinin nümayəndələrindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasında iqtisadi vəziyyət və fəaliyyət sahələri ilə tanış olmaq məqsədilə Bakıda olmuşdur.

2000-ci il noyabr ayının 21-23-də İran İslam Respublikasının xarici işlər nazirinin müavini Əli Əhaninin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında rəsmi səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul olunmuşdur.

2000-ci il dekabrın 6-da İran İslam Respublikasının Bakıdakı səfiri Əhəd Qəzayi etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti H.Əliyevə təqdim etmişdir.

2001-ci il yanvar ayının 15-18-də Azərbaycan Respublikası Dövlət Kömrük Komitəsinin sədri İİR-ə rəsmi səfər etmişdir. Səfər zamanı nümayəndə heyəti İsfahan vilayətinə getmiş, İİR Baş Kömrük İdarəsinin rəisi M.Kərbasian, kooperasiya naziri M.Hacı, İİR iqtisadiyyat və maliyyə naziri H.Nəmazi və digər yüksək vəzifəli şəxslər ilə görüşlər keçirmişdir. Səfərin zamanı iki ölkə arasında kömrük sahəsində əməkdaşlıq haqqında qarşılıqlı anlaşma memorandumu imzalanmışdır.

2001-ci il yanvar ayında Beynəlxalq "Əhli-Beyt" cəmiyyətinin dəvətilə Tehrana gəlmiş Qafqaz Müsəlmanları Ali Ruhani İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə İİR-in Ali Dini Rəhbəri S.Ə.Xamneyi ilə görüşmüşdür. Görüşdə Azərbaycan-İran münasibətlərinin və iki ölkənin müsəlman xalqları arasında əlaqələrin daha da inkişaf etdirilməsi haqqında fikir mübadiləsi aparılmışdır.

2001-ci il fevral ayının 5-8-də Azərbaycan Respublikası xarici işlər nazirinin müavini X.Xələfovun başçılıq etdiyi nümayəndə heyəti İİR-də rəsmi səfərdə olmuşdur.

2001-ci il fevralın 7-dən 10-a kimi İranın Ərdəbil əyalətinin valisi

Seyid Həmid Təhayinın başçılıq etdiyi 40 nəfər iş adamından ibarət nümayəndə heyəti Azərbycan Respublikasında səfərdə olmuşdur.

9 fevral 2001-ci il tarixdə İran İslam Respublikasının Bakıdakı səfirliyinin İslam inqilabının 22-ci ildönümü münasibətilə təşkil etdiyi qəbulda çıxış edən Prezidentimiz ölkələrimiz arasındakı münasibətlərin hansı əsaslar üzərində qurulmasının vacibliyindən söz açaraq qeyd etmişdir ki, bu yaxınlarda Azərbaycan üçün tarixi hadisə baş veribdir. Azərbaycan Avropa Şurasına daxil olubdur. Bu, Azərbaycanda demokratiyanın, insan haqlarının qorunmasına, Azərbaycanda siyasi, hüquqi, iqtisadi, sosial islahatların uğurla keçirilməsinə verilən böyük qiymətdir.

Hər dövlətin öz hüququ vardır. Azərbaycan bu yolla gedir və gedəcəkdir. Ancaq biz heç vaxt hesab etmirik ki, kimsə hansısa başqa dövlətə yol göstərməlidir. Yaxud da onun hansı yolla getməsinə öz məsləhətlərini verməlidir. Xalqın azadlığının və müstəqilliyinin ən əsas amillərindən biri odur ki, xalq və xalqın tərəfindən seçilmiş dövlət başçısı hansı yolla getməyi, hansı dövləti qurmağı özü müəyyən edir. Nəhayət, biz çox onilliklərdən, əsrlərdən sonra buna nail olmuşuq və öz yolumuzla da gedirik.

Biz eyni zamanda sülh tərəfdarıyıq. Bütün qonşu ölkələrlə xoş münasibət, mehribanlıq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında əlaqələr saxlayırıq və bundan sonra da saxlayacağıq. Biz heç bir dövlətin daxili işinə qarışmırıq və ümumiyyətlə, hansısa bir dövlətin digər dövlətin daxili işinə qarışmasını yolverilməz hesab edirik. Çünki, dediyim kimi, hər bir xalq, hər bir ölkə, hər bir millət öz aqibətini, gələcəyini, dövlət quruluşu formasını özü müəyyən edir. Ancaq eyni zamanda biz hər bir xalqın, hər bir millətin tutduğu yola və müəyyən etdiyi dövlət quruculuğu formasına böyük ehtiramla yanaşırıq. Bü, bizim daxili, həm də xarici siyasətimizdə əsas yer tutur.

Əlbəttə, bu siyasətdə rəsmi səfərlərin mühüm və xüsusi yeri var. Bu səfərlər həmişə əlaqələrimizə bir canlanma gətirir. Azərbaycan Prezidenti mart ayında "SNN Türk"ə verdiyi müsahibədə gözlənilən səfərinə toxunaraq belə demişdir: "Mənim İrana rəsmi səfərimə gəldikdə, İranın yeni Prezidenti cənab Xatəmi hələ dörd il bundan öncə məni İrana dəvət etmişdi. Mən də onu dəvət etmişdim. Çünki İran qonşu ölkədir. Bizim quruda 750 kilometr ortaq sərhədimiz vardır. Təkcə bu deyil. İranda çoxlu azərbaycanlı yaşayır. Keçmişdə bizim müştərək dəyərlərimiz olubdur. Ona görə də İran bizim üçün yaxın ölkədir.

Mən keçmişdə orada olmuşam. İranın keçmiş Cümhurbaşqanı da burada olmuşdur. Ancaq yeni Cümhurbaşqanı seçilməmişdən əvvəl mən o dəvəti almışdım, ancaq müəyyən səbəblərə görə həyata keçirə bilməmişdim. O da mənə söz verdi ki, öncə sən gəl, sonra da mən gəlim...

Mənim bu səfərim geniş xarakter daşıyacaqdır. Çünki biz orada bir neçə anlaşma imzalayacağıq. Bizim

İran-Azərbaycan Müştərək İqtisadi Komissiyamız vardır. Neçə ki, Türkiyə ilə var, İran ilə də var. Onlar daim işləyirlər. Biz onları dinləyəcəyik ki, nə iş görüblər, bundan sonra nə iş görə biləcəklər. Bir sözlə, məqsəd İran ilə Azərbaycan arasında olan əlaqələri həm iqtisadi sahədə, həm də digər sahələrdə daha da inkişaf etdirməkdən ibarətdir."

Bu müsahibədə Prezident Azərbaycan və İran arasında bəzi gərginliklər və anlaşılmazlıqlar yaradan Xəzərin hüquqi statusu məsələsinə də toxunaraq demişdir: "O ki qaldı həmin hadisəyə, bu, gözlənilməz bir hadisədir. Çünki biz 1994-cü ildə ilk müqaviləni imzalayanda hələ heç bir Xəzəryanı ölkə Xəzərdə nə var, nə yox - bilmirdi. Onda heç kəs demirdi ki, Xəzərin statusu lazımdır, ya lazım deyildir. Biz müqaviləni imzalayandan 6-7 ay sonra bu problem qalxdı ki, Xəzərin hüquqi statusu olmalıdır. Yəni Xəzərdə hansı ölkə nə iş görə bilər. Amma biz də nəyə əsaslanırıq? Sovetlər vaxtı Xəzər iki ölkəyə mənsub olubdur. Biri Sovet İttifaqı, biri də İran. Sovet İttifaqının İran ilə sərhədi çox cənubda, yəni güneydə olubdur. Çünki yuxarıda Rusiya, Qazaxıstan, o tərəfdə Türkmənistan, burada Azərbaycan var, İran isə aşağıdadır, yəni Xəzərin lap güney tərəfindədir. O sərhədi də Sovetlər vaxtı SSRİ ilə, yəni Sovet İttifaqı ilə İranın sərhədi kimi tanımışdılar və qoruyurdular. İndi Sovetlər İttifaqı yoxdur.

Amma Sovet hökuməti o vaxt, 1970-ci ildə Xəzərin neft-qaz ehtiyatlarının istifadə edilməsi üçün onu sektorlara bölmüşdür. Biz öz bölməmizdə çalışırıq, başqa yerə keçməmişik. Ancaq indi İran deyir ki, yox, belə olanda İrana az pay düşür. Xəzər beş ölkəyə bərabər bölünməli, hərəsinə 20 faiz düşməlidir. Amma bu coğrafi nöqteyi-nəzərdən mümkün deyildir. Çünki Xəzərin sahilində hansı ölkənin sərhədi varsa, oradan - bir də Xəzərin orta xətti var, orta xəttə qədər bu ölkənin olur. O birisi tərəfdən orta xəttə qədər o ölkənin olur. Rusiya, Qazaxıstan ilə belə anlaşmalarımız var. Amma İran deyir yox, gəlin toplaşaq, Xəzəri beş yerə, hər bir ölkə üçün 20 faiz bölək, ondan sonra çalışaq. Amma bunu necə etmək olar, onlar bunu deyə bilmirlər. Orada bizim üç neft yatağımız var. 1998-ci ildə BP şirkəti və bir çox şirkətlər ilə anlaşma imzalamışıq ki, orada işləsinlər. Onlar üç ildir orada çalışırlar. Yəni onlar hələ oranı öyrənirdilər, qeofiziki işlər aparırdılar. Amma İran hesab edir, bir halda ki, Xəzərin statusu hələ müəyyən olunmayıb, İran özünə 20 faiz götürür. O, 20 faiz götürəndə də, gəlib Türkmənistanın və Azərbaycanın payının üzərinə çıxır."

Sonda Azərbaycan Prezidenti məsələnin çözülmə yollarına toxunaraq bildirmişdir ki, uzlaşma formulu odur ki, gərək biz, beş ölkə Xəzərin bölünməsi problemini çözək. Bunu çözmədən heç kəs heç bir şey deyə bilməz. İndi kimsə burada güc işlədirsə, bu, beynəlxalq hüquq normalarından kənardır.

2001-ci il fevral ayının 19-dan 24-ə kimi İİR İmam Xomeyni adına İmdad Komitəsinin sədri Seyyid Rza

Nəyyirinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur.

2001-ci il fevral ayının 20-21-də Azərbaycan Respublikası xarici işlər nazirinin müavini X.Xələfovun başçılıq etdiyi nümayəndə heyəti Tehranda keçirilən "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın hazırlanması üzrə Xəzəryanı dövlətlərin xarici işlər nazir müavinləri səviyyəsində Xususi İşçi Qrupunun III iclasında iştirak etmişdir.

2001-ci il mart ayının 27-29-da İran İslam Respublikasının energetika naziri Həbibulla Bitərəfin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur.

2001-ci il aprel ayının 18-də Qafqaz Müsəlmanları Ali Ruhani İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyəti İİR-in Ali Dini Rəhbərinin Ərdəbil əyalətindəki nümayəndəsi Ayətulla Mürəvvecin dəfn mərasimində iştirak etmək üçün Ərdəbilə səfər etmişdir.

2001-ci il aprel ayının 24-25-də Tehranda İran İslam Şurası Məclisinin təşəbbüsü ilə Fələstin xalqının qiyamını dəstəkləyən Beynəlxalq Konfrans keçirilmişdir. 36 ölkədən 300 nümayəndənin təmsil olunduğu konfransda Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi Azərbaycan Respublikasının nümayəndə heyəti iştirak etmişdir.

2001-ci il iyulun 20-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında İran İslam Respublikası Ali Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasındakı əlaqələrin günü-gündən inkişaf etdiyi, təkcə Naxçıvandan hər gün gediş-gəliş edənlərin sayının 4 min nəfərə yaxın olduğu qeyd olunmuşdur. Dövlətimizin başçısı göstərmişdir ki, İran xalqı dünya mədəniyyətinə, dünya sivilizasiyasına böyük töhfələr vermişdir. **Bizim üçün, Azərbaycan üçün isə İran həm dostdur, həm qardaşdır, həm də qonşudur.** Bunun da böyük tarixi var. Cənubi Qafqaz ölkələrini - Gürcüstanı və Ermənistanı götürdükdə, İranın onlarla da əlaqələrinin tarixi olduğunu görsək də, bu tarix o tarixə bənzəmir. Bizim tariximizin, əlaqələrimizin xüsusiyyəti ondan ibarətdir ki, dostluğumuzun, qardaşlığımızın dərin kökləri vardır. **Bizi bir-birimizə bağlayan milli-mənəvi, dini ənənələrimiz vardır. Çoxəsrlik tariximizdə biz bu əsrlərin çox hissəsini bir yerdə olmuşuq. Biz bir dinə, eyni köklərə mənsubuq. Bizim adət-ənənələrimiz eynidir.** Burada oturanlar və ölkələrimizdəki insanlar hamısı bir-birinə bənzəyir. Məsələn, burada Sizə bənzəyən azərbaycanlılar nə qədərdir. Amma Sizə bənzəyən bir erməni, gürcü tapa bilməzsiniz. Eləcə də Sizin səfər yoldaşlarınızın hamısı haqqında bunu demək olar. Mən bunu ciddi deyirəm. Çünki bu, bizim bir kökdən olduğumuzu, genetik köklərimizin bir olduğunu göstərir. Ona görə Allah-təala bizə bu aqibəti veribdir. **Allah-təala bizi həmişə bir olmağa dəvət edibdir, biz də bir olmuşuq.** Müəyyən səbəblərdən, məsələn, XIX əsrin əvvəllərində biz İrandan ayrılmışıq. İran da Azərbaycandan ayrılıbdır. Bu ayrılıq dövründə də biz bir-birimizdən ayrılmamışıq, bir yerdə olmuşuq.

Siz dediniz ki, Azərbaycan müstəqilliyini əldə edəndə, sərhədlər açılanda insanlar bir-birinə qovuşanda nə qədər böyük ruh yüksəkliyi vardı və nə qədər böyük həsrətdən çıxdılar. O dövrü əks etdirən filmlər vardır. Filmdə göstərilir ki, sərhəddəki tikanlı məftillər götürülübdür. İran tərəfdə insanlar Arazın kənarında durublar, Azərbaycan tərəfdə isə Arazın kənarında duranlar ağlayırlar. İnsanlar özlərini suya atır, hətta qorxmurlar ki, boğulacaqlar. Buradan o tərəfə, oradan bu tərəfə keçirlər. Belə hisslər ancaq doğma adamlar arasında ola bilər.

Şimal-Cənub dəmir yolu xəttinə toxunan Azərbaycan Prezidenti onun çox böyük əhəmiyyət daşıdığını bildirərək ölkəmizin bu məsələni dəstəklədiyini söyləmişdir.

İranın Ermənistana təsir etmək imkanlarına toxunan dövlət başçımız göstərmişdir ki, bəlkə də, bütün başqa ölkələrdən fərqli olaraq, siz Ermənistana daha da çox təsir edə bilərsiniz. Ona görə mən xahiş edərdim ki, bu barədə düşünəsiniz. Sizinlə bu barədə əməkdaşlıq edə bilərik.

Cənubi Qafqaz ölkələri içərisində Azərbaycanın xüsusi yeri olduğunu, ərazisinə və əhalisinin sayına görə Ermənistandan iki, üç qat üstün, Gürcüstandan da üstün olduğunu, coğrafi-strateji vəziyyətinə görə Avropa ilə Asiya arasındakı dəhlizdə xüsusi yeri olduğunu göstərən ölkəmizin başçısı İranın Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığını gücləndirməsini və burada təhlükəsizliyin təmin edilməsini istədiyi halda, gərək Azərbaycan ilə əlaqələrini xüsusi səviyyəyə qalxmasına çalışmasının zəruri olduğunu vurğulamışdır.

Ölkəmizin başçısı Xəzər dənizinin statusuna gəlincə, bu məsələnin beş Xəzəryanı ölkə arasında müzakirə edilib həll olunmasının tərəfdarı olduğunu bildirmişdir. Elə bu günlərdə Ənzəliyə gedən bir gəminin xilas edilərək sahilə gətirilməsini və hazırda bizim zavod tərəfindən onun təmirinə başlanmasını Xəzərdə əməkdaşlığın gözəl bir nümunəsi hesab edən Prezidentimiz bəyan etmişdir ki, biz bu əməkdaşlığa hazırıq.

Bizim dövlətlərimizin münasibətlərində daha bir prinsipin - Azərbaycanın dünyəvi dövlət olması prinsipinin İran tərəfindən də sakitliklə qəbul edilməsinin vacibliyini vurğulayan dövlətimizin başçısı göstərmişdir ki, biz dünyəvi dövlətçilik yolu ilə gedirik və gedəcəyik. Biz bundan geriyə dönə bilmərik. Azərbaycan istiqlaliyyətini əldə edəndən sonra bizim Konstitusiyamızda yazılıbdır ki, Azərbaycanda vicdan azadlığı bütün insanlar üçündür. 70 ildir din qadağan edilmişdi. Azərbaycanda cəmi 16 məscid var idi. Amma indi 1236 məscid var. Yəni insanlar ibadət etmək istəyirlər, hər yerdə məscidlər var. Heç kəs heç bir şeyi qadağan etmir. Amma bizdə din dövlətdən ayrıdır. Biz bu yol ilə gedirik və gedəcəyik. Mən bunu sizə deyərək, istəyirəm ki, Azərbaycanın real vəziyyətini biləsiniz. Ermənistan müsəlman ölkəsi deyil ki, siz onlarla dostluq edirsiniz.

Biz müsəlmanıq, dinimizi də sevirik, ancaq biz dünyəvi yol ilə gedirik.

Dövlətlərimiz arasındakı münasibətlərdə daha bir prinsipə - Azərbaycanın ərazi bütövlüyünün tanınmasına və buna hörmət edilməsinə, onun vacibliyinə toxunan Prezidentimiz bildirmişdir ki, bu prinsip çox vacib prinsipdir. Biz də İranın ərazi bütövlüyünü tanıyırıq, vahid İranı tanıyırıq, istəyirik ki, İran vahid, qüdrətli dövlət kimi inkişaf etsin. İndi hər ölkənin içərisində proseslər var. Biz bu proseslərin əziyyətini çəkirik. Amma istəyirik ki, siz bu əziyyəti çəkməyəsiniz. İran daha da güclənsin, ərazisi bütöv olsun, xalqı bütöv olsun.

Beləliklə də, ölkəmizin xarici siyasətinin əsas prinsiplərinə toxunan Azərbaycan Prezidenti əlaqələrimizdə onların qorunmasının vacibliyini bir daha vurğulamışdır.

2001-ci ilin avqust ayının 28-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında İran İslam Respublikası xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini və İranın Xəzər dənizi məsələləri üzrə nümayəndəsi Əli Əhaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan Prezidentinin son dövrlərdə əlaqələrimizin qorunub saxlanmasında göstərdiyi uzaqgörənlik də ölkəmizin başçısının apardığı siyasətin səciyyəvi xüsusiyyətlərindən biridir. Bu, İranla Azərbaycan arasında uçurumun, əlaqələrdə fasilələrin yaranmasını istəyənlərə qarşı zərbədir. Belə ki, hər bir kiçik fakt və ya hadisədən istifadə edərək onların pisləşməsini, əlaqələrimizdə gərginlik yaranmasını arzulayanlar həmişə çox olmuşlar.

Prezidentimiz isə öz siyasəti ilə göstərmiş və sübut etmişdir ki, bu əlaqələr daimidir, heç bir xırda nyuans onu poza bilməz və biz ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi sahəsində yeni addımlar atmaq potensialına malikik.

Elə bu görüşdə də Prezidentimiz hər ölkənin müxtəlif problemləri olduğunu, ancaq İrana qonşularından, yəni, sərhədyanı qonşularından, tarixi nöqteyi-nəzərdən, dil, din, mənəvi dəyərlər nöqteyi-nəzərindən Azərbaycan kimi yaxın ölkə, Azərbaycan xalqı kimi yaxın xalq olmadığını, bunun müasir zamanda, indi dövlətlərarası əlaqələrimizin daim inkişaf etməsi üçün çox dəyərli əsas olduğunu vurğulayaraq arzu, istək və fikirlərin həyata keçirilməsi yollarının axtarılmasını, meydana çıxan problem və çətinliklərin isə həmişə qarşılıqlı anlaşma, danışıqlar yolu ilə həll olunmasını istədiyini açıqlamışdır.

İran-Azərbaycan Müştərək İqtisadi Əlaqələr Komissiyasının işinə toxunan Prezidentimiz göstərmişdir ki, artıq onun tərkibi və sədri dəyişdirilmişdir ki, bu da son struktur islahatları ilə əlaqədardır. Belə ki, bizdə yeni yaranmış İqtisadi İnkişaf Nazirliyi bir çox keçmiş nazirliklərin vəzifəsini yerinə yetirir. Ona görə də, bu işə belə bir nazirliyin, belə bir nazirin cəlb olunması və nazirin bu komissiyaya sədr qoyulması iqtisadi əlaqələri genişləndirmək üçün, yəni, bunu dərindən anlamaq üçün, təhlil

etmək üçün yaxşı imkanlar yaradır.

Xeyli vaxtdır ki, Biləsuvar bölgəsində, İran-Azərbaycan sərhədində müştərək sərhədyanı bazarın təşkil olunması üçün işlər görülübdür. Ayın 30-da onun rəsmi açılışı olacaqdır. Mən göstəriş vermişəm ki, oraya həm iqtisadi inkişaf naziri, həm Gömrük Komitəsinin sədri, həm də başqa yüksək vəzifəli şəxslər getsinlər, açılışda iştirak etsinlər. Beləliklə də, bu hadisəyə həm nəzər-diqqət cəlb olunsun, eyni zamanda, bu İran-Azərbaycan əlaqələrinin inkişafında bir addım kimi nümayiş etdirilsin.

Prezident bəyan etmişdir ki, biz Xəzər hövzəsində bütün Xəzəryanı ölkələrlə beynəlxalq hüquq normalarına istinad edərək həmişə sıx əməkdaşlıq etmək niyyətində olmuşuq, bu gün də bu niyyətdəyik. Biz həmişə Xəzərin hüquqi statusunun təyin olunmasının tərəfdarıyıq. Dövlətimizin başçısı göstərmişdir ki. bizim "Alov", "Şərq" və "Araz" yataqları ilə əlaqədar müqavilə bağlanıbdır. Orada kəşfiyyat işləri gedir. Siz orada bəzi hərəkətlər etdiniz - gəmi, təyyarə, filan. Ancaq biz o mövqedə durduq ki, danışıq olmalıdır. Xəzərin statusunun müəyyən olunması bir daha gündəliyə gəlməlidir.

Bu görüşdən sonra ölkəmizin milli təhlükəsizlik naziri İranda olmuş, Müştərək İqtisadi Əməkdaşlıq Komissiyasının yeni tərkibinin üzvüləri ilə görüşmüşdür.

Əvvəllər Gilanın ostandarı olan və Azərbaycan bölgəsi ilə yaxından tanış olan cənab Sufi birgə komissiyanın iranlı həmsədri təyin olunmuşdur.

Göstərdiyimiz kimi, İranla siyasi əlaqələrimizin təməli Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə başçılıq edərkən qoyulmuşdur. Heydər Əliyev dövlət rəhbərliyinə gəldikdən sonra isə bü əlaqələr daha da güclənmişdir.

23-yanvar 2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının daxili işlər naziri Əbdülvahid Musəvi Larini qəbul edərkən bildirmişdir ki, bu, İranın daxili işlər nazirinin Azərbaycana ilk səfəridir və bunun özü yaxşı işarədir. Bu onu göstərir ki. bizim əlaqələrimiz inkişaf edir və o dərəcəyə çatıb ki, hətta daxili işlər naziri də ölkəmizə gəlir. Mən çox məmnunam ki, siz ölkələrimizi maraqlandıran məsələlər barəsində geniş fikir mübadiləsi aparmısınız və əməkdaşlığımızın inkişaf etməsi üçün lazımi işlər görmüsünüz. Bizim ölkələrimiz arasında bu sahələrdə çox böyük işlər görülməlidir. Təbii, sizin təcrübəniz böyükdür. Siz böyük ölkəsiniz. Bizdə də müəyyən təcrübə var. Bunları paylaşmaq, bölüşmək lazımdır və bunlardan istifadə etmək, müştərək işlər görmək lazımdır.

Əbdülvahid Musəvi Lari bildirmişdir ki, sözsüz ki, Sizin Tehrana səfəriniz münasibətlərimizdə yeni səhifə açacaq, dönüş mərhələsi olacaqdır. İnşallah, yaxın gələcəkdə Sizin səfəriniz həyata keçirilər.

Gözlənilən rəsmi səfərə toxunaraq Azərbaycan Prezidenti vurğulamışdır ki, mənim İrana səfərim barəsində məsələlər artıq həll olunubdur. İmzalanacaq sənədlər artıq hazırla-

nıb, razılaşdırılıbdır. Mən çox böyük məmnuniyyətlə gözləyirəm ki, nə vaxt Tehranda olacağam.

Mən də hesab edirəm ki, bizim Tehrandakı görüşlərimiz, danışıqlarımız İran-Azərbaycan əlaqələrinin daha da sürətlə inkişaf etməsi üçün çox səmərəli olacaqdır. Beləliklə, hesab edirəm ki, indi bizim əlaqələrimiz artıq əvvəlkindən xeyli yaxşıdır. Amma ondan da yaxşı olmalıdır. Bizim sizinlə vəzifəmiz bunu etməkdir. Güman edirəm ki, indi bunun üçün böyük imkanlar vardır. Biz birgə işləməliyik.

Bu, Azərbaıycan Prezidentinin mövqeyi, xalqımızın mövqeyidir. Tarixən təşəkkül tapmış ənənəvi mehriban qonşuluq münasibətləri, ikitərəfli əlaqələr bütün sahələrdə genişləndirilməlidir. Bunun özü isə son nəticədə regional əlaqələrin və əməkdaşlığın inkişafına gətirib çıxaracaqdar ki, bu da iki qardaş və qonşu xalqın yalnız xeyrinə olardı.

2002-ci ilin aprel ayının 11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında İran İslam Respublikasının Xarici İşlər Naziri Kamal Xərrazini və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

İran İslam Respublikasının Xarici İşlər Naziri Kamal Xərrazi görüş zamanı bildirmişdir ki, mən çox şadam ki, ikinci dəfədir Sizinlə görüşürəm. Keçmiş görüşdən yaxşı və yaddaqalan xatirələrim vardır. Sizinlə keçirdiyim görüşdən mən çox faydalanmışam. Belə ki, **Siz dünya miqyasında böyük bir siyasətçi kimi tanınırsınız.**

Xoşbəxtlikdən, İran-Azərbaycan münasibətləri gündən-günə inkişaf etməkdədir. Sözsüz ki, xarici işlər nazirlərinin gediş-gəlişləri, səfərləri münasibətlərimizin inkişafına daha çox müsbət təsir göstərə bilər. Azərbaycanın Xarici İşlər Naziri cənab Vilayət Quliyevlə biz belə qərara gəlmişik ki, görüşlərimizi mütəmadi şəkildə, altı aydan bir həyata keçirək. Sözsüz ki, iki dövlətin başçılarının möhkəm siyasi iradələri nəticəsində bizə bu görüşləri keçirmək və həll olunmayan məsələləri daha da tez bir müddətdə həll etmək müyəssər ola bilər.

Cənab Prezident, ölkəmizin Prezidenti cənab Xatəmi Sizə çox səmimi və hərarətli salamlarını çatdırmağı mənə tapşırmışdır. Deməliyəm ki, Sizin şəxsiyyətinizə onun çox böyük hörməti vardır. O, İranla Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi diqqət yetirir və bunu təkidlə izləyir. Belə hesab edirəm ki, Zati-aliləri, Sizin və cənab Xatəminin siyasi iradəsi nəticəsində iki ölkə arasında, Azərbaycan və İran arasında münasibətlər gündəngünə daha da genişlənəcək və vüsət tapacaqdır.

Ölkəmizin başçısı bildirmişdir ki, İran-Azərbaycan əlaqələri inkişaf etməkdədir. Çox sevindirici haldır ki, hər iki tərəf - həm Azərbaycan, həm də İran bu əlaqələri daha da inkişaf etdirmək istəyir. Mən bəyan edirəm ki, biz İranı qonşumuz, dostumuz və qardaş ölkəmiz hesab edirik. **İran ilə olan əlaqələrimizə biz xüsusi əhəmiyyət veririk. Bu əlaqələri həm möhkəmləndirmək istəyirik, həm də daim genişləndirmək, inkişaf etdirmək istəyirik.** Doğrudur, bu əlaqələrin inkişaf etməsinə maneçilik törədənlər də var və ümumiyyətlə, ayrı-ayrı əngəllər də çıxır. Ancaq bunların heç birisi bizim İran-Azərbayjan əlaqələri haqqında siyasətimizə heç bir təsir göstərə bilməz.

Bu yaxınlarda Sizin Parlamentin deputatlarının bir qrupu cənab Şerdustun rəhbərliyi ilə Azərbaycana gəlmişdi. Mən də onlarla görüşdüm, çox faydalı söhbətimiz oldu. Belə görüşlər bizim işlərimizə kömək edir. Mən tam razıyam ki, Siz, İranın və Azərbaycanın xarici işlər nazirləri belə qərar qəbul etmisiniz ki, altı aydan bir ya İranda, ya da Azərbaycanda görüşəsiniz. Mən bu fikri dəstəkləyirəm. Ümidvaram ki, bu çox səmərəli olacaqdır. Bilirsiniz ki, mənim İrana gəlməyimlə əlaqədar artıq biz lazım olan sənədlərin hamısını işləyib hazırlamışıq. İndi sənədlər masanın üstündədir. Həm dostluq, əməkdaşlıq haqqında muqavilə, həm də siyasi bəyanat. Doğrudur, bunları o səviyyəyə gətirmək üçün bir müddət hər iki tərəf çalışdı. Ancaq, eyni zamanda, bu da təbiidir ki, heç şey bir dəfədən alınmır. Ona görə mən hesab edirəm ki, artıq bizim sənədlərimiz hazırdır. Bilirsiniz ki, mənim Amerika Birləşmiş Ştatlarına getməyimlə əlaqədar və orada müəyyən qədər müalicə almağımla əlaqədar o vaxt səfər edə bilmədim. Biz danışacağıq, yaxın vaxtlarda bizim ikimizin də qərarını həyata keçirəcəyik.

Bilirsiniz, 11 sentyabr hadisələrindən sonra bizim regionda çox mürəkkəb vəziyyət var. Hamımız beynəlxalq terrorizmlə mübarizəyə daha da fəal qoşulmalıyıq. Biz bu barədə öz siyasətimizi bəyan etmişik. Bildiyimə görə, İran da bəyan edib ki, beynəlxalq terrorizmlə mübarizədə bütün başqa ölkələr kimi, o da öz fəaliyyətini göstərəcəkdir. Biz bu mübarizəni aparmalıyıq. Ona görə ki, bizim bölgəmizdə sülhü, əmin-amanlığı, təhlükəsizliyi daha da etibarlı qoruya bilək. Biz bu sahədə də İranla əməkdaşlıq edirik və bundan sonra da edəcəyik. Həll olunmamış başqa məsələlər ki var, məsələn, bizim iqtisadi əlaqələrimiz sahəsində, guman edirəm, onları yavaş-yavaş həll edə bilərik.

Görüşdə İranın Xarici İşlər Naziri bildirmişdir ki, onun ölkəsi Qarabağ məsələsinin həll olunmasını regionda iqtisadi əlaqələrin inkişafı üçün lazımi bir şərt kimi qəbul edir. Belə hesab edir ki, Azərbaycanın müdafiə qüdrətinin möhkəmlənməsi, təmin olunması və siyasi fəaliyyəti davam etdirmək nəticəsində bu münaqişəni həll etmək olar.

Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirmək və daha da genişləndirmək üçün əzmlə çalışdıqlarını, indiyə qədər görülən işlərin kifayət olmadığını söyləyən nazir bildirmişdir ki, biz müxtəlif sahələrdə, o cümlədən tikinti, ticarət, birgə sərmayələr qoymaq sahəsində, enerji daşıyıcıları ilə bağlı məsələlərdə bir çox işlər görə bilərik.

Cənab Xərraziyə təşəkkürünü bildirən Azərbaycan Prezidenti qeyd etmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll

olunması sahəsində Sizin bundan sonra da səy göstərmək məqsədinizi mən alqışlayıram və təşəkkür edirəm. Bu münaqişə artıq çox illərdir davam edir. Münaqişənin həll edilməsində dost, qardaş, qonşu ölkə olan İranın həm dəstəyinə, həm də yardımına həmişə ehtiyacımız olubdur. Bu gün də belədir. Ancaq Ermənistanla əlaqələrinizin yaxşı olması Sizin siyasətinizin nəticəsidir. Amma mən istəməzdim ki, Siz Azərbaycanla Ermənistana olan münasibətinizi bir tərəzidə eyni çəkidə saxlayasınız. Siz buyurdunuz ki, xoşbəxtlikdən Azərbayjanla yaxşı əlaqələr qurmusunuz, Ermənistanla da yaxşı əlaqə qurmusunuz, bu da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında faydalı ola bilər. Bu, doğrudur. Ancaq İran-Azərbaycan əlaqələrini İran-Ermənistan əlaqələri ilə bərabərləşdirmək olmaz. Çünki bizim ölkələrimizi, xalqlarımızı bir-birinə bağlayan böyük tarixdir, bizim tarixi köklərimizdir, bizim müştərək mədəniyyətimizdir, adət-ənənələrimizdir, bizim bir dinə mənsub olmağımızdır. Amma Ermənistanla Sizin yəqin ki, ancaq iqtisadi əlaqələriniz var. Ona görə, rica edirəm ki, bu əlaqələrə eyni gözlə baxmayasınız.

İqtisadi məsələlər, hansıları ki, Siz dediniz, həqiqətən də bizim əlaqələrimizdə belə problemlər var. Biz bunları tədricən həll edirik. Xatirinizdədir, bizim Müştərək İqtisadi Komissiyamız bir neçə vaxt bundan öncə İranda toplaşdı və orada çox yaxşı müzakirələr keçdi. Ancaq hələ işlərin çoxu həll olunmayıbdır. Mən öz tərəfimdən əlavə göstərişlər verəcəyəm ki, bu əlaqələrin inkişaf etdirilməsi üçün, həm bizim Müştərək Komissiya çərçivəsində, həm də bütün başqa sahələrdə lazımi tədbirlər görülsün.

2002-ci ilin aprel ayının 23-də Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabadda keçirilən ilk Zirvə görüşündə Prezident Heydər Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşü olmuşdur.

Görüşdə Xəzərin problemlərinin həll olunmasında, sahilyanı ölkələrin qarşılıqlı surətdə əlaqələrinin genişləndirilməsində bu sammitin mühüm rol oynayacağını bildirən dövlətimizin başçısı ölkələrimiz arasındakı əməkdaşlığın bütün sahələrdə daha da inkişaf etdirilməsinin zəruriliyini vurğulamışdır.

İranla Azərbaycanın bütün sahələrdə səmərəli əməkdaşlığı genişləndirməsi üçün səylərini əsirgəməyəcəyini söyləyən **İran Prezidenti ölkəmizin başçısına siyasətdə xüsusi rolu, zəngin təcrübəsi olan bir dövlət xadimi kimi böyük hörmət bəslədiyini, bu böyük təcrübədən həmişə istifadə edilməsinin vacib olduğunu xüsusi vurğulamış, onun İrana rəsmi səfərini səbrsizliklə gözlədiklərini qeyd etmişdir.**

Görüşdə Zirvə toplantısı, Azərbaycan-İran əməkdaşlığının perspektivləri, regionda vəziyyət və hər iki ölkəni maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

2002-ci ilin may ayının 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İrana çoxdan gözlənilən rəsmi səfəri başlanmışdır. Hələ rəsmi ziyarətin başlanmasından çox-çox əvvəl ölkəmizin başçısı dəfələrlə bildirmişdir: "İki ölkə lideri arasında həmişə görüşməyə, danışmağa çox böyük ehtiyac vardır. Çünki ötən illərdən indiyə qədər bizim şəxsi görüşlərimiz az olubdur. Ancaq ehtiyac çoxdur. Həm şəxsən bir-birimizə daha da yaxın olmaq üçün, həm İran-Azərbaycan problemləri haqqında fikir mübadiləsi aparmaq, lazım olan sənədləri imzalamaq, həm də ki, bizim region haqqında fikir mübadiləsi aparmaq, regiondakı vəziyyət və İranın Azərbaycanın vəziyyətinə münasibəti, beynəlxalq aləmdə gedən proseslər haqqında geniş fikir mübadiləsi aparmaq olar. Bu, mənim üçün çox əhəmiyyətli olacaqdır. Bu səfərin məqsədi İranın və şəxsən İranın Prezidenti, cənab Xatəminin mövqeyini, fikirlərini, görüşlərini bilməkdən ibarətdir. Ona görə mən bu dəvəti məmnuniyyətlə qəbul edirəm. Hesab edirəm ki, bu görüşə ehtiyac vardır."

Bina hava limanında KİV-in nümayəndələrinə müsahibə verərkən dövlət başçısı bəyan etmişdir ki, səfərin məqsədi Azərbaycan-İran əlaqələrinin inkişaf etdirilməsidir. Xəzərin statusuna dair müzakirələrin aparılması da planlaşdırılır. **İki ölkə arasındakı əlaqələr həm Azərbaycana, həm də İrana lazımdır.** Biz qonşuyuq və keçmişdə çox əlaqələrimiz olubdur, bu gün də var. İndi bu əlaqələrin bütün sahələrdə - iqtisadiyyat, mədəniyyət, elm, təhsil, idman və başqa sahələrdə inkişaf etdirilməsi və dövlətlərarası münasibətlərin daha da mehribanlaşması həm İran üçün, həm də Azərbaycan üçün lazımdır. **Azərbaycan İran üçün, İran da Azərbaycan üçün çox önəmlidir.** Bu səfərdən gözləyirəm ki, İranla Azərbaycan bir-biri ilə daha da mehriban dost olsunlar. İranla Azərbaycan əlaqələrinin inkişafı bölgədə sülhün və sabitliyin bərqərar olmasına yaxşı təsir göstərə bilər.

Elə həmin gün Prezidentimizin İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə təkbətək görüşü olmuşdur.

Görüşün əvvəlində dövlət başçıları jurnalistlərin suallarına cavab verərkən Dağlıq Qarabağ münaqişəsi barədə İranın mövqeyini açıqlayan Prezident Xatəmi göstərmişdir ki, biz Ermənistanın Azərbaycana təcavüzünü pisləmiş və bunu müxtəlif beynəlxalq təşkilatlarda, yüksək səviyyələrdə elan etmişik. Fikrimizcə münaqişə danışıqlar və sülh yolu ilə həll olunmalıdır. Biz münaqişənin hələ də həll edilməməsindən narahatıq. Fəlakətində baş verən hadisələr isə tayı-bərabəri olmayan qeyri-insani fəlakətdir. Bunu digər hadisələrlə müqayisə etmək mümkün deyildir. Torpağın qəsb edilməsi, işğal olunması bir məsələdir, həmin torpaq üzərində yaşayan insanların-qadınların, uşaqların vəhşicəsinə öldürülməsi isə çox ağır məsələdir. İctimaiyyət bu hadisəyə xüsusi diqqət yetirir, belə görünür ki, bu faciəyə dözmək olmaz.

Suallara cavab verərkən **İrana səfərinin məqsədini açıqlayan Azərbaycan Prezidenti göstərmişdir ki, məqsəd Azərbaycan-İran dostluğu-**

nu və əməkdaşlığını daha da inkişaf etdirməkdən ibarətdir. Biz qonşu ölkələrik, qədim müştərək tariximiz vardır, milli-mənəvi dəyərlərimiz bir-birinə bənzərdir, bunlar hamısı xalqlarımızın tarixən dostluğunu təmin edibdir.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra çox ölkələrlə dostluq, əməkdaşlıq əlaqələri qurub və bunu inkişaf etdirir. Azərbaycan ilə İran arasındakı əlaqələr də on il bundan əvvəl qurulub və ötən müddət ərzində böyük yol keçibdir. Ancaq biz hesab edirik ki, bu əlaqələr daha da genişləndirilməli, inkişaf etməlidir. Bax bu məqsədə nail olmaq üçün mən İrana rəsmi səfərə gəlmişəm. Bu səfər mənim İrana əvvəlki səfərlərimdən çox fərqlidir. Bu rəsmi səfər zamanı biz bir çox məsələləri müzakirə edəcək, dövlətlərimiz arasında əməkdaşlığa dair bir sıra sənədlər imzalayacayıq ki, bunun da böyük əhəmiyyəti var.

İran Prezidentindən Azərbaycanla aparılan danışıqların məzmununu açıqlamağı, ölkələr arasında mövcud olan müəyyən problemlərin və arzuedilməz meyllərin qarşısının alınmasında Prezident Heydər Əliyevin İrana səfərinin nə kimi rolunun olacağını soruşduqda, o göstərmişdir ki, bu səfər münasibətlərimizdə əsaslı dönüş yaradıbdır. **Hər iki Prezidentin möhkəm siyasi iradəsi nəticəsində münasibətlərimiz tamamilə dəyişib və inkişaf edəcəkdir.** Danışıqlarımızda biz yollar axtarırıq ki, münasibətlərimizi daha da yaxınlaşdıraq, məsələlərimizi həll edək. Xəzərdən istifadə məsələsinə toxunan Prezident Xatəmi göstərmişdir ki, bu məsələ bu ölkələr arasındakı razılıq əsasında həll edilməlidir, belə ki, bu dəniz bu regionda yerləşən beş ölkəyə aiddir. Ekologiya, gəmiçilik, balıqçılıq və sair məsələlər sahəsində qarşılıqlı anlaşma şəraitində əməkdaşlıq olmalıdır. Sözsüz ki, Sovet İttifaqı dağıldıqdan sonra Xəzər dənizinin istifadəsinə dair üsullar dəyişibdir. Ona görə də, bu sahədə əməkdaşlığa yeni bir baxış meydana gəlibdir. Odur ki, bu məsələ qarşılıqlı anlaşma və sülh yolu ilə həll olunmalıdır.

Sonra görüş mətbuat nümayəndələrinin iştirakı olmadan davam etdirilmişdir. **Prezident Xatəmi böyük siyasi təcrübəyə malik olan müdrik dövlət xadimi Heydər Əliyev ilə hər bir görüşü çox faydalı və dəyərli hesab etdiyini bir daha nəzərə çatdırmışdır.** Bu rəsmi səfərin İran-Azərbaycan əməkdaşlığında yeni üfüqlər açdığını vurğulayan Prezident Seyid Məhəmməd Xatəmi bu səfərin ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin inkişafında mühüm mərhələ olduğunu bildirmişdir.

Görüş zamanı Prezidentlər ikitərəfli münasibətlərin inkişaf etdirilməsi barədə geniş müzakirələr apararaq bütün sahələrdə əməkdaşlığın daha da genişlənməsinin və dərinləşməsinin zəruri olduğunu bildirmişlər.

İqtisadi əlaqələrin inkişafında böyük əhəmiyyəti olan layihələrdə ölkələrimizin iştirakının vacibliyini nəzərə çarpdıran dövlət başçıları Şimal-Cənub nəqliyyat dəhlizinin geniş perspektivləri olduğunu yekdilliklə təsdiq etmişlər.

Xəzərin hüquqi statusu məsələsindən söhbət açan Prezidentlər sahilyanı ölkələrin bütün sahələrdə əməkdaşlığının daha da sıxlaşdırılmasının böyük əhəmiyyət daşıdığını, Xəzərin bundan sonra da sülh, təhlükəsizlik və əməkdaşlıq dənizi olacağına ümid bəslədiklərini bildirmişlər. Onlar Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı ekspertlər səviyyəsində müzakirələrin davam etdirilməsinin zəruriliyini vurğulamışlar.

Görüşdə Prezidentlər ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsinə də geniş yer ayırmışlar.

Münaqişənin sülh yolu ilə həll edilməsi üçün aparılan danışıqlar prosesindən bəhs edən Prezident Heydər Əliyev bu münaqişənin tezliklə aradan qaldırılması sahəsində Minsk qrupunun üzvü olan dövlətlərin səylərinin artırılmasının vacibliyini nəzərə çarpdırmışdır.

Ermənistanın Azərbaycana təcavüzünün İran tərəfindən pislənildiyini və İranın bunu beynəlxalq təşkilatlarda açıq elan etdiyini vurğulayan Prezident Seyid Məhəmməd Xatəmi bu münaqişənin hələ də həll olunmamasından öz ölkəsinin narahatlığını bildirmiş və münaqişənin tezliklə aradan qaldırılmasının bölgədə sülhün və əmin-amanlığın bərpa edilməsində mühüm rol oynayacağına əmin olduğunu söyləmişdir.

Qədim tarixi ənənələrə malik qonşu və dost ölkələrimizin elm, təhsil, mədəniyyət və digər sahələrdə əlaqələrinin hazırkı vəziyyəti barədə müzakirələr aparan Prezidentlər bu əlaqələrin daha da sıxlaşdırılmasının vacibliyini vurğulamışlar.

Görüşdə Prezidentlər bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparmışlar.

Azərbaycan Prezidenti cənab Xatəmini Azərbaycana rəsmi səfərə dəvət etmiş, dəvət məmnunluqla qəbul olunmuşdur.

Bu təkbətək görüş iki saatdan çox davam etmiş, sonra geniş tərkibdə danışıqlar davam etdirilmişdir.

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin durmadan inkişaf etməsinin əhəmiyyətli olduğunu bildirən İran Prezidenti Seyid Məhəmməd Xatəmi iqtisadi əlaqələrin genişləndirilməsi üçün energetika, kommunikasiya, nəqliyyat sahəsində əməkdaşlığın böyük imkanlar açdığını, Şimal-Cənub nəqliyyat dəhlizinin geniş perspektivlərə malik olduğunu, Bakı-Astara avtomobil yoluna, Astara-Astara və Astara-Qəzvin dəmir yollarının çəkilməsinə İranın böyük əhəmiyyət verdiyini vurğulamış, qonşu və dost ölkələrimizin təhlükəsizliyinin, əmin-amanlığının bir-birinə bağlı olduğunu xatırladaraq ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin möhkəmləndirilməsinin hər iki tərəf üçün böyük əhəmiyyət daşıdığını bildirmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyevin İrana rəsmi səfərinin ölkələrimizin əlaqələrinin inkişafında yeni mərhələ açdığını söyləyən İran Prezidenti ümidvar olduğunu bildirmişdir ki, bu səfər hər iki ölkənin xalqlarına fayda gətirəcəkdir.

Səmimi sözlərə və rəsmi səfərə dəvətə görə minnətdarlıq edən Prezident Heydər Əliyev Tehrana gəldiyi ilk andan ona və nümayəndə heyətinə göstərilən dostcasına və mehriban münasibətdən çox məmnun qaldığını, danışıqların səmərəli keçdiyini vurğulayaraq, bu rəsmi səfərin həm lazımlı, həm də çox əhəmiyyətli olduğunu bildirmişdir. Dövlətimizin başçısı vurğulamışdır ki, Sizin də, mənim də əsas məqsədimiz İran-Azərbaycan əlaqələrini daha da inkişaf etdirməkdən ibarətdir. Xalqlarımızın çoxəsrlik tarixi, müştərək ənənəsi, milli-mənəvi, dini dəyərləri bizi həqiqətən bir-birimizə bağlayıbdır.

Ölkəmizin başçısı İrana rəsmi səfərini, burada keçirilən görüşləri, aparılan danışıqları İran-Azərbaycan əlaqələrinin inkişafında yeni bir mərhələ kimi qiymətləndirmişdir.

Geniş tərkibli görüşdə Azərbaycan-İran hökumətlərarası Müştərək Komissiyasının fəaliyyətinin genişləndirilməsinə dair məsələlər nəzərdən keçirilmiş, Xəzər dənizində əməkdaşlıq, nəqliyyat, ticarət, gömrük, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Danışıqların sonunda jurnalistlərin suallarına cavab verən İranın Xarici İşlər Naziri cənab Xərrazi bildirmişdir ki, Azərbaycanın ərazi bütövlüyü İran üçün çox önəmlidir və İran çalışır ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü təmin olunmaqla həll olunsun. Danışıqlarda cənab Heydər Əliyevi əmin etdik ki, biz bütün imkanlarımızdan istifadə edib bu məsələnin həlli üçün çox çalışacağıq. Xəzər dənizinin bölünməsi məsələsinə toxunan Xərrazi tərəflərin ekspertlər səviyyəsində danışıqları davam etdirmək üçün razılığa gəldiklərini söyləmiş, Təbrizdə Azərbaycanın Baş Konsulluğunun açılması məsələsi ilə bağlı isə aşağıdakıları bildirmişdir: Cənab Heydər Əliyevə həmişə demişik ki, Təbrizdə Baş Konsulluq açmaq istəsələr, "Xoş gəldiniz" deyirik.

"Dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalandıqdan sonra Azərbaycanın hava və su sərhədlərinin daha pozulmayacağı sualına cənab Xərrazi cavab olaraq göstərmişdir ki, biz Azərbaycanın hava və su sərhədlərini heç vaxt pozmamışıq. Bu müzakirələr davam etdirilsə, onda məlum olar ki, hansı ərazi İrana aiddir, hansı ərazi isə Azərbaycana aiddir. Bundan sonra həqiqətən heç bir anlaşılmazlıq olmayacaqdır.

Azərbaycan Prezidenti mayın 19-da, səfərinin ikinci günü İran İnqilabının Rəhbəri imam Xomeyninin məqbərəsini ziyarət etmiş, əklil qoymuş, fəxri qonaqlar kitabına aşağıdakı ürək sözlərini yazmışdır: " İran İslam Respublikasının rəhbəri Ayətulla Xomeyninin qəbrini ziyarət edərək, onun xatirəsinə böyük hörmət və ehtiramımı bildirirəm".

Həmin gün dövlətimizin başçısı İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamneyi ilə də görüş keçirtmişdir. Bu görüşdə İran Prezidenti də iştirak edirdi ki, bu da Azərbaycan Prezidentinin rəsmi səfərinə göstərilən diqqətin və

verilən əhəmiyyətin olduqca yüksək səviyyədə olduğunu göstərir.

Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamlayan, onunla hər bir görüşdən çox məmnun qaldığını söyləyən Ayətulla Seyid Əli Xamneyi əmin olduğunu bildirmişdir ki, Azərbaycan Prezidentinin İrana rəsmi səfəri iki dost və qonşu ölkə arasında əlaqələrin inkişafında yeni mərhələ açacaqdır.

Səmimi sözlərə, xoş münasibətə görə təşəkkür edən Prezident Heydər Əliyev İrana rəsmi səfərə gəlməyindən və İranın Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamneyi ilə görüşündən çox məmnun olduğunu, özünə və Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərlikdən, səfər zamanı keçirdiyi görüşlərdən, apardığı danışıqlardan razılığını bildirmişdir. Bu səfərin İran-Azərbaycan münasibətlərinin inkişafına böyük təsir göstərəcəyinə ümid bəslədiyini bildirən dövlətimizin başçısı dost, qonşu İran ilə bütün sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər olduğunu vurğulamışdır.

Görüşdə bölgəmiz üçün çox böyük əhəmiyyəti olan Şimal-Cənub nəqliyyat dəhlizi layihəsində ölkələrimizin birgə iştirakı, Xəzər dənizində əməkdaşlıq məsələləri ətraflı müzakirə edilmiş, onun sülh, mehribanlıq və dostluq dənizi olması arzulanmış, Dağlıq Qarabağ probleminin həlli yolları müzakirə edilmiş, Azərbaycan-İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır.

Azərbaycan və İran arasındakı tarixi, mənəvi yaxınlığı, dərin əlaqələri yüksək dəyərləndirən Ayətulla Xamneyi Azərbaycan Prezidenti Heydər Əliyevin bu səfərini ölkələrimiz arasındakı əlaqələrin bütün sahələrdə inkişafı üçün əhəmiyyətli olduğunu nəzərə çarpdırmışdır.

Qafqazda baş verən münaqişələrin böl-gədə sülhün və əmin-amanlığın bərqərar edilməsinə əngəl törətdiyini bildirən Ayətulla Xamneyi öz ölkəsinin Ermənistanın Azərbaycana təcavüzünü pislədiyini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini vurğulamışdır.

Mayın 19-da dölətimizin başçısı İran İslam Respublikası parlamentinin - İslam Şurası Məclisinin sədri cənab Mehdi Kərrubi ilə də görüşmüşdür.

Cənab Kərrubi Azərbaycan Prezidentinin İrana rəsmi səfərini yüksək dəyərləndirmiş, onunla görüşdən çox məmnun olduğunu bildirmişdir. Ölkələrimizin bütün sahələrdə əlaqələrinin daha da möhkəmləndirilməsi üçün xeyli işlər görüldüyündən, iki ölkənin parlamentləri arasında da qarşılıqlı surətdə faydalı əməkdaşlığın ildən-ilə inkişaf etməsindən söhbət açmışdır.

İrana rəsmi səfərinin gedişindən, göstərilən qonaqpərvərlikdən məmnun qaldığını söyləyən Prezident Heydər Əliyev qədim dostluq əlaqələrinə malik ölkələrimizin əməkdaşlığının bütün sahələrdə inkişafının, o cümlədən parlamentlərarası əlaqələrin daha da genişləndirilmə-

sinin vacib olduğunu bildirmişdir.

Söhbət zamanı Azərbaycan ilə İran arasında bütün sahələrdə əlaqələrin hərtərəfli inkişaf etdirilməsi üçün böyük imkanlar olduğu və bu imkanlardan səmərəli istifadə edilməsinin zəruriliyi vurğulanmış, ölkələrimiz, xalqlarımız arasında səmimi və mehriban münasibətlərin möhkəmləndirilməsində Azərbaycan və İran parlamentlərindəki dostluq qruplarının rolu müsbət qiymətləndirilmiş, eyni zamanda onun fəaliyyətinin daha da genişləndirilməsinin əhəmiyyəti nəzərə çarpdırılmışdır. Hər iki parlamentdəki dostluq qruplarının rolu müsbət qiymətləndirilmiş, onun fəaliyyətinin daha da genişləndirilməsi arzulanmışdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

Görüşdən sonra dövlətimizin başçısı və cənab Kərrubi jurnalistlərin suallarına cavab vermişlər. Mehdi Kərrubi göstərmişdir ki, Prezident Heydər Əliyevin İrana rəsmi səfərə gəlməsi ölkələrimiz arasındakı münasibətlərdə yeni mərhələ yaradacaqdır. Hər iki tərəf çalışır ki, ölkələrimiz arasında bütün sahələrdə münasibətlər, o cümlədən parlamentlərarası əlaqələr inkişaf etsin, möhkəmlənsin.

Xəzər probleminin həlli məsələsinə toxunan Azərbaycan Prezidenti Aşqabad Zirvə görüşünün böyük əhəmiyyət daşıdığını, Xəzərin huquqi statusunun ekologiya, gəmiçilik, dənizin bioloji ehtiyatlarının qorunması, çirklənmənin qarşısının alınması və Xəzərin enerji ehtiyatlarından istifadə olunması kimi böyük məsələləri əhatə etdiyini, bu sahələrdə əməkdaşlığa təzə başlanıldığını, bu əməkdaşlığın davam edəcəyini, Xəzəryanı ölkələrin dövlət başçılarının birbirinin fikrinə hörmətlə yanaşaraq , bu məsələdə müəyyən bir razılığa gələcəklərini bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 19-da ölkəmizin Tehrandakı səfirliyində də olmuşdur.

Dövlətimizin başçısı səfirliyin əməkdaşları, onların ailə üzvləri ilə görüşmüş, diplomatlara tövsiyyələr vermişdir.

İran İslam Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfirimiz Abbasəli Həsənov səfirliyin gördüyü işlər barədə məlumat vermişdir. Bu səfərin Azərbaycan-İran münasibətlərində tarixi bir dönüş yaratdığını, səfirliyin görəcəyi işlərin daha da çoxalacağını, qarşıda duran işləri həyata keçirmək üçün var qüvvələri ilə çalışdıqlarını bildirmişdir.

Səfərinin mahiyyətini açıqlayan Azərbaycan Prezidenti göstərmişdir ki, **mənim bu səfərim İran-Azərbaycan əlaqələrində əlamətdar bir hadisədir. Bizim əlaqələrimizin gələcəyi üçün bu səfər zamanı çox iş görülür və görüləcəkdir.** Bunların hamısı İran-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi ilə əlaqədardır, İran-Azərbaycan əlaqələrini gərginləşdirən, əlaqələrimizin inkişafına mane olan bəzi halları aradan qaldırmağa həsr

olunubdur. Belə hallar var. Biz bunları inkar etmirik. Biz də inkar etmirik, İran tərəfi də inkar etmir. İran tərəfi də, biz də etiraf edirik ki, belə hallar var və hər iki tərəfə aiddir. Bir tərəfə aid deyildir. Ona görə çox iş görülməlidir və bunun üçün çox imkanlar yaranır.

Çünki mənə belə gəlir ki, bu səfərim İranda böyük həvəslə qarşılanıbdır. Mənə dəfələrlə deyirlər ki, Sizi çox gözlədik. Deməк, Azərbaycan Prezidentinin İrana gəlməsini həqiqətən istəyirdilər və istəmişlər. Çox yaxşı, səmərəli danışıqlarımız keçdi. Münasibətlərimiz daha da mehribanlaşır. Prezident Xatəmi ilə mənim təkbətək görüşüm, nümayəndə heyəti ilə görüşüm, - ümumiyyətlə, dünən biz bir neçə saat bir yerdə, bir-birimizlə ünsiyyətdə olmuşuq, - mənə belə deməyə əsas verir ki, **mənim kimi, Prezident Xatəmi də əməkdaşlığı səmimi olaraq inkişaf etdirmək, genişləndirmək istəyir, bəzi halların aradan qaldırılmasını istəyir. Düşünürəm ki, Azərbaycan-İran əlaqələrində Azərbaycan Prezidenti və İran Prezidenti bir-birinə çox uyğun tərəfdaşlardır. Bunun da bizim dövlətlərarası əlaqələrimizi inkişaf etdirmək üçün çox böyük əhəmiyyəti vardır. Ona görə bu imkanlardan istifadə etmək lazımdır.**

Ölkəmizin başçısı öz çıxışında İranda çalışan diplomatlarımız qarşısında rəsmi səfərdən sonra görüləcək işlərin mahiyyətini açmış, bunun üçün onların qarşısına konkret vəzifələr qoymuşdur. O göstərmişdir ki, biz dövlət başçıları siyasəti müəyyənləşdiririk, onun həyata keçirilməsinin yollarını müəyyənləşdiririk, böyük tədbirləri müəyyənləşdiririk. Amma onları bizim icra orqanları həyata keçirməlidir. Mən və buraya gələn nümayəndə heyətinin üzvləri, Azərbaycanın nazirləri, başqa idarələrin başçıları hərəsi öz sahəsində bunu etməlidir. Siz isə, səfirliyin əməkdaşları, gərək hər bir məsələnin həyata keçirilməsində fəal iştirak edəsiniz. Biz sabah 10 müqavilə imzalayacağıq - bunları həyata keçirmək lazımdır. Biz müqavilələri imzaladıq, sonra parlament onları təsdiqlədi, amma əməli iş görülmədi - onda bunların əhəmiyyəti itir. Bunların hər birini həyata keçirtmək üçün konkret işlər görmək lazımdır.

Mən Bakıya dönəndən sonra bu barədə tədbirlər planı hazırlamaq üçün göstəriş verəcəyəm. Orada hamısı yazılacaqdır. Ancaq siz bilirsiniz, hər müqavilədən irəli gələn vəzifələr nədən ibarətdir. Müqavilənin icraçıları bunu bilirlər, edirlər. Siz onlara yardımçı olmalısınız. Siz o məsələlərin irəliyə getməsinə kömək etməlisiniz. Sizin vəzifəniz, borcunuz bundan ibarətdir. Mən istəyirəm inanam ki, Azərbaycanın İrandakı səfirliyi - belə böyük tərkibdə olan, eyni zamanda, diplomatik potensialına görə də lazımi səviyyədə olan səfirliyimiz bundan sonra da İran-Azərbaycan əlaqələrinin inkişafında fəal iştirak edəcəkdir. Mən sizə işlərinizdə uğurlar, hər birinizə cansağlığı arzulayıram.

İrandakı səfirimiz Abbasəli Həsənov dövlətimizin başçısını səfirliyin kollektivi adından bir daha əmin etmişdir ki, onlar qarşıya qoyulmuş bütün bu məsələləri layiqincə yerinə

yetirəcəklər.

Mayın 20-də Tehranda dövlətlərimizin başçıları bir daha görüş keçirmişlər. Cənab Xatəmi bu səfəri ölkələrimiz arasındakı münasibətlərdə yeni tarixi hadisə kimi səciyyələndirmişdir. **O görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin siyasi təcrübəsindən istifadə edib ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinin zəruriliyini vurğulamışdır.**

Azərbaycan Prezidenti İrana rəsmi səfərə dəvətə, göstərilən qonaqpərvərliyə görə cənab Xatəmiyə minnətdarlıq edərək, bu səfərin Azrbaycan-İran münasibətlərinin daha da inkişaf etdirilməsi üçün çox əhəmiyyətli olduğunu bildirmiş, Tehranda keçirdiyi görüşləri yüksək qiymətləndirərək imzalanacaq sənədlərin əməkdaşlığımızın sürətli inkişafına təkan verəcəyini, qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinin zəruri olduğunu göstərmişdir.

Prezidentlər bu baradə yekdil fikirdə olduqlarını nəzərə çarpdıraraq hər iki ölkəni maraqlandıran digər məsələlər barəsində də müzakirələr aparmışlar.

Görüşdən sonra Azərbaycan respublikası ilə İran İslam Respublikası arasında sənədlərin imzalanması mərasimi olmuşdur. Prezident Heydər Əliyev və Prezident Seyid Məhəmməd Xatəmi rəsmi səfərin başlıca sənədini - "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqaviləni imzalamışlar.

Sonra "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında "Gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş", "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında saziş", "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında bitkilərin karantin xidməti sahəsində əməkdaşlıq haqqında saziş", "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Elm, Tədqiqatlar və Texnologiya Nazirliyi arasında təhsil və tədqiqat sahəsində əməkdaşlıq haqqında memorandum", "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında memorandum", "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti aarsında hava nəqliyyatı haqqında saziş", "Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi ilə İran Standartlar və Sənaye Tədqiqatları İnstitutu arsında standartlaşdırma, sertifikatlaşdırma və metrologiya sahəsində əməkdaşlığa dair memorandum", "Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Bədən

Tərbiyəsi Təşkilatı arsında idman sahəsində əməkdaşlıq haqqında saziş" imzalanmışdır.

Sonra səfərin yekunlarına dair mətbuat üçün birgə məlumat yayılmış və Prezidentlər jurnalistlərin suallarına cavab vermişlər.

Sualları cavablandırarkən Prezident Heydər Əliyev göstərmişdir ki, mənim rəsmi səfərim çərçivəsində İran-Azərbaycan əlaqələrinə dair bütün məsələləri müzakirə etdik. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bütün görüşlərimizdə, apardığımız bütün danışıqlarda bir-birimizə xoş münasibət göstərmişik, bir-birimizi anlamaq istəmişik. İran-Azərbaycan dostluq, əməkdaşlıq əlaqələrini möhkəmləndirmək və inkişaf etdirmək istəmişik. Hesab edirəm ki, bu sahədə böyük nailiyyətlər əldə etmişik. Bizim danışıqlarımız dostluq və mehribanlıq şəraitində keçibdir. Bunun nəticəsi olaraq, bu gün İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası on sənəd imzalanıbdır. İmzalanmış sənədlər içərisində İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlığın prinsiplərinə aid müqavilə xüsusi yer tutur. **Bildirmək istəyirəm ki, ölkələrimiz arasında on ildən artıqdır ki, diplomatik əlaqələr mövcuddur. Ancaq indiyə qədər bu gün imzaladığımız sənəd kimi, yəni, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlığın prinsiplərinə aid müqavilə kimi sanballı sənəd imzalanmamışdır.**

Bu müqavilə İran-Azərbaycan əlaqələrində ilk böyük hüquqi sənəddir. Ölkələrimiz arasındakı əlaqələri bütün sahələrdə tənzimləyir. Hesab edirəm ki, bu, mənim səfərimin, bizim görüşlərimizin ən əhəmiyyətli nəticələrindən biridir.

Bizim görüşlərimiz, danışıqlarımız İran-Azərbaycan əlaqələrində yeni mərhələ açıbdır. Ümidvaram ki, bundan sonra bizim əlaqələrimiz daha sürətlə inkişaf edəcək və dostluq, əməkdaşlıq, mehribanlıq əlaqələri daim davam edəcəkdir.

Azərbaycan Prezidenti göstərmişdir ki, biz Xəzər dənizinin hüquqi statusu haqqında Aşqabad Zirvə görüşünün davamı kimi çox ətraflı danışıqlar apardıq. İndiki danışıqlarda bizim ekspertlərin arasında xeyli qarşılıqlı anlaşma əldə olunubdur. Bu da bizim gələcək danışıqlarımıza çox yaxşı şərait yaratmışdır. Ekspertlərin növbəti görüşü iyunun 11-də Bakıda keçiriləcəkdir. Güman edirəm ki, beləliklə, onlar bizim üçün münasib təkliflər hazırlayıb təqdim edəcəklər.

Danışıqların nəticələrindən bəhs edən İran Prezidenti isə göstərmişdir ki, xoşbəxtlikdən, bütün sahələrdə mənimlə cənab Heydər Əliyev arasında, eyni zamanda digər məsul şəxslər arasında, onların öz aralarında yaxşı, faydalı danışıqlar aparılmışdır. İkitərəfli münasibətlərə, regional məsələlərə, beynəlxalq əlaqələrə, eyni zamanda iqtisadi, siyasi, digər sahələrə dair yaxşı danışıqlar aparıldı. Bu gün çox faydalı sənədlər imzalandı, Amma **bu sənədlərdən də əhəmiyyətlisi, hər iki tərəfdən göstəriləcək iradə və əzmkarlıqdır.** Biz bunu qəbul edi-

rik ki, taleyimiz bir-birimizlə bağlıdır.

Hər bir ölkədə əmin-amanlıq və sabitlik olması digər ölkədə də əmin-amanlıq, sabitlik deməkdir. Hər iki ölkə, hər iki dövlət sürətlə inkişaf etməkdədir. İnkişaf üçün sabitlik, əmin-amanlıq mühüm, vacib şərtdir. Biz hər iki ölkədə əmin-amanlıq, sabitlik haqqında düşünərək, həm də bölgədə, regionda da sabitliyin, əmin-amanlığın bərqərar olması barədə düşünürük. Eyni zamanda belə bir qərara gəldik ki, iqtisadiyyat sahəsində mövcud olan əlaqələrimizi daha da genişləndirək. **Mən inanıram ki, cənab Heydər Əliyevin bu səfəri ikitərəfli əlaqələrimizdə böyük dönüş yaradacaqdır.**

Xəzər dənizi sülh, əməkdaşlıq dənizidir. Bu dənizin hüquqi statusu və ondan istifadə beş Xəzəryanı ölkəyə aiddir. Bu sahədə fikir mübadiləsi, danışıqlar aparılıbdır.

Bunlar çox faydalı oldular. Ekspertlərimiz arasında yaxşı danışıqlar, müzakirələr aparılıbdır. Mən inanıram ki, yaxın gələcəkdə iki ölkə arasında ədalətli bir çıxış yolu tapılacaqdır. İnşallah, iyunun 11-də keçiriləcək danışıqlar hər iki tərəf üçün faydalı olacaqdır.

Biz bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı hörmət, ehtiram göstərmək şərtilə münasibətlərimizi inkişaf etdirməyə çalışacağıq.

Qafqaz bölgəsində əmin-amanlığın bərqərar olmasına və Qarabağ münaqişəsinin həlli yollarına toxunan cənab Xatəmi göstərmişdir ki, Qafqazın əmin-amanlığı bizim üçün çox əhəmiyyətlidir və onu təmin etməkdə İranın öz payı var və o öz rolunu göstərməlidir. Qarabağ münaqişəsinə gəlincə, o, Prezident Heydər Əliyevin özü tərəfindən də dəfələrlə bəyan edildiyi kimi, sülh və danışıqlar yolu ilə həll olunmalıdır. Bu sahədə biz əlimizdən gələn hər cür köməyi əsirgəməyəcəyik.

Xəzər isə təkcə bu bölgədə yox, ümumiyyətlə, dünyada mühüm göllərdən biri sayılır. İstər bölgədə, istərsə də dünyada ekoloji sistem sahəsində mühüm rolu vardır.Xəzər təbii sərvətlərindən əlavə, digər cəhətlər baxımından da əhəmiyyətlidir. Ekologiya, gəmiçilik, balıqçılıq - bu sahələrdə də çox əhəmiyyətlidir. Həmin sahələrdə də əməkdaşlıq olmalıdır və inanmıram ki, bu sahələrdə fikir ayrılığı ola bilsin. Dünyada baş verən proseslər baxımından Xəzərin hüquqi statusuna yenidən baxılmalı, onun taleyi ümumi fikir birliyi nəticəsində həll olunmalıdır.

Qonşu dövlətlər bu sahədə bir-birilə daha çox əlaqə saxlayaraq, fikir yaxınlığı yaratmalıdırlar. **İranla Azərbaycan arasında xoş niyyət və anlaşma olduğunu, yarandığını nəzərə alaraq, inanıram ki, lap yaxın gələcəkdə də bu sahədə, bu məsələnin həllində ümumi bir razılığa gələ biləcəyik.**

Doğrudur ki, Xəzəryanı ölkələrin hamısı gərək öz milli mənafeyini nəzərə alsın. Eyni zamanda, bu məsələ ədalətli həll olunmalıdır. Biz qərara gəlmişik ki, öz milli mənafeyimizi müdafiə edərkən, bu, digər ölkələrin milli mənafeyinə zidd olmasın.

Mən inanıram ki, Azərbaycanla ki, bizim bu qədər yaxınlığımız var,

bizi bir-birimizə bağlayan bu qədər müştərək cəhətlər var, elə hesab edirəm ki, bunların əsasında biz bu məsələni həll edə biləcəyik. Dostluq, qardaşlıq şəraitində bu məsələnin həllinə nail olacağıq.

İran-Azərbaycan iqtisadi əməkdaşlığına qiymət verən Azərbaycan Prezidenti göstərmişdir ki, ağayi Xatəmi ilə mənim imzaladığım müqavilədən əlavə, imzalanan sənədlərin, demək olar ki, hamısı iqtisadiyyata aiddir. **Bizim münasibətlərimizdə, apardığımız danışıqlarda iqtisadiyyat məsələləri çox mühüm yer tutur.** Səfərimin və danışıqlarımızın nəticəsi kimi, biz İran-Azərbaycan iqtisadi əlaqələrini bundan sonra daha da genişləndirməliyik. Bunun üçün böyük imkanlar var. Güman edirəm ki, hər iki tərəf bu imkanlardan daha səmərəli istifadə etməyə çalışacaqdır.

Biz ağayi Xatəmi ilə böyük layihələr - xüsusilə də İranın təşəbbüskarı olduğu ümumdünya xarakteri daşıyan Şimal-Cənub layihəsi haqqında çox ətraflı söhbətlər apardıq. İran artıq Rusiya və Hindistanla bu barədə saziş əldə edibdir. Azərbaycan bu layihədə iştirak etmək istəyir və mütləq iştirak etməlidir. Yaxın vaxtlarda bu müqaviləyə, bu layihəyə daxil olacaqdır. Bu böyük layihənin içərisində bizim müzakirə etdiyimiz Astara-Astara, Qəzvin-Astara dəmir yollarının və Astara-Bakı avtomobil yolunun inşası xüsusi yer tutur. Demək olar ki, biz bu məsələnin həllində çox yaxşı nailiyyət əldə etdik. İran İslam Respublikası Qəzvin-Astara dəmir yolunun inşasına başlayır. İran və Azərbaycan birlikdə Astara-Astara dəmir yolunun çəkilməsini təmin edəcəkdir. İranın krediti ilə Bakı-Astara dəmir yolunun çəkilməsinə başlanacaqdır. Azərbaycan Astara-Bakı yolunu daha da təkmilləşdirəcəkdir. Bunların nəticəsində, təxminən 2-3 ildən sonra böyük nəqliyyat dəhlizi açılacaqdır.

Bunun da əsas hissəsi İranın və Azərbaycanın ərazisindən keçir. Əgər biz bu layihəni həyata keçirsək, o, Avropanın ən şimal nöqtəsindən dəmir yolu xəttini Qafqazdan, Azərbaycandan, İrandan keçməklə İranın cənubuna - Bəndər Abbasa, oradan Hindistana çatdıra biləcək. Güman edirəm ki, bir neçə ildən sonra, bu layihə başa çatdıqdan sonra onun nə qədər böyük əhəmiyyətə malik olduğunu bizim xalqlarımız biləcək və başqa ölkələrin xalqları da biləcəklər.

İran başqa layihələrdə də iştirak edir. Məsələn, Xəzər dənizində neft və qaz ehtiyatlarının işlənməsində İran Neft Şirkəti iki layihədə iştirak edir.

Zəngin qaz ehtiyatlarına malik olan "Şahdəniz" yatağında, - orada bir trilyon kubmetrdən çox qaz olduğu təsdiq edilibdir, İran Neft Şirkətinin on faiz payı var.

Gələcək layihələrdə də İran Azərbaycanla birlikdə iştirak edəcəkdir.

Səfərin sonunda İran Prezidenti ölkəmizin başçısına müraciətlə demişdir ki, inanıram ki, Sizin İrana bu rəsmi səfəriniz ölkəmizə xeyir gətirəcəkdir.

Azərbaycan Prezidenti cənab Xatəmini ölkəmizə rəsmi səfərə dəvət etmiş və dəvət məmnuniyyətlə qəbul edilmişdir. İran Prezidenti bildirmiş-

dir ki, mən mütləq rəsmi səfərə gələcəyəm. **Biz Azərbaycanı İranı sevdiyimiz qədər sevirik. Cənab Prezident Heydər Əliyev, Sizin şəxsiyyətinizə bizim böyük hörmətimiz var.**

Binə hava limanında səfərin nəticələrindən danışan Azərbaycan Prezidenti göstərmişdir ki, səfər çox uğurlu oldu: "Biz çox əhəmiyyətli görüşlər keçirdik, danışıqlar apardıq. Gələcəkdə İran ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etdirilməsinin yollarını birgə müəyyən etdik. **Hesab edirəm ki, bu səfər İran-Azərbaycan əlaqələrində bir dönüş nöqtəsidir, yeni mərhələnin başlanğıcıdır, bizim əlaqələrin inkişafına güclü təkan vermişdir".**

Hər iki tərəfin səfərin müvəffəqiyyətlə başa çatması üçün səylərini əsirgəmədiyini qeyd edən dövlətimizin başçısı bildirmişdir: " Mən dəfələrlə demişəm və bu gün də deyirəm ki, İran bizim qonşumuzdur, İran böyük dövlətdir. Biz İranla həm iqtisadi sahədə, həm də başqa sahələrdə çox sıx əməkdaşlıq etməliyik. Bu həm İranın xeyrinədir, həm də bizim xeyrimizədir. Hesab edirəm ki, bunları hərəkətə gətirmək üçün bu istiqamətdə biz çox faydalı iş gördük".

Xəzərin statusu ilə bağlı danışıqlara toxunan dövlətimizin başçısı demişdir: "Ekspertlərin mənə verdiyi məlumata görə, mövqelərin müəyyən qədər yaxınlaşması meyli görünür. Belə qərar qəbul edilmişdir ki, ekspertlərin bu görüşləri bundan sonra da ardıcıl surətdə davam etməlidir".

Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında İranın iştirakı məsələsinə toxunan ölkə başçısı göstərmişdir ki, Minsk qrupu İrana məlumatlar veribdir. İran da hesab edir ki, bu prosesdə iştirak etməlidir. İndi baxaq görək necə olur.

Beləliklə, çoxdan gözlənilən bu mühüm səfər də başa çatdı. Onunla ölkələrimiz arasındakı əlaqələrin yeni mərhələsi başlandı. O göstərdi ki, İran - Azərbaycan əlaqələrinin hazırda hər şeydən əvvəl qarşılıqlı inama ehtiyacı var. Bu inam əlaqələrimizin bütün sahələrini əhatə etməlidir. Biz tarixi, dini, milli və ənənəvi əlaqələrimizi daha da sıxlaşdıraraq, onlardan hər iki xalqın xoşbəxt gələcəyinin qurulması üçün bir baza kimi istifadə etməli, iqtisadi əlaqələrimizi daha çox siyasətsizləşdirməliyik. Ölkələrimizin liderləri arasında birbirinin mövqeyini dəqiqləşdirmək üçün tez-tez məsləhətləşmələrin aparılması günün tələbidir. Bu məsləhətləşmələr və tərəflərin mövqelərinin aydınlaşdırılması ölkələrimizin arasını vurmaq istəyənlərin imkanlarını heçə endirə bilər. Hər iki müstəqil dövlət öz müstəqil siyasətlərini yürütməklə bərabər, bir-biri barəsində də düşünməli, qonşusunun mövqeyini nəzərə almalıdır. Tərəflər bir-birinə nə yuxarıdan aşağı, nə də aşağıdan yuxarı baxmamalı, dost, qardaş, qonşu, bərabərhüquqlu dövlət məcrasından çıxış etməlidirlər. Bu halda, hər iki xalq, hər iki dövlət yalnız qazanacaq, əlaqələrimiz isə daha yüksək zirvələrə qalxacaqdır.

Biz inanırıq ki, "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə tərəflərin bir-birini neytrallaşdırmaq istəməsi üçün deyil, əsl müttəfiqlik əlaqələrinin yaradılmasına xidmət edəcəkdir. Bəzi siyasətçilərin fikrincə bu sənəd Rusiya və Azərbaycan arasında bağlanan sənədə bərabərdir, eyni səviyyədədir. Biz isə, proqnozları və fərziyyələri kənara ataraq, bildirmək istəyirik ki, bu sənədin müddəaları reallaşarsa, bu yalnız hər iki dövlətin xeyrinə olacaq, hər iki xalqın rifahına xidmət edəcəkdir.

Keçirilən görüşlərin səmimiliyi, tərəflərin illərlə bağlı qalan düyün və problemləri açaraq həll etmək istəyi, danışıqlarda qoyulan problemlərin açıq və dostcasına müzakirəsi, çox faydalı fikir mübadiləsinin aparılması (Xəzərin statusu haqqında), Dağlıq Qarabağ münaqişəsi və İranın ona təsiri məsələsinin açıq şəkildə müzakirəsi, Azərbaycan Prezidentinin Xameneyi ilə görüşünə Xatəminin də qoşulması, "yeni adlar icad etməklə danışıqlarımıza mane olursunuz, İranın daxilindən kənara çıxın, belə etməsəniz heç nə olmayacaq" kimi çağırışların qarşı tərəfdən səkitliklə dinlənilməsi, orta xətlə Xəzərin bölünməsi prinsipinə İranın diqqətlə yanaşması və müzakirə etməyə hazır olması, Cənub-Şimal layihəsi üzrə tərəflərin razılığa gəlməsi, Astara-Astara, Qəzvin-Astara dəmir yolunun, Astara-Bakı yolunun İranın krediti ilə tikiləcəyi, Azərbaycanın özünün isə, Astara-Bakı dəmir yolu xəttini təkmilləşdirəcəyi barədə prinsipial razılıq əldə olunması, İranın Azərbaycanın kənd təsərrüfatının, şəkər istehsalının, baramaçılığın inkişaf etdirilməsinə maraq göstərməsi, gömrüyün 24 saatlıq iş rejiminə keçməsi barədə razılığa gəlinməsi, əlaqələrdə konstruktivlik, əməkdaşlıq, işgüzarlıq, səmimiyyət kimi amillərin əsas kimi götürülməsi deyilənlərə sübutdur.

Bütün bunlarla yanaşı nə qədər və hansı sənədlərə imza atılmasından asılı olmayaraq, Prezidentin İrana sonuncu səfəri əlaqələrimizin nizama salınmasında və inkişaf etdirilməsində həlledici rol oynayacaqdır. Bu səfər adi bir diplomatik addım olmayacaq, indiyə qədər olan əlaqələri, bir növ, nəticələndirəcək, gələcək münasibətlərin inkişafı üçün əsaslı zəmin yaradacaq.

İndi Azərbaycan Prezidenti Heydər Əliyevin aşağıda verilən bəyanatı ölkələrimiz arasındakı əlaqələrin devizinə, aparıcı qüvvəsinə çevrilmişdir. O demişdir: "Azərbaycanın Prezidenti kimi mən İran-Azərbaycan əlaqələrinin sağlam olması yolunda, onun daim inkişaf etməsi üçün çalışıram və bundan sonra da çalışacağam. Bu, bizim xalqlarımız, dövlətlərimiz üçün lazımdır. Mənim bu siyasətimi heç kəs dəyişdirə bilməz".

ÇIXIŞLAR, MÜSAHİBƏLƏR VƏ GÖRÜŞLƏR

Naxçıvanın İran və Türkiyə ilə əlaqələri Azərbaycanın İran və Türkiyə ilə əlaqələrinin tərkib hissəsidir... Bunlar hamısı Azərbaycanın xarici siyasətinin hissələridir.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

İRANLA MÜNASİBƏTLƏRİN QURULMASININ NAXÇIVAN DÖVRÜ

ƏLAQƏLƏR GENİŞLƏNİR

Naxçıvan Muxtar Respublikasında gedən demokratikləşdirmə prosesi muxtar respublikanın qonşu İran və Türkiyə respublikaları ilə iqtisadi və mədəni əlaqələrinin, qarşılıqlı münasibətlərinin genişlənməsi üçün böyük imkanlar yaradır. Bu sahədə yeni-yeni addımlar atılır.

Şənbə günü İran İslam Respublikası Mərənd fərmandarı ağayi Rza İbadi başda olmaqla İranın işgüzar dairələri nümayəndələrinin böyük bir qrupu Naxçıvana gəlmişdir.

Nümayəndə heyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri H.Ə.Əliyev tərəfindən qəbul edilmişdir. H.Ə.Əliyev qonaqları səmimi salamlayaraq demişdir ki, hər dəfə o taylı qardaşlarımızla görüşəndə xeyli məmnun oluruq. Biz hesab edirik ki, belə görüşlər nə qədər çox olsa, hər iki tərəf üçün o qədər faydalı olar. Çox yaxşı haldır ki, bizim münasibətlərimiz get-gedə inkişaf edib genişlənir. Bunun da əsas səbəbi ondan ibarətdir ki, biz bir millətik, bir islam aləminə mənsubuq. İslam aləmi bizi qədim dövrdən birləşdirir və bundan sonra da birləşdirəcək. 70 il bizim ayrılığımız olub. Lakin xalqda belə bir məsəl var, deyirlər, adam bir-birindən nə qədər ayrı olsa da, bir-birinə məhəbbəti o qədər artar. Bu ayrılığın böyük əziyyətləri, əzabları olub. Ancaq indi bu yaxınlaşma, bu qovuşma hamımızı sevindirir. Biz çox şadıq ki, o tayda olan müsəlman qardaşlarımız, türk qardaşlarımız hamısı bir millətdir, bir xalqa mənsubdur. Ona görə də mən bu qarşılıqlı gediş-gəlişi, bu görüşləri çox zəruri, bütün tərəflər üçün son dərəcə əhəmiyyətli hesab edirəm və əminəm ki, sizin bu gəlişiniz də yaxşı nəticələr verəcək, hər iki tərəf üçün çox faydalı olacaq.

Ağayi Rza İbadi bu fikirlə tam razılaşaraq demişdir ki, indiki dövrdə çox zəruridir ki, müsəlmanların bir-biri ilə sıx əlaqələri olsun. Çünki belə bir zamanda ayrı yaşamaq çətindir. Ona görə də çox vacibdir ki, bizim kimi qan qardaşlarının əlaqələri daha geniş, daha sıx və çoxsahəli olsun. Biz ümid edirik ki, Naxçıvanda sizinlə apardığımız danışıqlar istər iqtisadi, istərsə də siyasi və mədəni əlaqələrin genişlənməsində mühüm rol oynayacaq. Çox şadıq ki, bu məqsədlərə yaxınlaşırıq və çalışmalıyıq ki, bu əlaqələr daha da artsın.

H.Ə. Əliyev qeyd etmişdir ki, hər iki tərəf arasındakı əlaqələr çoxşaxəli olmalıdır. Həm iqtisadi əlaqələr, həm mədəni əlaqələr, həm mənəvi əlaqələr, həm də dini əlaqələr genişlənməlidir. Bunlar hamısı çox faydalıdır. Mən fürsətdən istifadə edib sizə razılığımı bildirirəm və deyirəm ki, Ermənistanla yaranmış milli münaqişələr nəticəsində Naxçıvan tez-tez iqtisadi blokadaya məruz qalır. Elə lap bu yaxınlarda 50 gün dəmir yolu işləmədi və bu səbəbdən də Naxçıvan Azərbaycandan ayrı düşdü, iqtisadi vəziyyətimiz xeyli çətinləşdi. Çünki biz yanacağın, ərzağın çox hissəsini və bəzi tikinti materiallarını Bakıdan alırıq. Bunlar hamısı dəmir yolu vasitəsilə bizə gəlir. Çox təəssüf ki, vaxtilə Azərbaycanı parçalayıblar. Ona görə Naxçıvan Muxtar Respublikası öz ana torpağından ayrı düşüb. Ermənilərin günahı üzündən 50 gün dəmir yolunun işləməməsi bizə xeyli çətinliklər yaratmışdır.

Belə bir vəziyyətdə biz o tayda - Cənubi Azərbaycanda olan qardaşlarımıza müraciət etdik. Çox şadıq ki, siz bizim səsimizi eşitdiniz, bizə yardım göstərdiniz. Bizə həmçinin məlum oldu ki, oktyabrın 4-də sizin Prezidentiniz ağayi Haşimi Rəfsəncani Biləsuvar tərəfə gəlmiş, orada öz çıxışında demişdir ki, bizim kommunizm əsarətindən xilas olmuş o taydakı qardaşlarımıza yardım etmək lazımdır. Mən dərhal bu bəyanata öz münasibətimi bildirdim, sizin Prezidentə teleqram göndərdim ki, onun bu çıxışı çox yaxşı təsir bağışlayıb. Sizin tərəfinizdən bizə yardım oldu, ərzaq, benzin göndərildi. Bütün bunlara görə sizə minnətdarıq.

Ancaq bir-iki məsələ bir az çətinləşdi. Dəmir yolu işləməyəndə biz Bakı ilə təyyarə vasitəsilə əlaqə saxlayırıq. Lakin təyyarələrin sayı az olduğundan Naxçıvana gələnlərin tələbini ödəmir. Ona görə də biz o vaxt məsələ qaldırdıq ki, bir halda ki, ermənilər yolumuzu bağlayırlar, bizim avtomaşınlarımız, avtobuslarımız Xudafərindən İran ərazisinə keçsinlər və oradan gəlib Culfaya çıxsınlar. Lakin bu işdə çətinliklər oldu. Görükən budur ki, bizdə olduğu kimi sizdə də bürokratlar bu işdə müəyyən çətinliklər yaratmışlar.

İndi artıq dəmir yolu açılıb və çətinliklər də aradan qalxıb. Lakin bu məsələ öz aktuallığını itirməyib. Dəmir yolu açılıb, ancaq bilmək olmaz, bəlkə, bir azdan sonra yenə də bağlanacaq. Ona görə də İran ərazi-

sindən bizə ikinci yol çəkilməsi çox zəruridir. Bir halda ki, biz 70 illik ayrılığa son qoyaraq belə yaxınlaşırıq, bu məsələləri də yavaş-yavaş həll etməliyik.

H.Ə. Əliyev sərhəd mühafizəsi, sərhəddən tikanlı məftillərin götürülməsi məsələsinə də toxunmuş və demişdir ki, sərhədlərimizin sadələşdirilməsi tezliklə həyata keçiriləcək və bu, bizim daha da yaxınlaşmağımıza imkan yaradacaq. Bütün bunları sizə çatdırmaqda məqsədim odur ki, bizi ayıran əlamətlərin hamısının aradan götürülməsinə çalışırıq. Bunlar müəyyən vaxt tələb edir və tədricən həyata keçiriləcək.

Ağayi Rza İbadi qeyd etmişdir ki, hər iki tərəf arasında əlaqələr tək iqtisadiyyatla məhdudlaşmamalıdır. Mədəni əlaqələr, tələbə mübadilələri, idmançıların görüşləri də inkişaf etdirilməlidir. Yazıçı və şairlərin, alimlərin, din xadimlərinin əlaqələri də genişlənməlidir.

Görüşün sonunda H.Ə. Əliyev hər iki tərəfdə fikir birliyi olduğunu razılıqla qeyd etdi və bir daha əmin olduğunu bildirdi ki, o taylı qardaşlarımızla əlaqələrimiz günbəgün genişlənəcək.

Görüş zamanı Heydər Əliyevin təklifi ilə ağayi Rza İbadi Naxçıvan şəhərində İran tərəfinin vəsaiti ilə yeni, müasir tələblərə uyğun bir məscidin tikilməsini öz üzərinə götürmüşdür.

Ağayi Rza İbadi Heydər Əliyevi rəsmi səfərlə İran İslam Respublikasına dəvət etmişdir. H.Ə. Əliyev bu dəvəti razılıq hissi ilə qəbul etmişdir.

"Şərq qapısı" qəzeti,
12 noyabr 1991-ci il

DOSTLUQ VƏ SƏMİMİLİK ŞƏRAİTİNDƏ

Bakı şəhərində təşkil edilmiş sənaye, ticarət sərgisindən geri qayıdan Şərqi Azərbaycan ostandarı ağayi Əkbər Pəhrizkar dekabrın 4-də Naxçıvan şəhərinə gəlmişdir. Qonaq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

Səmimi görüş zamanı mədəni, ticarət əlaqələrinin genişləndirilməsi, Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qalan hissəsi ilə birləşdirən dəmiryol, rabitə xətlərinin İran İslam Respublikası ərazisindən çəkilməsi, Cənubi Azərbaycandan Naxçıvana qaz, elektrik enerjisi verilməsi və digər məsələlərdən söhbət getmişdir.

Ağayi Əkbər Pəhrizkar Ali Məclis Sədrinin Azərbaycanın keçən əsrdən iki hissəyə parçalanması, canbir qardaşların güclə bir-birindən ayrılması fikri ilə razılaşaraq bildirmişdir ki, biz Şimali Azərbaycanı öz evimiz hesab edirik və burada yaşayan qardaş-bacılarımıza həmişə kömək etməyə hazırıq. Azərbaycan Respublikasının müstəqilliyini tanımaq məsələsinə gəldikdə isə Şərqi Azərbaycanın ostandarı demişdir ki, millətimizin istəyinə biz həmişə hörmətlə yanaşırıq.

Ağayi Əkbər Pəhrizkar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi Təbrizə rəsmi səfərə dəvət etmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının iri şirkətlərindən birinin - "Azərlab" şirkətinin başçısı doktor Zeynalabdin Mücahidini qəbul etmişdir. Şirkətin Təbrizdə, Tehranda dərman preparatları, tibb avadanlığı istehsal edən böyük müəssisələri var. "Azərlab"ın başçısı demişdir ki, Şimali Azərbaycandakı qardaşlarımız çətin günlərini yaşayırlar. Biz onların bu vəziyyətinə biganə qala bilmərik. Naxçıvan bu taydakı canbir qardaşlarımız ilə əlaqə saxlamaq üçün bir qapıdır. Ona görə köməyimizi də elə burdan başlamağı qərara almışıq.

Ali Məclisin Sədri "Azərlab" şirkəti ilə mal mübadiləsi prosesini sürətləndirmək üçün lazımi şərait yaradılacağından, bu sahədə həyata keçiriləcək tədbirlərdən danışmışdır.

"Şərq qapısı" qəzeti,
6 dekabr 1991-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 30-da Maku fərmandarı Məhərrəm Allahverdizadə başda olmaqla Cənubi Azərbaycan nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gəlmişdir.

Elə həmin gün Makudan gəlmiş rəsmi nümayəndələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Ağayi Məhərrəm Allahverdizadə bildirmişdir ki, Naxçıvana bir neçə həftə bundan sonra gəlmək nəzərdə tutulmuşdu. Lakin naxçıvanlıların son aylardakı ağır şəraitlərindən və bu çətinliklərə baxmayaraq 31 dekabrın dünya Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik Günü kimi bayram edəcəklərindən xəbər tutaraq səfərlərinin vaxtını qabağa çəkiblər.

Cənubi Azərbaycandan gəlmiş qardaşlarımız muxtar respublikada keçirilən bayram tədbirlərində iştirak etmişlər.

31 dekabr 1991-ci il

İRAN DİPLOMATLARI NAXÇIVANDA

İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin nümayəndələri Naxçıvana rəsmi görüşə gəlmişlər. Elə həmin gün səfirliyin birinci katibi Mehdi Abbas Paydarı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Ağayi Mehdi Abbas Paydar İran İslam Respublikasının Azərbaycandakı səfiri Ə.Ə. Dəməşqiyənin salamını Ali Məclisin Sədri Heydər Əliyevə yetirmiş və bildirmişdir ki, İranda Azərbaycan və xüsusən Naxçıvan Muxtar Respublika əhalisinin çəkdiyi çətinlikləri bilir və Arazın bu tayındakı dil və dinbir qardaşlarına mümkün olan köməkliyi göstərməyə hazırdırlar. O demişdir: "Qardaşlığı insanlara zorla unutdurmaq olmaz. 70 il kommunizm təbliğatı Şimali Azərbaycanda insanların şüurunu zəhərləməyə, bizləri bir-birimizə yadlaşdırmağa çalışırdı. Lakin bu, mümkün olmadı, aramızdakı qardaşlıq borcunu da bizə unutdura bilmədilər. Zəncandakı zəlzələdən sonra bu taydakı

qardaşlarımız bizə köməyə gəldilər. Biz də sıxıntılı günlərinizdə sizi tək qoymayacağıq, əlimizdən gələn köməkliyi əsirgəməyəcəyik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev demişdir ki, xalqın iradəsinin qarşısını heç kəs ala bilməz. Azərbaycan xalqı rus-sovet imperiyasının zəncirini qırıb əsarətdən çıxıb. İndi də dini və milli - tarixi ənənələri üzərində yaşayışını qurmaq istəyir. Belə bir vəziyyətdə və Ermənistan tərəfdən təcavüzə məruz qaldığı şəraitdə Azərbaycan xalqı Arazın o tayındakı qardaşlarından ən başlıcası mənəvi kömək gözləyir.

Ali Məclisin Sədri bildirmişdir ki, yaranmış şəraitdə naxçıvanlılar İran İslam Respublikası tərəfindən köməkliyi ilk növbədə, Aslandüzdən keçən avtomobil yolunun açılması, İran ərazisindən Naxçıvanı Azərbaycanın qalan hissəsi ilə birləşdirən dəmir yolunun tikintisi, elektrik, qaz xətlərinin çəkilməsi və bir sıra başqa təxirəsalınmaz məsələlərin həllinin sürətləndirilməsində görürlər.

İran səfirliyinin nümayəndələri bu məsələlərlə əlaqədar söylənmiş fikir və təklifləri təmsil etdikləri ölkənin rəhbərlərinə çatdıracaqlarını vəd etmişlər.

Ağayi Mehdi Abbas Paydar bildirmişdir ki, muxtar respublikaya səfərlərinin əsas məqsədi Naxçıvanda İran İslam Respublikasının konsulluğunu açmaq təklifini çatdırmaqdır. Heydər Əliyev bu təklifi qəbul etmiş və eyni zamanda, İran İslam Respublikasının Təbriz şəhərində Naxçıvan Muxtar Respublikasının konsulluğunun açılmasının zəruriliyini söyləmişdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti
23 yanvar 1992-ci il

İRANDAN YARDIM GƏLİR...

Xəbər verildiyi kimi, iqtisadi çətinliklər çəkən Naxçıvan Muxtar Respublikasına son bir həftə ərzində İran İslam Respublikasından min ton kartof yardımı daxil olmuşdur. Bu yardımın sonuncu hissəsini - 300 ton kartofu Naxçıvan əhalisinə dünən İran İslam Respublikası "Qırmızı Aypara" cəmiyyətinin nümayəndələri çatdırmışlar. Onlar bu dəfə ərzaqdan əlavə, elektrik enerjisi istehsal edən 4 iri generator, 500 ədəd buxarı da gətirmişlər.

1992-ci il yanvarın 24-də nümayəndə heyətinin üzvlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Nümayəndə heyətinin başçısı - İran İslam Respublikası "Qırmızı Aypara" cəmiyyəti sədrinin səlahiyyətli nümayəndəsi Əhməd Rəfiyi demişdir: "Cəmiyyətimiz naxçıvanlı müsəlman qardaşlarımızın sıxıntı çəkmələrinə biganə qala bilməz. "Qırmızı Aypara"nın sədri doktor Vahid Dəstgərdinin tapşırığıdır ki, burda nələrə ehtiyacınız olduğunu öyrənək və onları tezliklə sizlərə yetirək".

Ali Məclisin Sədri Heydər Əliyev Tehrandan gəlmiş qonaqları səmimi salamlayaraq bildirmişdir ki, doğrudan da, müsəlman qardaşları çətin

anda bir-birinə kömək etməlidirlər. Şimali Azərbaycan indi kommunizm, şurəvi quruluşunu dağıdaraq müstəqilliyə, azadlığa can atır və bu yolda çoxlu çətinliklərlə üzləşir. Belə bir vəziyyətdə onun əhalisi ilk növbədə İran İslam Respublikasındakı və Türkiyədəki müsəlman qardaşlarından yardım gözləyir, çünki qardaşın qardaşdan kömək umması təbiidir. Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublika əhalisi adından göstərilən yardım üçün minnətdarlığını bildirmiş, Arazın bu tayından bütün qardaşlara hərarətli salamını, İran İslam Respublikasının "Qırmızı Aypara" cəmiyyətinin sədri, doktor Vahid Dəstgərdiyə təşəkkürünü və Naxçıvan Muxtar Respublikasına rəsmi dəvətini çatdırmağı xahiş etmişdir.

Qəbulda Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Ə. Sadiqov iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti

İŞGÜZAR GÖRÜŞLƏR

İran İslam Respublikasının məşhur "Bonyade Məstəzəfan və Canbazane Enqelabe Eslami" sənaye-ticarət şirkəti iqtisadi çətinliklərlə üzləşmiş Naxçıvan Muxtar Respublikasına keçən ay xeyli ərzaq yardımı göndərmişdir. Yardımı təqdim edən nümayəndələr bildirmişlər ki, "Bonyade Məstəzəfan və Canbazane Enqelabe Eslami" şirkəti Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi, muxtar respublikanın bir neçə sənaye müəssisəsinin modernləşdirilməsi işinə kömək etmək niyyətindədir.

Fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev "Bonyade Məstəzəfan və Canbazane Enqelabe Eslami" şirkətinin nümayəndələrini - şirkət başçısının müavini Şəabanian və şirkət müdiri Məhəmmədhəsən Əşrəfiani qəbul etmişdir.

Söhbət zamanı qonaqlar bildirmişlər ki, onlarla gəlmiş mühəndis Babək rayonundakı kərpic zavodunda müəssisənin istehsal gücünün ildə 20 milyon ədəd kərpicə çatdırmaq məqsədilə vəziyyəti öyrənir. Bundan əlavə, Şərurda ildə 60 milyon ədəd kərpic istehsal edəcək zavodun da layihə-smeta sənədlərinin hazırlanması nəzərdə tutulmuşdur. Həmçinin Culfa rayonundakı Darıdağ qaz zavodunun məhsulunun bir hissəsinin şirkətə satılması razılaşdırılmışdır.

İşlərin vaxtında və yüksək səviyyədə görülməsi üçün şirkətin Naxçıvan şəhərində nümayəndəliyi təşkil ediləcək. Bu məqsədlə Naxçıvanda şirkətə müvəqqəti bina ayrılmışdır. Gələcəkdə şirkət özünə ayrıca inzibati və yaşayış binası tikəcək.

Ali Məclisin Sədri Heydər Əliyev yardım üçün qonaqlara təşəkkür etmiş, "Bonyade Məstəzəfan və Canbazane Enqelabe Eslami" şirkətinin Naxçıvan Muxtar Rspublikasında aparacağı işlərə müsbət münasibətini bildirmişdir.

***

Fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

Heydər Əliyev Makudan gəlmiş qonaqları - Maku fərmandarı Məhərrəm Allahverdizadə, İmamcümə Heydər Musəvi, mədəniyyət idarəsinin rəisi Xosrov Purəsəd və fərmandarın müşaviri Rəhim Rəhimini qəbul etmişdir.

Söhbət zamanı qonaqlar bildirmişlər ki, İranda İslam inqilabının 13-cü ildönümü müsəlmanların əziz günü - peyğəmbərin mənub olduğu günlə eyni vaxta təsadüf edir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi ilə ötən il bağlanmış müqaviləyə əsasən Naxçıvan şəhərində bu bayramla əlaqədar tədbir keçirilməsi planlaşdırılıb. Həmin bayramı Naxçıvanda təşkil etmək və keçirmək üçün rəsmi şəxslərlə yanaşı Maku şəhərinin müxtəlif təşkilatlarının nümayəndələri də gəlmişlər.

Makudan gəlmiş nümayəndələr naxçıvanlı qardaşlarına həmçinin 100 ton ərzaq yardımı və şəhid ailələrinə hədiyyələr gətirmişlər.

Bu günlər İran İslam Respublikasından Naxçıvana bir qrup sənaye mütəxəssisi gəlmişdir. Onlar muxtar respublikanın bir çox istehsal müəssisəsində texnoloji proseslərlə və buraxılan məhsullarla tanış olmuş, sənayemizdəki mövcud vəziyyəti öyrənmişlər.

Fevralın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu mütəxəssislərdən İran İslam Respublikası Ağır Sənaye Nazirliyinin Şərqi və Qərbi Azərbaycan üzrə əlaqələndiricisi Həsən Qəharini, Şərqi Azərbaycanın ağır sənaye idarəsinin baş müdirinin müavini Hacı Zeynalabdin İmanlunu və bu idarənin proqram və dizayn şöbəsinin müdiri Məhəmməd İbrahim Mahudçianı qəbul etmişdir.

Hacı Zeynalabdin İmanlu bildirmişdir ki, Şimali Azərbaycan sənayesinin dirçəlməsinə qardaş köməyi göstərmək niyyəti ilə Naxçıvana gəlmişlər. O demişdir: "Müəssisələrinizi gəzdik. Gördük ki, sizin hər şeyiniz var və eyni zamanda, heç nəyiniz yoxdur. Bir vaxtlar bizdə də bu cür vəziyyət idi. Öz gücümüzə, səriştəmizə arxalanaraq işləri düzgün qaydada qurmaqla çətin vəziyyətdən çıxdıq. Bu sahədəki təcrübəmizi, biliyimizi sizinlə bölüşməyə hazırıq".

Ali Məclisin Sədri Heydər Əliyev qeyd etmişdir ki, Azərbaycan Respublikası, o cümlədən, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası qardaş İran və Türkiyə ölkələrinə böyük məhəbbətlə baxır və yaranmış iqtisadi çətinliklərin aradan qaldırılmasında ilk növbədə, Arazın o tayındakı müsəlman qardaşlarından kömək gözləyir. Bu baxımdan İran İslam Respublikası ilə hərtərəfli qarşılıqlı əlaqələrin, o cümlədən, təcrübə mübadiləsi sahəsində əlaqələrin yaradılmasına və genişləndirilməsinə böyük ümidlər bəsləyir.

Söhbət zamanı muxtar respublikanın bir sıra müəssisəsinin yenidən qurulması, yeni texnologiya və avadanlıqlarla təchiz edilməsi, ümumiyyətlə, iqtisadiyyatımızı böhran vəziyyətindən çıxarmaq üçün xüsusi proqram hazırlanması və digər məsələlər haqqında fikir mübadiləsi aparılmışdır.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti
2 fevral 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İran İslam Respublikası Xarici İşlər nazirinin keçmiş Sovet İttifaqının müsəlman respublikaları üzrə müşaviri Şeyx Əttar Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Elə həmin gün ağayi Şeyx Əttarı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Ağayi Şeyx Əttar Azərbaycana bu gəlişinin Qarabağın dağlıq hissəsindəki münaqişənin həllində İran İslam Respublikasının vasitəçilik fəaliyyəti ilə əlaqələndirmişdir. O demişdir: "Bu işi özümüzə borc bilirik. Siz bizim din və qan qardaşlarımızsınız. Bütün mübahisəli məsələlər gərək masa arxasında sağlam müzakirə yolu, sülh yolu ilə həll oluna".

Ali Məclisin Sədri Heydər Əliyev Qarabağın Dağlıq hissəsindəki münaqişənin həllində İran İslam Respublikasının vasitəçilik səylərini yüksək qiymətləndirdiyini bildirmiş. İran İslam Respublikası nümayəndələrinin Azərbaycana bu məqsədlə gəlişlərinin xalq tərəfindən böyük maraq və diqqətlə izlənildiyini qeyd etmişdir. Ali Məclisin Sədri bildirmişdir ki, İran tərəfinin bu təşəbbüslərinin və fəaliyyətinin faydalı olacağına ümid bəsləyir.

Görüş zamanı Qarabağın dağlıq hissəsindəki vəziyyət və ondan çıxış yolları, İran İslam Respublikası ilə Azərbaycan Respublikası və o cümlədən, Naxçıvan Muxtar Respublikası arasında hərtərəfli əlaqələrin inkişafı barədə geniş söhbət getmişdir.

Qəbulda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Q. Məmmədov iştirak etmişdir.

19 aprel 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1992-ci il may ayının 1-də İran İslam Respublikasının Azərbaycan Respublikası üzrə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri ağayi Əli Əsgər Nəhavandian Bakıdan Naxçıvana gəlmişdir. Həmin gün Ali Məclisin Sədri Heydər Əliyev yüksək qonağı qəbul edərək onu səmimi salamlamış, yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etmişdir.

Görüş zamanı İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi barədə söhbət aparılmışdır. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının mühüm rolu olduğundan bəhs edilmiş, Naxçıvan ilə İran arasında əlaqələrin bilavasitə təşkil olunması zərurəti bildirilmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikasının Azərbaycandan gələn kommunikasiya xətlərinin ağır vəziyyətindən danışılmış, bu xətlərin İran İslam Respublikasının ərazisindən keçirilməsinin vacib olduğu qeyd edilmişdir. Bu barədə Naxçıvan Muxtar Respublikasının təklifləri İran İslam Respublikasının səfirinə verilmişdir.

Səfir Naxçıvan Muxtar Respub-

likasında İran İslam Respublikasının konsulluğunun açılması barədə Xarici İşlər Nazirliyinin məktubunu Ali Məclisin Sədrinə təqdim etmişdir. Heydər Əliyev bu məktubu qəbul edərkən İran İslam Respublikasının Təbriz şəhərində Naxçıvan Muxtar Respublikasının konsulluğunun yaradılmasına böyük ehtiyac olduğunu bildirmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavinləri Q.Məmmədov, A.Kələntərli, muxtar respublika Baş nazirinin birinci müavini Ə.Sadiqov və İran İslam Respublikasının Bakıdakı səfirinin köməkçisi ağayi Payidar iştirak etmişlər.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasından gəlmiş Qərbi Azərbaycan ostandarının müavini Yusif Modaress başda olmaqla Qərbi Azərbaycanın rəsmi nümayəndə heyətini qəbul etmişdir.

Ağayi Yusif Modaress bildirmişdir ki, hələ keçən il Qərbi Azərbaycanın rəsmi nümayəndələri Naxçıvanda olmuş, muxtar respublikanın Nazirlər Kabineti və bir sıra dövlət müəssisəsi və idarəsi ilə müştərək əməkdaşlıq sahəsində bir neçə protokol imzalamışlar. Qərbi Azərbaycan ostandarının müavini demişdir ki, səfərlərin əsas məqsədi bu istiqamətdə konkret tədbirlərin həyata keçirilməsi, iqtisadi və digər sahələrdə əlaqələrin inkişafına dair razılaşmalar əldə etməkdir. O, həmçinin qeyd etmişdir ki, Qərbi Azərbaycan ilə keçmiş sovet respublikaları arasında ticarət əlaqələrinin yaradılması üçün Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi və imkanları əlverişli olduğundan Urmiya Naxçıvanla sıx əməkdaşlıq etmək arzusundadır.

Ali Məclisin Sədri Heydər Əliyev naxçıvanlıların da iranlı qardaşlar ilə geniş əlaqələr yaradılmasını yüksək qiymətləndirdiyini, yaxınlığın hər iki tərəf üçün zəruri və faydalı olduğunu bildirmişdir. Ali Məclisin Sədri demişdir: "Biz Naxçıvan Muxtar Respublikasının azad iqtisadi zonaya çevrilməsi sahəsində artıq bir sıra işlərə başlamışıq. Lakin əlaqələrimizin möhkəmləndirilməsi və Qərbi Azərbaycanın təklif etdiyi mənada digər dövlətlərlə əlaqə sahəsində Naxçıvanın körpü olması üçün ilk növbədə muxtar respublika ilə Qərbi Azərbaycan arasında Araz üzərindən körpü salınmalıdır. Əvvəl bu məsələni yoluna qoymalıyıq".

Söhbət zamanı Qərbi Azərbaycanın Poldəşt və Naxçıvan Muxtar Respublikasının Şahtaxtı məntəqələri arasında körpü tikintisinin sürətləndirilməsi, Qərbi Azərbaycanın nümayəndəliyinə Naxçıvan şəhərində bina ayrılması və Urmiyada Naxçıvanın təmsilçiliyinin açılması, müxtəlif qarşılıqlı sərgilərin təşkil edilməsi, sərhəd ticarət məntəqələrinin yaradılması, bir sıra sənaye, kənd təsərrüfatı, ticarət müəssisələri arasında əməkdaşlığın inkişafı məsələləri

haqqında fikir mübadiləsi olmuş və konkret tədbirlər müəyyənləşdirilmişdir.

Qəbulda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini R.Həsənov, muxtar respublika Baş nazirinin birinci müavini Ə.Sadiqov iştirak etmişlər.

14 may 1992-ci il

İRAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ NAXÇIVANDA

İran İslam Respublikası Xarici İşlər nazirinin müavini ağayi Vaizi mayın 13-də Naxçıvana gəlmişdir. Elə həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev ağayi Vaizini qəbul etmişdir.

Heydər Əliyev yüksək qonağı səmimi salamlayaraq vaxt tapıb Naxçıvana gəldiyi üçün ona təşəkkür etmişdir. O demişdir ki, Naxçıvana belə yaxından diqqət göstərdiyinə görə İran hökumətinə, Xarici İşlər Nazirliyinə son dərəcə minnətdarıq. İran İslam Respublikasının Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınması üçün göstərdiyi səyləri biz yüksək qiymətləndiririk və ümidvarıq ki, bu xoş məramlı səfər öz müsbət nəticəsini verəcək.

Ağayi Vaizi H.Əliyevə müraciətlə demişdir ki, Sizin haqqınızda biz çox eşitmişdik. Dünyanın bütün ölkələrində olduğu kimi İranda da Sizi görkəmli siyasi və dövlət xadimi kimi tanıyırlar. Ona görə də bu gün Sizinlə şəxsən görüşdüyümüzə görə çox şadıq.

O, son illər Naxçıvanla İran arasında gediş-gəlişin artmasını razılıqla qeyd edərək demişdir ki, bizcə bu, hələ çox azdır. Biz qarşılıqlı surətdə bu gediş-gəlişi, bütün sahələrdə yaranmış əlaqələri daha da genişləndirməli, əməkdaşlıq üçün yeni-yeni sahələr axtarıb tapmalıyıq. Sərhədyanı ticarətin genişləndirilməsi bu sahədə atılmış mühüm addım olar.

Ağayi Vaizi sözünə davam edərək demişdir ki, regionda narahatlıq doğuran məsələlər çoxdur. Gürcüstanın öz problemləri var. Azərbaycanla Ermənistan arasında münaqişə, Dağlıq Qarabağ problemi çox narahatlıq doğuran məsələdir. Bir sözlə, heç yerdə sakitlik yoxdur. Bir sakit olan yer Naxçıvandır ki, son günlərdə buradan da bəzi narahat səslər gəlirdi. İndiyədək Naxçıvanda sabitliyin qorunub saxlanması məhz Sizin hikmətli rəhbərliyiniz nəticəsində mümkün olmuşdur.

H. Əliyev demişdir ki İran ilə Azərbaycan arasındakı münasibətlərdə Naxçıvanın xüsusi yeri var. Ona görə də Azərbaycanın ayrılmaz hissəsi kimi Naxçıvanla İran əlaqələri çox böyük əhəmiyyət kəsb edir və bununla əlaqədar ortaya çıxan bütün məsələləri yüksək səviyyədə tənzimləmək ehtiyacını biz həmişə duymuşuq. Çox şadıq ki, siz bu gün vaxt tapıb Naxçıvana gəlmisiniz. Sizin gəlişiniz bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmağa imkan verir.

Amma indi bizim hamımızı narahat edən məsələ Azərbaycan-Ermənistan münaqişəsidir, Qarabağda yaranmış vəziyyətdir və bir az da geniş-

ləndirsək, Ümumqafqaz məsələsidir. Lakin Ermənistanla Azərbaycan arasındakı münaqişə, xüsusən, Qarabağda yaranmış vəziyyət bütün azərbaycanlıları, bütün müsəlmanları çox ciddi narahat edir. İran İslam Respublikasının Ermənistanla Azərbaycan arasında vasitəçilik rolunu öz üzərinə götürməsi çox şərəfli və xeyirxah işdir. Arzumuz budur ki, vasitəçilik bir nəticə versin.

Mayın 6-7-də Tehranda Ermənistanla Azərbaycan rəhbərlərinin İranın vasitəçiliyi ilə görüşməsinə çox böyük ümid bəsləyirdik. Lakin həmin günlərdə Şuşada baş verən hadisələr, Azərbaycanın bu qədim mədəniyyət mərkəzinin erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi bizi çox pərişan etdi. İndi Naxçıvanda kimlə görüşsəniz, harada olsanız, hamının bu məsələdən danışdığını görərsiniz. Çünki bu, Azərbaycan üçün çox faciəli haldır.

Sizin dediyiniz kimi axır zamanlar gələn səslər doğurdan da narahatlıq doğurdu. Xeyli müddət idi ki, Naxçıvanda sakitlik idi. Biz burda əmin-amanlıqda yaşayırdıq və Ermənistanla olan sərhəddə sabitliyi təmin edə bilərdik. Amma may ayının 1-də Sədərək kəndində Ermənistanla olan sərhəddə atışmalar başladı. Təəssüf ki, bir neçə gün Ermənistanla aparılan danışıqlar bu atışmanı dərhal dayandıra bilmədi. Nəhayət, ayın 6-da biz buna nail olduq. Sədərək kəndi çox böyük kənddir. Orda 14 min əhali yaşayır. O, həm də Sədərək rayonunun mərkəzidir. Həmin atışmalar nəticəsində kəndin çox hissəsi dağılıb. Ermənilərin top atəşləri kənddə böyük dağıntılar yaradıb. 4 nəfər həlak olub, 40 nəfər yaralanıb. Bir nəfər milis işçisini ermənilər Günnüt kəndinə hücum edəndə girov götürmüşdülər. Sonra məlum oldu ki, onu öldürüblər. Çox çətinliklə biz bu gün onun meyidini geri ala bildik.

Onu da qeyd edim ki, ilk atəş Ermənistan tərəfindən başlamışdır və buna dair bizim əlimizdə təkzibedilməz sübutlar var. Lakin qeyd etdiyimiz kimi, mayın 6-dan atəş dayanıb və biz çalışacağıq ki, bu sakitliyi qoruyub saxlayaq. Amma bizim çətinliklərimiz çoxdur. İndi dəmir yolu bağlıdır. Həmin dəmir yolu vasitəsilə Ermənistana da, Naxçıvana da, İrana da yüklər gedir. İndi Ermənistanın Mehri rayonu ilə həmsərhəd olan Mincivan stansiyasında 500-dən artıq yük vaqonu durur ki, o yüklərin bir hissəsi də İrana getməlidir. Bir aya yaxındır ki, dəmir yolu işləmir, biz heç bir şey ala bilmirik. Vəziyyətimiz çox çətindir. May ayının 10-dan isə hava yolu da işləmir. Çünki Ermənistanın üstündən uçmaq indi çox təhlükəlidir. Çox sağ olun ki, siz İrandan bizə yol verdiniz.

Bütün bu məsələlərin həllində biz sizdən köməklik gözləyirik. Sizin gəlişiniz bu məsələlər barədə geniş söhbət aparmaq üçün imkan yaradıb və buna görə də sizə təşəkkür edirik.

Sonra H.Əliyevlə ağayi Vaizi arasında toxunulan bütün məsələlərə dair geniş fikir mübadiləsi aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin müavinləri R.Həsənov, Q.Məmmədov, A.Kələntərli qəbulda iştirak etmişlər.

Dünən İran İslam Respublikası Xarici İşlər nazirinin müavini ağayi Vaizi Naxçıvandan yola düşmüşdür.

"Şərq qapısı" qəzeti,
15 may 1992-ci il

NÜMAYƏNDƏ HEYƏTİ QƏBUL EDİLMİŞDİR

1992-ci il iyul ayının 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının Urmiya vilayəti fərmandarının müavini ağayi Rəsul Rzainin başçılığı ilə Naxçıvana humanitar yardım gətirən nümayəndə heyyoeie qəbul etmişdir.

Söhbət zamanı ağayi Rəsul Rzai bildirmişdir ki, bu səfər zamanı onlar Naxçıvan əhalisinə 25 ton un, 200 ədəd çadır, 2 milyon 500 tümən məbləğində dərman, 2 maşın uşaq yeməyi, quşçuluq fabriki üçün 5 ton 400 kiloqram yem gətirmişlər.

Ali Məclisin Sədri Heydər Əliyev gətirilən yardım üçün urmiyalılara minnətdarlığını bildirmiş, Sədərək bölgəsində son zamanlar baş vermiş hadisələr barədə məlumat vermişdir.

Qəbulda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini R.Həsənov iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti

8 iyul 1992-ci il

HUMANİTAR YARDIM DAVAM EDİR

İyulun 27-də Qərbi Azərbaycandan Naxçıvana növbəti humanitar yardım daxil olmuşdur. Urmiyanın yük maşınları muxtar respublikaya 40 ton un, 20 ton qənd, 30 ton uşaq yeməyi, 36 ton benzin, 32 min ədəd kərpic gətirmişlər.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu yardımı Naxçıvana çatdıran Qərbi Azərbaycan ostandarının müşaviri və siyasi idarənin baş müdiri ağayi Səyavuş Qəhvəçianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Söhbət zamanı ağayi Səyavuş Qəhvəçian bildirmişdir ki, Urmiyada ayda bir dəfə Naxçıvan Muxtar Respublikasına humanitar yardım göstərilməsi məsələlərinə həsr edilmiş iclas keçirilir. Urmiya nümayəndə heyətinin başçısı Naxçıvan əhalisinin ehtiyacları ilə maraqlanmışdır.

Ali Məclisinin Sədri Heydər Əliyev göstərilən qayğı və diqqət üçün İran dövlətinə, müsəlman qardaşlara naxçıvanlılar adından minnətdarlığını bildirmişdir. O demişdir ki, Azərbaycan Respublikası, o cümlədən Naxçıvan Muxtar Respublikası çətin günlərini yaşayırlar, 70 illik əsarətdən qurtulan xalq indi müstəqillik yoluna qədəm qoyub. Lakin iqtisadi çətinliklər çəkən Azərbaycan üstəlik erməni təcavüzünə məruz qalıb. Xüsusilə Naxçıvan Muxtar Respublikasının vəziyyəti çox ağırdır. Uzun müddətdir ki, Naxçıvana avtomobil və dəmir yolları işləmir, erməni or-

dusu Naxçıvan torpaqlarına təcavüz edir. Blokada şəraitində yaşayan muxtar respublikanın yardıma böyük ehtiyacı var. Ali Məclisin Sədri bu sahədə Qərbi Azərbaycan - Urmiyadan daxil olan humanitar yardımların yerinə düşdüyünü xüsusi qeyd etmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini R. Həsənov iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti

28 iyul 1992-ci il

İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla muxtar respublikanın nümayəndə heyəti İran İslam Respublikasının Xarici İşlər naziri, doktor Əli Əkbər Vilayətinin dəvəti ilə bu il avqust ayının 22-dən 26-dək İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.

Heydər Əliyev İran İslam Respublikasının rəhbəri Ayətulla Seyid Əli Xamneyi, İran İslam Respublikasının Prezidenti Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşmüşdür. Söhbət zamanı İran İslam Respublikası ilə Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası arasında olan əlaqələr, bu əlaqələrin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılmışdır. Bugünkü islam aləmi, keçmiş Sovetlər İttifaqının müsəlman dövlətlərində gedən proseslər və baş verən ictimai-siyasi dəyişikliklər barəsində söhbət getmişdir.

Heydər Əliyev İran İslam Respublikası Milli Məclisinin Sədri Natiq Nuri, İran İslam Respublikasının Xarici İşlər Naziri, doktor Əli Əkbər Vilayəti, İranın yol və nəqliyyat naziri Səidi Kiya, rabitə naziri Fərrazi, kooperasiya naziri Şəfayi, energetika naziri Zəncane, neft və qaz naziri Ağazadə, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust, İran İslam Respublikasının "Hilal Əhmər" cəmiyyətinin sədri Vəhid Dəstgirdi ilə danışıqlar aparmışdır.

Görüşlər və danışıqlar zamanı Heydər Əliyev Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə etdikdən sonra qarşılaşdığı çətinliklər, uzun sürən erməni təcavüzü ilə əlaqədar vəziyyət, respublikanın sosial-iqtisadi böhran içərisində olması və bütün bunlarla bağlı həyata keçirilən tədbirlər haqqında məlumat vermişdir. Naxçıvan Muxtar Respublikasının uzun müddət iqtisadi və informasiya blokadası şəraitində yaşadığını, muxtar respublikada sosial-iqtisadi vəziyyətin daha da gərgin olduğunu bildirmişdir. Xüsusən Naxçıvan Muxtar Respublikasında yanacaq, enerji və ərzaq qıtlığı nəticəsində əhalinin yaşayış tərzinin daha da pisləşməsini qeyd etmişdir.

İran İslam Respublikasının rəhbərləri və nazirləri Azərbaycan Respublikasına, o cümlədən Naxçıvan Muxtar Respublikasına xüsusi diqqət etdiklərini qeyd etmiş və bu çətinliklərdən çıxmaq üçün hər vasitə ilə kömək göstərməyə hazır olduqlarını bildirmişlər.

Danışıqlar səmimilik, dostluq, mehribanlıq və qarşılıqlı anlaşma şəraitində keçmişdir. Rəsmi danışıqların nəticəsində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokollar imzalanmışdır.

Protokolları Naxçıvan Muxtar Respublikası tərəfindən Ali Məclisin Sədri Heydər Əliyev, İran İslam Respublikası tərəfindən Xarici İşlər Naziri, doktor Əli Əkbər Vilayəti və "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust imzalamışdır.

İmzalanmış protokollarda qarşılıqlı siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrin genişləndirilməsi, Naxçıvan Muxtar Respublikasını böhran vəziyyətindən çıxarmaq və Naxçıvan əhalisinə kömək göstərmək məqsədi ilə bir çox məsələlər üzrə razılıq əldə edilmişdir.

Protokollara əsasən Naxçıvan Muxtar Respublikasının düşdüyü çətin vəziyyət nəzərə alınmaqla Araz su qovşağı rayonunda tikilən xətt vasitəsi ilə bu ilin oktyabr ayından etibarən İran İslam Respublikasından Naxçıvana 200 milyon kvt-saat enerji verilməsi nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikasının xahişinə uyğun olaraq muxtar respublikanın qaz ehtiyaclarını təmin etmək məqsədi ilə İran İslam Respublikasının neft və qaz sənayesi nazirliyi Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürmüşdür. Kəmər istifadəyə verildikdən sonra İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasına ildə 360,0 milyon kub.m (sutkada 1 milyon kub.m) qaz veriləcəkdir. Kəmərin tikintisini bir il müddətinə başa çatdırmaq planlaşdırılmışdır. Qaz kəməri istifadəyə verilənədək İran İslam Respublikası Naxçıvana ayda 100 ton maye qaz göndərəcəkdir.

İran İslam Respublikası Naxçıvan tərəfinin xahişini nəzərə alaraq yükdaşıma sahəsində yaranmış çətinliyi aradan qaldırmaq məqsədi ilə yüklərin Naxçıvandan Bakıya İran İslam Respublikasının ərazisindən Culfa-Xudafərin qısa yolu ilə daşınmasına razılıq vermişdir. Həmin yol hazırda tikilir və təmir olunur. Yolun bir hissəsinə asfalt örtük salınmış, istismara təhvil veriləcəkdir. Qalan hissəsi isə tikilməklə bərabər istifadə oluna bilər. Yoldan istifadə edilməsi üçün hər iki tərəf lazımi tədbirlər görəcəyini öhdəyə almışdır.

Naxçıvan Muxtar Respublikasına kömək göstərmək məqsədi ilə İran İslam Respublikasının ərazisindən Ordubad-Mincivan dəmir yol xəttinin çəkilməsi barədə muxtar respublika rəhbərliyinin xahişinə cavab olaraq İran tərəfi bildirmişdir ki, hal-hazırda göstərilən xəttin çəkilməsinin texniki cəhətdən öyrənilməsinə başlanılmış və bu sahədə iş davam etdirilir. Qısa müddətdə bu işin başa çatdırılması üçün tədbirlər həyata keçirilməlidir.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında yük və sərnişin daşınmasını genişləndirmək, vətəndaşların keçidi üçün yeni qapı açmaq məqsədi ilə Qərbi

Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərində müvəqqəti körpünün tikintisinin qısa müddətdə başa çatdırılması və əsas körpünün texnika-axtarış işlərinin sürətləndirilməsi qərara alınmışdır.

Tərəflər razılığa gəlmişlər ki, İran İslam Respublikası gənclərinin Naxçıvan ali və orta ixtisas məktəblərində, Naxçıvan gənclərinin isə İran İslam Respublikasının ali və orta ixtisas məktəblərində təhsil almaları üçün şərait yaradılsın. İran İslam Respublikası vətəndaşlarının Naxçıvan televiziyasına, eləcə də Naxçıvan əhalisinin İran televiziyasının ayrı-ayrı proqramlarına baxmaları üçün lazımi tədbirlərin həyata keçirilməsini, İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mədəniyyət, elm, incəsənət, nəşriyyat, turizm və idman sahələrində əlaqələrin genişləndirilməsini daimi diqqət mərkəzində saxlamaq nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikasının azad iqtisadi zona elan edilməsi nəzərə alınaraq, İran İslam Respublikasında və Naxçıvan Muxtar Respublikasında hər iki tərəfin ticarət nümayəndəliklərinin, şirkətlərin və birgə müəssisələrin açılmasına, şirkətlər arasında ticarət əlaqələrinin daha da genişləndirilməsinə, ticarət qaydalarının yüngülləşdirilməsinə, kömrük siyasətinin liberallaşdırılmasına və sadələşdirilməsinə, mal mübadiləsinin intensiv inkişafına qadağanların aradan qaldırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsinin təmin edilməsi barədə razılıq əldə edilmişdir.

Naxçıvan şəhərində İran İslam Respublikasının Baş konsulluğunun açılmasının tezləşdirilməsi və bu məqsədlə Naxçıvan şəhərində Baş konsulluq üçün müvafiq binanın ayrılması qərara alınmışdır.

Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək məqsədilə 9 ay müddətində Culfa sərhəd məntəqəsindən muxtar respublikaya 90 min ton kömür, 50 min ton mazut, 30 min ton dizel yanacağı, 15 min ton avtobenzin, 25 min ton un, 15 min ton kartof, 5 min ton şəkər tozu, 15 min ton soğan, 1,5 min ton makaron, 1,8 min ton bitki yağı göndərilməsi barədə razılıq əldə edilmişdir.

Naxçıvan dindarlarının islamın müqəddəs yerlərini ziyarət etməsi üçün Naxçıvan-Məşhəd-Naxçıvan təyyarə reysinin açılmasına razılıq verilmişdir.

Muxtar respublika nümayəndə heyətinin İranın "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti ilə imzaladığı protokol da Naxçıvan Muxtar Respublikasının iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Həmin protokola əsasən Babək rayonunda illik istehsal gücü 65 milyon ədəd olan kərpic zavodunun inşasını, həmin rayonda fəaliyyət göstərən kərpic zavodunun texnoloji avadanlığını dəyişib illik gücünü ildə 20 milyon ədədə çatdırmağı, Culfa karbon qazı bazasında gücü saatda 123 min butulka olan "Nüşabə" ("Pepsi-Kola") zavodunun tikintisini, Şərur konserv zavodunda gücü saatda 2 min paket olan meyvə şirəsi buraxan xəttin quraşdırılmasını, Badamlı mineral suları bazasında illik gücü 25 milyon butulka olan yeni xəttin və tutumu 0,5-1 l olan plastik qab istehsal edən sexin quraşdırılmasını, Naxçıvanın xammalı bazasında xına sexi tikintisinin həyata keçirilməsini öhdəsinə almışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin xahişi ilə İranın "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu Naxçıvan şəhərində qısa müddətə yeni məscid binasının tikilməsini öz üzərinə götürmüşdür. Naxçıvan Muxtar Respublikası "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun Naxçıvanda aparacağı işləri təşkil etmək üçün münasib bina ayrılmalıdır. Xüsusi bina tikmək üçün torpaq sahəsi verilməlidir.

Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti Tehran şəhərində İmam Xomeyninin məqbərəsini ziyarət etmiş, onun yaşadığı evlə tanış olmuşdur.

Heydər Əliyev və onu müşayiət edən şəxslər Məşhəd və Təbriz şəhərlərində də olmuş, Məşhəd şəhərində İmam Rzanın məqbərəsini ziyarət etmişlər. Xorasan ostandarlığının, Şərqi Azərbaycan ostandarlığının rəhbərləri ilə görüşmüş və danışıqlar aparmışlar.

Dahi İran şairi Firdovsinin Məşhəd şəhərinin yaxınlığında yerləşən məqbərəsini, Təbriz şəhərində şəhidlər qəbristanlığını və böyük Azərbaycan şairi Şəhriyarın məqbərəsini ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti Məşhəd şəhərində Ayətulla Təbəzzi, Təbrizdə Ayətulla Mələk Quti ilə görüşüb söhbət etmiş, Məşhəd şəhərindəki dərman zavodunda, Təbriz universitetində, Təbrizdəki traktor zavodunda və yun fabrikində olmuşlar.

Heydər Əliyev İran İslam Respublikasına səfəri zamanı bu ölkənin teleradio və qəzet müxbirlərinə müsahibələr vermiş, mətbuat konfransı keçirmişdir.

Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin qonşu İran İslam Respublikasına rəsmi səfəri Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dostluğun, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi yolunda böyük əhəmiyyət kəsb edən bir hadisə olmuşdur. Bu səfər İran İslam Respublikası ilə gələcək münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti

2 sentyabr 1992-ci il

İRAN İSLAM RESPUBLİKASI, TEHRAN ŞƏHƏRİ İRAN İSLAM RESPUBLİKASININ RƏHBƏRİ AYƏTULLA XAMNEYİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm Xamneyi cənabları!

İran İslam Respublikasında olarkən Sizinlə, islam aləminin böyük siyasi, din və dövlət xadimi ilə görüşümüz və dostluq, qardaşlıq

şəraitində keçən səmimi söhbətlərimiz üçün, Naxçıvan Muxtar Respublikasına Sizin tərəfdən göstərilən qayğıya görə dərin minnətdarlığımı bildirirəm.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanan Əməkdaşlıq protokolları Sizin müstəqil Azərbaycan Respublikasına qayğımızın ifadəsidir.

Ümidvaram ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etməsi naminə Ali həzrətləriniz bundan sonra da səylərini əsirgəməyəcəkdir.

Dərin hörmət və ehtiramla

HEYDƏR ƏLİYEV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri,
28 avqust 1992-ci il

İRAN İSLAM RESPUBLİKASI, TEHRAN ŞƏHƏRİ, İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ AĞAYİ SEYİD HAŞİMİ RƏFSƏNCANİ HƏZRƏTLƏRİNƏ

Çox hörmətli Prezident!

İran İslam Respublikasında olarkən Sizin və İranın rəsmi dairələrinin Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinə, şəxsən mənə göstərdiyi diqqət və qardaşlıq münasibətinə görə sonsuz minnətdarlıq hisslərimi bildirir, təşəkkür edirəm.

Tehran şəhərində İran İslam Respublikası ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Əməkdaşlıq protokolları şəxsən Sizin diqqət və qayğınızın nəticəsidir. Naxçıvan Muxtar Respublikasının bugünkü ağır və böhranlı vəziyyətində dost köməyiniz heç vaxt yaddan çıxmayacaqdır.

Ümidvaram ki, Sizin şəxsi səyiniz nəticəsində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq əlaqələri bundan sonra daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Dərin hörmət və ehtiramla

HEYDƏR ƏLİYEV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri,
28 avqust 1992-ci il

İRAN İSLAM RESPUBLİKASI, TEHRAN ŞƏHƏRİ, İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DOKTOR ƏLİ ƏKBƏR VİLAYƏTİYƏ

Cənab nazir!

Sizin şəxsi dəvətinizlə İran İslam Respublikasında olduğum gün ərzində Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinə və şəxsən mənə göstərdiyiniz mehribanlıq və diqqət üçün dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə Əməkdaşlıq haqqında 24 avqust 1992-ci ildə Tehran şəhərində imzalanmış protokolu Naxçıvanın ağır vəziyyətdən çıxarmaq yolunda böyük qardaşlıq yardımı, tarixi bir sənəd kimi qiymətləndirirəm.

Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin İran İslam Respublikasına səfərinin təşkil olunmasında, Əməkdaşlıq protokolunun bağlanmasında Sizin şəxsi xidmətlərinizi xüsusilə dəyərləndirirəm.

Ümidvaram ki, Sizinlə, cənab nazir, görüşlərimiz, səmimi söhbətlərimiz və birgə imzaladığımız Əməkdaşlıq protokolu İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin genişlənməsinə və inkişaf etməsinə kömək edəcəkdir.

Dərin hörmət və ehtiramla

HEYDƏR ƏLİYEV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri,
28 avqust 1992-ci il

İRAN İSLAM RESPUBLİKASI, TEHRAN ŞƏHƏRİ İRAN İSLAM RESPUBLİKASININ "BONYADE MOSTEZƏFAN VƏ CANBAZANE ENQELABE ESLAMİ" FONDUNUN PREZİDENTİ AĞAYİ MÖHSEN RƏFİQDUST CƏNABLARINA

Cənab prezident!

Naxçıvan Muxtar Respublikasının bugünkü çətin vəziyyətində Sizin başçılıq etdiyiniz fondun göstərdiyi köməkliyə görə Naxçıvan Muxtar Respublikasının əhalisi adından, şəxsən öz adımdan dərin təşəkkürümü bildirirəm.

Cənab Rəfiqdust, Sizinlə imzaladığımız Əməkdaşlıq protokolu Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq əlaqələrinin daha da genişlənməsi üçün zəmin yaradacaqdır.

Sizin göstərdiyiniz səmimiyyət və qardaşlıq münasibətinizə görə dərin təşəkkürümü izhar edirəm.

Dərin hörmət və minnətdarlıqla

HEYDƏR ƏLİYEV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri,
28 avqust 1992-ci il

ÇƏTİNLİKLƏRİ ARADAN QALDIRARAQ

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası

Xəbər verildiyi kimi, sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası öz işinə başlamışdır. Sessiyanın gündəliyində duran ən mühüm məsələlərdən biri "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin İran İslam Respublikasına rəsmi səfərinin yekunları və Tehran şəhərində bağlanmış əməkdaşlıq protokolları haqqında" və "Naxçıvan Muxtar Res-

publikası Ali Məclisinin sədri H.Əliyevin Türkiyəyə səfərinin yekunları haqqında (10-14 avqust 1992-ci il)" məsələləri idi. Həmin məsələlərlə əlaqədar Naxçıvan MR Ali Məclisinin Sədri H. Əliyev məruzə etmişdir. H.Əliyev demişdir ki, o, avqust ayının 22-dən 26-dək İran İslam Respublikasının hökumətinin dəvəti ilə İranda olmuşdur.

Səfərdən əvvəl bizim İranın rəhbərləri ilə, xüsusən İranın Xarici İşlər Naziri doktor Əli Əkbər Vilayəti, İranın Azərbaycandakı səfiri, ağayi Nəhavəndian ilə İran İslam Respublikası Xarici İşlər Nazirliyinin müşaviri, ağayi Şeyx Əttarla danışıqlarımız olmuşdur. Biz İran ilə Azərbaycan arasında münasibətlərin genişlənməsi, inkişaf etdirilməsi zəruriliyindən danışmışdıq. Bu barədə fikirlərimiz üst-üstə düşmüşdür. Onlar da, biz də qeyd etmişdik ki, 70 illik ayrılıqdan sonra Arazın o tayında və bu tayında biz islam aləminə mənsub olan qardaş və bacılar artıq görüşməyə başlayırıq və indi Azərbaycan müstəqil dövlət kimi yaxın qonşuları ilə, o cümlədən İran İslam Respublikası ilə öz münasibətlərini inkişaf etdirməlidir.

Bu baxımdan Azərbaycanın Naxçıvan bölgəsi İrana daha yaxın bir ərazidir. Naxçıvanın İran İslam Respublikası ilə 204 kilometrlik sərhəddi var. Biz nəinki həmsərhəd olduğumuza görə, eyni zamanda Arazın o tayında bizim doğma bacı-qardaşlarımız, din qardaşlarımız yaşadıqlarına görə əlaqələr mütləq inkişaf etməli, genişlənməli və yeni vüsət almalıdır. Eyni zamanda, Azərbaycanın bütün hissəsi ilə Naxçıvan Muxtar Respublikasının ərazisi arasındakı Ermənistan ərazisindən keçən kommunikasiya xətlərinin pozulması ilə əlaqədar Azərbaycanın paytaxtı Bakı şəhəri və başqa regionları ilə bu kommunikasiya xətlərinin etibarlı qurulması işini təmin etməliyik. Bu problem yeni problem deyil. Bu məsələ ilə biz bir ildən çoxdur ki, məşğul oluruq. Azərbaycan hökuməti də bu problemlə məşğul olmuşdur. Hətta bu ilin fevral ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Naxçıvanda etibarlı kommunikasiya xətlərinin yaradılması haqqında xüsusi qərarı olmuşdur. Bu qərarda başdan-ayağa Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın bütün hissəsinin arasında olan kommunikasiya xətlərinin bundan sonra İran İslam Respublikasının ərazisindən keçməsi nəzərdə tutulmuşdur. Lakin çox təəssüf ki, həmin qərar həyata keçirilməmiş və bu sahədə heç bir iş görülməmişdir. Düzdür, Azərbaycan Respublikasının keçmiş Baş naziri İran İslam Cümhuriyyətinin neft və qaz sənayesi naziri Ağazadə ilə kiçik bir protokol bağlamışdır. Lakin bu protokolda nəzərdə tutulanlar da həyata keçirilməmiş, kağız üzərində qalmış, heç bir iş görülməmişdir. Ona görə də, xüsusən, aprel ayında bizim dəmir yolu Ermənistan ərazisindən kəsildiyinə görə, qaz da keçən ildən gəlmədiyinə görə, habelə elektrik enerjisinin verilməsi kəsildiyinə görə və gələcəkdə bu xətlərin, o cümlədən rabitə xətlərinin və başqa xətlərin də Ermənistan ərazisindən keçməsinin etibarsız olduğunu nəzərə

alaraq, şübhəsiz ki, bizim yeganə yolumuz bu xətlərin İran İslam Respublikasının ərazisindən keçməsini təmin etməkdir, İranın nümayəndələri ilə danışıq apararkən birinci növbədə bu məsələlərin həll olunmasını və eyni zamanda başqa iqtisadi əlaqələri, Naxçıvanın, eləcə də Azərbaycanın belə bir böhran vəziyyətində olduğu dövrdə İran tərəfindən Naxçıvana xüsusi yardım göstərilməsi məsələsini ön plana çəkərək konkret təkliflər vermişdik.

Bu məsələlərin həll olunması üçün belə bir səfər zəruri idi. Bütün bunların hamısını nəzərə alaraq mən bu dəvəti qəbul etmişdim və belə bir səfər artıq həyata keçirilmişdir. Bu səfər zamanı Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinə çox böyük hörmət və ehtiram göstərilmişdir.

Məlum olduğu kimi, bizim İrana getmək imkanlarımız bir qədər məhdud idi. Ona görə də İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaninin xüsusi təyyarəsi Naxçıvana gəldi və biz avqust ayının 22-də Naxçıvandan Tehrana getdik. Səmimi dostluq, qardaşlıq və mehribanlıq şəraitində bizi qəbul etdilər. İlk dəqiqələrdən Naxçıvana qayıdanadək bizim orada işimiz çox gərgin oldu. Hər dəqiqəmiz, saatımız, günümüz çox səmərəli, işgüzar şəraitdə keçdi və deyə bilərəm ki, İran İslam Respublikasının rəhbərləri, habelə bizimlə məşğul olan bütün nazirlər, dövlət məmurları Naxçıvana kömək etmək və bu səfər zamanı bütün məsələlərin həll olunmasını təmin etmək üçün çox çalışdılar. Qeyd etməliyəm ki, İran İslam Respublikasının siyasi və dini rəhbəri ayətullah Xamneyinin bizimlə görüşməsi və bir saatdan artıq onunla çox ətraflı söhbət etməyimiz bizim üçün müstəsna əhəmiyyət kəsb etdi. Bildiyiniz kimi Həzrəti Xamneyi Həzrəti Xomeyninin rəhbərliyi vaxtında 8 il İran İslam Respublikasının prezidenti olmuş, Xomeyni vəfat etdikdən sonra o, İranın dini və siyasi rəhbəri seçilmişdir. Ona görə də Həzrəti Xamneyi indi İran İslam Respublikasında ən yüksək zirvədə duran şəxsiyyətdir. Özü Təbriz yaxınlığında olan Xamneyi kəndindəndir. O, bizimlə öz ana dilimizdə söhbət etdi. Çox ətraflı və məzmunlu söhbətimiz oldu. Mənim şəxsi təəssüratım belədir ki, ağayi Xamneyi çox böyük alimdir, böyük siyasi xadimdir, böyük din xadimidir. İran İslam Respublikasında böyük hörmətə və şöhrətə malikdir. Ona görə də onun Naxçıvan Muxtar Respublikasına marağı və nəzərdiqqəti bizim üçün çox böyük əhəmiyyət kəsb edir.

İran İslam Respublikasının Prezidenti ağayi Haşimi Rəfsəncani ilə çox məzmunlu söhbətlərimiz və danışıqlarımız oldu. Bu danışıqlar da çox səmərəli keçdi, qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi istiqamətində getdi. Belə hesab edirəm ki, mən də, nümayəndə heyətinin tərkibində olanlar da Prezident Rəfsəncani ilə görüşlərimizdən çox məmnun olmuşdular. Bu görüş qaldırdığımız məsələlərin İran İslam Respublikası nazirliklərində müsbət həll olunmasına kömək etdi. Biz həm Ayətulla Xamneyi ilə, həm ağayi Haşimi Rəfsənca-

ni ilə görüşümüzdə ilk növbədə Azərbaycanda olan ictimai-siyasi vəziyyət haqqında, Azərbaycan müstəqillik əldə etdikdən sonra həyata keçirilən tədbirlər haqqında, Azərbaycanın iqtisadi-siyasi böhran içərisində yaşaması haqqında, Ermənistan tərəfindən Azərbaycan ərazisinin bir hissəsinin işğal olunması və Azərbaycana qarşı hərbi təcavüzlər olunması, çox böyük qurbanlar verilməsi və respublikanın çox ağır vəziyyətdə olması haqqında geniş məlumatlar verdik, bu barədə ətraflı fikir mübadiləsi apardıq. Şübhəsiz ki, biz birinci növbədə müstəqil Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında olan bütün münasibətlərin daha da inkişaf etməsi və genişlənməsi məcrasında öz söhbətlərimizi aparırdı.

Bununla yanaşı olaraq Naxçıvan haqqında da geniş məlumatlar verdik. Ermənistanın son 4-5 ay ərzində Naxçıvan ərazisinə təcavüzü, sərhəd kəndlərimizi dağıtması, verdiyimiz qurbanlar, tələfatlar haqqında, bizə dəyən maddi və mənəvi zərər haqqında, Naxçıvanın uzun müddət tam blokada şəraitində yaşaması haqqında və belə bir şəraitdə Azərbaycanın başqa bölgələrinə nisbətən daha ağır vəziyyətdə olması haqqında biz həzrəti Xamneyiyə, Prezident Haşimi Rəfsancaniyə geniş məlumatlar verdik. Onlar bizim məlumatlarımıza çox böyük maraq göstərdilər çox diqqət yetirdilər. Azərbaycana, o cümlədən Naxçıvana bütün imkan dairəsində yardımlar ediləcəyini bildirdilər.

Bizim danışıqlarımız konkret şəkildə İran İslam Respublikası Xarici İşlər Naziri doktor Əli Əkbər Vilayəti ilə oldu. Biz bir neçə dəfə görüşdük. O, bizi təyyarə limanında qarşıladı, orada keçirilən mətbuat konfransında iştirak etdi. Biz orada birbaşa xarici işlər nazirliyinə getdik. Orada çox ətraflı söhbət oldu və o, şübhəsiz ki, öz rəhbərlərinin göstərişi ilə bizim lazım olan nazirlərlə görüşlərimizi təşkil etdi. Bu görüşlərdə həm Əli Əkbər Vilayətiyə, həm də başqa nazirlərə bütün məsələləri tam aşkar şəkildə bildirdik, necə bir vəziyyətdə olduğumuzu onlara çatdırdıq, eyni zamanda onların bizə hansı sahələrdə yardım göstərə biləcəkləri barədə təkliflərimizi verdik. Görüşlərimiz çox intensiv keçdi. Bütün bu məsələlərin hamısını biz üç gündən də az bir müddətdə həll edə bildik. İran İslam Respublikasının nazirlərindən yol və nəqliyyat naziri Səidi Kiya, rabitə naziri Ğərrazi, kooperasiya naziri Şəfai, energetika naziri Zəncane, neft və qaz naziri Ağazadə ilə görüşlərimiz oldu. Çünki bizə əsas bu nazirliklər lazım idi.

Onu da qeyd etmək istəyirəm ki, orada olan dövlət quruluşu da çox ciddi və məsuliyyətlidir. Qoyulan məsələləri onlar birbaşa həll edə bilmirlər. Çünki həmin məsələlərin bir çoxu onlar üçün çox mürəkkəb idi. Onu da açıq deyək ki, bu müqavilə başdan-başa İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasına köməyidir. Ona görə də hər bir nazirlik gərək öz imkanlarını ölçüb-biçəydi və Prezidentə məlumat verəydi ki, hansı məsələlərin həlli mümkündür, hansınınkı mümkün deyil.

Bundan əlavə, biz Əli Əkbər Vilayəti ilə görüşərkən İranda fəaliyyət göstərən "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust ilə görüşüb danışıqlar aparmaq təklifini vermişdik. Bu fond ilə Naxçıvanın müəyyən əlaqələri var. Biz hələ bu ilin əvvəlindən bu əlaqələri yaratmaq istəyirdik. Möhsen Rəfiqdustun müavini Şaabanian bir-iki dəfə Naxçıvana gəlmişdi və burada bizim onunla danışıqlarımız olmuşdu. Biz bu fondun imkanlarını yaxşı bilirik. Həmin fond çox böyük imkanlara malikdir. Demək olar ki, dünyanın bütün ölkələri ilə iqtisadi əlaqələr saxlayır. Çox ölakələrdə müəssisələr, şirkətlər yaradır. Bu fond İran şahı Məhəmməd Rza Pəhləvi İrandan gedəndən sonra bütün şah ailəsinin əmlakının sahibkarı olub. Qeyd etdiyim kimi fondun prezidenti Möhsen Rəfiqdustur. O, Həzrəti Xomeyninin yaxın adamlarından idi. Çox da yaxşı insandır. Mən onu Naxçıvana dəvət etmişdim. O da söz vermişdi ki, gələcək. Ancaq sonra əlaqələrimiz pozuldu. Bu da bizim bəzi adamların işi bilmədən cürbəcür şayiələr yaymaqları ilə əlaqədardır.

Xatirinizdədirsə, Bakıda çıxan qəzetlərin birində məlumat dərc olunmuşdu ki, guya Naxçıvan imkan verir ki, İran İslam Respublikası Naxçıvan ərazisindən Ermənistana silah göndərsin və bu silahların da göndərilməsini İran İslam Respublikasının vətəndaşı, milliyyətcə erməni olan Şaabanian təşkil edir. Çox təəssüf ki, bizim bəzi adamlar bilmədiklərini danışırlar, bizə yəni Azərbaycana, Naxçıvana xeyir vermək əvəzinə, böyük zərər vururlar. O vaxt mən məcbur oldum, İranın Bakıdakı səfirinə telefon etdim. Həmin vaxt İranın Xarici İşlər nazirinin müşaviri Şeyx Əttar da Bakıda idi. Onlara müraciət etdim və onlar bunu təkzib etdilər. Biz də burdan təkzib göndərdik ki, İran İslam Respublikasından Naxçıvan ərazisi vasitəsi ilə Ermənistana heç bir silah getməyib. Şaabanian isə erməni deyil, müsəlamandır, farsdır və məşhur bir şəxsiyyətdir.

Onu da bilməlisiniz ki, İranda "yan"la qurtaran familiyalar çoxdur. Həm farslarda, həm də azərbaycanlılarda. Ancaq sadəcə olaraq bəzi adamlar öz səviyyələrinin çox aşağı olduğunu göstərərək indiyədək İranda belə familiyaların olduğunu bilmirlər. Və yaxud bilə-bilə qəsdən gündə bir şayiə yayırlar ki, işləri pozsunlar. O vaxtlar bizim əlaqələr müəyyən qədər pozulmuşdu. Bu məqsədlə də fondun prezidenti Rəfiqdustla görüşməli olduq. Görüşümüz çox yaxşı keçdi. Çünki İran İslam Respublikası bizə olan köməyi dövlət hesabına edəcək. Bu fondun isə çox böyük maddi imkanları var. Və həmin fond həm də onların dili ilə desək, fəqir-füqaralara, qaçqınlara yardım edən bir fonddur. Ona görə də bu fondun imkanlarından istifadə etmək Naxçıvan üçün çox sərfəlidir. Bu fond bir çox islam ölkələrində, eləcə də Naxçıvanda fəaliyyət göstərmək istəyir. Bizim danışıqlarımız çox səmərəli oldu. Biz həmin fondla da protokol imzaladıq.

Bütün bu danışıqların nəticəsin-

də protokollar hazır oldu. Avqust ayının 24-də mənim üçün ayrılan iqamətgahda protokolların rəsmi imzalanması mərasimi oldu. Bu mərasimdə mətbuat, televiziya və radio nümayəndələri iştirak etdilər. Bu protokolların İran tərəfindən İran hökumətinin tapşırığı ilə Xarici İşlər Naziri, doktor Əli Əkbər Vilayəti, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun adından fondun prezidenti Möhsen Rəfiqdust, Naxçıvan Muxtar Respublikası adından isə mən imzaladım. Protokollar imzalanarkən bizim çıxışlarımız oldu. Mən və doktor Vilayəti çıxış etdik. Bu protokolların əhəmiyyəti haqqında İran İslam Respublikası və Azərbaycan Respublikası, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin genişləndirilməsi haqqında ətraflı məlumatlar verildi.

Bu protokollarda demək olar ki, Naxçıvan MR üçün çox böyük əhəmiyyəti olan məsələlər həll olunur. Birinci növbədə məsələlər ondan ibarətdir ki, Azərbaycanın bütün hissəsi ilə bizim kommunikasiya xətlərimizin İran İslam Respublikasından keçməsi bu protokolda öz əksini tapıb. Özü də ümumi şəkildə yox, konkret şəkildə. Mən belə hesab edirəm ki, bu protokolun ən mühüm bəndlərindən biri Naxçıvanın qaz ilə təmin olunmasıdır. Bildiyiniz kimi, vaxtilə çox böyük çətinliklərə sinə gərərək, böyük vəsait sərf edərək Azərbaycandan Naxçıvana qaz kəməri çəkilmişdir. Naxıvanda yaşayan namuslu, qeyrətli adamlar bunun nə qədər böyük əhəmiyyəti olduğunu heç vaxt unutmayacaqlar. Mən bura gələrkən kəndlərdə olan sadə adamlar, əmək adamları, həyatı düzgün qiymətləndirən adamlar bunun necə müstəsna əhəmiyyət kəsb etdiyini qeyd edirdilər.

İndi təəssüf ki, bir ilə yaxındır biz bu qazdan məhrum olmuşuq. Qaz kəməri artıq Naxçıvanda işləmir. Bunun əvvəlki səbəbi o idi ki, Azərbaycan Ermənistana qaz verilməsini kəsmişdi. Ona görə bizə də qaz gəlmirdi. İndi isə bu, onunla əlaqədardır ki, Azərbaycanda qaz çatmır. Əgər o vaxt Azərbaycanda ildə 15 milyard kubmetr qaz hasil edilirdisə, indi o, 7 milyard kubmetrə enmişdir. Beləliklə, iki dəfə azalmışdır. O vaxt İran Astaradan Azərbaycana ildə 3 milyard kubmetr qaz verirdi. Zaqafqaziya respublikaları bunun vasitəsilə qazla təmin olunurdu. Həmin qaz kəməri SSRİ-nin xərci ilə çəkilmişdi və alınan qazın dəyəri SSRİ hökuməti tərəfindən valyuta ilə ödənilirdi. Xomeyni hakimiyyətə gəldikdən sonra həmin kəmər vasitəsilə qaz verilməsi dayandırıldı. İndi Azərbaycan müstəqillik əldə etdikdən sonra həmin qaz kəməri işləyir və onun vasitəsilə 3 milyard kubmetr əvəzinə ildə 1 milyard kubmetr qaz verilir. İranda olarkən bizə dedilər ki, Azərbaycana verilən qazın pulu hələ ödənilməyib. Onlar belə hesab edirlər ki, Azərbaycan Respublikası İrana borcludur və bu borcu nə vaxtsa ödəməlidir.

Bütün bu məsələləri bilmək lazımdır. Azərbaycanın iqtisadiyyatını, Naxçıvanın iqtisadiyyatını bilmədən siyasətlə məşğul olmaq, hakimiyyətə can atmaq əbəs işdir. İndi Azərbaycanda qaz təchizatı sahəsində vəziyyət çox çətindir. Ona görə də yaxın bir dövrdə, ola bilsin ki, 5-10 ilə Azərbaycandan Naxçıvana qaz gəlməsi mümkün olmayacaq. Deməli, Naxçıvanın qaz təchizatını biz İran İslam Respublikası vasitəsilə həyata keçirməsək, bu yaxın vaxtlarda Naxçıvana qaz gətirmək mümkün olmayacaq. Bu, tək bizim üçün yox, gələcək nəsillər üçün də böyük əhəmiyyətli məsələdir. Ona görə də bu işlə məşğul olmağı mən özümə şərəf hesab edirəm. Əgər vaxtilə Naxçıvana qaz çəkilməsində mənim xidmətim olubsa, indi də bu işi həll etməyi mən özümə borc bilirəm. Amma mən bilirəm ki, bu məsələnin həll olunması çox çətindir. Əvvəla, belə bir addım atılmışdır. Lakin bir nəticə verməmişdir.

Bu barədə danışıqlarımız çox gərgin oldu. Ələsgər Sadiqov və başqa şəxslər mənim yanımda idilər, Xoydan Culfayadək çəkiləcək qaz kəmərinin uzunluğu 90 kilometr olacaq. Azərbaycan söz vermişdir ki, bunun üçün lazım olan boruları alıb verəcək, kəmərin çəkilməsi və Naxçıvana verilən qazın pulunu ödəyəcək. İndi Azərbaycanın belə bir imkanı yoxdur. Mən bilirəm ki, bu boruları o vaxt Ukraynadan, Uraldan alırdıq, çox hissəsini isə Qərbi Almaniyadan və Avstriyadan gətirirdik. İndi Azərbaycan nə Ukraynadan boru ala bilər, nə də xaricdən. Valyuta ilə boru almağa Azərbaycanın imkanı yoxdur. Ona görə də bu məsələni İran İslam Respublikasının üzərinə qoymaq lazım idi. Bu barədə çox geniş və gərgin söhbətlər oldu. Ağazadənin özü də xoyludur, bizə, Naxçıvana və Azərbaycana çox yaxın bir adamdır. O, iki dəfə nazirliyin məsul işçiləri ilə məsələni müzakirə etdi və bir daha Prezident Haşimi Rəfsəncani ilə məsləhətləşdikdən sonra buna razılıq verdi. Ancaq dedi ki, bu qaz kəmərinin çəkilməsi üçün üç il vaxt lazımdır. Mən də cavabında dedim ki, bizə lazımdır ki, həmin kəmər üç ilə yox, 5-6 aya çəkilsin. O gülərək dedi ki, ağayi Heydər Əliyev, bunu başqa adam desəydi, mən təəccüb etməzdim. Siz təcrübəli adamsınız və bilirsiniz ki, bu qaz kəmərini qısa bir müddətdə çəkmək olmaz. Xeyli götür-qoy etdikdən sonra biz qərara gəldik və bu protokoloda da yazılıb ki, həmin qaz kəməri bir il müddətində çəkiləcək və Culfada bizə təhvil veriləcək. Kəmərin bütün çəkilmə xərcləri İran İslam Respublikasının üzərinə düşəcək. Axırda Ağazadə dedi ki, siz bilməlisiniz ki, bunu bir il ərzində görmək üçün mən gərək Məşhəd ostandarlığının ərazisində olan və artıq istifadəyə buraxılmış boruları oradan bura gətirəm və bu işi elə sürətlə aparam ki, qaz kəməri protokolda göstərilən vaxtda hazır olsun.

İndi gəlin baxaq görək bu qaz kəməri neçəyə başa gələcək? Biz doktor Vilayəti ilə danışıqlar aparanda kredit məsələsini də onun qarşısına qoymuşduq. O mənə dedi ki, biz ümumiyyətlə kredit vermirik. Ancaq sizə elə yardımlar edəcəyik ki, o, kreditdən də qiymətli olsun. Sonra isə biz bu protokolu imzalayanda mənə dedi ki, bu qaz kəmərinin bizim ərazimizlə çəkilməsinin xərci 50 mil-

yon dollardır. Cavabında mən dedim ki, siz bizə qaz kəməri çəkdiniz. Lakin bizim onun pulunu ödəmək imkanımız yoxdur. Onlar bizə dedilər ki, bizim də imkanımız məhduddur. Bizdə 8 il müharibə gedib, zəlzələ olub. Bizim o qədər çətinliklərimiz var ki, ancaq necə bir din qardaşı kimi, necə bir can qardaşı kimi biz sizə kömək edirik. Dedilər ki, Naxçıvanda qaz şəbəkəsi var, orada bir şirkət yaradaq, sizə ildə 350 milyon kubmetr (bu Naxçıvanın bir illik tələbatıdır, günə bir milyon kubmetr) qaz verək. Ancaq o qazı biz özümüz satıb pulunu götürəcəyik. Biz buna razı olduq. Amma mən məsələ qoydum ki, biz böyük çətinlik içindəyik, qarşıdan qış gəlir, qaz isə 12 aydan sonra gələcək. Bunun üçün çox sağ olun. Bəs indi nə edək? Mən məsələ qaldırdım ki, bizə ayda 300 ton maye qaz versinlər. Çox götür-qoydan sonra Naxçıvana ayda 100 ton maye qaz verilməsinə razılıq verdilər. Biz bu qazı avqustun axırından almalıyıq. Lakin gecdir. Biz gərək gələn kimi bunları həll edəydik, nümayəndələri göndərəydik ki, qazın alınması təmin olunaydı.

İkinci məsələ elektrik enerjisinin alınmasıdır. İran tərəfi 40 meqavatt elektrik enerjisi verməyə razılıq verib. Bizim tələbatımız 120 meqavattdır. Lakin hələlik 40 meqavatt bizim tələbatımızın bir hissəsini ödəyəcək. Ancaq burada da məsələ ondan ibarətdir ki, birincisi, icazə verilməlidirlər ki, biz onu bağlayaq, ikincisi, o elektrik enerjisini bizə verməlidirlər, üçüncüsü isə heç kəsə müftə elektrik enerjisi verilmir. Bəs, bunun əvəzi necə ödəniləcək? Yenə də mən dedim ki, onun əvəzini ödəməyə bizim imkanımız yoxdur. Ondan başqa bir vasitədən istifadə etdik. İndi Azərbaycan Respublikası nəinki özünü elektrik enerjisi ilə təmin edir, hətta Gürcüstana və Ermənistana da elektrik enerjisi satır. Ona görə də Azərbaycan bizi təmin etmək üçün başqa yerlərdən İrana elektrik enerjisi verə bilər. Ancaq siz bunun texniki cəhətini bilməlisiniz. Parsabad tərəfindən yüksək gərginlikli elektrik xətti çəkilir. Onun vasitəsilə Azərbaycandan İrana elektrik enerjisi verilə bilər. Biz istəyirik ki, oktyabr ayınadək bu xətti çəkək və elektrik enerjisi alaq. Əvəzini isə yalnız bir ildən sonra vermək olar. Ona görə də biz protokolda yazdıq və onlar da razılaşdılar ki, oktyabr ayından etibarən əgər biz o xətti çəksək, transformatoru quraşdıra bilsək, elektrik enerjisi ala bilərik.

Protokolda olan razılaşmalardan biri də Azərbaycandan Naxçıvana İran ərazisindən keçən yolun çəkilməsidir. Ermənistan ərazisindən keçən avtomobil yolu bir neçə ildir ki, işləmir, dəmir yolunun aprel ayından bağlanması isə muxtar respublikanın tam blokadaya alınmasına gətirib çıxarmışdır. Ona görə də biz İranda bu məsələni xüsusi müzakirə etdik. İran İslam Respublikasının yol nəqliyyat naziri ilə xüsusi görüşlərimiz oldu. Həmin görüşlər zamanı bu məsələlər müzakirə olundu və nəhayət, biz razılıq əldə edə bildik. Yəni, bizim əsas məqsədimiz odur ki, Naxçıvandan Azərbaycana İran ərazisindən gedən yol qısa olsun. Bunun üçün də vaxtilə müzakirə edilmişdir ki, Azərbaycandan yol Cəbrayıl rayonunun ərazisinə qədər gəlsin, oradan Xudafərin körpüsündən İrana keçsin. İran ərazisindən təxminən 155 kilometr məsafədə gəlib Culfaya çıxsın. Bu məsələ yeni məsələ deyil. İndi artıq razılıq alındı. Bizə məlumat verdilər ki, o 155 kilometr yolun təxminən 70 kilometri asfaltlanıb. Qalan hissəsi isə asfaltla örtülməkdədir. Amma həmin sahənin də vəziyyəti yaxşıdır, bizim yük maşınları rahat gedib-gələ bilirlər. Protokolda qeyd edildi ki, bu yoldan istifadə olumasına başlanılsın. Culfada bizim keçid məntəqəsi, hər iki tərəfdən kömrük xidməti var. Xudafərin körpüsü üzərində həm Azərbaycan tərəfindən, həm də İran tərəfindən keçid məntəqəsi yaradılmalıdır və kömrük xidmətləri təşkil olunmalıdır ki, biz bu yoldan istifadə edə bilək. Beləliklə də, Bakı ilə Naxçıvan arasındakı yol 500-550 kilometr təşkil edər ki, bu da yük daşınmalarını xeyli yüngülləşdirər. Bu məsələ həll olunub və biz gərək təcili tədbirlər görək. Əgər millət vəkilləri bu protokolu təsdiq etsələr, belə bir fikir var ki, maye qazın alınması, burada qaz şirkətinin yaradılması, həm də yol məsələlərinin həll olunması üçün Baş nazirin birinci müavini Ə. Sadiqov müəyyən nümayəndə heyəti ilə dərhal İrana getməlidir.

Yol barəsində bizim bir problemimiz də var. Yol deyəndə biz avtomobil yolu ilə yanaşı, istəyirik ki, dəmir yolunun da İran ərazisindən çəkilməsinə nail olaq. Bunun üçün Ordubad ərazisindən bir körpü tikilməlidir ki, Bakıdan Naxçıvana qatarlar həmin yolla gəlsin. Onda biz artıq Ermənistandan asılı olmayacağıq. Bu, həm də İrana gedən yüklərin maneəsiz gedib ünvanına çatmasına şərait yaradar. İndi müəyyən texniki axtarışlar qurtarandan sonra dəmir yolunun tikilməsinə başlanılsın.

İndi Şahtaxtı ilə Poldəşt arasında müvəqqəti körpü tikilir. Onun tikintisini İran İslam Cümhuriyyəti öz üzərinə götürüb. Orada daimi körpünün tikilməsi haqqında biz yol nəqliyyat naziri ilə danışıqlar apardıq. Razılıq əldə olundu ki, onlar bu körpünü tikəcəklər. Mən qeyd etdim ki, hələ çar Rusiyasiya vaxtında Şahtaxtıdan İrana dəmir yol körpüsü olub. Son 70 il ərzində bu körpü dağıdılıb. İndi İranla əlaqələrimizin genişləndiyi bir vaxtda belə bir daimi körpünün, xüsusən dəmiryol körpüsünün tikilməsi vacibdir. Onlar da buna razı oldular və bu məsələnin həllini öz üzərlərinə götürdülər. Bu da protokolda öz əksini tapdı.

Protokolda bir neçə mühüm razılıqlar da öz əksini tapıb. Bu, Naxçıvan ilə İran İslam Respublikası arasında iqtisadi əlaqələrin genişləndirilməsi, birgə şirkətlərin yaradılması, İran şirkətlərinin Naxçıvanda fəaliyyət göstərməsi, Naxçıvanda olan şirkətlərin, kooperativlərin və assosiasiyaların isə İranda sərbəst fəaliyyət göstərməsi, gömrük siyasətinin liberallaşdırılması, ümumiyyətlə, ticarətin genişləndirilməsi və sairdir. Lakin biz çalışmalıyıq ki, həm İran ilə, həm Türkiyə ilə, həm də başqa ölkələrlə əlaqələrimizdə öz iqtisadiyyatımıza zərər verən addımlar

atmayaq. Eyni zamanda hamı bunu dərk eləməlidir ki, biz iqtisadiyyatı tamamilə inkişaf etdirmək üçün sərbəst iqtisadi zona kimi gərək ticarətin genişlənməsinə yol açaq. Ticarət nə qədər geniş olsa, nə qədər sürətlə inkişaf etsə, bizim Naxçıvandakı iqtisadi vəziyyət də get-gedə yaxşılaşacaq. Ona görə də protokollarda həm sərhədyanı ticarətin, həm Naxçıvanın azad iqtisadi zona olduğuna görə ümumi ticarət əlaqələrinin inkişaf etdirilməsi və bunların sərbəst aparılması üçün gömrüyün liberallaşdırılması və başqa tədbirlər nəzərdə tutulub. Protokolda Naxıvan ilə İran İslam Respublikası arasında mədəni, elmi, təhsil, nəşriyyat sahəsində əlaqələrin genişləndirilməsi, bizim tələbələrin İranda, İran tələbələrinin isə Naxçıvanda oxumaları nəzərdə tutulub. Ən nəhayət, biz Tehrana gələndən iki gün öncə Azərbaycanın Xarici İşlər naziri Tofiq Qasımov İranda olmuşdur. Onun bağladığı müqavilə əsasında Naxçıvanda İran İslam Respublikasının konsulluğu açılmalıdır. Bizim üzərimizə düşən vəzifə ondan ibarətdir ki, İran İslam Respublikası konsulluğunun açılması üçün təcili yer ayıraq.

Türkiyə ilə konsulluq əlaqələri haqqında da protokol imzalanıb. Mən avqust ayında Türkiyədə olarkən Baş nazir Süleyman Dəmirəl dedi ki, artıq belə bir razılıq var. Ona görə də biz Nazirlər Kabinetinə göstəriş vermişik ki, təcili olaraq yer ayırsınlar.

Nəhayət, biz bütün bu məsələlərlə yanaşı, Naxçıvanı böhrandan çıxarmaq üçün İran İslam Respublikasının bizə yardımı məsələlərini qarşıya qoyduq. Bu barədə də razılıq əldə olundu və bu da protokolda öz əksini tapıb. Protokola görə 9 ay müddətində İran İslam Respublikasından Culfa keçid məntəqəsi vasitəsilə Naxçıvana 90 min ton daş kömür, 50 min ton mazut, 30 min ton dizel yanacağı, 15 min ton benzin, 25 min ton un, 15 min ton kartof, 5 min ton şəkər tozu, 15 min ton soğan, 1,5 min ton makaron, 18 min ton bitki yağı göndərilməsi nəzərdə tutulub.

Bu barədə biz ciddi danışıqlar apardıq, xahiş etdik və əsas tutduq ki, Azərbaycan hökuməti İran İslam Respublikasına məktub verib ki, Naxçıvanın təchizatını təmin etmək üçün yol bağlı olduğuna görə bu miqdarda həm ərzaq, həm də yanacaq İrandan Naxçıvana verilsin və Azərbaycan İrana ya dəniz vasitəsilə, ya da sərhəddin başqa münasib yerlərindən bunun əvəzində eyni təyinatlı mal və yaxud da bunu əvəz edən başqa mallar verəcək. Protokolda bu bənd Azərbaycan hökumətinin İran hökuməti qarşısında götürdüyü öhdəlik əsasında tərtib edilir.

"Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu ilə Naxçıvan arasındakı protokol tamamilə bu fondun Naxçıvana yardımı əsasında qurulub. Yəni ildə 65 milyon ədəd kərpic istehsal edəcək zavodun tikilməsini, Naxçıvanda olan və 20 milyon kərpic buraxmaq gücünə malik olan zavodun yenidən qurulmasını, Culfa karbon qazı zavodu bazasında saatda 12 min butulka "Nüşabə" adlı sərinləşdirici içki istehsal edən və Şərur konserv zavodunda saatda 2 min paket meyvə şirəsi buraxan xətlərin, habelə "Badamlı" mineral sular bazasında illik gücü 25 milyon butulka olan yeni xəttin və tutumu 0,5 və ya 1 litr olan plastik qab istehsal edən bir sexin quraşdırılmasını öz üzərinə götürüb.

Bundan başqa, mən Rəfiqdustdan xahiş etdim və bizim xahişimiz nəzərə alınaraq protokolda yazıldı ki, Naxçıvanda müasir tipli böyük bir məscid tikilsin. Onlar xahiş etdilər ki, Naxçıvanda öz nümayəndələri üçün yer ayrılsın, torpaq verilsin və nümayəndəlik üçün böyük bir bina tikilsin. Biz buna razılıq verdik və bu da protokolda öz əksini tapdı. Beləliklə, bu iki protokolda Naxçıvanın gələcək sosial-iqtisadi inkişafı üçün çox mühüm məsələlər həll olundu.

İndi hər şey bizdən asılıdır ki, bu məsələlərin üstünə düşək. Hər bir bəndlə əlaqədar olaraq biz ayrı-ayrı danışıqlar aparmalıyıq. Bunun üçün bütün nümayəndələr İrana getməli, məsələlərin konkret praktiki həll olunması ilə məşğul olmalıdırlar. Xüsusən kommunikasiya məsələlərinin. Güman edirəm ki, biz bu məsələnin müzakirəsini qurtaran kimi təcili olaraq nümayəndələri təyin edəcəyik ki, gedib ayrı-ayrı sahələr üzrə məsələlərin konkret həlli ilə məşğul olsunlar.

İran İslam Respublikasında olanda bizim nümayəndə heyəti üçün ən böyük hadisələrdən biri də o oldu ki, biz müqəddəs Məşhəd şəhərinə getdik, İmam Rzanın qəbrini ziyarət etdik və bizim hamımız bir müsəlman kimi özümüzü bu barədə çox məmnun və xoşbəxt hesab etdik. Eyni zamanda, Məşhəd şəhəri yanında böyük İran şairi Firdovsinin qəbrini, Təbrizdə şəhidlər qəbristanlığını, böyük Azərbaycan şairi Əfzələddin Xaqaninin, Şəhriyarın qəbirlərini də ziyarət etdik. Məşhəddə İranın din xadimləri Ayətulla Təbəzzi, Ayətulla Mələk Quti, Məşhədin, Təbrizin, Şərqi Azərbaycanın ostandarlıqlarının rəhbərləri ilə görüşüb söhbət etdik. Məşhədin yaxınlığındakı müasir dərman fabrikinə getdik, bütün texnoloji proseslərlə tanış olduq. Təbriz Universitetinin professor və müəllimləri ilə görüşdük. Təbrizdəki böyük traktor zavodunda da olduq. Biz Təbrizdə belə bir böyük, müasir traktor zavodunun olduğunu təsəvvür edə bilmirdik. Təbrizdə yun zavodunda da olduq.

Ümumiyyətlə, bu səfər haqqında məruzəmi qurtararkən bir daha qeyd etmək istəyirəm ki, **biz bütün səviyyələrdəki görüşlərdə Azərbaycana, xüsusən Naxçıvana çox böyük hörmət və ehtiram, məhəbbət və maraq gördük.**

İranda biz mətbuat konfransları da keçirdik. Çünki müxbirlər çox maraqlanırdılar. **Bu görüşlərdə də biz ümumi Azərbaycan mövqeyindən bütün suallara cavab verdik və öz fikirlərimizi bildirdik.** Bütün sahələrdə Azərbaycan ilə İran arasındakı əlaqələrin genişlənib inkişaf etməsi fikrini söylədik. Burada Naxçıvan Muxtar Respublikasının yerini və rolunu da qeyd etdik.

... Çıxışıma yekun vurarkən onu qeyd etmək istəyirəm ki, Naxçıvanın İran və Türkiyə ilə əlaqələrinin hamısı Azərbaycanın İran və Türkiyə ilə olan əlaqələrinin tərkib

hissəsidir. Qoy heç kəs burada cürbəcür şayiələr yayıb camaatı aldatmasın ki, guya biz xüsusi işlər görürük. Mən dəfələrlə demişəm və bir də deyirəm ki, Naxçıvan Muxtar Respublikasının bu ağır dövründə kim Naxçıvana hansı yardımı göstərə bilərsə biz onu bəyənməliyik, onu alqışlamalıyıq və kömək göstərməliyik. Bu baxımdan indi Naxçıvana İranın xüsusi yardımını başqa cür hallandırmaq, onlara başqa cür don geydirmək, başqa rəng vermək sadəcə olaraq naxçıvanlılara xəyanət etməkdir. Ona görə də mən bu cürbəcür şayiələri qərəzli, heç bir əsası olmayan şayiələr kimi tamamilə rədd edirəm və bildirmək istəyirəm ki, muxtar respublikanın Ali Məclisi və onun sədri burada heç bir xüsusi siyasət aparmırlar. Bunlar hamısı Azərbaycanın xarici siyasətinin tərkib hissəsidir.

Eyni zamanda, yalan və şayiələrə də uymaq lazım deyil. Hamı gərək bu işdə düzgün mövqe tutsun, təmizlik, düzlük, saflıq uğrunda mübarizə aparsın, xalq üçün bu ağır, çətin dövrdə düşdüyümüz vəziyyətdən çıxmaq üçün öz səyini əsirgəməsin.

Sonra H.Əliyev deputatların suallarına cavab verdi.

Müzakirə olunan məsələlərə dair müvafiq qərarlar qəbul edildi.

"Şərq qapısı" qəzeti,
26 sentyabr 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin İran İslam Respublikasına rəsmi səfəri və Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci il avqustun 24-də Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə əməkdaşlıq protokolları haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İran İslam Respublikasının Xarici İşlər Naziri, doktor Əli Əkbər Vilayətinin dəvəti ilə bu il avqust ayının 22-dən 26-dək İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər zamanı Heydər Əliyev İran İslam Respublikasının rəhbəri Ayətulla Seyid Əli Xamneyi, İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani, İran İslam Respublikası Milli Məclisinin Sədri Natiq Nuri ilə görüşmüş və danışıqlar aparmışdır.

Bundan başqa Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İran İslam Respublikası Xarici İşlər Naziri doktor Əli Əkbər Vilayəti, İranın yol və nəqliyyat naziri Səidi Kiya, kooperasiya naziri cənab Şafeyi, energetika naziri Zəncane, rabitə naziri cənab Tərrazi, neft və qaz naziri Ağazadə, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust, "Hilal Əhmər" cəmiyyətinin sədri, cənab Vəhid Dəstgərdi ilə danışıqlar aparmışlar.

Görüşlər və danışıqlar zamanı Heydər Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etdikdən sonra qarşılaşdığı çətinliklər, uzun sürən erməni təcavüzü ilə əlaqədar vəziyyət, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi böhran içərisində olması və bütün bunlarla bağlı həyata keçirilən tədbirlər haqqında məlumat vermişdir. Naxçıvan Muxtar Respublikasının uzun müddət iqtisadi və informasiya blokadasında yaşadığını, xüsusilə elektrik enerjisi, yanacaq və ərzaq qıtlığı nəticəsində əhalinin yaşayış tərzinin daha da pisləşməsini bildirmişdir.

Dostluq, mehribanlıq və qarşılıqlı anlaşma şəratində keçən danışıqlar zamanı İran İslam Respublikasının rəhbərləri və nazirləri Azərbaycan Respublikasına, o cümlədən Naxçıvan Muxtar Respublikasına hər vasitə ilə kömək göstərməyə hazır olduqlarını bildirmişlər.

Rəsmi danışıqlar nəticəsində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə Əməkdaşlıq protokolları imzalanmışdır.

Protokolları Naxçıvan Muxtar Respublikası tərəfindən Ali Məclisin Sədri Heydər Əliyev, İran İslam Respublikası tərəfindən Xarici İşlər Naziri doktor Əli Əkbər Vilayəti, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalamışlar.

İmzalanmış protokollarda qarşılıqlı siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrin genişləndirilməsi, muxtar respublikanı böhran vəziyyətindən çıxarmaq və Naxçıvan əhalisinə kömək göstərmək məqsədilə bir çox məsələlər barədə razılıq əldə edilmişdir.

Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi böhranından çıxarmaq üçün Araz su qovşağı rayonunda tikilən xətt və transformator yarımstansiyası vasitəsilə oktyabr ayının axırlarından etibarən İran İslam Respublikasından Naxçıvana 40 meqavatt gücündə elektrik enerjisi verilməsi nəzərdə tutulmuşdur. Alınan elektrik enerjisinin əvəzi Azərbaycanın Horadiz və Astara rayonlarından İran İslam Respublikasına veriləcəkdir.

Naxçıvan Muxtar Respublikasının xahişi nəzərə alınaraq, muxtar respublikanın qaz ehtiyatlarını təmin etmək məqsədilə Xoy-Culfa magistral qaz kəmərinin tikintisini İran İslam Respublikasının neft və qaz sənayesi nazirliyi öz üzərinə götürmüşdür. Qaz kəməri tikinstisinin bir il müddətinə başa çatdırılması v bu kəmər vasitəsilə Culfa sərhəd məntəqəsindən Naxçıvana ildə 360 mln.m3 təbii qazın verilməsi razılaşdırılmışdır. Bundan əlavə qaz kəməri istifadəyə verilənədək Naxçıvana ayda 100 ton maye qaz verilməsi barədə razılıq əldə olunmuşdur.

Yükdaşıma sahəsindəki çətinlikləri nəzərə alaraq avtomobillərin Naxçıvan-Bakı və əks istiqamətdə İran İslam Respublikası ərazisindən keçməklə qısa məsafədən - Culfa-

Xudafərin yolu ilə hərəkət etməsi razılaşdırılmışdır. Bu məqsədlə hər iki tərəf lazımi tədbirlərin görülməsi və tez bir zamanda bu yoldan istifadə olunması razılığına gəlmişlər.

Muxtar respublika rəhbərliyinin xahişinə cavab olaraq İran İslam Respublikasının yol və nəqliyyat nazirliyi bildirmişdir ki, Ordubad-Mincivan dəmir yolunun İran İslam Respublikası ərazisindən keçməklə tikintisinin texniki cəhətdən öyrənilməsi və bu işin başa çatdırılması üçün tədbirləri həyata keçirəcəkdir.

İran İslam Respublikası Qərbi Azərbaycan ostanlığının Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərindəki müvəqqəti körpünün tikintisinin İran İslam Respublikası tərəfindən qısa müddətdə başa çatdırılması və əsas körpünün tikintisi üçün texniki-axtarış işlərinin sürətləndirilməsini qərara almışdır.

Naxçıvan dindarlarının İslamın müqəddəs yerlərini ziyarət etməsi üçün Naxçıvan-Məşhəd-Naxçıvan təyyarə reysinin açılması və Naxçıvan-Bakı-Naxçıvan təyyarə reyslərinin yeni qısa marşrutla - Mincivan-Ordubad rayonları arasındakı 50 km-lik məsafədə İran İslam Respublikasının hava koridorundan istifadə etməklə uçması barədə razılıq əldə olunmuşdur.

İran İslam Respublikası Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək məqsədilə 9 ay müddətində Culfa sərhəd məntəqəsindən muxtar respublikaya 90,0 min ton daş kömür, 50,0 min ton mazut, 30,0 min ton dizel yanacağı, 15,0 min ton avtobenzin, 1,0 min ton ağ neft, 25,0 min ton un, 15 min ton kartof, 5 min ton şəkər tozu, 5,0 min ton soğan, 1,5 min ton makaron, 1,8 min ton bitki yağı göndərilməsinə razılıq vermişdir. Muxtar respublikaya veriləcək ərzaq və yanacaq məhsullarına aid məsələlərin Azərbaycan-İran iqtisadi-mədəni əlaqələr komissiyasının işində öz əksini tapacağı qeyd edilmişdir. Nəzərə alınmışdır ki, İrandan Naxçıvana göndəriləcək ərzaq və yanacaq mallarının əvəzində Azərbaycan Respublikası İran İslam Respublikasına müxtəlif mal-material verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə İranın "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti arasında imzalanmış protokola əsasən Babək rayonunun Çeşməbasar kəndi yaxınlığında illik gücü 65,0 milyon ədəd olan kərpic zavodunun tikintisini, həmin rayonda fəaliyyət göstərən kərpic zavodunun texnoloji avadanlıqlarını dəyişməklə onun illik gücünün 20,0 mln. ədəd kərpicə çatdırılmasını, Culfa karbon qazı bazasında gücü saatda 12 min butulka olan "Nüşabə" ("Pepsi-Kola") zavodunun tikintisini, Şərur konserv zavodunda gücü saatda 2,0 min paket olan meyvə şirəsi buraxan xəttin quraşdırılmasını, Badamlı mineral sular zavodu bazasında illik gücü 25,0 min ədəd butulka buraxacaq yeni xəttin və tutumu 0.5-1,0 litr plastik qab istehsal edən sexin quraşdırılmasını, həna sexinin tikintisini, alt trikotaj fabrikinə ildə 3,0 min ton ipliк, 3,0 mln. metr rezin verilməsini "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu öz üzərinə götürmüşdür.

Bundan başqa həmin fond Naxçıvan şəhərində müasir tələblərə cavab verən məscid tikəcəkdir.

Tərəflər razılığa gəlmişlər ki, İran İslam Respublikası gənclərinin Naxçıvanın ali və orta ixtisas məktəblərində, Naxçıvan gənclərinin isə İran İslam Respublikasının ali və orta ixtisas məktəblərində təhsil almaları üçün şərait yaradılsın, hər tərəf qarşı tərəfin televiziya verilişlərinin ayrı-ayrı proqramlarına baxmaları üçün lazımi tədbirlər həyata keçirsinlər.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mədəniyyət, elm, incəsənət, nəşriyyat, turizm və idman sahələrində əlaqələrin genişləndirilməsini daimi diqqət mərkəzində saxlamaq nəzərdə tutulmuşdur.

Hər iki tərəf ticarət nümayəndəliklərinin, şirkətlərin, birgə müəssisələrin açılması, ticarət əlaqələrinin daha da genişləndirilməsi, gömrük siyasətinin sadələşdirilməsi razılığına gəlmişlər.

Naxçıvan şəhərində İran İslam Respublikasının Baş konsulluğunun açılmasının tezləşdirilməsi və bu məqsədlə Naxçıvan şəhərində Baş konsulluq üçün müvafiq binanın ayrılması qərara alınmışdır.

Muxtar respublikanın nümayəndə heyəti səfər zamanı İran İslam Respublikasının Məşhəd və Təbriz şəhərlərində də olmuş, bir sıra rəsmi görüşlər keçirmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1. Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin İran İslam Respublikasına rəsmi səfəri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin İran İslam Respublikasının rəhbərləri, nazirləri və digər rəsmi şəxsləri ilə apardığı danışıqlar bəyənilsin.

2. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci ilin avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq protokolu təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu arasında 1992-ci ilin avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq protokolu təsdiq edilsin.

4. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq protokollarını Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrinin genişlənməsi və daha da inkişaf etməsi üçün böyük əhəmiyyəti olan bir tarixi sənəd kimi qəbul edir və yüksək qiymətləndirir.

Ali Məclis qeyd edir ki, imzalanmış protokollara əsasən İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasına göstərəcəyi köməklik, muxtar respublikanın sosial-

iqtisadi böhrandan çıxmasında, əhalinin həyat tərzinin yaxşılaşmasında mühüm rol oynayacaqdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasının əhalisi adından İran İslam Respublikasına, İran İslam Respublikasının rəhbəri Ayətulla Seyid Əli Xamneyiyə, İran İslam Respublikası Milli Məclisinin Sədri Natiq Nuriyə, İran İslam Respublikasının Xarici İşlər Naziri doktor Əli Əkbər Vilayətiyə, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" Fondunun prezidenti Möhsen Rəfiqdusta dostluq və qardaşlıq münasibətlərinə görə, Əməkdaşlıq protokollarında nəzərdə tutulan bütün köməkliklərə görə dərin minnətdarlığını və təşəkkürünü bildirir.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, muxtar respublikanın aidiyyatı olan nazirliklərinə, dövlət komitələrinə, baş idarələrinə tapşırılsın ki, əməkdaşlıq protokollarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. Naxçıvan Muxtar Respublikasında yaranmış gərgin sosial-iqtisadi vəziyyət nəzərə alınaraq, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq protokolunun 15-ci maddəsində nəzərdə tutulmuş İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasına veriləcək ərzaq və yanacaq mallarının təcili surətdə gətirilməsi üçün lazımi tədbirlər görsün.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, "Azərbaycan Hava Yolları" konserninin, Azərbaycan Qaz Şirkətinin, Azərbaycan Dövlət Gömrük Komitəsinin, Azərbaycan Dövlət Yanacaq Komitəsinin, "Azərbaşenerji" istehsalat birliyinin, Azərbaycan-İran işgüzar əməkdaşlıq şurasının, Azərbaycan dəmir yolu idarəsi, Azərbaycan Sərhəd qoşunları komitəsi və Azərbaycan Respublikasının digər aidiyyatı olan nazirliklərinin mütəxəssisləri ilə İran İslam Respublikasının aidiyyatı olan nazirliklərinin mütəxəssislərinin müvafiq vaxtlarda görüşlərini təşkil edib, protokolların icrasını təmin etsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, protokolların icrası ilə əlaqədar Azərbaycan Respublikasının aidiyyatı olan nazirliklərinin muxtar respublikaya lazımi köməklik göstərmələri barədə müvafiq qərarlar qəbul etsin.

9. Naxçıvan şəhər xalq deputatları məclisinə, onun icraiyyə komitəsinə tapşırılsın ki, Naxçıvan şəhərində İran İslam Respublikasının Baş konsulluğu üçün müvafiq bina, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu üçün müvafiq bina və torpaq sahəsi ayrılmasını təmin etsin.

10. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, şəhər, rayon xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə tapşırılsın ki, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası

ilə İran İslam Respublikası arasında imzalanmış Əməkdaşlıq protokollarının icrasını daim diqqət mərkəzində saxlasınlar və Ali Məclisə mütəmadi olaraq məlumat versinlər.

11. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq protokolları Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Sovetinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunsun.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
H. ƏLİYEV

Naxçıvan şəhəri,
18 sentyabr, 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq protokolunun 13-cü maddəsinin həyata keçirilməsi tədbirləri haqqında 24 avqust 1992-ci ildə Tehran şəhərində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və İran İslam Respublikası adından İran İslam Respublikasının Xarici İşlər Naziri, doktor Əli Əkbər Vilayəti tərəfindən imzalanmış Əməkdaşlıq protokolunun 13-cü maddəsində göstərilmişdir ki, Naxçıvan Muxtar Respublikasının xahişinə uyğun olaraq İran İslam Respublikası neft və qaz sənayesi nazirliyi Naxçıvan Muxtar Respublikasının qaz ehtiyatlarını təmin etmək məqsədilə Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikasına ildə 360 milyon m3 (sutkada 1 mln.m3) qaz verir. Qaz İran-Naxçıvan sərhəd məntəqəsində təhvil verilir. Naxçıvan Muxtar Respublikasındakı qaz təsərrüfatı, qazın ötürülməsi, paylanması və istifadəçilərə verilməsini həyata keçirəcəkdir. Verilən qaz İran İslam Respublikasının Milli qaz şirkəti vasitəsilə istifadəçilərə satılır və qoyulan vəsait çıxarılır. Tərəflər razılaşmışlar ki, iki tərəfin müvafiq şirkətlərinin nümayəndələri bir ay ərzində müqavilələr hazırlansınlar.

Naxçıvanın maye qaza olan ehtiyacını nəzərə alaraq, İran İslam Respublikası Naxçıvana ayda 100 ton maye qaz verir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 24 avqust 1992-ci ildə Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq protokolunun bu maddəsini tamamilə bəyənir və Naxçıvan Muxtar Respublikasının qaza olan ehtiyaclarını ödəmək üçün bu böyük tikintini öz üzərinə götürdüklərinə görə İran İslam Respublikasının hökumətinə, İran İslam Respublikasının neft və qaz sənayesi nazirliyinə dərin minnətdarlığını bildirir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 24 avqust 1992-ci il tarixdə Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq protokolunun 13-cü maddəsi bütövlükdə bəyənilsin.

2. Həmin maddədə nəzərdə tutulan işlərin Naxçıvan Muxtar Respublikası tərəfindən həyata keçirilməsi zəruri hesab edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu tədbirlərin həyata keçirilməsi sahəsində İran İslam Respublikasının neft və qaz sənayesi nazirliyi ilə müvafiq müqavilələr bağlayıb lazımi tədbirlər görsün.

İşlərin tezliklə başlanması üçün İran İslam Respublikasına Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Ələsgər Sadiqov başda olmaqla nümayəndə heyəti göndərilsin.

4. Qazın müxtar respublikada paylanması, istifadəçilərə verilməsi məqsədilə İran İslam Respublikasının Naxçıvanda Milli qaz şirkətinin yaradılmasına icazə verilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
H. ƏLİYEV
Naxçıvan şəhəri,
18 sentyabr 1992-ci il

TƏBRİZDƏN QATAR GƏLİR

Bu il avqust ayının 22-dən 26-dək Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İran İslam Respublikası hökumətinin dəvəti ilə İranda olmuş, Naxçıvanı böhrandan çıxarmaq və iqtisadi kömək barədə razılıq əldə olunmuş, əməkdaşlıq protokolu imzalanmışdır. Protokola görə 9 ay müddətində İran İslam Respublikasından Culfa keçid məntəqəsi vasitəsilə Naxçıvana 90 min ton daş kömür, 50 min ton mazut, 30 min ton dizel yanacağı, 15 min ton şəkər tozu, 5 min ton soğan, 1,5 min ton makaron, 18 min ton bitki yağı göndərilməsi nəzərdə tutulub.

Bu günlərdə Naxçıvana Təbrizdən 22 vaqondan ibarət ilk qatar gəlib. Həmin qatarda 300 ton un, 100 ton soğan, 670 ton kartof, xeyli yanacaq və digər məhsullar gətirilib. Həmin məhsullar muxtar respublika əhalisinə satılacaqdır.

"Şərq qapısı" qəzeti,
21 oktyabr 1992-ci il

İQTİSADİ ƏLAQƏLƏR GENİŞLƏNİR

İqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Müştərək Komissiyasının Bakıda keçirilən iclasından sonra komissiyanın üzvlərinin böyük bir qrupu, İran İslam Respublikasının kooperasiya naziri, İran tərəfindən komissiyasının sədri Qulam Rza Şafeyinin rəhbərliyi ilə noyabrın 20-də Naxçıvana gəlmişdir. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qonaqları qəbul etmişdir.

Heydər Əliyev qonaqları salamlayaraq demişdir ki, Azərbaycan, eləcə də Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə iqtisadi əlaqələrinin inkişaf etdirilməsi, xüsusilə bu ilin avqust ayının 24-də Tehranda imzalanmış protokolda nəzərə tutulanların həyata keçirilməsi muxtar respublika üçün həlledici məsələdir. Artıq 4 gündən sonra həmin protokolun imzalanmasının 3 ayı tamam olacaqdır. Üç aydır biz bunun intizarındayıq ki, protokola görə İrandan Naxçıvana lazım olan yüklər gəlsin. Çünki vəziyyətimiz çox ağırdır. Ona görə də mən sizin bu komissiyanın işinin tənzimlənməsinə lazımi qədər yardım etdim. Beləliklə, imkan yaranmışdır ki, hər iki tərəf bu komissiya çərçivəsində səmərəli əməkdaşlıq etsin.

Qulam Rza Şafeyi komissiyanın Bakıda keçirilən iclası barədə məlumat verərək demişdir ki, komissiyanın işi çox səmərəli keçdi və bir sıra protokollar imzalandı. Protokol imzalandıqdan dərhal sonra İrandan Naxçıvana yüklər göndərilməyə başlandı.

H.Əliyev onun dediklərini təsdiq edərək bildirmişdir ki, İrandan Naxçıvana 35 vaqondan ibarət bir qatar gəlmişdir və bununla da iş qurtarmışdır. O gündən indiyədək artıq bir vaqon olsun belə yük gəlməyib.

Ağayim Q.R.Şafeyi bunun səbəbini onunla izah etdi ki, protokola əsasən İrandan Naxçıvana gələn yüklərin əvəzini Azərbaycan ödəməlidir. Lakin bu belə olmadı, ona görə İrandan Naxçıvana yük göndərilməsi dayandırıldı. Hər iki tərəf öz üzərlərinə götürdükləri təəhhüdlərə əməl etmədilər. Biz öz tərəfimizdən Naxçıvan üçün əlimizdən gələni etməyə hazırıq.

Sonra ağayi Q.R.Şafeyi Naxçıvanın elektrik enerjisi ilə təchizatı məsələsi ilə maraqlanmışdır.

H.Əliyev demişdir ki, sizin gəlişinizdən sonra biz ümid edirdik ki, hər şeydən əvvəl Tehranda imzalanmış protokolun 15-ci maddəsində nəzərdə tutulmuş yanacaq məhsulları - dizel yanacağı, benzin, mazut, daş kömür, habelə kartof, un, soğan və s. məhsullar Naxçıvana gələcəkdir. Lakin qeyd etdiyim kimi, birinci qatardan sonra yük gətirilməsi dayandırıldı. Gərək bunun dalı kəsilməsin, nəzərdə tutulmuş mallar vaxtlı-vaxtında gətirilməlidir ki, düşdüyümüz çətin vəziyyəti bir az yüngülləşdirə bilək.

İkincisi, siz elektrik enerjisinin vəziyyətini soruşursunuz. Bu sahədə vəziyyət çox pisdir. İndi Araz su-elektrik stansiyasından biz cəmi 20-25 meqavatt elektrik enerjisi alırıq ki, bu da tələbatımızın 20 faizini ancaq ödəyir. Qış isə astanada dayanıb. Bizim bütün ümidimiz İrandan gələcək elektrik enerjisinədir. Mənə məlumat veriblər ki, bizim tərəfdən lazım olan işlərin hamısı görülüb. İndi qalır Arazın o tayındakı işlər. Bunları da tezliklə qurtarmaq lazımdır ki, biz İrandan elektrik enerjisi ala bilək. Onda bizim tələbatımızın 40-50 faizi ödənilmiş olacaq. Lakin bunu tezliklə etmək lazımdır. Qeyd etdiyim kimi qış başımızın üstünü almışdır. Siz təsəvvür edin ki, kəndlərdə ümumiyyətlə işıq olmur. Bütün

kəndlər gecələr zülmətə qərq olur. Həyat donur. Naxçıvanın özündə də vəziyyət çox pisdir. Elektrik enerjisindən istilik alınması bir yana dursun, heç olmasa işıq olsun! Ona görə də İrandan elektrik enerjisi gəlməsi bizim üçün ən vacib məsələdir. Komissiya da bu məsələnin tezliklə həll olunmasına öz köməkliyini göstərməlidir.

Sonra protokolda nəzərdə tutulmuş bir sıra başqa məsələlərin - Xudafərin körpüsündən keçərək Bakıdan Naxçıvana gələn avtomobil yolunun açılması, Xoy-Culfa qaz kəmərinin çəkilişinin sürətləndirilməsi, Naxçıvana hər ay 100 ton maye qaz gətirilməsi, konsulluqların açılması və s. məsələlərə də toxunulmuşdur.

Hər iki tərəf bu görüşün son dərəcə əhəmiyyətli olduğunu qeyd etmişdir.

Qəbulda Naxçıvan MR Baş naziri Ş.Xanbabayev, Ali Məclisin Sədrinin birinci müavini R.Həsənov, Baş nazirin müavinləri Ə.Sadiqov, M.Abbasov iştirak etmişlər.

"Şərq qapısı" qəzeti,
25 noyabr 1992-ci il

YENİ KEÇİD MƏNTƏQƏSİ

Dekabrın 3-də Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasını birləşdirən daha bir keçid məntəqəsi - Şahtaxtı-Poldəşt məntəqəsi açılmışdır.

Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini Afiyəddin Cəlilov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, İran İslam Respublikasının kooperasiya naziri ağayi Qulamrza Şafeyi, İran İslam Respublikasının Azərbaycandakı səfiri ağayi Nəhavəndian və digər şəxslər İran-Naxçıvan elektrik xəttinin açılışından sonra İran ərazisi ilə Qərbi Azərbaycanın ostanlığının Poldəşt qəsəbəsinə gəldilər. Burada Şahtaxtı ilə Poldəşti birləşdirən üzən körpünün açılış mərasimi olmuşdur.

Səhər tezdən körpünün hər iki tərəfinə yığışmış azərbaycanlılar iki kəndi - Şahtaxtı və Poldəşt kəndlərini birləşdirəcək körpünün açılışını intizarla gözləyirdilər. Körpüyə yaxınlaşan avtomobil karvanı böyük sevinclə, alqışlarla qarşılandı. Naxçıvan MR Ali Məclisinin Sədri H.Əliyev körpünün açılması mərasiminə gələnləri səmimi salamlayaraq dedi: Bu gün bu xoş mərasimdə iştirak edən ağayi Qulamrza Şafeyi İran İslam Respublikasının naziridir. İranın rəhbərləri həzrəti Ayətulla Xamneyinin və Prezident Haşimi Rəfsəncaninin yaxın dostu, məsləkdaşıdır. Ağayi Şafeyi onların tapşırığı ilə gəlib ki, burada körpünün açılışında iştirak etsin. Mən sizin adınızdan, bütün Naxçıvan əhalisi adından İran İslam Respublikasından olan bizim hörmətli qonaqlarımızı, dostlarımızı səmimi qəlbdən salamlayıram və deyirəm ki, siz bu torpağa xoş gəlmisiniz.

H.Əliyev sözünə davam edərək dedi ki, son vaxtlar İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələr gündən-günə genişlənir və inkişaf edir. Bir neçə il

bundan əvvəl sərhəd simləri götürüldü. İndi Arazın o tayında və bu tayında olan qan qardaşları, din qardaşları bir-biri ilə görüşməyə, əlaqə saxlamağa imkan əldə ediblər. Bu, bütün Azərbaycan xalqının, Azərbaycanda yaşayan müsəlmanların həyatında unudulmaz hadisədir.

Azərbaycanla İranın əlaqələri getdikcə inkişaf edib genişlənir. Bu keçid məntəqəsinin açılması da əlaqələrimizin genişləndirilməsinə xidmət edir. İndi Şahtaxtıdan və ümumiyyətlə Şərur rayonundan İrana getmək istəyənlər Culfa və ya Qızılvəng məntəqəsinə getməyəcəklər. Poldəştdən, Makudan, Xoydan gələnlər də bu qısa yoldan istifadə edəcəklər. Hər iki tərəfdə bazar tikilir. Burada birgə bazar olacaqdır. Arazın hər iki sahilindən adamlar gələcək, bir-birləri ilə görüşüb alver edəcəklər. Bu da bizim iqtisadi və başqa əlaqələrimizi möhkəmləndirəcəkdir.

Onu da qeyd etmək lazımdır ki, bu körpünü İran İslam Respublikası öz hesabına tikib. Biz çoxdan bu körpünün tikilməsi arzusunda idik. Biz avqust ayında Tehranda olarkən orada İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında bir müqavilə bağladıq. Həmin müqavilənin bir bəndi ondan ibarətdir ki, İran İslam Respublikası Poldəştlə Şahtaxtı arasında müvəqqəti körpünü tiksin, bunu qısa müddətdə başa çatdırsın, burada müştərək bazar düzəldilsin. Bundan sonra daimi körpünün tikilməsi də tezliklə başa çatdırılacaq və beləliklə, bizim əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

Ona görə də icazə verin sizin adınızdan, bütün naxçıvanlıların adından İran İslam Respublikasına, bizim qan qardaşlarımıza, İran İslam Respublikasının rəhbərlərinə və xüsusən İranın siyasi rəhbəri Həzrəti Ayətulla Xamneyiyə, Prezident ağayi Haşimi Rəfsəncaniyə, İran İslam Respublikasının nazirlərinə, o cümlədən Şərqi və Qərbi Azərbaycanın rəhbərlərinə, xüsusən bizim əziz dostumuz, İran İslam Respublikasının nümayəndə heyətinin burada olan rəhbəri, İranın kooperasiya naziri, ağayi Qulamrza Şafeiyə öz dərin minnətdarlığımızı bildirək və xahiş edək ki, bizim səmimi salamımızı, məhəbbətimizi bütün İran xalqına çatdırsınlar.

İran İslam Respublikasının kooperasiya naziri, ağayi Qulamrza Şafeyi dedi ki, biz bir az bundan əvvəl naxçıvanlılara bərq (elektrik-tərtibçi) verəcək 40 meqavattlıq İran-Naxçıvan elektrik xəttinin açılışında olduq. İndi isə hər iki tərəfi birləşdirən yeni bir keçid məntəqəsi açılır, bu körpünün açılışı ilə gediş-gəliş xeyli rahatlaşacaqdır. Neçə onilliklər idi ki, qan qardaşları arasında ayrılıq düşmüşdü. Son 2-3 ildə bu ayrılıq aradan qaldırıldı. Bundan sonra belə görüşlərin sayı, gediş-gəliş daha da artmalıdır. Biz bu gün gəlmişik ki, iranlıların salamını sizə yetirək, bu körpünün açılışında iştirak edərək sizinlə sevincimizi bölüşdürək.

Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini A.Cəlilov, Naxçıvan MR Ali Məclisinin Sədri H.Əliyev, İran İslam Respublikasının kooperasiya naziri, ağayi Qulamrza

Şafeyi hər iki tərəfin sakinləri ilə mehribancasına söhbət etdilər.

İranla Naxçıvan arasında tikilmiş yeni bir körpü fəaliyyətə başladı.

"Şərq qapısı" qəzeti,
9 dekabr 1992-ci il

ALİ MƏCLİSDƏ QƏBUL

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Mərəndin fərmandarı Məhəmməd Rza Notaşı qəbul etmişdir.

H.Əliyev belə görüşlərin hər iki tərəfin mənafeyi ilə bağlı olduğunu bildirmişdir. Muxtar respublikada mövcud vəziyyət barədə məlumat verən Ali Məclisin Sədri sərhədyanı ticarətin daha da genişləndirilməsi ilə əlaqədar məsələlərə toxunmuşdur.

Görüşdə işgüzar münasibətlərin öz bəhrəsini getdikcə daha artıq göstərdiyindən də söhbət getmişdir. Məhəmməd Rza Notaş blokada vəziyyətində yaşayan Naxçıvana iqtisadi köməklik göstərilməsi və kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində təkliflər vermişdir.

Görüş səmimilik və mehribanlıq şəraitində keçmişdir.

Həmin gün Məhəmməd Rza Notaş Naxçıvan Muxtar Respublikası ilə tanışlığı davam etdirmişdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti

16 yanvar 1993-cü il

HEYDƏR ƏLİYEV İRANIN NAXÇIVANDAKI BAŞ KONSULUNU QƏBUL ETMİŞDİR

Martın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasında Baş konsulu Məhəmməd Sadeq Turini qəbul etmişdir.

Məhəmməd Sadeq Turi, onun Naxçıvanda Baş konsul təyin edilməsi münasibəti ilə İran İslam Respublikasının Xarici İşlər Naziri Əli Əkbər Vilayətinin məktubunu Heydər Əliyevə təqdim etmişdir.

Heydər Əliyev Məhəmməd Sadeq Turiyə son vaxtlar regionda yaranmış vəziyyət barədə ətraflı məlumat vermişdir. Naxçıvan 11 aydır ki, Ermənistan Respublikasının iqtisadi blokadası şəraitində yaşayır. Əhalinin sosial şəraiti ağırlaşmış, yanacaq və ərzaq malları ilə təminat sahəsində gərgin vəziyyət yaranmışdır. Tərəflər razılıq hissi ilə qeyd etmişdir ki, muxtar respublikanın üzləşdiyi problemlərin aradan qaldırılmasında ötən ilin avqust ayında Heydər Əliyevlə İran İslam Respublikası rəhbərliyi arasında bağlanmış müqavilə əhəmiyyətli rol oynamış, həmin müqavilə əsasında İran İslam Respublikasının Naxçıvanda konsulluğu açılmışdır. Bu, Azərbaycanla İran arasında mehriban münasibətlərin daha da genişləndirilməsinə, qarşılıqlı mənafelərə təminat yaradılmasına imkan verəcəkdir.

Heydər Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan

Muxtar Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət, elmi-mədəni və dini əlaqələrin təşəkkül tapmasında hər iki tərəfin maraqlı olmasından danışmış, qonşu ölkələr arasında mehriban münasibətlərin bundan sonrakı inkişafı naminə Məhəmməd Sadeq Turiyə səmərəli fəaliyyət arzulamışdır.

Məhəmməd Sadeq Turi hər il Naxçıvan Muxtar Respublikasından 30 nəfər tələbənin İran İslam Respublikasında İran dövlətinin vəsaiti hesabına təhsil almasının, naxçıvanlı həkimlərin müəyyən müddətə İrana göndərilməsi üçün hər iki tərəfdən işin sürətləndirilməsinin lüzumluluğunu qeyd etmişdir.

Baş konsul İran İslam Respublikasının Xarici İşlər Naziri Əli Əkbər Vilayətinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi İran İslam Respublikasına rəsmi səfərə dəvət etdiyini bildirmişdir.

Görüş səmimilik və işgüzarlıq şəraitində keçmişdir.

İran İslam Respublikasının Baş konsulu ilə görüşdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Şəmsəddin Xanbabayev, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Rəşid Həsənov, digər rəsmi şəxslər iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti

10 mart 1993-cü il

HEYDƏR ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASINA SƏFƏRİ

Martın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının Xarici İşlər Naziri Əli Əkbər Vilayətinin dəvəti ilə İrana rəsmi səfərə getmişdir.

Tehranın Mehrabad təyyarə meydanında Heydər Əliyevi İran İslam Respublikasının Xarici İşlər Naziri Əli Əkbər Vilayəti və digər rəsmi şəxslər qarşılamışlar.

Martın 16-da İran İslam Respublikasının Xarici İşlər Nazirliyində Əli Əkbər Vilayəti ilə Heydər Əliyevin rəsmi görüşü olmuşdur.

Martın 17-də İran İslam Respublikasının prezidenti Əli Əkbər Haşimi Rəfsəncani Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevi qəbul etmişdir.

Heydər Əliyev İran İslam Respublikasının energetika naziri Qulamrza Zəncane, kooperasiya naziri Qulamrza Şafei ilə, İranın nüfuzlu ictimai təşkilatı olan "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla görüşlər keçirmiş və söhbət etmişdir.

Görüşlər zamanı Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin İran İslam Respublikası rəhbərliyinə salamını və xoş arzularını çatdırmışdır.

İran rəhbərləri ilə görüşdə İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi

və genişləndirilməsi barədə fikir mübadiləsi aparılmış, bu istiqamətdə bundan sonra lazımi tədbirlərin həyata keçirilməsinin zəruriliyi bildirilmişdir.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında bağlanan 24 avqust 1992-ci il tarixli müqavilənin həyata keçirilməsi, Naxçıvan Muxtar Respublikasının ağır blokada şəraitində yaşaması ilə əlaqədar yaranmış problemlərin İran İslam Respublikası vasitəsilə həll olunması yolları müzakirə edilmiş və razılıq əldə olunmuşdur.

Yaxın vaxtlarda Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasından ərzaq məhsulları, xüsusən un və buğda, yanacaq malları göndərilməsi, elektrik enerjisinin müntəzəm verilməsi barədə müvafiq nazirliklərə göstəriş verilmişdir.

İran İslam Respublikasından Naxçıvana verilən elektrik enerjisinin azalması ilə əlaqədar məsələ müzakirə olunmuş və onun 40 meqavata çatdırılması razılaşdırılmışdır.

Bakı ilə Naxçıvan arasında gediş-gəlişi asanlaşdırmaq üçün Araz-boyu qısa məsafədə İran ərazisindən keçən yolun inşasının 15-20 gün müddətinə başa çatdırılması və istifadəyə verilməsi üçün lazımi tədbirlərin görüləcəyi bildirilmişdir.

Naxçıvan Muxtar Respublikasının xahişinə əsasən yaz tarla işlərinin aparılması məqsədilə yaxın günlərdə Naxçıvana 1500 ton toxumluq kartof və 500 ton toxumluq arpa, kənd təsərrüfatı ləvazimatları göndəriləcəkdir.

İran İslam Respublikasının Xarici İşlər Naziri Əli Əkbər Vilayəti Heydər Əliyevin şərəfinə ziyafət vermişdir.

Möhsen Rəfiqdustla aparılan danışıqlar zamanı bildirilmişdir ki, ötən ilin avqust ayının 24-də Heydər Əliyevlə Rəfiqdust arasında bağlanan müqavilənin həyata keçirilməsi sürətləndiriləcək, illik istehsal gücü 60 milyon ədəd olan kərpic zavodunun və Naxçıvan şəhərində müasir tələblərə cavab verən məscid binasının tikintisi aprel ayının 15-dən başlanacaq. Bundan əlavə Naxçıvan şəhərində plastik qablar, həna sexi tikilib istifadəyə veriləcək. Naxçıvan alt trikotaj fabriki və xalçaçılıq kombinatı üçün müxtəlif çeşiddə xammal göndəriləcəkdir.

Heydər Əliyev Tehranın məşhur "15-i Xordat" xəstəxanasında müalicə olunan Dağlıq Qarabağ cəbhəsində yaralanmış Azərbaycan Milli Ordusu əsgərlərinin yanına getmiş, onlara göstərilən tibbi xidmətin vəziyyəti ilə maraqlanmışdır.

Heydər Əliyev martın 17-də və 18-də Təbrizdə olarkən Şərqi Azərbaycanın ostandarı Əli Əbdüləlizadə ilə görüşüb söhbətlər aparmışdır. Naxçıvana mal göndərilməsi və digər məsələlərin həyata keçirilməsi Şərqi Azərbaycan ostandarlığına tapşırıldığından, bu işin sürətləndirilməsi üçün tədbirlər müəyyən edilmiş, tərəflər müzakirə olunan məsələlər barədə qərar qəbul etmişlər.

Martın 18-də Heydər Əliyev və Əli Əbdüləlizadə əməkdaşlıq haqqında protokol imzalamışlar. Həmin gün jurnalistlər üçün mətbuat konfransı keçirilmişdir.

Heydər Əliyev Təbrizin neftayırma zavoduna, "Atlaspod" fabrikinə və "Layko" şirkətinə getmiş, həmin müəssisələrin işi ilə tanış olmuşdur.

Təbrizdə Heydər Əliyev böyük Azərbaycan şairi Şəhriyarın qəbrini ziyarət etmiş, onun məzarı önünə gül-çiçək dəstələri qoymuşdur.

Heydər Əliyev martın 19-da Xudafərin - Culfa istiqamətində çəkilən yolun vəziyyətilə tanış olmaq üçün Təbrizdən Xudafərin körpüsünə getmiş və həmin gün axşam Naxçıvana qayıtmışdır.

İran İslam Respublikasına səfərdə Heydər Əliyevi Naxçıvan Muxtar Respublikasının Baş naziri Şəmsəddin Xanbabayev və İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Məhəmməd Sadeq Turi müşayiət etmişlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti

27 mart 1993-cü il

ALİ MƏCLİSDƏ QƏBUL

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1993-cü il mart ayının 16-dan 19-dək İran İslam Respublikasında rəsmi səfərdə olarkən Tehranda "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla görüşüb söhbət etmiş, tərəflər ötən il avqust ayının 24-də bağladıqları müqavilənin həyata keçirilməsi ilə əlaqədar bir sıra konkret məsələlərə baxmış və onların icrası barədə razılıq əldə etmişlər.

Aprel ayının 5-də Heydər Əliyev "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu prezidentinin müavinləri Fəribroz Şaabanian və Məmmədhəsən Əşrəfiani, onlarla birlikdə Naxçıvana gələn mühəndis-texniki işçilərin bir qrupunu qəbul etmişdir.

Söhbət zamanı Heydər Əliyevlə Möhsen Rəfiqdust arasında bağlanan müqavilədən irəli gələn məsələlərə toxunulmuşdur.

Yaxın günlərdə "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun Naxçıvanda mağazası açılacaq, fondun vəsaiti hesabına ildə 60 milyon ədəd istehsal gücü olan kərpic zavodunun tikintisinə başlanacaq, qədim Naxçıvanın memarlıq ansamblını dəqiq şəkildə tamamlayan daha bir tikinti obyekti - müasir tələblərə cavab verən 250 milyon tümən dəyərində yaraşıqlı məscid binası inşa olunacaqdır.

Tehranın adlı-sanlı memarı Mehdi Əfşar məscid binasının layihə sənədləri ilə Heydər Əliyevi tanış etmişdir. Razılaşdırılmışdır ki, tikinti üçün işçi qüvvəsini və texnikanı Naxçıvanın aid təşkilatları verəcəkdir. Bu, əhalinin məşğulluğuna müəyyən qədər təsir göstərəcəkdir.

Danışıqlarda həmçinin qarşılıqlı maraq doğuran məsələlərə toxunulmuş, qeyd edilmişdir ki, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu muxtar respublika sənayesinin inkişafına əməli köməklik məqsədi ilə təsirli tədbirlər görəcək. Naxçıvan xalçaçılıq kombinatı və alt

trikotaj fabriki, şüşə qablar zavodu üçün müxtəlif çeşiddə xammal verəcək. Naxçıvan şəhərində plastik qablar, çörək və həna sexləri quraşdıracaqdır.

Heydər Əliyev "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun vəsaiti hesabına 500 nəfər Naxçıvan Muxtar Respublika sakininin Məşhədə ziyarətə göndərilməsini sürətləndirməyi xahiş etmişdir. Tərəflər razılaşmışlar ki, yaxın günlərdə zəvvarlar Məşhəd şəhərinə göndəriləcəkdir.

Söhbət səmimilik və işgüzarlıq şəraitində keçmişdir.

Fəribroz Şaabanian və Məmmədhəsən Əşrəfianın Naxçıvana səfərləri davam edir. Onlar aprelin 7-də Heydər Əliyevlə birlikdə böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın xatirəsinə həsr olunmuş Şəhriyar beynəlxalq konqresi tədbirləri çərçivəsində keçirilən təntənəli yığıncaqda iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti

5 aprel 1993-cü il

NAXÇIVANIN QONAQLARI

Bu günlərdə Naxçıvan Muxtar Respublikası Qadınlar Cəmiyyətinin dəvəti ilə İran İslam Respublikası Qərbi Azərbaycan vilayəti Qadınlar Cəmiyyəti üzvlərinin bir qrupu Naxçıvana gəlmişdir.

Urmiyalı qonaqlar Şəhriyar beynəlxalq konqresi çərçivəsində Naxçıvan şəhərində keçirilən ədəbi-bədii gecədə iştirak etmiş, Şərur rayonunda olmuş, Şəhidlər xiyabanını ziyarət etmiş, muxtar respublikanın ictimai-mədəni həyatı ilə yaxından tanış ola bilmişlər.

Aprelin 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev burada səfərdə olan Qərbi Azərbaycan vilayəti Qadınlar Cəmiyyətinin nümayəndələrini onların xahişi ilə qəbul etmişdir.

Qadınlar Cəmiyyətinin sədri Jalə Əfşar Qərbi Azərbaycanın Valisi Əli Səadətinin səmimi salamını Heydər Əliyevə çatdırmışdır. O, İranın ictimai həyatında qadın təşkilatlarının yeri və rolu haqqında məlumat vermiş, iki ölkə arasında qarşılıqlı əlaqələrin genişlənməsi istiqamətində görülən tədbirlərdən danışmışdır.

Heydər Əliyev İran İslam Respublikası ilə Azərbaycan Respublikası, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin bütün sahələrdə inkişaf etməsində və dərinləşməsində qadın təşkilatlarının müstəsna rolu olduğunu bildirmiş, qarşılıqlı mənəvi-tarixi dəyərlərin bərpa olunması kimi zəruri və faydalı işlə o taylı-bu taylı Azərbaycanın qadın təşkilatlarına uğurlar arzulamışdır.

Qərbi Azərbaycan Qadınlar Cəmiyyətinin üzvlərindən Məryəm Bakiri, Səkinə Sidqi, Mənijə Cəfəri, Mehrəngiz və başqaları İranın çoxmilyonlu qadınları adından bu ağır günlərdə qəlbən bütün azərbaycanlılarla birgə olduqlarını, onların haqq işlərini müdafiə etdiklərini bildirmişlər.

Söhbət mehribanlıq və səmimilik şəraitində keçmişdir.

Ali Məclisdə qəbulda Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini Sevil Zeynalova, Naxçıvan Muxtar Respublikası Qadınlar Cəmiyyətinin sədri Sənubər Kərimova, İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Məhəmməd Sadeq Turi iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti

14 aprel 1993-cü il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRANLA ƏLAQƏLƏRİMİZİ MÖHKƏMLƏDİR

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ H.ƏLİYEVİN MİLLİ MƏCLİSİNİN İCLASINDAKI ÇIXIŞINDAN (15 İYUN 1993-CÜ İL):

"...Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşunun, daxili siyasətinin necəliyindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. **Birnici növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır.** Bu baxımdan Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir. **Qonşu İran İslam Respublikası ilə bizim münasibətlər yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir.** Rusiya çox böyük dövlətdir, bizim şimalda olan qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha da yaxşı, daha da geniş, səmərəli olmalıdır. Keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan bütün dövlətlərlə - Ukrayna, Belarus, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltika dövlətləri, Moldova ilə biz daha geniş qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu çox lazımdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüz illiklərlə çox yaxın olub. Bunları qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır. Şübhə etmirəm ki, məhz bu göstərilən siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir.

Azərbaycan artıq ümumi dünya miqyasına çıxıbdır. Azərbaycan Respublikasına Amerika Birləşmiş Ştatları tərəfindən son zamanlar göstərilən müsbət münasibətlər hamımızı sevindirir və güman edirəm ki, bu münasibətlər daha da genişlənib inkişaf etdirilməlidir. **Bütün Avropa ölkələri ilə bizim əlaqələrimiz genişlənməlidir. Xüsusən İngiltərə, Fransa, Almaniya və başqa Avropa ölkələri ilə. Bütün müsəlman ölkələri ilə, ərəb ölkələri ilə, türkdilli ölkələrlə bizim əlaqələrimiz daha da sürətlə inkişaf etməlidir.** Bir sözlə, sadəcə olaraq, xarici siyasət sahəsində öz mövqeyimi bildirmək istəyirəm. Ali Sovetin sədri kimi bu istiqamətdə fəaliyyət göstərəcəm... " (Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, səh.11-12).

İSTANBULDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 2-Cİ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

Zati-aliləri, hörmətli dostlar!

İcazə verin, mötəbər məclisinizi salamlayım, sizin hamınıza uğurlu və səmərəli iş arzulayım. Əminəm ki, keçirilən bu

məclisin həsr olunduğu iqtisadi əməkdaşlığın inkişafı regionlarımızın və xalqlarımızın yaxınlığına xidmət edəcək, onlara dinclik, səadət və firavanlıq bəxş edəcəkdir.

İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin - Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir.

Hörmətlə,

Heydər Əliyev

Azərbaycan Respublikası
Prezidentinin
səlahiyyətlərini həyata keçirən
Azərbaycan Respublikası
Ali Sovetinin sədri

5 iyul 1993-cü il

HEYDƏR ƏLİYEVİN "SOBESEDNİK"İN MÜXBİRİ İLƏ MÜSAHİBƏSİNDƏN:

Sual: Rüşvətxorlardan yaxanız qurtardı, amma yanacaqsız və çöreksiz qaldınız...

Heydər Əliyev: Lakin əvəzində Türkiyə və İran rəhbərləri ilə olan köhnə şəxsi əlaqələr kara gəldi. Axı, biz onlarla qonşuyuq, *("Azərbaycan" qəzeti, 10 avqust 1993-cü il).*

HEYDƏR ƏLİYEVİN YAZIÇI ALEKSANDR PROXANOVLA MÜSAHİBƏSİNDƏN:

"...İran və Türkiyə rəhbərləri ilə aramızda şəxsi dostluq münasibətləri yarandı. İran Prezidenti öz təyyarəsini Naxçıvana göndərdi. Mən onunla Tehrana gedib, yardım barəsində razılığa gəldim. Biz elektrik xətti çəkdik və İrandan enerci almağa başladıq. Eləcə də yanacaq və ərzaq..." ("Azərbaycan" qəzeti, 12 avqust 1993-cü il.

BİLƏSUVAR, CƏLİLABAD, MASALLI, LƏNKƏRAN, ASTARA, YARDIMLI VƏ LERİK RAYONLARINDAN SEÇİLMİŞ XALQ DEPUTATLARI VƏ HƏMİN RAYONLARDAN OLAN RƏHBƏR İŞÇİLƏR VƏ ZİYALILARLA GÖRÜŞÜNDƏKİ YEKUN SÖZÜNDƏN:

"...Orada hansı işlərin görüldüyünü burada dedilər. Bəli, qaz da çəkilib. Yaxşı yadıma saldılar. 1970 - 72-ci illərdə İrandan Sovet İttifaqına qaz kəməri çəkildi, Astaradan, Lənkərandan keçən qaz kəməri. Mən o qaz kəmərinin çəkilməsində və açılışında da iştirak etmişəm. Sovetlər İttifaqının Ali Sovetinin sədri Podqornı, İran şahı Məhəmməd Rza Pəhləvi və mən bu mərasimin iştirakçısı olmuşuq. Sonralar fikirləşdim ki qaz kəməri İrandan gəlir Azərbaycana, buradan da Rusiyaya. O vaxt həmin qaz kəməri ilə üç milyard kubmetr qaz gəlirdi, indi az gəlir. O vaxt Lənkəran bölgəsində qaz yox idi. Bəli, o dövrdə, məhz o dövrdə, məhz Azərbaycan rəhbərliyinin qayğısı nəticəsində bu bölgəyə qaz çəkildi. Ancaq indi deyirlər ki, ora qaz heç kifayət etmir. Mən bunu bu yaxın günlərdə bilmişəm. İra-

nın səfiri Əli Əsğər Nəhavəndian ilə danışarkən o dedi ki, İrandan biz qazı az alırıq, aldığımızın pulu da verilməyib. İndiyə qədər biz borcluyuq İrana. Mən xahiş etdim ki, siz qazı verin, görək sonra haqqını ödəmək üçün pulu haradan tapırıq" *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, s. 79).*

H.ƏLİYEVİN "NEZAVİSİMAYA QAZETA"NIN MÜXBİRİNƏ VERDİYİ MÜSAHİBƏDƏN:

Sual: Rusiyada, elə burada, Bakıda da eşitdim ki, son vaxtlar Azərbaycan İrana və Türkiyəyə güclü meyl göstərir, din birliyi amili az qala milli birlik amili kimi qəbul edilmişdir...

Heydər Əliyev: Hər dövlətin öz xarici siyasəti var. Milli xüsusiyyətlər, din - bunlar da əhəmiyyətli amillərdir. Şəxsən mən milli hisslərlə dini hissləri qarışdırmazdım. Bu kateqoriyalar heç də hər cəhətdən oxşar deyildir, hərçənd əksər hallarda onları az qala eyniləşdirməyə çalışırlar.

Bir vaxtlar bütün Qərb, elə Şərq də sovet xalqlarının hamısına ən böyük şər kimi baxırdılar, səbəb də onların, Allaha "inanmaması" idi. Bəs indi, adamlar, xalqlar Allaha, dinə üz tutduqları vaxtda necədir, onlar yenə də günahkardırlar?... Sonra təməlçilik niyyətləri və sair təhlükəli meyllər barəsində söhbətlərin əksəriyyəti mənə uydurma kimi görünür... O ki, qaldı milli xüsusiyyətlərə, burada hətta səthi etnoqrafik bilik, zənnimcə, hər şeyi ətraflı şəkildə izah edir. Türk və Azərbaycan dilləri qohum dillərdir, elə bunun özü də yaxınlığın labüdlüyünü qabaqcadan müəyyənləşdirir. **İranda on milyonlarla azərbaycanlı yaşayır. Məgər bu amillər iki böyük ölkə ilə yaxınlığın olmasını zərurətə çevirmirmi?**

Daha bir məsələ barəsində... Yetmiş ildən artıq bir müddətdə biz öz cənub qonşularımızdan, demək olar, tamamilə ayrı düşmüşdük, indi, birləşmə, inteqrasiya əhval-ruhiyyəsi bütün dünyaya hakim kəsildiyi bir vaxtda nəyə görə də bizim qonşularla normal münasibətlərimiz olmasın? Axı, bu münasibətlər başqa dövlətlərə heç bir ziyan gətirə bilməz. Mən bizim münasibətlərimizi nəzərdə tuturam... Azərbaycanı Türkiyə və İranla qədim tarix birləşdirir... *("Azərbaycan" qəzeti, 30 avqust 1993-cü il).*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN RESPUBLİKA ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN MƏTBUAT KONFRANSINDA JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVABLARDAN:

10 sentyabr 1993-cü il

Sual: İran barəsində - müharibə ilə əlaqədar nə kimi danışıqlar aparılmışdır? Siz İrandan hərbi kömək tələb etmisinizmi?

Heydər Əliyev: İran rəhbərliyi ilə danışıqlarımızın səbəb Azərbaycanın bu ölkə ilə yaxın və ya həmsərhəd olan rayonlarında hərbi əməliyyatların güclənməsi ilə əlaqədar indiki halda ən əvvəl İran tərəfinin fəallığı olmuşdur. Danışıqlar bununla bağlı idi ki hərbi əməliyyatlar artıq İranla həmsərhəd ərazidə, az qala onun ərazisində gedirdi. Yaşayış məntəqələrinə yağdırılan mərmilər İran ərazisinə düşürdü. Siz bilirsiniz ki, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarımız İranla həmsərhəddir, özü də ərazimizi Araz çayı ayırır. Son vaxtlar adamlar öz aralarında ünsiyyət üçün imkana malikdirlər, çünki Araz çayının hər iki tərəfində azərbaycanlılar yaşayırlar. Onları qohumluq telləri, eyni millətə ümumi mənsubiyyət, tarixi əlaqələr və digər əlaqələr bağlayır. Buna görə də tamamilə qanunauyğundur ki, İran, xüsusən onun sərhədyanı vilayətləri Ermənistan silahlı birləşmələrinin apardıqları fəal hərbi əməliyyatlardan narahat idilər.

Bizə məlum olduğuna görə, bu, orada yerli əhali arasında hiddət, təşviş, narahatlıq doğurmuşdur. Çoxları ərazimizə keçib qardaşlarına kömək etmək istəyirdi. Bu, tamamilə qanunauyğun haldır - lap yaxınlıqda xalq məhv edildikdə, başqaları buna etinasız və biganə qala bilməzlər. Odur ki, bu qədər böyük miqdarda qaçqın görən İran hökuməti təşəbbüs irəli sürərək bildirmişdir ki, onlar işğal edilmiş həmin rayonlardan olan təxminən 100 min qaçqını öz öhdələrinə götürə bilərlər. Əgər indi sizin burada təmsil etdiyiniz Avropa ölkələri belə təşəbbüs irəli sürərlərsə, biz onu yalnız minnətdarlıq hissi ilə qəbul edərik. Fərqi yoxdur, istər Amerika, İngiltərə olsun, istərsə də Fransa və ya Almaniya.

İran bizdən xahiş etdi ki, yüz min qaçqın üçün müvəqqəti çadır şəhərciyi salınmasına yer ayıraq. Biz onlara yer ayırdıq. Buyurun, indi siz də öz ölkələrinizə müraciət edin, qoy onlar bizə kömək göstərsinlər. Biz İrana ayrılmış sahənin yaxınlığında digər hər hansı ölkəyə də yer ayırarıq, təki bizə kömək etsinlər. Bu məsələnin mahiyyəti əslində bundan ibarətdir. O ki, qaldı İran hökumətinin planlarına, mən dəfələrlə demişəm ki, Ermənistan silahlı birləşmələrinin bu cür son dərəcə təhlükəli, avantürist, təcavüzkar hərəkətləri münaqişəni beynəlmiləlləşdirməyə doğru aparır. Buna nə İran, nə də Türkiyə biganə qala bilməz...

Sual: Bu gün atəşkəsin son günüdür. Azərbaycanın bölgədəki son rayonu da ermənilərin əlinə keçərsə və İran Azərbaycan torpaqlarına daxil olarsa, onda nə olacaq? İkinci sualım belədir: Beyləqan və İmişli şəhərlərində 200 mindən çox qaçqın var. Oktyabrın 3-də isə seçkilər keçiriləcək. Bu adamlar necə səs verəcəklər? Artıq qış yaxınlaşır, çadırlardan başqa onların heç nəyi yoxdur. Qışı necə keçirəcəklər?

Heydər Əliyev: ... Əgər atəşkəs dayansa, yəni, atəş yenidən başlasa, sərhədləri qoruyan İran əsgərlərinin nə edəcəklərinə gəldikdə isə, narahatlığa ehtiyac yoxdur. O ki, qaldı qaçqınlara... İranlıların oraya gedib qaçqınlara qayğı göstərməsi haqqında isə dedim... Biz hər bir dövlətin Azərbaycan torpağında qaçqınlara qayğı göstərməsini, kömək etməsini çox minnətdarlıqla qəbul edirik. O cümlədən də Türkiyənin köməyini. Buyurun, gəlin *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 135 - 136).*

H.ƏLİYEVİN RESPUBLİKA ALİ SOVETİNDƏ GƏNCLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏKİ ÇIXIŞINDAN:

22 sentyabr 1993-cü il

"... Şərq aləmini bilmək üçün İranda da çox böyük imkanlar var, bunlardan istifadə etməliyik. Ərəb ölkələrindən də istifadə etməliyik... İran İslam Respublikası ilə respublikamız arasında əvvəlki anlaşılmazlıq aradan götürülüb, indi əlaqələr sürətlə inkişaf edir..." *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 164 - 182).*

ATƏM-İN SƏDRİ XANIM MARQARET AF UQLAS İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA JURNALİSTLƏRİN SUALLARINA VERİLƏN CAVABLARDAN:

(26 sentyabr 1993-cü il)

Sual: Heydər Əliyeviç, Azərbaycan hökuməti Qarabağ münaqişəsinin nizama salınması məsələsində İran İslam Respublikasının hər hansı təşəbbüsünü qəbul etməyə hazırdırmı?

Heydər Əliyev: Biz İran İslam Respublikası tərəfindən hələlik heç bir təklif almamışıq. İran Prezidenti cənab Haşimi Rəfsəncani bu gün Bakıya gəlir. Baxaq, görək o nə kimi təkliflər irəli sürəcəkdir. İndi bu suala cavab vermək mümkün deyildir.

Sual: Cənab Əliyev, bunu mümkün hesab edirsinizmi ki, öz ərazilərinizi qorumaq, ölkənin birliyini saxlamaq üçün nə vaxtsa hərbi yardım üçün Rusiya və İran kimi xarici ölkələrə müraciət etmək lazım gələcəkdir?

Heydər Əliyev: Hələlik ki, biz bu gün beynəlxalq təşkilatlara - BMT-yə, Təhlükəsizlik Şurasına, ATƏM-ə, Minsk qrupuna böyük ümidlər bəsləyirik və əlbəttə, öz respublikamızın qüvvələrinə və imkanlarına bel bağlayırıq. Əgər bütün bunlar heç bir nəticə verməsə, bu halda, Azərbaycan Respublikası öz ərazi bütövlüyünü qorumaq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün lazımi qərarlar qəbul etmək hüququnu özündə saxlayır ... (Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 219).

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİ ARASINDA DANIŞIQLARIN YEKUNLARINA HƏSR OLUNMUŞ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

28 oktyabr 1993-cü il

- Hörmətli Prezident, hörmətli xanımlar və cənablar!

İran İslam Cümhuriyyətinin Prezidenti hörmətli ağayi Haşimi Rəfsəncani və onu müşayiət edən yüksək vəzifəli dövlət nümayəndələri bizim dəvətimizlə üç gündür ki, Azərbaycanda səfərdədirlər. Qeyd etmək istərdim ki, Azərbaycan Respublikası özünü müstəqil dövlət elan etdikdən sonra bu, İran İslam Cümhuriyyətindən bizə gələn yüksək səviyyəli ilk nümayəndə heyətidir. Bu danışıqların nəticəsində Azərbaycan Respublikası ilə İran İslam Cümhuriyyəti arasında imzalanmış sənədlər də müstəqil Azərbaycan dövlətinin İran İslam Cümhuriyyəti ilə yüksək səviyyədə imzaladığı ilk sənədlərdir. Biz bu səfərdən, görüşlərdən, aparılan danışıqlardan çox məmnunuq və guman edirəm ki, bu gün imzalanan sənədlər İran İslam Cümhuriyyətin ilə Azərbaycan Respublikası arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin yeni mərhələsinin başlanğıcıdır.

İran İslam Cümhuriyyəti Prezidentinin və onu müşayiət edən şəxslərin Azərbaycanda olduğu vaxt Azərbaycan Respublikası üçün yeni bir çətinliyə təsadüf etmişdir. Bu günlərdə erməni silahlı dəstələri Azərbaycan Respublikasının bir neçə məntəqəsinə yeni hücumlar etmişlər. Zəngilan rayonu iki-üç gündür ki, mühasirə şəraitində yaşayır. Biz Azərbaycanın müharibə şəraitində olması və Ermənistan silahlı

qüvvələrinin Azərbaycana təcavüzü ilə əlaqədar bu danışıqlarımızda çox geniş fikir mübadiləsi apardıq. Cənab Haşimi Rəfsəncani bu sahədə də müəyyən səylər göstərdi və bölgədə dünəndən atəşin dayandırılması üçün Ermənistan tərəfi ilə bir neçə dəfə danışıqlar apardı. Guman edirik ki, İran İslam Cümhuriyyəti rəhbərliyinin və şəxsən cənab Haşimi Rəfsəncaninin bu sahədə fəaliyyəti davam edəcək və o öz imkanlarından istifadə edib Azərbaycan Respublikasının təcavüzdən xilas olması üçün lazımi fəaliyyət göstərəcəkdir.

Cənab Haşimi Rəfsəncani kimi mən də qeyd etmək istəyirəm ki, aparılan danışıqlardan, görüşlərdən və bu gün imzalanmış sənədlərdən biz çox razıyıq. Belə hesab edirik ki, bu səfər çox səmərəli oldu və guman edirəm ki, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra sürətlə inkişaf edəcəkdir. Cənab Haşimi Rəfsəncaninin Azərbaycana təşrif gətirməsi münasibətilə bir daha təşəkkür edirəm və İran İslam Cümhuriyyətindən burada olan bütün qonaqlarımıza işlərində müvəffəqiyyətlər diləyirəm. Təşəkkür edirəm.

Sual: Ağayi Haşimi Rəfsəncani, Siz üç gündür ki, Azərbaycandasınız, bir sıra görüşlər keçirmisiniz. Mən bilmək istərdim, yalnız İran İslam Cümhuriyyətinin Prezidenti kimi yox, həm də İran dövlətinin bir vətəndaşı kimi, burada keçirdiyiniz görüşlərdən hansı uzun müddət yadınızda qalacaqdır?

Ə.Haşimi Rəfsəncani: Verdiyiniz suala, yəni, hansı günlərin daha yadda qalan olduğuna cavab vermək mənim üçün çətindir. Çünki hamısı mənim üçün yaxşı keçmişdir. Buraya qədəm basdığım andan hörmətli Prezident cənab Əliyev və Azərbaycan Respublikasının digər hökumət və dövlət xadimləri tərəfindən çox mehriban və xoş qarşılandım. Elə hiss edirəm ki, öz evimizə gəlmişəm. Olduğumuz bütün yerlər - istər mədəniyyət mərkəzləri, istərsə də müəssisələr bizim üçün çox maraqlı idi. Hərbi qospitalda müalicə olunan yaralı əsgərlərin yanında, istərsə də Şəhidlər xiyabanında olmaq mənim yaddaşımda silinməz izlər buraxmışdır. Mənim üçün ən əhəmiyyətlisi və ən əməli cəhət budur ki, bizim aramızda tam qarşılıqlı anlaşma və mehriban ünsiyyət hökm sürür ki, bu da gələcək əlaqələrimiz üçün ən böyük təminatdır. Ən əhəmiyyətli cəhət budur ki, burada adamlar, azərbaycanlılar bizi çox yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Bu isə, gələcəkdə hər şeyin inkişaf edəcəyinə ümid verir.

Sual: Möhtərəm Prezidentlər, gələcəkdə Aralıq dənizinə qədər uzanan neft kəmərinin keçəcəyi təxmini marşrut kimi İran ərazisi müzakirə obyektinə çevrilibmi və əgər Azərbaycan ərazisində gedən müharibə daha geniş miqyas alarsa, Azərbaycan rəhbərliyi hərbi yardım üçün Rusiyaya, İrana, yaxud başqa dövlətə müraciət edəcəkmi?

Ə.Haşimi Rəfsəncani: Sizin sualınızın birinci hissəsini dəqiqləşdirəkmi? Aralıq dənizinə gedən neft kəmərinin İran ərazisindən keçməsini deyirəm. Bu sualı kimə vermisiniz?

Sual: Hər iki Prezidentin cavab verməsini xahiş edərdim.

Ə.Haşimi Rəfsəncani: Neft kəmərinin İran ərazisindən keçməsi məsələsi protokollaşdırma və yaxud qarşılıqlı anlaşma sənədi səviyyəsinə gəlib çatmamışdır. O ki, qaldı Azərbaycandan çəkiləcək neft kəmərinin İran ərazisindən keçib-keçməyəcəyinə, İran öz ərazimizdir, öz vətənimizdir və istənilən vaxt bu barədə danışa bilərik.

Heydər Əliyev: Mən də bu fikirdəyəm ki, bu neft kəmərlərinin hansının haradan keçməsi hələ heç də məlum deyil, bu

məsələləri qabaqlamağa ehtiyac yoxdur. Bu məsələlər bir neçə dövlətin danışıqları və razılığı nəticəsində ola bilər. Bu danışıqlar, bu sazişlər nə nəticə verəcəksə, elə də olacaqdır. Mən cənab Prezidentə təşəkkür edirəm ki, İran ərazisindən Azərbaycan üçün hər bir kəmərin, hər bir borunun keçməsinə elə indi razılıq verir. Sualın ikinci hissəsinə gəldikdə isə, mən belə hesab edirəm ki, indi biz çox gərgin şəraitdə, müharibə şəraitindəyik. Şübhəsiz ki, öz torpaqlarımızı özümüz qorumalıyıq, öz gücümüzə güvənməliyik və öz xalqımızın gücü ilə də öz torpaqlarımızı işğalçılardan təmizləməliyik. Bu yolda başqa hansı vasitələrdən istifadə ediləcəyi hələ İran İslam Respublikasına məlum deyildir.

Sual: Birinci sualım hörmətli İran Prezidentinədir. Azərbaycan Respublikasının Zəngilan rayonundakı son hadisələrlə əlaqədar İran sərhəddində vəziyyət çox gərginləşmişdir. Bununla əlaqədar, İran tərəfi bu yaxınlarda hər hansı tədbir görəcək, ya yox?

Ə.Haşimi Rəfsəncani: Biz dünən mənim adımdan Ermənistan Prezidentinə müraciət göndərmişik. Ona xatırlatdıq ki, bizə vəd etmişdiniz ki, hazırda olduğunuz yerdən bir qarış da olsa irəli getməyəcəksiniz. Ona dedim ki, verdiyiniz vədə əməl etməlisiniz. Hətta ona xatırlatdım ki, yeni həmlələrlə əlaqədar çoxlu qaçqınlar yaranmışdır ki, bu da yeni problemlər törədir. Günortadan sonra mənə xəbər çatdırdılar ki, atəş kəsilmişdir. Cənab Heydər Əliyev də belə bir məlumat aldı ki, Zəngilan rayonunda atəş kəsilmişdir. Bununla belə, əlbəttə, biz heç vaxt öz sərhədlərimizdə təhlükəli vəziyyət yaranmasına dözməyəcəyik. Ümidvaram ki, vəziyyət yaxşılığa doğru dəyişir.

Sual: İkinci sualım Azərbaycan Respublikasının Prezidentinədir. Hörmətli Heydər bəy, çoxlu müqavilə imzalandı, lakin onların arasında müdafiə haqqında, yaxud hərbi müqavilə imzalanmadı. Belə müqavilələr nəzərdə tutulubmu?

Heydər Əliyev: Əgər, nəzərdə tutulmuş olsaydı, imzalanardı.

Sual: Hörmətli Heydər bəy, müşahidəçilərin fikrincə, Zəngilanda yaranmış vəziyyət Rusiyanın təkliflərini Azərbaycanın qəbul etməməsi ilə bağlıdır. Söhbət Rusiya ordusunun Azərbaycana qayıtmasından və Xəzər dənizinin statusu barədə Rusiyanın təklifinin qəbul edilməməsindən gedir. Bu barədə Sizin fikrinizi bilmək istərdim.

Heydər Əliyev: Ola bilər, bu sizin şəxsi fikrinizdir. Bizdə belə məlumat yoxdur. Çünki rus qoşunlarının Azərbaycana qayıtması haqqında bizə heç bir təklif edilməmişdir. Bu, sizin fikriniz ola bilər.

Sual: Birinci sualım Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarınadır. Cənab Prezident, havaların soyuması, iqlimin bir az da sərtləşməsi Azərbaycanda hərbi və siyasi iqlimin kəskinləşməsi ilə üst-üstə düşdüyü bir məqamda Sizin fikrinizi bilmək istəyirəm: cənab Əkbər Haşimi Rəfsəncani ilə qaçqınların bundan sonrakı axınının yerləşdirilməsi ilə bağlı hər hansı söhbətiniz oldumu və İran tərəfi Sizə söz verdimi ki, belə bir addım atacaq?

Heydər Əliyev: Bəli, cənab Haşimi Rəfsəncani ilə bizim aramızda bu barədə çoxlu söhbətlər olmuşdur və biz ümidvarıq ki, İran İslam Cümhuriyyəti və şəxsən cənab Haşimi Rəfsəncani bizim qaçqınlara köməyi bundan sonra da davam etdirəcəklər.

Ə.Haşimi Rəfsəncani: Mən müzakirə zamanı cənab Heydər Əliyevə belə bir fikrimi bildirdim ki, sizin qaçqınlarınız bizim üçün, müharibə apardığımız dövrdəki

qaçqınlarımız timsalındadır. İstədikləri vaxt İran torpağının sakinləri ola, burada yaşaya bilərlər. Lakin biz belə bir cəhəti üstün tuturuq ki, daha yaxşı olar, öz doğma torpaqlarına, ev-eşiklərinə qayıdıb yaşasınlar. Qaçqın olmaq, əlbəttə, çox pis vəziyyətdir. Və biz istərdik ki, onlar, hələlik, olduqları yerdə qalsınlar. Biz apardığımız müharibənin təcrübəsindən belə bir yəqinlik hasil etmişik ki, adamlar öz yerlərini tərk etməyəndə istədiklərinə daha tez nail ola bilirlər. Fələstinin təcrübəsinə nəzər salın: öz torpaqlarından getmiş, qoyub qaçmış, tərk etmiş fələstinlilər bir daha öz yerlərinə qayıda bilmirlər. Əksinə, öz torpaqlarında, ev-eşiklərində qalanlar İsrail işğalçılarına qarşı uğurla mübarizə aparırlar. Bosniyada da eyni vəziyyətdir. Biz kömək edirik, lakin camaatı, xalqı qaçqın düşməyə təşviq etmirik. Qadınlar, uşaqlar məcburiyyət üzündən qaçqın vəziyyətinə düşsələr də, cavanlar bunu özlərinə heç cür rəva görməməlidirlər, kişi kimi, mərdliklə vuruşmalıdırlar. Təşəkkür edirəm.

Sual: İranın Azərbaycanda, Əfqanıstanda və Bosniya-Hersoqovinada baş verən hadisələrə münasibətindən bütün dünya belə bir nəticəyə gəlmişdir ki, doğrudan da İran sülhpərvər ölkədir. Biz istərdik Tacikistan hadisələrinə də öz prizmamızdan baxaq və deyək ki, Tacikistanda sülhün və əminamanlığın bərpa olunması sahəsində İran tərəfindən nə kimi tədbirlər gözlənilir və edilir?

Ə.Haşimi Rəfsəncani: Biz Orta Asiya respublikalarında - Tacikistanla qonşu ölkələrdə səfərdə olarkən onların dövlət xadimləri və başçıları ilə belə qərara gəldik ki, Tacikistanda vəziyyət nizama salınanadək müştərək tədbirlər görülsün. İlk tədbir kimi qərara alındı ki, Tacikistanın və İranın xarici işlər nazirləri İranda görüşsünlər və sülhün, əmin-amanlığın bərpası yollarını müzakirə etsinlər. İnşaallah, Tehrana qayıdandan sonra görəcəyimiz ilk tədbir bu olacaq.

Sual: Mənim sualım cənab Heydər Əliyevədir. Azərbaycan MDB-yə daxil olduqdan sonra Azərbaycanda baş verən hadisələrə həmin birliyin üzvü olan ölkələrin münasibəti necədir və nə kimi tədbirlər görülmüşdür?

Heydər Əliyev: Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olarkən qarşıya belə bir məqsəd qoyulmamışdır ki, Azərbaycanın Ermənistanla gedən müharibəsində yeni bir tədbir olacaqdır. Ancaq məlumdur ki, Ermənistan silahlı qüvvələrinin ərazimizə təcavüzü ilə əlaqədar biz son vaxtlar Rusiya Xarici İşlər Nazirliyinin vasitəçiliyi ilə bir sıra danışıqlar aparırıq və Rusiya da bu danışıqlarda iştirak edir. Müstəqil Dövlətlər Birliyinin üzvü olan başqa dövlətlər isə, hələlik, bu məsələyə qarışmamışlar.

Sual: Sualım İran İslam Respublikasının Prezidenti ağayi Haşimi Rəfsəncaniyədir. Möhtərəm Prezident, İranın Dağlıq Qarabağ ətrafında apardığı danışıqlardan, verdiyi bəyanatlardan konkret əməli tədbirlərə keçməsi mümkündürmü? Əgər mümkündürsə, bu, hansı halda baş verə bilər?

Ə.Haşimi Rəfsəncani: Ümidvaram ki, hələlik əməli işlər görməyə ehtiyac yoxdur. Görürəm ki, siz hərbi köməyi nəzərdə tutursunuz. Əlbəttə, biz çalışacağıq mümkün olan bütün səyləri göstərək ki, iş gəlib bu yerə çatmasın.

Sual: Cənab Ə.Haşimi Rəfsəncani, cənab Heydər Əliyev, bilmək istərdim ki, bu münaqişənin aradan qaldırılmasında beynəlxalq təşkilatların görə biləcəyi köməkaxıra qədər heç bir nəticə vermədən davam edərsə, onların bu fəaliyyətinə ümid bəsləmək nə dərəcədə doğru olardı?

Heydər Əliyev: Biz beynəlxalq təşkilatların fəaliyyətinə ümid bəsləmişik və indi də bəsləyirik. Birləşmiş Millətlər Təşkilatına, ATƏM-ə ümid bəsləyirik. Münaqişənin aradan qaldırılması üçün onların fəaliyyətinin indiyədək müsbət nəticə verməməsi göz qabağındadır. Ancaq dünya birliyi tərəfindən tanınmış və dünya birliyini təmsil edən bu nüfuzlu təşkilatlardan biz imtina edə bilmərik. Əksinə, çalışmışıq və bundan sonra da çalışacağıq ki, bu təşkilatların imkanlarından maksimum istifadə etməyə nail olaq. Ermənistan silahlı qüvvələrinin təcavüzü ilə əlaqədar olaraq dünən mən Birləşmiş Millətlər Təşkilatına və onun Təhlükəsizlik Şurasına müraciət etmişəm. Xahiş etmişəm ki, Təhlükəsizlik Şurası təcili olaraq bu məsələni müzakirə etsin.

Ə.Haşimi Rəfsəncani: Mən də o fikirdəyəm ki, beynəlxalq təşkilatların fəaliyyəti faydalı ola bilər və onları rədd etmək lazım deyil. Əlbəttə, bununla belə, iki tərəf özü öz taleyi haqqında fikirləşməlidir. Çünki yalnız iki tərəf bir-birinə ürək yandıra bilər, başqası onların halına o qədər də can yandıra bilməz.

Sual: Mənim sualım hörmətli Prezident Haşimi Rəfsəncaniyədir. İranın və Türkiyənin Azərbaycanla olan tarixi, sosial, mədəni yaxınlığını nəzərə alan Qərb mətbuatı belə bir iddia ortaya atır ki, Türkiyə və İran Azərbaycanla münasibətlərini genişləndirmək baxımından son dərəcə böyük bir rəqabət içərisindədirlər. Bu ideyaya münasibətiniz necədir?

Ə.Haşimi Rəfsəncani: Əlbəttə, imperialist dairələrin mətbuatında həmişə belə şeytani əməllər özünü göstərmişdir. Hətta mən öz mətbuatımızdan da gileylənirəm ki, bəzən belə fikirlər onların da səhifələrindlə özünə yer tapır. Mən istərdim ki, hər iki dövlət Azərbaycanla əməkdaşlıq sahəsində öz aralarında əməkdaşlıq etsin. Əlbəttə, bəzi əlaqələr, məsələn, iqtisadi əlaqələr yaratmaq sahəsində rəqabət ola bilər. Hətta ölkənin özündə də bəzi sahələrdə müxtəlif təşkilatlar, birliklər bir-biri ilə rəqabətdə olurlar. Bu, təbii haldır. Əlbəttə, bizim Azərbaycanla iqtisadi əlaqələr yaratmağımız o demək deyildir ki, biz buraya nüfuz dalınca gəlirik. Yalnız əməkdaşlıq etmək istəyirik. Ümidvaram ki, Türkiyənin mövqeyi də belə olacaq.

Sual: Cənab Rəfsəncani, sualım Sizədir. Azərbaycanın cənub-qərbinin Ermənistan tərəfindən işğal olunması, son məlumata görə, Azərbaycan-İran sərhəddinnin 70 kilometrinə Ermənistan silahlı qüvvələrinin nəzarət etməsi İran dövləti üçün, İran İslam Respublikası üçün qaçqınlardan əlavə daha nə kimi problemlər yaradır?

Ə.Haşimi Rəfsəncani: Mən bu barədə əvvəlki cavabımda dedim ki, bununla əlaqədar Ermənistan Prezidentinə müraciot göndərmişəm və bildirmişəm ki, hazırki vəziyyətə biz heç cür dözə bilmərik *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 222 - 226).*

İSTANBULDA MƏTBUAT MƏRKƏZİNDƏ JURNALİSTLƏR VƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏDƏN:

11 fevral 1994-cü il

Sual: İrandakı azərbaycanlıları da birləşdirmək niyyətiniz varmı?

Heydər Əliyev: Bilirsinizmi, biz

Azərbaycanın müstəqilliyi uğrunda çalışırıq. Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuşdur. Onu azad etmək lazımdır. Bu bizim ən başlıca problemimizdir. Bu problemi başa düşmədiyiniz halda mənə nə üçün başqa suallar verirsiniz?

Sual: Ərəb dünyasına münasibətinizi və keçmiş Prezident Ə.Elçibəyin siyasəti barədə fikrinizi açıqlamağı xahiş edirik.

Heydər Əliyev: Azərbaycan ərəb dünyasına çox müsbət münasibət bəsləyir. Bir dinə mənsub olmağımız, ənənələrimizin, mədəniyyətlərimizin oxşarlığı tarixən bizi yaxınlaşdırmışdır. Ona görə də, ərəb dünyasına münasibətim müsbətdir və guman edirəm ki, bu, xarici siyasətimizdə önəmli yer tutacaqdır.

Elçibəyin siyasətinə gəldikdə isə, mən, ümumiyyətlə, bu barədə danışmaq istəmirəm. *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 408).*

BÖYÜK BRİTANİYA SƏNAYEÇİLƏRİ KONFEDERASİYASINDA ÇIXIŞDA VERİLƏN SUALLARA CAVABDAN:

22 fevral 1994-cü il

Sual: Sizin xarici siyasətinizdə Rusiyaya, Yaxın Şərqə, xüsusən İrana münasibət necədir?. Bakı - Ənzəli (İran) neft kəməri barədə nə deyə bilərsiniz? Bazar iqtisadiyyatınızda xarici ölkələrin, ümumiyyətlə, Yaxın Şərqin, o cümlədən də İranın rolunu necə təsəvvür edirsiniz? Xəzər dənizi hövzəsi ölkələrinin lideri kimdir?

Heydər Əliyev: Azərbaycanın xarici siyasəti bütün dövlətlərlə hüquq bərabərliyinə əsaslanan və qarşılıqlı surətdə faydalı olan əlaqələr yaratmaqdan ibarətdir. Bəli, məhz bütün dövlətlərlə, o cümlədən qonşu ölkələrlə. Şübhəsiz ki, qonşu dövlətlərlə əlaqələr coğrafi - siyasi vəziyyətə görə daha yaxındır...Odur ki, bütün ölkələrlə əlaqələrimiz hüquq bərabərliyinə əsaslanmalı və qarşılıqlı surətdə faydalı olmalıdır. O cümlədən Rusiya ilə də, İranla da. Biz bunların heç birisinə fərq qoymuruq... Boru kəmərinin Bakıdan Ənzəliyə çəkiləcəyi barədə sualınıza gəldikdə, bundan mənim xəbərim yoxdur... Başqa bir ölkənin, o cümlədən də İranın, yaxud hər hansı bir qonşu dövlətin bizim bazar iqtisadiyyatına heç bir təsiri ola bilməz... *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 419).*

BÖYÜK BRİTANİYA KRAL BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDAKI GÖRÜŞDƏN:

23 fevral 1994-cü il

Sual: Siz öz çıxışınızda dediniz ki, Ermənistanla münaqişənizin aradan qaldırılması üçün beynəlxalq vasitəçilik səylərini alqışlayırsınız. Qonşunuz İran Cümhuriyyəti sizə öz vasitəçilik xidmətlərini təklif etdikdə buna necə baxdınız? Mən, həmçinin, ümidvaram ki, siz İranla Ermənistan və İranla Azərbaycan arasında münasibətlər barəsində bir şey deyə bilərsiniz. Bəs, İran barəsində Azərbaycanın siyasətində hər hansı irəliləyiş varmı?

Heydər Əliyev: Azərbaycanla İran arasında münasibətlər normaldır. Bu yaxın vaxtlaradək münasibətlərimiz keçmiş Azərbaycan rəhbərliyinin təqsiri üzündən qeyri-normal xarakter daşıyırdı. İndi münasibətlərimiz qaydasına düşmüş və bizim heç bir problemimiz yoxdur. Bununla bərabər, İranın Ermənistanla çox yaxşı münasibətləri

var. Buna görə də İran tərəfi bildirmişdir ki, Azərbaycan ilə Ermənistan arasında vasitəçi rolunu oynaya bilər. Bununla əlaqədar İran Ermənistana müraciət etmişdir. Ermənistan da razılaşmışdır. Lakin biz bu fikirdəyik ki, bir dövlət belə mürəkkəb vəziyyətdə vasitəçiliyi təmin edə bilməz, beynəlxalq təşkilatların və bir neçə dövlətin səylərini birləşdirmək lazımdır. Bununla yanaşı, biz hər hansı bir ölkənin vasitəçilik səylərindən imtina etmirik. Bu vasitəçiliyin şərtlərini və real imkanlarını aydın və dəqiq təsəvvür etmək lazımdır *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 428 - 429).*

BRÜSSELDƏ BEYNƏLXALQ MƏTBUAT MƏRKƏZİNDƏ MƏTBUAT KONFRANSINDAKI GÖRÜŞDƏN:

4 may 1994-cü il

Sual: İş belə gətirmişdir ki, Azərbaycanın üç böyük qonşusu var - Rusiya, Türkiyə və İran. Azərbaycan Rusiya ilə birlikdə Kollektiv Təhlükəsizlik haqqında müqaviləyə daxildir. Bu gündən etibarən "Sülh naminə tərəfdaşlıq" çərçivə sənədini imzaladıqdan sonra Türkiyə ilə müəyyən dərəcədə ümumi ittifaqa daxil olur. Yerdə qalır İran. Bilirik ki, İran Azərbaycana kömək göstərir, qaçqınlara yardım edir. Qarşılıqlı təhlükəsizlik haqqında hansısa müqavilənin imzalanması nəzərdə tutulurmu? Çünki bu baxımdan İran kənarda qalmışdır.

Heydər Əliyev: Azərbaycan üçün İran böyük qonşu ölkədir. Bizim çox mehriban, dostcasına münasibətlərimiz var. Keçən ilin oktyabrında İran Prezidenti cənab Haşimi Rəfsəncani Azərbaycanda rəsmi səfərdə olmuşdur. O zaman biz dövlətlərarası münasibətlərin inkişafı üçün perspektivlər açan bir sıra sənəd imzalamışıq. Azərbaycanın İranla iqtisadiyyat sahəsində, bütün başqa sahələrdə əməkdaşlığının böyük perspektivi var. Əgər hansısa yeni sənədələr imzalamaq tələb olunarsa, o zaman, görünür, bu məsələ ayrıca halda nəzərdən keçiriləcək. İran, həqiqətən, Azərbaycan qaçqınlarına böyük humanitar yardım göstərir. Bu yardıma görə biz İran hökumətinə minnətdarıq və əminik ki, Azərbaycan ilə İran arasındakı dostluq və əməkdaşlığın inkişaf perspektivləri əlverişli olacaqdır *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 556-557).*

ZAQULBADAKI PANSİONATDA MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ QAÇQINLARLA GÖRÜŞDƏKİ ÇIXIŞINDAN:

21 may 1994-cü il

... İran bizim yaxın qonşumuzdur. Orada milyonlarla azərbaycanlı yaşayır. Tarixən, əsrlər boyu bizim çox yaxın əlaqələrimiz olmuşdur. Ancaq son dövrdə elə siyasət aparırdılar ki, güya, İran bizim düşmənimizdir. Bunun nəticəsində də İranla münasibətlərimiz pozulmuşdu. Biz bu münasibətləri də qaydaya saldıq. İran Prezidenti ağayi Haşimi Rəfsəncani azərbaycana rəsmi səfər etdi, bir neçə müqavilə imzaladıq. İndi İranla həm iqtisadi, həm mədəni, həm də insani əlaqələrimiz çox yaxşı səviyyədə inkişaf edir *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab, səh. 583).*

HEYDƏR ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ ZAMANI İRAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN SİYASİ ARAŞDIRMALAR MƏRKƏZİNİN DİPLOMATİK KURSLARINDA TƏHSİLİNİ BAŞA ÇATDIRMIŞ MÜDAVİMLƏR QARŞISINDA ÇIXIŞI

2 iyul 1994-cü il

İran İslam Respublikasının Xarici İşlər Naziri hörmətli Əli Əkbər Vilayəti!

Siyasi Araşdırmalar Mərkəzində çalışan hörmətli müəllimlər və diplomatlar!

Hörmətli cənablar və xanımlar!

İran İslam Respublikasına səfərimin son günündə burada sizinlə bir yerdə olmağımdan çox məmnunam və hamınızı Azərbaycan xalqı adından, öz adımdan salamlayıram.

Bu gün burada mühüm bir hadisə baş verir. Azərbaycanın xarici işlərlə məşğul olan bir qrup mütəxəssisi burada təhsili bitirdikləri haqqında müəyyən sənədlər alır. Mən bu hadisənin iştirakçısı olduğumdan çox məmnunam. Siyasi Araşdırmalar Mərkəzinin diplomatik kurslarını bitirən Azərbaycandan gəlmiş məzunları təbrik edir, İranın Xarici İşlər Nazirliyinə respublikamıza göstərdiyi bu yardıma görə təşəkkürümü bildirirəm.

İran İslam Respublikasının Prezidenti hörmətli Haşimi Rəfsəncaninin dəvəti ilə mən dördüncü gündür ki, İranda rəsmi səfərdəyəm. Burada bizim çox faydalı görüşlərimiz olub və belə hesab edirəm ki, bu səfər İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gələcək inkişafı üçün mühüm mərhələdir.

Bildiyiniz kimi, Azərbaycan öz müstəqilliyini çox gec - yəni, bir-iki il bundan əvvəl qazanıbdır. Respublikamız müstəqil bir dövlət kimi dünya birliyində öz yerini tutmaqdadır. Bu dövrdə Azərbaycan çox ağır çətinliklərlə rastlaşıb, Ermənistan tərəfindən hərbi təcvüzə məruz qalıb. Altı ildir ki, Azərbaycan müharibə şəraitindədir. Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının ərazisinin yüzdə iyirmi hissəsini işğal edib. Azərbaycanın bu məntəqələrdə yaşayan vətəndaşları qaçqın düşüb. Bir milyondan artıq azərbaycanlı öz yerini-yurdunu, evini-eşiyini itirib qaçqın vəziyyətində yaşayır.

Respublikamızın müharibə şəraitində olması müstəqil Azərbaycanın həyatında böyük çətinliklər yaradıb. Bununla əlaqədar İran İslam Respublikasının Azərbaycana göstərdiyi yardıma görə, İranın Xarici İşlər Nazirliyinin bu sahədəki fəaliyyətinə görə mən öz təşəkkürümü bildirirəm. Burada, Xarici İşlər Nazirliyində olduğum üçün Azərbaycanın xarici siyasəti haqqında bir neçə kəlmə demək istəyirəm.

Azərbaycan müstəqil dövlətdir və öz müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Azərbaycan 70 ildən çox müddətdə kommunist rejimi, sosializm şəraitində yaşamışdır. Azərbaycan xalqı, respublikamız indi bu rejimdən, bu ideologiyadan imtina edərək öz həyatını, taleyini tarixi, mənəvi ənənələri əsasında, Allahın buyruğu ilə qurmaq, həll etmək istəyir. Azərbaycan müstəqillik yolu ilə gedir, demokratik hüquqi dövlət qurur, respublikada daxili siyasət Azərbaycanda demokratik prosesləri inkişaf etdirmək, siyasi plüralizmə yol açmaq, iqtisadiyyatı bazar münasibətləri yolu ilə aparmaq məqsədlərinə, yəni, köhnə rejimdən tamamilə imtina olunmasına xidmət edir. İndi biz keçid dövründəyik. Bu dövrün

çətinlikləri çoxdur. Əminəm ki, biz bu keçid dövrünü ötüb keçəcəyik və Azərbaycan öz həyatını dünyanın sivilizasiyalı ölkələrində əldə olunmuş nailiyyətlərdən istifadə edərək quracaqdır.

Azərbaycanın xarici siyasəti azad və müstəqildir. Ölkəmiz bütün dünya dövlətləri üçün açıqdır. Biz Azərbaycanın müstəqilliyini tanıyan, onun mənafeyinə toxunmayan, ölkəmizə müsbət münasibət göstərən hər bir dövlətlə əlaqələr qurmağa hazırıq və belə əlaqələr qururuq.

Azərbaycan bütün ölkələrlə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq yolu ilə gedir və bu yolu davam etdirəcəkdir. Azərbaycan öz xarici siyasətində qonşu dövlətlərlə əlaqələrin genişlənməsinə çox böyük fikir verir. Qonşu dövlətlərlə Azərbaycanın tarixi əlaqələri sıx olduğuna görə, ölkəmiz həmin münasibətlərin bundan sonra da inkişaf etməsinə çalışır.

Azərbaycanla İran arasındakı münasibətlər dərin köklərə malikdir. Bizim xalqlarımız əsrlər boyu bərabər yaşamış, bir yerdə olmuşlar. Bizim tarixi, mənəvi dəyərlərimiz eynidir. Biz hamımız, yəni, İran və Azərbaycan xalqları islam aləminə mənsub olan xalqlardır. İslam aləminin dəyərləri bizim üçün əzizdir, möhtərəmdir. Biz bu dəyərləri öz həyatımızda bundan sonra da bərqərar edəcəyik. Elmi, mənəvi, mədəni əlaqələrimiz bizi tarix boyu birləşdirib. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının çox böyük sərhədi var. Bunları nəzərə alaraq, Azərbaycan İran İslam Respublikası ilə dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir.

Doğrudur, bu əlaqələrdə son vaxtlar müəyyən soyuqluq əmələ gəlib, ancaq biz bunları aradan qaldırmışıq və qaldırırıq. İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani keçən ilin oktyabr ayında Azərbaycanda rəsmi səfərdə olandan sonra bu əlaqələr müsbət istiqamətdə inkişaf edir və biz bunu davam etdirəcəyik. Məhz buna görə də mən İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaninin dəvətini qəbul edib buraya gəlmişəm və burada gördüyümüz işlər, aparılan danışıqlar onu göstərir ki, biz düz yoldayıq və bu yolla da gedəcəyik. **Tam əmin ola bilərsiniz ki, İranla Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin inkişaf etməsi üçün biz bütün səyləri göstərəcəyik.** Mən, bir Prezident kimi, bu siyasətin təminatçısı kimi çıxış edirəm. Azərbaycan digər qonşu ölkələrlə də dostluq əlaqələrini davam etdirir. Bu baxımdan Gürcüstanla əlaqələrimiz dostluq xarakteri daşıyır. Rusiya ilə əlaqələrimizdə əvvəllər müəyyən çətinliklər olmuşdu, indi bunlar aradan qaldırılır və əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri inkişaf edir və inkişaf edəcəkdir. Azərbaycan Avropa və dünya ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələri inkişaf etdirəcəkdir. Bu, bizim xarici siyasətimizin əsas prinsipləridir və biz bunun əsasında irəliyə gedəcəyik.

Bunların hamısını sizə çatdıraraq, bir daha demək istəyirəm ki, **Azərbaycanla İran arasındakı münasibətlər xüsusi xarakter daşıyır.** Məni bu səfərdə Azərbaycanın görkəmli simaları - alimləri, yazıçıları, siyasətlə məşğul olan şəxsləri müşayiət edirlər. Onların əksəriyyəti bu salondadır. Onlar Azərbaycanın tarixi, qədim ədəbiyyatı ilə məşğul olan, böyük əsərlər yazmış adamlardır. Elmi işlə, yaradıcılıq işləri ilə məşğul olan şəxslər həmişə Azərbaycanla İran arasında, xalqlarımız arasında dostluq, qardaşlıq əlaqələrini və tarixi köklərimizin birliyini təhlil edərək öz əsərlərində əks etdirmişlər. Belə hesab edirəm ki, onlar həmin sahədəki fəaliyyətlərini bundan sonra da davm etdirəcəklər. Əgər, keçmişdə onlar çox böyük maneələr keçərək elmi tədqiqat işləri aparmışlarsa, indi İranın qapıları Azərbaycan üçün, Azərbaycanın qapıları isə, İranın alimləri, şairləri, yazıçıları, tədqiqatçıları, diplomatları üçün açıqdır. Hər iki tərəf bu imkanlardan istifadə edib, xalqlarımızın bir-birinə yaxınlaşmasına səy göstərməlidir. Mən əminəm ki, Azərbaycan tərəfindən belə səylər göstəriləcəkdir.

Bizim ən böyük problemimiz Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzüdür. Bu təcavüz davam edir, Azərbaycan torpaqları işğal edilir. İşğal olunmuş ərazilərimizdə erməni silahlı qüvvələri Azərbaycanın milli, mənəvi sərvətlərini, islam aləminə aid olan tarixi abidələri vəhşicəsinə dağıdırlar. Bilirsiniz ki, yaradılan şeyi dağıtmaq həmişə etiraz, həyacan doğurur. Ancaq mənəvi, dini sərvətlərin, islamın müqəddəs sərvətlərinin, əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə çatdırılan abidələrin dağıdılması qəlbimizi sıxır, bizi dəhşətə gətirir, həyəcanlandırır və bir daha bizi torpaqlarımızın müdafiəsinə dəvət edir.

Şübhəsiz ki, biz Ermənistan kimi kiçik bir dövlətin öhdəsindən gəlməyə qadirik. Azərbaycanın iqtisadi potensialı, qüvvəsi Ermənistandan qat-qat çoxdur. Ancaq siz bilməlisiniz ki, Ermənistanın müharibədəki üstünlüyünün əsas səbəbi dünyanın böyük dövlətlərinin ona kömək göstərməsidir. Ermənistanın heç bir təbii sərvəti yoxdur, iqtisadi vəziyyəti ağırdır. Ancaq xarici ölkələrdə - Amerikada, Avropada, Rusiyadakı erməni diasporunun böyük sərvətləri Ermənistana axır, ona kömək edir. Ermənistana dəstək verən, kömək göstərən ölkələr başqa sahələrdə də ona yardım edirlər, o cümlədən hərbi sahədə Ermənistan bu köməkdən istifadə edərək, Azərbaycan torpaqlarını işğal etməyə nail olur. Ancaq bu o demək deyil ki, həmişə belə olacaq. Yox, heç vaxt belə olmayacaq.

Azərbaycan xalqı əsrlər boyu öz milli azadlığı, müstəqilliyi uğrunda vuruşub, döyüşüb, mübarizə aparıb, qurbanlar, şəhidlər verib. Doğrudur, belə də olub ki, Azərbaycan müvəqqəti olaraq məğlubiyyətlərə uğrayıb. Ancaq bütün bunlar müvəqqəti olub. Bundan sonra Azərbaycan xalqı yenə də ayağa qalxıb, yüksəlib, öz qamətini düzəldib, yenə də öz müstəqilliyini, azadlığını əldə edibdir. Guman edirəm ki, bundan sonra da edəcəkdir.

Mən belə hesab edirəm ki, siz bizim dərdlərimizi daha yaxşı başa düşürsünüz. Çünki İran xalqı həmişə öz ərazisini qorumaq üçün müharibələr aparıb. Buna görə də bizim dərdimizi daha yaxşı, daha yaxından, qəlbdən hiss edə bilərsiniz. Siz çoxlu şəhidlər vermisiniz, ölkənizi müdafiə etmisiniz, İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumusunuz.

Azərbaycan da öz ərazisinin bütövlüyü, sərhədlərinin toxunulmazlığı uğrunda mübarizə aparır. Azərbaycanın başqa heç bir fikri yoxdur. Ölkəmiz heç bir dövlətin torpağına göz dikməyib, Azərbaycan ancaq öz ərazisini, özünə məxsus olan sərvətləri qorumağa çalışır, müharibə aparır. Ona görə də, biz öz xarici siyasətimizdə beynəlxalq normaların əsası olan prinsipi - hər bir müstəqil dövlətin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının qorunmasını müqəddəs prinsip kimi qəbul etmişik və edirik. Biz buna riayət edirik. **İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını öz torpaqlarımızın, öz ərazimizin, öz sərhədlərimizin toxunulmazlığı kimi qəbul edirik, ona**

hörmət etmişik və hörmət edirik. Eyni zamanda biz bütün dövlətlərin, o cümlədən İran İslam Respublikasının ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı üçün öz səsini qaldırmasını arzu edirik və guman edirik ki, həmin səslər bundan sonra da gur olacaq.

Bu salonda çıxış edərkən mən həm İran İslam Respublikasının, həm də Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması naminə verilmiş şəhidlərin qəhrəmanlığını qeyd edirəm, onların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi sizdən rica edirəm. Allah onlara rəhmət etsin.

Azərbaycan xalqı bütün bu bəlalardan çıxmağa qadirdir. Biz heç vaxt sınmayacağıq, bizim iradəmiz heç vaxt dönməyəcək. Yenə də deyirəm ki, biz başqa ölkənin, başqa dövlətin torpağına göz dikməmişik, ancaq öz ərazimizi, öz torpağımızı qorumağa çalışacağıq və buna nail olacağıq. Azərbaycan öz müstəqilliyini heç vaxt əldən verməyəcək. Xalqımız öz milli azadlığını qoruyacaqdır.

Bu fürsətdən istifadə edib İran İslam Respublikasına, onun rəhbərlərinə, İran xalqına öz hörmət və ehtiramımı bildirirəm. İran xalqına bundan sonra da xoşbəxtlik və səadət arzu edirəm.

TEHRANDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

2 iyul 1994-cü il

Hörmətli xanımlar, cənablar, hörmətli mətbuat nümayəndələri. Dördüncü gündür ki, mən İran İslam Cümhuriyyətinin Prezidenti hörmətli ağayi Haşimi Rəfsəncaninin dəvəti ilə bu ölkədəyəm. Deyə bilərəm ki, bu səfər İran ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələrinin gələcək inkişafında yeni bir mərhələdir.

Səfər haqqında danışarkən onu qeyd etmək istəyirəm ki, **İran İslam Cümhuriyyəti, İran xalqı Azərbaycan Respublikası üçün, Azərbaycan xalqı üçün dost, qardaş, qonşu ölkə və xalqdır. Ona görə də biz belə hesab edirik ki, bu ölkə ilə Azərbaycan arasındakı münasibətlər daim səmimi və mehriban olmalıdır.** Elə olmalıdır ki, bütün sahələrdə əməkdaşlıq yüksək sürətlə inkişaf etsin. Mən bu məqsədlə buraya gəlmişəm və qeyd edə bilərəm ki, səfərdə olduğum günlərdə İran İslam Cümhuriyyətinin rəhbərləri - cənab Ayətülla Seyid Əli Xamneyi, hörmətli Prezident ağayi Haşimi Rəfsəncani, İran Məclisinin başçısı ağayi Natiq Nuri ilə, Xarici İşlər Naziri Əli Əkbər Vilayəti, kooperasiya naziri Qulam Rza Şafeyi ilə və başqa dövlət adamları ilə səmərəli görüşlərim olmuşdur. Bu görüşlərdə iki ölkə arasında, xalqlarımız arasında iqtisadiyyat, ticarət, mədəniyyət, elm, texnika sahəsində və başqa sahələrdə əməkdaşlığın inkişafı haqqında danışıqlar aparılmış və yaxşı nəticələr əldə edilmişdir. Həmin danışıqların nəticəsində razılaşdırılmış sənədlər bu gün imzalanacaqdır. Guman edirəm ki, məsələ təkcə bu sənədlərdə deyildir, münasibtlərimizin hüdudları həmin sənədlərdən xeyli genişdir.

Şübhəsiz ki, bütün danışıqlarda son illərdə Azərbaycanın ağır müharibə şəraitində yaşaması haqqında, Ermənistanın Azərbavycana qarşı hərbi təcavüzü və bunun nəticəsində ərazimizin 20 faizinin işğal edilməsi haqqında, zəbt olunmuş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlının didərgin düşməsi barədə və bununla bağlı bütün problemlər haqqında fikir mübadiləsi aparılmışdır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticəsi olan müharibə

dövründə Azərbaycanın düşdüyü ağır sosial-iqtisadi böhran şəraitində biz İran İslam Cümhuriyyətinin yardımını daim hiss etmişik. İndiki danışıqlarımızda da bu barədə söhbət getmişdir. Bu yardıma görə, bizimlə həmrəy olduqlarına, bizi beynəlxalq aləmdə müdafiə etdiklərinə görə İranın rəhbərlərinə təşəkkürümü bildirmişəm.

Bir daha qeyd edirəm ki, bu görüşlərimiz Azərbaycan ilə İran arasında dostluq, qardaşlıq əlaqələrinin həm yeni bir mərhələsidir, həm də bu əlaqələrin sürətlə inkişaf etməsi üçün yaxşı şərait yaradır və Azərbaycan tərəfi gələcəkdə bu şəraitdən səmərəli istifadə etməyə çalışacaqdır. Vaxt az olduğuna görə mən çıxışımı bu qısa məlumatla tamamlayıram.

Sual: İsrail də Ermənistan kimi, müsəlman torpaqlarını işğal edib. Necə ola bilər ki, Siz İsrail ilə əlaqələr yaratmaq fikrinə düşmüsünüz?

Heydər Əliyev: Əvvəla demək istəyirəm ki, Azərbaycan beynəlxalq prinsiplərə, müqəddəs beynəlxalq normalara daim riayət edir və edəcəkdir. Həmin prinsiplərin ən mühümlərindən biri ölkələrin, dövlətlərin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığı, bir ölkənin başqa ölkənin ərazisini zorla ələ keçirməsinin yolverilməzliyidir. Bu prinsiplərə riayət edərək biz bütün ölkələrin, o cümlədən İran İslam Cümhuriyyətinin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığını müdafiə edirik. Azərbaycan heç bir ölkənin torpağına göz dikməmişdir, heç vaxt qəsbkarlıq yoluna düşməyəcəkdir, işğalçılığı, qəsbkarlığı həmişə pisləmişdir və bundan sonra da pisləyəcəkdir. Ermənistan həm İranın, həm də Azərbaycanın qonşusudur. Ermənistanın Azərbaycana qarşı 6 ildən artıq davam edən təcavüzü həm Azərbaycan üçün, həm də İran üçün böyük bir bəladır. Erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərində müsəlman abidələrini, tarix və mədəniyyət abdələrini dağıdırlar. Ona görə də buna yol verməmək təkcə bizim işimiz deyil, bütün müsəlman xalqlarının işidir.

Azərbaycan müstəqil dövlətdir, xarici siyasətini demokratik prinsiplər əsasında qurur, dünyanın bütün dövlətləri ilə qarşılıqlı əlaqələr yaradaraq öz müstəqilliyini möhkəmləndirməyə çalışır.

Sual: Siz çıxışlarınızın birində dediniz ki, Azərbaycan Respublikası dünyanın böyük dövlətlərinin himayəsindən bəhrələnmək istəyir. Deyə bilərsinizmi, böyük dövlətlər adı altında Siz hansıları nəzərdə tutursunuz? Rusiya ilə əlaqələrdə də eyni prinsipləri gözləyirsinizmi?

Heydər Əliyev: Mən qeyd etdim ki, biz bütün dövlətlərlə qarşılıqlı əlaqələr yratmaq istəyirik. Rusiya Azərbaycanın şimalında olan böyük dövlətdir. Azərbaycan 200 ilə yaxın müddətdə Rusiyanın tərkibində olmuşdur. Son 70 ildə Sovetlər İttifaqının tərkibində olan Azərbaycanın inkişaf etmiş böyük iqtisadi potensialı Rusiya ilə çox bağlıdır. Azərbaycanın bütün dövlətlərlə qarşılıqlı əlaqələr yaratmasından danışarkən, mən ilk növbədə qonşu dövlətləri nəzərdə tuturam. Şübhəsiz ki, Azərbaycan bundan sonra da Rusiya ilə yaxşı əlaqələr saxlamalıdır və biz bu istiqamətdə xarici siyasətimizi aparırıq. Gürcüstanda və Ermənistanda Rusiya qoşunları yerləşdirilmişdir. Azərbaycanda Rusiyanın qoşunu yoxdur. Orta Asiyanın müsəlman respublikalarının da hamısında Rusiyanın qoşunu var. Həmin respublikaların, həmçinin Gürcüstan və Ermənistanın xarici ölkələrlə, yəni İran, Türkiyə və Əfqanıstanla sərhədlərini Rusiya qoşunları qoruyurlar. Respublikamızın isə İran və Türkiyə ilə sərhədlərini Azərbaycanın öz qoşunu qoruyur. Əgər Ermə-

nistanda Rusiyanın böyük qoşun hissələri varsa, siz gərək bunun mənası barədə özünüz düşünəsiniz. Rusiya Ermənistan ilə Azərbaycan arasında müharibənin dayandırılmasında vasitəçilik etməyə çalışır. Beynəlxalq təşkilatlar, xüsusən ATƏM, onun tərkibində olan Minsk qrupu da belə bir vasitəçilik fəaliyyəti göstərir. Biz müharibəyo son qoymaq, xalqımızı bu bəladan qurtarmaq, işğal olunmuş torpaqlarımızı azad etmək istəyirik. Ona görə də, şübhəsiz ki, bütün bu vasitəçilik imkanlarından imtina edə bilmərik.

Sual: Cənab Prezident, İranda yüksək səviyyədə keçirilən görüşlərdə Xəzər dənizinin statusu məsələsinə rəsmi şəkildə toxunuldumu?

Heydər Əliyev: Mənim İrana səfərimdən bir neçə gün əvvəl Rusiya Prezidentinin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Vladimir Kazimirov Tehranda olmuşdur. O, Tehrandan qayıdarkən Bakıya gəlib mənimlə görüşmüş və məlumat vermişdir ki, Dağlıq Qarabağ məsələsi və bəzi başqa məsələlər barədə İranla məsləhətləşmək üçün İrana getmişdi. Sizin sualınızla əlaqədar bunu deyə bilərəm ki, toxunduğunuz məsələ mən burada səfərdə olarkən müzakirə edilməmişdir. Ona görə də bu barədə bir şey deyə bilmərəm.

Sual: Azərbaycan Respublikası Tehran, Ankara və Moskva ilə öz əlaqələrini hansı prinsiplər əsasında qurur və hansı meyarları əsas götürür?

Heydər Əliyev: Bir daha təkrar edirəm ki, biz qonşu dövlətlərlə dostluq əlaqələri yaratmaq istəyirik. Deməli, İran da, Türkiyə də bizim üçün dost və qardaş ölkələrdir. Moskva, yəni Rusiya ilə əlaqələr barədə geniş məlumat verdim, ona görə də təkrar etməyə ehtiyac duymuram.

Səfər proqramımda mətbuat konfransına çox az vaxt ayrılmışdır. Xahiş edirəm Bakıya gəlin, suallarınıza cavab vermək üçün orada vaxtım çox olacaq. Sağ olun.

İRAN İSLAM RESPUBLİKASINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN "MEHRABAD" HAVA LİMANINDA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏKİ BƏYANATDAN:

2 iyul 1994-cü il

Mən dörd gündür İran İslam Respublikasında rəsmi səfərdəyəm. Həmin günlərdə İranın rəhbərləri ilə çox səmərəli, mənalı danışıqlarımız oldu. İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani ilə mən, habelə hər iki ölkənin bir sıra nazirləri yekun sənədlərini imzaladıq.

Görüşlərimizin, danışıqlarımızın hamısı dostluq və qarşılıqlı anlaşma şəraitində keçdi. İranlı dostlarımız mənə və məni müşayiət edən Azərbaycan nümayəndə heyətinə çox böyük qonaqpərvərlik göstərdilər. Bu günlər ərzində biz mehribanlıqla və qayğıkeşliklə əhatə olunmuşduq. Hesab edirəm ki, görüşlərimiz, danışıqlarımız, imza etdiyimiz sənədlər Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında olan dostluq və qardaşlıq əlaqələrinin gələcəkdə də inkişafına kömək edəcəkdir.

Mən Tehranı tərk edərkən əziz dostumuz Haşimi Rəfsəncaniyə, İran İslam Respublikası dövlətinin başqa rəhbərlərinə öz təşəkkürümü və minnətdarlığımı bildirirəm. İran İslam Respublikasının bütün vətəndaşlarına xoş arzularımı söyləyirəm və onların hamısına həyatda xoşbəxtlik, səadət arzulayıram *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. II kitab, səh. 46 - 53).*

NYU-YORKDAKI "TÜRK EVİ"NDƏ AMERİKADA YAŞAYAN TÜRK VƏ AZƏRBAYCANLI İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏKİ ÇIXIŞDAN:

26 sentyabr 1994-cü il

... İran Azərbaycanın böyük qonşusudur. İran ilə Azərbaycan arasında da əsrlər boyu çox sıx əlaqələr, dini, milli, mənəvi əlaqələr olub. Ənənələrimiz bir-birinə çox bənzərdir, yaxındır. Bunları və insani əlaqələrin çox geniş olduğunu nəzərə alaraq İran ilə Azərbaycan arasındakı əlaqələri inkişaf etdiririk və bu bizim üçün çox önəmlidir.

...İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaninin dəvəti ilə mən İrana rəsmi səfərə getmişdim. Orada da Azərbaycan ilə İran arasında əlaqələrin inkişaf etdirilməsi üçün bir çox müqavilələr imzalanmışdır *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. II kitab, səh. 290 - 291).*

ABŞ-IN KOLUMBİYA UNİVERSİTETİNİN HARRİMAN İNSTİTUTUNDAKI GÖRÜŞDƏN:

28 sentyabr 1994-cü il.

Sual: Sizcə, Xəzər dənizinin yurisdiksiyası kifayət qədər aydındırmı, yoxsa Xəzəryanı dövlətlərin iştirakı ilə danışıqlar aparılmalıdır?

Heydər Əliyev: ...Xəzər dənizinin hüquqi prinsiplərini müəyyənləşdirən heç bir beynəlxalq sənəd yoxdur. Keçmiş Sovet İttifaqında Xəzər ölkənin bir növ daxili dənizi sayılırdı, hərçənd ki, SSRİ-dən başqa İran da onun sahillərində yerləşir. Dənizdəki neft yataqlarının istismarı ilə əlaqədar o vaxtlar Sovet İttifaqı ilə İran arasında heç bir ziddiyyət olmamışdır. Xəzərdə iri neft yataqları 45 il bundan əvvəl kəşf edilmiş və bu yataqlar o dövrdən bəri Azərbaycan alimləri, neftçiləri tərəfindən işlədilir. Bu yataqlar Xəzərin Azərbaycan sahilinə yaxındır. Sovet İttifaqı parçalandıqdan və onun tərkibinə daxil olmuş respublikalar müstəqillik əldə etdikdən sonra Azərbaycan, Türkmənistan, Qazaxıstan və Rusiya dənizdə işləri davam etdirmişlər. Təbiidir ki, hərə, necə deyərlər, öz sahəsində. Əgər, indi Xəzər dənizinin hansısa bir hüquqi statusunu hökmən müəyyənləşdirmək məsələsi qaldırılarsa, bu, əlbəttə, müzakirə mövzusu ola bilər. Lakin belə düşünürəm ki, Xəzər dənizinin sahillərində yerləşən dövlətlərdən heç birisi başqa dövlətə hökm etmək, öz iradəsini qəbul etdirmək hüququna malik deyildir. Xəzər dənizinin Azərbaycana aid bölgəsi şərti olaraq çoxdan müəyyən edilmişdir. Sovet İttifaqı parçalanandan və həm Azərbaycan, həm də Türkmənistan müstəqillik əldə etdikdən sonra neftçilərimiz Xəzərin Türkmənistan sahillərinə yaxın olan yataqlardan çıxıb getmişlər. İndi həmin yataqlarda işləri Türkmənistan neftçiləri aparırlar. Həm də nə bizim onlara iddiamız var, nə də onların bizə.

Buna görə də, biz müqaviləni həyata keçirəcəyik. Əgər, kimsə Xəzər dənizinin statusuna baxılmasını çox istəyirsə, biz buna hazırıq, lakin bu, imzalanmış müqavilənin həyata keçirilməsinə mane olmaq üçün heç kimə haqq vermir *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. II kitab, səh. 302 - 303).*

HEYDƏR ƏLİYEVİN TÜRKMƏNİSTAN-İRAN-TÜRKİYƏ-AVROPA QAZ KƏMƏRİNİN RƏMZİ AÇILIŞ MƏRASİMİNDƏKİ ÇIXIŞI

27 oktyabr 1994-cü il

Hörmətli xanımlar, cənablar!

Hörmətli dostlar, qardaşlar!

Bu gün biz böyük bir hadisənin şahidiyik. Dünən və bu gün biz qardaş Türkmənistan Respublikasının müstəqilliyinin üçüncü ildönümü mərasimində iştirak etdik. Azərbaycan ilə Türkmənistan arasında dostluq, qardaşlıq əlaqələrinin çoxəsrlik tarixi var. Biz qonşu, dost, bir kökdən olan xalqlar, ölkələr kimi daim dostluq və qardaşlıq etmişik. İndi də Türkmənistanın müstəqilliyinin üçüncü ildönümündə iştirak etmək Azərbaycan nümayəndə heyəti üçün, mənim üçün böyük bir xoşbəxtlikdir. Mən bu münasibətlə Türkmənistan xalqını, türkmənistanlı qardaşlarımızı, bacılarımızı və Türkmənistan Prezidenti hörmətli Saparmurad Türkmənbaşını ürəkdən təbrik edirəm. Onlara gələcək işlərində müvəffəqiyyətlər arzulayıram.

Mən Türkmənistanın bu üç illik müstəqillik dövründə əldə etdiyi nailiyyətləri, Prezident, dostum və qardaşım Saparmurad Türkmənbaşının xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Hörmətli Prezident Saparmurad Türkmənbaşı ilə biz çox illərdir ki, dostuq - tanışıq. Vaxtilə bir yerdə də işləmişik. İndi də qonşu ölkələrə rəhbərlik edirik. Ona görə dünən də, bu gün də Türkmənistanın son dövrdə (mən əvvəllər də Türkmənistanda olmuşam), xüsusilə müstəqillik qazanandan sonra hörmətli Prezident Türkmənbaşının rəhbərliyi altında əldə etdiyi nailiyyətlər məni qəlbən çox sevindirdi. Mən bu nailiyyətlərin hamısında dostum və qardaşım Saparmurad Türkmənbaşının xidmətlərini qeyd edirəm. Əziz qardaşım, səni bu münasibətlə təbrik edirəm.

Mən çox məmnunam ki, bu bayram bizi bir yerə toplayıbdır. Pakistanın Baş naziri hörmətli Benəzir Bhutto, Türkiyənin Prezidenti, mənim əziz dostum və qardaşım, hörmətli Süleyman Dəmirəl, İran İslam Respublikasının Prezidenti, mənim dostum və qardaşım ağayi Haşimi Rəfsəncani və mən Saparmurad Türkmənbaşının təşəbbüsü ilə burada, türkmən torpağında toplaşmışıq. Bu, çox böyük bir hadisədir. Bu hadisə münasibətilə də mən məmnun olduğumu bildirmək istəyirəm.

Bugünkü hadisə Türkmənistanın müstəqilliyini bir daha bütün dünyaya nümayiş etdirir. Bilirik ki, keçmişdə Türkmənistanın çoxlu qaz ehtiyatları var idi, ancaq bu ehtiyatları Türkmənistan xalqının icazəsi olmadan hara istəyirdilər, ora da göndərirdilər. İndi isə, türkmən xalqı, Türkmənistan dövləti öz taleyinin sahibidir, öz sərvətlərinin sahibidir və öz sərvətlərindən özü istədiyi kimi istifadə edir. Bu baxımdan Türkmənistan, İran və Türkiyə arasında əldə olunmuş müqavilə çox böyük bir hadisədir. Bu, Türkmənistanın müstəqilliyini dünyaya bir daha göstərir və bu gün biz bu tarixi hadisənin şahidi olduq. Mən burada bir şahid kimi iştirak edirəm və şahid kimi də söz verirəm ki, bu müqavilənin həyata keçirilməsi üçün çalışacağam.

Müsəlman dövlətlərinin - Pakistan, Türkiyə, Türkmənistan, İran və Azərbaycanın rəhbərlərinin burada, Türkmənistan torpağında, qədim türk torpağında toplaşması çox böyük hadisədir. Əziz dostum Süleyman Dəmirəl bu barədə çox gözəl fikirlər söylədi. Mən bu fikirlərlə tamamilə razıyam. Hesab edirəm ki, bu, bizim dostluğumuzun rəmzidir, dostluğumuzu və qardaşlığımızı dünyaya bir daha nümayiş etdirir və Azərbaycan Respublikası bu dostluğa həmişə sadiq olacaqdır.

Azərbaycan Respublikasının qarşısında çox ağır problemlər var. Bilirsiniz, altı ildir ki, Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Torpaqlarımızın bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Azərbaycanda bir milyon iki yüz mindən artıq qaçqın var. Burada təmsil olunan dövlətlər, yəni, Türkiyə, İran, Pakistan, Türkmənistan bu dövrdə həmişə Azərbaycanı dəstəkləyiblər, ölkəmizə kömək ediblər və Azərbaycanı beynəlxalq təşkilatlarda müdafiə ediblər. Əziz dostlar, qardaşlar, fürsətdən istifadə edib mən sizə və sizin ölkələrinizə öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Əziz dost və qardaşlar, bu mübarək, gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bütün dost xalqlara xoşbəxtlik, səadət arzulayıram. Türkmənistanın müstəqilliyinin davam etməsini arzu edirəm, türkmən xalqına öz hörmət, ehtiramımı bildirirəm və sizi bu bayram münasibətilə, bugünkü tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun, xoşbəxt olun, sizə yaxşı günlər arzulayıram.

AŞQABADDAN BAKIYA YOLA DÜŞƏRKƏN TƏYYARƏDƏ İRAN İSLAM RESPUBLİKASI VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİ İLƏ GÖRÜŞLƏR BARƏDƏ JURNALİSTLƏRLƏ MÜSAHİBƏDƏN:

27 oktyabr 1994-cü il

Bilirsiniz ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələri var. Mənim son dəfə Tehrana rəsmi səfərim vaxtı orada bir çox sənədlər imzalanmışdır. Biz onların həyata keçirilməsi ilə məşğul oluruq. Ancaq, eyni zamanda, bəzi məsələlər də vardır ki, biz onlar barədə danışmalı və məsləhətləşməli idik. Bugünkü görüşlərimizdə belə danışıqlar, məsləhətləşmələr oldu. İranın neft və qaz sənayesi naziri cənab Ağazadə bir neçə gündən sonra Azərbaycana gələcək, ölkələrimizin neft sahəsində əməkdaşlığı ilə əlaqədar bəzi məsələləri müzakirə edəcəkdir. Biz digər məsələlərə də toxunduq. Ancaq mən bir məsələ üzərində dayanmaq istəyirəm.

Son vaxtlar bəzi qüvvələr Azərbaycan ilə İran arasında münasibətlərə ləkə salmaq, onları pozmaq istəyirlər. Mən hesab edirəm ki, bütün bunlar təxribatçı qüvvələrdir. İran bizim yaxın qonşumuzdur, dost ölkədir, münasibətlərimiz çox yaxşıdır və bundan sonra da yaxşı olmalıdır. Şəxsən mən bir Prezident kimi bu vəzifəyə gələndən İran ilə Azərbaycan arasında əvvəllər olan soyuqluğu aradan götürməyə, münasibətlərin inkişaf etdirilməsinə çalışmışam.

Təəssüf ki, Azərbaycanda bəzi qüvvələr, dairələr var, onlar əks istiqamətdə hərəkət edirlər. Bu, Azərbaycan xalqının xeyrinə deyil, zərərinədir. Ədalətli olaraq da bunlar İran ictimaiyyətində, o cümlədən İranın rəhbərliyində narazılıqlar yaradır. Bu barədə bizim bir-iki dəfə söhbətimiz olub. Mən müəyyən göstərişlər vermişəm, ancaq təəssüf ki, buna riayət etmirlər. Mən bu günlərdə Bakıda İran İslam Respublikasının səfirini qəbul edəndə, o, bu barədə bəzi narazılıqlarını mənə bildirdi. Dedi ki, guya, bu yaxınlarda Azərbaycan televiziyası ilə bir veriliş olub və orada İranla Azərbaycanın əlaqələrinə toxunan, zərər gətirən fikirlər, sözlər söylənilib. Mən bildirmək istəyirəm və gü-

man edirəm ki, bunu televiziya bütün əhaliyə çatdırar, mətbuatda da verərlər. Mən bunları təxribat xarakteri daşıyan hərəkətlər kimi qiymətləndirirəm, bunların tamamilə əleyhinəyəm. Dövlət Teleradio Şirkətinə də bu barədə əlavə göstərişlər verəcəyəm ki, belə hərəkətləri dayandırsınlar.

İndiki görüşdə Haşimi Rəfsəncani dedi ki, oktyabrın 4-də Azərbaycanda dövlət çevrilişi cəhdinin əleyhinə keçirilən mitinqlərdə bu hadisələrin, guya, İran tərəfindən təşkil edilməsi barədə bəzi sözlər deyilmişdir. Bilmirəm, bu olub, ya olmayıb, ancaq, əgər, belə danışıqlar olubsa, onların heç bir əsası yoxdur. Hesab edirəm ki, son vaxtlar respublikamızın daxilində baş verən qarışıqlığın və ayrı-ayrı cinayətkar qüvvələrin dövlət çevrilişi etmək cəhdinin İran İslam Respublikası ilə heç bir əlaqəsi yoxdur və ola bilməz. Ona görə də kim belə bir söz deyibsə, mən bunu təkzib edirəm. Ola bilər ki, deyiblər, deməsələr, bu İran ictimaiyyətinə çata bilməz.

Haşimi Rəfsəncani ilə görüşdə bu barədə söhbətimiz oldu. Mən ona bir daha bildirdim ki, bizim dostluq və qardaşlıq əlaqələrimiz bundan sonra da davam edəcəkdir. Həm İranda, həm də Azərbaycanda bizim bu əlaqələrə mane olmaq istəyənlərin qarşısı alınmalıdır və biz öz tərəfimizdən bunun qarşısını almalıyıq. Mən bu sözləri sizin hamınıza çatdırıram. Güman edirəm ki, sizin də hər biriniz təmsil etdiyiniz kütləvi informasiya vasitələri xətti ilə dinləyicilərə, oxuculara, tamaşaçılara çatdıracaqsınız.

İran İslam Respublikasının Prezidenti ilə görüşdə iqtisadi əlaqələrimizlə bağlı başqa danışıqlarımız da oldu. Danışıqlarımız dostluq, mehribanlıq və səmimilik şəraitində keçdi. Mən bu görüşdən və danışıqlardan razıyam.

Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəllə biz son vaxtlar İstanbulda görüşmüşdük. Orada bizim danışıqlarımız olmuşdur. Amma burada yenə də söhbət apardıq, bəzi məsələləri müzakirə etdik. Süleyman Dəmirəl Azərbaycanın hazırkı daxili vəziyyəti ilə maraqlandı. Haşimi Rəfsəncani da çox narahatlığını bildirdi. Mənə dedi ki, oktyabrın 4-də gecə onlar da çox narahatlıq çəkiblər. O, indiki vəziyyətlə də maraqlandı. Mən bildirdim ki, indi sakitlikdir. Bu məsələyə Süleyman Dəmirəl də çox maraq göstərdi...

Oktyabrın 4-də xalqın həmrəyliyi göstərdi ki, heç bir qüvvə Azərbaycanda indiki dövlət quruluşunu dağıda bilməz, poza bilməz. Mən buna əminəm. Ancaq cürbəcür məlumatlar xaricə, o cümlədən İrana da gedir, Türkiyəyə də gedir. Ona görə də həm Haşimi Rəfsəncani, həm də Süleyman Dəmirəl bu məsələlərlə maraqlandılar, mən də onlara bu barədə məlumatlar verdim...

Guya, həm Rusiyanın, həm də İranın Azərbaycan Dövlət Neft Şirkətinin xarici neft şirkətləri konsorsiumu ilə bağladığı müqavilənin əleyhinə olması barədə Rusiya mətbuatında dərc edilən yazılarla əlaqədar jurnalistlərin suallarına cavab verən Azərbaycan Prezidenti bildirmişdir ki, Haşimi Rəfsəncani bu fikirləri təkzib edib və deyir ki, biz Rusiya ilə belə söhbətlər aparmamışıq. Biz, sadəcə olaraq (bu bir il bundan əvvəl başlanmış prosesdir), Xəzər dənizində əməkdaşlıq etmək üçün görüşlərin lüzumluluğunun tərəfdarı olmuşuq və ona görə də belə bir görüşün keçirilməsini istəmişik. Ancaq bu sizin müqavilənin bağlanmasından sonrakı vaxta düşüb. Rusiya mətbuatı da belə məlumatlar verib. Onlar doğru məlumat verməyiblər. Haşimi Rəfsəncani bu məlumatları təkzib edir və İran bağladığımız müqavilənin qətiyyən əleyhinə deyildir.

ANKARADA TÜRKİYƏ, AZƏRBAYCAN VƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA BƏYANAT

1 noyabr 1994-cü il

Hörmətli mətbuat nümayəndələri, mən sizi salamlayıram və Azərbaycana böyük maraq göstərdiyinizə görə məmnun olduğumu bildirirəm. Azərbaycan Respublikasında gedən proseslər, oradakı vəziyyət Türkiyə mətbuatında geniş işıqlandırılır. Türkiyə Respublikasının kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasına göstərdiyi marağa görə mən Türkiyənin bütün mətbuat orqanlarına, radio və televiziyasına təşəkkürümü bildirirəm. Bəzən obyektiv, doğru-düzgün yazmasalar da, hər halda, Azərbaycanı yada saldıqlarına, Azərbaycan haqqında yazdıqlarına görə sağ olsunlar. Odur ki, sizə ətraflı məlumat verməyə ehtiyac duymuram və vaxt az olduğuna görə, - mənə dedilər ki, yarım saat vaxt var, - sizin mənə sual verməyinizə imkan yaradacağam.

Sual: Xəzər dənizi və bununla əlaqədar Rusiyanın mövqeyi barədə müxtəlif söz-söhbət yayılmışdır. Siz bu barədə və Azərbaycanda daxili vəziyyət barədə nə deyə bilərsiniz?

Heydər Əliyev: Çox təşəkkür edirəm, çox yaxşı suallardır. Çalışın, yaxşı sual verin. Xəzər dənizi haqqında. Bildiyiniz kimi, Xəzərdə neft yataqları var və bu dənizin Azərbaycana aid sektorundakı neft yataqları respublikamızın neft sənayesi tərəfindən 45 ildir istismar edilir. Xəzərin Azərbaycana aid sektorundakı neft yataqlarından müştərək istifadə edilməsi üçün bir çox xarici şirkətlərlə, xüsusən Qərb ölkələrinin şirkətləri ilə, o cümlədən Türkiyənin neft şirkəti ilə son üç il ərzində danışıqlar aparılmışdır. Neft yataqlarının 30 il müddətinə müştərək istismarı haqqında konsorsiuma daxil olan xarici ölkə şirkətləri ilə Azərbaycan arasında sentyabrın 20-də müqavilə imzalanmışdır. Bu yataqlar Azərbaycana mənsub olduğuna görə, biz üç il ərzində danışıqlar apararkən və son mərhələdə, yəni, müqavilə imzalanmağa hazırlanarkən Azərbaycana başqa dövlətlər tərəfindən heç bir müraciət edilməmişdir.

Lakin sentyabrın 20-də neft müqaviləsi imzalandıqdan sonra Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibliyi bu müqaviləni tanımadığı barədə bəyanat vermişdir. Biz bu bəyanatı əsassız hesab etmişik və ona heç fikir verməmişik. Sonra mən bu barədə Rusiyanın Baş naziri Viktor Çernomırdinlə həm telefonla danışmışam, həm də oktyabrın 21-də Moskvada olarkən onunla görüşüb danışıqlar aparmışam. Mən bu barədə Rusiyanın Xarici İşlər Naziri Andrey Kozırevlə də telefonla danışmışam. Bir daha bildirmişəm ki, o neft yataqları Azərbaycana mənsubdur, Azərbaycan da onlardan istifadə etməkdə tamamilə sərbəstdir. Oktyabrın 21-də mən Rusiyanın Baş naziri Viktor Çernomırdinlə görüşərkən o, mənə bildirdi ki, bu məsələdə Rusiya tərəfindən heç bir problem yoxdur.

Eyni zamanda Xəzəryanı dövlətlər, yəni, Rusiya, Qazaxıstan, Türkmənistan və İran təklif irəli sürmüşlər ki, Xəzər dənizində ekologiya, balıqçılıq və gəmiçilik məsələləri haqqında bir razılığa gəlmək, müqavilə bağlamaq lazımdır. Biz buna etiraz etmirik. Amma burda heç bir ölkənin üstünlüyünü də qəbul etmirik.

Xəzər dənizinin statusu haqqında mətbuatda çox yazılar verilir. Biz Xəzərin statusunun müzakirə olunmasına etiraz etmirik. Ancaq bunun imzaladığımız neft müqaviləsi ilə heç bir əlaqəsi ola bilməz. Xəzər dənizi-

nin statusunun müzakirəsi çox vaxt aparacaqdır. Biz bu müzakirələrdə iştirak edib öz mövqeyimizi bildirməyə hazırıq.

KASABLANKADAKI İKT-NİN ZİRVƏ TOPLANTISINDA HEYDƏR ƏLİYEVİN İRANIN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ ƏKBƏR VİLAYƏTİ İLƏ SÖHBƏTİNDƏN:

14 dekabr 1994-cü il

...Azərbaycan İslam Konfransı Təşkilatının Zirvə toplantısında ilk dəfədir ki, iştirak edir. Bu isə, müstəqil Azərbaycan Respublikasının İslam aləmi tərkibində olmasına bəslənilən şübhələrin bir daha aradan qaldırılması deməkdir... Mən Kasablanka Zirvə toplantısının işinə çox böyük əhəmiyyət verirəm və ümidvar olduğumu bildirirəm ki, burada qəbul ediləcək qətnamələr Azərbaycanın haqq işinin müdafiə olunmasında mühüm rol oynayacaqdır. Bu qətnamələr hazırlanarkən Azərbaycanın mövqeyini müdafiə etmək sahəsində İran İslam Respublikası Xarici İşlər Nazirliyinin göstərdiyi səyləri yüksək qiymətləndirirəm.

HEYDƏR ƏLİYEVİN İRAN İSLAM İNQİLABININ 16-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İRAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ MƏRASİMDƏ ÇIXIŞI

"Gülüstan" sarayı

10 fevral 1995-ci il

Hörmətli səfir, hörmətli xanımlar və cənablar!

Sizi, İran İslam Respublikasının bütün vətəndaşlarını İslam inqilabının 16-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Sizə, İran xalqına xoşbəxtlik, səadət arzulayıram. İslam inqilabi qədim tarixə malik olan İran dövlətinin, bu ölkənin xalqının həyatında böyük dəyişikliklər əmələ gətirmiş tarixi, əlamətdar bir hadisədir. Biz Azərbaycanda bu hadisələri daim izləmişik və İran İslam Respublikasının əldə etdiyi nailiyyətlərə həmişə sevinmişik.

İran İslam Respublikası Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. İran ilə Azərbaycan arasında yaranan əlaqələr indi artıq təkcə dövlətlərimiz arasındakı əlaqələr deyil, həm də o tayda, bu tayda yaşayan minlərlə insanın şəxsi əlaqələridir.

İndi ramazan ayıdır, bu münasibətlə sizi İran İslam Respublikasındakı bütün qardaş və bacılarımızı, İran vətəndaşlarını təbrik edirəm.

İran İslam inqilabının 16-cı ildönümü münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik diləyirəm. İran xalqına qarşıya qoyulan məqsədlərin hamısının həyata keçirilməsini arzulayıram. Arzu edirəm ki, bizim qonşu, dostpərvər İran İslam Respublikası günügündən inkişaf etsin, möhkəmlənsin, dünya birliyində özünün layiqli yerini tutsun.

"AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSINDAN:

London, 29 noyabr 1995-ci il

Sual: "Palats" şirkəti İranla sizin münasibətlərinizin vəziyyətini öyrənmək istərdi. Sizcə, İran "Şahdəniz" layihəsində iştirak etməyi qərara alacaqmı?

Heydər Əliyev: Azərbaycanın İranla mehriban qonşuluq, dostluq münasibətləri var, normal münasibətləri var. Azərbaycan ilə İran arasında uzun sərhəd var, bizim tarixi əlaqələrimiz var. Azərbaycanın keçmişi bir çox cəhətdən İranla bağlı olubdur. Bütün bunlar bizim bugünkü münasibətlərimizin əsasını təşkil edir. Şübhəsiz ki, bu münasibətlər iki müstəqil dövlət - İran ilə Azərbaycan Respublikası arasında olan münasibətlərdir. Biz iqtisadi əməkdaşlığı, ancaq qarşılıqlı surətdə faydalı, həm İranın, həm də Azərbaycanın mənafelərinə cavab verən əməkdaşlığı inkişaf etdirmək üçün tədbirlər görürük. O ki, qaldı "Şahdəniz" neft və qaz ehtiyatlarından istifadə etmək üçün yaradılacaq konsorsiumda İranın iştirakı məsələsinə, bu, İranın özündən asılıdır. İrana belə bir təklif edilibdir *(H. Ə. Əliyev. Müstəqilliyiiz əbədidir. Bakı, 1998. V kitab, səh. 34- 35).*

Bİ-Bİ-Sİ KORPORASİYA ARASINDAKI GÖRÜŞDƏ Bİ-Bİ-Sİ-NİN MÜXBİRİ İLƏ MÜSAHİBƏDƏN:

London, 30 noyabr 1995-ci il

Sual: Xarici ekspertlərin fikrincə, Azərbaycan İran arasındakı münasibətlərdə soyuqluq müşahidə olunur. Belə hesab edirlər ki, İran Zaqafqaziya regionunda Azərbaycanın Qərbin dayağına çevrilməsindən narahatdır. Siz bu cür mülahizələrlə razısınızmı?

Heydər Əliyev: Bilirsiniz, münasibətlərdə müəyyən bir sərinlik, narahatlıq var. Ancaq mənə belə gəlir ki, bu, Azərbaycan ilə İran arasında olan münasibətləri səciyyələndirmir. Azərbaycana münasibətdə İranın öz mülahizələri var, bu baxımdan bizim də İrana qarşı öz mülahizələrimiz var. Məsələn, Qərbin neft şirkətləri, xüsusən İranın özünün münasibətlərinin çox mürəkkəb olduğu ABŞ-ın neft şirkətləri ilə bizim müqavilə imzalamağımızdan İran narazıdır. Lakin biz də ondan narazıyıq ki, İran Ermənistana fəal kömək göstərir, onu strateji mallarla, məhsullarla təchiz edir və Ermənistan İranın bu köməyindən, dəstəyindən istifadə edərək, bizimlə sülh danışıqlarında öz mövqeyini daha da sərtləşdirir. Yəni, bizim İrana qarşı narazılığımız, İranın da bizə qarşı narazılığı var. Ancaq mən belə hesab edirəm ki, bu, İran və Azərbaycan arasında qarşılıqlı münasibətlərin strateji istiqamətinin müəyyənləşdirilməsinə təsir göstərməməlidir. Biz İranla dostluq münasibətləri saxlamağa, bütün sahələrdə, xüsusən iqtisadiyyat, ticarət, elm, mədəniyyət, insani münasibətlər sahəsində əlaqələri möhkəmləndirməyə çalışırıq *(H. Ə. Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998. V kitab, səh. 67-68).*

"MOND" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏDƏN:

Paris, 4 dekabr 1995-ci il

M. Ceqo: Sizin İranla sərhədlərinizi Rusiyanın qoruyacağı barədə danışıqlar aparılırmı?

Heydər Əliyev: Resiya artıq Ermənistanda və Gürcüstanda sərhədi qoruyur. Zənnimcə bu bəsdir. Yoxsa, istəyirsiniz ki, hər yerdə qorusun?..

M. Ceqo: İndi sizin İranla münasibətləriniz necədir? İran konsorsiuma qəbul edilmə-

dikdən sonra münasibətləriniz korlanmayıb ki?

Heydər Əliyev: Bəli, münasibətlərimiz bir az sərinləşib. Lakin hesab edirəm ki, düzələcəkdir.

M.Ceqo: Sizcə, onlar hər hansı neft müqavilələsində iştirak edə bilərlərmi?

Heydər Əliyev: Şübhəsiz ki, iştirak edə bilərlər. Amma bizim digər müqavilələrdə.

M. Ceqo: Bəs, indi İranla sərhəd açıqdır, yoxsa bağlıdır?

Heydər Əliyev: Bəli, açıqdır. Orada problem yoxdur (H. Ə. Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998. V kitab, səh. 112-113).

HEYDƏR ƏLİYEVİN İRAN İSLAM İNQİLABININ 17-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞI

"Gülüstan" sarayı

3 fevral 1996-cı il

Hörmətli səfir, hörmətli xanımlar və cənablar!

İran İslam inqilabının 17-ci ildönümü münasibətilə hamınızı ürəkdən təbrik edirəm. İran xalqına, orada olan bacı-qardaşlarımıza xoşbəxtlik və səadət arzulayır və bütün işlərində uğurlar diləyirəm.

İran İslam inqilabı İran ölkəsinin həyatında böyük dəyişikliklər meydana gətiribdir. 17 ildir ki, İran xalqı İslam inqilabı bayrağı altında yaşayır, yaradır və öz ölkəsini xoşbəxt gələcəyə aparır. Biz İran İslam inqilabının həm baş verməsini, həm də onun sonrakı nəticələrini həmişə dəstəkləmişik, buna hörmət və ehtiramımızı bildirmişik və bu gün də bildiririk. Əmin olduğumu bildirmək istəyirəm ki, İran İslam inqilabının İran xalqına bəxş etdiyi nemətlər bundan sonra da xalqı, milləti daha firavan həyata gətirib çıxaracaqdır.

İran dünyanın, xüsusən Şərqin ən böyük, əzəmətli və qədim dövlətlərindən biridir. İranın çox zəngin, qədim tarixi var və İran xalqı öz tarixi ənənələri ilə, dünya mədəniyyətinə, elminə verdiyi dəyərli töhfələrlə daim fəxr edir və bu gün də fəxr edə bilər.

İran ilə Azrbaycan arasında olan əlaqələrin tarixi böyükdür. Bu, çoxəsrlik tarixdir. Xalqlarımız əsrlər boyu yan-yana, bir yerdə yaşamış, bir kökdən olaraq, eyni ənənələrə malik olaraq bir-birinə həmişə dayaq durmuşlar. Azərbaycan xalqı milli azadlığını əldə edəndən sonra, ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra İran ilə Azərbaycan arasındakı əlaqələr dövlət səviyyəsinə qalxıb və qarşılıqlı surətdə faydalı dövlətlərarası əlaqələrə çevrilibdir. Biz bu əlaqələri çox əhəmiyyətli hesab edirik və Azərbaycanın müstəqil dövlət olduğu dörd il ərzində İran ilə Azərbaycan arasında yaranmış və daim inkişafda olan əlaqələri yüksək qiymətləndiririk.

Dediyim kimi, xalqlarımızın dostluğunun və qardaşlığının tarixi qədim dövrlərdən gəlir. Milli ənənələrin eyni, oxşar olması, bir dinə mənsub olmağımız və başqa tarixi köklərimiz bizi həmişə birləşdiribdir. İndi müstəqil Azərbaycanın İran İslam Respublikası ilə çox böyük sərhədi var. Biz qonşuyuq, həm də bir-birinə çox böyük hüsn-rəğbət bəsləyən qonşuyuq. Biz İran İslam Respublikasına, İran xalqına həmişə böyük hörmət və ehtiramla yanaşmışıq və yanaşırıq. Eləcə də İran xalqı, İran dövləti tərəfindən Azərbaycana olan böyük hörmət və ehtiramı hiss edirik.

Eyni zamanda qeyd etmək istəyirəm ki, **bu dostluğu, qardaşlığı inkişaf etdirmək, möhkəmləndirmək üçün çox böyük ehtiyat mənbələrimiz var və bunlardan istifadə edərək əməkdaşlığımızı genişləndirəcəyik, dostluğumuzu daha da möhkəmləndirəcəyik və bunların hamısını sarsılmaz edəcəyik. Biz Azərbaycanda İranla münasibətlərimizi məhz belə görürük.**

Bu münasibətlər İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında imzalanmış yüksək səviyyəli bir çox sənədlərdə öz əksini tapıbdır. İran İslam Respublikasının Prezidenti hörmətli cənab Haşimi Rəfsəncaninin Azərbaycana rəsmi səfəri zamanı və mənim İran İslam Respublikasına səfərim vaxtı biz çox sənədlər imzalamışıq, dostluq və əməkdaşlıq müqaviləsi bağlamışıq. Biz bu sənədlərə, müqavilələrə sadiqiq, bundan sonra da sadiq olacağıq, dostluğu, qardaşlığı, əməkdaşlığı gələcəkdə də inkişaf etdirəcəyik.

Bizi İranla bağlı hər şey maraqlandırır - onun həm qədim mədəniyyəti, tarixi abidələri, böyük ədəbi, mədəni irsi və bizim bir-birinə bənzəyən, yaxud eyni olan adət və ənənələrimiz maraqlandırır. Bundan əlavə, İranda azərbaycanlılar da yaşayır. Onlar İranın vətəndaşlarıdır, onun xalqının bir hissəsidir, eyni zamanda azərbaycanlı kimi bizim soydaşlarımızdır, biz də onların soydaşlarıyıq. Bunlar hamısı ölkələrimizin bir-birinə daim dost, qardaş olmasının əsasını yaradıbdır və bizim də borcumuz bunları inkişaf etdirməkdən ibarətdir.

Həzrəti Ayətüllah Xomeyninin rəhbərliyi altında baş vermiş İran İslam inqilabı, qeyd etdiyim kimi, İran xalqı üçün yeni böyük səmərələr gətirib, nəticələr veribdir. Bu gün də İran İslam Respublikasının sükanı çox etibarlı əllərdədir. Həzrəti Ayətüllah Xomeyninin işinin davamçısı Həzrəti Ayətüllah Xamneyi cənabları, İran İslam Respublikasının Prezidenti hörmətli Haşimi Rəfsəncani cənabları və başqa dostlarımız İran İslam Respublikasına çox məharətlə rəhbərlik edirlər və İran ilə Azərbaycan arasında olan dostluq əlaqələrinə çox diqqət göstərir, bu əlaqələrin möhkəmlənməsinə çalışırlar. Biz bunların hamısını çox yüksək qiymətləndiririk. Öz tərəfimizdən, bildirmək istəyirəm ki, biz həmişə hesab edirik ki, bizim hörmət və ehtiramımız İranın Azərbaycana olan hörmət və ehtiramından üstündür. Biz belə hesab edirik. Amma siz nə cür hesab edirsiniz, - bu, öz işinizdir. Biz belə hesab edirik. Əminəm ki, bu dostluq, qardaşlıq əlaqələri gündən-günə möhkəmlənəcək, inkişaf edəcəkdir və biz bunun üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Bu gün əlamətdar bir gündür və xüsusən biz ramazan ayı içərisindəyik. Guman edirəm ki, buraya toplaşanlar arasında oruc tutanların hamısı iftarını açıbdır. İran İslam Respublikasının bayramı münasibətilə burada ikinci dəfə iftar açа bilərlər ki, sabah sübhdən oruclarını daha da yaxşı tuta bilsinlər. Mən sizin hamınızı eyni zamanda ramazan ayı münasibətilə təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, ramazan ayını ləyaqətlə başa çatdıracaqsınız. Hər birinizin orucunun qəbul olmasını Allahdan diləyirəm.

Sizi bir daha yrəkdən təbrik edirəm, böyük Allahdan İran İslam Respublikasına, onun xalqına yeni-yeni uğurlar arzulayıram. Bayramınız mübarək olsun! Sağ olun *(H. Ə. Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998. V kitab, səh. 324-326).*

HEYDƏR ƏLİYEVİN MƏŞHƏD - SƏRƏXS - TƏCƏN DƏMİRYOLU MAGİSTRALININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İRANA SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA RESPUBLİKA TELEVİZİYASI MÜXBİRİNİN SUALINA CAVABINDAN:

12 may 1996-cı il

Səfərin çox böyük əhəmiyyəti var. İranın Məşhəd şəhərində Türkmənistan və İranın dəmir yollarının birləşməsi ilə əlaqədar təntənəli mərasim keçiriləcək və bu mərasimdə biz də iştirak edəcəyik. Şübhəsiz ki, orada müəyyən danışıqlar da aparılacaqdır. Aşqabadda isə İƏT-nin Zirvə görüşü keçiriləcəkdir. Görüşə dövlət başçıları toplaşacaqlar. Burada bizim həm İƏT çərçivəsində əməkdaşlığımız, həm də ayrı-ayrı ölkələrlə ikitərəfli əməkdaşlığımız haqqında, zənnimizcə, çox söhbətlər gedəcəkdir.

HEYDƏR ƏLİYEVİN MƏŞHƏD HAVA LİMANINDA İRAN MİLLİ TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏSİNDƏN:

12 may 1996-cı il

Sual: Cənab Prezident, İran ilə Türkmənistanı birləşdirən dəmiryolunun çəkilməsi qədim "İpək yolu"nun yenidən bərpası deməkdir. Siz bu hadisəni necə qiymətləndirirsiniz?

Heydər Əliyev: Mən bu hadisəni, bu işdə əməyi olan şəxslərin göstərdikləri hünəri çox yüksək qiymətləndirir, onlara hörmət və ehtiramımı bildirirəm. Hesab edirəm ki, yenidən dirçəldilən "İpək yolu" hökmən Azərbaycandan da keçməlidir. Biz "İpək yolu"na yeni əməkdaşlıq yolu kimi baxırıq. Bu yol ölkələrimiz arasında iqtisadi inteqrasiyanın daha da dərinləşməsinə xidmət edəcəkdir.

Sual: Bu layihədə Azərbaycanın xeyri nədən ibarət olacaqdır?

Heydər Əliyev: Birincisi, o, xalqlarımız, ölkələrimiz arasında ticarət, nəqliyyat əlaqələrini daha da gücləndirəcəkdir. İkincisi, Azərbaycanın, Qafqazın İranla, Orta Asiya ölkələri və başqa ölkələrlə əlaqələrini daha da genişləndirəcəkdir. Bu da ölkələrimizin iqtisadi inkişafına kömək edəcəkdir.

Sual: İran-Azərbaycan münasibətlərinin hazırkı vəziyyətini necə qiymətləndirirsiniz? Prezident Rəfsəncani ilə ayrıca görüşünüz olacaqmı?

Heydər Əliyev: Mən İran ilə Azərbaycan arasındakı münasibətlərin indiki vəziyyətini çox müsbət qiymətləndirirəm. O mənada ki, İran və Azərbaycan qonşu, dost dövlətlərdir, xalqlarımız da dost və qonşudurlar, qardaş xalqlardır. Eyni ənənələrə, eyni dinə mənsub olan xalqlardır. Bunlar hamısı bizim münasibətlərimizin daim müsbət olmasını tələb edir və Allaha şükürlər olsun ki, bu, belədir. Ancaq mənim arzum, istəyim ondan ibarətdir ki, bu əlaqələr daha da geniş, dərin və daha da yüksək səviyyədə olsun. Hesab edirəm ki, coğrafi mövqeyimizə, tarixi ənənlərimizə görə və başqa səbəblərə görə İran ilə Azərbaycan arasında əlaqələr bundan da yaxşı olmalıdır.

İran İslam Respublikasının Prezidenti, dostum ağayı Haşimi Rəfsəncani ilə çoxdandır görüşməmişəm, darıxmışam. Şübhəsiz ki, onunla xüsusi görüşməyə ehtiyacım var.

HEYDƏR ƏLİYEVİN İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (İƏT) ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ DÖRDÜNCÜ ZİRVƏ TOPLANTISINDAKI ÇIXIŞI

Aşqabad

14 may 1996-cı il

Hörmətli cənab sədr!

Zati-aliləri!

İqtisadi Əməkdaşlıq Təşkilatının yüksək səviyyədə dördüncü görüşünün çağırılması ilə əlaqədar böyük məmnunluq hissi keçirdiyimi bildirirəm və təşkilatımızın üzvü olan qardaş dövlətlərin başçılarını salamlayıram.

Cənab Prezident, Sizi görüşümüzün sədri vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirəm.

Türkmənistan Prezidenti hörmətli Saparmurad Niyazova və qardaş Türkmənistan xalqına səmimi qarşılandığımıza və mehribanlığa görə minnətdarlığımı bildirirəm.

Zati-aliləri!

Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Məhz buna görə də, təşkilatımızda fəal iştirak etmək təkcə iqtisadi maraqlarla deyil, həm də tarixi köklərin, ənənələrin, mədəniyyətin eyniliyi ilə bağlıdır. Qardaş ölkələrlə sıx əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətidir.

Aşqabad görüşü İƏT genişləndikdən sonra birgə fəaliyyətimizin üç ilinə yekun vurur. Bu, səmərəli və hadisələrlə zəngin dövr idi və həmin dövr ərzində təşkilatımız əməkdaşlığın konkret sahələrində öz uzunmuddətli perspektivlərini və üstün istiqamətləri müəyyənləşdirmişdir.

Mühüm sənədlər qəbul edilmişdir: Kvetta fəaliyyət planı, İstanbul bəyannaməsi, Alma-Ata əsas planı və s. Biz Aviasiya və Gəmiçilik Şirkətlərinə, Ticarət və İnkişaf Bankına, Yenidən Sığortalama Şirkətinə dair razılaşdırılmış layihələrin, tranzit ticarət haqqında sazişin və viza qaydalarının sadələşdirilməsi haqqında sazişin həyata keçirilməsinə böyük əhəmiyyət veririk. İslamabadda üçüncü Zirvə toplantısında qəbul olunmuş bu sənədlər əməkdaşlığımızın dərinləşməsinə, şübhəsiz, kömək edəcəkdir.

Türkmənistan və İranın dəmiryol sistemlərinin birləşdirilməsi ölkələrimizin nəqliyyat sistemlərinin qovuşmasına doğru mühüm addımdır və bu səmərəli əməkdaşlığa konkret misaldır. Mən regionda nəqliyyat-kommunikasiya sistemlərinin inkişafında əməkdşlığın əhəmiyyətini xüsusi olaraq nəzərə çarpdırmaq istəyirəm.

Təşkilatımızın beynəlxalq nüfuzunun yüksəlməsi, digər ən iri regional və beynəlxalq təşkilatlarla konstruktiv əməkdaşlığın təşkili məmnunluq hissi doğurur. Buna BMT Baş Məclisinin 50-ci sessiyasında BMT ilə İƏT arasında əməkdaşlıq haqqında xüsusi qətnamə qəbul edilməsi sübutdur. Biz təşkilatımızın BMT müəssisələri ilə, İslam İnkişaf Bankı, İslam Konfransı Təşkilatı, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası ilə əməkdaşlığın genişlənməsinə yönəldilmiş səylərini də alqışlayırıq.

Zənnimizcə, təşkilatımızın inkişafının yeni mərhələsi əldə olunmuş müsbət nəticələr nəzərə alınmaqla, İƏT-nin təşkilat strukturunda dəyişikliklər aparmağı, nizamnamə sənədlərinin bəzi müddəalarını bu günün reallıqları ilə uyğunlaşdırmağı tələb edir.

Bu, bizə öz işimizi daha səmərəli qurmağa, artıq razılaşdırılmış olan layihələri həyata keçirmək üçün maliyyə ehtiyatlarını, texniki və digər ehtiyatları daha tez səfərbər etməyə, səylərimizi günü bu gün həyata keçirilə biləcək proqramlar üzərində cəmləşdirməyə imkan verər.

Zati-aliləri!

Zirvə toplantısında iştirk edən bir sıra digər dövlətlər kimi, Azərbaycan da mürəkkəb keçid dövrünü yaşayır. Biz müstəqillik qazandıqdan sonra dərin siyasi və iqtisadi islahatlar aparılması, bazar iqtisadiyyatı olan demokratik, hüquqi dövlət qurulması yolu ilə gedirik.

Qısa bir müddətdə biz Azərbaycanda siyasi plüralizmi, şəxsiyyət, söz, dini etiqad azadlığını bərqərar etmişik.

Respublika parlamentinə çoxpartiyalı əsasla ilk demokratik seçkilər keçirilmiş, müstəqil Azərbaycanın refendum yolu ilə ilk demokratik Konstitusiyası qəbul olunmuşdur.

Dövlət mülkiyyətini özəlləşdirmək proqramı qəbul edilmişdir və həyata keçirilir, aqrar sektorda islahatlar aparılır.

"Əsrin neft müqaviləsi" imzalandıqdan sonra Xəzər dənizinin Azərbaycan sektorundakı enerji ehtiyatlarının birgə işlənməsi sahəsində dünyanın ən iri neft şirkətləri ilə uzunmüddətli beynəoxalq əməkdaşlığa başlanmışdır.

Əminəm ki, Xəzər dənizinin şelflərindəki enerji ehtiyatlarının hasilatı sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi bütün regionun, təşkilatımızın iştirakçısı olan dövlətlərin - onlardan dördü Xəzər ətrafında yerləşir, - iqtisadi inkişafına ən əlverişli təsir göstərəcəkdir.

Zati-aliləri, bildiyiniz kimi, Azərbaycanda keçid dövrünün çətinliklərini Ermənistan Respublikası tərəfindən səkkiz ildən artıqdır davam edən silahlı təcavüzün nəticələri daha da ağırlaşdırır.

Azərbaycan ərazisinin iyirmi faizdən çoxu işğal edilmişdir, bir milyondan artıq vətəndaşımız qaçqına çevrilmiş və çadır şəhərciklərində ağır şəraitdə yaşayır.

Bütün bunlara baxmayaraq, biz münaqişənin dincliklə, siyasi yolla, hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında - dövətlərin sərhədlərinin, ərazi bütövlüyünün və suverenliyinin pozulmazlığı əsasında aradan qaldırılmasına çalışırıq.

Cəbhə xəttində atəşin dayandırılmasının və barışıq əldə edilməsinin mayın 12-də iki ili tamam olmuşdur. Biz ATƏT-in Minsk qrupunun himayəsi altında, marağı olan bir sıra dövlətlərin vasitəçiliyi ilə sülh danışqları aparırıq. Amma, təəssüflər olsun ki, danışıqlar arzuedilən nəticəni hələ verməmişdir. Digər beynəlxalq təşkilatlar - BMT, ATƏT, İslam Konfransı Təşkilatı kimi, İqtisadi Əməkdaşlıq Təşkilatı da təcavüzkarı öz qoşunlarını Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxarmağa, regionda sülhü və sabitliyi bərpa etməyə dəfələrlə çağırmışdır.

Münaqişənin dincliklə aradan qaldırılmasına çalışdığımızı bir daha təsdiqləyirik, hörmətli dövlət başçıları, sizdən xahiş edirəm ki, bu münaqişənin tezliklə aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və bir milyondan artıq azərbaycanlı qaçqının öz ocaqlarına qayıtması üçün bütün imkanlarımızdan istifadə edəsiniz.

Zati-aliləri!

Təşkilatımızın üç illik fəaliyyətini qiymətləndirərək deyə bilərik ki, o, inamla inkişaf edir, ən iri və ən nüfuzlu regional təşkilatlardan birinə çevrilir. Bu prosesdə İƏT-in baş katibi Şəmşad Əhməd xan cənablarının rolunu və səylərini ayrıca qeyd

etmək və təşkilatımızın işinə verdiyi töhfəyə görə ona minnətdarlığımı bildirmək istəyirəm.

Mən Öndər Özər cənablarının İƏT-in baş katibi vəzifəsinə namizədliyini dəstəkləyir və ümidvaram ki, bu fəxri vəzifənin öhdəsindən o, uğurla gələcəkdir.

Biz çalışmalıyıq ki, təşkilatımız regionda sülhü, sabitliyi və iqtisadi tərəqqini təmin etmək vəzifəsini daha səmərəli yerinə yetirə bilsin.

Əminəm ki, biz buna birdə səylərimizlə nail olacağıq.

Diqqətinizə görə təşəkkür edirəm.

HEYDƏR ƏLİYEVİN DÖRDÜNCÜ ZİRVƏ TOPLANTISININ YEKUN İCLASINDA NİTQİ

Aşqabad
14 may 1996-cı il

Hörmətli Prezident Saparmurad Niyazov!

Möhtərəm xanımlar və cənablar!

İƏT-in Aşqabadda dördüncü Zirvə toplantısı işini başa çatdırır. Biz hamımız - ölkələrimizin dövlət və nümayəndə heyətlərinin başçıları İƏT-ə daxil olan ölkələrin dövlət başçılarının Aşqabad görüşünü İƏT-in həyatında və gələcək fəaliyyətində yeni mərhələ ilə əlamətdar etmək üçün buraya böyük arzu ilə gəlmişik. Mübağiləsiz demək olar ki, ümidlərimiz doğruldu - İƏT ölkələri dövlət başçılarının Aşqabad görüşü uğurla başa çatır, mühüm sənədlər qəbul edilmişdir. Aşqabad bəyannaməsi bu sənədlər arasında xüsusi əhəmiyyətə malikdir. Bütün bunlar İƏT-in Baş katibi və təbii ki, Türkmənistanın Prezidenti, dostumuz Saparmurad Niyazov tərəfindən görülmüş böyük hazırlıq işi sayəsində mümkün olmuşdur. Təbii ki, onlarla birlikdə ölkələrimizin xarici işlər nazirləri, nümayəndə heyətləri də böyük hazırlıq işi görmüşlər - hamısı birlikdə. Lakin aydındır ki, işin əsas ağırlığı Türkmənistanın, onun Prezidenti, dostumuz Saparmurad Niyazovun və bu görüşü uzun müddət hazırlamış olan adamların böyük bir qrupunun üzərinə düşür.

Bu görüşdəki dövlət başçıları adından demək istəyirəm ki, görüş çox uğurlu və son dərəcə əlverişli şəraitdə keçdi, hazırlıq işi bunda öz rolunu oynadı ki, qısa müddətdə biz fikir mübadiləsi apardıq, öz mülahizələrimizi söylədik, mühüm məsələləri müzakirə etdik və son dərəcə əhəmiyyətli sənəd qəbul etdik.

Bütün bunlar bizim, dövlət başçılarının üzərinə bir vəzifə qoyur ki, Türkmənistan Prezidenti, dostumuz Saparmurad Niyazov Türkmənbaşıya bu görüşün mümkün olması üçün, görülməsi üçün onun və bütün həmkarlarının Türkmənistan torpağında dünən və bu gün apardıqları böyük işə görə dərin minnətdarlığımızı bildirək.

Bununla bərabər, mən Türkmənistan Prezidenti Saparmurad Niyazovu bizim görüşün sədri seçilməsi münasibətilə təbrik etmək istəyirəm. Biz hamımız onu təbrik etdik. Lakin deməliyəm ki, o öz üzərinə böyük məsuliyyət götürmüşdür, çünki bu işi gələn görüşədək aparacaqdır. Buna görə də bütün dövlət başçıları adından Saparmurad Niyazova bu böyük və mühüm işdə uğurlar arzulamaq istəyirəm, təbii olaraq, vəd etməliyik ki, biz hamımız bu işdə ona yaxından kömək göstərəcəyik.

Bu görüşlə bağlı daha bir məsələni də qeyd etmək istəyirəm. Biz burada, Aşqabadda bu rəsmi görüş çərçivəsindən kənarda da görüşmək, fikir mübadiləsi aparmaq imkanına malik olduq, dövlət başçıları arasında ikitərəfli görüşlər fərdi qaydada da keçirildi və

bunun üçün Türkmənistan hökuməti, Türkmənistan Prezidenti Saparmurad Niyazovun şəxsən özü gözəl imkanlar yaratmışdır.

Mən bütün bunlara görə təşəkkürümü bildirmək və Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulamaq istəyirəm. Bütün dövlət başçıları adından Türkmənistan xalqına dərin ehtiram hisslərimi çatdırmaq istəyirəm. Biz dünən də, bu gün də Türkmənistanın həyatında böyük dəyişikliklər baş verdiyini gördük, çox şey tikilir, çox işlər görülür - bütün bunlar, Türkmənistanın müstəqilliyinin bəhrələridir, bütün bunlar, əlbəttə, Türkmənistan Prezidenti Saparmurad Niyazov Türkmənbaşının çoşğun fəaliyyətinin bəhrələridir. Mən bütün bunlardan çox məmnun qaldığımı və bir daha bütün dövlət başçıları adından dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Sizə böyük uğurlar arzulayıram (H. Ə. Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998. VI kitab, səh. 277- 284).

"ŞAHDƏNİZ" YATAĞININ BİRGƏ İŞLƏDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİ ARASINDA MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİNDƏKİ ÇIXIŞDAN:

"Gülüstan" sarayı, 4 iyun 1996-cı il

...**İran Azərbaycanın yaxın qonşusu, dostudur.** Azərbaycan ilə İran arasında əməkdaşlıq günü-gündən inkişaf edir. İndi biz İran ilə neft-qaz sənayesi sahəsində də əməkdaşlığımızı genişləndiririk. Qeyd etmək istəyirəm ki, bizim bu əməkdaşlığımız var. Xəzər dənizinin İran sektorunda Azərbaycan neftçiləri iki quyu qazmaq barədə sifariş alıblar və orada işləyirlər. Biz bunu İran ilə əməkdaşlığımızın bir nümunəsi hesab edirik. Xəzər dənizində İranın öz sektoru var. Amma, eyni zamanda, Xəzər dənizinin Azərbaycan sektorunda olan "Şahdəniz" yatağının işlənməsinə İranın da cəlb edilməsini mən müsbət bir hadisə kimi qeyd edirəm. Güman edirəm ki, bu, əməkdaşlığımızı daha da inkişaf etdirəcəkdir. Bu gün imzalanan müqavilədə İran İslam Respublikasının OİEC şirkəti də iştirak edir. Mən İran İslam Respublikasından gələn qonaqlarımızı salamlayıram, milli neft şirkətinin birinci vitse-prezidenti cənab Seyid Mehdi Hüseyni və OEİC şirkətinin prezidenti cənab Seyid Əli Əkbər Haşimini salamlayıram.

İmzalanmaq üçün təqdim edilən müqavilə Azərbaycanın neft yatağında yeddi ölkənin şirkətinin müştərək işi üzərində qurulubdur: Azərbaycan Respublikası, Böyük Britaniya Krallığı, Norveç, Rusiya, Türkiyə, Fransa, İran. Bu çox əlamətdər bir haldır *(H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998. VI kitab, səh. 417).*

FRANSA BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA "AZƏRBAYCAN VƏ QAFQAZ XXI ƏSRİN ASTANASINDA" MÖVZUSUNDA KEÇİRİLƏN GÖRÜŞDƏN:

Paris, 13 yanvar 1997-ci il

Sual: Siz İranla yaxşı münasibətlərinizin olduğunu xatırlatdınız. Gələcəkdə İran Azərbaycanı ilə əlaqədar problemlər ola bilərmi?

Heydər Əliyev: Mən artıq dedim, bu ölkə ilə bizim dostluq münasibətlərimiz

var, bunları möhkəmləndirmək, inkişaf etdirmək üçün tədbirlər görürük. O ki, qaldı İranda yaşayan azərbaycanlılara, bəli, onlar orada çoxdur. Mən dəqiq rəqəm bilmirəm, amma deyirlər ki, təxminən 20-30 milyondur. Onlar İran vətəndaşlarıdır. Bu gün Prezident Jak Şirak dedi ki, Fransada beş milyon müsəlman yaşayır. Onlar Fransa xalqının bir hissəsidir. İranda yaşayan azərbaycanlılar da müsəlmandırlar, onlar da İran xalqının bir hissəsidir. Bu baxımdan hansısa bir problem görmürəm. Mən artıq dedim ki, biz bütün dövlətlərin - Azərbaycanın da, Ermənistanın da, Rusiyanın da, Fransanın da, İranın da ərazi bütövlüyünə tərəfdarıq *(H.Ə. Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998-ci il, VIII cild, səh. 254 - 255).*

FRANSANIN XARİCİ İŞLƏR NAZİRİ ERVE DE ŞARETTİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA DEYİLƏNLƏRDƏN:

Paris, 14 yanvar 1997-ci il

Sual: Xəzər dənizi ətrafında, xüsusən Xəzər nefti ətrafında bu gün çox mühüm strateji oyun gedir. Rusiya üçün Xəzər dənizi daxili göldür və onun sərvətlərini bölüşdürmək lazımdır. Belə başa düşürük ki, Siz Xəzəri onun sahilboyu ölkələri arasında beş sektora ayırmağı məqsədəuyğun hesab edirsiniz. Deyəsən, Amerika Sizin tərəfinizdədir. Lakin Rusiya, Qazıxıstan, İran da var. Diplomatik tarazlığı necə tapmaq olar?

Heydər Əliyev: Yeri gəlmişkən, indiki halda Qazaxıstanla Azərbaycan bir mövqe tutur. Rusiya ilə İran isə başqa mövqe, Türkmənistan Rusiya ilə İranın mövqeyinə qoşulur. Tamamilə qanunauyğun haldır ki, hər ölkənin öz mövqeyi var. Biz hesab edirik ki, bizim mövqe daha düzgündür, çünki Xəzər dənizinin mineral ehtiyatlarından istifadə üçün onun sektorlara bölünməsi artıq çoxdan yaranmış praktikadır və biz bu praktikadan istifadə edirik. Xəzər dənizinin statusu əvvəllər heç vaxt qaldırılmayıb. Əvvəllər heç kəs düşünmürdü ki, Xəzər necə adlansın - dəniz, göl, yoxsa daxili sututar. İndi isə, biz onun mineral ehtiyatlarından istifadə etməyə, müqavilələr imzalamağa başladıqda, ona böyük maraq yaranmışdır və hərə öz xəttini yeritmək istəyir. Hesab edirik ki, bizim mövqeyimiz daha düzgündür *(H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998-ci il, VIII cild, səh. 297 - 298)*

FRANSADA AKKREDİTƏ OLUNMUŞ XARİCİ JURNALİSTLƏRİN SUALLARINA CAVABDAN:

Paris, "Bukets" kafesi, 15 yanvar 1997-ci il

Sual: Cənab Prezident, mənim iki qısa sualım var. Azərbaycan Qərb şirkətləri qrupu ilə neft müqavilələri imzalamışdır. Sizcə, bu şirkətlərin mənsub olduqları ölkələr Dağlıq Qarabağa dair sazişin əldə edilməsi üçün Ermənistana təzyiq göstərə bilərlərmi? İkinci sual: Türkiyə öz ölkəsinə neft və qaz nəql olunması haqqında Türkmənistan və İran ilə yenicə saziş imzalamışdır. Siz orta müddətli perspektivdə neftinizin İran vasitəsilə Türkiyəyə nəqlini nəzərdə tutursunuzmu?

Heydər Əliyev: Birincisi, bütün bu fövqəlmilli şirkətlərlə müqavilələr imzalayarkən biz qarşımıza öncə kommersiya

məqsədləri qoymuşuq. Həmin fövqəlmilli şirkətlərin mənsub olduqları ölkələr Ermənistan - Azərbaycan münaqişəsinin ədalətli həllinə kömək etsələr, bu, həm Azərbaycanın, həm də Ermənistanın xeyrinə olar. Biz beynəlxalq dövlətlərarası münasibətlərdə ədalətin olmasını istəyirik. Biz hər hansı böyük ölkənin öz nüfuzundan istifadə edərək hansısa kiçik bir ölkəyə təzyiq göstərməsinin əleyhinəyik.

O ki, qaldı qazın nəqlinə dair Türkiyə, İran və Türkmənistan arasındakı müqaviləyə, mən onlara uğurlar diləyirəm. İran ərazisi vasitəsilə Türkiyəyə neft nəql etmək barədə planlarımız yoxdur *(H. Ə. Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998-ci il, VIII cild, səh. 311 - 312)*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ - ALİLƏRİ HAŞİMİ RƏFSƏNCANİ CƏNABLARINA

Möhtərəm cənab Prezident!

Məşhəd şəhəri yaxınlığında zəlzələ nəticəsində çoxlu insan həlak olması xəbəri məni dərindən sarsıtdı.

Zati-alilərı, Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, səbr diləyirəm.

Allah rəhmət eləsin!

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 5 fevral 1997-ci il **

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ƏLİ ƏKBƏR HAŞİMİ-RƏFSƏNCANİ CƏNABLARINA

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı - İnqilab günü münasibətilə sizi və bütün qardaş İran xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edir, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahına xidmət edəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 1997-ci il

İRAN İSLAM İNQİLABININ 18-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ

"Gülüstan" sarayı

10 fevral 1997-ci il

Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Mən sizi İran İslam inqilabının ildönümü münasibətilə ürəkdən təbrik edirəm, ən xoş arzularımı, ürəkdən gələn təbriklərimi sizə və bütün İran xalqına çatdırıram.

İran Azərbaycanın qonşusudur, dostudur, dost ölkədir və qonşuluğumuz əsrlər boyu bizi bir yerdə edibdir. Adət-ənənələrimizin, mənəvi, dini ənənələrimizin eyni olması, bir-birinə bənzərliyi bizi bir-birimizə bağlayıb və doğma edibdir.

Azərbaycan xalqı İran xalqına, onun həyatına daim maraq göstərmişdir və İran xalqının nailiyyətləri ilə həmişə sevinmişdir, fəxr etmişdir. Bu gün İran İslam inqilabının ildönümünü bayram kimi qeyd edərək, biz İran xalqının imam Xomeyninin rəhbərliyi altında etdiyi inqilabdan sonrakı dövrdə əldə etdiyi nailiyyətlərə sevinirik və bu nailiyyətlər münasibətilə Sizi, bütün İran xalqını təbrik edirik.

Həqiqətən, İran İslam inqilabından sonra İranda böyük dəyişikliklər baş vermişdir. İran müstəqil dövlət kimi Dünya Birliyində öz mövqelərini daim bildirərək, özünəməxsus olan siyasət aparmışdır. Ən əsası ondan ibarətdir ki, İran xalqının rifah halı, güzəranı yaxşılaşmışdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra İran ilə dərhal dövlətlərarası əlaqələr qurmuşdur. Bu gün bir daha məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, İran Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Ötən beş il ərzində İran ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr sürətlə inkişaf etməkdədir. Həqiqətən, ötən 1996-cı il İran-Azərbaycan əlaqələri sahəsində çox məhsuldar olmuşdur. Mənim Prezident cənab Haşimi Rəfsəncani ilə və İran İslam Respublikası Prezidentinin birinci müavini cənab Həbibi ilə İranda və Azərbaycanda, Türkmənistanda keçirdiyim görüşlərimiz və danışıqlarımız, bu ölkənin digər dövlət nümayəndələrinin respublikamıza etdiyi ziyarətlər və Azərbaycanın dövlət nümayəndələrinin İrana etdiyi səfərlər nəticəsində əlaqələrimizin sürətlə inkişaf etməsi üçün ciddi addımlar atılmışdır.

İranın və Azərbaycanın tarixi keçmişi, ölkələrimizin coğrafi vəziyyəti, dövlətlərimizin bugünkü siyasəti bizi bundan sonra da daha sıx əməkdaşlığa dəvət edir və hesab edirəm ki, belə əməkdaşlıq etmək üçün çox geniş imkanlar vardır. İqtisadi əməkdaşlığı daha da sürətləndirmək üçün İran-Azərbaycan Müştərək Dövlətlərarası İqtisadi Əməkdaşlıq Komissiyası xeyli iş görübdür. Ancaq hesab edirəm ki, onların qarşısında daha da böyük vəzifələr durur. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar bu vəzifələri yerinə yetirəcəklər. Azərbaycanın Prezidenti kimi mən bu komissiyanın gələcəkdə də fəaliyyət göstərməsi üçün əlimdən gələni edəcəyəm, lazımi tədbirləri görəcəyəm.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" neft-qaz yatağının birgə işlənməsi üçün xarici ölkələrin şirkətləri ilə keçən ilin iyununda imzalanmış müqavilədə İran İslam Respublikasının neft şirkətinin də iştirak etməsi əməkdaşlığımızın parlaq nümunələrindən biridir. İran-Azərbaycan əlaqələrinin indiyədək keçdiyi yol onu göstərir ki, bizim bütün sahələrdə - iqtisadiyyat, elm, mədəniyyət və digər sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün çox böyük imkanlarımız vardır. Biz bu imkanlardan səmərəli istifadə etməyə çalışırıq və bundan sonra da çalışacağıq.

İran-Azərbaycan dostluğunun parlaq nümunələrindən biri də ondan ibarətdir ki, İran dövləti, hökuməti Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüzü daim pisləmişdir. İran İslam Respublikası Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barədə ölkəmizin təkliflərini dəstəkləyir.

Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində ölkəmizin ərazisinin bir qisminin işğal olunması ilə əlaqədar o rayonların, torpaqların, sakinlərinin qaçqın, didərgin düşməsi İranda da çox böyük narahatlıq hissi doğurur. İran İslam Respublikası Azərbaycanda olan məcburi köçkünlərin və qaçqınların maddi vəziyyətini yaxşılaşdırmaq üçün indiyədək xeyli kömək etmişdir. Bu fürsətdən istifadə edərək mən həmin köməyə görə İran hökumətinə və xalqına təşəkkürümü bildirirəm.

Çoxəsrlik tariximizdə ilk dəfədir ki, İran ilə Azərbaycanın çox gözəl sağlam dövlətlərarası əlaqələri yaranıbdır. Mən bunu tarixi nailiyyət hesab edirəm. Hesab edirəm ki, biz bu nailiyyəti qoruyub saxlamalıyıq və ondan səmərəli istifadə etməliyik. Bir sözlə, İran-Azərbaycan əlaqələrinin çox gözəl gələcəyi var. Bizim vəzifəmiz xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaqdan, dostluq əlaqələrimizi möhkəmləndirməkdən, əməkdaşlığımızı inkişaf etdirməkdən və üzərimizə düşən tarixi vəzifələri layiqincə yerinə yetirməkdən ibarətdir.

Ötən bir ayda bütün müsəlman aləmi, o cümlədən Azərbaycan orucluq ayını keçirdi. Mən çox məmnuniyyət hissi ilə bildirmək istəyirəm ki, xalqımız öz mənəvi dəyərlərinə, dininə qayıdıb, öz dini-mənəvi adət-ənənələrini bərpa edibdir. Azərbaycanda da ramazan ayı hər yerdə hər bir vətəndaşın, müsəlmanın vicdanına görə layiqincə keçirilibdir. Nəhayət, dünən biz Orucluq bayramını qeyd etdik. Mən bu bayram münasibətilə sizi təbrik edirəm və sizin hamınıza cansağlığı, səadət arzulayıram.

Hörmətli dostlar, İran İslam inqilabı bayramı münasibətilə sizi bir daha təbrik edirəm, hamınıza, bütün İran xalqına səadət və xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun. Sağ olun.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ - ALİLƏRİ ƏLİ ƏKBƏR HAŞİMİ RƏFSƏNCANİ CƏNABLARINA

İran İslam Respublikasının Ərdəbil vilayətində zəlzələ nəticəsində yüzlərlə insanın həlak olması xəbəri məni dərindən sarsıtdı. Bu faciəli anda Sizə və bütün qardaş İran xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah həlak olanlara rəhmət eləsin!

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 1997-ci il

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ - ALİLƏRİ HAŞİMİ RƏFSƏNCANİ CƏNABLARINA

İran İslam Respublikasında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı olması xəbəri məni dərindən sarsıtdı. Bu faciə ilə əlaqədar Sizə və bütün qardaş İran xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah həlak olanlara rəhmət eləsin!

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 mart 1997-ci il

FRANSANIN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA VERİLƏN CAVABLARDAN:

Paris, "Krion" mehmanxanası
27 mart 1997- ci il

Sual: Cənab Prezident, sizinlə qonşu olan bir dövlət də var, onun haqqında danışmamışıq. Bu, İran dövlətidir... Cənab Prezident, bilmək istərdim ki, İrana Siz necə baxırsınız, ümumiyyətlə, İrandan inqilabın ixrac edilməsi faktı, prosesi olubmu? Ümumiyyətlə, İranın gələcək inkişafını necə görürsünüz?

Heydər Əliyev: İran bizim böyük qonşumuzdur. Bizim İranla çox böyük sərhədimiz var. İranda da çoxlu azərbaycanlı yaşayır. Bəzi məlumatlara görə, İranda 30 milyona qədər azərbaycanlı yaşayır. Elə bilməyin ki, siz burada, Fransada hər şeyi bilirsiniz. Çox şeyi bilmirsiniz.

Sual: Siz bu 30 milyonu deyəndə mənşəcə azərbaycanlı olan iranlıları nəzərdə tutursunuz?

Heydər Əliyev: Əlbəttə, azərbaycanlıları deyirəm. Necə mənşəcə? Bunlar həqiqi azərbaycanlılardır. Azərbaycan keçmişdə bir olubdur. XIX əsrin əvvəlində Rusiya ilə İran arasında gedən müharibələr nəticəsində Azərbaycan iki yerə parçalanıbdır.Onun çox hissəsi İranın tərkibində qalıb, indi də oradadır. Az hissəsi Rusiyanın tərkibində qalıb. Rusiyanın tərkibində olan həmin o Azərbaycan da indi bizim yaşadığımız Azərbaycandır. Bizim aramızda ancaq Araz çayı var. Bəzi yerlərdə heç Araz çayı da yoxdur. İranda olan kəndlə bizim kəndin arasında yüz metrlik məsafə var. Ona görə də sərhədimizin İran tərəfində olan əhalinin hamısı azərbaycanlıdır. Bunu siz bilməlisiniz.

Ancaq şübhəsiz ki, onlar İran vətəndaşlarıdır. Biz hər bir ölkənin ərazi bütövlüyünü tanıdığımız kimi, İranın da ərazi bütövlüyünü tanıyırıq. Ona görə də İran ilə bizim aramızda yaxşı, mehriban dostluq əlaqələri var. Bir dinə mənsub olmağımız və ənənələrimizin də eyni olması bu əlaqələrimizi daha da yaxınlaşdırır.

O ki, qaldı İslam inqilabının Azərbaycana təsirinə, bunun Azərbaycana heç bir təsiri yoxdur. Mənim təmsil etdiyim müstəqil Azərbaycan Respublikasının öz dövlət quruluşu, dövlət prinsipləri var. İran Respublikasının da öz dövlət quruluşu, öz yaşayış prinsipləri var. Biz onların daxili işlərinə qarışmırıq, onlar da bizim daxili işlərimizə qarışmamalıdırlar.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ - ALİLƏRİ ƏLİ ƏKBƏR HAŞİMİ RƏFSƏNCANİ CƏNABLARINA

Hörmətli cənab Prezident!

İranda zəlzələ nəticəsində böyük dağıntılar və çoxsaylı insan tələfatı olması xəbəri məni dərindən kədərləndirdi.

Həlak olanların qohum - əqrəbalarına və bütün İran xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah-təaladan ölənlərə rəhmət, xalqınıza səbr diləyirəm.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 1997-ci il

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (İƏT) ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏDƏNKƏNAR AŞQABAD ZİRVƏ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏKİ BƏYANATDAN:

13 may 1997-ci il

Bu növbədənkənar toplantıdır, əsasən, nəqliyyat, kommunikasiya məsələlərinə həsr olunubdur. Xüsusi bəyanamə - Aşqabad Bəyannaməsi hazırlanıbdır və mən hesab edirəm ki, bu, çox əhəmiyyətlidir. Şübhəsiz ki, əvvəlki görüşlərdə də çox iş görülübdür. Ancaq bu bəyannamədə İƏT regionundan, ona daxil olan ölkələrdən həm Şərqə, Qərbə, həm də Şimala, Cənuba gedən bütün nəqliyyat, kommunikasiya vasitələrinin yaranması, tikilməsi və bununla da iqtisadi əlaqələrin inkişaf etdirilməsi məsələsi müzakirə olunacaqdır. Hesab edirəm ki, bu, çox əhəmiyyətlidir. Çünki İqtisadi Əməkdaşlıq Təşkilatının əsas vəzifəsi iqtisadi əlaqələri inkişaf etdirməkdir. Bunu inkişaf etdirmək üçün, şübhəsiz, nəqliyyat, kommunikasiya çox böyük rol oynayır. Ona görə də mən bunu əhəmiyyətli hesab edir və oraya gedirəm.

HEYDƏR ƏLİYEVİN AŞQABAD ZİRVƏ GÖRÜŞÜNDƏKİ NİTQİ

13 may 1997-ci il

Bizim çox böyük təbii ehtiyatlarımızın olması, Avropa ilə Asiyanın, Şimal və Cənubun qovuşuğunda əlverişli coğrafi mövqeyimiz bu sahədə uğurlu əməkdaşlıq üçün, bölgəmizin enerji ehtiyatlarının, malların və yüklərin nəql edilməsinin etibarlı və səmərəli sistemləri zonasına çevrilməsi üçün əlverişli şərait yaradır.

Nəqliyyat və kommunikasiyalar sahəsində əməkdaşlığı inkişaf etdirmək ideyası İƏT-in əsas sənədinin - İzmir müqaviləsinin başlıca ideyalarından biridir. Bu sənəddə sabit iqtisadi yüksəlişin və İƏT-in üzvü olan ölkələr arasında səmərəli iqtisadi əməkdaşlığın təmin edilməsi üçün bu sektorun həyati əhəmiyyətə malik olduğu nəzərə çarpdırılır.

İƏT bölgəsinin nəqliyyat-kommunikasiya infrastrukturlarını onun iqtisadi inkişafının potensial imkanlarına və dünya standartlarına uyğunlaşdırmaq vaxtı gəlib çatmışdır.

Şərq-Qərb və Şimal-Cənub dəhlizləri yaradılması yolu ilə müasir Avroasiya tranzit nəqliyyat şəbəkəsinin təşkili əməkdaşlığın bu istiqamətində perspektivlidir.

Dəmiryol nəqliyyatının fəaliyyətini əlaqələndirmək haqqında və tranzit daşımaları sahəsində əməkdaşlıq haqqında Sərəxsdə dörtdərəfli saziş imzalamış olan Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan bu istiqamətdə ilk addım atmışlar. Yeni Transqafqaz nəqliyyat dəhlizi uğurla sınaqdan çıxarılmışdır və Avropa ilə Asiya arasında yük daşınmasını təmin edir. Bir sıra digər ölkələr - Qırğızıstan, Qazaxıstan, Ukrayna, Moldova, Bolqarıstan və başqaları bu sazişə qoşulmaq istədiklərini bildirmişlər.

Bu layihənin tam həcmdə həyata keçirilməsi üçün beynəlxalq maliyyə təsisatları, beynəlxalq təşkilatlar və ən əvvəl, Avropa Birliyi həlledici yardım göstərə bilərlər. Orta Asiya və Zaqafqaziya ölkələrinin imkanları və maraqları nəzərə alınmaqla onlar üçün TRASEKA regional proqramlarının işlənib hazırlanmasına Avropa Birliyinin göstərdiyi yardım xüsusilə nəzərə çarpır.

Yaradılmaqda olan Avroasiya dəhlizi infrastrukturunun əsas pillələri Xəzər dənizinin və Qara dənizin limanlarıdır, habelə, mövcud dəmiryol və avtomobil magistrallarıdır.

Sərəxs sazişi və TRASEKA proqramları İƏT bölgəsində gəmiçilikdən və liman təsərrüfatından səmərəli istifadə üçün yaxşı zəmin yaradır, çünki yüklər dəniz bərəsi ilə Türkmənbaşı - Bakı istiqamətində daşınır.

Artıq bu gün Bakı limanı nəqliyyatın Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində bölüşdürülməsi qovşağının funksiyasını yerinə yetirmək iqtidarındadır və Xəzər hövzəsindəki bütün limanlar arasında ən güclü və yüksək texniki təchizata malik limandır. Onun imkanları İranın Ənzəli və Noşəhr limanlarına, habelə Türkmənbaşı, Mahaçqala, Həştərxan və Aktauya gedən yüklərin vurulması və boşaldılması işlərini tamamilə təmin etməyə şərait yaradır.

Bakı limanının və Xəzərdəki digər limanların inkişaf etdirilməsi işləri onlara ticarət-kommersiya mərkəzləri funksiyaları verilməsi yolu ilə həyata keçirilməlidir. Bununla əlaqədar iri proqramlara ehtiyac yaranır. Elə proqramlara ki, mövcud infrastrukturu beynəlxalq standartlara yaxınlaşdırmaq məqsədilə burada həm dəmiryolunun, avtomobil magistrallarının ayrı-ayrı qovşaqlarının, həm də liman təsərrüfatının yenidən qurulması, modernləşdirilməsi və inşası nəzərdə tutulsun.

Bu dediklərimi nəzərə alaraq, bütün əlaqədar tərəflərin iştirakı ilə Avroasiya dəhlizi ölkələri nəqliyyat nazirlərinin daimi konfransını təsis etmək, zənnimcə məqsədəuyğun olardı. Bu isə, Avroasiya nəqliyyat dəhlizinin lazımınca fəaliyyət göstərməsi məsələlərini operativ həll etməyə və həmin istiqamətdə əməkdaşlıq proqramlarının işlənib hazırlanmasına vahid mövqedən yanaşmağa imkan verərdi.

Xəzər dənizinin Azərbaycan sektorunda və digər Xəzəryanı dövlətlərdə zəngin neft-qaz yataqlarının işlənməyə başlanması ilə əlaqədar bu ölkələrdən Azərbaycan ərazisi ilə keçib Aralıq dənizi və Qara dəniz limanlarına çıxacaq neft-qaz kəmərləri çəkilməsi haqqında danışıqlar aparılır.

Azərbaycanın dəmiryol və suüstü vasitələrindən, boru kəmərlərindən istifadə olunması nəzərdə tutulan bir çox variantlar müzakirə edilir. Bu isə, əslində, Avroasiya nəqliyyat dəhlizinin ən mühüm elementlərindən birinin işə salınması deməkdir. Zənnimcə, Türkmənistandan Xəzər vasitəsilə Azərbaycana, buradan isə Türkiyəyə qaz kəməri çəkilməsi çox səmərəli layihədir. Biz qısa müddətdə bu layihənin nəzərdən keçirilməsinə və onun əməli surətdə reallaşdırılmasına başlanmasını zəruri hesab edirik.

Biz Qazaxıstanın "Tengiz" yatağından enerji ehtiyatlarını Xəzər dənizi vasitəsilə və Azərbaycan ərazisi ilə Türkiyəyə nəql etmək təkliflərinə böyük əhəmiyyət veririk. Bu məsələ Qazaxıstan Prezidenti hörmətli Nursultan Nazarbayevlə müzakirələrimizin mövzusu olmuşdur və mən onun işlənib təkmilləşdirilməsini və əməli qərarlar qəbul edilməsini lazım bilirəm.

Hörmətli cənablar!

Bizim Zirvə toplantısının işi sübut edir ki, İƏT bölgəsində vahid kommunikasiya məkanı yaradılmasının yeni, mühüm mərhələsi başlanmışdır.

Mən Aşqabad Bəyannaməsini hazırlamış olan işçi qrupuna öz ehtiramımı və təşəkkürümü bildirirəm. Bu bəyannamə bölgəmizdə müasir yüksək səmərəli nəqliyyat-kommunikasiya sistemi yaradılması və onun ümumdünya sistemləri ilə birləşdirilməsi sahəsində planlı, əməli işin yaxşı bünövrəsini qoyur.

Əminəm ki, bu gün qəbul olunan bəyannamədə əksini tapan layihələrin həyata keçirilməsi İƏT ölkələrinin qarşılıqlı surətdə faydalı əməkdaşlığına və nəticə etibarı ilə sabit sülhün və ölkələrimizin, xalqlarımızın tərəqqisinin təmin olunmasına kömək edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ MƏHƏMMƏD XATƏMİ CƏNABLARINA

Hörmətli cənab Prezident, Sizi İran İslam Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə və bütün qardaş İran xalqına Allahdan sülh, əmin-amanlıq, tərəqqi və daim çiçəklənmə diləyirəm.

Biz İran İslam Respublikası ilə Azərbaycan Respublikasının əlaqələrinə böyük əhəmiyyət veririk. Xalqlarımızın birgə tarixi, mədəniyyəti, dini etiqadı, ənənələri və qardaşlığı ölkələrimizin yaxın dostluğu və əməkdaşlığı üçün gözəl bir zəmindir.

Ümidvaram ki, Sizin bu yüksək vəzifəyə seçilməyiniz İran xalqının səadətinə, rifahının artmasına, İran - Azərbaycan əlaqələrinin daim inkişafına, bizim əməkdaşlığımızın yolunda olan bütün çətinliklərin aradan götürülməsinə xidmət edəcək. Biz öz tərəfimizdən qardaş İran İslam Respublikası ilə əlaqələrin inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik. Sizi bir daha ürəkdən təbrik edirəm, cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 26 may 1997-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TEHRANA İKT-NİN VIII ZİRVƏ GÖRÜŞÜNƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRLƏ GÖRÜŞÜNDƏ ONLARIN SUALLARINA VERDİYİ CAVABDAN:

8 dekabr 1997-ci il

Dövlətimizin rəhbəri yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərə qısa müsahibə verərək demişdir:

Səfərin məqsədi aydındır. Çünki Azərbaycan İslam Konfransı Təşkilatının üzvüdür və bu təşkilatın Zirvə görüşündə Azərbaycanın dövlət başçısının da iştirak etməsi zəruridir.

Keçən dəfə, 1994-cü ildə Mərakeşdə - Kasablankada İslam Konfransı Təşkilatının Zirvə görüşündə bir çox məsələlər müzakirə edilmişdir. İslam Konfransı Təşkilatı Ermənistanın Azərbaycana təcavüzünü daim pisləyir. Bu barədə 1994-cü ildə də qətnamə qəbul edilmişdir. Keçən il Cakartada İslam Konfransı Təşkilatı ölkələri xarici işlər nazirlərinin görüşündə də Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər öz əksini tapmışdır.

Təkcə bu deyildir. Biz islam aləminin bir hissəsiyik, ona görə də bu Zirvə görüşünün işində iştirak etməliyik və öz fikirlərimizi, təkliflərimizi bildirməli, islam ölkələrinin həmrəyliyi üçün öz səylərimizi göstərməliyik. Məhz bu məqsəd üçün də mən Tehrana gedirəm.

Sual: Humanitar yardım və Dağlıq Qarabağ haqqında hər hansı sənədin imzalanacağı gözlənilirmi?

Heydər Əliyev: Ola bilər ki, İslam Konfransı Təşkilatı Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar qaçqınların vəziyyətini nəzərə alaraq, təşkilatın Azərbaycana humanitar yardım göstərməsi haqqında bir qərar qəbul etsin.

Sual: İkitərəfli görüşlər nəzərdə tutulurmu?

Heydər Əliyev: Şübhəsiz, belə Zirvə toplantıları zamanı ikitərəfli görüşlər olur. Bu dəfə də bir çox ikitərəfli görüşlər nəzərdə tutulubdur. Baxarıq, vaxt nə qədər imkan versə, o qədər də görüşəcəyik.

Sual: ATƏT-in Minsk qurupu həmsədrlərinin səfərini necə qiymətləndirirsiniz?

Heydər Əliyev: Yəni, həmsədrlərin Azərbaycana gəlişini deyirsiniz? Yəqin ki, siz orada vardınız, mən həmsədrlərin fəaliyyətinə aid öz fikirlərimi dedim. Onları təkrar etmək istəmirəm, - bizim televiziya ilə də verilib, qəzetlərdə də dərc olunubdur. Mən hesab edirəm ki, bu bir il müddətində həmsədrlər ləng işləyiblər. İl sona çatır, biz nəzərdə tutulan arzulara gəlib çata bilməmişik. Ancaq, eyni zamanda, hər bir belə görüş əhəmiyyətlidir. Elə bu görüşümüz də çox gərgin keçdi, çox vaxt apardı. Mən Minsk qurupunun həmsədrlərindən gözlədiklərimizi indiyə qədər almadığımız haqqında öz fikrimi onlara bildirdim. Narazılığımı da bildirdim və tələb etdim ki, onların ölkələrinin başçıları tərəfindən üzərlərinə qoyulmuş vəzifələri daha da məsuliyyətlə yerinə yetirsinlər. Hər halda, görüş səmərəli oldu.

Ayın 18-19-da Kopenhagendə ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirləri görüşəcəklər. Hesab edirəm ki, oradakı danışıqlar, qəbul ediləcək qərarlar üçün bizim apardığımız danışıqlar çox əhəmiyyətli oldu.

Sual: İranla ikitərəfli danışıqlarda hansı məsələlər müzakirə olunacaqdır?

Heydər Əliyev: Bilirsiniz, İranla ikitərəfli danışıqlarda konkret məsələlər nəzərdə tutulmayıbdır. İranın yeni Prezidenti ilə mənim xüsusi görüşüm olacaqdır. Bizim məqsədimiz həmişə belə olubdur ki, İran böyük qonşumuzdur və İranla əlaqələri daim yaxşılaşdırmalıyıq. Biz bu barədə üzərimizə düşən vəzifələri öz tərəfimizdən yerinə yetiririk. Mən bu dəfə də çalışacağam subut edəm ki, İran ilə Azərbaycan arasında hər bir dövlətin xüsusiyyətini nəzərə alaraq, normal dostluq əlaqələri olmalıdır və İran hökuməti də bu barədə öz üzərinə düşən addımları atmalıdır.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN RƏHBƏRLƏRİNİN VIII ZİRVƏ GÖRÜŞÜNDƏKİ NİTQİ

9 dekabr, 1997-ci il

- Hörmətli cənab sədr! Hörmətli dövlət və hökumət başçıları!

Əziz qardaşlar!

Sizi, İslam Konfransı Təşkilatının

VIII Zirvə görüşünün iştirakçılarını Azərbaycan xalqı adından ürəkdən salamlayıram və ulu tanrıdan uğurlar diləyirəm. Bizə göstərilən qonaqpərvərliyə və Zirvə görüşünün işinin gözəl təşkilinə görə möhtərəm Prezident Məhəmməd Xatəmiyə, İran hökumətinə və xalqına, İslam Konfransı Təşkilatının Baş katibi möhtərəm İzzəddin Larakiyə təşəkkürümü bildirirəm.

Azərbaycan öz istiqlaliyyətini bərpa etdikdən sonra, 1991-ci ildən İslam Konfransı Təşkilatının üzvüdür və onun çoxtərəfli fəaliyyətində yaxından iştirak edir. Biz İslam Konfransı Təşkilatının müsəlman aləmində və beynəlxalq sahədə apardığı işlərə böyük əhəmiyyət veririk. Müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmləndirmək, xalqlarımızın əmin-amanlığını təmin etmək, onların rifahını yüksəltmək, dinimizi, ənənələrimizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi qoruyub inkişaf etdirmək İslam Konfransı Təşkilatının ən ümdə vəzifəsidir. Bu müqəddəs amalları həyata keçirmək üçün biz daim çalışmalıyıq. Mən hamınızı daha da fəal əməkdaşlıq etməyə dəvət edirəm.

Müsəlman xalqları və ölkələri dünyada gedən mürəkkəb proseslərlə üzləşirlər. Bir tərəfdən elm və texnika güclü surətdə inkişaf edir, yeni ixtiralar, texnologiyalar Yer kürəsinin simasını dəyişdirir, o biri tərəfdən bir çox xalqlar aclıqdan, yoxsulluqdan, cəhalətdən əzab çəkirlər. Ona görə biz tərəqqi ilə ayaqlaşmalıyıq, inkişaf etmiş ölkələrin səviyyəsinə qalxmalıyıq. Son illər ərzində Azərbaycan müsəlman ölkələri ilə siyasi, iqtisadi, ticarət və mədəni əlaqələri xeyli inkişaf etdirmişdir. Həm İslam Konfransı Təşkilatı, həm də başqa beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımız məhsuldar və faydalı olmuşdur.

İslam aləminin qlobal miqyaslı məsələlərinin həllində çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün Azərbaycan Respublikası əlindən gələni etməkdədir.

İslam Konfransı Təşkilatının ərəb-İsrail münaqişəsinin sülh yolu ilə həllinə, Cammu və Kəşmir münaqişəsinin ədalətli nizamlanmasına yönəldilmiş bütün addımlarını və səylərini biz ürəkdən dəstəkləyirik.

Ermənistan Respublikasının təcavüzünə məruz qalmış Azərbaycan xalqı, bütün müsəlman xalqları kimi, Əfqanıstanda, Somalidə, Bosniya-Herseqovinada, başqa dövlətlərdə mövcud olan vəziyyətdən olduqca narahatdır. Müsəlman xalqlarının təhlükəsizliyini və ölkələrimizin ərazi bütövlüyünü təmin etmək, müsəlman azlıqlarının və icmalarının hüquqlarını qorumaq, müsəlman aləminin sabit inkişafını təmin etmək bizim müqəddəs vəzifəmizdir. Böyük nüfuza malik olan İslam Konfransı Təşkilatı səylərimizi birləşdirməyə və əlaqələndirməyə hər cür imkanlar yaratmalıdır. Əminəm ki, bizim bu Zirvə görüşümüz bunun üçün öz töhfəsini verəcəkdir.

Sovet İttifaqının süqutundan sonra bir çox müsəlman xalqları istiqlaliyyətə nail olmuş, onların qarşısında yeni imkanlar açılmışdır. Bu gün onlar həm dünyanın digər ölkələri və xalqları ilə, həm də özləri arasında müstəqil əlaqələr qururlar. Milli maraqlardan doğan təbii inteqrasiya get-gedə güclənir və böyük regionları çiçəklənən iqtisadi əməkdaşlıq məkanına çevirmək üçün gözəl zəmin yaradır.

Əziz qardaşlar!

Azərbaycan Respublikası öz müstəqil demokratik dövlətinin quruculuğu yolunda inamla irəliləyir. Bizim əldə etdiyimiz uğurlar göz qabağındadır. Bununla belə, inkişafımıza mane olan, dövlətimizə təhlükə törədən, hamınıza məlum bir problemimiz də vardır. Bu problem Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü, torpaqlarımızın 20 faizini işğal etməsi və bu təcavüzün nəticəsində bir milyondan çox vətəndaşımızın yurdlarından didərgin düşməsi, qaçqın və köçkün olmasıdır. İslam Konfransı Təşkilatının bu təcavüzü pisləyən qərarlarını, Azərbaycana dəstək verməsini Azərbaycan xalqı yüksək qiymətləndirir. İslam Konfransı Təşkilatının 1994-cü il Mərakeş Zirvə görüşünün və 1996-cı ildə Cakartada keçirilmiş XXI konfransının qərarlarına biz böyük əhəmiyyət veririk. Xüsusilə ATƏT-in Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair qəbul olunmuş prinsiplərə bu konfransın dəstək verməsinə görə biz İslam Konfransı Təşkilatı dövlətlərinin hamısına təşəkkürümüzü bildiririk.

Azərbaycan xalqının müsəlman dövlətlərinin həmrəyliyinə, mənəvi və maddi köməyinə böyük ehtiyacı vardır. İşğalçı Ermənistan öz diasporalarının köməyi ilə həm Amerikadan, həm Avropadan, ələlxüsus Rusiyadan mənəvi, siyasi, iqtisadi, hərbi dəstək alır. 1993-1996-cı illərdə Rusiya Ermənistana qeyri-qanuni, gizli olaraq bir milyard dollar dəyərində silah, sursat və hərbi texnika göndəribdir. Bundan əlavə bu il avqust ayının 29-da Rusiya ilə Ermənistan arasında güclü hərbi əməkdaşlıq bəndləri olan müqavilə bağlanmışdır. Beləliklə, təcavüzkar Ermənistan dövləti hərbi cəhətdən güclənərək, nəinki Azərbaycan üçün, regionumuzun bütün dövlətləri üçün ciddi bir təhlükə yarada bilər.

Azərbaycan Respublikası Ermənistanla münaqişəni sülh yolu ilə həll etməyi qarşısına məqsəd qoyubdur. 1994-cü ilin may ayında biz müharibəni dayandırmağa və atəşkəs əldə etməyə nail olmuşuq. ATƏT-in Minsk qrupu çərçivəsində sülh danışıqları aparırıq. 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşündə münaqişənin ədalətli həlli prinsipləri 53 dövlət tərəfindən təsdiqini tapmışdır. Bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə yaranıbdır.

ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bu il ərzində gərgin iş aparmış, münaqişəni iki mərhələdə həll etmək barədə yeni təkliflər hazırlayıb tərəflərə təqdim etmişlər: birinci mərhələdə Dağlıq Qarabağın ətrafında Azərbaycanın işğal olunmuş altı rayonunu azad etmək, müharibə nəticəsində dağıdılmış yolları və nəqliyyat vasitələrini bərpa etmək; ikinci mərhələdə Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın hüquqi statusunu təyin etməklə bərabər, Laçın və Şuşa rayonlarını işğaldan azad etmək. Biz bu təklifləri qəbul etmişik. Qeyd etməliyəm ki, verilən təkliflər Ermənistanın da milli maraqlarına tamamilə cavab verir. Lakin Ermənilərin inadkar, qeyri-konstruktiv mövqelərinə görə hələlik müsbət nəticə əldə olunmamışdır. Mən bir daha bəyan edirəm ki, biz münaqişənin yalnız sülh yolu ilə həllinin tərəfdarıyıq və buna nail olmaq üçün bundan sonra da çalışacağıq.

Ermənistanın təcavüzü nəticəsində yerlərindən didərgin düşmüş və çadırlarda ağır vəziyyətdə yaşayan bir milyondan artıq azərbaycanlı qaçqınlara göstərilən humanitar yardıma görə biz Türkiyəyə, İrana, Səudiyyə Ərəbistanına, Pakistana, Misirə, Küveytə, Birləşmiş Ərəb Əmirliklərinə dərin minnətdarlığımızı bildiririk. Onlara və İslam Konfransı Təşkilatının üzvü olan digər dövlətlərə üz tutaraq xahiş edirik ki, bu sahədə köməklərini artırsınlar, müsəlman qardaşlarını bu bəladan qurtarmaqda öz imkanlarını əsirgəməsinlər. Gün o gün olacaqdır ki, Azərbaycan dövləti bu təcavüzdən xilas ola-

caq, qısa müddətdə inkişaf edib çiçəklənən dövlətə çevriləcək və özü qardaşlarına kömək etmək iqtidarında olacaqdır.

Bu yüksək kürsüdən İslam Konfransı Təşkilatının rəhbərliyinə və burada iştirak edən bütün dövlət və hökumət başçılarına üz tutaraq, Azərbaycanın haqq işinə verdikləri dəstəyə görə minnətdarlığımı ifadə edirəm. Ümidvaram ki, Tehran Zirvə görüşü Ermənistanın Azərbaycana qarşı təcavüzü barəsində tutarlı qərarlar qəbul edəcək və bir milyon qaçqın azərbaycanlı müsəlmanlara fəal yardım proqramını təklif edəcəkdir. Əmin olduğumu bildirirəm ki, İslam Konfransı Təşkilatı islam ümmətinin tərəqqisi, xoşbəxt gələcəyi, məzlum xalqların rifahı yolunda bütün imkanlarından istifadə edəcəkdir. Bu müqəddəs məqsədlərə nail olmaq üçün Allah-təalanın köməyi ilə Azərbaycan Respublikası da öz töhfələrini verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 9-da Tehranda İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla qarşılayan cənab Xatəmi bu görüşdən məmnun olduğunu söylədi və İKT-nin VIII Zirvə görüşündə iştirak etmək üçün Tehrana gəldiyinə görə ona təşəkkürünü bildirdi. Hüquqi demokratik dövlət quruculuğu və islahatların müvəffəqiyyətlə aparılması sahəsində son illər Azərbaycanda Prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərin İranda da diqqətlə izlənildiyini və maraqla qarşılandığını söyləyən cənab Xatəmi ölkələrimiz arasında əlaqələrin daim möhkəmləndirilməsinin böyük əhəmiyyəti olduğunu vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Heydər Əliyev cənab Xatəmini Prezident seçilməsi münasibətilə təbrik etdi. O, əvvəlcədən verilmiş müxtəlif proqnozların əksinə olaraq, İranda xalqın böyük əksəriyyətinin seçki məntəqələrinə gəlib səs verməsini və Prezident seçkilərinin demokratik qaydada keçməsini yüksək qiymətləndirdi.

İslam Konfransı Təşkilatının VIII Zirvə görüşündə iştirak etməsindən məmnun olduğunu bildirən Heydər Əliyev bu görüşün yaxşı təşkil edildiyini nəzərə çarpdırdı. Respublikamızın rəhbəri əmin olduğunu bildirdi ki, VIII Zirvə görüşü müsəlman ölkələrinin əməkdaşlığının daha da canlandırılmasında əhəmiyyətli rol oynayacaq və Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən mühüm sənədlər qəbul edəcəkdir.

İran ilə Azərbaycan arasında dərin köklərə malik tarixi dostluq əlaqələrinin gündən-günə möhkəmləndirilməsinin vacib olduğunu nəzərə çarpdıran Heydər Əliyev dedi ki, biz qonşu və dost ölkə olan İranla əməkdaşlığın genişləndirilməsinə daim diqqət yetiririk.

Qarşıdakı üç ildə İslam Konfransı Təşkilatına İranın sədrlik edəcəyini vurğulayan cənab Xatəmi dedi ki, biz bu nüfuzlu təşkilatın Azərbaycan dövlətinin problemlərinin həllinə yaxından kömək göstərməsinə xüsusi fikir verəcəyik.

Bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İKT çərçivəsində Azərbaycan-İran

əlaqələrinin daha da yaxşılaşdırılmasının zəruri olduğunu qeyd edən dövlətimizin başçısı dedi ki, Azərbaycan Respublikası öz müstəqilliyinin qorunub saxlanılması və əbədi olması üçün əlindən gələni edəcəkdir. Respublikamızın rəhbəri bildirdi ki, Azərbaycan xalqı bundan sonra heç bir ölkənin təsir dairəsində ola bilməz və olmayacaqdır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazisinin 20 faizini işğal etməsindən, 1 milyondan çox vətəndaşımızın qaçqın vəziyyətində, ağır şəraitdə yaşamasından bəhs edən Prezident Heydər Əliyev bu münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan və həmsədrlərin sülh təkliflərindən də söhbət açdı.

Cənab Xatəmi dedi ki, İran xalqı azərbaycanlı bacı-qardaşlarının dərdinə şərikdir və bu münaqişənin sülh yolu ilə həllinə tərəfdardır.

Prezident Heydər Əliyev cənab Xatəmini Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Görüşdə Azərbaycan-İran əməkdaşlığının perspektivləri, Müştərək Komissiyanın fəaliyyətinin daha da canlandırılması barədə geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN "ƏHRAR" QƏZETİNİN MÜXBİRİ İLƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Tehran Zirvə görüşünün ikinci günü - dekabrın 9-da İranın "Əhrar" qəzeti müxbirinin suallarına cavab vermişdir.

Sual: İranla Azərbaycan arasında əlaqələrin genişləndirilməsi haqqında nə demək olar?

Heydər Əliyev: İran ilə Azərbaycan arasındakı əlaqələr dostluq, qardaşlıq xarakteri daşıyır və güman edirəm ki, bu əlaqələr bundan sonra daha da yüksəklərə qalxacaq, genişlənəcək, daha da çox inkişaf edəcəkdir. Ümidvaram ki, İranın Prezidenti cənab Xatəmi ilə mənim görüşüm zamanı,- bu gün bizim xüsusi görüşümüz olacaq,- biz bu məsələləri müzakirə edəcəyik və düşünürəm ki, fikirlərimiz eyni olacaqdır.

Sual: Qarabağ savaşı ilə bağlı olaraq bu konfransdan nə kimi istəklərniz var?

Heydər Əliyev: İstəklərimiz odur ki, bu konfrans bir təcavüzkar kimi Ermənistanı məhkum etsin. Ermənistan Azərbaycana təcavüz edib, Azərbaycanın torpaqlarının 20 faizini işğal edibdir, bir milyondan artıq azərbaycanlı - müsəlmanların qardaş-bacıları yerlərindən-yurdlarından zorla çıxarılıb, çadırlarda yaşayırlar. Ona görə də bu konfrans Ermənistanı bir təcavüzkar kimi məhkum etməlidir.

Sual: Xəzər dənizinin hüquqi rejiminə necə baxırsınız?

Heydər Əliyev: Xəzər dənizinin hüquqi rejimi çox normal həll olunacaqdır.

Sual: Zirvə görüşünü necə qiymətləndirirsiniz?

Heydər Əliyev: Çox yüksək qiymətləndirirəm.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRANIN "İRAN DÜNYASI" QƏZETİ VƏ İRNA AGENTLİYİ MÜXBİRLƏRİNİN SUALLARINA VERDİYİ CAVABLAR:

Sual: Azərbaycan ilə İranın gələcək əməkdaşlığı haqqında fikrinizi bilmək istərdim.

Heydər Əliyev: Azərbaycan ilə İranın əməkdaşlığı yaxşıdır. Biz dost ölkələrik, münasibətlərimiz dostluq və əməkdaşlıq xarakteri daşıyır. **Bizim tarixi əlaqələrimiz, tarixi keçmişimiz, bir dinə mənsub olmağımız, adət-ənənələrimiz ölkələrimizin - Azərbaycan və İranın fəal əməkdaşlıq etməsi və dostluq münasibətləri saxlaması üçün çox sanballı bünövrə yaratmışdır.** İndi belə əməkdaşlıq var, amma mən hesab edirəm ki, bu, kifayət deyildir. Biz bütün sahələrdə - iqtisadiyyatda, elm, texnika, mədəniyyət sahəsində əməkdaşlığımızı genişləndirməliyik. Ümidvaram ki, Prezident cənab Xatəmi və İranın digər rəhbərləri ilə görüşlərimiz zamanı bu məsələləri müzakirə edəcək və əməkdaşlığımızı daha da inkişaf etdirmək üçün tədbirləri müəyyənləşdirəcəyik.

Sual: Zirvə görüşündən nə gözləyirsiniz?

Heydər Əliyev: İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının VIII görüşü bütünlükdə islam dünyasının, islam birliyinin, həmrəyliyinin daha da möhkəmlənməsi üçün, o cümlədən müsəlman ölkələrinin mənafelərinə toxunan bir çox kəskin məsələlər - münaqişələr, təcavüzlər və sairə barədə çox mühüm qətnamələr, qərarlar qəbul edəcəkdir. Ümidvaram ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında da xüsusi qətnamə qəbul edəcəkdir. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib, bir milyondan çox azərbaycanlı öz yurdlarından zorla qovulub çıxarılmışdır və qaçqın vəziyyətində yaşayır. Hesab edirəm ki, bu təcavüzü pisləyən qətnamə qəbul olunacaqdır. Ümidvaram ki, Azərbaycan qaçqınlarına humanitar yardım göstərilməsi barədə də qətnamə qəbul ediləcəkdir. Bütün islam dünyasına aid olan böyük qətnamələr də, ayrı-ayrı lokal problemlərlə, o cümlədən Azərbaycanla bağlı qətnamələr də olacaqdır.

Sual: Xəzər dənizinin mineral ehtiyatlarından istifadə olunması barədə sizin ölkənizin mövqeyi və təklifləri necədir?

Heydər Əliyev: Xəzər böyük neft və qaz ehtiyatları olan dənizdir. Azərbaycan Xəzər dənizindən neft və qaz çıxarılması ilə çoxdan məşğul olur. Biz bu işlə hələ əsrin əvvəlində məşğul olmağa başlamışıq. Lakin 50 il bundan öncə bu iş xüsusilə genişlənmişdir. Xəzər dənizinin Azərbaycan sektorunda olan yataqlarda iş görürük.

Sual: Cənab Prezident, Azərbaycan bu Zirvə görüşündən nə gözləyir?

Heydər Əliyev: Biz istəyirik ki, islam ölkələri daha da həmrəy, bir-biri ilə mehriban, dost olsunlar. İslam aləmi dünyada gedən proseslərdə islam mədəniyyətini, mənəviyyatını, dinini daha da qorusun, müsəlman xalqlarının, ölkələrinin hüquqlarının pozulmasının qarşısını alsın.

Sual: Cənab Prezident, bu hüquqların pozulmasının qarşısını almaq üçün Sizcə, nə etmək lazımdır?

Heydər Əliyev: İslam ölkələri daha da birgə olmalıdır, bir-birinin dərdinə qalmalı, kömək etməli, sıx əlaqə saxlamalıdırlar.

Sual: Bu Zirvə görüşü Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün nə iş görə bilər?

Heydər Əliyev: Çox iş görə bilər. Təəssüflər olsun ki, ancaq qətnamələr qəbul edir. Üç il bundan öncə Mərakeşdə bir qətnamə qəbul edildi, Ermənistan təcavüzkar kimi pisləndi, məhkum olundu və bu, dünyaya elan edildi. Əlbəttə, beynəlxalq aləmdə ictimai rəy üçün bunun əhəmiyyəti var. Ancaq hesab edirəm ki, bu təşkilat səsini daha da gur çıxara bilər, tələb edə bilər ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal çıxsınlar. Müsəlmanlara qarşı belə təcavüz etməsinlər. Əlbəttə, islam ölkələri bir olsalar, bunu edə bilərlər.

Sual: İranla Azərbaycan arasındakı əlaqələr barədə nə deyə bilərsiniz?

Heydər Əliyev: Bu əlaqələr yaxşıdır. Daha da yaxşı olmalıdır. Mən İran Prezidenti cənab Xatəmi ilə görüşüb danışıqlar aparacağam. Çox məmnunam ki, İranda Prezident seçkiləri demokratik qaydada keçibdir. Həmin demokratik seçkilər nəticəsində cənab Xatəmi Prezident seçilibdir. Mənim də onunla görüşə böyük marağım vardır və bizim görüşümüz olacaqdır, biz bir sıra məsələləri müzakirə edəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRANIN "ƏSR-E-AZADİ" QƏZETİNİN REDAKTORU DOKTOR VAHİD PEYHANIN SUALLARINA VERDİYİ CAVABDAN:

Sual: Cənab Prezident, deyirlər ki, Brejnevin hakimiyyəti dövründə Azərbaycanda bolluq idi. Bu, doğrudan da, belə idi? Siz Azərbaycanın Prezidenti seçiləndən, neft müqavilələri imzalayandan sonra deyirlər ki, Azərbaycan Küveyt kimi varlı bir ölkə olacaqdır. Bu barədə nə deyə bilərsiniz?

Heydər Əliyev: Brejnevin hakimiyyəti dövründə yox, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zaman respublikada bolluq olubdur. Axı, Azərbaycana Brejnev rəhbərlik etmirdi. O vaxt Azərbaycanın rəhbəri Heydər Əliyev idi, Brejnev isə Moskvada oturmuşdu. Azərbaycanda görülən işləri Azərbaycanın rəhbərliyi özü aparırdı. O vaxt, doğrudan da, bolluq idi, yaşayış çox yaxşı idi. Ancaq 1982-ci ilin ikinci yarısından Azərbaycanın iqtisadiyyatına zərərlər dəymişdi. Xüsusən, Ermənistanın Azərbaycana təcavüzü başlayandan sonra respublikamızda iqtisadiyyat inkişaf etmədi, məhsul istehsalı aşağı düşdü. Bizim son iki ildə Azərbaycanda apardığımız iqtisadi islahatlar nəticəsində, şübhəsiz ki, bazar iqtisadiyyatını tətbiq etmək, insanlara sərbəstlik vermək, xarici ticarəti sərbəstləşdirmək və xarici ölkələrlə ticarət əlaqələrini genişləndirmək sayəsində ölkəmizdə iqtisadiyyat artıq dirçəlir.

Əgər 1988-1989-cu illərdən ta 1995-ci ilə qədər Azərbaycanda iqtisadiyyat, sənaye, kənd təsərrüfatı məhsulları istehsalı ilbəil aşağıya düşürdüsə, indi biz bunun qarşısını almışıq. 1996-cı ildə artım başlayıbdır. 1997-ci ildə məhsul istehsalının artımı daha da çox olubdur. Bu artım nədən ibarətdir? İqtisadçılar bilir, bəlkə siz də bilirsiniz - ümumi daxili məhsul iqtisadiyyatın səviyyəsini müəyyənləşdirən göstəricidir. Azərbaycanda ümumi daxili məhsul istehsalı bu il əvvəlki ilə nisbətən beş faiz artıbdır. Sənaye məhsulu istehsalı aşağı düşməyibdir, təxminən bir faiz artıbdır. İnsanların pul gəliri 50 faiz artıbdır. İnflyasiya tamamilə yox olubdur. 1994-cü ildə respublikada inflyasiya 1600 faiz təşkil edirdi. Bu, 1995-ci ildə 84 faiz, 1996-cı ildə 6 faiz olmuşdur. İndi inflyasiyanın dərəcəsi sıfır-

dır. Bunlar iqtisadiyyatın, maliyyənin vəziyyətini əks etdirən ən əsas göstəricilərdən biridir. Son vaxtlar manatın dəyəri dollara nisbətən artır. Bu da çox yaxşı göstəricidir. Biz ərzaq bolluğunu təmin etmişik. Vaxt var idi ki, respublikada ərzaq məhsulları çatışmırdı. Hətta Sovet İttifaqı vaxtında da, məsələn, 1981, 1982-ci illərdə də bəzi ərzaq məhsulları çatışmırdı. Mən 1982-ci ildə Moskvaya işləməyə getdim. Amma indi bolluqdur. Çünki biz kənd təsərrüfatını özəlləşdirmişik. Heyvandarlığı tamamilə özəlləşdirmişik, mal-qaranı kəndlilərə vermişik. Kəndli keçmiş Sovet İttifaqı dövründəki kolxozlardakına nisbətən indi mal-qaraya daha yaxşı baxır. O dövrdə həm mal-qaraya yaxşı baxmırdılar, həm də məhsulu oğurlayırdılar. Amma indi inək də, qoyun da, keçi də kəndlinin özünündür. Bilir ki, heyvana nə qədər yaxşı yem versə, onu yaxşı bəslәsə, o qədər də çox süd, ət, gəlir götürəcəkdir. Bununla da, ət, süd məhsulları artacaqdır. Bu, artıq öz nəticəsini verir.

Biz torpaqları camaata paylamışıq. Torpaq əvvəllər dövlət mülkiyyətində idi, insanların deyildi. O yerdə ki, torpaqları camaata paylamışıq, orada insanlar torpaqdan daha səmərəli istifadə edir, daha çox mənfəət götürürlər. Eyni zamanda buğda, başqa məhsullar istehsal edir, gətirib satır, bolluq yaradırlar. Ona görə də bizdə kənd təsərrüfatı məhsulları daha da artır, bu sahədə bolluq vardır. Doğrudur, əhalinin hamısının bu məhsulları almağa imkanı yoxdur. Məsələn, Azərbaycanda bir milyon qaçqın var. Onlar Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlardan qaçqın düşüblər, işləmirlər, çadırlarda yaşayırlar, bu adamların vəziyyəti ağırdır. Ümumiyyətlə, bizdə hələ ki, kasıb yaşayan adamlar vardır. Bu da təbiidir. Baxmayaraq ki, İranda nə kolxoz, nə sovxoz olub, elə İranın özündə də kasıb yaşayan adamlar var. Amma görürsünüz, indi biz sistemi dəyişdiririk, bir siyasi, iqtisadi quruluşdan digərinə keçirik. Bax, bunların nəticəsində indi respublikamızın iqtisadiyyatında dirçəliş vardır. Bu dirçəliş də get-gedə artır. Bunlar hamısı ölkəmizdəki mövcud imkanlardan meydana gələn nəticələrdir.

Sən neft istehsalı məsələsindən də danışdın. Bəli, biz xarici ölkələrin şirkətləri ilə birgə Xəzər dənizindəki bir çox yataqlardan neft və qaz çıxarmağa başlamışıq. O cümlədən İranın OİEC şirkəti Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün imzalanmış iki müqaviləsinin həyata keçirilməsində iştirak edir. Həmin müqavilələrin həyata keçirilməsində Rusiyanın, Fransanın, İngiltərənin, Amerikanın və başqa ölkələrin şirkətləri də iştirak edirlər. Şübhəsiz ki, bu yataqlardan bir neçə ildən sonra xeyli çox neft və qaz hasil olunacaqdır. Biz həmin nefti və qazı dünya bazarında satanda gəlirimiz artacaqdır. Gəlirimiz artdıqca da biz ölkəmizdə müəyyən çətinlikləri aradan qaldıracağıq və iqtisadiyyatın başqa sahələrinə sərmayə qoya biləcəyik. Halbuki indi bizim həmin sahələrə qoymaq üçün vəsaitimiz yoxdur. Bu sahələrə sərmayə qoyanda oradan da gəlir götürəcəyik və beləliklə, Azərbaycanın gələcəyi çox yaxşı olacaqdır.

Sual: Cənab Prezident, Azərbaycan mahnılarında vətən sevgisi həmişə ön planda durur. Bəs ermənilərlə nə edəcəksiniz?

Heydər Əliyev: Ermənistan silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş torpaqlarından mütləq çıxaracağıq. Biz heç vaxt torpaqlarımızın Ermənistan işğalı altında qalmasına yol verməyəcəyik. Doğrudur, üç il yarım keçibdir ki, biz müharibəni dayandırmışıq. Nə üçün? Bilirsiniz, 1988-ci ildən 1994-cü ilədək altı il müharibə getdi. Həmin müharibə Azərbaycana bir şey gətirmədi, respublikamıza bəlalar gətirdi - insanlar şəhid oldu, qırıldı, torpaqlarımız işğal olundu. Nə üçün? Ona görə ki, Ermənistanın arxasında bir çox dövlətlər durur, ermənilərə silah-sursat verirlər. Rusiyanın Ermənistanda hərbi, əsgəri bazaları vardır. Rus ordusu Ermənistanda durubdur. Belə bir halda lazım gəlsə, Ermənistanla yenə müharibə etmək olar. Ancaq biz belə fikrə gəldik ki, məsələni sülh yolu ilə həll etmək daha da düzgün olar. Ona görə də biz atəşi dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. İndi sülh danışıqları aparırıq. Bu danışıqlar da ondan ibarətdir ki, Ermənistanın işğalçı ordusu gərək işğal edilmiş yerlərdən çıxsın, qaçqınlarımız öz yerlərinə qayıtsınlar, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Dağlıq Qarabağda yaşayan ermənilərə isə Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli muxtariyyət hüququ veriləcəkdir.

Sual: Əbülfəz Elçibəyin Bakıya qayıtması nə ilə əlaqədardır?

Heydər Əliyev: Azərbaycanın hər bir vətəndaşı harada istəsə, orada yaşaya bilər. Əbülfəz Elçibəy 1993-cü ildə Respublika Prezidenti vəzifəsini, camaatı başlı-başına qoyub, dağda yerləşən Kələki kəndinə getdi, orada gizləndi, öz vəzifəsini yerinə yetirmədi, fərarilik etdi. Orada dörd il yarım yaşadı. O, sonra Bakıya gəlmək istədi, gəldi. Hara istəsə - Gəncəyə, Sumqayıta, Lənkərana gedə bilər. Yəni, nə onun qaçmağında, nə də Bakıya qayıtmağında bizim iştirakımız yoxdur.

Sual: Siz dünyanın ən böyük siyasətçisisiniz. Dünyada üç böyük siyasi xadimdən birincisi sizi hesab edirlər. Siz neft müqaviləsi imzalamaqla Azərbaycanı dünyada bir daha şöhrətləndirdiniz. Bayaq dediniz ki, torpağı özəlləşdirmisiniz. Həmin torpaqlar camaata müftə verilibdirmi?

Heydər Əliyev: Bəli, torpağı xalqa, camaata, kəndliyə tamam müftə vermişik. O, torpaqdan özü istədiyi kimi istifadə edəcəkdir. Həmin torpağı sata da bilər, qohum-əqrəbasına da verə bilər. O, torpağın sahibidir. Hesab edirəm ki, o, həmin torpağı satsa da, başqasına versə də, fərqi yoxdur - torpaqdan səmərəli istifadə edəcəkdir. Ölkəmizin əkinçilikdə imkanları böyükdür. Bizim çox münbit, gözəl torpaqlarımız vardır, onlardan daha çox məhsul götürmək olar. Ölkədə məhsul artacaqdır. Məhsul artanda isə ərzaq bolluğu olacaqdır.

Sual: İKT-nin VIII Zirvə görüşü başa çatandan sonra Azərbaycanla İran arasında əlaqələr necə olacaqdır? Bu ölkələr arasında da yaxşı münasibətlər var. Bundan da yaxşı olacaq, yoxsa yox?

Heydər Əliyev: İslam Konfransı Təşkilatının VIII Zirvə görüşünün bu məsələyə o qədər də dəxli yoxdur. Bilirsiniz ki, bu Zirvə görüşünə 55 ölkənin, o cümlədən də Azərbaycanın nümayəndələri gəlibdir. Bu gün mən İran İslam Respublikasının Prezidenti cənab Xatəmi ilə görüşəcəyəm. Biz ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin gələcəkdə necə inkişaf etdirilməsi məsələlərini müzakirə edəcəyik. Mənim istəyim də, arzum da budur ki, İran ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri olsun, bizim ölkələrimizin böyük imkanlarından əməkdaşlığımızı, o cümlədən iqtisadi əməkdaşlığımızı inkişaf etdirmək üçün istifadə edilsin.

Sual: Hörmətli Prezident Heydər Əliyev, indiyədək Təbrizdə olubsunuzmu?

Heydər Əliyev: Mən Naxçıvanda yaşayarkən Təbrizə gəlmişdim. Ancaq Azərbaycanın Prezidenti kimi 1994-cü ildə İrana rəsmi ziyarətə gələrkən Təbrizə getmək imkanım olmadı. Təbrizə yenidən getmək arzum vardır, yəqin allah qismət edəcəkdir.

Heydər Əliyev və Şərq

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TEHRANDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏLƏRDƏN:

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin Tehranda keçirilən VIII Zirvə görüşündə iştirakı xarici və yerli kütləvi informasiya vasitələri nümayəndələrinin diqqət mərkəzində idi. İclaslarası fasilələr zamanı onlar tez-tez dövlətimizin başçısına yaxınlaşır, suallarına cavab verməsini xahiş edirdilər. Prezident Heydər Əliyev, həmişə olduğu kimi, bu dəfə də onların suallarına ətraflı cavablar vermişdir.

Sual: Siz İran tərəfinin Xəzərin sektorlara bölünməsinə razılıq verəcəyinə inanırsınızmı?

Heydər Əliyev: Bilirsiniz, mən deyə bilmərəm ki, inanıram, ya inanmıram. Hər bir ölkənin özünün siyasəti, maraqları var. Ancaq mən ona inanıram ki, gələcəkdə Xəzər dənizinin mineral ehtiyatlarından istifadə etmək üçün onun sektorlara bölünməsinin alternativi yoxdur. Mən hesab edirəm ki, bütün xəzəryanı ölkələr bu prinsipin üzərində dayanmalıdırlar. Nə üçün? Ona görə yox ki, bu, bizim üçün əlverişlidir. Yox. Bu prinsip hər bir ölkə üçün Xəzər dənizinin mineral ehtiyatlarından səmərəli istifadə etməyə ən gözəl şərait yaradan prinsipdir.

Sual: Sizcə, Azərbaycan neftinin nəqli üçün kəmərin İrandan keçməsinə imkanlar varmı və bundan ötrü hansı şərait mövcud olmalıdır?

Heydər Əliyev: Bizim neft kəmərinin İrandan keçməsi haqqında hələ ki, danışıqlar aparmamışıq. Ancaq bilirsiniz ki, Xəzər dənizinin Azərbaycan sektoru üzrə artıq bir neçə müqavilə imzalanıb və gələcəkdə bunlar nəzərdə tutulduğundan da çox neft və qaz əldə etmək perspektivi açıbdır. Ona görə də bir yox, bir neçə kəmər ola bilər. Çünki Azərbaycan sektoru ilə yanaşı, güman edirəm ki, Xəzər dənizinin digər sektorlarında- Qazaxıstan sektorunda da, Türkmənistan sektorunda da, başqa sektorlarda da neft hasil etmək imkanları var. Bir halda ki, Xəzər dənizində bu qədər neft hasil olunacaq, bunu dünya bazarlarına aparmaq lazımdır. Dünya bazarlarına aparmaq üçün də cürbəcür yollar - əgər onlar iqtisadi və təhlükəsizlik cəhətdən əlverişli olarsa məqbul ola bilər.

Sual: Siz Prezident Xatəmi ilə söhbətinizdə İranın Ermənistana dəstək verməsi mövzusuna toxundunuzmu?

Heydər Əliyev: Bu mövzu bizi daim narahat edir. Biz bunu dəfələrlə bəyan etmişik və öz narazılığımızı gizlətmirik. Çünki Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edib, Azərbaycanın torpaqlarının 20 faizini işğal edibdir və bir neçə ildir ki, onları işğal altında saxlayır. Bir milyondan çox qaçqın artıq beş il keçibdir ki, çadırlarda yaşayır. Ona görə də, əgər, Ermənistana işğalçılıq siyasətini davam etdirmək üçün kim yardım edirsə, şübhəsiz ki, o, bizim tərəfimizdən bəyənilə bilməz. Məsələn, bilirsiniz ki, Rusiyanın Ermənistana gizli olaraq bir milyard dollar dəyərində silah verməsi haqqında bu ilin əvvəlində məlumat yayıldı. Məlumatı da Rusiyanın öz rəsmi dövlət orqanları açdılar, yaydılar. Biz dəfələrlə Rusiyaya öz narazılığımızı bildirmişik, məktublar yazmışıq, protest vermişik və etirazımızı bildirmişik.

İran bizim üçün dost, qonşu, qardaş ölkədir. İranın Ermənistanla həddindən artıq sıx əlaqə saxlaması və bəzən bunun Azərbaycanla olan əlaqəsindən daha da

çoxtərəfli olması, şübhəsiz ki, bizi narahat edir və biz bunu daim deyirik.

Sual: İslam həmrəyliyi çərçivəsində indi bu, aradan qaldırılacaqmı?

Heydər Əliyev: Bu məsələ müzakirə olunmur. Ancaq çox güman ki, İslam Konfransı Təşkilatının VIII Zirvə görüşü Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamə qəbul edəcəkdir.

Sual: ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətinin nəticəsizliyi məsələsini Kopenhagen görüşündə necə qoymaq fikrindəsiniz?

Heydər Əliyev: Mən hələ hesab etmirəm ki, nəticəsizdir. ATƏT-in son təklifləri mövcuddur, biz onu qəbul etmişik. Ermənistanın rəhbərliyi, yəni, onun Prezidenti də bunu qəbul edibdir. ATƏT-in Minsk qrupunun həmsədrləri bizə bildirdilər ki, Dağlıq Qarabağ hələ bunu qəbul etməyibdir. Onlar da Dağlıq Qarabağla iş aparırlar ki, bunu qəbul etsin, çünki Dağlıq Qarabağ üçün də ondan yaxşı təklif ola bilməz. Ona görə də, güman edirəm ki, onlar öz işlərini aparacaqlar və ATƏT-in Minsk qrupu həmsədrlərinin işi nəticəsiz deyildir.

Sual: Cənab Prezident, siz Elçibəyin son təkliflərini necə qəbul edirsiniz?

Heydər Əliyev: Mən Elçibəyin elə bir ağlabatan təklifini görməmişəm. Ona görə də hansı sondur, hansı əvvəlkidir, mən onları bilmirəm.

Sual: YAP-ın toplantısında müxalifət tərəfindən birinci addımın atılmasından danışıldı. Bu, necə addım ola bilər?

Heydər Əliyev: Bilirsiniz, bunu bir balaca başqa cür formalaşdırıblar ki, guya, birinci addım. Mən belə deməmişəm. Mən, sadəcə, demişəm ki, hər bir demokratik ölkədə müxalifət olmalıdır. Müxalifət olmasa, demokratiya olmaz, müxalifət olmasa, söz azadlığı olmaz, siyasi plüralizm olmaz. Müxalifət olmalıdır. Eyni zamanda onu da demişəm ki, müxalifət gərək müxalifət mədəniyyətini mənimsəsin. Dünyada heç bir şey göydən düşmür. Hər bir şeyi insanlar, cəmiyyət yaradır. Demokratiyanı da bir vaxtlar insanlar yaradıblar və inkişaf etdiriblər, ən inkişaf etmiş ölkələr onu daim inkişaf etdirirlər.

Azərbaycanda demokratiya gəncdir, yəni, beş-altı yaşı var. Demokratik ölkəmiz də gəncdir və Azərbaycan cəmiyyətindəki müxalifət də gəncdir. Şübhəsiz ki, bəzən gəncin o qədər də biliyi, təcrübəsi olmur. Ancaq həqiqətən öz yerini tutmaq istəyirsə - məsələn, dövləti də deyirəm, müxalifəti də deyirəm - gərək dünya təcrübəsindən istifadə etsin, öz daxili xüsusiyyətlərini nəzərə alaraq inkişaf etsin və təkmilləşsin. Mən bunu həm dövlətə, həm də müxalifətə aid edirəm. Biz dövlət olaraq bunu edirik. Ancaq məndə belə fikir var ki, müxalifət 89-90-cı illərin səviyyəsində qalıbdır, ondan yuxarıya qalxa, inkişaf edə, dünyanın müxalifət mədəniyyətini, müxalifət təcrübəsini mənimsəyə bilməyibdir, iqtidar-müxalifət münasibəti nədir - bunun həm təcrübəsini, həm mədəniyyətini qavraya bilməyibdir. Bilirsiniz, bu bir mədəniyyətdir, elmdir. Bunu edə bilməyəndə, onlar cığallıq, qanunsuz hərəkətlər edirlər və cürbəcür pis işlər görürlər, ona görə də bəzən əziyyət çəkirlər. Mən istəmirəm belə olsun. Ona görə mən deməmişəm ki, müxalifət birinci addımı atsın. Demişəm ki, müxalifət iqtidar-müxalifət mədəniyyətini mənimsəməlidir. Biz də çalışırıq bunu edək və edirik. Əgər, mən bu sözləri deyirəmsə, demək, biz bunu müəyyən qədər mənimsəyə bilmişik. Müxalifət iqtidarla öz münasibətlərini normal, dünya təcrübəsi, sivilizasiyası səviyyəsində qurmalıdır. Piket, silah, güc müxalifətinin Azərbaycanda vaxtı keç-

di. Bilirsiniz ki, biz onları aradan götürdük. Əgər siz diqqət yetirsəniz, güman edirəm, razı olarsınız ki, bu illərdə bizim ən böyük nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycan cəmiyyətini Azərbaycan xalqına, ölkəsinə, hər bir insana çox zərər verən bu pis xüsusiyyətlərdən, xasiyyətlərdən xilas etdik. Mən bu baxımdan demişəm. Belə olan surətdə müxalifət mədəni bir müxalifət olacaq, biləcək ki, iqtidarla nə cür davranmaq lazımdır. İqtidar da onun bu səviyyəyə qalxdığını görəndə, şübhəsiz ki, normal, somimi, milli mənafelərə uyğun olan, ancaq, eyni zamanda, müxalif fikirləri qiymətləndirəcəkdir. Məsələn, mən indi onların fikirlərinin çoxuna heç fikir vermirəm. Çünki görürəm ki, onların dalında nə durur. Amma mən görsəm ki, onların fikirlərinin dalında həqiqətən milli mənafe, millət, ölkə, dövlət dərdi durur, onda hər bir adamın fikri bizim üçün əhəmiyyətli olar.

Sual: Siz Türkmənistan Prezidenti Niyazov ilə görüşdünüz və yəqin ki, Xəzərdəki mübahisəli neft yataqları barədə söhbət etdiniz. Bu haqda nə deyə bilərsiniz, məsələni həll etdinizmi?

Heydər Əliyev: Bəli, mən Prezident Niyazov ilə görüşdüm. Biz qonşuyuq, problemlərimiz çoxdur. Biz xüsusən beynəlxalq təşkilatlara, toplantılara gəlməyimizdən istifadə edərək tez-tez görüşürük. Dünən də belə bir imkan oldu və mən onunla görüşdüm. Biz ikitərəfli münasibətlərimizlə bağlı bir neçə məsələni, o cümlədən Trükmənistanla Azərbaycan arasında süni surətdə yaradılmış mübahisə haqqında məsələni müzakirə etdik. Bir halda ki, belə bir məsələ ortaya çıxıb və artıq mübahisə mövzusuna çevrilibdir, biz - iki Prezident razılığa gəldik ki, Türkmənistan-Azərbaycan birgə işçi qrupu yaradaq. O, mübahisə xarakterli bütün məsələləri - Türkmənistanın, Azərbaycanın qaldırdıqları məsələləri nəzərdən keçirsin, sonra isə özünün qəti fikirlərini, təkliflərini bizim müzakirəmizə təqdim etsin. Biz belə qərar qəbul etmişik və mən bu işə başçılıq etməyi Xarici İşlər Nazirinə tapşırmışam.

Sual: Həmin komissiyanın işinin nəticələri bütün beş dövlət barəsində Xəzərin statusu məsələsini həll etmək üçün əsas ola bilərmi?

Heydər Əliyev: Bilirsiniz, Xəzərin statusu ona görə həll olunmayıb ki, Türkmənistan ilə Azərbaycan arasında mübahisə var idi. Qeyd edim ki, Xəzərin statusu haqqında məsələ ilk dəfə 1994-cü ilin payızında - Azərbaycan bir çox xarici şirkətlərlə "Əsrin müqaviləsi" adı almış müqavilə bağladıqdan sonra qaldırılmışdır. Bundan sonra bəzi ölkələrin müəyyən dairələrində Xəzər dənizinin statusunu müəyyənləşdirməyin zəruriliyi barədə məsələ qaldırdılar. Yəni, bu, köhnə məsələdir. O ki, qaldı Türkmənistanın iddialarına, bunlar yaxın vaxtlarda, bu ilin yayında meydana çıxıbdır.

Sual: Mayda?

Heydər Əliyev: Yox, istəyirəm biləsiniz, - mayda mən Aşqabadda İƏT-in sessiyasında olanda bu məsələ əsla yox idi. Mən orada iki gün qaldım, Prezident Niyazov ilə görüşdüm. Heç kəs mənə bu sualı vermədi. Türkmənistan Prezidenti də bu barədə mənə heç bir şey demədi. Bu məsələ sonradan, iyulun əvvəlində, özü də bizim üçün gözlənilmədən qalxdı. Biz indiyədək də gümanla başa düşürük ki, bu nə ilə əlaqədar edilmişdir. Hər halda, edilmişdir.

Xəzərin statusu haqqında məsələ üç ildir müzakirə olunur, Türkmənistanla mübahisə isə yarım ildir meydana çıxıbdır. Bunlar bir-biri ilə bağlı deyildir.

Sual: Bəs nə ilə əlaqədar meydana çıxmışdır?

Heydər Əliyev: Bunu Türkmənbaşdan soruşmaq lazımdır.

Sual: Sizin buradakı nitqinizin mətni yayılmışdır və təbii ki, onun xeyli hissəsi Qarabağ üstündə Ermənistan ilə münaqişəyə həsr edilmişdir. Prinsip etibarilə siz Zirvə görüşündə islam ölkələrindən həmrəylik, yoxsa daha ciddi addım gözləyirsiniz? Sizin nitqinizdə həmçinin deyilir ki, Ermənistan regionun ölkələri üçün təhlükə törədir. Bu isə, Ermənistanın hərbi cəhətdən güclənməsinin daha geniş təfsiri deməkdir.

Heydər Əliyev: Mən bunu onunla əlaqədar demişəm ki, Ermənistan Rusiyadan qanunsuz olaraq, gizli surətdə bir milyard dollarlıqdan çox silah, hərbi sursat, texnika almışdır və avqustun 29-da Rusiya ilə Ermənistan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalanıb və onun bir sıra bəndləri çox sıx hərbi əməkdaşlığı nəzərdə tutur. Şübhəsiz ki, bu, bizi narahat edir, biz öz narahatçılığımızı gizlətmirik. Mən bu barədə Kişinyovda MDB ölkələri dövlət başçılarının görüşündə demişəm, Boris Nikolayeviç Yeltsinə bu haqda məktub yazmışam, Rusiyaya rəsmi nota vermişik. Biz Ermənistan ilə Azərbaycan arasındakı münaqişə aradan qaldırılmayınca, Rusiya-Ermənistan müqaviləsinin bu bəndlərinə etiraz edirik. Çünki münaqişənin mövcud olduğu, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyi, ABŞ və Fransa ilə birlikdə Rusiya Minsk qrupunun həmsədri kimi münaqişənin sülh vasitəsilə həlli ilə məşğul olduğu bir vaxtda Rusiyanın Ermənistana silah göndərməsini və s.-ni nəzərdə tutan hərbi əməkdaşlıq haqqında müqavilə imzalaması tamamilə qeyri-normaldır. Biz buna biganə qala, bundan narahat olmaya bilmərik. Səbəb bunlardır.

Zirvə görüşündən nə gözlədiyimə gəldikdə isə, Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən və Ermənistan silahlı birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən bir sıra müddəaları olan qətnamə layihəsi var.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN DEKABRIN 11-DƏ TEHRANDA ERMƏNİSTAN MİLLİ RADİOSUNUN MÜXBİRİNƏ VERDİYİ MÜSAHİBƏ:

Sual: Heydər Əliyeviç, necə bilirsiniz, islam dövlətlərinin, o cümlədən İranın Ermənistan ilə Azərbaycan arasında vasitəçi kimi iştirakı nə dərəcədə mümkündür?

Heydər Əliyev: Bilirsiniz, artıq bizim vasitəçilərimiz var. Özü də dünyanın üç böyük dövləti - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bu məsələ ilə səylə məşğul olurlar. İndi onu bir kənara qoyub, hansısa başqa vasitəçilər axtarmaq, sadəcə olaraq, məqsədəuyğun deyildir. Mən heç bir dövlətin vasitəçiliyini istisna etmirəm. Ancaq indi - konkret andan söhbət gedir,- buna heç bir zərurət yoxdur.

Sual: Yəni, siz hesab edirsiniz ki, Minsk prosesi prespektivlidir və əhəmiyyəti var?

Heydər Əliyev: Şübhəsiz. Minsk prosesinə inanıram, inanıram ki, bu ilin iyununda Denverdə birgə bəyanat vermiş Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın dövlət başçıları Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün səylərini əsirgəməyəcəklər.

Sual: Heydər Əliyeviç, az-az imkan olur ki, Ermənistan radiosunun dinləyiciləri sizi eşitsinlər. Ermənistanda sizi xatırlayır-

lar və yəqin ki, sizin də onlara nə isə deməyə sözünüz var. Siz onlara nə demək istərdiniz?

Heydər Əliyev: Sizdə, ümumiyyətlə, bizim radioya, televiziyaya qulaq asırlarmı?

Müxbir: Yox. Bilirsiniz, biz sizin televiziyanın verilişlərini tutmuruq, imkan yoxdur. Ancaq sizin radionun proqramını tutmağa kimin imkanı varsa, şübhəsiz ki, qulaq asır. Mənim müsahibəm Ermənistanın milli radiosu ilə veriləcəkdir.

Heydər Əliyev: Belə olan halda bu, mənim üçün yaxşı imkandır.

Müxbir: Heydər Əliyeviç, ona görə də mən sizinlə çox danışmağa çalışıram.

Heydər Əliyev: Erməni xalqına müraciət edərək, ölkələrimiz arasında sülh yaratmaq üçün həm Ermənistanda, həm də Azərbaycanda sağlam qüvvələri birləşdirməyə çağırıram. Siz dediniz ki, Ermənistanda məni xatırlayırlar. Xatırlamalıdırlar. Çünki mən erməni və Azərbaycan xalqları arasında dostluğu möhkəmləndirmək üçün bir çox illər səy göstərmişəm. Orada kim nə deyir-desin, kimin nə vaxt və nə etdiyini bir müddətdən sonra tarix dəqiq müəyyən edəcəkdir. Mən Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı, xalqlarımız arasında dostluğun möhkəmləndirilməsi üçün çox iş görmüşəm. Ermənistanda mənim çox dostlarım vardı. Dağlıq Qarabağda da çox böyük hörmət və nüfuzum var idi. Hamısı da ona görə ki, hesab edirdim və bu gün də hesab edirəm ki, Allahın, taleyin hökmü belədir ki, biz yanaşı, qonşuluqda yaşamalıyıq. Nə ermənilər, nə də azərbaycanlılar heç yerə köçüb getməyəcəklər. Qonşular isə ixtilafları, xırda mübahisələri, böyük qalmaqalları və hətta düşmənçiliyi də daim aradan qaldırmalıdırlar ki, ən azı, mehriban qonşuluqları olsun.

Sual: Heydər Əliyeviç, hesab edirsiniz ki, həm Ermənistanda, həm də Azərbaycanda belə sağlam qüvvələr var və biz qan tökülməsinə son qoya bilərik?

Heydər Əliyev: Var. Ermənistanda da sağlam qüvvələr var. Azərbaycanda sağlam qüvvələrin başında mən dayanıram və hesab edirəm ki, Ermənistanda Prezident Ter-Petrosyan düzgün mövqe tutur. Onun həm Moskva, həm də Ermənistan mətbuatında verdiyi son bəyanatı məsələnin həllinə çox ağıllı münasibətdir. Bundan sonra mən onunla həm Strasburqda, həm də Kişinyovda görüşdüm, biz onunla bu mövzu barəsində danışdıq. Hesab edirəm ki, Ermənistandakı sağlam qüvvələr Prezident Levon Ter-Petrosyanın düzgün mövqeyini dəstəkləməlidirlər. Orada sağlam qüvvələr var. Mən artıq dedim, indi Levon Ter-Petrosyan düzgün mövqe tutur. Hesab edirəm ki, mən həmişə düzgün mövqedə olmuşam. Axı, biz Ermənistandan heç nə istəmirik. Heç nə. Dağlıq Qarabağa Azərbaycanın tərkibində özünüidarənin ən yüksək dərəcəsini verməyə razı olmuşuq. Daha nə lazımdır?

Sual: Axı, konstitusiyaya görə Azərbaycan unitar dövlətdir?

Heydər Əliyev: Ancaq unitar dövlətdə də belə struktur mümkündür. Dünyada bu cür çox misallar var. Yəni, bu, mümkündür. Siz bildirin ki, bizə düşmənçilik lazım deyildir. Buna son qoymaq gərəkdir. Qarşılıqlı addımlar atmaq, sülhə doğru getmək lazımdır.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TƏBRİZ ŞƏHƏRİNİN VALİSİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 11-də Tehranda Təbriz şəhərinin valisi Yəhya Məhəmmədzadə ilə görüşmüşdür.

Görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşündən şərəf duyduğunu bildirən vali Azərbaycan ilə İran arasında əlaqələrin durmadan inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğıya görə respublikamızın rəhbərinə minnətdarlığını bildirdi.

Səmimi sözlərə görə cənab Məhəmmədzadəyə təşəkkür edən Prezident Heydər Əliyev təbrizlilərin Azərbaycana, Naxçıvana göstərdiyi humanitar yardıma görə razılığını bildirərək dedi: güman edirəm ki, Azərbaycan ilə İran arasındakı əlaqələrin inkişaf etdirilməsinə yaxından kömək göstərəcəksiniz.

Cənab Məhəmmədzadə humanitar yardımı bundan sonra da davam etdirəcəklərini söylədi, Təbrizin nümayəndə heyətinin Azərbaycana səfər edəcəyini bildirdi.

Dövlətimizin başçısı azərbaycanlı qaçqınlara göstərilən humanitar yardıma görə bir daha təşəkkür edərək dedi: mən Sizi Azərbaycana səfərə dəvət edirəm. Xahiş edirəm, məndən bütün təbrizlilərə salam söyləyin.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV ÖLKƏMİZİN TEHRANDAKI SƏFİRLİYİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 11-də ölkəmizin Tehrandakı səfirliyində olmuşdur.

Respublikamızın fövqəladə və səlahiyyətli səfiri Əlyar Səfərli və səfirliyin əməkdaşları dövlətimizin başçısı Heydər Əliyevi hərarətlə qarşıladılar.

Prezident Heydər Əliyev müstəqil Azərbaycanın İran İslam Respublikasının paytaxtındakı səfirliyinin binasını gəzdi, iş şəraiti ilə yaxından tanış oldu, əməkdaşlara dəyərli tövsiyələr verdi, onlara müvəffəqiyyətlər arzuladı.

Səfir Əlyar Səfərli səfirliyin fəaliyyəti barədə dövlətimizin başçısına ətraflı məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASI MƏSLƏHƏT ŞURASININ SƏDRİ ƏLİ ƏKBƏR HAŞİMİ RƏFSƏNCANİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 11-də Tehranda İran İslam Respublikası Məsləhət Şurasının sədri Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşmüşdür.

Prezident Heydər Əliyevi səmimiyyətlə, mehribanlıqla salamlayan cənab Haşimi Rəfsəncani İslam Konfransı Təşkilatının Tehran Zirvə görüşündə iştirak etdiyinə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirdi.

İran İslam Respublikasının Azərbaycanla əlaqələri daha da sıxlaşdırmağa xüsusi maraq göstərdiyini nəzərə çarpdıran cənab Haşimi Rəfsəncani Prezident Heydər Əliyevin 1994-cü ildə Tehrana rəsmi səfərini, aparılan danışıqları, imzalanan böyük əhəmiyyətli sənədləri məmnunluqla xatırladığını vurğuladı. Səmimi sözlərə görə ağayi Haşimi Rəfsəncaniyə təşəkkürünü bildirən dövlətimizin başçısı İslam Konfransı Təşkilatının VIII Zirvə görüşünün yüksək səviyyədə keçməsindən razılıq etdi, İranın Ali Dini Rəhbəri Ayətulla Xamneyinin və Prezident ağayi Xatəminin çıxışlarını maraqla dinlədiyini söylədi. İranla əməkdaşlığın durmadan inkişaf etdirilməsinə Azərbaycanın da böyük diqqət yetirdiyini nəzərə

çarpdıran Prezident Heydər Əliyev ağayi Haşimi Rəfsəncaninin Azərbaycana rəsmi səfərindən məmnunluqla söhbət açdı və ölkələrimiz arasında münasibətlərin gündəngünə yaxşılaşdırılmasının vacib olduğunu vurğuladı.

Cənab Haşimi Rəfsəncani dedi ki, İran üçün Azərbaycandan yaxın ölkə yoxdur, ona görə də biz bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin inkişaf etdirilməsinə xüsusi fikir verməliyik.

Azərbaycan ilə İran arasında münasibətlərin həmişə səmimi olmasının zəruriliyini nəzərə çarpdıran dövlətimizin başçısı Heydər Əliyev ölkələrimizin iqtisadi əməkdaşlığının möhkəmləndirilməsi məqsədi ilə yaradılmış Müştərək Komissiyanın fəaliyyətini daha da canlandırmağın vacib olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin perspektivləri barədə də fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRANIN ALİ DİNİ RƏHBƏRİ AYƏTULLA SEYİD ƏLİ XAMNEYİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 10-da Tehranda İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamneyi ilə görüşmüşdür.

Dövlətimizin başçısı Heydər Əliyevi səmimiyyətlə salamlayan və onunla görüşdən məmnun qaldığını bildirən cənab Xamneyi dedi: cənab Prezident, xoş gəlmisiniz! Mən Allah-təaladan arzu edirəm ki, bu səfər sizin üçün xoş keçsin. İKT-nin VIII Zirvə görüşü bu təşkilatın üzvü olan bütün ölkələr - islam aləmi üçün mühüm bir hadisədir. İslam birliyinin üzvü olmaq böyük sərvətdir. İKT-yə qarşıdakı üç ildə İran İslam Respublikası rəhbərlik edəcəkdir ki, bu da dost və qardaş ölkələr üçün yaxşı imkanlar açır.

Səmimi sözlərə görə cənab Xamneyiyə minnətdarlıq edən, Tehrana gəlməsindən, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VIII Zirvə görüşündə iştirak etməsindən məmnun qaldığını bildirən respublikamızın rəhbəri bu təşkilatın 1994-cü ildə Kasablankada /Mərakeş/ keçirilmiş VII Zirvə görüşündə də iştirak etdiyini xatırlatdı.

İKT-nin VIII Zirvə görüşünün Tehranda keçirilməsini və İran İslam Respublikasının qarşıdakı üç ildə bu təşkilata sədrlik edəcəyini əlamətdar hadisələr kimi yüksək qiymətləndirən Prezident Heydər Əliyev dedi: Biz Zirvə görüşündə Sizin nitqinizi böyük diqqətlə dinlədik. Bu nitqinizə və Zirvə görüşünün müvəffəqiyyətlə keçməsinə görə mən Sizi təbrik edirəm. Dünyəvi dövlət quran müstəqil Azərbaycan Respublikası öz dininə böyük hörmətlə yanaşır. Biz ötən uzun illərdə itirdiklərimizi - adət- ənənələrimizi bərpa edirik, canlandırırıq, onların durmadan inkişaf etdirilməsi üçün ölkəmizdə bütün imkanları yaradırıq. Xalqımızı 70 il ərzində islam dinindən ayırmağa çalışıblar. Bilirsiniz ki, biz Sovetlər İttifaqının tərkibində ateist tərbiyəsi, təbliğatı altında yaşamışıq. Ancaq buna baxmayaraq, xalqımız öz dinindən heç vaxt ayrılmayıbdır, onu qəlbində, ürəyində saxlayıb və imkan olan kimi hər şey açılıbdır. Bu da dinimizin - islam dininin nə qədər qüdrətə, gücə malik olduğunu bir daha göstərir. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcək və dinindən də ayrılmayacaqdır.

İran ilə əlaqələrə Azərbaycanın çox

böyük əhəmiyyət verdiyini, Azərbaycan - İran münasibətlərinin daimi dostluq və qardaşlıq münasibətləri olduğunu nəzərə çarpdıran respublikamızın rəhbəri dedi: bizim arzumuz, istəyimiz ondan ibarətdir ki, bu münasibətlər daha geniş, sıx, mehriban, səmimi olsun. Əməkdaşlığımızı genişləndirmək üçün insani, elmi, mədəni, ticarət əlaqələrinin durmadan möhkəmləndirilməsi çox vacibdir.

Dövlətimizin başçısının fikirlərinə şərik olduğunu bildirən **İİR-in Ali Dini Rəhbəri dedi: cənab Prezident Heydər Əliyev, Siz həqiqətən böyük siyasi təcrübəyə malik şəxsiyyətsiniz.** Respublikanızın son illər qazandığı təcrübə, sizin rəhbərliyinizlə görülən işlər dövlətiniz üçün yenidir.

Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, həmsədrlərin irəli sürdüyü təkliflərdən söhbət açan Prezident Heydər Əliyev dedi ki, biz bu təklifləri əsas kimi qəbul etmişik. İstəyirik ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilsin, ölkəmizin ərazi bütövlüyü təmin olunsun, doğma yurdundan zorla qovulmuş, hazırda çadırlarda ağır şəraitdə yaşayan bir milyondan çox vətəndaşlarımız öz yerlərinə qayıtsınlar.

Azərbaycanlı qaçqınlara etdiyi humanitar yardıma görə İran İslam Respublikasının rəhbərliyinə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında qeyri-konstruktiv mövqeyindən əl çəkməyən Ermənistana bir çox dövlətlərin siyasi və iqtisadi dəstək verməsindən təəssüfləndiyini bildirdi.

Prezident Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Tehran Zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzünü pisləyən sənədlərin qəbulu üçün İranın öz nüfuzundan səmərəli istifadə edəcəyinə əmin olduğunu vurğuladı.

Söhbət zamanı Azərbaycan-İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət barədə ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

Mən İslam Konfransı Təşkilatının VIII Zirvə görüşünün nəticələrini çox yüksək qiymətləndirirəm. Birincisi, bu Zirvə görüşü çox gözəl təşkil olunmuşdur. İkincisi, Zirvə görüşünün iştirakçılarının əksəriyyəti öz ölkələrinin ən yüksək vəzifəli şəxsləri tərəfindən təmsil edilmişdir. Bu Zirvə görüşü üç gün müddətində çox işgüzar şəraitdə keçmişdir və çox dəyərli qərarlar, qətnamələr qəbul etmişdir. Mən xüsusən son qərarları yüksək qiymətləndirirəm. Hesab edirəm ki, Tehran bəyannaməsi, Zirvə görüşünün yekun sənədi, islam aləminə aid Tehrandakı görüşlər haqqında sənəd və şübhəsiz ki, qəbul olunmuş bütün başqa sənədlər də böyük əhəmiyyət kəsb edir.

Mən Azərbaycanın dostu və yaxın qonşusu, qardaşı olan İran İslam Respublikasında belə bir Zirvə görüşünün keçirilməsini İran İslam Respublikası üçün böyük bir tarixi hadisə hesab edirəm. Bu Zirvə görüşü müvəffəqiyyətlə başa çatdığına görə mən İran İslam Respublikasını və onun bütün rəhbərlərini ürəkdən təbrik edirəm. Mən İslam Konfransı Təşkilatının üç il ərzində sədri olacağı münasibətilə də İran İslam Respublikasının Prezidentini təbrik edirəm.

Mən İranın Ali Dini Rəhbəri həzrəti

Ayətulla Xamneyinin Zirvə görüşündəki nitqini çox yüksək qiymətləndirirəm. İran İslam Respublikasının Prezidenti cənab Məhəmməd Xatəminin İslam Konfransı Təşkilatının VIII Zirvə görüşünün keçirilməsi üçün göstərdiyi səyləri və onun bu Zirvə görüşünə çox gözəl sədrlik etməsini də yüksək qiymətləndirirəm.

İslam ölkələrinə daha çox birlik, həmrəylik arzulayıram. Qardaş İran xalqına səadət, xoşbəxtlik və bütün işlərdə uğurlar arzulayıram. Təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BİNƏ HAVA LİMANINDA DEKABRIN 11-DƏ SƏFƏRİN YEKUNLARI BARƏDƏ JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVABLARDAN:

Sual: Tehran Zirvə görüşü qətnaməsinin Azərbaycanla bağlı başlıca istiqamətləri barədə nə demək olar?

Heydər Əliyev: Zirvə görüşü özlüyündə beynəlxalq həyatda mühüm hadisədir. Üç il bundan əvvəl Zirvə görüşü Mərakeşdə olmuşdu. Bu dəfəki Zirvə görüşündə 55 ölkə iştirak edirdi, əksəriyyəti ən yüksək səviyyədə təmsil olunmuşdu. Bir çox məsələlər müzakirə edildi. Hesab edirəm ki, Zirvə görüşü uğurla keçmiş və islam ölkələri arasında daha çox birlik yaradılmasına yönəldilən sənədlər qəbul olunmuşdur.

Bir sıra digər mühüm sənədlər, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı, Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən və Ermənistan silahlı birləşmələrinin çıxarılmasını tələb edən, münaqişənin aradan qaldırılması sahəsində Minsk konfransının, Minsk qrupunun səylərini dəstəkləyən, bu münaqişənin həlli barədə Lissabon Zirvə görüşünün qərarını təsdiqləyən sənəd qəbul olunmuşdur. Bir sözlə, mən razıyam.

Sual: İran-Azərbaycan münasibətləri müzakirə edilərkən hansı mövzulara toxunulmuşdur?

Heydər Əliyev: Biz İran-Azərbaycan münasibətlərinə çox vaxt sərf etdik. Həm İranın Prezidenti Məhəmməd Xatəmi ilə çox əhəmiyyətli görüşüm oldu, həm də İranın Ali Dini Rəhbəri Ayətulla Xamneyi ilə görüşüm oldu. Hesab edirəm ki, biz ikitərəfli əlaqələrə aid məsələləri çox ətraflı müzakirə etdik.

İRANIN MİLLİ BAYRAMININ 19-CU İLDÖNÜMÜ ŞƏRƏFİNƏ HƏSR OLUNMUŞ RƏSMİ QƏBULDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

"Gülüstan" sarayı,
11 fevral, 1998-ci il

- Hörmətli cənab səfir!

Hörmətli cənablar və xanımlar!

Sizi İran İslam inqilabının 19-cu ildönümü münasibətilə ürəkdən təbrik edir, Sizə, bütün İran xalqına, İran İslam Respublikasının vətəndaşlarına səadət, sülh və əmin-amanlıq arzulayıram.

İran xalqı İslam inqilabı bayrağı altında 19 ildə böyük nailiyyətlər əldə etmişdir. Bu nailiyyətləri biz Azərbaycanda müşahidə edir və bunlara görə çox sevinirik. Ötən illərdə İran İslam Respublikasının iqtisadiyyatı inkişaf etmişdir, sosial sahədə xeyli müsbət dəyişikliklər mövcudur, mədəniyyətdə və həyatın bütün sahələrində yüksəliş müşahidə olunur. Bizim üçün dost, qardaş olan İranda həyatın belə inkişafı bizi sevindirir və İran xalqının rifahının bundan sonra da yüksəlməsini arzu edirik.

İran İslam inqilabı, imam Xomeyninin rəhbərliyi altında həyata keçirilmiş inqilab İranın çoxəsrlik tarixində çox əlamətdar hadisədir və arzu edərdik ki, İran bu müstəqillik, azadlıq yolu, öz müqəddəratını özü həll etmək yolu ilə bundan sonra da daha böyük uğurlar əldə etsin.

İran ilə Azərbaycan arasındakı əlaqələrin qədim, çox zəngin tarixi var. Biz bu tariximizlə fəxr edirik. **Həyatımızın bütün sahələrində xalqlarımız çox müştərək işlər görmüşlər və dünya mədəniyyətinə çox böyük töhfələr vermişlər. İranın və Azərbaycanın həyatında çox tarixi hadisələr var ki, bunlar bizim hər ikimizə mənsubdur. Bunlar xalqlarımızın müştərək fəaliyyəti və müştərək qəhrəmanlıqları nəticəsində əldə olunmuşdur. Bizim adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin oxşarlığı, bənzərliyi və birbirinə yaxın olması, bir kökdən olması bizi daim dost, qardaş olaraq yaşatmışdır və biz Azərbaycanda bu gün də bu duyğularla, hissiyyatlarla yaşayırıq və gələcəyə böyük ümidlər bəsləyirik.**

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra İran ilə Azərbaycan arasındakı əlaqələr yüksək mərtəbəyə çatmışdır və bu illərdə olan əlaqələrimiz xüsusi əhəmiyyət kəsb edir. Biz minnətdarıq ki, İran Azərbaycanın müstəqilliyini həmişə dəstəkləmişdir.

Keçən ilin dekabrında Tehranda İslam Konfransı Təşkilatının Zirvə görüşündə qəbul olunmuş qətnamələrdə, qərarlarda Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz pisləmiş və Azərbaycanın ərazi bütövlüyü dəstəklənmiş, müdafiə olunmuşdur. Bu qətnamələr, qərarlar bütün islam ölkələrinin və Zirvə görüşündə olan ölkə başçılarının, dövlət və hökumət başçılarının iradəsini əks etdirir. Eyni zamanda bu qərarların məhz İranda, Tehranda qəbul edilməsi İran hökumətinin bu məsələlərdə nə qədər diqqətli olduğunu və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi sahəsində səylərini bir daha nümayiş etdirmişdir.

İranda baş verən hər bir hadisə Azərbaycanda maraq doğurur. Biz keçən il böyük maraq hissi ilə İranda prezident seçkiləri prosesini izlədik. Seçkilər nəticəsində cənab Xatəminin xalqın iradəsi ilə Prezident seçilməsini, ürəkdən təbrik etdik. Hesab edirəm ki, son prezident seçkiləri İranın tarixində həqiqətən demokratiyanın, azadlığın parlaq nümayişidir. İranda prezident seçkilərində bir neçə namizəd olmuşdur və seçicilər səs vermək imkanı əldə etmiş, istədikləri namizədlərə səs vermişlər. Məhz bunların nəticəsində cənab Xatəmi böyük səs çoxluğu ilə Prezident seçilmişdir.

Qonşu, dost ölkə, dövlət olaraq biz İrandakı bu hadisəyə sevinirik. Mən bunu seçkilər qurtaran kimi də bildirmişdim, bu gün də təkrar edirəm ki, İranda prezident seçkilərinin tam demokratik şəraitdə keçirilməsi İranın həyatında çox müsbət dəyişikliklərin baş verməsini göstərir və şübhəsiz ki, gələcəyə böyük demokratiya, azadlıq, sərbəstlik yolları açır.

Tehranda olarkən İranın Prezidenti cənab Xatəmi ilə mənim çox ətraflı, müfəssəl danışığım olmuşdur. Sonra İranın Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamneyi həzrətləri ilə çox geniş, ətraflı görüşüm, söhbətim olmuşdur. Bu görüşlər, söhbətlər zamanı biz İran - Azərbaycan əlaqələrinin bugünkü vəziyyətini təhlil edib, bunları daha da inkişaf etdirmək, dostluğu, əməkdaşlığı möhkəmləndirmək üçün həmfikir olduğumuzu bildirmişdik. Mən bu görüşlərdən

çox məmnunam və apardığımız müştərək işlərin nəticəsində İran-Azərbaycan əlaqələri sürətlə inkişaf edəcəkdir.

Mən bu gün, bu bayram günü bir daha bəyan edirəm ki, **İran Azərbaycanın böyük qonşusudur, dost, qardaş ölkədir. Biz İrana, onun xalqına, millətinə, vətəndaşlarına daim səadət arzulayırıq və İran - Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət veririk.** Ümid edirəm ki, biz gələcəkdə də bu əlaqələrin inkişaf etməsinin şahidi olacağıq. Hər halda, biz öz tərəfimizdən bunu istəyirik, arzu edirik və bu sahədə səylərimizi əsirgəməyəcəyik.

Bilirsiniz ki, bu gün Livanın Baş naziri cənab əl-Həriri mənim dəvətimlə Azərbaycana rəsmi ziyarətə gəlibdir. Bir neçə saatdır ki, mən onunla və nümayəndə heyəti ilə danışıqlar aparıram.

Danışıqlar bundan sonrada davam edəcək, bizim hələ bir neçə saat görüşlərimiz, danışıqlarımız olacaqdır. Ancaq İran İslam inqilabına hörmətimi bildirmək və bu bayram günü sizi və sizin vasitənizlə İranın bütün vətəndaşlarını təbrik etmək üçün mən müəyyən fasilə edib buraya gəlmişəm. Sizi bir daha ürəkdən təbrik edir, İran xalqına, İran İslam Respublikasının vətəndaşlarına səadət, yeni-yeni uğurlar arzulayıram. Ümidvaram ki, İran İslam inqilabı yaşayacaq və İran xalqını daha da firavan həyata çatdıracaqdır.

Sağ olun, sizi təbrik edirəm.

(Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənilmiş və alqışlarla qarşılanmışdır).

"Respublika" qəzeti,
14 fevral 1998-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN İSLAM RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti Heydər Əliyev martın 17-də Prezident Sarayında İranın xarici işlər naziriinin Avropa və Amerika üzrə müavini Morteza Sərmədini qəbul etmişdir.

Qonağı salamlayan resbulikamızın rəhbəri Azərbaycana gəldiyinə görə ona razılığını bildirmişdir.

Prezident Heydər Əliyev ilə görüşündən şərəf duyduğunu söyləyən cənab Morteza Sərmədi dövlətimizin başçısına öz ölkəsinin Prezidenti ağayi Məhəmməd Xatəminin salamını çatdırdı, Novruz bayramının gəlişinin xalqlarımız üçün xoş və bərəkətli olmasını arzuldaı.

Azərbaycanın xarici siyasətinin uğurları nəticəsində ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsinə yeni şərait yarandığını, İranın Qafqaz bölgəsi ilə, o cümlədən Azərbaycanla əlaqələrə xüsusi üstünlük verdiyini vurğulayan qonaq dedi ki, müsəlman ölkəsi kimi Azərbaycanla İran arasında dostluq və qardaşlıq münasibətləri, xalqlarımızı birləşdirən tarixi, dini və mədəni tellər qədim zamanlardan mövcuddur.

Ötən bir neçə ay ərzində İranın siyasətində əsaslı dəyişikliklər baş verdiyini bildirən diplomat söylədi ki, İranın yeni Prezidentinin xarici siyasətinin əsasını beynəlxalq aləmdə bütün dövlətlərlə, o cümlədən qonşularla əlaqələri inkişaf etdirmək təşkil edir. O, respublikamızın müstəqillik qazandığı ilk günlərdən İranın ölkəmizə daim diqqət göstərdiyini və bundan sonra da Azərbaycada quruculuq işlərinə kömək edəcəklərini bildirdi.

Beynəlxalq sahədə bəzi məsələlərin həlli üçün bu görüşün əhəmiyyətindən danışan qonaq regionda, o cümlədən Azərbaycanda əmin-amanlığın təmin olunması üçün Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həll ediləcəyinə ümidvar olduğunu vurğuladı.

Söylədiyi fikirlərə, cənab Xatəminin salamını ona çatdırdığına görə, cənab Sərmədiyə təşəkkürünü bildirən, keçən ilin dekabrında İranın siyasi rəhbərləri ilə çox səmərəli, faydalı, məzmunlu görüşlər keçirdiyini, danışıqlar apardığını xatırladan Prezident Heydər Əliyev dedi ki, Tehran görüşlərində və danışıqlarında hər iki ölkənin mövqeyi açıq şəkildə müzakirə olunmuşdur.

Dövlətimizin rəhbəri İranla tarixi dostluq əlaqələrimizin mövcudluğuna heç bir şübhə olmadığını, Azərbaycanın böyük qoşusu kimi İranla tarixi kökümüzdə qohumluq əlaqələri olduğunu vurğulayaraq dedi ki, ölkələrimiz arasında olan fərqlər xalqlarımız arasındakı dostluğun, qardaşlığın, əməkdaşlığın inkişaf etməsinə heç vaxt maneə törətməmilidir. Biz gənc müstəqil dövlət kimi, daxili və xarici siyasətimizi özümüz qururuq və bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlqələr yaradırıq.

İranda yeni prezident seçkilərinin demokratik şəkildə keçirildiyini, onun xarici siyasətində baş vermiş bəzi dəyişikliyi, bu barədə İran Prezidentinin bəyanatlarını və verdiyi müsahibələri müsbət hal kimi qiymətləndirən dövlətimizin başçısı İranla Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişafının və münasibətlərin möhkəmləndirilməsinin vacibliyindən danışdı.

Prezident Heydər Əliyev daha sonra dedi: Mən cənab Xatəmini Azərbaycana dəvət etmişəm. Güman edirəm ki, o, vaxt tapıb bu dəvəti həyata keçirəcəkdir. Bu, bizim əlaqələrimizin inkişafına çox kömək edəcəkdir. Biz əməkdaşlığımızın sürətlə inkişaf etməsi üçün kiçik əngəlləri aradan götürərək əlaqələri möhkəmləndirməliyik.

"Xalq qəzeti".
18 mart 1998-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CUMHURİYYƏTİNİN 75-İLLİYİ ŞƏNLİKLƏRİNDƏKİ NİTQİNDƏN:

Bilirsiniz ki, 1994-cü ilin sentyabr ayında Azərbaycan dünyanın ən böyük şirkətləri ilə, 7 ölkənin 11 şirkətinin yaratdığı bir konsorsiumla müqavilə imzaladı. Bu, dünyada bir partlayış oldu. Elə bil ki, bomba partladı. Çünki bu böyük müqavilədir və buna dünya "Əsrin müqaviləsi" adı verdi. Buna sevinənlər də oldu, ancaq bundan rahatsız olanlar da oldu. Azərbaycana qarşı təzyiqlər, basqılar başladı: nə üçün Azərbaycan bunu etdi? Nə üçün Azərbaycan Amerika, İngiltərə, Türkiyə, Norveç və başqa ölkələrin şirkətlərini Xəzər dənizinə gətirdi? Bizi qınadılar, məhkum etdilər, bizim əleyhimizə təbliğat apardılar. Guya bu müqavilə həyata keçməyəcəkdir, çünki Xəzər dənizinin statusu məlum deyildir. Hətta o müqaviləni imzalayan şirkətlər qorxdular, bizim yanımıza gəldilər ki, bu nədir, deyirlər bu müqavilə işləməyəcəkdir.

Rusiya bəyanat verdi ki, bu müqaviləni tanımır. Amma Rusiyanın bir şirkəti bu müqavilənin içindədir. Rusiyanın Xarici İşlər Nazirliyi bəyanat verdi ki, Rusiya bu müqaviləni tanımır. Başqa bir qərb ölkəsinin Xarici İşlər Naziri mənim yanıma gəldi, dedi ki, bəs, nə olacaqdır, bunu tanımırlar.

Dedim, bunun tanınmamasına görə sən niyə rahatsız olursan? Bizə onların tanıması lazımdırmı? Bizim buna ehtiyacımız yoxdur.

Sonra Xəzər dənizinin statusu məsələsi meydana çıxdı: "Xəzər dənizinin statusu müəyyən olunmayıbdır, belə halda bu müqaviləni imzalamaq olmaz". Biz də dedik ki, Xəzər dənizinin statusu hələ 1970-ci ildə Sovetlər Birliyi tərəfindən müəyyən olunubdur. Çünki o vaxt Xəzər dənizi Sovetlər Birliyinə məxsus idi. Xəzər dənizinin cənubunun kiçik bir hissəsi İrana məxsus idi. Qalan hamısı Sovetlər Birliyinə məxsus idi. İndi Sovetlər Birliyi dağılıbdır. Xəzər dənizi ətrafında ölkələr vardır - Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran. Cəmi beş ölkə. Keçmişdə yaranmış ənənəyə görə Xəzər dənizi sektorlara bölünübdür. Burada yerləşən hər cümhuriyyətin Xəzər dənizində öz sektoru vardır. Biz öz sektorumuzun içindəyik, öz sektorumuzdun kənara çıxmamışıq. Söylədilər ki, bu sektor prinsipi qəbul edilmir. Xəzər dənizi ümumi dəniz olmalıdır - kim harada istəyir, qoy orada iş görsün. Biz isə dedik ki, belə olmaz. Bu sektor prinsipini bizdən başqa heç kəs qəbul etmədi. Ancaq mən sizə deyə bilərəm ki, indi hamı, bütün Xəzər dənizi ölkələri - Rusiya da, Qazaxıstan da, Türkmənistan da, hətta İran da sektor prinsipini qəbul edir. Yəni, 1994-cü ildə bizim müqavilənin əleyhinə çıxanlar deyirdilər ki, sektor prinsipi qəbul olunmur, status müəyyən deyil və bu işi görmək olmaz.

İRAN İSLAM RESPUBLİKASININ MİLLİ BAYRAMI - İRAN İSLAM İNQİLABININ 20-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

"Gülüstan" sarayı,
9 fevral, 1999-cu il

- Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

İran İslam inqilabının iyirminci ildönümü münasibətilə sizi ürəkdən təbrik edir, qardaş İran xalqına sülh, əmin-amanlıq və yeni-yeni uğurlar arzulayıram.

İran İslam İnqilabı İranın qədim tarixində çox mühüm bir mərhələ olmuşdur. İnqilabdan sonrakı iyirmi il ərzində İran İslam Respublikası böyük və şərəfli yol keçmiş, İran hökumətinin rəhbərliyi altında mühüm nailiyyətlər əldə etmişdir. Bizim qonşu, dost İran bu illərdə böyük çətinliklərlə rastlaşmış, müharibələrə cəlb olunmuş və bir çox təzyiqlərə məruz qalmışdır. Ancaq İran xalqının birliyi və həmrəliyi, xalqın hökumətlə, öz rəhbərləri ilə sıx birliyi bunların hamısına layiqli cavab vermişdir. İyirmi il müddətində İran İslam Respublikası möhkəmlənmiş, inkişaf etmiş və indi İran Dünya Birliyində özünə layiq yer tutur.

Biz İranla qədim dostluq əlaqələri ilə bağlıyıq. Tarixi keçmişimiz, dərin köklərə malik olan dostluq, qardaşlıq əlaqələrimiz, adət və ənənələrimizin eyniliyi, yaxud bir-birinə bənzərliyi, bir dinə mənsub olmağımız və nəhayət, qonşuluq şəraitində yaşamağımız bizi həmişə yaxınlaşdırıb və birləşdirib.

Azərbaycan İran ilə həmişə əlaqədar olubdur. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bir müstəqil dövlət kimi onunla əlaqələri daim inkişaf edib, genişlənibdir. Biz çox məmnunuq ki, müstəqil Azərbaycan ilə İran İslam Respublikası arasında çox işgüzar, səmimi əlaqələr yaranıbdır.

Müstəqillik illərində bizim İranla iqtisadi əlaqələrimiz daim inkişaf edib və hər iki tərəf bunun faydasını görür. İnsani əlaqələr çox genişlənibdir. İran və Azərbaycan vətəndaşları bir-biri ilə çox böyük qohumluq əlaqlərinə malikdirlər. Keçmiş dövrlərdə həm İranın, həm də Azərbaycanın vətəndaşları bu qohumluq əlaqələrini saxlamaqdan məhrum olmuşdular. Çünki biz Sovetlər Birliyinin tərkibində olduğumuz zaman bunlara böyük qadağa qoyulmuşdu. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra sərhədlər açılmış, insanlar öz qohumları, əqrəbaları ilə qovuşa bilmişlər. İndi bu əlaqələr çox geniş vüsət almışdır.

Biz həmişə İran İslam Respublikasının inkişafını arzu etmişik. Çünki bizim qonşumuz olan dost ölkədə, əgər, xalqın yaşayışı yaxşılaşsa, ölkənin iqtisadiyyatı inkişaf etsə, şübhəsiz ki, bu Azərbaycan üçün də çox faydalıdır. Ona görə də, həm dost və qonşumuza olan xeyirxah münasibətimiz əsasında, həm də İran-Azərbaycan əlaqələrindən hər iki tərəfin səmərəli faydalanmasına görə biz həmişə İranın inkişafını arzu etmişik və bu gün məmnuniyyətlə demək olar ki, İran həqiqətən böyük inkişaf dövrünü yaşayır.

Biz dünyada hər bir dövlətin ərazi bütövlüyünü, suverenliyini, yəni, beynəlxalq hüquq normalarını müdafiə etmişik və müdafiə edirik. Azərbaycanın ərazi bütövlüyü Ermənistanın təcavüzü nəticəsində pozulubdur. Biz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlərimizi müdafiə etmək üçün mübarizə aparırıq. Eyni zamanda biz qonşu ölkələrin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasını həmişə arzu etmişik və bu gün də arzu edirik. O cümlədən, İran İslam Respublikasının ərazi bütövlüyünün və suverenliyinin, **İranın bölünməzliyinin həmişə tərəfdarı olmuşuq və bundan sonra da tərəfdarı olacağıq.**

İran İslam Respublikası Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayandan indiyə qədər çox düzgün və prinsipial mövqe tutmuşdur. Biz həmişə məmnuniyyətlə qeyd edirik ki, İran Ermənistanın Azərbaycana qarşı təcavüzünü daim pisləmiş və mövqeyini heç vaxt dəyişməmişdir. 1997-ci ilin dekabr ayında Tehranda İslam KonfransıTəşkilatının növbəti Zirvə görüşü olmuşdur. Zirvə görüşündə mən də iştirak edirdim. Bu gün böyük məmnuniyyətlə qeyd edirəm ki, İslam Konfransı Təşkilatının Zirvə görüşündə Azərbaycana aid bir neçə çox dəyərli sənəd qəbul olunmuşdur. O cümlədən, İslam Konfransı Təşkilatı Tehranda qəbul etdiyi bəyanatda Azərbaycanın ərazi bütövlüyünü yenidən müdafiə etmiş, dəstəkləmiş və Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləmiş, Azərbaycanın işğal edilmiş torpaqlarının tezliklə azad olunmasını tələb etmişdir. Biz bunları yüksək qiymətləndiririk.

Ölkələrimiz arasında əlaqələr eyni zamanda siyasi xadimlərin, dövlət başçılarının əlaqələri ilə möhkəmlənir və inkişaf edir. Məmnuniyyətlə qeyd edirəm ki, 1997-ci ilin dekabr ayında Tehranda olarkən mənim çoxsaylı görüşlərim, o cümlədən İranın Ali Dini Rəhbəri Həzrəti Ayətulla Xamneyi ilə görüşüm və çox əhəmiyyətli danışıqlarım olmuşdur. İranın Prezidenti cənab Xatəmi ilə görüşlər və danışıqlar olmuş və İranın bir neçə siyasi və dövlət xadimləri ilə bizim danışıqlarımız və görüşlərimiz olmuşdur. Bu yaxınlarda Azərbaycan Milli

Məclisi nümayəndə heyətinin İranda olması, nümayəndə heyətinin başçısı Murtuz Ələsgərovun İran Parlamentinin sədri ağayi Natiq Nuri ilə görüşləri, danışıqları da Azərbaycan-İran əlaqələrini inkişaf etdirmək məqsədi daşımışdır. Biz bunların hamısından çox məmnunuq.

Biz İran xalqına həmişə uğurlar, sülh arzulayırıq. Birincisi, ona görə ki, İran bizimlə dost, qonşu ölkədir. İran xalqı dost, qardaş xalqdır. İkincisi də ona görə ki, İranda milyonlarla azərbaycanlı yaşayır. Biz İranın vətəndaşları olan azərbaycanlıların da həmişə yaxşı yaşamasını, sülh və əmin-amanlıq şəraitində olmasını, öz arzu və istəklərini yerinə yetirməsini həmişə dəstəkləmişik və arzu etmişik. Məmnuniyyətlə deyə bilirəm ki, İran İslam Respublikasının hökuməti bu sahədə də xeyli işlər görür.

Bu gün qeyd etmək olar ki, bizim əlaqələrmiz yüksək səviyyədədir və bu əlaqələri bundan sonra da inkişaf etdirəcəyik.

İran İslam Respublikası ötən iyirmi ildə İslam inqilabının İran xalqı üçün nə qədər zəruri olduğunu, onun gələcəyi üçün böyük üfüqlər açdığını tam sübut etmişdir.

Mən bu gün, bu bayram günü İran xalqına, İran İslam Respublikasının vətəndaşlarına öz hörmət və ehtiramımı, məhəbbətimi bildirirəm. Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasında olan dostluq, qardaşlıq əlaqələri daha da inkişaf edəcəkdir. Mən sizi, bütün İran xalqını bu bayram münasibətilə bir daha təbrik edir, hamınıza cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

(Dövlətimizin başçısı Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənilmiş və gurultulu alqışlarla qarşılanmışdır).

"Respublika" qəzeti,
10 fevral 1999-cu il

İRANIN TÜRKİYƏDƏKİ SƏFİRİ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ANTALYADA ZİYARƏT ETMİŞDİR

İran İslam Respublikasının Türkiyədəki səfiri Məhəmməd Həsən Yəvasani mayın 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

Səmimi sözlərə görə səfirə təşəkkürünü bildirən Prezident Heydər Əliyev demişdir:

- Mən çox məmnunam ki, İran İslam Respublikasının Prezidenti cənab Xatəmi mənim səhhətimlə maraqlanır, Sizi mənim yanıma göndəribdir və Sizin vasitənizlə arzularını, salamını mənə çatdırır. Mən buna görə təşəkkür edirəm. Xahiş edirəm, mənim təşəkkürümü, minnətdarlığımı cənab Prezident Xatəmiyə çatdırasınız.

Mənim səhhətim artıq yaxşıdır. Biz həmişə İran ilə Azərbaycan arasında əlaqələrin yaxşı, müsbət olmasına, daim inkişaf etməsinə çalışırıq və bunu istəyirik.

Sizin Xarici İşlər Naziri Xərrazinin İƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin Bakıda keçirilən toplantısında iştirak etməsi, Azərbaycanın Xarici İşlər Naziri ilə görüşü və bizim Baş nazirin qəbulunda olması mənə məlumdur. Onların hamısı barədə mənə məlumat veriblər. Mənə verilən məlumatlara görə, danışıqlar çox səmərəli olubdur.

Hesab edirəm, həm İran, həm də Azərbaycan çalışmalıdır ki, əməkdaşlığımızı inkişaf etdirək və buna mane olan halların hamısını aradan qaldıraq. İran ilə Azərbaycan coğrafi nöqteyi-nəzərdən bir-birinə çox yaxın ölkələrdir. Bizim tarixi keçmişimiz, köklərimiz, adət-ənənələrimiz onu göstərir ki, ölkələrmiz, xalqlarımız arasında

İKT-nin XIII Zirvə toplantısında İran prezidenti cənab Xatəmi ilə görüş
8-11 dekabr 1997-ci il

Prezident H.Əliyev Xaşimi Rəfsəncaninin oğlu ilə söhbət zamanı
8-11 dekabr 1997-ci il

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin çıxışı
8-11 dekabr 1997-ci il

Naxçıvanda İranın inşa etdiyi dini kompleksin açılış mərasimində
10 oktyabr 1999-cu il

Naxçıvanda İranın inşa etdiyi dini kompleksin açılış mərasimində
10 oktyabr 1999-cu il

Naxçıvanda İranın inşa etdiyi dini kompleksin açılış mərasimində
10 oktyabr 1999-cu il

İƏT- in VI Zirvə görüşü. Ümumi görünüş
9-10 iyun 2000-ci il

İƏT-in VI Zirvə görüşündə ADU-nun rektoru A.Məhərrəmova mükafat təqdim edilərkən
9-10 iyun 2000-ci il

İƏT- in VI Zirvə görüşü. Azərbaycan Respublikasının prezidenti ***H.Əliyevin*** *çıxışı*
9-10 iyun 2000-ci il

İran-Azərbaycan Dövlətlərarası Müştərək komissiyanın sədri M.Hacı ilə görüş

İranın Şərqi Azərbaycan Ostandarı Y.Məhəmmədzadə ilə görüş

Gülüstan sarayında H.Əliyevə hədiyyə təqdim edilərkən



İmam Xomeyninin məqbərəsinin ümumi görünüşü

Fəxri qarovul

Təntənəli qarşılanma mərasimi
18-20 may 2002-ci il

Prezident sarayı qarşısında qarşılanma mərasimindən görünüş
18-20 may 2002-ci il

Prezident sarayında görüş
18-20 may 2002-ci il

Mehrabad hava limanında qarşılanma
18-20 may 2002-ci il

Təntənəli qarşılanma mərasimi
18-20 may 2002-ci il

Prezident sarayında görüş
18-20 may 2002-ci il

Prezident sarayında görüş
18-20 may 2002-ci il

İran prezidenti cənab Xatəmi ilə görüş
18-20 may 2002-ci il

Rəsmi danışıqlar
18-20 may 2002-ci il

Prezidentlər arasında səmimi söhbət
18-20 may 2002-ci il

İran parlamentinin sədri M.Kərrubi ilə görüş
18-20 may 2002-ci il



Prezident H.Əliyevin İranın Xarici İşlər Naziri
cənab K.Xərrazi ilə görüşü.
18-20 may 2002-ci il

İran parlamentinin sədri ***M.Kərrubi***
Prezident ***H.Əliyevi*** *qarşılayarkən*
18-20 may 2002-ci il

Görüşlərdən bir an
18-20 may 2002-ci il

dostluq əlaqələri olmalıdır. Biz daim çalışırıq ki, İran ilə Azərbaycanın münasibətləri həmişə müsbət istiqamətdə inkişaf etsin. Biz bundan sonra da buna çalışacağıq.

Mən məmnunam ki, Siz dediyiniz kimi, cənab Prezident Xatəmi qonşu ölkələrlə münasibətləri daha da yaxşılaşdırmaq, Sizin sözlərinizlə demək istəyirəm ki, olan gərginliləri aradan qaldırmaq məqsədi daşıyır.

Beləliklə, biz hər iki tərəfdən eyni fikirdəyik. Həqiqətən, İran ilə Azərbaycan arasındakı əlaqələr dostluq və qardaşlıq xarakteri daşıyır. Ancaq biz çalışmalıyıq ki, bu əlaqələri daha da genişləndirək, inkişaf etdirək, daha da yüksəklərə qaldıraq. Biz bu fikirdəyik.

Azərbaycan Milli Məclisinin sədri İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin parlament sədrlərinin İranda keçiriləcək toplantısında olacaqdır. Güman edirəm ki, onun orada müəyyən danışıqlar aparmaq imkanı olacaqdır.

Mənim İrana dəvət olunmağım haqqında verdiyiniz məlumata görə də təşəkkür edirəm. Mən cənab Prezident Xatəmini Azərbaycana dəvət etmişəm. Cənab Xatəmi də məni dəvət edir. Biz çalışmalıyıq ki, hər iki dəvət yerinə yetirilsin.

İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının işini də gücləndirmək lazımdır. Mən Azərbaycana dönəndən sonra, şübhəsiz, münasib vaxtda sizin nümayəndə heyəti gəlib danışıqlar apara bilər.

Mən bir daha təşəkkür edirəm. Cənab Prezident Xatəmiyə mənim salamımı, hörmət, ehtiramımı çatdırın. Ayətulla Xamneyiyə mənim salamımı, hörmət və ehtiramımı çatdırın.

Bir daha deyirəm, biz öz tərəfimizdən çalışacağıq ki, Azərbaycan ilə İranın əlaqələrini daha da inkişaf etdirək.

Mən bu görüşümüzdən məmnunam. Cənab səfir, Sizə öz fəaliyyətinizdə uğurlar arzulayıram.

Prezident Heydər Əliyevi belə gümrah vəziyyətdə görməkdən məmnun qaldığını bildirən səfir daha sonra dedi:

- Türkiyədə yeni hökumət quruldu. Biz ümidvarıq ki, İran ilə Türkiyənin münasibətləri daha da yaxşılaşacaqdır. Cənab Prezident, biz ümid edirik ki, bir vaxt Sizin, cənab Xatəminin, cənab Süleyman Dəmirəlin və Baş nazir Ecevitin də birgə görüşünü təşkil edə biləcəyik.

Prezident Heydər Əliyev dedi:

- Bu, çox gözəl olardı.

"Respublika" qəzeti,
1 iyun 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRANIN ŞƏRQİ AZƏRBAYCAN ƏYALƏTİNİN OSTANDARI YƏHYA MƏHƏMMƏDZADƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 2-də Prezident Sarayında İran İslam Respublikasının Şərqi Azərbaycan əyalətinin ostandarı Yəhya Məhəmmədzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı cənab Heydər Əliyev dedi:

- Hörmətli dostlar, qonaqlar!

İranın Şərqi Azərbaycan ostandarı hörmətli cənab Məhəmmədzadə!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Hörmətli səfir!

Mən sizin hamınızı Azərbaycanda səmimi qəlbdən salamlayıram və bizim ölkəmizə bu ziyarətinizi çox yüksək qiymətləndirirəm.

Qonşu, dost, qardaş İran İslam Respublikasından Azərbaycana gələn hər bir nümayəndə heyəti bizim üçün əhəmiyyətlidir. Çünki bunlar - həm İrandan Azərbaycana, Azərbaycandan İrana belə ziyarətlər bizim əlaqələrimizi inkişaf etdirir, genişləndirir. Amma İranın Şərqi Azərbaycan əyalətinin, Təbrizin belə yüksək səviyyəli nümayəndə heyətinin ölkəmizə gəlməsi və Azərbaycanda bir neçə gün işgüzar görüşlər keçirməsi bizim üçün xüsusi əhəmiyyət daşıyır. Mən bunu bir daha deyirəm ki, sizin Azərbaycana səfərinizi çox yüksək qiymətləndirirəm.

Şərqi Azərbaycan, Təbriz İranın ayrılmaz bir hissəsidir. Ancaq Azərbaycan ilə İranın sərhədinin böyük bir hissəsini təşkil edir. Bir də ki, Təbriz həm İran üçün, həm də Azərbaycan, yəni, bizim Azərbaycan üçün əziz, qiymətli və müqəddəs bir şəhərdir.

Siz Təbrizdə daimi yaşayırsınız, Təbriz sizin üçün adi bir şəhərə dönübdür. Amma mən bilirəm ki, Azərbaycanda, xüsusən ötən 70 illik ayrılıq illərindən insanlar Təbrizin nə qədər həsrəti ilə yaşayırdılar, bunu dəfələrlə demişəm, mən Bakıya gəlməmişdən əvvəl, 1991-ci ildə Naxçıvanda olduğum zaman keçirdiyim görüşlərdə də demişəm və bu gündə deyirəm. Bu nümayəndə heyəti həm Şərqi Azərbaycanı, həm Təbrizi, həm də cümleyi-İranı təmsil edir. Ona görə də sizin bu səfəriniz çox gözəl bir ziyarətdir.

Mənə məlumat verdilər ki, siz burada çox səmərəli görüşlər keçirmisiniz. Mən bundan çox məmnunam və güman edirəm ki, sizin bu görüşləriniz İran və Azərbaycan arasında əlaqələrin inkişaf etməsinə yardım göstərəcəkdir.

Şübhəsiz ki, biz ölkəmizdə Azərbaycan-İran əlaqələrinin günbəgün genişlənməsini və inkişaf etməsini istəyirik. Bu, təbiidir. Çünki biz qonşuyuq, bir dinə, məsləkə mənsubuq. İndi İranda azərbaycanlılar çoxdur. İranda azərbaycanlılar İran vətəndaşıdırlar, ancaq ölkəmizdə azərbaycanlılar müstəqil Azərbaycanın vətəndaşlarıdır.

Ona görə də, bu əlaqələrimiz nə qədər genişlənsə, bir o qədər gözəl olar. Bu əlavələri insanlar bizsiz də yaradırlar. Buna heç hökumət də, dövlət də lazım deyildir. Çünki insanlar bir-biri ilə o qədər sıx tellərlə bağlıdırlar ki, bu əlaqələri özləri yaradırlar. Vaxtilə, sərhədlər bağlı olmayanda qohumun, qardaşın biri o tayda, biri bu tayda idi. Belə ailələr həddindən çoxdur. Ancaq ötən 70 ildə bizi bir-birimizdən ayırdılar. Əlbəttə, bu bizim üçün, yəni, Azərbaycanda yaşayan, qohum-əqrəbası İranda olanlar üçün, güman edirəm ki, İranda yaşayıb qohum-əqrəbası Azərbaycanda olanlar üçün də çox çətin illər oldu.

Bilmirəm, o illər sizdə necə idi, amma bizdə - Azərbaycanda, xüsusən Stalinin dövründə Sovet hakimiyyətinin qanunları ilə axtarırdılar ki, kimin İranda qohumu var. Onu ya nəzarət altına alırdılar, yaxud bir günahı vardısa, həmin adamı həbs edirdilər. Ona görə də insanların əksəriyyəti o dövrdə İranda qohumları olduğunu tamamilə gizlədirdilər.

Mən bunların həmişə şahidi olmuşam, hamısını yaxşı bilirəm. Əksəriyyət İranda qohumu olduğunu gizlədirdi. Ancaq sərhədlər açılan kimi saysız-hesabsız qohumlar çıxdı. Əgər, Stalin qayıtsaydı, deyərdi ki, "Bəs, siz o vaxt deyirdiniz İranda qohumunuz yoxdur, indi məlum olur ki, var".

Şübhəsiz ki, mən zarafat edirəm, Stalin dövrü qayıda bilməz. Yenə deyirəm, sərhədlər açılandan sonra o qədər qohumlar çıxdı ki! Demək, insanlar bunu qəlblərində saxladılar və imkan olan kimi tez gedib birbirilərini gördülər.

Səkkiz ildir ki, Azərbaycan müstəqil bir dövlətdir. Ölkələrimiz arasında sərhədlər təxminən 1991-ci ildən açılıbdır. İnsanlar bir-birinin yanına gedib gəlirlər. Ancaq, nə qədər də olsa, bu, yenə də çatmır. Yenə də deyirəm, insanlar onsuz da bizsiz bu əlaqələri yaradırlar - gedirlər, gəlirlər. Lakin dövlət, hökumət bu əlaqələrdən daha da səmərəli istifadə etsə, şübhəsiz bu, həm insanlar üçün, həm də dövlət, hökumət üçün faydalı olar. Ona görə də, biz çalışırıq və bundan sonra da çalışacağıq ki, əlaqələrimiz daha genişlənsin, inkişaf etsin.

Şübhəsiz ki, İran ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsində Şərqi Azərbaycan çox böyük iş görə, xüsusi yer tuta bilər. Bu baxımdan məhz Şərqi Azərbaycanın nümayəndə heyətinin respublikamızı ziyarət etməsi, güman edirəm ki, cümleyi-İran üçün də, ölkəmiz üçün də və şübhəsiz, Şərqi Azərbaycan üçün də əhəmiyyətlidir. Mən sizi bir daha salamlayıram.

Şərqi Azərbaycan əyalətinin ostandarı cənab Yəhya Məhəmmədzadə respublikamızın Prezidentinə müraciətlə dedi:

- Bismillahir-rəhmanir-rəhim.

Cənab Prezident, mənim söyləmək istədiklərimin hamısını Siz dediniz.

Heydər Əliyev: Yox, Sizin üçün də çox şey qalıbdır.

Yəhya Məhəmmədzadə: Sizin söylədiklərinizin çoxunu mən yazınışdım, amma onların hamısından Siz bəhs etdiniz.

Heydər Əliyev: Eybi yoxdur, mən onları sənin də dilindən eşitmək istəyirəm.

Yəhya Məhəmmədzadə: Cənab Prezident bizi buraya dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Yadımdadır ki, biz İslam Konfransı Təşkilatının Tehran Zirvə toplantısında görüşmüşdük.

Cənab Prezident, bizi buraya əvvəlcə Siz, sonra isə, İranda səfərdə olmuş Azərbaycan Milli Məclisinin sədri və Xarici İşlər Naziri dəvət etmisiniz. Ona görə də biz Azərbaycan Respublikasına səfərə gəldik.

Heydər Əliyev: Amma hamısından əsas mənim dəvətimdir.

Yəhya Məhəmmədzadə: Bəli, bəli, doğrudur. Əlbəttə, bu işlərin hamısı, necə deyərlər, padşahın sayəsindədir.

Cənab Prezident, biz Sizin məhəbbətinizi və lütfkarlığınızı yüksək qiymətləndiririk. İstəyirəm ki, bizə göstərilən səmimi qonaqpərvərliyə və məhəbbətə görə Sizə təşəkkürümü və minnətdarlığımı bildirim. Bu gün hava çox istidir, amma bizə bəslənilən məhəbbətin istisi ondan da çoxdur.

Cənab Prezident, biz çox xoşbəxtik ki, Sizin səhhətiniz çox yaxşıdır. Azərbaycan xalqı Sizin həyata keçirdiyiniz tədbirləri, xidmətlərinizi, zəhmətlərinizi qətiyyən yaddan çıxarmayacaqdır. Bütün Azərbaycan xalqı kimi, biz də Sizin səhhətinizi çox yaxşı görməkdən çox xoşhal olduq.

İran Prezidenti cənab Xatəmi mənim buraya gələcəyimi bilirdi, cənab Xatəmi də, dövlətimizin digər yüksək vəzifəli şəxsləri də Sizin səhhətinizin belə yaxşı olmasından çox məmnundurlar və biz buna görə özümüzü xoşbəxt hesab edirik. Allaha şükürlər olsun ki, müalicədən sonra səhhətiniz daha da yaxşılaşıb, sanki cavanlaşmısınız. İnşallah, bundan sonra da illər boyu Azərbaycan Respublikasına xidmət edərsiniz ki, dövlətiniz və millətiniz gündən-günə daha firavan olsun.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

Yəhya Məhəmmədzadə: Möhtərəm Prezident, mən Sizin söylədiyiniz fikirlərlə tam şərikəm. O illərdə o taydan, bu taydan camaat Arazın qırağına toplaşıb ağlayırdılar, özlərini suya vururdular. Həmin dövrdə mən Ənzəlidə balıqçılıq idarəsinin müdiri idim. Mən 1989-cu ildə İranın qərbində yerləşən Gilanın ostandarı oldum. Həm Ənzəlidə, həm də Gilanda işləyəndə televiziyaya baxıb, o taylı-bu taylı azərbaycanlıların bir-birinə qovuşmaq istəyini görəndə ağlayırdım.

İslam inqilabından əvvəl İranda da vəziyyət Sovet hökuməti, Stalinin hakimiyyəti illərində olduğu kimi idi. O dövrdə İranda da əksəriyyət Azərbaycan Respublikasında qohumu, tanışı olduğunu gizlədirdi. Heç kim deməzdi ki, mənim, məsələn, Naxçıvanda bir adamım var. Amma onlar həmişə həsrət çəkərdilər, arzu edərdilər ki, elə bir gün gəlsin, öz qohumları, yaxınları ilə görüşsünlər, danışsınlar. Bunlar hamısı Şəhriyarın şerlərində öz əksini tapıbdır.

İran İslam inqilabından sonra bizim gözəl, fərəhli günlərimizdən biri də o oldu ki, Azərbaycanın müstəqillik qazandığı barədə xəbəri eşitdik. Bu o günlər idi ki, millətimiz bir-birinə qovuşdu, camaat bir-birini qucaqlayıb ağladı. İndi ən böyük arzumuzdur ki, gün o gün olsun, biz qaçqınlarla birgə gedib Cəbrayılda, Zəngilanda, işğal edilmiş digər rayonlarda oturub çay içək, çörək yeyək, orada onların şadlığının şahidi olaq. Biz özümüz müharibə görmüşük, onun çətinliklərini dərk etmişik. Biz bütün bunları görmüşük və qaçqınların, evlərindən didərgin düşmüş insanların necə çətin günlər keçirdiyini yaxşı bilirik. Allahdan arzumuz budur ki, işğal olunmuş torpaqlar Sizin həyata keçirdiyiniz tədbirlər və millətin hümməti ilə azad edilsin, ölkənizin ərazi bütövlüyü təmin olunsun, biz Azərbaycanın müstəqillik qazandığı günlərdəki kimi sevinək və yenə də şadlıq keçirək.

Cənab Prezident, mən cənab Xatəminin salamını Sizə gətirmişəm. İranda hamı Sizin Tehrana səfərinizi səbrsizliklə gözləyir. Mən ümidvaram ki, bu, çox yüksək nəticəli yaxşı bir səfər olmalıdır. Eyni zamanda cənab Həbibi Azərbaycan Respublikasının Baş nazirinin səfərini gözləyir. İran dövlətinin bir sıra yüksək vəzifəli şəxsləri mənə bildiriblər söyləyim ki, onlar Sizin səfərinizi çox səbrsizliklə gözləyirlər və bu ziyarətinizin gözəl proqramlarla həyata keçiriləcəyinə müntəzirdirlər. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin daha da inkişaf etdirilməsinin çox böyük əhəmiyyəti vardır. Azərbaycan və İran xalqlarının tarix boyu böyük əlaqələri vardır. Mənə elə gəlir ki, hər iki ölkənin heç bir digər dövlətlə bu qədər yaxın tarixi əlaqələri yoxdur. Ona görə də İran və Şərqi Azərbaycan ostandarları Azərbaycan Respublikası ilə bütün sahələrdə əlaqələrin daha da sıxlaşdırılmasına xüsusi diqqət yetirir.

Cənab Xatəmi, cənab Həbibi, cənab Xərrazi buyurublar ki, necə olur-olsun, gərək Təbrizlə Azərbaycan Respublikası arasında əlaqələr daha da möhkəmləndirilsin və biz bu sahədə öz səylərimizi daha da artıraq.

Cənab Prezident, mən çox təşəkkür edirəm ki, Azərbaycanda səfərdə olduğumuz bu günlərdə biz yaxşı görüşlər keçirdik, səmərəli danışıqlar apardıq. Bilirsiniz ki, Şərqi Azərbaycan İranın ən mühüm ostandarlığından biridir. Bilirsiniz ki, bizim ostandarlığımızda sənətkarlıq, əkinçilik, ticarət çox zəngin tarixə malikdir və bu gün də sürətlə inkişaf edir. Bilirsiniz ki, Təbriz tarixən İranın ticarət darvazası hesab olunubdur. Yəni, o vaxt bizim tacirlər ticarətdə çox güclü idilər.

Heydər Əliyev: Təbriz tacirləri kimi dünyada tacir ola bilməz.

Yəhya Məhəmmədzadə: Bəli, çox düzgün buyurursunuz. Dünyanın heç bir yerində Təbriz tacirləri kimi tacir ola bilməzdi. İranda bütün ostandarlıqlara xarici ticarət üçün səhmlər veriblər. Amma bizim ostandarlığa hamıdan çox veriblər. Biz xarici ticarət sahəsində qarşıya qoyulan vəzifəni layiqincə yerinə yetiririk. Cənab Xatəmi Təbrizə gələndə bizim gördüyümüz bu işləri yüksək qiymətləndirdi.

Biz Azərbaycan Respublikası ilə, Naxçıvanla bütün sahələrdə əlaqələrimizin daha da möhkəmləndirilməsinə xüsusi diqqət yetiririk. Doğrudur, bizim əlaqələrimizin gündən-günə inkişaf etməsində müəyyən çətinliklər də vardır. Naxçıvanın Bakı ilə yolları bağlandığına görə müəyyən problemlər yaranır.

O taylı-bu taylı azərbaycanlı tacirlər bir-biri ilə görüşəndə xalqlarımızın tarixi əlaqələri barədə xatirələri həvəslə yada salırlar, əvvəlki get-gəlləri şirin-şirin təriflə-yirlər. Bizim də əsas vəzifəmiz ondan ibarətdir ki, xalqlarımızın tarixi əlaqələrinin daha da möhkəmləndirilməsinə nail olaq. Biz istəyirik ki, Naxçıvanla daha sıx əlaqə quraq. Cənab Xatəmi də mənə tapşırıb ki, biz ticarətin daha da genişləndirilməsi, getgəlin artırılması, Muxtar Respublikanın ərzaqla təmin olunması sahəsində əlimizdən gələni əsirgəməyək. Ona görə də biz Naxçıvana qazanc əldə etmək gözü ilə baxmırıq.

Şərqi Azərbaycanın ostandarı işlədiyim ötən bu iki il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisini sədri Vasif Talıbov bir dəfə Təbrizə gəlib, biz bir protokol da imzalamışıq və həmin protokolda nəzərdə tutulanların hamısını yerinə yetirmişik. Bundan sonra mən Naxçıvana getmişəm, biz təzə bir protokol imzalamışıq. Həmin müddətdə biz gömrük xidmətini gün ərzində 12 saatdan 24 saata qaldırmışıq. Yəni, biz elə etmişik ki, camaat gömrük xidmətindən gecə-gündüz istifadə etsin, rahat keçib getsin, gəlsin. Sərhəd də bazarla həftədə 5 gün işləyir. Çalışırıq ki, orada çörək, makaron, bütün ərzaq məhsulları olsun. Təbrizdə xüsusi bir çörəkxana açılıb, orada çörək bişirilir, qutulara yığılıb bağlanır və avtomaşınlarla sərhəddəki bazarlara aparırlar ki, çörək əllərdə ovulub tökülməsin. Biz həm də çalışırıq ki, həmin çörək çox ucuz qiymətə satılsın.

Biz Naxçıvanla sərhəddəki körpünü təmir etməyi qərara almışıq. Bildiyiniz kimi, həmin körpü taxtadandır. Qərara almışıq ki, yeni bir körpü tikək. Çalışırıq ki, Sərhəng ilə Naxçıvan arasında bir sıra sahələrdə əlaqələr daha da yaxşılaşsın. Biz Mərkəzdən Ordubada gedən yola asfalt çəkməyi qərara almışıq və istəyirik ki, bu, Naxçıvan camaatına bizim yeni bir hədiyyəmiz olsun.

Heydər Əliyev: Orada yolun biri Ordubada, digəri Naxçıvana gedir.

Abbasəli Həsənov: Bəli, həmin əraziyə qədər yolu Şərqi Azərbaycan ostandarlığı öz hesabına çəkəcəkdir.

Yəhya Məhəmmədzadə: Biz həftədə 5 dəfə Naxçıvan camaatının Məşhədə gəlməsinə şərait yaratmışıq. Əvvəllər Məşhədə ziyarətə gəlmək xərci bir qədər çox idi. Biz fikirləşdik ki, həmin adamlar İmam Rzanın zəvvarlarıdır, ona görə də bu ziyarət xərclərini yarıya qədər azaltdıq. Məsələn, əvvəllər bu ziyarətin xərci 60 dollar edirdi, indi biz onu 32 dollara endirmişik. Naxçıvanla səhiyyə sahəsində əlaqələrimizin də yaxşılaşdırılmasına ciddi diqqət yetiririk.

Biz Azərbaycan-İran Müştərək Kommissiyasının həmsədri, Azərbaycan Milli Məclisinin sədrinin müavini Yaşar Əliyevlə görüşmüşük, onunla yaxşı söhbətlər etmişik. Nümayəndə heyətimiz Bakı şəhər İcra Hakimiyyətinin başçısı Rəfael Allahverdiyevlə, ticarət naziri Fərhad Əliyevlə, Baş nazir Artur Rəsizadə ilə, Milli Məclisin sədri Murtuz Ələsgərovla görüşlər keçirilmişdir.

Biz Sumqayıtda olmuşuq. Nümayəndə heyətimizin üzvləri respublikanın səhiyyə naziri ilə görüşüblər, Ticarət-Sənaye Palatasında olublar. Biz Təbrizdəki bir sıra şirkətlərin nümayəndələrini də buraya gətirmişik ki, onlar Azərbaycanda müxtəlif tenderlərdə iştirak etsinlər, bir sıra sahələrdə əlaqələr qursunlar.

Bilirsiniz ki, Təbrizin bir çox tacirləri Bakıda işləyirlər. Ancaq onların adı heç kimə məlum deyil. Biz həmin iş adamları ilə görüşmüşük və söhbət etmişik ki, təbrizli tacir gərək Təbriz adı ilə işləsin. Biz Təbrizdəki şirkətlərin rəhbərlərinə demişik ki, gərək onlar Bakıda fəaliyyət göstərən təbrizli iş adamları ilə sıx əlaqələr saxlasınlar, onlara himayədarlıq etsinlər, azərbaycanlı tacirlərlə də yaxşı əlaqələr qursunlar.

Yenə də deyirəm, bizim Bakıda çox yaxşı görüşlərimiz olubdur. Qərara almışıq ki, Təbriz Tibb Universiteti Bakıda bir elmi konfrans keçirsin. İstəyirik ki, təbrizli həkimlər gəlib burada öz həmkarlarına bir çox sahədə köməklik göstərsinlər.

Biz ustad Şəhriyarın yubileyini keçirdik. Bu yubileydə azərbaycanlılar da yaxından iştirak etdilər. Mədəniyyət naziri Polad Bülbüloğlu həmin tədbirdə iştirak etdi. Yubiley tədbirində deyildi ki, Azərbaycan Prezidenti Heydər Əliyev Şəhriyarın yubileyinin böyük təntənə ilə qeyd edilməsi barədə sərəncam imzalayıbdır. Biz bu xəbəri çox böyük sevinclə qarşıladıq. Gözləyirik ki, Siz Azərbaycanda Şəhriyarın yubileyinin keçirilməsi vaxtını müəyyən edəsiniz, bizim də alimlərimiz gəlib həmin tədbirdə iştirak etsinlər. Biz çox istəyirik ki, böyük, müasir Şəhriyarın adı xatırlansın, əziz tutulsun.

Şərqi Azərbaycan əyalətinin ostandarına minnətdarlığını bildirən Prezident Heydər Əliyev dedi:

- Təşəkkür edirəm, cənab Məhəmmədzadə. Siz çox gözəl məlumat verdiniz. Əvvəlcə istəyirəm deyəm ki, sizin burada apardığınız görüşlər, danışıqlar haqqında mənə Yaşar Əliyev məlumat veribdir və sizin bu görüşlər haqqında fikirləriniz və buna münasibətiniz mənim üçün çox əhəmiyyətlidir. Biz indiyə qədər İranın ostandarlıqlarının nümayəndəlikləri ilə burada görüşmüşük, onları qəbul etmişik. Məsələn, Gilan ostanlarlığının nümayəndələri bir neçə dəfə gəliblər. Sonra Ərdəbil ostanından gəliblər. Şərqi Azərbaycandan da nümayəndələr gəliblər, burada görüşmüşük. Məndə belə bir təəssürat yaranır - indiyə qədər olan ziyarətlərin hamısı əhəmiyyətli, faydalı olubdur. Amma mənə belə gəlir ki, Sizin bu ziyarətiniz göstərir ki, Siz, yəni, Şərqi Azərbaycan bu Azərbaycanla əməkdaşlıqda çox irəliyə gedirsiniz. Sizin bütün bu təşəbbüslərinizi mən tamamilə qəbul edirəm və əmin ola bilərsiniz ki, nə qədər belə təşəbbüsləriniz olsa mən bəyənirəm. Əvvəlcədən də deyəcəyəm, bəyənəcəyəm. Çünki mən bunu görüşümüzün əvvəlində dedim.

İran böyük ölkədir. Azərbaycan kiçik ölkədir. Şübhəsiz ki, müstəqil dövlətlər kimi Azərbaycan Respublikası və İran İslam Respublikası bərabər hüquqlu dövlətlərdir və bərabər hüquqlu əməkdaşlıq edirlər. Ancaq, eyni zamanda, İranın - bu böyük ölkənin hamısını Azərbaycan əhatə edə bilməz. Təbiidir ki, İranın o hissəsi ilə ki, Azərbaycan, biz daha da sıx əməkdaşlıq edə bilərik, bu da ümumiyyətlə, Azərbaycan-İran əlaqələrini inkişaf etdirə bilər, bunu etmək lazımdır. Bax, Sizin bu təşəbbüsləriniz mən hesab edirəm təxminən bu səpkidə gedir. Ona görə mən bunların hamısını bəyənirəm və əmin olun ki, bunların hamısını etməyə burada, Azərbaycanda imkanlar yaradacağam və yaranacaqdır. O dəvətlərinizin hamısını qəbul edirəm. Yaşar Əliyev gəlsin, oradan Azərbaycan-İran Müştərək İqtisadi Ticarət Komissiyasının bir iclasının toplantısını keçirin. Azərbaycanın Baş nazirini dəvət etmisiniz, o da gələcəkdir. İndi, Allah qoysa, şübhəsiz ki, vaxt olacaq, mən də gələcəyəm. Ondan sonra cənab Xatəmi söz verib ki, o da gəlsin. Mən onu əvvəl dəvət etdim. O, Tehranda, İslam Konfransında mənim dəvətimi qəbul etdi. Mən də onu gözlədim. Amma sonra Sizin səfir mənə məlumat verdi ki, cənab Xatəmi hesab edir ki, əvvəl qoy Heydər Əliyev gəlsin, sonra. Eybi yoxdur, mən bunu qəbul edirəm. Mən gələcəyəm. Bundan sonra da cənab Xatəminin Azərbaycana ziyarətini gözləyirik.

Cənab Xatəminin mənə çatdırdığınız salamına görə təşəkkür edirəm. Xahiş edirəm, cənab Xatəmiyə mənim hörmət və ehtiramımı, salamımı çatdırasınız. Çox arzu edirəm ki, cənab Xatəmi İranda demokratik şəkildə keçmiş seçkilər nəticəsində səslərin çoxunu alaraq, xalqın səlahiyyətini alaraq İran İslam Respublikasında xalqın rifahını artırmaq üçün və İran İslam Respublikasını inkişaf etdirmək üçün bundan sonra daha da çox işlər görəcəkdir. Mən bu işlərdə həm İran hökumətinə, həm İran xalqına, həm də hörmətli rəisi - cumhur, Prezident cənab Xatəmiyə uğurlar arzulayıram.

İranla Azərbaycan arasındakı əlaqələr haqqında danışanda çox söz demək olar. Sən bir mövzuya toxundun ki, gün o gün olsun, Azərbaycanın işğal edilmiş torpaqları azad olsun, biz gedək orada oturaq, görüşək, çay içək, çörək yeyək. Bu, olacaqdır, mütləq olacaqdır. Siz bilirsiniz ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının böyük bir qismi Azərbaycanla İranın sərhəddini təşkil edir. Biz o işğala görə İranla təxminən 120 kilometr sərhəddimizi itirmişik. Bu, Füzuli rayonunun bir hissəsidir, ondan sonra Cəbrayıl rayonudur, ondan sonra Zəngilan rayonudur. Bizim bu üç rayon Arazın qırağındadır. Bütün bu işğal edilmiş torpaqlar azad olmalıdır və güman edirəm ki, azad olacaqlar. Ancaq bu rayonlar, hansılar ki, bizim İranla sərhəddimizi təşkil edir və orada dəmir yolu vardır, o dəmir yolu ilə də - indi həmin o Culfa körpüsü haqqında deyirsiniz - İran bütün Şimal ilə - Avropa ilə dəmir yolu vasitəsilə bağlıdır. Yüklər daşınırdı, çox böyük işlər görülürdü. İndi Azərbaycanın torpaqları işğal olunduğuna görə, şübhəsiz ki, bunlardan böyük bir məhrumiyyətdəyik. Ancaq eyni zamanda bundan İran da itiribdir.

Mənim xatirimdədir, hələ Sovet hökuməti vaxtında, sovet dövründə, məsələn, Rusiyadan, Avropadan dəmir yolu Bakıya, Culfaya, İrana gəlirdi. Bu da İranın ticarəti üçün çox əhəmiyyətli idi. Mən Naxçıvana son dəfə 1990-cı ildə gəldim, 1992-ci ildə isə bu dəmir yolu bağlandı. 1992-ci ilə qədər bu xətdə qatarlar işləyirdi. İran tacirləri dəmir yolu ilə Culfadan gəlib keçirdilər. Mən Naxçıvanda Ali Məclisin sədri olduğum zaman Rusiyaya, yaxud da Avropa ölkələrinə mal aparırdılar, gətirirdilər.

İndi bu işğal edilmiş torpaqların azad olunması bizim üçün ən əsas vəzifədir. Bizim ən böyük dərdimizdir. Ancaq, eyni zamanda, bu torpaqlar azad olanda İran-

Azərbaycan əlaqələri daha da güclənəcək, daha da genişlənəcəkdir. Birincisi, yol açılacaqdır. Bu, böyük bir hadisədir, çox böyük bir şeydir. İkincisi, bizim orada, Xudafərində böyük bir su hövzəsi, bənd tikmək layihəmiz vardır. İşi başlamışdıq, yarımçıq qalıbdır. Onu yerinə yetirəcəyik. Başqa da çox işlər görəcəyik. Bunları biz edəcəyik.

Mən bu gün Sizə deyirəm ki, əlbəttə, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi müstəqil Azərbaycanın həyatını ağırlaşdıran, çətinləşdirən bir vəziyyətdir. Torpaqlarımızın 20 faizi işğal olunubdur. Bir milyondan artıq insanlarımız yerindən, yurdundan didərgin düşüb, çadırlarda yaşayıb, ağır vəziyyətdə yaşayırlar. Biz bu torpaqların azad edilməsinə nail olmalıyıq və nail olacağıq. Yollar da açılacaqdır. Hamısı açılacaqdır. Mən buna tam inanıram və biz buna nail olacağıq. Onda bizim əməkdaşlığımız daha da genişlənəcəkdir.

Mən bu barədə danışanda qeyd etmək istəyirəm ki, beynəlxalq aləmdə çətin problem olan Ermənistan-Azərbaycan münaqişəsində İran həmişə Azərbaycanın haqq işini müdafiə edibdir. İran hökuməti daim Ermənistanı bir təcavüzkar kimi məhkum edibdir, təcavüzkar kimi tanıyıbdır, Azərbaycan torpaqlarına təcavüz edən kimi tanıyıbdır. Beynəlxalq təşkilatlarda, o cümlədən son dəfə sizinlə görüşdüyümüz toplantıda- Tehranda İslam Konfransı Təşkilatının görüşündə Ermənistanın haqqında üç qətnamə qəbul olundu. Bütün İslam ölkələri bizi müdafiə ediblər. O cümlədən, şübhəsiz ki, İran İslam Respublikası da müdafiə edibdir. Buna görə də bir daha təşəkkür edirəm.

Bizim qaçqınlara neçə illərdir ki, İrandan yardımlar gəlir, insanlar bu yardımdan istifadə edirlər. Buna görə də biz minnətdarıq. Ancaq yenə də deyirəm, bizim əlaqələrimiz elə indiki bu mövcud şəraitdə daha da geniş ola bilər. Daha da yaxşı ola bilər. Bunu etmək lazımdır.

Siz, cənab Məhəmmədzadə, Naxçıvan haqqında danışdınız. Həqiqətən, İranla Azərbaycanın əməkdaşlığında Naxçıvan xüsusi yer tutur. Bu da birinci ona görədir ki, Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycanın əsas hissəsindən, Bakıdan, paytaxtdan Azərbaycanın ayrılmaz hissəsi olan yollar hamısı kəsilibdir. Dəmir yolu kəsilib, avtomobil yolu kəsilibdir. Bir təyyarələr gedir-gəlir. Təyyarələrlə də çox işlər görmək olar. Ona görə bu müddətdə, birincisi, İrandan, İran ərazisindən Azərbaycanın Naxçıvanla əlaqə saxlamasında İranın gördüyü işlər bizim üçün çox əhəmiyyətlidir. Bu işlər mən Naxçıvanda işlədiyim zaman da var idi. Çünki yenə də deyirəm, 1992-ci ilə qədər yollar açıq idi. Düzdür, vəziyyət çox gərgin idi, amma yollar açıq idi. 1992-ci ilin yay aylarında bu yollar bağlandı. Bundan sonra biz İrana müraciət etdik. Şübhəsiz ki, Azərbaycan dövləti də müraciət etdi, amma Naxçıvan burada xüsusi fəlallıq göstərdi ki, bizə yol açsınlar və yol da açıldı. İndi bu yoldan da istifadə olunur. Bəzən mənə deyirlər ki, maneçilik var, filan var və sair var. Görünür ki, bu, ayrı-ayrı məmurların, bürokratların işidir. Mən bilirəm ki, İran hökumətinin bu barədə siyasəti dönməzdir, dəyişməzdir və biz bundan istifadə edirik, bundan sonra da istifadə edəcəyik.

Bu Naxçıvan üçün böyük şeydir. Mən o illər, 1990-cı ildən 1993-cü ilə qədər Naxçıvanda yaşadım. Naxçıvanın nə qədər ağır vəziyyətdə olduğunu ancaq naxçıvanlılar bilir. Ola bilər, burada az adam bilir. Çünki o vaxt Naxçıvana Bakıdan, yaxud başqa yerlərdən gedib-gələn yox idi. Biz orada bir təcrid olunmuş ada

kimi yaşayırdıq. Çox ağır vəziyyətdə yaşayırdıq. Bir tərəfdən Ermənistanla müharibə gedirdi, Ermənistan-Azərbaycan sərhədlərində atışma gedirdi, orada müharibənin qarşısını almaq lazım idi. Bir tərəfdən də insanları yaşatmaq lazım idi. Mən heç vaxt unutmaram ki, İran o zaman bizə çox köməklik etdi.

Mən cənab Haşimi Rəfsəncaninin dəvəti ilə İranı iki dəfə ziyarət etdim. O, bizi Tehrana dəvət etdi, orada müqavilələr imzaladıq, sənədlər imzaladıq və Azərbaycana köməklik gəldi. Biz elektrik enerjisindən tamamilə məhrum olmuşduq. Biz elektrik xəttini çəkdik, gətirdik. O elektrik xəttinin açılışı mənim xatirimdədir. Naxçıvan indiyə qədər ondan istifadə edir. Biz, eyni zamanda, Türkiyədən xətt çəkdik, Türkiyədən körpünü açdıq, çəkdik. Amma İrandan da çəkdik. Düzdür, nə İrandan gələn elektrik enerjisi, nə də Türkiyədən gələn elektrik enerjisi Naxçıvanın tələbatının hamısını təmin etmir. Amma o vaxta qədər biz ancaq Arazdan götürürdük. Özü də biz oradan cəmi 20 meqovatt götürürük, bir o qədər də İran götürürdü. Bununla Naxçıvanı təmin etmək mümkün deyildi. Şübhəsiz, amma bir müddət onunla yaşadıq.

Sonra, yadımdadır, bu körpü məsələsi- o tay Culfada, bu tay Culfada bazar açıldı. Sonra Şahtaxtı, Poldeşt- bu artıq Qərbi Azərbaycanla bizim əlaqələrimiz oldu. Onlar edilibdir. Şübhəsiz ki, bu, birinci növbədə İran İslam Respublikasının Azərbaycana, Naxçıvana olan doğru, düzgün, ədalətli və qardaş münasibəti idi. Eyni zamanda Şərqi Azərbaycan burada çox böyük işlər görürdü. Mən o vaxt Təbrizə ziyarətlərimi çox məmnuniyyətlə xatırlayıram. Təbrizdən Naxçıvana nə qədər insanlar gəlirdi, görüşürdük, bir-birimizə kömək edirdik. Ancaq mən bilirəm və indi Naxçıvanın başçısı Vasif Talıbov vaxtaşırı məni məlumatlandırır ki, son vaxtlar İran hökuməti Naxçıvanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün əvvələ nisbətən bir çox yeni tədbirlər görübdür. İndi onların hamısını Siz dediniz. Mən bunların hamısını bilirəm və bunlar Naxçıvan üçün çox əhəmiyyətlidir. Bunlara görə də mən çox təşəkkür edirəm. Güman edirəm ki, Azərbaycanın da Şərqi Azərbaycanla, Təbrizlə ən yaxın yeri Naxçıvandır. Naxçıvandan Təbrizə avtomobillə 2 saata getmək olur. Elədir, yoxsa yox? Yəqin ki, Siz də elə getmisiniz.

Bilirsiniz, mən Naxçıvanda doğulmuşam. Mənim gəncliyim orada keçibdir. Doğrudur, o vaxtlar yolları bağlamışdılar. Amma yenə də bizim üçün Təbriz, Təbriz, Təbriz! Elə bil ki, əlini uzat, Təbrizə çatacaqsan. Amma o məftillər bizi qoymurdu. Ona görə Naxçıvanın problemlərinin həlli üçün Sizin indiyə qədər etdiyinizə görə təşəkkür edirəm. Xahiş edirəm, mənim təşəkkürümü cənab Xatəmiyə çatdırasınız.

Bilirəm, orada dəmir yolu işləyir. Oradan Məşhədə dəmir yolu işləyir, onu da bilirəm. Hamısını bilirəm. Bunlar çox gözəldir və ümidvaram ki, Siz bundan sonra da yardımınızı əsirgəməyəcəksiniz, davam etdirəcəksiniz. Beləliklə, Şərqi Azərbaycan, demək olar, İran-Azərbaycan əlaqələrində mərkəz yeri tutmalıdır və Sizin, bax, bu təşəbbüsləriniz göstərir ki, Siz mərkəz yeri tutursunuz.

Bəli, Təbriz ticarəti ilə dünyada çox məşhurdur. Mənə belə gəlir ki, elə İranda tacirlərin əksəriyyətini təbrizlilər təşkil edir. Ona görə də Siz doğru buyurdunuz. Təbriz adı ilə, Təbriz tacirləri adı ilə tacirlər burada da fəaliyyət göstərməlidirlər.

Bilirsiniz, indi bizim xarici sərmayəyə çox ehtiyacımız vardır. Biz qapılarımızı açmışıq. Kim bizə xarici sərmayə gətirirsə,

o, bizim üçün nəinki qəbuldur, biz bunu məmnuniyyətlə qəbul edirik. Doğrudur, mən indi bəzi nöqsanları da deməliyəm. Bizim bu dövlət orqanlarında, bizim məmurlarda, bürokratlarda sərmayənin Azərbaycana gəlməsinə mane olanlar da vardır. Bəlkə bizim qanunlarda da bəzi çatışmazlıqlar vardır. Mən bunları son vaxtlar çox dərindən təhlil edirəm və güman edirəm ki, müəyyən tədbirlər görəcəyik. Ancaq mən bilirəm ki, bizim Azərbaycanda ayrı-ayrı məmurlar, bürokratlar, məsələn, xaricdən gələn bir iş adamının, o cümlədən İrandan gələn bir iş adamının iş görməsi üçün maneçilik törədirlər. Bunu da öz şəxsi mənafeyinə görə edirlər. Bu şəxsi mənafeyinə görə o hərəkətləri edərək, Azərbaycanın ölkə kimi, dövlət kimi mənafeyinə zərbə vurur, zərər vururlar. Bunlar da bəzən xarici sərmayəçiləri soyudur.Düzdür, çoxları gəlir, sərmayə qoyur, yollar tapırlar.

Məsələn, neft sahəsində bizim bütün müqavilələr elə təşkil olunubdur ki, heç bir bürokrat bunun içinə girə bilməz, heç bir məmur burada mane ola bilməz. Bunlar hamısı yüksək nəzarət altındadır. Onlar yaxşı gedir. Ancaq bizim başqa sahələrə də çox ehtiyacımız vardır.

Mən bilirəm, burada xarici sərmayəçilər üçün, ola bilər, elə İrandan gələn sərmayəçilər üçün də bəzi problemlər vardır. Biz bu problemləri həll edəcəyik. Güman edirəm ki, bu problemlər indi bizdə var, amma bu, Müstəqil Dövlətlər Birliyi ki var, Sovetlər İttifaqından müstəqillik almış ölkələr ki var, orada bizdən də çoxdur- elə Rusiyada, yaxud başqa yerlərdə bizdən də çoxdur. Amma bu o demək deyil ki, bu olmalıdır. Bu olmamalıdır. Bizim də hökumət kimi, dövlət kimi bocumuz bütün bu nöqsanları aradan qaldırmaqdır. Bu nöqsanlar müvəqqəti xarakter daşıyır- bu gün var, sabah olmayacaqdır. Ancaq bizim bu əlaqələrimiz və xüsusən, Azərbaycana sərmayə gətirmək arzumuz daimi xarakter daşıyır. Ona görə də, Siz baxın, bir ticarət yox, - şübhəsiz ki, ticarət yaxşıdır,- buraya sərmayə gətirib qoymaq, iş düzəltmək, müəssisə yaratmaq lazımdır.

Biz indi özəlləşdirmə aparırıq. Bizim çoxlu fabriklərimiz, zavodlarımız vardır. Bunları özəlləşdirmək lazımdır. Biz onları qanunlarla xarici sərmayəçilərə verməyə hazırıq və verməliyik. Bütün bunlardan istifadə etmək lazımdır. Hər halda, Şərqi Azərbaycanda, Təbrizdə bilirəm ki, bu barədə zəngin adamlar çoxdur. Onlar öz kapitalını harasa qoyub, xeyir götürməlidir. Yoxsa, o nədir, kapitalı bankda yatırdır, harasa qoyub, işlədib, xeyir götürməlidir. Azərbaycan bu sahədə çox münasib yerdir. Güman edirəm, Siz bu sahəyə də fikir verəcəksiniz.

Mədəniyyət, elm sahəsindəki əlaqələri genişləndirmək lazımdır. Siz bilirsiniz ki, Azərbaycanda mədəniyyət çox yüksək səviyyədədir, inkişaf edibdir. Bəlkə, XX əsrdə Azərbaycanın ən böyük nailiyyətlərindən biri Azərbaycan xalqının yüksək təhsil alması, yüksək elm yaratması və yüksək mədəniyyətə malik olmasıdır. Bizim teatrlarımız, musiqimiz, bəstəkarlarımız, yazıçılarımız, şairlərimiz çox məşhurdur. Ancaq İran da qədimdən böyük şairlər ölkəsidir- Firdovsidən başlamış bütün başqa şairlər.

Məsələn, Nizami Azərbaycan şairidir. Amma farsca yazıbdır. Ona İran şairi də deyirlər. Biz etiraz etmirik, Nizami elə bir şairdir ki, o, bütün dünyanın şairidir. Hansı ölkədə desələr o, bizim şairimizdir, əgər, onu, doğrudan da, qiymətləndirib öz şairləri hesab etmək istəyirlərsə, etiraz yoxdur.

Şəhriyar isə bizim müasir şairimizdir, bizim üçün çox əzizdir. Bilmirəm, bəlkə bizim Azərbaycanda Şəhriyarı sizdən çox sevirlər. Bunu da bilməlisiniz. Şəhriyarın məzarını, orada Sizin yaratdığınız o abidəni çox böyük sevinc hissi ilə, böyük minnətdarlıq hissi ilə ziyarət etdim. Bilirsiniz ki, Azərbaycandan Təbrizə gedən adamlar hamısı, birinci növbədə, Şəhriyarın məzarını ziyarətə gedirlər.

Şəhriyarın yubileyi haqqında mən böyük bir sərəncam verdim. Mən hər şeyi açıq danışıram, - hətta mənə dedilər ki, İranda kimsə inciyir, - bu, İran şairidir. Bu həm İran şairidir, həm Azərbaycan şairidir. Bunu bir-birindən ayırmaq olmaz. Biz demirik ki, Şəhriyar İran şairi deyil, İran şairidir. Amma biz deyirik o, eyni zamanda, Azərbaycan şairidir. Bu, bizim doğma şairimizdir və Azərbaycan haqqında onun yazdığı əsərlər insanlara nə qədər mənəvi qida veribdir, nə qədər böyük ruh veribdir.

Ancaq bizdə yubiley təkcə zirvə görüşündən ibarət deyildir. Yubiley belədir ki, bizdə konfrans keçirilir, kitablar nəşr olunur, başqa tədbirlər keçirilir, axırda zirvə tədbiri olur. O müddətdən ki, mən sərəncam vermişəm, Azərbaycanda Şəhriyar haqqında, yəni, onun xatirəsi, onun yubileyi ilə bağlı çox işlər görülübdür. Əmin ola bilərsiniz ki, biz o zirvə tədbirini də keçirəcəyik. O vaxt Sizin keçirdiyiniz yubileyə bizdən ancaq mədəniyyət naziri gəldi. Bəlkə siz başqasını dəvət etməmisiniz. Amma məni dəvət etsəydiniz, mən də gələrdim. Amma mən sizi, hamınızı dəvət edirəm. O cümlədən, cənab Xatəmini də dəvət edirəm.

Yəhya Məhəmmədzadə: Cənab Prezident, biz qüsur etmişik.

Heydər Əliyev: İndi mən bu qüsuru düzəldəcəyəm. Bunlar hamısı bizim münasibətlərimizin yaxşı tərəfidir və bunları inkişaf etdirməliyik, biz çalışmalıyıq ki, İran-Azərbaycan əlaqələrində heç bir ləkə olmasın.

Bizim bir ümumi narazılığımız vardır. Uzun illərdir deyirik ki, məsələn, İranla Ermənistan arasında çox sıx iqtisadi əməkdaşlıq vardır. Biz bunu deyirik, ancaq İran tərəfindən bizim bu arzularımız yerinə yetirilmir. Çünki deyirlər ki, biz iqtisadi əlaqələr yaradırıq, filan edirik. Ancaq iş burasındadır ki, məsələn, Ermənistanın Prezidenti var idi- Levon Ter-Petrosyan. O, il yarım bundan qabaq istefa verdi. O, bir neçə dəfə demişdi ki, əgər, İrandan iqtisadi əlaqələrlə gələn şeylər iki gün kəsilsə, Yerevan boğular. Bax, bunu o özü demişdi. Yəni bu iqtisadi əlaqələr, şübhəsiz ki, İran üçün faydalıdır. Çünki ticarət etməlidir, öz mallarını satmalıdır. Ancaq bizimlə qardaşlıq nöqteyi-nəzərindən, bizim ölkəmizə təcavüz edən bir ölkə ilə iqtisadi sahədə bu qədər əməkdaşlıq etmək- mən açıq danışıram, indi ola bilər, kimsə incisin, ya inciməsin - bu bizi incidir.

Mən bunu dəfələrlə demişəm. Cənab Haşimi Rəfsəncaniyə demişəm, Ali Dini Rəhbər, cənab Xamneyiyə demişəm. Son dəfə İslam Konfransı olanda Ali Rəhbər Ayətulla Xamneyi ilə görüşdüm, orada ona da dedim. Cənab Xatəmiyə də demişəm. Ancaq, vəziyyət dəyişmir. Mən bilirəm ki, Siz burada vəziyyət dəyişdirən deyilsiniz. Ancan sadəcə deyirəm ki, bizim aramızda gərək hər şey düz olsun.

Məsələn, Şərqi Azərbaycandan oraya körpü açmısınız. Bilmirəm, o körpü gündə o tərəf bu tərəfə nə qədər maşın keçirir. Bu, sizin öz işinizdir. Ancan mən bunu deməliyəm.

İkinci bir məsələ də ondan ibarətdir ki, İran böyük, qüdrətli bir dövlətdir. Qüdrətli dövlət olaraq da yaşayacaqdır. Dünya Birliyində özünün böyük yeri vardır. İran İslam inqilabının bu il 20 ili tamam olubdur.

Uzun illər şahənşah üsul-idarəsi olubdur. Amma İran xalqı öz seçimini edibdir, inqilab edibdir. İran İslam inqilabı xalqı hakimiyyətə gətiribdir və İran İslam Cumhuriyyəti elan olunubdur. Bu xalqın rəyi nədir, xalqın seçimi nədir- o da çox gözəldir. Biz İrana bir İran İslam Respublikası kimi böyük hörmət edirik. Çünki dünyada çox islam dövlətləri vardır. Amma bizim üçün ən yaxın qonşu və bütün sahələrdə yaxın olan İran İslam Respublikasıdır, islam dövlətidir. Biz qonşuyuq, bir-birimizə çox yaxınıq.

Amma Azərbaycanda bu gün deyil, on illərlə, yüz illərlə dövlət dünyəvi xarakter daşıyır. Bu da Azərbaycanın ənənəsidir. Ona görə də biz müstəqil olandan elan etdik ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir. Azərbaycanda din 70 il qadağan olunmuşdur. Amma dəfələrlə demişəm ki, xalq dindən ayrılmadı, dini qəlbində yaşatdı. Başa düşürsünüz, o vaxt ki, dinin üzərindən qadağa götürüldü, qısa müddətdə bir də gördün ki, din hər yerdə öz yerini aldı. Biz müsəlmanıq, bizim kökümüz müsəlmandır. Nə təhər deyərlər, biz islam dininin törəmələriyik. Ona görə də öz köklərini tanımayan, öz köklərini qiymətləndirməyən insan, yaxud millət heç vaxt millət ola bilməz. O vaxt mən Naxçıvanda da olanda İrandan din xadimlərini dəvət edirdim ki, gəlsinlər. O vaxt hələ bizim lazımi qədər din xadimlərimiz yox idi. Azərbaycan dünyəvi dövlətdir, burada din dövlətdən ayrıdır. Ancaq dinin öz yerini tutması üçün biz son illər çox işlər görmüşük.

Sizə məlumdur, burada müqəddəs bir yer var, ziyarətgah, pir- "Bibiheybət" piri. İmam Rzanın qızı, Həzrəti Muscyi- Kazımın da bacısı Həzrəti Hökumə xanım orada dəfn olunubdur. Orada vaxtilə böyük bir məscid tikilmişdi və o məscid ikinci dəfə Şirvanşahlar dövründə tikilibdir. Ancaq 1932-ci ildə o məscid dağıdılıbdır. Ancaq insanlar o müqəddəs yeri heç vaxt unutmayıblar, həmişə oraya gediblər, oranı ziyarət ediblər. Xəstəsi gedib orada Allahdan şəfa diləyib, bir ağır işi olan gedib orada Allahdan imdad diləyibdir. İnsanlar inanıblar.

Məsələn, mənim təşəbbüsümlə indi orada gözəl bir məscid tikilibdir. Bilmirəm, gördünüz, yoxsa yox?

Yəhya Məhəmmədzadə: Bəli, cənab Prezident, gördük. Sizin orada fotoşəkillərinizi də gördük.

Heydər Əliyev: Allaha şükürlər olsun ki, gördünüz. Mənim təşəbbüsümlə tikilibdir. Yəni, mən bir dünyəvi dövlətin başçısıyam. Amma öz xalqımın mənəvi dəyərlərini, dinini, şübhəsiz ki, yaşatmaq istəyirəm. Oranı kim dağıtdısa, ancaq indi orada əvvəlki məscidlərdən daha da əzəmətli bir məscid tikildi. İndi insanlar yenə də oraya ziyarətə gedirlər. Siz gördünüz o qəbirləri də birləşdirdik. Amma vaxtilə o qəbirləri tamamilə itirmişdilər. Ancaq xalq bilirdi ki, o qəbirlər haradadır. Biz qaldırdıq, yerləşdirdik, hamısını etdik.

Məsələn, mən Naxçıvanda olanda Tehrana gəlmişdim. Danışdıq, mən xahiş etdim, o vaxtlar "Rəfiqdust" təşkilatı var idi. Şübhəsiz ki, hökumətin göstərişi ilə o təşkilatla birgə gəldik. Naxçıvanda böyük bir məscidin əsasını qoyduq. Siz gedib onu görmüsünüzmü?

Yəhya Məhəmmədzadə: Bəli, cənab Prezident, o artıq tamamlanıbdır.

Heydər Əliyev: Bilirəm, tamamlanıbdır. Bu ilin oktyabr ayında gedib oranı bir yerdə açacağıq. Ora Siz də gələcəksiniz, mən də gələcəyəm. Çox gözəl bir məsciddir. Mən onu tikiləndən sonra görmədim, amma onun bütün layihəsinin hamısını görmüşəm, baxmışam. Bunları bir yerdə etmişik. Əsasını da bir yerdə qoymuşuq. Amma tikən, yaradan

İran tərəfi olubdur. Bu da bizə köməkdir. Bu, yeganə bir hal deyildir. Bunlar çoxdur və bunları biz edirik, edəcəyik.

Amma Azərbaycanda din dövlətdən ayrıdır. Azərbaycanda islam dövləti yoxdur, dünyəvi dövlət vardır. Buna görə də indi bəzi hallarda İrandan bəzi din xadimlərinin gəlib burada müəyyən təbliğat aparması bizə zərər gətirir. Bunlar lazım deyil.

Məsələn, o vaxtlar mən özüm Naxçıvanda olanda deyirdim gəlsinlər. Çünki niyə? Onda bizim yetərli qədər din xadimlərimiz yox idi. Amma indi din xadimlərimiz var, şeyx var, şeyxülislam var.

Sovet hakimiyyəti vaxtı din qadağan idi. Amma Qafqaz Müsəlmanlarının Ali Ruhani İdarəsi Bakıda yerləşirdi və şeyxülislam var idi. Bu şeyxülislamdan qabaq, Sovet hakimiyyəti vaxtı da şeyxülislam var idi. Mən onu da tanıyırdım - Əlizadə, adı yadımdan çıxıbdır - şeyxülislam idi. Uzun müddət Azərbaycanda şeyxlik edib və bütün Qafqazın şeyxülislamı idi.

Ona görə, dini əqalələr, şübhəsiz ki, olmalıdır, inkişaf etməlidir. Bu, təbiidir və biz bunu etməliyik. Ancaq bir-birinin daxili işinə qarışmaq, - mən hesab edirəm ki, bu, olmamalıdır. Biz bir dövlət olaraq, dost, qardaş olaraq, heç vaxt İran İslam Respublikasının daxili işlərinin heç birinə qarışmırıq və qarışmarıq. Müxalifətdən kimsə burada qəzetdə nə yazırsa, onlara fikir verməyin. Mən səfirə bir-iki dəfə demişəm: bir var dövlətin siyasəti, bir var ki, - indi bizdə mətbuat azadlığıdır, - müxalifətin, yaxud da ayrı-ayrı qəzetlərin fikri. Onlar dövlətin siyasətini ifadə etmir. Biz İranın daxili işlərinə qarşımırıq ki, İranda, nə bilim, niyə çadra örtürlər? Biz buna qarışmırıq. Yaxud da ki, bu yaxınlarda orada, nə bilim, nəsə olmuşdu. Bu, daxili işdir, hər yerdə ola bilər. Bu, harada yoxdur ki! Burada da, bizim bu müxalifət bir dəfə yürüş etdi, şəhərdə 4 kilometr ora-bura getdilər. Mənim əleyhimə sözlər deyirdilər, yazırdılar, edirdilər. Nə bilim, gah orada, gah burada bir mitinq etmək istəyirdilər.

Məsələn, o gün televiziyada gördüm ki, bir qrup gənc İran səfirliyinin qarşısında nəsə danışıbdır. Sonra mən bizim daxili işlər nazirinə telefon etdim. Dedim, buna niyə yol vermisiniz? İranın daxili işi ilə bizim nə işimiz var? Bizim işimiz yoxdur. Mən daxili işlər nazirinə çox ciddi irad tutdum ki, sən belə şeylərə yol verməməlisən. O da kimlərinsə təşəbbüsü olmuşdu.

Bax, mən bu sözlərt bir dost kimi, qardaş kimi niyə deyirəm? Bilirsiniz, dostluqda gərək hər şey açıq olsun. Hər şey açıq olanda hər şey də düz olur. Bunları deyirəm, ona görə ki, xüsusən, bəzi hallarda bizi narahat edən ayrı-ayrı din adamlarının gəlib burada dini öz istədiyi kimi təbliğat etməsidir. Buna ehtiyac yoxdur. Artıq bizdə Quran da Azərbaycan dilinə tərcümə olunubdur. İnsanların burada Qurana da etiqadı var, məscidlərə də etiqadı var, istədikləri qədər məscid də tikirlər.

O vaxt mən istəmişdim siz Naxçıvanda məscid tikəsiniz. Çünki bizim gücümüz yox idi. Amma indi istəmirəm. Çünki Azərbaycanda indi o qədər məscid tikiblər ki, buna ehtiyac yoxdur. Hər dövrün bir hökmü var. O vaxt bu lazım idi, amma indi buna ehtiyac yoxdur, hər şey var. Mən bunları Sizə bir qardaş kimi deyirəm. Xahiş edirəm, bu sözləri qardaş sözü kimi qəbul edəsiniz. Ona görə deyirəm ki, bizim münasibətlərimizdə həmişə təmizlik olsun, həmişə paklıq olsun.

Bir sözlə, bu gün mən Sizinlə görüşümdən çox məmnunam. Bu gün çox sevinirəm. İndi mən də Təbrizə gəlmək arzusundayam. Mən Naxçıvanda olanda Təbri-

zə gəldim.

Yəhya Məhəmmədzadə: Bəli, cənab Prezident, iki dəfə təşrif gətirdiniz. İndi gözləyirik ki, yaxın vaxtlarda Sizi Təbrizdə yenidən görək.

Heydər Əliyev: Bəli, iki dəfə oldum. Amma burada Azərbaycanın Prezidenti olandan sonra bu mənə müyəssər olmayıbdır. Çox arzusundayam. İranın hər bir şəhərini görmək istəyirəm. Məsələn, keçən səfərim zamanı İsfahanı gördüm. Çox gözəldir. Kiş şəhərini gördüm. Naxçıvanda olanda Məşhədə getmişdim. Sonra Məşhəd-Sərəxs dəmir yolunun açılışında gedib Məşhədi bir daha gördüm. Çox gözəl bir yerdir.

Yəhya Məhəmmədzadə: Heç biri Təbrizin yerini vermir.

Heydər Əliyev: Əlbəttə, verə bilməz. Doğrudur, məşhədlilər deyirlər ki, Məşhəd Təbrizdən yaxşıdır.

Yəhya Məhəmmədzadə: Məşhəddə İmam Rza yaxşıdır. Ancaq Təbriz Məşhəddən yaxşıdır.

Heydər Əliyev: Bəli, **Məşhəddə İmam Rza bizim hamımız üçün ən yüksək zirvədir. Mən Sizə deyim ki, İmam Rzanın qəbrini, məbədini ziyarət edəndə heyran olmuşdum.**Heyran olmuşdum ki, İran xalqı, milləti nə qədər əsrlər boyu bunu belə qoruyub saxlayıb, abadlaşdırıb, gözəlləşdirib. Doğrudan da, bu ziyarət insanlarda böyük təmizlik əmələ gətirir.

Mən Naxçıvanda olanda gəldim İmam Rzanın qəbrini ziyarət etdim. Burada olanda isə getdim Məkkəni, Mədinəni ziyarət etdim. Siz bunları da bilirsiniz. Bunlar hamısı hər bir müsəlman üçün, şübhəsiz ki, müqəddəs yerlərdir. Ancaq, düz deyirsiniz, Təbrizin yerini heç nə vermir. Ona görə də mən Təbrizə gəlmək arzusundayam. İndi Siz dəvət edirsiniz, amma cənab Xatəmi də məni Təbrizə dəvət edir.

Yəhya Məhəmmədzadə: cənab Prezident, mən çox məhəbbətli və gözəl sözlərinizə görə Sizə təşəkkür edirəm. İstəyirəm ki, bir kəlmə əlavə edim. Bu da İranla Ermənistan arasındakı ticarət əlaqələri barədədir. Bunun açarı bizim əlimizdədir. Ermənistan İrandan hər nə aparmaq istəsə bizim ostanımızdan keçir və bizim xəbərimiz olur. Söz yoxdur ki, Ermənistanın İranla diplomatik əlaqələri vardır. İki müstəqil ölkədirlər. Amma Ermənistan ilə nə ticarətdə, nə iqtisadiyyatda, nə də ayrı sahələrdəki əlaqələri İranla Naxçıvan arasında olan əlaqələrlə müqayisə etmək olmaz.

Heydər Əliyev: Yox, Naxçıvan xüsusi yer tutur. Cənab Məhəmmədzadə, mən istəmirəm bunları müqayisə edəsiniz. Qətiyyən müqayisə olunası deyildir.

Yəhya Məhəmmədzadə: Fərqi budur ki, İran Respublikasında hamı, -prezidentdən tutmuş aşağılara qədər insanlar Azərbaycanla, Naxçıvanla işləməyi, kömək etməyi özlərinə vəzifə bilirlər. Amma tacirlərimiz özləri gedib Ermənistanla işləyirlər. Əlimizdən gələni edəcəyik və könlümüz istəyir ki, həmin adamlar gəlsin Azərbaycanda, Naxçıvanda işləsinlər. Mən qəti deyirəm ki, strateji məhsullar- yağdır, düyüdür, taxıldır, benzindir, neftdir- bunlar Ermənistana getmir. Bəzən biz eşidirik, haradasa yazılır -biz təəssüf edirik. Deyirik ki, əgər, getsə, bizim ostanımızdan keçəcəkdir.

Mən iki ilə yaxındır ki, burada işləyirəm. Oraya hətta bir tanker də yanacaq və s. getməyibdir. Amma düzdür, heç bir şübhə yoxdur ki, bizim tacirlərimiz gedib Ermənistanda işləyirlər. İnşallah, bizim siyasətimiz bu olar ki, o tacirlərimiz də gəlsinlər Azərbaycanda işləsinlər.

Mən bir daha lütfünüzə, məhəbbətinizə, bizi qəbul etməyinizə görə təşəkkür edirəm və biz Sizi Təbrizdə gözləyəcəyik.

Heydər Əliyev: Bunu sizdən çox mən istəyirəm.

Yəhya Məhəmmədzadə: Cənab Prezident, Təbrizi hamı istəyir. Mən dedim ki, hər bir azərbaycanlı, heç olmasa, gərək bir dəfə Təbrizi görə.

Heydər Əliyev: Bir dəfə azdır. Mən iki dəfə görmüşəm, amma azdır.

Yəhya Məhəmmədzadə: Burada görüşdüyüm adamlar dedilər ki, Təbrizi görməmişik. Dedim ki, biz xidmətinizdə hazırıq. İndi Təbrizin havası xoşdur.

Heydər Əliyev: Yox, indi istidir, payızda gələcəyəm.

Yəhya Məhəmmmədzadə: Təbrizin gündüzləri sərindir, gecələri soyuqdur.

Heydər Əliyev: Naxçıvanda da eladır.

Yəhya Məhəmmədzadə: Mən bir daha öz minnətdarlığımı bildirirəm. Bizə yüksək məhəbbət göstərdiniz. Əlbəttə, biz Sizin görüşünüzdən və ziyarətinizdən doymuruq.

Heydər Əliyev: Mən də Sizdən doymuram.

Yəhya Məhəmmədzadə: İnşallah, bu söhbətləri Təbrizdə davam etdirərik.

Heydər Əliyev: Yaxşı, davam etdirərik. Sağ olun!

Sonra İranın Şərqi Azərbaycan vilayətinin ostandarı Yəhya Məhəmmədzadə dövlətimizin başçısına, xatirə olaraq, Səhəndin mənzərəsini əks etdirən rəsm əsəri və Təbrizin gözəl yerlərini canlandıran fotoalbom hədiyyə etdi.

"Respublika" qəzeti,
3 avqust 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRANIN TİKİNTİ VƏ ŞƏHƏRSALMA NAZİRİ ƏLİ ƏBDÜLƏLİZADƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 7-də Prezident Sarayında İran İslam Respublikasının tikinti və şəhərsalma naziri Əli Əbdüləlizadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident Heydər Əliyev qonaqlara müraciətlə demişdir:

- Əziz dostum, qardaşım Əbdüləlizadə!

Hörmətli nümayəndə heyəti üzvləri, hörmətli qonaqlar, hörmətli səfir!

Mən sizi səmimi qəlbdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz. Sizin Azərbaycanda olmağınızdan, bu günkü görüşdən çox məmnunam.

Ağayi Əbdüləlizadə ola bilər ki, mənim İranla əlaqələrimdə birinci yerdə duran adamdır. Çünki o vaxtlar, Naxçıvanın çətin dövründə mən orada olarkən, biz İranla əlaqələrimizi, birinci növbədə, Təbriz, Şərqi Azərbaycan vasitəsilə yaradırdıq. Bu əlaqələrin yaranmasında və sonra bu əlaqələrdən Naxçıvanın faydalanmasında mənim əziz dostum ağayi Əbdüləlizadənin çox böyük fəaliyyət və rolu var.

Naxçıvanda o ağır dövrdə keçirdiyimiz günlər, həm də Təbrizdəki görüşlərimizin hamısı mənim xatirimdədir, onlar heç vaxt yaddan çıxmaz. Təkcə ona görə yox ki, mən bunu şəxsi nöqteyi-nəzərdən deyirəm, ancaq bizim dövlətlərarası münasibətlərimizə görə, bunların hər biri, hər bir nöqtəsi tarixi hadisədir. Ağayi Əbdüləlizadə iki tərəfdən Azərbaycana çox yaxındır: birincisi,

o illər Şərqi Azərbaycanın ostandarı olub, Təbrizin böyüyü olubdur, ikincisi də ki, urmiyalıdır. Elədir, yoxsa yox, səhv eləmirəm? Urmiyalıdır, orada da Qərbi Azərbaycandır. Bunlar hamısı bizi çox doğma edibdir. Mən çox məmnunam.

Bu qısa zamanda ikinci dəfədir ki, mən İran İslam Respublikasının nümayəndə heyəti ilə görüşürəm. Ola bilər ki, son həftə, yaxud son ongünlük Azərbaycanda İran günləridir. Bu da çox gözəldir və çox lazımdır. Çünki gediş-gəlişdə müəyyən bir fasilə var idi. Doğrudur, bizim nümayəndələrimiz İranı ziyarət ediblər. Bizim Parlamentin sədri İranı həm rəsmi ziyarət etmiş, həm də sonra İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Parlament sədrlərinin görüşündə iştirak etmişdir. Başqa nümayəndələrimiz də İranda olmuşlar. Ancaq İrandan Azərbaycana ziyarət az idi. İndi siz yaxşı başlamısınız. Əvvəl Şərqi Azərbaycanın nümayəndə heyəti gəldi, indi də İran İslam Respublikasının naziri, bizim dostumuz ağayi Əbdüləlizadə başda olmaqla nümayəndə heyəti gəlmişdir.

Mən keçən dəfə də görüşümdə demişdim, bu gün də deyirəm ki, **İranla bizim əlaqələrimiz mehriban, səmimi dostluq və qardaşlıq əlaqələri xarakteri daşıyır. Əlbəttə ki, bəzi qüvvələr bu əlaqələri ləkələmək istəyir, bəziləri mane olmaq istəyir. Ancaq buna manc olmaq mümkün deyildir. Çünki xalqlarımızın dostluğunun, qardaşlığının dərin kökləri var. Köklərimiz bizi uzaq keçmişə aparır. Biz bir mədəniyyətə - Şərq mədəniyyətinə mənsub xalqlarıq, bir dinə - İslam dininə mənsub olan xalqlarıq. Ən əsası da odur ki, biz qonşuyuq.**

Azərbaycanın İranla olan məsafəcə uzun sərhədi, demək olar, başqa ölkələrin heç birisi ilə yoxdur. Demək, İran bizim həm yaxın qonşumuzdur, həm də Araz çayının o tayı, bu tayı həmişə azərbaycanlılar üçün əziz olmuşdur. Vaxtilə Araz bizi birləşdirirdi, heç vaxt da ayırmırdı. Ancaq sonra, 70 il bundan öncə, Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra bu əlaqələr get-gedə azaldı, sonra isə tamam kəsildi.

Xatirimdədir, o vaxtlar Azərbaycan Sovet İttifaqının tərkibində bir respublika olarkən, insanlarımız xarici ölkələrə səfərlər edirdilər. Mən də 70-ci illərdə, 80-ci illərin əvvəllində Azərbaycanın başçısı kimi bir çox ölkələrə səfər edirdim. Hətta Sovet İttifaqının nümayəndə heyətinin başında da olurdum. Ancaq bizə İrana səfər etməyə imkan vermirdilər. Mən Moskvada işləyəndə -Sovetlər İttifaqının rəhbərlərindən biri, Baş nazirin birinci müavini və Siyasi Büronun üzvü idim,- çox ölkələrə səfər etdim, Sovetlər İttifaqının çox ölkələrə gedən dövlət nümayəndə heyətinin başçısı oldum. Bir neçə dəfə dedim ki, bəlkə İrana bir səfər olsun,- buna imkan vermədilər. Yəni, demək istəyirəm ki, bizdən asılı olmayaraq, 70 il bizi bir-birimizdən ayırdılar.

Ancaq Allaha şükürlər olsun ki, sərhədlər açıldı, Azərbaycan öz milli azadlığına, müstəqilliyinə çatdı, nail oldu. İndi Azərbaycan sərbəst, müstəqil dövlətdir və müstəqil dövlət kimi, ölkələrlə öz əlaqələrini qurur. Ancaq yenə də deyirəm, qonşu insan üçün həmişə qonşudur. Bəzən bizim xalq arasında belə deyirlər: yaxşı qonşu pis qohumdan yaxşıdır. Bəzən də deyirlər ki: bəlkə də qohum qohumdur, ancaq uzaqdadır, qonşu isə divarın o tərəfindədir. Böyük şəhərlərdə qonşular bəlkə də bir-birini tanımırlar. Xatirimdədir, gənc vaxtlarımda Naxçıvanda yaşayanda orada qonşular arasında divar vardı, bəzən onu götürürdülər ki, heç divar da olmasın. Ona görə qonşu ölkə bizim üçün, şübhəsiz ki, başqa ölkələrdən vacibdir.

Mən bunları deyərək bir daha məmnun olduğumu bildirmək istəyirəm ki, ağayi Əbdüləlizadə, Sizinlə və Sizinlə birlikdə gələn nümayəndə heyətinin üzvləri ilə görüşürəm. Mən Sizi bir daha salamlayıram.

İran nümayəndə heyətinin başçısı Əli Əbdüləlizadə dövlətimizin başçısına müraciətlə demişdir:

- Allaha çox şükür edirəm ki, neçə illərdən sonra bu gün böyük və əziz qardaşım, alicənab Prezident Heydər Əliyevi Bakı şəhərində ziyarət edirəm. Hər şeydən əvvəl, Sizin məhəbbətinizə və səmimiyyətinizə görə öz adımdan və nümayəndə heyətinin üzvləri adından təşəkkürümü bildirirəm.

Buyurduğunuz kimi, İran və Azərbaycan Cumhuriyyət iki qonşu, müstəqil məmləkətdir. Bu qonşuluqdan əlavə, bizim çoxlu müştərək əlaqələrimiz vardır. Dinimiz müştərəkdir, İranın çox böyük hissəsi ilə buranın dili müştərəkdir. Buyurduğunuz kimi qonşu qonşu ilə bir-birinə bəlkə qardaşdan da yaxındır. Yaxşı qonşu qardaşdan da irəlidir. Şükür olsun Allaha ki, Azərbaycan Cumhuriyyəti ilə İran İslam Cumhuriyyəti yaxşı qonşudurlar, bir-birinə qardaşdan yaxındırlar.

İnşallah, tezliklə biz şəxsinizi, alicənab Prezidenti Tehranda görəcəyik. Ağayi Xatəmi Sizi dəvət edibdir. Təşəkkürünü bildirir ki, bu dəvəti qəbul edibsiniz. Gərək günbəgün çalışaq ki, qonşuluqda əlaqələrimiz çox olsun, gediş-gəliş çoxalsın. Azərbaycan Cumhuriyyəti müstəqillik qazandığı ilk günlərdən İran məmləkəti Sizə dayaq, qardaşdır.

Dediyiniz kimi, Siz Naxçıvanda çətin şəraitdə olanda, Azərbaycanın, Naxçıvanın ağır günlərində İran İslam Cumhuriyyəti qardaş, yaxın qonşu kimi öz yolunu Sizin ixtiyarınıza verdi ki, Azərbaycanla Naxçıvan bir-birindən ayrı düşməsin. Əlimizdən gələn qədər çalışdıq ki, Naxçıvanın ağır günlərinə şərik olaq. Şükür olsun ki, Sizin rəhbərliyinizlə o ağır günlər aradan götürüldü və mən görürəm ki, Azərbaycanda günbəgün abadlıq və inkişaf nəzərə çarpır.

4-5 il olardı ki, Bakını görməmişdim. Sizi təbrik edirəm, Bakı çox gözəl olub. Arzum budur ki, Azərbaycanın hər yeri elə bu cür olsun. Mən qardaşlarıma dedim ki, **Azərbaycanın tarixində Prezident Heydər Əliyevin adı abadlıqla, inkişafla qoşa çəkilir.** Siz xəstələnmişdiniz, cərrahiyyə əməliyyatı keçirmisiniz. Allaha şükür olsun ki, indi səhhətiniz yaxşıdır. Sizin həyatınız Azərbaycan üçün çox gərəklidir. Sizin rəhbərliyiniz altında Azərbaycanın cavanları, qeyrətli milləti daha böyük uğurlar qazanacaqlar və buna layiqdirlər. Cavanlar təhsil alacaq, Sizin rəhbərliyinizlə böyük şəxslər yetişəcək, Azərbaycan öz müstəqilliyini həmişə qoruyub saxlayacaqdır.

Mən Prezident Xatəminin salamını Sizə çatdırmağı özümə borc bilirəm. Hökumətdə olan həmkarlarımın- nazirlərin də hamısının salamını Sizə yetirirəm, onlar Tehranda Sizinlə görüşməyi səbrsizliklə gözləyirlər. Bizi buraya dəvət etdiyinizə görə də bir daha təşəkkürümü bildirirəm. Bu iki- üç gündə bizə o qədər məhəbbət göstəriblər ki, mən Bakını öz vətənim bilirəm. Amma mənimlə gələn fars qardaşlarım da bu günlərdə o qədər məhəbbət, qardaşlıq münasibəti görüblər ki, mənə deyirlər, deyəsən, elə Bakı da İran kimidir. Dedim ki, heç fərqi yoxdur, bura bizim hamımızın evidir.

Heydər Əliyev: Doğrudur, sizin öz vətəninizdir.

Əli Əbdüləlizadə: Bu, Sizin şəxsinizdəndir. Hamı bilir ki, alicənab Prezident Heydər Əliyevin çox böyük qonaqpərvərliyi var. Sizə bir də təşəkkür edirəm.

Mən Təbrizdə olanda çalışırdıq ki, Azərbaycana, Naxçıvana, əziz bacı-qardaşlarımıza əlimizdən gələn köməkliyi edək. İndi nazirəm, həm öz vəzifəm daxilində, həm də İran İslam Cumhuriyyətinin dövləti çərçivəsində çalışıram ki, əlaqələrimiz günbəgün genişlənsin, Azərbaycanda qardaşlıq borcumuzu yerinə yetirək. Ərz etməliyəm ki, Allaha şükürlər olsun, keçən il Azərbaycandan, Naxçıvandan bir milyon nəfər İranı ziyarət edibdir.

Heydər Əliyev: Bir milyon? Çox gözəl.

Əli Əbdüləlizadə: Çox gözəl haldır. Bu, son həddi deyil, getdikcə çoxalacaqdır. Arzu edirəm ki, hər bir azərbaycanlı Tehranı, Təbrizi, Məşhədi öz vətəni bilsin. Qonşuluq elə budur. Buyurduğunuz kimi, kiçik yerlərdə - kəndlərdə, balaca şəhərlərdə çox vaxt qonşu qonşudan gizlənməz, gəlib-gedər, onun evini öz evi bilər. Gərək biz də elə o cür olaq. Gərək hər bir azərbaycanlı İranı özünün evi, ikinci vətəni hesab etsin. Hər bir iranlı da gərək Azərbaycana gələ, buranı öz vətəni hesab eləyə bilsin. Buyurduğunuz kimi, əgər, bir vaxtlar - Şura hökuməti zamanı Araz çayı İranla Azərbaycanı bir-birindən ayırırdısa, indi Araz ölkələrimizi birləşdirir.

İnşallah, ölkələrimizin rəhbərlərinin sayəsində Arazın hər iki tərəfi inkişaf edəcəkdir. Arazın hər iki sahilində ona həsr olunmuş şerlər, mahnılar ürəklərimizi də birbirinə bağlayacaqdır. Nə qədər ki, bəşəriyyət mövcuddur, İran və Azərbaycan Arazın iki sahilindəki müstəqil məmləkətlər kimi əl-ələ verəcək, qardaşlığı davam etdirəcəklər. Mən bizə göstərdiyiniz hörmət və məhəbbətə görə şəxsinizə və bütün azərbaycanlı bacı-qardaşlarımıza öz adımdan və nümayəndə heyətimizin üzvləri adından bir daha təşəkkür edirəm. Ümidvarıq ki, tezliklə İranda Sizinlə görüşəcəyik.

Prezident Heydər Əliyev nazirə təşəkkür edərək demişdir:

- Əvvəla, İran İslam Respublikasının Prezidenti Zati-aliləri Xatəminin mənə çatdırdığınız salamına görə təşəkkürümü bildirirəm. Sizdən rica edirəm ki, mənim salamımı və hörmət ehtiramımı cənab Xatəmiyə çatdırasınız. Bildirəsiniz ki, İslam Konfransı Təşkilatının toplantısı zamanı Tehranda onunla görüşüm mənim üçün çox əhəmiyyətli olmuşdur. Təbii ki, o vaxt mən onu Azərbaycana dəvət etdim, o da məni İrana dəvət etdi. Mən çox arzu edirdim ki, əvvəlcə o, Azərbaycana gəlsin. Ancaq sonra dedi ki, əvvəl mən İrana gəlim. Şübhəsiz ki, mən bu dəvəti məmnuniyyətlə qəbul etmişəm, mütləq gələcəyəm, görüşəcəyik, danışacağıq.

Son vaxtlar İranda gedən işlər bizi sevindirir. Yəni, 20 il bundan öncə olmuş İran İslam inqilabından sonra İranda çox böyük müsbət dəyişikliklər baş veribdir. Siz deyirsiniz ki, Bakını tanımadınız. Ancaq gedib Tehrana baxsan, Tehran da 20 il bundan öncəki Tehran deyildir, heç 10 il bundan öncəki Tehran da deyildir. Nə qədər dəyişiklik var, nə qədər tikintilər gedib, işlər görülübdür. Bunlar hamısı İslam inqilabının bəhrələri, nəticələridir.

Son vaxtlar sizdə prezident seçkiləri keçirildi, ağayi Xatəmi xalqın çoxluğunun iradəsi ilə prezident seçildi. Bundan sonra İran İslam Respublikasının həm xarici siyasəti, həm də daxili siyasəti sahəsində görülən işlər, hesab edirəm ki, İran xalqının mənafeyinədir, ümumiyyətlə, İranın dünyada öz yerini daha möhkəm tutması üçün çox vacib işlərdir. Ona görə bu, Azərbaycanda

bizi sevindirir. Ağayi Əbdüləlizadə, Siz də məhz bu prezident seçkilərindən sonra yeni hökumət yarananda Şərqi Azərbaycan ostandarlığından İran Cumhuriyyətinin naziri olmusunuz. Bunlar hamısı Sizin də işlərinizdir. Güman edirəm ki, bu yolla gedən İran bundan sonra daha böyük uğurlar əldə edəcəkdir.

Bu baxımdan mən cənab Prezident Xatəminin fəaliyyətini xüsusi qiymətləndirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, İran bütün işlərini daha da uğurla həyata keçirərək, bundan sonra İran-Azərbaycan əlaqələrinin inkişafına daha çox fikir verəcək və çox səy göstərəcəkdir. Mən buna heç şübhə etmirəm.

Siz indi tikinti və şəhərsalma nazirisiniz, elədirmi? Yaşar Əliyev mənə bildirdi ki, Siz burada danışıqlar aparmısınız və bu sahədə Azərbaycanla əməkdaşlığı genişləndirmək istəyirsiniz. Bu, çox gözəldir. Belə bir əməkdaşlığın genişlənməsinə bizim ehtiyacımız çoxdur. Doğrudur, Azərbaycan müstəqillik qazandıqdan, yollar açılandan sonra İrandan buraya çox mallar gətirilir. Xüsusən İran mərməri-haraya baxırsan, İrandan gətirilmiş mərmər işlədilir. Çox gözəl mərmərlər var. Bizim binaların çoxunda İran mərmərindən istifadə olunmuşdur. Elə Siz qaldığınız otelin mərməri də İrandan gətirilmişdir. Amma təkcə mərmər yox, başqa tikinti materialları da gətirilsin, yaxud da tikinti sahəsində daha çox iş görmək olar. Güman edirəm ki, Sizin buradakı danışıqlarınız, görüşləriniz nəticəsində bu sahədə əməkdaşlığımızı daha da genişləndirmək olar.

Ancaq mən bir daha İran İslam Respublikasının, hökumətinin, o cümlədən Şərqi Azərbaycan ostandarlığının o ağır illərdə Naxçıvana göstərdiyi yardımı xüsusi qeyd etmək istəyirəm. Şübhəsiz ki, o vaxt Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra İran ilə Azərbaycan arasında əməkdaşlıq gündən-günə genişlənməyə başladı. Ancaq bilirsiniz ki, o vaxtlar Naxçıvan çox ağır vəziyyətdə idi. Azərbaycanın bir hissəsi olan Naxçıvan Azərbaycanın o biri hissəsindən- Ermənistan ortaya girdiyinə görə,- ayrı düşübdür. Ermənistanla bizim münaqişəmiz olduğuna görə - Siz bilirsiniz, o vaxtlar Naxçıvana gəlib gördünüz - Naxçıvanın Bakı ilə, Azərbaycanın başqa yerləri ilə əlaqələri tamam kəsilmişdi. O vaxt İran ərazisindən Azərbaycana yol verdiniz ki, Naxçıvandan Bakıya, Bakıdan Naxçıvana nəqliyyat işləsin, insanlar gedib-gələ bilsin, yüklər daşınsın- bu, Azərbaycana, Naxçıvana çox xeyir verdi.

Mən heç unutmaram, biz elektrik enerjisindən məhrum idik. Qısa zamanda elektrik xətti çəkildi. Xatirimdədir, Siz də, ağayi Şafeyi də gəldiniz, biz bu elektrik xəttini birlikdə, böyük ruh yüksəkliyi ilə açdıq. O da xatirimdədir ki, mən Sizi dəvət etmişdim. Naxçıvana gəlmişdiniz. O vaxt biz çox kasıb idik, amma mən Sizə olandan yemək verdim. Ancaq oturduğumuz yer o qədər soyuq idi ki, titrəyirdik. Yadınızdadırmı?

Əli Əbdüləlizadə: O günlər yaddan çıxmaz!

Heydər Əliyev: Yaddan çıxmaz! Mən gördüm ki, siz baxırsınız, deyirsiniz ki, burada nə təhər yaşayırsınız? İndi təsəvvür edin, əgər əziz, mötəbər qonaqlarımızı qəbul eləyəndə qışın şaxtasında o cür soyuq binada idiksə, görün, insanlar necə yaşayırdı, o cümlədən mən özüm necə yaşayırdım. Gecə yatırdım, səhər görürdüm ki, hər yer donubdur. Biz bu günləri yaşadıq, amma o günlərin ağırlığını götürmək üçün İranın köməyi çox qiymətli idi. Mən bunu xüsusi xatırlayıram.

Siz mahnıları, şərqiləri dediniz. Axı, həqiqətən də bizim mədəniyyətimiz, musiqimiz qədimdən eynidir, bir-birinə yaxındır. Azərbaycanın mahnıları, şərqiləri İranda sevilir, İranınkı Azərbaycanda sevilir. Xatirimdədir - bu günlərdə bunu yadıma saldılar - Naxçıvanda olanda mənə dedilər ki, hamımız üçün əziz olan "Ayrılıq" mahnısını yazan bəstəkar Əli Səlimi - o, Təbrizdə yaşayırdı, 1938-ci ildə, uşaqkon, gənc ikən Azərbaycandan, Bakıdan köçüb getmişdi, orada yaşayırdı - çox istəyir ki, Azərbaycanı, Bakını görsün, amma gedə bilmir. Mən Naxçıvanda bizim mədəniyyət nazirliyinə göstəriş verdim ki, nə edirsən-et, onları buraya dəvət elə. Dəvət elədilər, Culfa körpüsündən keçib Naxçıvana gəldilər. 35-40 nəfərlik böyük bir orkestr idi, Siz onları yaxşı tanıyırsınız. Təbrizin orkestri idi. Əli Səlimi ilə görüşdük. Mən çox məmnun oldum. Çünki təkcə "Ayrılıq" mahnısını yox, o qədər gözəl musiqilər bəstələmişdi ki, biz heyran olduq. Onlar bizim teatrda konsert verirdilər, şübhəsiz ki, üst paltarlarını çıxarmışdılar. Biz isə, salonda üst paltarlarımızda oturmuşduq, çoxları papağını da çıxarmamışdı. Onlar isə o soyuqda konsert verirdilər. Çöldə, eşikdə 30 dərəcə, içəridə də azı 10 dərəcə şaxta vardı. Amma, bilirsiniz, nə qədər çətin olsa da, bu, o vaxt insanlara ruh verirdi. Naxçıvanda insanlar Əli Səliminin konsertini böyük iftixarla, böyük ruh yüksəkliyi ilə qarşıladılar. Mən onu Naxçıvandan Bakıya yola saldım. Deyirdi ki, çox arzu edirəm yaşadığım evi, yaşadığım küçəni görüm.

Bu yaxınlarda eşitdim ki, o, rəhmətə gedibdir. Allah rəhmət eləsin. Mən mahnılarına görə, yaxud, sadəcə, görüşməyimə görə onu çox sevdim. Çox gözəl, istedadlı bir insan və bəstəkar, musiqiçi idi.

Bax, budur, biz birik, yəni, burada heç nə ayrı deyildir. Əli Səlimi də, yaxud bizim Azərbaycan bəstəkarları da hamısı birdir. Hamısı bir musiqi, mahnılar yazır. Ona görə də bunları heç vaxt ayırmaq olmaz. 70 il də ayıra bilmədi, 100-200 il də olsa, ayıra bilməz. İndi biz bu əlaqələri inkişaf etdirməliyik. **Mən bildirmək istəyirəm ki, dövlətimizin siyasəti, şəxsən Prezident kimi mənim siyasətim İran İslam Respublikası ilə əlaqələrimizi bütün sahələrdə genişləndirmək, inkişaf etdirmək məqsədi daşıyır. Həm iqtisadi əlaqələri, həm humanitar, elm, mədəniyyət və bütün başqa sahələrdə əlaqələri inkişaf etdirmək istəyirik və etdirəcəyik.**

Çox məmnun oldum, mən bu rəqəmi bilmirdim ki, Azərbaycandan İrana bir ildə bu qədər adam gedir. İndi Azərbaycanın əhalisi 8 milyona çatır, təxminən 7 milyon 800 min nəfərdir. Axı, bunun içərisində uşaqlar da var. İndi ildə bir milyon adam gedib-gəlirsə, bu çox gözəldir.

Elə bunun özü çox gözəl göstəricidir ki, insanlar İrana getmək, bu ölkəni ziyarət etmək istəyirlər. Çoxları ticarət edirlər ki, bu da çox gözəldir. Bunların hamısı çox sevindirici haldır.

Mən bir daha qeyd etmək istəyirəm ki, xüsusən son vaxtlar Naxçıvan üçün yaranmış yeni şərait bizdə çox böyük məmnunluq hissi doğurur. Yəni, orada kömrük xidməti artıq 24 saat işləyir, qatarlar Təbrizə, hətta Məşhədə gedir, insanlar rahat gedib-gəlirlər. Bunlar - təkcə Naxçıvan üçün deyil, Azərbaycanın başqa yerlərindən də insanlar Naxçıvana gedir və həmin yolla İrana keçib ticarət edirlər, bu bizim üçün çox faydalıdır. Mən bunları xüsusi qeyd etmək istəyirəm.

Güman edirəm ki, biz keçən illərdə çox şeyə nail ola bilmişik. Ancaq bundan sonra daha da çox işlər görməliyik.

Dövlətimizin başçısı Heydər Əliyevin söylədiyi fikirləri yüksək qiymətləndirən Əli Əbdüləlizadə demişdir:

- Cənab Prezident, Şura hakimiyyəti vaxtında heç kimin ağlına gəlməzdi ki, Arazın o tayına sərbəst gedib-qayıtsın. Yadımdadır ki, o vaxtlar 4-5 ildə bir dəfə bir nəfər özünü Araza vurub o taya keçə bilirdi. Atalarımız demişkən, o zaman Arazın üstündən quş da səkə bilməzdi. Biz Rəşid Behbudovun, Bülbülün oxuduğu mahnılara Təbrizdə, Azərbaycan əyalətinin digər yerlərində böyük həsrətlə qulaq asardıq.

Bildiyiniz kimi, Azərbaycan ilə İran mədəniyyəti bir-birindən heç vaxt ayrı olmayıbdır. Nizaminin, Füzulinin, Firdovsinin, Şəhriyarın və o cümlədən digər şairlərin şerləri həmişə sevilə-sevilə oxunubdur. Mən bu gün burada Firdovsi barədə soruşdum və gördüm ki, Azərbaycan Cumhuriyyətində onu çox yaxşı tanıyırlar.

Heydər Əliyev: Xalqımız Firdovsini çox yaxşı tanıyır.

Əli Əbdüləlizadə: Hətta mənə dedilər ki, burada Firdovsinin şerlərini Azərbaycan dilinə tərcümə edərək nəşr ediblər. Yaxşı deyiblər ki, mədəniyyət sərhəd tanımır. Şura hakimiyyəti dövründə quşun da səkə bilmədiyi bir sərhəddən mədəniyyət çox asanlıqla keçirdi.

Cənab Prezident, inşallah, Allahın lütfü və Sizin sağlığınız, həyata keçirdiyiniz tədbirlər nəticəsində Azərbaycan Cumhuriyyətinin bütün vətəndaşları gedib Məşhədi ziyarət edəcəklər, Təbrizi görəcəklər. Mən hesab edirəm, Azərbaycan Cumhuriyyətinin qapısı 60 milyon əhalisi olan İran vətəndaşlarının üzünə həmişə açıqdır. İstəyirik ki, biz tez-tez Bakıya gələk və Azərbaycanın tarixi abidələrini ziyarət edək. Biz çox istəyirik ki, Gəncəyə, Şəkiyə, Şamaxıya və inşallah, tezliklə Qubadlıya, Füzuliyə, Dağlıq Qarabağa, xüsusən Şuşaya gəlib orada görüşlər keçirək. İnşallah, tezliklə Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və o öz qonşuları ilə daha sıx əlaqələr quracaqdır.

Cənab Prezident, çox ümidvaram ki, mənim bu səfərimdən sonra Siz tezliklə Tehrana səfərə gələcəksiniz və Azərbaycan ilə İran arasında iqtisadiyyat, mədəniyyət və digər sahələrdə əlaqələr gündən-günə daha da möhkəmlənəcəkdir.

Heydər Əliyev: Siz Rəşid Behbudovu, Bülbülü yada saldınız. Rəhmətlik Rəşid Behbudov və Bülbül ilə mənim şəxsi dostluğum var idi. Bülbül 1942-43-cü illərdə İranda olmuşdur. Ancaq Rəşid Behbudov 1960-cı illərin sonunda, 1970-ci illərin əvvəllərində İrana bir neçə dəfə səfər etmişdi. Onu orada çox təntənə ilə qarşılamışdılar. Mən bir dəfə onun evində qonaq idim. O, İranda konsertlərinin çox yüksək səviyyədə keçməsi, insanların onu alqışlarla qarşılaması barədə mənə danışdı və şəkillər göstərdi. Həqiqətən, Rəşid Behbudov və başqaları Sovet hakimiyyəti dövründə, sərhədlərin bağlı olduğu vaxtda körpülər yaradırdılar.

Məsələn, Siz Firdovsidən söhbət saldınız. Təxminən 15-16 yaşımda mən Firdovsinin "Şahnamə"sini Azərbaycan dilində oxumuşam. O vaxtlar- 1937-38-ci illərdə, bəlkə də ondan əvvəl, 1930-cu illərdə Firdovsinin 1000 illik yubileyi idi. Onun "Şahnamə" əsərinin, demək olar ki, əksər hissəsini Azərbaycan dilinə tərcümə etdilər. Onun orada təsvir etdiyi qəhrəmanlar-pəhləvan, şah, xan obrazları bizdə böyük heyranlıq doğururdu. Bizim böyük yazıçımız, dramaturqumuz, mərhum Hüseyn Cavid "Şahnamə"nin əsasında "Səyavuş"

əsərini yaratmışdır. Bu əsərin mövzusu "Şahnamə"dən götürülübdür. Təxminən 1937-ci ildə "Səyavuş" əsərini tamaşaya qoydular. 1938-ci ildə Hüseyn Cavidi həbs etdilər və bundan sonra onun əsərləri qadağan olundu.

Yaxud, məsələn, Ömər Xəyyam İranın böyük şairidir. Amma, o, eyni zamanda, Azərbaycanda çox sevilir. İnsanların çoxu Xəyyamın şerlərindən misralar söyləyir, öz fikirlərini təsdiqləyirlər. İranda bunu bilmək lazımdır.

Görkəmli şairimiz, daramaturqumuz Hüseyn Cavid Ömər Xəyyam haqqında böyük bir teatr əsəri, pyes yazmışdır. O vaxtlar həmin əsəri də qadağan etmişdilər. Amma Siz bilirsiniz ki, mən Sovet hakimiyyəti dövründə Azərbaycana rəhbərlik etdiyim illərdə Hüseyn Cavidin Sibirdə olan cənazəsini vətənə gətirtdim. Hüseyn Cavidi sürgün etmişdilər, aparıb Uzaq Sibirdə saxlamışdılar və o, orada həbsxanada vəfat etmişdi. Bilirsiniz ki, həbsxanada ölənlərin məzarını tapmaq çox çətindir. Ancaq biz aradıq, məzarını tapdıq, onun cənazəsini 1981-ci ildə Azərbaycana gətirdik. O, naxçıvanlı olduğuna görə, mən məsləhət bildim ki, onu Naxçıvanda torpağa versinlər.

Doğrudur, o vaxt bu barədə çoxlu mübahisələr oldu. Çoxları deyirdilər ki, Hüseyn Cavid həqiqətən böyük bir şəxsiyyətdir və onun məzarı da Azərbaycanın paytaxtında olmalıdır. Amma mən isə hesab edirdim ki, nə fərqi var, Azərbaycanın hər yeri gözəldir. Bu insan Naxçıvanda doğulub, böyüyüb, qoy onun məzarı da Naxçıvanda olsun. Mənim fikrim bir də belə idi ki, o, adi bir qəbiristanlıqda dəfn olunmasın, - necə ki, Siz orada Şəhriyara gözəl bir abidə düzəltmisiniz,- Naxçıvanda torpağa verilsin və onun məzarı üzərində böyük bir abidə, məqbərə düzəldək. Ona görə də onu aparıb Naxçıvanda dəfn elədik.

Sonra mən buradan, Azərbaycandan Moskvaya getdim. Bilirsiniz ki, sonra mən Moskvada bütün vəzifələrdən istefa verməyə məcbur oldum. Hüseyn Cavidin məzarı qaldı, ona heç kəs baxmadı. Mən 1990-cı ildə Moskvadan Bakıya, sonra Naxçıvana bacımın evinə gəldim. Orada olduğum birinci gün dedim ki, mən Hüseyn Cavidin məzarını ziyarət etməliyəm. Gəlib gördüm ki, məzar bərbad vəziyyətdədir. Oturub fikirləşdim ki, nə edim? Amma mən 1981-ci ildə Hüseyn Cavidin məzarı üzərində məqbərə yaratmağı niyyət etmişdim və sonra onu da yaratdım. İndi Naxçıvana yolunuz düşsə, imkan olsa, gedib baxın. O, çox gözəl bir məqbərədir.

Hüseyn Cavid bizim böyük şairimiz, dramaturqumuzdur. Onun əsərləri çoxdur. Amma onun iki əsəri- "Səyavuş" və "Ömər Xəyyam" Azərbaycan ədəbiyyatında xüsusi yer tutubdur. Məsələn, mən Məşhəddə olanda iki müqəddəs yeri çox böyük iftixar hissi ilə ziyarət etdim. İmam Rzanın qəbrini ziyarət etmək mənim çoxdankı arzum idi. Gedib onu ziyarət etdim. Mən bir də gedib Firdovsinin qəbrini ziyarət etdim. Yadımdadır ki, o vaxtlar mən Sizin yanınıza gələndə gedib Şəhriyarın qəbrini ziyarət etmişdim. **Şəhriyar mənim üçün çox əzizdir. Mən güman edirəm ki, Azərbaycandan Təbrizə gedən hər bir şəxs, ən əvvəl, Şəhriyarın qəbrini ziyarət etməlidir. Çünki Şəhriyar, doğurdan da, həm İran, həm də Azərbaycan şairi kimi XX əsrin ən böyük şəxsiyyətlərindən biridir.**

Görürüsünüz, bu barədə 2-3 saat danışmaq, çoxlu misallar gətirmək olar. Yəni, bu cür bağlı olan xalqları bir-birindən ayırmaq olarmı? Ayırmaq olmaz, mümkün deyil.

Əli Əbdüləlizadə: Doğrudur, ayırmaq olmaz. Bu mümkün deyildir.

Heydər Əliyev: Amma gərək elə edək ki, bundan sonra araya heç kim girməsin, bədxahlar bizim bu işimizə mane ola bilməsinlər. Şübhəsiz ki, bu əlaqələri inkişaf etdirmək lazımdır.

Əli Əbdüləlizadə: Mən iftixar edirəm ki, Siz rəhmətlik Hüseyn Cavidə də elə böyük abidə yaratmısınız. Arzu edirəm ki, həmin abidəni daha da böyüdəsiniz, genişləndirəsiniz. Mən bu sahədə hər cür köməklik göstərməyə hazıram. Çünki İranda belə böyük abidələrin hamısını biz tikirik. Mən həmin abidəni Siz arzu etdiyiniz naxışlarla bəzətdirə bilərəm.

Heydər Əliyev: Əziz dostum, çox sağ olun. Mən bu işi artıq görmüşəm. Doğrudur, Azərbaycanın o qədər vəsaiti yoxdur. Amma biz bu işi etdik. Sizdə də, bizdə də "əhdi-peyman" sözü vardır. Mən 1981-ci ildə Hüseyn Cavidin cənazəsini Sibirdən gətirəndə niyyətim bu idi ki, onun qəbri üzərində böyük bir məqbərə tikək. Biz onu etdik. Gedib onu ziyarət etdin, bir baxın. Əgər, həmin abidənin ətrafında bir iş görmək istəsəniz, mən çox məmnun olaram.

Əli Əbdüləlizadə: Mən səfir Abbasəli Həsənova söz vermişəm ki, Naxçıvana gedəcəyəm. İnşallah, tezliklə Naxçıvana gedib Hüseyn Cavidin qəbri üzərində bir fatihə verəcək, abidəsini ziyarət edəcəyik.

Cənab Prezident, iş görən əlləriniz heç vaxt ağrımasın! Sizin gördüyünüz bu işlər Azərbaycanın hər yerində vardır. Allah Sizi hifz etsin, Hüseyn Cavidin torpağı qədər yaşatsın!

Bilirsiniz ki, Şəhriyarın "Heydərbabaya salam" əsəri tarixi səpkidədir. Heç kəs, heç bir bədxah həmin əsəri azərbaycanlının- Bakıda, Gəncədə, Füzulidə, Qubadlıda, Təbrizdə olsun fərqi yoxdur- ürəyindən çıxara bilməz. Yəni, həmin sözləri qəlblərdən silmək olmaz. Fikrimcə, Nizaminin də, Füzulinin də şerləri Bülbülün oxuduğu mahnılarda heç vaxt unudula bilməz.

Dünən biz burada keçirdiyimiz görüşlərdən sonra bir yerdə nahar etdik, gətirib Bülbülün kassetini oxutdular. O, "Koroğlu" operasından ariyanı ifa edirdi. Yadıma düşdü ki, mən hələ universitetdə oxuduğum illərdə biz dostlarımızla birgə "Koroğlu" operasına dönə-dönə qulaq asırdıq və yeri gələndə özümüz də oxuyardıq.

Cənab Prezident, biz bəhs etdiyimiz bu mövzu elədir ki, bu barədə söhbəcən də danışsaq, qurtaran deyildir. İranla Azərbaycan arasında əlaqələrin min illərlə tarixi vardır. Bu əlaqələri bir gecədə soyutmaq mümkün deyildir. İnşallah, biz Sizin rəhbərliyiniz altında və cənab Prezident Xatəminin hüsni-niyyəti ilə əlaqələrimizin gündən-günə daha da möhkəmləndirilməsi imkanlarından tam istifadə etməyə çalışacağıq ki, tariximiz, mədəniyyətimiz bizə həmişə başucalığı gətirsin, hər iki millət- həm İran, həm də Azərbaycan milləti bundan yaxşı yaşasınlar.

Cənab Prezident, bir böyük qardaş, insan kimi mənim Sizə böyük ehtiramım vardır. Arzumuz budur ki, həmişə Sizə kömək edək, bütün niyyətləriniz, inşallah, həyata keçsin.

Heydər Əliyev: Sağ olun.

"Respublika" qəzeti,
8 avqust 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NAXÇIVANDA YENİ MƏSCİDİN TƏNTƏNƏLİ AÇILIŞINDA NİTQİ

Əziz naxçıvanlılar!
Əziz müsəlmanlar!
Əziz qonaqlar!

Bu gün Naxçıvan Muxtar Respublikasının, Azərbaycan Respublikasının həyatında çox böyük bir hadisə baş verir. Biz Naxçıvanda yeni bir məscidin, Allah evinin açılışına toplaşmışıq. Bu, bizim üçün böyük bayramdır. Xüsusən onu qeyd etmək istəyirəm ki, bu günlər Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi keçirilir. Məscidin məhz bu günlərdə açılması 75 il ərzində Naxçıvan Muxtar Respublikası vətəndaşlarının, insanlarının, müsəlmanlarının - naxçıvanlıların öz islam dininə nə qədər bağlı olduğunu və islam dininin ənənələrini yaşatdığını göstərir.

Mən bu əlamətdar hadisə münasibətilə sizin hamınızı, Naxçıvan Muxtar Respublikasının əhalisini, İran İslam Respublikasının bizə təşrif gətirmiş hörmətli qonaqlarımızı ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu məscid yüz illərlə yaşayacaq, Naxçıvan, Azərbaycan xalqının öz islam dini ilə daim birlikdə olmasına xidmət göstərəcək və xalqımızın mənəvi dəyərlərini inkişaf etdirəcəkdir.

Məscidin yaranması, tarixi haqqında burada məlumatlar verildi. Ancaq mən də bu barədə demək istəyirəm. Çünki mən bu gün böyük sevinc, iftixar hissi keçirirəm. Ona görə ki, bu məscidin burada, Naxçıvanda tikilməsinin, yaranmasının təşəbbüskarıyam. Mən bu məscidin memarıyam, mən bunun təməlini qoyanam.

O illərdə və xüsusən 1992-ci ildə, Allah-təalanın əmri ilə mən Naxçıvan Muxtar Respublikasında yaşadığım və bu Muxtar Respublikaya rəhbərlik etdiyim zaman Naxçıvan məscidini daim ziyarət edirdim, dindarlarla görüşürdüm. Çünki uşaq ikən atam, anam məni həmin məscidə aparardı. Doğrudur, o vaxt biz sovet hakimiyyəti dövründə kommunist ideologiyasını həyata keçirən bir ölkədə yaşayırdıq. O vaxt din qadağan edilmişdi, ardıcıl surətdə din əleyhinə, yəni, ateist təbliğatı aparılırdı, insanları dindən ayırmağa çalışırdılar. O vaxtki dövlət buna zahirən müəyyən qədər nail ola bilirdisə də, daxilən heç bir şey əldə edə bilmirdi.

Mənim atam da, anam da namaz qılırdılar. Onlar daim məscidə gedirdilər, uşaq ikən məni də məscidə aparırdılar. Mənim o uşaqlıq dövrümdə məktəbdə aldığım təhsil, tərbiyə ilə bərabər, məsciddə gördüyüm paklıq, sədaqət şüurumun formalaşmasında da öz əksini tapıbdır.

Xatirimdədir, o məscidin həyəti var idi. Onun bir tərəfini məktəb etmişdilər. Çünki o vaxt Naxçıvanda məktəblər yaranırdı, bina isə yox idi. Məscid binasının indi görünən tərəfinin arxasında böyük bir həyət var idi, həyətin yan tərəfində binalar var idi,- yəqin onlar da məscidin binaları imiş. Ancaq mən görən zaman orada məktəb var idi. Uşaqlar məktəbdən çıxıb məscidin həyətinə, oradan da məscidə girirdilər. O məscidin həyətində aşura günlərinin keçirilməsi mənim xatirimdədir. Mən onların hamısını görmüşdüm.

Mən imanımı heç vaxt itirməmişəm, mənsub olduğum millətin islam dini ilə həmişə fəxr etmişəm. Şübhə etmirdim ki, vaxt gələcək, bizim ölkədə də insanlar tam azad olacaqlar, o cümlədən insanlara vicdan azadlığı veriləcək və onda onlar öz arzu və istəklərini daha da açıq bildirə biləcəklər.

Mən gənc vaxtlarımdan uzun müddət idi ki, Naxçıvandan ayrılmışdım. Bakıda işləyirdim, Azərbaycana rəhbərlik edirdim. Ondan sonra Moskvada işləyirdim, Sovetlər İttifaqının, o böyük superdövlətin rəhbərlərindən biri idim. O dövlətə 10-12 nəfərdən ibarət Siyasi Büro rəhbərlik edirdi. Sovetlər İttifaqının tarixində həmin o Siyasi Büroya daxil olmaq heç bir müsəlmana nəsib olmamışdı. Mən yeganə müsəlman idim ki, Sovet İttifaqının rəhbərliyində Siyasi Büronun üzvü idim. Ancaq mən öz milli ruhumu, ənənələrimi, hissiyyatlarımı, dinimizə məxsus olan ənənələri həmişə qəlbimdə yaşadırdım.

Mənim dostum, hörmətli şeyxülislam Hacı Allahşükür Paşazadə həyatımda faciəvi bir hadisəni xatırlatdı. 1985-ci ildə mən Moskvada həmin dövlətin rəhbərlərindən biri olduğum zaman həyat yoldaşım Zərifə xanım vəfat etdi. Onu Moskvanın, Rusiyanın ən mötəbər qəbirstanında dəfn etdik. Çünki mən də, ailəm də Moskvada yaşayırdıq. Sonra mən o qəbiristanı dəfələrlə gəzirdim və orada bir dənə də müsəlman qəbri görmədim. Ancaq dəfn zamanı şeyxülislam Hacı Allahşükür Paşazadə mənim yanımda idi. Bəli, bu həqiqətdir. O bunu mənim yadıma saldı. Bir tərəfdən böyük bir dövlətin rəhbərləri dəfn mərasimlərində iştirak edirdilər, o birisi tərəfdən Qafqaz müsəlmanlarının şeyxülislamı Quran oxuyur və bu dəfn mərasimini bütün adət-ənənələrə görə həyata keçirməyə çalışırdı.

Mən Moskvadan ayrılıb gəlib Naxçıvanda yaşayarkən çox sıxılırdım. Ona görə ki, mənim həyat yoldaşım yad bir yerdə idi. Amma o vaxt onu Vətən torpağına gətirməyə mənim imkanım yox idi. Burada bilənlər var ki, o vaxt Moskvada mənim əleyhimə çox böyük işlər görülürdü, böhtanlar atılırdı. Mən istefa vermişdim. Çoxları demişdi ki, müsəlman artıq bu yüksək vəzifədə ola bilməz. Təəssüflər olsun ki, o illər Azərbaycanda da vəziyyət çox gərgin idi. Ancaq mən 1993-cü ildə Azərbaycanın rəhbərliyinə dəvət olunandan sonra həyat yoldaşımın cənazəsini dərhal, yenə də hörmətli Allahşükür Paşazadə ilə bərabər gətirib öz Vətənimizdə torpağa verdik.

Mən bunu birinci dəfədir ki, danışıram. Ona görə danışıram ki, mən öz doğulduğum torpaqdayam, öz dostlarımın arasındayam. Ona görə danışıram ki, onun bugünkü gün ilə də müəyyən münasibəti vardır. Mən 1990-1993-cü illərdə burada işləyəndə məscidə gedirdim, dindarlarla görüşürdüm, öz duyğularımı, hissiyyatlarımı orada həyata keçirirdim. Ancaq düşünürdüm ki, indi artıq milli azadlığımızı, vicdan azadlığımızı əldə edəndən sonra Naxçıvan üçün daha da böyük bina, müasir tələblərə daha da uyğun bir məscid lazımdır.

Mən bu barədə çox fikirləşirdim, ancaq əlimdə bir imkan yox idi. Bilirsiniz ki, ilin avqust ayında Azərbaycan ağır bir dövr yaşadığı zaman Ermənistan silahlı qüvvələri Azərbaycanın doğma torpağı olan Dağlıq Qarabağı ələ keçirmək məqsədi ilə 1988-ci ildən Azərbaycanla müharibəyə başlamışdı. Bu müharibə Azərbaycan üçün çox böyük zərərlər gətirmiş, qanlar tökülmüşdür. Azərbaycanlılar - müsəlmanlar ermənilərlə vuruşarkən şəhid olmuşlar. Bunun nəticəsində də Dağlıq Qarabağ uğrunda müharibə getdiyi zaman Azərbaycanın əsas torpağından Ermənistan ərazisi vasitəsilə ayrı düşdüyünə görə Azərbaycanın paytaxtı Bakı və başqa şəhərlər ilə Naxçıvanın əlaqələri tamamilə kəsilmişdi.

Burada bizim elektrik enerjimiz, qazımız yox idi. Su çox az olurdu. İnsanların yaşayışı çətin, ağır idi. O zaman İran İslam

Respublikasının hörmətli Prezidenti Haşimi- Rəfsəncani və İranın Xarici İşlər Naziri hörmətli Əli Əkbər Vilayəti məni Tehrana dəvət etdilər. Biz Naxçıvana yardım məsələlərini orada müzakirə etdik. Bizim imzaladığımız protokollara əsasən ondan sonra Naxçıvana İrandan müəyyən qədər elektrik enerjisi verilməyə başlandı. Naxçıvana müəyyən ərzaq yardımı göstərildi. Naxçıvan ilə İran arasındakı körpüdən gediş-gəliş məsələləri müəyyən qədər yüngülləşdirilirdi. Naxçıvanlıların İrana getməsi və iranlıların Naxçıvana gəlməsi və bələliklə də insanların ticarət etməsi məsələləri yüngülləşdirilirdi. Bir çox başqa işlər də görülürdü.

Ancaq mən oraya Ermənistanın mühasirəsində qalmış Naxçıvanı xilas etmək üçün, İran İslam Respublikasından yardım almaq üçün getmişdim. Mən bu yardımları müəyyən qədər aldım. Bütün bu çətin işlərlə bərabər, mən Naxçıvanda məscid tikilməsi məsələsini də bir nömrəli məsələ kimi müzakirəyə qoydum. Bu barədə Prezident ağayi Haşimi Rəfsəncani ilə danışdım. Məşhədə getdim, İmam Rzanın qəbrini ziyarət etdim, o vaxt orada olan Zati-aliləri Ayətulla Xamneyi ilə görüşdüm və bu fikirlərimi, arzularımı bildirdim. İranın Ali Dini Rəhbəri Zati-aliləri Ayətulla Xamneyinin xeyir-duası ilə mənim əziz dostum, möhtərəm ağayi Rəfiqdust və onun başçılıq etdiyi təşkilat Naxçıvanda məscid tikilməsi haqqında qərar qəbul etdilər, biz protokol imzaladıq.

Bir daha deyirəm, o vaxt Naxçıvan çox böyük sıxıntılar içərisində yaşayırdı, qışda insanlar donurdu, yemək yox idi. Amma, bunlara baxmayaraq, biz məscid məsələsini unutmurduq. Bir müddətdən sonra ağayi Rəfiqdust Naxçıvana gəldi. Biz onunla görüşdük. Mən ona dedim ki, gərək biz məscidin təməlini ataq, külüngü vuraq. Dedi ki, harada vuraq? Bildirdim ki, yer seçmişəm. Bax, bu yeri seçmişdim.

Nə üçün bu yeri seçmişdim? Çünki, birincisi, bu yer Naxçıvan şəhərinin gözəl bir guşəsidir. İkincisi də, naxçıvanlılar bilir, bu yerdə böyük bir seyidlər ailəsi yaşamışdır. Mircəfər Seyidov mənim müəllimin olubdur, onun qardaşı Əqil Seyidov müəllimlik edibdir, Mirhəsən Seyidov Naxçıvan teatrının aktyoru olubdur. Mən bu ailədən olanlara Seyidov dedim, çünki onlar seyid idilər. Amma əslində onlar Mircəfər Mirişli, Əqil Mirişli, Mirhəsən Mirişli və bu gün Azərbaycanın böyük bir bəstəkarı olan Ramiz Mirişlidir.

Mən o illərdə, bax, burada onların evlərini görmüşdüm. Sonra isə buraya gələndə gördüm ki, onların evlərinin bir qismi sökülüb, bir qismi qalıbdır, bu yerdə başqa yararsız binalar da var. Mən buranı seçdim ki, məscid tikilsin. Biz ağayi Rəfiqdust ilə birlikdə gəldik-bilmirəm, buradır, yaxud oradır, haradırsa -külüngü vurduq. Onların şəkli qalıb, yoxsa yox?

Vasif Talıbov: Qalıbdır.

Heydər Əliyev: Biz külüngü vurduq. Mən külüngü vurdum, o külüngü vurdu və məscidin təməlini qoyduq. Bu hadisə 1992-ci ildə olubdur. Düzdür, bu işə başlanması bir az uzandı. Ağayi Rəfiqdust mənə söz vermişdi ki, bunu tez edəcəkdir. Amma sonra Azərbaycanda ara qarışdı. 8-9 ay sonra mən buradan Bakıya getdim, Azərbaycana rəhbər seçildim. Orada başım çox qarışdı. Amma mən Vasif Talıbovdan daim soruşurdum ki, məscidin tikintisi nə yerdədir. Bəzən deyirdi ki, işlər gedir, bəzən də deyirdi ki, işlər dayanıb. Soruşurdum ki, niyə dayanıb? Cavab verirdi ki, İranın Qərbi Azərbaycanından, Şərqi Azərbaycanından nəsə gətirirlər, kimsə gəlir, kimsə gəlmir. Mən ağayi

Rəfiqdusta telefonla zəng etdim ki, qardaş, belə olmaz, protokolu yerinə yetirmək lazımdır. Bu, uzun bir söhbətdir. Nəhayət, ağayi Rəfiqdustu Bakıya dəvət etdim. Onda mən Azərbaycanın Prezidenti idim. Biz Bakıda çox gözəl söhbət etdik. O, mənim əziz qonağım oldu. Ona dedim ki, sənə dörd ay vaxt verirəm, bu vaxt ərzində məscidin tikintisini qurtarmalısan. Bu gün minnətdaram ki, o mənim xahişimi və mənə verdiyi sözü yerinə yetiribdir. Moscidin binası çoxdan hazırdır. Ancaq bunun açılışı mərasiminin keçirilməsinə görə həm İran üçün, həm də Azərbaycan üçün, yəni, mənim üçün bir münasib vaxt tapılması lazım idi. Bu münasib vaxtı tapdıq, buraya gəldik, indi, bax, bir yerdəyik.

Mən bunları ona görə geniş danışıram ki, bir də deyim: bu gün özümü çox xoşbəxt hesab edirəm. Mən çox şadam, çox sevinirəm ki, Azərbaycanda, o cümlədən Naxçıvanda yaratdığım böyük memarlıq əsərləri ilə yanaşı, İran İslam Respublikası ilə bərabər, bilavasitə onların köməyi ilə Naxçıvanda yeni məscid, eyni zamanda, şərq aləminin memarlıq nümunəsi olan böyük bir bina yarada bilmişik.

Naxçıvanda indiki məscidin, səhv etmirəmsə, 100-dən çox yaşı vardır. Amma bu yeni bina yüz illər yaşayacaqdır. Bizdən sonra gələn nəsillər bizə rəhmət oxuyacaqlar. Mənim üçün isə, bundan böyük mükafat ola bilməz.

Mən bu məscidin tikilməsindən çox məmnunam. Çox məmnunam ki, məscidin açılışı mərasiminə İran İslam Respublikasından böyük, çox mötəbər, möhtərəm qonaqlarımız, dostlarımız gəliblər. Mən bu görüşdən də çox məmnunam.

Bu məscid böyük məna daşıyır. Bu da ondan ibarətdir ki, o, İran-Azərbaycan dostluğunun, qardaşlığının, əməkdaşlığının gözəl bir nümunəsidir. Biz Azərbaycanda müstəqil bir dövlət kimi, qonşumuz, dostumuz, qardaşımız İran İslam Respublikası ilə əlaqələrimizi daim inkişaf etdirmək, genişləndirmək istəyirik. Hesab edirəm ki, bunun üçün böyük imkanlar vardır və biz onlardan istifadə etməliyik. Hər halda, mən Naxçıvanda olarkən, biz bu əməkdaşlıq sahəsində qısa bir zamanda çox işlər görə bildik. Mən artıq söylədim ki, İrandan elektrik enerjisi gəldi. İrandan 40 meqavat elektrik enerjisi gəlir, buna görə çox sağ olun. Doğrudur, biz onun pulunu veririk, bu enerji müftə gəlmir. Ancaq elə onun özü də böyük şeydir.

Məni sevindirən odur ki, İran ilə Naxçıvan arasındakı yollar çox sərbəstləşdirilibdir. Hesab edirəm, İran hökuməti bu sahədə çox səxavət göstəribdir, gözəl bir siyasət aparır ki, insanlar 24 saat müddətində Naxçıvandan İrana gedib, İrandan Naxçıvana gələ bilirlər, adamlar sərbəst ticarət edirlər. Bu, bizim arzumuz olubdur.

Bilirsiniz, biz istəyirik ki, müstəqil Azərbaycandan hər bir ölkəyə- əlbəttə, dost ölkəyə- gediş-gəlişimiz çox olsun. Amma İran, axı, burada xüsusi yer tutur. **Azərbaycan üçün başqa bir dövlət yoxdur ki, ölkəmizdə yaşayan azərbaycanlıların, müsəlmanların orada İrandakı qədər qohumları olsun.** Mən hesab edirəm - sonra İrandan Qərb ölkələrinə, Avropa ölkələrinə köçənləri demirəm, keçmiş vaxtları nəzərdə tuturam - elə İranın özündə də, xüsusən onun şimal hissəsində ailə tapmazsan ki, onun Azərbaycanda qohumu, qardaşı olmasın. Biz 70 il idi ki, bundan məhrum idik. Mən bunların hamısını öz gözümlə görmüşəm. İnsanlar göstərməyə qorxurdular ki, bir yerdə bilsinlər ki, onun İranda qohumu vardır. Onda onu işdən çıxarırdılar, cəzalandırırdılar. Ona görə də, hamı İranda

qohumları olduğunu gizlədirdi. Elə ki, sərhəd açıldı, o qədər qohumlar meydana çıxdı ki! Bu insanlara azadlıq verilməli idi. Bu azadlıq verilibdir. **İndi Naxçıvan ilə İran arasında olan əlaqələr ən gözəl, nümunəvi əlaqələrdir.**

Mən arzu edirəm ki, bu əlaqələr bundan sonra daha da inkişaf etsin. Bu gün İran -Azərbaycan dostluğu haqqında danışarkən, o vaxt Azərbaycana, Naxçıvana göstərilən xidmətə görə İranın rəhbərlərinə - Zati-aliləri Ayətulla Xamneyiyə, Prezident Haşimi- Rəfsəncaniyə, Xarici İşlər Naziri ağayi Vilayətiyə və başqa rəhbərlərə təşəkkür edirəm.

Mən Şərqi Azərbaycanın o vaxtkı ostandarı, indi isə, İran hökumətinin naziri olan Əli Əbdüləlizadəyə təşəkkür edirəm. Çünki Naxçıvan Şərqi Azərbaycanla da çox yaxındır. Əli Əbdüləlizadə o vaxt Naxçıvana qardaşlıq diqqəti göstərirdi. Mən məmnunam ki, indi o, İran hökumətinin naziridir.

Mən o vaxt Naxçıvana çox gedib-gəlmiş və uzun müddət Azərbaycan-İran Müştərək Komissiyasının sədri olmuş ağayi Şafeyiyə, o zaman Naxçıvana yardım göstərmiş bir çox dostlarımıza təşəkkür edirəm.

Ağayi Rəfiqdust təkcə məscid tikmək üsün yox, ticarət üçün də burada yaxşı bir dükan, mağaza açdı, gətirib mal da satdı. Mən də ona yer verdim. Ona görə də, deyirdim ki, mən onu Bakıya, Azərbaycana ticarət naziri vəzifəsinə aparacağam.

Bilirsiniz, mən o günlər haqqında bir tərəfdən kədərlə danışıram, çünki biz çox çətin bir dövr keçirdik. İkinci tərəfdən, iftixar hissi ilə danışıram, çünki o çətin, ağır dövrdə biz yaşadıq, sınmadıq, oyilmədik, öz torpağımızı müdafiə etdik və respublikamızı inkişaf etdirdik.

Xatirimdədir, ağayi Əbdüləlizadə bir dəfə böyük bir nümayəndə heyəti ilə Naxçıvana gəlmişdi. O vaxt qış idi. Naxçıvanlılar bilir ki, buranın qışı çox sərt olur. Mən onu qonaq çağırmışdım. Biz Naxçıvandakı qonaq otağında oturmuşduq, üşüyə-üşüyə yemək yeyirdik, əlimizi cibimizdən çıxara bilmirdik. Paltomuz əynimizdə idi. Dostum, bunlar yadındadır? Əli Əbdüləlizadə baxıb soruşdu ki, burada necə yaşayırsınız? Dedim ki, gör indi biz burada necə yaşayırıq. Belə səhifələr olubdur.

Biz indi, bu gün tamamilə başqa şəraitdəyik. Doğrudur, Azərbaycanın hələ çox böyük çətinlikləri vardır. O cümlədən, Naxçıvanın ən böyük çətinliyi odur ki, Ermənistan-Azərbaycan münaqişəsinə görə Naxçıvan bu gün də Azərbaycanla, yəni, Bakı ilə ancaq təyyarə vasitəsilə əlaqə saxlaya bilir. Başqa bir əlaqə yoxdur. Mən burada yenə də İranın Azərbaycana, Naxçıvana yardımını qeyd edirəm və təşəkkürümü bildirirəm. Yollar bağlananda İran hökuməti Naxçıvandan Bakıya avtomobillərin gedib-gəlməsi üçün yol verdi və biz həmin yoldan indiyə qədər istifadə edirik. Görürsünüz, nə qədər faktlar, misallar vardır. Mən bundan da çoxunu deyə bilərəm.

Beləliklə, bizim bugünkü günümüz İran-Azərbaycan dostluğunun bayramıdır, iftixarıdır. İran böyük, güclü bir dövlət, islam dinini qoruyub inkişaf etdirən bir dövlətdir. İslam inqilabı bu ölkənin həyatını kökündən dəyişmiş, onun inkişaf etməsi, xalqın daha da yaxşı yaşaması üçün böyük imkanlar yaratmış və İranı şahlıq istibdadından xilas etmişdir.

İran İslam Republikasıdır. Biz bunu bir dövlət, ölkə, qonşu, dost kimi, necə varsa, o cür qəbul edirik. Ümumiyyətlə, Azərbaycanın siyasəti ondan ibarətdir ki, heç bir dövlət başqa bir dövlətin işinə qarışmamalıdır.

Hər bir müstəqil dövlət öz həyatını öz xalqının istədiyi kimi qurmalıdır, xaricdən müdaxilə olmamalıdır.

Mən bu sözləri ona görə deyirəm ki, Azərbaycanda bəzi adamlar, o cümlədən bizə müxalif olan adamlar var. Onlar belə söhbətlər aparırlar ki, İranda azadlıq, filan yoxdur. Mən bu fikirləri tamamilə rədd edirəm. **Hesab edirəm ki, Azərbaycandan heç kəs İranın daxili işlərinə qarışmamalıdır. Mən bu gün bunu bəyan edirəm ki, hamı bilsin.**

Ancaq indi mətbuat azadlığıdır. İnsanlar qəzetlərdə nə istəyirlər, onu yazırlar. O cümlədən, Azərbaycan Prezidenti Heydər Əliyev haqqında da demək olar ki, hər gün müxalifət qəzetlərində yalan, böhtan məlumatlar yazırlar. Bəzən İranın da bir sıra qəzetlərində Heydər Əliyev haqqında yalanlar, böhtanlar yazırlar. Amma mən nə ona, nə də buna fikir verirəm. Bu, əsas deyil. Mən bilirəm ki, o da yalandır, bu da yalandır, o da böhtandır, bu da böhtandır.

Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir. Biz müstəqilliyimizi əldə edəndən sonra bu yolu tutmuşuq, bu yolla gedirik və bu yolla da gedəcəyik. Çünki son iki əsrdə Azərbaycanın həyatında yaranmış proseslər Azərbaycanı məhz demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf etdirməyin əsasını qoymuşdur. Bu, bizim yolumuzdur. Biz bu yolla gedirik. Dünyəvi dövlət, eyni zamanda, vicdan azadlığı; dünyəvi dövlət, eyni zamanda, islam dininin bütün mənəvi dəyərlərinin hamısından istifadə etmək-bundan kim necə istəyirsə, o cür istifadə etsin- bu yol ilə gedirik. Görürsünüz, nə qədər maraqlı, gözəl bir siyasətdir. Biz bu siyasəti aparırıq və bu siyasəti də aparacağıq.

Hesab edirəm ki, hər bir ölkə başqa ölkənin dövlət quruluşuna, siyasətinə, daxili vəziyyətinə hörmətlə yanaşmalıdır. **Biz İranın daxili quruluşuna və daxili siyasətinə böyük hörmətlə yanaşırıq. İran da Azərbaycanın daxili vəziyyətinə, dövlət quruluşu prosesinə, dünyəvi dövlət olmasına hörmətlə yanaşır. Bu, bizim dostluğumuzun, qardaşlığımızın əsas prinsiplərindən biridir.**

Bizi daha da yaxınlaşdıran odur ki, xalqlarımızın qədim tarixi köklərinin hamısı birdir. Bizim tarixi köklərimiz birdir. Biz bir kökə, bir tarixə malik insanlarıq. Ulu babalarımız İranda da, Azərbaycanda da bu gün bizim üçün dəyərli olan ənənələri yaradıblar. **İran ilə Azərbaycan kimi bir-birinə bu qədər bənzər olan digər ölkə yoxdur.** Əvvəllər, Sovet hakimiyyəti vaxtında Araz çayı maneə idi, indi bu maneə də aradan götürülüb. İndi bu çayın üzərində körpülər tikilir. Hesab edirəm, yeniləri də tikiləcək və bizim əlaqələrimiz daha da inkişaf edəcəkdir.

Mən bu gün İran xalqına sülh, əmin-amanlıq arzulayıram. Mən bu gün İran xalqına rifah arzulayıram. İran xalqı demokratik seçkilər əsasında öz dövlətinin başçısını, Zati-aliləri Xatəmini ölkə Prezidenti seçibdir. Mən bu seçki başa çatan kimi Qərbin bir neçə ölkəsini təmsil edən mətbuat nümayəndələri qarşısında bildirdim: siz deyirsiniz ki, İranda demokratiya yoxdur. Bundan artıq nə cür demokratiya ola bilər? Həmin seçkilərin özü İranda demokratiyanın çox yüksək səviyyədə olduğunu göstərir.

Ancaq təbiidir ki, hər ölkənin özünəməxsus xüsusiyyəti var. Mən heç razı ola bilmərəm ki, Azərbaycanda hər bir şey Fransadakı, İngiltərədəki, Amerikadakı kimi olsun. Mən buna razı ola bilmərəm. Mən Azərbaycanda demokratik dövlət yaradıram. Amma Azərbaycanın öz milli-mənəvi ənənələri vardır. **İran İslam dövlətidir.**

Belə bir şəraitdə demokratik seçkilər keçirmək, bir neçə namizədin içərisindən xalqın iradəsi ilə prezident seçmək İran İslam inqilabının ən gözəl nəticələrindən biridir.

Hesab edirəm ki, İran xalqı tərəfindən seçilmiş Prezident, Zati-aliləri Xatəmi İran ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsinə çox böyük diqqət göstərir. Mən onunla Tehranda görüşüb ətraflı söhbət edərkən bunu hiss etdim. Ondan sonra bir sıra məktublar vasitəsilə əlaqələrimizdən də və xüsusən son dəfə Azərbaycanda səfərdə olmuş ağayi Əbdüləlizadə ilə söhbətimdən də bunu hiss etdim.

Mən bu gün bir daha bəyan edirəm ki, əziz dostlar, siz də bilin və İran Prezidenti Zati-aliləri Xatəmi də bilsin ki, Azərbaycanın Prezidenti kimi mən İran-Azərbaycan əlaqələrinin sağlam olması yolunda, onun daim inkişaf etməsi üçün çalışıram və bundan sonra da çalışacağam. Bu, bizim xalqlarımız, dövlətlərimiz üçün lazımdır. Mənim bu siyasətimi heç kəs dəyişdirə bilməz.

Bu gün biz islam dininin mənəvi dəyərlərinin təzahürünü bir daha görürük. İslam dininin mənəvi dəyərləri ən yüksək qiymətə malikdir. Hər bir xalq həmişə özünün mənsub olduğu dini təbliğ edir, tərifləyir. Amma eyni zamanda, müqayisə etməyə imkan vardır. Şübhəsiz ki, müqayisə edəndə görürsən ki, Həzrəti Məhəmməd Peyğəmbərin yaratdığı islam dini və nazil olunan Qurani-Şərif əsrlər boyu bizim xalqlarımıza mənəvi qida olmuşdur və bundan sonra da olacaqdır. Azərbaycan müsəlmanları həmişə belə olacaqlar.

Mən İrandan gəlmiş qonaqlarımızı bir daha salamlayıram. Təbrizin Cümə məscidinin imamı Ayətulla Mücrəndi Şəbüstərinin buradakı çox dəyərli çıxışını məmnuniyyətlə dinlədim. Güman edirəm ki, biz bu cür çıxışlarla, danışıqlarla, təmaslarla öz dostluğumuzu, qardaşlığımızı daha da irəliyə aparacağıq.

İrandan gəlmiş bütün qonaqlara təşəkkür edirəm. Sizinlə görüşümdən çox məmnunam və sizi, bütün naxçıvanlıları bugünkü əlamətdar hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

(Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.)

"Respublika" qəzeti,
12 oktyabr, 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 11-də Prezident Sarayında İran İslam Respublikasının ölkəmizdəki səfiri Əlirza Beqdelini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev səfiri səmimiyyətlə salamladı, onun vəziyyəti ilə maraqlandı.

Prezident Heydər Əliyevə təşəkkürünü bildirən Əlirza Beqdeli dedi:

- Cənab Prezident, minnətdaram. Allaha şükür, hələ yaşayırıq. Sizi mübarək Ramazan ayının ilk günlərində təbrik edirəm. Sizin timsalınızda bütün azərbaycanlı bacı-qardaşlarımızı təbrik edirəm. Təşəkkür edirəm ki, işinizin çox olduğuna baxmayaraq vaxt tapıb məni qəbul etdiniz. Hesab edirəm ki, Sizinlə bu görüşdə çox əhəmiyyətli məsələlər barədə danışa bilərik.

Respublikamızın Prezidenti Heydər Əliyev diplomata minnətdarlığını bildirərək dedi:

- Çox gözəl. Mən də görüşümüzdən çox məmnunam. Doğrusu, mən bir müddət bundan öncə Sizinlə görüşmək istəyirdim. Ancaq bəzi hadisələr və bəzi məsələlər buna imkan vermədi. Ona görə də bugünkü görüşdən çox məmnunam.

Sizi də Ramazan ayının başlanması münasibətilə təbrik edirəm və arzu edirəm ki, bu il də Ramazan bizim müsəlmanlarımız üçün xeyir gətirsin, bərəkət gətirsin, sağlamlıq gətirsin.

Təbiidir, indi biz bir çox məsələlər haqqında danışa bilərik, söhbət edə bilərik. Ancaq bizim son görüşlərimizdə də demişdim və bu gün də qeyd edirəm ki, **İran-Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün bundan sonra da çox işlər görmək lazımdır. Mənim fikrim bundan ibarətdir ki, bu əlaqələr sağlamdır, bu əlaqələr yaxşıdır və bu əlaqələr günü-gündən inkişaf etməlidir.** Həm siyasi cəhətdən, həm iqtisadi cəhətdən, həm elm, mədəniyyət sahəsində imkanlar böyükdür. İndiyə qədər etdiklərimiz, şübhəsiz ki, bizim ölkələrimizi xeyli yaxınlaşdırıbdır. Ancaq hələ görüləsi işlər də çoxdur. Çünki İranla Azərbaycan bir-birinə o qədər yaxın ölkələrdir ki, burada bəlkə də daha çox iş görmək lazımdır ki, həm İranın, həm Azərbaycanın bütün imkanları ölkələrimiz arasında olan dostluq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldırsın.

Səfir Əlirza Beqdeli dövlətimizin başçısının fikirləri ilə razı olduğunu vurğulayaraq dedi:

- Təşəkkür edirəm. Həmişə olduğu kimi, Sizin sözləriniz İran-Azərbaycan əlaqələrinin genişlənməsi üçün təməl yaradır. Biz həmişə Sizin himayənizdən istifadə etmişik. Ümid edirəm ki, ağayi Xatəmi də eyni səviyyədə Sizinlə müvafiqdir və İranla Azərbaycan əlaqələri haqqında həmişə tapşırıq verib, maraq göstəribdir. Əgər, icazə verseniz, mən ağayi Xatəminin iki məktubunu Sizə təqdim edərdim. Bu məktubun biri cənabınızın yaxın gələcəkdə İrana səfərinizlə əlaqədar dəvətnamədir. İcazə verin, bunu Sizə təqdim edim.

Səfir Əlirza Beqdeli İran Prezidenti, ağayi Məhəmməd Xatəminin məktubunu Azərbaycan Prezidenti Heydər Əliyevə təqdim etdi.

Prezident Heydər Əliyev məktubu məmnuniyyətlə qəbul edərək dedi:

- Təşəkkür edirəm. İran İslam Respublikasının Prezidenti hörmətli, cənab Xatəmiyə mənə göndərdiyi dəvət məktubuna görə təşəkkür edirəm. Mən bu dəvəti məmnuniyyətlə qəbul edirəm. Hesab edirəm ki, bu barədə biz müəyyən qədər gecikmişik. Yəni, mənim İrana rəsmi səfər etməyim, eyni zamanda, cənab Xatəminin Azərbaycana rəsmi səfər etməsi barədə biz Tehranda İslam Konfransı Təşkilatının Zirvə toplantısında görüşərkən danışdıq. Mən cənab Xatəmini dəvət etdim. O da məni dəvət etdi. Amma sonra Siz mənə belə məlumat verdiniz ki, arzunuz ondan ibarətdir ki, əvvəlcə mən dəvəti həyata keçirim, səfər edim, sonra isə, cənab Xatəmi. Mən də bununla razı oldum. Bu gün də razıyam. Mən bu dəvəti məmnuniyyətlə qəbul edirəm və indi bunun vaxtını müəyyən etmək lazımdır. Həm İran üçün, həm də Azərbaycan üçün münasib vaxtı müəyyən etmək lazımdır. Vaxtı müəyyən edəndən sonra hazırlıq işləri aparıb mənim səfərimi təşkil etmək lazımdır.

Hesab edirəm görüşməyə, danışmağa çox böyük ehtiyac vardır. Çünki ötən illərdən indiyə qədər bizim şəxsi görüşlərimiz

az olubdur. Ancaq ehtiyac çoxdur. Həm şəxsən bir-birimizə daha da yaxın olmaq üçün, həm İran-Azərbaycan problemləri haqqında fikir mübadiləsi aparmaq, lazım olan sənədləri imzalamaq, həm də ki, bizim region haqqında fikir mübadiləsi aparmaq, regiondakı vəziyyət və İranın Azərbaycanın vəziyyətinə münasibət barədə, beynəlxalq aləmdə gedən proseslər haqqında geniş fikir mübadiləsi aparmaq olar. Bu, mənim üçün çox əhəmiyyətli olacaqdır. Bu səfərin məqsədi İran və şəxsən İranın Prezidenti, cənab Xatəminin mövqeyini, fikirlərini, görüşlərini bilməkdən ibarətdir. Ona görə mən bu dəvəti məmnuniyyətlə qəbul edirəm. Hesab edirəm ki, bu görüşə ehtiyac vardır. İndi Sizdən asılıdır, bizim Xarici İşlər Nazirliyindən asılıdır ki, hər iki tərəf üçün münasib bir vaxt təyin edəsiniz ki, mən bu dəvəti həyata keçirim.

Prezident Heydər Əliyevə bir daha minnətdarlığımı bildirən Əlirza Beqdeli dedi:

- Cənab Prezident, təşəkkür edirəm. Mən çox sevinirəm ki, artıq Siz səfər üçün öz hazırlığınızı elan edirsiniz. Ağayi Xatəmi də Yaşar Əliyevlə görüşəndə bildirmişdi ki, Prezident Heydər Əliyevin İrana səfərini təşkil etmək üçün böyük işlər görmüşük,- yəni, İran tərəfi.

Sizin xəbəriniz var ki, İrandan bir çox nümayəndə heyətləri, o cümlədən İranın kənd təsərrüfatı naziri ağayi İsa Kələntəri, tikiti və şəhərsalma naziri ağayi Əli Əbdüləlizadə, kömrük naziri ağayi Kərbasian Bakıda olmuşlar, Azərbaycana təşrif gətirmişlər.

Tehranda Müştərək Komissiyamızın iclası Sizin səfərinizin təşkilinə həsr olunmuşdur. Biz bu sahədə çox işləmişik. Artıq çox şeylər hazırdır. Biz çalışmışıq ki, ümumiyyətlə, xırda məsələləri özümüz həll edək. Yəni, "özümüz" deyəndə. başqa məsul şəxslər. Əhəmiyyətli məsələləri, necə ki, Siz qeyd etdiniz, cənab Prezident Heydər Əliyev və cənab Prezident Xatəmi həll etsinlər.

İran və Azərbaycan iki qonşu ölkədirlər. Allah-təala onların talelərini bir-biri ilə bağlayıb və bu birgə taleyi həll etmək, onu xoşbəxt nəslə aparmaq üçün yəqin ki, Prezidentlərin tez-tez görüşmələri lazımdır və buna ehtiyac vardır.

Həmçinin, necə ki, Siz buyurdunuz, İran və Azərbaycan bir regionda yaşayırlar. Bir regionda yaşayan ölkələrin əmin-amanlığı, təhlükəsizliyi, sabitliyi və inkişafı yalnız birgə işləməklə, birgə səylə əldə oluna bilər. Biz ümid edirik ki, inşallah, Sizin səfərinizin nəticəsində elə həmin hədəflərə nail ola bilərik.

Siz İranla Azərbaycanın əlaqələri haqqında həmişə çox böyük fikirlə, xeyirli, bərəkətli əqidə ilə çıxış etmisiniz. Mən Sizin Naxçıvandakı isti çıxışlarınızı unuda bilmirəm. O vaxt Həzrəti Zəhra əleyhissəlamın məscidinin açılışında Siz İran haqqında danışdınız. Həqiqətən, çox dəyərli sözləriniz bizim xatirimizə həkk olunub və biz fikirləşirik ki, yaxın gələcəkdə Sizin səfəriniz, görüşünüz nəticəsində iki xalq arasındakı əlaqələr indiki səviyyədən daha da yüksəlsin, genişlənsin, yaxşı olsun. Bu da xalqlarımızı şad edəcəkdir. Hesab edirəm, bu səfər zamanın ehtiyacıdır və ağayi Prezident Xatəmi Sizin səfərinizdən sonra çox tez bir zamanda Azərbaycana gəlmək niyyətindədir.

Ümumiyyətlə, Azərbaycana gəlmək hər bir İran vətəndaşının, xüsusilə Prezident ağayi Xatəminin arzusudur. Mən bir daha Sizə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm. Həqiqətən, Sizin hidayətinizin, köməyinizin nəticəsində- baxmayaraq ki, bu əlaqələrin çox müxalifləri və istəməyən

qüvvələri də vardır- bu əlaqələr inkişaf edir. Biz şadıq. Allah-təaladan Sizə cansağlığı, uzun ömür arzulayırıq ki, inşallah, bu əlaqələrin iki xalqa layiqli və xeyirli olmasının şahidi olaq. İnanıram ki, bu, çox yaxın gələcəkdə Sizin və ağayi Xatəminin səyləri nəticəsində hasil ola bilər.

Heydər Əliyev: İnşallah. Mən də belə fikirdəyəm.

"Respublika" qəzeti,
12 dekabr, 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev oktyabrın 16-da Prezident Sarayında İran İslam Respublikasının kənd təsərrüfatı naziri İsa Kələntərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Xoş gəlmisiniz Azərbaycana. Axır zamanlar İrandan Azərbaycana çox hörmətli qonaqlarımız gəlir, Azərbaycandan da İrana yaxşı ziyarətlər olur. Bir-birimizlə daha tez-tez görüşürük, danışırıq, söhbət edirik və beləliklə münasibətləri daha da genişləndiririk.

Qəbula görə Prezident Heydər Əliyevə təşəkkürünü bildirən cənab İsa Kələntəri dedi:

- Cənab Prezident, qardaşlar gərək həmişə bir-birinə gedib-gələlər. Belə olanda, hər şey yaxşı olar və işlər də qabağa gedər, yaxınlaşarlar. Qardaşlıqda bunlar vacibdir.

Heydər Əliyev: Bəli, elədir. Mən bu günlərdə Naxçıvanda İrandan gələn böyük mötəbər heyətlə görüşdüm. Yəqin ki, bilirsiniz - mən vaxtilə orada, Naxçıvanda işləyərkən İran hökumətindən xahiş etmişdim və onlar da razı olmuşdular ki, Naxçıvanda böyük məscid tiksinlər. Onu da tikib hazırladılar, bərabər açdıq. Çox təntənə ilə keçdi. Ağayi Beqdeli oradaydı, Ərdəbil ostandarı da orada idi. Ağayi Əbdüləlizadə, Rəfiqdust, Ayətulla Şəbüstəri və başqa çox mötəbər adamlar gəlmişdilər.

İsa Kələntəri: Cənab Prezident, ağayi Xatəmi, hamımız Sizin İrana gəlişinizi gözləyirik. Ümid edirik, inşallah, tezliklə gələrsiniz.

Heydər Əliyev: İnşallah, mən də gələcəyəm. Bəli, mənə Naxçıvanda da dedilər, indi Siz də deyirsiniz. Ağayi Xatəmi məni dəvət edibdir və istəyirəm ki, İrana gedim - çoxdandır İrana getməmişəm - orada da görüşək, söhbət edək, danışaq.

İsa Kələntəri: Biz də neçə gündür İrşad müəllimin qonağıyıq. Bizdə keçən il çox quraqlıq idi, xəsarət çox dəydi. Biz onunla məşğul idik. Əkinçilərə, kəndlilərə kömək edirdik. İranda quraqlıqdan dövlətə çox xəsarət dəyir. Bunlara görə Bakıya keçən il gələ bilmədim.

Heydər Əliyev: Sizdə kənd təsərrüfatı məhsulları necədir?

İsa Kələntəri: Bu il quraqlıqdır. İndi görək nə cür olacaqdır. Payız mövsümü başlasa da, hələ yağış yağmayıbdır. Heç bir şey yoxdur. Allaha qalıb və görək Allah nə verir.

Heydər Əliyev: Allah həmişə hər şeyi vaxtında verir. Bilirəm ki, Sizdə kənd təsərrüfatı yaxşı inkişaf edibdir, çox yaxşı təcrübəniz vardır. Mən həmişə bizim dövlət, hökumət adamlarına, o cümlədən kənd təsərrüfatı nazirinə göstəriş verirəm ki, Sizin təcrübənizi öyrənsinlər, istifadə etsin-

lər. Çünki bilirsiniz ki, biz keçmişdə kolxoz-sovxoz sistemində yaşamışıq. İndi başqa bir sistemə keçirik. Torpaqları camaata paylamışıq. İstəyirik özəlləşdirsin, hərə öz torpağını becərsin, mal-qarasını bəsləsin. Ancaq bu proses də asan proses deyildir, çətindir.

İsa Kələntərli: Bəli, çox çətindir. Ümumiyyətlə, dünyanın hər yerində əkinçilərə kömək olmasa, əkinçi öz işini irəli apara bilməz. Məsələn, Qərb ölkələrində əkinçilərə ildə 4 milyard dollardan çox kömək edirlər.

İranda əkinçilik çox mühüm yer tutur. Ümumi daxili məhsuldan gələn gəlirin 27 faizi əkinçiliyin payına düşür. İşləyənlər isə 23 faiz təşkil edir. Neftdən gələn gəlir 17, sənayedə isə bu, 20 faizdir.

Heydər Əliyev: Demək neft 17 faiz, əkinçilik 27 faiz, sənaye isə 20 faiz təşkil edir?

İsa Kələntəri: Bəli, İranda əhalinin ümumi sayının 40 faizini kənd əhalisi təşkil edir. İmam Xomeyni zamanından onların vəziyyəti yaxşılaşdı. Amma o zaman çox aşağı idi. 21 il bundan əvvəl 20 milyon ton kənd təsərrüfatı məhsulu istehsal olunurdu. İndi bu, 65 milyon tona çatıbdır. Hazırda həm imkanımız çoxdur, həm də əkinçilik yaxşıdır. Düzdür, indi quraqlıqdır, amma yer çoxdur. Problemlər də vardır.

12 il bundan əvvəl nazir olanda mənə dedilər ki, sənin bir vəzifən vardır- sən gərək əkinçiləri çətinlikdən qurtarasan, gərək əkinçilik aşağı səviyyədən orta səviyyəyə çata. Şah dövrünün axır zamanında əkinçilər 33 faiz təşkil edirdi. Bu, Qərb ölkələrində 16 faiz idi. İndi bizdə bu, orta səviyyəni də keçibdir. Bu işə dövlət çox kömək edir.

Heydər Əliyev: Yəni dövlət himayədarlıq edir, maddi yardım göstərir.

İsa Kələntəri: Bəli, himayədarlıq etdilər və bununla da istehsal artdı. 1979-cu ildə ərzağın 45 faizini xaricdən gətirirdik. İndi biz bunu 15 faizə endirmişik.

Heydər Əliyev: Demək, 15 faiz yenə gətirirsiniz?

İsa Kələntəri: Əhalimizin sayı 34 milyon idisə, indi 67 milyon olubdur. Dövlət də əkinçilərə öz köməyini əsirgəmir və pulu subsidiya ilə veririk. Onlardan məhsulu dövlətin müəyyən etdiyi qiymətlə alırıq. Əkinçilərin həm özlərini, həm də məhsullarını sığortalamışıq.

Qədim zamanlardan İranda çox kiçik yerləri əkib-becərirdilər. Əkinçilik bir faiz dövlətin əlindədir, 99 faiz isə kəndlilərin əlindədir. Onlar pərakəndə məşğul olurdular. İndi mülkləri ilə birlikdə kooperativlərdə cəmləşiblər və özlərindən rəhbərlik seçmişik. Göstərilən kömək nəticəsində istehsalları artır.

Hazırda su problemimiz var. Bu işə çox sərmayələr qoymuşuq. Su bəndləri inşa olunur. Bu sahədə müəyyən işlər görülür, bunların nəticəsində irəliləyişlər olacaqdır. Amma indi çətinliklər vardır. Dövlət əkinçilərə kredit verir və digər işlər görür. İnqilabdan sonra biz sərmayəni tədqiqat işlərinə yönəltmişik. İndi bizim 210 tədqiqat işimiz vardır. Biz əkinçilərə subsidiya veririk. Amma bu o demək deyil ki, onlar öz məhsulları ilə dünya bazarında rəqabət apara bilərlər. Bu çətindir. Amerikanın özündə əkinçilərə ildə 130-140 milyard dollar subsidiya verirlər. Onlarda suvarmanın xərci yoxdur, hamısı yağışın hesabınadır. Bizdə isə, gərək quyudan su çıxarasan, kanaldan su aparasan, bunlara su verəsən. Bu, çətindir.

Əlbəttə, bizdə enerjinin qiyməti Sizdən çox ucuzdur. Burada bahadır. Buna baxmayaraq, izafi xərclər Avropada, Amerikada, Asiya ölkələrində azdır. Ona görə də biz əkinçilərə himayə göstərməsəydik,

inkişaf edə bilməzdik. İndi biz xaricdən 1 milyard 800 milyon dollarlıq mal alırıq, əvəzində 1 milyard 100 milyon dollarlıq məhsul ixrac edirik. Balans mənfi 700 milyon dollardır. Biz gərək bunu üçüncü beşillikdə müsbət 2 milyard edək. Ona görə də böyük layihələrin tətbiqinə başlanıbdır. Kəndlərdə kiçik layihələr də həyata keçirilir. Ümidvarıq ki, əlimizdən gələn köməyi Sizə də edə bilərik. Eyni zamanda Sizin köməyinizə də ehtiyac vardır. Çünki Sizin də yaxşı işləriniz çoxdur.

Prezident Heydər Əliyev qonağı dinlədikdən sonra dedi:

- Çox gözəl. Hər halda, biz 7-8 il bundan öncəki dövrə qədər başqa bir sistemdə - kolxoz, sovxoz sistemində idik. Doğrudur, o da öz rolunu oynadı. İndi siz subsidiya deyirsiniz. Məsələn, o vaxt dövlət meliorasiya işlərinə həddindən artıq vəsait buraxırdı. Meliorasiya şoran torpaqların təmizlənməsi, irriqasiya isə, suvarma kanallarının yaranmasıdır. Həm suvarma, həm də şoran torpaqların təmizlənməsi, torpaqların yuyulması vacibdir. Buna həddindən çox pul buraxırdılar. Hətta Sovetlər İttifaqında bu işə baxan nazirlik var idi. Azərbaycanda da belə nazirlik var idi. Böyük kanallar, su hövzələri tikilirdi.

Hələ 70-ci illərdə mən burada işlədiyim zaman Azərbaycanda su hövzələri tikilməsəydi, indi bu işlər çox çətin olardı, camaat ac qalardı. Biz o vaxtlar Mingəcevir dəryaçasından neçə kanallar çokdik. O kanalları İranla sərhəd olan pambıqçılıq rayonlarına su vermək üçün çəkib gətirdik. Bizdə su yoxdur, azdır, bizdə çay yoxdur - bir Araz çayıdır, bir də Kür çayıdır. Kürdən gələn suyu bir yerə - Mingəçevirə yığmışıq. Vaxtilə orada bir bənd, su elektrik stansiyası tikdik. Ondan sonra mən birini də Kürün üstündə, başqa yerdə, ondan yuxarıda tikdim. O da Şəmkir Su Elektrik Stansiyasıdır. Suvarma işi üçün. Amma yenidən fikrə gəlmişəm ki, Kürün üstündə birini də tikirəm, o da Yenikənd adlanır. Biz Dünya Bankından 90 milyon dollar kredit aldıq. Stansiyanı tikirik və bu ilin dekabrında, son ayında açacağıq. Bu, həm elektrik enejisi üçündür, həm də suvarma üçündür. Belə şeylər etməsəydik, çətin olardı.

Bir o deyil. Məsələn, Lənkəran tərəfdə böyük su hövzəsi tikdik. Şəki tərəfdə, Quba tərəfdə və başqa yerlərdə də tikdik. Birini də tikdim, Dağlıq Qarabağda qaldı, ermənilər istifadə edirlər - Tərtər çayının üstündə Sərsəng su hövzəsi idi. Orada da kiçik elektrik stansiyası yaratdıq.

Yəni, o illər mənim yadımdadır. Mən kənd təsərrüfatı ilə çox məşğul olurdum. 70-80-ci illərdə Sovet hökuməti bu işlərə çox pul buraxırdı və bu pulun hesabına bunları edirdi. Əgər, bu olmasaydı, məhsul istehsal edilə bilməzdi. Yəni, o vaxtlar buraxılan pul alınan gədlirdən qat-qat artıq idi.

Məsələn, bizdə çörəyin bir kilosunun qiyməti 20 qəpik idi. Bir manatın 20 qəpiyi, beşdə bir hissəsi. Xatirimdədir, 70-ci illərin axırlarında məsələ qaldırmışdılar ki, axı, biz çörəyi belə müftə satırıq, amma çörəyin istehsalına, buğdanın istehsalına - filana nə qədər xərc qoyuruq. İki-üç dəfə məsələ qaldırıldı ki, heç olmasa, bunun qiymətini 10-20 qəpik artıraq. Amma dedilər, yox, xalq buna dözməz.

Yaxud da ki, heyvandarlıq məhsulları, sən dediyin kimi, bu subsidiya məsələsi. O vaxtlar da Sovet hökuməti bunu buraxırdı. Amma ayrı-ayrı adamlara subsidiya buraxmırdı. Bunu kolxozlara, sovxozlara verirdi. Orada da ümumi təsərrüfat olduğuna görə, şübhəsiz ki, böyük hissəsindən istitfadə edilirdi, amma yeyib-dağıdanlar da olurdu. Ona görə o vaxtlar biz bilirdik ki, məsələn,

Amerikada fermerlərə buğda istehsal etmək üçün hökumət pul verir. Çünki fermer öz pulu ilə o buğdanı istehsal edib gəlir götürə bilmir. Belə olanda da ölkə buğdasız qalır. Demək, hökumət nə etməlidir? Subsidiya verməlidir, pul verməlidir.

İndi Siz bu işi yaxşı təşkil etmisiniz. Amma bizim hələ buna o qədər böyük imkanımız yoxdur. Biz, sadəcə, torpaqları paylayandan sonra bir çox vergilər var idi, həmin vergiləri götürdük. Sonra kənd təsərrüfatı mövsümü zamanı, kənd təsərrüfatı olan yerlərə yanacağın ümumdövlət qiymətini azaltdıq. İndi mənə deyirlər ki, bütün bunlar kömək edibdir.

İrşad Əliyev - kənd təsərrüfatı naziri: Bəli, cənab Prezident, çox böyük köməyi olubdur. Əgər, belə olmasaydı, 30 min hektar sahədə qarğıdalı, 15-20 min hektar sahədə pambıq səpilməzdi. Hələ tərəvəz, bostan məhsullarını demirəm. Məhsulun yığımı da o qədər mütəşəkkil təşkil olunmazdı. Hədsiz dərəcədə köməyi olubdur.

Heydər Əliyev: Bizim iqlimimiz elə bir-birinə bənzəyir. Bizdə də yağış azdır, su mənbəyi azdır, çay azdır. Ona görə hər şey bir-birinə bənzəyir. Özümüz də bir-birimizə bənzəyirik, dilimiz də bir-birinə bənzərdir. Baxıram, elə gözümüz də, qaşımız da bir-birinə bənzərdir.

İsa Kələntəri: Cənab Prezident, mən Mərənddənəm. Arazdan 60 kilometr aralıdır.

Heydər Əliyev: Bilirəm. Mən də naxçıvanlıyam. Mərəndlə Naxçıvanın arasında, sizin dediyiniz kimi, 60 kilometr məsafə var. Mən Naxçıvanda yaşayan zaman Təbrizə gedəndə dayanıb, Mərəndə baxdım, oranı gördüm.

İsa Kələntəri: Dünyanın hər yerində - Amerikada, Asiyada, İranda, Azərbaycanda əkinçilərin özlərinə nisbətdə vəziyyəti eyni deyil. Ümumiyyətlə, bu cür hökumətlərdə heç vaxt istəməyiblər ki, ərzaq bahalansın. İranda deyirdilər ki, başqa sahələr kimi, ərzaq da sərbəst buraxılsın. Bu, ola bilməz. Bunu dövlət nəzarətdə saxlamalıdır.

Biz İranda əkinçiyə kömək etdiyimizə görə minnət qoymuruq. Əksinə, onlara minnətdar oluruq. Çünki onlar məhsul istehsal edərək, qiyməti daha da ucuz edirlər və bu, şəhərdə yaşayanlar üçün də xeyirlidir. Kəndlilərə deyirik ki, məhsullarını baha satsalar, onda həmin məhsullar xaricdən daha ucuz qiymətə gətiriləcəkdir. Aydındır ki, xaricdə ucuzdur, çünki köhnə malları ucuz qiymətə satırlar. Məsələn, taxılın tonunu 80 dollara da ala bilərsən, 200 dollara da. Hər iki qiymətə olan taxıldan çörək bişirmək olar. Biz əkinçilərimizə minnətdarıq ki, qiymətləri ucuz edirlər, inflyasiyanın qarşısını alırlar. Ona görə də, onlara subsidiya verilir. İndi istəyirlər ki, subsidiyanı ilbəil azaltsınlar, amma biz müqavimət göstəririk.

Heydər Əliyev: Mən hesab edirəm, düzgün siyasət aparırsınız, ona görə də deyirsiniz ki, inqilabdan sonra kənd təsərrüfatı məhsullarının istehsalı üç dəfədən də çox artıbdır. Təcrübəniz də çox yaxşıdır. Mən yenə də deyirəm, bizim nümayəndələr dəfələrlə İranda olublar və gəlib mənə danışıblar ki, çox yaxşı təcrübəniz vardır. Ona görə çalışmalıyıq ki, Sizin təcrübənizdən istifadə edək. Şübhəsiz ki, indi dövlətimiz bir az pullanandan sonra daha da çox subsidiya verəcəyik.

Bayaq mən dedim, biz torpağı paylamışıq. Əvvəl deyirdik ki, torpağı paylamaq çətin məsələdir, belə şey olmaz. Üç-dörd il burada mübahisə gedibdir. Məsələn, Rusiyada indiyə qədər torpağı paylamayıblar - icarəyə veriblər, filan ediblər, amma paylamayıblar. Biz torpağı payladıq. Elə bilirdik ki, torpaq paylanandan sonra kəndli hər şeyi özü edəcəkdir. Amma kəndlinin qarşısına o qədər problemlər çıxdı ki, demək onlara kömək etmək lazımdır. Doğrudur, Siz bunu 20 ildir görmüsünüz. Biz də indi görürük. Ona görə biz də bunları edəcəyik və yenə də deyirəm, Sizin köməyiniz, təcrübəniz bizə çox lazımdır. Mən təşəkkür edirəm ki, Siz Azərbaycanı ziyarət etmisiniz. Mən bizim kənd təsərrüfatı nazirinə tapşırmışam. Baş nazirə də demişdim. O mənə dedi ki, Sizinlə görüşübdür. Baxaq görək, biz bu sahədə İran-Azərbaycan əməkdaşlığını nə cür inkişaf etdirə bilərik. Buna görə mən Sizə təşəkkür edirəm.

İsa Kələntəri: Çox sağ olun. Bu barədə cənab Yaşar Əliyev Tehrana gələndə, ondan sonra İrşad müəllimlə biz danışmışıq. Amma bir neçə məsələlərin icra olunması üçün Sizin köməyinizə ehtiyac vardır. İstərdik ki, Sizin köməyinizlə bu işlər daha da qabağa getsin.

"Respublika" qəzeti,
17 oktyabr, 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRANIN XARİCİ İŞLƏR NAZİRİ KAMAL XƏRRAZİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda İran İslam Respublikasının Xarici İşlər Naziri Kamal Xərrazi ilə görüşmüşdür.

Heydər Əliyev səmimiyyətlə salamlayan və onunla hər bir görüşündən şərəf duyduğunu söyləyən cənab Xərrazi İran Prezidenti cənab Xatəminin xoş arzularını, hörmət və ehtiramını dövlətimizin başçısına çatdırdı.

Davos dünya iqtisadi forumunda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək Yolu və ya böyük oyun" mövzusunda keçirilən sessiyada Prezident Heydər Əliyevin dərin məzmunlu çıxışını və suallara ətraflı cavablarını yüksək qiymətləndirən nazirin fikrincə, bu sessiya region ölkələrinin qarşılaşdığı problemlərinin həlli istiqamətində böyük əhəmiyyətə malikdir.

Azərbaycan Prezidenti Heydər Əliyevin qarşıdakı rəsmi səfərini İranda çox səbrsizliklə gözlədiklərini vurğulayan, Prezident Xatəminin dəvətini respublikamızın rəhbərinə bir daha çatdıran cənab Xərrazi əmin olduğunu bildirdi ki, dövlətimizin başçısının bu rəsmi səfəri ölkələrimizin bütün sahələrdə əlaqələrinin daha da möhkəmləndirilməsində mühüm rol oynayacaqdır.

İran İslam Respublikası ilə əməkdaşlığın inkişaf etdirilməsinə Azərbaycan Respublikasının xüsusi əhəmiyyət verdiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev onun salamlarını, xoş arzularını cənab Xatəmiyə və dost ölkənin digər rəhbərlərinə çatdırmağı nazirdən xahiş etdi.

İrana rəsmi səfərə gedəcəyini bəyan edən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu ziyarət qonşu ölkələrimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığının daha da sürətlənməsinə yeni güclü təkan verəcəkdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması, regionda vəziyyət, ikitərəfli münasibətlərin daha da canlandırılması məsələləri barədə də fikir mübadiləsi aparıldı.

"Respublika" qəzeti,
4 fevral, 2000-ci il

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLA SEYİD ƏLİ XAMNEYİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm qardaşım!

İran İslam Respublikasının milli bayramı - İnqilab günü münasibətilə Sizi, dost və qardaş İran xalqını ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və səadət, xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

Biz yaxın qonşumuz olan İran dövləti ilə dostluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk.

Əminəm ki, qarşılıqlı əlaqələrimizin genişlənməsi tarixən bir-birinə bağlı olan xalqlarımızın rifahının yüksəlməsinə, regionumuzda sülh və əmin-amanlığın təmin olunmasına xidmət edəcəkdir.

Heydər ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı - İnqilab günü münasibətilə Sizə, qonşu və dost İran xalqına səmimi salamlarımı və təbriklərimi yetirirəm.

Mən ölkələrmiz arasında dostluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin inkişaf edib möhkəmlənməsinə xüsusi əhəmiyyət verirəm.

İnanıram ki, xalqlarımızın qədim tarixə malik dini, mənəvi, mədəni-iqtisadi əlaqələri qarşılıqlı səylərlə hər iki ölkənin mənafeyi naminə genişlənib möhkəmlənəcək, regionumuzda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edib, Sizə möhkəm cansağlığı və uğurlar, ölkənizə firavanlıq və tərəqqi arzulayıram.

Hörmət və ehtiramla,

Heydər ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

"Respublika" qəzeti,
11 fevral, 2000-ci il

İRAN İSLAM RESPUBLİKASININ MİLLİ BAYRAMI - İSLAM İNQİLABININ 21-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İİR-İN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN KEÇİRDİYİ RƏSMİ QƏBULDA AZƏRAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

"Gülüstan" sarayı, 11 fevral 2000-ci il

- Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Mən sizi, bütün qardaş İran xalqını İran İslam inqilabının 21-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Mən İran xalqına sülh, əmin-amanlıq, rifah arzulayıram.

İran İslam inqilabından keçən müddətdə İran həqiqətən inkişaf dövrünü yaşayır. Bu ölkədə gedən ictimai-siyasi, iqtisadi proseslər bizə məlumdur və dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Ona görə də biz yaxşı bilirik ki, bu illərdə İran hökuməti İslam inqilabının banisi Ayətulla Xomeyninin

qoyduğu yolla gedərək böyük nailiyyətlər əldə edibdir. Biz buna sevinirik və arzu edirik ki, bu nailiyyətlər daha da çox olsun. Çünki İran ilə Azərbaycan ən yaxın qonşudur. Bizim adət-ənənələrimiz, mənəvi dəyərlərimiz tarixən eyni mənbədən gəlibdir. Biz əsrlər boyu, müxtəlif zamanlarda bir yerdə yaşamışıq. İndi də Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra İran ilə Azərbaycan arasındakı əlaqələr yenidən qurulub və inkişaf edib. Bəlkə də heç bir ölkədə azərbaycanlıların İranda olduğu kimi qohum-əqrəbası, dostu-tanışı yoxdur. Eləcə də, güman edirəm ki, İran vətəndaşlarının da Azərbaycanda həm qohum-əqrəbası, həm də dostları var. Bu qohumlar, dostlar uzun illər bir-birindən ayrı düşmüşlər və görüşmək həsrəti ilə yaşamışlar.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra sərhədlər açılmış, insanlar bir-birinə qovuşmuşdur. Hörmətli səfir burada qeyd etdi ki, **bir milyon insan İrandan Azərbaycana, Azərbaycandan İrana gedib-gəlmişdir. Güman edirəm ki, Azərbaycanın başqa ölkələrlə bu qədər insani əlaqələri yoxdur.** Bu təbiidir. Bir də deyirəm, biz qonşuyuq, özü də qonşuluğumuz məhdud çərçivə içərisində deyil. İran ilə Azərbaycan arasında sərhəd çox böyükdür. Azərbaycanda belə deyirlər ki, o tayda da, bu tayda da yaşayanlar bir-biri ilə dostdurlar. Təbiidir ki, bu hissiyyatlar həm azərbaycanlıların İrana getməsinin güclü olmasını, həm də iranlıların Azərbaycana gəlməsini təmin edir.

Bizim iqtisadi əlaqələrimiz inkişaf edir. Ticarət əlaqələri yüksək səviyyədədir. Hesab edirəm ki, Azərbaycanla ticarət əlaqələrində İran indi birinci yerdədir.

Əlirza Beqdeli: Birinci-ikinci yerdədir.

Heydər Əliyev: Yaxşı ki, birinci-ikinci yerdədir. Elə birinci-ikinci çox yaxşıdır. Yaxşı ki, dördüncü-beşinci deyil (gülüş). Birinci-ikinci yeri tutmaq asan deyil. Deməliyəm ki, həm İran tərəfi, həm də Azərbaycan tərəfi o qədər səy edirlər ki, belə yüksək yerləri tutmağa nail olurlar. Ancaq bu iqtisadi əlaqələr bizi hələ təmin etmir. Bizim iqtisadi əlaqələrimizi inkişaf etdirmək üçün çox böyük imkanlarımız vardır. Həm İran tərəfindən, həm də Azərbaycan tərəfindən. Müştərək Komissiya bu yolda fəaliyyətini daha da gücləndirməlidir. Mən komissiyanın Azərbaycan tərəfinin fəaliyyətini daim nəzarət altında saxlayıram və fəaliyyətlərini daha da genişləndirməyi onlardan tələb edirəm.

Mədəni əlaqələrimiz, insani əlaqələrimiz də genişdir. Ancaq bunlar da azdır. Mən hesab edirəm ki, bizim əlaqələrimizin bütün sahələrdə genişlənməsinə imkanlar var və bu imkanlardan istifadə etmək lazımdır.

Sərhədlərin açıq olması insanlarda böyük məmnunluq hissi doğurur. Məsələn, blokada şəraitində yaşayan bizim Naxçıvan Muxtar Respublikasının, bilirsiniz ki, Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycanın əsas hissəsi ilə nəqliyyat və başqa kommunikasiya xətləri kəsilibdir. İranın sərhədlərini açması və İran vətəndaşlarının Azərbaycanın Naxçıvan hissəsinə külli miqdarda gəlməsi, Naxçıvandan Azərbaycan vətəndaşlarının xeyli hissəsinin İranı ziyarət etməsi - bu həm insani əlaqələri inkişaf etdirir, insanlara mənəvi rahatlıq verir, həm ticarət əlaqələrini genişləndirir, həm də hər iki tərəfə iqtisadi mənfəət gətirir. Bizim başqa sərhəd bölgələrimizdə də belə imkanlar vardır. Hesab edirəm ki, onlardan da səmərəli istifadə etməliyik.

İran həqiqətən Ermənistanın Azər-

baycana etdiyi hərbi təcavüzü həmişə pisləmiş, bunu hərbi təcavüz kimi qiymətləndirmişdir. Bilirsiniz ki, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün daha ciddi addımlar atırıq. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, İran hökuməti bu sülhə nail olunması üçün daha da təsirli fəaliyyət göstərəcəkdir. İran hökumətinin bu barədə böyük imkanları vardır. Məlumdur ki, İranın Ermənistanla da çıx sıx ticarət, iqtisadi və başqa dostluq əlaqələri və onlara təsir etmək imkanları vardır.

Məqsədimiz odur ki, münaqişə sülh yolu ilə həll edilsin, işğal altındakı torpaqlar azad olunsun, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin. Hesab edirəm ki, bu halda Ermənistanla Azərbaycan arasında sülh yaradılandan sonra bizim bölgədə əməkdaşlıq etmək, sülhü və təhlükəsizliyi təmin etmək sahəsində daha böyük imkanlar olacaqdır. İran bu proseslərin iştirakçısı olmalıdır və bizim bölgədə - Qafqazda, xüsusən Cənubi Qafqazda sülhə, əminamanlığa nail olmaq üçün öz xidmətlərini göstərməlidir.

İndi İranın iqtisadi inkişafı, demokratikləşməsi, təbiidir ki, bizi sevindirir. Cənab Xatəmi Prezident seçiləndən sonra bu istiqamətdə çox ciddi addımlar atıbdır. Bu, həm bizim ölkədə, həm də bir çox ölkələrdə layiqincə qiymətləndirilir. İran son illərdə keçmişdən fərqli olaraq, qapalı vəziyyətdən çıxıbdır, dünyanın bir çox ölkələri ilə yaxşı əlaqələr yaradıbdır və bu əlaqələri inkişaf etdirmək istəyir. Bunların hamısını biz dəstəkləyirik. İranın nümayəndə heyətləri ilə görüşlərimdə öz fikirlərimi açıq-aydın bildirirəm ki, heç bir ölkə dünyada gedən proseslərdən təcrid olunmuş şəraitdə yaşayıb inkişaf edə bilməz.

İran indi bu barədə çox böyük addımlar atır. Mən arzu edirəm ki, bu addımlar daha da uğurlu olsun və İran beynəlxalq aləmdə özünə layiq yerini həmişə tuta bilsin.

İranın iqtisadi inkişaf proqramı qəbul etməsini mən məmnuniyyətlə dinlədim. Şübhə etmirəm ki, bu proqram həyata keçiriləcəkdir. Çünki İslam inqilabından sonra İranın ilbəil sosial-iqtisadi inkişafı göz qabağındadır. Biz bunu müşahidə edirik və dost kimi sevinirik.

Mən Prezident Xatəminin dəvətini məmnuniyyətlə qəbul etmişəm və bu il İrana məmnuniyyətlə rəsmi səfərə gedəcəyəm. Hörmətli cənab Xatəminin Azərbaycana gəlməsi üçün də mən ona dəvətnamə göndərmişəm. Ümidvaram ki, mənim səfərimdən sonra o da Azərbaycana səfər edəcəkdir. Bunlar çox vacibdir. Doğrudur, son zamanlar bizim ölkələrimiz arasında hökumət və dövlət səviyyəsində gediş-gəliş artıb. Ancaq bu, nə İran tərəfini, nə də Azərbaycan tərəfini qane edə bilməz. Biz bunları daha da yüksək səviyyəyə qaldırmalıyıq və qaldırmaq istəyirik.

İranda hamı bilməlidir ki, Azərbaycan həmişə İranın dostu olub, bu gün də dostudur, gələcəkdə də dostu olacaqdır. Bəzi qüvvələr İran-Azərbaycan əlaqələrini gərginləşdirmək, onlara ləkə vurmaq, yaxud hansısa problemlər yaratmaq istəyirlər. Belələri hər yerdə vardır - başqa ölkələrdə də var. Azərbaycanda da, İranda da var. Bunu həm İranda bilirlər, həm də Azərbaycanda biz bilirik. **Ancaq mən Azərbaycanın Prezidenti olaraq bildirmək istəyirəm ki, heç bir qüvvə İran-Azərbaycan, Azərbaycan-İran dostluq və qardaşlıq əlaqələrini poza bilməz.** Biz heç kəsin başqa ölkənin daxili işlərinə qarışmasına tərəfdar çıxmamışıq və çıxmayacağıq. Hər dövlət öz ölkəsinin siyasətini müstəqil olaraq aparır və

müstəqil də aparmalıdır. Ölkələrin, dövlətlərin bir-birinin daxili işlərinə qarışmaması beynəlxalq hüquq normalarının əsas prinsiplərindən biridir. Buna görə də kimsə belə cəhdlər edirsə, onlar həm Azərbaycan üçün, həm də İran üçün zərərli olurlar. Biz bunları pisləyirik, belə halları heç vaxt dəstəkləməmişik. Güman edirəm ki, İran tərəfi də belə mövqedədir.

Beləliklə, bu gün İran İslam inqilabının 21-ci ildönümünü qeyd edərkən, biz Azərbaycanda yeni bir mənzərənin şahidiyik. Baxın, bu salona nə qədər insan toplaşıbdır, İran səfirinin nə qədər çox qonağı var. Ancaq, əgər, xatırlayırsınızsa, 8-9 il bundan öncə 2-3 nəfər bir-biri ilə görüşə bilməzdi, Bunların hamısı Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir, Azərbaycan-İran əlaqələrinin yaranmasının və inkişaf etdirilməsinin, bizim sərhədlərimizin açılmasının, müxtəlif istiqamətlərdə əməkdaşlığın nəticəsidir. Bu, bizim hamımızı sevindirməlidir və çalışmalıyıq ki, bu meyllər bundan sonra daha da çoxalsın, daha da inkişaf esin.

Mən sizi bir daha təbrik edirəm. İran xalqına səadət, xoşbəxtlik arzu edirəm, qarşısına qoyduğu böyük, əzəmətli proqramların həyata keçirilməsində İran hökumətinə uğurlar arzulayıram. Sağ olun.

(Dövlətimizin başçısı Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı).

"Respublika" qəzeti,
13 fevral 2000-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN "NYU YORK TAYMS" QƏZETİNİN ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞÜNDƏKİ MÜSAHİBƏDƏN

ABŞ-da işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz iqamətgahında bu ölkənin ən nüfuzlu mətbuat orqanlarından sayılan "Nyu York tayms" qəzetinin əməkdaşları - baş diplomatik müxbir xanım Ceyn Perlez, Ağ ev üzrə müxbir Mark Leysi, beynəlxalq iqtisadiyyat üzrə müxbir Cozef Kan, Vaşinqton üzrə redaktorun müavini Tom Şanker və Vaşinqton bürosunun redaktoru Karl Lavin ilə görüşmüş, onların suallarına cavab vermişdir.

Amerika jurnalistləri dövlətimizin başçısını səmimi salamlamışlar.

Sual: Cənab Prezident, çox məmnunuq ki, bizimlə görüşmək üçün vaxt ayırmısınız. Ümidvarıq ki, bizim belə çoxsaylı olmağımız Sizə təsir etməyəcəkdir. "Nyu York tayms" qəzetinin beş nəfər əməkdaşı Sizin görüşünüzə gəlmişik.

Heydər Əliyev: Mən də çox məmnunam. On nəfər olsaydı, daha yaxşı olardı.

Sual: Bu qəbulunuzla bizi çox şərəfləndirdiniz. Ümidvarıq ki, Sizinlə birbaşa sual-cavaba keçə bilərik. İstərdik ki, ilk sualımızı Vaşinqtonda hamını narahat edən, hamını maraqlandıran bir məsələ barədə verək. Bu, Azərbaycan nefti ilə əlaqədardır. Bilmək istərdik ki, Siz Azərbaycan neftinin İran ərazisindən ixrac olunması variantına necə baxırsınız? Mümkündürmü ki, Azərbaycan nefti Bakı-Ceyhanla paralel surətdə həm də İran vasitəsilə ixrac edilsin?

Heydər Əliyev: Mən belə başa düşürəm ki, Amerikada fikir dəyişilir?

Çünki indiyə qədər mən beş ildir bu işlə məşğul oluram, Amerika Birləşmiş Ştatlarında mənə belə sual vermirdilər. Həmişə deyirdilər ki, qərb istiqamətində, Bakı-Ceyhan boru xətti ilə neftin ixracı nə cür olacaq? Amma indi Siz başqa bir sual verirsiniz.

Sual: Ona görə də Sizin cavabınız bizi maraqlandırır.

Heydər Əliyev: Mən bunu belə deyə bilərəm ki, biz beş ildir Azərbaycanın Qərb ölkələrinin şirkətləri ilə imzaladığı ilk müqavilənin - dünyada buna "Əsrin müqaviləsi" deyirlər - həyata keçirilməsi ilə məşğuluq. Bu gün mən çox qürur hissi ilə deyirəm ki, biz böyük nailiyyətlər əldə etmişik. 1994-cü ilin sentyabr ayında o müqaviləni imzalayanda bəziləri buna inanmırdı, bəziləri isə, müxtəlif istiqamətlərdən təzyiqlər edirdilər, yəni, buna etiraz edirdilər. Amma biz bütün sınaqlardan keçdik, neftin hasilatına və sonra ixracına başladıq.

Təbiidir ki, biz neft hasilatına başlayanda düşünürdük və həmişə düşünmək lazımdır ki, nefti hasil edəndən sonra o dünya bazarlarına necə ixrac ediləcək?

Ona görə də biz 1994-cü ildə müqaviləni imzalayanda orada birmənalı yazılmışdı ki, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neft Bakı-Ceyhan boru kəməri ilə ixrac olunacaqdır. Ancaq, təbiidir ki, Bakı-Ceyhan boru kəmərinin tikilməsinə dərhal başlaya bilməzdik. Sizə məlumdur ki, ona görə ilkin neftin ixracı üçün biz 1996-1997-ci illərdə Rusiyanın Qara dənizdəki limanına çıxan Bakı-Novorossiysk boru xəttini çəkdik. 1997-ci ilin noyabr ayında biz Novorossiysk limanından artıq ilk tankerləri yola saldıq.

Amma bilirdik ki, bizə bir alternativ variant da lazımdır. Ona görə də, biz, eyni zamanda, Bakı-Supsa boru xəttini - Gürcüstanın Qara dənizdəki limanına - çəkməyə başladıq. Keçən ilin aprel ayında biz Supsa limanından neft tankerlərini yola saldıq. Ona görə də indi hasil olunan neftimizi iki istiqamətdə ixrac etmək imkanımız var. Amma bunların ikisi də Qara dəniz limanlarınadır və tankerlər gərək Bosfor boğazından keçsinlər. Bu da get-gedə çətinləşir.

Doğrudur, Rusiyadan keçən, yəni, Bakıdan Novorossiysk limanına gedən boru xəttimiz normal işləmir. Çünki siz bilirsiniz ki, Çeçenistandakı vəziyyətlə əlaqədar bir müddət bundan öncə o xətt tamamilə bağlanıbdır. Ona görə Bakı-Supsa boru kəməri indi çox əhəmiyyətlidir.

Ancaq neft hasilatı artır. Əgər, 1994-cü ildə biz bir müqavilə imzalamışdıqsa, indi Xəzərin Azərbaycan sektorundakı və qurudakı yataqlara dair 19 müqavilə imzalamışıq. Gələcəkdə bu yataqlardan ildə, azı, 50-60 milyon ton neft hasil ediləcəkdir. Ona görə də, əsas ixrac boru kəməri hesab etdiyimiz Bakı-Ceyhan boru kəməri ilə daim məşğul olmuşuq.

Bilirsiniz ki, keçən ilin noyabr ayında İstambulda biz, yəni, Azərbaycan, Gürcüstan, Türkiyə - bu işə Qazaxıstan da qoşuldu, çünki öz neftini Xəzər dənizindən keçməklə bu yolla ixrac etmək istəyir - son müqaviləni imzaladıq. Bu müqaviləni Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton da imzaladı.

Ona görə indi Bakı-Ceyhan neft kəməri bizim üçün əsas ixrac kəməridir və onu tikib başa çatdırmaq əzmindəyik. Bunu da edəcəyik. Bu barədə heç kəsin şübhəsi olmasın. Doğrudur, biz İstanbulda bu müqaviləni imzalayandan sonra mətbuatda buna müxtəlif münasibətlər bildirilir, müxtəlif qiymətlər verilir. Amma bunda da qeyri-adi bir şey yoxdur. Çünki əvvəldən bunun əleyhinə olanlar, yaxud başqa marşrutlardan istifadə edilməsini istəyənlər var. Hər halda, bəzi ölkələr hərə öz marağını güdərək bu barədə müxtəlif fikirlər deyirlər.

Ancaq Xəzər dənizində, elə Azərbaycan sektorunda neft ehtiyatları çoxdur. Ona görə, əgər, gələcəkdə mümkün olsa, biz İran ərazisindən də neft ixrac edə bilərik. Bunun üçün şərait yaranmalıdır.

Güman edirəm, siz bilirsiniz ki, Azərbaycanın Xəzər dənizindəki sektoru təkcə neftlə yox, qazla da çox zəngindir. Təbiidir ki, biz bunu bilirdik, ancaq fikrimizi əvvəl neftə cəlb etmişik. Amma indi aparılan işlər, yəni, xarici şirkətlərlə birgə gördüyümüz işlər nəticəsində bizim gözlədiyimizdən də çox qaz yataqları açılmışdır. Məsələn, Xəzərdəki "Şahdəniz" yatağında iş aparmaq üçün 1996-cı ildə imzaladığımız müqavilə - doğrudur, bu müqavilədə Amerika şirkətləri iştirak etmir, orada əsas Bi-Pi, "Statoyl" və başqa şirkətlər var - əsasında indi oradan 1 trilyon kubmetrdən artıq qaz hasil etmək imkanı olduğu görünür. Amma əvvəl biz hesab edirdik ki, orada ehtiyat 400 miyard kubmetr olacaqdır. Deməli, 2,5 dəfə artıqdır, amma bu da son həddeyildir.

O yatağa yaxın olan başqa bir yatağımız var, "Abşeron" adlanır. Onu işlətmək üçün biz Amerikanın "Şevron" şirkəti ilə müqavilə imzalamışıq. Son iki ildə orada aparılan işlər bu yataqda "Şahdəniz"dəkindən də çox - 3 trilyon kubmetr qaz ehtiyatı olduğunu göstərir. Biz görürük ki, başqa neft yataqlarında da böyük qaz ehtiyatları aşkar edəcəyik.

Ona görə də, indi qazın ixracı bizim qarşımızda duran bir problemdir. Güman edirəm, biz bunu da həll edə bilərik. Bilirsiniz ki, Türkmənistan qazının Xəzər dənizi, Azərbaycan, Gürcüstan vasitəsilə Türkiyəyə ixrac edilməsi üçün İstanbulda müqavilə imzalanıbdır. Biz hesab edirik ki, Transxəzər borusu ilə Azərbaycan qazının da bir hissəsi ixrac olunmalıdır.

Gələcəkdə daha çox şeylər gözlənilir. Ona görə, İran, - Sizin sualınıza bir də qayıdıram, - təbiidir ki, istifadə oluna bilər.

Sual: Sizcə, İran ərazisindən daha çox qaz ixracı üçün istifadə etmək olar, yoxsa neft ixracı üçün?

Heydər Əliyev: Həm neft üçün, həm də qaz üçün.

Sual: Siz "gələcək" deyəndə, bunun müddətini nə qədər görürsünüz?

Heydər Əliyev: Bilirsiniz, hesab edirəm, gələcək beş il, on il... Bizim müqavilələr 30-40 il müddətinə imzalanıbdır. Bu işlər o qədər də asan deyildir. Çünki müqavilə imzalanandan sonra təxminən iki-üç il geoloji kəşfiyyat işləri gedir. Ondan sonra orada olan neft və ya qazın həcmi müəyyən edilir. Sonra hasilat prosesi başlayır. Hasilat prosesinə başlamaq üçün bir çox işlər görmək, dənizdən qazı, yaxud da nefti sahilə çıxarmaq üçün borular çəkmək, infrastruktur yaratmaq lazımdır. Çox çətin işdir. Mən sizə məsləhət görürəm, Azərbaycana gəlin, indi işlətdiyimiz "Çıraq" yatağındakı platformaya sizi vertolyotla göndərərəm, orada gözəl mənzərə görərsiniz.

Neft sahəsində daha geniş bilgi almaq istəyirsinizsə, Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev bu işlərlə bilavasitə məşğul olur, o sizə əlavə cavablar verə bilər...

("Respublika" qəzeti, 20 fevral 2000-ci)

* * *

"DƏDƏ QORQUD" DASTANININ 1300 İLLİYİ MÜNASİBƏTİ İLƏ BAKIDA KEÇİRİLƏN GÖRÜŞLƏRDƏN:

Dövlətimizin başçısı Heydər Əliyev tədbirdə Türkiyədən, İrandan, İraqdan, Qazaxıstandan, Qırğızıstandan, Türkmənistandan, Gürcüstandan, Fransadan və digər ölkələrdən gəlmiş, eləcə də Azərbaycanı təmsil edən tanınmış elm, mədəniyyət, incəsənət adamları, ictimai-siyasi xadimlər ilə səmimi görüşdü, hal-əhval tutdu, onlara dərin minnətdarlığını bildirdi, qonaqların fikirlərini dinlədi.

Əli Doğramacı (Türkiyə): Hörmətli Prezident, burada Sizinlə bərabər olmaq bizim üçün böyük şərəfdir.

Sadiq Tural (Türkiyə): Cənab Prezident, Sizə çox minnətdaram.

Heydər Əliyev: Bayburtlular Türkiyədə "Dədə Qorqud"u daha çox sevirlər.

Sadiq Tural (Türkiyə): Sağ olun. "Dədə Qorqud" hamımızındır. Siz bu gün "Dədə Qorqud"u ən gözəl şəkildə canlandırdınız. Bütün bunlara görə Sizə hörmət və ehtiramımı ərz edirəm.

Şerdust (İran): Cənab Prezident, Sizi təbrik edirəm. Ömrünüz uzun olsun.

Heydər Əliyev: Günü-gündən cavanlaşırsan.

Şerdust (İran): Çox sağ olun. Sizin gözəl gözlərinizdə belədir. Cənab Prezident, biz "Dədə Qorqud"un yubileyini dörd ay bundan əvvəl Təbrizdə də qeyd etmişik. Bu kitab həmin tədbirdəki məruzələrin xülasəsidir. "Dədə Qorqud" dastanını cavanlar üçün ayrıca nəşr etmişik. Bu kitab da Naxçıvan şairlərinin şerlərinin toplusudur, İranda nəşr olunubdur. Bunları Sizə təqdim edirəm.

Heydər Əliyev: Çox sağ ol. Sən orada İran-Azərbaycan dostluğu, qardaşlığı sahəsində çox yaxşı işlər görürsən. Azərbaycan İranda da Azərbaycandır, Azərbaycanda da Azərbaycandır. Sən bunları orada hamısına da de. İran böyük bir dövlətdir, bütöv dövlətdir. Hər dövlətin bütövlüyü beynəlxalq hüquq normaları ilə təsdiq olunmuşdur. Azərbaycan da bütöv dövlətdir, Türkiyə də bütöv dövlətdir və hər bir dövlətin dövlət bütövlüyünü, torpaq bütövlüyünü biz hamımız saymalıyıq və onunla hesablaşmalıyıq. Amma Təbrizi çox istəyirəm.

"Respublika" qəzeti,
12 aprel 2000-ci il

BAKIDA İRAN İSLAM RESPUBLİKASININ VIII SƏRGİSİNİN AÇILIŞINDA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Hörmətli ağayi Şafeyi!

İran İslam Respublikasından Azərbaycana təşrif gətirmiş hörmətli nümayəndə heyətinin üzvləri!

Hörmətli iş adamları!

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı bu gün Azərbaycanda, Bakıda İran İslam Respublikasının VIII sərgisinin açılışı münasibətilə təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu sərgi İran ilə Azərbaycan arasında olan iqtisadi əlaqələrin inkişafında böyük rol oynayacaqdır.

Ölkələrimiz arasında bütün sahələrdə geniş əməkdaşlıq vardır. Ancaq təbiidir ki, ölkələr arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etməsində iqtisadi əlaqələr

xüsusi yer tutur. Bu, bütün dünyada, bütün ölkələr arasında, o cümlədən İran ilə Azərbaycan arasında da belədir.

Hesab edirəm ki, İran ilə Azərbaycan arasında olan əlaqələr İranın bir çox başqa ölkələrlə və Azərbaycanın bir çox başqa ölkələrlə əlaqələrindən fərqlidir. Doğrudur, burada, təbiidir ki, iqtisadiyyat, ticarət, mal dövriyyəsi xüsusi əhəmiyyət daşıyır. **Amma bizim üçün bütün əlaqələrimizin əsasını təşkil edən xalqlarımızın bir-birinə dost, qardaş olması, bizim ümümi mənəvi dəyərlərə, dinə, müştərək tarixi keçmişə mənsub olmağımızdır.** Ona görə də İran ilə Azərbaycan arasındakı əlaqələr çox fərqlənir.

Təbiidir ki, bütün bunların hamısını nəzərə alaraq, iqtisadi əlaqələrin genişləndirilməsi, inkişaf etdirilməsi bizim əlaqələrimizi həm İranın, həm də Azərbaycanın bütün başqa ölkələrlə əlaqələrindən daha da yüksək səviyyələrə qaldırır. Buna görə də mən hesab edirəm ki, bu sərgi, yəni, İran İslam Respublikasının Azərbaycanda açılmış VIII sərgisi bu işdə böyük rol oynayacaq, ölkələrimiz arasındakı iqtisadi əlaqələrin inkişafına, xüsusən özəl sektorun, iş adamlarının, biznesmenlərin bir-biri ilə daha da sıx əlaqələrinin yaranmasına kömək göstərəcəkdir.

Azərbaycan müstəqil bir dövlət olduğuna, ölkəmizdə geniş özəlləşdirmə proqramı həyata keçirildiyinə, respublikamızda dövlət mülkiyyəti şəxsi mülkiyyətə verildiyinə, Azərbaycanda torpaq islahatı aparıldığına və torpaqların hamısı keçmiş sahibinə, yəni, torpaqda yaşayan, işləyən vətəndaşlara verildiyinə görə indi Azərbaycan bütün sahələrdə bazar iqtisadiyyatı yolu ilə gedir və bu da ölkəmizin iqtisadiyyatının əsasını təşkil edir. Əgər, hazırda biz iqtisadiyyatımızın bir qismini hələ özəlləşdirə bilməmişiksə, bu, ona görə deyil ki, biz bu məsələdə hansısa bir geriliyə yol veririk, yox, bu iş planla gedir və planla da gedəcəkdir.

Bir sözlə, Azərbaycan bazar iqtisadiyyatı yolu tutaraq bütün mülkiyyəti özəlləşdirir. Təbiidir ki, dövlətin də əlində müəyyən bir mülkiyyət qalmalıdır. Ancaq o, dövlətə məxsus olan mülkiyyətdir. Qalanların hamısı özəlləşdiriləcəkdir, xalqa veriləcəkdir. Onun çoxu da özəlləşdirilibdir.

Ona görə də indi İranın və Azərbaycanın iş adamlarının bir-biri ilə sıx əlaqəsi və mal dövriyyəsi, ticarəti həm İran üçün, həm də Azərbaycan üçün çox faydalıdır. İndi Azərbaycanda xarici ticarət tam liberallaşdırıldığına, sərbəstləşdirildiyinə görə ölkəmizə dünyanın hər yerindən mal gəlir. Uzaq-uzaq ölkələrdən Azərbaycana su gətirib satırlar. Su hər yerdə var. Amma bu suyun keyfiyyəti yüksək olduğuna görə gətirirlər, satırlar, burada onun alıcıları vardır. Həmin adamlar da qazanırlar. Əgər, hansısa bir iş adamı gördüyü işdən qazanc götürməsə, təbiidir ki, bu işi görməyəcəkdir. Əgər, uzaq ölkədən şüşələrdə su gətirib Azərbaycanda satırsa, demək, bundan mənfəət götürür.

Məsələn, Azərbaycana istehlak, geyim mallarının çoxu Avropa ölkələrindən - İtaliyadan, başqa ölkələrdən gəlir. Respublikamızın mağazaları, dükanları, bazarları həmin mallarla doludur. Bizdə bütün ticarət özəlləşdirilibdir, ayrı-ayrı insanların əlindədir, sahibkarlara verilibdir. Onlar haradan istəyirlər, oradan da mal gətirirlər. Amma uzaq ölkədən gələn malın, təbiidir ki, xərci çox ola bilər, qazancı da az olur. Yəni, hər bir biznesmen üçün nəqliyyat xərci həmişə böyük əhəmiyyət daşıyır. Amma təbiidir ki, yaxın ölkədən, qonşu ölkədən gələn malın xərci az, tacirin, iş adamının da gəliri çox olacaqdır.

Bununla onu demək istəyirəm ki, İran ilə Azərbaycan bir-biri ilə bağlıdır. Bizim bir sərhədimiz var. Buradan tullansan İrana düşəcəksən, İrandan da tullansan buraya düşəcəksən. Sadəcə, bəzi idmançılar bunu edə bilərlər. Yəni, məsafə çox kiçikdir, azdır. Əlbəttə, bu da həm İranın, həm də Azərbaycanın tacirlərinə, iş adamlarına böyük imkanlar yaradır. Ona görə də mən hesab edirəm ki, gərək Azərbaycanın ticarət əlaqələri, birinci növbədə, onun qonşu ölkələri ilə, o cümlədən, xüsusən İranla aparılsın. Əlbəttə, İranın tacirləri, iş adamları da, birinci növbədə, Azərbaycanla əlaqələr qurmalıdırlar. Çünki İranın Azərbaycandan yaxın qonşusu yoxdur. Doğrudur, Türkmənistan da, Ərəb ölkələri də İranın qonşusudur. Amma ən yaxın qonşu Azərbaycandır.

Ticarətdə, iqtisadiyyatda rəqabət var. Həm İrandan Azərbaycana, həm də Azərbaycandan İrana gətirilib satılan malın keyfiyyəti əsas məsələdir. Təbiidir ki, bu sərgi İranda istehlak, yaxud sənaye mallarının bugünkü səviyyəsi, keyfiyyəti haqqında Azərbaycan ictimaiyyətinə, ölkəmizin iş adamlarına, tacirlərinə və dövlətə yeni imkanlar yaradacaqdır ki, baxıb görək sərgidə nə var, hansı keyfiyyətdədir, bu malları İrandan almaq, yaxud İtaliyadan, Fransadan gətirmək faydalıdır.

Yenə də deyirəm, keçmişdə İran həmişə bazar iqtisadiyyatı prinsipi ilə yaşayıbdır. Ona görə də, bu, onlar üçün yenilik deyildir. Amma Azərbaycan keçmişdə sovet sistemində yaşadığı zaman iqtisadiyyat da, ticarət də, hər şey dövlətin əlində olubdur. Dövlət nə istehsal edibsə, onu da satıbdır. Bu malların keyfiyyəti xarici ölkələrdəkindən aşağı keyfiyyətdə olsa da onu satıbdır. Bu malları da alıblar. Çünki hər bir insan, vətəndaş bundan istifadə etməlidir. Yəni onun yüksək keyfiyyətli mal almağa imkanı yoxdursa, bunu alır və qane də olur.

Beləliklə, mən onu izah etmək istəyirəm ki, İran ilə Azərbaycan arasında olan iqtisadiyyat, ticarət əlaqələri, mal dövriyyəsi həm İran, həm də Azərbaycan üçün çox əlverişlidir.

Hörmətli nazir ağayi Şafeyi İranda sənayenin inkişafı, yeni-yeni müəssisələrin yaranması, bir çox xarici ölkələrdə onların apardıqları işlər, həyata keçirdikləri layihələr haqqında danışdı. Bunlar çox sevindirici haldır. Demək, İranın iqtisadiyyatı, texniki və texnoloji səviyyəsi elə mərtəbəyə qalxıbdır ki, İran xarici ölkələrdə də öz sənayesini tətbiq edə bilir və həmin dövlətlər buna maraq göstərirlər.

Təbiidir ki, İran sənayecə inkişaf etmiş böyük bir ölkədir. Biz görürük və müşahidə edirik ki, son 20 il ərzində İranda iqtisadiyyat sahəsində, xüsusən sənaye sahəsində böyük inkişaf vardır. Burada dünyanın müasir texnika və texnologiyası tətbiq olunubdur, bir çox müəssisələr artıq dünya standartları səviyyəsində iş görür və məhsul buraxırlar. Ona görə də, İran bizim üçün yaxşı bir bazardır. Yəni, oradan mal alıb gətirmək bizim üçün əlverişlidir.

Azərbaycan mallarının İrana ixrac edilməsi də çox mühüm məsələdir. Təbiidir ki, Azərbaycan keçmişdən böyük sənaye mərkəzidir, xüsuson Bakı keçmiş Sovetlər İttifaqının ən böyük sənaye mərkəzlərindən biri olubdur və burada həddindən çox sənaye müəssisələri vardır. Ancaq həmin sənaye müəssisələri keçmiş Sovetlər İttifaqının ümumi sənaye kompleksinə daxil idi. Həmin sənaye kompleksində Azərbaycanın sənaye müəssisələri Sovetlər İttifaqının tələbatının bir qismini yerinə yetirirdi, yaxud istehsal olunacaq hansısa malın ilkin istehsalını təmin edirdi. Amma son istehsal üçün onu başqa yerə göndərirdi. Ona görə də,

Azərbaycanın sənaye müəssisələri keçid dövründə çox çətin bir vəziyyətə düşüblər.

Məsələn, ağayi Şafeyi burada kimya sənayesi haqqında danışdı. Azərbaycanda çox böyük kimya sənayesi yaranıbdır. Kimya sənayesinin əsasını təşkil edən əsas xammal neft və qazdır. Azərbaycanda neft və qaz həmişə olubdur. Buna görə də, kimya sənayesi keçmiş Sovetlər İttifaqının başqa respublikalarından, bəlkə də, daha çox Azərbaycanda inkişaf etmişdi. Bizim Sumqayıtda böyük kimya kompleksləri yaradılıbdır.

Təəssüflər olsun ki, sovet hökumətinin bir siyasəti var idi, həmin siyasət də respublikaların, o cümlədən bizim kimi respublikaların xeyrinə yox, zərərinə idi. Amma ittifaqın, yaxud da Rusiyanın xeyrinə idi.

Məsələn, kimya sənayesində buraxılan malların ilkin məhsulu Azərbaycanda istehsal olunurdu, sonra isə, Rusiyanın uzaq olan hansısa bir şəhərinə göndərilirdi və orada son məhsula çevrilirdi. Təbiidir ki, ilkin məhsulun qiyməti son məhsulun qiymətindən azdır. Ona görə də biz az qazanırdıq, onlar çox qazanırdı. Bu, məsələnin bir tərəfidir. İkinci tərəfi isə, ondan ibarət idi ki, biz onlardan asılı qalmışdıq.

Vaxtilə Azərbaycanın kimya sənayesi üçün xammalı - apatiti Murmanskdan gətirirdilər. İndi Murmanskdan buraya xammal - apatit gətirmək, ondan məhsul istehsal edib, qazandığın gəlirdən beş dəfə baha olacaqdır. Amma o vaxt vahid bir sənaye sistemi olduğuna görə, gələn apatitin qiymətini yəqin heç Fikrət Sadıqov da bilmirdi. Apatit Murmanskdan buraya gəlirdi, burada məhsul istehsal edirdiniz, amma onu son məhsula çatdıra bilmirdiniz. Elədirmi?

Fikrət Sadıqov ("Azərkimya" Dövlət Şirkətinin prezidenti): Bəli.

Heydər Əliyev: Bunlar burada yarımçıq məhsul istehsal edib yenə də Rusiyanın başqa bir şəhərinə göndərirdilər və orada o, son məhsula çevrilirdi.

Neft maşınqayırma sənayesində də belə idi. Azərbaycanda neft maşınqayırma sənayesi çox inkişaf edibdir. Keçmiş Sovetlər İttifaqında neft avadanlığına olan tələbatın 70 faizini ödəyən məhsullar Azərbaycanda istehsal olunurdu. İstehsal edilən məhsul neft sənayesi olan yerlərə - həm Rusiyaya, uzaq Sibirə, həm də Orta Asiya ölkələrinə göndərilirdi. Ona görə də, bu zavodlar çox gözəl işləyirdi. Hər bir zavodda 4,5 - 6 min insan çalışırdı, yaxşı pul qazanırdı.

O illərdə - 1970-ci illərdə Azərbaycana başçılıq etdiyim zaman mən həmin zavodların yaranmasında, keçmişdə tikilmiş zavodların modernləşdirilməsində, yəni, müasirləşdirilməsində çox iş gördüm. O zavodlar bizim hamımızın fəxri idi. Fəxr edirdik ki, bizim belə zavodlarımız vardır. Onlar bu gün də var. Amma bu gün həmin zavodlar üçün bazar yoxdur.

Çünki Rusiya və başqa ölkələr indi bu avdanlığı özləri istehsal edirlər. Başqa ölkələrdə də biz istənilən bazarı tapa bilmirik. Çünki onlar özləri də belə yüksək keyfiyyətli məhsullar istehsal edirlər.

Mən Azərbaycan sənayesinin başqa sahələri haqqında da bu sözləri deyə bilərəm. Vaxtilə Azərbaycan sənayesi çox böyük və məhsuldar olubdur. Amma Sovet İttifaqı dağıldığına, Azərbaycan müstəqillik qazandığına, bazar iqtisadiyyatı yolunu seçdiyinə görə indi müəyyən çətinliklər vardır. Vaxtilə biz bazarın nə olduğunu bilmirdik. Əsas vəzifə o idi ki, sən məhsul istehsal etməlisən. Sənin istehsal etdiyin malın haraya gedəcəyi qabaqcadan planlaşdırılırdı. Buraxılan məhsul son məhsul idisə, o, ticarətə verilirdi və keyfiyyəti yaxşı, yaxud pis olsa da, hamı onu almalı idi. Çünki başqası, ya-

xud xarici ölkədən gələn mal yox idi.

Yenə də deyirəm, Azərbaycanın sənaye potensialı var. Bizim bu sənaye potensialımız belə qalmayacaqdır. Təbiidir ki, biz get-gedə onları yeni şəraitə uyğunlaşdıracaq və hər birinin inkişafını təmin edəcəyik.

Bütün bu səbəblərə görə də indi biz çoxlu sənaye məhsulları ixrac edə bilmirik. Vaxtilə Azərbaycan İrana xeyli neft məhsulları ixrac edirdi. Amma indi İran bu məhsulları almır. Biz isə, onu başqa ölkələrə ixrac edirik. Bu da bizim ölkələrin mal dövriyyəsinə müəyyən qədər təsir edir. Buna baxmayaraq, Azərbaycanın xarici mal dövriyyəsində İran yüksək yerlərdə durur. İran bir neçə il bundan əvvəl bu sahədə lap birinci yerdə idi. Ona görə ki, biz İrana çoxlu neft məhsulları ixrac edirdik. İndi gərək ki, İran üçüncü yerə düşübdür, lakin yenə də birinci yerə çıxa bilər. Əgər, biz İrana çoxlu mal ixrac edə bilmiriksə, onda qoy İran Azərbaycana çoxlu mal ixrac etsin və biz mal dövriyyəsini yenə də artıraq.

İranın Azərbaycana mal ixrac etmək imkanları böyükdür. Bu sərgi də ona görə burada təşkil olunubdur ki, Azərbaycanın iş adamları, tacirləri baxıb görsünlər, həm keyfiyyətinə, həm də nəqliyyat xərclərinin az olmasına görə sərfəli malları İrandan almaq mümkündürsə, gedib onu İtaliyadan, Fransadan, yaxud Rusiyanın uzaq bir şəhərindən almasınlar. Təbiidir ki, bütün bunlar iqtisadçıların, tacirlərin, iş adamlarının işidir. Mən bu işə qarışmıram, sadəcə, öz fikrimi söyləyirəm.

Mən bunları deyərək, belə hesab edirəm ki, İran ilə Azərbaycan arasında iqtisadi əlaqələrin genişlənməsi və inkişaf etməsi üçün hələ böyük imkanlar vardır. Həm İran, həm də Azərbaycan tərəfi bu imkanlardan istifadə etməlidir. Biz bu imkanlardan nə qədər çox istifadə etsək, təbiidir ki, ölkələrimizin iqtisadi əlaqələrini də o qədər çox inkişaf etdirəcəyik. Mən sizə bəyan edirəm ki, Azərbaycan bu sahədə öz üzərinə düşən işləri görəcəkdir. Bizim iqtisadiyyatla məşğul olan bütün nazirliklərə tapşırıram və iş adamlarına tövsiyə edirəm ki, mənim bu sözlərimdən özləri üçün nəticə çıxarsınlar və lazımi işlər görsünlər.

Azərbaycanın neft sənayesi həmişə olduğu kimi, yenə də inkişaf edir. Azərbaycan qədim neft ölkəsidir. Dünyada ilk dəfə Azərbaycanda sənaye üsulu ilə neft hasil olunubdur. Əgər, suyun dərinliklərindən neft çıxarılmasını, hasil edilməsini götürsək, Azərbaycan bu sahədə də dünyada birinci yeri tutur. 50 il bundan öncə Azərbaycan Xəzər dənizindəki Neft daşlarından ilk dəfə neft əldə edibdir. Ondan sonra oradan həddindən çox neft əldə olunubdur. Amma vaxtilə bu məhsulun hamısı Sovet İttifaqının, necə deyərlər, ümumi qazanına gedirdi. Azərbaycan, sadəcə, nefti hasil edirdi, hara deyirdilər, ora göndərirdi.

Bilirsiniz ki, müstəqil bir dövlət kimi Azərbaycan indi öz sərvətlərinin sahibi olduğuna görə bu sərvətlərdən necə istifadə etməyi özü müəyyən edir. Əgər, Sovetlər İttifaqı dövründə Azərbaycanın nə qədər neft hasil etdiyini və onun nə qədərini Sovetlər İttifaqına verdiyini hesablasaq, görərik ki, bu ittifaqa daxil olmuş respublikalardan heç biri sovet hökumətinə bu qədər xeyir verməyibdir.

Bir şey məlumdur ki, çar dövründə Rusiya aqrar bir ölkə olubdur. Sovet İttifaqı yarananda sonra bu aqrar ölkə qısa bir müddətdə sənaye ölkəsinə çevrildisə, SSRİ-də sənayeləşdirmə aparıldısa, bunun əsas səbəblərindən biri də o idi ki, Azərbaycan, Bakı nefti var idi. Əgər, Bakı nefti olmasaydı, bunlara nail olmaq mümkün deyildi. Yaxud, İkinci dünya müharibəsi, alman faşistləri ilə müharibə dövründə, əgər, Azərbaycan nefti olmasaydı, həmin müharibənin nə ilə qurtaracağı məlum deyildi. Bu, bizim sözümüz deyil. Moskvada oturan, indi də yaşayan, o vaxt bu işlərlə məşğul olan böyük şəxsiyyətlər dəfələrlə deyiblər ki, İkinci dünya müharibəsi zamanı, əgər, Azərbaycan nefti olmasaydı - təbiidir ki, neftsiz nə təyyarə, nə tank, nə avtomobil, nə də başqa texnika işləyə bilməz - Sovetlər İttifaqı digər müttəfiqləri ilə birgə alman faşizminə, bəlkə də, qalib gələ bilməzdi.

Xalqımız neft sənayesi sahəsində böyük işlər görübdür. Təəssüflər olsun ki, keçmişdə əldə etdiyi məhsulların əksəriyyətinin sahibi özü olmayıbdır. Amma biz indi öz sərvətlərimizin sahibiyik və bu sərvətlərimizdən istədiyimiz kimi istifadə edirik. Biz bunun üçün bu yolu seçdik ki, xarici şirkətləri Azərbaycana dəvət edək, onlar burada bizimlə müştərək iş görsünlər, sərmayə gətirsinlər, Xəzər dənizindəki zəngin neft və qaz yataqlarımızdan məhsul hasil edək və ölkəmizin iqtisadiyyatını inkişaf etdirək.

Bəzən deyirlər ki, dünyanın və xüsusən Qərb ölkələrinin şirkətləri nə üçün Azərbaycana gəldilər və onlar nə üçün buradadırlar? Bunu anlamaq lazımdır və onun cavabı çox sadədir. Azərbaycan müstəqil bir dövlət kimi keçid dövrü yaşadığı bir zaman həmin yataqların heç birindən özü istifadə edə bilmirdi. Biz hətta keçmişdən yaranmış neft mədənlərimizdə öz imkanlarımızla onları yalnız işlədə bilirdik. Amma suyun 200-300-400 metr dərinliyində quyu qazmağa və oradan neft çıxarmağa, müasir texnikanı, texnologiyanı tətbiq etməyə, təbiidir ki, bizim vəsaitimiz yoxdur. Demək, bu vəsait haradansa gəlməlidir. Ona görə də biz xarici sərmayəni ölkəmizə cəlb etmişik və bu gün də hesab edirəm ki, çox düz etmişik. Bu xarici sərmayə artıq Azərbaycana gəlibdir. Son beş ildə Azərbaycana beş milyard dollar həcmində xarici sərmayə gəlibdir. Bunun nəticəsində də biz həmin yataqlardan hazırda məhsul alırıq.

Məsələn, 1994-cü ildə imzaladığımız ilk böyük müqavilədən - "Əsrin müqaviləsi"ndən biz 1997-ci ildən neft hasil edirik və onu ixrac edirik. Biz 19 müqavilə imzalamışıq. Bu müqavilələrdən də böyük miqdarda neft və qaz gözləyirik.

İkinci müqaviləni bağladığımız "Şahdəniz" yatağında biz gözlədiyimizdən həddindən çox az qaz olduğunu müəyyənləşdirmişik, biz indiyədək hasil etdiyimiz nefti necə ixrac edəcəyimiz barədə düşünürük, ona görə də, bir sıra boru kəmərlərinin çəkilişi ilə məşğul idik. İndi isə, hasil olunacaq qazın ixrac edilməsi haqqında düşünürük. Çünki həmin yataqda həddindən çox qaz olduğu aşkar edilibdir.

Bütün bunlar ancaq "Şahdəniz" yatağına aiddir. Başqa yataqlarda da xeyli neft və qaz vardır. Ona görə də bir neçə ildən sonra Azərbaycan dünya bazarına xeyli miqdarda həm neft, həm də qaz çıxarmaq imkanına malik olacaqdır. Təbiidir ki, indi biz bunların hansı yollarla, necə çıxarılması barədə düşünürük.

Biz bu sahədə bir çox şirkətlərlə, o cümlədən İranın OİEC şirkəti ilə də əməkdaşlıq edirik. Buradakıların, bəlkə də, çoxlu bilmir, bəlkə də ağayi Şafeyinin də yadından çıxıb, amma ona demişəm, OİEC şirkətini "Şahdəniz" müqaviləsinə mən özüm cəlb etmişəm. Çünki biz birinci müqaviləni imzalayandan sonra hiss etdim İranda bəzi fikirlər oyanıb ki, bu müqavilədə nə üçün İran iştirak etməyibdir? Ona görə də biz "Şahdəniz" yatağı barədə müqaviləni hazırlayarkən, mən İran hökumətinə

müraciət etdim ki, siz öz şirkətlərinizdən birinin nümayəndəsini göndərin, gəlib bu işdə bizimlə bərabər iştirak etsinlər.

"Şahdəniz" yatağında payın 10 faizi İranın OİEC şirkətinə məxsusdur. Demək, bu qaz həm bizim və həm də o müqavilədə iştirak edən bütün xarici ölkələrin, o cümlədən İranındır. İran da bu yatağa sərmayə qoyubdur.

Burada bir məsələ də var. Konsorsiumlar yaranandan bəzi şirkətlər sərmayə qoyurlar, amma texnikanın, texnologiyanın, avadanlığın alınıb gətirilməsində o qədər də yaxından iştirak etmirlər. Çünki, adətən, bu vəzifəni aparıcı şirkət, yəni, işlərə rəhbərlik edən şirkət öz üzərinə götürür. Digər şirkətlər isə, sərmayə qoyur və bunun da nəticəsində öz qazancını, payını alır.

OİEC şirkətinin başqa bir müqavilədə də 10 faizlik payı vardır. Biz bunu etmişik. Amma hesab edirəm ki, biz bundan sonra da geniş əməkdaşlıq edə bilərik. Ağayi Şafeyi buradakı çıxışında neft və qaz sahəsində əməkdaşlığımızın genişləndirilməsi məsələlərinə toxundu. Hesab edirəm ki, biz bunu edə bilərik.

Mən bayaq dedim, bir daha təkrar edirəm ki, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsi barədə imzaladığımız müqavilələrə əsasən 5,10,15 il sonra biz həmin yataqlardan çox böyük miqdarda neft və qaz əldə edəcəyik. Hasil ediləcək nefti dünya bazarına çıxarmaq üçün 2-3 kəmər yox, daha çox kəmər lazımdır. Yəni, bizə alternativ yollar da lazımdır. Əlbəttə, bu sahədə biz hər bir ölkə ilə, o cümlədən İranla əməkdaşlıq edə bilərik.

Bütün bunlar böyük, qlobal, dövlətlə dövlət arasında olan məsələlərdir. Hesab edirəm ki, biz bu məsələlərin həll olunmasına bundan sonra da diqqət yetirməliyik. Ancaq geniş mənada ticarət, iqtisadi əlaqələr hamıya, xüsusən də iş adamlarına aiddir. Təbiidir ki, bugünkü sərgi bu işə yardım göstərəcəkdir.

Bu gün mən bu sərginin açılışına gəldim. Mənim buraya gəlməyimi bəlkə də gözləmirdilər. Çünki mən belə sərgilərin açılışında, adətən, iştirak etmirəm. Belə sərgilərdə bizim müvafiq nazirlər, başqaları iştirak edirlər. Ancaq İran-Azərbaycan iqtisadi əlaqələrinə xüsusi diqqət yetirərək, ona xüsusi əhəmiyyət verərək, mən buraya gəldim ki, bu sərginin açılışında iştirak edim və sərginin iştirakçıları ilə, İrandan gəlmiş qonaqlarımla görüşüm - baxmayaraq ki, bu gün mənim onlarla rəsmi görüşüm də var, - bəzi fikirlərimi deyim.

Bu fikirlərdən biri də ondan ibarətdir ki, İran ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirərək, biz bütün sahələrdə əməkdaşlığımızı genişləndirməliyik. Azərbaycan bu mövqedə durubdur. Mən İslam Konfransı Təşkilatının son dəfə Tehranda keçirilən Zirvə toplantısında cənab Prezident Xatəmi ilə görüşərkən biz bu barədə ətraflı danışdıq. Mən bundan sonra Azərbaycana gəlmiş İran nümayəndələrinə də öz fikrimi demişəm və bu gün də deyirəm ki, gərək biz bütün sahələrdə əlaqələri, əməkdaşlığımızı genişləndirək. Çünki İran Azərbaycan üçün, birincisi, yaxın qonşudur, ikincisi də dost, qardaş ölkədir. Bizim xalqlarımızı birləşdirən, doğma edən böyük tariximiz vardır. Bunları heç vaxt unutmaq lazım deyil.

Hər bir ölkənin özünəməxsus sistemi vardır. Dünya belədir. İndi dünyada bütün ölkələri bir qəlibə yerləşdirmək olmaz. Hər bir ölkə özü müəyyənləşdirir, özü seçir ki, hansı iqtisadi sistemdə yaşayacaq, hansı siyasi sistemi, dövlət quruluşu olacaqdır. Biz özümüzdən asılı olmayaraq, 70 il məcburən Sovet İttifaqına daxil olmuşduq. Buna məcbur idik, çünki başqa əlacımız yox idi, həmin sistemin içərisində yaşayırdıq. Müstəqil deyildik, sovetlər ölkəsinin bir hissəsi idik. Ola bilərdi ki, get-gedə milliliyimizi də itirərdik.

Ən böyük nailiyyətimiz ondan ibarətdir ki, bu 70 il müddətində biz milliliyimizi qoruyub saxlaya bildik. Yəni, dilimizi qoruyub saxlaya bildik. Baxmayaraq ki, bütün Sovetlər İttifaqında rus dili dövlət dili idi. Baxmayaraq ki, SSRİ rəhbərliyi çalışırdı ki, hamını, bütün millətləri rus dilindən istifadə etməyə məcbur etsin, baxmayaraq ki, assimilyasiya prosesi aparırdılar, hətta belə bir anlayış - "insanların yeni tarixi birliyi, sovet xalqı" anlayışı meydana atılmışdı. Amma Sovet İttifaqında 100-dən artıq millət, xalq var idi.

Sovetlər İttifaqının tarixinin son 10 ilində belə bir şüar ortaya atılmışdır ki, artıq bütün millətlər bir-birinə yaxınlaşıbdır. Keçmişdə Leninin, Stalinin bir nəzəriyyəsi var idi ki, vaxt gələcək, dünyada bir millət olacaq. Yəqin ki, o da sovet milləti hesab edilirdi. Guya, bütün millətlər get-gedə bir-birinə yaxınlaşacaq, bir dil, bir millət olacaqdır. Bu, kommunist ideologiyasının, sovet ideologiyasının əsaslarıdır.

Görürəm ki, burada alimlər, professorlar oturublar. Onlar bu işləri yaxşı bilirlər. Bəlkə də gənclər bunu o qədər də bilmirlər. Bu, belə idi, bu cür idi. Amma biz belə bir şəraitdə dilimizi qoruyub saxladıq. Azərbaycan dili yaşadı, yaşayır və təbiidir ki, bizim dövlət dilimiz kimi, bundan sonra da yaşayacaqdır.

Biz milli ənənələrimizi qoruyub saxladıq. Məsələn, o dövrdə Novruz bayramını ümumi bayram etməyə imkan vermirdilər. Yəni, bu, ümumxalq bayramı idi, amma onu ümumxalq bayramı kimi keçirmirdilər. Lakin hər kəs, hər bir azərbaycanlı, müsəlman öz evində Novruz bayramını keçirirdi.

Mən gözümü açandan bunu öz evimdə görmüşəm. Kimin imkanı çox idi, bu bayramı daha da zəngin keçirirdi, kimin də imkanı yox idisə, heç olmasa, 10 dənə yumurta boyayırdı, 3-4 dənə paxlava, yaxud şəkərbura bişirirdi. Bəziləri də bunu çatdırmırdı - bizim Naxçıvan tərəfdə "kökə" deyirlər, bunu Bakıda bilmirlər, Bakıda ancaq paxlava, şəkərbura bilirlər, ancaq bizim tərəfdə, Naxçıvanda "kökə" deyirlər və onu təndirə yapırlar, - o bundan bir az ucuzdur.

Bəli, Novruz bayramında hər kəs kökə yapardı, yaxud şəkərbura bişirərdi. Bir dənə də toyuğu olsaydı - onu kəsməli idi, ilin axır günü, yaxud bayram gecəsi ailəsi üçün plov bişirməli idi. Bu bayramı insanların qəlbindən çıxara bilmədilər. Bizim dinimizi insanların qəlbindən çıxara bilmədilər. Nə qədər ateizm siyasəti apardılarsa, bizi dindən məhrum etmək istədilərsə, dinimizi qəlbimizdən çıxara bilmədilər.

Kommunist ideologiyasının əsası o idi ki, din xalqın tiryəkidir, insanlar ondan uzaqlaşmalıdırlar. "Din xalqın tiryəkidir" sözləri Leninin idi. Bizi dindən ayırmaq istədilər, amma bunu edə bilmədilər. İnsanların hər biri bu dini qəlbində saxladı. Allaha şükürlər olsun ki, bəzi məscidlərimiz də yaşadı, durdu, saxlanıldı. İndi onların hamısı özümüzün əlimizdədir. Mədəniyyətimizi, milli ənənələrimizi itirmədik. Mədəniyyətimizi itirmədik, əksinə, milli mədəniyyətimizi inkişaf etdirdik.

Biz belə bir dövr yaşayaraq öz milliliyimizi saxladıq. İtkilərimiz də, nailiyyətlərimiz də oldu. Dost və qardaş ölkə olan İrandan 70 il ayrı düşməyimizə baxmayaraq, xırda bir imkan yaranan kimi, sərhədlər açılan kimi insanlar bir-birinə qovuşdu. Arazın o tayından, bu tayından insanlar bir-birini görmək üçün özlərini suya atdılar.

Hətta bəziləri qışın o soyuq vaxtında özünü suya atdı ki, qardaşı, əmioğlusu, dayıoğlusu ilə görüşsün. İranda nə qədər insanlar var idi ki, qohumları Azərbaycanda yaşayırdı. O cümlədən, Azərbaycanda da çoxlu insanlar var idi ki, qohumları İranda yaşayırdı. Amma vaxtilə, sovet hakimiyyəti dövründə yoxlayırdılar, - kimin İranda qohumu varsa, onu nəzarət altına almağa başlayırdılar, onları təqib, sürgün edirdilər. Belə hallar çox idi və biz bunu yaşamışıq.

O dövrdə nə qədər insan sürgün olunubdur ki, nə var, onun qohumu İrandadır. Nə olsun ki, İrandadır? Ola bilər, casus olsunlar, gəlib Sovet İttifaqında iş görsünlər və sair.

Biz bu dövrü yaşamışıq. Amma Azərbaycan xalqı bu dövrü yaşayaraq öz milli mənliyini, məziyyətlərini, qürurunu saxlayıbdır və bundan sonra da saxlayacaqdır.

Biz indi müstəqil dövlətik, müstəqil xalqıq, sərbəstik, çətinliklərimiz çoxdur. Ən böyük çətinliyimiz, problemimiz, yaramız odur ki, torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq soydaşlarımız zorla çıxarılıbdır. Onlar 7-8 ildir ki, çadırlarda ağır şəraitdə yaşayırlar. Amma buna baxmayaraq, 1994-cü ildə biz atəşi dayandırdıq. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. İnanıram ki, biz bu münaqişəni sülh yolu ilə həll edəcəyik. İnanıram ki, biz Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəyik və Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik.

Ancaq bunlar hamısı bizim həyatımızı, iqtisadiyyatımızı, təbiidir ki, onun inkişafını çətinləşdirir. Bunlara baxmayaraq, iqtisadiyyatımız inkişaf edir. 1995-ci ilə qədər Azərbaycanda məhsul istehsalı ilbəil aşağı düşürdü. Yəni, iqtisadiyyatın bütün sahələrində tənəzzül var idi. Özü də bu tənəzzül böyük idi. 1990-cı ildən başlayaraq Azərbaycanda hər il sənaye məhsulu istehsalı 20-25 faiz aşağı düşürdü. Həmçinin kənd təsərrüfatı məhsulu istehsalı belə idi. İqtisadiyyatın başqa göstəriciləri də aşağı düşürdü.

1995-ci ildə biz vəziyyəti sabitləşdirdik və ondan sonra inkişaf başlandı. Təsəvvür edin, biz torpaqları kənddə sahibinə paylayandan, şəxsi mülkiyyəti təmin edəndən sonra Azərbaycanda ərzaq problemi yoxdur. Amma yadımdadır ki, 1970-ci illərdə mən Azərbaycana rəhbərlik etdiyim zaman görmüşəm, - biz əti, yağı gərək Ukraynadan, südü Ukraynadan, yaxud Belarusiyadan, Rusiyadan gətirəydik. Həmin respublikalarda da istehsal ilbəil aşağı düşürdü, onlar plana əsasən bizə ayrılmış ərzağı vermirdilər. Ona görə də, Azərbaycanda ət, süd, yağ çətin tapılırdı. İndi hər şey var, küçələr doludur.

Bunlar göstərir ki, biz düz yoldayıq. Biz bazar iqtisadiyyatı, şəxsi mülkiyyətin yaranması yolundayıq. Amma bu yol elə deyil ki, onu bir gündə, bir ildə keçəsən. Yox, bunun üçün zaman lazımdır. Biz bunun üçün zaman lazım olduğunu bilməliyik. Bu vəziyyətə bir tərəfdən dözməliyik, eyni zamanda, bütün tədbirləri görməliyik ki, bu məsafəni tez keçək. İnandırıram ki, biz onu tez keçəcəyik.

Məsələn, son vaxtlar bizdə hər il inkişaf var, keçən il ümumi daxili məhsul 7 faiz, bu ilin birinci rübündə yenə də 7 faiz artıbdır. Sənaye məhsulu istehsalı keçən il 3,5 faiz, kənd təsərrüfatı məhsulu istehsalı təxminən 6-7 faiz artıbdır. Bu, 4-5 il bundan qabaq yox idi, əksinə, hamısı azalırdı.

Biz bu artımın nəticəsində insanların rifah halını yaxşılaşdırırıq, bir çox təbəqələrin maaşlarını bir neçə dəfə qaldırmışıq, bundan sonra da qaldıracağıq.

Beləliklə, mən bildirmək istəyirəm ki, Azərbaycan bu ağır dövrü yaşayır və bu ağır dövrü uğurla keçəcəkdir. Bunu etmək üçün biz gərək bütün ölkələrlə iqtisadi əlaqələrimizi inkişaf etdirək və bu istiqamətdə, birinci növbədə, İran İslam Respublikası ilə iqtisadi əməkdaşlığımızı genişləndirək. Biz İranla iqtisadi əlaqələrimizi genişləndirməklə bərabər, mədəni, elmi, siyasi əlaqələrimizi və bütün əlaqələrimizi genişləndirməliyik.

Mən hiss edirəm ki, İran hökuməti də mənim bu fikirlərim mövqeyindədir. Yenə də deyirəm, mən bunu hörmətli Prezident Xatəmi ilə Tehranda görüşüm zamanı onun sözlərindən bildim. Güman edirəm ki, bu yaxın vaxtlarda bizim görüşlərimiz də olacaqdır və bu məsələlərdə yeni uğurlar əldə etmək üçün müəyyən tədbirlər də görə biləcəyik. Beləliklə də, bizim ölkələrimiz arasındakı dostluğu, əməkdaşlığı və qardaşlığı möhkəmləndirəcəyik.

Mən İran xalqına səadət, xoşbəxtlik, bütün işlərində uğurlar arzu edirəm. İran tacirlərinə və Azərbaycanın iş adamlarına bazar iqtisadiyyatının inkişaf etdirilməsində, İran ilə Azərbaycan arasında ticarətin, mal mübadiləsinin genişlənməsində uğurlar arzulayıram. Bu sərgini təşkil edənlərə təşəkkürümü bildirirəm. Sağ olun.

(Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və gurultulu, sürəkli alqışlarla qarşılandı.)

29 aprel 2000-ci il, Bakı

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 29-da Prezident Sarayında İran İslam Respublikasının sənaye naziri Qulamrza Şafeyinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev demişdir:

- Hörmətli ağayi Şafeyi!

Sizi Azərbaycanda bir daha salamlayıram. Sizin bu səfərinizdən çox məmnunam. Bu gün iki saat bir yerdə olmuşuq, birlikdə İranın Azərbaycanda VIII sərgisinin açılışında iştirak etmişik. Sərgi mənə çox yaxşı təsir bağışlayıbdır. Siz xüsusən bir neçə çox mühüm sahədə - avtomobil istehsalı, avtobuslar istehsalı, başqa maşınlar istehsalı və bütün başqa sahələrdə böyük nailiyyətlər əldə etmisiniz. Ona görə də, hesab edirəm ki, sizin bu sərginiz burada yaxşı təəssürat yaradacaqdır və Azərbaycanla İranın iqtisadi əlaqələrinin daha da inkişaf etməsinə kömək edəcəkdir. Mən çox məmnunam. Buyurun.

Prezident Heydər Əliyevə minnətdarlığını bildirən İranın sənaye naziri Qulamrza Şafeyi dedi:

- Mən, əvvələn, bizi qəbul etdiyinizə və bugünkü sərgimizin açılışına təşrif gətirdiyinizə görə çox təşəkkür edirəm. Mümkün deyildir ki, Azərbaycanda Prezident gəlib hər sərgiyə baxsın. Amma bu gün mənə, İrana böyük minnət qoydunuz, zəhmət çəkib gəldiniz. Buna görə təşəkkür edirəm.

Cənab Prezident, bir neçə il idi ki, Sizinlə görüşə bilməmişdim. Əlbəttə, hər za-

man Yaşar müəllimi görəndə, səfir Abbasəli Həsənov ilə, bizim səfir ilə görüşəndə onların vasitəsilə salam göndərirdim, əhvalınızı soruşurdum. Amma görüşmək tamam başqa bir şeydir və nəhayət, Sizi gördüm, əhvalınız da yaxşıdır. Sizin salamatlığınızdan və əhvalınızın yaxşı olmasından çox məmnunam. Bu gün sərginin açılışında bir saata yaxın çıxış etdiniz, çox əhəmiyyətli fikirlər söylədiniz. Bunlara görə də təşəkkür edirəm.

Mənim Bakıya səfərimin bir neçə səbəbi var. Biri odur ki, bu sərgidə iştirak edəm və eyni zamanda, cənab ağayi Xatəminin dəvətnaməsini Sizə təqdim edəm. Bu dəvətnamədə qeyd edilibdir ki, iyunun 21-də Tehranda İƏT-nun iclası olacaqdır.

Heydər Əliyev: İƏT?

Qulamrza Şafeyi: Bəli. İranın Prezidenti cənab ağayi Xatəmi Sizi də dəvət edibdir ki, orada iştirak edəsiniz. Eyni zamanda onu da deməliyəm ki, Azərbaycan indi iclasın sədri olacaqdır, işləri çox diqqətlə və səmimiyyətlə aparacaqdır. Səfir Abbasəli Həsənov İranda çox fəalldır. O, İƏT ölkələrinin səfirləri ilə birlikdə müfəssəl işlər görür.

Cənab Prezident, icazə verin, bu dəvətnaməni Sizə çatdırım.

Cənab Şafeyi İran Prezidenti cənab Xatəminin dəvətnaməsini Prezident Heydər Əliyevə təqdim etdi və sözünə davam edərək dedi:

- Bu gün Siz sərgidə bir çox mətləblərə toxundunuz. Orada iştirak edən şirkətlərin nümayəndələrini düşündürən bir məsələ var və hesab edirəm, bu, İƏT-nin iclasında müzakirə oluna bilər. Bu da ondan ibarətdir ki, komitələr, nazirliklər ölkələrimizin yaxınlığından bəhrələnərək öz aralarında vergi və s. məsələləri müzakirə etsinlər. MDB ölkələri bu sahədə razılıq əldə ediblər. Razılığa görə, əgər, Azərbaycandan həmin ölkələrə hər hansı bir şey ixrac olunsa, ona vergi tutulmur və ya o ölkələrdən Azərbaycana məhsul gəlsə, vergi alınmır. Bu, imkan yaradır ki, ölkələr öz aralarında ticarət edə bilsinlər. Zənnimcə, bu işi İƏT ölkələri arasında da yaratmaq olar.

Heydər Əliyev: Yəni, İƏT-yə, İƏT ölkələrinə də bu prinsipi tətbiq etmək olar?

Qulamrza Şafeyi: Bəli, bu prinsipi orada da tətbiq etmək olar. Məsələn, İran, Azərbaycan, Türkiyə, Pakistan, Əfqanıstan və Orta Asiya ölkələri - Qazaxıstan, Türkmənistan və s. öz aralarında müəyyən qərara gələ bilərlər. Bu ölkələrin bəziləri MDB-nin üzvüdürlər - Azərbaycan, Orta Asiya ölkələri.

Heydər Əliyev: Azərbaycan və Orta Asiya ölkələrinin hamısı MDB-dədir. MDB-də olmayan İrandır, Türkiyədir, Pakistandır və Əfqanıstandır.

Qulamrza Şafeyi: Bəli, bunu İƏT çərçivəsində etmək olar. Təklifim odur ki, əgər, məsləhət bilsəniz, İƏT-in iclasında bu məsələ müzakirə olunsun.

Başqa bir xahişimi də Sizə bildirmək istəyirəm. Əlbəttə, vaxt ayırıb, hörmət göstərib sərgimizə gəldiniz. Amma orada digər xidmət sahələri də var idi, onları görmədiniz. İstəyirəm o sahələr barədə danışım.

Məsələn, orada tibbi cihazlar istehsal edən ayrı-ayrı zavodlar, şirkətlər də təmsil olunmuşdur. Onların nümayəndələri deyirlər ki, Azərbaycanla İran arasında bu sahədə əlqələri daha da genişləndirmək olar. Ərzaq, ev əşyaları istehsalı ilə məşğul olan şirkətlər də var idi. Vaxt olmadı ki, onların təmsilçiləri Sizinlə görüşsünlər.

Sərgidə gördüyünüz kimi, İran keçən illərə nisbətən yaxşı inkişaf edibdir. Novruz bayramında beşillik planımız başa çatdı. Sənaye sahsində 11 faiz artım var idi.

Heydər Əliyev: Yəni inkitşaf.

Qulamrza Şafeyi: Bəli. İndi imkan yaranıbdır ki, avtomobil istehsalı, digər sahələr - neftdən tutmuş zavod tikməyə qədər - bunların hamısı üzrə əlaqələr qurulsun və səmərəli istifadə edilsin. Bu, Sizin ixtiyarınızdadır. Elə etmək olar ki, İranın imkanlarından Azərbaycanda istifadə edilsin.

Bilirəm ki, Azərbaycan 70 il rusların, kommunist partiyasının əlinin altında qalmışdır, indi isə müstəqillik əldə edibdir. Biz də istəyirik ki, bu, daha da inkişaf etsin. Əsas iş odur ki, dağılanlar yenidən qurulsun.

İranda iyirmi, on, beş min işçisi olan bəzi zavodlar var. Əgər, lazım olsa, bu sahədə əməkdaşlıq etmək üçün Sizin ixtiyarınızdayıq. Hər nə kömək lazımdır, etməyə hazırıq.

Xəzər dənizi bir dostluq dənizidir. İran və Azərbaycan neft, qaz, gəmiçilik sahələri üzrə əməkdaşlıq edə bilərlər. İnşallah, gərək elə edək ki, bütün bu işlər yerinə düşsün, hər kəsin nə iş görməsini müəyyənləşdirək, həmkarlıq edək.

Avtomobil sənayesinə aid mənim bir şəxsi təklifim vardır. O da İƏT-in iclası zamanı iştirakçı ölkələr arasında müştərək bir iş görülməsinə aiddir. Keçən görüşlərdə qərara gəlmişdik ki, İran ilə, Türkiyə ilə Pakistan və bəzi ölkələr təyyarə istehsal etsinlər. Amma bu iş qabağa getmədi. Çünki o şirkətlər ki, gərək təyyarəni alsınlar, onlar dövlətdən asılıdırlar. Amma avtomobil belə deyil, onu müstəqil alırlar. Bu sahədə müştərək iş görmək lazımdır. Vacib deyil ki, bu iş ancaq bir ölkədə olsun. Avtomobil istehsal edən zavodlar tikmək olar, iş görmək olar. Bu, mənim təklifimdir və əgər, razı olsanız, ikitərəfli iş görməklə müəyyən nailiyyət əldə etmək olar. Əlbəttə, İran və Azərbaycan tərəfdən bəzi şirkətlər əlaqə qurublar, həmkarlıq edirlər. Lakin işi genişləndirmək lazımdır.

Digər təklif ondan ibarətdir ki, gərək İran ilə Azərbaycan üçüncü bazarlarda müştərək işlər görsünlər. Yəni, İranla müştərək konsorsium, ya şirkət quraraq, hər iki tərəf işə başlasın. Onların sahələri də çox müfəssəldir. Həm zavod qurmaq, həm neft, həm qaz sahəsində müştərək çalışmaq mümkündür. Hər iki tərəfin iştirakı ilə digər ölkələrdə müəyyən işlər görmək olar.

Mən Sizə zəhmət verdiyimə görə üzr istəyirəm. Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyev cənab Şafeyiyə minnətdarlıq edərək dedi:

- Sağ olun, təşəkkür edirəm. Əvvəla, cənab Prezident Xatəminin bu dəvətini mən qəbul edirəm. Mən mütləq Tehrana gələcəyəm, İƏT Zirvə görüşünü bir yerdə keçirəcəyik. Çünki biz bu təşkilatı möhkəmləndirməliyik və çalışmalıyıq ki, bizim bütün əlaqələrimizin, xüsusən iqtisadi əlaqələrimizin inkişaf etdirilməsi üçün bu təşkilatdan səmərəli istifadə edək.

Orada, sərgidə də bunu dedilər, indi Siz burada da məsələ qaldırdınız - bu vergi, rüsum məsələlərini. Mənə belə gəlir ki, əgər, biz İƏT dövlətlərinə MDB dövlətləri ilə indi olan prinsipi tətbiq etsək, bu variant qəbul oluna bilən bir variant olar. Mən bu barədə bizim Baş nazirə, nazirliklərə göstəriş verəcəyəm. Onlar da fikirləşsinlər, hazırlaşsınlar. Bizim başqa təkliflərimiz vardır. İkiqat vergi ilə bağlı, - məsələn, biz o məsələni də qoyuruq ki, bu barədə işləri müəyyən qədər yüngülləşdirmək lazımdır. Hər halda, Sizin təkliflərinizi də nəzərə alaraq, mən göstəriş verəcəyəm ki, bizimkilər də öz təkliflərini versinlər. Güman edirəm ki, biz Tehranda bu barədə, bir neçə məsələ üzrə müəyyən bir razılığa gələ bilərik.

Digər məsələlər, - hansılar ki, siz qaldırdınız və dünən mənə Baş nazir dedi ki, onun da yanında bu barədə çox ətraflı da-

nışmısınız, - bunların hamısı mənim tərəfimdən bəyənilən məsələlərdir və bir çox sahələrdə əməkdaşlıq etməliyik. İndi mən Siz dediyiniz məsələlərin, sadəcə, hər birinə cavab vermək istəmirəm. Amma demək istəyirəm ki, bu təklifləri prinsip etibarilə qəbul edirəm. Mən bizim Baş nazirə və nazirliklərə göstəriş verirəm ki, bunların hər birini Sizin nümayəndələrlə birlikdə ayrı-ayrı araşdırsınlar, təhlil etsinlər və bizim təkliflərimizi versinlər.

Mən bu gün sərgidə də dedim, indi də deyirəm ki, **bizim siyasətimz bundan ibarətdir ki, İran ilə bütün əlaqələri gücləndirmək lazımdır, inkişaf etdirmək lazımdır.** İqtisadi əlaqələr burada xüsusi yer tutur. O cümlədən, Xəzər dənizi haqqında da, - siz dəryayi-Xəzər deyirsiniz, - mənə belə gəlir ki, bir çox işlər görmək olar.

Məsələn, mənə bizim Baş nazir deyir ki, Siz gəmiçilik barəsində, gəmi istehsalı barəsində də əməkdaşlıq etmək istəyirsiniz. Bu da mümkündür. Bizim burada imkanlarımız vardır, gəmi təmiri zavodlarımız vardır, bundan da istifadə etmək olar. Amma o iki təklif ki, var, sizin avtomobil sənayesinin bizim bəzi təşkilatlarla müştərək iş görməsi barədə, - mən bunu dərhal bəyənirəm və bunların həyata keçirilməsi üçün lazım olan tədbirləri öz tərəfimdən görəcəyəm, göstəriş verəcəyəm.

Bir sözlə, mən fikirlərimin çoxunu bu gün sərgini açandan dedim. Təkrar etmək istəmirəm. İran-Azərbaycan əlaqələri genişlənməlidir, inkişaf etməlidir və bəzi ayrı-ayrı bədxahların, bizim əlaqələrə zərər gətirmək istəyən qüvvələrin, yaxud da bunu mənfi şəkildə göstərmək istəyən qüvvələrin biz qarşısını almalıyıq.

Bilirsiniz, bizim yaşadığımız region indi dünyada çox böyük diqqət cəlb edir. İran da böyük bir dövlət kimi, böyük iqtisadi potensiala malik olan ölkə kimi böyük diqqəti cəlb edir. İranın dostları da var, amma İranı istəməyənlər də var.

Azərbaycan bir müstəqil dövlət olandan sonra təbiidir ki, Azərbaycana maraq çox böyükdür. Çünki, birincisi, Azərbaycanın çox əlverişli strateji mövqeyi var, yəni o, Şərqlə Qərbin, Asiya ilə Avropanın arasında duran bir ölkədir və xüsusən Avropa ilə Asiya arasındakı nəqliyyat vasitələrinin keçəcəyi ən qısa bir yerdir. Azərbaycan burada xüsusi yer tutur. Ondan sonra, - Azərbaycanın enerji ehtiyatlarının işlənilməsi, bunların gələcək perspektivləri. Başqa cəhətlər də var. Ona görə də, bəzi qüvvələr ayrı-ayrı ölkələrdə məqalələrlə, yazılarla belə bir fikir yaratmaq istəyirlər ki, guya, İran ilə Azərbaycan arasında əlaqələr soyuqdur. Soyuq deyil, yaxşıdır, amma daha da isti olmalıdır.

Mən - Azərbaycanın Prezidenti, Azərbaycanın siyasətini təyin edən və onu həyata keçirən adam belə fikirdəyəm. Amma kənar adamlar çox şey deyə bilərlər. İndi biz elə bir dövrdə yaşayırıq ki, hərə öz fikrini deməyə haqlıdır, ixtiyarı var, - yalan da olsa, doğru da olsa, düz də olsa, əyri də olsa. Ancaq biz bunlara fikir verməməliyik. Biz əlaqələrimizi inkişaf etdirmədiyik.

Mənim İrana rəsmi səfərim də gündəlikdə durur. Çünki mən cənab Prezident Xatəmidən dəvət almışam. İndi bu səfər də ortaya düşür. Ola bilər ki, mən bu il İrana iki dəfə səfər edim - bir dəfə İƏT-in Zirvə görüşünə gəlim, bir dəfə də rəsmi səfərə gəlim.

Qulamrza Şafeyi: İran Sizin öz evinizdir. Hər zaman gələ bilərsiniz.

Heydər Əliyev: Ondan sonra da mən cənab Xatəminin Azərbaycana gəlməsini gözləyəcəyəm. Bunlar - məsələn, sizin kimi nümayəndə heyətlərinin Azərbaycana gəlməsi, bizim nümayəndə heyətlərimizin

İrana getməsi, bizim Xarici İşlər Naziri son vaxtlar İranda oldu, görüşlər keçirdi, sizin Xarici İşlər Naziri bir müddət bundan öncə gəlmişdi, indi Nyu Yorkda İranın və Azərbaycanın xarici işlər nazirləri görüşüblər, cünki mən ora gedəndə ona göstəriş vermişdim ki, ola bilər, Nyu Yorkda görüşlər çox olsun, amma mütləq İranın Xarici İşlər Naziri ilə görüş, o, da görüşübdür, danışıbdır, geriyə dönəndən sonra mənə məlumat verəcəkdir, - yəni, hesab edirəm, bütün bu vasitələrdən hər iki tərəf istifadə etməlidir ki, bizim əlaqələrimiz daha da geniş olsun, daha da sıx olsun.

Cənab Şafeyi, mən Sizinlə köhnə dostam.

Qulamrza Şafeyi: Naxçıvandan.

Heydər Əliyev: İndi düşünürəm ki, səkkiz il bundan öncə Naxçıvanda görüşdük və Sizinlə ilk dəfə Naxçıvana elektrik xəttinin çəkilməsini orada bayram etdik. Xatirinizdədir, biz nə ağır şəraitdə idik. Ancaq o vaxt İrandan elektrik xəttini çəkdik və o, bizə xeyli yardım etdi. Biz Türkiyədən bir elektrik xətti çəkdik, sonra İrandan çəkdik və sizinlə birlikdə görüşdük.

Xatirimdədir, getdik Şahtaxtında Poldəşt körpüsünü açdıq və orada sərhədyanı bazar təşkil etməyə çalışdıq. O günlər yadımdan çıxmır. Çünki o günlər Naxçıvan üçün və Naxçıvana başçılıq edən bir şəxs kimi mənim üçün ağır günlər idi, bizim üçün çox ağır günlər idi. Amma biz onları yaşadıq.

Məsələn, indi Naxçıvanda vəziyyət... Doğrudur, indi Naxçıvanın Azərbaycanla əlaqələri bir təyyarə vasitəsilə, bir də ki, İran ərazisindən gedən avtomaşınların, avtomobillərin vasitəsilə olur. Başqa əlaqələrimiz yoxdur. Ancaq İran ilə Naxçıvan arasında əlaqələr - ticarət əlaqələri, insanların gedib-gəlməsi - bunlar indi çox yaxşı səviyyədədir və mən bunlardan məmnunam. Hesab edirəm ki, bu da İran-Azərbaycan əlaqələrinin inkişaf etməsinə çox böyük kömək göstərir.

Mən 1994-cü ildə İrana gələndə, yadımdadır, Siz məni müşayiət edirdiniz. İranda, Tehranda bir yerdə gəzirdik. Bunlar hamısı xatirimdədir və ona görə də bütün rəsmi münasibətlərdən başqa, dostluq münasibətləri də yaranıbdır, şəxsi münasibətlər, şəxsi məhəbbət yaranıbdır. Mən məmnunam ki, Siz İran İslam Respublikasında yenə də nazirsiniz - keçmişdə kooperasiya nazir, indi sənaye naziri. Arzu edirəm ki, bundan da yüksək vəzifələrə çatasınız. Çünki bilirəm ki, Siz İran-Azərbaycan əlaqələrinin sağlam vəziyyətdə olmasına və inkişaf etməsinə can yandıran bir insansınız. Bu, həm İran üçün lazımdır, həm də Azərbaycan üçün lazımdır. Mən Sizi bir daha salamlayıram, Sizinlə görüşməyimdən məmnun olduğumu bir daha bildirmək istəyirəm. Sağ olun.

Qəbulda Milli Məclisin sədrinin müavini, Azərbaycan-İran Müştərək Komissiyasının həmsədri Yaşar Əliyev, iqtisadiyyat naziri Namiq Nəsrullayev, Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov, İranın Bakıdakı səfiri Əlirza Beqdeli iştirak edirdilər.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İƏT-İN ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İRANA YOLA DÜŞƏRKƏN HAVA LİMANINDA VERDİYİ MÜSAHİBƏDƏN

İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının /İƏT-in/ üzvü olan

ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün İran İslam Respublikasına yola düşmüşdür.

Dövlətimizin başçısı yola düşməzdən əvvəl Bina hava limanında jurnalistlərin suallarına cavab vermişdir.

Sual: Cənab Prezident, Azərbaycanın iqtisadi əlaqələrinin genişlənməsinə kömək edən bu cür görüşlərdə iştirakınızı necə qiymətləndirirsiniz?

Heydər Əliyev: Mən bunu həmişə yaxşı qiymətləndirmişəm. Mən Azərbaycanın nəinki iqtisadi sahədə, bütün sahələrdə əlaqələrinə kömək edən hər bir görüşü qiymətləndirirəm və belə görüşlərdə Azərbaycanın, xüsusən Azərbaycan Prezidentinin iştirak etməsini də ən vacib məsələlərdən biri hesab edirəm. Ona görə də mən həmişə belə beynəlxalq, yaxud regional görüşlərə gedirəm və orada Azərbaycanın mövqelərini müdafiə etməyə çalışıram.

Sual: Cənab Prezident, İƏT-in işini fəallaşdırmaq üçün Azərbaycanın hansı təklifləri vardır?

Heydər Əliyev: Təklifimi orada deyəcəyəm, eşidərsiniz.

Sual: Cənab Prezident, Transxəzər qaz kəməri ilə əlaqədar Siz Türkmənistan Prezidenti ilə görüşəcəksinizmi?

Heydər Əliyev: Türkmənistan Prezidenti ilə yəqin ki, görüşəcəyəm. Ancaq Transxəzər kəməri bizim işimiz deyildir. Türkmənistan öz qazını Türkiyəyə satmaq istəyir. Azərbaycan burada tranzit ölkəsidir. Ona görə də, ola bilər, biz bu məsələyə razı olaq və ya razı olmayaq. Amma yenə deyirəm, qazı satan Türkmənistandır, alan da Türkiyədir. Əgər, Türkmənistan satırsa, Türkiyə də alırsa, bizdən xahiş ediblər ki, bu qaz kəmərinin Azərbaycandan, Xəzər dənizindən keçməsinə razılıq verək, biz də buna razılıq vermişik. Bu, onların işidir. Amma bu məsələ gecikibdir. Bunu kim gecikdirir? Onlar gecikdirirsə, bu onların öz işidir. Azərbaycanın bu barədə təşəbbüs göstərməyinin heç əhəmiyyəti yoxdur. Amma onlar bu məsələni nə vaxt həll etmək istəsələr, söz vermişik ki, biz bu sahədə əməkdaşlıq edəcəyik.

Sual: Cənab Prezident, Siz, Mahir Cavadov məsələsinə toxunmuşsunuz. Bu səfəriniz zamanı onunla bağlı bir məsələ müzakirə edəcəksinizmi?

Heydər Əliyev: Bilirsən, Mahir Cavadov elə bir şəxs, adam deyildir ki, mən onu müzakirə edim. Srağagün mən bu məsələyə ona görə toxundum ki, 1995-ci ildə Mahir Cavadovla birlikdə Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən Avstriya vətəndaşı Kənan Gürəl o vaxt həbs olunmuşdu. Mən onu əfv etdim. Bir müddət deyirdilər ki, o xəstədir. Sonra Avstriya hökuməti, burada Avstriyanı təmsil edən Almaniya səfiri də bizə bir neçə dəfə müraciət etmişdi.

Amma ən əsası odur ki, Kənan Gürəl bir neçə dəfə mənə müraciət yazıbdır. Yazıbdır ki, mən səhvimi başa düşmüşəm, səhv etmişəm, məni bağışlayın. Yəni, o, əfv olunmağı barədə bir neçə dəfə müraciət yazıbdır. Mən də onun müraciətini, eyni zamanda, Avstriya hökumətinin öz vətəndaşlarına göstərdiyi münasibəti nəzərə alaraq, onu əfv etdim.

Mən Kənan Gürəli əfv etdikdən sonra Almaniya səfiri ilə görüşümdə dedim ki, görürsünüz, Avstriya kimi mütərəqqi, demokratik bir ölkə aparıb cinayətkara orada sığınacaq verdi, amma Azərbaycanın dövlətçiliyinə qəsd edən, çevrilişə cəhd göstərən, Azərbaycan Prezidentinə terror etmək istəyən adamı biz indi burada əfv edirik. Görün, humanistlik harada daha çoxdur.

Sual: Cənab Prezident, ayın 28-də

Azərbaycanın Avropa Şurasına qəbulu məsələsinə baxılacaqdır. Avropa Şurasına qəbul olunmaq Azərbaycana nə verə bilər?

Heydər Əliyev: Ay qardaş, ay oğul, biz üç ildir ki, orada namizədik. Üç ildir söhbət gedir ki, biz bu Şuraya üzv qəbul olunaq. Əgər, bu bir şey verməyəcəksə, onda biz üç ildir niyə belə can qoyuruq, cəfakeşlik edirik?

Təbiidir ki, bu, Azərbaycana çox şey verəcəkdir. Çünki biz Avropa ölkəsiyik, Avropa qitəsində yerləşirik. Avropa dəyərləri Azərbaycanda bizim milli-mənəvi dəyərlərimizlə bərabər, necə deyərlər, kök salıbdır. Amma mən onu da xüsusi bildirmək istəyirəm ki, Azərbaycan xalqının öz tarixi, öz milli mədəniyyəti, mentaliteti, milli-mənəvi dəyərləri vardır. Biz hansısa bir ölkəyə xoş gəlmək üçün bu milli-mənəvi dəyərlərimizdən heç vaxt imtina edə bilmərik.

Eyni zamanda, dünyada ümumbəşəri dəyərlər vardır. Azərbaycan olaraq biz, xalqımız bu il yox, keçən il yox, hələ XIX əsrdən ümumbəşəri dəyərlərə tədricən - böyük sürətlə olmasa da - bağlanıbdır. Artıq XX əsrdə bu ümumbəşəri dəyərləri öz milli-mənəvi dəyərlərimizlə sintez edərək, Azərbaycanda xüsusi bir əxlaqi- mənəvi dəyərlər forması yaratmışıq.

Biz həm Avropa qitəsindəyik, həm də ümumbəşəri Avropa dəyərlərindən bəhrələnirik, demokratiya, hüquq, bazar iqtisadiyyatı yolu ilə gedirik. Ona görə də nə üçün biz bu təşkilatdan kənarda qalaq? Onlar da istəyirlər ki, biz bu təşkilatda olaq. Çünki onlar istəyirlər ki, bütün Avropanı əhatə etsinlər. Biz də bunu istəyirik. Amma bu, nə verəcək - onu gələcək göstərəcəkdir.

Sual: Cənab Prezident, Təbrizdə Azərbaycan konsulluğunun açılması məsələsini İranda müzakirə edəcəksinizmi?

Heydər Əliyev: Bilirsiniz ki, biz bu məsələni çoxdan qaldırmışıq. Amma nə olacaq - onu deyə bilmərəm.

Sual: Cənab Prezident, ikitərəfli görüşlərinizdə Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı məsələsi barədə müzakirələr aparacaqsınızmı?

Heydər Əliyev: Bilirsiniz ki, mən ATƏT-in İstanbul Zirvə görüşündə Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı barədə təklif irəli sürmüşəm. Ondan sonra Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəl də təxminən bu fikirlərlə əlaqədar səkkiz ölkəyə məktublar göndərmişdi ki, Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktı olsun. Biz bunun təşəbbüskarıyıq. Ancaq onu həyata keçirmək bir çox şərtlərdən, birinci növbədə, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasından asılıdır. Əgər bunlar mümkün olarsa, Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktını yaratmaq mümkündür.

Sual: Cənab Prezident, Ermənistan-Azərbaycan münaqişəsi məsələsi orada qaldırılacaqmı?

Heydər Əliyev: Bilirsiniz ki, biz Ermənistan-Azərbaycan münaqişəsi məsələsini hər yerdə qaldırırıq və qaldırmalıyıq. Ümumiyyətlə, Azərbaycan təmsilçilərinin, o cümlədən siz jurnalistlərin ən böyük çatışmazlığı ondan ibarətdir ki, Azərbaycan Ermənistanın təcavüzü altına düşübdür, torpaqlarımızın 20 faizi işğal edilibdir, bir milyondan çox azərbaycanlı öz ölkəsində qaçqın düşübdür, ağır şəraitdə yaşayır, ancaq Azərbaycanın bu vəziyyəti dünyada hələ indiyə qədər olduğu kimi məlum deyildir. Ermənistan təbliğatı güclüdür, əlbəttə ki, Ermənistanın imkanları da çoxdur, çünki onların hər yerdə lobbiləri vardır. Amerikada oturan ermənilər hər gün müzakirə edirlər ki, Dağlıq Qarabağ necə olacaq, Ermənistan necə olacaq? Ermənistanın rəhbərləri bunu heç o qədər müzakirə etmirlər, am-

ma Amerikada, Fransada, başqa ölkələrdə, elə Moskvada oturan ermənilər bunu edirlər. Bu münaqişə hələ ki, həll olunmayıbdır, ona görə də bu mövzu çox aktual, vacib mövzudur. Bu məsələni heç vaxt unutmaq olmaz və kiçikdən böyüyə qədər hamı - jurnalist də, dövlət məmuru da, yaxud dövlət xadimi də, siyasi xadim də,- kim olursa-olsun, bu məsələni hər yerdə, həmişə deməlidir ki, nəhayət, dünya ictimaiyyəti obyektiv məlumat ala bilsin.

Sual: Cənab Prezident, İrana nə vaxt rəsmi səfər edəcəksiniz?

Heydər Əliyev: Baxaq, görək.

Sual: Cənab Prezident, İranda yaşayan azərbaycanlıların hüquqları ilə bağlı məsələ Azərbaycan-İran münasibətlərində əks olunubmu? Vilayət Quliyev Amerikada səfərdə olarkən bu barədə bəyanat vermişdi.

Heydər Əliyev: Bilirsiniz, Vilayət Quliyev nə deyib - mən bilmirəm. Azərbaycanda bir məsəl var: "Özünə umac ova bilməyən, başqasına əriştə kəsmək istəyir". Bildiniz bunun mənası nədir? Bizim özümüzün, bir milyondan çox azərbaycanlının hüquqları tapdalanıbdır. Azərbaycan ərazi bütövlüyünün pozulması ilə əlaqədar bu dəqiqə dünyada ən ağır vəziyyətdə olan bir ölkədir. Biz öz problemlərimizi həll etməliyik. Yoxsa, sən istəyirsən burada Filippinin, yaxud da İndoneziyanın məsələsini həll edəsən. Bəzi adamlar populist fikir söyləyərək deyirlər ki, İranda azərbaycanlıların hüquqları tapdalanıbdır. Qoy o adamlar gedib desinlər ki, Azərbaycanda azərbaycanlıların hüquqları tapdalanıbdır. Bunlar kənarda qalıb, başlayıblar ki, orada azərbaycanlıların hüquqları tapdalanıbdır. **İranda bizdən sayca bir neçə dəfə çox azərbaycanlı var və orada azərbaycanlılar dövlətdə, parlamentdə, hökumətdə təmsil olunublar.** Özləri bilirlər ki, onların hüquqları tapdalanıb, yaxud tapdalanmayıbdır və necə bilirlər, o cür də hərəkət etməlidirlər. Biz başqa ölkənin işinə qarışmamalıyıq. Bizim də ölkənin işinə heç kəs qarışmamalıdır. Biz İranın daxili işinə qarışmamalıyıq. Biz İranla dostluq, əməkdaşlıq münasibətləri yaratmalıyıq.

Lazımi qədər təfəkkürü olmayan bəzi adamlar öz şəxsi populist niyyətlərinə görə bu işdə Azərbaycana zərbə vururlar. Sən də bu sualı verməklə onu göstərirsən. Gəl sən də, mən də, hamımız yağışaq, müstəqil Azərbaycanda olan azərbaycanlıların hüquqlarını qoruyaq və ölkəmizi bu ağır vəziyyətdən çıxaraq. Yoxsa, öz ölkən ağır vəziyyətdədir, düşmüsən ki, Təbrizdə nə var, nə bilim, Ərdəbildə nə var. Bu, onların öz işidir.

Sual: Xarici İşlər Naziri belə bəyanat vermişdi.

Heydər Əliyev: Xarici İşlər Naziri əgər bunu deyibsə, düz deməyibdir.

Sual: Cənab Prezident, bu səfər zamanı neft və qaz sahəsində əməkdaşlıq barədə bir məsələ müzakirə ediləcəkmi?

Heydər Əliyev: Nə olacağını bilmirəm. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İƏT-in ZİRVƏ TOPLANTISINA GEDƏRKƏN TEHRANIN HAVA LİMANINDAKI GÖRÜŞÜNDƏKİ SÖHBƏTDƏN

Tehranın hava limanının şərəf salonunda Azərbaycan Prezidenti Heydər Əliyev ilə İranın kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Morteza Hacı arasında qısa görüş oldu.

Dövlətimizin başçısı Heydər Əliyevi səmimiyyətlə salamlayan cənab Morteza Hacı dedi:

- Cənab Prezident, ölkəmizə xoş gəlmisiniz! Sizi görməyimizdən çox şadıq və özümüzə gözaydınlığı veririk.

İranın kooperasiya nazirinə minnətdarlığını bildirən Azərbaycan Prezidenti Heydər Əliyev dedi:

- Sağ olun, təşəkkür edirəm. Mən də çox məmnunam. Gəlmişəm və Sizinlə yenidən görüşürük.

Morteza Hacı: Allaha çox şükür! Səfəriniz rahat keçəcəkdir.

Heydər Əliyev: Burada rahatdır. Elə bir narahatlıq yoxdur.

Morteza Hacı: İnşallah, burada olduğunuz vaxt Sizin üçün rahat, xatirəli və yaddaqalan olacaqdır.

Heydər Əliyev: İnşallah, mən də belə düşünürəm.

Morteza Hacı: Arzu edirik ki, burada daha çox qalasınız. Sizinlə bir yerdə olmaq çox şərəflidir.

Heydər Əliyev: Mən sonra İrana rəsmi səfərə gələcəyəm. Mən mütləq gələcəyəm, burada çox qalacağam.

Morteza Hacı: Biz bu səfəri çoxdan gözləyirik. İrana səfərinizin böyük əhəmiyyəti vardır.

Heydər Əliyev: Elə mən də çoxdan gözləyirdim.

Morteza Hacı: Mənə belə söyləyirlər ki, Siz İrana sentyabrda rəsmi səfərə gələcəksiniz.

Heydər Əliyev: Bəli.

Morteza Hacı: Cənab Prezident, Sizə bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Heydər Əliyev: Sağ olun.

Görüşdə Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov və digər rəsmi şəxslər iştirak edirdilər.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN TELEVİZİYASINA MÜSAHİBƏSİ

Azərbaycan Prezidenti Heydər Əliyev Tehranın Mehrabad hava limanında İran televiziyasına qısa müsahibə vermişdir.

Sual: Cənab Prezident, Siz İƏT-in üzvü olan ölkələrin dövlər və hökumət başçılarının VI Zirvə toplantısına xoş gəlmisiniz! İƏT-nin Zirvə görüşündə iştirak edən dövlətlərə və Xəzər dənizi ətrafında yaşayan xalqlara sözünüz nədir?

Heydər Əliyev: Mən, birinci növbədə, İran xalqına, İran vətəndaşlarına səmimi salamlarımı yetirirəm, dərin hörmət və ehtiramımı bildirirəm. İran hökumətinə, İran dövlətinə də öz dərin hörmət və ehtiramımı bildirirəm.

Bura gələn ölkələr müsəlman ölkələridir. Ona görə də bütün müsəlmanlara da öz hörmətimi bildirirəm və hamısına sülh, əmin-amanlıq, rifah arzulayıram. Arzulayıram ki, islam birliyi daha da güclü olsun, daha da möhkəm olsun.

İƏT təşkilatında iştirak edənlərin çoxu Xəzəryanı ölkələrdir. Rusiyadan başqa, beş Xəzəryanı ölkədən dördü burada təmsil olunur. Ona görə də mən Xəzəryanı ölkələrə arzulayıram ki, onlar daha da sıx, səmimi və mehriban əməkdaşlıq etsinlər.

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab sədr!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

İcazə verin, İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin başçılarının şəxsində VI Zirvə görüşünün bütün iştirakçılarını, eləcə də bugünkü görüşdə iştirak edən bir sıra nüfuzlu təşkilatların nümayəndələrini salamlayım.

Mən səmimi qəbula, bizim nümayəndə heyətinə göstərilən xoş münasibətə və qonaqpərvərliyə, sammitin işinin konstruktiv və səmərəli olması üçün yaradılmış şəraitə görə İran İslam Respublikasının Prezidenti Zati-alileri cənab Seyid Məhəmməd Xatəmiyə və İran İslam Respublikasının hökumətinə təşükkür edirəm.

Zati-alileri!

Bu gün bütün fəaliyyət sahələrinə qloballaşma prosesinin müdaxilə etdiyi bir vaxtda ayrı-ayrı ölkələrin qarşılıqlı əlaqələr qurmadan inkişafını təsəvvür etmək çətindir. Ona görə də, fikrimcə, qloballaşma və qarşılıqlı əlaqə şəraitində İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafında iki mühüm amil böyük əhəmiyyət kəsb edə bilər: birincisi, hər bir ölkənin inkişafı üçün İqtisadi Əməkdaşlıq Təşkilatının rolunun gücləndirməsi: ikincisi, İqtisadi Əməkdaşlıq Təşqkiklatı ilə digər beynəlxalq və regional təşkilatlar arasında daha sıx və qarşılıqlı faydalı əlaqələrin qurulması zərurətidir.

Bunları nəzərə alaraq, ölkələrimiz həm İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində qurulan münasibətlərin səmərəliliyinin artırılmasına, həm də müxtəlif beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın dərinləşməsinə çalışmalıdırlar.

İqtisadi Əməkdaşlıq Təşkilatının bir sıra beynəlxalq qurumlarla, o cümlədən maliyyə təşkilatları ilə getdikcə inkişaf edən əlaqələrini yalnız alqışlamaq olar. Xüsusilə də onun Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası, Ümumdünya Ticarət Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Narkotik Maddələrə Nəzarət üzrə Proqramı və s. bu kimi qurumlarla əməkdaşlığı bizim regionun iqtisadi və geosiyasi əhəmiyyətinin artmasını təsdiq edir. Bu, həm də İqtisadi Əməkdaşlıq Təşkilatı tərəfindən geniş miqyaslı işlərin həyata keçirildiyini göstərir.

İqtisadi Əməkdaşlıq Təşkilatının digər beynəlxaq təşkilatlarla əlaqələrinin inkişafı məsələsi ilə bağı qeyd etmək istəyirəm ki, Azərbaycan bu işə öz töhfəsini verməyə hazırdır. Xüsusilə də biz üzv dövlət kimi İqtisadi Əməkdaşlıq Təşkuilatı ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında qarşılıqlı əlaqələrin qurulması sahəsində öz köməyimizi göstərə bilərik. Bu məqsədlə hər iki təşkilatın Baş katiblərinin Bakıda görüşünün keçirilməsini təklif edirik. Hesab edirəm ki, belə bir görüş İqtisadi Əməkdaşlıq Təşkilatı və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının gələcək əməkdaşlığı üçün ilkin zəmin yarada bilər.

Zati-aliləri!

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkiltının üzvü olan dövlətlər arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsində və bu təşkilat çərçivəsində həyata keçirilən mühüm iqtisadi layihələrdə, o cümlədən

nəqliyyat, ticarət, energetika və telekommunikasiya sahələri üzrə layihələrdə iştirak etməyə hazırdır.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrlə ticarət və investisiya sahəsində sıx əməkdaşlıq edir. Belə ki, təşkilatın üzvləri olan İran və Türkiyə Azərbaycanın ticarət sahəsində əsas partnyorlarıdır. Bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsini nəzərə alaraq, biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələr arasında ticarət maneələrinin tədricən aradan qaldırılmasını, iqtisadiyyatın daha geniş miqyasda liberallaşdırılmasını istəyirik.

Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələr arasında qarşılıqlı investisiya qoyuluşlarının həvəsləndirilməsini zəruri hesab edirik. Azərbaycan Respublikası adından deyə bilərəm ki, ölkəmizdə xarici investorların fəaliyyəti üçün zəruri olan bütün addımlar atılıbdır. İqtisadi islahatların qanunvericilik bazasının formalaşdırılması, iqtisadiyyatın liberallaşdırılması və özəlləşdirilmənin həyata keçirilməsi xarici kapitalın ölkəmizə cəlb edilməsi üçün əlverişli şərait yaradır.

Biz İqtisadi Əməkdaşlıq Təşkilatı regionundan olan bütün investorları Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə layihələrin maliyyələşdirməsində fəal iştirak etməyə dəvət edirik. Eyni zamanda, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində dövlətlərarası regional iqtisadi proqramların işlənib hazırlanmasını məqsədəuyğun hesab edirik. Bu, regionda iqtisadi əlaqələri daha da genişləndirməyə və qarşılıqlı faydalı əməkdaşlığı möhkəmləndirməyə xidmət edə bilər.

Azərbaycan üçün Xəzər dənizinin neft yataqlarının işlənilməsi böyük əhəmiyyət kəsb edir. Bu gün inamla söyləmək olar ki, regionda enerji ehtiyatlarının işlənilməsi prosesi dönməz xarakter almışdır. Eyni zamanda, Azərbaycanın enerji sektorunun timsalında kapitalın və istehsalın beynəlmiləlləşməsi prosesi baş verir, enerji ehtiyatlarının işlənilməsi və dünya bazarlarına nəql edilməsi üzrə geniş miqyaslı layihələrdə bir çox ölkələrin tanınmış şirkətlərinin iştirakı deyilənlərə əyani sübutdur.

Bizim ölkəmiz və regionun bütün ölkələri üçün 1997-ci ildə şimal marşrutu üzrə Bakı - Novorossiysk və 1999-cu ildə Qərb marşrutu üzrə Bakı - Supsa neft kəmərinin işə düşməsi mühüm əhəmiyyətə malikdir.

Bakı - Ceyhan əsas ixrac neft kəməri layihəsinin tezliklə gerçəkləşməsi bizim ölkələrin iqtisadi inkişafında və onların dünya iqtisadi sisteminə inteqrasiyasında əvəzolunmaz rol oynayacaqdır. Eyni zamanda, hesab edirəm ki, Xəzər dənizi regionundakı zəngin neft və qaz ehtiyatlarının işlənməsi və bu məhsulların dünya bazarlarına çıxarılması üçün alternativ yolların yaradılmasına ehtiyac vardır.

Bu gün Xəzər dənizi hövzəsində neft və qaz ehtiyatlarının işlənilməsi sahəsində Xəzəryanı dövlətlər (Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran) böyük işlər aparırlar. Lakin biz hesab edirik ki, bu regionun enerji ehtiyatlarından daha səmərəli istifadə etmək üçün Xəzəryanı dövlətlər Xəzər dənizinin hüquqi statusunu müəyyən etməlidirlər. Azərbaycan bunun üçün lazım olan müzakirələrin aparılmasına və nəhayət, bu məsələnin həlli üçün zəruri addımların atılmasına hazırdır. Bu, region ölkələri arasında iqtisadi inteqrasiyanı daha da gücləndirə bilər.

Hörmətli sədr!

Real və potensial imkanları nəzərə alaraq, İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü

olan ölkələr bir tərəfdən öz məhsullarını ixrac etmək, digər tərəfdən isə tranzit ölkə rolunda çıxış etməklə regionda geniş nəqliyyat şəbəkələrinin ikişafına böyük diqqət yetirməlidirlər. Bu sahədə İqtisadi Əməkdaşlıq Təşkilatı regionu üçün böyük İpək yolunun bərpası və Avropa - Qafqaz - Asiya dəhlizinin inkişafı tarixi əhəmiyyət kəsb edir.

Böyük İpək yolunun bərpası üzrə 1998-ci ilin sentyabrında Bakıda 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə beynəlxalq konfrans keçirilmişdir. Bu konfransda 12 dövlət tərəfindən "Avropa - Qafqaz - Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş" imzalanmışdır. Onlardan altısı İqtisadi Əməkdaşlıq Təşkilatının üzvüdür. Beynəlxalq konfransda qəbul edilmiş hüquqi sənədlər qüvvəyə minmiş, Bakıda TRASEKA layihəsi üzrə katiblik yaradılır və yaxın günlərdə fəaliyyətə başlayacaqdır.

Fikrimcə, Avropa ilə Asyanı birləşdirən tarixi İpək yolunun bərpası üzrə proqramda regionun iri dövlətlərindən biri olan İranın fəal iştirak etməsi çox vacibdir. Biz bu məsələdə qonşu dövlətə hər cür dəstək verməyə hazırıq.

Bu geniş miqyaslı layihənin həyat keçirilməsi Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizi üzərində yerləşən ölkələrin təbii eh-tiyatlarından və iqtisdi potensialından daha səmərəli istifadə olunması, ticarət və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün zəruri baza yaradır, eyni zamanda, həmin ölkələrin dünya təsərrüfat sisteminə inteqrasiya olunması prosesini gücləndirir.

Mən inamla qeyd etmək istəyirəm ki, əsrlər boyu iqtisadiyyatın, mədəniyyətin, elmin və sivilizasiyanın qarşılıqlı zənginləşməsinə kömək etmiş İpək yolu bu gün də onun üzərinə qoyulan ümidləri doğruldacaqdır. Bu layihənin gerçəkləşməsi ticarət-iqtisadi, mədəni əlaqələrin inkişafına səbəb olacaq və inteqrasiya proseslərində katalizator rolunu oynayacaqdır. Nəzərdə tutulan proqramın həyata keçirilməsində bütün maraqlı ölkələr fəal iştirak etməlidirlər. Belə ki, nəqliyyat sahəsinin ahəngdar işindən bizim ölkələrin sosial-iqtisadi inkişafı əhəmiyyətli dərəcədə asılıdır.

Hörmətli sədr!

Hörmətli görüş iştirakçıları!

Yeni minilliyin başlanğıcında bəzi dövlətlər arasında münasibətlər və bir sıra dövlətlərdə daxili vəziyyət çox mürəkkəb dövrünü yaşayır. Bu yeni şəraitdə biz həm qlobal, həm də regional miqyasda sülhün, inamın, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə real addımlar atmalıyıq.

Bu baxımdan, Cənubi Qafqazda sülhün və əmin-amanlığın təmin edilməsi məqsədi ilə xüsüsi pakt imzalanması təşəbbüsünü irəli sürmüşük. Belə bir paktın imzalanması regionda münaqişələrin həllinə, sülhün və sabitliyin möhkəmlənməsinə güclü təkan verə bilər. Bu məsələdə regionda mühüm rol oynayan İranın iştirakını zəruri hesab edirik. Azərbaycan üçün bu məsələ böyük əhəmiyyət kəsb edir. Sizə məlum olduğu kimi, öz müstəqilliyinin ilkin dövrlərində Azərbaycan ciddi siyasi və iqtisadi sarsıntılar keçirmişdir. Bu, hər şeydən əvvəl, qonşu Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı olmuşdur. Nəticədə, ölkə ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bir milyon azərbaycanlı doğma yaşayış yerlərindən zorla çıxarılmış və öz ölkəsində qaçqın vəziyyətinə düşmüşdür. Bütün bunlar ölkədə həyata keçirilən hüquqi, iqtisadi islahatların sürətinə mənfi təsir göstərmişdir.

Azərbaycan Ermənistanla sülhə nail olmaq və əməkdaşlıq etmək niyyətindədir.

Lakin bu əməkdaşlıq Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən, qaçqınlar öz daimi yaşayış yerlərinə qayıtdıqdan sonra ola bilər. Azərbaycan Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində ən yüksək özünüidarəetmə statusu verməyə hazırdır. Bizim bu mövqeyimiz Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin başçılarının 1996-cı ildə Lissabonda keçirilmiş sammitində münaqişənin sülh yolu ilə həlli üçün əsas olan üç məlum prinsipdə öz əksini tapmışdır. Dünya ölkələrinin birgə səyləri Ermənistana sübut etməlidir ki, münaqişənin Ermənistan və Azərbaycanın ərazi bütövlüyünü qarşılıqlı surətdə tanımaq əsasında sülh yolu ilə həll edilməsinə alternativ yoxdur. Onu da nəzərə almaq lazımdır ki, möhkəm sülh əldə edildikdən sonra geniş əməkdaşlıq üçün imkanlar yaranacaqdır. Bununla bağlı, İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin başçılarının köməyinə biz ümid bəsləyirik.

Son olaraq onu qeyd etmək istəyirəm ki, bu görüş yaxın gələcəkdə regionun inkişafı üçün dəqiq hədəflər müəyyən edəcək və İqtisadi Əməkdaşlıq Təşkiltının bütün istiqamətlər üzrə ardıcıl inkişafı üçün şərait yaradacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

(Dövlətimizin başçısı Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.)

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti Heydər Əliyev iyunun 10-da Tehranda, İran İslam Respublikası Prezizdentinin sarayında dost ölkənin dövlət başçısı Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

Prezident Xatəmi respublikamızın rəhbərini sarayın qarşısında dostcasına, səmimiyyətlə qarşıladı.

İƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VI Zirvə görüşündə iştirak etdiyinə və bununla da, həmin toplantını şərəfləndirdiyinə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Prezident Seyid Məhəmməd Xatəmi dedi:

- Cənab Prezident, xoş gəlmisiniz!

Əlbəttə, biz gözləyirik, - yəqin ki, İrana geniş bir səfəriniz olacaqdır. Amma İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün Sizin iştirakınızla keçirilməsi bu iclası daha da gözəlləşdirdi. İnanıram ki, bu iclasın keçirilməsi İƏT-nin üzvü olan dövlətlərin hamısı üçün çox xeyirli və bərəkətli olacaqdır.

Ümidvaram ki, xalqlarımız və dövlətlərimiz arasında olan tarixi, mədəni əlaqələr bizi baha da yaxınlaşdıracaq və əmin-amanlığın təmin edilməsi bir çox sahələrdə əməkdaşlığın güclənməsinə zəmin yaradacaqdır.

Sizə bir daha "Xoş gəlmisiniz!" deyirəm. Eyni zamanda, Sizi müşayiət edən nümayəndə heyəti də xoş gəlibdir.

Səmimi qəbula və ona göstərilən qonaqpərvərliyə görə İranın dövlət başçısına dərin minnətdarlığını bildirən Azərbaycan Prezidenti Heydər Əliyev dedi:

- Təşəkkür edirəm, cənab Prezident. Mən dünən, bu gün Tehranda olmağımdan çox məmnunam, çünki İran üçün darıxmışam. Mən də belə fikirdəyəm ki, gərək İrana geniş bir səfərim olsun. Nəzərdə tuturam ki, əgər, Sizin tərəfdən buna etiraz etməsələr, sentyabr ayında bu səfərin vaxtını müəyyənləşdirmək olar.

Ancaq indi İƏT toplantısına gəlmək, İranı görmək, bu təşkilatın Zirvə toplantısında iştirak etmək və Sizinlə görüşmək mənim üçün çox əhəmiyyətlidir.

Mən istəyirəm, İƏT təşkilatının Zirvə görüşünün çox müvəffəqiyyətlə, uğurlu, yüksək səviyyədə keçməsinə görə Sizi bir daha təbrik edim. Mən bu görüşü indiyə qədər olan sammitlərlə müqayisə etmək istəmirəm. Ancaq bu görüş, bu sammit çox gözəl keçdi. Sizin rəhbərliyiniz, liderliyiniz və Sizin ətrafınızda olan dövlət adamlarının çalışması bu sammitin uğurla keçməsini təmin edibdir.

Görüşdə ölkələrimiz arasındakı tarixi qonşuluq münasibətləri yüksək qiymətləndirildi, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran - Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının işinin daha da canlandırılması məsələləri barədə ətraflı fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan, bir milyondan çox azərbaycanlı qaçqının və məcburi köçkünün yeddi ildən bəri çadırlarda ağır vəziyyətdə yaşamasından söhbət açdı.

Prezident Xatəmi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllinə İranın da tərəfdar olduğunu, Azərbaycanın ərazi bütövlüyünü və haqq işini dəstəklədiyini vurğuladı, Qafqazda sülhün və əmin-amanlığın bərqərar olmasının mühüm əhəmiyyət daşıdığını bildirdi. O, Xəzər dənizinin statusu barədə öz ölkəsinin mövqeyini açıqlayaraq dedi ki, bu status tarixi keçmiş nəzərə alınmaqla, mehriban qonşuluq prinsipləri əsasında, sahilyanı dövlətlərin iqtisadi maraqları gözlənilməklə müəyyənləşdirilməlidir.

Cənab Xatəmi Prezident Heydər Əliyevin İrana qarşıdakı rəsmi səfərinin ölkələrimiz arasındakı münasibətlərin inkişafında xüsusi rol oynayacağını vurğulayaraq dedi ki, mən də Sizin ölkənizi görmək arzusundayam.

Görüşdə Azərbaycan-İran əlaqələrinin perspektivləri, regional əməkdaşlıq, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

DÖVLƏTİMİZİN BAŞÇISI HEYDƏR ƏLİYEVİN İRANIN ALİ DİNİ RƏHBƏRİ SEYİD MƏHƏMMƏD XAMNEYİ İLƏ GÖRÜŞÜ

İran İslam Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 10-da İranın Ali Dini Rəhbəri Seyid Məhəmməd Xamneyi ilə görüşmüşdür.

Ali qonağı ehtiramla salamlayan cənab Xamneyi ölkələrimizin tarixən bir-biri ilə qırılmaz tellərlə bağlı olduğundan məmnunluqla söhbət açdı.

İranın Ali Dini Rəhbəri ilə əvvəlki görüşlərini razılıqla xatırlayan Prezident Heydər Əliyev belə yüksək səviyyəli görüşlərin ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmləndirilməsində mühüm rol oynadığını nəzərə çarpdırdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması sahəsində görülmüş işlərdən bəhs edən dövlətimizin başçısı Heydər Əliyev bu münaqişənin indiyə qədər aradan qaldırılmamasının bölgədəki digər ölkələr üçün də daim təhlükə mənbəyi olduğunu vurğuladı.

Ermənistanın haqsız ərazi iddiaları və təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini, bu torpaqlardan bir milyondan çox vətəndaşımızın öz doğma yerindən-yurdundan silah gücünə zorla çıxarıldığını və yeddi ildən bəri çadırlarda ağır vəziyyətdə yaşadığını nəzərə çarpdıran dövlətimizin başçısı dünya ictimaiyyətinin gözü qarşısında baş verən bu haqsızlıqlara dost və qonşu İranın həssaslıqla yanaşmasının, regional təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməsinin vacib olduğunu bildirdi.

Azərbaycanın qarşılaşdığı problemlərin həllinə İranın bundan sonra xüsusi diqqət yetirəcəyini söyləyən ölkənin Ali Dini Rəhbəri müstəqil Azərbaycan Respublikası ilə bütün sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin İİR üçün böyük əhəmiyyət daşıdığını vurğuladı. O, Xəzərin hüquqi statusunun Xəzəryanı dövlətlərin iştirakı ilə tezliklə tənzimlənəcəyinə əmin olduğunu söylədi.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə bir daha vurğulandı ki, Azərbaycan - İran münasibətlərində danışıqlar vasitəsilə həll edilməsi mümkün olmayan heç bir problem yoxdur.

Tərəflər Azərbaycan Prezidenti Heydər Əliyevin bu ilin sentyabr ayında İrana rəsmi səfəri zamanı bir sıra məsələlər haqqında müzakirələri davam etdirmək barədə razılığa gəldilər.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN MƏSLƏHƏT ŞURASININ SƏDRİ HAŞİMİ RƏFSƏNCANİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasında işgüzar səfərdə olarkən, iyulun 10-da İran Məsləhət Şurasının sədri Haşimi Rəfsəncani ilə görüşmüşdür.

Dövlətimizin başçısını səmimiyyətlə, mehribnlıqla salamlayan cənab Rəfsəncani Prezident Heydər Əliyevin İrana gəlişindən son dərəcə məmnun qaldığını bildirdi.

İƏT-nin VI Zirvə görüşündə respublikamızın rəhbərinin nitqini böyük diqqətlə dinlədiyini vurğulayan İran Məsləhət Şurasının sədri əmin olduğunu bildirdi ki, bu Zirvə görüşü iştirakçı ölkələr arasında bütün sahələrdə əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynayacaqdır.

Azərbaycan-İran əməkdaşlığının inkişaf etdirilməsində dövlətimizin başçısının göstərdiyi səylərdən məmnunluqla danışan cənab Rəfsəncani Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu sahəsində görülən işləri böyük maraqla izlədiklərini vurğuladı.

Göstərilən qonaqpərvərlikdən və İƏT-in VI Zirvə görüşünün təşkilindən razılıqlar söhbət açan respublikamızın Prezidenti İƏT-in fəaliyyətini və onun beynəlxalq təşkilatlarla, maliyyə qurumları ilə yaratdığı əlaqələri yüksək dəyərləndirdi.

Müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasında islahatların uğurla həyata keçirilməsindən, hüquqi dövlət quruculuğu, cəmiyyətin demokratikləşdirilməsi sahəsində görülən iqşlərdən bəhs edən Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsindən də ətraflı söhbət açdı. Bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasında ATƏT-in səylərinə Azərbaycanın böyük ümidlər bəslədiyini nəzərə çarpdıran dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, dost və qonşu İran bölgədə təhlükəsizliyin təmin edilməsinə

daha həssaslıqla yanaşacaqdır.

Yeddi ildən bəri çadırlarda ağır şəraitdə yaşayan qaçqınlara İranın bundan sonra da kömək göstərəcəyini söyləyən cənab Rəfsəncani Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həll ediləcəyinə əmin olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin daha da genişləndirilməsi, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRANIN KƏND TƏSƏRRÜFATI NAZİRİ İSA KƏLƏNTƏRİ, TİKİNTİ VƏ ŞƏHƏRSALMA NAZİRİ ƏLİ ƏBDÜLƏLİZADƏ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasına işgüzar səfəri zamanı iyunun 9-da İranın kənd təsərrüfatı naziri İsa Kələntəri, tikinti və şəhərsalma naziri Əli Əbdüləlizadə ilə görüşmüşdür.

Prezident Heydər Əliyevi səmimiyyətlə, mehribanlıqla salamlayan, onunla görüşdən böyük şərəf duyduqlarını bildirən nazirlər İran Prezidenti cənab Xatəminin dəvətini qəbul edərək İƏT-nin VI zirvə görüşündə iştirak etmək üçün Tehrana gəldiyinə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Cənab Kələntəri və cənab Əbdüləlizadə ötən il Bakıya səfərləri zamanı onlara göstərilən qonaqpərvərlikdən məmnunluqla söhbət açdılar, görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu sahəsində görülən işləri heyranlıqla izlədiklərini söylədilər.

Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycanda torpaqların əsl sahiblərinə verildiyini, iqtisadi islahatların ardıcıl surətdə həyata keçirilməsində uğurlar qazanıldığını, Bakıda və respublikanın digər şəhərlərində tikinti və abadlıq işlərinin böyük vüsət aldığını vurğulayan nazirlər son illər ölkəmizdə toplanmış təcrübəni öyrənməyə ehtiyac duyduqlarını bildirdilər.

Dost və qonşu ölkələr olan Azərbaycan ilə İran arasında əlaqələrin daim inkişaf etdirilməsinə həmişə xüsusi əhəmiyyət verdiyini nəzərə çarpdıran dövlətimizin başçısı Heydər Əliyev sənaye, kənd təsərrüfatı, ticarət, mədəniyyət və digər sahələrdə əməkdaşlığın daha da sıxlaşdırılmasının vacibliyindən ətraflı söhbət açdı.

Həm kənd təsərrüfatı, həm də tikinti, şəhərsalma sahələrində qarşılıqlı surətdə faydalı əməkdaşlıq qurmağa böyük imkanlar olduğunu vurğulayan Prezident Heydər Əliyev iqtisadi, ticarət və mədəni əlaqələr üzrə Dövlətlərarası Müştərək Komissiyanın bu sahədə öz fəaliyyətini durmadan genişləndirməsinə ehtiyac duyulduğunu bildirdi.

Görüşdə bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRANIN KOOPERASİYA NAZİRİ MORTEZA HACI İLƏ GÖRÜŞÜ

Azərbycn Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasına işgüzar səfəri zamanı iyunun 9-da ölkənin

kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Morteza Hacı ilə görüşmüşdür.

Respublikamızın Prezidentini mehribanlıqla salamlayan, onunla hər bir görüşdə şərəf duyduğunu vurğulayan cənab Morteza Hacı İƏT-in VI Zirvə görüşündə iştirak etmək üçün Tehrana gəldiyinə görə, dövlətimizin başçısı Heydər Əliyevə minnətdarlığını bildirdi.

Azərbaycan - İran əlaqələrinin durmadan inkişaf etməsində və möhkəmlənməsində Prezident Heydər Əliyevin böyük xidmətləri olduğunu söyləyən nazir Dövlətlərarası Müştərək Komissiyanın fəaliyyətinə və bu ilin aprelində Bakıda İran İslam Respublikasının VIII sənaye sərgisinin keçirilməsinə göstərdiyi qayğı və diqqətə görə ölkəmizin başçısına bir daha təşəkkür etdi.

İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əlaqələrin daha da genişləndirilməsinə müstəqil Azərbaycan Respublikasının xüsusi əhəmiyyət verdiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, İƏT-nin VI Zirvə görüşü bu təşkilatın yaxın gələcəkdə bütün istiqamətlər üzrə ardıcıl inkişafına lazımi şərait yaradacaqdır.

Ümumi mənəvi dəyərlərə, eyni dinə, müştərək tarixi keçmişə malik olan ölkələrimiz arasında bütün sahələrdə, xüsusən iqtisadiyyat, ticarət və mədəniyyət sahəsində əlaqələrin sıxlaşdırılmasının böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident Heydər Əliyev Dövlətlərarası Müştərək Komissiyanın işinin daha da canlandırılmasına ehtiyac duyulduğunu bildirdi, özəl sektorun, iş adamlarının bir-biri ilə daha sıx əlaqələr qurmasının hər iki tərəf üçün çox faydalı olduğunu xatırlatdı.

Söhbət zamanı hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barəsində də fikir mübadiləsi aparıldı.

İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasına işgüzar səfərini başa çatdıraraq, Tehranın Mehrabad hava limanına gəldi.

Dövlətimizin başçısı Heydər Əliyev burada İran televiziyasına qısa müsahibə verdi.

Sual: Cənab Prezident, İƏT ölkələrinin dövlət və hökumət başçılarının Zirvə toplantısında keçirilən tədbirlər barədə nə deyə bilərsiniz?

Heydər Əliyev: Tədbirlər çox oldu. Bu tədbirləri indi qısa vaxtda, iki dəqiqə içərisində demək olmaz. Çox tədbirlər var. Biz çalışırıq, hər ölkə - həm İran, həm Azərbaycan, həm də İƏT-in başqa üzvləri çalışırlar ki, öz iqtisadiyyatını gücləndirsinlər. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 3-də Prezident Sarayında İran İslam Respublikasının ölkəmizdəki səfiri Əlirza Beqdelini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev səfiri səmimiyyətlə salamlamışdır.

Prezident Heydər Əliyevə dərin təşəkkürünü bildirən səfir Əlirza Beqdeli dedi:

- Çox sağ olun, cənab Prezident. Bu qəbula görə Sizə təşəkkür edirəm və Sizə Tehrandan salamlar gətirmişəm.

Heydər Əliyev: Çox gözəl.

Əlirza Beqdeli: Ağayi Xatəmi, ağayi Əbdüləlizadə, ağayi Xərrazi, ağayi Kələntəri, ağayi Şəfei- hamısı Sizə salam göndərdilər. Onlar Sizin Tehrana növbəti əhəmiyyətli səfərinizin təşkilində iştirak etməyi gözləyirlər.

Sizin 9-10 iyun tarixli Tehran səfəriniz həqiqətən çox əhəmiyyətli bir səfər oldu. Baxmayaraq ki, bu səfər İƏT çərçivəsində təşkil edilmişdi, Sizin cənab Ayətulla Xamneyi və ağayi Xatəmi ilə əhəmiyyətli görüşləriniz çox yaddaqalan oldu. Mən də o görüşlərdə iştirak edirdim. Deyə bilərəm ki, Siz çox ciddi məsələlər müzakirə etdiniz və Sizin Tehrana növbəti səfərinizin əsası orada qoyuldu. İndi Tehranda və Bakıda bu səfərə hazırlıq gedir. Sizə deyə bilərəm ki, inşallah, bu səfər də həm İran xalqına, həm Azərbaycan xalqına, həm iki ölkənin mənafeyinə uyğun, əhəmiyyətli və səmərəli səfər olacaqdır. Ondan əvvəl cənab ağayi Xatəmi Nyu Yorka gedəcəkdir. Siz də ora gedəcəksiniz. Orada mileniumun yubileyidir. Yəqin ki, Siz cənab ağayi Xatəmi ilə görüş keçirəcəksiniz. Bu da bizim əlaqələrimizə yeni bir can verəcəkdir və ölkələrimiz bundan bəhrələnəcəklər.

Sizə ərz etmək istəyirəm ki, ümumiyyətlə, itisadi əlaqələrimiz ötən aylar ərzində gözəl inkişaf edibdir. Sizin xəbəriniz vardır və ağayi Xatəmi ilə görüşünüzdə Sizə buyurdular ki, İran ötən il ərzində Azərbaycana daha çox sərmayə qoyubdur. Bu, onu göstərir ki, İran-Azərbaycan iqtisadi əlaqələrinin təməli hansı səmtə meyl edir.

May ayında Siz özünüz İran sərgisinə təşrif gətirdiniz. Sizin o sərgiyə gəlişiniz və İran tacirlərinin Sizdən gördüyü himayə çox əhəmiyyətli oldu. Biz şahidik ki, İranın neft, avtomobil, dərman, balıqçılıq və kənd təsərrüfatı sahələrində çalışan böyük şirkətləri tez-tez Azərbaycana gəlirlər, müzakirələr aparırlar ki, inşallah, Sizin Tehrana səfərinizə qədər biz bəzi əhəmiyyətli sənədləri və müqavilələri hazır edək.

Bu gün çox şadam ki, mənə Sizinlə görüşmək fürsəti nəsib oldu. Bu görüşdə biz Sizin qarşıdakı səfərinizin təşkili ilə bağlı danışacağıq. İran ilə Azərbaycan əlaqələrinə aid bəzi məsələlər də vardır, onu Sizə çatdıracağam.

Azərbaycan Prezidenti Heydər Əliyev səfirə minnətdarlıq edərək dedi:

-Çox sağ olun, təşəkkür edirəm. Mən də İrana səfərimdən çox məmnunam.

Qeyd etmək istəyirəm ki, İƏT-in Zirvə görüşü İran tərəfindən çox yüksək səviyyədə təşkil olundu və keçirildi. İndi İƏT-in katibi də İran nümayəndəsidir. Hesab edirəm ki, bu, çox vacib məsələdir. Çünki bu təşkilatın fəaliyyətinin də böyük əhəmiyyəti var. Eyni zamanda, mənim orada apardığım görüşlər xüsusən cənab Prezident Xatəmi ilə və Ali Dini Rəhbər cənab Xamneyi ilə görüşlərim çox əhəmiyyətlidir, çox vacibdir və çox da məzmunlu oldu.

Başqa görüşlərimiz də oldu,- təbiidir, onları bilirsiniz. Siz hamısında iştirak etmisiniz. Mən bunlardan çox məmnunam. Hesab edirəm ki, bu, İran-Azərbaycan əlaqələrinin inkişaf etməsində yeni bir mərhələdir. Eyni zamanda, Prezident cənab Xatəminin dəvəti ilə mənim İrana rəsmi səfərimin bir əsasını yaradıbdır.

Mən də bilirəm ki, bizim tərəfdən hazırlıq işləri görülür, sizin tərəfdən də hazırlıq işləri görülür. Bu işləri də bir az sürətləndirmək lazımdır. Çünki danışdığımız kimi, sentyabr ayının sonunda - indi gərək sizin üçün də, bizim üçün də daha uyğun olan gününü müəyyən edək - mən Tehrana gələcəyəm və rəsmi səfərimi həyata keçirəcəyəm.

İran-Azərbaycan iqtisadi əlaqələri

son illər həqiqətən yaxşı inkişaf edir və xüsusən bu il. Burada keçirilən sərginin çox böyük əhəmiyyəti oldu. Bizim iş adamları da, camaat da gördü ki, İranda hansı imkanlar var. İran şirkətləri burada nə iş görə bilər. İran avtomobil zavodu, deyəsən, artıq burada əməkdaşlıq edir, elədir?

Əlirza Beqdeli: Bəli.

Heydər Əliyev: Bu da çox yaxşıdır. İran ticarətdə də indi birinci yerdədir, onu da bilirsiniz. Bunlar hamısı bizim siyasi əlaqələrimizin nə qədər yaxşı olduğunu göstərir. Siyasi əlaqələr yaxşı olmasa, iqtisadi əlaqələri inkişaf etdirmək olmur. Bunlar hamısı bir daha sübut edir ki, bizim aramızda bu dostluq əlaqələri var, yaşayır, inkişaf edir və inşallah, mən Tehranda olanda bu barədə danışıqlar aparacağıq. Güman edirəm ki, lazımi sənədlər də imzalayacağıq.

Əlirza Beqdeli: İnşallah!

"Respublika" qəzeti,
4 avqust 2000-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞÜ

Xəbər verdiyimiz kimi, BMT-nin miliniumun Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev seyntyabrın 8-də Nyu Yorkda İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

Prezident Xatəmi dövlətimizin başçısını səmimiyyət və mehribanlıqla salamlayaraq onu çox gümrah görməsindən şad olduğunu bildirdi.

Bu ilin iyununda İƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Tehranda keçirilmiş VI Zirvə görüşü zamanı Prezident Heydər Əliyev ilə apardıqları danışıqları məmnuniyyətlə xatırlayan Prezident Xatəmi beynəlxalq təşkilatlar çərçivəsində öz ölkəsinin Azərbaycan ilə əməkdaşlığını yüksək qiymətləndirdi.

Ölkələrimizin və xalqlarımızın tarixən bir-biri ilə sıx tellərlə bağlı olduğundan söhbət açan cənab Xatəmi hazırkı şəraitdə Azərbaycan-İran əlaqələrinin daha da inkişafı üçün əlverişli şərait yarandığını, iki ölkə arasında hərtərəfli əməkdaşlığın dərinləşdirilməsinin vacibliyini söylədi.

İran Prezidenti bölgədə sabitliyin, təhlükəsizliyin bərqərar olması, regionun çiçəklənməsi üçün Xəzəryanı ölkələrin qarşılıqlı anlaşma şəraitində əməkdaşlığının zəruriliyini də nəzərə çarpdırdı.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli sahəsindəki vəziyyətlə maraqlanan Prezident Xatəmi onun tezliklə aradan qaldırılmasının vacibliyini vurğulayaraq, Prezident Heydər Əliyevin səyləri sayəsində problemə sülh yolu ilə son qoyulacağına əmin olduğunu bildirdi.

İran Prezidenti Xatəmi ilə görüşündən şad olduğunu bildirən Azərbaycanın Prezidenti Heydər Əliyev də Tehrandakı görüşlərini məmnuniyyətlə xatırladığını nəzərə çarpdırdı.

Respublikamızın rəhbəri ölkələrimiz arasında tarixən təşəkkül tapmış ənənəvi mehriban qonşuluq münasibətlərinin, ikitərəfli əlaqələrin bütün sahələrdə genişləndirilməsinin, regional əməkdaşlığın inkişaf etdirilməsinin vacibliiyni vurğuladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması sahəsində görülmüş işlərdən söhbət açan Prezident Heydər Əliyev hərbi təcavüz nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini, bir milyon-

dan çox soydaşımızın öz doğma yurd-yuvasından zorla çıxarıldığını və hazırda çadır şəhərciklərində dözülməz şəraitdə yaşadığını xatırlatdı, münaqişənin həllinə dost və qonşu İranın da öz töhfəsini verməsinin vacibliyini söylədi.

Prezident Xatəmi Azərbaycan Prezidenti Heydər Əliyevi tezliklə İranda görmək arzusunda olduğunu bildirdi. İrana rəsmi səfərə gələcəyini söyləyən Prezident Heydər Əliyev isə cənab Xatəmini yaxın zamanlarda Azərbaycanda gözlədiyini vurğuladı.

Mehribanlıq və qarşılıqlı anlaşma şəraitində keçən görüş zamanı tərəfləri maraqlandıran başqa məsələlər ətrafında da fikir mübadiləsi oldu.

"Respublika" qəzeti,
20 seyntyabr 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRANIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev oktyabrın 24-də Prezident Sarayında İran İslam Respublikasının ölkəmizdəki səfiri Əlirza Beqdelini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev səfiri mehribanlıqla salamlamışdır.

Qəbula görə Prezident Heydər Əliyevə dərin təşəkkürünü bildirən səfir Əlirza Beqdeli demişdir:

- Cənab Prezident, hər şeydən əvvəl, sabah müsəlmanların ən gözəl bayramı - Həzrəti Peyğəmbər Salavatullahın Merac günüdür. Müsəlmanlar üçün çox böyük bayramdır. İcazə verin, bu bayram münasibətilə Sizi və Sizin simanızda qardaş Azərbaycan xalqını təbrik edim. Sizə təşəkkür edirəm ki, məni qəbul etdiniz. Həmişə olduğu kimi, nə vaxt xahiş etmişəm, Siz xahişimi qəbul etmisiniz və bu dəfə də Sizə minnətdarlığımı bildirirəm.

Bilirsiniz ki, mən beş ildən çoxdur Azərbaycanda səfir kimi çalışıram. **Çox xoşbəxtlik hissi duyuram ki, bu beş il ərzində burada mənim fəaliyyətim yalnız Sizin, cənab Heydər Əliyevin, dünyada tanınmış siyasətçi və şəxsiyyətin Prezident olduğu dövrə təsadüf edir.** Mən bu illər Sizinlə birlikdə çalışmışam və bu, məni çox sevindirir. Biz diplomatların işi bir gün başlayır və bir gün də qurtarır. Ancaq hiss edirəm ki, mən elə bu gündən öz yeni işimə Azərbaycanla başlamalıyam. Çünki İranın Xarici İşlər Nazirliyində mənə yeni vəzifə - MDB ölkələri üzrə idarə rəisi vəzifəsi təklif edilibdir. İnşallah, mən yenidən bu vəzifəmdə Azərbaycan Respublikası ilə və Azərbaycan xalqı ilə yaxın təmasda olacağam.

Hər şeydən öncə, Sizə və Sizin simanızda Azərbaycanın bütün məsul şəxslərinə təşəkkür edirəm ki, beş il ərzində mənim fəaliyyətimə dəstək, kömək və qayğı göstərilibdir. Eyni zamanda, bu illərdə Allahtəala bizə kömək edibdir və biz də əlaqələrin inkişaf etməsinə nail ola bilmişik. Sizə bir daha təşəkkür edirəm. Əsas məqsədim, Sizə təşəkkür etmək, Azərbaycanı tərk etmək ərəfəsində Sizinlə görüşmək, danışmaq idi.

Azərbaycan Prezidenti Heydər Əliyev səfirə minnətdarlığını bildirərək demişdir:

- Sağ olun. Mən də Sizi və bütün İran xalqını, bütün müsəlmanları bu bayram münasibətilə təbrik edirəm. Sizin ölkənizə, İran xalqına səadət, sülh, əmin-amanlıq arzulayıram. Bu bayramlar bizim ümumi

bayramlarımızdır. Çünki biz bir kökə və bir dinə malikik. Ona görə də bu bayram hamımızın bayramıdır.

Sizin burada işləməyiniz elə tez keçibdir ki, elə bil, heç beş il deyildir. Ona görə mən düşünürdüm ki, bəlkə Siz bir müddət də burada işləyəsiniz. Ancaq bilirəm, hər ölkədə Xarici İşlər Nazirliyinin qanunu vardır. Bəzi ölkələrdə səfir üç ildən artıq işləmir. Amma yaxşı ki, Sizin Xarici İşlər Nazirliyi Azərbaycana güzəşt edibdir. Siz burada beş il işləmisiniz. Ancaq, eyni zamanda məni sevindirən odur ki, Siz dediniz, İranın Xarici İşlər Nazirliyində MDB ölkələri üzrə idarənin rəisi olacaqsınız. Bu, təbii, bundan da yüksək bir vəzifədir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Siz bu vəzifədə də İran-Azərbaycan əlaqələrinin inkişaf etməsinə çalışacaqsınız. Bizim üçün bu, çox əhəmiyyətlidir, ona görə ki, bütün MDB ölkələrinə cavabdeh olacaqsınız. Amma bildiyimə görə, Siz Qazaxıstanda da işləmisiniz.

Əlirza Beqdeli: Cənab Prezident, Moskvada da işləmişəm.

Heydər Əliyev: Bir də Moskvada. Amma digər ölkələri o qədər yaxşı tanımırsınız. Amma hamısından çox Azərbaycanda işləmisiniz. Elədirmi?

Əlirza Beqdeli: Bəli, elədir.

Heydər Əliyev: Ona görə Azərbaycan Sizə başqa ölkələrə nisbətən daha çox tanışdır. Hesab edirəm ki, daha yaxındır, belə deyə bilərəm ki, bəlkə də daha doğmadır. Ona görə də Sizin o vəzifədə işləməyiniz bizim üçün çox yaxşı xəbərdir. İnanıram ki, Siz burada çalışdığınız dövrdə olduğu kimi, o böyük vəzifəni alandan sonra İran-Azərbaycan əlaqələrini inkişaf etdirməyə daha da çox səy göstərəcəksiniz.

Hər bir dövlət özünün dövlət mexanizmini yaxşı bilir. Ümumi prinsiplər var. Bəzən dövlətin xarici siyasəti dövlətin müşavirləri, onların təşəbbüsləri, yaxud təklifləri, onların verdiyi analitik materiallar əsasında qurulur. Ancaq Siz o vəzifədə olanda, hesab edirəm ki, heç vaxt öz rəhbərliyinizə Azərbaycan haqqında səhv, yaxud da əsası olmayan məruzələr etməzsiniz. Mən demirəm ki, o biriləri qəsdən edirlər. Bəzən bilmirlər. Çünki, hər halda, mənim bu barədə keçmişdən də, indi də təcrübəm çoxdur.

Xatirimdədir, Moskvada işləyəndə bəzən ayrı-ayrı ölkələrdəki səfirlər o ölkənin vəziyyəti haqqında, bu ölkənin Sovetlər İttifaqı ilə əlaqələri haqqında məlumatlar yazırdılar. Amma biz başqa yerdən öyrənəndə görürdük ki, həmin məlumatlar o qədər də düz deyil, səhvdir, yaxud da subyektiv fikirlərdir və s. Siz artıq burada beş il işləmisiniz, beş il burada yaşamısınız. Bu ölkənin Prezidentini anlayırsınız. Burada kim kimdir, onu da yaxşı bilirsiniz. Ona görə də çox məmnunam ki, əgər, Siz buranı tərk etmək məcburiyyətindəsinizsə, demək, o idarənin rəisi olmaq da bizim üçün çox əhəmiyyətlidir.

Beş il müddətində bizim əlaqələrimizin inkişaf etdirilməsi üçün hər iki tərəfdən - həm İran tərəfindən, həm də Azərbaycan tərəfindən səylər göstərilibdir. Ancaq deyə bilmərəm ki, bu səylər bizi istənilən səviyyəyə qaldırıbdır. Buna mane olanlar da olub, yaxud başqa səbəblər də olubdur. Hər şeyi açıq, həqiqəti demək lazımdır. Ancaq Siz də bilirsiniz və güman edirəm ki, İranın hökuməti, dövlət başçısı da bilir ki, **Azərbaycan prezidenti kimi mən Azərbaycan-İran əlaqələrinə xüsusi əhəmiyyət verirəm. Hesab edirəm ki, ölkələrimiz bir-biri ilə dost olmalıdır, qardaş olmalıdır və ölkələrmiz arasında heç bir nifrət, heç bir başqa şey olmamalıdır.** Bəzi səbəblər

var, məsələn, ona görə bizdə narazılıq törəyir, yaxud da Tehranda nazarılıq törəyir. Ancaq bu səbbələri də aradan götürmək olar. Əgər, götürmək mümkün deyilsə, hər halda, bunu da qarşılıqlı anlaşma yolu ilə müəyyən bir məcraya salmaq olar. Amma starteji nöqteyi-nəzərdən, Azərbaycanın dövlət siyasəti, Azərbaycan Prezidenti kimi mənim siyasətim bundan ibarətdir. Burada müxtəlif qüvvələrin, ayrı-ayrı şəxslərin, yaxud da siyasi qurumların və s. fikri Azərbaycan dövlətinin fikri deyildir.

Mənə bu gün bir məqalə verdilər. "Nezavisimaya qazeta"da bir erməni şayiələrlə dolu məqalə yazıbdır. Onu Sizə verərlər, oxuyarsınız, baxarsınız. Təbiidir, bu müəllif nəyə xidmət edir- İran ilə Azərbaycanın arasını vurmağa xidmət edir. Doğrudur, o da istinad edir ki, güya, Azərbaycanın "Zerkalo" qəzeti hansısa sorğu keçiribdir. Amma hesab etmirəm ki, "Zerkalo" qəzetinin də yazdığı hamısı düzdür. Bu qəzet o qədər səhvlər buraxıb, o qədər yalanlar, olmayan şeylər yazır. Əgər, bunlar, - təkcə "Zerkalo" qəzeti deyil, başqaları da, -öz dövləti, xalqı, ölkəsi haqqında yalanlar, böhtanlar yazırsa, onlar bizim əlaqələrimizi pozmaq üçün belə əməllərə də əl atırlar. Amma bilmirəm, həqiqətənmi bu, "Zerkalo" qəzetindədir, yaxud da erməni müəllif bunu özü uydurub və əsas kimi qələmə verir.

Yəni, bilirsiniz, bizim ölkələrimizin arasındakı əlaqələrin normal yolla və dostluq, mehribanlıq əlaqələri kimi inkişaf etməsinə qısqanclıq edənlər çoxdur. Bu bizim ölkənin içərisində də var. Siz bunları beş ildə görmüsünüz. Başqa ölkələrdə də vardır. Bir çox qüvvələr istəmirlər ki, bizim ölkələrimizin əlaqələri daha da yaxın olsun, əməkdaşlığımız daha da geniş olsun, bir-birimizə çox dayaq olaq. Belə qüvvələr çoxdur.

Mən Sizə deyə bilərəm ki, bəlkə də bunu elə Azərbaycana da, İrana da, düşmən qüvvələr edir. Xüsusən, İran-Azərbaycan əlaqələrini pozmağa çalışırlar. Bu barədə çox səylər göstərirlər. Həmin Moskva qəzetlərində çıxan o məqalələrin müəllifləri əksər hallarda ermənilərdir. Onlar təbiidir ki, bu məqsədə xidmət edirlər. Ancaq mən bu gün bəyan edirəm ki, onlar heç bir şeyə nail ola bilməzlər, heç bir şey edə bilməzlər. **Bizim İranla münasibətlərimiz dostluq münasibətidir, qardaşlıq münasibətidir, mehribanlıq münasibətidir.**

Əgər, Sizin burada işlədiyiniz beş il müddətində bəzi məsələlər barəsində hər iki tərəfin istəyini, arzusunu yerinə yetirə bilməmişiksə, bu, ondan irəli gəlmir ki, nə Siz, nə də biz bunu yerinə yetirmək istəməmişik. Bu, ondan irəli gəlir ki, buna müəyyən obyektiv səbəblər mane olubdur. İnanıram ki, biz bu səbəbləri getdikcə aradan qaldıracağıq, bizim münasibətlərimiz inkişaf edəcək və mən İrana rəsmi səfərimi mütləq həyata keçirəcəyəm. Bilirsiniz, obyektiv səbəblərə görə, bu, bir az təxirə salındı. Güman edirəm ki, noyabr ayında Qatarda İslam Konfransı Təşkilatının Zirvə görüşü olacaqdır. Yəqin ki, İran Prezidenti, hörmətli Xatəmi də orada olacaqdır. Biz orada da görüşüb, söhbət edə biləcəyik və əlaqələrimizin inkişaf etdirilməsi üçün biz çox yeni-yeni addımlar atacağıq.

Əlirza Beqdeli: Cənab Prezident, təşəkkür edirəm. Mən Sizin dəyərli sözlərinizlə tamamilə razıyam. Çox şadam, artıq bizim xalqlarımız Sizin dilinizdən eşidir ki, əlaqələrimizi pozanlar, istəməyənlər çoxdur. Hesab edirəm, xalqlarımız bu dəyərli sözlərə söykənərək, gərək hər bir münasibətə, əlaqələrimizin əleyhinə çalışanlara fikir verməsinlər ki, onlar kimlərdir və bunun arxasında nə məqsəd durur.

İranın xarici siyasətində münasibətləri tənzimləyən iki prinsip vardır. Birincisi, qonşu ölkələrlə yaxın əlaqələr saxlamaq, ikincisi, İslam ölkələri ilə yaxın əlaqələr saxlamaqdır. Azərbaycan Respublikası bizim üçün həm qonşu, həm də müsəlman ölkəsidir. Ona görə gərək biz Azərbaycanla münasibəti daha sıx saxlayaq. İran-Azərbaycan əlaqələri gərək MDB ölkələri çərçivəsində nümunə xarakteri daşısın. Bəlkə də, əlaqələrimizin düşmənlərinin, bunu istəməyənlərin səyi elə bu nöqtədən başlayır. Bilirlər ki, həm Sizin, həm də bizim tərəfdən bu məqsədə doğru hərəkət vardır və onlar bu hərəkətin qarşısında dururlar. Çünki bilirlər ki, əgər, Azərbaycan Respublikasının İran İslam Respublikası ilə əlaqələri genişlənsə, onların mənafeləri bu ölkələr arasında, heç olmasa, bir faiz bölünəcəkdir. Ona görə də istəyirlər ki, bütün payı özləri götürsünlər.

Biz bunu dəfələrlə demişik. Siz, cənab Heydər Əliyev də bunu dəfələrlə qeyd etmisiniz. Siz indi də buyurdunuz və bu, mənim üçün çox dəyərli analizdir. Mən həqiqətən bunu yüksək qiymətləndirirəm. İstərdim ki, beş iş ərzində iki ölkənin əlaqələrində müvəffəqiyyətlərə nail olmuş sahələri xatirinizə çatdırım. Əlbəttə, Siz hər şeydən xəbərdarsınız. Bu əlaqələrin memarı kimi Siz özünüz işləmisiniz. Həmişə demişəm ki, İran ilə Azərbaycan Respublikasının bir hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında olan münasibəti elə edə bilək ki, bundan nümunə götürsünlər. Bu, Sizin əldə etdiyiniz nailiyyətlərdir.

Beş il ərzində mənə tapşırılan vəzifəni müvəffəqiyyətlə həyata keçirmişik. Birincisi, xalqlarımızın əlaqələrini asanlaşdırmaq idi. Allaha şükür olsun ki, bu əlaqələr ilbəil asanlaşıb və bizim xalqlarımız çox gözəl təmasdadırlar, bir ölkədən digərinə rahat gedib-gəlirlər. Artıq onlar hər şeyi görürlər, başa düşürlər ki, gedən əks-təbliğat düzgün deyildir, vəziyyət başqa cürdür. İndi ildə bir milyondan çox camaatımız qarşılıqlı səfər edir. Eşidənlərin çoxu buna inanmır. Bunun üçün getmək və görmək lazımdır.

Mən keçən həftə Naxçıvan Muxtar Respublikası ilə vidalaşmaq üçün oraya getdim. Cənab Vasif Talıbov ilə görüşdüm. Sağ olsunlar, bizi çox səmimiyyətlə qəbul etdilər. Sonra Culfaya getdim. Orada həm o tayda, həm bu tayda olan gömrük işçiləri ilə görüşdüm. Mənə deyirlər ki, camaat o qədər gedib-gəlir ki, onlara cavab verməyə gücümüz çatmır. Xahiş edirlər ki, İran məmurlarının sayını artırmaq barədə təklifi mən İran Prezidenti cənab Xatəmiyə çatdırdım. Onların xahişi bundan ibarətdir. Orada hər şey şəffaf, normal şəkildədir. Dediyim budur ki, əgər, Culfada bu şəraiti yarada bilirksə, nə üçün Biləsuvarda, Astarada belə vəziyyət olmasın? İnşallah, bunları etməliyik. İndi gediş-gəliş çox asanlaşdı və bu, müsbət haldır. Mən sevinirəm ki, birinci vəzifə kimi bunu yerinə yetirmişəm.

Azərbaycanda İran səfirliyinin qarşısına iqtisadiyyat sahəsində mühüm vəzifə qoymuşdular. Bu illərdə ticarət bir az aşağıya düşsə də, kapital qoyuluşu artıbdır. Yəni, əlaqələrimiz bir az sıxlaşıb və dərinləşibdir. Keçən ilin statistikası göstərir ki, istər İrandan, istərsə də başqa ölkələrdən gələn iranlılar Azərbaycana 600 milyon dollar sərmayə qoymuşlar. Bu, neftdən kənar sahələrə yönəldilibdir. Neft sahəsində İranın OİEC şirkəti çalışır, o da sərmayə qoyur. Gələn sərmayələr dərman, maşınqayırma, mebel, yol, tikinti və digər sahələrə qoyulmuşdur. Sizin himayəniz altında bizim tacirlərimiz burada çalışırlar. Həqiqətən, Sizin qayğınız, İran tacirlərinə göstərilən səmimiyyət onları cəlb edir. Bizim yaxşı tacirlərimiz yavaş-yavaş Azərbaycana gəlirlər.

Biz mədəniyyət sahəsində üstünlüyü alimlərimiz arasında olan əlaqəyə vermişik və buna da nail olmuşuq. Hər il Azərbaycandan İrana və İrandan Azərbaycana dəstə-dəstə alimlər gəlirlər, gedirlər. Azərbaycanda böyük elmi potensial vardır. Bu, yalnız Azərbaycanın deyil, bütün İslam dünyasının, Şərq ölkələrinin sərvətidir. Gərək biz bundan istifadə edək. Çalışmışıq ki, sizin ölkənizdə olan bu gözəl sərvətdən istifadə edək və sizin alimləriniz buna zəmanət verə bilərlər.

Bizim üzərimizə düşən, bizə tapşırılan vəzifələrdən biri də İran ilə Naxçıvan arasında Sizin tərəfinizdən təməli qoyulmuş əlaqələri davam və inkişaf etdirmək idi. Allah-təalaya şükür edirik ki, bu sahədə də gözəl işlər görmüşük. Keçən həftə cənab Vasif Talıbov dedi ki, İran ilə nə imzalamışıqsa, hamısını həyata keçirmişik.

Artıq yeni sahələr axtarırıq. İndi Şərqi Azərbaycan ostanları Culfa-Naxçıvan arasında yeni yol çəkir. Orada yol bərbad vəziyyətdə idi. Sağ olsunlar, əməkdaşlıq edirlər, yolu çəkirlər və başqa sahələrdə də yaxşı işlər görürlər. Biz gərək bütün sahələrdə əlaqələrimizi bu səviyyəyə çatdıraq.

Konsulluq sahəsində də işlər görülmüşdür. Keçən illər ərzində çox mühüm əhəmiyyət daşıyan üç əsas müqavilə imzalanmışdır. Məhkumların təhvil verilməsi, hüquqi yardım haqqında və cinayətkarların mübadiləsinə dair imzalanmış müqavilələr qanun kimi həyata keçirilir və İran ilə Azərbaycanın konsulluq əlaqələrini tənzimləyir.

Cənab Prezident, Siz qeyd etdiniz, baxmayaraq ki, səkkiz ildə çox işlər görülüb, ancaq hələ görüləsi işlər də çoxdur. Bu illərdə bir neçə arzum var idi. Onların hamısına nail olmamışam. Birincisi, bu idi ki, səfir kimi Sizinlə İrana rəsmi səfərə gedim. Bu, mənə nəsib olmadı.

Heydər Əliyev: İrana getmişik.

Əlirza Beqdeli: Getmişik, ancaq rəsmi səfər olmayıbdır.

Heydər Əliyev: İndi mən oraya gələndə Siz məni idarə rəisi kimi qarşılayacaqsınız.

Əlirza Beqdeli: Bəli, inşallah. Bizim hörmətli yeni səfirimiz ağayi Əhəd Qəzayini Siz yaxşı tanıyırsınız. İranda nüfuzlu bir şəxsiyyətdir və onu Azərbaycanşünas kimi tanıyırlar. Bu, inşallah ona qismət olacaqdır. Biz onunla danışanda dedi ki, Allah-təala Sizinlə İrana getməyi onun adına yazıbdır.

Bundan başqa, ölkələrimiz arasında viza məsələsinin aradan götürülməsi mənim arzum olubdur. Camaat da bunu çox tələb edir. Bunun razılığını ağayi Prezident Xatəmidən və cənab Xərrazidən almışam. Arzu edirik ki, yaxın gələcəkdə Sizin tərəfinizdən buna müsbət cavab verilsin. Gərək elə olsun ki, insanlar sərhəddən sərbəst, rahat gedib-gəlsinlər. Bu, İran və Azərbaycan xalqlarının istəyidir.

Nəhayət, həqiqətən Azərbaycan xalqına hörmətimi və minnətdarlığımı bildirməliyəm. Mən ilk dəfə 1986-cı ildə Moskvadan Azərbaycana gəlmişəm. O zaman Azərbaycana gələrkən gördüklərimə inanmırdım. Çünki İranda deyirdilər ki, hamı kommunistdir, yəni, Allahı tanımırlar, məzhəbləri, dinləri yoxdur. Bunu da heç kəs təkzib etmirdi. Hətta Şura hökuməti bunu dəstəkləyirdi.

Mən Moskvada olan zaman orada bazarda olanlara deyirdim ki, əgər, siz müsəlmansınızsa, məhərrəmlikdə haraya gedirsiniz? Deyirdilər ki, Bakıya gedirik. Soruşurdum ki, orada mərasim keçirilir? Deyirdilər, bəli. Soruşurdum ki, bəs, kommunistlər mane olmurlar? Deyirdilər ki, mane olurlar, ancaq buna baxmayaraq, biz keçiririk.

Sonra mən 1986-cı ildə Bakıya gəldim. İnanın ki, o səfər zamanı Azərbaycanda gördüklərim barədə öz hökumətimə göndərdiyim raport mənim Azərbaycana səfir təyin olunmağıma kömək etmişdi. Azərbaycan xalqı həmin vaxtdan mənə məhəbbət göstəribdir.

Mən o zaman bir dəfə qatarla İrana səfərə çıxdım. Bilirsiniz ki, qatar Naxçıvandan Culfa vasitəsilə İrana gedirdi. Mən Culfaya çatanda saat altı idi. Dedilər ki, İran tərəfi körpünü bağayıbdır və Culfada qalmalı oldum. Yanımda xanımım və iki qızım da var idi. Bir sürücü xahiş etdi ki, gedək bizdə qalaq. Mən isə onu tanımırdım. Çox yalvarandan sonra biz onun evinə getdik. Bizi çox hörmətlə qarşıladılar. O, gecə hamını dəvət etdi, bizə qoyun kəsdilər. Həmin vaxt Moskvada İran səfirinin müavini idim. Amma o, məni tanımırdı. Demək istəyirəm ki, mən bunu heç vaxt unutmaram. Arzum idi ki, səfir işlədiyim vaxt o adamı tanıyım. Ancaq onu tanıya bilmədim. Yəni, o, tanımaya-tanımaya mənə hörmət edibdir. Bu xalq həmişə belə olubdur. Beş il ərzində burada bizə güldən ağır bir söz deməyiblər.

Məsələn, biz qardaşlarımız, bacılarımız demişik, onlar da bizə cavab olaraq, can, qardaş deyiblər. Xanımlarımıza bacı deyiblər. Artıq elə bir səmimiyyət var ki, bu, heç vaxt qəlbimizdən, başımızdan çıxmaz. Xalqlar, mədəniyyətlər asimandır, siyasət buluddur. Siyasət gəlib gedir. Amma xalq öz yerində qalır. Gərək biz xalqları nəzərə alaq.

Mən təşəkkür edirəm ki, bu xalqın nümayəndəsi kimi, Sizin İrana məhəbbətiniz səmimi olubdur. **Heç vaxt heç kəs deyə bilməz ki, cənab Prezident Heydər Əliyev İran-Azərbaycan əlaqələrinə aid mənfi bir söz deyibdir. Buna əsas yoxdur.** İnşallah, bundan sonra da həm Prezident Xatəminin, həm də Sizin rəhbərliyiniz nəticəsində əlaqələrin daha da möhkəmləndirilməsinə nail olacağıq. Artıq bu sahədə zaman da öz rolunu oynayır və camaatımız başa düşür ki, biz bir-birimizə söykənməliyik, bir-birimizdən enerji və güc almalıyıq. Əgər, İran Azərbaycanla, Azərbaycan İranla bir yerdə olsa, deyə bilərəm ki, heç kəs nə Sizə, nə də bizə təcavüz edə bilməz. Təşəkkür edirəm.

Heydər Əliyev: Sağ olun. Mən də Sizə həm bizim ölkələrimizin, xalqlarımızın arasındakı əlaqələrə dair, həm də Sizin burada səfirlik fəaliyyətinizin həyata keçirilməsi ilə əlaqədar dediyiniz xoş sözlərə görə təşəkkür edirəm. Mən əvvəl də dedim, bunlar hamısı təbiidir. Belə də olmalıdır və bundan sonra da belə olacaqdır.

Hesab edirəm ki, Siz beş il müddətində İran-Azərbaycan əlaqələrinin genişlənməsində, inkişaf etməsində çox işlər görmüsünüz. Bunu Sizin ölkəniz də yüksək qiymətləndirir, biz də yüksək qiymətləndiririk. Görülən işlərə görə, xidmətlərinizə görə Sizə təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Siz bundan sonra da İran-Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün öz səylərinizi göstərəcəksiniz. Yenə də deyirəm, bəlkə də bu sahədə Siz İranda Azərbaycanın nümayəndəsi olacaqsınız. Çünki Sizin qədər orada, Tehranda Azərbaycanın bügünkü reallığını öz gözü ilə görən, özü hiss edən adam yoxdur. Kitablardan, televiziyadan, radiodan və s. çox şey bilmək olar. Amma görəndə, özün bu dövrü yaşayanda təəssüratların tamamilə başqa cür olur. Deyə bilərəm ki, əksər hallarda, doğru, düzgün, obyektiv olur. Bu baxımdan hesab edirəm ki, biz bundan sonra da əməkdaşlıq edəcəyik. İndiyə qədər

gördüyünüz işlərə görə bir daha təşəkkür edirəm.

Əlirza Beqdeli: Cənab Prezident, mən bu barədə Sizə söz verirəm.

"Respublika" qəzeti,
25 oktyabr 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 22-də Prezident Sarayında İran İslam Respublikası xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini və İranın Xəzər dənizi məsələlər üzrə xüsusi nümayəndəsi Əli Əhaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqlara müraciətlə demişdir:

- Azərbaycana xoş gəlmisiniz. Bizim təmaslarımız tez-tez olmalıdır ki, işlərimiz irəli getsin.

Ağayi Qəzayi İranın Azərbaycandakı səfiridir. Təəssüf edirəm ki, onunla hələlik görüşüb danışa bilməmişəm. Ağayi Beqdeli də burada uzun müddət ölkəmizin səfiri olubdur, çox məmnunam ki, yenidən Azərbaycana gəlibdir. Siz isə, yəqin ki, ilk dəfədir Azərbaycana gəlirsiniz. Çox şadam, mən Sizi dinləyirəm.

Səmimi qəbul üçün Prezident Heydər Əliyevə təşəkkürünü bildirən cənab Əli Əhani dedi:

- Hər şeydən öncə, bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Çox şadam ki, regional məsləhətləşmələrə, səfərimə Sizin ölkənizdən başladım. Dünən axşam Naxçıvana gəldim, ora Sizin anadan olduğunuz bir yerdir. Naxçıvanda keçirdiyim görüşlər, o cümlədən, Ali Məclisin sədri ilə görüşüm məndə çox gözəl təəssürat oyatdı. Elektrik enerjisinə görə olan borcların yığılıb qalması səbəbindən naxçıvanlı dostlarımızı qaranlıq içində görməkdən çox təsirləndim. Mən Vasif Talıbova bildirdim ki, bu vəziyyətə görə çox təsirlənirəm və borcların qaytarılması yolunun tapılması, elektrik enerjisinin verilməsini bərpa etməkdə köməklik göstərməyə hazıram. Ümidvaram ki, cənabınızın şəxsən işə qarışması və göstərişi sayəsində tezliklə məsələnin həlli yolunu tapacağıq.

Bu gün Azərbaycan rəsmiləri ilə görüşlərimizdə çox faydalı və konstruktiv məsələlərə toxunduq. Əməkdaşlığın müxtəlif sahələrini araşdırdıq. Sevindirici haldır ki, hər iki tərəf qarşılıqlı maraqların təmin olunmasını, əlaqələrin genişlənməsini arzu etdiyini vurğuladı.

Regional təhlükəsizlik və digər məsələlər barədə də çox faydalı danışıqlar apardıq və hər iki tərəfin mövqeyi diqqətə layiq idi.

Mənim səfərimin əsas məqsədlərindən biri azərbaycanlı həmkarlarımla Xəzər dənizinin statusu barədə məsələləri müzakirə etməkdir. Sevindirici haldır ki, bu sahədə bizim və azərbaycanlı dostlarımızın mövqeyi bir-birinə çox yaxındır. Hər iki tərəf xüsusi vurğulayır ki, biz ümumi məqbul sayılan formula tapmalıyıq. Elə formula tapmalıyıq ki, o Xəzəryanı ölkələr tərəfindən qəbul olunsun. Mən sabah öz həmkarlarımla məsləhətləşmələrimi davam etdirəcəyəm.

Bundan sonra digər Xəzəryanı ölkələrə səfər edərək məsləhətləşmələri davam etdirəcəyəm. Qarşıdakı səfərimin bir məqsədi də Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin görüşünü təşkil etməkdir. Ümidvaram ki, beş ölkənin razılığı ilə münasib bir forma əldə edə biləcəyik.

Cənab Prezident, təbiidir ki, Sizin təcrübəniz və biliyiniz bizə bu sahədə çox kömək edəcəkdir. Diqqətinizə görə Sizə təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Sağ olun. Təşəkkür edirəm, Sizin toxunduğunuz məsələlər bizi də maraqlandıran məsələlərdir. Bu, bizim ölkələrimiz arasında olan, həm İran, həm də Azərbaycan üçün vacib məsələlərdir. Ona görə də mən Sizin bu səfərinizi çox vacib bilirəm. Burada apardığınız danışıqları və görüşləri də çox faydalı hesab edirəm. Həm Baş nazir, həm də Xarici İşlər Naziri Sizinlə görüşləri haqqında mənə məlumat veriblər. Müzakirə olunan məsələlər haqqında da mənə məlumat verilibdir. Biz çalışmalıyıq ki, bu məsələlərin həllinin yollarını tapaq.

Naxçıvandakı elektrik probleminə də toxundunuz. Dediniz ki, ora elektrik enerjisindən məhrumdur, şəhər qaranlıq içindədir. Mən məmnunam ki, bu Sizi narahat edir. Amma bizi çox narahat edir.

1992-ci ildə Naxçıvanda işləyən zaman, o vaxt İranın ali rəhbərliyi ilə Tehranda mənim görüşlərimdən sonra, sizin ölkənizdən Naxçıvana elektrik ötürücü xəttinin çəkilməsi barədə İran hökuməti qərar qəbul etdi. Qısa bir zamanda elektrik xətti çəkildi. Bunu biz dostluq bayramı kimi qeyd etdik. O vaxt borclar haqqında söhbət getmirdi. O vaxt, sadəcə olaraq, İran Naxçıvana dost əlini uzadıb, onu qaranlıqdan çıxarmaq istəyirdi. Ona görə də mən minnətdaram. Ancaq vaxtilə qaranlıqdan çıxartdığınız Naxçıvanı indiki qaranlığa salmısınız, bu, məndə təəssüf doğurur.

Azərbaycanda belə bir söz var: borclu-borclunun sağlığını istər. Biz elə qonşu deyilik ki, sabah buradan çıxıb gedək, ondan sonra deyəsiniz ki, qonşu çıxıb getdi, haradadır, tapa bilmirik ki, pulumuzu alaq. Biz ömürlük qonşuyuq. Adətən, bizdə belə olubdur. Mənim gənc vaxtlarımda Naxçıvandakı həyatımı götürün. Bizim evdə bir şey çatmayanda, qonşumuz gətirib verirdi. Bir müddətdən sonra onlarda bir şey olmayanda, biz onu aparıb verirdik. Düzdür, kasıb yaşayırdıq, ancaq çox mehriban yaşayırdıq, çox dost idik. Əsas dostluqdur, mehribanlıqdır, pul əsas deyil. Ona görə də mən bu məsələni dərinləşdirmək istəmirəm. Siz nahaq yerə düşünürsüz ki, bizim imkanımız var və biz o borcu vermirik. Borcumuzu mütləq verəcəyik. Amma bunun üçün gərək müəyyən imkan olsun. Naxçıvanı vaxtilə işıqlandırıb, sonra onu işıqsız qoymaq qonşuluq münasibətlərinə uyğun deyildir.

Bilirsinizmi, insan çətinliklərə dözür. Mən Naxçıvana gələndə elektrik enerjisi heç yox idi. Azərbaycan televiziyasının çəkdiyi lentlər var. Mənim neft lampasının işığında oturub necə işlədiyimi onlar gəlib çəkiblər. İşıq və istilik olmadığına görə, nazik dəmirdən hazırlanmış odun sobaları ilə keçinmişik. Bilmirəm, İranda belə sobalar varmı? O vaxt mən Naxçıvanın başçısı idim. Bundan artıq bir şey mümkün deyildi. Hamı dözürdü. Biz çox dözümlüyük.

Ona görə də, danışarıq, əgər, razılığa gələriksə, elektrik enerjisi verərsinizsə verin, verməzsinizsə, Naxçıvanda heç kəs ölməyəcəkdir. Amma bu, bizim islam mənəviyyatımıza ziddir. Mən bu barədə danışmaq istəmirəm. Çünki Baş nazir Sizinlə danışıbdır.

Xəzərin statusu haqqında biz həmişə Sizinlə danışıqlar aparmışıq və aparmağa da hazırıq. Vaxtilə Tehranda da bir neçə dəfə xarici işlər nazirlərinin müavinləri görüşmüşlər. Belə bir görüş bir dəfə də təyin olunmuşdur, amma sonradan o, nədənsə,

baş tutmadı. Biz buna hazırıq. Siz xarici işlər nazirinin müavini Xələfovla danışmısınız, bunu mən bilirəm. Bizim Xarici İşlər Naziri ilə, Baş nazirlə danışmısınız. Danışıqları davam etdirin. Hesab edirəm ki, bunun həlli yolunu tapacağıq. İndi insanlar kosmosa uçur, kainatı fəth edir. Bu nə olan şeydir ki, onun həlli yolunu tapa bilməyək?

Biz istəmirik ki, İran zərər çəksin. Amma, eyni zamanda, özümüz də zərər çəkmək istəmirik. Azərbaycanda belə bir söz var: nə şiş yanmalıdır, nə kabab. Sizdə bu ifadə işlənirmi?

Əli Əhani: Bəli.

Heydər Əliyev: Bax, bu prinsiplə biz işimizi davam etdirməliyik.

Təhlükəsizlik haqqında dediyiniz fikir də çox maraqlı məsələdir. Təbiidir ki, bu, digər məsələlərdən mürəkkəbdir. Ancaq biz bu barədə də danışıqlara hazırıq. Güman edirəm ki, danışıqlar nəticəsində burada da biz nailiyyət əldə edə bilərik. Ona görə də, bir daha deyirəm ki, Azərbaycana Sizin səfəriniz çox əhəmiyyətlidir. Deyirsiniz ki, başqa Xəzəryanı ölkələrə də gedəcəksiniz. Gedin, hər yerin ab-havasını görün. Rusiyada nə hava var, soyuqdur, istidir. Qazaxıstanda, Türkmənistanda necədir... Bundan sonra da nə vaxt desəniz, biz Tehrana gələ bilərik.

Əli Əhani: Cənab Prezident, verdiyiniz məlumatınıza görə çox sağ olun. Sizə təşəkkür edirəm. Biz bu fikirdəyik ki, məsləhətləşmələr problemlərin həlli yollarının tapılmasına mütləq kömək edəcəkdir. İran və Azərbaycan bölgənin iki mühüm ölkəsidir. Onların sülh və anlaşmadan başqa yolları yoxdur. Əməkdaşlıq üçün çox böyük potensiallar vardır. Biz bunları həyata keçirmək üçün çox çalışmalıyıq. Təbiidir ki, ölkələrimizdə olan iradə bu yolları sürətlə keçməkdə bizə kömək edəcəkdir. Xəzər bölgəsi həmişə sülh və dostluq regionu olmuşdur və bundan sonra da belə olmasına çalışmalıyıq. Bölgənin ehtiyatlarından istifadə bütün Xəzəryanı ölkələrin razılığını tələb edir. Bütün ölkələrin birgə maraqlarını təmin etməklə bu ehtiyatlardan düzgün qaydada istifadə etməliyik.

Naxçıvan barəsində mən dedim ki, biz kömək göstərməyə hazırıq və oradakı bacı-qardaşlarımızın, Naxçıvan əhalisinin çətinlik çəkməsini, qaranlıqda olmasını istəmirik. Cənab Prezident, ümidvarıq ki, Siz də kömək göstərəcəksiniz, tezliklə problem həll olunacaqdır. İranın Naxçıvana enerji verən şirkəti kəskin maliyyə problemləri ilə üzləşmişdir. Əslində, həmin şirkət iki il dözmüşdür və bu qədər borc yığılmışdır.

Biz də sizin problemlərinizi başa düşürük və borcların mərhələlərlə, müəyyən vaxt ərzində ödəniləcəyinə, həmin şirkətə qaytarılacağına əmin olmaq istəyirik. Biz hər iki xalqın əlaqələrinin genişləndirilməsində, onların qarşılıqlı gediş-gəlişinin daha da sadələşdirilməsində maraqlıyıq. Çünki hər iki xalq tarixi, mədəni, dini tellərlə bir-birinə bağlanmışdır. Azərbaycan xalqının problemlərini biz öz problemlərimiz hesab edirik. Xalqınızın səadət və xoşbəxtlik içərisində yaşamasını, ona başucalığı arzulayırıq.

Möhtərəm Prezident, ümidvaram ki, hər iki dövlətin iradəsi ilə Sizin və cənab Xatəminin səyləri ilə əlaqələrimizin inkişafı üçün gözəl imkanlar yaranacaqdır.

Cənab Prezident, bizi qəbul etdiyinizə və diqqətlə dinlədiyinizə görə, Sizə bir daha təşəkkür edirəm.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Borclarla bağlı Siz Baş nazirlə görüşmüsünüz. Bir neçə variant vardır. Hər halda, bunlara baxmaq lazımdır.

Bildirmək istəyirəm ki, - bunu Siz Naxçıvanda hiss etdiniz, - Naxçıvanın əhalisi sizdən, yəni, İran hökumətindən çox razıdır. Ona görə ki, orada Naxçıvan əhalisinin İrana gediş-gəlişi, İran vətəndaşlarının Azərbaycana gəlməsi çox sadələşdirilibdir. Bir neçə belə tədbirlər vardır ki, bizdə böyük minnətdarlıq hissi doğurmuşdur. Naxçıvana yaxşı münasibət, qayğı göstərdiyiniz halda, birdən-birə oranın işığının kəsilməsinə Naxçıvan əhalisi heç cür inana bilmir. Fikirləşirlər ki, yəqin bu, kimlərinsə təxribatıdır. İran hökuməti belə şey etməz. Ona görə də, arzu edərdim ki, Naxçıvana olan münasibətiniz davam etsin və heç vaxt çətinlik yaranmasın.

Başqa məsələlər haqqında mən sizə danışdım. Mən bu görüşümüzdən məmnunam. Mənim salamlarımı, hörmət və ehtiramımı ağayi Xərraziyə çatdırın, xüsusən mənim dostum, ölkənizin Prezidenti ağayi Xatəmiyə mənim salamlarımı, hörmət və ehtiramımı çatdırın. Sağ olun.

"Respublika" qəzeti,
23 noyabr 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 6-da Prezident İqamətgahında İran İslam Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri təyin olunmuş Əhəd Qəzayinin etimadnaməsini qəbul etmişdir.

Səfir Əhəd Qəzayi öz etimadnaməsini təqdim edərək demişdir:

- Cənab Prezident, ilk növbədə, İran Prezidenti Xatəminin səmimi salamlarını, ölkənizdə baş vermiş zəlzələ ilə əlaqədar başsağlığını və təbii fəlakətin törətdiyi tələfat və xəsarətin aradan qaldırılmasına hər cür kömək göstərməyə hazır olduğunu Sizə çatdırıram.

Mən Prezident Xatəmi tərəfindən buraya səfir təyin olunmuşam. İran İslam Respublikası ilə Azərbaycan arasında qardaşlıq, dostluq və qonşuluq əlaqələrinin günbəgün genişlənməsinə əlimdən gələn qədər çalışacağam.

Azərbaycan Prezidenti Heydər Əliyev səfirə müraciətlə demişdir:

- Hörmətli cənab səfir, Mən Sizi İran İslam Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri təyin olunmağınız münasibətilə təbrik edirəm və Sizə bu işinizdə uğurlar arzulayıram.

Siz Azərbaycanı yaxşı tanıyırsınız, vaxtilə burada diplomatik işdə olmusunuz. Bir neçə il İranın Azərbaycanda Baş konsulu vəzifəsini yerinə yetirmisiniz. Ona görə də, mən ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkəmizi yaxşı tanıdığınıza və sonrakı illərdə də bir neçə dəfə bizim ölkəmizdə olduğunuza görə, burada fəaliyyətiniz uğurlu olacaqdır. Siz İran İslam Respublikası ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf etməsinə xidmət edəcəksiniz.

İran İslam Respublikası Azərbaycanın qonşusudur, dost və qardaş ölkədir. Bizim əlaqələrimizin böyük, qədim tarixi vardır. **Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkələrimiz arasında həm diplomatik əlaqələr yaranıbdır, həm də bütün sahələrdə əlaqələr bərqərar olunub və inkişaf edir. Biz Azərbaycanda buna çox böyük əhəmiyyət verir, öz tərəfimizdən lazım olan tədbirləri görürük və görəcəyik ki, İran İslam Respublikası ilə Azərbaycan arasında bütün sahələrdə**

əməkdaşlıq daha da sürətlənsin, daha da inkişaf etsin.

İran İslam Respublikasının Prezidenti hörmətli ağayi Xatəminin mənə çatdırdığınız sözlərini və salamlarını məmnuniyyətlə qəbul edirəm. Bakıda və Azərbaycanın bir neçə yerlərində böyük zəlzələ baş verməsi ilə əlaqədar onun başsağlığı məktubunu almışam və Azərbaycana kömək etmək haqqında təşəbbüsü də məktubda şərh olunubdur. Mən bunlara görə təşəkkür edirəm.

Vaxitilə İranda da güclü zəlzələ olmuşdu. Azərbaycandan böyük bir dəstə,- həkimlər, başqa şəxslər orada zəlzələnin ağır nəticələrini aradan qaldırmaq üçün xeyli işlər görmüşdülər. Bakıda zəlzələ çox güclü, ağır oldu. Amma Allah bizi qoruyur. Ona görə də, böyük dağıntılar olmayıbdır. Eyni zamanda, bir çox binalar zədələnibdir. Orada insanların yaşaması mümkün deyildir. Təkcə yaşayış binaları yox, inzibati binalar da zədələnibdir. İndi bizim Fövqəladə Hallar üzrə Dövlət Komissiyası bərpa işləri aparır. Hələ ki, bunların öhdəsindən özümüz gəlirik. Ancaq, eyni zamanda, bizim dostluq, qardaşlıq əlaqələrimiz həmişə bir-birimizə kömək göstərməyə sövq edibdir, bundan sonra da edəcəkdir.

Sizin ölkə son illər çox yüksək inkişaf edir. Biz buna sevinirik və qardaş ölkə kimi bundan şad olduğumuzu bildirmək istəyirik. Bir daha qeyd edirəm ki, Sizin Azərbaycana təyin olunmağınız da, hesab edirəm, İran İslam Respublikasının hörmətli Prezidenti ağayi Xatəmi tərəfindən müdrik bir addımdır. Çünki Siz burada çox şeyi yaxşı bilirsiniz və bu da təbii ki, hər bir səfir üçün, o cümlədən İranın Azərbaycandakı səfirinin səmərəli işləməsi üçün yaxşı bir əsasdır.

Sizi bir daha təbrik edirəm və bütün işlərinizdə uğurlar arzulayıram. Əmin ola bilərsiniz ki, Sizin burada səmərəli fəaliyyət göstərməniz üçün Azərbaycanın bütün hakimiyyət orqanları, o cümlədən Azərbaycan Prezidenti həmişə lazımi köməyini edəcəkdir. Təbrik edirəm.

Azərbaycan Prezidenti Heydər Əliyev cənab Əhəd Qəzayi ilə xatirə şəkili çəkdirdi. Sonra dövlətimizin başçısı ilə səmimi söhbət oldu.

Prezident Prezident Heydər Əliyev İran diplomatına müraciətlə dedi:

- Siz artıq bir neçə müddətdir ki, buradasınız. Ancaq elə hadisələr baş verib ki, mən bir müddət Bakıda olmamışam. Gələndən sonra da bir neçə təcili işlər olubdur. Siz etimadnamənizi vermisiniz, yaxud verməmisiniz- fərqi yoxdur, onsuz da, burada işləyirsiniz və mənim Sizinlə bir neçə dəfə görüşlərim olubdur. Bu gün etimadnaməni verəndən sonra rəsmi status alırsınız. Güman edirəm ki, işləriniz də belə uğurlu gedəcəkdir.

Səfir Əhəd Qəzayi Azərbaycan Prezidentinə təşəkkür edərək dedi:

- Cənab Prezident, çox sağ olun. Sizinlə əvvəl görüşəndə buyurdunuz ki, öz işinizlə məşğul olun. Mən də həmin gündən işə başlamışam. Ancaq bu gündən etibarən rəsmi dövlət adamları ilə görüşlərə başlayacağam.

Mən buraya gəlməmişdən bir gün əvvəl Prezident Xatəmi ilə görüşdüm. O, Sizə çoxlu salam göndərdi və mənə dedi ki, **İran ilə Azərbaycan arasında heç bir müşkül işimiz olmamalıdır** və əminəm ki, Prezident Heydər Əliyevin də fikri budur. Siz oraya gedin, Prezident Əliyev bunu dəstəkləyəcəkdir. Siz də əlinizdən gələn qədər çalışın ki, İran ilə Azərbaycan arasında qonşuluq, qardaşlıq münasibətlərini daha da inkişaf etdirin. Mən də, inşallah, əlimdən gələni edəcəyəm. Çünki, mən əvvəllər də Bakıda çalışmışam. Sonra Parlamentdə Dostluq cəmiyyətinin sədri kimi buraya gəlib-getmişəm, əlaqəm olubdur. Həmişə çalışmışam ki, Azərbaycan ilə İran arasında əlaqələri, münasibətləri genişləndirmək, möhkəmləndirmək üçün əlimdən gələni edim. İndi səfir kimi mənim qarşıma vəzifə qoyulubdur ki, Sizinlə əlaqə saxlayam. Əminəm, Sizin dediyiniz kimi, bizə köməyiniz olacaqdır ki, ortada olan xırda məsələləri aradan qaldıraq və inşallah, münasibətlərimizi get-gedə genişləndirək.

Heydər Əliyev: Siz son vaxtlar buraya bir neçə dəfə gəlmisiniz və demək olar ki, biz hər dəfə görüşmüşük.

Amma mənə belə gəlir ki, Sizin üçün bir şey də çox əhəmiyyətlidir. İlk dəfə İranın Azərbaycanda nümayəndəsi, Baş konsulu olmusunuz. Xatirimdədir, onda mən burada Azərbaycanın başçısı idim və ilk dəfə İranın Azərbaycan konsulluğu açıldı. Biz onda müstəqil dövlət deyildik. Biz bunu əhəmiyyətli bir hadisə kimi qəbul etdik. Çünki İran ilə bizim böyük tarixi əlaqələrimiz, qonşuluğumuz olmuşdur, böyük sərhədimiz var idi. İranda və Azərbaycanda qohum-əqrəbalar bir-birindən uzun müddət ayrı düşmüşdülər.

Ona görə xatirimdədir, o vaxt bu məsələni Moskvada mənə deyəndə, çox böyük məmnunluq hissi ilə bunu qəbul etdim və burada İranın konsulluğu yarandı. O vaxt mən göstəriş verdim, Bakıda ən gözəl binalardan birini konsulluq binası kimi Sizə verdilər. Səfirliyiniz yenə də oradadır, yoxsa?

Əhəd Qəzayi: Bəli, oradadır.

Heydər Əliyev: O, çox gözəl binadır. Tarixi memarlıq abidəsi hesab olunur və xatirimədir ki, o vaxtlar orada uşaq bağçası yerləşirdi. Mən o uşaq bağçasını da başqa münasib binaya keçirdim.

Amma keçmişdə orada zəngin adamlar yaşamışdı. Azərbaycanın zəngin adamlarından birinin evi idi.

Ondan sonra isə bir müddət, təxminən 1953-cü ilə qədər ora Azərbaycan Xalq Komissarları Soveti,- indi Nazirlər Kabineti deyirik, -sədrinin iqamətgahı idi. O gedəndən sonra isə oranı uşaq bağçası etdilər. Bunlar hamısı mənim gözümün qarşısında olan şeylərdir. Sonra isə binanı sizə verdik. Amma təəssüf edirəm ki, Siz indiyə qədər yeni bir bina yarada bilməmisiniz. Baxmayaraq ki, bu barədə bir neçə dəfə sərəncamlar vermişəm. Hər halda, bu, bu günün söhbəti deyildir. Siz bu işlə məşğul olun. Nə kömək lazımdır, mən edim və bu məsələlər həll olunsun.

Mənim salamımı, hörmət və ehtiramımı ağayi Xatəmiyə bir daha çatdırın. Bilirəm ki, bizim bir məsələmiz də vardır. O da mənim İrana səfərim və ağayi Xatəminin Azərbaycana səfəri məsələsidir. Güman edirəm ki, bu uzaqda deyildir. Bu məramımızı həm o tərəfdən, həm də bu tərəfdən yerinə yetirəcəyik.

Əhəd Qəzayi: İnşallah. Sizin gəlişinizi İranda səbirsizliklə gözləyirik. Prezident Xatəmi də mənə dedi ki, Sizin dövrünüzdə birinci iş bu olacaqdır. Yəni, inşallah, cənab Heydər Əliyev İrana təşrif gətirəcəkdir. Ondan sonra da ağayi Xatəmi Azərbaycana gələcəkdir. Bu, böyük bir iş olacaqdır.

Heydər Əliyev: Güman edirəm ki, bu, Sizin dövrünüzdə olacaqdır.

Əhəd Qəzayi: Mənim işimin başlanğıcı olacaqdır.

"Respublika" 1 dekabr, 2000-ci il.

İRAN İSLAM RESPUBLİKASININ BAKIDAKI SƏFİRLİYİNİN ÖLKƏNİN MİLLİ BAYRAMI - İRAN İSLAM İNQİLABININ 22-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ DÜZƏLTDİYİ RƏSMİ QƏBULDA AZƏRBAYCAN RESPUBLİKASNIN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

"Gülüstan" sarayı,
9 fevral 2000-ci il

- Hörmətli cənab səfir!

İrandan gəlmiş hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizi, bütün dost, qardaş İran xalqını, İran dövlətini bu böyük bayramı - İran İslam inqilabının 22-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm və İran xalqına sülh, əmin-amanlıq, firavanlıq arzulayıram.

İran ilə Azərbaycan arasındakı əlaqələr xüsusi xarakter daşıyır. Bunun tarixi də çox qədimdir. O qədər qədim zamanlara gedib çatır ki, heç bizim alimlər də nə qədər çalışsalar, dəqiqləşdirə bilmirlər. Ancaq bir şey məlumdur ki, biz nəinki bir-birimizlə qonşuyuq, uzun əsrlər bir yerdə olmuşuq, bir yerdə yaşamışıq. Bizim tarixi köklərimiz, eyni dinə mənsub olmağımız, eyni mənəvi dəyərlərə mənsubiyyətimiz - bunların hamısı bizi həmişə birləşdirib, həmişə dostlaşdırıbdır.

İran böyük ölkədir, qüdrətli ölkədir. Ancaq İran İslam inqilabından sonra İranda çox ciddi və əhəmiyyətli dəyişikliklər baş vermiş, İran daha da inkişaf etmişdir. İndi İranda iqtisadiyyat, xalqın rifah halı, elm, mədəniyyət yüksək səviyyəyə qalxmışdır. Biz bunları dost kimi alqışlayırıq və İran xalqına bundan sonra da belə uğurlar arzulayırıq.

Mən çox məmnunam ki, bu gün İran İslam Respublikasının Ərdəbil vilayətinin - ostandarlığının böyük tərkibdə nümayəndə heyəti Azərbaycandadır. Bu nümayəndə heyətinə Ərdəbil ostandarı başçılıq edir. Mən Ərdəbildən gəlmiş qonaqları xüsusi salamlayıram, onlara Azərbaycanda xoş günlər arzulayıram. Bilirəm ki, indiyə qədər bir neçə işgüzar görüşlər keçiriblər və bundan sonra da keçiriləcəklər. Bunlar bizim əlaqələrimizin kiçik bir hissəsidir və ölkələrimiz arasındakı həm iqtisadi, həm mədəni, həm elmi, həm də insani əlaqələri daha da inkişaf etdirəcəkdir.

Ərdəbil bizim üçün çox əziz, müqəddəs bir yerdir. Siz buna mərkəzi Azərbaycan deyirsiniz, yoxsa...

Əhəd qəzayi: Elə adı Ərdəbildir.

Heydər Əliyev: Ərdəbil böyük ostanlıqdır, böyük bir vilayətdir. Bir də, bizim hamımız üçün böyük tarixi şəxsiyyət olan Şah İsmayıl Xətainin vətənidir və onun qəbri Ərdəbildədir. Biz İranın bütün vilayətləri ilə əlaqələr saxlayırıq və saxlamaq arzusundayıq. Xüsusən, təbiidir ki, İran ilə Azərbaycan arasında olan sərhədə yaxın vilayətlərlə. Məsələn, Şərqi Azərbaycan, Qərbi Azərbaycan, yəni Təbriz, Urmiyə, Zəncan, Gilan- bunlar coğrafi nöqteyi-nəzərdən bizə çox yaxındırlar. İndi yollar çox açıq olduğuna görə, ola bilər ki, insan səhər burada çay içsin, günorta getsin Gilanda kabab, axşam da Ərdəbildə plov yesin. İndi bunların hamısı mümkündür. Bu, bizim əldə etdiyimiz böyük nailiyyətdir. İran İslam inqilabının İran xalqı üçün verdiyi nemətlərdir, töhfələrdir və eyni zamanda, Azərbaycanın dövlət müstəqilliyinin çox bariz göstəriciləridir, nümunələridir.

Biz iftixar hissi keçiririk ki, 1991-ci ilin sonunda Azərbaycan müstəqil dövlət olubdur və Azərbaycan xalqı azad, müstəqil yaşayır. Azərbaycanda demokratik, hüquqi

dövlət quruculuğu prosesi gedir. Demokratiya inkişaf edir, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir, dünya iqtisadiyyatı ilə daha sıx əlaqələr yaratmaq və ondan bəhrələnmək məqsədi ilə çalışır. Bütün bu istiqamətlərdə də biz müsbət nəticələr əldə etmişik.

Bu yaxınlarda Azərbaycan üçün tarixi hadisə baş veribdir. Azərbaycan Avropa Şurasına daxil olubdur. Bu, Azərbaycanda demokratiyaya, insan haqlarının qorunmasına, Azərbaycanda siyasi, hüquqi, iqtisadi, sosial islahatların uğurla keçirilməsinə verilən böyük qiymətdir.

Hər dövlətin öz hüququ vardır. Azərbaycan bu yolla gedir və bu yolla da gedəcəkdir. Ancaq biz heç vaxt hesab etmirik ki, hansısa dövlət başqa dövlətə yol göstərməlidir. Yaxud da onun hansı yolla getməsinə öz məsləhətlərini verməlidir. Xalqın azadlığının və müstəqilliyinin ən əsas amillərindən biri odur ki, xalq və xalqın tərəfindən seçilmiş dövlət başçısı hansı yolla getməyi, hansı dövləti qurmağı özü müəyyən edir. Nəhayət, biz çox onilliklərdən, əsrlərdən sonra buna nail olmuşuq və öz yolumuzla da gedirik.

Biz, eyni zamanda, sülh tərəfdarıyıq. Bütün qonşu ölkələrlə xoş münasibət, mehribanlıq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında əlaqələr saxlayırıq və bundan sonra da saxlayacağıq. Biz heç bir dövlətin daxili işinə qarışmırıq və ümumiyyətlə, hansısa bir dövlətin digər dövlətin daxili işinə qarışmasını yolverilməz hesab edirik. Çünki, dediyim kimi, hər bir xalq, hər bir ölkə, hər bir millət öz aqibətini, gələcəyini, dövlət quruluşu formasını özü müəyyən edir. Ancaq, eyni zamanda, biz hər bir xalqın, hər bir millətin tutduğu yola və müəyyən etdiyi dövlət quruculuğu formasına böyük ehtiramla yanaşırıq. Bu, bizim həm daxili, həm də xarici siyasətimizdə əsas yer tutur.

Azərbaycan indi müstəqil dövlət kimi İran İslam Respublikası ilə dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini bu prinsiplər əsasında quracaqdır. İndi ölkələrimiz arasında insani əlaqələr çox genişlənibdir. Bu da həm keçmişlə, həm də bu günlə bağlıdır. Çünki keçmiş zamanlarda bizim ölkələrimiz arasında sərhəd yox idi. İnsanlar o tərəfə də, bu tərəfə də rahat gedib-gəlirdilər. Ona görə də, Azərbaycanda nə qədər insan var ki, onların yaxın qohumları, qohumlarının əcdadları İranda yaşayıblar, böyüyüblər. Eyni zamanda, belələri İranda da çoxdur ki, onların kökləri Azərbaycanda olubdur. Yəni, keçmişdə bizim bir yerdə olmağımız bunu müəyyən edibdir.

Bizim insanlar həmişə həsrətdə olublar ki, vaxt gəlsin, sərhədlər, yollar açılsın və bir-birinə, qohum-əqrəbasına qovuşsunlar. İndi bu mümkündür və son on il içərisində nə qədər belə əlaqələr olubdur. Azərbaycandan nə qədər insan gedib öz qohum-əqrəbalarını, əcdadlarını, onların qəbirlərini, müqəddəs yerlərini tapıblar. Eyni zamanda, İrandan Azərbaycana gəlib burada tapıblar. Bu, bizim tarixi keçmişimizdir. Ancaq bunu həmişə xatırlamaq lazımdır. Çünki, əgər, tarixi unutsaq, tarixi qiymətləndirməsək, onun mənfi cəhətlərini də qeyd etməsək, təbiidir ki, bu gün də, gələcəkdə də öz işlərimizi, münasibətlərimizi qura bilmərik.

Bizim xarici siyasətimizdə İran İslam Respublikası ilə əlaqələr xüsusi yer tutur. Ticarət əlaqələri, insani əlaqələr genişdir, elm, mədəniyyət, təhsil sahəsində də çox yaxşı nailiyyətlər vardır. Biz istəyirik ki, bu, daimi olsun, davam etsin, inkişaf etsin. Biz bir-birimizi tez-tez ziyarət edirik. Son 4-5 il içərisində mən iki dəfə Tehranda

olmuşam. İndi İran İslam Respublikasının Prezidenti hörmətli cənab Xatəminin dəvəti ilə İrana rəsmi səfərə getməliyəm. Sadəcə, onun vaxtını səfirlə müəyyənləşdirə bilmirik. Bunu müəyyənləşdirsək, mən bu ziyarəti yaxın vaxtlarda edəcəyəm.

Biz cənab Xatəmi ilə danışmışıq ki, mənim səfərimdən sonra o da Azərbaycana rəsmi səfər edəcəkdir. Bu, xüsusən ona görə lazımdır ki, İran İslam Respublikasının Prezidenti cənab Xatəmi Azərbaycanda olmayıbdır. Mən isə, İranda çox olmuşam. Bizim əlaqələrimizi inkişaf etdirmək üçün bunlar hamısı çox lazımdır. Belə görüşlər hər iki tərəfə fayda verir, bəzi məsələlərə aydınlıq gətirir, əlaqələri inkişaf etdirir. Ona görə mən məmnuniyyətlə bu dəvəti qəbul etmişəm və onu həyata keçirəcəyəm.

İran İslam Respublikasının son 22 ildəki nailiyyətləri göz qabağındadır. İran inkişaf edir, xalqın rifahı yaxşılaşır. İranda demokratiya qurulur. Sizdə prezident seçkiləri nə vaxt olacaqdır?

Əhəd Qəzayi: Cənab Prezident, 5-6 aydan sonra.

Heydər Əliyev: 5-6 aydan sonra. Mən o gün oxudum ki, artıq 5-6 namizəd vardır. Onların içində bir qadın da vardır. Elədir?

Əhəd Qəzayi: Bəli.

Heydər Əliyev: Görürsünüz, İranda nə qədər böyük dəyişikliklər vardır. İranda qadın prezidentliyə namizəd olsun - bunu on beş il bundan öncə heç təsəvvür etmək mümkün deyildi. Biz bunları görürük, izləyirik və müsbət qiymətləndiririk. **Həm İranın, həm də Azərbaycan dövlətinin məqsədi odur ki, bizim xalqların, millətlərimizin arzularını daha da irəliyə aparaq. Bu arzular da ondan ibarətdir ki, ölkələrimiz dost, qardaş ölkələr olublar, xalqlar olublar və belə də olmalıdırlar. Bundan sonra bu əlaqələr daha da möhkəmlənməli, genişlənməli və inkişaf etməlidir.**

Mən bu bayram günü İran xalqına ən xoş arzularımı göndərirəm. İran İslam Respublikasının nailiyyətlərinə görə İran xalqını təbrik edirəm. Ümidvaram ki, İran İslam Respublikası tutduğu yol ilə gedərək, bundan sonra daha da inkişaf edəcək, Dünya Birliyində öz mövqelərini müdafiə edəcək və inkişaf edəcəkdir. Sizi bir daha təbrik edirəm və hamınıza cansağlığı və xoşbəxtlik, dost, qardaş İran xalqına səadət, rifah və sülh arzulayıram.

(Dövlətimizin başçısı Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və gurultulu alqışlarla qarşılandı.)

"Respublika" qəzeti,
10 fevral, 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ ZAMANI JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVABDAN:

12-17 mart, 2001-ci il

Sual: Cənab Prezident, İranın Prezidenti Xatəmi Qarabağ münaqişəsinin həllində Tehranın vasitəçiliyini irəli sürübdür. Ermənistan buna tam razı olubdur. Bəs, Azərbaycan necə?

Heydər Əliyev: Bilirsiniz, əgər sizin xatirinizdədirsə, İran bir dəfə vasitəçilik edibdir. 1992-ci ildə Azərbaycan nümayəndə heyəti ilə Ermənistan nümayəndə heyəti Tehrana getmişdi ki, guya, orada İran vasitəçilik etsin. Onlar İehranda olduğu zaman Ermənistan silahlı qüvvələri Şuşanı

işğal ediblər. Siz bunu bilirsiniz, yoxsa yox? Bəlkə də bilmirsiniz. Gedin, onları oxuyun.

SƏFƏRDƏN GERİ QAYIDARKƏN JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVABDAN:

Sual: Cənab Prezident, İran Prezidenti Xatəmi Rusiyaya səfər etdi və orada iki ölkə arasında Xəzərin statusu məsələsi müzakirə olundu, müəyyən razılıq da əldə edildi. Bir çox müşahidəçilər yazırlar ki, bu razılaşmadakı məqamlar Rusiya ilə Azərbaycan arasındakı razılaşmaya nisbətən başqa-başqadır. Siz buna necə baxırsınız?

Heydər Əliyev: Onu mən oxumamışam, eşitmişəm. Ancaq burada narahatedici bir şey yoxdur. İran Prezidenti ilk dəfə, Rusiyaya səfər etdi. Zaman keçdikcə, görürəm ki, biz 1994-cü ildə nə qədər cəsarətli, uzaqgörən və dövlətimizin mənafeyinə xidmət edən addım atmışıq. Deyə bilərəm ki, özümüzü odun içinə atmışdıq. Onda heç kəs bunları qəbul etmirdi. Əksinə, bizə dalbadal bəyanatlar verirdilər ki, işi dayandırmaq lazımdır və sair. Amma biz iş gördük, sübut etdik ki, bundan başqa yol yoxdur. Bu baxımdan da Rusiya Prezidenti Vladimir Putin Azərbaycanda səfərdə olduğu zaman bizim ikimizin - Prezident Putinin və mənim imzaladığımız sənəd çox böyük əhəmiyyət kəsb edir.

Sual: Cənab Prezident, İran Prezidentinin Moskvaya səfəri zamanı belə bir fikir də səslənib ki, Xəzərin dibi ilə hər hansı bir kəmərin keçirilməsi mümkün deyildir. Ekspertlər də belə bir fikir söyləyirlər ki, bütün bunlar Qazaxıstanın Bakı-Ceyhan kəmərinə qoşulmasının qarşısını almaq üçündür. Belə bir qərar Bakı-Ceyhan kəmərinin rentabelliyinə təsir göstərə bilərmi?

Heydər Əliyev: Bilirsinizmi, mən bunu əvvəllər də demişəm, Türkiyədə də demişəm - Bakı-Ceyhan kəmərinin rentabelliyinə heç bir şey təsir göstərə bilməz. Nə üçün? Çünki biz 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalayanda bilirdik ki, Xəzərdəki sektorumuzun başqa yerlərində neft, qaz yataqları var. Amma heç bilmirdik ki, məsələn, ehtiyatlar əldə edəcəyik. Amma buna baxmayaraq, biz məhz "Azəri", "Çıraq", "Günəşli" yataqlarından hasil olunacaq neft üçün Bakı-Ceyhan neft kəmərini həmin o müqaviləyə salmışıq. Başa düşürsünüzmü? Ona görə də, həmin bizim bu üç yataq ki, var, ilk müqavilədə əksini tapıbdır, Bakı-Ceyhan kəməri üçün tamamilə yetərlidir. Oradan 50-60 milyon ton neft çıxarılacaq və bu, Bakı-Ceyhan kəmərini tam rentabelli edir.

İndi məsələn, "Şevron" şirkəti özü gəldi, müraciət etdi və kəmərin tikintisinə qoşuldu. Orada on faiz pay götürdü. Nə üçün? Çünki "Şevron" bizim "Abşeron" yatağından çox böyük hasilat gözləyir. Həm neft, həm də qaz hasilatı. Bunu biz də gözləyirik.

Məsələn, "Abşeron" yatağı... Mən hər dəfə deyirəm, bizim alimlər, geoloqlar indiyə qədər 50 ildə ki, Xəzəri tədqiq ediblər, onlara hamımız minnətdar olmalıyıq. Çünki çox böyük işlər görüblər. Amma bu işləri o vaxtlar həyata keçirmək mümkün olmayıbdır və buna o vaxt, Sovetlər vaxtında ehtiyac olmayıbdır. İndi, Azərbaycanın müstəqilliyi zamanı bu yataqlar ölkəmizin ən böyük sərvətidir. Məsələn, biz bilirdik ki, "Abşeron" yatağında həqiqətən çox neft ehtiyatı var. "Şahdəniz"i bilirdik. Bizim adamlar proqnoz vermişdilər ki, orada 400 milyard kubmetr qaz olacaqdır.

1996-cı ildə biz müqaviləni hazırladıq, o vaxt burada neft sərgisi keçirilirdi. Mən bunu bir dəfə demişəm, bəlkə bir dəfə də deməyə ehtiyac var. Bəziləriniz portretini qəzetlərdə sevə-sevə verirsiniz, yaxud da telefon bağlantısı edirsiniz ki, Rəsul müəllim, bu məsələ necədir, onun da şəklini vurursunuz ekrana, əgər, o, doğrudan da, neftçidirsə, nefti biləndirsə, - sonra getdi kitab yazdı, - və Azərbaycanın mənafeyini yüksək tutursa, nə üçün hər şey hazır olanda gəlib dedi ki, mən bu müqaviləni imzalanmasının əleyhinəyəm. Nə üçün? Sən mənə de. Sübut edə bilmədi. Yox, qardaş, burada geoloqlar, mühəndislər, alimlər var... Biz bunu bir neçə dəfə müzakirə etmişik, o özü də bu müzakirədə iştirak edibdir. Demək, bu nə idi? Təxribat idi. Sadəcə, Azərbaycanda bu işi ləngitmək idi.

Mən bir dəfə demişəm. Dövlət Neft Şirkətinin bütün rəhbərlərini topladım, bəziləri də onun keçmiş dostları idi. Hamısı durdular onun üzünə, dedilər ki, sən bir şey bilmirsən. Xoşbəxt Yusifzadə açıq-aydın dedi ki, sən bilmədiyin sözü niyə danışırsan. Burada 400 milyard kubmetr qaz var. Bizim "Bi-pi" Şirkəti ilə, başqaları ilə də gördüyümüz iş həmin 400 milyard kubmetr üçün idi. 400 milyard kubmetr bizim üçün böyük bir rəqəm idi. Amma indi qazılan quyulardan alınan nəticələr göstərir ki, həmin yataqda bir trilyon kubmetrdən artıq qaz ehtiyatı vardır. O da hələ son həddi deyildir. Başa düşürsünüzmü?

Ona görə də Bakı-Ceyhan kəməri barəsində heç bir narahatçılıq yoxdur. Doğrudur, siz bilirsiniz ki, axır zamanlar bunu bir balaca əngəlləmək istəyirdilər. Mən də bir neçə dəfə bu barədə bəyanatlar verdim. Sizin kimi müxbirlər orada məndən soruşurdular ki, nə üçün belə bəyanatlar verdiniz? Dedim ki, mən bəyanatlar verməsəydim, bu gün bu məsələləri həll etməyəcəkdik. Orada da hər şeyi həll etdik. Bakı-Ceyhanı da həll etdik, Azərbaycan qazının Türkiyəyə satılmasını da. Bunu da orada, Türkiyədə bürokratlar, təbiidir ki, aşağı səviyyədə əngəlləmişdilər, bir neçə ay ləngitmişdilər. Ancaq mən getməmişdən qabaq danışdım, adamları oraya göndərdik. İndi biz sənəd imzaladıq - oraya 6 milyard kubmetr ilkin qaz verəcəyik. Ondan sonra, - mən orada dedim, - 15 milyard, 20 milyard kubmetr də qaz verə bilərik. Bunlar böyük işlərdir. Bu, təkcə iqtisadi məsələ deyildir. Bu, təhlükəsizlik məsələsidir, strateji məsələdir. Ona görə də Qazaxıstan neftinin o boru xətti ilə gəlməsi yaxşı olar. Amma gəlməməsi barədə qoy, Qazaxıstan düşünsün. Yəni Xatəmi ilə Putin arasındakı anlaşma bizi narahat etmir. Qoy Qazaxıstan fikirləşsin, görsün nə edəcək.

Sual: Cənab Prezident, Xatəmi Moskvada olarkən Putinlə razılığa gəlibdir ki, Moskvaİrana silah ixracına başlayacaqdır.

Sizcə, bu, regionda hərbi balans üçün nə qədər təhlükəlidir?

Heydər Əliyev: Bilirsən, bu, nə səndən asılıdır, nə məndən. Bu, onların özlərinin işidir.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRƏ GEDƏRKƏN JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏDƏN:

25 aprel, 2001-ci il

Sual: Cənab Prezident, İran Prezidenti İslam Konfransı Təşkilatı çərçivəsində bütün müsəlman ölkələrini Fələstini müdafiə etməyə, İsrail əleyhinə müharibəyə çağırıbdır. Bununla bağlı nə deyərdiniz?

Heydər Əliyev: Çağırıb-çağırıbdır.

Sual: Cənab Prezident, İran bir tərəfdən müsəlman Fələstinini müdafiə edir, digər tərəfdən, Azərbaycanın işğal olunmuş torpaqlarında Ermənistanla əməkdaşlıq edir. Siz buna kəskin münasibətinizi də bildirmişdiniz. Bu məsələ nə yerdə qaldı?

Heydər Əliyev: Bildirmişəm də...

Sual: Yəni, onlar belə əməkdaşlığı yenə davam etdirəcəklərmi?

Heydər Əliyev: Bilirsinizmi, hər bir dövlət müstəqildir. Bir dövlət o biri dövlətə öz fikrini deyə bilər, narazılığını bildirə bilər. Ancaq o biri dövlət bunu nə dərəcədə həyata keçirirsə, bu, bizdən asılı deyildir.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏDƏN QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVABDAN:

Sual: Cənab Prezident, Azərbaycan - İran sərhədində baş verən hadisəyə Sizin münasibətiniz?

Heydər Əliyev: Bilirsinizmi, düzü, bununla əlaqədar mənim o qədər məlumatım yoxdur. Özü də bu, böyük bir insident deyildir.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ ZAMANI "Sİ-EN-EN TÜRK" TELEVİZİYASINA MÜSAHİBƏSİ

Sual: Ermənistanın nəfəs borularından biri də İrandır...

Heydər Əliyev: Bəli, Ermənistanın nəfəs borularından biri də İrandır. Keçmiş Prezident Ter-Petrosyan bir dəfə demişdi ki, əgər, İran ilə ticarət əlaqələrimiz iki gün kəsilsə, biz boğulacağıq. O, bunu demişdi. Tamamilə doğru deyirsən. Özü də ən böyük nəfəs borularından biri İrandır. Ancaq onlar bunu edirlər.

İndi gördünüz, İranın Prezidenti Moskvaya getdi. Bu, tarixdə birinci dəfə olan bir şeydir. Yəni, 22 il bundan öncə ki, Xomeyni hakimiyyətə gəldi, indiyə qədər ilk dəfədir ki, İranın Prezidenti Moskvaya getdi. Ondan öncə də şah bir dəfə getmişdi. Yəni, İran ilə Rusiya arasında əlaqələr həmişə gərgin olmuşdur.

Sual: Cənab Prezident, anlayıram ki, İranın siyasəti, yəni, həm Ermənistanı dəstəkləmək, həm də Rusiya ilə yaxın əlaqələr qurmaq siyasəti Sizi narahat edir. Elədirmi?

Heydər Əliyev: Təbiidir ki, bu, narahat edir.

Sual: Siz Ankaraya gəldiyiniz günlərdə İranın Prezidenti Moskvada idi. Oradakı görüşlərin birində də Xəzərin statusu məsələsi müzakirə olundu. Xəzərin dibi ilə bağlı məsələ çox önəmlidir. Rusiya, Türkmənistan, Azərbaycan, İran, Qazaxıstan bu məsələni necə həll edəcəksiniz? Ümumiyyətlə, bu, necə olacaqdır?

Heydər Əliyev: Biz artıq bunu işləyirik. 1997-ci ildən biz həmin o ilk müqavilədən sonra neft alırıq, ixrac edirik. Bakı-Supsa kəməri ilə Gürcüstanın Qara dənizdəki limanına ixrac edirik. Biz bu işdə öndəyik. Bu prinsip ki var - Xəzər dənizinin dibindən onun mineral ehtiyatlarını çıxarmaq üçün hər bir Xəzəryanı ölkənin öz sektoru olsun - bunu ilk öncə biz irəli sürmüşük. Biz ancaq öz sərhədlərimizin içində çalışırıq. Başqa yerə çıxmırıq. Sərhəd prinsipi də keçmiş zamanlardan müəyyən olunubdur. Ancaq bunu digərləri qəbul etmirdilər. Heç

Qazaxıstan da qəbul etmirdi. İran da qəbul etmirdi, Rusiya da qəbul etmirdi. Amma bizim 1994-cü ildən apardığımız işlər artıq bu məsələni o yerə çıxardı ki, Rusiya bunu qəbul etdi. Qazaxıstan da qəbul etdi. Qazaxıstanla Rusiya arasında bir anlaşma imzalandı.

Yanvarın 9-da Rusiyanın Prezidenti Putin Azərbaycana gəlmişdi. Orada da bir anlaşma imzaladıq ki, Xəzər dənizinin mineral ehtiyatlarının işlənilməsi üçün prinsiplər olsun.

Sizə dedim, biz öz sektorumuzla bağlı 20 müqavilə imzalamışıq. Artıq bu prinsipi Rusiya da tanıdı, bunu qəbul etdi və bizimlə anlaşma imzaladı. Qazaxıstan da imzaladı. Güman edirəm, Türkmənistan da bu yola gələcəkdir. Amma İran bununla razı deyildir. Çünki İran hesab edir ki, Xəzər dənizinin ətrafındakı beş ölkənin hər birinə iyirmi faiz çatmalıdır. Amma coğrafi nöqteyi-nəzərdən bu mümkün deyildir.

Sektor nə deməkdir? Sektor o deməkdir ki, Xəzər dənizi boyunca, hər ölkənin sərhəddinin güney və quzeyindən xətt çəkilir. Bir də ki, Xəzər dənizinin orta xətti var. Həmin üç xəttin içində olan hissə bizim sektorumuzdur. Amma İran Xəzər dənizinin güney tərəfində kiçik bir yerə malikdir. Xəzər dənizindən hərəyə iyirmi faiz vermək - bunu necə etmək olar? Bu, mümkün deyildir.

Sual: Son görüşmələrdən sonra İran bu prinsiplərlə razılaşacaqmı?

Heydər Əliyev: Onu bilmirəm. Mənim Moskvadakı görüşlərdən o qədər məlumatım yoxdur. Çünki mən buradaydım.

"Respublika" qəzeti,
25 mart, 2001-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev martın 28-də Prezident Sarayında İran İslam Respublikasının energetika naziri Həbibullah Bitərəfin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə qarşılayan dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Azərbaycana xoş gəlmisiniz. Bilirəm ki, siz burada çox işlər görmüsünüz. Birinci növbədə, nəhayət, Parsabad elektrik xəttini açmısınız. Bu, çox uzun çəkdi. Sonra görüşlər keçirmisiniz. Sizin danışıqlarınız haqqında Baş nazir mənə məlumat verdi. Mən çox məmnunam.

Prezident Heydər Əliyevə təşəkkürünü bildirən İranın energetika naziri Həbibullah Bitərəf dedi:

- Mən də çox şadam ki, Azərbaycana səfər etdim və nəhayət, Sizinlə görüşmək mənə müəssər oldu.

Zati-aliləri, mən İran İslam Respublikasının Prezidenti cənab Xatəminin hərarətli, səmimi, dost və qardaş salamlarını Sizə çatdırıram və Sizin İrana səfərinizi səbrsizliklə gözləyirlər.

Dünən həm Azərbaycan, həm də İran üçün yaddaqalan və əhəmiyyətli bir gün oldu. Ona görə ki, dünən İmişli-Parsabad elektrik xəttinin istismarının rəsmi açılış mərasimini keçirdik. Beləliklə, keçmiş müqavilə, yəni, İrandan Naxçıvana satılan elektrik enerjisi barədə müqavilə başa çatmışdır və indi yeni müqavilə əsasında Naxçıvana elektrik enerjisi çatdırılır. İndi İrandan Naxçıvana elektrik enerjisinin çatdırılması mübadilə və tranzit üsulu ilə həyata keçiriləcəkdir. Beləliklə, iki ölkə arasında

elektrik enerjisi mübadiləsi tərəflər üçün faydalı və əlverişlidir. Biz vaxt fərqini də nəzərə alıb, bundan faydalı istifadə edə bilərik.

Biz, tranzit dedikdə, bunu nəzərdə tuturuq ki, Azərbaycanın öz elektrik enerjisi İran vasitəsilə Naxçıvana çatdırılır. Başqa təbirlə desək, bu xəttin istifadəyə verilməsi, eyni zamanda, İranla Azərbaycan arasında əlaqə yaradıbdır. Digər tərəfdən isə, Azərbaycan və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan arasında əlaqə yaradıbdır.

Sevindirici hal ondan ibarətdir ki, cənab Abid Şərifovun böyük zəhməti nəticəsində, "Azərenerji" Səhmdar Cəmiyyəti və "Təvanir" şirkəti çalışıblar və bu layihəni həyata keçiriblər. Deməliyəm ki, İran Prezidenti Xatəmi bu layihənin tezliklə həyata keçirilməsinə böyük diqqət göstərirdi və bilavasitə göstəriş vermişdi ki, işlər mümkün qədər qısa müddətdə başa çatdırılsın. Bununla da biz, demək olar ki, energetika sahəsində gözəl bir əməkdaşlığa başladıq. Ancaq bu sahədə digər əməkdaşlıq formaları üzərində də işləyirik. Biz bu məsələlər barədə Abid Şərifovla ilkin danışıqlara başlamışıq.

Astarada iki ölkə arasında elektrik xətlərinin birləşdirilməsində də əməkdaşlıq edə bilərik və artıq danışıqlara başlamışıq. Digər tərəfdən, iki ölkə arasında yüksək gərginlikli xətlərin birləşməsi çox vacibdir. Beləliklə, Xəzər ətrafında yerləşən ölkələrin elektrik xətlərinin birləşdirilməsi, şəbəkə yaradılması üçün görülən və görüləcək işlər çox əhəmiyyətli ola bilər. Elektrik enerjisinin ötürülməsi üçün müştərək müəssisələrin yaradılması və sair sahələrdə birgə şirkətlər yaradıb, müxtəlif işlərin həyata keçirilməsində uğurlu tədbirlər görə bilərik.

Ölkələrimiz arasında əməkdaşlığın böyük üfüqləri və imkanları vardır. Odur ki, hər iki ölkənin rəhbərlərinin istəyini həyata keçirmək üçün məsul olan şəxslər daha çox çalışmalı, vaxtı itirməməlidirlər.

Heydər Əliyev: Təşəkkür edirəm. Əvvəlcə İran İslam Respublikasının Prezidenti, mənim dostum, qardaşım cənab Xatəmidən çatdırdığınız salama görə təşəkkür edirəm və rica edirəm, mənim salamımı, səmimi dostluq münasibətimi və ən xoş arzularımı ona yetirəsiniz.

Mən səbrsizliklə gözləyirəm ki, İrana səfərim nə vaxt mümkün olacaqdır. Ümid edirəm ki, bu səfər həm İran-Azərbaycan əlaqələrinin inkişafı üçün, həm də bizim başqa məsələlərin həlli üçün çox əhəmiyyətli olacaqdır.

Dünən Sizin açdığınız İmişli-Parsabad elektrik xətti təbiidir ki, ölkələrimiz arasındakı iqtisadi əlaqələrin inkişafında böyük bir addımdır. Bu, Naxçıvanın elektrik enerjisi ilə təchizatı sahəsində indiyə qədər olan vəziyyəti tamamilə dəyişdirir və yaxşılaşdırır.

Vaxtilə Naxçıvana elektrik enerjisinin verilməsi, elektrik xəttinin çəkilməsi - bunlar hamısı mənim xatirimdədir. Mən onlara görə bu gün də öz təşəkkürümü bildirirəm. Ancaq, eyni zamanda, İmişli-Parsabad xətti haqqında uzun illər həm danışıqlar gedirdi, həm də əməli işlər aparılırdı. Bu məsələ bir az gecikirdi. Biz istəyirdik ki, bu, tez olsun. Hər halda, gecikdə də, nəhayət, indi qurtarıbdır, həyata keçirilibdir. Dünən Siz onu rəsmi olaraq açmısınız. Mən bu münasibətlə Sizi təbrik edirəm.

Mən Sizin fikrinizlə tamamilə razıyam ki, bu, İran ilə Azərbaycan arasında elektrik enerjisi mübadiləsidir və çox vacibdir, əhəmiyyətlidir. Siz indiyə qədər Naxçıvana elektrik enerjisi verirdiniz. Biz də onun haqqını verirdik. Haqqı da bir az ge-

cikdirəndə, elektrik enerjisini kəsirdiniz. Amma indi bizim elektrik xətləri bir-birinə qoşuldu. Biz buradan elektrik enerjisini sizin ölkəyə veririk, siz də oradan Naxçıvana verirsiniz. Güman edirəm ki, bundan sonra işlər gərək yaxşı getsin.

Siz buyurdunuz ki, bu məsələ Prezident cənab Xatəminin daimi nəzarəti altında olmuşdur. O, bu barədə qayğı göstərmişdir. Mən bunu çox yüksək qiymətləndirirəm. Xahiş edirəm, bu münasibətlə ona təşəkkürümü çatdırasınız.

Mən Sizin fikrinizlə razıyam ki, ümumiyyətlə, Astaradan o tərəfədə Xəzər ətrafında elektrik şəbəkələrinin birləşməsi fikri, doğrudan da, çox diqqətəlayiqdir. Biz bundan imtina etmirik. Bunu çox məqsədəmüvafiq hesab edirik. Amma bu barədə işləmək lazımdır. Güman edirəm, bizim Nazirlər Kabineti, Baş nazirimiz, Baş nazirin müavini Şərifov bu məsələlər barəsində Sizinlə işləyəcəklər. Bizim ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün bundan sonra da müştərək işlər görməyə imkanlarımız var.

Bilirsiniz ki, vaxtilə biz Sizinlə Xudafərin su anbarı və su elektrik stansiyası tikilməsi barədə birgə sənədlər imzalamışdıq və bu işə başlamaq istəyirdik. Ancaq Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızı və həmin o sahəni də işğal etdiyinə görə, bu məsələ dayanıbdır. Amma güman edirəm ki, Ermənistan silahlı qüvvələri bu ərazidən çəkildikdən sonra biz bu məsələyə yenidən qayıda bilərik. Ancaq indi mövcud olan imkanlar da var. Onlardan istifadə etmək lazımdır.

Məsələn, bir çox il bundan öncə biz Sizinlə razılaşmışdıq, yəni, Azərbaycan hökuməti İran hökuməti ilə razılaşmışdı ki, Ordubadda su elektrik stansiyası tikilsin və su anbarı yaransın, ondan həm İran, həm də Naxçıvanın bir hissəsi bəhrələnsin. Burada heç bir maneçilik yoxdur. Hesab edirəm, əgər, Siz də bizim kimi bu məsələyə müsbət münasibət göstərsəniz, bu işi başlaya bilərik.

Xatırlayıram, hələ 1994-cü ildə mən Tehranda olarkən, biz bu barədə gərək ki, hətta saziş də imzalamışdıq. Elədirmi?

Abid Şərifov (Baş nazirin müavini): Bəli.

Heydər Əliyev: Ona görə, fikirləşirəm ki, Siz bunu unutmayacaqsınız. İran ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq bizim üçün çox əhəmiyyətlidir. **Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, şəxsən Azərbaycanın Prezidenti İran-Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət verir.** Bu, bizim üçün öncül sahədir və bundan sonra da biz bu əlaqələri inkişaf etdirəcəyik.

İndi, ola bilər, mənim səfərimin bir az gecikməsi bu məsələni bir az ləngidir. Cənab Beqdeli hələ burada olan zamanlardan bu iş gedir. Ancaq bunun müəyyən obyektiv səbəbləri var. O, Sizə məlumdur. Bu, heç də İran-Azərbaycan münasibətləri ilə əlaqədar deyildir. Sadəcə, bilirsiniz ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün bir çox tədbirlər keçirilir. Mən bu tədbirlərdə iştirak etməliyəm. Biz indi istəyirik ki, torpaqlarımız sülh yolu ilə işğaldan azad olsun. Ermənilər isə müqavimət göstərirlər. Çalışırıq. Bu yaxın zamanlarda biz yenə də görüşlər keçirəcəyik. Doğrudur, Siz onlarla dostluq edirsiniz, yaxşı ticarət aparırsınız. Amma biz də bu işğaldan xilas olmaq istəyirik.

Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq üçün, Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək üçün bizim gördüyümüz işlərdə, təbiidir ki, İran İslam Respublikasına da çox böyük ehtiyacımız var. Ona görə də mən xahiş edirəm, Prezident cənab Xatəmiyə mənim bu fikirlərimi çatdırasınız. Xahiş edirəm, İran bu barədə öz imkanlarından istifadə etsin ki, Ermənistan düzgün yola gəlsin və nəhayət, bu münaqişəyə son qoyaq. Ermənistanla Azərbaycan arasında sülh yaradaq. O şərtlə ki, Azərbaycanın işğal edilmiş topraqları azad edilsin. Bunlar da, ümumiyyətlə, bizim bu bölgədə əməkdaşlığımıza çox böyük imkanlar yaradacaqdır.

Həbibullah Bitərəf: Zati-aliləri, buyurduğunuz, söylədiyiniz fikirlərə görə dərin təşəkkürümü bildirirəm. İranda su bəndlərinin tikintisinə, o cümlədən Xudafərinin tikintisinə dair fikirlərimi Sizə çatdırmaq istəyirəm.

Zati-aliləri, yəqin, eşitmisiniz. Bilirsiniz ki, İranda inqilabdan əvvəl yalnız 13 su bəndi tikilmişdir. Lakin son 22 il ərzində ölkədə 74 su bəndi tikilmişdir və hazırda 87 su bəndindən istifadə olunur. Biz ölkəmizdə suya böyük əhəmiyyət veririk və ona görə də sudan geniş istifadə etmək üçün müxtəlif layihələrin həyata keçirilməsinə həm dövlət, həm də Parlament həmişə çox diqqətlə yanaşır. Hazırda ölkəmizdə su bəndlərinə aid 65 layihə hazırlanmaqdadır. Bu iş belə planlaşdırılır ki, hər bir regionda ən azı bir-iki su bəndi tikilsin. Beləliklə, su anbarlarından istər kənd təsərrüfatı, istərsə də, sənayenin müxtəlif sahələri üçün çox səmərəli istifadə olunur.

Ərdəbil ostanının ərazisində yerləşən Xudafərin və Qızqalası layihələrinin həyata keçirilməsinə dövlət söz veribdir. Odur ki, ölkənin iqtisadi inkişaf proqramında müəyyən işlər nəzərdə tutulubdur. Həmin ostanın əhalisi və Parlamentdə olan deputatları həm hökumətdən, həm də energetika nazirliyindən soruşurlar ki, layihələrin həyata keçirilməsinə nə vaxt başlanılacaqdır. Bildiyiniz kimi, cənab Qəzayi keçmişdə Ərdəbil ostanından Parlamentə deputat seçilmişdi. Onlar həmişə bizdən soruşurdular ki, buna nə vaxt başlanılacaqdır. İstər həmin su bəndlərinin tikilməsi, istərsə də suvarma işləri üçün müəyyən vəsait ayrılıbdır. Hazırda biz üçüncü beşilliyin ikinci ilini yaşayırıq. Hətta üçüncü beşillik proqramında da həmin layihələr üçün müəyyən vəsait nəzərdə tutulubdur.

Məni narahat edən məsələlərdən biri ondan ibarətdir ki, əgər, bizdən yuxarıda, yəni Türkiyə ərazisində, yaxud haradasa, başqa bir yerdə Araz çayından su götürülsə, su bəndi tikilsə, onda biz aşağılarda belə qurğuların tikilməsinə imkan tapa bilməyəcəyik. Bu layihələr çox əhəmiyyətlidir. Əvvəla, kənd təsərrüfatı, yəni, suvarma işləri üçün çox faydalıdır. Digər tərəfdən, bu qurğularda hər biri 140 meqavat gücündə iki elektrik stansiyası tikilə bilər.

Zati-aliləri, dövlətimiz bizim nazirliyə həmişə göstəriş verir ki, ölkənin daxilində tikilən su bəndlərindən əlavə, sərhəd çayları üzərində də qurğular tikilsin. Misal üçün deyə bilərik ki, keçən ay Prezident Niyazovla bu barədə danışıqlar sona çatdı. Türkmənistanla İran arasında "Dostluq" su bəndi tikilməsi məsələsi artıq yekunlaşıbdır. Hesab edirik və inanırıq ki, Zati-aliləri, Sizin göstərişiniz nəticəsində Araz çayının üzərində də belə bir qurğunun tikilməsinə, yəqin, yaxın vaxtlarda başlamaq olar.

Zati-aliləri, bir neçə il bundan əvvəl İran Prezidentinin birinci müavini cənab doktor Həbibi ilə Sizin görüşünüz olubdur. Həmin görüş zamanı bu məsələ müzakirə edilibdir. İran onda da öz öhdəliyini bəyan etmişdi ki, bu layihə üçün lazım olan kreditin təminatını öz üzərinə götürür. İndi əlavə olaraq deyirik ki, bu qurğunun tikilməsində

50 faiz işləri Azərbaycan mütəxəssisləri görəcəklər. Bu isə, Azərbaycanda əhalinin işlə təmin olunmasına müsbət təsirini göstərəcəkdir.

Heydər Əliyev: Mən başa düşürəm. Amma indi Xudafərin mümkün deyildir. Ermənilər oranı, o torpaqları işğal ediblər. Mən məmnunam ki, bu, sizin planınızda var, bunu edəcəksiniz. Ancaq indi təbiidir ki, bizim işğal olunmuş torpaqlar erməni silahlı qüvvələrindən azad edilməyibdir. Orada hansısa bir tikinti aparmaq mümkün deyildir. Biz bununla razı ola bilmərik. Ancaq Ordubadda heç bir maneçilik yoxdur. Bunu etmək olar.

Həbibullah Bitərəf: Cənab Prezident, mən Ordubad su elektrik stansiyasının tikilməsi məsələsinə bir qədər sonra toxunacağam. İndi onu demək istəyirəm ki, bəli, Araz çayının üzərində iki su elektrik stansiyası tikilməsi nəzərdə tutulur. Biri Ordubaddadır, digəri isə başqası olacaqdır.

Heydər Əliyev: Hansı başqası, Xudafərin?

Həbibullah Bitərəf: Cənab Prezident, deməli, Ordubad su elektrik stansiyası Azərbaycan tərəfdə tikilir. Onun müqabilində İran tərəfi öz ərazisində özü tikir.

Heydər Əliyev: Bəs, sudan istifadə olunmur?

Həbibullah Bitərəf: Sudan istifadə olunur. Amma Azərbaycan öz vəsaiti hesabına özü tikir və elektrikin sahibi olur. İran tərəfi də...

Heydər Əliyev: Bəs, bəndi kim tikir?

Həbibullah Bitərəf: Orada bənd yox, ancaq elektrik stansiyası olacaq, suvarma üçün yox.

Heydər Əliyev: Su elektrik stansiyası. Axı, su elektrik stansiyası üçün su lazımdır.

Həbibullah Bitərəf: Əkin, səpin üçün deyildir.

Heydər Əliyev: Onu başa düşürəm.

Həbibullah Bitərəf: Xudafərin həm suvarma, həm də enerji almaq üçündür.

Heydər Əliyev: Bu, aydındır. Bizə əkin-səpindən çox elektrik enerjisi lazımdır.

Həbibullah Bitərəf: Cənab Prezident, Sizin tərəfdə Ordubad elektrik stansiyası tikilməsi üçün layihələrin hazırlanması artıq başa çatıbdır. Amma biz isə bunu müzakirə edirik. Biz hələ birincini qurtarmamışıq. O, qurtarandan sonra ikincisi başlanmalıdır, yəni, onun layihəsi hazırlanır, tender keçirilir və bu, tikinti şirkətinə həvalə olunur. Biz hələ o mərhələyə gəlib çatmamışıq.

Heydər Əliyev: Aydındır.

Həbibullah Bitərəf: Cənab Prezident, məlumat üçün bildirmək istəyirəm ki, İranın və Ermənistanın siyasi rəhbərliyi arasında "Xudafərin" su bəndinin tikilməsi üçün lazımi danışıqlar aparılmışdır. Ermənistan tərəfi təhlükəsizlik üçün təminata, öhdəlik götürməyə söz veribdir. Odur ki, biz bu üsulla, yəqin, başlaya bilərik. Sözsüz ki, münaqişə nə vaxtsa qurtaracaq, sona çatacaqdır. Amma biz bilmirik, bu, nə qədər çəkəcəkdir. Təbii, Sizin sülh danışıqlarınız nə vaxtsa, bir nəticəyə gəlib çatacaqdır. Amma, eyni zamanda, bir şeyi nəzərə almalıyıq ki, əgər, bu torpaqlar bir ildən sonra azad olunacaqsa, biz bir il gözləyə bilərik. Əgər, daha çox, məsələn, bu, 10-15-20 il davam edəcəksə, onda biz vaxt itiririk.

Heydər Əliyev: Bilirsiniz, mən deyə bilmərəm ki, bir ildə nə olacaq, iki ildə nə olacaqdır. Biz altı ildən çoxdur ki, atəşkəs rejimi yaratmışıq və sülh danışıqları aparırıq. Amma, əgər, o torpaqlar azad olunmasa, siz bunu kiminlə tikəcəksiniz? Ermənistanlamı? O torpaqlar Ermənistanınmı ixtiyarındadır? Bu, qətiyyən mümkün deyildir. Ona görə mən bunu Sizə bildirmək istəyirəm və xəbərdar edirəm ki, Ermənistanla sülh müqaviləsi əldə olunmayana qədər, o torpaqların azad olunması həll edilməyənə qədər orada "Xudafərin"in tikilməsi haqqında söhbət gedə bilməz. Biz buna qətiyyən yol verə bilmərik. Bu, Azərbaycanın torpağıdır. Ermənistanın işğalı altındadır. Biz o vaxt sizinlə razılaşmışdıq ki, bunu müştərək tikək, sudan həm İran istifadə etsin, həm Azərbaycan istifadə etsin, həm də elektrik enerjisindən İran və Azərbaycan istifadə etsinlər. İndi o torpaqlar işğal altından qurtarmayıbsa, onda belə çıxır ki, bizim Azərbaycan torpaqlarında siz Ermənistanla əməkdaşlıq edəcəksiniz? Bu, mümkün deyildir.

Yaxşı, sağ olun. Təşəkkür edirəm. Məndən bütün dostlarımıza, qardaşlarımıza bir daha salamlar. Ümid edirəm ki, tezliklə Tehranda görüşəcəyik. Sağ olun.

Həbibullah Bitərəf: Cənab Prezident, çox sağ olun.

Sonra İranın energetika naziri Həbibullah Bitərəf Təbriz xalçasının kiçik nümunəsini Azərbaycan Prezidenti Heydər Əliyevə hədiyyə etdi.

"Respublika" qəzeti.
29 mart, 2001-ci il.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı əlaqələrin hərtərəfli inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, bu gün dost ölkələrimizi birləşdirən mehriban qonşuluq, qarşılıqlı anlaşma və faydalı əməkdaşlıq münasibətləri daim genişlənəcək və möhkəmlənəcəkdir.

Ümidvaram ki, ikitərəfli sıx əlaqələrimiz bundan sonra da xalqlarımızın iradəsinə uyğun şəkildə inkişaf edərək, regionumuzda sülhün və sabitliyin bərqərar olunmasına, ölkələrimizin çiçəklənməsinə mühüm töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, qardaş İran xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
"Respublika" qəzeti, 12 iyun, 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 13-də Prezident Sarayında İran İslam Respublikasının ölkəmizdəki səfiri Əhəd Qəzayini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev səfiri səmimiyyətlə salamlayaraq demişdir:

- Mən, birincisi, Sizi son Prezident seçkiləri keçirilməsi münasibətilə təbrik edirəm. Mən hörmətli cənab Xatəmiyə öz təbrik məktubumu göndərdim. Bilirsiniz, ancaq indi səfirlə görüşərkən də təbrik edirəm. Çox məmnunam ki, orada namizədlər çox olubdur. Doğrusu, mən onları tanımıram. Ancaq ağayi Xatəmi əvvəlki prezidentliyi dövründə çox işlər görübdür. Görünür ki, xalqın hörmətini, rəğbətini qa-

zanıbdır. Ona görə də xalqın əksəriyyəti ona səs veribdir. Mənim üçün çox xoşdur ki, indi bizim aramızda yaxşı şəxsi əlaqələr yaranıbdır. Mən inanıram ki, onun indiyə qədərki fəaliyyəti zamanı olduğu kimi, bundan sonrakı fəaliyyəti dövründə də İran-Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün biz birgə iş görə bilərik və çox iş görə bilərik.

Prezident Heydər Əliyevə dərin təşəkkürünü bildirən səfir Əhəd Qəzayi dedi:

- Çox sağ olun. Sizin təbrikiniz birinci təbriklərdən idi ki, ağayi Xatəmi Prezident seçiləndən sonra ona çatdı. Təbrikə görə çox sağ olun. İnşaallah, qismət olar ki, cənab Xatəminin bu dövrdə İranda birinci qonağı cənab Heydər Əliyev olar.

Heydər Əliyev: Ola bilər.

Əhəd Qəzayi: Ondan sonra yeni prezidentlik dövründə ağayi Xatəminin də ilk səfəri Azərbaycana olar. Qardaş və yaxın qonşu ölkələr kimi aramızda əlaqələr davam edir. Mən təşəkkür edirəm ki, Siz öz məhəbbətinizi, münasibətinizi göstərdiniz. Keçən bir neçə ay ərzində gözlədiyimiz o idi ki, Siz İrana səfər edəcəksiniz, bu da münasibətlərin geniş inkişafına səbəb ola bilər. Əlbəttə, iqtisadi-ticarət münasibətləri və siyasi münasibətlər addımbaaddım qabağa gedir. Bu cəhətdən həmişə çalışırıq ki, ölkələrimiz arasında, insanlar arasında işgüzarlıq artsın. İranlı tacirlərimiz, investisiya gətirənlərimiz Azərbaycanda böyük işlər görürlər və çalışırlar. Amma İranın imkanları daha artıqdır. Yəqin ki, bunu özünüz məndən də yaxşı bilirsiniz. Əminəm ki, gələcəkdə bu əlaqələr daha da yaxşılaşacaqdır. Sizin dəstəyinizlə İranın təcrübəsindən, imkanlarından Azərbaycanda da istifadə olunacaqdır. İran indi Azərbaycanda ehtiyac duyulan işləri görməyə hazırdır. İran Azərbaycanda yollar çəkilməsinə yaxşı kömək edə bilər. Mən bu sahədə İrandan bir neçə şirkətlərin - özəl, dövlət şirkətlərinin nümayəndələrini buraya gətirmişəm. Onlar baxıblar, işləməyə hazır olduqlarını bildiriblər. İnşaallah, gələcəkdə bu münasibətlər, əlaqələr daha da yaxşılaşacaq və bu imkanlardan istifadə edərək bir-birimizdən faydalanacağıq.

Prezident seçkilərini izləmək, seçkilərə nəzarət etmək üçün İrana bütün dünyadan gəlmişdilər.

Heydər Əliyev: Gəlmişdilər?

Əhəd Qəzayi: Bəli, mətbuat nümayəndələri də gəlmişdilər. Hətta Azərbaycandan da bir televiziya kanalından gəlmişdilər. Biz elan etmişdik ki, kim istəyir, getsin. İmkan yaratmışdıq. Amma təkcə "Lider" kanalından gəldilər. Dünyanın 35 ölkəsindən gəlmişdilər. Seçkilərin necə keçdiyini özləri gördülər və bütün dünyaya yaydılar. Bu seçkilərdə ən fəal iştirak edən gənclər oldu. Seçkilər göstərdi ki, ötən dövrə nisbətən cənab Xatəminin nüfuzu daha da artmışdır. Seçicilərin 78 faizi Xatəmiyə səs verdi. Bu özü göstərdi ki, camaat Prezidentdən islahat istəyir. Artıq inqilabın 22 ili tamam olur. İndi cavanlar, yeni nəsillər o şəxsə səs verirlər ki, onların istədiklərini yerinə yetirsin. Ağayi Xatəmi də yeni prezidentlik müddətində əvvəl seçdiyi siyasətin istiqamətini eyni səviyyədə təqdim etdi. O, öz fikrini həyata keçirirdi. Məqsədi o idi ki, islahat olsun və gərək hökumət xalqın istədiyinə əhəmiyyət versin, onların istəyi ilə irəliyə getsin. Bu fikirlərinə görə yenə ona yüksək səviyyədə səs verdilər və yenidən Prezident seçildi. İnşaallah, özünüz yaxından görüşüb söhbət apararsınız.

Heydər Əliyev: İndi yeni mərhələ başladı.

Əhəd Qəzayi: Cənab Prezident, bizim qanunumuza görə, prezidentlik müddəti

seçkidən bir ay sonra qurtarır. Hələ Prezident bir ay əvvəlki kimi işləyir. Əgər, başqası seçilsəydi, prezidentliyi bir aydan sonra təhvil verəcəkdi.

Heydər Əliyev: Amma o Prezident idi, indi prezidentliyini aparır.

Əhəd Qəzayi: Bəli. Qanunumuza görə, seçkidən bir ay sonra dəyişikliklər olur.

Heydər Əliyev: Amma indi nə dəyişiklik?

Əhəd Qəzayi: Bəli, dəyişiklik olmayacaq, amma gərək səkkizinci dövr üçün ona yenidən prezidentlik səlahiyyəti təqdim olunsun.

Heydər Əliyev: Yəqin ki, Ali Dini Rəhbərin fərmanı olsun.

Əhəd Qəzayi: Bəli, fərman olur.

Heydər Əliyev: Onun da bir ay vaxtı var.

Əhəd Qəzayi: Bəli, bir ay vaxtı var.

Heydər Əliyev: Təbiidir, bir halda ki, xalq səs veribdir...

Bizim əlaqələrimizdə çox məsələlər var, həm İran tərəfi, həm bizim tərəfimiz hazırdır ki, bunları həll edək. Birincisi, iqtisadi məsələlərdir. Biz əməkdaşlığımızı çox genişləndirməliyik və imkanlar da çoxdur.

Yəqin ki, Siz bilirsiniz, bu yaxınlarda Rusiyanın Yollar naziri Aksyonenko buraya gəlmişdi. Mənə söylədi ki, Rusiya ilə İran arasında və Hindistan arasında müqavilələr imzalanmışdır ki, şimaldan cənuba qədər bir dəmir yolu xətti çəkilsin. Mən onu keçmişdən tanıyıram. Çünki mən Moskvada Baş nazirin birinci müavini olanda nəqliyyat işlərinə də, dəmir yoluna da baxırdım. Mən o vaxt onu vəzifəyə təyin etdim. Nazir vəzifəsinə yox, amma Leninqrad Dəmi Yolu İdarəsinin rəisi vəzifəsinə təyin etmişdim. Ona görə də şəxsi tanışlığımız da var idi. Onun mənə verdiyi məlumatlar televiziyada verildi. Yəqin ki, Siz bilirsiniz. Hesab edirəm ki, çox maraqlı idi. Mən onunla bir az zarafat da etdim. Dedim, yaxşı, siz İran ilə müqavilə bağlayırsınız, Hindistanla müqavilə bağlayırsınız, bəs, ortada Azərbaycan var. Bunu Azərbaycansız edə bilməzsiniz. Dedi, əlbəttə ki, Azərbaycansız edə bilmərik, amma biz bilirik ki, Azərbaycan buna etiraz etməyəcəkdir. Mən dedim, etiraz etmirəm.

Həqiqətən, əgər, bu ciddi bir proqram kimi həyata keçirilsə, çox əhəmiyyətli olacaqdır. Həm İran üçün, həm Rusiya üçün, həm Avropa üçün, həm də Hindistan üçün. Məsələn, görürsünüz, heç bizim xəbərimiz olmadan belə bir plan tərtib etmisiniz.

Yəni, Azərbaycan ilə İran arasında coğrafi vəziyyət elədir ki, İranın şimal tərəfindən əlaqələri Azərbaycansız ola bilməz. Azərbaycanın da cənub tərəfindən əlaqələri İransız ola bilməz. Biz bunları da nəzərə almalıyıq və imkanlardan istifadə etməliyik.

Amma təkcə bu deyil, bir neçə başqa məsələlər də var. Onlar keçmişdə bir neçə dəfə müzakirə olunub, ancaq hələ ki, öz həllini tapmayıbdır.

Bizim Dövlətlərarası Müştərək İqtisadi Komissiyanın Azərbaycan tərəfdən həmsədri bu yaxınlarda təyin olunacaqdır. Gərək onlar bu işi bir az irəliyə aparsınlar, o cümlədən bizim başqa təşkilatlar vasitəsilə də. Xarici İşlər Nazirliyindən mənə məlumat verdilər ki, qarşılıqlı səfərlər nəzərdə tutulub. Hesab edirəm, bunları da etmək lazımdır. Nəhayət, gərək imkan verəsiniz ki, İranı mən də ziyarət edim.

Əhəd Qəzayi: İnşaallah, gözləyirik.

Heydər Əliyev: Ona görə ki, işlərimiz çoxdur. İndi hörmətli cənab Xatəmi də yenidən xalqın dəstəyini alandan sonra, hesab edirəm ki, bu işlərə vaxtında müdaxilə

edəcəkdir. Mənim isə, bu barədə mövqeyimi bilirsiniz. Bunları edəcəyik.

Hesab edirəm ki, İran-Azərbaycan əlaqələri bütün sahələrdə inkişaf etməlidir. Bu, bizim üçün öncül bir sahədir.

İranla həm tarixi əlaqələrimiz, həm coğrafi əlaqələrimiz, həm də şəxsi əlaqələrimiz var. Başqalarını demək istəmirəm. Bunlar hamısı məlumdur. Belə bir görüşdə buna ehtiyac yoxdur. Bütün bunlar bizim əlaqələrimizin daha da genişlənməsinə imkan yaradır.

İranda müxtəlif islahatların keçirilməsi bizi çox sevindirir. Təbiidir ki, hər ölkənin öz xüsusiyyətlərinə uyğun olan islahatlar keçirilməlidir. Dünyada iki ölkə tapa bilməzsiniz ki, onlar bir-birilə tam eyni olsunlar. Yəni, bizdə bir söz var, əkiz olsunlar. Qətiyyən tapmaq mümkün deyil. Ancaq təəssüf ki, bəzən ayrı-ayrı dairələrdə, dünyanın beynəlxalq təşkilatlarında hesab edirlər ki, - biz buna ştamp deyirik, - bu ştampı buna da vurmaq olar, ona da vurmaq olar, o birisinə də vurmaq olar. Mən həmişə bunun əleyhinə çıxmışam, bu gün də bunun əleyhinəyəm. Məsələn, Azərbaycanın öz xüsusiyyətləri var.

Biz Avropa Şurasına daxil olmuşuq. Ancaq Azərbaycanın xüsusiyyətləri nəzərə alınmalıdır. Azərbaycanın keçdiyi yol nəzərə alınmalıdır, milli-mənəvi dəyərlər, xalqın mentaliteti nəzərə alınmalıdır.

O cümlədən İran. İndi İranda keçirilən islahatlar, təbiidir ki, ilk dəfə olan islahatlardır. Hesab edirəm ki, bu, İran üçün böyük tarixi hadisədir. Ancaq bunu İran özü bildiyi kimi etməlidir. Heç kəs xaricdən diktə etməməlidir ki, sən bunu belə et, onu belə et.

Ümumiyyətlə, o prinsip ki var, heç bir ölkə başqa bir ölkənin daxili işinə qarışmamalıdır, bu, dünyanın beynəlxalq hüquq normalarının əsas, təməl prinsiplərindən biridir. Belə olan halda, həm dövlət quruluşunu, həm islahatlarını, həm də başqa işlərini gərək hərə özü müəyyən etsin. Hesab edirəm ki, İran son illər bu sahədə irəliləyibdir, islahatlar həyata keçirilir. Güman edirəm, bundan sonra da keçiriləcəkdir. Cənab Xatəmiyə 78 faiz səs verilməsi onu göstərir ki, əhalinin əksəriyyəti bu islahatların tərəfdarıdır. Çünki cənab Xatəmi İranda islahatçı Prezident kimi tanınıbdır. Bizim bu barədə də mövqelərimiz bir-birinə çox yaxınlaşır və şərait yaradır ki, bütün sahələrdə əlaqələrimiz daha da genişlənsin, daha da inkişaf etsin.

Bizim əlaqələrimizdə əsas prinsip ondan ibarətdir ki, İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır, sərhədlərinin toxunulmazlığını tanıyır və Azərbaycanın daxili işlərinə qarışmır. Azərbaycan da İranın böyük bir dövlət kimi həm ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, həm də suverenliyini tanıyır. İranın daxili işlərinə qarışmır və qarışmayacaqdır. Bu prinsip bizim ölkələrimiz üçün çox vacib bir prinsipdir. Bu, həm İran üçün vacibdir, həm də Azərbaycan üçün vacibdir. Hesab edirəm ki, biz bu prinsip əsasında bundan sonra da əlaqələrimizi inkişaf etdirəcəyik.

Əhəd Qəzayi: Cənab Prezident, çox sağ olun. Sizin söylədiyiniz bütün sözlər həqiqətdir. Cənab Xatəminin xarici işlər barəsində siyasəti ondan ibarətdir ki, biz gərək bütün dünya ilə münasibətlərimizi yaxşılaşdıraq.

Amma onların içərisində qonşular birinci yerdədir. Xüsusən müsəlman qonşu ölkə olan Azərbaycan. Mən buraya gəlməmişdən əvvəl gedib cənab Xatəmi ilə görüşmüşəm. O, mənə yenə də təkid etdi ki, Azərbaycanın xüsusi yeri vardır. Bizimlə qonşudur, qardaş müsəlman ölkəsidir və

ona görə də gərək münasibətlərimizi bundan yaxşı edək.

Cənab Prezident, Xatəmi prezidentliyi dövründə xarici siyasətdə İranın mövqeyini xeyli nümayiş etdirdi. Artıq bir neçə xarici ölkələr İranda münasibətlərini genişləndirirlər. İranın beynəlxalq səviyyədə mövqeyi getdikcə yüksəlir. Prezident Xatəmi birinci dəfədir dünya səviyyəsində danışıqlar, görüşlər keçirir.

İndi başqa dinlər arasında da danışıqlar gedir. Gərək bəşəriyyət problemlərini danışıqla, dərk etməklə, düşünməklə həll etsin, dövlətlər yaxınlıq axtarsınlar. Hətta bu gün islam dini ilə başqa dinlər arasında yavaş-yavaş anlaşıqlıq yaranır. İslam dini, məsihi də ilahi məktəbidir. Bu cəhətdən dünyada indi fikir dəyişikliyi yaranıbdır. Bunlar hamısı Prezident Xatəminin böyük dünyəvi fikridir ki, insanlar arasında münasibətləri yaxınlaşdırır. Əminəm ki, biz çalışacağıq, heç olmasa, yaxın qonşularla birbirimizi başa düşək.

Cənab Prezident, Rusiya ilə İran arasındakı müqavilə barədə danışdınız. Bu, çox düzgündür. Ona görə ki, indi Şərqlə Qərb arasında yük aparmaq, yük daşımaq yolları axtarılıbdır. Amma Şimalla Cənub arasında yol İran ilə Azərbaycandan keçməlidir.

Heydər Əliyev: Ancaq.

Əhəd Qəzayi: Bu, həm İran üçün, həm də Azərbaycan üçün böyük mövqedir. Bunun üzərində çoxdan iş gedirdi və müzakirə olunurdu. Amma əməli surətdə indi üzə çıxıbdır. Azərbaycan bu müqaviləyə qoşularkən bu iş təkmilləşəcədir. Azərbaycandan Astaraya kimi dəmir yolu vardır. Biz gərək Astaradan Qəzvinə, oradan da Fars körfəzinə kimi yeni xətt çəkək. Yük bilavasitə Avropadan və Rusiyadan Fars körfəzinə gedəcəkdir və bu da yükdaşımanın müddətini bir həftə tezləşdirəcəkdir. Bunun iqtisadiyyatda böyük mənası vardır. Yəni, yükün Avropadan Asiyaya getməsi bir həftə tezləşir. Bu, iqtisadiyyatda böyük dəyişikliklər yaradır.

Heydər Əliyev: Bir həftə tezləşir, nə qədər də ucuzlaşır.

Əhəd Qəzayi: Bəli, həmin tezləşmə onun qiymətinə təsir edir. Ona görə də, bunu Rusiya da, Hindistan da istəyir. Yüklərin şimaldan Cənuba getməsi bu ölkələrə imkan yaradır ki, iqtisadi cəhətdən mübadilə etsinlər. Bu, Azərbaycan və İran üçün də əhəmiyyətlidir.

Cənab Prezident, mən Sizin çıxışınızı eşitdim və çox sevindim ki, Siz buna şəxsən maraq göstərirsiniz və tapşırıq vermisiniz. İnşaallah, biz də öz vəzifəmizi yerinə yetirib, bunu sürətlə başa çatdıracağıq.

Heydər Əliyev: Bilirsiniz, bu layihə yeni bir şey deyil. Bir neçə il bundan öncə bu məsələni İran da, biz də qaldırmışdıq. Rusiya bu barədə bizimlə danışıqlar aparmışdı. Amma, nədənsə, o vaxtlar bu, irəliyə getmədi. Amma, təəssüf olsun, biz vaxt itirdik. Bilirsiniz, əgər 3-4 il bundan öncə bu layihə, bu fikir meydana çıxmışdısa, biz bunu başlasaydıq, indi artıq bu yol işləyirdi.

Biz Şərq Qərb, İpək yolunu bərpa etdik. Bu, çox lazımdır. Bunun da çox böyük əhəmiyyəti vardır. Amma bu, Şimal-Cənub yolunu əvəz etmir. Qətiyyən əvəz etmir. Amma, eyni zamanda, kürreyi-ərzin bu hissəsi ki var, yollar burada kəsişir. Təbiidir ki, əgər, İpək yolu yaransa, Çindən, yaxud Yaponiyadan Avropaya yüklər daha da qısa müddətdə, ucuz gedəcəkdir və bundan bütün ölkələr xeyir götürəcəklər. Çin, yaxud Yaponiya bu yükləri başqa yerdən apara bilməz. Amma Avropanın böyük bir hissəsi təkcə Şərqlə yox, Cənubla da iqtisadi əlaqələr qurmaq istəyir. Təkcə Rusiya deyil, Avropa ölkələri. Məsələn, Finlandiya-

dan, digər Skandinaviya ölkələrindən tutmuş, ta bu tərəfə qədər.

Buradakı yolun bərpası daha da asandır. Çünki burada dəmir yollarının çoxu mövcuddur. İndi Rusiyadan Azərbaycana gələn dəmir yolu çox yaxşı vəziyyətdədir. Azərbaycanda Lənkəran və Astaraya qədər dəmir yolu vardır. Təbiidir ki, o, gərək müəyyən qədər təmir olunsun. Biz o vaxtlar bu məsələni qaldıranda İran tərəfində çətinlik əmələ gəldi ki, Qəzvin ilə Astara arasında təxminən 350 kilometr yol çəkmək lazımdır. Təbiidir ki, bunu İran öz ərazisində çəkməli idi. Amma yəqin ki, o vaxt imkanı yox idi. Ancaq İran dövlətli ölkədir, gərək tapaydı. Amma indi fikir yaranıbdır ki, bəli, bu, lazımdır. Fars körfəzi sahilləri üçün lazımdır. Ona görə mən bunu bəyənmişəm.

Mənə Rusiyanın dəmiryol naziri Aksiyenenko dedi ki, dəmir yolunun tikilməsi haqqında, guya, İranda artıq 2002-ci ilin büdcəsində müəyyən vəsait ayrılıbdır. Bu da çox yaxşı haldır. Ancaq mən ona dedim, Sizə də deyirəm, gərək burada, bizim ərazimizdə olan problemləri də həll edək. Çünki birincisi, bilirsiniz ki, bizim dəmir yolunun Astaradan sərhədə qədər çatması üçün 7 kilometr yol çəkilməlidir. Sonra, gərək yeni dəmir yolu körpüsü salınsın. Başqa bir neçə problem də var. Bunlar xırda problemlərdir. Əsas odur ki, bu layihə meydana çıxıbdır və bütün ölkələr bu layihəni dəstəkləyir.

Dediyim kimi, başqa problemlər də var. Yəni iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi üçün. Onların bir çoxu 7-8 ildir müzakirə olunur, amma həll olunmur. Güman edirəm, vaxt gəlib çatıb ki, bunları da həll edək.

"Respublika" qəzeti,
14 iyun 2001-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİNİ QƏBUL EDƏRKƏN VERDİYİ BƏYANATDAN:

Heydər Əliyev: Rusiya-Azərbaycan münasibətlərinin bizim üçün öncül əhəmiyyəti vardır. Yəqin ki, siz burada olduğunuz qısa müddətdə Azərbaycan əhalisinin böyük əksəriyyətində Rusiya ilə bağlı əhval-ruhiyyəyə əmin oldunuz. Xalqımız 200 il Rusiyanın tərkibində yaşamışdır. XIX əsrin əvvəlindən çar Rusiyası imperiyasının tərkibində, 1920-ci ildən isə Sovetlər İttifaqının tərkibində. İndi son on ildir ki, biz müstəqillik şəraitində yaşayırıq. Ona görə də mən həmişə deyirəm ki, bu və ya digər zaman kəsiyini kim necə xarakterizə edir-etsin, həmişə obyektiv olmaq lazımdır. Həm müsbəti, həm də mənfini görmək lazımdır. Məsələn, 1813-cü il, sonra 1828-ci il Rusiya-İran müharibələri, əlbəttə, Azərbaycanı parçalamışdır. Həmin vaxt Azərbaycanda vahid dövlət olmasa da, ayrı-ayrı dövlətlər vardı. Keçmiş zamanlarda Azərbaycanda bütün Azərbaycanı birləşdirən dövlətlər olmuşdur. Düzünü deyək, Azərbaycan müstəmləkəyə çevrildi. Əlbəttə, bu müstəmləkə dövrü mürəkkəb idi, amma xalqımıza böyük fayda vermişdir. Əsrlər boyu müsəlman dininə etiqad edən Azərbaycan xalqı ümumbəşəri mədəniyyətə, ümumbəşəri dəyərlərə, Avropa dəyərlərinə qovuşdu - bütün bunlar Rusiya vasitəsilə, xüsusən XIX əsrin ikinci yarısında və təbii ki, XX əsrdə baş vermişdir.

"Respublika" qəzeti,
15 iyun, 2001-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 16-da Prezident Sarayında İran İslam Respublikasının xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini, Xəzər dənizinin statusu məsələsi üzrə İranın xüsusi nümayəndəsi Əli Əhaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqları səmimiyyətlə salamladı.

Vaxt tapıb onları qəbul etdiyinə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən cənab Əli Əhani dedi:

- Zati-aliləri, məni qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Sizi bir daha görməyimdən şadam. Cənab Xatəminin Sizə səmimi və hərarətli salamlarını çatdırmaqdan çox şadam. Onun yenidən Prezident seçilməsi münasibətilə göndərdiyiniz səmimi məktuba görə də bir daha təşəkkürümüzü bildirirəm.

Münasibətlərimizin inkişafı üçün böyük imkanların mövcud olması baxımından, hər iki tərəfin bu əlaqələri daha da inkişaf etdirməyə möhkəm iradəsinin olduğu nəzərə alınmaqla, gələcəkdə görüləcək işlər üçün yeni planlar hazırlamaq çox əhəmiyyətlidir. Biz Azərbaycanla münasibətlərimizə xüsusi diqqət yetirir və əhəmiyyət veririk. Biz münasibətlərimizi qarşılıqlı hörmət və ehtiram əsasında qurmalıyıq və bu münasibətlərə xələl gətirmək istəyən qüvvələrə qarşı mübarizə aparmalıyıq. Qarşılıqlı məsləhətləşmələr həyata keçirmək yolu ilə münasibətlərimizi inkişaf etdirmək üçün yeni-yeni uğurlar əldə edə bilərik.

Bu gün Azərbaycanda fəaliyyət göstərən İran Tacirlər Birliyi təşkilatının üzvləri ilə görüşüm oldu. Onlar razılıqlarını bildirdilər ki, Azərbaycan dövləti burada onların işlərinə kömək edir. Buradakı işlərindən və eyni zamanda, onlar üçün yaradılmış şəraitdən razı qaldıqlarını söylədilər. Onlar burada işləməkdən məmnundurlar.

Bu gün cənab Vilayət Quliyev ilə çox faydalı görüşümüz oldu. Bizim münasibətlərimizin inkişafına dair fikir mübadiləsi apardıq. Dünən Xəzər dənizinə dair keçirilmiş toplantı haqqında da fikrimi söylədim və razılığımı bildirdim. Burada keçirilən toplantı beş Xəzəryanı dövlətin mövqelərinin yaxınlaşması üçün öz müsbət təsirini göstərdi. Belə qərara gəldik ki, Xəzəryanı dövlətlərin hamısının ümumi razılığa gəldiyi halda, bu məsələni birdəfəlik həll edə bilərik. Belə olan halda, xarici şirkətlər buraya rahat sərmayə qoya və işlərini nigarançılıqla yox, arxayın davam etdirə bilərlər. Belə qərara gəldik ki, ekspertlər səviyyəsində danışıqlar və müzakirələr davam etdirilsin.

Sözsüz ki, beş ölkənin mövqelərini yaxınlaşdırmaq üçün məsləhətləşmələr hələ çox aparılacaq. Biz bu məsləhətləşmələrə böyük əhəmiyyət veririk. O cümlədən Azərbaycanla məsləhətləşmələrə. Hesab edirik ki, bu yeganə yol ilə biz məsələni həll edib, yekunlaşdıra bilərik.

Zati-aliləri, məni belə hövsələ ilə dinlədiyinizə görə təşəkkürümü bildirirəm. Eyni zamanda, Sizdən üzr istəyirəm ki, vaxtınızı çox aldım. Mən gərək qısa danışaydım.

Heydər Əliyev: Çox mənalı idi. Çox vaxtın getməsi o qədər də əhəmiyyətli deyil.

Ağayi Xatəminin İranın yenidən Prezidenti seçilməsi münasibətilə Sizi və bütün İran xalqını bir daha təbrik edirəm.

Mən təbrik məktubu göndərdim.

Ümid edirəm ki, ağayi Xatəminin ikinci prezidentlik müddəti zamanı İran ilə Azərbaycan arasındakı əlaqələr daha da sürətlə inkişaf edəcəkdir. Mən bu günlərdə sizin səfirlə görüşdüm və çox otraflı söhbət etdik. Ona dediklərimi Sizə də demək istəyirəm ki, **Azərbaycanın xarici siyasətində İran ilə əlaqələr xüsusi yer tutur.** Bunun səbəbləri məlumdur. İzah etməyə ehtiyac yoxdur. Ona görə biz bu siyasətimizi bundan sonra da ardıcıl surətdə həyata keçirəcəyik.

Mən çox məmnunam ki, sizin tacirlər, iş adamları Azərbaycanda gördükləri işdən və burada yaradılmış şəraitdən razıdırlar. Bunun özü çox yaxşı göstoricidir. Elə bu onu sübut edir ki, iqtisadi əlaqələrimiz uğurla inkişaf edir. Doğrudur, İranda Azərbaycan tacirləri hələ yoxdur, varsa da, azdır. Güman edirəm ki, bizdə də geniş tacirlər təbəqəsi yarananda sonra Azərbaycan tacirləri İranda fəaliyyət göstərəcəklər. Çünki həm İran, həm də Azərbaycan sərbəst bazar iqtisadiyyatı yolu ilə gedir. Ona görə də, insanlara sərbəstlik, imkanlar yaratmaq lazımdır ki, onlar iş görsünlər və onların gördüyü işdən də, təbii, iqtisadiyyatın inkişafı, insanların rifah halının yaxşılaşması çox asılıdır.

Amma, eyni zamanda, bir çox məsələlər var ki, bunlar iki dövlət arasında iqtisadi əlaqələrə aiddir. Biz bu istiqamətdə əlaqələri inkişaf etdirmək istəyirik. Ona görə də İran-Azərbaycan Dövlətlərarası Müştərək İqtisadi Komissiyası var. Doğrudur, bu komissiya son vaxtlar işini bir az zəiflədibdir. Mən iki, üç günə Azərbaycan tərəfindən komissiyanın sədrini təyin edəcəm. Güman edirəm ki, ondan sonra ikitərəfli görüşlər keçirilə bilər və bir çox maraqlı layihələr həyata keçirilə bilər.

Dünən Sizin burada keçirdiyiniz görüş də çox əhəmiyyətlidir. Beş Xəzəryanı ölkənin nümayəndələri burada müzakirə aparıblar və Xəzərin statusunun müəyyən edilməsi haqqında fikirlər söyləyiblər. Ümumiyyətlə, mən bu işi və xüsusən dünən Sizin gördüyünüz işi müsbət qiymətləndirirəm. Məmnunam ki, İran tərəfini təmsil edən bir şəxs kimi Siz də bu məsələyə müsbət qiymət verirsiniz.

Biz, Azərbaycan həmişə hesab etmişik ki, Xəzərin statusunun müəyyən edilməsi yalnız Xəzəryanı ölkələrin müştərək səyləri nəticəsində sona çata bilər. Ona görə, belə ardıcıl surətdə görüşlərin keçirilməsi lazımdır. Mən hiss edirəm, Siz də bunu qeyd etdiniz ki, hər bir görüş bizi bu məsələdə irəliyə aparır.

Qeyd etmək lazımdır ki, Xəzər dənizi mövcud olandan indiyə qədər Xəzərin statusu haqqında heç vaxt heç bir ölkə digər ölkə ilə danışıq aparmayıbdır. Bu, ilk hadisədir. Heç vaxt da Xəzərin ətrafında beş müstəqil ölkə olmayıbdır. Ona görə də, təbiidir ki, burada çətinliklər də var. Məsələni bir dəfə, iki dəfə görüşməklə həll etmək mümkün deyildir. Amma mən ümidvaram ki, Sizin bu mütəmadi görüşləriniz, nəhayət, mövqeləri bir-birinə yaxınlaşdıracaq və bundan sonra bizə, dövlət başçılarına hamınızın razı olduğu bir layihəni təqdim edəcəksiniz.

Siz doğru dediniz, onda xarici şirkətlər də burada daha rahat işləyəcəklər. Amma indi də rahat işləyənlər var. İranın OİEC şirkəti Azərbaycanda çox rahat işləyir. Bizim ən böyük qaz yatağı olan "Şahdəniz" qaz yatağında onun 10 faiz payı var. Siz yəqin, xatırlamalısınız, bu işin təşəbbüskarı mən oldum ki, İran şirkəti gəlib Azərbaycandakı bu böyük layihədə iştirak etsin. OİEC şirkəti ilə bizim başqa layihələrdə də əməkdaşlığımız var. Amma təbiidir, bunların hamısı Xəzərin statusu müəyyən olunandan sonra daha da səmərəli olar və hamı daha da rahat olar. Biz bunu çox istəyirik. Çünki Sizə də məlumdur ki, Xəzərdə neft və qaz hasilatına ilk dəfə, hələ 50 il bundan öncə Azərbaycan başlayıbdır. Ona görə, indi, Xəzəryanı ölkələr müstəqil dövlət olduğu üçün biz çox maraqlıyıq ki, bu məsələ həll olunsun.

Dünənki görüşlərinizə görə Sizi təbrik edirəm. Çox məmnunam ki, artıq Siz bu işə planlı istiqamət vermisiniz. Mənə bildirdilər ki, gələn görüş Qazaxıstanda, Astanada olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan tərəfi bu sahədə bütün səylərini qoyacaqdır. Ona görə hamı çalışmalıdır, Siz də çalışmalısınız, biz də çalışmalıyıq, başqa Xəzəryanı ölkələr də çalışmalıdır ki, hərə bir az irəliyə getsin. Onda ümumi məxrəcə gələ bilərik. Biz bunun tərəfdarıyıq.

Əli Əhani: Zati-aliləri, dediyiniz xoş sözlərə görə təşəkkürümü bildirirəm. Biz Azərbaycan şirkətləri ilə əməkdaşlıq etməyi alqışlayırıq. Bundan sonra da çalışacağıq və hazırıq ki, Azərbaycan şirkətlərinin İranda fəaliyyət göstərməsi üçün lazımi şərait yaradaq. Onlar orada rahat fəaliyyət göstərə bilsinlər.

Biz təəssüf edirdik ki, Azərbaycan tərəfindən müvafiq bir nazirin Müştərək Komissiyaya həmsədr təyin olunmaması işlərimizdə bir qədər ləngliк əmələ gətiribdir. Zati-aliləri, indi Sizin dediyiniz sözlər bizi bir qədər sakitləşdirdi. Belə başa düşdük ki, yaxın günlərdə hər hansı bir naziri həmsədr kimi təyin edəcəksiniz və işlərimiz sürətlənəcəkdir.

Heydər Əliyev: Hər hansı bir nazir yox, yaxşı nazirlərdən birini.

Əli Əhani: Zati-aliləri, Müştərək Komissiyanın işinin sürətlənməsi münasibətlərimizin, o cümlədən iqtisadi-ticarət əlaqələrimizin sürətlənməsinə müsbət təsirini göstərəcəkdir. Odur ki, bu iş həyata keçirilsə, biz bunu alqışlayacağıq.

Cənab Prezident, Xəzər dənizinin statusunun həll olunması məsələsinə bu qədər diqqətlə yanaşdığınıza görə Sizə təşəkkürümüzü bildiririk. Bu, bizi çox sevindirir. Sözsüz ki, bu məsələ, Xəzər dənizinin statusu nə qədər tez həll olunsa, şirkətlər burada bir o qədər də rahat işləyə bilərlər və onlar əməkdaşlıq fəaliyyətini daha da genişləndirərlər. Ola bilsin ki, bu gün kimsə, yaxud şirkətlər fikir müxtəlifliyi olan sahələrə dair qəti qərar qəbul edə bilmir. Əgər, bu məsələ həll olunsa, onda onlar həmin sahələrə sərmayə qoyub fəaliyyət göstərmək üçün qəti qərara gələ bilərlər.

Biz azərbaycanlı tərəfdaşlarımızla çalışacağıq ki, xarici işlər nazirləri müavinlərinin Astanada keçiriləcək beşinci toplantısı səmərəli olsun və bu istiqamətdə uğurlu bir nəticə əldə etsin. Belə olan halda, Xəzəryanı ölkələrin dövlət başçılarının payızda nəzərdə tutulan Zirvə toplantısı üçün yaxşı zəmin yarada bilərik. Beş Xəzəryanı ölkənin dövlət başçılarının Zirvə toplantılarının birinci iclası yəqin ki, bu sahədə öz tarixi əhəmiyyətini göstərəcəkdir. Çalışmalıyıq ki, bu iclas istər region məsələləri, istərsə də beynəlxalq sahədə əhəmiyyətli toplantı kimi yadda qalan birinci toplantı olsun. Diqqətinizə görə minnətdarlığımı bildirirəm. Çox sağ olun.

Heydər Əliyev: Sağ olun. Mənim ağayi Xatəmiyə və İranın başqa rəhbərlərinə salamlarımı, xoş arzularımı bir daha çatdırın. Sağ olun.

"Respublika" qəzeti,
17 iyun, 2001-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 20-də Prezident Sarayında İran İslam Respublikası Ali Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqları səmimi salamlayaraq demişdir:

- Hörmətli ağayi Ruhani!

Höpmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz! Yəqin, siz ilk dəfədir ki, Azərbaycana gəlirsiniz. Buna təəssüf edirəm. Çünki ölkələrimiz bir-birinə o qədər yaxındır ki, biz gərək bir-birimizi tez-tez ziyarət edək. Amma, eyni zamanda, məmnunam ki, Siz vaxt tapıb Azərbaycana gəlmisiniz. Doğrudur, həm Gürcüstanı həm Ermənistanı, həm də Azərbaycanı səfər proqramınıza salmısınız. Mən bundan məmnunam.

Mən bilirəm ki, Siz bir neçə görüşlər keçirmisiniz. Doğrudur, öz ziyarətiniz üçün az vaxt nəzərdə tutmusunuz. Gərək bir az çox vaxt ayıraydınız ki, Azərbaycanla daha geniş tanış olaydınız. Bilmirəm, Ermənistanda, Gürcüstanda nə qədər olmusunuz.

Həsən Ruhani: Elə bu qədər.

Heydər Əliyev: Onda düz deyil, gərək bizdə o qədər olmasın. Birincisi, biz qonşuyuq, ikincisi müsəlmanıq. Ancaq, eybi yoxdur, birinci səfərinizdə biz buna da qaneyik. Buyurun, Sizi dinləyirəm.

Səmimi qəbul üçün təşəkkürünü bildirən Həsən Ruhani dedi:

- Hörmətli cənab Prezident, məni və nümayəndə heyətimizi qəbul etdiyinizə, bu fürsəti yaratdığınıza görə Sizə böyük minnətdarlığımı və təşəkkürümü bildirirəm. Çox şadıq ki, dostumuz və qardaşımız olan ölkədəyik. Biz dost, qardaş Azərbaycan Respublikası ilə münasibətlərimizin inkişafına böyük əhəmiyyət veririk. Bizim möhkəm tarixi, mədəni əlaqələrimiz vardır. Biz münasibətlərimizin bugünkü səviyyəyə çatmasına sevinirik, lakin bu səviyyədə qalmasına razı deyilik. Biz istərdik ki, mövcud olan geniş potensial imkanlarımızdan hərtərəfli istifadə edək. İran İslam Respublikası Azərbaycanla əlaqələrimizin səmimi, möhkəm və geniş olmasını istəyir.

Bu səfərimizdən məqsəd regondakı bütün məsələlərin həll olunmasından və eyni zamanda, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsindən ibarətdir.

Biz Qafqazda, xüsusilə də bu bölgədə əmin-amanlığın, sülhün bərqərar olmasına böyük əhəmiyyət veririk. Qafqaz ölkələri arasında Azərbaycan bizim üçün çox əhəmiyyətlidir. Bizim istər dənizdə, istərsə də quruda böyük sərhədimiz vardır. Xalqlarımız sərhədimizdən çox böyük sayda gediş-gəliş edirlər. Təkcə Naxçıvandan hər gün gediş-gəliş edənlərin sayı 4 min nəfərə yaxındır.

Azərbaycanın müstəqilliyinin ilk günlərindən xalqlarımız bunu çox böyük sevinclə, bayramla qarşıladılar. Bu fürsətdən istifadə edərək, bu il Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyi münasibətilə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Ötən on il ərzində biz çalışırdıq ki, həm Azərbaycan xalqı, həm də Azərbaycan dövləti ilə geniş, gözəl münasibətlər quraq. O dövrdə, yəni Azərbaycanın müstəqilliyinin ilk günlərindəki, aylarındakı, illərindəki münasibətlərimiz bunu bir daha sübut edir.

Cənab Prezident, Azərbaycanın müstəqilliyinin ilk günlərində Siz özünüz Naxçıvanda idiniz. Onda şahid oldunuz ki, xalqlarımız nə qədər böyük həyəcan, sevinc içərisindədirlər. Əlbəttə, bu illər ərzində münasibətlərimizdə enişli-yoxuşlu dövrlər olubdur. Lakin böyük bir siyasi xadim olduğunuza görə, biz Sizin təcrübənizə əsaslanaraq, münasibətlərimizdə yeni keyfiyyətli əlaqələr yaratmaq əzmindəyik.

Biz istərdik ki, xalqlarımız sərhəddən keçəndə sadələşdirilmiş şəraitdən istifadə edərək gediş-gəliş etsinlər. Biz ticarət sahəsində, eyni zamanda, valyutanın dəyişdirilməsi sahəsində də yeni bir sazişin, sənədin imzalanmasına ehtiyac duyuruq. İmzalanacaq hər iki sənədin ilkin variantı İran tərəfindən Azərbaycana təqdim olunmuşdur. Əminik ki, Siz həmin sənədlərin imzalanmaq üçün hazırlanmasına müvafiq göstəriş verəcəksiniz. Biz ümidvarıq ki, Cənub-Şimal yolunun açılması və orada İranın iştirakı barədə Azərbaycan öz sözünü deyəcəkdir. Ümidvarıq ki, Siz bir sıra mühüm layihələrin həyata keçirilməsi üçün müvafiq tapşırıqlar və göstərişlər verəcəksiniz.

Biz Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün əlimizdən gələni etməyə hazır olduğumuzu bir daha bildiririk. Bilirik ki, bu məsələnin həll olunması üçün yeganə bir yol varsa, o da münaqişənin siyasi yolla həll edilməsidir. Əlbəttə, ATƏT-in Minsk qrupu bu sahədə uzun müddətdir çalışır. Lakin, əgər, iki tərəf, yəni, Azərbaycan və Ermənistan bu məsələnin həllində İran tərəfinin iştirak etməsinə razılıq versələr, onu istəsələr, biz də mövcud potensial imkanlardan istifadə etməyə hazırıq.

Xəzər dənizinin statusunun həll olunması məsələsi də bizim üçün çox əhəmiyyətlidir. Sözsüz ki, Xəzər dənizinin statusunun həll olunmasında İranla Azərbaycanın öz xüsusi çəkisi və yeri vardır. Biz ümidvarıq, nə qədər ki, 1921-ci və 1940-cı illərin sənədləri qüvvədədir, ümumi bir konsensusa gələnə kimi danışıqlarımızı, müzakirələrimizi davam etdirməliyik.

Hər iki ölkə, yəni, Azərbaycanla İran İslam Konfransı Təşkilatının, İƏT-in, İKT-nin parlamentlərarası qurumunun üzvləridir. Ümidvarıq və istərdik ki, adı çəkilən bütün bu təşkilatlarda, eləcə də, digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımız yaxşı davam etdirilsin.

Azərbaycanın qüdrətli, başının həmişə uca olması və çiçəklənməsi bizim istəyimiz və arzumuzdur.

Heydər Əliyev: Ağayi Ruhani, təşəkkür edirəm. Sizin dediyiniz sözlərlə bizim fikirlərimiz, amalımız arasında heç fərq yoxdur. Siz dediyiniz o sözləri mən Azərbaycan tərəfinin fikri, arzusu, istəyi kimi təkrar edə bilərəm. Amma iş bunların müştərək yerinə yetirilməsindədir.

Azərbaycan Prezidenti kimi mən dəfələrlə qeyd etmişəm ki, İran dünyanın böyük, qüdrətli və çox qədim tarixə malik olan ölkələrindən biridir. İran xalqı dünya mədəniyyətinə, dünya sivilizasiyasına böyük töhfələr vermişdir. Bizim üçün, Azərbaycan üçün isə, İran həm dostdur, həm qardaşdır, həm də qonşudur. Bunun da böyük tarixi var. İndi, əgər, Siz Cənubi Qafqaz ölkələrini - Gürcüstanı, Ermənistanı, Azərbaycanı götürsəniz, təbiidir ki, İranın onlarla da olaqələrinin tarixi vardır, amma bu tarix o tarixə bənzəmir. Bizim tariximizin, əlaqələrimizin xüsusiyyəti ondan ibarətdir ki, dostluğumuzun, qardaşlığımızın dərin kökləri vardır. Bizi bir-birimizə bağlayan milli-mənəvi, dini ənənələrimiz vardır. Çoxəsrlik tariximizdə biz bu əsrlərin çox hissəsini bir yerdə olmuşuq. Biz bir dinə, eyni köklərə mənsubuq. Bizim adət-ənənələrimiz eynidir. Elə burada otu-

ranlara baxıram, hamısı bir-birinə bənzəyir. Məsələn, burada Sizə bənzəyən azərbaycanlılar nə qədərdir. Amma Sizə bənzəyən bir erməni, gürcü tapa bilməzsiniz. Eləcə də, Sizin səfər yoldaşlarınızın hamısı haqqında bunu demək olar. Mən bunu ciddi deyirəm. Çünki bu, bizim bir kökdən olduğumuzu, genetik köklərimizin bir olduğunu göstərir. Ona görə, Allah-təala bizə bu aqibəti veribdir. **Allah-təala bizi həmişə bir olmağa dəvət edibdir, biz də bir olmuşuq.** Müəyyən səbəblərdən, məsələn, XIX əsrin əvvəllərində biz İrandan ayrılmışıq. İran da Azərbaycandan ayrılıbdır. Bu ayrılıq dövründə də biz bir-birimizdən ayrılmamışıq, bir yerdə olmuşuq.

Siz dediniz ki, Azərbaycan müstəqilliyini əldə edəndə, sərhədlər açılanda insanlar bir-birinə qovuşanda nə qədər böyük ruh yüksəkliyi vardı və nə qədər böyük həsrətdən çıxdılar. O dövrü əks etdirən filmlər vardır. Filmdə göstərilir ki, sərhəddəki tikanlı məftillər götürülübdür. İran tərəfdə insanlar Arazın kənarında durublar, Azərbaycan tərəfdə isə, Arazın kənarında duranlar ağlayırlar. İnsanlar özlərini suya atır, hətta qorxmurlar ki, boğulacaqlar. Buradan o tərəfə, oradan bu tərəfə keçirlər. Belə hisslər ancaq doğma adamlar arasında ola bilər.

Siz Azərbaycanda elə adam tapa bilməzsiniz ki, İranda onun qohumu olmasın. Eləcə də İranda. Amma iş burasındadır ki, Sovet hakimiyyəti vaxtında bizim rəsmi dairələrdə anket doldururdular. Orada göstərilirdi ki, xarici ölkələrdə qohumun var, yoxsa yox. Hamı yazırdı ki, yoxdur. Çünki xarici ölkədə qohumu olan artıq nəzarət altına alınırdı və o, pis hesab olunurdu. Amma müstəqillik əldə olunandan sonra vaxtilə anketlərində "xaricdə qohumum yoxdur" yazanlar gedib xaricdə 10-15 qohumu ilə görüşdülər.

Məsələn, bu 70 illik ayrılıq insanları bir-birindən ayırmayıbdır. Sizin ölkənizdə gözəl bir mahnı - "Ayrılıq" mahnısı var, onu bizdə də sevirlər. Xüsusən o illərdə, müstəqilliyin ilk illərində burada insanlar bu mahnını eşidəndə göz yaşı axıdırdılar. Bu barədə çox danışmaq olar. **Ancaq Sizin və mənim dediklərim eynidir: bizim böyük bir tarixi keçmişimiz, müştərək tarixi köklərimiz vardır. Biz bir dinə, adət-ənənəyə mənsub xalqlarıq. Ona görə də, kimsə istəsə də, istəməsə də biz dost olmalıyıq. Bizim aramızdakı münasibət başqa ölkələrlə olan münasibətlərdən üstün olmalıdır.**

Siz xatırlatdınız ki, müstəqilliyin ilk illərində mən Naxçıvanda idim. Həqiqətən belə idi. Naxçıvan hər tərəfdən bağlı idi. İnsanlar yaşamalı idilər. Ermənistan bizim sizinlə olan sərhədimizi işğal etmişdi. Naxçıvanın dəmir yolu əlaqəsi kəsilmişdi, avtomobil yolu yox idi, təyyarə də o qədər çox adam aparıb-gətirə bilmirdi. Naxçıvanda bizim iqtisadi vəziyyətimiz çox ağır idi. Mən xatırlayıram, o vaxt biz İrandan nə qədər yardımlar aldıq. Sizin hökumət məni Tehrana dəvət etdi. Gəldim. Naxçıvanla İran arasında bir neçə müqavilə imzaladıq. Düzdür, Bakıdakı hakimiyyət bunun əleyhinə idi. Deyirdilər ki, Naxçıvan müstəqil dövlət deyildir, bunu edə bilməz. Ancaq insanları yaşatmaq lazım idi. Biz elektrik xətti çəkdik, Naxçıvana elektrik enerjisi gəldi. İndiyə qədər də biz Naxçıvana elektrik enerjisini İrandan alırıq. Doğrudur, onda elektrik enerjisini pulsuz verirdilər, amma indi pulunu alırsınız.

Həsən Ruhani: İndi sizin vəziyyətiniz çox yaxşılaşıbdır.

Heydər Əliyev: Bizim, yoxsa sizin?

Həsən Ruhani: Sizin. Mən indi Bakını Sovet dövründə gördüyüm Bakı ilə müqayisə edirəm. Görürəm ki, şəhər çox-çox inkişaf edib. Bakı müqayisə olunmaz dərəcədə dəyişib, gözəlləşibdir.

Heydər Əliyev: Düzdür, amma bizim çadırlarda yaşayan bir milyon insanlarımız vardır. Siz çadırda yaşamağın nə demək olduğunu yaxşı bilirsiniz. İraqla İran müharibəsi zamanı siz nə qədər əziyyət çəkdiniz.

İndi Naxçıvana yaratdığınız şəraitə görə mən sizə təşəkkür edirəm. İnsanlar 24 saat ərzində, gecə-gündüz sərhəddən o tərəfə-bu tərəfə keçə bilirlər. Culfa ilə Təbriz arasında artıq dəmir yolu işləyir. Naxçıvandan camaat avtobuslarla Təbrizə, Tehrana, yaxud Məşhədə qədər gedirlər. Ona görə də, mən bununla əlaqədar Sizə xüsusi təşəkkür edirəm.

Naxçıvan indiyə qədər blokada vəziyyətindədir. Azərbaycanla Naxçıvan arasında əlaqə saxlamağımızın iki yolu vardır. Birincisi, təyyarədir, bir də İranın ərazisindən bizə yol vermisiniz, avtomobillərimiz gedib-gəlir. Əlbəttə ki, bunlar dostluğumuzun nümunələridir.

Ancaq Siz doğru deyirsiniz. Bizim bu əlaqələrimizin səviyyəsi nə sizi qane edir, nə də bizi. Deməli, ikimiz də çalışmalıyıq ki, əlaqələrimizin səviyyəsini yüksəldək. Düzdür, ticarət mübadilələrində İran gərək ki, birinci yerdədir. Elədir, yoxsa yox?

Əhəd Qəzayi: Hərdən birinci olur, hərdən ikinci.

Heydər Əliyev: Ola bilər, bir dəfə birinci, bir dəfə də ikinci olsun. Hər halda, beşinci deyildir. Bunun özü yaxşı göstəricidir. Amma bu, azdır. Biz hələ çox işlər görməliyik. Bu işləri görmək üçün də təbiidir ki, gərək Ermənistan-Azərbaycan münaqişəsi aradan götürülsün. Ermənistan Azərbaycanın işğal edilmiş torpaqlarını gərək azad etsin. O cümlədən bizim sizinlə sərhədimizin 130 kilometri onların işğalı altındadır. Bilirəm ki, onlar orada olan bütün dəmir yolunu dağıdıblar. Bizim bir neçə layihələrimiz - Xudafərin layihəsi, başqa layihələr - vardır. Həmin layihələrin həyata keçirilməsi dayanmışdır. İndi gərək biz torpaqlarımızı azad edək və həmin layihələri həyata keçirək.

Şimal-Cənub dəmir yolu xətti çox əhəmiyyətlidir. Biz İran tərəfinə bunu bir neçə dəfə təklif etmişdik. Ancaq bu, təkcə bizdən asılı deyildir. Rusiyadan, bizdən və sizdən asılıdır. Mən məmnunam ki, Rusiya ilə sizin aranızda bu sahədə razılıq əldə olunubdur. Azərbaycan da burada tranzit ölkəsidir.

Rusiyanın nümayəndə heyəti bu məsələ ilə əlaqədar Azərbaycana gəlmişdi. Mən onlara dedim ki, biz buna yüz faiz razıyıq. Bilirsiniz ki, onlar hətta Astaradan Rəştə qədər dəmir yolunun tikilməsini öz üzərlərinə götürüblər. Ona görə də, əgər, siz bu müqaviləni Rusiya ilə tezləşdirə bilsəniz, biz buna hazırıq. Hesab edirəm ki, bu yol Avropa ilə nəinki İran, həm də cənub ölkələri, Hindistan, digər dövlətlər arasında da ən əlverişli, ən qısa, ən ucuz nəqliyyat xətti olacaqdır.

Bir neçə il bundan öncə belə xəbərlər gəlirdi ki, İran Ermənistan, Gürcüstan, Qara dəniz vasitəsilə Avropaya çıxmaq istəyir. Amma Siz bilirsinizmi, bu, nə qədər çətindir. Çünki sizin sərhədinizdən, ərazinizdən Yerevana gedib çatmaq üçün nə qədər çətin və ağır yol var. O yolu mən yaxşı tanıyıram. Qış vaxtı, o yol bəzi hallarda bağlı olur. Siz indi böyük vəsait qoyub Qacarında böyük bir tunel düzəltmək istəyirsiniz. Bir də ondan sonra gedib Gürcüstanın limanından asılı olacaqsınız. Biz o limanın imkanlarını bilirik. Amma Avropadan yüklər dəmir yolu ilə Rusiyaya, Rusiyadan isə Azərbaycana,

Azərbaycandan İrana, İrandan Hindistana, başqa ölkələrə gedəcək, böyük dəhliz yaranacaqdır. Ona görə, mən hesab edirəm ki, siz bu məsələni bir az tezləşdirməlisiniz. Mən bilirəm, hər halda, Rusiya bunu istəyir.

Mən Sizə təşəkkür edirəm ki, Ermənistan-Azərbaycan münaqişəsi başlanan gündən İran Azərbaycanın ərazi bütövlüyünü həmişə tanımışdır və Ermənistanı təcavüzkar kimi qiymətləndirmişdir. Amma iş burasındadır ki, Ermənistan özünü nə təcavüzkar hesab edir, nə də Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

Bilirsiniz ki, biz 1994-cü ildə atəşi dayandırdıq. Yeddi ildir ki, biz münaqişəni sülh, danışıqlar yolu ilə həll etmək istəyirik. Torpaqlarımızın 20 faizi işğal altındadır. Orada Dağlıq Qarabağdan savayı, qalan torpaqlarda nə var idisə, hamısı dağıdılıbdır. Bunu siz bizdən yaxşı bilirsiniz. Çünki orada körpülər vardır. Sizin sərhəddən keçərək onlara baxmaq imkanınız vardır. Biz bilirik ki, orada bəzi ticarət əlaqələriniz də vardır.

Hesab edirik ki, məsələni sülh yolu ilə həll etmək lazımdır. Ancaq iş burasındadır ki, Ermənistan bu barədə konstruktiv mövqe tutmur. Ermənistan tələb edir ki, biz Dağlıq Qarabağa ya tamamilə müstəqillik statusu verək, ya da onu Ermənistana birləşdirək. Biz bununla razı ola bilmərik.

Siz öz ölkənizin təcrübəsini götürün. İraqla sərhəddə sizin torpaqlara hücum ediləndə, onlar zəbt olunanda neçə illər müharibə getdi, nə qədər şəhidlər verdiniz. Amma torpaqlarınızı qoruyub saxladınız.

Vaxtilə müxtəlif səbəblərdən Ermənistan Azərbaycanın torpaqlarını işğal etməyə nail olubdur, amma bu, o demək deyil ki, biz torpaqlarımızı onlara verməliyik. Ona görə də, biz həmişə demişik: İran bu barədə nə cür kömək edə bilərsə, biz belə köməklikdən heç vaxt imtina etmirik.

Ermənistan ilə sizin çox yaxın əlaqələriniz var, dostluq əlaqələriniz var. Mən bilirəm ki, Ermənistanın iqtisadiyyatı İrandan asılıdır. Bir neçə il bundan öncə Ermənistanın keçmiş Prezidenti Ter-Petrosyan bəyan etmişdi ki, əgər, İran ilə iqtisadi əlaqələrimiz iki gün dayansa, Ermənistan boğulacaqdır.

Ona görə də, sizin Ermənistana təsir etmək imkanınız var. Bəlkə də, bütün başqa ölkələrdən fərqli olaraq, siz Ermənistana daha da çox təsir edə bilərsiniz. Ona görə, mən xahiş edərdim ki, bu barədə düşünəsiniz. Sizinlə bu barədə əməkdaşlıq edə bilərik.

İndi Siz dediniz ki, bizim ölkəmizi, Bakını gördünüz, çox yaxşıdır. Həqiqətən, indi bu çətinliklərə, ağırlıqlara baxmayaraq, ölkəmizin iqtisadiyyatı inkişaf edir. Amma ərazimiz işğaldan azad olsa, təbiidir ki, bizim nailiyyətlərimiz daha da çox olacaqdır.

Məlumdur ki, Cənubi Qafqaz ölkələri içərisində Azərbaycanın xüsusi yeri var. Birincisi, Azərbaycan ərazisinə və əhalisinin sayına görə Ermənistandan iki, üç qat üstündür, Gürcüstandan da üstündür. İkincisi də, Azərbaycanın coğrafi-strateji vəziyyəti yaxşıdır. Avropa ilə Asiya arasında dəhliz var, bu dəhlizdə Azərbaycanın xüsusi yeri var. Mən belə başa düşürəm ki, siz Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığınızı gücləndirmək istəyirsiniz və burada təhlükəsizliyin təmin olunmasını arzu edirsiniz. Belə olan halda, gərək Azərbaycan ilə İran arasında əlaqələr xüsusi səviyyəyə qalxsın.

Xəzər dənizinin statusu haqqında dəfələrlə bəyan etmişik ki, biz bu məsələnin beş Xəzəryanı ölkə arasında müzakirə edilib həll olunmasının tərəfdarıyıq. Çünki bilirsiniz ki, hələ 50 il bundan öncə, Sovetlər İttifaqı vaxtında Azərbaycan dənizdə, sahildən 100 kilometr uzaqda, Neft Daşlarında, dünyada ilk dəfə olaraq, neft hasilatına başlayıbdır. Biz Xəzəri yaxşı tanıyırıq.

Həsən Ruhani: Bu, Sovet İttifaqının dövründə başlanmışdı?

Heydər Əliyev: Bəli, 50 il bundan öncə. 50 ildir ki, biz dənizdə neft hasil edirik. İndi biz özümüz, - mən xarici şirkətləri demirəm, - neftin 70 faizini dənizdə hasil edirik, 30 faizi quruda çıxarılır. Bu sahədə bizim böyük təcrübəmiz var. Bir də ki, bizim alimlər-netçilər, geoloqlar Xəzər dənizinin dibində olan neft və qaz yataqlarının öyrənilməsi ilə 60-70 ildir məşğul olurlar. İndi biz Xəzər dənizindəki bəzi yataqlarda xarici şirkətlərlə iş aparırıq. İki müqaviləmizdə sizin OİEC şirkəti də iştirak edir. O cümlədən ən zəngin, qaz yatağında, "Şahdəniz" yatağında OİEC şirkətinin 10 faiz payı var. Bunların hamısı o illərdə, 50 il bundan öncə bizim alimlər tərəfindən kəşf olunmuş yataqlardır.

Xatirimdədir, 1994-cü ildə biz birinci müqaviləni imzalayanda mən çox çalışdım ki, İran da orada iştirak etsin. Bu, mümkün olmadı. Amma 1996-cı ildə biz "Şahdəniz" yatağı barəsində bir çox şirkətlərlə müqavilə bağlayanda, mən özüm İranın həmin OİEC şirkətini dartıb buraya gətirdim və ona 10 faiz pay verdik. Ona görə biz sizinlə əməkdaşlıq edirik.

Amma Xəzərin hüquqi statüsu müəyyən olunmalıdır. Dediyim kimi, bunu da beş ölkə etməlidir. Biz bu barədə hər bir danışıqlara hazırıq. Bir neçə dəfə Tehranda, bir neçə dəfə Aşqabadda, sonra Bakıda görüşlər keçirilmişdir. İndi deyirlər ki, oktyabr ayında Aşqabadda daha bir görüş olacaqdır. Bilmirəm olacaq, ya olmayacaqdır. Ancaq bu məsələni birdən həll etmək mümkün deyildir. Çünki burada çox məsələlər var: Xəzərin mineral chtiyatları, yəni, neft, qaz, Xəzərin dibi, Xəzərin bioloji ehtiyatları, balıq, başqa şeylər, Xəzərdə gəmiçilik, Xəzərin ekologiyası. İndi hərə bir tərəfdən Xəzərdə balıq tutur, qara kürü artıq tükənir və bu, çox yerlərdə qanunsuz edilir, ayrı-ayrı şəxslər tərəfindən edilir. Amma məsələni mərhələ-mərhələ həll etmək lazımdır. Birinci növbədə Xəzərin mineral ehtiyatlarının istifadə olunması barəsində eyni fikrə gəlmək lazımdır. Gəmiçilik, təbiidir, əhəmiyyət kəsb edir.

İki gün bundan öncə sizin Ənzəliyə gedən bir gəmi burada batırdı. Bizim dənizçilər onu xilas etdilər. O sizə yük - taxta və dəmir daşıyırdı. İndi onu sahilə gətiriblər, bizim zavodda təmir edəcəklər. Elə bu da əməkdaşlığın bir nümunəsidir. Ona görə biz buna hazırıq.

Nəhayət, bizim dövlətlərimizin münasibətlərində bir prinsip də olmalıdır. Bilirsiniz ki, Azərbaycan artıq dünyəvi dövlətdir.

Biz dünyəvi dövlətçilik yolu ilə gedirik və gedəcəyik. Biz bundan geriyə dönə bilmərik. Azərbaycan istiqlaliyyətini əldə edəndən sonra bizim Konstitusiyamızda yazılıbdır ki, Azərbaycanda vicdan azadlığı bütün insanlar üçündür. 70 ildir din qadağan edilmişdi. Azərbaycanda cəmi 16 məscid var idi. Amma indi 1236 məscid var. Yəni insanlar ibadət etmək istəyirlər, hər yerdə məscidlər var. Heç kəs heç bir şeyi qadağan etmir. Amma bizdə din dövlətdən ayrıdır. Biz bu yol ilə gedirik və gedəcəyik. Mən bunu sizə deyərək, istəyirəm ki, Azərbaycanın real vəziyyətini biləsiniz. Ermənistan müsəlman ölkəsi deyil ki, siz onlarla dostluq edirsiniz. Biz müsəlmanıq, dinimizi də sevirik, ancaq biz dünyəvi yol ilə gedirik.

Biz dünyanın bütün dövlətləri ilə qarşılıqlı faydalı əlaqələr yaradırıq. Çünki bu,

müstəqil, gənc dövlət üçün və torpaqlarının 20 faizi işğal olunmuş bir dövlət üçün çox lazımdır. Qeyd etdim ki, bizim İranla əlaqələrimiz xüsusi xarakter daşıyır. Eyni zamanda, biz qarşılıqlı faydalı əməkdaşlıq edərək, bir ölkənin o biri ölkənin daxili işlərinə qarışmasının əleyhinəyik, buna etiraz edirik.

Mən çox məmnunam ki, siz Azərbaycanın ərazi bütövlüyünü tanıyırsınız və buna hörmət edirsiniz. Düzdür, sizdə işğal olunan yerlər yoxdur. Amma bu prinsip çox vacib prinsipdir. Biz də İranın ərazi bütövlüyünü tanıyırıq, vahid İranı tanıyırıq, istəyirik ki, İran vahid, qüdrətli dövlət kimi inkişaf etsin. İndi hər ölkənin içərisində proseslər var. Biz bu prosesləri əziyyətini çəkirik. Amma istəyirik ki, siz bu əziyyəti çəkməyəsiniz. İran daha da güclənsin, ərazisi bütöv olsun, xalqı bütöv olsun.

Nəhayət, mən çox məmnunam ki, sizdə bir müddət bundan öncə prezident seçkiləri keçirildi. Tam demokratik şəkildə keçirildi. Hətta, mən oxudum ki, bəzi Qərb ölkələrinin nümayəndələri də seçkilərin demokratik keçirilməsini qeyd ediblər. Sizi bu münasibətlə təbrik edirəm. Mən ağayi Xatəmiyə təbriklərimi göndərmişəm, Sizin vasitənizlə bir də ona təbriklərimi göndərirəm. Gözləyirəm, siz hökumətinizi nə vaxt quracaqsınız, nə vaxt mümkün olacaq İrana gəlim. Çünki dəvətimiz var. Mən Prezident Xatəmini dəvət etmişəm, Prezident Xatəmi məni dəvət edibdir. Bəzi səbəblərdən bu yerinə yetirilməyibdir. Amma indi mən hazıram, necə deyərlər, atımı yəhərləmişəm. Mümkün olan kimi gələcəyəm. Çox sağ olun. Təşəkkür edirəm.

Həsən Ruhani: Hörmətli cənab Prezident, söylədiyiniz çox dəyərli fikirlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mən bir çox məsələyə qısaca toxunmaq istərdim.

İlk növbədə, İranda keçirilən Prezident seçkilərinə belə qiymət verdiyinizə, İran xalqının yüksək fəallıqla cənab Xatəmini özünə Prezident seçməsi haqqında gözəl fikirlər söylədiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

Siz hər zaman İrana gəlmək istəsəniz, İran xalqı da, Prezidenti də Sizi böyük hərarətlə qarşılamağa hazırdırlar. Hər iki ölkənin xalqları onu istəyirlər ki, ölkə başçıları tez-tez gediş-gəliş etsinlər, görüşlər keçirsinlər, biz də bunu istəyirik.

Cənab Prezident, Siz ölkənizin xarici siyasətinin əsas prinsiplərinə toxundunuz. Mən də istərdim ki, İranın xarici siyasətinə dair əsas prinsipləri söyləyim. Birincisi, qarşılıqlı hörmət və ehtiramdır. İkincisi, dostcasına qonşuluq münasibətləridir və bir-birinin daxili işlərinə qarışmamaqdır. Cənab Prezident, Xatəminin siyasəti qonşu ölkələrlə gərginliyi azaltmaq və münasibətləri genişləndirməkdən ibarətdir. Bu siyasəti bütün İran xalqı dəstəkləyir. Əlbəttə, hər ölkənin xalqı özü üçün bir dövlətçilik forması seçir və onu istəyir. Əsas mühüm amil ondan ibarətdir ki, hər ölkədə xalq özü istədiyi hər hansı bir yolu seçsin. Hər hansı bir ölkədə xalq ümumi rəylə, ümumi səslə hər hansı yolu seçirsə, biz ona hörmət bəsləyirik.

Cənab Prezident, Siz elan etdiniz ki, Azərbaycan Respublikası başqa ölkələrlə geniş münasibət qurmaq istəyir. Sözsüz ki, bu, Sizin təbii haqqınızdır. Ola bilsin ki, Sizin münasibət qurduğunuz ölkələrin bəzisinin bizimlə düşmən münasibəti olsun. Biz heç vaxt belə deyə bilmərik və etiraz etmirik ki, bizimlə düşmən olan ölkələrlə sizin əlaqələriniz olmasın.

Əlbəttə, bizim təvəqqemiz bundan ibarətdir, o ölkələrlə ki, siz münasibət qurursunuz, bu, bizim ölkəmizin təhlükəsizliyinə ziyan vurmasın. Biz də belə hesab edirik ki, hər hansı bir ölkə ilə münasibətlərimizdə gərək elə edək ki, sizin ölkənizə təhlükə törətməsin. Amma mən bunu deməliyəm ki, sizinlə bizim münasibətlərimiz xüsusi münasibət formasıdır. Bu, təbiidir. Ona görə ki, sizinlə bizim aramızda çox böyük ilgilər vardır. Biz belə hesab edirik ki, regionda yerləşən ölkələrin təhlükəsizliyinə onlarla münasib əlaqələr çərçivəsində nail ola bilərik.

Azərbaycanın sabitliyi, təhlükəsizliyi, əmin-amanlığı bizim üçün yaddançıxmaz, əhəmiyyətli bir amildir. Biz arzu edirik ki, sizin tədbirli siyasətiniz, həmçinin, ağayi Xatəminin, onun hökumətinin tədbirli siyasəti ilə yaxın gələcəkdə münasibətlərimizdə yeni bir səviyyənin şahidi olaq.

Heydər Əliyev: Təşəkkür edirəm.

***

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurası ilə İran İslam Respublikası Ali Təhlükəsizlik Şurası arasında əməkdaşlıq haqqında memorandum imzalandı.

Memorandumu Azərbaycan tərəfindən Prezidentin İcra Aparatının rəhbəri, Təhlükəsizilik Şurasının katibi Ramiz Mehdiyev və İran tərəfindən İran İslam Respublikası Ali Təhlükəsizilik Şurasının katibi Həsən Ruhani imzaladılar.

İmza mərasimi zamanı Azərbaycan Prezidenti ölkəmizdə latın qrafikasına keçilməsi barədə Həsən Ruhani ilə qısa söhbət etdi. Dövlətimizin başçısı qonağa bildirdi ki, latın əlifbası vaxtilə ölkəmizdə bir müddət tətbiq olunmuşudr. Sonradan Azərbaycan kiril əlifbasını qəbul etmişdir. İndi ölkəmizdə hər iki əlifbanı bilənlər vardır. Buna görə də yenidən latın əlifbasına keçilməsi elə bir problem yaratmayacaqdır.

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLA SEYİD ƏLİ XAMNEYİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm qardaşım!

Gülüstan vilayətində baş vermiş təbii fəlakət üzündən çoxsaylı insan tələfatı və dağıntılar barəsində xəbəri kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

"Respublika" qəzeti, 15 avqust 2001-ci il.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ

Hörmətli cənab Prezident!

Gülüstan vilayətində baş vermiş güclü sel daşqını nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barəsində xəbər məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

"Respublika" qəzeti, 15 avqust 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 28-də Prezident Sarayında İran İslam Respublikası xarici işlr nazirinin Avropa və Amerika məsələləri üzrə müavini və İranın Xəzər dənizi məsələləri üzrə nümayəndəsi Əli Əhaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev demişdir:

- Hörmətli cənab Əhani! Hörmətli nümayəndə heyəti!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda yenidən görməyimdən məmnunam. Düşünürəm, siz də razı olacaqsınız ki, bu səfər, bu görüş bizim tərəfimizdən olan təşəbbüsün nəticəsidir. Yəni biz sizi dəvət etmişik. Hesab edirəm ki, görüşlər tez-tez olmalıdır və İran-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün lazımi tədbirlər görülməlidir.

Mən bilirəm ki, siz bu gün səhərdən görüşlər keçirmisiniz. Düşünürəm ki, bu xeyirlidir və gələcəkdə də belə görüşlər olmalıdır. Beləliklə, biz ölkələrimiz arasında əlaqələri daha da inkişaf etdirə bilərik.

İran-Azərbaycan əlaqələri bizim üçün çox əhəmiyyətlidir, əzizdir. Bu əlaqələrin daim inkişaf etməsi bizim xarici siyasətimizin əsas sahələrindən biridir. Buyurun, sizi dinləyirəm.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən cənab Əli Əhani dedi:

- Cənab Prezident, mənə ayırdığınız vaxta görə çox təşəkkür edirəm. Mən cənab Prezident Xatəminin səmimi salamlarını Sizə çatdırıram. Sizə məhəbbətli sözlərinizə görə də minnətdarlığımı bildirirəm.

Cənabınızın və Azərbaycanın rəsmi şəxslərinin dəvəti bizim tərəfimizdən böyük həvəslə qəbul edildi. Bu da sizlər kimi, bizim də ölkələrimiz arasında münasibətlərə verdiyimiz qiymətin göstəricisidir. Mənim bu səfərim çox əhəmiyyətlidir və bir sıra rəsmi şəxslərlə olduqca faydalı, konstruktiv danışıqlar apardıq.

Cənabınızın son günlərdə göstərdiyi uzaqgörənlik əlaqələrimizin düşmənlərinin nakam qalması istiqamətində çox diqqətəlayiqdir. Çünki bir çoxları böyük maraq və şadyanalıqla İranla Azərbaycan arasında uçurum, əlaqələrdə fasilə yaranmasını gözləyirdilər. İki ölkənin birgə iqtisadi əməkdaşlıq komissiyasına yeni sədr təyin etmək barədə cənabınızın qəbul etdiyi qərar çox əhəmiyyətli idi. Bu da bizə əlaqələrimizin müxtəlif cəhətlərini daha sürətlə inkişaf etdirməyə imkan verir.

Mən bu gün Sizin iqtisadi inkişaf naziri və Xarici İşlər Nazirinizlə çox faydalı danışıqlar apardım. Bu görüşlər cənabınızın İrana səfərini daha yüksək səviyyədə təşkil etməyə kömək edəcəkdir. Bu səfərin tarixi səfər olması üçün hər iki tərəf onun yüksək nəticələrlə müşayiət edilməsinə çalışmalıdır. İranla Azərbaycan bir-birinə qonşu olmaqla bərabər, bir sıra ortaq xüsusiyyətlərə və maraqlara malikdirlər. Bir sıra məsələlərdə, o cümlədən Xəzər məsələsində fikir ayrılığı iki xalq arasında düşmənçilik demək deyildir. Bizim 750 kilometrdən artıq birgə sərhədlərimiz var. Tarixi, mədəni, dini ortaqlıqlarımız var. Təbiidir ki, istənilən fikir ayrılığı danışıqlar şəraitində səmimi şəkildə araşdırılıb həll olunmalıdır. Biz danışıqların və məsləhətləşmələrin davam etdirilməsini dəstəkləyirik.

İki gündən sonra birgə komissiyanın

məsul şəxslərinin və nazirlərin iştirakı ilə Biləsuvar sərhəd bazarının açılış mərasimi olacaqdır. Keçirilən görüşlərdə mümkün olan bəzi məsələlərin yekunlaşdırılması barədə qəti razılıq əldə edilməsi sahəsində çalışmaq qərara alındı. Şübhəsiz, iki ölkənin rəsmi şəxslərinin təkidləri ilə əlaqələrimizin gözəl bir mənzərəsi yaranmaqdadır. Cənabınızın dəstəyi və yardımı ilə ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi sahəsində yeni addımlar ata bilərik.

Xarici İşlər Naziri və onun müavini ilə olan görüşlərimizdə ikitərəfli, regional əməkdaşlıq, eyni zamanda, beynəlxalq səviyyələrdə işbirliyi haqqında faydalı danışıqlarımız oldu. Bu razılığa gəldik ki, siyasi müzakirələrdən əlavə, Xəzər dənizinə aid məsələlərdə texniki ekspert müzakirələri də ciddi şəkildə davam etdirilsin. Bu danışıqlar ölkələrimizin mövqeyini, baxışlarını bir-birinə daha sürətlə yaxınlaşdırmağa kömək edəcəkdir. İranla Azərbaycanın Xəzər məsələsində mövqeyinin yaxınlaşması Xəzəryanı ölkələrin bu dənizin hüquqi statusu məsələsində razılaşmasına kömək edəcəkdir. Əməkdaşlığın inkişafına göstərdiyiniz dəstəyə və yardıma görə cənabınıza təşəkkürümü bildirirəm. Mənim üçün ayırdığınız vaxta görə hədsiz minnətdaram.

Heydər Əliyev: Təşəkkür edirəm. Əvvəla, Prezident cənab Xatəmidən mənə gətirdiyiniz salama görə təşəkkür edirəm. Xahiş edirəm, mənim salamımı, hörmət və ehtiramımı Prezident Xatəmiyə çatdırasınız.

Biz məmnuniyyətlə bildik ki, prezident seçkilərdən sonra sizin ölkədə hökumətin formalaşması tamamilə başa çatıbdır və hökumət artıq yeni tərkibdə öz fəaliyyətinə başlayıbdır. Hesab edirəm ki, bu çox mühüm mərhələni keçəndən sonra İran İslam Respublikası, onun hökuməti və Prezidenti cənab Xatəmi başqa işlərlə daha da dərindən məşğul olmaq üçün imkanlar əldə edibdir.

Təbiidir ki, hər ölkənin müxtəlif problemləri var. Azərbaycanın da problemləri var. İranın da problemləri var. Ancaq hər hökumət öz ölkəsində olan problemlərin tezliklə həll olunmasına çalışır. Bu sırada təbiidir ki, qonşu ölkələrlə əlaqələr xüsusi yer tutur.

Siz İranla Azərbaycanın qonşuluğu haqqında qeyd etdiniz. Bizim böyük sərhədimiz var. Biz İrana dost, qonşu ölkə münasibəti bəsləyirik. Çox yaxşı ki, Siz də qeyd etdiniz, bizim tarixi əlaqələrimiz, ənənələrimiz, ortaq mənəvi dəyərlərimiz var. Bunlar qonşuluqda olan ölkələrin, İran-Azərbaycan əlaqələrinin səmimi, mehriban, dost olması və daim inkişaf etməsi üçün çox mühüm əsasdır. Güman edirəm ki, **İranın qonşularından, yəni, sərhədyanı qonşularından tarixi nöqteyi-nəzərdən, dil, din, mənəvi dəyərlər nöqteyi-nəzərindən ona Azərbaycan kimi yaxın ölkə, Azərbaycan xalqı kimi yaxın xalq yoxdur.**

Biz bunu belə hesab edirik və ona görə də belə düşünürük ki, bu, müasir zamanda, indi dövlətlərarası əlaqələrimizin daim inkişaf etməsi üçün çox dəyərli əsasdır. Ona görə burada fikir ayrılığı yoxdur. Amma məsələnin ikinci tərəfi bu arzuları, istəkləri, fikirləri nə cür həyata keçirməkdən ibarətdir. Bu sahədə hər iki tərəfdən lazımi səylər göstərilməlidir. Təbiidir ki, meydana çıxan problemlər, yaxud çətinliklər - bunlar qarşılıqlı anlaşma, danışıqlar yolu ilə həll olunmalıdır.

Biz kiçik bir dövlətik. Bilirsiniz ki, özümüzün də Ermənistan-Azərbaycan münaqişəsi ilə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi və ərazi bütövlüyümüzün pozulması ilə əla-

qədar, bir milyondan artıq vətəndaşımızın qaçqın vəziyyətində yaşaması ilə əlaqədar çox problemlərimiz var. Ona görə də təbii ki, biz heç bir qonşumuzla hansısa məsələni güc işlətmək yolu ilə həll etmək niyyətində ola bilmərik. Ancaq danışıqlar, qarşılıqlı anlaşma.

İran böyük dövlətdir, qüdrətli dövlətdir. Amma İran da öz qonşularına, xüsusən Azərbaycana qarşı həmişə diqqətli olmalıdır və heç vaxt güc, yaxud da zor nümayiş etdirməməlidir. Hesab edirəm ki, bu prinsiplər əsasında biz dostluq, qonşuluq, əməkdaşlıq əlaqələrimizi bundan sonra daha da sürətlə inkişaf etdirə bilərik.

İran-Azərbaycan Müştərək İqtisadi Əlaqələr Komissiyası vaxtilə müəyyən işlər görübdür. Amma son zamanlar onların işi zəifləyibdir. Siz bilirsiniz ki, mən onun tərkibini dəyişdim və onun sədrini də dəyişdim. Mən belə başa düşdüm ki, sizin tərəfinizdə də sədr dəyişilib. Siz nə üçün dəyişmisiniz, mən bilmirəm. Amma mənim apardığım dəyişikliyin məqsədi ondan ibarətdir ki, son struktur islahatları ilə əlaqədar bizdə yaranmış İqtisadi İnkişaf Nazirliyi bir çox keçmiş nazirliklərin vəzifəsini yerinə yetirir. Ona görə də bu işə belə bir nazirliyin, belə bir nazirin cəlb olunmasını və nazirin bir komissiyaya sədr qoyulmasını mən bu məqsədlə etmişəm ki, iqtisadi əlaqələri genişləndirmək üçün, yəni, bunu dərindən anlamaq üçün, təhlil etmək üçün yaxşı imkanlar yaradır.

Xeyli vaxtdır ki, Biləsuvar bölgəsində, İran-Azərbaycan sərhədində müştərək sərhədyanı bazarın təşkil olunması üçün işlər görülübdür. Ayın 30-da onun rəsmi açılışı olacaqdır. Mən göstəriş vermişəm ki, oraya həm iqtisadi inkişaf naziri, həm Gömrük Komitəsinin sədri, həm də başqa yüksək vəzifəli şəxslər getsinlər, açılışda iştirak etsinlər. Beləliklə də, bu hadisəyə həm nəzər-diqqət cəlb olunsun, eyni zamanda, İran-Azərbaycan əlaqələrinin inkişafında bir addım kimi nümayiş etdirilsin.

Biz Xəzər hövzəsində bütün Xəzəryanı ölkələrlə beynəlxalq hüquq normalarına istinad edərək həmişə sıx əməkdaşlıq etmək niyyətində olmuşuq, bu gün də bu niyyətdəyik. Bilirsiniz ki, Azərbaycan hələ 1949-cu ildən Xəzərdə suyun dərinliklərindən, Neft daşlarında neft hasil edir. O vaxt biz bu işə başlayanda, ondan sonra keçən illərdə dünyada yeganə bir ölkə idik ki, dənizin dərinliklərindən neft hasil edirdik. Onda bu, Şimal dənizində də yox idi, Fars körfəzində, Meksika körfəzində də yox idi. Ancaq təkcə Azərbaycanda idi, sahildən 100 kilometr uzaqlıqda.

Güman edirəm, Siz bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsi olduğuna görə və burada çox böyük elmi potensial olduğuna görə hələ 50-ci illərdən başlayaraq, - çünki 1949-cu ildə biz ilk dəfə suyun dərinliklərindən neft hasil etməyə başladıq, - bizim alimlər, geoloqlar Xəzər dənizinin müxtəlif yerlərində neft və qaz yataqlarının aşkar edilməsi, axtarılması ilə daim məşğul olmuşlar.

Mən qətiyyətlə deyə bilərəm ki, Xəzər dənizində indi neft və qaz yataqları kimi məşhur və məlum olan nöqtələrin hamısı Azərbaycan alimləri tərəfindən kəşf olunubdur. Həm Azərbaycan sektorunda, həm Türkmənistan, həm Qazaxıstan, həm də Rusiya sektorunda - hamısında.

Məsələn, indi Qazaxıstan sektorunda böyük "Kaşaqan" neft yatağı açılıbdır. O vaxt Qazaxıstan Xəzər dənizində bu işlə məşğul olmayıbdır. Biz də bununla müstəqil dövlət kimi məşğul olmurduq, sadəcə, hamımız SSRİ-nin tərkibində olduğumuza görə, SSRİ-nin iş bölgüsünə göro Xəzər dənizinin hər yerində bütün kəşfiyyat işlərini Azərbaycan aparırdı.

Məsələn, indi bizim o vaxtdan işləyən adamlarımız var. O cümlədən Xoşbəxt Yusifzadə. Onlar söyləyirlər və mənim də xatirimə gəlir ki, o vaxtlar neftçilər hamı bir idi, SSRİ-nin neftçiləri idilər. Həmin "Kaşaqan" yatağında qazma işləri aparmaq istəyirdilər. Ancaq o vaxtlar Sovet İttifaqının ekologiya üzrə nazirliyi Xəzərin o hissəsində hansısa belə işin aparılmasına icazə vermirdi.

Rusiyada "Lukoyl" şirkəti indi Xəzərin şimalında, Rusiyanın sektorunda yeni bir quyu qazıbdır və oradan da çox böyük neft hasilatı gözləyirlər. Ancaq yenə də deyirəm, o vaxtlar oralarda qazma işləri aparmaq qadağan idi. Bu işlər ancaq Azərbaycan sektorunda gedirdi. Ona görə də biz 1994-cü ildə əvvəldən gördüyümüz həmin bu işlərdən yenidən, müstəqil dövlət kimi özümüz üçün səmərəli istifadə etməyə başladıq.

Məsələn, indi bizim "Azəri", "Çıraq", "Günəşli" yataqlarımız var. Xatirimdədir, mən 1970-ci illərdə Azərbaycanın rəhbəri olan zaman, - ondan sonra Moskvaya getdim, - orada bizim qazma işləri başlanmışdı. Xüsusən "Çıraq" yatağında. Həmin o "Çıraq"da indi qurulmuş platforma elə o vaxt yaranmışdı. Amma indi onu yenidən düzəltdilər, tamam modernləşdirdilər.

Məsələn, suyun dərinliklərində quyu qazmaq üçün o vaxtlar, - əlbəttə ki, Sovet İttifaqı istehsal edirdi, - bizdə 7 dənə üzən qazma qurğusu vardı: "Şelf-1", "Şelf-2", "Şelf-3", "Şelf-4"... Yaxud indi burada Dərin Dəniz Özülləri zavodu var. Mənim xatirimdədir, 70-ci illərdə Sovet İttifaqının Neft Nazirliyi ilə birlikdə bu zavodun tikilməsini qərara aldıq və Sovet İttifaqının vəsaiti hesabına, - onda bizdə valyuta yox idi, müstəqil deyildik, - ona 400 milyon dollar xərcləndi. Amerika-Fransa şirkəti var idi, zavodu onlardan aldıq, gətirdik və burada qurduq. Azərbaycanda suyun dərinliklərindən neft, qaz hasil etmək üçün olan böyük maddi-texniki baza və elmi potensial heç bir yerdə yox idi.

Yadımdadır, 80-ci illərdə İran hökumətinin xahişi ilə bizim neftçilər İranın sahilində də iki quyu qazdılar. Mən bununla onu demək istəyirəm ki, bizim 1994-cü ildən etibarən gördüyümüz işlər boş yerdən başlanmayıbdır. Bizim on illərlə gördüyümüz işin davamıdır. Bu işə dünyanın bir çox şirkətləri dəvət olundu. Hansı ki, həm maddi, yəni, maliyyə imkanları var, həm də müasir texnikaları var.

O cümlədən biz İranı da dəvət etdik. Məsələn, birinci müqavilədən sonra, 1996-cı ildə bağlanmış ikinci müqavilədə İranın OİEC şirkəti iştirak edir və onun orada 10 faiz payı var. Onu da bilməlisiniz ki, bu, mənim təşəbbüsümlə olubdur. Bilmirəm, onda burada cənab Bəqdeli işləyirdi, yoxsa başqa adam işləyirdi, İran şirkətini buraya gətirmək mənim təşəbbüsümlə olubdur. Mən bu məsələnin tarixindən bir az bildiklərimi demək istədim. Çünki bu məsələnin tarixini, yəqin ki, Neft Şirkətində bir neçə adamdan savayı, mənim kimi bilən olmaz.

Son illərdə Xəzərin statusunun müəyyən olunması problemi meydana çıxıbdır. Bu, təbiidir. Biz həmişə Xəzərin hüquqi statusunun təyin olunmasının tərəfdarıyıq. Ona görə də, bizim ekspertlərimiz, nümayəndə heyətlərimiz bir neçə dəfə İranda olublar, Türkmənistanda olublar. Türkmənistanlılar Azərbaycana gəliblər, Moskvada görüşüblər. Yəni, bir neçə ildir ki, bu görüşlər keçirilir. Bu məsələni həll etmək, bəlkə, o qədər də asan deyildir. Ancaq mən hesab edirəm ki, bu, həlledilməz məsələ

deyildir, həll etmək olar və etmək də lazımdır. Biz bunun tərəfdarıyıq.

Məsələn, son hadisələr oldu. Üç ildir ki, bizim "Alov", "Şərq" və "Araz" yataqları ilə əlaqədar müqavilə bağlanıbdır. Orada kəşfiyyat işləri gedir. Siz orada hərəkətlər etdiniz-gəmi, təyyarə, filan. Ancaq biz o mövqedə durduq ki, danışıq olmalıdır. Xəzərin statusunun müəyyən olunması bir daha gündəliyə gəlməlidir. Ondan sonra Siz Rusiyaya getdiniz, Türkmənistana getdiniz. Amma gördüm ki, Azərbaycandan yan keçirsiniz. Ona görə, dedim ki, bu, ədalətli deyil. Bir halda ki, Rusiyaya, Türkmənistana gedirlər, demək, bizi saymırlar, nədir. Ona görə dedim ki, dəvət edək, gəlin, burada danışaq.

Mən bir daha məmnunam ki, Siz gəlmisiniz. Mən xəbərdarlıq etmişdim ki, mütəxəssislər də gəlsinlər. Bilirsiniz, biri var, xarici işlər nazirinin müavini Xələf Xələfovdur, ya başqasıdır, elə mənim özümü də götürək, amma biri də var ki, bunu müəyyən etmək üçün mütəxəssis lazımdır. Sizdə də çoxlu mütəxəssislər var, bizdə də var, Rusiyada da var. Yəqin, Türkmənistanda da var. Var, yox bunu bilmirəm, amma olmalıdır. Qazaxıstanda da var. Ona görə də bunlar hamısı işləməlidir. Bir tərəfdən mütəxəssislər işləməlidir, ikinci tərəfdən də diplomatlar işləməlidir. Beləliklə, biz ümumi yekdil nəticəyə gələ bilərik. Hesab etmirəm ki, bu, elə məsələdir ki, biz - beş Xəzəryanı dövlət bunu həll edə bilməyək.

Bir daha deyirəm, məmnunam ki, Siz gəlmisiniz. Mən siyahıya baxıb gördüm ki, mütəxəssisləriniz də gəlibdir. Çox gözəl. İndi onlar da bizim Neft Şirkətində işləyirlər. Siz də danışıqlar aparırsınız. Mən də öz fikirlərimi Sizə dedim. Gəlin, bunun əsasında işimizi davam etdirək.

Mənim səfərimi də Siz ləngidirsiniz. Əvvəlcə dediniz, seçkilər olacaq, gözləyin. Seçki olandan sonra deyirəm, yaxşı, indi nədir? Gərək indi hökumət formalaşsın. İndi hökumət formalaşıb, güman edirəm, başqa bir problem qalmayıbdır. Problem bir odur ki, Prezident Xatəminin mənə verdiyi dəvəti həyata keçirim.

Bilirsiniz ki, məndən qabaq bizim milli təhlükəsizlik naziri sizin ölkənizə gələcəkdir. Sonra hesab edirəm ki, indi Müştərək İqtisadi Əməkdaşlıq Komissiyası yeni tərkibdə görüşməlidir və müəyyən etməlidir ki, hansı məsələləri birinci, ikinci, üçüncü növbədə həll etmək olar. Beləliklə, bizim qarşımızda böyük proqram var. Biz bu proqramı Sizinlə bir yerdə yerinə yetirməyə hazırıq.

Əli Əhani: Cənab Prezident, verdiyiniz məlumata görə təşəkkür edirəm. İcazə versəydiniz, çıxışınızla bağlı bir neçə kəlmə deyərdim.

Heydər Əliyev: Buyurun.

Əli Əhani: Biz cənabınızın Tehrana səfərə gələcəyini alqışlayırıq. Sizin İrana səfəriniz məsələsi ciddi şəkildə qoyulduğu vaxtdan etibarən biz planlaşdırma işlərinə başlamışıq.

Cənab Xatəmi Sizin səfərinizin təklif etdiyiniz zamanda reallaşmasını yüksək qiymətləndirmişdir. Əgər, məsləhət bilsəydiniz, səfərinizindən iki-üç gün öncə hazırlıq məqsədi ilə ilkin nümayəndə heyəti Tehrana gələrdi.

Heydər Əliyev: Ola bilər.

Əli Əhani: Birgə komissiyanın iranlı həmsədri, kooperasiya naziri dəyişdiyiən görə, onun yerinə cənab Sufi təyin olunmuşdur. O, əvvəllər Gilanın ostandarı olubdur və Azərbaycan bölgəsi ilə yaxından tanışdır.

Heydər Əliyev: O, deyəsən, buraya gəlibdir.

Əhəd Qəzayi: Cənab Prezident, buraya gələn əvvəlki ostandar idi.

Heydər Əliyev: Bu, sonrakıdır, burada olmayıbdır?

Əhəd Qəzayi: Xeyr.

Əli Əhani: Biz də müzakirələri başlamaq üçün komissiyanın tərkibini İran tərəfdən gücləndirmək fikrindəyik. Ümidvaram ki, cümə axşamı Biləsuvarda azərbaycanlı həmkarları ilə görüşdə onlar yeni planları, layihələri nəzərdən keçirə biləcəklər.

Siz Xəzərdə təcrübə haqqında mühüm məqamlara toxundunuz. Bizim onlar haqqında məlumatımız var. Hər ikimizin malik olduğumuz zəngin təcrübəyə görə, ölkələrimizin bu sahədə işbirliyini və əməkdaşlığını müdafiə edirik. Biz də Xəzərdə baş verən hadisədən çox təsirləndik. Heç vəchlə bunu gözləmirdik ki, üç gün öncə verdiyimiz notalara baxmayaraq, Azərbaycan gəmiləri yenidən mübahisəli sulara daxil olacaqdır. Bu diqqətsizlik və səhv addım bizim maraqlı olmadığımız, lakin öz hüquqlarımızı qorumaq üçün hərbi gücdən istifadə edərək, onları həmin zonadan geri çəkilməyə məcbur etməyimizə səbəb oldu. Biz də Sizin kimi bunu vurğulayırıq ki, ixtilaflar danışıqlar yolu ilə həll olunmalıdır. Buna görə də, Sizin dəvətinizi dərhal qəbul etdik, yüksək qiymətləndirdik və geniş texniki ekspert heyəti ilə birgə buraya gəldik.

Əlbəttə, Bakıya səfərimin gecikməsinin səbəbi o idi ki, biz cənab Xələfovu Tehranda gözləyirdik. Onun növbəsi idi. Lakin biz cənabınızın təşəbbüsünü yüksək qiymətləndiririk və buna görə təşəkkür edirik.

Cənabınızın da məlumatı vardır ki, son 10 ildə, SSRİ-nin dağılmasından sonra, xüsusilə ölkəniz müstəqillik qazandıqdan sonra - qeyd etməliyəm ki, İran ölkənizin müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşudur - Xəzər dənizində yeni şərait formalaşmışdır. Biz buna inanırıq ki, beş sahilyanı ölkə bərabər, qarşılıqlı prinsiplər əsasında dənizin ehtiyatlarından ədalətli şəkildə istifadə edə bilməlidir. Ona görə də, texniki nümayəndə heyətlərindən xahiş etdik ki, müzakirəyə başlasınlar. İndi onların arasında müzakirələr gedir. İnanırıq ki, biz və siz anlaşmaya çalışsaq, bu, digər Xəzəryanı ölkələrin də anlaşmasına kömək edəcəkdir.

Mən cənabınızın diqqətinə və bizə ayırdığınız vaxta görə bir daha təşəkkür edirəm.

Heydər Əliyev: Sağ olun.

Birincisi, hesab edirəm ki, güc işlətmək düzgün deyildir. Siz hərbi gücünüzdən istifadə etməməliydiniz. Bunun üçün danışıqlar lazım idi. Ümumiyyətlə, mən əvvəldən məsələni belə qoymuşam ki, Xəzərin statusu müzakirə olunan zaman Xəzər dənizi tamamilə demilitarizə olmalıdır. Xəzər dənizində hansısa bir Xəzəryanı ölkənin hərbi donanmasının saxlanmasına ehtiyac yoxdur. Güman etmirəm ki, burada hansısa ölkələr bir-biri ilə müharibə aparacaq və hərbi gəmilərdən istifadə edəcəkdir. Biz bu mövqeyin üzərində qəti dururuq ki, **Xəzər dənizi sülh, qardaşlıq, birgə əməkdaşlıq dənizi olmalıdır. Burada hərbi qüvvələr olmamalıdır.** Ona görə, sadəcə, kəşfiyyat gəmisinin orada olduğuna görə hərbi qüvvədən istifadə olunmasını, hesab edirəm, məqsədəuyğun qəbul etmək olmaz.

Bir də bəyan edirəm, qoy indi bizim ekspertlər işləsinlər. Səhv etmirəmsə, sentyabrda Astanada beş Xəzəryanı dövlət...

Xələf Xələfov: Cənab Prezident, sentyabrın 18-20-də Astanada beş Xəzəryanı dövlətin xarici işlər nazirləri müavinlərinin görüşü olacaqdır.

Heydər Əliyev: Yəqin, mütəxəssislər də olacaqdır.

Xələf Xələfov: Bəli.

Heydər Əliyev: Biz buna hazırıq. Əgər, ekspertlər, nümayəndə heyətləri hansısa bir layihə hazırlasalar, biz harada olursa olsun, beş Xəzəryanı dövlətin başçılarının toplaşdığı yerə getməyə hazırıq.

Türkmənistan Prezidenti hörmətli Türkmənbaşı elan etmişdi ki, oktyabr ayının 27-də, yaxud neçəsindəsə orada Xəzəryanı dövlət başçılarının görüşü, sammiti olacaqdır. Amma bu gün mətbuat məlumat verir ki, o, bəyan edib ki, yox, olmayacaqdır. Biz Türkmənistan kimi təşəbbüsü ələ almaq istəmirik. Biz özümüzü həmişə təvazökar aparmışıq. Heç bir iddiamız yoxdur. Məsələnin həll olunması üçün harada lazım olsa, orada görüşməyə hazırıq.

Bir də qeyd edirəm ki, **biz məsələnin, Xəzər dənizinin statusunun ən tez zamanda danışıqlar vasitəsilə, qarşılıqlı anlaşma vasitəsilə, beynəlxalq hüquq normaları prinsipi əsasında müəyyən olunmasının tərəfdarıyıq.** Çünki biz əməli iş görürük. Bizim sektorumuza 10-15 milyard dollar sərmayə qoyulubdur. Ona görə də, biz hamıdan çox maraqlıyıq ki, bu məsələ tezliklə həll olunsun.

Mənim səfərimlə əlaqədar Sizin təklifinizlə razıyam. Yəqin ki, biz bunun vaxtını ayrıca müəyyən edərik. Mən oraya gəlməmişdən qabaq, bizim diplomat qruplarımızı göndərməyə hazıram. İstəsəniz, sizinkilər də buraya gələ bilərlər. Hər halda bu məsələni də həll etmək lazımdır.

Əli Əhani: Cənab Prezident, çox təşəkkür edirəm. Biz Sizin səfərinizin proqramının hazırlanmasına yüksək qiymət verirk. Cənab Xatəmi də bunu vurğulayır ki, beş Xəzəryanı dövlət başçılarının iclası elə bir şəraitdə keçirilməlidir ki, ilkin hazırlıq işləri uğurla müşayiət edilsin.

Qeyd etdiyiniz tarixlə əlaqədar deyə bilərəm ki, bunu Türkmənistan dövləti birtərəfli olaraq elan etmişdi və bununla əlaqədar ekspert məsləhətləşmələri aparılmamışdı. Güman edirik ki, Astanada xarici işlər nazirləri müavinlərinin görüşü bu istiqamətdə daha müsbət şərait yaradılmasına kömək edəcəkdir.

Sizin kimi, cənab Xatəmi də Xəzər dənizinin hərbiləşdirilməsinin qəti əleyhinədir və vurğulayır ki, bütün sahilyanı ölkələr əməkdaşlıq etməlidirlər. Elə şərait yaratmağa çalışmalıdırlar ki, danışıqlar yolu ilə razılıq, anlaşma əldə olunsun. Diqqətinizə və ayırdığınız vaxta görə çox təşəkkür edirəm.

Heydər Əliyev: Çox yaxşı.

"Respublika" qəzeti,
29 avqust 2001-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN "Sİ EN EN-TÜRK" TELEVİZİYA KANALININ MÜXBİRİ GÜRKAN ZƏNGİNƏ VERDİYİ MÜSAHİBƏDƏN:

Sual: Cənab Prezident, İran Xəzər dənizində Azərbaycana güc göstərdi. Bu barədə çətinlik yarandı. Amma sonra hər şey yoluna düşdü. Qarşıda Sizin İrana səfəriniz vardır. Sentyabrın 17-də İrana gedəcəksiniz. Bu sahədə İrana nə mesaj göndərirsiniz, nə deyə bilərsiniz?

Heydər Əliyev: Bilirsiniz, mənim İrana rəsmi səfərimə gəldikdə, İranın yeni Prezidenti cənab Xatəmi hələ dörd il bundan öncə məni İrana dəvət etmişdi. Mən də onu dəvət etmişdim. Çünki İran qonşu ölkədir. Bizim quruda 750 kilometr sərhədimiz vardır. Təkcə bu deyil. İranda çoxlu azərbaycanlılar yaşayır. Keçmişdə bizim müştərək dəyərlərimiz olubdur. Ona görə də, İran bizim üçün yaxın ölkədir.

Mən keçmişdə orada olmuşam. İranın keçmiş Cümhurbaşqanı da burada olmuşdur. Ancaq yeni Cümhurbaşqanı seçilməmişdən əvvəl mən o dəvəti almışdım, ancaq müəyyən səbəblərə görə həyata keçirə bilməmişdim. O da mənə söz verdi ki, öncə sən gəl, sonra da mən gəlim. Nəhayət, biz bunu sentyabrın 17-nə təyin etdik. Yəni, mənim İrana bu səfərim 2-3 il bundan öncə planlaşdırılmış bir səfərdir. Bu, heç bir ekstremal hadisə ilə bağlı deyildir.

Sual: Məlum hadisə ilə əlaqədar getmirsiniz?

Heydər Əliyev: Yox, yox, yox. Bu, öncədən planlaşdırılmışdı.

Mənim bu səfərim geniş xarakter daşıyacaqdır. Çünki biz orada bir neçə anlaşma imzalayacağıq. Bizim İran-Azərbaycan Müştərək İqtisadi Komissiyamız vardır. Neçə ki, Türkiyə ilə var, İran ilə də var. Onlar daim işləyirlər. Biz onları dinləyəcəyik ki, nə iş görüblər, bundan sonra nə iş görə biləcəklər. Bir sözlə, məqsəd İran ilə Azərbaycan arasında olan əlaqələri həm iqtisadi sahədə, həm də digər sahələrdə daha da inkişaf etdirməkdən ibarətdir. O ki, qaldı həmin hadisəyə, bu, gözlənilməz bir hadisədir. Çünki biz 1994-cü ildə ilk müqaviləni imzalayanda hələ heç bir Xəzəryanı ölkə Xəzərdə nə var, nə yox - bilmirdi. Onda heç kəs demirdi ki, Xəzərin statusu lazımdır, ya lazım deyildir. Biz müqaviləni imzalayandan 6-7 ay sonra bu problem qalxdı ki, Xəzərin hüquqi statusu olmalıdır. Yəni, Xəzərdə hansı ölkə nə iş görə bilər. Amma biz də nəyə əsaslanırıq? Sovetlər vaxtı Xəzər iki ölkəyə mənsub olubdur. Biri Sovet İttifaqı, biri də İran. Sovet İttifaqının İran ilə sərhədi çox cənubda, yəni, güneydə olubdur. Çünki yuxarıda Rusiya, Qazaxıstan, o tərəfdə Türkmənistan, burada Azərbaycan var, İran isə, aşağıdadır, yəni, Xəzərin lap güney tərəfindədir. O sərhədi də Sovetlər vaxtı SSRİ ilə, yəni, Sovet İttifaqı ilə İranın sərhədi kimi tanımışdılar və qoruyurdular.İndi Sovetlər İttifaqı yoxdur. Amma Sovet hökuməti o vaxt, 1970-ci ildə Xəzərin neft-qaz ehtiyyatlarının istifadə edilməsi üçün onu sektorlara bölmüşdür. Biz öz bölməmizdə çalışırıq, başqa yerə keçməmişik. Ancaq indi İran deyir ki, yox, belə olanda, İrana az pay düşür. Xəzər beş ölkəyə bərabər bölünməli, hərəsinə 20 faiz düşməlidir. Amma bu coğrafi nöqteyi-nəzərdən mümkün deyildir. Çünki Xəzərin sahilində hansı ölkənin sərhədi varsa, oradan - bir də Xəzərin orta xətti var, orta xəttə qədər bu ölkənin olur. O birisi tərəfdən orta xəttə qədər o ölkənin olur. Rusiya, Qazaxıstan ilə belə anlaşmalarımız var. Amma İran deyir yox, gəlin toplaşaq, Xəzəri beş yerə, hər bir ölkə üçün 20 faiz bölək, ondan sonra çalışaq. Amma bunu necə etmək, onlar bunu deyə bilmirlər. Orada bizim üç neft yatağımız var. 1998-ci ildə BP şirkəti və bir çox şirkətlər ilə anlaşma imzalamışıq ki, orada işləsinlər. Onlar üç ildir orada çalışırlar. Yəni, onlar hələ oranı öyrənirdilər, qeofiziki işlər aparırdılar. Amma İran hesab edir, bir halda ki, Xəzərin statusu hələ müəyyən olunmayıb, İran özünə 20 faiz götürür. O, 20 faiz götürəndə də, gəlib Türkmənistanın və Azərbaycanın payının üzərinə çıxır.

Sual: Siz səfər zamanı Tehranda bunlar barədə danışacaqsınız?

Heydər Əliyev: Danışacağam. Bunu danışmışıq və danışacağıq. Ona görə də, əgər, elə olsa, yenə də həmin yataqlar İrana düşmür, İranın olmur. Amma indi belə ediblər. Hər halda danışacağıq.

Sual: Sizcə, bir uzlaşma formulu varmı?

Heydər Əliyev: Uzlaşma formulu odur ki, gərək biz - beş ölkə Xəzərin bölünməsi problemini çözək. Bunu çözmədən heç kəs heç bir şey deyə bilməz. İndi kimsə burada güc işlədirsə, bu, beynəlxalq hüquq normalarından kənardır.

Sual: Cənab Prezident, bu günlərdə "Türk ulduzları" Bakı səmasında uçuşlar keçirdilər. Bu, Sizin İrana mesajınızmı idi? Belə bir şeyə izn verdiniz, Azərbaycan xalqı da bunu Azadlıq meydanında seyr etdi.

Heydər Əliyev: Bilirsiniz, İran hesab edir ki, bu, İrana mesajdır. Ancaq Türkiyənin Baş qərargah rəisi hörmətli Hüseyn Qıvrıqoğlunun Azərbaycana dəvəti iki ay öncə olmuşdu. Bu dəvət proqramında da "Türk ulduzları"nın buraya gəlməsi var idi. Amma gəlib bu vaxta düşdü. İndi dünyada da, orada da deyirlər ki, bu, İrana bir mesajdır. İndi kim nə cür anlayır, qoy o cür anlasın.

Sual: Cənab Prezident, İran, Türkiyə, Rusiya - böyük neft ehtiyatı olan müstəqil Azərbaycan dövlətinin başçısı kimi bu böyük oyunçular arasında bu incə siyasəti necə həyata keçirirsiniz? Bunun formulu nədir?

Heydər Əliyev: Burada hələ Türkmənistan da vardır. Onu unutmayın. Türkmənistan da türk dövlətidir. İran da, Azərbaycan da, Türkmənistan da, Qazaxıstan da müsəlman ölkələridir. Ancaq siz özünüz dediniz ki, bu, incə siyasətdir. İndi həmin incəliyin yolunu axtarırıq...

Sentyabr 2001-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev oktyabrın 27-də Prezident Sarayında İran İslam Respublikasının ölkəmizdəki səfiri Əhəd Qəzayini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev səfiri salamlayaraq demişdir:

- Mənim səfərimi də təxirə saldınız...

Əhəd Qəzayi: İnşallah, əncam çəkərik.

Heydər Əliyev: Neçə dəfədir təxirə düşüb, bu dəfə də artıq getməyə hazırlaşmışdım, ayın 17-də səhər mən çıxırdım, ayın 16-da, Siz bilirsiniz, səbəblərini Sizə dedim.

Əhəd Qəzayi: Bəli, İranda da hazırlıq vardı. Siz buyurduğunuz sənədlər kifayət qədər hazır olmadı. Amma onu da hazırlamağa yollar var idi. Ancaq, nə isə, mən özüm də mütəəssir oldum. İranda Sizi qarşılamağa getmişdim. Sizin nümayəndə heyəti, Xarici İşlər Nazirliyinin idarə rəisi də gəlmişdi. Amma nazir gəlsəydi, o səviyyədə elə orada söhbəti qurtarardılar, hər şey də hazırlanardı. Vaxt bir az imkan vermədi.

Heydər Əliyev: Xarici İşlər Nazirliyinin idarə rəisi oraya gəldi, 6 iqtisadi sənəd hazırlandı. Onların hamısı paraflandı. Ancaq ondan qabaq mən neçə dəfə dedim ki, bizim əsas siyasi sənədlərimizi hazırlayaq.

Birincisi, bilirsiniz, mən təklif etmişdim ki, İran-Azərbaycan münasibətləri ilə əlaqədar dostluq və əməkdaşlıq haqqında müqavilə imzalansın. Çünki biz 1994-cü ildə belə bir müqavilə imzalamışıq, indi zaman keçib, çox dəyişikliklər var və belə bir müqavilənin imzalanmasına ehtiyac var. Bir də, siyasi bəyanat da lazım olan bir şey idi. Bunun da layihəsini bizim tərəf hazırlamışdı. Amma sizin tərəf bunu ləngitdi və ayın 16-da mənə gətirib verirlər ki, bilirsiniz, birinci müqavilə hazır deyil, filandır... Bəyanat da başqa bir məzmunda... Təbiidir ki, hər tərəf öz təklifini, öz layihəsini verə bilər. Heç bir tərəf o biri tərəfə diqtə edə bilməz, hökm edə bilməz ki, bu olmalıdır. Amma dövlətlərarası münasibətlərdə də prinsip var. O prinsip də ondan ibarətdir ki, hər tərəf öz fikrini deyir, oturub məsləhətləşirlər, razılaşırlar, bundan sonra bir nəticəyə gəlirlər və sənəd imzalayırlar. Amma sizin tərəf buna yol vermədi. Ona görə də mən gördüm ki, sənədlər yoxdur, mən oraya iki günlüyə gəlirəm. İki gün ərzində bizim proqramımız var, görüşlərimiz, danışıqlarımız var. Amma sənədlər yoxdur. Gərək orada iki gün sənədlərin razılaşdırılması ilə məşğul olaq, sonra başqa işlərə başlayaq. Təbiidir ki, bu da mümkün deyildir. Bunlar da həmişə dövlət başçılarının səviyyəsində olmur ki... Nazirlər səviyyəsində, nazir müavinləri səviyyəsində olur. Yəni, vaxtında bu işlərə sizin tərəf, nədənsə, lazımi münasibət göstərmədi. Ona görə də, hörmətli cənab Prezident Xatəmi bu barədə mənə telefon edəndə, bunun hamısını izah etdim, çox ətraflı izah etdim. O da dedi ki, indi də hər şey qurtarmayıbdır, görüşərik. Mən də hesab edirəm ki, görüşərik. Ona görə də mən əvvəlki fikrimdən geri çəkilmirəm.

Mənim İrana səfər etmək planım yerində qalır. Ancaq, bir halda ki, belə bir vəziyyət yarandı, bu da sizin tərəfin səbəbindən yarandı, indi gəlin danışaq. Sənədlər razılaşdırılsın, bizim adamlar oraya getsin, sizin adamlar buraya gəlsin. Müəyyənləşdirək ki, biz hansı sənədləri qəbul edəcəyik. Hər iki tərəfin razılığı olsun. Bunlar hazır olandan sonra oraya gedə bilərik. Mən gəlib orada sənədin üzərində işləməyəcəyəm, amma cənab Xatəmi də sənədin üzərində işləməyəcək. Elədirmi? Ona görə də mənim fikrim belədir.

Əhəd Qəzayi: Çox sağ olun. Mən Sizin buyurduğunuz söhbətin içərisində idim. Mən də İrana getdim. Biz də çox can atdıq, amma vaxt az oldu. Təyin olunan vaxtda çatdıra bilmədik. Ərz etdiyim kimi, vaxt imkan vermədi. Düzdür, Azərbaycandan da İrana nümayəndə heyəti gəldi. Amma ərz etdim, idarə rəisi səviyyəsində olduğuna görə, onların özləri bilavasitə bu məsələni həll edə bilmədilər. Nümayəndə heyəti o səviyyədə gələndə İran da məsələnin müzakirəsi üçün idarə rəisini təyin edir.

Heydər Əliyev: Yox. Sən dedin ki, gələndə gələnlər iqtisadi məsələlərlə bağlı sənədləri hazırlamışdılar. Onlarda problem yox idi, sənədlər hazırlanmışdı. Amma siyasi məsələləri...

Əhəd Qəzayi: Düz deyirsiniz, onlarda problem yox idi. Mənim təklifim budur ki, bu müşkülə əlac edək. Yenə də Siz indi İrana nazir səviyyəsində bir nümayəndə heyəti göndərəsiniz ki, bu məsələni müzakirə edə bilsinlər. Siz dediyiniz kimi, hər şey əvvəlcədən hazırlanar, hər iki tərəf bunu qəbul edir. Cənab Xatəmi də Sizinlə söhbətində dedi ki, sənədlər nə vaxt hazır olsa, Sizin yolunuzu gözləyir. Biz də ona can atırdıq ki, bu səfər baş tutsun, iki ölkə arasında həll olunmalı məsələlər barədə prezidentlər səviyyəsində fikir mübadiləsi aparılsın və yekunlaşdırılsın, sənədlər imzalansın. Sizin səfəriniz də, xüsusilə bizim münasibətlərimizdə yeni səhifələr açardı.

Hazırkı zaman və şərait, baş verən hadisələr - bunlar gözlənilməz idi. Bunlarla əlaqədar mən cənab Vilayət Quliyev ilə də telefon əlaqəsi saxlamışdım. Hər halda, ikitərəfli razılıqla əldə edilməyən sənəd bu səfərin geri düşməsinə səbəb oldu.

Biz yenə də, Siz dediyiniz kimi, o səviyyədə indidən də başlasaq, İran və Azərbaycan - iki qardaş və qonşu ölkə arasında, qarşıya çıxan məsələləri həll edərik. İldə biz bir dəfə yox, dəfələrlə görüşməliyik ki, bütün məsələlər həll olunsun.

Ağayi Ruhani buraya gəldi, biz isə gözləyirik ki, cənab Ramiz Mehdiyev də İrana gəlsin. Sizin təhlükəsizlik naziriniz İrana gəldi. Daxili işlər nazirimiz də buraya gəlməyə hazırdır. İnşaallah, biz Sizin İrana səfərinizi də gözləyirik. Siz necə planlaşdırsanız, biz də səfir kimi öz vəzifəmizi yerinə yetircəyik.

Heydər Əliyev: Mən etiraz etmirəm. Yəni, mən əvvəlki fikrimdə qalıram. Birincisi, Prezident ağayi Xatəminin dəvəti ilə mənim İrana səfərim yerində qalır. İkincisi, Siz o vaxt dediniz, mən milli təhlükəsizlik nazirini İrana göndərdim. Sizinki buraya gəlməyibdir.

Əhəd Qəzayi: Gələcəkdir.

Heydər Əliyev: Ağayi Ruhani Azərbaycana gəldi, bizim də Mehdiyev getməlidir, danışarıq, getsin. Lazım olsa, Xarici İşlər Naziri İrana gedə bilər. Ancaq sənədləri də Xarici İşlər Naziri, nə də başqa nazir, nə o biri hazırlamır. Ona görə də, mən yenə də deyirəm, iqtisadi sənədlər hazırdır. Birincisi, bizim və Sizin tərəf gərək otursunlar, İran ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq, - onu necə adlandırsaq da, məzmunu bundan ibarətdir, - haqqında bir müqavilə hazırlansın ki, biz belə bir müqaviləni imzalayaq. İkincisi, siyasi bəyanat... Bunlar, əgər, sizin və bizim tərəfimizdən hazırlanıb razılığa gəlinərsə, mən səfər etməyə hazıram. Amma gəlin müəyyən edək, nə qədər vaxt lazımdır ki, bunlar hazır olsun... Hazır olandan sonra isə, qalanları çətin deyildir. Bir-iki gün o tərəfə, yaxud beş gün bu tərəfə... Vaxt tapıb gəlmək olar. Mənim fikrim belədir. İndi deyirsiniz ki, Siz İrana gedirsiniz. Xahiş edirəm, mənim bu fikirlərimi hörmətli ağayi Xatəmiyə, öz nazirliyinizə çatdırasınız. Gəlin, işimizi davam etdirək.

Əhəd Qəzayi: Siz buyurdunuz, elə indi də nümayəndə heyəti, hansı naziri göndərməyi Siz təklif versəniz, qərar qəbul etsəniz, İrana gəlsələr, işə başlaya bilərlər. O sənədləri işləyə və hazırlaya bilərlər.

Heydər Əliyev: Siz gedin, mənim bu sözlərimi çatdırın. Əgər, sizin tərəf hazırdırsa və səlahiyyətli adamlar, bu işlə məşğul olan adamlar ayırarsınızsa, mən də bu işlə məşğul ola bilən səlahiyyətli adamları ayıraram. Gəlsinlər, orada bir az işləsinlər, bir az da gəlib burada işləsinlər. Yəni, məsələni həm o tərəf bilsin, həm də bu tərəf. Ondan sonra, hər şey hazır olan kimi, mən İrana səfər edim.

Əhəd Qəzayi: Mən Sizin bu söhbətinizi şəxsən cənab Prezidentə çatdıracağam və gəlib hüzurunuzda xəbər verəcəyəm. Biz də çalışırıq, istəyirik ki, səfərlər başlansın. Bu səfərlər nəticəsində ölkələrimiz öz münasibətlərini istədikləri kimi quracaqlar. Əlbəttə, münasibətlərimiz vardır. Ancaq biz istəyirik ki, bundan da yaxşı olsun, iki ölkəyə layiq münasibətlər yaradılsın. Mən bunu gedib ölkəmdə müvafiq yerlərə çatdıracağam.

"Respublika" qəzeti,
28 oktyabr 2001-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 5-də Prezident Sarayında İranın Bakıdakı səfiri Əhəd Qəzayini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev səfiri salamlayaraq demişdir:

- Keçən dəfə biz Sizinlə İran-Azərbaycan əlaqələri haqqında çox geniş söhbət etdik. İndi yenidən görüşürük. Mən bir daha

bəyan edirəm, necə ki, Azərbaycan dövləti, şəxsən mən də İran-Azərbaycan əlaqələrinin genişlənməsinin, inkişaf etməsinin nəinki tərəfdarıyam, bunun üçün çalışıram və çalışacağam. **Hesab edirəm ki, bizim ölkələrimiz arasında olan dostluq, qardaşlıq əlaqələri daha da möhkəmlənməlidir, daha da inkişaf etməlidir.** Mən həmişə demişəm, indi də deyirəm, biz müstəqil dövlətik, Azərbaycan müstəqil dövlətdir. İran ömür boyu müstəqil dövlətdir. Biz müstəqilliyimizi on il bundan öncə almışıq. Amma İran elə nə qədər var, o qədər də müstəqil dövlətdir. Böyük dövlətdir, qüdrətli dövlətdir. Biz vahid İranı tanıyırıq. Burada bəzi başqa fikirlər meydana çıxır, onları mən Sizə keçən dəfə də demişəm, indi də deyirəm ki, o, ayrı-ayrı insanların fikridir. Vahid İran, böyük, güclü İran və bizimlə dost, qonşu, qardaş İran... Ona görə də, bir səfir kimi, Sizin də borcunuz ondan ibarətdir ki, çalışasınız Sizin də dövlətin siyasəti, Azərbaycan dövlətinin də siyasəti, bax, bu istiqamətdə inkişaf etsin, irəli getsin.

Dövlətimizin başçısına təşəkkürünü bildirən **Əhəd Qəzayi** demişdir:

- Cənab Prezident, çox sağ olun. Əvvəlcə mən Ramazan ayı münasibətilə Sizi və Azərbaycan müsəlmanlarını təbrik edirəm. Cənab Prezident Xatəminin Ramazan ayının əvvəlində Sizə ünvanladığı təbrikini göndərmişəm, yəqin ki, almısınız.

Mən oktyabrın 22-də Sizinlə görüşəndən sonra iki dəfə İrana getdim. Sizinlə olan danışıqlarımız barədə İranda geniş söhbətlər apardıq. Şükür olsun ki, İran tərəfi həm müqaviləni hazırlamışdır, - o dəfə Siz soruşdunuz ki, müqavilə nə səbəbə hazır deyildir, - həm də bizim tərəfdən bəyanatlar hazırdır. Gözləyirik, inşaallah, Siz rəvac verəsiniz. Sizin nümayəndə heyətiniz gərək İrana gedə və müqaviləni tamamlaya.

Cənab Xatəmi ilə söhbət zamanı dedi ki, - baxmayaraq ki, orucluq ayında biz qonaqları qəbul etmirik, - əgər, hazırlıq olarsa, biz cənab Prezidenti orucluq ayında da qəbul edə bilərik. Ona görə də, İran tərəfindən sənədlər hazırlanıbdır. Siz nə vaxt istəsəniz buradan yüksək səviyyəli nümayəndə heyəti İrana gedə bilər, hər hansı fikir ayrılığı olarsa, onu da yoluna qoyar və beləliklə, Sizin səfəriniz üçün hər şey hazır olar. Biz orada Sizi gözləyirik.

Heydər Əliyev: Çox sağ olun, çox məmnunam. Mən mütləq göstəriş verərəm, yüksək səviyyəli bir nümayəndə heyəti gedər. Burada da müəyyən layihələr var. Bilirsiniz, o vaxtları bizim tərəf də layihə hazırlamışdı. Gedərlər, orada birlikdə müqavilələri, layihələri birləşdirərlər, hər şeyi hazırlayarlar. Ondan sonra, bunlar hazır olan kimi mən də İrana getməyə hazıram. Orucluq olmasına baxmayaraq, mən də İrana getməyə hazıram.

Əhəd Qəzayi: Ağayi Səfəri də Xəzərin statusu üzrə danışıqlarda İranın xüsusi nümayəndəsi təyin edilmişdir. MDB ölkələri üzrə əlaqələrə görə o, məsuliyyət daşıyır. İnşaallah, dekabrın 11-də o, Bakıya gələcəkdir. Yəqin ki, inşaallah, görüşünüz olar və söhbət edərsiniz. O, uzun müddət Moskvada, Avropa ölkələrində səfir işləmişdir. Nüfuzlu bir diplomatdır ki, Xəzər üzrə danışıqlarda İranın nümayəndəsi təyin edilmişdir.

Sizin dediyiniz kimi, əsas mətləb Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycanın tərkibində olmasıdır. İran həmişə Azərbaycanın ərazi bütövlüyünə və Dağlıq Qarabağın onun ayrılmaz hissəsi olmasına səs veribdir, yenə də bunun tərəfdarıdır. Bunun özü göstərir ki, İran hələ də Azərbaycanın müstəqilliyini də, ərazi bütövlüyünü də tanıyıbdır. Bir qonşu və

qardaş ölkə kimi bundan sonra da tanıyacaqdır.

Heydər Əliyev: Hələ də yox, həmişə.

Əəhd Qəzayi: Bəli, həmişə tanıyıbdır və bundan sonra da tanıyacaqdır.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Bəli, bu, çox əhəmiyyətlidir və mən inanıram ki, İran Birləşmiş Millətlər Təşkilatında bu barədə bizə səs verəcəkdir.

Ağayi Səfərinin buraya gələcəyi barədə mənim məlumatım var. Hesab edirəm ki, bu, çox düzgün qərardır. Gəlsin, söhbət edək. Elə bir məsələ yoxdur ki, insan onu həll edə bilməsin. Hər şeyi həll etmək mümkündür - əgər, hər iki tərəfdən buna, doğrudan da, səmimi münasibət olsa. Hesab edirəm ki, bu məsələlərin hamısını həll edəcəyik. Ağayi Səfəri ilə mən də görüşəcəyəm. Ramazan ayı ilə əlaqədar ağayi Xatəminin təbrikinə görə təşəkkür edirəm. Bu münasibətlə mən də ona təbrikimi göndərmişəm. Xahiş edirəm, mənim salamımı, hörmət və ehtiramımı ona çatdırasınız.

Hesab edirəm ki, bizim işlərimiz yaxşı gedir. Sağ olun.

"Respublika" qəzeti,
6 dekabr 2001-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 23-də Prezident Sarayında İran İslam Respublikasının daxili işlər naziri Əbdülvahid Musəvi-Larinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev demişdir:

- Hörmətli cənab nazir!
Hörmətli səfir!
Hörmətli qonaqlar!
Azərbaycana xoş gəlmisiniz.

Sizin bu səfərinizdən çox məmnunam. Düşünürəm ki, bu, İranın daxili işlər nazirinin Azərbaycana ilk səfəridir. Bunun özü yaxşı işarədir. Bu, onu göstərir ki, bizim əlaqələrimiz inkişaf edir və o dərəcəyə çatıb ki, hətta daxili işlər naziri də Azərbaycana gəlir.

Sizin burada apardığınız danışıqlar, keçirdiyiniz görüşlər haqqında mənə söylədilər. Milli təhlükəsizlik naziri Namiq Abbasov, daxili işlər naziri Ramil Usubov mənə ətraflı məlumatlar veriblər. Mən çox məmnunam ki, siz ölkələrimizi maraqlandıran məsələlər brəsində geniş fikir mübadiləsi aparmısınız və əməkdaşlığımızın inkişaf etməsi üçün lazımi işlər görmüsünüz. Bizim ölkələrimiz arasında bu sahələrdə çox böyük işlər görülməlidir. Təbii, sizin təcrübəniz böyükdür. Siz böyük ölkəsiniz. Bizdə də müəyyən təcrübə var. Bunları paylaşmaq, bölüşmək lazımdır və bunlardan istifadə etmək, müştərək işlər görmək lazımdır. Buyurun.

Prezident Heydər Əliyevə səmimi qəbula görə minnətdarlıq edən İranın daxili işlər naziri Əbdülvahid Musəvi-Lari dedi:

- Cənab Prezident, ürəkaçan sözlərinizə görə Sizə təşəkkürümüzü bildiririk.

Bizə burada, Prezident Aparatında görüş üçün yaratdığınız şəraitə görə Sizə təşəkkürümüzü bildiririk. Biz belə hesab edirik ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar vardır. Bizim tarixi köklərimiz, birgə mədəniyyətimiz, dini birliyimiz tələb edir ki, bu gün rəhbər işçilər, əlaqədar məsul şəxslər daha

çox çalışsınlar və əlaqələrimizin genişləndirilməsi üçün daha böyük işlər görülsün. Qardaş Azərbaycan Respublikası ilə əlaqələrimizin genişləndirilməsi İranın xarici siyasətində görüləcək işlərin sərlöhvəsini təşkil edir.

İran İslam Respublikasının Prezidenti cənab Xatəminin hərarətli salamını Sizə çatdırmağı özümə borc bilirəm. Tehrandan yola düşməzdən əvvəl son saatları mən cənab Xatəminin yanında olmuşam. O, mənə tapşırdı ki, onun səmimi qardaş salamını Sizə çatdırım.

Cənab Prezident mənə tapşırdı Sizə çatdırım ki, yaxın gələcəkdə Sizi Tehranda qəbul etmək üçün şərait hazırdır. Sözsüz ki, Sizin Tehrana səfəriniz münasibətlərimizdə yeni səhifə açacaq, dönüş mərhələsi olacaqdır. İnşallah, yaxın gələcəkdə Sizin səfəriniz həyata keçirilər.

Cənab Prezident, hörmətli nazirlərlə keçirdiyimiz görüşlər, əldə etdiymiz razılıqlar haqqında Sizə məlumat verməzdən əvvəl, icazə verin, mənimlə gəlmiş nümayəndə heyətinin üzvlərini Sizə təqdim edim.

Cənab Seyid Həmid Tehai Ərdəbil əyalətinin ostandarıdır. Əsədullah Kiyanersi İslam Şurası Məclisinin üzvüdür, İsfahandan seçilmiş millət vəkilidir və eyni zamanda parlamentdə Təhlükəsizlik Komissiyasının üzvüdür. Cənab Qəzayini Siz tanıyırsınız.

Heydər Əliyev: Bəli, tanıyıram.

Əbdülvahid Musəvi-Lari: Cənab Qulamhüseyn Boləndian təhlükəsizlik və nizam-intizam məsələləri üzrə nazir müavinidir. Cənab Əlirza Beqdeli İran Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə ikinci idarəsinin rəisidir.

Heydər Əliyev: Onu da tanıyıram.

Əbdülvahid Musəvi-Lari: Cənab Prezident, Sizə bir daha minnətdarlığımı bildirirəm ki, görüşmək üçün bizə fürsət yaratdınız.

Heydər Əliyev: Təşəkkür edirəm.

Hörmətli cənab Xatəminin mənə göndərdiyi salamlara görə, ona təşəkkürümü bildirirəm. Eyni zamanda, mən öz tərəfimdən ona ən səmimi qardaşlıq salamımı göndərirəm. Xahiş edirəm, mənim salamlarımı, hörmət və ehtiramımı ona çatdırasınız.

Mənim İrana səfərim barəsində məsələlər artıq həll olunubdur. İmzalanacaq sənədlər artıq hazırlanıb, razılaşdırılıbdır. Mən çox böyük məmnuniyyətlə gözləyirəm ki, nə vaxt Tehranda olacağam.

Mən də hesab edirəm ki, bizim Tehrandakı görüşlərimiz, danışıqlarımız İran-Azərbaycan əlaqələrinin daha da sürətlə inkişaf etməsi üçün çox səmərəli olacaqdır. Beləliklə, hesab edirəm ki, indi bizim əlaqələrimiz artıq əvvəlkindən xeyli yaxşıdır. Amma ondan da yaxşı olmalıdır. Bizim sizinlə vəzifəmiz bunu etməkdir. Güman edirəm ki, indi bunun üçün böyük imkanlar vardır. Biz birgə işləməliyik. Sağ olun.

24 yanvar 2002-ci il

AZƏRBAYCAN-İRAN ƏLAQƏLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ DÖVLƏTİMİZİN SİYASƏTİNİN ƏSAS XƏTLƏRİNDƏN BİRİDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev martın 11-də Prezident sarayında Əliəsgər Şerdust başda olmaqla İran İslam Respublikası parlamenti İran-Azərbaycan dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Bu görüşdən məmnun qaldığını bildirən Prezident Heydər Əliyev nümayəndə

heyətinin ölkəmizə səfəri müddətində keçirdiyi çoxsaylı görüşlərdən xəbərdar olduğunu vurğuladı.

İran-Azərbaycan dostluq qrupunun rəhbəri Əliəsgər Şerdust İran Prezidenti Məhəmməd Xatəminin səmimi salamlarını Azərbaycan dövlətinin başçısına çatdırdı. Nümayəndə heyətinin üzvlərini Prezident Heydər Əliyevə təqdim etdikdən sonra Əliəsgər Şerdust Azərbaycana indiki səfərinin təəssüratından danışdı. O, Azərbaycanda və onun ayrılmaz hissəsi olan Naxçıvanda son vaxtlar görülmüş quruculuq işlərinə heyran qaldığını ifadə etdi, Milli Məclisdəki səmərəli görüşlərdən söhbət açdı. Səfər günlərində ölkəmizdə müşahidə etdikləri sabitliyin onlarda xüsusi təəssürat doğurduğunu vurğulayan nümayəndə heyətinin başçısı Azərbaycanın bugünkü yüksəlişində Prezident Heydər Əliyevin müstəsna xidmətləri olduğunu bildirdi.

İran Prezidentinin səmimi salamlarına görə təşəkkürünü bildirən Prezident Heydər Əliyev özünün ən xoş arzularını cənab Xatəmiyə çatdırmağı xahiş etdi. Prezident Heydər Əliyev vurğuladı ki, **İranla dostluq münasibətlərinin inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin başlıca istiqamətlərindən biridir.** Bu münasibətlər dövlətlərarası müqavilələr və imzalanmış digər sənədlər əsasında nizamlanır. Dövlətimizin başçısı bu əlaqələrin hər iki ölkənin mənafeyi naminə genişləndirilməsinə tərəfdar olduğunu söylədi. Azərbaycan Prezidenti İrana səfərinin təxirə salınmasının obyektiv səbəblərini açıqladı və bildirdi ki, bu səfərin gerçəkləşməsi üçün səfirlər vasitəsilə tədbirlər davam etdirilir. Əliəsgər Şerdust dedi ki, Azərbaycan Prezidentinin İran İslam Respublikasına qarşıdakı səfəri onun ölkəsində böyük maraq doğurmuşdur. Bu səfər zamanı aparılacaq danışıqlar və imzalanacaq sənədlər iki qonşu dövlət arasında münasibətlərin daha da genişlənməsində müsbət rol oynayacaqdır. Qonaq İran parlamentində təmsil olunmuş azərbaycanlı deputatların fəaliyyəti barədə də məlumat verdi. Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsi yolunda qarşıya çıxan problemlər və onların aradan qaldırılması yolları və digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 11-də Prezident Sarayında İran İslam Respublikasının Xarici İşlər Naziri Kamal Xərrazini və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə qarşılayan dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Hörmətli cənab nazir ağayi Xərrazi!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz. Hörmətli ağayi Xərrazi, mən Sizin Azərbaycana gəlmək haqqında qəbul etdiyiniz qərardan çox məmnunam. Guman edirəm ki, Sizin bu qısamüddətli səfəriniz İran-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox faydalı olacaqdır.

Mən bir neçə vaxtdır ki, İrana gəlməyə hazırlaşıram. Amma bizdən asılı olmayan bəzi hadisələr bu səfərin müəyyən qədər ləngiməsinə gətirib çıxarır. Ancaq belə bir şəraitdə Sizin Azərbaycana, Bakıya gəlməyiniz, hesab edirəm ki, çox faydalıdır.

Bu gün qısa müddətdə Baş nazirlə, Xarici İşlər Naziri ilə görüşləriniz olub və guman edirəm ki, bu görüşlər yaxşı keçibdir. İndi də biz Sizinlə görüşüb söhbət etmək imkanı əldə etmişik. Buyurun.

Səmimi qəbula görə Prezident Heydər Əliyevə minnətdarlığını bildirən İranın Xarici İşlər Naziri Kamal Xərrazi dedi:

- Cənab Prezident, çox sağ olun. Mən çox şadam ki, ikinci dəfədir Sizinlə görüşürəm. Keçmiş görüşdən yaxşı və yadda qalan xatirələrim vardır. Sizinlə keçirdiyim görüşdən mən çox faydalanmışam. Belə ki, **Siz dünya miqyasında böyük bir siyasətçi kimi tanınırsınız.**

Xoşbəxtlikdən, İran-Azərbaycan münasibətləri gündən-günə inkişaf etməkdədir. Sözsüz ki, xarici işlər nazirlərinin gediş-gəlişləri, səfərləri münasibətlərimizin inkişafına daha çox müsbət təsir göstərə bilər. Azərbaycanın Xarici İşlər Naziri cənab Vilayət Quliyevlə biz belə qərara gəlmişik ki, görüşlərimizi mütəmadi şəkildə, altı aydan bir həyata keçirək. Sözsüz ki, iki dövlətin başçılarının möhkəm siyasi iradələri nəticəsində bizə bu görüşləri keçirmək və həll olunmayan məsələləri daha da tez bir müddətdə həll etmək müyəssər ola bilər.

Cənab Prezident, ölkəmizin Prezidenti cənab Xatəmi Sizə çox səmimi və hərarətli salamlarını çatdırmağı mənə tapşırmışdır. Deməliyəm ki, Sizin şəxsiyyətinizə onun çox böyük hörməti vardır. O, İranla Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi diqqət yetirir və bunu təkidlə izləyir. Belə hesab edirəm ki, Zati-aliləri, Sizin və cənab Xatəminin siyasi iradəsi nəticəsində iki ölkə arasında, Azərbaycan və İran arasında münasibətlər gündən-günə daha da genişlənəcək və vüsət tapacaqdır. Təşəkkür edirəm.

Heydər Əliyev: Sağ olun. Təşəkkür edirəm.

Əvvəla, çox məmnum ki, mənim dostum Prezident cənab Xatəmi öz salamlarını Sizin vasitənizlə mənə çatdırıbdır. Təşəkkür edirəm. Xahiş edirəm, mənim salamlarımı və ən xoş arzularımı cənab Xatəmiyə çatdırasınız.

Mən Sizinlə tamamilə razıyam ki, İran-Azərbaycan əlaqələri inkişaf etməkdədir. Çox sevindirici haldır ki, hər iki tərəf - həm Azərbaycan, həm də İran bu əlaqələri daha da inkişaf etdirmək istəyir. Mən bəyan edirəm ki, biz İranı qonşumuz, dostumuz və qardaş ölkəmiz hesab edirik. İran ilə olan əlaqələrimizə biz xüsusi əhəmiyyət veririk. Bu əlaqələri həm möhkəmləndirmək istəyirik, həm də daim genişləndirmək, inkişaf etdirmək istəyirik. Doğrudur, bu əlaqələrin inkişaf etməsinə maneçilik törədənlər də var və ümumiyyətlə, ayrı-ayrı əngəllər də çıxır. Ancaq bunların heç birisi bizim İran-Azərbaycan əlaqələri haqqında siyasətimizə heç bir təsir göstərə bilməz.

Bu yaxınlarda Sizin Parlamentin deputatlarının bir qrupu cənab Şerdustun rəhbərliyi ilə Azərbaycana gəlmişdir. Mən də onlarla görüşdüm, çox faydalı söhbətimiz oldu. Belə görüşlər bizim işlərimizə kömək edir. Mən tam razıyam ki, Siz, İranın və Azərbaycanın xarici işlər nazirləri belə qərar qəbul etmisiniz ki, altı aydan bir ya İranda, ya da Azərbaycanda görüşəsiniz. Mən bu fikiri dəstəkləyirəm. Ümidvaram ki, bu, çox səmərəli olacaqdır. Bilirsiniz ki, mənim İrana gəlməyimlə əlaqədar artıq biz lazım olan sənədlərin hamısını işləyib hazırlamışıq. İndi sənədlər masanın üstündədir. Həm dostluq, əməkdaşlıq haqqında muqavilə, həm də siyasi bəyanat. Doğrudur, bunları o səviyyəyə gətirmək üçün bir müddət hər iki tərəfdən çalışdıq. Ancaq, eyni zamanda, bu da təbiidir ki, heç şey bir dəfədən alınmır. Ona görə, mən hesab edirəm ki, artıq bizim

sənədlərimiz hazırdır. Bilirsiniz ki, mənim Amerika Birləşmiş Ştatlarına getməyimlə əlaqədar və orada müəyyən qədər müalicə almağımla əlaqədar o vaxt səfər edə bilmədim. Biz danışacağıq, yaxın vaxtlarda bizim ikimizin də qərarını həyata keçirəcəyik.

Biirsiniz, 11 sentyabr hadisələrindən sonra bizim regionda çox mürəkkəb vəziyyət var. Hamımız beynəlxalq terrorizmlə mübarizəyə daha da fəal qoşulmalıyıq. Biz bu barədə öz siyasətimizi bəyan etmişik. Bildiyimə görə, İran da bəyan edib ki, beynəlxalq terrorizmlə mübarizədə bütün başqa ölkələr kimi, o da öz fəaliyyətini göstərəcəkdir. Biz bu mübarizəni aparmalıyıq. Ona görə ki, bizim bölgəmizdə sülhü, əmin-amanlığı, təhlükəsizliyi daha da etibarlı qoruya bilək. Biz bu sahədə də İranla əməkdaşlıq edirik və bundan sonra da edəcəyik. Həll olunmamış başqa məsələlər ki var, məsələn, bizim iqtisadi əlaqələrimiz sahəsində, guman edirəm, onları yavaş-yavaş həll edə bilərik.

Kamal Xərrazi: Çox sağ olun, təşəkkür edirəm.

Hörmətli cənab Prezident, sözsüz ki, Sizin səfəriniz münasibətlərimizin daha da sürətlə inkişaf etməsinə öz müsbət təsirini göstərəcəkdir. Ümidvarıq ki, Sizə münasib olan yaxın bir vaxtda bu səfər həyata keçiriləcək, Siz cənab Xatəmi ilə danışıqlarınızı davam etdirəcəksiniz və bunun münasibətlərimizin inkişafına öz müsbət təsiri olacaqdır.

Parlamentlərarası gediş-gəlişlər, yəni, səfərlər də çox əhəmiyyətli olur. Cənab Şerdustun Azərbaycana səfəri İranda çox müsbət qarşılanmış və geniş əks-səda doğurmuşdur. İstər parlamentdə, istərsə də mətbuatda onun səfərinin nəticəsi geniş işıqlandırılmışdır. Sözsüz ki, bu regiondakı dəyişikliklər çox sürətlə baş verir. Zati-aliləri, Siz dediyiniz kimi, 11 sentyabrdan sonra terrorizmə qarşı mübarizəyə çoxları qoşulub. Və bu regionda sülhün, əmin-amanlığın təmin olunması üçün daha böyük işlər görülməlidir. Bildiyiniz kimi, 11 sentyabrdan sonra biz bu hərəkəti, yəni, terrorizmi tənqid etdik. Biz belə hesab edirik ki, gərək terrorizmə qarşı birgə mübarizə aparılsın, onun kökü beynəlxalq səviyyədə bu yolla kəsilə bilər. Biz Əfqanıstanın qonşu ölkəsi olduğumuza görə, mütəşəkkil cinayətkarlıqdan və digər xoşagəlməz hadisələrdən çox böyük ziyan görmüşük. Biz bu gün çox şadıq ki, Əfqanıstanda müvəqqəti hökumət təşkil olunub və beynəlxalq təşkilatlar onlara kömək edirlər. Ümidvarıq ki, narkotik vasitələrə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə və digər sahələrdə lazımi işlər həyata keçiriləcəkdir.

Regiondakı ən böyük problemlərdən biri Qarabağ problemidir. Ümidvarıq ki, region dövlətlərinin himayəsi nəticəsində, o cümlədən, İran İslam Respublikasının himayəsi nəticəsində Qarabağ problemi ədalətli həll yolunu tapacaqdır. Biz bu sahədə Azərbaycana kömək etməyə hazırıq. Xoşbəxtlikdən, biz həm Azərbaycanla, həm də Ermənistanla yaxşı münasibətlər qura bilmişik. Belə bir nəticə cənab Xatəminin gərginliyi azaltmaq siyasəti nəticəsində əldə olunubdur.

Biz Qarabağ məsələsinin həll olunmasını regionda iqtisadi əlaqələrin inkişafı üçün lazımi bir şərt kimi qəbul edirik. Belə hesab edirik ki, Azərbaycanın müdafiə qüdrətinin möhkəmlənməsi, təmin olunması və siyasi fəaliyyəti davam etdirmək nəticəsində bu münaqişəni həll etmək olar.

Biz Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirmək və daha da genişləndirmək üçün əzmlə çalışırıq. İndiyə qədər bəzi işlər görülüb, amma belə hesab edirik ki, bunlar hələ lazımi qədər deyildir. Biz düşünürük ki, müxtəlif sahələrdə, o cümlədən tikinti, ticarət, birgə sərmayələr qoymaq sahəsində, enerji daşıcıyıları ilə bağlı məsələlərdə bir çox işlər görə bilərik. Əlbəttə, adını çəkdiyim sahələrdə ekspertlər səviyyəsində danışıqlar davam edir. Lakin istərdim ki, Sizin tapşırığınız olsun. Sizin göstərişiniz nəticəsində danışıqlar daha sürətlə davam etdirilə bilər və lazımi nəticəyə gəlib çatarıq.

Mən bir daha təkrar edirəm ki, Azərbaycanın istiqlaliyyəti, səadəti bizim əsas məqsədimizdir və bu sahədə yenə də çalışacağıq, işlərimizi davam etdirəcəyik.

Heydər Əliyev: Cənab Xərrazi, təşəkkür edirəm. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması sahəsində Sizin bundan sonra da səylər göstərmək məqsədinizi mən alqışlayıram və təşəkkür edirəm. Bu münaqişə artıq çox illərdir davam edir. **Münaqişənin həll edilməsində dost, qardaş, qonşu ölkə olan İranın həm dəstəyinə, həm də yardımına həmişə ehtiyacımız olubdur. Bu gün də belədir.** Ancaq Ermənistala əlaqələrinizin yaxşı olması Sizin siyasətinizin nəticəsidir. Amma mən istəməzdim ki, Siz Azərbaycanla Ermənistana olan münasibətinizi bir tərəzidə eyni çəkidə saxlayasınız. Siz buyurdunuz ki, xoşbəxtlikdən Azərbaycanla yaxşı əlaqələr qurmusunuz, Ermənistanla da yaxşı əlaqə qurmusunuz, bu da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında faydalı ola bilər. Bu, doğrudur. Ancaq İran-Azərbaycan əlaqələrini İran-Ermənistan əlaqələri ilə bərabərləşdirmək olmaz. Çünki bizim ölkələrimizi, xalqlarımızı bir-birinə bağlayan böyük tarixdir, bizim tarixi köklərimizdir, bizim müştərək mədəniyyətimizdir, adət-ənənələrimizdir, bizim bir dinə mənsub olmağımızdır. Amma Ermənistanla Sizin yəqin ki, ancaq iqtisadi əlaqələriniz var. Ona görə, rica edirəm ki, bu əlaqələrə eyni gözlə baxmayasınız.

İqtisadi məsələlər, hansıları ki, Siz dediniz, həqiqətən də, bizim əlaqələrimizdə belə problemlər var. Biz bunları tədricən həll edirik. Xatirinizdədir, bizim Müştərək İqtisadi Komissiyamız bir neçə vaxt bundan öncə İranda toplaşdı və orada çox yaxşı müzakirələr keçdi. Ancaq hələ işlərin çoxu həll olunmayıbdır. Mən öz tərəfimdən əlavə göstərişlər verəcəyəm ki, bu əlaqələrin inkişaf etdirilməsi üçün, həm bizim Müştərək Komissiya çərçivəsində, həm də bütün başqa sahələrdə lazımi tədbirlər görülsün.

Kamal Xərrazi: Zati-aliləri, çox sağ olun. İran ilə Azərbaycan arasında bizi bağlayan əlaqələr, o cümlədən tarixi, mədəni, dini əlaqələr, sözsüz ki, hər iki xalq üçün böyük sərvətdir. Biz bunların əsasında mövcud olan imkanlardan gələcək üçün geniş istifadə etməliyik. Amma, bəlkə də, bunları - İranın Azərbaycanla və İranın Ermənistanla əlaqəsini müqayisə etmək olmaz. İstər dərinliyi baxımından, istərsə də vüsəti baxımından İranla Azərbaycanın münasibətlərinin həddi-hüdudu ola bilməz. Ona görə, Sizin işarə etdiyiniz o birgə müştərək ilgilər buna əyani sübutdur. Biz yoxlamalı və baxmalıyıq ki, hansı sahələrdən daha geniş istifadə edək ki, əlaqələrimiz ən yüksək nöqtəsinə gəlib çatsın. Biz buna tamamilə hazırıq. Belə hesab edirik ki, iki tərəf arasında iqtisadi, siyasi, mədəni əlaqələrdən və eyni zamanda, regional beynəlxalq məsələlər çərçivəsində mövcud olan imkanlardan daha da geniş istifadə edə bilərik və əlaqələrimizin miqyası bundan da artıq ola bilər.

Mən çox şadam ki, ikitərəfli münasibətlərimizdə belə bir ruh mövcuddur. Zati-aliləri, ümidvaram ki, Sizin rəhbərliyiniz və

cənab Xatəminin rəhbərliyi altında məsələlər tezliklə öz həllini tapacaq və ikitərəfli münasibətlərimizdə daha böyük işlər görə biləcəyik.

Heydər Əliyev: Sağ olun.

"Xalq qəzeti",
12 aprel 2002-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRAN SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 21-də Prezident Sarayında İranın Bakıdakı səfiri Əhəd Qəzayini qəbul etmişdir.

Respublikamızın rəhbəri Heydər Əliyev səfirlə hal-əhval tutaraq dedi ki, İrana nəzərdə tutduğu səfəri may ayında, münasib vaxtda həyata keçiriləcəkdir. Beləliklə, həm Azərbaycan, həm də İran əməkdaşlıq sahəsində irəliyə gedəcəkdir.

Dövlətimizin başçısı bildirdi ki, indi isə, məqsədimiz Xəzəryanı dövlətlərin başçılarının Aşqabad görüşündə iştirak etməkdir. İran Prezidentinin də iştirak edəcəyi bu görüşün Xəzər dənizində əməkdaşlıq sahəsində yeni mərhələ açacağına ümid etdiyini söyləyən Prezident Heydər Əliyev dedi ki, Xəzəryanı ölkələr sıx əməkdaşlıq etməli və Xəzər dostluq, mehriban qonşuluq və səmərəli əməkdaşlıq dənizi olmalıdır. Xəzərdə heç bir dövlət digərinə hədə-qorxu gəlməməli, zor işlətməməlidir. Bütün məsələlər beynəlxalq hüquq normaları və Xəzər dənizində yaranmış təcrübə əsasında həll olunmalıdır.

Səfir Prezident Xatəminin ikitərəfli görüşlər keçirmək üçün Aşqabada bir qədər tez gedəcəyini vurğuladı.

Prezident Heydər Əliyev bildirdi ki, Aşqabadda Azərbaycan və İran Prezidentlərinin də təkbətək görüşləri olacaqdır.

Dövlətimizin başçısı daha sonra səfirə müraciətlə dedi ki, Siz bizim bəzi qəzetlərdə dərc edilmiş materiallar haqqında narazılığınızı bildirmisiniz. Mən bunu başa düşürəm. Ancaq Sizinlə söhbətdə dedim və indi də bildirmək istəyirəm ki, qəzetlərdə yazılanlar Azərbaycanın dövlət siyasətinə aid deyildir. Bu, ayrı-ayrı alimlərin, jurnalistlərin, şəxslərin fikirləridir. Onlar da bunu vaxtaşırı deyirlər. Bəzi qəzetlərdəki bu yazılara mən öz münasibətimi bildirdim ki, həmin xəritəni dərc etməklə və xüsusən o xəritədə Təbriz şəhərinin üzərində müstəqil Azərbaycanın bayrağını verməklə onlar səhv edirlər. Bu ağılsızlıqdan əmələ gələn şeydir. İran bütöv dövlətdir. Azərbaycan da əsas prinsip kimi hər bir dövlətin ərazi bütövlüyünü müdafiə edir. Çünki Azərbaycanın özünün ərazi bütövlüyü pozulubdur.

Prezident Heydər Əliyev xatırlatdı ki, Azərbaycan neçə vaxtdır separatçı qüvvələrlə mübarizə aparır. Dağlıq Qarabağın üzərində hansısa başqa bir dövlətin bayrağının olmasını Azərbaycan heç vaxt qəbul edə bilməz. Doğrudur, onlar indi özlərinə uydurma bir "cümhuriyyət" yaradıblar, "bayraq" yaradıblar. Amma heç kəs, heç bir ölkə bunları tanımır. Ermənistan da Dağlıq Qarabağın müstəqilliyini rəsmi tanımayıbdır. Sadəcə, müharibə gedibdir, döyüşlər olubdur. Ermənistanın silahlı qüvvələri bəzi səbəblərdən Azərbaycan ərazisinin bir qismini işğal ediblər. Birinci növbədə Dağlıq Qarabağı işğal ediblər. Biz bununla razılaşmırıq və razılaşmayacağıq da. Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik. Azərbaycanın bütün ərazisində dövlətimizin suverenliyi bərpa olunacaqdır.

Azərbaycan Prezidenti dedi ki, öz problemlərimizi həll etmək əvəzinə, indi bəzi adamlar dünyanın bir çox məsələlərini həll etmək istəyirlər.

Harada nə olub, hansı dövlət olub, nə cür olubdur - bunlar keçmişdə qalıbdır. Amma reallıq bundan ibarətdir ki, Azərbaycan vaxtilə Rusiyanın, sonra isə, Sovetlər İttifaqının tərkibində olubdur. Nəhayət, on il bundan əvvəl ölkəmiz müstəqillik əldə edibdir. İndi müstəqil Azərbaycan var. İranda da Şərqi Azərbaycan var, Qərbi Azərbaycan var. Onlar İranın ostanları, yəni, əyalətləridir. Buna heç kəsin şübhəsi yoxdur və ola da bilməz. Qəzetlərdəki həmin yazıların müəllifləri İran-Azərbaycan əlaqələrinə zərər gətirirlər. Biz çalışmalıyıq ki, əlaqələrimizi qoruyaq və əməkdaşlığımızı möhkəmləndirək.

İran İslam Respublikası Azərbaycanın ərazi bütövlüyünü tanımışdır və indi də tanıyır. Azərbaycan da İranın ərazi bütövlüyünü tanıyır. İranın heç bir bölgəsinə heç kəsin iddiası ola bilməz.

Səfir Əhəd Qəzayi dedi ki, iki ölkə arasında münasibətlərə xələl gətirən belə hallara kimlərsə bilərəkdən, bəziləri isə, dərk etmədən yol verirlər. İranla Azərbaycan arasında dostluq, qardaşlıq münasibətlərini istəməyənlər isə bundan istifadə edirlər. Diplomat belə hallara münasibətini açıqladığına görə dövlətimizin başçısına bir daha təşəkkür edərək dedi ki, bunu öz ölkəsinin rəhbərliyinə çatdıracaqdır.

İranın Xarici İşlər Nazirinin ölkəmizə qısa müddətli səfəri zamanı Azərbaycan Prezidenti Heydər Əliyevlə, digər rəsmi şəxslərlə görüşlərindən onun razı qaldığını vurğulayan Əhəd Qəzayi əmin etdi ki, səfir kimi o, İranla Azərbaycan arasında münasibətlərin daha da yaxşılaşdırılması üçün əlindən gələni edəcəkdir.

"Xalq" qəzeti",
23 aprel 2002 - ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞÜ

Aprelin 23-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşü olmuşdur.

Prezident Heydər Əliyev və Prezident Seyid Məhəmməd Xatəmi bir-birini mehribanlıqla salamladılar, bu görüşdən çox məmnun olduqlarını bildirdilər.

Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabadda keçirilən ilk Zirvə görüşünün Xəzərin problemlərinin həll olunmasında, sahilyanı ölkələrin qarşılıqlı surətdə faydalı əlaqələrinin genişləndirilməsində mühüm rol oynayacağına əmin olduğunu vurğulayan Prezident Heydər Əliyev, eyni zamanda, Azərbaycan-İran münasibətlərinə toxundu və ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə daha da inkişaf etdirilməsinin zəruriliyini nəzərə çatdırdı.

Prezident Xatəmi ölkələrimizin qarşılıqlı münasibətlərindən söhbət açaraq bildirdi ki, İran Azərbaycanla səmərəli əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəkdir. **İran Prezidenti Seyid Məhəmməd Xatəmi Azərbaycan Prezidenti Heydər Əliyevə siyasətdə xüsusi rolu, zəngin təcrübəsi olan bir dövlət xadimi kimi böyük hörmət bəslədiyini bildirdi. Cənab Xatəmi, istər ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi, istərsə də beynəlxalq, regional məsələlərin həlli üçün Prezident Heydər Əliyevin böyük təcrübəsindən həmişə istifadə edilməsinin vacib olduğunu xüsusi vurğuladı.**

Cənab Xatəmi Azərbaycan Prezidenti Heydər Əliyevin Tehrana rəsmi səfərini səbrsizliklə gözlədiklərini bildirdi.

Xoş sözlərə görə İran dövlətinin başçısına təşəkkür edən Prezident Heydər Əliyev İran İslam Respublikasına yaxın vaxtlarda səfər edəcəyini nəzərə çatdırdı.

Görüşdə Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabad Zirvə görüşü, Azərbaycan-İran əməkdaşlığının perspektivləri, regionda vəziyyət və hər iki ölkəni maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İRANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezideti Heydər Əliyev İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin dəvəti ilə mayın 18-də bu ölkəyə rəsmi səfərə yola düşmüşdür.

Prezident Heydər Əliyev yola düşməzdən əvvəl Binə hava limanında kütləvi informasiya vasitələrinin nümayəndələrinə müsahibə vermişdir:

- Mən İrana rəsmi səfərə gedirəm. İranın Prezidenti cənab Xatəmi məni dəvət edibdir. Səfərin də məqsədi İran-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsindən ibarətdir. Kimin nə sözü varsa, buyursun.

Sual: Cənab Prezident, görüşünüzdə Xəzərin statusuna dair müzakirələr aparılacaqmı və bu müzakirələrdən nə gözləyirsiniz?

Heydər Əliyev: Bəli, aparılacaq. Ola bilməz ki, mən İrana gedim, orada Xəzərin statusu haqqında müzakirə aparılmasın. Aparılacaqdır.

Sual: Cənab Prezident, Sizcə, bu səfər arada olan mübahisələrə son qoya bilərmi?

Heydər Əliyev: Çalışırıq ki, mübahisələr olmasın.

Sual: Cənab Prezident, Sizə yaxşı yol və cansağlığı arzu edərək, istərdim soruşum ki, İranın bölgədəki mövqeyi baxımından iki ölkə arasındakı əlaqələrin Azərbaycan üçün nə kimi önəmi ola bilər?

Heydər Əliyev: Bu əlaqələr həm Azərbaycana, həm də İrana lazımdır. Biz qonşuyuq və keçmişdə çox əlaqələrimiz olubdur, bu gün də var. İndi bu əlaqələrin bütün sahələrdə - iqtisadiyyat, mədəniyyət, elm, təhsil, idman və başqa sahələrdə inkişaf etdirilməsi və dövlətlərarası münasibətlərin daha da mehribanlaşması həm İran üçün, həm də Azərbaycan üçün lazımdır.

Sual: Azərbaycan İran üçün nə kimi önəm daşıyır və nə edə bilər?

Heydər Əliyev: Bunu dedim, Azərbaycan da İran üçün çox önəmlidir, İran da Azərbaycan üçün önəmlidir.

Sual: Cənab Prezident, İranda yaşayan azərbaycanlılarla Sizin görüşləriniz nəzərdə tutulurmu?

Heydər Əliyev: Orada dövlət işində olanların bir hissəsi elə azərbaycanlılardır. Onlarla görüşəcəyəm.

Sual: Cənab Prezident, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı söhbət aparılacaqmı?

Heydər Əliyev: Mütləq aparılacaq.

Sual: Sizin səfərinizdən sonra İran bu münaqişənin həllinə fəal surətdə cəlb oluna bilərmi?

Heydər Əliyev: Baxarıq.

Sual: Cənab Prezident, belə bir məlumat var ki, iyun ayında Norveçdə Koçaryanla Sizin görüşünüz gözlənilir. Bu məlumat doğrudurmu?

Heydər Əliyev: Ola bilər ki, nə vaxtsa biz görüşək, amma bunun vaxtı müəyyən olunmayıbdır.

Sual: Cənab Prezident, Praqa görüşünün nəticəsi necə oldu?

Heydər Əliyev: Onu biz hələ təhlil etməmişik.

Sual: Bu səfərdən gözlədiyiniz nədir?

Heydər Əliyev: Gözləyirəm ki, İranla Azərbaycan bir-biri ilə daha da mehriban, dost olsunlar.

Sual: Cənab Prezident, sahibkarlarla Sizin görüşünüzdən sonra hansı tədbirlər görüləcəkdir?

Heydər Əliyev: Mən birinci görüşdə də, ikiinci görüşdə də demişdim. Bu görüşlərin nəticələri çox ətraflı, ciddi təhlil olunur. Bunların əsasında lazımi tədbirlər hazırlanır. Bunlar hazırlanan zaman mən Azərbaycanın hakimiyyət orqanlarının nümayəndələri ilə görüş keçirəcəyəm.

Sual: Görüşün nəticələrinə uyğun olaraq hansısa kadr dəyişiklikləri ola bilərmi?

Heydər Əliyev: Yaşayarıq, görərik.

Sual: Səfər zamanı siyasi bəyannamə imzalanacaqmı?

Heydər Əliyev: Çox yaxşı bir müqavilə imzalanacaqdır.

Sual: İran-Azərbaycan əlaqələrinin inkişafı bölgədə sülhün və sabitliyin bərqərar olmasına nə kimi təsir göstərəcəkdir?

Heydər Əliyev: Yaxşı təsir göstərə bilər. Görürəm, sözünüz qurtarıbdır. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞÜ

Mayın 18-də Tehranda, İran Prezidentinin dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi arasında təkbətək görüş olmuşdur.

Görüşün əvvəlində dövlət başçıları və digər rəsmi nümayəndələr jurnalistlərin suallarına cavab verdilər.

Sual: Cənab Xatəmi, İran fələstinliləri müdafiə etməyə, İsrail ilə əlaqələri kəsməyə çağırır. Bəs, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə İrandan belə bir mövqe gözləmək olarmı?

Məhəmməd Xatəmi: Mənə sual verdiyinizə görə təşəkkür edirəm. Amma mən gözləyirdim ki, jurnalistlər əvvəlcə hörmətli qonğımıza, sonra mənə sual verəcəklər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə İranın mövqeyi məlumdur. Biz Ermənistanın Azərbaycana təcavüzünü pisləmişik və bunu müxtəlif beynəlxalq təşkilatlarda, yüksək səviyyələrdə elan etmişik. Biz belə fikirdəyik ki, bu münaqişə danışıqlar və sülh yolu ilə həll olunmalıdır.

Sözsüz ki, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll edilməməsindən narahatıq, amma Fələstində baş verən hadisələr tayı-bərabəri olmayan qeyri-insani fəlakətdir. Bunu digər hadisələrlə müqayisə etmək mümkün deyildir. Torpağın qəsb edilməsi, işğal olunması bir məsələdir, həmin torpaq üzərində

yaşayan insanların - qadınların, uşaqların vəhşicəsinə öldürülməsi isə çox ağır məsələdir. İctimaiyyət bu hadisəyə xüsusi diqqət yetirir, belə görünür ki, bu faciəyə dözmək olmaz.

Sual: Hörmətli cənab Prezident Heydər Əliyev, Sizin İrana səfərinizin məqsədi nədən ibarətdir?

Heydər Əliyev: Sizə təşəkkür edirəm. Mənim İrana rəsmi səfərimin məqsədi Azərbaycan-İran dostluğunu və əməkdaşlığını daha da inkişaf etdirməkdən ibarətdir. Biz qonşu ölkələrik, qədim müştərək tariximiz vardır, milli-mənəvi dəyərlərimiz bir-birinə bənzərdir, bunlar hamısı xalqlarımızın tarixən dostluğunu təmin edibdir.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra çox ölkələrlə dostluq, əməkdaşlıq əlaqələri qurub və bunu inkişaf etdirir. Azərbaycan ilə İran arasındakı əlaqələr də on il bundan əvvəl qurulub və ötən müddət ərzində böyük yol keçibdir. Ancaq biz hesab edirik ki, bu əlaqələr daha da genişləndirilməli, inkişaf etməlidir. Bax, bu məqsədə nail olmaq üçün mən İrana rəsmi səfərə gəlmişəm.

Sual: Cənab Xərrazi, istərdik ki, Azərbaycan Prezidenti ilə apardığınız danışıqların məzmununu açıqlayasınız. Hazırda İran ilə Azərbaycan arasında müəyyən problemlər mövcuddur. Həmin problemlərin, heç olmasa, arzuedilməz meyllərin qarşısının alınmasında Prezident Heydər Əliyevin İrana səfərinin nə kimi rolu olacaqdır?

Kamal Xərrazi: Cənab Heydər Əliyevin İrana səfəri münasibətlərimizdə əsaslı dönüş yaradıbdır. Bunu dəqiq bilməlisiniz ki, cənab Heydər Əliyevin və cənab Xatəminin möhkəm siyasi iradəsi nəticəsində münasibətlərimiz tamamilə dəyişib və inkişaf edəcəkdir.

Cənab Heydər Əliyevin cənab Xatəmi ilə keçirdiyi görüşlər, apardığı danışıqlar və indi mənim də cənab Heydər Əliyev ilə danışıqlarım nəticəsində biz yollar axtardıq ki, münasibətlərimizi daha da yaxınlaşdıraq, məsələlərimizi həll edək.

Sual: Qarabağla bağlı müzakirələr oldumu? ATƏT-in Minsk qrupu görüş keçirəndən sonra bu barədə İrana məlumat vermişdi. Artıq tam sübut olunur ki, əgər, İran Ermənistanla bağlı siyasətini sərtləşdirə bilsə, Ermənistanın Dağlıq Qarabağla bağlı mövqeyində hansısa dəyişiklik gözləmək olar. Yəni, bu gün Ermənistanın bir çox məsələləri İrandan asılıdır. Cənab Xərrazi, Qarabağ probleminin həlli ilə bağlı İranın Ermənistana münasibətində hər hansı dəyişiklik gözləmək olarmı?

Kamal Xərrazi: Minsk qrupu Azərbaycanla Ermənistan arasında münaqişəni həll etmək və çıxış yolunu axtarmaqla məşğuldur. Bizi, yəni, İranı dəvət ediblər ki, bu danışıqlarda iştirak edək. İran çalışır ki, bu münaqişə həll olunsun, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun və məsələlər tamamilə öz həllini tapsın. Azərbaycanın ərazi bütövlüyü İran üçün çox önəmlidir.

Sual: Bununla bağlı müzakirələr aparıldımı?

Kamal Xərrazi: Cənab Heydər Əliyev ilə bu barədə geniş danışıqlarımız oldu. Cənab Heydər Əliyevi əmin etdik ki, biz bütün imkanlarımızdan istifadə edib, bu məsələnin həlli üçün çox çalışacağıq.

Sual: Cənab Xərrazi, Xəzər dənizinin orta xətt üzrə bölünməsi mövqeyinə İranın yaxınlaşmasını gözləmək olarmı?

Kamal Xərrazi: Hər iki tərəf qərara gəldi ki, ekspertlər səviyyəsində danışıqlar davam etdirilsin. Məncə, bu, düzgün qərardır. Biz bu fikirdəyik ki, qarşılıqlı anlaşma şəraitində yollar axtarıb bu məsələni həll edə bilərik.

Sual: Təbrizdə Azərbaycanın Baş konsulluğunun açılması məsələsi barədə nə deyə bilərsiniz?

Kamal Xərrazi: Cənab Heydər Əliyevə həmişə demişik ki, Təbrizdə Baş konsulluq açmaq istəsələr, "Xoş gəldiniz!" deyirik.

Sual: Cənab Xərrazi, İran bir neçə dəfə Azərbaycanın hava və su sərhədlərini pozubdur. Sabah dostluq və əməkdaşlıq haqqında bir müqavilə imzalanacaq. Gözləmək olarmı ki, bu müqavilənin bəndlərinə əsasən, İran bu addımları bir daha atmayacaqdır.

Kamal Xərrazi: Biz Azərbaycanın hava və su sərhədlərini heç vaxt pozmamışıq. Bu müzakirələr davam etdirilsə, onda məlum olar ki, hansı ərazi İrana aiddir, hansı ərazi isə Azərbaycana aiddir. Bundan sonra, həqiqətən, heç bir anlaşılmazlıq olmayacaqdır.

Sual: Cənab Prezident Heydər Əliyev, Sizin İrana rəsmi səfəriniz bir neçə dəfə təxirə salınmışdır. Tehrana indi rəsmi səfərə gəlməyiniz hansı amillərlə bağlıdır?

İkinci sualım cənab Xatəmiyədir. Cənab Xatəmi, Xəzəryanı ölkələr qarşıya çıxan problemləri dərhal həll etmək üçün bir birlik yaratsalar, daha yaxşı olmazmı?

Heydər Əliyev: Bəli, biz bir-iki dəfə İrana rəsmi səfərə hazırlaşmışıq, lakin bu, təxirə salınıbdır. Bunun obyektiv səbəbləri olubdur. Amma ötən müddətdə mən İranda səfərdə olmuşam. Məsələn, 2000-ci ildə mən İranda İƏT-in Zirvə görüşündə iştirak etmişəm. Mən o vaxt burada olarkən, hörmətli Prezident cənab Xatəmi ilə çox əhəmiyyətli görüşlər keçirmişik, danışıqlar aparmışıq. O zaman İranın Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamnei ilə də görüşmüşəm, danışıqlar aparmışam. Yəni, bizim əlaqələrimiz davam edibdir. Amma mən bu gün İrana rəsmi səfərə gəlmişəm. Bu, mənim İrana əvvəlki səfərlərimdən çox fərqlidir. Bu rəsmi səfər zamanı biz bir çox məsələləri müzakirə edəcək, dövlətlərimiz arasında əməkdaşlığa dair bir sıra sənədlər imzalayacayıq ki, bunun da böyük əhəmiyyəti var.

Məhəmməd Xatəmi: Xəzər dənizi qapalı göl sayılır və Xəzəryanı beş ölkəyə aiddir. Xəzərdən istifadə bu ölkələr arasındakı razılıq əsasında həyata keçirilməlidir. Biz hamımız, yəni, beş ölkə belə hesab edirik ki, Xəzər dənizi bu beş ölkəyə aiddir. Digər məsələlər - ekologiya, gəmiçilik, balıqçılıq və sair məsələlər sahəsində qarşılıqlı anlaşma şəraitində əməkdaşlıq olmalıdır. Sözsüz ki, keçmiş Sovet İttifaqı dağıldıqdan sonra Xəzər dənizinin istifadəsinə dair üsullar dəyişibdir. Ona görə də, bu sahədə əməkdaşlığa yeni bir baxış meydana gəlibdir. Odur ki, bu məsələ qarşılıqlı anlaşma və sülh yolu ilə həll olunmalıdır.

Mazandaran gölü ətrafında yerləşən ölkələrin dövlət başçılarının Aşqabadda sammiti keçirildi. Bu, çox əhəmiyyətli bir Zirvə görüşü idi.

Heydər Əliyev: Mən başa düşmədim, Mazandaran gölü nə deməkdir?

Məhəmməd Xatəmi: Siz tərəfdə Xəzərə Qəzvin gölü, İranda isə Mazandaran gölü deyirlər. Amma heç bir tərəf narahat olmasın deyə, onun adını Xəzər dənizi qoyaq.

Heydər Əliyev: Onun adı çoxdan Xəzər dənizidir. Xəzər dənizinin adını dəyişmək olmaz.

Məhəmməd Xatəmi: Bəli, onun adı ingiliscə Kaspian si-dir.

Heydər Əliyev: Bəli, Kaspian si -

Xəzər dənizi.

Məhəmməd Xatəmi: Dəryayi-Kaspi.

Heydər Əliyev: Dəryayi-Kaspi sözünü mən birinci dəfədir eşidirəm.

Məhəmməd Xatəmi: Kaspian - Qəzvin deməkdir. İcazə verin, suala cavab verim. Xəzər dənizi beş ölkəyə aiddir. Ümidvarıq ki, Xəzəryanı ölkələr bütün sahələrdə dostcasına, qardaşcasına əməkdaşlıq edib, bu məsələləri həll edəcəklər. Aşqabad Zirvə görüşü çox əhəmiyyətli bir toplantı idi. Xəzərin həddindən artıq zəngin ehtiyatlarından sahilyanı bütün ölkələr istifadə etməlidir.

Sonra görüş mətbuat nümayəndələrinin iştirakı olmadan davam etdirildi.

Azərbaycan Prezidenti Heydər Əliyevi hörmət və ehtiramla salamlayan İran Prezidenti Seyid Məhəmməd Xatəmi dəvətini qəbul edib Tehrana rəsmi səfərə gəldiyinə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirdi. Cənab Məhəmməd Xatəmi böyük siyasi təcrübəyə malik olan müdrik dövlət xadimi Heydər Əliyev ilə hər bir görüşü çox faydalı və dəyərli hesab etdiyini bir daha nəzərə çatdırdı.

Prezident Heydər Əliyevin Tehrana rəsmi səfərinin İran-Azərbaycan əməkdaşlığında yeni üfüqlər açdığını vurğulayan Prezident Seyid Məhəmməd Xatəmi bu səfərin ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin inkişafında mühüm mərhələ olduğunu bildirdi.

Səmimi sözlərə, rəsmi səfərə dəvətə görə təşəkkür edən Prezident Heydər Əliyev dost və qonşu ölkədə ona və Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərlikdən məmnun qaldığını söylədi.

Azərbaycan-İran ikitərəfli münasibətlərinin inkişaf etdirilməsi barədə geniş müzakirələr aparan Prezidentlər bütün sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin və dərinləşdirilməsinin zəruri olduğunu bildirdilər.

İqtisadi əlaqələrin inkişafında böyük əhəmiyyəti olan layihələrdə ölkələrimizin iştirakının vacibliyini nəzərə çatdıran dövlət başçıları Şimal-Cənub nəqliyyat dəhlizinin geniş perspektivləri olduğunu yekdilliklə təsdiq etdilər.

Xəzərin hüquqi statusu məsələsindən söhbət açan Prezidentlər Xəzəryanı ölkələrin bütün sahələrdə əməkdaşlığının daha da sıxlaşdırılmasının böyük əhəmiyyət daşıdığını, Xəzərin bundan sonra da sülh, təhlükəsizlik və əməkdaşlıq dənizi olacağına ümid bəslədiklərini bildirdilər. Prezidentlər Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı ekspertlər səviyyəsində müzakirələrin davam etdirilməsinin zəruriliyini vurğuladılar.

Görüşdə Prezidentlər ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsinə də geniş yer ayırdılar. Prezident Heydər Əliyev xatırlatdı ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi hələ də işğal altında qalmaqdadır, bir milyon azərbaycanlı uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşayır.

Münaqişənin sülh yolu ilə həll edilməsi üçün aparılan danışıqlar prosesindən bəhs edən Prezident Heydər Əliyev bu münaqişənin tezliklə aradan qaldırılması sahəsində Minsk qrupunun üzvü olan dövlətlərin səylərinin artırılmasının vacibliyini nəzərə çatdırdı.

Ermənistanın Azərbaycana təcavüzünün İran tərəfindən pisləndiyini və İranın bunu beynəlxalq təşkilatlarda açıq cəlan etdiyini vurğulayan Prezident Seyid Məhəmməd Xatəmi bu münaqişənin hələ

də həll olunmamasından öz ölkəsinin narahatlığını bildirdi və münaqişənin tezliklə aradan qaldırılmasının bölgədə sülhün və əmin-amanlığın bərpa edilməsində mühüm rol oynayacağına əmin olduğunu söylədi.

Qədim tarixi ənənələrə malik qonşu və dost ölkələrimizin elm, təhsil, mədəniyyət və digər sahələrdə əlaqələrinin hazırkı vəziyyəti barədə müzakirələr aparan Prezidentlər bu əlaqələrin daha da sıxlaşdırılmasının vacibliyini vurğuladılar.

Görüşdə Prezidentlər bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi apardılar.

Prezident Heydər Əliyev Prezident Seyid Məhəmməd Xatəmini Azərbaycana bir daha rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Dövlət başçılarının iki saatdan çox davam edən təkbətək görüşündən sonra Prezident Heydər Əliyevin və Prezident Seyid Məhəmməd Xatəminin iştirakı ilə geniş tərkibdə Azərbaycan-İran danışıqları oldu.

Azərbaycan Prezidenti Heydər Əliyevi və onun başçılıq etdiyi nümayəndə heyətini bir daha səmimiyyətlə salamlayan, xalqlarımızın qədim tarixi, milli-mənəvi, dini, mədəni bağlılığından söz açan Prezident Seyid Məhəmməd Xatəmi ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin durmadan inkişaf etdirilməsinin əhəmiyyətli olduğunu nəzərə çatdırdı.

İran Prezidenti Seyid Məhəmməd Xatəmi iqtisadi əlaqələrin genişləndirilməsi üçün energetika, kommunikasiya, nəqliyyat sahəsində əməkdaşlığın böyük imkanlar açdığını vurğuladı. O, Şimal-Cənub nəqliyyat dəhlizinin geniş perspektivlərə malik olduğunu bildirməklə yanaşı, Bakı-Astara avtomobil yoluna, Astara-Astara, və Astara-Qəzvin dəmir yollarının çəkilməsinə İranın böyük əhəmiyyət verdiyini söylədi.

Eyni bölgədə yerləşən qonşu və dost ölkələrimizin təhlükəsizliyinin, əmin-amanlığının bir-birinə bağlı olduğunu xatırladan cənab Seyid Məhəmməd Xatəmi Azərbaycanın və İranın qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsinin hər iki tərəf üçün böyük əhəmiyyət daşıdığını vurğuladı.

Azərbaycan Prezidenti Heydər Əliyevin İrana indiki rəsmi səfərinin ölkələrimizin əlaqələrinin inkişafında yeni mərhələ açacağını söyləyən İran Prezidenti ümidvar olduğunu bildirdi ki, bu səfər hər iki ölkənin xalqlarına fayda gətirəcəkdir.

Səmimi sözlərə görə və İran İslam Respublikasına rəsmi səfərə dəvətə görə Prezident Seyid Məhəmməd Xatəmiyə minnətdarlıq edən Prezident Heydər Əliyev Tehrana gəldiyi ilk andan ona və nümayəndə heyətinə göstərilən dostcasına və mehriban münasibətdən çox məmnun qaldığını söyləyərək dedi ki, ötən saatlarda biz Sizinlə təkbətək və nümayəndələrimizlə birlikdə çox səmərəli danışıqlar apardıq. Bütün bunlar isə onu göstərir ki, mənim İrana rəsmi səfərim, doğrudan da, həm lazımdır, həm də çox əhəmiyyətlidir. Sizin də, mənim də əsas məqsədimiz İran-Azərbaycan əlaqələrini daha da inkişaf etdirməkdən ibarətdir. Xalqlarımızın çoxəsrlik tarixi, müştərək ənənəsi, milli-mənəvi, dini dəyərləri bizi həqiqətən bir-birimizə bağlayıbdır.

Prezident Heydər Əliyev İrana rəsmi səfərini, burada keçirilən görüşləri, aparılan danışıqları İran-Azərbaycan əlaqələrinin inkişafında yeni bir mərhələ kimi qiymətləndirdi.

Görüşdə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının fəaliyyə-

tinin genişləndirilməsinə dair məsələlər nəzərdən keçirildi, Xəzər dənizində əməkdaşlıq, nəqliyyat, ticarət, gömrük, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 19-da, Tehrana səfərinin ikinci günündə İran inqilabının rəhbəri imam Xomeyninin məqbərəsini ziyarətə gəldi. Dövlətimizin başçısını hərarətlə, mehribanlıqla qarşıladılar.

Burada Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri ifa olundu.

Azərbaycan Prezidenti Heydər Əliyev imam Xomeyninin məqbərəsinə əklil qoydu, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"İran İslam Respublikasının rəhbəri Ayətulla Xomeyninin qəbrini ziyarət edərək, onun xatirəsinə böyük hörmət və ehtiramımı bildirirəm.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

19 may 2002-ci il"

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRANIN ALİ DİNİ RƏHBƏRİ SEYİD ƏLİ XAMNEYİ İLƏ GÖRÜŞÜ

Mayın 19-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamnei ilə görüşü olmuşdur. Görüşdə İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi də iştirak edirdi.

Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamlayan Ayətulla Seyid Əli Xamnei əmin olduğunu bildirdi ki, Azərbaycan Prezidentinin İrana rəsmi səfəri iki dost və qonşu ölkə arasında əlaqələrin inkişafında yeni mərhələ açacaqdır.

Səmimi sözlərə, xoş münasibətə görə təşəkkür edən Prezident Heydər Əliyev İrana rəsmi səfərə gəlməyindən və İranın Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamnei ilə görüşündən çox məmnun olduğunu, özünə və Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərlikdən, səfər zamanı keçirdiyi görüşlərdən, apardığı danışıqlardan razılığını bildirdi. Bu səfərin İran-Azərbaycan münasibətlərinin inkişafına böyük təsir göstərəcəyinə ümid bəslədiyini bildirən dövlətimizin başçısı dost, qonşu İran ilə bütün sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər olduğunu vurğuladı.

Görüşdə bölgəmiz üçün çox böyük əhəmiyyəti olan Şimal-Cənub nəqliyyat dəhlizi layihəsində ölkələrimizin birgə iştirakı, Xəzər dənizində əməkdaşlıq məsələləri ətraflı müzakirə edildi. Bildirildi ki, Xəzər dənizi sülh, mehribanlıq və dostluq dənizi olmalıdır.

Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzun illərdən bəri davam

etdiyini bildirən Prezident Heydər Əliyev torpaqlarımızın 20 faizinin hələ də işğal altında qaldığını, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan qovularaq çadırlarda ağır şəraitdə yaşadığını xatırlatdı, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlar prosesindən söhbət açdı.

Azərbaycan ilə İran arasındakı tarixi, mənəvi yaxınlığı, dərin əlaqələri yüksək dəyərləndirən Ayətulla Xamnei Azərbaycan Prezidenti Heydər Əliyevin bu səfərini ölkələrimiz arasındakı əlaqələrin bütün sahələrdə inkişafı üçün əhəmiyyətli olduğunu nəzərə çatdırdı.

Qafqazda baş verən münaqişələrin bölgədə sülhün və əmin-amanlığın bərqərar edilməsinə əngəl törətdiyini bildirən Ayətulla Xamnei öz ölkəsinin Ermənistanın Azərbaycana təcavüzünü pislədiyini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini vurğuladı.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan-İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ MEHDİ KƏRRUBİ İLƏ GÖRÜŞÜ

Mayın 19-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikası parlamentinin - İslam Şurası Məclisinin sədri Mehdi Kərrubi ilə görüşmüşdür.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan cənab Mehdi Kərrubi Azərbaycan Prezidenti Heydər Əliyevin İrana rəsmi səfərini yüksək dəyərləndirdi, respublikamızın rəhbəri ilə görüşdən çox məmnun olduğunu bildirdi.

Ölkələrimizin bütün sahələrdə əlaqələrinin daha da möhkəmləndirilməsi üçün xeyli işlər görüldüyünü nəzərə çatdıran cənab Mehdi Kərrubi Azərbaycan-İran parlamentləri arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın ildən-ilə inkişaf etməsindən razılıqla söhbət açdı.

İrana rəsmi səfərinin gedişindən, göstərilən qonaqpərvərlikdən məmnun qaldığını söyləyən Prezident Heydər Əliyev qədim dostluq ənənələrinə malik ölkələrimizin əməkdaşlığının bütün sahələrdə inkişafının, o cümlədən parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin vacib olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan ilə İran arasında bütün sahələrdə əlaqələrin hərtərəfli inkişaf etdirilməsi üçün böyük imkanlar olduğu və bu imkanlardan səmərəli istifadə edilməsinin zəruriliyi vurğulandı.

Prezident Heydər Əliyev və cənab Mehdi Kərrubi ölkələrimiz, xalqlarımız arasında səmimi və mehriban münasibətlərin möhkəmləndirilməsində Azərbaycan və İran parlamentlərindəki dostluq qruplarının rolunu müsbət qiymətləndirdilər, eyni zamanda, onların fəaliyyətinin daha da genişləndirilməsinin əhəmiyyətini vurğuladılar.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə müzakirələr aparıldı.

Görüşdən sonra Azərbaycan Prezidenti Heydər Əliyev və İran İslam Şurası Məclisinin sədri Mehdi Kərrubi jurnal-

istlərin suallarına cavab verdilər.

Sual: Cənab Kərrubi, Azərbaycan Prezidenti Heydər Əliyev ilə keçirdiyiniz görüşün nəticələrini necə qiymətləndirirsiniz?

Mehdi Kərrubi: Azərbaycanın hörmətli Prezidenti Heydər Əliyevin İrana rəsmi səfərə gəlməsi ölkələrimiz arasındakı münasibətlərdə yeni mərhələ yaradacaqdır. Biz uzun müddət idi ki, cənab Prezident Heydər Əliyevin İrana səfərini gözləyirdik. Nəhayət, bu səfər həyata keçirildi.

Azərbaycan Prezidenti Heydər Əliyev İran Prezidenti Məhəmməd Xatəmi ilə çox səmərəli, mənalı görüşlər keçirmişdir. Hər iki tərəf çalışır ki, ölkələrimiz arasında bütün sahələrdə münasibətlər, o cümlədən parlamentlərarası əlaqələr inkişaf etsin, möhkəmlənsin.

Cənab Prezident Heydər Əliyevi böyük bir nümayəndə heyəti - nazirlər müşayiət edirlər. Onlar öz həmkarları ilə danışıqlar aparıblar. Məqsəd bütün sahələrdə əlaqələri inkişaf etdirməkdən ibarətdir.

Sual: Cənab Kərrubi, görüşdə Xəzər dənizinin statusu məsələsinə toxunuldumu?

Mehdi Kərrubi: Biz belə hesab edirik ki, Xəzər sülh, təhlükəsizlik və əmin-amanlıq dənizi olmalıdır.

Sual: Cənab Prezident Heydər Əliyev, Xəzəryanı ölkələrin ümumi bir fikrə gəlmələri üçün müəyyən əngəllər vardır. Siz buna necə baxırsınız?

İkinci sualım belədir ki, dünyanın bir sıra böyük dövlətləri Xəzər probleminin həllinə maneçilik törədirlər. Sizcə, Xəzər problemi yaxın gələcəkdə həll olunacaqmı? İran dövləti bölgədən kənarda yerləşən böyük dövlətlərin bu məsələyə müdaxiləsinin əleyhinədir.

Heydər Əliyev: Biz - Xəzəryanı ölkələrin dövlət başçıları Aşqabadda görüşdük və Xəzərin statusu barədə müzakirələr apardıq. Müxtəlif fikirlər oldu. Ancaq hesab edirəm ki, Aşqabad Zirvə görüşü çox əhəmiyyətli idi. Bu görüşdə Xəzəryanı ölkələrin dövlət başçılarının hər biri öz dövlətinin fikrini bildirdi.

Xəzərin hüquqi statusu böyük məsələləri - ekologiya, gəmiçilik, dənizin bioloji ehtiyatlarının qorunması, çirklənmənin qarşısının alınması və Xəzərin enerji ehtiyatlarından istifadə olunması məsələlərini əhatə edir. Biz bu sahədə əməkdaşlığa təzə başlamışıq. Güman edirəm ki, bu əməkdaşlıq davam edəcəkdir. Yəqin ki, Xəzəryanı ölkələrin dövlət başçıları bir-birinin fikrinə hörmətlə yanaşaraq, bu məsələdə müəyyən bir razılığa gələcəklər.

Xəzərdən kənarda yerləşən dövlətlərin bu məsələyə qarışması barədə məndə məlumatlar yoxdur. Sağ olun.

AZƏRBAYCANIN TEHRANDAKI SƏFİRLİYİNDƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 19-da ölkəmizin Tehrandakı səfirliyində olmuşdur.

Dövlətimizin başçısını səfirliyin binası qarşısında hərarətlə, gül-çiçəklə qarşıladılar. Prezident Heydər Əliyev səfirliyin əməkdaşları və onların uşaqları ilə mehribanlıqla görüşdü.

Respublikamızın İrandakı səfiri Abbasəli Həsənov buradakı Azərbaycan diplomatlarının fəaliyyəti, son illərdə görülən işlər barədə məlumat verərək dedi ki, cənab Prezident, bütün sahələrdə qonşu ölkə ilə münasibətlərimizi inkişaf etdirmək barədə Sizin tapşırıqlarınızı yerinə yetirməyə çalışırıq. Bunlar səfirliyimizin

əməkdaşlarının uşaqlarıdır. Buradakı məktəbdə oxuyurlar.

Heydər Əliyev: Necəsiniz, uşaqlar, məktəbə gedirsiniz? Azərbaycan dilini yaxşı bilirsiniz?

Uşaqlar: Hörmətli Prezidentimiz, yaxşıyıq, çox sağ olun. Məktəbə də gedirik, Azərbaycan dilini də bilirik.

Heydər Əliyev: Daha hansı dili öyrənirsiniz?

Uşaqlar: İngilis, rus, fars, türk dillərini öyrənirik.

Heydər Əliyev: Həm Azərbaycan dilini, həm də türk dilini, başqa dilləri. Görün, neçə dil öyrənirsiniz. Adın nədir?

Uşaq: Nəsrəddin.

Heydər Əliyev: Yaxşı addır. Nəsirəddin Tusi bizim böyük alimimiz olubdur. Onu tanıyırsan, onun haqqında oxumusan?

Nəsrəddin: Bəli, tanıyıram, amma oxumamışam.

Heydər Əliyev: Burada Mağara şəhəri var, o, orada yaşayıbdır. Sonra onun haqqında oxuyarsan.

Uşaqlar Vətənə, Prezidentə həsr olunmuş şerlər söylədilər.

Çox keçmişəm bu dağlardan,
Durna gozlu bulaqlardan,
Eşitmişəm uzaqlardan
Sakit axan Arazları,
Sınamışam dostu, yarı...
El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!
Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana.
Hansı səmtə, hansı yana
Hey uçsam da yuvam sənsən,
Elim, günüm, obam sənsən!
Fəqət, səndən gen düşəndə,
Ayrılıq məndən düşəndə,
Saçlarıma dən düşəndə
Boğar aylar, illər məni,
Qınamasın ellər məni.

* * *

Heydər baba, sən bizi azadlığa çatdırdın,
Qəhrəman elimizi dünyaya tanıtdın.
Ömrün zəfərlə dolu, yolun azadlıq yolu,
Ey xalqımın mərd oğlu, əziz
Heydər babamız.
Hər günümüz xoş keçir səninlə,
Heydər baba,
Yurdumuz çiçək açır səninlə,
Heydər baba.
Sənin kimi ağıllı, sənin kimi qayğıkeş,
Dağ vüqarlı, mehriban baba
görməmişik biz!

* * *

Heydər baba, Azərbaycan oğlusan,
Ürəyinlə öz xalqına bağlısan,
Heydər baba, daim üzün ağ olsun,
Şan-şöhrətli igidlərin sağ olsun,
Əyilməyən vüqarın bir dağ olsun.
Heydər baba, xoş günümüz gələcək,
Övladların şadlanacaq, güləcək.

* * *

Sən xalqınla nəfəs aldın,
Neçə kənd və şəhər saldın,
Qartal kimi sən ucaldın,
Heydər baba, yüz il yaşa.

Çətin gündə dayaq oldun,
Gecə-gunduz oyaq oldun,

Bu ellərə mayak oldun,
Heydər baba, yüz il yaşa.

Uca tut başını, ey ulu Vətən,
Heydər babam tək rəhbərimiz var.
Vətənin işıqlı sabahı üçün,
Yorulmaz, fədakar rəhbərimiz var.
Gecə də, gündüz də düşünərək o,
Aparır xalqını xoş səadətə.
Zəfərlər çalaraq mənfur düşmənə,
Parlaq səhifələr yazır babamız.

***

Heydər babamın sözü, kəlamı,
Şah İsmayıl qılıncı tək itidir, iti.
Döyüşdü, vuruşdu idrakla, sozlə,
Zəfər çaldı babam yağı düşmənə.

Dayanıb atəş, kəsilib nalə,
Tökülmür göz yaşı, ucalmır fəryad.
Açılıb çöhrələr, gülür sifətlər,
Son qoyur savaşa babam, nəhayət.

Böyük qüdrətinə baş əyib dağlar,
Sənin unudulmaz xidmətlərin var.
Allah göndəribdir bizə xilaskar,
Sevək əməyini, ey Heydər baba.

***

Sən ki varsan inanırıq sabaha,
Biz sənlə öyünürük bir daha,
Ümidimiz bir sənə, bir Allaha,
Tanrım sənin uca tutsun başını.

Arxayınıq, sən həmişə oyaqsan,
Xalqın sənə, sən xalqına dayaqsan,
Sən işıqsan, sən sönməyən mayaksan,
Yüz illərlə Allah versin yaşını.

Heydər baba, biz vurğunuq bu ada,
Sən ucasan, əvəzin yox dünyada.
Heydər babam, bizimkidir gələcək,
Heydər babam mütləq qalib gələcək.

***

Prezident Heydər Əliyev uşaqların şer söyləmələrindən razı qaldığını bildirərək dedi:

- Çox yaxşıdır. Əgər, uşaq bu yaşından şeri sevirsə, şer deyirsə, bu, yaxşıdır. Vətən, ölkə, millət haqqında şer uşaqları həmişə vətənpərvərlik ruhunda tərbiyə edir, onların qəlbində vətənə sevgini artırır. Həm də şer dilimizə bağlılığı artırır. Çünki Azərbaycan dilini hamı yaxşı bilməlidir. Mən bunu dəfələrlə demişəm. Amma Azərbaycan dilini yaxşı bilmək üçün uşaq yaşlarından şer oxumaq lazımdır. Şer Azərbaycan dilinin mənimsənilməsi üçün ən böyük vasitədir.

Bilirəm, indi bunlar hamısı məktəblərdə rus dilində oxuyurlar. Dediniz ki, burada Rusiya səfirliyində rus məktəbi var. Amma yaxşıdır ki, uşaqlar Azərbaycan dilini belə yaxşı bilirlər. Yaxşıdır ki, şer oxuyurlar. Əgər, bu şerləri bilirlərsə, yəqin başqa şerlər də bilirlər. Mən başa düşdüm, əgər, başqa şerlər bilməsəydilər, oxumasaydılar, bu şerləri belə həvəslə söyləyə bilməzdilər. Çox məmnunam ki, səfirliyin əməkdaşlarının uşaqları Azərbaycan şairlərinin şerlərini bilirlər, oxuyurlar.

Dilimizi, Azərbaycan dilini nəinki bilmək, dilimizi inkişaf etdirmək lazımdır. Mən bunu hamıya deyirəm. Xüsusən, xarici ölkələrdə yaşayan, işləyən vətəndaşlarımıza deyirəm. Çünki təbiidir, onlar yaşadıqları ölkənin dillərini bilməlidirlər, o dildə danışırlar, öz fəaliyyətlərini o dildə göstərirlər. Amma öz Azərbaycan dilimizi unutmaq olmaz və Azərbaycan dilini daha

yaxşı bilmək lazımdır. Mən bunu ona görə deyirəm ki, Azərbaycanda hələ bəzi adamlar Azərbaycan dilini yaxşı bilmirlər, yaxud da övladlarını başqa dilli məktəblərdə oxudaraq, onların Azərbaycan dilini öyrənməsinə o qədər də qayğı göstərmirlər.

Yaxşı, başqa nə sözünüz var?

Abbasəli Həsənov: Hörmətli cənab Prezident, bildirmək istəyirəm ki, biz uşaqlar üçün 1-ci sinifdən 11-ci sinifə qədər Azərbaycan dərsliklərini gətirmişik, kitabxanamızda var. Onlar rus məktəblərində oxuyurlar, amma valideynlər evdə uşaqlara Azərbaycan dilində olan dərslikləri öyrədirlər. Yəni, uşaqların Azərbaycan dilini öyrənməsi üçün lazımi işlər görürük.

Heydər Əliyev: Əməkdaşlarınız çoxdur, gərək, sizin işinizin nəticəsi də çox olsun.

Abbasəli Həsənov: Cənab Prezident, çalışırıq. Bizə tapşırıqlarınızdan biri bu idi ki, dövlətimizin, xalqımızın adına layiq səfirlik yaradaq. Bu, təkcə səfirliyin zahiri görünüşü yox, daxili fəaliyyətinə də aiddir. Diplomatların peşəkarlığının, səriştəliliyinin artırılması istiqamətində də iş aparırıq.

Cənab Prezident, Sizin İrana indiki səfəriniz Azərbaycan-İran münasibətlərində tarixi bir dönüş yaradır və bundan sonra səfirliyimizin görəcəyi işlər daha çox olacaqdır. Sizi bütün kollektivimiz, mütəxəssislərimiz adından əmin edirəm ki, qarşıda duran işləri həyata keçirmək üçün var gücümüzlə çalışacağıq.

Heydər Əliyev: Mənim səfərim İran-Azərbaycan əlaqələrində əlamətdar bir hadisədir. Çünki bizim əlaqələrimizin gələcəyi üçün bu səfər zamanı çox iş görülür və görüləcəkdir. Bunların hamısı İran-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi ilə əlaqədardır, İran-Azərbaycan əlaqələrini gərginləşdirən, əlaqələrimizin inkişafına mane olan bəzi halları aradan qaldırmağa həsr olunubdur. Belə hallar var. Biz bunları inkar etmirik. Biz də inkar etmirik, İran tərəfi də inkar etmir. İran tərəfi də, biz də etiraf edirik ki, belə hallar var və hər iki tərəfə aiddir. Bir tərəfə aid deyildir. Ona görə çox iş görülməlidir və bunun üçün çox imkanlar yaranır.

Çünki mənə belə gəlir ki, bu səfərim İranda böyük həvəslə qarşılanıbdır. Mənə dəfələrlə deyirlər ki, Sizi çox gözlədik. Demək, Azərbaycan Prezidentinin İrana gəlməsini həqiqətən istəyirdilər və istəmişlər. Çox yaxşı, səmərəli danışıqlarımız keçdi. Münasibətlərimiz daha da mehribanlaşır.

Prezident Xatəmi ilə mənim təkbətək görüşüm, nümayəndə heyəti ilə görüşüm, - ümumiyyətlə, dünən biz bir neçə saat bir yerdə, bir-birimizlə ünsiyyətdə olmuşuq, - mənə belə deməyə əsas verir ki, mənim kimi, Prezident Xatəmi də əməkdaşlığı səmimi olaraq inkişaf etdirmək, genişləndirmək istəyir, bəzi halların aradan qaldırılmasını istəyir. Düşünürəm ki, Azərbaycan - İran əlaqələrində Azərbaycan Prezidenti və İran Prezidenti bir-birinə çox uyğun tərəfdaşlardır. Bunun da bizim dövlətlərarası əlaqələrimizi inkişaf etdirmək üçün çox böyük əhəmiyyəti vardır. Ona görə bu imkanlardan istifadə etmək lazımdır.

Biz, dövlət başçıları siyasəti müəyyənləşdiririk, onun həyata keçirilməsinin yollarını müəyyənləşdiririk, böyük tədbirləri müəyyənləşdiririk. Amma onları bizim icra orqanları həyata keçirməlidir. Mən və buraya gələn nümayəndə heyətinin üzvləri, Azərbaycanın nazirləri, başqa idarələrin başçıları hərəsi öz sahəsində bunu etməlidir. Siz isə, səfirliyin əməkdaşları, gərək hər bir məsələnin həyata keçirilməsində fəal iştirak edəsiniz. Biz sabah 10 müqavilə

imzalayacağıq - bunları həyata keçirmək lazımdır. Biz müqavilələri imzaladıq, sonra parlament onları təsdiqlədi, amma əməli iş görülmədi - onda bunların əhəmiyyəti itir. Bunların hər birini həyata keçirmək üçün konkret işlər görmək lazımdır.

Mən Bakıya dönəndən sonra bu barədə tədbirlər planı hazırlamaq üçün göstəriş verəcəyəm. Orada hamısı yazılacaqdır. Ancaq siz bilirsiniz, hər müqavilədən irəli gələn vəzifələr nədən ibarətdir. Müqavilənin icraçıları bunu bilirlər, edirlər. Siz onlara yardımçı olmalısınız. Siz o məsələlərin irəliyə getməsinə kömək etməlisiniz. Sizin vəzifəniz, borcunuz bundan ibarətdir.

Mən istəyirəm inanam ki, Azərbaycanın İrandakı səfirliyi - belə böyük tərkibdə olan, eyni zamanda, diplomatik potensialına görə də lazımi səviyyədə olan səfirliyimiz bundan sonra da İran-Azərbaycan əlaqələrinin inkişafında fəal iştirak edəcəkdir. Mən sizə işlərinizdə uğurlar, hər birinizə cansağlığı arzulayıram.

Sizin uşaqlarınızı gördüm, çox şad oldum. Arzu edirəm ki, onlar yaxşı böyüsünlər, yaxşı oxusunlar, sizə yaxşı övlad olsunlar və Azərbaycanın dəyərli vətəndaşları olsunlar.

Abbasəli Həsənov: Cənab Prezident, çox sağ olun. Kollektivimiz adından Sizi bir daha əmin edirəm ki, qarşımızda qoyduğunuz bütün bu məsələləri layiqincə yerinə yetirəcəyik.

Sonra dövlətimizin başçısı **Heydər Əliyev** səfirliyin binasını gəzərək iş şəraiti ilə yaxından tanış oldu və dedi:

- Siz divara çox yaxşı şəkillər vurmusunuz. Bu, yaxşı haldır. Bu da sizin yaxşı zövqünüz olduğunu göstərir.

Mən də sizə bir hədiyyə gətirmişəm. Bakının bir hissəsinin görüntüsüdür. Bu, sizə həm Bakını daim yadda saxlamağa kömək edəcək, həm də səfirliyə gəlib-gedən adamlar görəcəklər ki, Bakının görüntüsü necədir. Bakı çox gözəl şəhərdir. Bakını görənlər ona valeh olurlar. Mən şəxsən Bakını çox sevirəm. O cümlədən bütün şəhidlər üçün ucaldılmış və memarlıq sənəti nümunəsi olan abidəni. Bütün şəhər oraya baxır. Ona görə də bunu sizə hədiyyə edirəm.

Abbasəli Həsənov: Möhtərəm cənab Prezident, çox sağ olun. Bu, səfirliyimizin ən əziz, ən dəyərli hədiyyəsi kimi xüsusi guşədə saxlanılacaq və həmişə doğma Vətənimizi, əziz Bakımızı və Sizin qarşımızda qoyduğunuz məsələləri bizə xatırladacaqdır. Çox sağ olun.

Sonra Azərbaycanın incəsənət ustalarının - respublikamızın əməkdar artistləri Simarə İmanova, Mənsum İbrahimov, tarzən Zamiq Əliyevin, kamança çalan Ədalət Vəzirovun iştirakı ilə konsert oldu.

Prezident Heydər Əliyev konsertdən sonra səfirliyin əməkdaşları, uşaqlar və incəsənət ustaları ilə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞÜ

Mayın 20-də Tehranda, Dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Resrublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşü olmuşdur.

Cənab Seyid Məhəmməd Xatəmi onun dəvətini qəbul edib İran İslam Respublikasına rəsmi səfərə gəldiyinə görə Azərbaycan Prezidenti Heydər Əliyevə bir

daha minnətdarlığını bildirdi, bu səfəri ölkələrimiz arasındakı münasibətlərdə yeni tarixi hadisə kimi səciyyələndirdi.

İranın qonşu, dost ölkə olan Azərbaycan ilə bütün sahələrdə əlaqələri genişləndirməyə həmişə hazır olduğunu nəzərə çatdıran cənab Seyid Məhəmməd Xatəmi görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin siyasi təcrübəsindən istifadə edib, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinin zəruriliyini bildirdi.

İrana rəsmi səfərə dəvətə, göstərilən qonaqpərvərliyə görə, cənab Seyid Məhəmməd Xatəmiyə minnətdarlıq edən Prezident Heydər Əliyev bu səfərinin Azərbaycan-İran münasibətlərinin daha da inkişaf etdirilməsi üçün çox əhəmiyyətli olduğunu vurğuladı.

Tehranda keçirdiyi görüşləri, apardığı danışıqları yüksək qiymətləndirən Prezident Heydər Əliyev imzalanacaq sənədlərin Azərbaycan-İran əməkdaşlığının sürətli inkişafına təkan verəcəyinə əmin olduğunu bildirdi.

Prezidentlər Azərbaycan ilə İran arasında qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi barədə yekdil fikirdə olduqlarını nəzərə çatdırdılar.

Görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə müzakirələr aparıldı.

Görüşdən sonra Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında sənədlərin imzalanması mərasimi oldu. Prezident Heydər Əliyev və Prezident Seyid Məhəmməd Xatəmi "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə imzaladılar.

Sonra "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş", "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında saziş", "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında bitkilərin karantin xidməti sahəsində əməkdaşlıq haqqında saziş", "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu", "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Elm, Tədqiqatlar və Texnologiya Nazirliyi arasında təhsil və tədqiqat sahəsində əməkdaşlıq haqqında memorandum", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında memorandum", "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında hava nəqliyyatı haqqında saziş", "Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi ilə İran Standartlar və Sənaye Tədqiqatları İnstitutu arasında standartlaşdırma, sertifikatlaşdırma və metrologiya sahəsində əməkdaşlığa dair memorandum", "Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Bədən Tərbiyəsi Təşkilatı arasında idman sahəsində əməkdaşlıq haqqında saziş" imzalandı.

Sənədləri Azərbaycan tərəfindən xarici işlər naziri Vilayət Quliyev, iqtisadi inkişaf naziri Fərhad Əliyev, kənd təsərrüfatı naziri İrşad Əliyev, idman, gənclər və turizm naziri Əbülfəz Qarayev, mədəniyyət naziri Polad Bülbüloğlu, İran tərəfindən ko-

operasiya naziri Əli Sufi, iqtisadiyyat və maliyyə naziri Təhmasib Məzahiri, mədəniyyət və islami irşad naziri Əhməd Məsced Camei və digər rəsmi şəxslər imzaladılar.

Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İrana rəsmi səfərinin yekunlarına dair mətbuat üçün birgə bəyanat yayıldı.

İmza mərasimindən sonra Azərbaycan Prezidenti Heydər Əliyev və İran Prezidenti Seyid Məhəmməd Xatəmi jurnalistlərin suallarına cavab verdilər.

Sual: Hörmətli cənab Heydər Əliyev, Sizin burada İranın rəhbərliyi ilə keçirdiyiniz görüşlərdə, əsasən, hansı mövzulara toxunulubdur, hansı istiqamətdə, hansı məsələlərə dair danışıqlar aparıldı və Mazandaran-Xəzər dənizinə aid hansı razılıqlar əldə edilibdir.

Heydər Əliyev: Biz burada mənim rəsmi səfərim çərçivəsində İran-Azərbaycan əlaqələrinə aid bütün məsələləri müzakirə etmişik. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bütün görüşlərimizdə, apardığımız bütün danışıqlarda bir-birimizə xoş münasibət göstərmişik, bir-birimizi anlamaq istəmişik. İran-Azərbaycan dostluq, əməkdaşlıq əlaqələrini möhkəmləndirmək və inkişaf etdirmək istəmişik. Hesab edirəm ki, biz bu sahədə böyük nailiyyətlər əldə etmişik. Bizim danışıqlarımız dostluq və mehribanlıq şəraitində keçibdir. Bunların nəticəsi olaraq, bu gün İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası on sənəd imzalanıbdır. İmzalanmış sənədlər içərisində İran İslam Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlığın prinsiplərinə aid müqavilə xüsusi yer tutur. Bildirmək istəyirəm ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında on ildən artıqdır ki, diplomatik əlaqələr mövcuddur. Ancaq indiyə qədər bu gün imzaladığımız sənəd kimi, yəni, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlığın prinsiplərinə aid müqavilə kimi sanballı sənəd imzalanmamışdı.

Bu müqavilə İran-Azərbaycan əlaqələrində ilk böyük hüquqi sənəddir. Ölkələrimiz arasındakı əlaqələri bütün sahələrdə tənzimləyir. Hesab edirəm ki, bu, mənim səfərimin, bizim görüşlərimizin ən əhəmiyyətli nəticələrindən biridir.

Bizim görüşlərimiz, danışıqlarımız İran-Azərbaycan əlaqələrində yeni mərhələ açıbdır. Ümidvaram ki, bundan sonra bizim əlaqələrimiz daha sürətlə inkişaf edəcək və dostluq, əməkdaşlıq, mehribanlıq əlaqələri daim davam edəcəkdir.

Hörmətli jurnalist, siz sualınızda bir səhv buraxdınız. Mən istərdim ki, gələcəkdə belə səhvlər buraxmayasınız. Dünya xəritəsində "Mazandaran" gölü adında göl yoxdur. Əgər, belə bir göl İran ərazisindədirsə, mən hələ onu tanımıram, xahiş edirəm mənə tanıdasınız.

Seyid Məhəmməd Xatəmi: Cənab müxbir də bundan sonra Kaspian si deyəcəkdir.

Heydər Əliyev: Necə yəni bundan sonra deyəcək, elə Kaspian si-dir. Xəzər dənizi kürreyi-ərz yaranandan mühüm dənizlərdən biridir və onun adı Xəzərdir. 300-400 il bundan öncəki xəritələri götürsəniz, orada Xəzər dənizi - ağayi Xatəmi bunu ingiliscə deyir, Kaspian si - yazılıbdır. Siz, İranda bəzi adamlar, belə adlar icad etməklə bizim Xəzər barədə danışıqlarımıza mane olursunuz. Xahiş edirəm, bunu nəzərə alasınız.

Bəli, biz Xəzər dənizinin hüquqi statusu haqqında çox ətraflı danışıqlar apardıq. Bu danışıqlar çoxdan gedir. Aprelin 18-də

Aşqabadda Xəzəryanı dövlətlərin Zirvə görüşündə biz bu məsələni müzakirə etmişdik. Hesab edirəm ki, Aşqabad Zirvə görüşü hamımız üçün çox əhəmiyyətli olmuşdur. O danışıqların davamı olaraq, burada çox ətraflı danışıqlar gedibdir. Bizim ekspertlər, demək olar ki, bu məsələnin həll olunması ilə əlaqədar saatlarla yollar axtarmaqla məşğul olublar. İndiki danışıqlarda bizim ekspertlərin arasında xeyli qarşılıqlı anlaşma əldə olunubdur. Bu da bizim gələcək danışıqlarımıza çox yaxşı şərait yaratmışdır.

Ekspertlərin növbəti görüşü iyunun 11-də Bakıda keçiriləcəkdir. Güman edirəm ki, beləliklə, onlar bizim üçün münasib təkliflər hazırlayıb təqdim edəcəklər. Təşəkkür edirəm.

Sual: Mənim sualım cənab Xatəmiyədir. Hörmətli cənab Xatəmi, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevlə danışıqları, görüşləri necə qiymətləndirirsiniz?

Heydər Əliyev: Amma İranın daxilindən bir az kənara çıxın. Daxilində qalsanız bir şey çıxmayacaqdır.

Seyid Məhəmməd Xatəmi: Mən xahiş edirəm ki, cənab Prezidenti narahat etməyin, icazə verin, biz işimizi davam etdirək.

Xoşbəxtlikdən, bütün sahələrdə mənimlə cənab Heydər Əliyev arasında, eyni zamanda, digər məsul şəxslər arasında, onların öz aralarında yaxşı, faydalı danışıqlar aparılmışdır. İkitərəfli münasibətlərə, regional məsələlərə, beynəlxalq əlaqələrə, eyni zamanda iqtisadi, siyasi, digər sahələrə dair yaxşı danışıqlar aparıldı.

Hörmətli müxbirlər də şahid oldular ki, bu gün çox faydalı sənədlər imzalandı. Amma bu sənədlərdən də əhəmiyyətlisi, hər iki tərəfdən göstəriləcək iradə və əzmkarlıqdır. Biz bunu qəbul edirik ki, taleyimiz bir-birimizlə bağlıdır. Hər bir ölkədə əmin-amanlıq və sabitliyin olması, digər ölkədə də əmin-amanlıq və sabitlik deməkdir. Hər iki ölkə, hər iki dövlət sürətlə inkişaf etməkdədir. İnkişaf üçün sabitlik, əmin-amanlıq mühüm, vacib şərtdir. Biz hər iki ölkədə əmin-amanlıq, sabitlik haqqında düşünürük, həm də bölgədə, regionda da sabitliyin, əmin-amanlığın bərqərar olması barədə düşünürük. Eyni zamanda, belə bir qərara gəldik ki, iqtisadiyyat sahəsində mövcud olan əlaqələrimizi daha da genişləndirək. Mən inanıram ki, cənab Heydər Əliyevin bu səfəri ikitərəfli əlaqələrimizdə böyük dönüş yaradacaqdır.

Xəzər dənizi sülh, əməkdaşlıq dənizidir. Bu dənizin hüquqi statusu və ondan istifadə beş Xəzəryanı ölkəyə aiddir. Bu sahədə fikir mübadiləsi, danışıqlar aparılıbdır.

Bunlar çox faydalı olubdur. Ekspertlərimiz arasında yaxşı danışıqlar, müzakirələr aparılıbdır. Mən inanıram ki, yaxın gələcəkdə iki ölkə arasında ədalətli bir çıxış yolu tapılacaqdır. İnşallah, iyunun 11-də keçiriləcək danışıqlar hər iki tərəf üçün faydalı olacaqdır.

Biz bir-birimizin daxili işlərinə qarışmamaq, qarşılıqlı hörmət, ehtiram göstərmək şərtilə münasibətlərimizi inkişaf etdirmək üçün çalışacağıq. Sağ olun.

Sual: Mənim sualım cənab Seyid Məhəmməd Xatəmiyədir. Cənab Prezident, möhtərəm Prezident Heydər Əliyevin İrana rəsmi səfərindən və bu gün burada sənədlərin imzalanmasından sonra Cənubi Qafqaz regionunun və Xəzər regionunun gələcəyini Tehran necə görür? Çünki, hazırda Cənubi Qafqazda bir sıra münaqişələr, o cümlədən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi mövcuddur.

Xəzərlə bağlı müəyyən fikir ayrılıqları var. Təkcə Xəzərin adına münasibətdə yox, həm də onun bölüşdürülməsinə münasibətdə fərqli mövqelər var. Zəngin dövlətçilik ənənələri olan bir dövlət kimi, İran bu münaqişələrin və fikir ayrılıqlarının aradan qaldırılmasında öz rolunu necə görür?

Seyid Məhəmməd Xatəmi: Əvvəla, Qafqaz çox mühüm bir bölgədir. Odur ki, bütün Qafqazın əmin-amanlığı bizim üçün çox əhəmiyyətlidir. İran bu regionda yerləşən böyük və qüdrətli dövlətlərdən biridir. Qafqazın əmin-amanlığını təmin etməkdə onun da öz payı var və öz rolunu göstərməlidir. Qafqazda baş verən münaqişələr bu bölgədə heç kimin xeyrinə deyildir. Bu münaqişələr regionda yerləşən ölkələr tərəfindən həll olunmalıdır. Münaqişələri ölkələrin özləri, regiondan kənarda yerləşən qüvvələrin müdaxiləsi olmadan həll etməlidirlər. İşğalın, təcavüzün hər hansı bir şəkildə baş verməsindən asılı olmayaraq, biz onu pisləyirik. Cənab Heydər Əliyevin özü də dəfələrlə bəyan edibdir ki, Qarabağ münaqişəsi sülh və danışıqlar yolu ilə həll olunmalıdır. Bu sahədə biz əlimizdən gələn hər cür köməyi əsirgəməyəcəyik. Xəzər isə, təkcə bu bölgədə yox, ümumiyyətlə, dünyada mühüm göllərdən biri sayılır. İstər bölgədə, istərsə də dünyada ekoloji sistem sahəsində mühüm rolu vardır. Xəzər təbii sərvətlərindən əlavə, digər cəhətlər baxımından da əhəmiyyətlidir. Ekologiya, gəmiçilik, balıqçılıq - bu sahələrdə də çox əhəmiyyətlidir. Həmin sahələrdə də əməkdaşlıq olmalıdır və inanmıram ki, bu barədə fikir ayrılığı ola bilsin.

Xəzər dənizi sahilyanı beş ölkəyə aiddir. Amma bizim vəzifəmiz ondan ibarətdir ki, bəşəriyyətə aid olan bu böyük sərvətdən düzgün istifadə edək.

Xəzər ətrafında müstəqil dövlətlərin yaranması və ümumiyyətlə, dünyada baş verən proseslər baxımından bu məsələyə, Xəzər dənizinin hüquqi statusuna yenidən baxılmalıdır. Xəzər dənizinin gələcək taleyi ümumi fikir birliyi nəticəsində həll olunmalıdır.

Qonşu dövlətlər bu sahədə bir-biriləri ilə daha çox əlaqə saxlayaraq fikir yaxınlığı yaratmalıdırlar. İranla Azərbaycan arasında xoş niyyət və anlaşma olduğunu, yarandığını nəzərə alaraq, inanıram ki, lap yaxın gələcəkdə bu sahədə, bu məsələnin həllində ümumi bir razılığa gələ biləcəyik.

Doğrudur ki, Xəzəryanı ölkələrin hamısı gərək öz milli mənafeyini nəzərə alsın. Eyni zamanda, bu məsələ ədalətli həll olunmalıdır. Biz qərara gəlmişik ki, öz milli mənafeyimizi müdafiə edərkən, bu, digər ölkələrin milli mənafeyinə zidd olmasın.

Mən inanıram, Azərbaycanla ki, bizim bu qədər yaxınlığımız var, bizi bir-birimizə bağlayan bu qədər müştərək cəhətlər var, elə hesab edirəm ki, bunların əsasında biz bu məsələni həll edə biləcəyik. Dostluq, qardaşlıq şəraitində bu məsələnin həllinə nail olacağıq. Çox sağ olun.

Sual: Azərbaycan Prezidentinə sual vermək istəyirəm. Möhtərəm Prezident, bu gün imzalanan sənədlərin bir çoxu iqtisadi əməkdaşlığa aiddir. Siz hazırda İran-Azərbaycan iqtisadi əməkdaşlığını necə qiymətləndirirsiniz və bir də gələcəkdə böyük beynəlxalq layihələrdə İranın iştirakını necə görürsünüz?

Heydər Əliyev: Ağayi Xatəmi ilə mənim imzaladığım müqavilədən əlavə, imzalanan sənədlərin, demək olar ki, hamısı iqtisadiyyata aiddir. Bizim münasibətlərimizdə, apardığımız danışıqlarda iqtisadiyyat məsələləri çox mühüm yer tutur.

Mənim bu səfərimin nəticəsi, bizim

görüşlərimizin, danışıqlarımızın nəticəsi ondan ibarətdir ki, biz İran-Azərbaycan iqtisadi əlaqələrini bundan sonra daha da genişləndirməliyik. Bunun üçün böyük imkanlar var. Güman edirəm ki, hər iki tərəf bu imkanlardan daha səmərəli istifadə etməyə çalışacaqdır.

Biz ağayi Xatəmi ilə böyük layihələr haqqında çox ətraflı söhbətlər apardıq. Layihələrdən biri ümumdünya xarakteri daşıyan Şimal-Cənub layihəsidir. İran İslam Respublikası bu layihənin həyata keçirilməsinin təşəbbüskarıdır. İran artıq Rusiya və Hindistanla bu barədə saziş əldə edibdir. Azərbaycan bu layihədə iştirak etmək istəyir və mütləq iştirak etməlidir. Yaxın vaxtlarda bu müqaviləyə, bu layihəyə daxil olacaqdır. Bu böyük layihənin içərisində bizim müzakirə etdiyimiz Astara-Astara, Qəzvin-Astara dəmir yollarının və Astara-Bakı avtomobil yolunun inşası xüsusi yer tutur. Demək olar ki, biz bu məsələnin həllində çox yaxşı nailiyyət əldə etdik. İran İslam Respublikası Qəzvin-Astara dəmir yolunun inşasına başlayır. İran və Azərbaycan birlikdə Astara-Astara dəmir yolunun çəkilməsini təmin edəcəkdir. İranın krediti ilə Bakı-Astara avtomobil yolunun çəkilməsinə başlanacaqdır. Azərbaycan Astara-Bakı dəmir yolunu daha da təkmilləşdirəcəkdir. Bunların nəticəsində, təxminən 2-3 ildən sonra böyük nəqliyyat dəhlizi açılacaqdır.

Bunun da əsas hissəsi İranın və Azərbaycanın ərazisindən keçir. Əgər, biz bu layihəni həyata keçirsək, o, Avropanın ən şimal nöqtəsindən dəmir yolu xəttini Qafqazdan, Azərbaycandan, İrandan keçməklə İranın cənubuna - Bəndər Abbasa, oradan Hindistana çatdıra biləcək. Güman edirəm ki, bir neçə ildən sonra, bu layihə başa çatandan sonra onun nə qədər böyük əhəmiyyətə malik olduğunu bizim xalqlarımız biləcək və başqa ölkələrin xalqları da biləcəklər.

İran başqa layihələrdə də iştirak edir. Məsələn, Xəzər dənizində neft və qaz ehtiyatlarının işlənilməsində İran neft şirkəti iki layihədə iştirak edir.

Zəngin qaz ehtiyatlarına malik olan "Şahdəniz" yatağında, - orada bir trilyon kubmetrdən çox qaz olduğu təsdiq edilibdir, İran neft şirkətinin on faiz payı var.

Gələcək layihələrdə də İran Azərbaycanla birlikdə iştirak edəcəkdir. Təşəkkür edirəm.

Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfəri başa çatdı.

İran Prezidentinin iqamətgahı qarşısında rəsmi yolasalma mərasimi keçirildi. İqamətgahın qarşısındakı meydanda fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri səsləndi. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezidentlər - Heydər Əliyev və Seyid Məhəmməd Xatəmi fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Azərbaycan Prezidenti İranın rəsmi şəxsləri, İran Prezidenti isə Azərbaycan nümayəndə heyətinin üzvləri ilə sağollaşdılar.

Azərbaycan Prezidenti Heydər Əliyev və İran Prezidenti Seyid Məhəmməd Xatəmi bir daha səmimiyyətlə sağollaşdılar. Cənab Xatəmi Prezident Heydər Əliyevə müraciətlə dedi ki, inanıram, Sizin İrana bu rəsmi səfəriniz ölkələrimizə xeyir gətirəcəkdir.

Səmimi sözlərə görə İran Prezidentinə təşəkkür edən Prezident **Heydər Əliyev** dedi:

- Mən Sizə əziyyət verdim. Amma çox şadam ki, bu səfərim baş tutdu. Mən

İrandan böyük təəssüratlarla ayrılıram. Cənab Xatəmi, mən Sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Siz də məni İrana rəsmi səfərə dəvət etmişdiniz. Mən İrana gəldim, güman edirəm ki, Siz də Azərbaycana səfərə gələcəksiniz.

Rəsmi səfərə bir daha dəvətə görə minnətdarlığını bildirən cənab **Məhəmməd Xatəmi** dedi:

- Mən mütləq Azərbaycana rəsmi səfərə gələcəyəm. **Biz Azərbaycanı İranı sevdiyimiz qədər sevirik. Cənab Prezident Heydər Əliyev, Sizin şəxsiyyətinizə bizim böyük hörmətimiz vardır.**

PREZİDENT HEYDƏR ƏLİYEVİN İRANDAN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LIMANINDA JURNALISTLƏRƏ VERDİYİ MÜSAHİBƏDƏN:

20 may, 2002-ci il

- Hörmətli jurnalistlər, sizi xoş gördük. Yəqin ki, mənim səfərim sizə məlumdur. Çünki mənə dedilər ki, Azərbaycan televiziyası ilə oradakı görüşlərin çoxunu veriblər, görmüsünüz, eşitmisiniz. Ancaq sizə onu deyə bilərəm ki, mən bu gün orada mətbuat konfransında da dedim - səfər çox uğurlu oldu. Təbiidir ki, səfər edən bizik, bizi qəbul edən İran tərəfidir. Həm bizim üçün, həm də onlar üçün uğurludur. Biz çox əhəmiyyətli görüşlər keçirdik, danışıqlar apardıq.

Əlbəttə, birinci növbədə, Prezident cənab Xatəmi ilə çox səmərəli danışıqlar apardıq, bir sıra görüşlər keçirdik və bir çox məsələləri müzakirə etdik. İqtisadi məsələləri, siyasi məsələləri və başqa məsələləri müzakirə etdik. Gələcəkdə İran ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etdirilməsinin yollarını birgə müəyyən edik.

Hesab edirəm, - orada cənab Xatəmi də bunu bir neçə dəfə təkrar etmişdir - bu səfər İran-Azərbaycan əlaqələrində bir dönüş nöqtəsidir, yeni mərhələnin başlanğıcıdır, bizim əlaqələrimizin inkişafına güclü təkan vermişdir. Mən bu səfərdən çox məmnunam. Hiss etdim ki, İran tərəfi də çox məmnundur, razı qalıbdır. Onlar, bəlkə də, səfərimizi belə gözləmirdilər. Mən də düşünürdüm ki, bəlkə belə olmayacaqdır. Amma həm onların tərəfindən çox böyük səylər göstərildi, həm də bizim siyasətimiz açıq siyasətdir. Heç bir şeyi gizlətmirik, hər şeyi açıq deyirik.

Mən dəfələrlə demişəm və bu gün də deyirəm ki, İran bizim qonşumuzdur, İran böyük dövlətdir. Biz İranla həm iqtisadi sahədə, həm də başqa sahələrdə çox sıx əməkdaşlıq etməliyik. Bu, həm İranın xeyrinədir, həm də bizim xeyrimizədir. Hesab edirəm ki, bunları hərəkətə gətirmək üçün bu istiqamətdə biz çox faydalı iş gördük.

Sual: Cənab Prezident, Bakıya çatan məlumatlara görə, danışıqlar zamanı Azərbaycan tərəfi "Alov" və "Şərq" yataqlarında işləri dayandırmaq barədə razılığa gəlibdir. Bu, nə dərəcədə doğrudur?

Heydər Əliyev: Belə şey, razılıq yoxdur.

Sual: Cənab Prezident, Xəzərin hüquqi statusu ilə bağlı danışıqlar haqqında nə deyə bilərsiniz?

Heydər Əliyev: Xəzərin statusu ilə bağlı danışıqlar apardıq. Bizim ekspertlər orada İran ekspertləri ilə bir yerdə işləmişdilər. Mən buradan Xəzər məsələlərini yaxşı bilən bir qrup adam aparmışdım. Onlar orada dünən bütün günü, axşam saat 10-a qədər onlarla bir yerdə işlədilər.

Ekspertlərin mənə verdiyi məlumata görə, mövqelərin müəyyən qədər yaxınlaşması meyli görünür. Müsbət nəticə ondan ibarətdir ki, artıq biz qərar qəbul etdik - ekspertlərin bu görüşləri bundan sonra da ardıcıl surətdə davam etməlidir. Məsələn, Bakıda ekspertlərin görüşlərini iyunun 11-nə təyin etmişik.

Sual: Cənab Prezident, sentyabrda İran Prezidentinin Azərbaycana gəlməsi gözlənilirmi?

Heydər Əliyev: Bilirsiniz, mən İran Prezidenti cənab Xatəmini dəfələrlə Bakıya dəvət etmişdim. O da məni dəvət etmişdi. Mənə deyirdi ki, əvvəlcə sən gəl. Mən də belə düşünürdüm ki, bəlkə əvvəlcə mən getməliyəm. Mən də bu səfəri etdim. İndi o, çox böyük həvəslə Azərbaycana gələcəyi haqqında bəyanat verdi. Amma nə vaxt gələcək, onu hələ müəyyənləşdirəcəkdir.

Sual: Cənab Prezident, Ermənistan-Azərbaycan münaqişəsinin nizamnamlanmasında İranın iştirakı nə dərəcədə realdır?

Heydər Əliyev: Mən sizin sualınızı başa düşdüm. Siz bilirsiniz ki, Minsk qrupu İrana məlumatlar veribdir. İran da hesab edir ki, bu prosesdə iştirak etməlidir. İndi baxaq görək, necə olur.

Sual: Cənab Prezident, konsulluğun açılması ilə bağlı razılıq oldumu?

Heydər Əliyev: Biz bu məsələyə toxunmadıq.

Sual: Cənab Prezident, Roma papasının Azərbaycana qarşıdakı səfərini necə qiymətləndirirsiniz?

Heydər Əliyev: Yaxşı qiymətləndirirəm. Bu, tarixi hadisədir.

Sual: Cənab Prezident, İran tərəfi ikinci dəfədir Sizin rəsmi səfərinizin proqramına Təbrizi ziyarət etməyi salmayıbdır. Bunu necə qiymətləndirirsiniz?

Heydər Əliyev: Yox, bu düzgün deyildir. Mən bu dəfə Təbrizə özüm getmək istəmədim. Çünki hesab etdim ki, Tehrandan kənara çıxmamalıyıq. İşlərimizi Tehranda görməliyik. Onlar mənə Təbrizi, Ərdəbili təklif etmişdilər. Amma mən özüm getmədim.

Sual: Cənab Prezident, İranın Ali Dini Rəhbəri ilə də görüşmüsünüz. Azərbaycanda İran təmayüllü dini məsələlərlə bağlı fikir mübadiləsi apardınızmı?

Heydər Əliyev: Bilirsiniz, mən dövlətlərarası münasibətlər haqqında söhbət etdim. O, İranın Ali Dini Rəhbəridir. Biz dövlətlərarası məsələləri müzakirə edirdik, dini məsələləri müzakirə etmirdik. Axı, bu mənim işim deyildir. Bizdə din dövlətdən ayrıdır. Din məsələlərinə mən baxmıram və onu müzakirə etmirəm. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏDƏN:

Sual: Cənab Prezident, İranın ekspertlərdən ibarət nümayəndə heyəti iyunun 11-də Bakıya gələcəkdir. Bu səfər zamanı müzakirələrdə Xəzərin statusu ilə bağlı müsbət nəticə gözləmək olarmı?

Heydər Əliyev: Bilirsiniz, biz müsbət nəticə istəyirik və bizim ekspertlər İranda çox işlədilər. Hiss olundu ki, bu işi davam etdirə bilərlər. Ona görə də, biz orada belə qərara gəldik ki, iyunun 11-də onlar Bakıya gəlsinlər və burada ekspertlərlə işlərini davam etdirsinlər. Mən arzu edərdim ki, ekspertlər yaxşı bir nəticəyə gəlsinlər...

İQTİSADİ ƏLAQƏLƏR

Hər iki ölkənin heç bir digər dövlətlə bu qədər yaxın tarixi əlaqələri yoxdur.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Prezidenti Heydər Əliyev VIII İran sərgisinin açılışındakı nitqində bildirmişdir ki, İran ilə Azərbaycan arasında olan əlaqələr İranın və Azərbaycanın bir çox başqa ölkələrlə əlaqələrindən fərqlidir. Doğrudur, burada, təbiidir ki, iqtisadiyyat, ticarət, mal dövriyyəsi xüsusi əhəmiyyət daşıyır. Amma bizim üçün bütün əlaqələrimizin osasını təşkil edən xalqlarımızın birbirinə dost, qardaş olması, bizim ümümi mənəvi dəyərlərə, dinə, müştərək tarixi keçmişə mənsub olmağımızdır. Ona görə də, İran ilə Azərbaycan arasındakı əlaqələr çox fərqlənir.

Təbiidir ki, bütün bunların hamısını nəzərə alaraq, iqtisadi əlaqələrin genişləndirilməsi, inkişaf etdirilməsi bizim əlaqələrimizi həm İranın, həm də Azərbaycanın bütün başqa ölkələrlə əlaqələrindən daha da yüksək səviyyələrə qaldırır. Buna görə də, mən hesab edirəm ki, bu sərgi, yəni, İran İslam Respublikasının Azərbaycanda açılmış VIII sərgisi bu işdə böyük rol oynayacaq, ölkələrimiz arasındakı iqtisadi əlaqələrin inkişafına, xüsusən özəl sektorun, iş adamlarının, biznesmenlərin bir-biri ilə daha da sıx əlaqələrinin yaranmasına kömək göstərəcəkdir.

İran ilə Azərbaycan arasında iqtisadi əlaqələrin genişlənməsi və inkişaf etməsi üçün hələ böyük imkanlar vardır. Həm İran, həm də Azərbaycan tərəfi bu imkanlardan istifadə etməlidir. Biz bu imkanlardan nə qədər çox istifadə etsək, təbiidir ki, ölkələrimizin iqtisadi əlaqələrini də o qədər çox inkişaf etdirmiş olarıq.

İran və Azərbaycanın qonşu olması bu sahənin inkişafına geniş imkanlar açır. Azərbaycan müstəqillik qazandıqdan sonra İİR ticarət sahəsində onun ilk partnyorlarından biri sayıla bilər. Hər iki ölkənin keçən 6 il ərzində ticarət mübadiləsinin həcmi 300-500 milyon dollar təşkil etmişdir. Azərbaycanın ixracat məhsullarının əksəriyyəti İrana göndərilir. İran da öz növbəsində Azərbaycana idxal olunan məhsulların həcminə görə əvvəlinci yerlərdən birini tutur. İranın tacirləri və iş adamları ilk günlərdən Azərbaycanda iqtisadi bazarın yaranmasına və möhkəmlənməsinə yardım etmişlər. Bu zaman məsələnin mənəvi tərəfi də nəzərə alınmışdı. İrandan gətirilən malların qiymətinin aşağı olması, rəqabət üzündən digər ölkələrdən gətirilən malların da qiymətininin aşağı düşməsinə səbəb olurdu. Sənayedə, xüsusilə neft sənayesində, meşə materialları, toxuculuq, yüngül sənaye, nəqliyyat və yükdaşımada əlaqələr yüksək səviyyə qalxmışdı və indi də öz mövqelərini saxlamaqdadır.

Hazırda Azərbaycanda becərilən şəkər çuğunduru İranın müvafiq emal zavodlarına göndərilib hazır məhsul şəklində Azərbaycana yola salınır. Çəltik əkini, çayçılıq, balıqçılıq sahəsində də hər iki ölkənin əməkdaşlığı yaxşı fayda verir. Bəzi mövcud maneələr vaxtında aradan qaldırılsa, ölkələrimizin qarşılıqlı əməkdaşlığı daha intensiv ola bilər.

1998-ci ilin sonunda Azərbaycan Parlamentinin nümayəndə heyəti İranda səfərdə olarkən Müştərək Komissiyanın roludan və fəaliyyətindən danışılaraq komissiyanın fəaliyyətinin gücləndirilməsi üçün işgüzar mexanizm yaradılması təklifi irəli sürülmüş, bu təkliflərin həyata keçirilməsi imkanları müzakirə edilmiş və qeyd olunmuşdur ki, həmin məsələlər gündəlik diqqət mərkəzində saxlanılmalıdır. İri layihələrdən söhbət gedərkən, Ordubad su-elektrik stansiyası tikintisinin vacibliyi də vurğulanmışdır. Bakıda fəaliyyət göstərən İran Milli Bankının funksiyalarının və bank əməliyyatları dairəsinin genişləndirilməsi üçün xüsusi investisiya strukturunun yaradılması təklifi irəli sürülmüşdür. İki ölkə arasında münasibətlərin inkişafında kütləvi informasiya vasitələrinin imkanlarından dolğun şəkildə istifadə olunması da zəruri hesab olunmuşdur.

Müştərək Komissiyanın 1999-cu ilin aprel ayında keçirilməsi nəzərdə tutulmuş növbəti iclasınadək aşağıdakı məsələlərin öz həllini tapmasının vacibliyi qeyd edilmişdir. Bakı-Astara magistral avtomobil yolunun inşası üçün İran şirkətlərindən ibarət konsorsiumun yaradılması, Astara-Astara sərhədyanı bazarının işə salınması, Bakı-Naxçıvan avtobus marşrutunun açılması üçün İran tərəfindən müvafiq icazə verilməsi, İranın "Dərülpəxş" şirkətinin Azərbaycanda əczaçılıq zavodu tikməsinə Azərbaycan tərəfinin icazə verməsi, İranın "Rifah" şirkətinin Bakıdakı "Şərq bazarı"nda ticarət mərkəzi yaratması, Bakı-Məşhəd aviareysinin Novruz bayramınadək işə başlanması və Azərbaycan şirkətlərinin İrandakı azad iqtisadi zonalara cəlb olurması barədə fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası müstəqilliyə qovuşduqdan sonra, İranın iş adamları və məhsulları öz rəqiblərindən daha tez ölkəmizin iqtisadi həyatına daxil oldular. İranın iş adamları mədəniyyət və dil ortaqlığına, İran məhsulları isə yolun yaxınlığı, nəqliyyat xərclərinin ucuzluğu, istehsal vasitələrinin nisbi ucuzluğu və bir qədər aşağı maya dəyərinə görə bu bazarda özünəməxsus yer kəsb etmişdir. Digər ölkələrdə istehsal olunmuş məhsulların gəlişindən, xarici şirkətlərin respublikada fəaliyyətə başlamasından sonra keyfiyyət və qiymətə görə rəqabət daha böyük əhəmiyyət daşımışdır.

Göstərdiyimiz kimi, İranla siyasi əlaqələrimizin təməli, cənab Heydər Əliyev əvvəlcə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri vəzifəsində çalışdığı dövrdə, sonra isə dövlətimizin rəhbərliyinə gəldikdə qoyulduğu kimi, iqtisadi əlaqələrimizin də inkişafı bu zaman mərhələsinə təsadüf edir. Elə bu vaxtdan sonra "Xudafərin" və "Qız qalası" su qovşaqlarının tikintisi başlamış, "Xudafərin" su qovşağının tikinti zonasının qurulması sona çatmış, tikinti sənayesi obyektlərinin inşaatı, Araz çayı üzərində metaldan olan iki körpünün və yaşayış obyektlərin tikintisi genişlənmişdir (hal-hazırda bu obyektlərdə iş erməni təcavüzü nəticəsində dayandırılıb - red).

İranla iqtisadi əlaqələrimiz əsasən üç sahədə daha çox inkişaf etmişdir. Buraya beynəlxalq daşınmaları, ticarəti və neft sahəsində əməkdaşlığı aid etmək olar. İranın Azərbaycan Respublikasındakı ilk səfirlərin-

dən olan cənab Biqdelinin fikrinə görə ilk dövrlərdə hər gün Azərbaycan - İran sərhəddini 40 minə qədər maşın keçirdi ki, onların da böyük əksəriyyətini yük maşınları təşkil edirdi. Buraya Naxçıvana, Avropaya və Türkiyəyə, Fars körfəzindəki limanlara yük aparan nəqliyyat vasitələri daxil idi. Çox təəssüf ki, hələlik, dəmir yolu Ermənistanın təcavüzü üzündən fəaliyyət göstərmir. Bu amil işə düşsə və Şimal - Cənub dəhlizi tam gücü ilə fəaliyyətə başlasa, onda ölkələrimiz arasındakı daşınmaları qat-qat artırmaq mümkündür.

Ticarətə gəlincə, istehlak mallarının ticarəti bu sahədə aparıcı rol oynayır. Bura, əsasən, İrandan alınan və ya onun ərazisi vasitəsi ilə nəql edilən ərzaq malları daxildir. İran İslam Respublikası Azərbaycanın ticarət sahəsində əməkdaşlıq etdiyi ölkələr arasında birinci yerlərdən birini tutur. İlk illərdə Azərbaycanın ixrac etdiyi mallar idxal etdiyi malların beşdə birini təşkil edirdi. İndi vəziyyət nisbətən bizim xeyrimizə olaraq dəyişmişdir. İrana ixrac edilən mallar ölkə büdcəsinin gəlirinin kifayət qədər tutumlu bir hissəsini təşkil edir. Dövlət Statistika Komitəsinin məlumatına görə, İranın ölkəmizə ixracının beşdə birini Naxçıvana verilən elektrik enerjisi təşkil edir.

1993-cü ildən etibarən iqtisadi əməkdaşlıq üzrə Müştərək Komissiya fəaliyyət göstərir.

İran qazının Naxçıvana verilməsi, Naxçıvanda sement zavodunun tikilməsi, Xudafərin bəndinin tikilməsi, farmasevtik müəssələrin yaradılması məsələləri gündəlikdədir.

Həmişə olduğu kimi, neft və qaz sahəsində də əməkdaşlığımız davam etməkdədir. Əgər, nəzərə alsaq ki, ölkəmizin ixracatdan gəlirinin 60%-ni neft və neft məhsulları təşkil edir və onun 75%-i İrana göndərilir. Onun isə, 55%-ni İranın özü alır, 20%-ni isə, Türkiyəyə nəql edir. Bu kifayət qədər böyük kəmiyyətdir.

İranla SVAP (natural dəyişmə) şərti ilə neft alıb verilməsi də ölkəmiz üçün, onun iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

1996-cı ilin əvvəllərində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında Biləsuvar sərhəd-keçid məntəqəsinin açılması zərurəti meydana gəlmişdir. Belə ki, tranzit yüklərin həcminin xeyli dərəcədə artması səbəbi ilə Astara sərhəd-keçid məntəqəsinin faydalı iş əmsalının aşağı düşməsi, Astara körpüsünün texniki vəziyyətinin nasaz olması baxımından Biləsuvarda yeni sərhəd-keçid məntəqəsinin yaranması günün tələbi idi.

1996-cı il oktyabrın 3-7-də Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və hümanitar əlaqələr üzrə Müştərək Komissiyanın həmsədri Yaşar Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Tehranda olmuşdur. Səfər zamanı Müştərək Komissiyanın 2-ci iclası keçirilmiş və iki ölkə arasında əməkdaşlığı genişləndirmək məqsədilə memorandum imzalanmışdır.

1997-ci il noyabrın 18-də Prezident Heydər Əliyev İİR-in kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının (DMK) həmsədri Morteza Hacını qəbul etmişdir. Qəbul zamanı qeyd edildiyi kimi İran Prezidenti M. Xatəminin cavab məktubu Azərbaycanın dövlət başçısına təqdim olunmuşdur.

1997-ci il noyabrın 17-20-də Bakıda keçirilmiş DMK-nın 3-cü iclasının yekun sənədi kimi, ikitərəfli münasibətləri inkişaf etdirmək məqsədilə tərəflər arasında memorandum imzalanmışdır. Bu sənəddə bir sıra yeni əməkdaşlıq yolları araşdırılıb

müəyyənləşdirilmişdir. Məsələn, Bakı - Tehran telefon kanallarının sayının 60-dan 180-ə çatdırılması, Bakı-Biləsuvar-Culfa-Naxçıvan istiqamətində Naxçıvana yeni 60 telefon kanalı çəkilməsi nəzərdə tutulmuşdur. Noyabrın 20-22-də İİR-in nümayəndə heyəti Naxçıvan MR-da olmuşdur. İran kooperasiya naziri M.Hacı Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovla görüşüb, danışıqlar aparmışdır. Burada Naxçıvan bölgəsilə İran arasında əməkdaşlığın inkişaf yolları araşdırılmışdır. Bu məqsədlə, hər iki tərəfin məsul şəxsləri Şahtaxtı-Poldəşt sərhədyanı bazarında, Sədərək sərhəd-keçid məntəqəsində, Culfa sərhədyanı bazarında olmuş, Şahbuz rayonunda İİR-in vəsaiti, yerli dindarların köməyi və yardımı ilə tikilmiş məscidin açılışında iştirak etmişlər. Qeyd etmək lazımdır ki, 1997-ci il noyabrın 21-də Naxçıvanla İran arasında ayrıca əməkdaşlığın genişləndirilməsi haqqında memorandum imzalanmışdır.

İki ölkə arasında iqtisadi əlaqələri inkişaf etdirmək məqsədilə iqtisadi, ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyası tərəfindən təklif olunan Astara-Astara körpüsünün inşası, Astara-Astara dəmir yolu xəttinin çəkilməsi, Naxçıvan Muxtar Respublikasının elektrik enerjisi ilə təmin edilməsi, Xudafərin və Ordubad su qovşağı bəndlərinin tikintisi, Bakı neftinin İranın şimalında alınmasının mümkün variantları və s. məsələlər dəfələrlə müzakirə olunmuş, bu sahədə artıq bir çox əməli addımlar atılmışdır.

1999-cu il iyunun 22-də Şərqi Azərbaycan valisi Yəhya Məhəmmədzadənin başçılıq etdiyi İİR-in nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Səfərin nəticəsi olaraq, Naxçıvan MR Ali Məclisinin sədri V.Talıbov ilə birlikdə anlaşma protokolu imzalanmışdır. Həmin anlaşma protokolunda iki respublika arasında ticarəti inkişaf etdirmək, əkinçilik və maldarlıq sahəsində informasiya mübadiləsi aparmaq, yeni körpülər salmaq, Culfa-Naxçıvan yolunu təmir etdirmək və digər tədbirlər nəzərdə tutulmuşdur.

İki respublika arasında iqtisadi əlaqələri genişləndirmək üçün Culfa sərhəd məntəqəsinin gün ərzində işləməsi və Təbriz - Culfa - Naxçıvan dəmiryolu çəkilişinə başlanması qərarlaşdırılmışdır.

1999-cu il sentyabrın 30-dan oktyabrın 7-dək Tehranda İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının 4-cü iclası keçirilmişdir. Müştərək Komissiya öz işlərini ticarət-iqtisadi, energetika, kənd təsərrüfatı məsələləri komitələri üzrə aparmışdır. Komitələrdə ikitərəfli hökumətlərarası sazişlərlə bağlı məsələlər, ticarət, sərhədyanı bazarlar, bank işi və sığorta, gömrük, dəmir yolu, hava və avtomobil daşımaları, ticarət gəmiçiliyi sahələrində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

1999-cu il oktyabrın 14-18-də İİR kənd təsərrüfatı naziri İsa Kələntərinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul edilmişdir. Nümayəndə heyəti Gəncə, Xanlar, Beyləqan şəhərlərində kənd təsərrüfatı obyektləri və təhsil ocaqları ilə tanış olmuşdur. Səfərin nəticəsi olaraq "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında" saziş imzalanmışdır.

1999-cu il oktyabrın 25-28-də İran İslam Respublikasının iqtisadiyyat və maliyyə nazirinin müavini, Baş Kömrük İdarəsinin rəisi Mehdi Kərbasianın başçılıq etdiyi

nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Baş naziri, Milli Məclisin sədr müavini, Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının həmsədri, Dövlət Kömrük Komitəsinin sədri, Dövlət Baş Vergi Müfəttişliyinin sədri ilə görüşüb, müzakirələr aparmışlar. Səfərin nəticəsi olaraq "Azərbaycan Dövlət Kömrük Komitəsi ilə İran Baş Kömrük İdarəsi arasında kömrük sahəsində əməkdaşlığa dair memorandum" imzalanmışdır.

14-17 fevral 2000-ci ildə İranın yol və nəqliyyat nazirinin müavini Xansari Bakıya səfər etmiş və nəqliyyat sahəsində məsələlərlə bağlı müzakirələr aparmışdır. Səfər çərçivəsində ekspertlər səviyyəsində avtomobil daşımaları haqqında yeni saziş layihəsi razılaşdırılmışdır.

2000-ci il 27 aprel - 1 may tarixlərində İran İslam Respublikasının sənaye naziri Qulamrza Şafeyinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Səfər İİR-in 29 aprelda Bakıda keçirilən 8-ci ixtisaslaşdırılmış sənaye sərgisinin açılışı ilə eyni vaxtda həyata keçirilmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul edilmişdir. İİR-in nümayəndə heyəti Şamaxı rayonu ilə yaxından tanış olmaq məqsədilə bu rayona səfər etmişdir.

2000-ci il iyulun 31-də İİR və Azərbaycan Respublikası arasında geologiya-mədən sahəsində əməkdaşlığı genişləndirmək məqsədilə Tehranda əməkdaşlıq memorandumu imzalanmışdır.

Keçirilən görüşlər zamanı ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi yolları araşdırılmışdır.

2001-ci il mart ayının 27-29-da İran İslam Respublikasının energetika naziri Həbibulla Bitərəfin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur.

Nümayəndə heyəti Azərbaycan Respublikası və İİR arasında elektrik enerjisinin paralel işlənməsinə dair imzalanmış dövlətlərarası müqaviləyə əsasən, 230 kv-lıq İmişli-Parsabad elektrik xəttinin açılış mərasimində iştirak etmişdir. Xəttin ümumi uzunluğu 51 km-dir. Bu xətt vasitəsilə 50 meqavatt elektrik enerjisinin tranzitlə ötürülməsi nəzərdə tutulub. Azərbaycan Respublikasında səfərdə olarkən, İran İslam Respublikasının nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul olunmuş, Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə ilə keçirilmiş görüşlərdə iki ölkə arasında energetika sahəsində əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında birbaşa telefon rabitəsi qurulmuşdur.

Azərbaycandan gəlmiş mütəxəssislər İranda bənd tikintilərində iştirak edirlər. Yeni istifadəyə verilmiş "Səttərxan bəndi" buna misal ola bilər.

Kürü və başqa balıq məhsullarının istehsal texnologiyasının təkmilləşdirilməsi, kilkə balığından konserv istehsalı üzrə birgə müəssisələrin yaradılması, Xəzər dənizi hövzəsində kilkə balığı ovlamaq üçün birgə Azərbaycan-İran ekipajı ilə balıqçı gəmilərinin kirayə edilməsi, dəniz məhsullarının əldə edilməsi və emalı sahəsində qarşılıqlı mənfəətli əməkdaşlığın yaradılması məsələləri öyrənilməkdə və həyata keçirilməkdədir.

Bakıda bir neçə dəfə İran malları sərgisi keçirilmişdir. Həmin sərgilərdə İranın Şərqi Azərbaycan, Qərbi Azərbaycan və

Gilan əyalətləri şirkətlərinin istehsal etdikləri xalq tələbatı malları, maşın, avadanlıq, təchizat və yeyinti məhsulları və s. nümayiş etdirilmişdir. Həmin sərgilərdə beş yüz şirkətin yeddi yüz nümayəndəsi iştirak etmişdir. Sərgilər zamanı respublikamızın müəssisə və təşkilatları ilə İran şirkətləri arasında əlaqələr yaranmış, qarşılıqlı mənfəətli əməkdaşlıq məsələləri haqqında müzakirələr aparılmış, müqavilə və protokollar imzalanmışdır. Bütün bunlar Azərbaycan Respublikası və İran İslam Respublikası arasında ticarət-iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli şərait yaratmışdır. Azərturizm şurası "İrangərdi" və "Cəhangərdi" şirkətləriləayda 1-2 qrup olmaqla turistlərin Bakı-Təbriz-Tehran-Bakı marşrutu üzrə 7-10 günlük səfərlərinin valyutasız mübadiləsi haqqında müqavilə imzalanmışdır.

Ukrayna Respublikası, Azərbaycan Respublikası və İran İslam Respublikası hökumətləri arasında neft və qaz sənayesi sahəsində əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Müqavilə Azərbaycan Respublikası və Ukraynanın neftə və qaza olan tələbatının ödənilməsini və onların başqa ölkələrə nəql edilməsi imkanlarının təmin olunmasını nəzərdə tutur.

İki ölkə arasında olaqələrin genişləndirilməsi sahəsində aparılan əməkdaşlıq dövlətlərarası münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasına xidmət göstərir. Bu, xususilə də, iqtisadi sahədəki əməkdaşlığımıza aiddir. Onun nəticələrinə qısa bir nəzər salsaq, görərik ki, 1993-1997-ci illər ərzində İran Azərbaycanın ticarət tərəfdaşları arasında ticarət dövriyyəsinə görə davamlı olaraq 1-ci və 2-ci yerləri tutmuşdur. İranla bərabər, siyahının əvvəlində Rusiya, Türkiyə, Ukrayna, Gürcüstan və Türkmənistan kimi dövlətlər yer alırdı. 1998-ci ilin göstəricilərinə əsasən İran Azərbaycanla ticarət dövriyyəsinə görə 5-ci yeri, 1999-cu ildə isə 7-ci yeri tutmuşdur. Bu geriləmə Azərbaycandan İrana elektrik enerjisinin qarşılığında neft məhsulları verilməsinin dayanması ilə əlaqədardır.

1997-ci ildə ticarət dövriyyəsi 238.5 mln. ABŞ dolları olmuşdur ki, bunun 48.8 mln. dolları - idxalın, 189.7 mln. dolları isə ixracın payına düşmüşdür.

1998-ci ildə ticarət dövriyyəsi 86.9 mln. ABŞ dolları təşkil etmiş, bunun 42.5 mln dolları - idxala, 44.4 mln. dolları isə ixraca aid olmuşdur.

1999-cu ildə ticarət dövriyyəsi 70.0 mln. ABŞ dolları həcmində olmuş, bunun 47.4 milyon dollar idxalın, 22.6 milyon dollar isə ixracın payına düşmüşdür.

1993-1999-cu illər ərzində idxalın maksimal göstəricisi 1995-ci ildə ən yüksək olaraq 80.3 mln. ABŞ dollarına çatmışdır. 1994-cü ildə həyata keçirilmiş ixrac göstərilən dövr üçün ən yüksək olmuş və 242.1 mln. ABŞ dollarına çatmışdır.

1993-1999-cu illər ərzində İrandan idxal edilən mallar, əsasən, ərzaq, təsərrüfat malları, avtomobillər, elektrik enerjisi və s. olmuşdur.

Azərbaycandan İrana ixracda isə xam neft və neft məhsulları, kimyəvi məhsullar, tullantılar, qara metal və s. üstünlük təşkil etmişdir.

İran sərmayəsinin iştirakı ilə Azərbaycanda istehsal, tikinti, və s. sahələrdə 200-dək müəssisə qeydiyyata alınmışdır.

Bu müəssisələr (şirkətlər) əsasən xalq üçün malların istehsalı, kənd təsərrüfatı məhsullarının emalı, trikotaj məmulatların istehsalı, tikinti materiallarının istehsalı və s. bu kimi sahələrlə məşğuldurlar.

İran Neft Şirkəti iki beynəlxalq konsorsiumda iştirak edir:

- "Şahdəniz" perspektiv sahəsi (3-cü

konsorsium, 10% paya malikdir), kontrakt 4 iyun 1996-cı il tarixdə imzalanmışdır.

- Lənkəran-dəniz və Talış-dəniz perspektiv strukturları (5-ci konsorsium, 10% paya malikdir), kontrakt 13 yanvar 1997-ci il tarixdə imzalanmışdır.

Bundan əlavə, Xəzərin milli sektorlarında neft ehtiyatlarının axtarışı üzrə ARDNŞ ilə İran Milli Neft Şirkəti arasında birbaşa əməkdaşlıq həyata keçirilir.

Azərbaycan Prezidenti İranla həm siyasi, həm də iqtisadi əlaqələrimizin yüksək səviyyədə inkişaf etməsinə böyük diqqət verir. Heç də təsadüfi deyildir ki, Prezident Heydər Əliyev 11 fevral 2000-ci ildə İslam inqilabının 21-ci ildönümünə həsr olunmuş mərasimdə çıxış edərkən göstərmişdir ki, bizim iqtisadi əlaqələrimiz inkişaf edir. Ticarət əlaqələri yüksək səviyyədədir. Azərbaycanla ticarət əlaqələrində İran birinci-ikinci yerdədir... Dövlətimizin başçısı əlavə edərək demişdir ki, mədəni əlaqələrimiz, insani əlaqələrimiz də genişdir. Ancaq bunlar da azdır. Mən hesab edirəm ki, bizim əlaqələrimizin bütün sahələrdə genişlənməsinə imkanlar var və bu imkanlardan istifadə etmək lazımdır... Doğrudur, son zamanlar bizim ölkələrimiz arasında hökumət və dövlət səviyyəsində gediş-gəliş artıb. Ancaq bu, nə İran tərəfini, nə də Azərbaycan tərəfini qane edə bilməz. Biz bunları daha yüksək səviyyəyə qaldırmalıyıq və qaldırmaq istəyirik.

Bütün bunlarla yanaşı, hələ bir çox məsələlər öz həllini gözləməkdədir. O cümlədən Azərbaycan Respublikası və İİR arasında ikitərəfli iqtisadi xarakterli məsələlərə dair bir çox sənədlər hələ də ya imzalanmamış, ya da hazır deyildir.

Onlardan İnvestisiya sazişini, İkiqat vergiqoymanın aradan qaldırılmasına dair Konvensiyanı, Hava daşımaları haqqında sazişi, Ticarət gəmiçiliyi haqqında sazişi, Sərhədyanı ticarət sahəsində əməkdaşlığa dair memorandumu, Ticari-iqtisadi əməkdaşlıq haqqında sazişi, Vergi qanunvericiliyinə əməl edilməsi üzrə qarşılıqlı yardım haqqında hökumətlərarası sazişi göstərmək olar.

Qeyd etdiyimiz kimi 29 aprel 2000-ci ildə Bakıda İİR-in 8-ci sərgisi açılmışdır. Sərgini gəzən və açılışında çıxış edən Prezidentimiz İranla olan iqtisadi əlaqələrimiz barədə iştirakçılarla mülahizələrini bölüşdürmüşdür. O göstərmişdir ki, iqtisadi əlaqələrin genişləndirilməsi, inkişaf etdirilməsi bizim münasibətlərimizi həm İranın, həm də Azərbaycanın bütün başqa ölkələrlə əlaqələrindən daha da yüksək səviyyələrə qaldırır... Mən hesab edirəm ki, gərək Azərbaycanın ticarət əlaqələri, birinci növbədə, onun qonşu ölkələri ilə, o cümlədən, xüsusən İranla aparılsın... oradan mal alıb gətirmək bizim üçün əlverişlidir. Azərbaycan mallarının İrana ixrac edilməsi də çox mühüm məsələdir.

İran Azərbaycana investisiyalar qoyür. Məsələn, mənim şəxsən cəlb etdiyim İranın OİEC şirkətinin "Şahdəniz yatağında" 10% payı vardır...

Dövlətimizin başçısı xüsusi olaraq vurğulamışdır ki, adətən, belə sərgiləri açmağa nazirlər, başqa dövlət məmurları gəlirlər. Ancaq İran-Azərbaycan iqtisadi əlaqələrinə xüsusi diqqət yetirərək, ona xüsusi əhəmiyyət verərək mən buraya gəldim ki, sərginin açılışında iştirak edim... qonaqlarla görüşüm... bəzi fikirlərimi deyim.

Bu fikirlərdən biri də ondan ibarətdir ki, İran ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirərək, biz bütün sahələrdə əməkdaşlığımızı genişləndirməliyik. Azərbaycan bu mövqedə durubdur.

1999-cu ilin məlumatına görə, Azərbaycanda 426 İran ticarət şirkəti qeydə alınmışdır və onların yalnız 200-ü fəal şəkildə fəaliyyət göstərir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, indiyə qədər 106 İran müəssisəsi və 96 İran-Azərbaycan Birgə Müəssisəsi ölkədə fəaliyyət göstərir. Digər tərəfdən, 2001-ci ilin sonuna qədər Azərbaycanda qeydiyyatdan keçmiş İran şirkətlərinin sayı 490 olmuşdur. Qeydiyyatdan keçmədən fəaliyyət göstərən bəzi şəxsləri də nəzərə alsaq, bu, kifayət qədər böyük rəqəm olacaqdır.

Bu şirkətlər daha çox ticarət, inşaat, nəqliyyat, istehsal və neft-qaz sahələrində fəaliyyət göstərirlər.

Azərbaycanda bir sıra layihələrin İran şirkətləri tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur. İran şirkətləri azərbaycanlı partnyorlarının da İran tərəfi ilə əməkdaşlığa cəlb olunmasına səy göstərirlər.

İran İslam Respublikası Azərbaycan Respublikasında bir sıra layihələr həyata keçirir. Onlardan ən mühümləri aşağıda adları çəkilənlərdir:

"Dərya" yuyucu toz istehsal zavodunun inşaası. Zavod artıq 32 adda özünün ilk məhsullarını istehsal etməkdədir.

Naxçıvana qaz çəkilişi layihəsi. Bu layihədə barter prinsipilə işləmək qərara alınmışdır. Belə ki, İrandan Naxçıvana qaz göndərilməsinin müqabilində (Naxçıvan MR-ə ildə 140 mln. m3 qaz ixracı) Azərbaycan tərəfi onun qarşılığını "Şahdəniz" yatağından çıxarılın qazla İrana ödəyəcəkdir. Bu barədə müqavilə artıq imzalanmışdır.

Energetika sahəsində əməkdaşlıq. Hal-hazırda iki ölkə arasında energetika mübadiləsi Parsadəb-İmişli tranzit elektrik xətti ilə həyata keçirilir. Bu, Naxçıvan MR-in elektrik enerjisi ilə təmin olunması deməkdir.

Şimal-Cənub magistralının hissələri olan Bakı-Astara şosse yolunun, Astara-Astara dəmir yolunun və piyada körpüsünün layihələri. Onların İran tərəfindən maliyyələşdirilməsi və icrası üçün müvafiq tədbirlər görülməkdədir.

"Saypa" montaj müəssisəsinin yaradılması. "Saypa-Dizel" şirkətilə Azərbaycan tərəfinin imzaladığı müqaviləyə əsasən, 1998-ci ildə Azərbaycana 300 ədəd avtobus göndərilməli idi. Ödəniş olmadığı üçün müqavilə hələ də həyata keçirilməmişdir. Ancaq artıq "Saypa"nın məhsullarının satışı və servis xidməti məqsədilə Azərbaycanda SMC adlı bir müəssisə yaradılmışdır. Hazırda həmin müəssisə Azərbaycana mikroavtobuslar, "Kamyupet" və "Qrayd" markalı minik avtmobilləri göndərməkdədir.

Bundan başqa, Azərbaycan Respublikasında mikroavtobus və minik avtomobilinin montaj xəttinin yaradılması üçün ilkin müqavilə imzalanmış, minik maşını və mikroavtobusların montajının texniki-iqtisadi səmərəliliyi ilə bağlı araşdırmalar başa çatmışdır. Danışıqlar davam edir.

"İranxodro" şirkətindən avtomobil alınması. "İranxodro"nun Azərbaycan Respublikası ilə birbaşa əlaqələri 1992-ci ildə qurulmuşdur. Həmin il Azərbaycan Respublikası siyasi-iqtisadi nümayəndə heyətinin "İranxodra" şirkətində görüşlərindən sonra 100 ədəd şəhərdaxili xətlərdə istifadə üçün avtobus, 50 ədəd mikroavtobus və müəyyən qədər təcili tibbi yardım, minik avtomobillərinin alınmasına dair 7 mln. dollarlıq müqavilə imzalanmış, istehsal edilmiş avtomobillər dərhal Azərbaycan Respublikasına təhvil verilmişdir. 2000-ci ildə 300 ədəd avtobus və 750 ədəd mikroavtobusun kreditlə satışına

dair 31,7 mln. dollar dəyərində Bakı şəhər İcra Hakimiyyəti ilə müqavilə imzalanmışdır. Lakin müqavilənin icrası hələlik dayandırılmışdır.

Kənd təsərrüfatı sahəsində əməkdaşlıq. İmzalanmış müqaviləyə görə Azərbaycan Respublikasının 50 min hektarlıq ərazilərində İranın "Səbalan Səbz" və Azərbaycanın "Azərşəkər" şirkətləri tərəfindən əkin işləri görülür.

Gömrük sahəsində əməkdaşlıqlar. Culfa Gömrük məntəqəsi sutkalıq rejimdə fəaliyyət göstərir. Astara məntəqəsində də 24 saatlıq iş rejiminə keçmək barədə razılıq əldə edilmişdir. Biləsuvar gömrük məntəqəsi bir müddət fasilədən sonra keçən ilin yayından öz fəaliyyətini bərpa etmişdir.

İki ölkə arasında nəqliyyat və tranzit mübadiləsinin sadələşdirilməsi məqsədilə 6 may 2002-ci il tarixdə yeni tikilmiş Astara sərhəd terminalının açılış mərasimi olmuşdur.

Avtomobil daşımaları sahəsində əməkdaşlıq. Astara çayı üzərində körpünün yeniləşdirilməsi və ya yeni körpünün inşası barədə razılığa gəlinmişdir. Piyadalar üçün də yeni bir körpü salınması nəzərdə tutulur.

İki ölkənin ticarət əlaqələri indiyə qədər enişli-yoxuşlu olmuşdur. Azərbaycan Respublikasının müsətqilliyə qovuşmasının ilk illərində İran bu ölkənin xarici ticarət dövriyyəsində 1-ci yerdə idisə, indi 4-cü yeri tutur. Azərbaycanla ticarət dövriyyəsinin həcmi İran tərəfindən 350 mln. dollar həcmində proqnozlaşdırılır.

İran İslam Respublikasının Azərbaycan Respublikasına ixrac etdiyi əsas məhsullar aşağıdakılardır:

Bitki yağı, un, makaron, tomat pastası, kartof, soğan, meyvə, geyim, tikinti materialları, yuyucu tozlar və başqa bir sıra istehlak malları.

Azərbaycan Respublikasının İran İslam Respublikasına ixrac etdiyi əsas məhsullar isə bunlardır:

Neft-qaz məhsulları, kondinsionerlər, taxta və metal.

İkitərəfli iqtisadi münasibətlərin mühüm aspektlərindən aşağıdakıları qeyd etmək olar:

- İran İslam Respublikası hər il Azərbaycan Respublikasında ixtisaslaşmış sərgi təşkil edir. İndiyə qədər 9 belə sərgi keçirilmişdir.
- Birgə İqtisadi-Mədəni Əməkdaşlıq Komissiyasının 4 iclası keçirilmişdir.
- İldə hər iki tərəfdən sərhədi 1 mln. nəfərə qədər insan keçir.
- İki ölkə arasında nəqliyyat vasitələrinin hərəkəti ildə 100 min avtomobilə çatmışdır.
- Hər il Naxçıvan MR-ə 300 min. ton yanacağ daşınır.
- Araz çayının suyundan ümumi istifadə üçün müqavilə imzalanmışdır.
- İrandan Naxçıvan MR-na elektrik enerjisi verilir.

Naxçıvanda sərhəddəki körpü təmir edilmiş, İrandan Ordubada gedən yola asfalt çəkilmiş, həftədə 5 dəfə Naxçıvan camaatının Məşhədə getməsinə şərait yaradılmış, ziyarət xərcləri 60 dollardan 32-yə endirilmiş, Şahtaxtında, Poldəşt körpüsü açılmış və orada sərhədyanı bazar təşkil edilmişdir. Culfa-Naxçıvan arasında yeni yol çəkilir.

Təkcə 1999-cu ildə iranlılar Azərbaycana 600 milyon dollar sərmayə qoymuşlar.

Bakıda İran-Azərbaycan Birgə Əczaçılıq fabriki istifadəyə verilməkdədir (Azərfarm).

Prezident Heydər Əliyevin İran İslam Respublikasına son səfərindən sonra iqtisa-

Təntənəli qarşılanma mərasimi
18-20 may 2002-ci il

Təntənəli qarşılanma mərasimi
18-20 may 2002-ci il

Təntənəli qarşılanma mərasimi
18-20 may 2002-ci il

Rəsmi görüşlərin başlanğıc anı
18-20 may 2002-ci il

Təntənəli qarşılanma mərasimi
18-20 may 2002-ci il

Təkbətək görüş
18-20 may 2002-ci il

Rəsmi görüş
18-20 may 2002-ci il

***H.Əliyevin** İranın rəhbərləri ilə səmimi görüşü*
18-20 may 2002-ci il

Azərbaycan Respublikasının Prezidenti ***H.Əliyevin*** *şərəfinə verilən ziyafət*
18-20 may 2002-ci il

Müqavilələrin imzalanma mərasimi
18-20 may 2002-ci il

Əsas müqavilənin imzalanma mərasimindən sonra
18-20 may 2002-ci il

Prezidentlər mətbuat konfransında
18-20 may 2002-ci il

Heydər Əliyev Dövlətlərarası Müştərək Komissiyanın üzvlərini qəbul edərkən

İranın Şərqi Azərbaycanın Ostandarı Y.Məhəmmədzadənin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

Nümayəndə heyətləri imzalanma mərasimindən sonra
18-20 may 2002-ci il

Dostcasına söhbət
18-20 may 2002-ci il

Azərbaycan Respublikasının Tehrandakı Səfirliyinin əməkdaşları ilə birlikdə
18-20 may 2002-ci il

Azərbaycan Respublikasının Tehrandakı Səfirliyindəki görüşdən bir an
18-20 may 2002-ci il

Jurnalistlərlə görüş
18-20 may 2002-ci il

Prezident H.Əliyev Azərbaycan Respublikasının Tehrandakı səfirliyində
18-20 may 2002-ci il

Prezident H.Əliyevin İranın Azərbaycandakı səfiri Əhəd Qəzayi ilə səmimi söhbət "Gülüstan" sarayı
11 fevral 2001-ci il

Bakıda İran rəssamı Vədud Müəzzenin sərgisinin açılışı
9 oktyabr 2002-ci il

İran rəssamı Vədud Müəzzənin Prezident H.Əliyevin şəklinin təqdimi
9 oktyabr 2002-ci il

H.Əliyev İran rəssamı Vədud Müəzzən ilə söhbət zamanı
9 oktyabr 2002-ci il

İran musiqi sənətçilərini alqışlama anı
9 oktyabr 2002-ci il

"Heydər Əliyev və Şərq" kitabının I cildinin təqdimi
10 may 2002-ci il

*Azərbaycan Prezidenti **H.Əliyev** İrandan qayıdarkən*
20 may 2002-ci il

di əlaqələrimizin keyfiyyətcə yeni mərhələyə qalxacağı gözlənilir. Belə ki, səfər zamanı ümumdünya xarakteri daşıyan Şimal-Cənub nəqliyyat dəhlizi layihəsində Azərbaycanın iştirakı, Astara-Astara, Qəzvin-Astara dəmir yollarının və Astara-Bakı avtomobil yolunun inşaası, Xəzər dənizində neft və qaz ehtiyatlarının işlənməsində İran neft şirkətlərinin iştirakı kimi mühüm layihələr müzakirə edilmiş, müəyyən razılıqlar əldə edilmişdir.

Bu səfər, sözün əsl mənasında, tərəflər qarşısında əməkdaşlıq üçün geniş imkanlar açır. Səfər əsnasında tərəflər müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyatda əməkdaşlıq etmək üçün 10 saziş imzalamış, bununla da, əməkdaşlığımızın hüquqi bazasını daha da genişləndirmişlər. İndi söz icraçıların və iş adamlarınındır. Ümidvarıq ki, onlar əsası prezidentlərimiz tərəfindən qoyulmuş hər iki xalqın əməkdaşlıq istəyinə layiqincə cavab verəcəklər.

İran-Azərbaycan iqtisadi əməkdaşlığına qiymət verən, gələcəkdə İranın böyük beynəlxalq layihələrdə iştirakını aydınlaşdıran Azərbaycan Prezidenti göstərmişdir ki, ağayi Xatəmi ilə mənim imzaladığım müqavilədən başqa, imzalanan sənədlərin, demək olar ki, hamısı iqtisadiyyata aiddir. Bizim münasibətlərimizdə, apardığımız danışıqlarda iqtisadiyyat məsələləri çox mühüm yer tutur. **Səfərimin və danışıqlarımızın nəticəsi kimi, biz İran-Azərbaycan iqtisadi əlaqələrini bundan sonra daha da genişləndirməliyik. Bunun üçün böyük imkanlar var. Güman edirəm ki, hər iki tərəf bu imkanlardan daha səmərəli istifadə etməyə çalışacaqdır.**

MƏDƏNİ, ELMİ VƏ HUMANİTAR ƏLAQƏLƏR

"XX əsr" jurnalının sorğusuna Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin verdiyi cavabdan: Ən çox sevdiyim şair Şəhriyardır.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Ölkələrimiz arasındakı mədəni, elmi və humanitar əlaqələr əməkdaşlığımızın böyük bir hissəsini təşkil edir.

İndi mədəni əlaqələr getdikcə daha çox qarşılıqlı inteqrasiya, əməkdaşlıq şəklini alır, təkcə dövlət və rəsmi struktkrları deyil, adamların fərdi iştirakına, şəxsi əlaqələrə, səfərlərə, sözün əsl mənasında, "xalq diplomatiyası"na arxalanır. "Dünyanı mədəni əlaqələr xilas edəcəkdir" kəlamını F. Dostoyevski doğrudan da heç də nahaq işlətməmişdir.

Sovet dövründə başqa respublikalar kimi, Azərbaycanın da İranla mədəni, elmi və humanitar əlaqələri məhdud idi. Lakin müstəqilliyimizi qazandıqdan sonra bu vəziyyət köklü surətdə dəyişdi, yeni tarixi şəraitdə bu sahələrdə əlaqələrin geniş vüsət alması üçün imkanlar yarandı.

Lakin Sovet hakimiyyəti dövründə - sərhədlərin bağlı olduğu vaxtda, belə mədəni körpülər yaradılmışdı.

Sovet dövründə isə bu tək-tək hallarda baş verirdi. Məsələn, məşhur müğənnimiz Bülbül 1942-43-cü illərdə İranda olmuşdu. Rəşid Behbudov 1960-cı illərin sonunda, 1970-ci illərin əvvəllərində İrana bir neçə dəfə səfər etmişdi. Onu orada çox təntənə ilə qarşılamışdılar.

Hələ 30-cu illərdə Firdovsinin "Şahnamə"si Azərbaycan dilinə tərcümə olunmuşdu. Elə bu illərdə Firdovsinin 1000 illik yubileyi keçirilmişdi. Onun "Şahnamə" əsərinin, demək olar ki, əksər hissəsi Azərbaycan dilinə tərcümə edilmişdi. Azərbaycan Prezidenti Heydər Əliyevin göstərdiyi kimi, onun orada təsvir etdiyi qəhrəmanlar - pəhlivan, şah, xan obrazları bizdə böyük heyranlıq doğururdu. Azərbaycanın böyük dramaturqu mərhum Hüseyn Cavid "Şahnamə"nin əsasında "Səyavuş" əsərini yaratmışdır. Təxminən 1937-ci ildə "Səyavuş" əsəri tamaşaya qoyulmuşdur. 1938-ci ildə Hüseyn Cavidi həbs edildikdən sonra onun əsərləri qadağan edilmişdir.

Firdovsi ilə yanaşı Ömər Xəyyamı Azərbaycanda çox sevirlər. İnsanların çoxu Xəyyamın şerlərindən misralar söyləməklə, öz fikirlərini təsdiqləyirlər.

Hüseyn Cavid Ömər Xəyyam haqqında böyük bir teatr əsəri, pyes yazmışdı. O vaxtlar həmin əsəri də qadağan etmişdilər.

Azərbaycan Prezidenti İranla mədəni əlaqələrimizə aid bu hadisələri belə xatırlayır: "Hüseyn Cavid bizim böyük şairimiz, dramaturqumuzdur. Onun əsərləri çoxdur. Amma onun iki əsəri - "Səyavuş" və

"Ömər Xəyyam" Azərbaycan ədəbiyyatında xüsusi yer tutubdur. Məsələn, mən Məşhəddə olanda iki müqəddəs yeri çox böyük iftixar hissi ilə ziyarət etdim. İmam Rzanın qəbrini ziyarət etmək mənim çoxdankı arzum idi. Gedib onu ziyarət etdim. Mən bir də gedib Firdovsinin qəbrini ziyarət etdim. Yadımdadır ki, o vaxtlar mən gedib Şəhriyarın qəbrini ziyarət etdim. **Şəhriyar mənim üçün çox əzizdir. Mən güman edirəm ki, Azərbaycandan Təbrizə gedən hər bir şəxsən əvvəl, Şəhriyarın qəbrini ziyarət etməlidir. Çünki Şəhriyar, doğurdan da, həm İran, həm də Azərbaycan şairi kimi XX əsrin ən böyük şəxsiyyətlərindən biridir...** Şəhriyarın "Heydərbabaya salam" əsəri tarixi səpkidədir. Heç kəs, heç bir bədxah həmin əsəri azərbaycanlının- Bakıda, Gəncədə, Füzulidə, Qubadlıda, Təbrizdə olsun, fərqi yoxdur - ürəyindən çıxara bilməz. Yəni həmin sözləri qəlblərdən silmək olmaz. Fikrimcə, Nizaminin də, Füzulinin də şerləri Bülbülün oxuduğu mahnılar da heç vaxt unudula bilməz.

İranla Azərbaycan arasında əlaqələrin min illərlə tarixi vardır. Bu əlaqələri zamanın heç bir sınağı poza bilməz".

Ölkələrimiz arasında "Mədəniyyət sahəsində əməkdaşlıq" haqqında saziş imzalanmışdır. Bu sazişə görə, tərəflər mədəni proqramlar tərtib edir, tələbə və professorlardan, incəsənət truppalarından ibarət qruplarla mübadilələr aparırlar.

Azərbaycan Prezidenti İranla mədəni əlaqələrimizin inkişafına da çox böyük diqqət yetirir. O, hələ Sovetlər dövründə respublikaya rəhbərlik edərkən, bu işə başlamış, Naxçıvanda Ali Sovetə başçılıq edərkən davam etdirmişdir. Hazırda da onun ən yüksək səviyyəyə çatması üçün əlindən gələni etməkdədir.

Hələ Naxçıvanda olarkən gördüyü işlərdən söhbət açan Prezidentimiz belə xatırlayır: "...Bizim mədəniyyətimiz, musiqimiz qədimdən eynidir, bir-birinə yaxındır. Azərbaycanın mahnıları, şərqiləri İranda sevilir, İranınkı Azərbaycanda sevilir. Xatirimdədir,- bu günlərdə bunu yadıma saldılar,- Naxçıvanda olanda mənə dedilər ki, hamımız üçün əziz olan "Ayrılıq" mahnısını yazan bəstəkar Əli Səlimi, o, Təbrizdə yaşayırdı, 1938-ci ildə, uşaqkən, gənc ikən Azərbaycandan, Bakıdan köçüb getmişdi, orada yaşayırdı,-çox istəyir ki, Azərbaycanı, Bakını görsün, amma gedə bilmir. Mən Naxçıvanda bizim mədəniyyət nazirinə göstəriş verdim ki, nə edirsən-et, onları buraya dəvət elə. Dəvət elədilər, Culfa körpüsündən keçib Naxçıvana gəldilər. 35-40 nəfərlik böyük bir orkestr idi, Siz onları yaxşı tanıyırsınız. Təbrizin orkestri idi. Əli Səlimi ilə görüşdük. Mən çox məmnun oldum. Çünki təkcə "Ayrılıq" mahnısını yox, o qədər gözəl musiqilər bəstələmişdi ki, biz heyran olduq. Onlar bizim teatrda konsert verirdilər, şübhəsiz ki, üst paltarlarını çıxarmışdılar. Biz isə, salonda üst paltarlarımızda oturmuşduq, çoxları papağını da çıxarmamışdı. Onlar isə, o soyuqda konsert verirdilər. Çöldə, eşikdə 30 dərəcə, içəridə də, azı, 10 dərəcə şaxta vardı. Amma, bilirsiniz, nə qədər çətin olsa da, bu, o vaxt insanlara ruh verirdi. Naxçıvanda insanlar Əli Səliminin konsertini böyük iftixarla, böyük ruh yüksəkliyi ilə qarşıladılar. Mən onu Naxçıvandan Bakıya yola saldım. Deyirdi ki, çox arzu edirəm yaşadığım evi, yaşadığım küçəni görüm...Bax, budur, biz birik, yəni, burada heç nə ayrı deyildir. Əli Səlimi də, yaxud bizim Azərbaycan bəstəkarları da hamısı birdir. Hamısı bir musiqi, mahnı yazır. Onā görə də, bunları heç vaxt ayırmaq olmaz. 70 il də ayıra bilmədi, 100-200 il də olsa, ayıra bilməz. İndi biz bu əlaqələri in-

kişaf etdirməliyik. **Mən bildirmək istəyirəm ki, dövlətimizin siyasəti, şəxsən Prezident kimi mənim siyasətim İran İslam Respublikası ilə əlaqələrimizi bütün sahələrdə genişləndirmək, inkişaf etdirmək məqsədi daşıyır. Həm iqtisadi əlaqələri, həm humanitar, elm, mədəniyyət və bütün başqa sahələrdə əlaqələri inkişaf etdirmək istəyirik və etdirəcəyik".**

Mədəni əlaqələr iki ölkələr arasındakı münasibətlərdə çox mühüm yer tutur. Belə əlaqələr İranla Azərbaycan arasında qədimlərdən çox möhkəm olmuşdur. Bizim xalqlarımız bir çox müştərək eyniliklərlə - tarix, mədəniyyət, ədəbiyyat, din, məzhəb baxımından bir-biriləri ilə çox bağlıdır. Bağlılığı əsaslandıran bu cəhətlər ikitərəfli münasibətlərin bünövrəsini - məhək daşını təşkil edir. Əlaqələrimizin möhkəmləndirilməsi bu istiqamətdə davam edir. Son 70 ildəki ayrılıq, heç də mənəvi birliyimizi sarsıda bilməmişdir. Təsadüfi deyil ki, Azərbaycanın müstəqilliyini tanıyan ilə ölkələrdən biri İİR olub. Hazırda iki xalq arasındakı mədəni, elmi və humanitar əlaqələr get-gedə inkişaf edir, genişlənir. Ötən illər ərzində hər iki ölkə xalqlarının dostluq əlaqələrinin genişlənməsinin canlı şahidi olmuşuq. İİR ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqələr yaradılmış, sərhədyanı bölgədə yaşayan əhali vizasız 40 kilometrlik gediş-gəliş hüququna malik olmuşlar. Bundan başqa, görülmüş tədbirlər sayəsində bu gün Azərbaycanın və İranın hər bir vətəndaşı müvafiq nümayəndəliyə müraciət edərək viza aldıqdan sonra o biri tərəfi ziyarət edə bilər. Onu da qeyd etmək lazımdır ki, bu ziyarətlərin sayı hər iki ölkə tərəfindən məhdudlaşdırılmır. İran vətəndaşları Bakı hava limanında viza məsələsini elə yerindəcə həll edə bilirlər.

Bir neçə il öncə hər iki ölkənin mədəniyyət nazirlikləri tərəfindən mədəni sahədə əməkdaşlıq proqramı işlənib hazırlanmışdır. Bu çərçivədə ulu Şəhriyarın 90 illiyi təntənə ilə qeyd edilmişdir. Bu sahədə əlaqələndirmə tədbirlərilə İran Mədəniyyət Mərkəzi Azərbaycanda 7 ilə yaxındır ki, fəaliyyət göstərir. İranla Azərbaycan arasında ədəbi, mədəni və incəsənət sahəsində əməkdaşlığın istiqamətləndirilməsi və əlaqələndirilməsi sahəsində işlərin həyata keçirilməsi üçün hüquqi zəmin yaradılmışdır.

İranda fəaliyyət göstərən Azərbaycan Elm, Mədəniyyət Araşdırmaları Mərkəzi (AYKAM) Azərbaycan, İran, Türkiyə və Qırğızıstanın 100-ədək aliminin iştirakı ilə 1998-ci il dekabrın 3-5-də Təbriz şəhəri yaxınlığındakı Şərəfxana yaşayış məntəqəsində (Urmiyə gölü sahilində) 1-ci azərbaycanşünaslıq simpoziumu keçirmişdir.

Azərbaycanşünaslıq sahəsində İranda ilk dəfə keçirilən beynəlxalq simpoziumda Azərbaycan Elmlər Akademiyası yüksək səviyyədə təmsil olunmuşdur. Ölkəmizin 21 nəfər ədəbiyyatşünas, dilçi, tarixçi və sənətşünas aliminin daxil olduğu nümayəndə heyətinə Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun dircktoru, filologiya elmləri doktoru, mərhum professor Yaşar Qarayev başçılıq edirdi.

Azərbaycan Elm və Mədəniyyət Araşdırmaları Mərkəzinin başqanı, doktor Qadir Qolkarian (Güldikən) Təbrizdə yerləşən bu təşkilatın cari və perspektiv fəaliyyəti barədə məlumat vermişdir.

Bu elmi və mədəni tədbirin keçirilməsinə şərait yaratdığına görə, Şərqi Azərbaycan vilayətinin rəhbərliyinə təşəkkürünü bildirən Azərbaycanın İrandakı səfiri Abbasəli Həsənov simpozium iştirakçılarını məktubla təbrik etmişdir. Təbrikdə deyilir ki, Azərbaycan dili və mədəniyyəti, azərbaycançılıq amili bir-biri ilə dost, qardaş və qohum olan Azərbaycan və İran xalqları arasında hərtərəfli əlaqələrin inkişafı üçün əlverişli zəmin yaradacaqdır.

Azərbaycan alimlərinin simpoziumdakı məruzələri böyük elmi maraq doğurmuşdur. İran, Türkiyə və Qırğızıstan alimləri müzakirələrdə fəal iştirak edərək bir sıra təkliflər irəli sürmüşlər.

Simpoziumda Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitunun nəzdindəki Folklor Mədəniyyəti Mərkəzinin folklor obrazlarından ibarət təşkil etdiyi miniatür sərgi nümayiş etdirilmişdir.

Azərbaycan nümayəndə heyətinin başçısı, mərhum professor Yaşar Qarayev demişdir:

"İlk dəfə idi ki, belə bir böyük simpozium keçirilirdi. Qeyd etmək istərdim ki, əlaqələrimizin genişlənməsində bu kimi tədbirlərin böyük əhəmiyyəti vardır. Azərbaycan-ümumtürk əlaqələrinin yeni forması olan bu simpoziumda edilən bütün çıxışlarda azərbaycanşünaslığın, Azərbaycan ədəbi-bədii dilinin böyük rolu açıq-aydın etiraf olunurdu. Qeyd olundu ki, bu əlaqələrin inkişafında sənətkarların, yazıçıların, şairlərin və jurnalistlərin rolu böyükdür".

Simpoziumda türk, fars və ərəb dillərinin qarşılıqlı əlaqəsi məsələsinə toxunularaq göstərilmişdi ki, Azərbaycan şairlərinin vaxtilə fars dilində yazması tarixi şəraitlə bağlı olmuşdur. Çıxışlarda Azərbaycan dilinin tədrisi məsələsinə geniş yer verilmiş və bu sahədə ziyalıların rolu ön plana çəkmişdir.

Ümumiyyətlə, konfransda Azərbaycan dili, şer-sənət yaradıcılığı, folklor məsələləri haqqında maraqlı müzakirələr aparılmışdır. Azərbaycanlı alimlər çox dəyərli çıxışlar edərək, azərbaycanşünaslığın əhəmiyyətini qeyd etmiş və növbəti simpoziumun Bakıda keçirilməsini təklif etmişlər. Çıxışlarda Azərbaycan-İran ədəbi-mədəni əlaqələrinə də toxunulmuş, onların inkişaf etdirilməsinin vacibliyi vurğulanmışdır.

Azərbaycan Parlamenti nümayəndə heyətinin Təbrizə səfəri də çox səmərəli keçmişdir.1998-ci ilin dekabr ayının 26-da səfər ilə əlaqədar vilayətin rəhbərliyi tərəfindən hazırlanmış zəngin proqrama uyğun olaraq keçirilən incəsənət axşamında Təbrizdə yaşayan şairlər qonaqlar qarşısında çıxış etmiş, şerlər söyləmişlər. Milli Məclisin deputatları olan Cabir Novruzun və Musa Yaqubun şerləri böyük maraqla dinlənilmişdir. Millət vəkili, professor Həsən Mirzəyev xalq şairi Süleyman Rüstəmin "Təbrizim" şerini oxumuş və ona nəzirə yazdığı şerini söyləmişdir.

Dekabrın 27-də qonaqlar Təbrizin ali məktəblərinin cəmləşdiyi şəhərciyə gəlmişlər. İranın ən iri ali məktəblərindən biri olan Təbriz Universiteti ilə tanışlıqdan sonra buradakı "Şəhriyar" salonunda professor-müəllim heyyəti ilə görüş olmuşdur. Universitetin rektoru doktor Məhəmmədəli Hüseynpur Feyzi yarım əsrlik tarixi olan ali təhsil ocağının uğurları barədə məlumat vermişdir. Milli Məclisin sədri Murtuz Ələsgərov görüşdə çıxış etmişdir. Ölkəmizdəki ictimai-siyasi durum və Azərbaycan-İran əlaqələri barədə danışan Parlamentin spikeri sonra alimləri maraqlandıran suallara cavab vermişdir.

Təbrizdəki Şəhid Mədəni adına Xəstəxananın Ürək-Damar Xəstəlikləri Mərkəzi və Stomatologiya Universiteti ilə tanışlıq da nümayəndə heyətimizin böyük marağına səbəb olmuşdur.

Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan mütəxəssisləri Təbriz Universitetində də işləmiş, əməkdaşlıq etmişlər. Elmi əlaqələri inkişaf etdirmək ölkələ-

rimiz arasındakı əlaqələrin başlıca istiqamətlərindəndir. Bakı Dövlət Universiteti ilə Təbriz Universiteti arasında əməkdaşlıq yaratmaq məsələsi artıq gündəlikdə durur. Azərbaycan alimlərinin nümayəndə heyəti 1999-cu ilin iyulundaTəbrizdə olmuşlar.Belə ki, iyulun 26-da Tehran şəhərində qərargahı İordaniyanın paytaxtında yerləşən İslam Elmlər Akademiyasının növbəti doqquzuncu konfransı açılmışdır. İslam ölkələrinin alimlərini birləşdirən bir qurum kimi akademiya hər iki ildə keçirdiyi konfransda elm, texnologiya, təhsil və digər sahələrin problemlərini müzakirə edir, təkliflər hazırlayaraq alimlər arasında yayır. Növbəti konfrans məhz elm, texnologiya və təhsil məsələlərinə həsr olunmuşdur. İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Tədqiqatlar Mərkəzində keçirilən həmin konfransda ölkəmizi Azərbaycan Elmlər Akademiyasının mərhum prezidenti, Milli Məclisin deputatı akademik Fərəməz Maqsudov və EA-nın Polimer Materiallar İnstitutunun direktoru, kimya elmləri doktoru, professor Ayaz Əfəndiyev təmsil etmişlər.

Konfrans iştirakçıları elmin inkişafı ilə bağlı bir sıra maraqlı məruzələrlə çıxış etmiş, öz ölkələrindəki elm mərkəzlərinin təcrübəsindən danışmışlar. "Azərbaycanda elmin inkişafı" mövzusunda məruzəsində akademik Fərəməz Maqsudov elmimizin uğurları, Azərbaycan Prezidenti cənab Heydər Əliyevin bilavasitə qayğısı və diqqəti sayəsində Azərbaycanda elmi potensialın inkişafı sahəsində atılan uğurlu addımlar haqqında geniş söhbət açmışdır

İctimai və humanitar elm sahələri üzrə tədqiqatlardan, bir çox dövlətlərin tədqiqat mərkəzləri ilə birbaşa elmi əlaqələrdən, xüsusilə islam dünyası ölkələri ilə elmi-texniki əməkdaşlıqdan danışan akademik F.Maqsudovun Akademiyanın Şərqşünaslıq İnstitutunda toplanmış zəngin məlumatların və aparılmış elmi təhlillərin İslam Elmlər Akademiyasının araşdırmaları üçün faydası barədə irəli sürdüyü təkliflər də elmi maraq doğurmuşdur.

Azərbaycanlı qonaqlar Siyasi və Beynəlxalq Tədqiqatlar Mərkəzinin direktoru Abbas Ərağçi ilə görüşmüşlər. Akademik Fərəməz Maqsudov görüşdə Azərbaycan EA-nın strukturu haqqında məlumat vermiş, akademiyada siyasi və beynəlxalq tədqiqatlar sahəsində yaxşı təcrübə toplandığını bildirmişdir. Qarşılıqlı surətdə görüləcək işlərlə əlaqədar niyyət protokolu imzalanması barədə ilkin razılıq əldə olunmuşdur.

Azərbaycan Prezidenti Azərbaycan-İran münasibətlərini bütün istiqamətlərdə inkişaf etdirmək sahəsində qarşıya qoyduğu vəzifələri həyata keçirmək və iqtisadi, mədəni əlaqələri genişləndirmək məqsədi ilə İrandakı Azərbaycan səfirliyi geniş proqram tərtib etmiş və həmin proqrama əsasən Azərbaycanla İran arasında hərtərəfli əlaqələrin qurulması nəzərdə tutulmuşdur. Bu proqramın əsas məqsədi İranla Azərbaycanı bir-birinə tanıtdırmaq, potensial imkanlardan lazımi dərəcədə istifadə etməkdir. Odur ki, İranın bütün əyalətlərinin Azərbaycanla iqtisadi və mədəni əlaqələrinin qurulmasına və eyni zamanda, Azərbaycanın ayrı-ayrı rayonlarının İranla belə əlaqəsinin təşkilinə xüsusi diqqət yetirilir. Yaradılmaqda olan geniş əməkdaşlıq şəbəkəsi Azərbaycanın da, İranın da iqtisadi-mədəni-elmi-humanitar əlaqələrinə böyük kömək göstərəcəkdir.

Azərbaycan tələbələrinin İranda, İran tələbələrinin isə Azərbaycanda təhsil almasına qayğını artırmaq günün vəzifələrindəndir. Müəllimlər, alimlər arasında əməkdaşlıq münasibətləri qurmaq məsələsi də kifayət qədər cəlbedicidir.

Əlaqələrin daha da genişlənməsinə xidmət edən görüşlər keçirmək və söhbətlər aparmaq hər iki tərəf üçün xeyirlidir.

1999-cu il fevralın 8-də Azərbaycan Dövlət Akademik Dram Teatrında İran İslam inqilabının 20-ci ildönümünə həsr olunmuş İran mədəniyyəti həftəsi çərçivəsində ədəbi-mədəni tədbir keçirilmişdir.

1999-cu ilin iyulunda Təbriz ali məktəblərinin nümayəndələri Bakıda olmuş, elmi görüşlər keçirmişlər.

1999-cu ilin payızında "Dədə Qorqud" dastanının 1300 illiyi münasibətilə Təbrizdə tədbir keçirilmiş, dastan gənclər üçün ayrıca nəşr edilmişdir.

Naxçıvan şairlərinin şerlərinin toplusu da İranda nəşr olunmuşdur.

Qeyd edildiyi kimi 2000-ci il may ayının 15-22-də Azərbaycan Respublikasının müxtəlif qəzetlərini təmsil edən yeddi jurnalist İİR-in Bakıdakı səfirliyinin təşəbbüsü ilə İrana səfər etmişlər. Səfər zamanı onlar İranın müxtəlif təşkilat, qəzet və vəzifəli şəxsləri ilə görüşlər keçirmişlər.

Bakıda İran İslam Respublikasının Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Gilan əyalətlərinin şair, sənətşünas, din xadimləri və musiqiçiləri ilə görüşlər təşkil olunmuşdur. Azərbaycan Respublikası mədəniyyət nazirliyi və İran İslam Respublikasının müvafiq nazirliyi arasında birbaşa əlaqə yaranmış, Xudafərin körpülərinin bərpa olunması, tarixi ənənələr əsasında minalı kaşının düzəldilməsi üzrə bizim mütəxəssislərin təcrübə keçməsinin təşkili, İran ustalarının Şəkidə Xan Sarayının bərpasında iştirakı və s. üzrə razılıq əldə edilmişdir. Tehranda keçirilən Kukla Teatrlarının festivalında Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı iştirak etmişdir. Öz növbəsində, Bakıda Xorasan əyaləti Mimika Teatrı kollektivinin çıxışları olmuşdur. İslam Mədəniyyəti Təbliğatı Mərkəzinin dəvətilə Azərbaycan Respublikasının təsviri sənət və kino xadimlərinin bir qrupu Tehranda olmuşlar.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin nümayəndələri Təbriz şəhərində Nizami Gəncəvinin heykəlinin ucaldılması və Xəqani Şirvaninin qəbrüstü abidəsinin qurulması tədbirlərində iştirak etmişlər.

Respublika Dövlət Nəşriyyat Komitəsi, İran İslam İrşad Nazirliyi və Keyhan nəşriyyatı tərəfindən kitabların qarşılıqlı nəşri və onların satışı haqqında imzalanmış müqaviləyə uyğun olaraq, Bakı və Tehran şəhərlərində ixtisaslaşdırılmış kitab mağazaları açılmışdır. Bu mağazalarda satılan bədii əsərlər və çap məhsulları Azərbaycan və İran xalqlarının həyat və mədəniyyətilə daha yaxından tanış olmağa imkan yaradır.

Hər iki ölkədə hər il kitab və təsviri sənət nümunələri sərgiləri keçirilir. Məşhur İran rəssamı Vədud Müəzzənin əsərlərindən ibarət Bakıda keçirilən son sərgi olduqca müvəffəqiyyətlə başa çatmışdır. 2002-ci ilin oktyabr ayının 9-da açılan bu sərgidə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etmişdir.

Azərbaycan Respublikasının Dövlət İdman Komitəsi, Təhsil Nazirliyi və İran İslam Respublikası Şərqi Azərbaycan əyalətinin idman idarəsi arasında imzalanmış müqavilələrdə əməkdaşlığın genişlənməsi, idmançı mütəxəssislərin qarşılıqlı mübadiləsi nəzərdə tutulur.

İran İslam Respublikasının mədəniyyət naziri Mirsəlim və Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğlunun iştirakı ilə İran İslam Respublikasının Bakıdakı Səfirliyinin Mədəniyyət Mərkəzinin 19 oktyabr 1996-cı il tarixdə açılışı keçirilmişdir.

İran İslam Respublikasının Bakıdakı Səfirliyinin Mədəniyyət Mərkəzi, ilk növbədə mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərir. İlk növbədə, müxtəlif mədəni tədbirlər - poeziya gecələrinin keçirilməsi, mikrofilm və slayd mübadiləsi, müxtəlif musiqi festivallarının keçirilməsi, İran İslam Respublikasının müxtəlif teatr truppalarının Azərbaycana dəvət olunması, müxtəlif teleserialların, o cümlədən "İmam Əli" və "Eşq vilayəti"nin tərcüməsi, dublyajı və göstərilməsi, kitabxana, elmi mərkəz və müəssisələrə kitabların hədiyyə olunması, tələbə ekspedisiyalarının təşkili, film həftələrinin keçirilməsi, xəttatlıq kurslarının təşkili, müxtəlif münasibətlərə futbol turnirlərinin təşkili, muzeylərin təchizatı və gücləndirilməsi, teatr tamaşalarının təşkilində müxtəlif qruplarla əməkdaşlıq. bəstəkarlarla əməkdaşlıq və s. daxildir.

İncəsənət və mədəniyyət sahəsində sərgilərin təşkilinə də mərkəzin işində böyük yer verilir. İndiyə qədər Turan və İslam elmləri, kitab, kustar sənaye, xalça, xəttatlıq və İran qadınlarının əsərləri kimi müxtəlif mövzularda çoxsaylı sərgilər keçirilmişdir.

Fars dili və ədəbiyyatına, incəsənət işləri və fərdi qabiliyyətə aid fəaliyyət sahələrinə də mərkəzin işində fikir verilir.

İslam İnqilabının qələbəsinə həsr olunmuş xüsusi xatirə tədbirləri (mədəniyyət həftəsi) keçirilir. Bura sərgilərin təşkili, kitab çapı və yayımı, musiqi proqramlarının hazırlanması kimi tədbirlər daxildir.

Konfrans və seminarların təşkili də mərkəzin diqqət mərkəzindədir. Bu tədbirlərdən aşağıdakıları qeyd etmək olar:

- Azərbaycanlı zəvvarların Məkkəyə yola düşməsindən öncə, Həccin fəlsəfəsi və bu mühüm əməlin hökmləri barədə Qafqaz Müsəlmanları ilə birgə seminar keçirilmişdir.

- Uşaq məsələlərinə həsr olunmuş konfrans keçirilmişdir.

- Mədəniyyət Mərkəzinin Bakı Dövlət Universiteti və İncəsənət Texnikumunun birgə əməkdaşlığı sayəsində 1996-cı ildə İslam təlim-tərbiyəsi mövzusunda konfrans keçirilmişdir.

- 1996-cı ildə Novruz bayramının tarixi köklərinin araşdırılması məqsədilə Mədəniyyət Mərkəzi Elmlər Akademiyası ilə birgə seminar keçirilmişdir.

Azərbaycan şeri və onun fars şerində izinin öyrənilməsi üzrə konfrans təşkil edilmişdir.

Qərbi Azərbaycan ostandarlığı, Urmiyyə Ədəbiyyat İnstitutu və Mədəniyyət Mərkəzi tərəfindən Urmiyyədə təşkil olunan bu konfransda 50 nəfərdən artıq ali təhsil ocağının müəllimi və Elmlər Akademiyasının alimləri iştirak etmişdir.

- Mədəniyyət Mərkəzi və Azərbaycan Respublikasının Simurq Dostluq Cəmiyyətinin əməkdaşlığı ilə "Şəfəq" kinoteatrında "İran İslam inqilabı" mövzusunda bir günlük konfrans keçirilmişdir.

- Azərbaycan Prezidentinin iştirakı, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin tərəfdaşlığı və iranlı tədqiqatçıların iştirakı ilə Elmlər Akademiyasında "İslam sivilizasiyası Qafqazda" beynəlxalq simpoziumu keçirilmişdir.

- İki ölkə arasında daha yaxşı əlaqələrin qurulmasının yollarının öyrənilməsi məqsədilə Xəzər Universitetində "XXI əsrin astanasında İran-Azərbaycan əlaqələri" mövzusunda konfrans keçirilmişdir.

- İmam Əli şəxsiyyəti və düşüncələrinin araşdırılmasına həsr olunmuş beynəlxalq simpozium keçirilmişdir.

30-dan artıq iranlı və xarici qonağın iştirakı ilə iki gün ərzində Bakı şəhərində

Qafqaz Müsəlmanları Ruhani İdarəsi ilə birgə İmam Əlinin şəxsiyyəti və düşüncələrinin araşdırılmasına həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir.

- Yuxarıda göstərilənlərdən başqa ramazan və məhərrəm ayları münasibətilə xüsusi tədbirlər keçirilir.

Azərbaycan tərəfi də İranda keçirilən müxtəlif simpoziumlarda, kino və musiqi festivallarında, elmi konfranslarda, teatr və musiqi kollektivlərinin iştirakı ilə keçirilən mədəni tədbirlərdə, idman yarışlarında fəal iştirak edir.

Beləliklə, yuxarıda sadalanan faktlardan da göründüyü kimi, ölkələrimiz arasında mədəni və elmi əlaqələrin inkişafı üçün böyük işlər görülür. Tezliklə Azərbaycan tərəfinin Tehranda da belə bir mərkəz açacağı gözlənilir ki, bu da əməkdaşlığımıza yeni bir təkan verəcəkdir.

Humanitar əlaqələrimizə gəlincə Qarabağ münaqişəsi başlandığı vaxtdan İran İslam Respublikası ölkəmizə humanitar yardım göstərməkdədir.

Prezident Heydər Əliyev hələ Naxçıvanda Ali Məclisin sədri vəzifəsində çalışdığı dövrdə bu yardımlar Naxçıvanın blokadadan qurtarmışdır. Naxçıvan Muxtar Respublikasının kommunikasiya xətləri, rabitə, ərzaq, yanacaq, qaz və elektrik enerjisi ilə təmin edilməsi məsələlərinin bir çoxu İran tərəfindən göstərilən yardım nəticəsində həll olunmuşdur. O, Azərbaycan Respublikasına rəhbərlik etməyə başladıqdan sonra isə İran İslam Respublikasının ölkəmizə humanitar yardımlarının həcmi xeyli artmışdır.

Bu yardımlar, əsasən, İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyəti və İmam Xomeyni İmdad Komitəsinin xətti ilə həyata keçirilir.

İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyəti 100 000 didərgin və qaçqın üçün çadır şəhərciyinin yaradılmasını, onun hər cür avadanlıq və ərzaqla təmin edilməsini hələ 1993-cü ildə öz üzərinə götürmüşdü. O vaxtdan bu kömək və qayğı davam etməkdədir.

İmam Xomeyni İmdad Komitəsinin başçısı Seyid Rza Nəyyiri hələ 1993-cü ilin dekabr ayının 23-də Azərbaycana səfər etmiş və ölkə rəhbərliyi tərəfindən qəbul edilmişdir. Danışıqlarda əldə olunmuş razılığa əsasən Komitənin Bakı şəhərində nümayəndəliyi açılmışdır. İmdad Komitəsinin fəaliyyəti sonralar daha da genişlənmişdir. Hazırda onun fəaliyyəti Bakı, Salyan, Siyəzən, Əli-Bayramlı, Göyçay, Şamaxı, İsmayıllı, Gəncə, Şəki, Şəmkir, Xanlar, Lənkəran, Astara, Cəlilabad Masallı, Naxçıvan, Biləsuvar, Ordubad kimi 18 şəhəri və 389 kəndi əhatə edir.

İmam Xomeyni İmdad Komitəsi halhazırda Azərbaycanda ümumi sayı 30795 nəfər olan 10574 ailəyə, 8 mindən artıq şagird və tələbəyə daimi qayğı göstərir, hər il ehtiyacı olanlara 200 tondan artıq müxtəlif növ məhsul paylayır. Komitə tərəfindən indiyə qədər müharibə qaçqınları və az təminatlı ailələr arasında 18 mln. dollarlıq humanitar yardım paylanmışdır.

Qeyd etmək lazımdır ki, həmin şəxslərdən əlavə 30000 nəfərdən artıq insan müvəqqəti qaydada Komitənin xidmətlərindən istifadə etmişdir. Müxtəlif bölgələrdə 1000-dən artıq yetimə qayğı, 1600 nəfər daimi və müvəqqəti üzvə pulsuz tibbi xidmət göstərilmişdir.

Hamiliyə götürülmüş 7720 şagird də Komitənin imkanlarından istifadə etmişdir. Hər yeni tədris ilinin başlanması ilə əlaqədar, yeni tələbə və şagirdlərin elm, bilik qazanmalarına köməklik göstərilir.

İndiyə qədər Azərbaycan Respublika-

sından 1000 nəfərə yaxın orta və ali məktəb müəllimi, jurnalist və cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri müqəddəs məkanları ziyarəti üçün İran İslam Respublikasına göndərilmişlər.

Komitə hamiliyində olanların maddi-rifah halının yaxşılaşdırılması məqsədilə Azərbaycanın müxtəlif şəhərlərində ailə başçılarını itirmiş 221 ailəyə onların yaşayış evinin təmiri və ya tikintisi üçün yardım göstərmişdir.

Komitənin xidmət sahələrindən biri də gənclərə ailə qurmaqda və cehiz hazırlamaqda kömək etməkdir. Artıq komitənin hamiliyi ilə 460 toy mərasimi keçirilmişdir.

1994-cü ildə İmam Xomeyni İmdad Komitəsinin keçirdiyi toy mərasimlərində İranın keçmiş parlament sədri Höccətül-islam Natiq Nuri də iştirak etmişdir.

Komitənin keçirdiyi toy mərasimlərində keçmiş sənaye naziri Nemətzadə, Radio-Televiziya Təşkilatının sədri d-r Laricani, İslam Şurası Məclisinin keçmiş nümayəndəsi Məhəmmədcavad Laricani, Ticarət Palatasının sədri Xamuşi, xarici işlər nazirinin müavini Vaizi, Ərdəbilin sabiq ostandarı d-r Əhməditəmad, tikinti və şəhərsalma naziri Əbdüləlizadə, Gilanın keçmiş ostandarı Tahiri iştirak etmişlər.

1993-cü ildə keçirilən toy mərasimində İmam Xomeyni İmdad Komitəsinin başçısı Nəyyiri və bəzi rəsmi şəxslər iştirak etmişlər. 200 nəfərin ailə qurmasında da İran İslam Respublikasının səfiri Əhəd Qəzayi, səfirliyin mədəniyyət müşaviri və Azərbaycanın bir sıra rəsmi şəxsləri iştirak etmişlər.

Komitənin fəaliyyət istiqamətlərindən biri də himayədə olan şəxslərin özünütəminatına şərait yaradılmasıdır. İndiyə qədər müxtəlif şəhərlərdə heyvandarlıq, kənd təsərrüfatı, xalçaçılıq və kilim toxumaya aid 200 kredit ayrılmışdır.

İmam Xomeyni İmdad Komitəsinin Azərbaycan Respublikasındakı proqramlarına İran İslam Respublikasının servis və sosial təşkilat sahələrinin təcrübələrinin Azərbaycan əhalisi və rəsmilərinə çatdırılması da daxildir.

Azərbaycan Respublikası Baş nazirinin keçmiş müavini İzzət Rüstəmov 1996-cı ildə "Yaxşılıqlar Bayramın"da iştirak etmək və Komitənin fəaliyyətilə yaxından tanış olmaq üçün İmam Xomeyni İmdad Komitəsinin dəvətilə İran İslam Respublikasına səfər etmişdir. Bu səfərdə Rüstəmov müqəddəs Məşhəd, Tehran və Təbriz şəhərlərində İran İslam Respublikasının görkəmli şəxsiyyətlrilə danışıqlar aparmışdır. Onun görüşdüyü şəxslər arasında İranın vitse-prezidenti d-r Həbibi, Xarici İşlər Naziri d-r Vilayəti, xarici işlər nazirinin Amerika və Avropa məsələləri üzrə müavini Vaezi və digər rəsmi şəxslər olmuşdur.

İmam Xomeyni İmdad Komitəsinin fəaliyyətinin bir hissəsini də Azərbaycan Respublikasının ali təhsil ocaqlarının müəllimləri və siyasi-ictimai xadimlərinin elmi səfərləri təşkil edir. İndiyə qədər 1999, 2000 və 2001-ci illərdə bir neçə 25-30 nəfərlik qruplar İrana səfər etmişdir. Bu səfərdə qonaqlar imam Rzanın qəbrini ziyarət etmiş, Məşhəd, Tehran, Təbriz və s. şəhərlərin universitetlərində olmuşlar. Onlar İran Məsləhət Şurasının sədri Haşimi Rəfsəncani, Şərqi Azərbaycanın və Qumun ostandarları ilə görüşlər keçirtmiş, İranın elmi, mədəni, ictimai, siyasi mərkəzləri ilə tanış olmuşlar.

Qonaqlar Məşhəddə İmam Xomeyni İmdad Komitəsinin beynəlxalq məsələlər üzrə sədr müavini Hüseyin Ənvari və Komitənin Baş katibi ilə görüşmüş və danışıq-

lar aparmışlar.

İran İslam Respublikasının ölkəmizə humanitar yardımı davam etməkdədir. Artıq bu yardım öz istiqamətlərini dəyişdirərək daha çox səhiyyə, təhsil və elm sahələrinə tərəf yönəldilir. Məsələn, əhaliyə tibbi xidmət göstərilməsi məqsədilə yaxın gələcəkdə İran Qızıl Aypara Cəmiyyətinin Bakıda poliklinikasının açılması qərara alınmışdır.

2001-ci il fevral ayının 19-24-də İİR İmam Xomeyni İmdad Komitəsinin sədri Seyyid Rza Nəyyirinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər zamanı nümayəndə heyəti Milli Məclisin sədri M.Ələsgərov, Baş nazir A. Rəsizadə, Baş nazirin müavini Ə. Həsənov, səhiyyə naziri Ə. İnsanov, əmək və əhalinin sosial müdafiəsi naziri Ə. Nağıyev ilə görüşmüş, Gəncə şəhəri, Biləsuvar və Göyçay rayonlarında qaçqınlarla görüş keçirmişdir. Qeyd etmək lazımdır ki, 1995-2000-ci illərdə bu təşkilatın xətti ilə Azərbaycan Respublikasına göstərilən humanitar yardımın dəyəri 9 milyon ABŞ dolları məbləğində olmuşdur.

Ölkəmiz qardaş İran xalqının bu yardımını minnətdarlıqla qəbul edir. Bu cür xeyirxah işlər öz növbəsində əlaqələrimizin möükəmlənməsinə yaxından yardım edir.

Onu da qeyd etmək vacibdir ki, xalqımız da öz vəziyyətinin ağır olmasına baxmayaraq İran xalqının çətin anlarında əlindən gələn yardımı etmiş, lazımi dəstək göstərmişdir. Prezident Heydər Əliyev İranda zəlzələ, daşqın və bu kimi başqa təbii fəlakətlər baş verərkən xalqımız adından İrana və onun rəhbərliyinə başsağlığı vermiş, müxtəlif tibbi avadanlıqların, dərmanların, zərərçəkənlərin ehtiyacı üçün lazım olan məişət əşyaların, həkimlərin göndərilməsi barədə sərəncam vermiş və bu işi öz nəzarəti altında saxlamışdır.

Beləliklə, iki qardaş xalqın azlığına çoxluğuna baxmayaraq, bir-birinə göstərdiyi yardım ikitərəfli olmuş, səmimi xarakter daşımışdır. Qarşılıqlı münasibətlərimizdəki bu qardaşlıq yardımları heç bir zaman unudulmayacaqdır.

TARİXİ-SİYASİ XRONİKA

İran İslam Cümhuriyyəti, İran xalqı Azərbaycan Respublikası üçün, Azərbaycan xalqı üçün dost, qardaş, qonşu ölkə və xalqdır. Ona görə də biz belə hesab edirik ki, bu ölkə ilə Azərbaycan arasındakı münasibətlər daim səmimi və mehriban olmalıdır.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

1991

16 aprel - Naxçıvan MR-in Nehrəm kəndində İranla sərhəddən sadələşmiş üsulla keçmək üçün körpünün açılışı olmuşdur.

İyul - Baş nazirin başçılıq etdiyi Azərbaycan Respublikası hökumətinin nümayəndə heyəti İrana səfər etmiş və tərəflər arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Sentyabr - İran İslam Respublikası Mərənd fərmandarı ağayi Rza İbadi başda olmaqla İranın işgüzar dairələrinin nümayəndələrinin böyük bir qrupu Naxçıvanda olmuş, Naxçıvan Muxtar Respublikanın Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

4 dekabr - Şərqi Azərbaycan ostandarı ağayi Əkbər Pəhrizkar Naxçıvanda olmuş və Naxçıvan Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

4 dekabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının iri şirkətlərindən birinin - "Azərlab" şirkətinin başçısı, d-r Zeynalabdin Mücahidini qəbul etmişdir.

Dekabr - İİR Xarici İşlər Naziri Əli Əkbər Vilayətinin başçılıq etdiyi rəsmi nümayəndə heyəti Bakıda işgüzar səfərdə olmuşdur.

30 dekabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının Maku fərmandarı Məhərrəm Allahverdizadə başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

1992

Yanvar - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin 1-ci katibi Mehdi Abbas Paydarı qəbul etmişdir.

24 yanvar - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının "Qırmızı Aypara" cəmiyyəti sədrinin səlahiyyətli nümayəndəsi Əhməd Rəfiyi başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

1 fevral - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının "Bonyade Möstezəfan və Canbazane Enqelabe Eslami" şirkətinin nümayəndələrini - şirkət başçısının müavini Şaabanianı və şirkət müdiri Məhəmməd Həsən Əşrəfianı qəbul etmişdir.

1 fevral - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının Maku fərmandarı Məhərrəm Allahverdizadə, İmamcümə Heydər Musəvi, mədəniyyət idarəsinin rəisi Xosrov Purəsəd və fərmandarın müşaviri Rəhim Rəhimini qəbul etmişdir.

2 fevral - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikası ağır sənaye nazirliyinin Şərqi və Qərbi Azərbaycan üzrə əlaqələndiricisi Həsən Qəhharini, Şərqi Azərbaycanın ağır sənaye idarəsinin baş müdirinin müavini Hacı Zeynalabdin İmanlunu və bu idarənin proqram və dizayn şöbəsinin müdiri Məhəmməd İbrahim Mahudçianı qəbul etmişdir.

24 fevral - İranın Xarici İşlər Naziri Əli Əkbər Vilayəti Bakıya gəlmişdir. O, öz səfərini "Qarabağ probleminin həlli yolunda ilk addım" adlandırmışdır.

Aprel - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının xarici işlər nazirinin keçmiş Sovet İttifaqının müsəlman respublikaları üzrə müşaviri Şeyx Əttarı qəbul etmişdir.

1 may - H. Əliyev İranın Azərbaycandakı səfiri Nəhavandianı qəbul etmişdir. Səfir Naxçıvanda İİR-iin konsulluğunun açılması barədə XİN-in məktubunu H. Əliyevə vermişdir. H. Əliyev Təbriz şəhərində Naxçıvan MR-in konsulluğunun yaradılmasına da ciddi ehtiyac olduğunu bildirmişdir.

7 may - Tehranda Azərbaycan, Ermənistan və İranın dövlət başçılarının iştirakı ilə Qarabağ problemi müzakirə olunmuş, birgə bəyanat imzalanmışdır.

may - H. Əliyev Qərbi Azərbaycan ostandarının müavini Yusif Modaress başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

13 may - H. Əliyev İran İslam Respublikasının xarici işlər nazirinin müavini Vaizini qəbul etmişdir.

24 may - İranın Xarici İşlər Naziri Ə. Vilayəti H. Əliyevə zəng vuraraq bildirmişdir ki, onun ölkəsi müharibənin davam etməsini istəmir və Qarabağ probleminin dinc yolla nizamlanmasına tərəfdardır.

8 iyul - H. Əliyev İran İslam Respublikasının Urmiya vilayəti fərmandarının müavini Rəsul Rzainin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

27 iyul - H. Əliyev Qərbi Azərbaycan ostandarının müşaviri və siyasi idarənin baş müdiri Səyavuş Qəhvəçianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

3 avqust - İranın Urmiyyə vilayətindən Naxçıvana ərzaq və yanacaq gətirilmişdir.

22-26 avqust - İran Xarici İşlər Nazirliyinin dəvəti ilə H. Əliyev prezident Rəf-

səncaninin şəxsi "Boinq - 727" təyyarəsində Tehrana gəlmişdir. İranın ali vəzifəli şəxsləri ilə söhbət və danışıqlardan sonra "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında" protokol imzalanmışdır.

28 avqust - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətulla Xamneyiyə, İran Prezidenti Haşimi Rəfsəncaniyə, İranın Xarici İşlər Naziri Əli Əkbər Vilayətiyə və "Bonyade Məstəzəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdusta göstərilən yardımlara görə minnətdarlıq teleqramları göndərmişdir.

oktyabr - Təbrizdən 22 vaqondan ibarət ilk qatar Naxçıvana gəlmişdir. Qatarın yükü humanitar yardımdan ibarət olmuşdur.

20 noyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının kooperasiya naziri Qulamrza Şafeyinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

3 dekabr - İrandan Naxçıvana 40 meqavatt gücündə elektrik enerjisinin verilməsi münasibətilə Arazkənarı stansiyada təntənəli mitinq olmuşdur. H. Əliyev mitinqdə çıxış etmişdir.

3 dekabr - İranla Naxçıvanı birləşdirən Şahtaxtı-Poldəşt keçid məntəqəsinin açılışı olmuşdur. H. Əliyev və İranın kooperasiya naziri Q. Şafeyi açılış mərasimində iştirak etmişlər.

1993

15 yanvar - H. Əliyev Mərəndin fərmandarı Məhəmməd Rza Notaşı qəbul etmişdir.

8 fevral - Heydər Əliyev Maku fərmandarı Nadir Səfərzadəni nümayəndə heyəti ilə birlikdə qəbul etmişdir.

8 mart - Naxçıvanda İran İslam Respublikasının Konsulluğu açılmışdır. Heydər Əliyev Baş konsul Məhəmməd Sadeq Turini qəbul etmişdir.

16-19 mart - H. Əliyev İranın Xarici İşlər Naziri Ə. Vilayətinin dəvəti ilə Tehrana rəsmi səfərə getmişdir. Səfər zamanı o, Prezident Haşimi Rəfsəncani tərəfindən qəbul edilmiş, İranın Xarici İşlər Naziri Əli Əkbər Vilayəti, energetika naziri Qulamrza Zəngəne, kooperasiya naziri Qulamrza Şafeyi və "Bonyade Məstəzəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla görüşlər keçirmişdir.

18 mart - Təbrizdə H. Əliyev və İranın Şərqi Azərbaycan ostandarı Ə. Əbdüləlizadə əməkdaşlıq haqqında protokol imzalamışlar.

5 aprel - H. Əliyev Bonyade Məstəzəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidentinin müavinləri Fəribroz Şaabanianı və Məmmədhəsən Əşrəfianı, onlarla birlikdə Naxçıvana gələn mühəndis-texniki işçilərin bir qrupunu qəbul etmişdir.

10 aprel - H. Əliyev Qərbi Azərbaycan vilayəti Qadınlar cəmiyyətinin nümayəndələrini qəbul etmişdir.

13 may - Naxçıvan şəhərində H. Əliyev və İranın Qərbi Azərbaycan ostandarı Q. Səadəti ilə mədəni-iqtisadi əməkdaşlıq barədə müqavilə imzalamışlar.

avqust - İİR Xarici İşlər Naziri Ə.Ə.Vilayətinin başçılıq etdiyi rəsmi nümayəndə heyəti Bakıya işgüzar səfər etmiş, respublika rəhbərləriləaparılan danışıqlardan sonra, səfərin nəticəsi olaraq, iqtisadi əməkdaşlıq haqqında saziş imzalanmışdır.

26-28 oktyabr - İİR Prezidenti Əli Əkbər Haşimi Rəfsəncaninin başçılıq etdiyi nümayəndə heyəti Bakıya rəsmi səfər etmişdir. Bu səfərin nəticəsi olaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında memorandum imzalanmışlar.

dekabr - Azərbaycan Parlamentinin sədrinin başçılıq etdiyi nümayəndə heyəti Tehrana səfər etmişdir.

dekabr - Xarici İşlər Nazirinin başçılıq etdiyi nümayəndə heyəti Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) xarici işlər nazirləri şurasının IV sessiyasında iştirak etmişdir.

1994

29 iyun - 2 iyul - Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin başçılıq etdiyi yüksək səviyyəli nümayəndə heyəti Tehrana səfər etmişdir. Səfər zamanı Heydər Əliyev İİR-in Ali Dini Rəhbəri S.Ə.Xamneyi, Prezident Ə.Haşimi Rəfsəncani, İslam Şurası Məclisinin sədri Ə.Natiq Nuri və digər rəsmi şəxslər ilə görüşlər keçirdi, bir sıra sənədlər imzalanmışdır.

27 oktyabr - Azərbaycan Prezidenti Heydər Əliyev Aşqabadda Türkmənistan-İran-Türkiyə-Avropa qaz kəmərinin rəmzi açılışı mərasimində İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani ilə görüş keçirmişdir.

14 dekabr - Heydər Əliyev Kasablankada İKT-nin Zirvə toplantısında iştirak edərkən bir çox dövlətlərin rəhbərləri və nümayəndələri ilə yanaşı, İranın Xarici İşlər Naziri Əli Əkbər Vilayəti ilə də görüşmüşdür.

1995

10 fevral - İran İslam Respublikasının İslam inqilabının 16-cı ildönümü münasibətilə keçirdiyi tədbirdə Heydər Əliyev iştirak etmişdir.

5-7 oktyabr - İİR kooperasiya naziri, Azərbaycan-İran iqtisadi-ticarət münasibətləri üzrə Dövlətlərarası Müştərək Komissiyanın həmsədri Q.Şafeyi ölkəmizdə olmuş və respublika rəhbərliyi ilə bir sıra danışıqlar aparmışdır.

11-14 dekabr - İİR Xarici İşlər Nazirinin müavini M.Vaezi ölkəmizdə olmuş və respublika rəhbərliyi ilə bir sıra danışıqlar aparmışdır.

1996

3 fevral - İran İslam Respublikasının İslam inqilabının 17-ci ildönümü münasibə-

tilə keçirdiyi tədbirdə Heydər Əliyev iştirak etmişdir.

2-3 mart - Xarici İşlər Naziri Ə.Ə.Vilayəti Bakıya gəlmişdir və Heydər Əliyev ilə görüş keçirmişdir.

mart - İİR xarici işlər naziri müavini M.Morsəli Azərbaycana rəsmi səfərə gəlmiş və respublika rəhbərliyi ilə bir sıra danışıqlar aparmışlar.

3-5 may - İİR xarici işlər naziri müavini Abbas Məleki Azərbaycana rəsmi səfərə gəlmiş və respublika rəhbərliyi ilə bir sıra danışıqlar aparmışlar

12-13 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaninin dəvətilə Sərəxs-Tecən dəmiryolu xəttinin açılış mərasimində iştirak etmək üçün İrana səfər etmişdir.

4 iyun - Bakıda Beynəlxalq Neft Konsorsiumu ilə İranın OİEC şirkəti tərəfindən "Şahdəniz" neft yatağının birgə işlədilməsi üzrə müqavilənin imzalanma mərasimi olmuşdur. Burada Azərbaycan, Norveç, İngiltərə, Türkiyə, Fransa, Rusiya ilə birlikdə İran şirkətinin iştirakı qonşu ölkə üçün böyük əhəmiyyət kəsb edir.

19 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Azərbaycanda rəsmi səfərdə olan İran İslam Respublikasının səhiyyə naziri Əlirza Mərəndini qəbul etmişdir. Ölkələrimizin səhiyyə nazirləri səhiyyənin müxtəlif sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd etmişlər. Həmçinin, həmsərhəd rayonlarda sərhəd tanımayan bir çox xəstəliklərin müalicəsi və malyariya xəstəliyinin yenidən baş qaldırmasının qarşısını almaq üçün birgə mübarizə aparılmasının təşkil olunması haqqında danışıqlar aparılmışdır.

18 iyul - Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev İranın Baş Gömrük idarəsinin rəisi Əbdülhüseyn Vəhacini qəbul etmişdir. O, Prezident Haşimi - Rəfsəncaninin razılığı ilə Naxçıvan MR ilə İran arasında Poldəşt körpüsünün yaxın zamanlarda fəaliyyətə başlayacağı barədə dövlətimizin başçısına məlumat vermişdir.

29 iyul - 2 avqust - İran İslam Respublikasının daxili işlər naziri Əliəhməd Bəşarətinin dəvətilə İranda rəsmi səfərdə olan Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubov keçirilmiş görüşlər zamanı mühüm sənədlər, "Narkotik maddələr qaçaqmalçılığı ilə birgə mübarizə" və "İki ölkənin sərhəd xidmətləri arasında əməkdaşlıq haqqında" müqavilələr imzalamışdır.

26-28 avqust - İran İslam Respublikasına rəsmi səfər etmiş Azərbaycan Respublikasının Xarici İşlər Naziri İİR Prezidenti Haşimi Rəfsəncani, Parlamentin sədri Natiq Nuri, Xarici İşlər Naziri Ə.Ə.Vilayəti və digər rəsmi şəxslərlə görüşmüş, iki ölkə arasında bir sıra məsələlərin həlli yolları araşdırılmışdır.

3-7 oktyabr - Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və hümanitar əlaqələr üzrə Müştərək Komissiyanın həmsədri Yaşar Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Tehranda olmuşdur. Səfər zamanı müştərək komissiyanın 2-ci iclası keçirilmiş və iki ölkə arasında əməkdaşlığı genişləndirmək

məqsədilə memorandum imzalanmışdır.

28-31 oktyabr - Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş İranın birinci vitse-prezidenti Həsən Həbibi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev arasında ikitərəfli görüş keçirilmişdir. Görüş zamanı ikitərəfli münasibətlərin, xüsusilə iqtisadi məsələlərin həlli yolları araşdırılmış, həmçinin bir sıra sənədlər imzalanmışdır. Həsən Həbibi Gəncə şəhərində, Naxçıvan Muxtar Respublikasında olmuş, həmin bölgələrin tarixi abidələri və iqtisadi potensialı ilə tanış olmuşdur. Prezident Heydər Əliyev Naxçıvana səfər edərkən (31 oktyabr) Həbibi ilə Bakı danışıqlarını davam etdirmiş, bilavasitə Naxçıvan MR ilə İran İslam arasında əməkdaşlığın perspektivləri yollarını bir daha nəzərdən keçirmişdir.

26-28 noyabr - Bakıya işgüzar səfərə gəlmiş İslam Şurası Məclisinin Rəyasət Heyətinin üzvü Seyid Rza Əkrəminin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevlə görüşmüşdür.

Azərbaycan Respublikası Milli Məclisində keçirilmiş görüşlərdə parlamentlərarası qrupların fəaliyyətinin genişləndirilməsinin zəruriliyi qeyd edilmişdir.

1997

10 fevral - İran İslam Respublikasının İslam inqilabının 18-ci ildönümü münasibətilə keçirdiyi tədbirdə Heydər Əliyev iştirak etmişdir.

15 mart - Azərbaycan Respublikasının Prezidenti İran İslam Respublikasında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı olması ilə bağlı İran İslam Respublikasının Prezidentinə və bütün İran xalqına başsağlığı göndərmişdir.

23 aprel - İranın Xarici İşlər Naziri Ə. Vilayəti Bakıda olmuş və həmin ilin dekabr ayının 8-11-də İKT dövlətlərinin Tehranda keçiriləcək Zirvə toplantısına dəvət məktubunu şəxsən Prezident Heydər Əliyevə təqdim etmişdir.

28-30 aprel - Tehranda İƏT-ə üzv dövlətlərin xarici işlər nazirlərinin toplantısı keçirilmiş, bu toplantıda Azərbaycanın Xarici İşlər Naziri iştirak etmişdir.

11 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani cənablarına İranda zəlzələ nəticəsində böyük dağıntılar və çoxsaylı insan tələfatı olması ilə əlaqədar olaraq həlak olanların qohum-əqrəbalarına və bütün İran xalqına dərin hüznlə başsağlığı vermişdir.

13-14 may - Aşqabadda İƏT-ə Zirvə toplantısının keçirildiyi günlər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və İİR Prezidenti Haşimi Rəfsəncani arasında görüş keçirilmişdir.

18-21 may - İranın yeni seçilmiş Prezidenti Məhəmməd Xatəmini təbrik etmək məqsədilə, Azərbaycan Prezidenti Heydər Əliyev Milli Məclis sədrinin müavini, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Yaşar Əliyevi özünün şəxsi nümayəndəsi kimi İrana göndərmişdir.

18 noyabr - Prezident Heydər Əliyev

İİR-in kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının (DMK) həmsədri Morteza Hacını qəbul etmişdir. Qəbul zamanı İran Prezidenti M.Xatəminin cavab məktubu Azərbaycanın dövlət başçısına təqdim olunmuşdur.

17-20 noyabr - Bakıda keçirilmiş DMK-nın 3-cü iclasının yekun sənədi kimi, ikitərəfli münasibətləri inkişaf etdirmək məqsədilə tərəflər arasında memorandum imzalanmışdır. Bu sənəddə bir sıra yeni əməkdaşlıq yolları araşdırılıb müəyyənləşdirilmişdir.

20-22 noyabr - İİR-in nümayəndə heyəti Naxçıvan MR-da olmuşdur. İran İslam Respublikasının kooperasiya naziri M.Hacı Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovla görüşüb, danışıqlar aparmışdır. Burada Naxçıvan bölgəsilə İran arasında əməkdaşlığın inkişaf yolları araşdırılmışdır. 1997-ci il noyabrın 21-də Naxçıvanla İran arasında ayrıca əməkdaşlığın genişləndirilməsi haqqında memorandum imzalanmışdır.

8-11 dekabr - Prezident Heydər Əliyev Tehranda keçirilən İKT-nin VIII Zirvə görüşündə iştirak etmiş, bu zaman İranın Prezidenti S.M.Xatəmi, Ali Dini Rəhbər Ayətulla Xamneyi, Məsləhət Şurasının sədri Haşimi Rəfsəncani və digər yüksək səviyyəli dövlət xadimlərilə görüşlər keçirmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev İKT-nin Zirvə görüşü zamanı bir çox ölkələrin KİV nümayəndələrino müsahibələr vermiş, Ümumdünya Ərzaq Təşkilatının Baş direktoru Corc Byuk, İKT-nin Baş katibi İzzəddin Laraki, Fələstin muxtariyyətinin rəhbəri Yasir Ərəfat, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Naziri Rəşid Abdullah ən-Nueymi, Suriya Prezidenti Hafiz Əsəd, İran İslam Respublikasının Ali Dini Rəhbəri ayətulla Xamneyi, İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi, Ərəb Ölkələri Cəmiyyətinin Baş katibi İsmət Əbdül Məcid, Tacikistan Prezidenti İmaməli Rəhmanov, Livan Prezidenti İlyas əl-Həravi, Livanın Baş naziri Rafiq əl-Həriri, Səudiyyə Ərəbistanının şahzadəsi Abdullah ibn Əbdül Əziz əl Səud, BMT-nin Baş katibi Kofi Annan, Misir Ərəb Respublikasının Xarici İşlər Naziri Əmir Musa, İndoneziyanın Xarici İşlər Naziri Əli Alatas, Beynəlxalq Ərzaq Təşkilatının (FAO) Prezidenti Cak Düfu, Türkmənistanın Prezidenti Saparmurad Niyazov, Qazaxıstan Respublikasının İrandakı və Səudiyyə Ərəbistanındakı səfirləri Vyaçeslav İzzətov və Baqdat Amreyev, Təbriz şəhərinin valisi Yəhya Məhəmmədzadə və başqaları ilə görüşlər keçirmişdir. Söhbətlər zamanı tərəflər qarşılıqlı əməkdaşlığın genişləndirilməsi ilə bağlı bir çox məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

11 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkəmizin Tehrandakı səfirliyin getmiş onun işi ilə tanış olmuşdur.

1998

11 fevral - İran İslam Respublikasının İslam inqilabının 19-cu ildönümü münasibətilə keçirdiyi tədbirdə Heydər Əliyev iştirak etmişdir.

16-18 mart - İİR-in xarici işlər nazirinin Amerika və Avropa ölkələri üzrə müavini M.Sərmədi Bakıda səfərdə olmuş,

Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişdir. Görüş zamanı ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin inkişafı üçün konkret təkliflər irəli sürülmüşdür.

7-14 avqust - Bakıda keçirilən "Tarixi İpək yolunun Bərpası" konfransında (TRASEKA) iştirak etmək məqsədilə İİR Dəmir Yol Təşkilatının icraçı direktoru, doktor Rəhman Dadmanın başçılıq etdiyi, Dəmir Yol Təşkilatı Tədqiqat Mərkəzinin Baş direktoru Abbasəli Qurbanəlibəy və Xarici Sərmayə Qoyuluşları İdarəsinin Baş direktoru Məhəmməd İsmayıl Əlixanidən ibarət nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı nümayəndə heyətinin üzvləri Azərbaycan Respublikasının bir sıra yüksək vəzifəli məsul şəxslərilə müzakirələr aparmışlar.

12-13avqut - İran İslam Respublikasının Xarici İşlər Naziri Kamal Xərrazinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmiş, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslərlə görüşlər keçirmişdir.

9-12 oktyabr - Əhəd Qozayinin başçılıq etdiyi İran Parlamentinin dörd nəfərdən ibarət nümayəndə heyəti keçirilmiş Prezident seçkilərində müşahidəçi kimi iştirak etmək üçün Azərbaycan Respublikasında səfərdə olmuşdur.

Səfər zamanı nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Milli Məclisin sədri və bir sıra yuksək vəzifəli məsul şəxslərlə görüşlər keçirmiş, Bakının və o cümlədən, Azərbaycanın bir sıra başqa bölgələrinin seçki məntəqələrində olmuşlar.

19 oktyabr - Prezident Heydər Əliyev Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində iştirak etmək üçün Bakıya gələn İİR-in kooperasiya naziri, İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Morteza Hacının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüş zamanı M.Haçı dövlət müstəqilliyi günü və Heydər Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə İran Prezidenti M.Xatəminin təbrik məktubunu Azərbaycanın dövlət başçısına təqdim etmişdir.

İran nümayəndə heyəti Azərbaycan Respublikası Milli Məclisinin sədrinin müavini, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Yaşar Əliyevlə görüş keçirmiş, müzakirələr aparmışdır.

21-28 dekabr - Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərovun başçılıq etdiyi Azorbaycan Parlamentinin nümayəndə heyəti, İİR İslam Şurası Məclisinin sədri Natiq Nurinin dəvətilə İrana səfər etmişdir. Səfər zamanı Milli Məclisin sədri M.Ələsgərov İİR Prezidenti M.Xatəmi, İslam Şurası Məclisinin sədri N.Nuri, Məsləhət Şurasının sədri Haşimi Rəfsəncani, tikinti və şəhərsalma naziri Ə.Əbdüləlizadə, Xorasan valisi Mehrəlizadə, Şərqi Azərbaycan valisi Y.Məhəmmədzadə, Ali Dini Rəhbərin Şərqi Azərbaycanda nümayəndəsi, Təbriz cümə məscidinin imamı Ayətulla Ə.Şəbüstəri ilə görüşmüşdür. Görüşlər zamanı ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni sahələrdə olan əlaqələrin sürətlə inkişaf etdirilməsi zəruriliyi qeyd olunmuş, tərəflər bölgədə və beynəlxalq aləmdə baş verən münaqişələrin sülh yolu ilə həll edilməsi və dövlətlərin ərazi

bütövlüyünün qorunması prinsiplərinə tərəfdar olduqlarını bildirmişlər. Azərbaycanla İran arasında iqtisadi və mədəni əlaqələri genişləndirmək, əməkdaşlığı yüksək səviyyəyə qaldırmaq və iki ölkə parlamentləri arasında əlaqələri genişləndirmək haqqında fikir mübadiləsi aparılmışdır.

1999

8 fevral -Azərbaycan Dövlət Akademik Dram Teatrında İran İslam inqilabının 20-ci ildönümünə həsr olunmuş İran mədəniyyəti həftəsi çərçivəsində ədəbi-mədəni tədbir keçirilmişdir.

9 fevral - İran İslam Respublikasının İslam inqilabının 20-ci ildönümü münasibətilə keçirdiyi tədbirdə Heydər Əliyev iştirak etmişdir.

5-8 mart - Azərbaycan Respublikasının "Azəravtonəqliyyat" Dövlət Konserninin prezidenti Hüseyn Hüseynovun başçılıq etdiyi nümayəndə heyəti İran həmkarları ilə məsləhətləşmələr aparmaq məqsədilə İİR-ə səfər etmişdir.

12-15 mart - Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin başçılıq etdiyi nümayəndə heyəti İİR-in Xarici İşlər Naziri K.Xərrazinin dəvəti ilə İrana rəsmi səfər etmişdir. Səfərini Təbrizdən başlayan Xarici İşlər Naziri martın 12-də Şərqi Azərbaycan valisi Y. Məhəmmədzadə və Təbriz imam cüməsi ayətulla Şəbüstəri ilə görüşmüşdür. Mart ayının 13-də Xarici İşlər Naziri Tehranda İİR Prezidenti S.M. Xatəmi, İslam Şurası Məclisinin sədri Natiq Nuri və Xarici İşlər Naziri K. Xərrazi (iki mərhələdə), kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyanın həmsədri M. Hacı, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Ondər Ozər ilə danışıqlar aparmışdır. Səfər zamanı bir sıra məsələlər, o cümlədən Rusiyadan Ermənistana külli miqdarda silah göndərməsi, Xəzər dənizinin statusu problemi, Təbrizdə Azərbaycan Respublikasının konsulluğunun açılması və digər məsələlər müzakirə olunmuş, ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin daha sürətlə inkişaf etdirilməsinin zəruriliyi qeyd edilmişdir.

10-14 may - Azərbaycan Respublikası Prezident Aparatının siyasi-ictimai şöbəsinin müdiri Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti İİR-də keçirilən "Azərbaycan Respublikası və İran, mövcud vəziyyət: perspektiv və imkanlar" adlı konfransda iştirak etmişdir.

Konfrans zamanı iki ölkə arasında mövcud olan bir sıra problemlərin həlli yolları araşdırılmış, həmin problemlərin ətrafında fikir mübadiləsi aparılmışdır.

21 may - Azərbaycan Respublikası Xarici İşlər Naziri İƏT Nazirlər Şurasının Bakıda keçirilən toplantısında iştirak edən İranın Xarici İşlər Naziri K.Xərrazini qəbul etmişdir. Görüş zamanı beynəlxalq, regional və ikitərəfli münasibətlər üzrə mühüm məsələlər müzakirə edilmiş, Xarici İşlər Naziri öz iranlı həmkarını Bakıya rəsmi səfərə dəvət etmişdir.

29 may - Azərbaycan Prezidenti Heydər Əliyev Antaliyadakı iqamətkahında İranın Türkiyədəki səfiri Məhəmməd Həsən Yəvasanini qəbul etmişdir.

15-17 iyun - Milli Məclisin sədri Murtuz Ələsgərov Tehranda keçirilən Müsəlman ölkələri Parlamentlərarası Assambleyasının təsis konfransında iştirak etmişdir.

22 iyun - Şərqi Azərbaycan valisi Yəhya Məhəmmədzadənin başçılıq etdiyi İİR-in nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Səfərin nəticəsi olaraq Naxçıvan MR Ali Məclisinin sədri V.Talıbov ilə birlikdə anlaşma protokolu imzalanmışdır.

29 iyul - 2 avqust - Şərqi Azərbaycan valisi Yəhya Məhəmmədzadənin başçılıq etdiyi İİR-in nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər zamanı vali respublika Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmiş, o cümlədən Milli Məclisin sədri, Baş nazir, Milli Məclisin sədr müavini, Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının həmsədri, ticarət naziri, Şeyxülislam, Bakı şəhər İcra Hakimiyyətinin başçısı ilə görüşlər keçirmişdir.

Görüşlər zamanı ikitərəfli münasibətlərin daha da inkişafı haqqında fikir mübadiləsi aparılmışdır. Səfər zamanı İİR nümayəndə heyəti Sumqayıt şəhərinə getmiş və bu şəhərin kimya-sənaye kompleksləri ilə tanış olmuşdur.

5-9 avqust - İranın tikinti və şəhərsalma naziri Ə.Əbdüləlizadənin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər zamanı Ə.Əbdüləlizadə Respublika Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmiş, o cümlədən Milli Məclisin sədri, Baş nazir, Milli Məclisin sədr müavini, Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının həmsədri, ticarət naziri, Şeyxülislam, Bakı şəhər İcra Hakimiyyətinin başçısı ilə görüşlər keçirmişdir.

Görüşlər zamanı iki ölkə arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi haqqında geniş fikir mübadiləsi aparılmışdır. Səfər zamanı İİR nümayəndə heyəti Şəki şəhərinə getmiş və şəhərin tarixi-mədəni abidələri ilə yaxından tanış olmuşdur.

15-22 avqust - Azərbaycan Respublikasının 29 jurnalisti İİR-in Şərqi Azərbaycan əyalətində səfərdə olmuşlar. Səfər zamanı jurnalistlər qonşu ölkədə onları maraqlandıran problemlərlə tanış olmuş və səfərin nəticəsi haqqında öz təəssüratlarını vətənə qayıtdıqdan sonra yerli mətbuatda dərc etmişlər.

9 sentyabr - Milli Məclisin sədr müavini Yaşar Əliyev Təbriz şəhərində "Zərrinərud çayından içməli su çəkilişi üzrə layihənin açılışı və istifadəyə verilməsi" münasibətilə keçirilən tədbirdə iştirak etmişdir.

30 sentyabr - Nyu Yorkda BMT Baş Assambleyasının 54-cü sessiyası keçirilən zaman Azərbaycan Respublikası Xarici İşlər Naziri İİR-in Xarici İşlər Naziri Kamal Xərrazi ilə görüşmüşdür. Görüş zamanı ikitərəfli məsələlərə toxunulmuş və Xəzər dənizinin statusuna dair fikir mübadiləsi aparılmışdır.

30 sentyabr - 7 oktyabr - Tehranda iqtisadi-ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının 4-cü iclası keçirilmişdir. Müştərək Komissiyanın öz işlərini ticarət-iqtisadi, energetika, kənd təsərrüfatı məsələləri komitələri üzrə aparmışdır. Komitələrdə ikitərəfli hökumətlərarası sazişlərlə

bağlı məsələlər, ticarət, sərhədyanı bazarlar, bank işi və sığorta, gömrük, dəmir yolu, hava və avtomobil daşımaları, ticarət gəmiçiliyi sahələrində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

10 oktyabr - Naxçıvan MR-in 75 illiyi münasibətilə təşkil olunmuş təntənəli tədbirlər zamanı, Prezident Heydər Əliyevin iştirakı ilə Naxçıvan şəhərində İran İslam Respublikasının inşa etdiyi dini kompleksin açılışı olmuşdur. Açılışda İİR tərəfindən Təbriz imam cüməsi ayətulla Şəbüstəri, tikinti və şəhərsalma naziri Əbdüləlizadə, Şərqi Azərbaycan ostanının valisi Məhəmmədzadə, "Bonyad-e mostəzəfin və canbazan" fondunun sədri Rəfiqdust iştirak etmişdir.

14-18 oktyabr - İİR kənd təsərrüfatı naziri İsa Kəlantərinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul edilmişdir. Nümayəndə heyəti Gəncə, Xanlar, Beyləqan şəhərlərində kənd təsərrüfatı obyektləri və təhsil ocaqları ilə tanış olmuşdur. Səfərin nəticəsi olaraq "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında" saziş imzalanmışdır.

25-28 oktyabr - İran İslam Respublikasının iqtisadiyyat və maliyyə nazirinin müavini, Baş Gömrük İdarəsinin rəisi Mehdi Kərbasianın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Baş naziri, Milli Məclisin sədr müavini, iqtisadi-ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının həmsədri, Dövlət Gömrük Komitəsinin sədri, Dövlət Baş Vergi Müfəttişliyinin sədri İran nümayəndə heyəti ilə görüşüb, müzakirələr aparmışlar. Səfərin nəticəsi olaraq, "Azərbaycan Dövlət Gömrük Komitəsi ilə İran Baş Gömrük İdarəsi arasında gömrük sahəsində əməkdaşlığa dair memorandum" imzalanmışdır.

25 noyabr - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilə" və "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında təslimetmə haqqında müqavilə"nin ratifikasiya fərmanlarının mübadiləsi haqqında protokolun imzalanma mərasimi keçirilmişdir. Azərbaycan Respublikası tərəfindən protokolu Xarici İşlər Naziri Vilayət Quliyev, İran tərəfindən isə İran İslam Respublikasının Bakıdakı səfiri Əlirza Beqdeli imzalamışdır.

1-2 dekabr - Azərbaycan Respublikası mətbuat və informasiya naziri S.Təbrizli Tehranda İslam Ölkələri İnformasiya Nazirlərinin V toplantısında iştirak etmişdir.

2000

19 yanvar - Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyev İİR müdafiə nazirliyinin hərbi attaşelər şöbəsinin müdiri, general-mayor Hüseyn Əlilu, general-mayor Cəlal Mehriban Xoşgün və İranın Bakıdakı hərbi attaşesi Musa Şəhabini qəbul etmişdir.

29 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Davos Ümumdünya İqtisadi Forumunda iştirak etdiyi zaman İİR-in Xarici İşlər Naziri Kamal Xərrazini qəbul etmişdir. Görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər müzakirə olunmuşdur.

11 fevral - İran İslam Respublikasının İslam inqilabının 21-ci ildönümü münasibətilə keçirdiyi tədbirdə Heydər Əliyev iştirak etmişdir.

14-17 fevral - İranın yol və nəqliyyat nazirinin müavini Xansari Bakıya səfər etmiş və nəqliyyat sahəsində məsələlərlə bağlı müzakirələr aparmışdır. Səfər çərçivəsində ekspertlər səviyyəsində avtomobil daşımaları haqqında yeni saziş layihəsi razılaşdırılmışdır.

13-16 mart - Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin başçılıq etdiyi nümayəndə heyəti İİR Xarici İşlər Naziri K. Xərrazinin dəvəti ilə İrana rəsmi səfər etmişdir. V.Quliyev Tehranda İİR Prezidenti S.M. Xatəmi, İslam Şurası Məclisinin sədri Natiq Nuri və Xarici İşlər Naziri K. Xərrazi (iki mərhələdə), kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyanın həmsədri M.Hacı, sənaye naziri Q.Şafeyi, tikinti və şəhərsalma naziri Ə.Əbdüləlizadə, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Öndər Özər ilə danışıqlar aparmışdır. Martın 15-də Təbrizə gəlmiş, Şərqi Azərbaycan valisi Y.Məhəmmədzadə ilə görüşmüşdür. Səfər zamanı bir sıra məsələlər, Xəzər dənizinin statusu məsələsi, Təbrizdə Azərbaycan Respublikasının Baş konsulluğunun açılması və digər siyasi və iqtisadi məsələlər müzakirə olunmuş, ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi yolları araşdırılmışdır.

25 aprel - Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyev Nyu Yorkda "Nüvə silahlarının yayılmaması haqqında" müqaviləyə üzv ölkələrin konfransında iştirak etdiyi zaman İİR-in Xarici İşlər Naziri Kamal Xərrazi ilə görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər müzakirə olunmuşdur.

27 aprel - 1 may - İran İslam Respublikasının sənaye naziri Qulamrza Şafeyinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Səfər İİR-in 29 apreldə Bakıda keçirilən 8-ci ixtisaslaşdırılmış sənaye sərgisinin açılışı ilə eyni vaxtda həyata keçirilmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa şəxslər tərəfindən qəbul edilmişdir. İİR nümayəndə heyəti Şamaxı rayonu ilə yaxından tanış olmaq məqsədilə bu rayona səfər etmişdir.

29 aprel - Bakıda İİR-in 8-ci sərgisi açılmışdır. Sərgini gəzən və açılışında çıxış edən Prezidentimiz İranla olan iqtisadi əlaqələrimiz barədə iştirakçılarla öz qiymətli mülahizələrini bölüşdürmüşdür.

15-18 may - İran İslam Respublikasının xarici işlər nazirinin müavini Mortəza Sərmədinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul edilmişdir.

15-22 may - Azərbaycan Respublika-

sının müxtəlif qəzetlərini təmsil edən yeddi jurnalist İİR-in Bakıdakı səfirliyinin təşəbbüsü ilə İrana səfər etmişlər. Səfər zamanı onlar İranın müxtəlif təşkilat, qəzet və vəzifəli şəxsləri ilə görüşlər keçirmişlər.

8 iyun - İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının Tehranda keçirilən X iclasında iştirak edən Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyev iyunun 10-da İİR-in Xarici İşlər Naziri K.Xərrazi ilə görüşmüşdür.

9 iyun - İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) üzvü olan ölkələrin Dövlət Başçılarının VI Zirvə görüşündə iştirak etmək üçün Azərbaycan Prezidenti Heydər Əliyev İİR-də işgüzar səfərdə olmuşdur. Səfər zamanı Prezident Heydər Əliyev İİR-in Ali Dini Rəhbəri S.Ə.Xamneyi, Prezident S.M.Xatəmi, Dövlət Məsləhət Şurasının sədri Ə.H.Rəfsəncani, kooperasiya naziri M.Hacı, şəhərsalma və tikinti naziri Ə.Əbdüləlizadə, kənd təsərrüfatı naziri İ.Kələntəri ilə görüşlər keçirmişdir.

31 iyul - İİR və Azərbaycan Respublikası arasında geologiya-mədən sahəsində əməkdaşlığı genişləndirmək məqsədilə Tehranda əməkdaşlıq memorandumu imzalanmışdır.

Keçirilən görüşlər zamanı ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi yolları araşdırılmışdır.

31 avqust - 6 sentyabr -İİR-in iş adamlarından ibarət nümayəndə heyəti Bakı, Gəncə, Mingəçevir və Əlibayramlı şəhərlərində sənaye müəssisələri və təşkilatları ilə yaxından tanış olmuşlar. Bakıda olarkən nümayəndə heyəti Milli Məclisin sədr müavini, iqtisadi-ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının həmsədri, Ticarət-Sənaye Palatasının sədri və dövlət əmlak naziri ilə görüş keçirmişdir.

8 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin milenium Zirvə toplantısında iştirak etdiyi zaman İran İslam Respublikasının Prezidenti S.M.Xatəmi ilə görüş keçirmişdir.

30 oktyabr - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında hüquqi yardım haqqında müqavilə"nin ratifikasiya fərmanlarının mübadiləsi haqqında protokolun imzalanma mərasimi keçirilmişdir. Azərbaycan Respublikası tərəfindən protokolu Xarici İşlər Naziri Vilayət Quliyev, İran tərəfindən isə İran İslam Respublikasının Bakıdakı səfiri Əlirza Beqdeli imzalamışdır.

30 oktyabr - İran İslam Respublikasının Bakıdakı səfiri Əlirza Beqdeli ezamiyyət müddətinin bitməsi ilə əlaqədar Tehrana qayıtmış, elə həmin gün İİR-in Bakıdakı yeni səfiri Əhəd Qəzayi Bakıya gəlmişdir.

31 oktyabr - İran İslam Respublikasının Bakıdakı səfiri Əhəd Qəzayi etimadnaməsinin surətini Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevə təqdim etmişdir.

12-13 noyabr - Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyev Qatarın paytaxtı Dohada keçirilən İKT-nin IX Zirvə görüşündə iştirakı zamanı noyabrın İranın Xarici İşlər Naziri K. Xərrazi ilə görüş keçirmişdir. Görüş zamanı ikitərəfli və regional problemlər müzakirə edilmişdir.

14-19 noyabr - İİR-in Qərbi Azərbaycan vilayətinin istehsalat-ticarət şirkətinin nümayəndələrindən ibarət nümayəndə heyəti, Azərbaycan Respublikasında iqtisadi vəziyyət və fəaliyyət sahələri ilə tanış olmaq məqsədilə Bakıda olmuşdur.

21-23 noyabr - İran İslam Respublikasının xarici işlər nazirinin müavini Əli Əhaninin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında rəsmi səfərdə olarkən, öz səfərini Naxçıvan MR-dən başlamışdır.

Azərbaycan Respublikasında səfərdə olarkən İİR nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul olunmuşdur.

6 dekabr - İran İslam Respublikasının Bakıdakı səfiri Əhəd Qəzayi etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti H.Əliyevə təqdim etmişdir.

2001

15-18 yanvar - Azərbaycan Respublikası Dövlət Kömrük Komitəsinin sədri İİR-ə rəsmi səfər etmişdir. Səfər zamanı nümayəndə heyəti İsfahan vilayətinə getmiş, İİR Baş Kömrük İdarəsinin rəisi M.Kərbasian, kooperasiya naziri M.Hacı, İİR iqtisadiyyat və maliyyə naziri H.Nəmazi və digər yüksək vəzifəli şəxslər ilə görüşlər keçirmişdir. Səfərin nəticəsi olaraq iki ölkə arasında kömrük sahəsində əməkdaşlıq haqqında qarşılıqlı anlaşma memorandumu imzalanmışdır.

yanvar - Beynəlxalq "Əhli-Beyt" cəmiyyətinin dəvətilə Tehrana gəlmiş Qafqaz Müsəlmanları Ali Ruhani İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə İİR-in Ali Dini Rəhbəri S.Ə.Xamneyi ilə görüşmüşdür. Görüşdə Azərbaycan-İran münasibətlərinin və iki ölkənin müsəlman xalqları arasında əlaqələrin daha da inkişaf etdirilməsi haqqında fikir mübadiləsi aparılmışdır.

5-8 fevral - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini X.Xələfovun başçılıq etdiyi nümayəndə heyəti İİR-də rəsmi səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan nümayəndə heyəti İran İslam Respublikasının Xarici İşlər Naziri K.Xərrazi, kooperasiya naziri, İran-Azərbaycan Müştərək Komissiyasının həmsədri M.Hacı tərəfindən qəbul olunmuş, xarici işlər nazirinin müavini Ə.Əhani ilə görüş keçirmiş və İƏT-ə üzv ölkələrin yüksək vəzifəli şəxslərindən ibarət İşçi Qrupunun toplantısında iştirak etmişdir. Danışıqlar zamanı ikitərəfli münasibətlərin inkişaf istiqamətləri və Xəzər dənizinin hüquqi statusunun müəyyən olunması barədə məsləhətləşmələr aparılmışdır.

7-10 fevral - İranın Ərdəbil əyalətinin valisi Seyid Həmid Təhayinin başçılıq etdiyi 40 nəfər iş adamından ibarət nümayəndə heyəti Azərbycan Respublikasında səfərdə olmuşdur. İİR nümayəndə heyəti Bakıda bir sıra rəsmi şəxslərlə ikitərəfli ticarət-iqtisadi əlaqələrə dair müzakirələr aparmışdır.

9 fevral - İran İslam Respublikasının İslam inqilabının 22-ci ildönümü münasibətilə keçirdiyi tədbirdə Heydər Əliyev iştirak etmişdir.

19-24 fevral - İİR İmam Xomeyni İmdad Komitəsinin sədri Seyyid Rza Nəyyiri-

nin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər zamanı nümayəndə heyəti Milli Məclisin sədri M.Ələsgərov, Baş nazir A.Rəsizadə, Baş nazirin müavini Ə.Həsənov, Səhiyyə Naziri Ə.İnsanov, əmək və əhalinin sosial müdafiəsi naziri Ə.Nağıyev ilə görüşmüş, Gəncə şəhəri, Biləsuvar və Göyçay rayonlarında qaçqınlarla görüş keçirmişdir. Qeyd etmək lazımdır ki, 1995-2000-ci illərdə bu təşkilatın xətti ilə Azərbaycan Respublikasına göstərilən humanitar yardımın dəyəri 9 milyon ABŞ dolları məbləğində olmuşdur.

20-21 fevral - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini X.Xələfovun başçılıq etdiyi nümayəndə heyəti Tehranda keçirilən "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın hazırlanması üzrə Xəzəryanı Dövlətlərin Xarici İşlər Nazir müavinləri səviyyəsində Xususi İşçi Qrupunun III iclasında iştirak etmişdir.

27-29 mart - İran İslam Respublikasının energetika naziri Həbibulla Bitərəfin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur.

Nümayəndə heyəti Azərbaycan Respublikası və İİR arasında elektrik enerjisinin paralel işlənməsinə dair imzalanmış dövlətlərarası müqaviləyə əsasən, 230 kv-lıq İmişli-Parsabad elektrik xəttinin açılış mərasimində iştirak etmişdir. Xəttin ümumi uzunluğu 51 km-dir. Bu xətt vasitəsilə 50 meqavatt elektrik enerjisinin tranzitlə ötürülməsi nəzərdə tutulub. Azərbaycan Respublikasında səfərdə olarkən İran İslam Respublikasının nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul olunmuş, Milli Məclis sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə ilə keçirilmiş görüşlərdə iki ölkə arasında energetika sahəsində əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır.

18 aprel - Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyəti İİR-in Ali Dini Rəhbərinin Ərdəbil əyalətindəki nümayəndəsi ayətullah Mürəvvecin dəfn mərasimində iştirak etmək üçün Ərdəbilə səfər etmişdir.

24-25 aprel - Tehranda İran İslam Şurası Məclisinin təşəbbüsü ilə Fələstin xalqının qiyamını dəstəkləyən Beynəlxalq Konfrans keçirilmişdir. 36 ölkədən 300 nümayəndənin iştirak etdiyi konfransda Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi Azərbaycan Respublikasının nümayəndə heyəti iştirak etmişdir.

20 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikası Ali Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

28 avqust - Prezident Heydər Əliyev İran İslam Respublikasının xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini və İranın Xəzər dənizi üzrə nümayəndəsi Əli Əhanini qəbul etmişdir.

2002

23 yanvar - Prezident Heydər Əliyev İran İslam Respublikasının daxili işlər naziri Əbdülvahid Musəvi Larini qəbul etmişdir.

11 fevral - İran İslam Respublikasının Azərbaycandakı səfirliyi tərəfindən Gülüstan sarayında İslam inqilabının 23-cü ildönümü münasibətilə qəbul təşkil edilmişdir.

11 mart - İran İslam Respublikası Parlamentinin İran-Azərbaycan dostluq qrupunun üzvləri Prezident Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

11 aprel - Prezident Heydər Əliyev İran İslam Respublikasının Xarici İşlər Naziri Kamal Xərrazini qəbul etmişdir.

23 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabadda keçirilən ilk Zirvə toplantısında İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

18-20 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfəri olmuşdur. Ölkəmizin başçısı İranın dövləti rəhbərləri ilə bir sıra müvəffəqiyyətli görüşlər keçirmişdir. Səfər zamanı tərəflər on müqavilə və saziş imzalamışlar. Onlardan ən başlıcası "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilədir.

TARİXİ SƏNƏDLƏR

ГЮЛИСТАНСКИЙ ДОГОВОР

ТРАКТАТ вечного мира и дружбы, заключенный между Империею Всероссийскою и Персидским Государством в Российском лагере в урочище Гюлистане при речке Зейве 12 октября 1813 года, чрез назначенных к тому с обеих сторон Полномочных и подтвержденный обоюдными Государскими ратификациями, размененными взаимными полномочными в Тифлисе 15 числа Сентября месяца 1814 года:

ВО ИМЯ ГОСПОДА ВСЕМОГУЩЕГО

Его Императорское Величество Всепресветлейший и Державнейший Великий Государь Император и Самодержавец Всероссийский и Его Величество Падишах, Обладатель и Повелитель Персидского Государства, по Высокомонаршей любви Своей и обоюдным Их подданным, имея искреннее взаимное желание положить конец бедствиям войны, сердцу Их противной, и восстановить на прочном основании твердый мир и добрую соседственную дружбу, существовавшую издревле между Империею Всероссийскою и Персидским Государством, разсудили за благо назначить для сего праведного и спасительнаго дела Полномочными СВОИМИ: Его Величество Император Всероссийский, Превосходительнаго Николая Ртищева, Своего Генерал-Лейтенанта, Главнокомандующаго войсками в Грузии и на Кавказской линии, Главноуправляющаго по Гражданской части в Губерниях: Астраханской, Кавказской и в Грузии, и всеми приграничными здешняго края делами, Командующаго Военною Каспийскою флотилею и Кавалера орденов: Св. Александра Невского, Св. Анны первой степени. Св. Великомученика и победоносца Георгия четвертого класса и имеющего золотую шпагу с надписью за храбрость; а Его Величество Шах Персидский, Своего Высокостепеннаго и Высокопочтеннаго Мирзу Абуль Хассан Хана, бывшаго чрезвычайным посланником при дворах Турецком и Английском, избраннаго меъжду Персидскими Начальниками ближайшаго чиновника своего Государя, Советника тайных дел Высочайшаго Персидскаго Двора, происходящаго от Визирской фамилии, Хана втораго класса при Дворе Персидском и имеющаго от своего Государя отличную милость, состоящую в кинжале и сабле, бриллиантами

украшенных, в шалевом платье и лошадином уборе, осыпанном бриллиантами; в следствии чего, мы, вышепоименованные уполномоченные, съехавшись Карабагского владения в урочище Гюлистан при речке Зейве и по размене полномочий, разсмотрев каждый с своей стороны все касающееся до постановляемого нами от имени Великих наших Государей мира и друъжбы, в силу данной нами власти и высочайших полномочий, постановили и утвердили на вечные времена следующие статьи:

Статья первая

Враъжда и несогласия, существовавшия досель между Российскою Империею и Персидским Государством, прекращаются отныне впредь сим трактатом, и да будет вечный мир, дружба и доброе согласие между Его Императорским Величеством Самодержцем Всероссийским и Его Величеством Шахом Персидским, Их наследниками и Преемниками престолов, и обоюдными Их высокими Державами.

Статья вторая

Поелику чрез предварительный сношения меъжду двумя высокими Державами взаимно соглашенность уже, чтобы постановить мир на основапии Status quo ad presentem, то есть, дабы каъждая сторона осталась при владении теми землями, Ханствами и владениями, какие ныне находятся в совершенной их власти; то границею между Империею Всероссийскою и Персидским Государством, от сего времени впредь да будет следующая черта: начиная от урочища Одина-Базара прямо чертою чрез Муганскую степь до Едибулукскаго брода на реке Араксе, оттоль вверх по Араксу до впадения в оную речки Капанакчая, далее же правою стороною речки Капанакчая до хребта Мигринских гор и оттуда продолжая черту межами Ханств: Карабагского и Нахичеванскаго, хребтом Алагезских гор до урочища Даралагеза, где соединяются межи ханств: Карабагскаго, Нахичеванскаго, Эриванскаго и части Елисаветпольскаго округа (бывшего Ганджинскаго Ханства), потом, от сего места межею, отделяющею Эриванское Ханство от земель Елисаветпольской округи, так же Шамшадильской и Казахской до урочища Эшак-Мейдана, и от онаго хребтом гор по течению правой стороны речки и дороги Гимзачимана по хребту уже Бамбакских гор до угла межи Шурагельской; от сего же угла до верху снеговой горы Алагеза, а отсель по хребту гор межею Шурагельскою, между Мастарасом и Артиком до речки Арпачая. Впрочем, так Талышинское владе ние в продолжении войны переходило из рук в руки, то границы сего Ханства со стороны Зинзелей и Ардавиля, для большей верности, определены будут по заключении и ратификации сего трактата избранными с обеих сторон комиссарами со взаимнаго согласия, кои, под ру-

ководством Главнокомандующих с обеих сторон, сделают верное и подробное описание земель, деревень и ущелий, так же рек, гор, озер и урочищ, кои до настоящаго времени находятся в действительной власти каъждой стороны, и тогда определится черта границ Талышинскаго Ханства на основании Status quo ad presentem, таким образом, чтобы каждая сторона осталась при своем владении. Равным образом и в вышеупомянутых границах, еъели что перейдет за черту той или другой стороны, то по разобрании коммисарами обеих высоких Держав, каъждая сторона, на основании status quo ad presentem, доставит удовлетворение.

Статья третья

Его Шахское Величество в доказательство искренней приязни Своей к Его Величеству Императору Всероссийскому, сим торжественно признает, как за себя, так и за Высоких Преемников Персид-скаго престола, принадлежащими в собственность Российской Империи Ханства: Карабагское и Ганджинское, обращенное ныне в провинцию под названием Елисаветпольской; также Ханства; Шекинское, Ширванское, Дербентское, Кубинское, Бакинское и Талышинское с теми землями сего Ханства, кои ныне состоят во власти Российской Империи. При том весь Дагестан, Грузию с Шурагельскою провинциею, Имере-тию, Гурию, Мингрелию и Абхазию, равным образом все владения и земли, находящиеся между постановленною ныне границею и Кавказскою линиею, с прикосновенными к сей последней и к Каспийскому морою землями и народами.

Статья четвертая

Его Величество Император Всероссийский, в оказание взаимной приязненности Своей к Его Величеству Шаху Персидскому, и в доказательство искреннаго желания Своего видеть в Персии, сем соседнем Ему Государстве, самодержавие и господственную власть на прочном основании, сим торжественно за Себя Преемников Своих обещает тому из сыновей Персидского Шаха, который от него назначен будет Наследником Персидскаго Государства, оказывать помощь в случае надобности, дабы никакие внешние неприятели не могли мешиваться в дела Персидскаго Двора, Персидский Двор был подкрепляем. Впрочем, если по делам Персидскаго Государства произойдут споры между Шахскими сыновьями: то Росспйская Империя не войдет в оные до того времени, пока владеющий тогда Шах не будет просить об оной.

Статья пятая

Российским купеческим судом, по прежнему обычаю, предоставляется право плавать у берегов Каспийского моря и приставать к оным; при чем со стороны Персиян

должна быть подаваема дружественная помощь во время кораблекрушения. Сие ъе самое право предоставляется и Персидским купеческим судам, по прежнему обычаю, плавать по Каспийскому морю и приставать к берегам Российским, где взаимно, в случае кораблекрушения, должно быть оказываемо Персиянам всякое пособие. В рассуждении же военных судов: то как прежде войны, так равно во время мира и всегда Российский военный флаг один существо вал на Каспийском море; то в сем уважении и теперь предоставляется ему одному прежнее право с тем, что кроме Российской Державы, никакая другая Держава не может иметь на Каспийском море военного флага.

Статья шестая

Всех пленных обеих сторон, взятых в сражении.., следует отпустить сроком в три месяца после заключения и подписания Трактата, снабдив с каждой стороны продовольствием и дорожными издержками до Караклиса, где пограничные Начальники, для припятия пленных, взаимно между собою снесутся. Бежавшим же своевольно, или по преступлениям, предоставляется свободно возвратиться в отчество свое всем, кои добровольно того пожелают, а кто не пожелает возвратиться, какой бы нации не был, тех не принуждать. При том бежавшим с обеих сторон даруется амнистия или прощение.

Статья седьмая

Сверх всего вышесказанного. Его Величество Император Всероссийский и Его Величество Шах Персидский соизволяют, что бы взаимные Высоких Дворов Их Министры или Посланники, посылаемые, в случае надобности, в резиденции к Их Величествам, принимаемы были соответственно званию их и важности дел, им порученных; а определяемые от них, по прежним примерам, где за нужное разсудится, в городах для покровительства торговли Агенты или Консулы, кои не имели бы при себе свиты более десяти человек, пользовались бы как доверенные чиновники, приличным званию их уважением и почестьми, с предписанием, не только отнюдь не обижать, но в обидах обеих сторон подданным, по представлению их, делать праведный суд, и доставлять обиженным праведное удовлетворение.

Статья восьмая

Что касается до торговых сношений между обоюдными подданны ми Их Величеств, кои будут иметь от своих Правительств, или пограничных Начальников, от Правительства постановленных, письменные виды в доказательство, что они подлинно купцы, подданные Рос-, сийские или Персидские, позволено будет ездить сухим путем и морем: свободно в оба Высокодоговориваю-щиеся Государства, жить в оных сколько кто пожелает, и купечество

отправлять, также и обратный выезд иметь без всякаго задержания. Товары, привозимые в Персию из мест, Российской Империи принадлежащих, и взаимно из Персии в оные вывозимые, продавать и на другие товары менять. В спорах, случающихся между купцами обеих Высоких Держав, в долгах и других жалобах ведаться обыкновенным порядком, относясь к Консулуили Агенту, а где онаго не будет, то к местному Начальнику, которые и обязаны, разсмотрев просбы их по сущей справедливости, сами ли делать, или требовать чрез кого следует, должное удовлетворение и отнюдь не допускать, чтобы им оказана была какая-либо обида и притеснение.

Купцам, Российским подданным, приехавшим в Персию, свободно будет ездить оттуда с товарами в другие Государства, дружественный с Персиею, естли пожелают; на что для свободнаго пропуска, Персидское Правительство не оставит снабдевать их надлежащими паспортами, и что также взаимно соблюдаемо будет Российским Правительством в разсуждении Персидских купцов, кои пожелают чрез Россию, по торговым делам своим, отправиться в другие Государства, дружественныя с Россиею.

В смертном же случае кого-либо из Российских подданных в Персию заехавших, или на жительстве находившихся, пожитки их и иное имение движимое и недвижное, как прнадлежащее подданным дружественной Державы, первое без удержаня и утайки отдавать на законном основании с росписками их товарищам или родственникам, а последнее позволять тем родственникам продавать, кому они захотят, по их желанию и в их пользу, как сие всегда делается в Российской Империи и во всех просвещенных Государствах, не взирая какой бы кто Державы ни был.

Статья девятая

Пошлин с товаров, Российскими купцами привозимых в Персидские города или порты, взимать не более пяти процентов со ста, не требуя оных вторично, куда бы те купцы с тем товаром своим не ехали, и столько же вывозимых оттуда Персидских товаров, а более ни каких сборов, податей, налогов и пошлин, ни под каким предлогом и вымыслом не требовать, каковыя пошлины и на таком же основании взаимно должны быть единожды взыскиваемы и с Персидских товаров, привозимых Персидскими подданными в Российские города или порты, так и с вывозимых.

Статья десятая

По привозе товаров на берег или в порт, либо сухим путем в пограничные города обеих договаривающихся Держав, предоставляется свобода обоюдному купечеству продавать свои товары и другие покупать, или на мену получать, не спрашивая на то позволения от Таможенных правителей, или откупщиков, коих долг есть смотреть, чтобы торговля имела беспрепятственное обращение и чтобы исправно взыскиваемы были узаконенные пошлины в казну с продавца или с покупщика, по добровольному их в том условию.

Статья одиннадцатая

По подписании сего Трактата, уполномоченные обеп\ Высоких Держав взаимно и без отлагательства отправять во все места надлежащее о сем известие и повеления о немедленном всюду прекращении военных действий.

Настоящий Трактат вечного мира, в двух равногласных экземплярах с Персидским переводом писанный и вышеозначенными обеих Высоких договаривающихся сторон Уполномоченными подписанный, печатями их утвержденный и взаимно ими размененный имеет быть со стороны Его Величества Императора Всероссийского и со стороны Его Величества Шаха Персидского утвержден и ратификован торжественными Ратификациями за подписаниями своеручными Их Величеств.

Доставление же оных ратификованных сего Трактата экземпляров имеет последовать взаимно присылкою от Высоких сих Дворов к вышесказаным их Уполномоченным, сроком чрез три месяца.

Заключен в Российском лагере Карабагского владения в урочище Гюлистан при речке Зейве, в лето от Рождества Христова тысяча восемьсот тринадцатого, месяца Октября двенадцатого дня, а по Персидскому исчислению тысяча двести двадцать осьмое, месяца Шавалла двадцать девятого дня.

ПОДПИСАЛИ:

Уполномоченный и Главнокомандующий в Грузии
НИКОЛАЙ РТИЩЕВ.

Уполномоченным от Высоко-славнаго Государства Персидскаго **Мирза АБУЛЬ ХАССАН ХАН.**

("Подвиги Русских Воинов в странах Кавказских, с 1800 по 1834 гг. (описанные Платоном Зубовым)", т. 1, г. 1, С-П. 1835).

ТУРКМЕНЧАЙСКИЙ ДОГОВОР

Божиею поспешествующею милостию МЫ, НИКОЛАЙ ПЕРВЫЙ, ИМПЕРАТОР и САМОДЕРЖЕЦ ВСЕРОССИЙСКИЙ: Московский, Киевский, Владимирский, Новгородский, Царь Казанский, Царь Астраханский, Царь Польский, Царь Сибирский, Царь Херсониса-Таврическаго, Государь Псковский и Великий Князь Смоленский, Литовский, Волынский, Подольский и Финляндский, Князь Эстляндский, Лифлянд-ский, Курляндский и Семигальский, Самогитский, Белостокский, Корельский, Тверский, Югорский, Пермский, Вятский, Болгарский и иных, Государь и Великий Князь Новгорода Низовския земли, Черниговский, Рязанский, Полоцкий, Ростовский, Ярославский, Белозерский, Удорский, Обдорский, Кондийский, Витебский, Мстиславский, и всея Северныя страны Повелитель и Государь Иверския, Карталинския, Грузинския и Кабардинския земли, Черкасских и Горских Князей и иных Наследный Государь и Обладатель, Наследник Норвеъский, Герцог Шлезвиг-Голстинский, Стормарнский, Дитмарсенский и Ольденбургский и прочая, и прочая, и прочая. Объявляем чрез сие кому о том ведать надлежит, что сего тысяча восемь сот двадцать осьмаго года Февраля десятаго дня, в Персидском селении Туркменчае между Нашим ИМПЕРАТОРСКИМ ВЕЛИЧЕСТВОМ и Его Владеющим Ш а х о в ы м Величеством Восточнаго предела Высокостольнейшаго места превысочайшия прехвальныя степени великодеръательную власть древнюю Великих Государей Персидских Царей приимшим, Магометанских. Государей честию превосходящих и многих Магометанских народов Повелителем, Персидския земли Начальником и добрым НАШИМ соседом, Великим Государем Фет-Али Шахом, чрез Уполномоченных с обеих сторон, а именно: с Нашей стороны чрез Сиятельнаго и Высокопревосходительнаго Графа Ивапа Паскевича-Эриванскаго, НАШЕГО Генерал-Адъютанта и Генерала от Инфантерии, Командующаго Отдельным Кавказским Корпусом, Главноуправляющаго Гражданскою частию в Грузии, Губернии Астраханской и Области Кавказской, Начальствующего Каспийскою Флотилею и Кавалера, и Превосходительнаго Александра Обрезкова, Нашего Действительнаго Статскаго Советника, Камергера и Кавалера; со стороны же Его Шахова Величества, чрез Его Высочество Принца Аббас-Мирзу, по силе данных им полных мочей, постановлен и заключен Трактат вечнаго мира, состоящий в шестнадцати статьях, которые от слова до слова гласят таго:

Во имя Бога Всемогущего

ЕГО ИМПЕРАТОРСКОЕ ВЕЛИЧЕСТВО, ВСЕПРЕСВЕТЛЕЙШИЙ, ДЕРЖАВНЕЙШИЙ, ВЕЛИКИЙ ГОСУДАРЬ ИМПЕРАТОР и САМОДЕРЖЕЦ ВСЕРОССИЙСКИЙ и Его Величество Падишах Персидский, равно движимые искренним желанием положить конец пагубным следствиям войны, совершенно противной их взаимным намерениям и постановить на твердом основании прежния сношения добраго соседства и дружбы между обоими Государствами постановлением мира, который бы в самом себе заключая ручательство своей прочности, отвращал на предбудущее время всякой повод к несогласиям и недоразумениям, назначили своими Уполномоченными для совершения сего спасительнаго дела: ЕГО ВЕЛИЧЕСТВО ИМПЕРАТОР ВСЕ РОССИЙСКИЙ Своего Генерал-Адъютанта, Генерала от Инфантерии, Командующего Отдельным Кавказским Корпусом, Главноуправляющаго Гражданскою частию в Грузии, Губернии Астраханской и Области Кавказской, Начальствующаго Каспийскою Флотилею, Кавалера орденов: Св. Александра Невскаго с алмазными украшениями. Св. Анны 1-й степени с алмазными украшениями, Св. Владимира 1-й степени, Св. Георгия 2-го класса, имеющаго две шпаги за отличие, из коих одна с надписью: “за храбрость”, а другая украшена алмазами и Кавалера иностранных орденов: Прусскаго Краснаго Орла 1й степени, ордена Л”-ны Высокой Порты Оттоманской и многих других, Ивана Паскевича. и Своего Действительная Статскаго Советника, Камергера и Какалера орденов: Св. Владимира 3-й степени, Польскаго Станислава 2-й степени и Св. Иоанна Иерусалимскаго, Александра Обрезкова; а Его Величество Шах Персидский, Его Высочества Принца Аббас-Мирзу Уполномоченные сии, съехавшись в селении Туркменчае и по размене данных им полномочий, кои найдены в надлежащем порядке, постановили и заключили нижеследующий статьи:

СТАТЬЯ I

Отныне на вечныя времена пребудет мир, дружба и совершенное согласие между ЕГО ВЕЛИЧЕСТВОМ ИМПЕРАТОРОМ Всероссийским и Его Величеством Шахом Персидским, их наследниками и преемниками Престолов, их Державами и обоюдными подданными.

СТАТЬЯ II

ЕГО ВЕЛИЧЕСТВО ИМПЕРАТОР Всероссийский и Его Величество Падишах Персидский, принимая в уважение, что с войною, между высокими договаривающимися сторонами возникшею и ныне счастливо прекращенною, кончились и взаимныя по силе Гюлистанскаго Трактата обязательства, признали нужным заменить означенный Гюлистанскнй Трактат настоящими условиями и постановлениями, дол-

женствующими устроить и утверждать более и более будущия мирныя и дружественный между Россиею и Персиею сношения.

СТАТЬЯ III

Его Величество Шах Персидский от своего имени, и от имени своих наследников, и преемников, уступает Российской Империи в совершенную собственность Ханство Эриванское по сию и по ту сторону Аракса, и Ханство Нахичеванское. В следствие сей уступки, Его Величество Шах обещает, не позже шести месяцев, считая от подписания настоящего договора, сдать Российским Начальствам все Архивы и публичные документы, относящиеся до управления обоими вышеозначенными Ханствами,

СТАТЬЯ IV

С согласия обеих высоких договаривающихся сторон постановляется границею между обоими Государствами следующая черта: начиная с той точки от границы Турецких владений, которая всех ближе в прямом направлении отстоит от вершины малаго Арарата, граничная черта пойдет до вершины сей горы; оттуда по покатости ея сойдет к верховью реки нижняго Карасу, вытекающей с южной стороны малаго Арарата; потом сия граничная черта продолжится по течению той реки до впадения оной в Араке против Шерура; от сего пункта она пойдет по руслу реки Аракса до крепости Аббас Абада; здесь около внешних укреплений сей крепости, находящихся на правом берегу Аракса, будет обведена окружность шириною в полагача, т. е.3 $^1/_2$ Российских версты во всех направлениях, и пространство земли, содержащееся в сей окружности сполна, будет принадлежать исключительно России, и иметь быть отрезано с величайшею точностию в течение двух месяцев, считая от сего числа. Начиная с того места, где означенная окружность с восточной стороны примкнется к берегу Аракса, пограничная черта пойдет паки по руслу сей реки до Едибулукскаго брода; оттуда Персидское владение будет простираться, по руслу реки Аракса на 3 агача, т. е. на 21 Российскую версту; потом граница пойдет прямо чрез Муганскую степь до реки Болгару к месту, лежащему 3-мя агачами, т. е. 21 верстою ниже соединения двух речек: Одинабазара и Саракамыши. Оттуда граница продолжится по левому берегу реки Болгару вверх до соединения помянутых речек Одинабазара и Саракамыши; потом по правому берегу восточной реки Одинабазара до ея верховья, а отсель до вершины Джикоирских высот, так, что все воды, текущия с сих высот к Каспийскому морю, будут принадлежать России, а все воды, изливающиеся на сторону Персии, будут принадлежать Персии. Поелику ж здесь граница между обоими Государствами определяется вершиною гор; то положено, что покатость их к морю Каспийскому должна принадлеъать России, а

противуположная покатость имеет принадлежность Персии. От вершины Джикоирских высот граница пролегает до вершины Камаркул по горам, отделяющим Талыш от округа Арши. Горные верхи, разделяющие течение вод на обе стороны, будут составлять здесь пограничную черту точно также, как выше было сказано и пространстве между верховьем Одинабазара и Джикоирскими вершинами. Далее пограничная черта, с непрерывным наблюдениям вышеизложенного правила относительно течения вод, будет следовать от Камаркулской вершины по хребту гор, разделяющих круг Зуванта и округ Арши, до границы округа Велькиджи. Таким образом, округ Зувант, за исключением части, лежащей на противной стороне от вершин помянутых гор, присоединится к России. От границы округа Велькиджи, пограничная меъду обоими Государствами черта, в постоянной сообразности с вышеозначенным правилом течения вод, будет следовать по вершинам Клопуты и по главной цепи гор, пролегающих по округу Велькидъи, до сеернаго истока реки Астары; оттуда по руслу сей реки, до впадения ея в Каспийское море, где и оканчивается пограничная черта, имеющая отделять Российския владения от Персидских.

СТАТЬЯ V

Его Величество Шах Персидский, в доказательство искренней своей дружбы к ЕГО ВЕЛИЧЕСТВУ ИМПЕРАТОРУ Всероссийскому, настоящею статьею как от своего имени, так и от имени своих наследников и преемников Персидскаго Престола, признает торжественно все земли и все острова, лежащие между пограничною чертою, вышеозначенною, и медду хребтом Кавказских гор и Каспийским морем, как равно и всех кочующих и других народов, в тех странах обитающих, принадлежащими на вечныя времена Российской Империи.

СТАТЬЯ VI

Его Величество Шах Персидский, в уважение значительных пожертвований, причиненных Российской Империи возникшею между обоими Государствами войною, а также потерь к убытков, потерпенных Российскими подданными, обязуется вознаградить оные денежным возмездием. Сумму сего вознаграждения обе высокий договаривающиеся стороны постановили в десять куруров томанов раидже, или двадцати миллионов рублей серебром; сроки ъе, образ платеъа и обеспечение онаго постановлены в особом договоре, который будет иметь такую ъе силу, как бы он был внесен в настоящий Трактат от слова до слова.

СТАТЬЯ VII

Как Его Величество Шах Персидский признал за благо назначить своим преемником и наследни-

ком Престола Августейшаго Сына своего Принца Аббас-Мирзу; то ЕГО ВЕЛИЧЕСТВО ИМПЕРАТОР Всероссийский, дабы всенародно доказать Его Величеству Шаху Персидскому Свое дружественное расположение и желание содействовать к утверждению сего наследственнаго порядка, обязуется признавать отныне в Августейшем лице Его Высочества Принца Аббас-Мирзы преемника и наследника Персидской Короны, а по вступлении его на Престол, почитать его законным Государем сей Державы.

СТАТЬЯ VIII

Российския купеческия суда, по прежнему обычаю, имеют право плавать свободно по Каспийскому морю и вдоль берегов онаго, как равно и приставать к ним; в случае кораблекрушения, имеет быть подаваема им в Персии всякая помощь. Таким же образом предоставляется и Персидским купеческим судам право плавать на прежнем положении по Каспийскому морю и приставать к берегам Российским, где взаимно, в случае кораблекрушения, имеет быть оказываемо им всякое пособие. Относительно ъе военных судов, как издревле одни военныя суда под Российским военным флагом могли иметь плавание на Каспийском море, то по сей причине предоставляется и подтверждается им и ныне прежние сие исключительные права, с тем, что кроме России, никакая другая Держава не может иметь на Каспийском море судов военных.

СТАТЬЯ IX

ЕГО ВЕЛИЧЕСТВО ИМПЕРАТОР Всероссийский и Его Величество Шах Персидский, желая всеми средствами утвердить союз мира и дружбы, столь счастливо между ими возобновленный, соизволяют, чтобы взаимные высоких Дворов Послы, Министры и поверенные в делах, отправляемые в то, или другое Государство, для исполнения временных поручений, или для постояннаго пребывания, были принимаемы с почестями и отличием, соотнесенными их званию, достоинству высоких договаривающихся сторон, искренней приязни их соединяющей и местным обычаям. На сей конец постановлен будет особым протоколом церемониал для наблюдения той и другой стороны.

СТАТЬЯ X

ЕГО ВЕЛИЧЕСТВО ИМПЕРАТОР Всероссийский, и Его Величество Шах Персидский, признавая восстановление и распространение торговых между обоими Государствами сношении, одним из главнейших благодетельных последствий восстановления мира, в полном взаимном согласии рассудили за благо устроить все распоряжении, относящиеся до покровительства торговли и безопасности обоюдных подданных, и изложить оныя в прилагательном у сего отдельном акте, который будучи заключен обоюдными Уполномоченными, есть и будет почитаем равносильною частию настоящего мирнаго договора. Его Величество Шах Персидский предоставляет России, как то было и прежде, право определять Консулов или торговых Агентов, повсюду, где польза торговли сего востребует и обязуется сим Консулам и Агентам, из которых каждый будет иметь в свите своей не более десяти человек, оказывать покровительство, дабы пользовались они почестями и преимуществами, публичному их званию присвоенными. ЕГО ВЕЛИЧЕСТВО ИМПЕРАТОР Всероссийский обещает с Своей стороны наблюдать совершенное взаимство в отношении Консулов или торговых Агентов Его Величество Шаха Персидскаго. В случае основательной жалобы Персидскаго Правительства на Российскаго Агента или Консула, Российский Министр или поверенный в делах при Дворе Его Величества Шаха, яко непосредственный Начальник их, имеет удалить виноватого от должности и временно поручить оную другому лицу, по своему усмотрению.

СТАТЬЯ XI

Все требования обоюдных подданных и другие дела, остановленный войною, будут возобновлены и решены сообразно справедливости после заключения мира. По долговым обязательствам обоюдных подданных между собою и на казне того или другаго Правительства, иметь последовать немедленное и полное удовлетворение.

СТАТЬЯ XII

Высокия договаривающияся стороны, для выгоды обоюдных подданных, постановили по общему их согласию: тем из них, которые имеют недвижимую собственность по обе стороны Аракса, предоставить в 3-х летний срок, в продолжении котораго они могут свободно продавать и обменивать оную; но ЕГО ВЕЛИЧЕСТВО ИМПЕРАТОР Всероссийский, поколику то до Него касается, изъемлет из сего снисходительнаго распоряжения Гусейн-Хана, бывшаго Эриванского Сардария, брата его Гассан-Хана и Керим-Хана, бывшаго Правителя Нахиченанскаго.

СТАТЬЯ XIII

Все военнопленные обеих сторон, взятые в продолжении последней войны, равно подданные обеих Правительств, взаимо впадшие когда-либо в плен, должны быть освобождены и возвращены в течении четырех месяцов; они имеют быть снабжены жизненными припасами и прочими потребностями и отправлены в Аббас-Абад для сдачи взаимным Комиссарам, кои назначатся для принятия их и распоряжения дальнейшая препровождения в места жительства. Высокия договаривающияся стороны будут таким же образом поступать со всеми военнопленными и всеми Российскими и Персидскими подданными, взаимно впадшими в плен, кои не будут возвращены в означенный срок по

отдаленности их нахождения, или по иной какой-либо причине, или обстоятельству. Обе Державы предоставляют себе точное и неограниченное право требовать таковых во всякое время, и обязуются возвращать их взаимно по мере того, как они будут оказываться, или когда поступят о них требования.

СТАТЬЯ XIV

Ни одна из высоких договаривающихся сторон не будет требовать выдачи переметчиков и дезертиров, перешедших в подданство другой до начатия последней войны, или во время оной. Для предупреждения же вредных последний, взаимно могущих произойти от умышленных сношений между некоторыми из сих переметчиков и их прежними соотечественниками или подвластными, Персидское Правительство обязуется, во владениях его, состоящих между Араксом и чертою, образуемою рекою Чара, озером Урмия, рекою Джакату и рекою Кизиль-Озаном, до впадения ея в море Каспийское, воспретить пребывание всем лицам, и кои ныне или в последствии будут поимянно Российским Правительством означены. ЕГО ВЕЛИЧЕСТВО ИМПЕРАТОР Всероссийский с Своей стороны обещает равномерно недозволять Персидским переметчикам селиться или проживать в Ханствах Карабагском и Нахичеванском и в части Ханства Эриванскаго, на правом берегу Аракса лежащей. Но само собою разумеется, что сие условие имеет и будет иметь силу только в отношении к лицам, носившим публичный звания или имеющим некоторое достоинство, каковы суть: Ханы, Беги и духовные Начальники или Моллы, кои личным примером, внушениями и тайными связями могут иметь вредное вляние на прежних своих соотчичей, бывших в их управлении, или им подвластных. Что касается вообще до жителей обоих государств, то высокия договаривающияся стороны постановили, что обоюдные подданные, кои перешли или впредь перейдут из однаго Государства в другое, могут селиться и жить всюду, где дезволит то Правительство, под коим они будут находиться.

СТАТЬЯ XV

Его Величество Шах, движимый благотворным и спасительным намерением возвратить спокойствие Державе своей и устранить от подданных своих все, что могло бы увеличить еще бедствия, навлеченныя на них войною, столь счастливо настоящим договором оконченною, дарует совершенное и полное прощение всем жителям и Чиновникам Области, именуемой Азербайджаном. Никто из них, к какому бы разряду ни принадлежал, не может подвергнуться преследованию, ниже оскорблению за мнения, поступки свои, или поведение в течении войны или в продолжении временнаго занятия помянутой Области российскими войсками. Сверх того будет предоставлен тем Чиновникам и жителям годичный срок, считая от сего числа, для свободнаго перехода с своими семействами из Персидских Областей в Российский, для вывоза и продажи движимаго имущества без всякаго со стороны Правительства и местных Начальств препятствия, и не подвергая продаваемый или вывозимый сими лицами имущества и вещи какой-либо пошлине или налогу. Относительно же имения недвижимаго, определяется пятилетний срок для продажи онаго, или учинения произвольных об оном распоряжений. Не распространяется однако же сие прощение на таких, кои до истечения помянутаго годичного срока впадут в какую-либо вину или преступление, подлежащее судебному наказанию.

СТАТЬЯ XVI

По подписании сего мирнаго договора, обоюдные Уполномоченные отправят без отлагательства во все места известия и надлежащий повеления, немедленном прекращении военных действий. Настоящий мирный договор, учиненный в двух одинаковаго содержания экземплярах, подписанный Уполномоченными обеих сторон, утвержденный печатьми гербов их, и взаимно ими размененный, имеет быть утвержден и ратификован ЕГО ВЕЛИЧЕСТВОМ ИМПЕРАТОРОМ всея России и Его Величеством Шахом Персидским, и торжественныя, за собственноручным Их подписанием, ратификации будут разменены обоюдными Уполномоченными в течении четырехмесячнаго срока, или скорее, буде возможно. Заключен в селении Туркменчае 10 Февраля в лето от Рождества Христова 1828.

В подлиннике подписано:
Иван Паскевич,
А. Обрезков.

Того ради НАШЕ ИМПЕРАТОРСКОЕ ВЕЛИЧЕСТВО, по довольном рассмотрении вышепрописаннаго Трактата, подтвердили и ратификовали оный, яко же сим за благо приемлем, подтверждаем и ратификуем во всем его содержании, обещал ИМПЕРАТОРСКИМ Нашим словом за Нас и Наследников Наших, что, все в оном Трактате постановленное наблюдаемо и исполняемо Н а м и будет ненарушимо. Во уверение чего Мы сию Нашу ратификацию подписав своеручно, повелели утвердить Государственною НАШЕЮ печатью. Дана в Санктпетербурге, лета от Рождества Христова тысяча восемь сот двадцать осмаго, Марта двадцатого дня, Государствования Нашего в третие лето.

Подлинная подписана собственною ЕГО ИМПЕРАТОРСКАГО ВЕЛИЧЕСТВА рукою тако:

НИКОЛАЙ

Контроспенировал Управляющий Министерством Иностранных Дел Граф Нессельрод.

ТЕЛЕГРАФНОЕ СОГЛАШЕНИЕ ЗАКЛЮЧЕННОЕ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ (Кавказ) И ПЕРСИДСКОЙ ИМПЕРИЕЙ

Нижеподписавшиеся Полномочные представители Азербайджанской Республики (Кавказ) и Императорского Правительства Персии, по взаимному соглашению, при условии ратификации приняли нижеследующее:

Статья 1.

Между Азербайджанском (Кавказ) и Персией устанавливаются телеграфные сношения, согласно положениям, настоящего Соглашения.

Статья 2.

Каждое лицо, живущее в стране из договаривающихся Сторон имеет право отправлять телеграммы с назначением заграницу, транзитном через территорию другой Стороны.

Статья 3.

Обе договаривающиеся Стороны обязуются охранять тайну телеграфной корреспонденции и пересылать ее как можно скорее.

Статья 4.

Каждая из Сторон имеет право конфисковать неофициальные телеграммы, которые противоречат добрым нравом, общественному спокойствию или законам, действующим в ее Стране.

Статья 5.

Каждая из Сторон имеет право на некоторый срок отказать в пересылке через свою территорию всей или части международной телеграфной корреспонденции, о чем заинтересованная Сторона должна быть оповещена заблаговременно.

Статья 6.

В отношении порядка передачи телеграмм, последние разделяются па 4 категории:

1) Правительственные телеграммы, посылаемые Министрами, Командующими морскими и сухопутными силами, Дипломатическими и Консульскими властями.

2) Служебные телеграммы, безвозмездно передаваемые взаимно обеими Сторонами.

3) Шифрованные телеграммы Правительств договаривающихся Сторон.

4) Частные телеграммы, отправляемые населением.

Статья 7.

За телеграммы передаваемые из страны одной из договаривающихся Сторон в другую, устанавливается нижеследующий тариф, поступающий в пользу каждой из двух Сторон:

а) обыкновенные телеграммы - 20 сантимов за слово (французской монетой).

б) обыкновенные телеграммы с проверкой - 40 сантимов за слово.

с) срочные телеграммы - 60 сантимов за слово.

д) срочные телеграммы с проверкой - 80 сантимов за слово.

е) в случае желания отправителя, иметь обратную расписку получателя телеграммы, за последнюю взыскивается плата, как за телеграмму в 10 слов.

Ф) за передачу копий взыскивается 60 сантимов с телеграммы размерам не более 50 слов; за каждое следующие 50 слов (или менее 50 слов) взыскивается дополнительно 50 сантимов. Отправитель телеграммы имеет право оплачивать ответ. В таком случае он должен указать число слов ответа. Депеши телеграфных Агентств передаются по тарифу, равному двум третям нормальной таксы.

За бумагу, на которой депеши передаются адресату, никакой платы не полагается.

Статья 8.

Международные телеграммы оплачиваются по установленному тарифу. При этом часть платы причитающейся по этой статье Азербайджану, устанавливаются в 15-сантимов за слово, при передаче по воздушному проводу, и в 30 сантимов, при передаче по подводному кабелю.

Статья 9.

Если телеграмма, посылаемая из местности, лежащей на территории одной из договаривающихся Стран в другую местность находящуюся на территории той же Страны, передается вследствие порчи проводов, по проводам принадлежащим другой стороне, то последняя не взыскивает никакой платы за транзит.

Статья 10.

Телеграммы, отправляемые ЕГО ВЕЛИЧЕСТВО ШАХОМ ПЕРСИДСКИМ с назначением в Азербайджан (Кавказ) и ЕГО ПРЕВОСХОДИТЕЛЬСТВОМ ПРЕЗИДЕНТОМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ, с назначением в Персию, оплачивается по тарифу в 10 сантимов за слово в пользу Страны, являющейся местом назначения телеграммы.

Статья 11.

Разница взысканной каждого из договаривающихся Сторон платы за передачу депеш, предназначенных другой стороне, делится на две равные части.

Статья 12.

Тариф установленный в статье 7, может быть увеличен или уменьшен, в соответствии с опытом, по взаимному соглашению договаривающихся Сторон.

Статья 13.

Все телеграммы должны быть написаны латинским шрифтом и на одном из следующих языков: Персидском, Тюркском, Английском, Французском, Немецком и Русском.

Статья 14.

Расчеты производятся ежемесячно и Сторона, являющаяся должником оплачивает свой долг франками.

Статья 15.

Провода и депеши проходят через Астару-Персидскую и Астару-Азербайджанскую.

Статья 16.

Франк и части франка, о которых упоминается в разных статьях настоящего Соглашения, исчисляются по курсу золотого франка.

Статья 17.

Настоящее Соглашение сохраняет силу в течении одного года. Если ни одна из договаривающихся Сторон не заявит противной Стороне, за три месяца до истечения срока, о своем намерении прекратить его действие, те таковое сохраняет силу еще на один год.

Статья 18.

Настоящее Соглашение вступает в силу через 15 дней после его подписания. Оно долъно быть ратификовано не позднее, чем в течении одного месяца со дня его подписания. Обмен ратификаций производится в Баку.

В удостоверении чего подлежащие Полномочные подписали настоящее Соглашение и приложили к нему свои печати.

Учинено на французском языке в двух экземплярах тысяча девятьсот двадцатого года (двадцать восьмого Джамади-эс-Сани тысяча триста тридцать восьмого года).

/печать Азербайджана/

За Азербайджанскую Республику:
ФАТАЛИ-ХАН-ХОЙСКИЙ.
ХАЛИЛ-БЕК-ХАСМАМЕДОВ.
ХУДАДАД-БЕК МЕЛИК-АСЛАНОВ

/печать Персии/

За Персидскую Империю:
С.ЗИЯ-ЭД-ДИН ТАБАТАБАИ

СОГЛАШЕНИЕ ОБ ОБМЕНЕ ПОЧТОВЫМИ ПОСЫЛКАМИ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ПЕРСИДСКОЙ ИМПЕРИЕЙ

Нижеподписавшиеся Полномочные Представители Правительства Азербайджанской Республики /Кавказ/ и Персидский Империи с общего одобрения под условием ратификации, согласились о нижеследующем:

Статья 1.

Могут быть отправляемы под названием почтовых посылок из Персии в Азербайджан /Кавказ/ и обратило, а также из Персии в другие страны транзитом через Азербайджан и обратно посылки с обозначением цены или без обозначения таковой. Посылки первой категории называются в настоящем Соглашении "посылками взаимного обмена", посылки второй категории - "посылками международного обмена".

Статья 2.

Предельный вес для посылок взаимного обмена устанавливается в 15 килограммов, а для посылок международного обмена в 5 килограммов.

Статья 3.

Объявленная цена посылок взаимного обмена не может превышать одну тысячу франков; цена же посылок международного назначения не должна превышать пятисот франков.

Статья 4.

Расходы по перевозке посылок международного назначения, которые причитаются почтовому ведомству Азербайджанской Республики /Кавказ/, определяются в 1 франк 25 сантимов за каждую посылку и за страховку - по 50 сантимов с каждых 300 франков объявленной цены. За посылки, отправляемые из Персии и предназначенные в другие страны, Управление Персидских Почт уплачивает эти издержки непосредственно Управлению Азербайджанских Почт. Что же касается издержек по пересылке и страховке, причитающихся Управлению Азербайджанских Почт, за посылку, отправляемые из-за границы и предназначенные для Персии, то Персидское Управление обязуется принять необходимые меры к тому, чтобы означенные издержки возмещались регулярно. Персидское Управление является ответственным за указанные платежи.

В случае если означенные издержки не будут получены Управлением Азербайджанских Почт в шестимесячный срок, считая со дня установления и отправки общего расчета Персидскому Управлению то последнее обязано оплатить их немедленно.

Статья 5.

Вопрос о взимании сбора за переписку, страховых пошлин и пр. о посылок взаимного обмена, регулируется следующим образом: издержки за переписку, страховку и проч. Означенных посылок взыскиваются с отправителей, согласно тарифу и почтовым правилам в пользу почтового учреждения, через которое отправляется посылка, за расстояние от учреждения места отправления до учреждения, где производится обмен, в Стране места назначения. Расходы по переписке, страховке, возможные пошлины по доставке и проч. Причитающиеся за расстояние от границы до почтового учреждения на месте назначения, взыскиваются с получателей в пользу Страны, куда адресована посылка, и согласно тарифу в Правилам там установленным.

Каждая из двух Сторон представляет другой Стороне один экземпляр существующих тарифов и обязуется равным образом, извещать об изменениях, которые могут последовать в дальнейшем.

Статья 6.

Посылки взаимного обмена, цена которых объявлена в Стране, откуда они следуют, обязательно подлежат страховке в Стране, куда они назначаются /пошлины за страховку относятся на счет получателей, см.ст.5/.

Статья 7.

Отправитель почтовой посылки может получать обратную расписку о получении таковой, уплачивая же это вперед пошлину, определяемую в 25 сантимов. Эта пошлина полностью поступает в пользу управления Страны, откуда отправляется посылка.

Статья 8.

Передача посылок с наложенным платежом не допускается в сношениях, устанавливаемых между обеими Сторонами.

Статья 9.

Управлении Почт обеих договаривающихся Сторон обязуются войти в сношения с Управлениями подлежащих таможен о том, чтобы таможенные пошлины с почтовых посылок, возвращаемых обратно на месте отправления, были аннулированы.

Статья 10.

Управления Почт обеих Сторон извещают друг друга о том, какие предметы воспрещены к ввозу в их Страну, а также о том, как будет поступлено с предметами допущенными к отправлению по ошибке. С такими посылками будет поступлено согласно нормам внутреннего законодательства Страны, куда назначается посылка.

Статья 11.

Ответственность Управления Почт Страны, на территории которой или на службе которой имели место потеря, хищение или порча посылки, устанавливается следующим образом:

а) В случае потери, хищения или повреждения посылки международного обмена, за обыкновенную посылку уплачивается вознаграждение в 25 франков, за посылку же с объявленной стоимостью уплачивается в размерах этой стоимости.

в) В случае потери, хищения или повреждения посылки взаимного обмена за обыкновенную посылку уплачивается вознаграждение в размере 5 франков за килограмм, а за посылки с объявленной стоимостью - сумма этой стоимости.

Статья 12.

Франк или части франка, о которых упоминается в различных статьях настоящего Соглашения /объявление цены, издержки по пересылке, страховые пошлины, убытки и т.п./ исчисляются по курсу золотого франка.

Статья 13.

Отправители посылок, не доставленных своевременно, запрашиваются через посредство учреждения, отправляющего посылки, о том, как должно быть поступлено с таковыми. Если в течении трехмесячного срока со дня отправления извещения, учреждение которому адресована посылка, не получило достаточных указаний посылка возвращается в учреждение, откуда она была отправлена.

Статья 14.

Каждая посылка, как международного, так и взаимного обмена должна быть сопровождаемого ведомость об отправлении и о таможенной оплате. Оба управления уведомляют друг друга при каждом отправлении с число подлежащих таможенной оплате отправлений.

Отправительные ведомости, сопровождающие посылки с объявленной стоимостью, должны иметь для каждой посылки оттиск печати, которою была опечатана посылка, а также указание объявленной цены посылки.

Статья 15.

Обмен посылок между учреждениями обмена обеих Сторон производится в открытом виде и следующим образом:

Посылки, поступающие из Европейских Стран и Азербайджана /Кавказ/ сдаются Персидским Почтовым Агентам в Астаре и Энзели; посылки, поступающие из Персии и предназначенные для Европейских Стран или Азербайджана сдаются в почтовые учреждения Баку и Астары Азербайджанской Республики. Управления Почт обеих Сторон извещают друг друга о местностях, которые долъны быть обслуживаемы каждым из учреждений обмена.

Статья 16.

Почтовые посылки записываются учреждением обмена, отправляющим их по форме маршрутных листов в двух экземплярах со всеми подробностями, которые эта форма заключает.

Статья 17.

Ведомости об издержках по перевозке и с страховых пошлинах на посылки международного обмена (ведомости формы К. и Л.) составляются ежемесячно согласно положениям Римской Конвенции, касательно обмена почтовыми посылками (ст.XVIII исполнительного устава). Ежемесячные счета сводятся в полугодичный общий счет средствами учреждения, предъявляющего счет.

Статья 18.

Настоящее соглашение сохраняет силу в течении одного года. Если ни одна из договаривающихся Сторон не заявит другой Стороне за три месяца до истечения этого срока о своем намерении прекратить его действие, то оно сохраняет силу еще на один год.

Статья 19.

Настоящее Соглашение вступает в действие чрез 15 дней со дня его подписания. Оно будет ратифицировано не позднее одного месяца и акты его ратификации будут обменены в Баку.

В удостоверение чего подлежащие Полномочные подписали настоящее Соглашение и скрепили его своими печатями.

Учинено на французском языке в двух экземплярах в г.Баку двадцатого Марта тысяча девятьсот двадцатого года (двадцать восьмого Джамади-эс-Сани тысяча триста тридцать восьмого года).

Подписали: За Азербайджанскую Республику:

/печать Азербайджана/

ФАТАЛИ-ХАН-ХОЙСКИЙ.
ХАЛИЛ-БЕК-ХАСМАМЕДОВ.
ХУДАДАД-БЕК МЕЛИК-АСЛАНОВ

/печать Персии/

За Персидскую Империю:
С.ЗИЯ-ЭД-ДИН ТАБАТАБАИ

С подлинным верно:

За Секретаря /подпись/

ГААР, ф.970, оп.1 с, д.101, л.65,66,67.

ПОЧТОВОЕ СОГЛАШЕНИЕ, ЗАКЛЮЧЕННОЕ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ (КАВКАЗ) И ПЕРСИДСКОЙ ИМПЕРИЕЙ

Нижеподписавшиеся Полномочные представители Азербайджанской Республики (Кавказ) и Императорского Правительства Персии, по взаимному соглашению, при условии ратификации приняли нижеследующее:

Статья 1.

Между Азербайджаном и Персией устанавливаются прямые почтовые сношения согласно положениям настоящего Соглашения. Сверх того свобода транзита корреспонденции гарантируется на территории каждой из договаривающихся Сторон и в соответствии с этим, каждая из Сторон может отправлять и получать при посредстве другой Стороны, как закрытые письма, так и открытые почтовые отправления, имеющие местом назначения или отправления другие страны.

Статья 2.

Пунктами обмена корреспонденции служат в Персии: Астара, Энзели, Мешдиссер и Бендергяз, а в Азербайджане: Астара (Азербайджанская) и Баку.

Почтовые сношения между Баку с одной стороны и Мешедиссер и Бендергяз с другой, остаются временно приставленными, впредь до момента, когда обе Стороны войдут в соглашение об их возобновлении.

Статья 3.

Почта должна быть перевозима в равном числе, средствами и за счет страны, отправляющей корреспонденцию до пункт обмена в стране, для которой корреспонденция предназначена. Обе договаривающиеся Стороны могут в случае взаимного соглашения, поручить перевозку почты между двумя пунктами обмена частному лицу или Обществу: в этом случае расходы будут нестись сторонами обеими в равных частях.

Статья 4.

Обмен закрытым писем и заказной корреспонденции производится в пунктах обмена, согласно представляемым спискам и под расписку Начальников пунктов.

Статья 5.

За пересылку почтовых отправлений в договаривающиеся Страны устанавливается следующий тариф:

1. За письма в 25 сантимов (французская монета) за каждые 15 граммов или части 15-ти граммов.

2. За открытые письма в 10 сантимов с каждого.

3. С печатных изданий всякого рода, деловых бумаг и образцов товаров в 5 сантимов за каждые 50 гр. Или части 50 граммов. Плата за пе-

ресылку деловых бумаг не может быть менее 25 сантимов за каждое отправление, а за пересылку образцов товаров не менее 10 сантимов за каждое отправление. В случае неоплаты или неполной оплаты, почтовые отправления подвергаются за счет адресатов взысканию в двойном размере суммы неоплаченной или недостаточно оплаченной.

Предметы перечисленных выше почтовых отправлений могут быть пересылаемы заказной корреспонденцией. За каждое заказное отправление устанавливается плата в 25 сантимов, включая сюда плату за выдачу квитанций отправителю. Такса за извещение о получении устанавливается также в 25 сантимов. Перевод таксы на персидскую валюту устанавливается по следующему расчету: 25 сантимов - 12 шай, 1- сантимов - 5 шай, 5 сантимов - 3 шая, а на Азербайджанскую валюту: 25 сантимов - 20 рублей, 10 сантимов - 8 рублей, 5 сантимов - 4 рубля.

В случае существенного изменения денежного курса каждой из договаривающихся Сторон, вышеприведенные эквиваленты могут также подвергаться изменениям.

Каждой Стороне предоставляется извещать другую о сказанных изменениях за месяц вперед.

Статья 6.

Общие условия, применяемые к почтовым отправлением, как-то: проделы веса и размеров отправления устанавливаются согласно статье 5 главной Римской Конвенции. В случае потери заказного отправления, отправитель имеет право на возмещение убытков в размере 50 франков. Эти убытки оплачиваются Страной, на территории которой имела место потеря корреспонденции.

Ни одна из двух договаривающихся Сторон не должна платить другой за пересылку и раздачу корреспонденции, непосредственно обменяемых между ними и доходы с почтовой оплаты названных корреспонденций поступают в пользу Страны их взыскивающей.

Статья 7.

Плата за закрытую и открытую корреспонденцию, обмен которой производится между одной из двух договаривающихся Сторон и иностранными странами, проходящую через территорию той или другой страны, взимаются в пользу страны, через которую проходит корреспонденция, в соответствии с положением статьи 4 главной Римской Конвенции, каждая из договаривающихся Сторон ответственна возместить расходы по перевозке корреспонденции, ей предназначенной и идущей из иностранных государств через территорию другой Стороны. Названные расходы выплачиваются ежегодно.

Статья 8.

Печатные издания, обращение которых запрещено на территории каждой из договаривающихся Сторон, не могут быть пересылаемы. Каждая из Сторон доставляет по

этому вопросу необходимые указания другой Стороне.

Статья 9.

Франк или части франка, о которых упоминается в различных статьях настоящего Соглашения (возмещение убытков, расходы на транзит и проч.) исчисляются по курсу золотого франка.

Статья 10.

Настоящее Соглашение сохраняет силу в течении одного года. Если ни одна из договаривающихся Сторон не известит другую Сторону за три месяца до истечения срока о своем намерении прекратить действие сего Соглашения, те таковое сохраняет силу еще на один год.

Статья 11.

Настоящее Соглашение приводится в действие 15 дней спустя после его подписания. Оно должно быть ратифицировано не позднее одного месяца, считая со дня его подписания. Обмен ратификаций производится в Баку.

В виду чего Полномочные Представители подлежащих Сторон подписали настоящее Соглашение, скрепив его своими печатями.

Учинено на французском языке в двух экземплярах в Баку двадцатого Марта тысяча девятьсот двадцатого года /двадцать восьмого Джмади-эс-Сани тысяча триста тридцать восьмого года/.

Подписали:

За Азербайджанскую Республику:

/печать Азербайджана/

ФАТАЛИ-ХАН-ХОЙСКИЙ.
ХАЛИЛ-БЕК-ХАСМАМЕДОВ.
ХУДАДАД-БЕК МЕЛИК-АСЛАНОВ

/печать Персии/

За Персидскую Империю:
С.ЗИЯ-ЭД-ДИН ТАБАТАБАИ

С подлинным верно:

Секретарь /подпись/

ГААР, ф.970, оп.1 с, д.101, л.56,57,58,59,60

ТОРГОВО-ТАМОЖЕННАЯ КОНВЕНЦИЯ, ЗАКЛЮЧЕННАЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ (КАВКАЗ) И ИМПЕРАТОРСКИМ ПРАВИТЕЛЬСТВОМ ПЕРСИИ

Правительство Азербайджанской Республики (Кавказ) с одной стороны и Императорское Персидское Правительство с другой, желая удалить всякое препятствие для торговли, решили заключить настоящую Конвенцию и назначили для сего Полномочными:

ПРАВИТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ /КАВКАЗ/ Его Превосходительство Министра Иностранных Дел

ФАТАЛИ ХАНА ХОЙСКОГО.

Его Превосходительства Министра Юстиции

ХАЛИЛ БЕКА ХАСМАМЕДОВА

Его Превосходительство Министра Путей Сообщения

ХУДАДАД БЕКА МЕЛИК-АСЛАНОВА

ИМПЕРАТОРСКОЕ ПЕРСИДСКОЕ ПРАВИТЕЛЬСТВО

Чрезвычайного Посланника, Главу Миссии Императорского Персидского Правительства на Кавказе.

Его Превосходительство **АГА СЕИДА ЗИА-ЭД-ДИНА ТАБАТАБАИ**, каковые по взаимном сообщении своих полномочий, поданных в надлежащей и законной форме, приняли нижеследующие постановления:

Статья 1.

Выходцы каждой из двух договаривающихся Сторон, водворившиеся на территории другой Стороны или проживающие там временно, пользуются в отношении производства, торговли, промышленности и мореплавания теми же правами, привилегиями, преимуществами, льготами и изъятиями, как выходцы страны наиболее благоприятствуемой.

Разумеется, однако, что предыдущие постановления не меняют ни в чем законы, указы и специальные уставы касательно торговли, промышленности и полиции, которые в силе или будут в силе в каждой из двух договаривающихся сторон и применяемых ко всем иностранцам.

Статья 2.

Прямые и косвенные налоги взимаемые одною из двух договаривающихся Сторон с поданных другой, не могут быть более высокими, чем те, которые установлены для собственных поданных.

Статья 3.

Выходцы каждой из двух договаривающихся Сторон имеют на территории другой право приобретения и владения всякого рода движимой и недвижимой собственностью, каковое право законы страны представляют или предоставляют выходцам всякой другой иностранной нации приобретать и владеть. Они могут располагать этой собственностью посредством продажи, обмена, дарения, вступления в брак, завещания или иным способом, а также приобретать собственность наследованием а тех же условиях, которые установлены или будут установлены в отношении любой другой иностранной нации, не подвергаясь ни в одном из упомянутых случаев налогам, податям или повинностям под каким бы те не было наименованием, иным чем ее, которые установлены или будут установлены в отношении собственных подданных.

Они могут также, согласуясь с законами страны, вывозить свободные выпуску от продажи их собственности и их имущества вообще, не подвергаясь, как иностранцы, пошлинам или иным более высоким чем те, которые обязаны уплатить собственные подданные в подобном случае.

Они имеют право, согласуясь с законами страны, выступать перед судебными установлениями, как в качестве истцов, так и ответчиков и в этом отношении они пользуются всеми правами и преимуществами собственных подданных и, как те, они могут пользоваться во всех делах услугами адвокатов, поверенных и посредников всех родов уполномоченных законами страны.

Статья 4.

Выходцы каждой из двух договаривающихся Сторон избавляются на территории другой от всякой воинской обязательной публичной функции: судебной, административной или муниципальной, исключая опеки от всякой личной повинности в армии, флоте, запасе армии и флота и национальной милиции.

Статья 5.

Акционерные Общества (анонимные) и другие ассоциации коммерческие, промышленные и финансовые, с местожительством в одной из двух сторон, и при условии их оснований там в порядке, согласно с действующими законами, признаются имеющими легальное существование в другой стране: они имеют право выступать перед судебными установлениями, как в качестве исцов, так и ответчиков.

Разумеется, однако, что предшествующее постановление вовсе не касается вопроса о том, будет ли подобное, основавшееся в одной из двух стран обществе, допущено или нет в другую страну для производства там торговли или промышленности; допущение это остается всегда в зависимости от предписаний, которые существуют или будут существовать в этом отношении в этой последней стране.

Статья 6.

Обе договаривающиеся Стороны обязуются не препятствовать взаимной торговле между обеими Странами никакими запретами ввозными или вывозными, за исключением тех, которые делаются по соображениям высокой важности.

Статья 7.

Договаривающиеся Стороны обязуются допустить свободный транзит. Однако, ввиду незначительно железнодорожного транспортного тарифа Азербайджана /Кавказ/ и убытков, которые последствие этого применяет администрация железных дорог этой страны, обе договаривающиеся Стороны допускают, согласно приложению к настоящей Конвенции и без того, чтобы сие повлияло на принцип свободного транзита, особый тариф на товары, проходящие транзитом по Азербайджану /Кавказ/.

Статья 8.

Произведения почвы и промышленности Персии, которые будут привезены в Азербайджан /Кавказ/ и произведения почвы и промышленности Азербайджана /Кавказ/ которые будут ввезены в Персию, предназначенные либо для потребления, либо для складывания, либо для дальнейшего вывоза или транзита, подлежат такому же обхождению и не подвергаются пошлинам более высоким или, чем произведения других наций.

Статья 9.

Товары всех видов, провозимые через территорию одной из двух Сторон торговым путем, открытым для транзита, взаимно освобождаются от всякой транзитной пошлины, будут ли они проводиться прямо или во время транзита они будут выгружены, сложены и перегружены.

Статья 10.

Азербайджанская Республика /Кавказ/ обязуется не задерживать ни под каким видом, прохождение транзитных товаров и провозить их через свою территорию как можно скорее. И во всяком случае, не позже чем местные произведения, провозимые внутри страны.

Статья 11.

Обе договаривающиеся Стороны признают основой постановлений настоящей Конвенции, касающихся таможенных вопросов, в ожидании введения в действие нового тарифа. Декларацию от Октября 1901 года, ратификации которой были обменены между Персидской Империей и Россией 13 Декабря 1902 года, обязуясь в то же время допустить те легальные изменения, которые были в нее внесены по сей день

Статья 12.

Обе договаривающиеся Стороны допускают применение правил, изданных таможенными управлениями обеих сторон относительно, взимания таможенных пошлин и

наложения взысканий в случае обманов и проступков.

Статья 13.

Обе договаривающиеся Стороны обязуются не обременять ни под каким предлогом товары, прибывающие из обеих стран или для них предназначенных, обложениями более высокими или иными, чем те которые предвидены легальные действующими таможенными правилами.

Статья 14.

Если одна из двух договаривающихся Сторон решает пересмотреть свой таможенный тариф, другая Сторона обязуется признать новый тариф, когда он будет применяться к товарам, прибывающим из других стран.

Статья 15.

Обе договаривающиеся Стороны обязуются оказывать взаимную помощь и содействие для искоренения контрабанды при входе на их территории и выходе из нее.

Для сего они соглашаются обусловить допущение ввоза товаров, прибывающих из одной иди другой из обеих стран, в сопровождении документа, исходящего из таможни того места, через территорию которых был совершен вывоз. Форма сего документа и условия для которых он может быть выдаваем, будут предметом прямого соглашения между Таможенными Управлениями обоих стран. Эти управления обязаны сообщать взаимно каждый месяц список ввозов и вызовов, регулярно подвергаемых таможенным формальностям в указанных таможенных бюро обеих стран и сговариваются на счет новых мер, которые представляются необходимыми применять с общего согласия, в целях уменьшения и искоренения обманов и всякого рода обманных действий, направленных к лишению казны одной или другой из обеих Стран части своих доходов.

Статья 16.

Настоящая Конвенция остается в силе в течение одного года и ни одна из договаривающихся Сторон не заявит другой за три месяца до истечения срока, о намерении прекратить ее действие, она останется в силе еще на один год, считая со дня, когда та или другая из договаривающихся Сторон пожелает отменить ее.

Статья 17.

Настоящая Конвенция вводится в исполнение пятнадцать дней спустя после ее подписания.

Она будет ратификована в месячный срок, считая со дня ее подписания и ратификации будут обменены в Баку.

В удостоверение чего подлежащие полномочные подписали настоящую Конвенцию и снабдили ее своими печатями.

Учинено на французском языке в двух экземплярах в Баку двадцатого Марта тысяча девятьсот двадцатого года /двадцать восьмого

Джамади-эс-сани тысячи триста тридцать восьмого года/.

Подписали:
За Азербайджанскую Республику:

/печать Азербайджана/

ФАТАЛИ-ХАН-ХОЙСКИЙ.
ХАЛИЛ-БЕК-ХАСМАМЕДОВ.
ХУДАДАД-БЕК МЕЛИК-АСЛАНОВ

/печать Персии/

За Персидскую Империю:
С.ЗИЯ-ЭД-ДИН ТАБАТАБАИ

С подлинным верно:
Секретарь /подпись/
ГААР, ф.970, оп.1 с, д.101, л.31,32,33,34.

ДОГОВОР О ДРУЖБЕ, ЗАКЛЮЧЕННЫЙ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ (КАВКАЗ) И ПЕРСИДСКОЙ ИМПЕРИЕЙ

Правительство Азербайджанской Республики (Кавказ) с одной стороны и Императорское Персидское Правительство с другой, желая удалить всякое препятствие для торговли, решили заключить настоящую Конвенцию и назначили для сего Полномочными:

ПРАВИТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ /КАВКАЗ/ Его Превосходительство Министра Иностранных Дел
ФАТАЛИ ХАНА ХОЙСКОГО.

Его Превосходительства Министра Юстиции
ХАЛИЛ БЕКА ХАСМАМЕДОВА

Его Превосходительство Министра Путей Сообщения
ХУДАДАД БЕКА МЕЛИК-АСЛАНОВА

ИМПЕРАТОРСКОЕ ПЕРСИДСКОЕ ПРАВИТЕЛЬСТВО

Чрезвычайного Посланника, Главу Миссии Императорского Персидского Правительства на Кавказе.
Его Превосходительство **АГА СЕИДА ЗИА-ЭД-ДИНА ТАБАТАБАЙ**, каковые по взаимном сообщении своих полномочий, поданных в надлежащей и законной форме, приняли нижеследующие постановления:

Статья 1.
Императорское Персидское Правительство торжественно объявляет о своем признании независимости Азербайджанской Республики /Кавказ/.

Статья 2.
Обе договаривающиеся стороны, желая создать устойчивые дружеские отношения и установить экономическую связь между обеими странами, заключают Конвенции Торгово-таможенную Консульскую, Почтовую, Телеграфную и т.д. с целью наметить этими Конвенциями отношения и права представителей и выходцев их Стран.

Статья 3.
В качестве постоянных Полномочных Представителей обеих договаривающихся сторон для всех международно-правовых отношений аккредитуются Правительством Азербайджанской Республики /Кавказ/ при Императорском Персидском Правительстве в Тегеране и Императорским Персидским Правительством при Правительстве Азербайджанской Республики /Кавказ/

в Баку дипломатические представители, которые пользуются в местах их пребывания всеми правами и привилегиями, предоставляемыми согласно правилам Международного права.

Статья 4.

Настоящий Договор подписывается в двух экземплярах на французском языке и подлежит ратификации в месячный срок со дня его подписания; акты ратификации будут обменены в Баку.

В удостоверение чего подлежащие Полномочные подписали настоящий Договор и приложили к нему свои печати.

Учинено на французском языке в двух экземплярах в Баку двадцатого марта тысяча девятьсот двадцатого года /двадцать восьмого Джамади-эс-Сани тысяча триста триддать восьмого года/.

Подписали:

За Азербайджанскую Республику:

/печать Азербайджана/

ФАТАЛИ-ХАН-ХОЙСКИЙ.
ХАЛИЛ-БЕК-ХАСМАМЕДОВ.
ХУДАДАД-БЕК МЕЛИК-АСЛАНОВ

/печать Персии/

За Персидскую Империю:
С.ЗИЯ-ЭД-ДИН ТАБАТАБАИ
С подлинным верно:
Делопроизводитель /подпись/
(ГААР, ф.2598, оп.1 с, д.25, л.60.)

ТАЙНОЕ СОГЛАШЕНИЕ, ЗАКЛЮЧЕННОЕ МЕЖДУ ПРАВИТЕЛЬСТВОМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (КАВКАЗ) И ИМПЕРАТОРСКИМ ПЕРСИДСКИМ ПРАВИТЕЛЬСТВОМ

Между Правительством Азербайджанской Республики /Кавказ/ представленным.....

Его Превосходительством Фатали Ханом Хойским, Министром Иностранных Дел.....

Его Превосходительством Халил Беком Хасмамедовым Министром Юстиции.....

Его Превосходительством Худади Беком Мелик Аслановым, Министром Путей Сообщения с одной стороны и Императорским Персидским Правительством, представленным.....

Его Превосходительством Ага Сеид Зиа-эд-Дином Табатабаи, Чрезвычайным Посланником и Главой Миссии Императорского Персидского Правительства на Кавказе, с другой, достигнуто соглашение в следующем:

Статья единая.

Императорское Персидское Правительство обязуется не увеличивать в течении года, считая с даты настоящего соглашения, ввозные пошлины, установленные согласно тарифу "О" предусмотренном Таможенной Декларацией 27 Октября 1901 года на продовольственные продукты, вывозимые из Персии в Азербайджан /Кавказ/ и предназначенные для его потребления оставляя за собой право увеличивать ввозные пошлины на товары привозимые из этой Страны в Персию, при условии, однако чтобы это увеличение не облегчило конкуренцию с продуктами прибывающими из Азербайджана /Кавказ/ и не сократило их потребления.

Учинено на французском в двух списках в Баку, двадцатого Марта тысяча девятьсот двадцатого года /двадцать восьмого Джамади-эс-Сани тысяча триста тридцать восьмого года/.

Подписали:

За Азербайджанскую Республику:

/печать Азербайджана/
Фатали-хан-Хойский.
Халил-бек-Хасмамедов.
Худадад-бек Мелик-Асланов

/печать Персии/
За Персидскую Империю:
С.Зия-эд-дин Табатабаи
С подлинным верно:

Секретарь /подпись/
(ГААР, ф.970, оп.1 с, д.101, л.30.)

AZƏRBAYCAN RESPUBLİKASININ NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA MÜXTƏLİF SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Heydər Əliyev başda olmaqla yüksək nümayəndə heyəti İran İslam Respublikası Xarici İşlər Naziri cənab Əli Əkbər Vilayətinin rəsmi dəvəti ilə Hicri şəmsi tarixi ilə 31.5.1371-3.6.1371-ci il, miladi tarixi ilə 22.8.1992-25.8.1992-ci il tarixdə İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər zamanı İran İslam Respublikasının Prezidenti cənab Haşimi Rəfsəncani cənab Heydər Əliyevi qəbul etmişdir. Bundan əlavə cənab Heydər Əliyev İran İslam Respublikası Məclisinin Sədri cənab Natiq Nuri, Xarici İşlər Naziri cənab Əli Əkbər Vilayəti ilə iki dəfə və həmçinin yol və nəqliyyat naziri cənab Səidi Kiya, kooperasiya naziri cənab Şafeyi, energetika naziri Zəngəne, rabitə naziri cənab Qərrazi, neft və qaz naziri Ağazadə, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust, "Hilal Əhmər" cəmiyyətinin sədri cənab Vahid Dəstgerdi ilə danışıqlar aparmışdır.

Qarşılıqlı siyasi, iqtisadi, ticarət və mədəni əlaqələri genişləndirmək, Naxçıvan Muxtar Respublikasını böhran vəziyyətindən çıxarmaq və Naxçıvan əhalisinə kömək göstərmək məqsədi ilə aşağıdakılar üzrə razılıq əldə edilmişdir:

1. Naxçıvan Muxtar Respublikasının azad iqtisadi zona elan edilməsi nəzərə alınaraq İran İslam Respublikasında və Naxçıvan Muxtar Respublikasında hər iki tərəfin ticarət nümayəndələrinin şirkətləri və birgə müəssisələrinin açılmasına razılıq verilir. İran banklarında Naxçıvan şirkətlərinin və Naxçıvan banklarında İran şirkətlərinin hesablarının açılmasına təminat verilir.

2. Naxçıvan şəhərində İran İslam Respublikasının Baş konsulluğunun açılması tezləşdirilsin. Bu məqsədlə Naxçıvan şəhərində Baş konsulluq üçün müvafiq bina ayrılsın.

3. İki tərəfdən də şirkətlər arasında ticarət əlaqələrinin daha da genişləndirilməsinə, ticarət qaydalarının yüngülləşməsinə, gömrük siyasətinin liberallaşdırılmasına və sadələşməsinə, mal mübadiləsinin intensiv inkişafına, qadağanların aradan qaldırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi təmin edilsin.

4. İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mədəniyyət, elm, təhsil, incəsənət, nəşriyyat, turizm və idman sahələrində əlaqələrin genişlənməsi daim diqqət mərkəzində saxlanılır. Hər iki tərəfin ayrı-ayrı nazirlik, baş idarə, müəssisə və təşkilatları arasında qeyd edilən sahələrdə əməkdaşlıq müqavilələri bağlanmasına şərait yaradılır.

5. Tərəflər razılığa gəlmişlər ki, İran İslam Respublikası gənclərinin Naxçıvan ali və orta ixtisas məktəblərində, Naxçıvan gənclərinin isə İran İslam Respublikasının ali və orta ixtisas məktəblərində təhsil almaları üçün şərait yaradılır.

6. İran İslam Respublikası vətəndaşlarının Naxçıvan televiziyasına, eləcə də Naxçıvan əhalisinin İran televiziyasının ayrı-ayrı proqramlarına baxmaları üçün lazımi tədbirlər həyata keçirilir. Naxçıvan televiziyası və İran İslam Respublikasının "Seda və Sima" televiziya şirkəti arasında əməkdaşlıq protokolu imzalansın.

7. Naxçıvan Muxtar Respublikası ilə "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu arasında bu protokolun tərkib hissəsi olmaqla iqtisadi və ticarət əlaqələrinin yaradılmasına dair protokol imzalanmışdır.

8. Naxçıvan Muxtar Respublikasının çətinliyi nəzərə alınsın, Araz su qovşağı rayonunda tikilən xətt vasitəsilə oktyabr ayından etibarən Naxçıvana 200 milyon kvt/saat (3-40 meqavatt) enerji verilsin. Verilən enerjinin əvəzi Parsabat və ya Astara rayonları ərazisində Azərbaycan Respublikasından alınsın.

9. Naxçıvan, muxtar respublikaya kömək göstərmək məqsədilə İran İslam Respublikasından öz ərazisində Ordubad-Mincivan dəmir yolu xəttinin tikilməsini xahiş etmişdir. Həmin xahişə cavab olaraq İran tərəfi bildirir ki, hal-hazırda göstərilən xəttin texniki cəhətdən öyrənilməsinə başlanılmış və bu iş davam etdirilir. Qısa müddətdə bu işin qurtarması üçün lazımi tədbirlər həyata keçirilsin.

10. İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında yük və sərnişin daşınmasını genişləndirmək, vətəndaşların keçidi üçün yeni qapı açmaq üçün Qərbi Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərində müvəqqəti körpünün tikintisi qısa müddətdə başa çatdırılsın və əsas körpünün texniki axtarışı işləri sürətləndirilsin.

11. Naxçıvan dindarlarının islamın müqəddəs yerlərini ziyarət etmələri üçün Naxçıvan-Məşhəd-Naxçıvan təyyarə reyslərinin açılmasına razılıq verilir. Bu məqsədlə uçuşlar Naxçıvan təyyarələri vasitəsilə həyata keçiriləcəkdir.

12. Naxçıvan-Bakı-Naxçıvan marşrutu ilə təyyarələrin İran İslam Respublikasının qısa hava koridorundan uçması xahişinə İran tərəfi prinsipial razılıq vermişdir. Bu məqsədlə bir ay müddətində "Azərbaycan Hava Yolları" Konserninin və İran İslam Respublikası "Hava peymayi" və "Hava peymayiye Keşvəri" şirkətləri mütəxəssislərinin danışıqlar aparması məqsədə müvafiq hesab edilsin.

13. Naxçıvan Muxtar Respublikasının xahişinə uyğun olaraq İran İslam Respublikasının neft və qaz sənayesi nazirliyi Naxçıvan Muxtar Respublikasının qaza olan tələbatını ödəmək məqsədi ilə Koy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikasına ildə 360 milyon kub.m (sutkada 1,0 milyon kub.m) qaz verir. Qaz İran-Naxçıvan sərhəd məntəqəsində təhvil verilir. Kəmərin tikintisi bir il müddətinə başa çatdırılır. Naxçıvan Muxtar Respublikasında qaz təsərrüfatı, qazın ötürülməsi, paylanması və istifadəçilərə verilməsi İranın Naxçıvanda yaradıcılıq şirkəti vasitəsi ilə həyata keçirilir. Verilən qaz İran İslam Respublikasının milli qaz şirkəti vasitəsilə istifadəçilərə satılır və qoyulan əsaslı vəsait çıxarılır. Tərəflər razılaşmışlar ki, iki tərəfin müvafiq şirkətlərinin nümayəndələri bir ay ərzində müqavilələr hazırlasınlar.

Naxçıvanın maye qaza olan ehtiyacını nəzərə alaraq İran İslam Respublikası Naxçıvana avqust ayından etibarən ayda 100 ton

maye qaz verir.

Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikasının neft və qaz sənayesi nazirliyi bu sənədin imzalandığı tarixdən etibarən bir ay müddətində öz dövlətlərinin müvafiq icazəsini almalıdır. Əks təqdirdə qaz kəmərinin icrası ləğv ediləcəkdir.

14. Naxçıvan tərəfi avtomobil yükdaşıma sahəsində yaranmış çətinliyi aradan qaldırmaq məqsədilə yüklərin İran İslam Respublikasının ərazisində Culfa-Xudafərin qısa yolu ilə daşınmasını xahiş etmişdir. Həmin yol hazırda tikilir və təmir olunur. Yolun bir hissəsinə asfalt örtük salınmış, istismara təhvil veriləcəkdir. Qalan hissəsi isə tikilməklə bərabər istifadə oluna bilər. Tərəflər razılığa gəlmişlər ki, hər iki tərəfin ekspertləri birlikdə 1992-ci il avqust ayının axırınadək istifadə etmək üçün yolun vəziyyətini yoxlayacaqlar. Yoldan istifadə edilməsi üçün hər iki tərəf lazımi tədbirlər görəcəklər.

15. Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq və yanacaq ehtiyatlarını ödəmək məqsədilə İran İslam Respublikası öz razılığını bildirmişdir ki, aşağıda göstərilən ərzaq və yanacaq məhsullarını Culfa sərhəd məntəqəsində 9 (doqquz) ay ərzində təhvil verəcəkdir. Bunun müqabilində Azərbaycan Respublikası İran İslam Respublikasına müxtəlif mallar verəcəkdir. Buna aid məsələlər və onun icrası İran-Azərbaycan iqtisadi-mədəni əlaqələr komissiyasında öz əksini tapacaqdır.

avtobenzin -	15,0 min ton
dizel yanacağı -	30,0 min ton
mazut -	50,0 min ton
daş kömür -	90,0 min ton
ağ neft -	1,0 min ton
şəkər tozu -	5,0 min ton
bitki yağı -	1,8 min ton
makaron -	1,5 min ton
soğan -	15,0 min ton
un -	25,0 min ton

16. Hər iki tərəf razılaşdılar ki, Naxçıvan Muxtar Respublikası "Real" informasiya agentliyi ilə İran İslam Respublikasının "İRNA" informasiya şirkəti bir-biri ilə əməkdaşlıq müqaviləsi imzalasınlar. Tərəflər öz ərazilərində şirkətin müxbir məntəqələrini yaradır və onlara mübadilə yolu ilə yer ayırır.

Protokol 24 avqust 1992-ci il Hicriyə şəmsi tarixi ilə 1371-ci il şəhrivər ayının 2-də 16 maddədən ibarət olmaqla Tehran şəhərində Azərbaycan və fars dillərində iki nüsxədə imzalanmış və imzalandığı tarixdən etibarlıdır.

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası tərəfindən Ali Məclisin Sədri
HEYDƏR ƏLİYEV

İran İslam Respublikası tərəfindən Xarici İşlər Naziri
ƏLİ ƏKBƏR VİLAYƏTİ

AZƏRBAYCAN RESPUBLİKASININ NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASI "BONYADE MOSTEZƏFAN VƏ CANBAZANE ENQELABE ESLAMİ" ARASINDA İQTİSADİ, TİCARƏT VƏ DİGƏR ƏLAQƏLƏRİN YARADILMASI HAQQINDA ƏMƏKDAŞLIQ PROTOKOLU

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Heydər Əliyev və İran İslam Respublikası "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust hicriyə şəmsi tarixi ilə 1371-ci ilin şəhrivar ayının 1-də, miladi tarixi ilə 1992-ci il 23 avqustda Tehran şəhərində görüşmüş, danışıqlar aparmış və tərəflər qarşılıqlı siyasi və iqtisadi qurumlara hörmət prinsiplərini əsas tutaraq iki tərəf arasında iqtisadi, ticarət, mədəni və digər əlaqələri inkişaf etdirmək məqsədilə aşağıdakı razılığa gəlmişlər:

1. Birinci tərəf - "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" Naxçıvanda İranın və başqa xarici dövlətlərin şirkətləri, konsernləri, ticarət əlaqələri yaradılmasına çalışacaq və muxtar respublikada xarici ticarəti genişləndirəcəkdir.

2. Birinci tərəf - icraçı Naxçıvan Muxtar Respublikasında nəzərdə tutulan aşağıdakı layihələri tərəf müqabilinə təqdim edir:

a) Naxçıvanda öz vəsaiti hesabına məscid tikmək;

b) Babək rayonunun Çeşməbasar kəndi yaxınlığında illik gücü 65 milyon ədəd olan kərpic zavodu tikmək;

v) Babək rayonu ərazisində fəaliyyət göstərən kərpic zavodunun texnoloji avadanlığını dəyişib illik gücü ildə 20 milyon ədəd kərpicə çatdırmaq;

q) Alt trikotaj fabrikinə ildə 3 min ton iplik və 3,0 milyon metr rezin vermək;

d) Culfa karbon qazı bazasında gücü saatda 12,0 min butulka olan "Nüşabə" ("Pepsi-Kola") zavodu tikmək;

e) Şərur konserv zavodunda gücü saatda 2,0 min paket olan meyvə şirəsi buraxan xətt quraşdırmaq;

j) Badamlı mineral suları zavodu bazasında illik gücü 25,0 milyon butulka olan yeni xətt quraşdırmaq və tutumu 0,5-1,0 litrlik plastik qab istehsal edən sex quraşdırmaq;

z) Naxçıvanda həna sexi tikmək, bu sex üçün xammal (İkinci tərəf) Naxçıvan Muxtar Respublikası tərəfindən təmin ediləcəkdir;

i) "İkinci tərəf" Naxçıvanda

"Birinci tərəfin" istifadəsinə münasib hazır bina və torpaq sahəsi ayırır. Ayrılmış torpaq sahəsində tikinti-quraşdırma işləri "Birinci tərəf" tərəfindən aparılır.

Yuxarıda qeyd olunanların icrasını təmin etmək üçün "Birinci tərəf" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti ilə mütəxəssislərin iştirakı ilə müqavilələr bağlayır.

"İkinci tərəf" "Birinci tərəfin" göstərilən maddələr üzrə əsaslı vəsait qoyuluşuna tam təminat verir.

Bu protokol Hicriyə şəmsi tarixi ilə 1371-ci il şəhrivar ayının 2-də, miladi tarixi ilə 1992-ci il 24 avqust tarixlərdə Tehran şəhərində iki nüsxədən ibarət Azərbaycan və fars dillərində imzalanmış və hər ikisi eyni qüvvəyə malikdir.

Azərbaycan Respublikasının
Naxçıvan Muxtar Respublikası
tərəfindən Ali Məclisin Sədri
HEYDƏR ƏLİYEV

İran İslam Respublikası "Bonyade Mostezəfan və Canbaze Enqelabe Eslami"
tərəfindən fondun prezidenti
MÖHSEN RƏFİQDUST

AZƏRBAYCAN RESPUBLİKASININ NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASININ ŞƏRQİ AZƏRBAYCAN OSTANDARLIĞI ARASINDA İMZALANMIŞ PROTOKOL

ALLAHIN ADI İLƏ

İki ölkə arasında bağlanan əvvəlki müqavilələr nəzərə alınmaqla bu protokol Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və Şərqi Azərbaycan ostandarı Əli Əbdüləlizadə arasında Təbriz şəhərində aşağıdakı kimi tərtib edildi:

1. Qərara alındı ki, Şərqi Azərbaycan ostandarlığı tərəfindən Naxçıvan Muxtar Respublikasına hər tonu 160 dollardan 1500 ton toxumluq kartof verilsin.

2. Qərar verildi ki, Şərqi Azərbaycan ostandarlığı tərəfindən Naxçıvan Respublikasına hər tonu 135 dollardan 500 ton toxumluq arpa verilsin.

3. Kənd təsərrüfatı işlərinin aparılması məqsədi ilə Naxçıvan Muxtar Respublikasına hər cütü 100 dollar məbləğində 12 voltluq 400 ədəd (200 cüt) akkumulyator verilsin.

4. Tərəflər belə razılığa gəldilər ki, kənd təsərrüfatı işçiləri ilə görüşmək, bitkilərə qulluq və əkin vərdişlərini öyrətmək, yaz əkini keçirilən yerlərə baxmaq üçün Şərqi Azərbaycan vilayətinin kənd təsərrüfatı mütəxəssisləri Naxçıvan Muxtar Respublikasına göndərilsinlər.

5. Buna qərar verildi ki, aprel ayının əvvəlində Naxçıvana 10 min ton bitum göndərilsin.

6. Razılaşdırıldı ki, Naxçıvan Muxtar Respublikasının enerji təminatını yaxşılaşdırmaq məqsədi ilə İran İslam Respublikası tərəfindən bundan sonra əvvəlki kimi 40 meqavatt elektrik enerjisi müntəzəm veriləcək və Araz su-elektrik stansiyasındakı bloklardan birinin təmiri zamanı azalan enerjinin əvəzinə Naxçıvana 10 meqavatt elektrik enerjisi ötürüləcədir.

7. Tərəflər razılaşdılar ki, həmin protokolun 1, 2 və 3-cü maddələrinin tələblərinə uyğun olaraq 327 min 500 dollar məbləğində mal göndərilməsi barədə öhdəliyə və elektrik enerjisinin irəlicədən Azərbaycan Respublikası ilə razılaşdırılmış qiymətinə əsasən Azərbaycan tərəfi İrana hər tonu 170 dollardan dizel yanacağı verəcəkdir.

8. Bu protokol imzalanandan ən geci 15 gün sonra Azərbaycan Respublikasının nümayəndəsi protokolun 7-ci maddəsinin tələblərinə əməl olunacağı barədə Şərqi Azərbaycan ostandarlığına yazılı təminat verir.

Protokol miladi tarixi ilə 18 mart 1993-cü il, hicri-şəmsi tarixi ilə 27 isfənd 1371-ci ildə Təbriz şəhərində Azərbaycan və fars dillərində 2 nüsxədə imzalanıb və hər nüsxəsi eyni qüvvəyə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali
Məclisinin Sədri
Heydər Əliyev

Şərqi Azərbaycanın ostandarı
Əli Əbdüləlizadə

AZƏRBAYCAN RESPUBLİKASININ NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASININ QƏRBİ AZƏRBAYCAN OSTANDARLIĞI ARASINDA İMZALANMIŞ PROTOKOL

ALLAHIN ADI İLƏ

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyevlə İran İslam Respublikasının Xarici İşlər, naziri cənab Əli Əkbər Vilayəti arasında 24 avqust 1992-ci il tarixdə Tehran şəhərində imzalanmış protokolun, Azərbaycan-İran Müştərək İqtisadi Komissiyasının qəbul etdiyi qərarların icrası ilə əlaqədar İran İslam Respublikasının Qərbi Azərbaycan ostandarı, cənab Qurbanəli Səadətin rəhbərliyi ilə ostandarlığın ali rütbəli şəxsləri Ali Məclisin rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasına dəvət olunmuş və Ali Məclisdə onlarla görüş keçirilmişdir.

Görüş dostluq və qardaşlıq şəraitində keçmiş, ağayi Səadətin rəhbərliyi ilə Naxçıvana gəlmiş yüksək rütbəli nümayəndə heyətinin üzvləri ilə Naxçıvan Muxtar Respublikasının nazirlikləri və baş idarələrinin rəhbərliyi arasında fikir mübadiləsi keçirilmişdir.

Görüşlər muxtar respublikanın Babək və Şərur rayonlarında davam etdirilmişdir. Görüşlər zamanı Naxçıvan tərəfi İran İslam Respublikasına muxtar respublikaya 2 il müddətinə humanitar yardım, ərzaq, yanacaq alınması və qaçqınlar üçün zəruri məişət ehtiyaclarının təmin edilməsi məqsədi ilə 1 milyon Amerika dolları məbləğində yardım etdikləri üçün dərin təşəkkür və minnətdarlığını bildirmişdir.

Həmçinin İran nümayəndə heyəti danışıqları Bakıda - Azərbaycan Respublikasının rəhbərləri - Baş nazir, onun birinci müavini, ticarət naziri, gömrük komitəsinin sədri, sərhəd qoşunlarının rəisi və xarici əlaqələr nazirinin müavini ilə davam etdirmişdir.

Bu görüşlərdə Qərbi Azərbaycanın ostandarlığı ilə Naxçıvan Muxtar Respublikası arasında Poldəşt və Şahtaxtı məntəqələrində müştərək bazarın fəaliyyətinin gücləndirilməsi, Şahtaxtı-Poldəşt keçid məntəqəsində gediş-gəlişin təmin olunması üçün şərait yaradılması məqsədə müvafiq hesab edilmişdir.

Tərəflər, iqtisadiyyat, səhiyyə, mədəniyyət, ticarət və təhsil sahələri üzrə aşağıda qeyd olunanları yerinə yetirməyi öz öhdələrinə götürdülər.

1. İran tərəfi Naxçıvan Muxtar Respublikası ərazisində erməni təcavüzü zamanı yaralananları müalicə etmək məqsədi ilə hər dəfə 10 nəfər yaralının Qərbi Azərbaycan ostandarlığında müalicə üçün qəbul edilməsini, döyüşlər zamanı şikəst olmuş vətəndaşlara protez qoyulmasını və əlillər üçün 10 ədəd araba (vilçer) verməyi öhdəsinə götürür.

2. Naxçıvan Muxtar Respublikasının təklifinə əsasən İran İslam Respublikasının Qərbi Azərbaycan ostandarlığı Naxçıvan şəhərindəki Cameə məscidi nəzdində mədrəsənin tikilib başa çatdırılmasını, tikintisinə başlamış məscidlərin tamamlanmasını öz öhdəsinə götürür.

3. Mədəni əlaqələrin genişləndirilməsi və daha da möhkəmləndirilməsi məqsədilə Urmiyyə şəhərində Naxçıvan günləri, Naxçıvan Muxtar Respublikasında Urmiyyə günləri keçirmək qərara alınır.

4. İran tərəfi muxtar respublika radio-televiziya şirkəti ilə İran televiziya şirkətinin birgə əməkdaşlığını daha da genişləndirmək məqsədilə 1 komplekt Trans-koder və VEÇS video kassetləri verməsini öz öhdəsinə götürür.

5. İran tərəfi muxtar respublikada fars dili fənninin tədrisi və fars dili təmayüllü məktəblərə kitab və digər dərs ləvazimatları verməyi, müəllimlərlə təmin etməyi, fars dili tədris olunan sinif otaqlarının təchizini öz öhdəsinə götürür.

6. İran tərəfi səhiyyə xidməti sahəsində əlaqələri genişləndirmək, muxtar respublikanın səhiyyəsində ehtiyac olan dərman preparatları, digər tibb ləvazimatı, uşaq xəstəxanalarının dərman və quru südlə təmini, Naxçıvan şəhərində bronxial astmalı xəstələrin müalicəsi üçün ayrılmış xəstəxana binasının təmirini və avadanlıqla təchizini öhdəsinə götürür.

- bu bəndin icrası ilə əlaqədar Qərbi Azərbaycanın Ostandarlığı yaxın müddətdə Naxçıvan Muxtar Respublikasına həkim nümayəndələri göndərəcək.

7. İran tərəfi il ərzində öz hesabına Naxçıvan Muxtar Respublikasından 300 nəfərin Məşhədə ziyarətə getməsini, sahibsiz və kimsəsiz adamların bir qismində ərzaq yardımı göstərilməsini öhdəsinə götürür.

8. İran tərəfi Naxçıvan Muxtar Respublikasının şəhid ailələrinin üzvlərinin İranın bir sıra şəhərlərinə ziyarətə və səyahətə getməsini öz öhdəsinə götürür.

9. İran tərəfi Babək və Şərur rayonlarında sosial problemlərin həlli məqsədilə çörək məmulatı və sair ticarət malları satmağına hazır olduğunu bildirir.

10. Naxçıvan tərəfi öhdəsinə götürür ki, yuxarıda qeyd olunan bəndlərin icrası üçün lazım olan bütün şəraiti yaratın.

Bu müqavilə hicreyi-şəms tarixi ilə 1372-ci ilin ikinci ayının 23-də, miladi tarixi ilə 1993-cü il may ayının 13-də Naxçıvan şəhərində iki nüsxədən ibarət Azərbaycan və fars dillərində imzalanmışdır və hər ikisi eyni qüvvəyə malikdir.

Azərbaycan Respublikasının
Naxçıvan Muxtar Respublikası
adından
Ali Məclisin Sədri
HEYDƏR ƏLİYEV

İran İslam Respublikası adından Qərbi Azərbaycan ostandarı
QURBANƏLİ SƏADƏT

faksimilə surəti

Азәрбајҹан Республикасынын Нахчыван Мухтар Республикасы илә Ислам Республикасы арасында мүхтәлиф саһәләрдә әмәкдашлыг һаггында

П Р О Т О К О Л

16 маддәдән ибарәт олмагла Теһран шәһәриндә азәрбајҹан вә фарс дилләриндә ики нүсхәдә имзаланмыш , вә имзаландыгы тарихдән етибарлыдыр.

АЗӘРБАЈҸАН РЕСПУБЛИКАСЫНЫН НАХЧЫВАН МУХТАР РЕСПУБЛИКАСЫ ТӘРӘФИНДӘН

АЛИ МӘҶЛИСИН СӘДРИ

ҺЕЈДӘР ӘЛИЈЕВ

ИРАН ИСЛАМ РЕСПУБЛИКАСЫ ТӘРӘФИНДӘН

ХАРИҶИ ИШЛӘР НАЗИРИ

ӘЛИӘКБӘР ВЕЛАЈӘТИ

faksimilə surəti

Нахчыван Мухтар Республикасы
Нахичеванская Автономная Республика

АЛИ МӘҶЛИСИНИН РӘЈАСӘТ ҺЕЈ'ӘТИ

ПРЕЗИДИУМ ВЕРХОВНОГО МЕДЖЛИСА

جمهوری اسلامی ایران، شهر تهران
بجدیت آقای محترم علی اکبر حاشمی
رفسنجانی - رئیس جمهور

بر اساس اطلاعات رادیوی تهران شما در تاریخ ۱۴ اکتبر سال ۱۹۹۱ وقتیکه از ولایت جمهوری ایران با جمهوری آذربایجان دیدن میکردید، در خطاب بخودتان اظهار به ساختن روابط عادلانه با جامعه اسلامی شوروی و بشکل ترین به مردی که تازه از مشکوره کمونیسم نجات پیدا کرده اند، نموده اید.

رهبری جمهوری خودمختار نخجوان این اظهار شما را تحسین میکنید و حساب میتواید که پل دیوار عالی برای شروع مذاکرات مسائل سیاسی و اقتصادی با شما ضروریست.

حقوق تاسیس وقت و مکان دیدار به اختیار شما واگذار میشود.

صدر مجلس عالی جمهوری خودمختار
نخجوان: حیدر علی رضا اوغلو علییوف

Cənab Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali məclisinin sədri olarkən Naxçıvanı blokadadan qurtarmaq və İranla əlaqələr yaratmaq üçün İranın Prezidenti Haşimi Rəfsəncaniyə göndərdiyi ilk məktubun surəti

AZƏRBAYCAN RESPUBLİKASI VƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA İMZALANMIŞ SƏNƏDLƏRİN SİYAHISI

1. Ticarət əlaqələri, sənaye-kənd təsərrüfatı sahələrində əməkdaşlığın genişləndirilməsi haqda Memorandum. 06.10.89, Bakı. Preambula və 4 maddədən ibarət olmaqla, iki ölkə arasında ticarət, sənaye və kənd təsərrüfatı sahələrində əməkdaşlıq haqqındadır.

İzah: Bu Memorandum 1989-cu ildə SSRİ ilə İİR arasında Azərbaycanın müstəqilliyindən əvvəl imzalanmışdır.

2. Siyasi, elmi və mədəni sahələrdə əməkdaşlığın prinsipləri haqqında Bəyanat. 03.12.91. Bakı. Preambula və 20 maddədən ibarət olmaqla, iki ölkə arasında ticarət, elm, mədəniyyət, texnika və sənaye sahələrində əməkdaşlıq haqqındadır.

3. Ticarət sahəsində əməkdaşlıq Memorandumu. 01.06.91, Bakı. Preambula və 4 maddədən ibarət olmaqla, iki ölkə arasında kənd təsərrüfatı, turizm, mədəniyyət, əyləncə mərkəzləri, sənaye və ticarət sahələrində əməkdaşlıq haqqındadır.

4. Energetika sahəsində əməkdaşlıq Memorandumu. 11.06.91, Bakı. Preambula və 23 maddədən ibarət olmaqla, iki ölkə arasında enerci, qaz və s. sahələrdə əməkdaşlıq haqqındadır.

5. Mətbuat və KİV-də əməkdaşlıq haqqında Memorandumu. 12.02.92, Tehran. Preambula və 12 maddədən ibarət olmaqla, iki ölkə arasında mətbuat, təcrübə mübadiləsi sahələrində əməkdaşlıq haqqındadır.

6. Mədəni əməkdaşlıq Memorandumu. 02.03.92, Tehran. Preambula və 10 maddədən ibarətdir.

7. İran İslam Respublikasının Azərbaycan və Ermənistan arasında vasitəçiliyi haqda Tehran Bəyanatı. 15.03.92, Tehran. Preambula və 7 maddədən ibarətdir.

8. Avtomobil daşımaları sahəsində əməkdaşlıq Memorandumu. 18.04.92, Tehran. Preambula və 5 maddədən ibarətdir.

9. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlar əsasında vətəndaşların qarşılıqlı surətdə viza almaqdan azad edilməsi haqqında Memorandum. 20 aprel 1992-ci il.

11. Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında konsulluq məsələləri üzrə əməkdaşlıq haqqında Memorandum. 20 aprel 1992-ci il. Preambula və 12 maddədən ibarətdir.

12. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq, əməkdaşlıq, mehriban qonşuluq barədə Birgə Kommunike. Tehran, 7 may 1992-ci il.

13. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və İran İslam Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq barəsində Protokol. Tehran, 19 avqust 1992-ci il. Preambula və 120 maddədən ibarət olmaqla, iki ölkə arasında siyasi, iş birliyi, Azərbaycan Respublikasının Tehranda Səfirliyinin, İran İslam Respublikasının Naxçıvanda və Azərbaycan Respublikasının Təbrizdə Baş Konsulluqlarının açılması sahələrində əməkdaşlıq haqqındadır.

14. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında Protokol. 24.08.92. Tehran. Preambula və 16 maddədən ibarətdir.

15. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası "Bonyade Mostezəfan və Canbazane Enqelabi Eslami" fondu arasında iqtisadi, ticarət və digər əlaqələrin yaradılması haqqında əməkdaşlıq Protokolu. 24.08.92. Tehran. Preambula və 2 maddədən ibarətdir.

16. Birgə Komissiyanın yaradılması Deklarasiyası. 20.11.92. Bakı. Preambula və 6 maddədən ibarət olmaqla, iki ölkə arasında birgə iqtisadi, elmi və mədəni sahələrdə əməkdaşlıq komissiyasının yaradılması haqqındadır.

17. Birgə iqtisadi, texniki, elmi və mədəni əməkdaşlıq Komissiyasının 1-ci iclasının Protokolu. 20.11.92, Bakı. Preambula və 10 maddədən ibarət olmaqla, iki ölkə arasında nəqliyyat, rabitə, kənd təsərrüfatı, balıqçılıq, sənaye, neft-qaz, bank işləri, ticarət, iqtisadiyyat və mədəniyyət sahələrində əməkdaşlıq haqqındadır.

18. Vizaların ləğvi haqqında Memorandum. 20.11.92, Bakı. Preambula və 6 maddədən ibarət olmaqla, iki ölkə arasında diplomatik və xidmət pasport sahiblərinə vizanın ləğvi sahəsində əməkdaşlıq haqqındadır.

19. Səhiyyə və müalicə sahəsində Memorandum. 29.12.92, Tehran. Preambula və 14 maddədən ibarət olmaqla, iki ölkə arasında səhiyyə və müalicə sahələrində əməkdaşlıq haqqındadır.

20. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan ostandarlığı arasında imzalanmış Protokol. 18.03.93. Tehran. Protokol 8 maddədən ibarətdir.

21. İran İslam Respublikası əmək və sosial işlər nazirliyi ilə Azərbaycan Respublikasının əmək və sosial işlər nazirliyi arasında Memorandum. 24.04.93, Tehran. Preambula və 10 maddədən ibarət olmaqla, iki ölkə arasında ekspert mübadiləsi, iş yerlərinin yaradılması və beynəlxalq qurumlarda əməkdaşlıq haqqındadır.

22. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Qərbi Azərbaycan ostandarlığı arasında imzalanmış Protokol. 13.05.93. Naxçıvan. Protokol 10 maddədən ibarətdir.

23. Nəqliyyat sahəsində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında Memorandum. 28.07.1993, Bakı. Preambula və 5 maddədən ibarətdir.

24. Azərbaycan Respubliksı Hökuməti ilə İran İslam Respublikası Hökuməti ara-

sında beynəlxalq daşımalar haqqında Saziş. Bakı, 27.07.1993. Preambula və 13 maddədən ibarət olmaqla, iki ölkə arasında beynəlxalq avtomobil, sərnişin, məhsul tranziti, vergilər, gömrük rüsumu və rəsmiləşdirmə qaydaları haqqındadır.

Fevral, 2000-ci ildən qüvvədən düşmüşdür.

25. Dostluq və mehriban qonşuluq əməkdaşlıqları haqqında Birgə Bəyanat. 03.08.93, Tehran. Preambula və 26 maddədən ibarət olmaqla, iki ölkə arasında bütün sahələr üzrə əməkdaşlıq haqqındadır.

26. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən, Ali Sovetin Sədri Heydər Əliyevin dəvətilə İran İslam Respublikasının Xarici İşlər Naziri cənab d-r Əli Əkbər Vilayətinin səfəri ilə əlaqədar Memorandum. 18.08 1993, Bakı.

27. Humanitar yardım sahəsində Anlaşma. 06.09.93, Bakı. Preambula və 7 maddədən ibarət olmaqla, İİR-in Azərbaycan Respublikası qaçqınlarına humanitar yardımları haqqındadır.

28. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında Memorandum. 28.10.1993, Bakı. Preambula və 22 maddədən ibarətdir.

29. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında siyasi məsləhətləşmələr haqqında Protokol. 28.10.1993, Bakı. Preambula və 7 maddədən ibarətdir.

30. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iki ölkə vətəndaşlarının adi xarici pasportlarla gediş-gəlişini asanlaşdırmağa dair Memorandum. 28.10.1993, Bakı.

31. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında tranzit barədə Saziş. 28.10.1993, Bakı.

32. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlıq haqqında qarşılıqlı anlaşma Protokolu. 28.10.1993, Bakı. Preambula və 4 maddədən ibarətdir.

33. Azərbaycan Respublikası Elmlər Akademiyası ilə İran İslam Respublikası Mədəniyyət Mərkəzi arasında elmi əməkdaşlıq haqqında Saziş. 28 oktyabr 1993-cü il tarixində Bakı şəhərində imzalanmışdır. Preambula və 15 maddədən ibarətdir.

34. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və İran İslam Respublikası Sənaye Nazirliyi arasında əməkdaşlıq haqqında Niyyət Protokolu. Bakı, 28.10.1993. Preambula və 10 maddədən ibarətdir.

35. Azərbaycan Respublikası ticarət nazirliyi ilə İran İslam Respublikası ticarət nazirliyi arasında ticarət əməkdaşlığı haqqında Müqavilə. 28.10.1993, Bakı. Preambula və 16 maddədən ibarət olmaqla, iki ölkə arasında ticarət sahəsində əməkdaşlıq haqqındadır.

36. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında qarşılıqlı ticarət haqqında Saziş. 28.10.1993, Bakı.

37. Azərbaycan Respublikası iqtisadiyyat nazirliyi ilə İran İslam Respublikası iqtisadiyyat və maliyyə nazirliyi arasında

iqtisadi əməkdaşlıq haqqında Niyyət Protokolu. 28.10.1993, Bakı. Preambula və 3 maddədən ibarətdir.

38. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında nəqliyyat sahəsində qarşılıqlı anlaşma Memorandumu. 28,10.1993, Bakı. Preambula və 3 maddədən ibarətdi

39. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında elm, maarif və iqtisadiyyat sahəsində əməkdaşlığa dair Saziş (Naxçıvan bölqəsinə dair). 28.10.1993, Bakı.

40. Azərbaycan Respublikasının Milli Bankı ilə İran İslam Respublikası Mərkəzi Bankı arasında bank ödənişi Sazişi. 28.10.1993, Bakı. Preambula və 15 maddədən ibarətdir.

41. Ticarət Memorandumu. 07.11.93, Bakı. Preambula və 10 maddədən ibarət olmaqla, iki ölkə arasında ticarət, kommersiya və məhsul mübadiləsinin sadələşdirilməsi sahələrində əməkdaşlıq haqqındadır.

42. Birgə Sərhəd Komissiyasının yaradılması haqqında Memorandum. 02.07.94, Tehran, Preambula və 7 maddədən ibarətdir.

43. İrandan Naxçıvana təbii qaz ixracı haqqında Memorandum. 02.07.94, Tehran. Preambula və 3 maddədən ibarətdir.

44. Radio-televiziya sahələrində əməkdaşlıq haqqında Memorandum. 02.07.94, Tehran. Preambula və 11 maddədən ibarətdir.

45. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq münasibətlərinin inkişafı haqqında Bəyanat. 2.07.1994,Tehran. Preambula və 13 maddədən ibarətdir.

46. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq haqqında Protokol. 2.07.1994, Tehran.

1996-cı ildən qüvvədən düşmüşdür.

47. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hidro və elektroenergetika sahələri üzrə əməkdaşlıq haqqında Memorandum.2.07.1994, Tehran.

48. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş.2.07.1994, Tehran.

Preambula və 12 maddədən ibarətdir.

49. Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ilə İran İslam Respublikası "Səda və Sima" Dövlət Televiziya və Radio Verilişləri İdarəsi arasında əməkdaşlıq haqqında Saziş, Tehran, 2 iyul 1994 cu il.

50. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında sərhəd məsələləri üzrə Müştərək Komissiyanın yaradılması haqqında Memorandum. Tehran, 2 iyul 1994 cu il.

51. İran İslam Respublikası və Azərbaycan Respublikasının uçuşa nəzarətə rəhbər şəxsləri arasında Memorandum. 26.10.94, Tehran. Preambula və 10 maddədən ibarətdir.

52. Mətbuat üçün Birgə Bəyanat. 09.12.94, Bakı. Bəyanatda ikitərəfli əməkdaşlığın genişləndirilməsi, iki ölkənin icra orqanlarının bütün sazişlərin həyata keçirilməsinə dəstək göstərməsi, parlamentlər arası əməkdaşlığın genişləndirilməsi vurğulanmışdır.

53. Tərəflər arasında mübadilə oluna biləcək məhsulluran siyahısının hazırlanması haqqında Memorandum. 09.12.94,Bakı. Preambula və 4 maddədən ibarətdir.

54. Azərbaycan Respublikası Dövləti və İran İslam Respublikası Dövləti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş. 9.12.1994, Bakı.

55. Sənaye sahəsində əməkdaşlıq haqqında Memorandum. 10.12.94, Bakı. Preambula və 7 maddədən ibarət olmaqla, iki ölkə arasında sənaye sahəsində əməkdaşlığı, İran traktorqayırma şirkəti ilə Azərbaycan xüsusi maşınqayırma komitəsinin birgə şirkət yaratmaları, Azərbaycana avtobus və mikroavtobus hissələrinin ixracı, Naxçıvan MR-də sement zavodunun inşası barəsindədir.

56. İran İslam Respublikası ilə Azərbaycan Respublikasına bağlı Naxçıvan Muxtar Respublikası arasında ikitərəfli əməkdaşlığın genişləndirilməsi ilə bağlı razılıq Protokolu. 8.06.96. Tehran. 14 maddədən ibarətdir.

57. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əməkdaşlıq Protokolu. 08.07.96. Tehran. Protokol 8 maddədən ibarətdir.

58. Gömrük Memorandumu. 09.03.95, Tehran.

59. Gömrük Anlaşması. 19.07.96. Preambula və 12 maddədən ibarətdir.

60. Azərbaycan Respublikası və İran İslam Respublikası daxili işlər nazirlikləri arasında əməkdaşlıq haqqında Protokol. 30.07.96, Tehran.

61. Azərbaycan Respublikası daxili işlər nazirliyi və İran İslam Respublikasının daxili işlər nazirliyi arasında narkotik və psixotrop maddələrin qaçaqçılığına qarşı mübarizə haqqında Niyyət Potokolu. 30.07.96, Tehran.

62. Birgə iqtisadi-texniki, elmi-mədəni Əməkdaşlıq Komissiyasının 2-ci iclasının Protokolu. 07.10.96, Tehran. Preambula və 11 maddədən ibarət olmaqla, iki ölkə arasında avtomobil, hava, dəmiryolu, dəniz daşımaları, energetika, neft-qaz, kommersiya və bank, kənd təsərrüfatı və balıqçılıq, sənaye və mədəniyyət, rabitə sahəsində əməkdaşlıq haqqındadır.

63. Humanitar yardım haqqında Memorandum. 07.10.96, Tehran. İran İslam Respublikasının Azərbaycan Respublikasına humanitar yardımları haqqındadır.

64. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş. 28.10.1996, Bakı.

65. Azərbaycan Respublikası Azərbalıq Konsernilə İİR Balıqçılıq Təsərrüfatı arasında əməkdaşlıq Müqaviləsi. 03.11.1996,

Bakı. Ana nərə balıqlarının mübadiləsi haqqındadır.

66. Mədəni əməkdaşlıq haqqında Memorandum. 12.12.96, Bakı. Preambula və 16 maddə və 1 əlavədən ibarət olmaqla, iki ölkə arasında mədəni əməkdaşlıq haqqındadır.

67. Ərdəbil Ostandarlığı ilə Azərbaycan Respublikasının ticarət nazirliyi arasında birgə sərhəd bazarlarının yaradılması haqqında Memorandum. 07.05.97, Bakı, Preambula və 3 maddədən ibarət olmaqla, iki ölkə arasında Xudafərin su bəndi, Gərmi şəhristanı Azadlıq bölgəsi və Parsabad rayonlarında sərhəd bazarlarının yaradılması barəsindədir.

68. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında kənd təsərrüfatı haqqında Memorandum. 29.05.97, Bakı, Preambula və 5 maddədən ibarət olmaqla, iki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq və Gilan ostanından kənd təsərrüfatı məhsullarının ixracı və çay istehsalı üzrə əməkdaşlıq haqqındadır.

69. Avtomobil daşımaları sahəsində əməkdaşlıq haqqında Memorandum. 03.08.97, Bakı. Preambula və 10 maddədən ibarət olmaqla, iki ölkə arasında avtomobil daşımları sahəsində əməkdaşlığa aiddir.

70. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında üçüncü Birgə Komissiyanın iqtisadi-texniki, elmi və mədəni sahələrdə əməkdaşlığı haqqında Saziş. 20.11.1997, Bakı. Birgə iqtisadi, texniki, elmi, mədəni Əməkdaşlıq Komissiyasının 2-ci iclasında imzalanmışdır.

71. Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əməkdaşlığın genişlənməsi haqqında Memorandum. 21.11.1997, Naxçıvan.

72. İslam Şurası Məclisi və Azərbaycan Respublikası Milli Məclisi arasında əməkdaşlıq Memorandumu. 28.12.1997. Preambula və 8 maddədən ibarət olmaqla, iki ölkə arasında parlamentlərarası əməkdaşlıq, parlament dostluq qruplarının yaradılması, qanunvericilikdə təcrübə mübadiləsi və parlament nümayəndə heyətlərinin mübadiləsi barəsindədir.

73. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında təslim etmə haqqında Müqavilə. 21.02.1998.

74. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında Müqavilə. 21.02.1998.

75. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hüquqi yardım haqqında Müqavilə. 21.02.1998.

76. Naxçıvan Muxtar Respublikası ilə Şərqi Azərbaycan vilayəti arasında iqtisadiyyat, elm, mədəniyyət və idman sahəsində əməkdaşlıq haqqında Saziş. Təbriz, avqust 1998-ci il.

77. Şərqi Azərbaycan ostandarlığı ilə Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlıq Protokolu. 18.08.98. Təbriz. Protokol 11 maddədən ibarətdir.

78. Birgə iqtisadi, texniki, elmi, mədəni Əməkdaşlıqlar Komissiyasının 3-cü

iclasının Protokolu. 07.10.1999, Tehran.

79. İİR kənd təsərrüfatı nazirliyi və Azərbaycan Respublikası kənd təsərrüfatı nazirliyi arasında əməkdaşlıq Sazişi. 18.10.1999, Bakı.

80. İİR Gömrüyü ilə Azərbayan Respublikası Dövlət Gömrük Komitəsi arasında əməkdaşlıq Memorandumu. 28.10.1999, Bakı.

81. Azərbaycan Respublikası, Gürcüstan, İran İslam Respublikası və AIO-nin Narkotiklərə Beynəlxalq Nəzarət üzrə Proqramı (BMT NBNP) arasında narkotiklərə nəzarət və qanunsuz əldə edilmiş pulların qanuniləşdirilməsinə qarşı fəaliyyət sahəsində əməkdaşlıq üzrə Qarşılıqlı Anlaşma Memorandumu. 5.07. 2000, Vyana.

Qarşılıqlı Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan daxili prosedurların başa çatdırılması haqqında diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin BMT NBNP tərəfindən alındığı gündən qüvvəyə minir.

82. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə İİR Baş Gömrük İdarəsi arasında anlaşma Memorandumu. Yanvar, 2001-ci il, Tehran,

83. Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurası ilə İİR Ali Təhlükəsizlik Şurası arasında əməkdaşlıq haqqında Memorandum. Bakı, iyul 2001-ci il.

84. Azərbaycan Respublikası milli təhlükəsizlik nazirliyi və İran İslam Respublikasının daxili işlər nazirliyi arasında sərhəd məsələləri, narkotik vasitələr, psixotrop və digər maddələrin qaçaqmalçılığına qarşı mübarizə sahəsində əməkdaşlıq Memorandumu. 22.01.2002, Bakı.

85. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında Müqavilə. 20.05.2002, Tehran.

86. Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında Saziş. 20.05.2002, Tehran.

87. Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş. 20.05.2002, Tehran.

88. Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş. 20.05.2002, Tehran.

89. Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu. 20.05.2002, Tehran.

90. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə İran İslam Respublikası Elm, Tədqiqat və Texnologiya Nazirliyi arasında təhsil, tədqiqat və texnologiya sahəsində əməkdaşlıq haqqında Memorandum. 20.05.2002, Tehran.

91. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə İran İslam Respublikası Bədən Tərbiyəsi Təşkilatı arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş.20.05.2002, Tehran.

92. Azərbaycan Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi ilə İran Stan ma və metrologiya sahəsində əməkdaşlığa dair Memorandum. 20.05.2002, Tehran.

93. Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında bitkilərin karantin xidməti sahəsində əməkdaşlıq haqqında Saziş. 20.05.2002, Tehran.

94. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikası Mədəniyyət və İslami İrşad Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Memorandum. 20.05.2002, Tehran.

MÜNDƏRİCAT

Ön söz (Dr. K.Xərrazi) 5
Planetar miqyaslı siyasətçi (N.Məmmədov) 7
Bütün varlığın yaradıcısının adı ilə (Ə.Qəzayi) 10
Azərbaycan - İran əlaqələri (A.Həsənov) 14
Azərbaycan Respublikası beynəlxalq əlaqələr sistemində 17
İran haqqında söz 29
Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında İran 47
Çıxışlar, müsahibələr və görüşlər 134
İranla münasibətlərinin qurulmasının Naxçıvan dövrü 134
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev
İranla əlaqələrimizi möhkəmlədir 178
İqtisadi əlaqələr 392
Mədəni, elmi və humanitar əlaqələr 402
Tarixi-siyasi xronika 412

Tarixi sənədlər
Гюлистанский договор 428
Туркменчайский договор 434
Телеграфное соглашение заключенное между
Азербайджанской Республикой (Кавказ)
и Персидской Империей 442
Соглашение об обмене почтовыми посылками между
Азербайджанской Республикой и Персидской Империей 445
Почтовое соглашение, заключенное между Азербайджанской
Республикой (Кавказ) и Персидской Империей 449
Торгово-таможенная конвенция заключения между
Азербайджанской Республики /Кавказ/ и Императорским
Празительством Персии 452
Договор о дружбе, заключенной между Азербайджанской
Республикой (Кавказ) и Персидской Империей 457
Тайное соглашение заключенное между Правительством
Азербайджанской Республики (Кавказ) и Императорским
Персидским Правительством 459
Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə
İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq
haqqında protokol 460

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə
İran İslam Respublikası "Bonyade Mostezəfan və
Canbazane Enqelabe Eslami" arasında iqtisadi, ticarət
və digər əlaqələrin yaradılması haqqında əməkdaşlıq protokolu 463
Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam
Respublikasının Şərqi Azərbaycan ostandarlığı arasında
imzalanmış protokol 465
Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə
İran İslam Respublikasının Qərbi Azərbaycan ostandarlığı
arasında imzalanmış protokol 466
Qərbi Azərbaycan ostandarı ağayi Qurbanəli Səadəti
cənablarına məktubun surəti 468
Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri
Heydər Əliyevin İranın Prezidenti Haşimi Rəfsəncaniyo
ilk məktubunun surəti 469
Azərbaycan Respublikası və İran İslam Respublikası
arasında imzalanmış sənədlərin siyahısı 470

Kitabda "AzərTAC"-ın , "Qayıdış. 1990-1993", "Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev" I cild və N.Cəfərovun "Heydər Əliyev" kitablarındakı materiallardan istifadə olunmuşdur.

"Şərq Araşdırmalar Mərkəzi"nin nəşri
№ 9

"HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ"
İKT DÖVLƏTLƏRİ
(şəkilli)

Naşiri	Hikmət HÜSEYNOV
Nəşriyyatın direktoru	Eldar ƏLİYEV
Mətbəənin direktoru	Səhraf MUSTAFAYEV
Fotoqraf	Rafiq BAĞIROV
Rəssamı	Firuzə SULTANZADƏ
Texniki redaktor	Fərid KƏRİMOV
Redaktor	Barat TALIBOV

Yığılmağa verilib 15.10.2004. Çapa imzalanıb 13.12.2005.
Formatı 70x100 1/16. Ş.ç.v. 30. Sifariş № 204.
Sayı 500 nüsxə. Qiyməti müqavilə ilə.

"Çaşıoğlu" mətbəəsi
Bakı, M.Müşfiq küç., 2a